AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT MƏCƏLLƏSİNİN KOMMENTARİYASI

jus commentarium

II HİSSƏ

CM-in 190-353-cü maddələrinin şərhi

HYE
HÜQUQ YAYIN EVİ

AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT MƏCƏLLƏSİNİN KOMMENTARİYASI

II HİSSƏ

CM-in 190–353-cü maddələrinin şərhi

Azərbaycan Respublikası Cinayət Məcəlləsinə edilmiş bütün əlavə və dəyişikliklər, məhkəmə təcrübəsi və ayrı-ayrı mütəxəssislərin tənqidi mülahizələri nəzərə alınmaqla yenidən işlənmiş təkrar nəşr

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin «Cinayət hüququ və kriminologiya» kafedrasının müdiri, hüquq elmləri doktoru, professor **Firudin Yusif oğlu Səməndərovun** redaktəsi ilə

Azərbaycan Milli Kitabxanası

«Hüquq Yayın Evi»
BAKI - 2018

Elmi redaktor: **Firudin Yusif oğlu Səməndərov,**
Azərbaycan Respublikasının əməkdar hüquqşünası,
hüquq elmləri doktoru, professor

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. II Hissə / Hüquq elmləri doktoru, professor **Firudin Yusif oğlu Səməndərovun** redaktəsi ilə. Bakı, 2018-ci il, 800 səh.

Kitab Azərbaycan Respublikasının 30 dekabr 1999-cu ildə təsdiq edilmiş və 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Cinayət Məcəlləsinin doktrinal şərhinin yenidən işlənmiş təkrar nəşridir. Təkrar nəşrdə Cinayət Məcəlləsinə 2018-ci ildə edilmiş əlavə və dəyişikliklər, keçən dövr ərzində toplanmış məhkəmə təcrübəsi, habelə oxucuların bir sıra tənqidi mülahizələri nəzərə alınmışdır. Kitab Respublikanın cinayət hüququ sahəsində tanınmış, görkəmli alimlərdən və bu sahədə təcrübəsi olan praktiki işçilərdən ibarət müəlliflər kollektivi tərəfindən yazılmışdır.

Müəlliflər kollektivi Cinayət Məcəlləsinin maddələrinin şərhini verərkən cinayət hüquq nəzəriyyəsinin elmi müddəalarına əsaslanmış, Respublikanın qüvvədə olan qanunvericilik materialından, istintaq və məhkəmə təcrübəsindən istifadə etmişdir.

Cinayət Məcəlləsinin Xüsusi hissəsinin 190-353-cü maddələrinin şərhini nəzərdə tutan kitabın 2-ci hissəsi hakimlər, prokurorlar, müstəntiqlər, vəkillər və başqa hüquq mühafizə orqanlarının işçiləri üçün tövsiyə edilir. Kitab cinayət hüququ sahəsində araşdırmalar aparan doktorantlar, cinayət hüququnun tədrisi sahəsində çalışan mütəxəssislər, habelə hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün dəyərli vəsait rolunu oynaya bilər.

© «Hüquq Yayın Evi», 2018

MÜƏLLİFLƏR KOLLEKTİVİ

1. **Səməndərov Firudin Yusif oğlu**, hüquq elmləri doktoru, professor — «Ön söz»; I, II, VI, VII, XI—XV, XVIII (B. C. Kərimov, Ə. H. Hüseynov və S.X. Aslanovla birlikdə); XXXIV (F. S. Manafovla birlikdə) fəsillər;
2. **Aslanov Seyfulla Xalıq oğlu**, hüquq üzrə fəlsəfə doktoru — X (M.D. Səlimovla birlikdə), XVIII (F.Y.Səməndərov, B. C. Kərimov və Ə. H. Hüseynovla birlikdə), XXIV fəsillər (190-cı, 192-ci və 193-cü maddələr);
3. **Bayramova Məleykə Nəsib qızı**, hüquq üzrə fəlsəfə doktoru — IV, VIII fəsillər;
4. **Əhmədov Mahir Bayram oğlu,** hüquq üzrə elmlər doktoru, professor — XVII, XXVII fəsillər;
5. **Əliyev Əlişah İbiş oğlu**, hüquq üzrə fəlsəfə doktoru, dosent — XXVIII fəsil;
6. **Əliyev Mahir Oqtay oğlu** — XXV (B. M. Əsgərovla birlikdə), XXIX və XXX fəsillər;
7. **Əliyev Səbuhi Osman oğlu,** hüquq üzrə fəlsəfə doktoru — XV-I, XIX fəsillər (B. C. Kərimovla birlikdə);
8. **Əsgərov Bəxşeyiş Məmməd oğlu**, hüquq üzrə fəlsəfə doktoru — XXV fəsil (M. O. Əliyevlə birlikdə);
9. **Həsənov Eldar Hümbət oğlu**, hüquq üzrə elmlər doktoru — XXVI fəsil;
10. **Hüseynov Ərşad Hüsü oğlu** — XV-II, XXIV və XXXIII fəsillər;
11. **Kərimov Bəhruz Cəbrayıl oğlu**, hüquq üzrə fəlsəfə doktoru — XV-I, XIX (S.O. Əliyevlə birlikdə), XVI (S. Ə. Vəliyevlə birlikdə) və XX fəsillər;
12. **Quliyev Aqşin İsabala oğlu**, hüquq üzrə elmlər doktoru, dosent — XXXV fəsil;
13. **Quliyev Rafiq İsmayıl oğlu**, hüquq üzrə fəlsəfə doktoru, dosent — XXII (F. S. Manafovla birlikdə) və XXIII (N. V. Mustafayevlə birlikdə) fəsillər;
14. **Manafov Faiq Səmədağa oğlu**, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü — XXI, XXII (R. İ. Quliyevlə birlikdə) və XXXI fəsillər;
15. **Mustafayev Natiq Vəli oğlu** — XXIII (R. İ. Quliyevlə birlikdə) və XXXII fəsillər;
16. **Səlimov Malik Dadaş oğlu**, hüquq üzrə fəlsəfə doktoru — IX və X (S. X. Aslanovla birlikdə) fəsillər;
17. **Şəmsizadə Rauf Əhəd oğlu**, hüquq üzrə fəlsəfə doktoru, dosent — III fəsil;
18. **Vəliyev Samir Əhməd oğlu**, hüquq üzrə elmlər doktoru — V və XVI (B. C. Kərimovla birlikdə) fəsillər.

Məhkəmə təcrübəsinə dair materialları işləyən və CM-ə edilmiş əlavə və dəyişiklikləri şərh edənlər:

hüquq üzrə fəlsəfə doktorları: **Bəhruz Cəbrayıl oğlu Kərimov**
Səbuhi Osman oğlu Əliyev

KİTABDA İSTİFADƏ EDİLMİŞ İXTİSARLAR

Naxçıvan MR — Naxçıvan Muxtar Respublikası;

CM — Azərbaycan Respublikasının Cinayət Məcəlləsi;

MM — Azərbaycan Respublikasının Mülki Məcəlləsi;

CPM — Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi;

MPM — Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi;

CİM — Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi;

İXM — Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi;

VM — Azərbaycan Respublikasının Vergi Məcəlləsi;

GM — Azərbaycan Respublikasının Gömrük Məcəlləsi;

SM — Azərbaycan Respublikasının Seçki Məcəlləsi;

ƏM — Azərbaycan Respublikasının Əmək Məcəlləsi;

ŞTM — Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi;

DİN — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.

DÜZÜM

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

XXIV Fəsil

İqtisadi fəaliyyət sahəsində olan cinayətlər

Maddə 190. Qanuni sahibkarlıq fəaliyyətinə mane olma 15

Maddə 191. Torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı 23

Maddə 192. Qanunsuz sahibkarlıq 27

Maddə 192-1. Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi 32

Maddə 192-2. İdman yarışlarının manipulyasiyası 37

Maddə 193. Yalançı sahibkarlıq 44

Maddə 193-1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma 47

Maddə 194. Cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə 56

Maddə 195. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə 61

Maddə 195-1. Dövlət borcundan və ya dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozma 64

Maddə 195-2. Daxili və xarici borcalma qaydasını pozma 70

Maddə 196. Kreditor borclarını ödəməkdən qəsdən yayınma 72

Maddə 197. Əmtəə nişanlarından qanunsuz istifadə etmə 75

Maddə 198. Bilə-bilə yalan reklam etmə 77

Maddə 199. İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma 79

Maddə 200. İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma 84

Maddə 200-1. Dərman vasitələrinin qanunsuz dövriyyəsi 88

Maddə 200-2. Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz dövriyyəsi 95

Maddə 201. Əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə 99

Maddə 201-1. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi 101

Maddə 202. Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma ... 104
Maddə 202-1. İxrac nəzarətinə aid sənəd və məlumatları yayma ... 109
Maddə 202-2. İnsayder tərəfindən insayd məlumatdan qanunsuz istifadə ... 111
Maddə 203. Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma ... 114
Maddə 203-1. Qiymətli kağızlar bazarında manipulyasiya ... 118
Maddə 204. Saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma ... 122
Maddə 205. Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama, əldə etmə və ya satma ... 124
Maddə 205-1. Saxta aksiz markalarının dövriyyəsi ... 126
Maddə 205-2. Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı ... 130
Maddə 206. Qaçaqmalçılıq ... 133
Maddə 207. Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama ... 145
Maddə 208. Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama ... 147
Maddə 209. Gömrük ödənişlərinin ödənilməsindən yayınma ... 149
Maddə 210. Müflisləşmə zamanı qanunsuz hərəkətlər ... 152
Maddə 211. Qəsdən müflisləşmə ... 156
Maddə 212. Saxta müflisləşmə ... 157
Maddə 213. Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma ... 160
Maddə 213-1. Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, belə məhsulların (malların) nağd qaydada alqı-satqısı ... 164
Maddə 213-2. Qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma ... 170
Maddə 213-3. Dövlət əyar damğalarını saxtalaşdırma ... 173

X Bölmə
İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər

XXV Fəsil
İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər

Maddə 214. Terrorçuluq ... 177
Maddə 214-1. Terrorçuluğu maliyyələşdirmə ... 183

Maddə 214-2. Terrorçuluğa açıq çağırışlar ... 188
Maddə 214-3. Terrorçuluq məqsədi ilə təlim keçmə ... 189
Maddə 215. Adamları girov götürmə ... 191
Maddə 216. Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə ... 196
Maddə 217. Banditizm ... 198
Maddə 218. Cinayətkar birlik (təşkilat) yaratma ... 205
Maddə 219. Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma ... 209
Maddə 219-1. Dəniz quldurluğu ... 212
Maddə 220. Kütləvi iğtişaş ... 214
Maddə 221. Xuliqanlıq ... 218
Maddə 222. Tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma ... 227
Maddə 222-1. Özbaşına tikinti işləri aparma ... 230
Maddə 222-2. Müvafiq icazə almadan mühafizə zonalarında tikinti və ya quraşdırma işləri aparma ... 236
Maddə 222-3. Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin dayandırılması barədə dövlət orqanlarının qərarlarını qərəzli olaraq icra etməmə ... 247
Maddə 223. Partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ... 251
Maddə 224. Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozma ... 253
Maddə 224-1. İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) istifadə qaydalarını pozma ... 255
Maddə 224-2. İxrac rejimini pozma ... 258
Maddə 225. Yanğın təhlükəsizliyi qaydalarını pozma ... 259
Maddə 226. Radioaktiv materiallarla qanunsuz davranma ... 261
Maddə 227. Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə ... 263
Maddə 228. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə ... 265
Maddə 229. Qanunsuz olaraq silah hazırlama ... 278
Maddə 230. Odlu silahı diqqətsiz saxlama ... 282
Maddə 231. Silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi üzrə vəzifələri lazımınca yerinə yetirməmə ... 284
Maddə 232. Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə ... 286

Maddə 233. İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə 290

Maddə 233-1. Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma 293

Maddə 233-2. Sertifikatlaşdırılmamış rabitə vasitələrinin satışının təşkili 297

Maddə 233-3. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması 300

XXVI Fəsil
Narkotik vasitələrin və psixotrop Maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər

Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma 303

Maddə 235. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə 339

Maddə 236. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə 344

Maddə 237. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə 348

Maddə 238. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama 352

Maddə 239. Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən resept ləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma 354

Maddə 240. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi 356

Maddə 241. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma **(çıxarılıb).**

XXVII Fəsil
İctimai mənəviyyat əleyhinə cinayətlər

Maddə 242. Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma 366

Maddə 243. Fahişəliyə cəlb etmə 369

Maddə 244. Əxlaqsızlıq yuvaları saxlama 372

Maddə 244-1. Qumarxana təşkil etmə və ya saxlama 376

Maddə 245. Qəbir üzərində təhqiredici hərəkət 378

Maddə 246. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama 380

XXVIII Fəsil
Ekoloji cinayətlər

Maddə 247. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma 384

Maddə 248. Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma 388

Maddə 249. Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma 395

Maddə 250. Suyu (su mənbələrini) çirkləndirmə 401

Maddə 251. Atmosferi (havanı) çirkləndirmə 406

Maddə 252. Dəniz mühitini çirkləndirmə 410

Maddə 253. Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma 414

Maddə 254. Torpaqları korlama 418

Maddə 255. Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma 423

Maddə 256. Balıq və digər su bioresurslarını qanunsuz tutma 427

Maddə 257. Balıq və digər su bioresurslarının qorunması qaydalarını pozma 431

Maddə 258. Qanunsuz ov etmə 433

Maddə 259. Qanunsuz ağac kəsmə 438

Maddə 260. Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə 445

Maddə 261. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma 448

XXIX Fəsil
Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər

Maddə 262. Dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma 452

Maddə 263. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma 460

Maddə 263-1. Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma 477

Maddə 264. Yol nəqliyyat hadisəsi yerindən qaçma 483

Maddə 265. Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma 487

Maddə 265-1. Ümumi istifadədə olan nəqliyyat vasitəsinin istismara verilməsi qaydalarının pozulması 491

Maddə 266. Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma ... 493

Maddə 267. Nəqliyyat vasitələrinin təhlükəsiz işləməsini təmin edən qaydaları pozma 496
Maddə 268. Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma 501
Maddə 269. Gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi.. 504
Maddə 270. Beynəlxalq uçuş qaydalarını pozma 507

XXX Fəsil
Kibercinayətlər

Maddə 271. Kompyuter sisteminə qanunsuz daxil olma 513
Maddə 272. Kompyuter məlumatlarını qanunsuz ələ keçirmə 520
Maddə 273. Kompyuter sisteminə və ya kompyuter məlumatlarına qanunsuz müdaxilə 523
Maddə 273-1. Kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi 527
Maddə 273-2. Kompyuter məlumatlarının saxtalaşdırılması 531

XI Bölmə
Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər

XXXI Fəsil
Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər

Maddə 274. Dövlətə xəyanət 533
Maddə 275. Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə 537
Maddə 276. Casusluq 539
Maddə 277. Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə 542
Maddə 278. Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama 544
Maddə 279. Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma 546
Maddə 280. Silahlı qiyam 549
Maddə 281. Dövlət əleyhinə yönələn açıq çağırışlar 551
Maddə 282. Təxribat 553
Maddə 283. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması.... 555
Maddə 283-1. Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədi ilə sabit qrup yaratma 558
Maddə 284. Dövlət sirrini yayma 561
Maddə 284-1. Dövlət sirri təşkil edən məlumatların qanunsuz əldə edilməsi ..564
Maddə 285. Məzmununda dövlət sirri olan sənədləri itirmə 566

XXXII Fəsil
Ədalət mühakiməsi əleyhinə olan cinayətlər

Maddə 286. Ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma 569
Maddə 287. Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə 573
Maddə 288. Ədalət mühakiməsinin və ya ibtidai istintaqın həyata keçirilməsi ilə əlaqədar hədələmə və ya zor tətbiq etmə 575
Maddə 289. Məhkəməyə hörmətsizlik etmə 577
Maddə 290. Təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə 578
Maddə 291. Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə 580
Maddə 292. Qanunsuz olaraq tutma, həbsə alma və ya həbs yerində saxlama 581
Maddə 293. İşgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza 586
Maddə 294. Sübutları saxtalaşdırma 592
Maddə 295. Bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma...595
Maddə 296. Bilə-bilə yalan xəbərçilik etmə 597
Maddə 297. Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə 599
Maddə 298. Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi 601
Maddə 299. İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma 602
Maddə 300. Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma 605
Maddə 301. Məhkəmə və hüquq mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma 606
Maddə 302. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma.... 608
Maddə 303. Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər 612
Maddə 304. Azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma 614
Maddə 305. Azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma 616
Maddə 306. Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə 617
Maddə 307. Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə 621

XXXIII Fəsil
Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər

Maddə 308. Vəzifə səlahiyyətlərindən sui-istifadə ... 623

Maddə 308-1. Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə ... 632

Maddə 308-2. Satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz keçirmə ... 634

Maddə 309. Vəzifə səlahiyyətlərini aşma ... 638

Maddə 310. Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə ... 640

Maddə 311. Rüşvət alma (passiv rüşvətxorluq) ... 642

Maddə 312. Rüşvət vermə (aktiv rüşvətxorluq) ... 650

Maddə 312-1. Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) ... 652

Maddə 313. Vəzifə saxtakarlığı ... 657

Maddə 314. Səhlənkarlıq ... 659

Maddə 314-1. Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə dair qanunsuz qərar qəbul etmə ... 660

Maddə 314-2. Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla torpaq sahələri ayırma, yaxud tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ... 664

Maddə 314-3. Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla apanlan tikinti işlərinin qarşısının alınmaması ... 669

XXXIV Fəsil
İdarəetmə qaydası əleyhinə olan cinayətlər

Maddə 315. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ... 672

Maddə 316. Cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma ... 676

Maddə 316-1. İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma ... 678

Maddə 316-2. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatları yayma ... 682

Maddə 317. Cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma ... 689

Maddə 317-1. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların verilməsi və ya ötürülməsi ... 691

Maddə 317-2. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi ... 695

Maddə 318. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə ... 696

Maddə 318-1. Qanunsuz miqrasiyanın təşkili ... 699

Maddə 318-2. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi ... 706

Maddə 319. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmə ... 709

Maddə 320. Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə ... 711

Maddə 321. Hərbi xidmət keçməkdən boyun qaçırma ... 716

Maddə 322. Özbaşınalıq ... 720

Maddə 323. Azərbaycan dövlətinin başçısının — Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma ... 722

Maddə 324. Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər ... 724

Maddə 325. Dövlət təltiflərini və rəsmi sənədləri əldə etmə və ya satma ... 726

Maddə 326. Rəsmi sənədləri, ştampları, möhürləri talama və ya məhv etmə ... 727

XII Bölmə
Hərbi xidmət əleyhinə olan cinayətlər

XXXV Fəsil
Hərbi xidmət əleyhinə olan cinayətlər

Maddə 327. Hərbi xidmət əleyhinə olan cinayətlər anlayışı ... 731

Maddə 328. Əmri icra etməmə ... 737

Maddə 329. Rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə ... 742

Maddə 330. Rəisə qarşı zorakı hərəkətlər etmə ... 746

Maddə 331. Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə ... 748

Maddə 332. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma ... 750

Maddə 333. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə ... 755

Maddə 334. Fərarilik ... 762

Maddə 335. Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma ... 766

Maddə 336. Qarovul xidmətinin nizamnamə qaydalarını pozma ... 769

Maddə 337. Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma 771
Maddə 338. Döyüş növbəsi çəkmə qaydalarını pozma 773
Maddə 339. Sərhəd xidməti qaydalarını pozma 775
Maddə 340. İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma 777
Maddə 341. Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə 779
Maddə 342. Qulluğa səhlənkar yanaşma 783
Maddə 343. Müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə 785
Maddə 344. Batmaqda olan hərbi gəmini tərk etmə 786
Maddə 345. Döyüş meydanını özbaşına tərk etmə və ya silah işlətməkdən boyun qaçırma 787
Maddə 346. Əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri 789
Maddə 347. Hərbi əmlakı itirmə 790
Maddə 348. Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə 791
Maddə 349. Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə 792
Maddə 350. Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma 793
Maddə 351. Maşınları idarəetmə və istismar qaydalarını pozma 796
Maddə 352. Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma 797
Maddə 353. Hərbi gəmiləri idarəetmə qaydalarını pozma 799

XXIV Fəsil
İqtisadi fəaliyyət sahəsində olan cinayətlər

Maddə 190. Qanuni sahibkarlıq fəaliyyətinə mane olma

190.1. Fərdi sahibkarın və ya kommersiya təşkilatının qeydiyyatından qanunsuz olaraq imtina etmə və ya onların qeydiyyatından boyun qaçırma, müəyyən fəaliyyət növünü həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən qanunsuz olaraq imtina etmə və ya onun verilməsindən boyun qaçırma, təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq fərdi sahibkarın və ya kommersiya təşkilatının hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma, habelə fərdi sahibkarın və ya kommersiya təşkilatının müstəqilliyini qanunsuz məhdudlaşdırma və ya onların fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmə, bu əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən sui-istifadə etməklə törədildikdə —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir iladək müddətə islah işləri ilə cəzalandırılır.

190.2. Eyni əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki iladək müddətə islah işləri ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 192.1, 192-1.1, 192-1.2, 193.1, 194.1-1, 195.1, 195-1.1, 195-1.2, 195-2.1, 196.1, 197.1, 198.1, 200-2.1, 201-1.1, 203.1, 204.2, 205-2.1, 210.1, 211.1 və 212.1-ci maddələrində «xeyli miqdar» dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, 190.2, 192-1.3.2, 194.2.4, 195.2, 195-1.3, 195-2.2, 196.2, 197.2, 198.2, 200-2.3, 201-1.2, 202.2, 202-1.2, 202-2.1, 203.2, 203-1.1, 204.3.2, 205.2.3, 205-2.2.3, 210.2, 211.2 və 212.2-ci maddələrində «külli miqdar» dedikdə yüz min manatdan artıq olan məbləğ, 192.2.1, 192.2.2, 193.2.1 və 193.2.2-ci maddələrində «külli miqdar» dedikdə yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 192.3.1, 192.3.2, 193.3.1 və 193.3.2-ci maddələrində «xüsusilə külli miqdar» dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 30 aprel 2013-cü il, 28 aprel 2015-ci il və 6 may 2016-cı il, 25 aprel 2017-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il; «Respublika» q., 21 may 2013-cü il; «Azərbaycan» q., 25 may 2016-cı il; 23 may 2017-ci il; 19 iyul 2017-ci il, 9 noyabr 2017-ci il).*

1. Ölkəmizin cinayət qanunvericiliyi üçün yeni olan bu maddə bazar iqtisadiyyatının mühüm prinsiplərindən olan təsərrüfat plüralizminin, sahibkarlıq azadlığının, mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün sahibkarlıq fəaliyyəti subyektlərinin bərabərliyinin təminatlarından biridir. Qanuni sahibkarlıq fəaliyyətini vəzifəli şəxslər tərəfindən yol verilə biləcək korrupsiyadan, özbaşınalıqdan və süründürməçilikdən mühafizə etməyə

yönəlmiş şərh olunan cinayət tərkibində **subyekt** qismində **vəzifəli şəxs** nəzərdə tutulduğundan bu cinayət vəzifə cinayətlərinə aid edilə bilər. Lakin bu əməl qəsd etdiyi obyektin mühümlüyünə görə təhlil edilən fəslə daxil edilmişdir.

2. Təhlil edilən cinayətin **obyekti** müxtəlif subyektlərin iqtisadi fəaliyyətinin dövlət qeydiyyatı, lisenziyalaşdırılması, belə fəaliyyətə nəzarət edilməsi və bununla bağlı bir sıra başqa funksiyaların dövlət orqanları və vəzifəli şəxslər tərəfindən həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

Cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, səlahiyyətli dövlət orqanlarının vəzifəli şəxsləri müxtəlif qanunazidd hərəkət və ya hərəkətsizlik yolu ilə təsərrüfat subyektləri tərəfindən normal sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə maneələr yaradırlar. Bunun nəticəsində fərdi sahibkar və ya hüquqi şəxs öz iqtisadi potensialından tam istifadə edə bilmir, yəni qanunla nəzərdə tutulmuş hüquqlarından tamamilə və ya qismən məhrum olur.

3. MM-in 13-cü maddəsinə müvafiq olaraq, **sahibkarlıq fəaliyyəti** şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir. Belə fəaliyyət hüquqi və faktiki olaraq əmlakın icarəyə verilməsində, saxlanc üçün qəbul edilməsində, əmtəələrin istehsalında və satışında, nəqliyyat, tibb, auditor, məsləhət, rabitə, turizm və s. xidmətlərin göstərilməsində, habelə qanunla qadağan edilməyən başqa fəaliyyətdə ifadə oluna bilər.

4. İqtisadi sahədə dövlət orqanlarının vəzifəli şəxslərinin, habelə sahibkarların fəaliyyətinin qanuniliyi Azərbaycan Respublikası Konstitusiyası, qanunları və başqa qanunvericilik aktları ilə müəyyən edilmişdir. Həmin normativ aktlar iqtisadi sahədə vəzifəli şəxslərin səlahiyyətlərini, sahibkarlıq fəaliyyəti ilə məşğul olmanın əsaslarını və qaydasını, bu sahədə dövlət tənziminin formalarını və hədlərini müəyyən edir.

5. Təhlil edilən cinayət tərkibi **obyektiv cəhətdən** vəzifəli şəxslər tərəfindən törədilən və hər biri ayrılıqda cinayət məsuliyyəti yaradan aşağıdakı alternativ əməllərdən ibarətdir: 1) fərdi sahibkarın və ya kommersiya təşkilatının qeydiyyatından qanunsuz olaraq imtina etmə; 2) onların qeydiyyatından boyun qaçırma; 3) fərdi sahibkara və ya kommersiya təşkilatına müəyyən fəaliyyət növünü həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən qanunsuz olaraq imtina etmə; 4) onlara belə razılığın (lisenziyanın) verilməsindən boyun qaçırma; 5) təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq fərdi sahibkarın və ya kommersiya təşkilatının hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma; 6) fərdi sahibkarın və ya kommersiya təşkilatının müstəqilliyini qanunsuz məhdudlaşdırma; 7) onların fəaliyyətinə başqa cür müdaxilə etmə.

6. Cinayət zərərçəkmiş şəxsin qanuni sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına mane olan əməlin törədildiyi andan **başa çatmış** hesab edilir. Qanunda zərərli nəticələrin baş verməsi nəzərdə tutulmamışdır.

7. Şərh edilən maddə üzrə cinayətdən **zərərçəkmiş** qismində «Sahibkarlıq fəaliyyəti haqqında» 15 dekabr 1992-ci il tarixli Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatından keçmiş **fərdi sahibkarlar**, habelə MM-in IV fəslinin ikinci paraqrafında göstərilmiş **kommersiya təşkilatları** çıxış edə bilər. Lakin obyektiv cəhətə daxil olan ilk iki əməldən (qeydiyyatdan qanunsuz olaraq imtina etmədən və qeydiyyatdan boyun qaçırmadan) zərərçəkmiş şəxs müvafiq sənədləri dövlət orqanına təqdim etmiş, lakin hələ qeydiyyatdan keçməmiş fiziki şəxs və ya lazımi təsis sənədlərini qeydiyyat orqanına təqdim etmiş, lakin hələ qeydiyyatdan keçməmiş kommersiya təşkilatı ola bilər.

Qeyri-kommersiya təşkilatlarının qanuni fəaliyyətinə vəzifəli şəxslər tərəfindən mane olma təhlil edilən maddə ilə deyil, müvafiq əlamətlər olduqda, CM-in başqa maddələri (məsələn, CM-in 309-cu maddəsi) ilə tövsif ediləcəkdir.

8. **Fərdi sahibkarın və ya kommersiya təşkilatının qeydiyyatından qanunsuz imtina** o halda mövcud olacaqdır ki, tələb olunan bütün sənədlərin lazımi qaydada təqdim edilməsinə baxmayaraq, dövlət qeydiyyatını həyata keçirməyə borclu olan vəzifəli şəxs qeydiyyatdan imtina barədə qərar çıxarmış və onu ərizəçinin nəzərinə çatdırmış olsun. Qeydiyyat üçün müraciət etmiş şəxs fərdi sahibkar statusu almaq və ya kommersiya təşkilatı yaratmaq üçün bütün sənədləri tələb olunan qaydada rəsmiləşdirdikdə, onları müvafiq qaydada səlahiyyətli dövlət orqanına təqdim etdikdə və qanunvericilikdə göstərilən bütün başqa tələblərə riayət etdikdə qeydiyyatdan imtina haqqında qərar qanunsuz hesab edilməlidir.

9. Fərdi sahibkarların dövlət qeydiyyatı haqqında ümumi müddəalar «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 2-ci bəndində verilmişdir. Həmin müddəalara əsasən fərdi sahibkarlar yaşadıqları və ya fəaliyyət göstərdikləri yer üzrə vergi orqanları (rayon (şəhər) vergilər idarəsi) tərəfindən qeydiyyata alınırlar.

Hüquqi şəxslərin dövlət qeydiyyatını ümumi şəkildə nəzərdə tutan MM-in 48.1-ci maddəsinə əsasən hüquqi şəxslər Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Naxçıvan MR Ədliyyə Nazirliyində, onların rayon (şəhər) qeydiyyat şöbələrində, Azərbaycan Respublikası Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanlarında, habelə Naxçıvan MR Vergilər Nazirliyində, habelə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınırlar. «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli, 2458 saylı Sərəncamı ilə sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikası Vergilər Nazirliyi müəyyən edilmişdir. Hüquqi şəxslərin dövlət qeydiyyatının qaydası «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının 12 dekabr 2003-cü il tarixli Qanunu ilə tənzim olunur.

MM-in 48.2-ci maddəsinə əsasən hüquqi şəxsin dövlət qeydiyyatına alınmasından imtina edilməsinə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda yol verilir. Hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının, habelə Azərbaycan Respublikasında döv-

lət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəlik və ya filialının yaradılmasının məqsədəuyğun olmaması mülahizələrinə görə onların müvafiq olaraq dövlət qeydiyyatına alınmasından və dövlət reyestrinə daxil edilməsindən imtinaya yol verilmir.

Hüquqi şəxs statusu almaq istəyən qurumun, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınmasından, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət reyestrinə daxil edilməsindən, habelə təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasından yalnız aşağıdakı hallarda imtina edilə bilər:

- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda;
- hüquqi şəxs statusu almaq istəyən qurumların məqsədləri, vəzifələri və fəaliyyət formaları qanunvericiliyə zidd olduqda;
- qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsi, habelə dövlət nəzarəti və yoxlama funksiyaları nəzərdə tutulduqda;
- firma adlarının qorunması haqqında qanunvericiliyin tələbləri pozulduqda və ya eyni adlı qeyri-kommersiya təşkilatı qeydiyyata alınmış olduqda, qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edildikdə;
- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə isə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, kommersiya hüquqi şəxslərinə və publik hüquqi şəxslərə, habelə təhsil müəssisələrinə münasibətdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi) tərəfindən təsis sənədlərində aşkar edilmiş çatışmazlıqlar 20 gün ərzində aradan qaldırılmadıqda («Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının 12 dekabr 2003-cü il tarixli Qanununun 11.3-cü maddəsi).

10. **Fərdi sahibkarın və ya kommersiya təşkilatının qeydiyyatından boyun qaçırma** həm hərəkətsizliklə, həm də hərəkətlə törədilə bilər. Hərəkətsizlik o zaman mövcud olacaqdır ki, vəzifəli şəxs təqdim edilmiş sənədləri müəyyən edilmiş müddət ərzində baxılmamış saxlasın və ya qeydiyyat haqqında lazımi qərarı qəbul etməsin. Qeydiyyatdan boyun qaçırmanın **hərəkətlə** törədilməsi qanunvericilikdə nəzərdə tutulmamış sənədlərin tələb edilməsində, təqdim edilmiş materialların müvafiq qərar qəbul edilmədən ərizəçiyə qaytarılmasında və s. ifadə oluna bilər.

Qeydiyyatdan imtina o vaxt mövcud olacaqdır ki, vəzifəli şəxs qanunla müəyyən edilmiş müddət ərzində üzrlü səbəblər (vəzifəli şəxsin xəstələnməsi, ezamiyyəti, təbii fəlakət və s. hallar) olmadan dövlət qeydiyyatını həyata keçirmək üzrə öz vəzifəsini icra etməsin. Ona görə də əməlin təhlil edilən əlamət üzrə tövsifi üçün qeydiyyata alma müddətinin keçməsi və onun səbəbləri dəqiq müəyyən edilməlidir. Dövlət qeydiyyatına alınmanın ümumi müddəti lazımi sənədlər tam təqdim olunduqdan sonra **fərdi sahibkar** üçün, habelə hüquqi şəxs statusu almaq istəyən **kommersiya qurumu**, o cümlədən **xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialı** üçün 2 gündən gec olmayan müddət, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə 1 gündən gec olmayan müddət («Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 7-1-ci maddəsi), hüquqi şəxs statusu almaq istəyən **qeyri-kommersiya qurumları**, habelə **xarici qeyri-kommersiya hüquqi şəxsinin nümayəndəlik və ya filialları** üçün isə 40 gündən gec olmayan müddət (təqdim edilmiş sənədlərin Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğunluğu yoxlanılması üçün 30 gün də daxil olmaqla) müəyyən edilmişdir («Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi).

11. **Müəyyən fəaliyyət növünü həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən qanunsuz imtina** o halda mövcud olacaqdır ki, müəyyən olunmuş qaydada dövlət qeydiyyatından keçmiş fərdi sahibkarın və ya kommersiya təşkilatının qanunvericiliklə müəyyən edilmiş sənədləri lisenziyalaşdırmanı həyata keçirən orqana lazımi qaydada təqdim etməsinə baxmayaraq, həmin orqanın müvafiq vəzifəli şəxsi müraciət edənə xüsusi razılıq (lisenziya) verməkdən imtina barədə qərar çıxarmış və bu qərarı onun nəzərinə çatdırmış olsun.

12. Respublikamızda bəzi fəaliyyət sahələrinin lisenziyalaşdırılmasının ümumi əsasları «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində müəyyən edilmişdir. «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli, 176-VQ nömrəli Qanunu ilə 25 bənddə fəaliyyət növlərinin lisenziyalaşdırılması nəzərdə tutulmuşdur. Həmin Qanunla dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan 6 adda fəaliyyət növü və sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı (87 icazə) təsdiq edilmişdir.

Lisenziya və icazə verən orqanlar Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Naxçıvan Muxtar Respublikasının ərazisində lisenziya və icazə verən orqanlar Nax-

çıvan Muxtar Respublikasının qanunları ilə və Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi tərəfindən müəyyən edilir.

Xarici hüquqi və fiziki şəxslərin, xarici hüquqi şəxslərin filiallarının və nümayəndəliklərinin öz ölkələrində aldıqları xüsusi razılığın (lisenziyanın) Azərbaycan Respublikasında tanınıb-tanınmaması haqqında məsələ dövlətlərarası sazişlərlə müəyyən edilir. Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində başqa hal nəzərdə tutulmayıbsa, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi şəxslər Azərbaycan Respublikasında şəhərsalma fəaliyyətini bu fəaliyyətə xüsusi razılığı (lisenziyası) olan Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi ilə müştərək həyata keçirirlər. Qeyd olunan hallar istisna olmaqla, qalan bütün hallarda həmin fəaliyyətlə məşğul olmaq üçün qanunvericiliyə müvafiq qaydada xüsusi razılıq (lisenziya) alınmalıdır («Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 2-ci bəndi).

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 4-cü bəndinə əsasən xüsusi razılığın (lisenziyanın) verilməsindən imtinaya aşağıdakı hallarda yol verilir: a) xüsusi razılıq (lisenziya) verilməsi qaydalarında nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə; b) ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda; c) müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün ərizəçinin zəruri şəraiti olmadıqda; ç) müəyyən ixtisas tələb edən fəaliyyət növü ilə məşğul olmaq üçün müraciət etmiş ərizəçi və onun cəlb edəcəyi mütəxəssis müvafiq ixtisasa malik olmadıqda; d) qanunvericilikdə nəzərdə tutulan digər hallarda. Bütün başqa əsaslarla, o cümlədən həmin fəaliyyət növü ilə məşğul olmanın məqsədəmüvafiq olmaması səbəbi ilə xüsusi razılıq (lisenziya) verməkdən imtina qanunsuz olacaqdır.

Hər bir konkret fəaliyyət növü üçün xüsusi razılığın verilməsi qaydası, habelə tələb olunan sənədlərin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə» 7 noyabr 2002-ci il tarixli, 174 saylı Qərarla təsdiq edilmiş «Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər»lə və digər normativ aktlarla müəyyən edilmişdir.

13. **Xüsusi razılığın (lisenziyanın) verilməsindən boyun qaçırma** lisenziyanın verilməsi üçün nəzərdə tutulmuş müddətin keçməsinə baxmayaraq, onun verilməsi haqqında müvafiq qərarın çıxarılmamasında ifadə olunur. Lisenziyanın verilməsi üçün ümumi müddət lazımi sənədlər tam şəkildə müvafiq lisenziyalaşdırma orqanına təqdim edildikdən sonra 15 gün müəyyən edilmişdir («Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 3-cü bəndi).

14. **Təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq fərdi sahibkarın və ya kommersiya təşkilatının hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma** vəzifəli şəxs tərəfindən fərdi sahibkarın və ya kommersiya təşkilatının fəaliyyət qabiliyyətini məhdudlaşdıran, təsərrüfat fəaliyyətinə maneələr yaradan qərarlar verilməsində və ya hərəkətlər edilməsində

də ifadə oluna bilər. Belə qərar və hərəkətlər bir təşkilati-hüquqi formaya (məsələn, dövlət müəssisələrinə) malik kommersiya təşkilatına digərlərinə nisbətən qanunsuz olaraq üstünlük verilməsi, təşkilati-hüquqi formasından asılı olmayaraq təsərrüfat subyektlərinin fəaliyyətinin qadağan edilməsi və ya sıxışdırılması məzmununa malik ola bilər.

15. Bütün mülkiyyət formalarının bərabərliyi prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin II hissəsində və MM-in 153.4-cü maddəsində nəzərdə tutulmuşdur. Bütün mülkiyyət hüququ subyektlərinin hüquqları və qanuni mənafeləri bərabər şəkildə (o cümlədən, cinayət-hüquqi vasitələrlə) qorunur.

MM-in IV fəslinin 2-ci paraqrafına əsasən kommersiya təşkilatları müxtəlif təşkilati-hüquqi formalarda (fərdi müəssisələr, təsərrüfat ortaqlıqları və cəmiyyətlərinin növləri, müxtəlif növ dövlət və bələdiyyə müəssisələri) mövcud ola bilər. Kommersiya təşkilatları qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər (MM-in 44.2-ci maddəsi). Hüquqi şəxsin hüquqları yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada məhdudlaşdırıla bilər (MM-in 44.3-cü maddəsi).

Sahibkarlıq fəaliyyəti hüquqlarının mühüm təminatları «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində təsbit olunmuşdur. Həmin normaya əsasən sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına yalnız dövlətin səlahiyyətinə aid məsələlər (qanunçuluğun gözlənilməsi, ölkənin və vətəndaşların təhlükəsizliyi və müdafiəsi, vergi, qiymət və antiinhisar tənzimlənməsi, sosial təminatlar verilməsi, ekologiya, sanitariya, yanğından mühafizə və arxitektura normalarının gözlənilməsi və tarixi abidələrin mühafizəsi) üzrə yol verilir. Dövlət hakimiyyəti və idarəetmə orqanlarına mülkiyyət və təşkilati-hüquqi formasından asılı olaraq bu və ya digər sahibkarlıq növünə imtiyazlar verən qərarlar çıxarmaq qadağan olunur.

Qeyd edilən qadağaların vəzifəli şəxslər tərəfindən pozulması təhlil edilən cinayət tərkibini yaradacaqdır.

16. **Fərdi sahibkarın və ya kommersiya təşkilatının müstəqilliyini qanunsuz məhdudlaşdırma** vəzifəli şəxslər tərəfindən onların təsərrüfat-sərəncam fəaliyyətinə müxtəlif maneələr yaradılmasında, onlara qanunsuz təsir göstərən qərarların qəbulunda və hərəkətlərin edilməsində təzahür oluna bilər. Belə müdaxilə və təzyiq aşağıdakılardan ibarət ola bilər: müəyyən kontragentlərlə müqavilələrin bağlanmasına məcbur etmə və ya bunun qadağan edilməsi; əmtəələrə, işlərə və xidmətlərə əlverişsiz qiymətlərin müəyyən edilməsinə məcbur etmə; sahibkarlıq subyekti üçün əlverişsiz şərtlərin müqaviləyə daxil edilməsi; müəyyən şəxslərin kommersiya təşkilatına işə götürülməsinə məcbur etmə və s.

Sahibkarlıq fəaliyyəti subyektinin müstəqilliyini qanunsuz məhdudlaşdırma vəzifəli şəxsin kommersiya təşkilatını idarə etmək üzrə səlahiyyətləri qismən öz əlinə keçirməsində, fərdi sahibkarın və ya kommersiya təşkilatını maliyyə sanksiyaları ilə hədələyərək müəyyən qərarlar qəbul etməyə məcbur etməsində, qəbul edilən qərarları qabaqcadan onunla razılaşdırmağa məcbur etmə-

sində və s. qanunsuz hərəkətlərində də ifadə oluna bilər.

17. **Fərdi sahibkarın və ya kommersiya təşkilatının fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmə** dedikdə vəzifəli şəxsin təsərrüfat subyektlərinin əməli fəaliyyətinə qanunsuz təsir göstərməsi, onların öz hüquqlarından istifadəsi imkanını məhdudlaşdıran qərarlar qəbul etməsi başa düşülməlidir.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 2-ci bəndi qanunvericilikdə nəzərdə tutulan hallar istisna edilməklə, dövlət orqanlarının, həmkarlar təşkilatlarının, siyasi partiyaların və ictimai birliklərin sahibkarlıq fəaliyyətinə müdaxiləsini qadağan edir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilə qanunsuz və əsassız yoxlamalar aparılması, sənədlərin və başqa əşyaların qanunsuz götürülməsi, binaların və başqa istehsal-təsərrüfat avadanlıq və qurğularının istismarına yol verilməməsi yolu ilə və s. hərəkətlərlə törədilə bilər.

18. Təhlil edilən cinayətin **subyektiv cəhəti** yalnız **birbaşa qəsdlə** xarakterizə olunur. Təqsirkar fərdi sahibkarın və ya kommersiya təşkilatının qanuni fəaliyyətinə mane olduğunu, bu əməlin ictimai təhlükəliliyini dərk edir və bunu törətməyi arzu edir.

Cinayətin **məqsədi** və **motivləri** zəruri tərkib əlamətləri olmasa da, onların müəyyən edilməsi əmələ düzgün cinayət-hüquqi qiymət verilməsində mühüm rol oynayır. Bu cinayəti törədərkən təqsirkarın məqsədi həmin subyektin kommersiya fəaliyyətini dayandırmaq və ya onu öz mənafeyinə uyğun istiqamətə yönəltmək ola bilər. Cinayətin motivləri isə intiqam, müəyyən mənfəətə nail olma, qulluq mənafelərini düzgün başa düşməmə və s. ola bilər.

19. CM-in 190-cı maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** müvafiq səlahiyyətlərə malik olan vəzifəli şəxslər — xidməti vəzifələrinə fərdi sahibkarların və ya kommersiya təşkilatlarının dövlət qeydiyyatının aparılması, lisenziyalaşdırma, iqtisadi tənzimləmə ilə əlaqədar normativ xarakterli və ya hüquqtətbiqedici qərarlar qəbul etmək, nəzarət-yoxlama funksiyasını həyata keçirmək daxil olan şəxslər ola bilər.

Subyekt cinayəti törədərkən **öz qulluq mövqeyindən sui-istifadə etdikdə** təhlil olunan cinayət tərkibi yaranır. Bu isə vəzifəli şəxsin qeyd edilən əməlləri törədərkən öz qulluq mənafeyindən və ya dövlət orqanının nüfuzundan, dövlət məcburiyyətindən, dövlət orqanına məlum olmuş informasiyadan, lisenziyanın və ya verilmiş güzəştlərin ləğv edilməsi üzrə səlahiyyətlərdən qanunsuz istifadə etməsində, habelə başqa əlverişsiz şərait yarada biləcək hərəkətlər etməsində ifadə oluna bilər.

20. CM-in 190.2-ci maddəsi qanuni sahibkarlıq fəaliyyətinə mane olmanın iki **ağırlaşdırıcı tərkib əlamətini** nəzərdə tutmuşdur: a) eyni əməllərin qanuni qüvvəyə minmiş məhkəmə qərarını pozmaqla törədilməsi; b) eyni əməllərin külli miqdarda ziyan vurmaqla törədilməsi.

21. Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətlərindən birincisi onu göstərir ki, vəzifəli şəxsin qanuni sahibkarlıq fəaliyyətinə mane olan hərəkətləri təkcə müvafiq qanunvericilik aktlarının normalarına deyil, həm də belə qanunazidd hərəkətləri dayandırmağa və onun nəticələrini aradan qaldırmağa yönəlmiş qanuni qüvvəyə minmiş məhkəmə qərarına ziddir. Bu isə həmin əməllərin ictimai

təhlükəliliyini artırmış olur.

22. Qanuni sahibkarlıq fəaliyyətinə mane olmanın **külli miqdarda ziyan** vurması dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən vəzifəli şəxsin qanuni sahibkarlığa mane olan əməlləri nəticəsində **yüz min manatdan artıq olan məbləğdə** ziyan vurulması başa düşülür. Dövlətə, fərdi sahibkara, kommersiya təşkilatına vurula bilən belə ziyan məhkəmə tərəfindən maddi ziyanın müəyyən edilməsinin ümumi qaydaları üzrə müəyyən edilə bilər. Ziyan istehsal vasitələrindən istifadə edə bilməmə və ya iş yerlərinin itirilməsi nəticəsində əldən çıxmış mənfəət şəklində, əlverişsiz müqavilənin icrası ilə əlaqədar dəymiş ziyan və s. şəkildə ola bilir. Hər bir halda əməlin bu əlamət üzrə tövsif edilməsi üçün vəzifəli şəxsin qanuni sahibkarlıq fəaliyyətinə mane olmadan ibarət əməli ilə vurulmuş külli miqdarda ziyan arasında səbəbli əlaqə müəyyən edilməlidir.

Maddə 191. Torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı

Vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə tamah məqsədilə və ya sair şəxsi niyyətlə torpaqla əlaqədar bilə-bilə qanunsuz əqdləri qeydiyyata alma, Dövlət torpaq kadastrının uçot məlumatlarını təhrif etmə, habelə torpaq haqqının miqdarını qəsdən azaltma —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. CM-in 191-ci maddəsində nəzərdə tutulmuş tərkib də ölkəmizin cinayət qanunvericiliyi üçün yenilikdir. Belə tərkibin cinayət qanununa daxil edilməsindən məqsəd mühüm iqtisadi kateqoriya olan torpaqla əlaqədar dövlət orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qanuniliyini təmin etməkdir.

Təhlil edilən normada torpaqla əlaqədar səlahiyyətlərə malik vəzifəli şəxslərin məsuliyyəti nəzərdə tutulduğundan bu cinayəti də vəzifə cinayətlərinə aid etmək olar. Lakin qəsd obyektinin özünəməxsusluğu bu cinayəti iqtisadi fəaliyyət sahəsində olan kriminal əməllər sırasına aid etməyə səbəb olmuşdur.

2. Şərh edilən cinayətin **obyekti** mülki dövriyyənin mühüm tərkib hissələrindən biri olan torpaqla əlaqədar yaranan ictimai münasibətlər, habelə torpaq münasibətlərinin dövlət tənzimi sahəsində yaranan dövlət qulluğu mənafeləridir.

Bu cinayətin **ictimai təhlükəliliyi** torpaqla əlaqədar dövlətin, bələdiyyələrin, fiziki şəxslərin və başqa subyektlərin mənafelərinin pozulmasıdır. Torpaqla bağlı qanunsuz əqdlər torpaqların təyinatının pozulmasına, torpaqla möhtəkirliyə və nəticədə münbit torpaqların kriminal fəaliyyət predmetinə çevrilməsinə və başqa arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

3. Torpaq münasibətləri, o cümlədən torpaqla əlaqədar əqdlərin bağlanması Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş prinsiplər əsasında Mülki Məcəllə, Torpaq Məcəlləsi, «Torpaq bazarı haqqında» Azərbay-

can Respublikasının 7 may 1999-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının başqa qanunları və digər normativ aktları ilə tənzimlənir.

4. Təhlil edilən cinayətin **obyektiv cəhəti** vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədilən və hər biri mahiyyətcə müstəqil cinayət olan üç alternativ əməldən ibarətdir: torpaqla əlaqədar bilə-bilə qanunsuz əqdləri qeydiyyata alma; Dövlət torpaq kadastrının uçot məlumatlarını təhrif etmə; torpaq haqqının miqdarını qəsdən azaltma.

5. CM-in 191-ci maddəsində göstərilən cinayət **formal tərkibli** cinayət olduğundan obyektiv cəhətə daxil olan əməllərdən birinin törədildiyi andan başa çatmış hesab edilir. Zərərli nəticələr məcburi tərkib əlaməti deyildir.

6. **Torpaqla əlaqədar bilə-bilə qanunsuz əqdləri qeydiyyata alma** dedikdə torpaqla əlaqədar tələb olunan qaydalara və şərtlərə riayət etmədən bağlanmış əqdə hüquqi əhəmiyyət vermək üçün müvafiq dövlət orqanının vəzifəli şəxsi tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş hərəkətlərin edilməsi başa düşülür. Həmin vəzifəli şəxs zahirən normativ aktlarda nəzərdə tutulmuş öz adi vəzifə funksiyasını yerinə yetirir (torpaqla əlaqədar əqdi qeydə alır), lakin həmin qeydə alınan əqd qanunsuz olduğundan və vəzifəli şəxs bunu bildiyindən təhlil olunan cinayət tərkibi yaranır.

Torpaqla əlaqədar əqdlərin mümkün formaları «Torpaq bazarı haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində verilmişdir. Həmin əqdlərə aiddir: 1) torpaq sahələrinin alqı-satqısı; 2) torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi; 3) torpaq sahəsinin girovu (ipotekası); 4) torpaq sahəsinin dəyişdirilməsi; 5) torpaq sahəsinin bağışlanması; 6) torpaq sahəsinin vərəsəlik qaydasında başqasına keçməsi; 7) torpaq sahəsi üzərində istifadə və icarə hüquqlarının başqasına keçməsi; 8) torpaq sahəsinin rentası və qanunla nəzərdə tutulmuş digər əqdlər. Torpaqla əlaqədar ən geniş yayılmış əqdlərdən biri olan torpaq icarəsi «Torpaq icarəsi haqqında» Azərbaycan Respublikasının 11 dekabr 1998-ci il tarixli Qanunu ilə tənzimlənir. Bundan başqa, MM-ə müvafiq olaraq, torpaqla əlaqədar əvəzsiz istifadə müqaviləsi (MM-in 732—738-ci maddələri), renta müqaviləsi (MM-in 864—870-ci maddələri) və sığorta müqaviləsi (MM-in 883-cü maddəsi) bağlana bilər.

MM-in 238.1-ci maddəsinə əsasən torpaq daşınmaz əmlak kimi mülkiyyət hüququnun obyektidir. Mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar MM-də və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır (MM-in 139.1-ci maddəsi). Daşınmaz əmlaka mülkiyyət hüququ onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir. Əgər qanuna müvafiq olaraq daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət reyestrində qeydə alınmadan başqa şəxsə keçməsi mümkündürsə, onda şəxs bu barədə dövlət reyestrinə məlumat verməlidir (MM-in 178.1-ci maddəsi).

«Torpaq bazarı haqqında» Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən torpaq üzərində bütün hüquqlar (müddəti on bir aydan az olan icarə və istifadə hüquqları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

MM-in 139.3-cü maddəsinə əsasən daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir.

Azərbaycan Respublikası «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında» Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli Qanununun 5-ci maddəsinə əsasən dövlət torpaq kadastrı Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən aparılır.

7. «Torpaq bazarı haqqında» Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən Azərbaycan Respublikasının torpaq bazarında əldə edilmiş torpaq sahələri üzərində hüquqlar aşağıdakı əsaslar üzrə yaranır: 1) dövlət və bələdiyyə torpaqlarının və onlar üzərində istifadə və icarə hüquqlarının alqı-satqısı, girovu (ipotekası), nizamnamə (pay) fonduna verilməsi — müvafiq icra hakimiyyəti orqanlarının (öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi və ya rayon (şəhər) icra hakimiyyəti orqanları) və bələdiyyələrin qərarları və torpaq münasibətlərinin subyektləri ilə bağlanmış müqavilələr və aktlar; 2) xüsusi mülkiyyətdə olan torpaqların və onların üzərində istifadə və icarə hüquqlarının alqı-satqısı, nizamnamə (pay) fonduna verilməsi, dəyişdirilməsi, bağışlanması, girovu (ipotekası), vərəsələrə keçməsi — hüquqi və fiziki şəxslər arasında bağlanmış və notarial qaydada təsdiq olunmuş müqavilələr və aktlar; 3) torpaq üzərində hüquqların dövlət qeydiyyatı və sənədləşdirilməsi; 4) torpaq üzərində hüquqların müəyyən edilməsinə dair məhkəmənin qərarı və ya hökmü.

Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notarial qaydada təsdiqlənməlidir. Təsdiqləmə zamanı notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır. Onlar təsdiqlədikləri müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır (MM-in 144.1-ci maddəsi).

8. **Torpaqla əlaqədar bilə-bilə qanunsuz əqd** dedikdə əqdin hüquqazidd olması və bunun dövlət qeydiyyatını aparan vəzifəli şəxs tərəfindən dərk edilməsi başa düşülür. Əqd o vaxt qanunsuz hesab edilə bilər ki, o, etibarsız olsun, yəni MM-də müəyyən edilmiş şərtləri pozmaqla bağlanmış olsun (MM-in 337.1-ci maddəsi). Etibarsız əqd əhəmiyyətsiz və mübahisə edilən əqd ola bilər.

Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir (MM-in 337.3-cü maddəsi). Belə əqd uydurma və ya yalan əqd (MM-in 340-cı maddəsi), qeyri-ciddi əqd (MM-in 341-ci maddəsi), fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslə bağlanmış əqd (MM-in 342-ci maddəsi), on dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanla (azyaşlı şəxslə) bağlanmış əqd (MM-in 344-cü maddəsi) ola bilər. Belə əqd hər bir halda qanunsuzdur. Əhəmiyyətsiz əqdi dövlət qeydiyyatına alan vəzifəli şəxs onun əhəmiyyətsiz olduğunu bildikdə, CM-in şərh olunan

maddəsi üzrə cinayət məsuliyyəti daşıyacaqdır.

Əqd barəsində **mübahisə** edildikdə əqd bağlandığı andan etibarsızdır. Müqavilənin mübahisə edilməsi müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə münasibətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir (MM-in 337.2-ci maddəsi). Mübahisə edilən əqdə misal olaraq hakimiyyətdən sui-istifadə nəticəsində, zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdi (MM-in 339-cu maddəsi), fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin bağladığı əqdi (MM-in 343-cü maddəsi) və MM-in XIV fəslində nəzərdə tutulmuş bir sıra başqa əqdləri göstərmək olar. Torpaqla əlaqədar belə əqdi dövlət qeydiyyatına alan vəzifəli şəxs o halda təhlil edilən maddə üzrə cinayət məsuliyyətinə cəlb edilə bilər ki, həmin əqdin mübahisə edilən olduğunu qabaqcadan bilmiş olsun.

9. **Dövlət torpaq kadastrının uçot məlumatlarını təhrif etmə** torpaqların kəmiyyəti, keyfiyyəti və s. ilə əlaqədar yanlış məlumatların hazırlanmasında və Dövlət torpaq kadastrına daxil edilməsində ifadə oluna bilər.

«Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən Dövlət torpaq kadastrı torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə məlumatların məcmusudur. Qanunun 6-cı maddəsinə əsasən Dövlət torpaq kadastrına aşağıdakı məlumatlar daxil edilir: 1) torpaq sahələrinin hüquqi statusu; 2) torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququ; 3) torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəriciləri; 4) torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi; 5) torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar qanunvericiliklə müəyyən olunmuş digər məlumatlar.

Dövlət torpaq kadastrının uçot məlumatlarını təhrif etmə torpaq sahəsinin ölçülərinin kiçildilməsində, torpağın hüquqi rejiminin dəyişdirilməsində, torpağın qiymətinin azaldılmasında (və ya artırılmasında), torpağın təyinatına aid məlumatların təhrif olunmasında ifadə oluna bilər. Belə kriminal əməldən məqsəd vergilərin və başqa ödəmələrin azaldılması, faktiki istifadədə olan torpaq sahələrinin ölçülərinin gizlədilməsi və s. ola bilər.

10. **Torpaq haqqının miqdarını qəsdən azaltma** torpağın alqı-satqısı zamanı onun qiymətinin azaldılmasında, torpağa görə icarə haqqının məbləğinin aşağı endirilməsində, habelə torpağın həmin inzibati-ərazi vahidində və ya həmin yerdə müəyyən edilmiş orta bazar qiymətindən aşağı qiymətə satılmasında ifadə oluna bilər.

«Torpaq bazarı haqqında» Azərbaycan Respublikasının 7 may 1999-cu il tarixli Qanununun 16-cı maddəsinə əsasən torpaq bazarında qiymətlər əqdlərin növlərindən, satışın formasından, satış obyektinin təyinatından, hüquqi statusundan, rejimindən, torpaqların normativ qiymətindən, habelə tələb və təklifdən asılı olaraq formalaşır. Torpaqla əlaqədar əqdlər bağlanarkən ödənilməsi torpaq haqqının minimum normativ qiyməti Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir. «Torpaq bazarı haqqında» Azərbaycan

Respublikası Qanununun 16-cı maddəsində müəyyən edilmişdir ki, torpaqla əlaqədar əqdlər bağlanarkən qiymət tərəflərin razılaşması əsasında, lakin normativ qiymətdən az olmayaraq müəyyən edilməlidir. Bağlanmış əqd üzrə torpağın qiyməti həmin normativdən az olduqda, buna qəsdən yol vermiş vəzifəli şəxs şərh olunan maddə üzrə cinayət məsuliyyəti daşıyır.

Torpaq vergisinin qəsdən azaldılması təhlil edilən maddə üzrə tövsif edilə bilməz və zəruri əlamətlər olduqda CM-in 213-cü maddəsi ilə tövsif edilməlidir.

11. Təhlil edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Təqsirkar öz hərəkətlərinin ictimai təhlükəli və qanunazidd olduğunu dərk edir və onların həyata keçirilməsini arzu edir.

Subyektiv cəhətin daha bir zəruri əlaməti olan **tamah məqsədi** və ya **sair şəxsi niyyət** torpaqla əlaqədar əqdlər bağlanarkən özünə, yaxınlarına və üçüncü şəxslərə əlverişli şərait yaratmada, başqa qanunsuz xidmətlər göstərmədə və s. ifadə oluna bilər. Lakin rüşvət alma əlamətləri olduqda əməl CM-in 311-ci maddəsi üzrə tövsif ediləcəkdir.

12. CM-in 191-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** xüsusidir: o, xidməti vəzifəsinə torpaqla əlaqədar əqdlərin qeydiyyatını aparmaq, Dövlət torpaq kadastrını aparmaq, habelə torpaqla əlaqədar əqdlər bağlanarkən torpağın qiymətini müəyyən etmək səlahiyyəti daxil olan vəzifəli şəxs ola bilər. Həmin şəxs kriminal əməli törədərkən öz qulluq mövqeyindən istifadə edir.

Maddə 192. Qanunsuz sahibkarlıq

192.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192.2. Eyni əməllər:

192.2.1. külli miqdarda ziyan vurduqda;

192.2.2. külli miqdarda gəlir əldə etməklə törədildikdə;

192.2.3. müteşəkkil dəstə tərəfindən törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192.3. Bu Məcəllənin 192.1 və 192.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

192.3.1. xüsusilə külli miqdarda ziyan vurduqda;

192.3.2. xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 26 dekabr 2000-ci il, 7 sentyabr 2004-cü il, 31 may 2007-ci il, 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — Azərbaycan Respublikası, QT, 2001, №1, m.24; «Azərbaycan» q., 22 oktyabr 2004-cü il; 13 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in 192-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** sahibkarlıq fəaliyyəti sahəsində yaranan ictimai münasibətlər, habelə dövlətin, ayrı-ayrı təşkilatların və ya vətəndaşların qanunla qorunan mənafeləridir.

Qanunvericiliyə müvafiq surətdə həyata keçirilən sahibkarlıq maddi nemətlər bolluğu yaradılmasına yönəldiyindən ictimai faydalı və təqdirəlayiq hesab edilir. Lakin sahibkarlıq fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş çərçivədə aparılmadıqda, dövlət nəzarətindən kənarda qaldıqda ictimai təhlükəli xarakter alır və dövlətin, cəmiyyətin və ayrı-ayrı şəxslərin mənafeyinə ziyan vurmaq təhlükəsi yaradır.

2. Təhlil olunan cinayət **obyektiv cəhətdən** maddi tərkibli cinayətdir. Onun obyektiv cəhəti aşağıdakılardan ibarətdir: a) dörd alternativ əməllə ifadə olunan qanunsuz sahibkarlıq fəaliyyəti; b) vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurma, habelə xeyli miqdarda gəlir əldə etmə; c) əməllə vurulmuş ziyan arasında səbəbli əlaqə.

Qanunsuz sahibkarlıq təqsirkarın elə fəaliyyətidir ki, həmin fəaliyyət qanunvericiliyə riayət edilməklə həyata keçirilsəydi, normal sahibkarlıq fəaliyyəti olardı. Lakin şəxs müvafiq normativ aktların tələblərinə məhəl qoymayaraq belə fəaliyyətlə məşğul olduğundan onun əməli kriminal hesab edilir.

3. Qanunsuz sahibkarlıq fəaliyyəti dörd alternativ əməldən ibarətdir: 1) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma; 2) xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) olmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma; 3) lisenziyalaşdırma şərtlərinin pozulması ilə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma; 4) xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma. Göründüyü kimi, hər dörd əməl iki tərkib hissəsindən ibarətdir. Özü də hər dörd əməlin tərkib hissələrindən biri sahibkarlıq fəaliyyəti ilə məşğul olmadır. Belə fəaliyyət lazımi qaydalara riayət edildikdə normal sahibkarlıq fəaliyyətidir, lakin hər dörd əməlin ikinci tərkib hissəsi ilə birləşdikdə təhlil edilən maddə üzrə cinayət məsuliyyəti yaradır.

4. Sahibkarlıq fəaliyyətinin anlayışı CM-in 190-cı maddəsinin şərhinin 3-cü bəndində verilmişdir.

Öz məzmununa görə qanunsuz hesab edilən fəaliyyət, ümumiyyətlə, qeydiyyata alına bilməz və onun həyata keçirilməsi CM-in başqa maddəsi üzrə məsuliyyət yaradır (məsələn, CM-in 240-cı və 244-cü maddələrinin şərhinə bax).

Sahibkarlıq fəaliyyəti mahiyyətcə hər hansı şəxsin üçüncü şəxslərin tələbatını ödəmək məqsədi ilə onlara əvvəlcədən şərtləndirilmiş və ya qarşılıqlı razılığa əsaslanan müəyyən haqq almaqla xidmət göstərilməsi, işlər görülməsi və ya müəyyən əmlak satılmasından ibarət mütəmadi həyata keçirilən və mənfəət əldə etməyə yönələn hərəkətləridir. Hər hansı fəaliyyətin sahibkarlıq fəaliyyəti olub-olmaması hər bir konkret halda məhkəmə tərəfindən müəyyən edilməlidir. Bu zaman şəxsin hərəkətlərinin əvəzli olub-olmaması, onların mütəmadilik dərəcəsi, əldə edilən mənfəətin miqdarı, belə hərəkətlərin vəhdət təşkil edib-etməməsi və s. amillər nəzərə alınmalıdır. Nəzərə almaq lazımdır ki, şəxsin öz əşyalarını satması, tanışının avtomobilini təmir etməsi, qonşusuna bazarlıq etməsi və bu kimi təsadüfi və qeyri-mütəmadi hərəkətlər sahibkarlıq fəaliyyəti hesab edilə bilməz.

6. Qanunsuz sahibkarlığın obyektiv cəhətinə daxil olan birinci kriminal əməlin digər tərkib hissəsi **Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmamadan** ibarət hərəkətsizlikdir. Belə hərəkətsizlik o halda mövcud olacaqdır ki, şəxs normativ aktlarla müəyyən edilmiş qaydalara əsasən dövlət qeydiyyatına alınmaq (vergi uçotuna) üçün müvafiq orqana müraciət etməli olduğu halda, bunu etmir (sahibkarlıq fəaliyyətinin subyekti kimi qeydiyyatdan keçmə barədə CM-in 190-cı maddəsinin şərhinə bax).

7. Təhlil edilən cinayətin törədilməsinin digər üsulunun — xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma əməlinin ikinci tərkib hissəsi də hərəkətsizlikdən ibarətdir. Bu hərəkətsizlik qanunvericiliklə nəzərdə tutulmuş **xüsusi razılığın (lisenziyanın) alınmamasında** ifadə olunur. Təhlil edilən əməl lisenziyanın dəyişdirilməli və ya onun müddətinin uzadılmalı olduğu halda bunun edilməməsi ilə də törədilə bilər (lisenziya alınması haqqında CM-in 190-cı maddəsinin şərhinə bax).

8. Qanunsuz sahibkarlıq cinayətinin obyektiv cəhətinə daxil olan üçüncü əməlin ikinci tərkib hissəsi **lisenziyalaşdırma şərtlərinin pozulmasıdır.** Belə pozuntular aşağıdakılarda ifadə oluna bilər: lisenziyada nəzərdə tutulmayan fəaliyyətlə məşğul olma; həmin növ fəaliyyətin həyata keçirilməsi üçün zəruri şərtlərə (sanitariya-gigiyenik normalara, istehsal-təsərrüfat sahəsinin ölçülərinə və s.) riayət etməmə; müəyyən məcburi şərtlərə (əmtəələrə aksiz markası yapışdırma, kassa aparatından istifadə və s.) məhəl qoymama; lisenziyada göstərilməndən artıq həcmdə məhsul istehsal etmə, işlər görmə, xidmətlər göstərmə və s. Qeyd edilən və bu kimi hərəkətlər yalnız o halda şərh edilən cinayət tərkibini yarada bilər ki, onların pozduğu şərtlər lisenziyada göstərilmiş olsun. Lisenziyada nəzərdə tutulmayan şərtlərin pozulması cinayət əməli hesab edilə bilməz.

9. **Xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul ol-**

ma dedikdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə siyahısı müəyyən olunmuş mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etmə yolu ilə işlərin görülməsindən, xidmətlərin göstərilməsindən, əmlak istifadəsindən, əmtəə satışından mənfəət götürülməsindən ibarət olan fəaliyyətlə belə fəaliyyət üçün **xüsusi icazə almadan** məşğul olma başa düşülür.

«Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanunu ilə həmin **əşyalara** aiddir: hərbi silah və sursat istehsal etmək üçün avadanlıq; döyüş təyinatlı hərbi texnikanı istehsal etmək üçün avadanlıq; xidməti və mülki silah; kosmik-peyk rabitə vasitələri, xüsusi məxfi rabitə vasitələri və şifrləri, bu vasitələrin və şifrlərin istehsalı üçün nəzərdə tutulan avadanlıq; qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələri; ionlaşdırıcı şüa mənbələri, o cümlədən radioaktiv maddələr, belə mənbələrin və maddələrin istehsalı üçün nəzərdə tutulan avadanlıq, təsərrüfat-məişət və tibbi əhəmiyyətli aparatlar istisna olmaqla, şüa verən aparatlar; qiymətli kağızların çap edilməsi üçün avadanlıq və belə avadanlığın istehsalı üçün avadanlıq; qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr və prekursorlar, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr və prekursorlar, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq; partlayıcı maddələr və qurğular, tez alışan maddələr və pirotexniki məmulatlar; ozondağıdıcı maddələr və tərkibində belə maddələr olan məhsullar; narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, həmin maddələri hazırlamaq və ya emal etmək üçün avadanlıq; gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələr; radiomüşahidə və radionəzarət aparmaq üçün geniş tezlik diapazonlu radioqəbuledici qurğular; Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc meyarı həddindən artıq olan radioötürücülər; əməliyyat-axtarış fəaliyyəti subyektlərinin, hərbi qulluqçuların və prokurorluq işçilərinin fərqlənmə nişanları olan hərbi və xüsusi geyim formaları.

Əlavə olaraq CM-in 233-1-ci maddəsinin şərhinə bax.

10. CM-in 192.1-ci maddəsində nəzərdə tutulan cinayət vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulduğu, habelə xeyli miqdarda gəlir əldə edildiyi andan **başa çatmış** hesab edilir. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən təhlil edilən maddədə **xeyli miqdar** ziyan dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür.

Vurulmuş ziyan dövlətə, təşkilatlara və ya vətəndaşlara dəymiş əmlak itkisində, ayrı-ayrı şəxslərin sağlamlığına dəymiş zərərdə, habelə əldən çıxmış mənfəətdə ifadə oluna bilər. Hər bir halda vurulmuş ziyanla təqsirkarın kriminal əməli arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

Əldə edilmiş gəlir dedikdə təqsirkarın qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdiyi pul vəsaitlərinin, əmlakın və pulla ifadə oluna bilən digər maddi dəyərlərin məcmusu başa düşülməlidir. Belə gəlirin tərkibi və onun hesablanması qaydası şərh edilən maddədə nəzərdə tutulmadığından onun miqdarı müəyyən olunarkən vergi qanunvericiliyinə əsasən vergi qoyulan obyektlərin müəyyən edilməsi qaydalarından istifadə edilə bilər. Əldə edilmiş gəlirin miqdarı **iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmadıqda** CM-in 192.1-ci maddəsi üzrə cinayət məsuliyyəti mövcud olacaqdır (CM-in 190-cı maddəsinin «Qeyd»i).

11. Təhlil edilən cinayətin **subyektiv cəhəti birbaşa** və ya **dolayı qəsdlə** ifadə olunmuşdur. Təqsirkar qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olduğunu dərk edir, bununla vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli ziyan vuracağını, habelə xeyli miqdarda gəlir əldə edəcəyini qabaqcadan görür və bunu arzu edir və ya buna şüurlu surətdə yol verir. Cinayətin **motiv** və **məqsədi** tövsif üçün əhəmiyyət kəsb etmir.

12. Bu cinayətin **subyekti 16** yaşına çatmış, həyata keçirdiyi fəaliyyətlə əlaqədar dövlət qeydiyyatına alınmalı, xüsusi razılıq (lisenziya) almalı və ya lisenziyalaşdırma şərtlərinə riayət etməli olan şəxs ola bilər. Qeyd edilən **vəzifənin olmaması** təhlil edilən əməl üzrə cinayət məsuliyyətini istisna edir.

Şərh olunan maddənin «Qeyd»inə əsasən **CM-in 192.1-ci maddəsində** nəzərdə tutulan əməli ilk dəfə törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə **cinayət məsuliyyətindən azad olunur.**

13. CM-in 192.2-ci maddəsində qanunsuz sahibkarlığın aşağıdakı **ağırlaşdırıcı tərkib** əlamətləri nəzərdə tutulmuşdur: CM-in 192.1-ci maddəsində göstərilən əməllərin külli miqdarda ziyan vurmaqla törədilməsi; külli miqdarda gəlir əldə etməklə törədilməsi; həmin əməllərin mütəşəkkil dəstə tərəfindən törədilməsi.

Qanunsuz sahibkarlıq nəticəsində vurulan **ziyan** (CM-in 192.2.1-ci maddəsi) və **əldə edilən gəlir** (CM-in 192.2.2-ci maddəsi) o halda **külli miqdarda** olacaqdır ki, onun məbləği yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ olsun (CM-in 190-cı maddəsinin qeydi).

Mütəşəkkil dəstənin ümumi anlayışı CM-in 34.3-cü maddəsində verilmişdir. Qanunsuz sahibkarlığın mütəşəkkil dəstə tərəfindən törədilməsi bu əməlin ictimai təhlükəliliyini dəfələrlə artırır, çünki belə sahibkarlıqdan əldə edilən gəlir mütəşəkkil dəstənin «maliyyələşdirilməsinə» sərf edilir ki, bu da həmin dəstənin stabilliyini, təhlükəliliyini artırır. Əməlin bu əlamət üzrə tövsifi zamanı CM-in 35-ci maddəsinin göstərişlərinə riayət edilməlidir.

14. Təhlil edilən cinayətlə CM-in 213-cü maddəsində nəzərdə tutulmuş cinayət (vergi ödəməkdən yayınma) arasında rəqabət yarana bilər, çünki əksər hallarda qanunsuz sahibkarlıqla məşğul olmaqdan məqsəd vergi ödəməkdən yayınmaq olur. Bu zaman təqsirkarın törətdiyi cinayətin **subyektiv cəhəti** əsas götürülməli və təqsirkarın vergi ödəməkdən yayınmaq məqsədi ilə qanunsuz sahibkarlıq cinayətinin obyektiv cəhətinə daxil olan əməlləri törətməsi müəyyən edilərsə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 192-ci və 213-cü maddələri üzrə tövsif edilməlidir.

Maddə 192-1. Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi

192-1.1. Lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192-1.2. Qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsi vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192-1.3. Bu Məcəllənin 192-1.1 və ya 192-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

192-1.3.1. təkrar törədildikdə;

192-1.3.2. külli miqdarda ziyan vurduqda və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə;

192-1.3.3. mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 30 sentyabr 2011-ci il və 6 may 2016-cı il tarixli qanunları ilə əlavə edilmişdir — «Azərbaycan» q., 27 noyabr 2011-ci il; 25 may 2016-cı il).*

1. CM-in 192-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** qismində lotereyaların və idman mərc oyunlarının qanunvericiliyə uyğun olaraq təşkili və ya keçirilməsi sahəsində yaranan ictimai münasibətlər, o cümlədən dövlətin, təşkilatların və ya vətəndaşların qanunla qorunan mənafeləri çıxış edir.

Lotereyalar haqqında qanunvericiliyə uyğun həyata keçirilən lotereya fəaliyyəti iqtisadi fəaliyyət subyektlərinin öz maraqlarını insanların maraqları ilə uzlaşdıraraq hər iki tərəfin qarşılıqlı mənfəət əldə etmələrini stimullaşdırır. Digər tərəfdən, lotereyalar əhalinin sosial-maddi rifahının yüksəldilməsinin və dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsinin, dövlət büdcəsinə daxilolmaların artırılmasının, malların (işlərin, xidmətlərin) satışının stimullaşdırılması üçün əhəmiyyətli iqtisadi alətlərdən biridir. Lotereyalar haqqında qanunvericiliyin tələblərinin pozulması, xüsusilə buna hüququ olmayan şəxslər tərəfindən lotereyaların təşkili və ya keçirilməsi qanunsuz gəlir əldə edilməsinə, xeyli sayda insanın dələduzluq və digər cinayət əməllərinin qurbanı olmasına, cəmiyyətdə, ailələrdə sosial gərginliyin artmasına və s. gətirib çıxarır. Qanunverici əməlin qeyd olunan ictimai təhlükəliliyini nəzərə alaraq CM-ə 192-1-ci maddənin əlavə edilməsini zəruri hesab etmişdir.

2. Şərh olunan cinayətin **obyektiv cəhəti** ibarətdir: 1) lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsində ifadə olunan hərəkətdən; 2) həmin hərəkətlər nəticəsində vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulması, yaxud xeyli miqdarda gəlir əldə edilməsindən; 3) lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi ilə vurulmuş ziyan, yaxud əldə edilmiş gəlir arasında səbəbli əlaqənin olmasından.

Bu cinayət **maddi tərkiblidir**, ona görə də bu maddə ilə cinayət məsuliyyətinin yaranması üçün ictimai təhlükəli nəticə – vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulması, yaxud xeyli miqdarda gəlir əldə edilməsi zəruridir. Belə nəticələrin baş verməsinə yönəldilməyən hərəkətlər Azərbaycan Respublikası İXM-in 401-ci maddəsi ilə inzibati məsuliyyətə səbəb olur. Qeyd olunan nəticələrə nail olunması niyyətilə lotereyaların keçirildiyi hallarda arzu olunan nəticə baş vermədikdə əməl CM-in 192-1-ci maddəsində nəzərdə tutulan cinayətə **cəhd kimi** tövsif edilməlidir.

3. Lotereya keçirilməsi oyun sayılır. «Lotereyalar haqqında» Azərbaycan Respublikasının 5 mart 2004-cü il tarixli Qanununun 2.0.1-ci maddəsinə görə **lotereya** dedikdə lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) yayılması, lotereya iştirakçıları arasında uduş fondunun oynanılması və uduşlu lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) sahiblərinə uduşların verilməsi (ödənilməsi) yolu ilə keçirilən kütləvi oyun başa düşülür.

Qanunla lotereyanın bir neçə növü fərqləndirilir: stimullaşdırıcı lotereya; tirajlı lotereya; ani lotereya; məqsədli lotereya.

Stimullaşdırıcı lotereya dedikdə malın (işin, xidmətin) satışına kömək etmək məqsədilə həmin malı (işi, xidməti) almış şəxslər arasında keçirilən oyun forması başa düşülür. **Tirajlı lotereya** odur ki, uduş fondu əvvəlcədən təyin olunmuş vaxtda keçirilir. Uduşu lotereyanın iştirakçısı tərəfindən lotereyada iştirak hüququnu təsbit edən lotereya bileti əldə etdikdən dərhal sonra digər lotereya iştirakçılarından asılı olmadan müəyyən olunan lotereya **ani lotereya** adlanır. Əgər lotereya dövlət əhəmiyyətli layihənin maliyyələşdirilməsi məqsədi ilə keçirilərsə, bu, **məqsədli lotereya** adlanır.

Şərh olunan maddədə nəzərdə tutulmuş cinayətə görə məsuliyyət stimullaşdırıcı lotereya istisna olmaqla, lotereyanın bütün digər növləri ilə əlaqədar yaranır.

4. Şərh olunan cinayətə görə məsuliyyət o halda yaranır ki, lotereyalar (stimullaşdırıcı lotereyalar istisna olmaqla) **buna hüququ olmayan şəxs** tərəfindən təşkil edilsin və ya keçirilsin.

Lotereyanın təşkili dedikdə lotereyanın təşkilatçısı tərəfindən lotereyanın qeydiyyatdan keçirilməsi, lotereyanın şərtlərinin müəyyən edilməsi, lotereya biletlərinin tərtib edilməsi (biletin forma və məzmununun müəyyən edilməsi), uduş fondunun formalaşdırılması, tiraj komissiyasının yaradılması, lotereyanın reklamı və s. hərəkətlər başa düşülür. **Lotereya oyununun təşkilatçısı** dedikdə öz adından və ya digər şəxsin tapşırığı ilə lotereyanı təşkil edən və keçi-

rən hüquqi şəxs başa düşülür («Lotereyalar haqqında» Azərbaycan Respublikasının 5 mart 2004-cü il tarixli Qanununun 2.0.10-cu maddəsi). Deməli, bütün hallarda lotereyanı hüquqi şəxslər təşkil edə və keçirə bilər. Lakin nəzərə almaq lazımdır ki, cinayətin subyekti qismində yalnız fiziki şəxslər çıxış edə bilər. Ona görə də lotereyaların təşkili və ya keçirilməsinə görə cinayət məsuliyyətinə öz adından və ya digər şəxsin tapşırığı ilə lotereyanı təşkil edən və keçirən hüquqi şəxsin rəhbəri (prezidenti, direktoru, sədri və s.), yaxud onun səlahiyyətlərini icra edən digər şəxs cəlb edilə bilər. Hüquqi şəxsə lotereyanı təşkil etmək və keçirmək **tapşırığı verən digər şəxsin əməli** bu cinayətin iştirakçısının (cinayətin təşkilatçısının və ya təhrikçisinin) əməli kimi tövsif edilməlidir.

Digər tərəfdən, fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilən CM-in 99-4.6-cı maddəsində sadalanan cinayətlər sırasında şərh olunan cinayət olmadığı üçün bu cinayətin törədilməsi **hüquqi şəxsin barəsində** cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə səbəb ola bilməz.

Lotereyanın keçirilməsi dedikdə uduş fondunun oynanılması prosesi başa düşülür. Uduş fondunun oynanılması lotereyanın şərtlərinə uyğun, lotereya biletinin uduşlu olub-olmamasının təsadüf prinsipi əsasında müəyyənləşdirildiyi və uduş fondunun müəyyən hissəsinə mülkiyyət hüququnun yarandığı prosesdir.

5. Lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna **hüququ olmayan şəxs** tərəfindən təşkili və ya keçirilməsi dedikdə hüquqi şəxs statusu olmayan şəxslərin (sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs və s.) adından, yaxud onların tapşırığı ilə, yaxud hər hansı fiziki şəxsin lotereyanı təşkil etməsi və ya keçirməsi, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən müəyyən edilməmiş şəxs tərəfindən, habelə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının qeydiyyata almadığı lotereyaları təşkil edən və ya keçirən şəxs başa düşülür. Lotereya yalnız Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının qeydiyyata aldığı lotereyalar və həmin Palatanın müəyyənləşdirdiyi lotereya təşkilatçısı tərəfindən təşkil edilə və keçirilə bilər.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının qeydiyyata almaqdan imtina etdiyi, təşkilini və keçirilməsini dayandırdığı və ya keçirilməsinə xitam verdiyi lotereyaların təşkili və keçirilməsi də qanunla qadağan olunur və belə hallarda lotereyaları təşkil edən və keçirən şəxs cinayət məsuliyyətinə cəlb edilməlidir.

Lotereyaların buna hüququ olmayan şəxs tərəfindən təşkili və keçirilməsi biri digərini tamamlayan hərəkətlər olsa da, bir-birinə alternativ əməllərdir və ayrı-ayrılıqda həmin əməllərin şərh olunan maddənin dispozisiyasında göstərilən nəticələrə səbəb olması cinayət məsuliyyəti yaradır.

6. CM-in 192-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayət maddi tərkiblidir və vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulduğu, yaxud xeyli miqdarda gəlir əldə edildiyi andan **başa çatmış** sayılır. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən təhlil edilən maddədə **xeyli miqdar** ziyan dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür. **Vurulmuş ziyan** dövlətin, təşkilatların və ya vətəndaşların əmlak itkisində ifadə oluna bilər. Vurulmuş ziyanla lotereyaların təşkili və keçirilməsi arasında **səbəbli əlaqə** olmalıdır. Vurulmuş ziyan məsələsi həll edilərkən lotereya iştirakçılarının uduş nəticəsində əldə edəcəkləri, lakin əldən çıxmış gəlirləri nəzərə alınmır, vurulmuş real ziyan əsas götürülür.

Əldə edilmiş gəlir dedikdə lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi nəticəsində onun əldə etdiyi pul vəsaitləri, əmlak başa düşülməlidir. Əldə edilmiş gəlirin məbləği iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ olduqda CM-in 192-1.1-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.

7. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs buna hüququ olmadan lotereyaları (stimullaşdırıcı lotereyalar istisna olmaqla) təşkil etdiyinin və ya keçirdiyinin cinayət olduğunu dərk edir, həmin əməllər nəticəsində vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vuracağını, habelə xeyli miqdarda gəlir əldə edəcəyini qabaqcadan görür və bunları arzu edir. Cinayətin **motiv** və **məqsədi** cinayət tərkibinin zəruri əlamətləri kimi nəzərdə tutulmur, ona görə də tövsif üçün əhəmiyyət kəsb etmir.

8. CM-in 192-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti 16** yaşına çatmış, anlaqlı fiziki şəxsdir.

9. **CM-in 192-1.2-ci maddəsində** qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsinə görə müstəqil cinayət tərkibi nəzərdə tutulmuşdur.

Bu cinayətin **obyekti** bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi üçün əlavə maliyyə vəsaitlərinin cəlb edilməsinə və bu sahənin maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə xidmət edən idman mərc oyunlarının qanunla müəyyən edilmiş qaydalara uyğun olaraq təşkili və keçirilməsi ilə əlaqədar yaranan münasibətlərdir.

10. Şərh olunan cinayət **obyektiv cəhətdən** qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsindən ibarət olan hərəkətdə və həmin hərəkətin nəticəsi olaraq vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulmasında, habelə xeyli miqdarda gəlir əldə edilməsində ifadə olunur. Sadalanan hərəkətlərlə baş vermiş nəticələr arasında səbəbli əlaqə olmalıdır.

11. «Bədən tərbiyəsi və idman haqqında» 30 iyun 2009-cu il tarixli Azərbaycan Respublikası Qanununun 1.0.27-ci maddəsinə əsasən **idman mərc oyunları** idman yarışlarının nəticəsinin əvvəlcədən təxmin edilməsinə əsaslanaraq oynanılan və iştirak edənlər arasında düzgün təxmin edənlərə əvvəlcədən elan olunmuş meyarlar əsasında mükafat qazandıran oyunlardır. İdman mərc oyunları idmanın futbol, basketbol, Formula 1 və ya Moto GP (Grand Prix: Qran-Pri) yarışları, habelə tennis, voleybol, həndbol, su polosu və ya nəticələri qol, yaxud set olaraq ifadə edilən bütün digər idman oyunları üzrə keçirilə bilər (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 avqust 2010-cu il tarixli, 153 nömrəli qərarı ilə təsdiq edilmiş «İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları»nın 7-9-cu bölmələri və 10.1-ci bəndi). Adı çəkilən Qay-

dalar sabit ehtimallı mərc oyunlarını (nəticələrin proqnoz edilməsinə əsaslanmaq şərtilə oynanılan və iştirakçılar arasında doğru ehtimalı tapanlara əvvəlcədən elan edilən əmsala uyğun olaraq hesablanacaq uduş qazandıran mərc oyunları) və müştərək mərc oyunlarını (mərc oyunlarının iştirakçıları tərəfindən ödənilən ümumi məbləğin əvvəlcədən elan olunmuş hissəsinin nəticəni düzgün tapan iştirakçılar arasında uduş kimi bölüşdürüldüyü mərc oyunları) fərqləndirir. Cinayət məsuliyyətinin yaranması üçün təşkil edilən və ya keçirilən oyunların növünün əhəmiyyəti yoxdur.

İdman mərc oyunlarının təşkili dedikdə mərc oyunlarının təşkili və keçirilməsi üçün istifadə ediləcək texniki bazanın və maliyyə resurslarının əldə edilməsi, idman mərc oyunlarının idarə olunması məqsədilə yüksək texnologiya ilə işləyən informasiya mərkəzinin (mərkəzi mərc sisteminin) və satıcı şəbəkəsinin qurulması, mərc oyunlarını ehtiva edən əmtəə nişanının hazırlanması, bunların reklam edilməsi, iştirakçılar tərəfindən üzərində yerləşdirilmiş xanaları işarələmək yolu ilə mərc oyunlarının oynanması üçün nəzərdə tutulmuş xüsusi formada vərəqənin (kuponun), habelə mərc biletinin çap olunması, oyun iştirakçılarından vəsaitlərin cəlb edilməsi və s. hərəkətlər başa düşülür.

İdman mərc oyunlarının keçirilməsi dedikdə **sabit ehtimallı mərc oyunlarında** oyunun keçirilə bildiyi idman yarışlarının tarixi və saatını, ilkin mərc əmsallarını, müəyyən proqram üçün etibarlı ola biləcək xüsusi şərtləri və idman yarışlarına dair digər məlumatları əhatə edən və Operator tərəfindən tərtib edilən **proqramın yayılması** (dövriyyəyə buraxılması) (proqramda göstərilən sabit ehtimallı mərc oyunlarının qüvvədə olma müddəti mərkəzi mərc sistemində mərc qəbul etmənin sistemə qoşulması ilə başlayır və proqramda müəyyənləşdirilən son oyunun başlanması ilə sona çatır), **müştərək mərc oyunlarında** isə üzərində mərc oyunlarının Operatoru tərəfindən müəyyən edilmiş sayda yarış nömrəsi və ya yarış adı əks olunan kuponların mərc oyununun iştirakçısı tərəfindən müvafiq qaydada işarələnərək mərc oyunları satıcısına verilməsi, mərc oyunları satıcısı tərəfindən həmin kuponların terminala daxil edilməsi, terminaldan alınan və kupon üzərindəki məlumatları əks etdirən mərc biletinin mərc oyununun iştirakçısına verilməsi başa düşülür.

12. **İdman mərc oyunlarını** yalnız Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən **akkreditasiya olunmuş hüquqi şəxs (Operator)** təşkil edə və keçirə bilər («Bədən tərbiyəsi və idman haqqında» Qanunun 53-1.2-ci maddəsi). Akkreditasiya bu barədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin uyğun qərarı ilə rəsmiləşir. İdman mərc oyunlarının akkreditasiya olunmadan təşkili və keçirilməsi cinayət məsuliyyətinin yaranmasının şərtlərindən biri kimi çıxış edir. Hüquqi şəxsin akkreditasiya olunması istəyindən imtina edilməsindən, habelə akkreditasiya barədə qərarın ləğv edilməsindən sonra idman mərc oyunlarının təşkili və ya keçirilməsi şərh olunan maddədə göstərilən nəticələrə səbəb olduqda cinayət məsuliyyəti yaradır.

13. CM-in 192-1.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **maddi** tərkiblidir və vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulduğu, yaxud xeyli miqdarda gəlir əldə edildiyi andan **başa çatmış** sayılır (həmin nəticələr barəsində bu maddənin şərhinin 6-cı bəndinə bax). Belə nəticələrin baş

verməsinə yönəldilməyən hərəkətlər İXM-in 401-ci maddəsi ilə inzibati məsuliyyətə səbəb olur. Qeyd olunan nəticələrə nail olunması niyyətilə idman mərc oyunlarının keçirildiyi hallarda arzu olunan nəticə baş vermədikdə əməl CM-in 192-1.2-ci maddəsində nəzərdə tutulan cinayətə **cəhd kimi** tövsif edilməlidir.

14. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarını təşkil etdiyinin və (və ya) keçirdiyinin cinayət olduğunu dərk edir, həmin əməllər nəticəsində vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vuracağını, habelə xeyli miqdarda gəlir əldə edəcəyini qabaqcadan görür və bunları arzu edir. Cinayətin **motiv** və **məqsədi** cinayət tərkibinin zəruri əlamətləri kimi nəzərdə tutulmur, ona görə də tövsif üçün əhəmiyyət kəsb etmir.

15. CM-in 192-1.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti 16** yaşına çatmış, anlaqlı fiziki şəxsdir. İdman mərc oyunlarının yalnız hüquqi şəxslər tərəfindən təşkil edilməsinə və keçirilə bilməsinə dair qanunun müddəası bu cinayətin subyektinin hüquqi şəxs olması demək deyildir. Ona görə də idman mərc oyunlarının təşkili və ya keçirilməsinə görə cinayət məsuliyyətinə bu oyunları təşkil edən və keçirən hüquqi şəxsin rəhbəri (prezidenti, direktoru, sədri və s.), onun səlahiyyətlərini icra edən şəxs, həmin oyunların təşkilində və keçirilməsində iştirak edən və bu əməllərinin cinayət olduğunu dərk edən hüquqi şəxsin digər səlahiyyətli şəxsləri, habelə hər hansı kənar fiziki şəxs cəlb edilə bilər. Fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilən CM-in 99-4.6-cı maddəsində sadalanan cinayətlər sırasında şərh olunan cinayət olmadığı üçün bu cinayətin törədilməsi hüquqi şəxsin barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiq edilməsinə səbəb ola bilməz.

16. CM-in 192-1.3-cü maddəsində lotereyaların və idman mərc oyunlarının qanunsuz təşkili və ya keçirilməsinin **ağırlaşdırıcı əlamətləri**: 1) həmin cinayətlərin təkrar törədilməsi; 2) külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədilməsi; 3) mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi nəzərdə tutulmuşdur.

Lotereyaların və ya idman mərc oyunlarının təkrar qanunsuz təşkili və ya keçirilməsinə görə o halda cinayət məsuliyyəti yaranacaqdır ki, əvvəl törədilən eyni əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş və cinayət məsuliyyətindən azad edilməmiş, yaxud məhkum edilməmiş olsun.

CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən **külli miqdarda** ziyan və əldə edilmiş gəlir dedikdə yüz min manatdan artıq olan məbləğ başa düşülür.

Cinayətin **mütəşəkkil dəstə** və **cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinin** anlayışı CM-in 34-cü maddəsində verilmişdir.

Maddə 192-2. İdman yarışlarının manipulyasiyası

192-2.1. İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi —

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192-2.2. İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs tərəfindən hər hansı hərəkətə (hərəkətsizliyə) görə onların özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklifin və ya vədin qəbul edilməsi —

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192-2.3. Bu Məcəllənin 192-2.1-ci və 192-2.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

192-2.3.1. təkrar törədildikdə;

192-2.3.2. mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə —

altı ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192-2.4. İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə, yaxud onların yaxın qohumlarına zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, yaxud onların özü və ya yaxın qohumları haqqında rüsvayedici məlumatlar yayma və ya onların özünün və ya yaxın qohumlarının əmlakını tələf etmə hədəsi ilə onların hər hansı hərəkətləri etməsini və ya etməməsini tələb etmə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

192-2.5. Bu Məcəllənin 192-2.4-cü maddəsində nəzərdə tutulmuş əməllər həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 192-2.1-ci, 192-2.2-ci və 192-2.4-cü maddələrində «idman yarışlarının manipulyasiyası» dedikdə şəxsin özünün və ya başqalarının xeyrinə qeyri-qanuni üstünlük əldə etməsi üçün idman yarışlarının gedişatını və ya nəticəsini qəsdən dəyişdirməyə yönəlmiş əməli (hərəkəti və ya hərəkətsizliyi) başa düşülür.

2. Bu Məcəllənin 192-2.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs bu barədə müvafiq dövlət orqanına könüllü məlumat verdikdə və ya bu əməli ona qarşı tətbiq edilən hədə-qorxu nəticəsində etdikdə cinayət məsuliyyətindən azad edilir.

3. Bu Məcəllənin 192-2.2-ci maddəsində nəzərdə tutulmuş əməli öz xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar törətmiş vəzifəli şəxs bu Məcəllənin 311-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb

olunur *(11 noyabr 2016-cı il tarixli, 408-VQD nömrəli Qanunla əlavə edilmişdir - Azərbaycan» q., 18 dekabr 2016-cı il).*

1. CM-in 192-2-ci maddəsində təsbit olunan cinayət Azərbaycan Respublikasının da qoşulduğu Avropa Şurasının «İdman yarışlarının manipulyasiyasına qarşı» 2016-cı il tarixli Konvensiyasının 15-ci maddəsinin müddəalarına uyğun olaraq dövlətimizin üzərinə götürdüyü öhdəliklərin icrası ilə əlaqədar cinayət qanununa daxil edilmişdir. Konvensiyanın 15-ci maddəsinə əsasən hər bir iştirakçı dövlət idman yarışlarının manipulyasiyasına görə cinayət məsuliyyətini o halda müəyyən etməlidir ki, belə manipulyasiya özündə məcburetməni, korrupsiyanı və ya dələduzluğu əhatə etmiş olsun. Məhz bu müddəadan çıxış edən qanunverici CM-in 192-2.1-ci maddəsində rüşvət vermə, 192-2.2-ci maddəsində rüşvət alma, 192-2.4-192-2.5-ci maddələrində isə zor tətbiq etmə və digər məcburetmə vasitələrindən istifadə etməklə idman yarışlarının manipulyasiyasını kriminallaşdırmışdır.

«Bədən tərbiyəsi və idman haqqında» 30 iyun 2009-cu il tarixli Azərbaycan Respublikası Qanununun 40-2.1-ci maddəsinə əsasən idman yarışlarının manipulyasiyası qadağandır. Həmin Qanunun 40-2.2-ci maddəsinə görə idman yarışlarının manipulyasiyası halları ilə mübarizə aparılması qaydalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

2. CM-in 192-2-ci maddəsində nəzərdə tutulan cinayətin **ictimai təhlükəliliyi** beynəlxalq, regional və yerli (milli) səviyyəli olmasından asılı olmayaraq idman oyunlarının nəticələrinin əvvəlcədən müəyyənləşdirilməsinin və bununla da yarışlarda iştirak edən subyektlərin vicdanlı davranma, idman yarışlarının etik qaydalarının pozulması nəticəsində hüquqlarının pozulmasında ifadə olunur. İdman oyunlarının pulla, başqa vasitələrlə «alınması» idmanda ədalətin aradan qalxmasına, pul vəsaitinin əldə edilməsinə hüququ olan şəxslərin bu hüquqdan məhrum edilməsinə, belə bir hüquqa malik olmayanların isə qanunsuz və əsassız varlanmasına gətirib çıxarır. İdman yarışlarının manipulyasiyası xeyli sayda insanın zərər çəkməsi ilə nəticələnir.

3. Bu cinayətin **obyekti** qismində idman yarışlarının beynəlxalq, regional və milli səviyyədə beynəlxalq müqavilələrlə, sazişlərlə, idman təşkilatlarının fəaliyyətini tənzim edən sənədlərlə, qanunlarla, habelə digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydalara uyğun olaraq təşkili, keçirilməsi, nəticələrinin müəyyənləşdirilməsi ilə əlaqədar yaranan münasibətlər çıxış edir. **Əlavə obyekt** qismində əmlakla, həyat və sağlamlığın təhlükəsizliyi ilə bağlı münasibətlər çıxış edir.

CM-in 192-2.1-192-2.2-ci maddələrində nəzərdə tutulan cinayətlərin **predmetini** maddi və ya sair nemət, imtiyaz və ya güzəşt təşkil edir. Həmin anlayışların izahı barədə CM-in 311-ci maddəsinin şərhinin 3-cü bəndinə bax.

5. Şərh olunan cinayət «İdman yarışlarının manipulyasiyası» adlansa da, maddələrin dispozisiyalarında «manipulyasiya» cinayət tərkibinin obyektiv cəhətinin əlaməti kimi deyil, cinayətin məqsədi qismində nəzərdə tutulmuşdur.

6. CM-in 192-2-ci maddəsində təsbit olunmuş cinayət əməlləri üstündə məsuliyyət istənilən idman yarışının manipulyasiyasına görə yaranmır. «İdman yarışlarının manipulyasiyasına qarşı»2016-cı il tarixli Konvensiyanın 3-cü mad-

dəsinin 1-ci bəndinə görə «**idman yarışları**» dedikdə bu Konvensiyanın həyata keçirilməsi üzrə Komitə tərəfindən tərtib olunan siyahıya daxil edilmiş, beynəlxalq idman təşkilatı və ya zəruri olduqda digər səlahiyyətli idman təşkilatı tərəfindən tanınmış idman təşkilatlarının müəyyənləşdirdikləri qaydalara uyğun olaraq təşkil olunan istənilən idman tədbiri başa düşülür.

Beləliklə, CM-in 192-2-ci maddəsində təsbit olunmuş cinayət tərkiblərinin yaranması üçün aşağıdakı **şərtlər** tələb olunur:

1) idman yarışını «İdman yarışlarının manipulyasiyasına qarşı» 2016-cı il tarixli Avropa Konvensiyasının həyata keçirilməsi üzrə Komitə tərəfindən tərtib olunan siyahıya daxil edilmiş və beynəlxalq idman təşkilatı (zəruri olduqda digər səlahiyyətli idman təşkilatı) tərəfindən tanınmış idman təşkilatı təşkil etməlidir;

2) idman yarışı yuxarıda adı çəkilən siyahıya daxil edilmiş və beynəlxalq idman təşkilatı (zəruri olduqda digər səlahiyyətli idman təşkilatı) tərəfindən tanınmış idman təşkilatının müəyyən etdiyi qaydalara uyğun olaraq təşkil olunmalıdır.

Sadalanan şərtlərdən hər hansı birinin olmaması şərh olunan maddə ilə cinayət məsuliyyətini istisna edir. Başqa sözlə, Beynəlxalq Komitənin tərtib etdiyi siyahıya daxil edilməmiş hər hansı idman təşkilatının və ya belə siyahıya daxil edilsə də, beynəlxalq idman təşkilatı (zəruri olduqda digər səlahiyyətli idman təşkilatı) tərəfindən tanınmamış idman təşkilatının təşkil etdiyi, yaxud müvafiq siyahıya daxil edilmiş və beynəlxalq idman təşkilatı tərəfindən tanınmış idman təşkilatının müəyyən etdiyi qaydalara uyğun olmayan idman yarışları ilə əlaqədar CM-in 192-2-ci maddəsində əks olunan əməllərə görə cinayət məsuliyyəti yarana bilməz. Məsələn, məktəblərin öz aralarında təşkil etdikləri futbol yarışında manipulyasiya bu maddə ilə cinayət məsuliyyəti yaratmır.

Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinə görə **idman təşkilatı** dedikdə «İdman yarışlarının manipulyasiyasına qarşı» 2016-cı il tarixli Avropa Konvensiyasının həyata keçirilməsi üzrə Komitə tərəfindən tərtib olunan siyahıya daxil edilmiş, idmanı və ya idmanın hər hansı bir növünü idarə edən istənilən təşkilat, habelə zəruri olduqda belə təşkilatlara aidiyyəti olan qitə (kontinental) və milli təşkilatlar başa düşülür.

Yarışın təşkilatçısı dedikdə təşkilati-hüquqi formasından asılı olmayaraq idman yarışını təşkil edən istənilən idman təşkilatı və ya istənilən başqa şəxs başa düşülür (Konvensiyanın 3-cü maddəsinin 3-cü bəndi).

7. CM-in 192-2.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** idman yarışlarının manipulyasiyası məqsədi ilə aşağıdakı əməllərin törədilməsi ilə xarakterizə olunur:

1) idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt təklif olunması;

2) idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt

vəd edilməsi;

3) idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt verilməsi.

Cinayətin obyektiv cəhətinə daxil olan əməllərin izahı barədə CM-in 312-ci maddəsinin 4-6-cı bəndlərinə bax.

8. CM-in 192-2.1-ci maddəsində nəzərdə tutulan cinayətə görə məsuliyyətin yaranması üçün maddi və ya sair nemət, imtiyaz və ya güzəşt idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə təklif olunmalı, vəd edilməli və ya verilməlidir. Sadalanan şəxslər CM-in 192-2.2-ci maddəsində əks olunan cinayətin subyektləridirlər.

CM-in 192-2.1-192-2.2-ci maddələrində **idmançı** dedikdə idman yarışlarında iştirak edən istənilən şəxs və ya şəxslər qrupudur (Konvensiyanın 3-cü maddəsinin 6-cı bəndinin «a» yarımbəndi). İdmançının yarışda real olaraq iştirak edib-etməməsinin cinayət məsuliyyətinin yaranması üçün əhəmiyyəti yoxdur. Şəxsin idmançı sayılması üçün onun adı idmançılar siyahısında olmalıdır. **İdman hakimi** dedikdə necə adlandırılmasından asılı olmayaraq idman yarışını idarə edən şəxs, yaxud hakimlər heyətinin hər bir üzvü başa düşülür. Konvensiyada idman hakimi rəsmi şəxs hesab edilir, ona görə də yalnız o şəxslər idman hakimi hesab edilirlər ki, onlar idman hakimi kimi rəsmi təyin olunsunlar. **Məşqçi** dedikdə idman yarışlarında iştirak edən idmançıların yarışa hazırlanmasını, yarış zamanı müəyyən vaxtlarda səlahiyyəti qaxilində idmançıların fəaliyyətini idarə (tənzim) edən, məşqçilər siyahısında yer alan şəxs və ya məşqçilər qrupunun istənilən üzvü başa düşülür. Məşqçinin idman yarışları keçirilən yerdə olub-olmamasının cinayət məsuliyyətinin yaranması üçün əhəmiyyəti yoxdur. **Sponsor** dedikdə idman yarışlarının təşkili və keçirilməsini, yaxud idmançını (idmançıları) və ya komandanı maliyyələşdirən şəxs başa düşülür.

9. CM-in 192-2.1-192-2.5-ci maddələrində nəzərdə tutulan cinayətlər **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** forması ilə xarakterizə olunur. Cinayət törədən şəxs həmin maddələrin dispozisiyalarında göstərilən əməlləri törətdiyini dərk edir və bunu etməyi arzu edir. Məqsəd cinayət tərkiblərinin zəruri əlamətidir. Bu cinayətin törədilməsində **məqsəd** idman yarışlarının manipulyasiyasıdır. Şərh olunan maddənin «Qeyd»inin 1-ci bəndinə görə «**idman yarışlarının manipulyasiyası**» dedikdə şəxsin özünün və ya başqalarının xeyrinə qeyri-qanuni üstünlük əldə etməsi üçün idman yarışlarının gedişatını və ya nəticəsini qəsdən dəyişdirməyə yönəlmiş əməli (hərəkəti və ya hərəkətsizliyi) başa düşülür. Konvensiyada «idman yarışlarının manipulyasiyası»na fərqli anlayış verilmişdir. Konvensiyanın 3-cü maddəsinin 4-cü bəndinə əsasən «idman yarışlarının manipulyasiyası» özü və ya başqa şəxslər üçün üstünlüyü təmin etmək məqsədilə konkret idman yarışına xas olan gözlənilməzliyi tam və ya qismən aradan qaldırmaq üçün idman yarışının gedişinin və ya nəticəsinin qanunsuz olaraq dəyişdirilməsinə yönələn əvvəlcədən düşünülmüş razılıq, hərəkət və ya hərəkətsizlikdir. Digər hər hansı məqsədlə CM-in

192-2.1-192-2.5-ci maddələrində göstərilən əməllərin törədilməsi şərh olunan maddə ilə cinayət məsuliyyətini istisna edir.

10. CM-in 192-2.1-ci maddəsində əks olunan cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər. Belə şəxs qismində yarış iştirakçıları – oyunçu, məşqçi, idman hakimi, idman yarışını təşkil edən qurumun rəhbəri, habelə istənilən başqa şəxs çıxış edə bilər.

11. Şərh olunan maddənin «Qeyd»inin 2-ci bəndinə görə CM-in 192-2.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs bu barədə müvafiq dövlət orqanına könüllü məlumat verdikdə və ya bu əməli ona qarşı tətbiq edilən hədə-qorxu nəticəsində etdikdə **cinayət məsuliyyətindən azad edilir.** Cinayət məsuliyyətindən azad edilmənin bu halının izahı barədə CM-in 312-ci maddəsinin şərhinin 10-12-ci bəndlərinə bax.

12. CM-in 192-2.2-ci maddəsində təsbit olunan cinayət **obyektiv cəhətdən** idman yarışlarının manipulyasiyası məqsədi ilə aşağıdakı əməllərin törədilməsi ilə xarakterizə olunur:

1) idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs tərəfindən hər hansı hərəkətə (hərəkətsizliyə) görə onların özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi;

2) idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs tərəfindən hər hansı hərəkətə (hərəkətsizliyə) görə onların özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin alınması;

3) idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs tərəfindən hər hansı hərəkətə (hərəkətsizliyə) görə onların özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt barədə təklifin və ya vədin qəbul edilməsi.

Cinayətin obyektiv cəhəti ilə bağlı halların izahı barədə CM-in 311-ci maddəsinin şərhinin 4, 8-12-ci bəndlərinə bax.

13. CM-in 192-2.2-ci maddəsində əks olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs idman yarışlarının manipulyasiyası məqsədi ilə idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs tərəfindən hər hansı hərəkətə (hərəkətsizliyə) görə onların özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklifin və ya vədin qəbul edilməsinin cinayət olduğunu dərk edir və bunları törətməyi arzu edir.

Bu cinayətin törədilməsində **məqsəd** idman yarışlarının manipulyasiyasıdır. Cinayətin məqsədi barədə bu maddənin şərhinin 9-cu bəndinə bax.

14. Bu cinayətin **subyekti 16** yaşına çatmış idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs ola bilər. Həmin subyektlərə dair izaha bu maddənin şərhinin 8-ci bəndinə bax.

CM-in 192-2.2-ci maddəsində nəzərdə tutulmuş əməli öz xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar törətmiş vəzifəli şəxs bu maddə ilə

deyil, CM-in 311-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb olunur (şərh olunan maddənin «Qeyd»inin 3-cü bəndi).

15. CM-in 192-2.3-cü maddəsində idman yarışlarının manipulyasiyasının aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** müəyyən edilmişdir: 1) CM-in 192-2.1-ci və 192-2.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin təkrar törədilməsi (CM-in 192-2.3.1-ci maddəsi); 2) həmin əməllərin mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi (CM-in 192-2.3.2-ci maddəsi).

Həmin əlamətlərin izahı barədə CM-in 311-ci maddəsinin şərhinin 17-18-ci bəndlərinə bax. Cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinin xüsu-siyyətləri haqqında əlavə olaraq CM-in 34-cü maddəsinə bax.

16. CM-in 192-2.4-cü maddəsində nəzərdə tutulan **cinayətin obyektiv cəhəti** idman yarışlarının manipulyasiyası məqsədi ilə idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə, yaxud onların yaxın qohumlarına: 1) zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmədə; və 2) onların özü və ya yaxın qohumları haqqında rüsvayedici məlumatlar yayma və ya onların özünün və ya yaxın qohumlarının əmlakını tələf etmə hədəsi ilə onların hər hansı hərəkətləri etməsini və ya etməməsini tələb etmədə ifadə olunur.

CM-in 192-2.4-cü və 192-2.5-ci maddələrinin müqayisəsi əsasında demək olar ki, 192-2.4-cü maddədə nəzərdə tutulan zor **həyat və ya sağlamlıq üçün təhlükəli olmayan** zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsini xarakterizə edir. Həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsinin izahı barədə CM-in 180-ci maddəsinin şərhinin 8-9-cu bəndlərinə bax.

İdmançı, idman hakim, məşqçi, sponsor və ya digər şəxs və ya onların yaxın qohumları haqqında rüsvayedici məlumatlar yayma və ya onların özünün və ya yaxın qohumlarının əmlakını tələf etmə hədəsi ilə tələb etmə əməllərinin izahı haqqında CM-in 182-ci maddəsinin şərhinin 8-9-cu bəndlərinə bax.

CM-in 182-ci maddəsində əks olunan cinayətin predmeti əmlak, əmlaka olan hüquq, əmlak xarakterli hərəkətlər olduğu halda, CM-in 192-2.4-cü maddəsində zərərçəkmişlərin və ya onların yaxın qohumlarının hər hansı hərəkətləri etməsi və ya etməməsidir.

Cinayətin törədilmə üsulu kimi zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə, yaxud rüsvayedici məlumatlar yayma və ya əmlakı tələf etməklə hədələmə əməlləri təqsirkarın zərərçəkmişlərdən və ya onların yaxın qohumlarından idmançının idman yarışında məğlub olmasını (olmalarını), qalib gəlməsini istədikləri idmançının (komandanın) xeyrinə qərar qəbul edilməsini, idmançıya (komandanın üzvlərinə) məğlubiyyətə səbəb olan göstərişlərin verilməsini, yaxud müəyyən hərəkətlər etməli olduqları halda belə hərəkətlərdən çəkinməklə idman yarışının gedişini və ya nəticəsini dəyişməyi tələb etmədə və sair əməllərdə ifadə oluna bilər.

CM-in 192-2.4-cü maddəsində təsbit olunan cinayət həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya zor tətbiq etməklə **hədə edildiyi andan,** rüsvayedici məlumatlar yayma və ya onların özünün və ya yaxın qohumlarının əmlakını tələf etmə hədəsi ilə onların hər hansı hərəkətləri etməsi-

nin və ya etməməsinin **tələb edildiyi andan başa çatmış** hesab edilir.

CM-in 192-2.4-cü maddəsində əks olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar maddənin dispozisiyasında göstərilən əməllərin törədilməsinin ictimai təhlükəliliyini dərk edir və belə əməlləri törətməyi arzu edir.

Bu cinayətin **subyekti 16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

17. CM-in 192-2.4-cü maddəsində nəzərdə tutulmuş əməllərin həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədilməsi həmin maddədə göstərilən cinayətin **ağırlaşdırıcı tərkibidir. Həyat və ya sağlamlıq üçün təhlükəli olan** zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsinin izahı barədə CM-in 181-ci maddəsinin şərhinin 4-8-ci bəndlərinə bax.

18. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in 192-2-ci maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 193. Yalançı sahibkarlıq

193.1. Yalançı sahibkarlıq, yəni kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılması xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

193.2. Eyni əməllər:

193.2.1. külli miqdarda ziyan vurduqda;

193.2.2. külli miqdarda gəlir əldə etməklə törədildikdə;

193.2.3. mütəşəkkil dəstə tərəfindən törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

193.3. Bu Məcəllənin 193.1 və 193.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

193.3.1. xüsusilə külli miqdarda ziyan vurduqda;

193.3.2. xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 26 dekabr 2000-ci il, 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — Azərbaycan Respublikası, QT, 2001, №1, m.24; «Azərbaycan» q.,*

7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).

1. CM-in 193-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkibi Respublikanın cinayət qanunvericiliyi üçün yenidir. Maddənin dispozisiyasında kriminal hesab edilmiş əməllər normal iqtisadi münasibətlərin bərqərar olmasını və inkişaf etməsini təhlükə altına aldığından onların törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

2. Təhlil edilən cinayətin **obyekti** bazar iqtisadiyyatı şəraitində təşəkkül tapan normal sahibkarlıq fəaliyyəti ilə bağlı ictimai münasibətlərdir. Yalançı sahibkarlıq, yəni əsas məqsədi qanuni təsərrüfat-kommersiya fəaliyyəti ilə məşğul olmaq olmayan kommersiya təşkilatlarının yaradılması bazar münasibətləri iştirakçılarının aldadılmasına, maddi sərvətlərin dövlət nəzarətindən kənar kriminal məqsədlərə nail olma vasitəsinə çevrilməsinə səbəb olur ki, bunun da nəticəsində dövlətə, ayrı-ayrı təsərrüfat subyektlərinə, habelə vətəndaşlara mühüm ziyan yetirilir.

3. Yalançı sahibkarlığın **obyektiv cəhəti** sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılmasından, belə əməlin nəticəsində xeyli miqdarda ziyan vurulmasından, habelə xeyli miqdarda gəlir əldə etməkdən və həmin əməllə vurulmuş ziyan arasında səbəbli əlaqənin olmasından ibarətdir.

4. Təqsirkarın kriminal əməli sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılmasında ifadə olunur.

Müəssisə mülkiyyət formasından asılı olmayaraq qanununa müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir.

MM-in 43.1-ci maddəsinə əsasən **hüquqi şəxs** qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və ya həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir.

Mülki hüquqdan məlum olduğu kimi, müəssisə də hüquqi şəxsdir. Lakin təcrübədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər çox vaxt məhz müəssisə formasında yaradıldığından qanunverici təhlil edilən maddədə «müəssisə» terminini işlətmişdir.

Müəssisələrin və digər hüquqi şəxslərin formaları və növləri MM-in 4-cü fəslində verilmişdir. Lakin şərh edilən cinayətin obyektiv cəhətini istənilən hüquqi şəxsin deyil, yalnız kommersiya hüquqi şəxslərinin yaradılması əmələ gətirə bilər, çünki qeyri-kommersiya hüquqi şəxslərinin əsas məqsədi, ümumiyyətlə, sahibkarlıq fəaliyyətini həyata keçirmək deyildir (MM-in 43.5-ci maddəsi). Ona görə də qeyri-kommersiya hüquqi şəxslərinin yaradılması, bu, başqa niyyətlə edilmiş olsa da belə, CM-in 193-cü maddəsi ilə məsuliyyətə səbəb ola bilməz.

Hüquqi şəxslərin yaradılması MM-in 44-48-ci maddələri, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının 12

dekabr 2003-cü il tarixli Qanunu ilə, habelə başqa qanunvericilik aktları ilə tənzimlənir. MM-in 44.1-ci maddəsinə əsasən hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Başqa sözlə, hüquqi şəxs **dövlət qeydiyyatına alındığı andan** yaradılmış hesab edilir.

5. Adi halda müəssisə və ya hüquqi şəxsin yaradılması normal hadisədir. Lakin bu, sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan edildikdə, ictimai təhlükəli xarakter kəsb edir. **Sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyətinin olmaması** yalançı hüquqi şəxs yaradılmasında, yəni təsisçinin (təsisçilərin) kommersiya təşkilatının mövcudluğu faktından irəli gələn hərəkətləri etmək məqsədinin olmamasında ifadə oluna bilər. Yalançı hüquqi şəxs yaradılması mahiyyətcə yalançı mülki-hüquqi əqdlərə oxşadığından, sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyətinin olmamasını müəyyən edərkən yalançı mülki-hüquqi əqdlərə qiymət verilməsi zamanı istifadə edilən üsullar tətbiq edilə bilər. Belə niyyətin olmaması hüquqi şəxsin təsis sənədlərindən irəli gələn vəzifələrin yerinə yetirilməməsində, təsis sənədlərində nəzərdə tutulduğundan fərqli fəaliyyətin həyata keçirilməsində, hüquqi şəxsin qarşıya qoyduğu vəzifələrə nail olunması üçün zəruri olan maddi-texniki şəraitin olmamasında və s. təzahür edə bilər.

6. Təhlil edilən cinayət təqsirkarın əməli nəticəsində xeyli miqdarda ziyan vurulduğu, habelə xeyli miqdarda gəlir əldə edildiyi andan **başa çatmış** hesab edilir. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən vurulmuş ziyan, habelə əldə edilmiş gəlir **iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğədək** olduqda xeyli miqdarda hesab edilir.

Vurulmuş ziyan qanunsuz alınmış kreditdən, büdcəyə və büdcədənkənar fondlara ödənilməmiş rüsumlardan, əldən çıxmış mənfəətdən, habelə qadağan edilmiş fəaliyyətlə məşğul olma nəticəsində dəymiş real ziyandan ibarət ola bilər. Hər bir halda yalançı sahibkarlıqla vurulmuş ziyan arasında səbəbli əlaqə olmalıdır.

Əldə edilmiş gəlir anlayışı CM-in 192-ci maddəsində olduğu ilə eynidir (CM-in 192-ci maddəsinin şərhinin 9-cu bəndinə bax).

7. CM-in 193-cü maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** həm **birbaşa**, həm də **dolayı qəsdlə** törədilir. Təqsirkar sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxs yaratdığını dərk edir, bu əməli ilə xeyli miqdarda ziyan vurulacağını, habelə xeyli miqdarda gəlir əldə ediləcəyini qabaqcadan görür və kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə bunu etməyi arzu edir (birbaşa qəsd) və ya buna şüurlu surətdə yol verir (dolayı qəsd).

8. Subyektiv cəhətin daha bir zəruri əlaməti **xüsusi məqsədlərin (kredit almaq, rüsumlardan azad olmaq** və ya **digər əmlak mənfəəti əldə etmək)** olmasıdır. Həmin məqsədlər təqsirkarın qanunsuz hərəkətləri ilə həyata keçirilir, çünki təqsirkar təsis sənədlərində nəzərdə tutulmuş fəaliyyəti həyata keçirmədən həmin krediti, güzəştləri və ya digər mənfəəti almaq hüququna malik deyildir.

Qadağan edilmiş fəaliyyəti gizlətmə yalnız görünüş üçün edilən uydurma

hərəkətlər yolu ilə həyata keçirilir. Belə uydurma hərəkətlər nəticəsində təsis sənədlərində nəzərdə tutulduğundan fərqli məqsədlər güdülür. Yalançı sahibkarlıq fəaliyyəti ilə gizlədilən qadağan edilmiş fəaliyyət kriminal xarakterli olduqda (məsələn, təqsirkar məişət kimyası məmulatları istehsalı adı ilə narkotik maddələr əmal etdikdə) əməl cinayətlərin məcmusu qaydasında tövsif ediləcəkdir (misal göstərilən halda — CM-in 193-cü və 240-cı maddələri ilə).

9. Yalançı sahibkarlıq cinayətinin subyektiv cəhəti özgənin əmlakını talama niyyətini əhatə etmədiyindən, talama niyyəti olduqda, digər əlamətlərin mövcudluğundan asılı olaraq təqsirkarın əməli CM-in 178-ci (dələduzluq) və ya 179-cu (mənimsəmə və ya israf etmə) maddəsi ilə tövsif ediləcəkdir.

Yalançı sahibkarlıq nəticəsində qanunsuz kredit alınması CM-in 195-ci maddəsi ilə tövsif edilə bilməz, çünki belə əməl 193-cü maddə ilə tam ehtiva olunur.

Şərh olunan maddənin «Qeyd»inə əsasən **CM-in 193.1-ci maddəsində** nəzərdə tutulan əməli ilk dəfə törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə **cinayət məsuliyyətindən azad olunur**.

10. CM-in 193.2-ci maddəsində yalançı sahibkarlığın aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** verilmişdir: eyni əməllərin külli miqdarda ziyan vurmaqla törədilməsi; külli miqdarda gəlir əldə etməklə törədilməsi; mütəşəkkil dəstə tərəfindən törədilməsi.

Burada **külli miqdar** dedikdə vurulmuş ziyanın və ya əldə edilmiş gəlirin **yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan** məbləğdə olması başa düşülür (CM-in 190-cı maddəsinin qeydi).

Mütəşəkkil dəstə tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsində verilmişdir.

11. CM-in 193.3-cü maddəsində yalançı sahibkarlıq cinayət tərkibinin **xüsusilə ağırlaşdırıcı halları** nəzərdə tutulmuşdur. Həmin hallara belə əməllərin 1) xüsusilə külli miqdarda ziyan vurmaqla törədilməsi; 2) xüsusilə külli miqdarda gəlir əldə etməklə törədilməsi aiddir.

CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən 193.3.1 və 193.3.2-ci maddələrdə **xüsusilə külli miqdar** dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

Mütəşəkkil dəstə tərəfindən xüsusilə külli miqdarda ziyan vurmaqla törədilən yalançı sahibkarlıq cinayəti CM-in 193.3.1-ci, xüsusilə külli miqdarda gəlir əldə etməklə törədilməsi isə 193.3.2-ci maddəsi ilə tövsif edilməlidir.

Maddə 193-1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma

193-1.1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, yəni:

193-1.1.1. cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədilə belə pul vəsaitlərinin və ya digər əmlakın konversiyası və ya kö-

çürülməsi, yaxud həmin məqsədlərlə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsi;

193-1.1.2. cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə pul vəsaitləri və ya digər əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasının ört-basdır edilməsi və ya gizlədilməsi —

dörd min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

193-1.2. Eyni əməllər:

193-1.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

193-1.2.2. təkrar törədildikdə;

193-1.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə-beş ildən səkkiz iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

193-1.3. Bu Məcəllənin 193-1.1 və ya 193-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

193-1.3.1. mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

193-1.3.2. külli miqdarda törədildikdə —

üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə yeddi ildən on iki iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 193-1.3.2-ci maddəsində «külli miqdar» dedikdə qırx beş min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il, 5 mart 2010-cu il, 7 mart 2012-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə düzəlişlər edilmişdir — «Azərbaycan» q., 13 may 2006-cı il, № 104; 7 iyun 2008-ci il; 21 mart 2010-cu il; 16 mart 2012-ci il; 19 iyul 2017-ci il).*

1. CM-in təhlil edilən maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** bu əməlin bir sıra mühüm ictimai dəyərləri təhlükə altına alması ilə əlaqədardır. Ölkənin normal iqtisadi sistemini sarsıdan həmin əməlin törədilməsi ilə mütəşəkkil cinayətkarlığın maddi-maliyyə bazası formalaşdırılır, kriminal biznes pərdələnmiş olur.

Geniş ictimaiyyət arasında daha çox «çirkli pulların yuyulması» kimi tanınan qanunsuz yollarla əldə edilmiş pul vəsaitini və əmlakı leqallaşdırma müasir dövrdə korrupsiyanın doğurduğu əsas bəlalardan biri və iqtisadi sahədə mütəşəkkil cinayətkarlığın başlıca təzahür formasıdır. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və əmlakın leqallaşdırılması korrupsiyaçı-kriminal ünsürlərin leqal biznesin bütün gəlirli sahələrini tədricən ələ keçirməsi kimi təhlükəli perspektiv vəd edir.

Bu əməlin cinayət hesab edilməsi müsbət haldır (əvvəllər yalnız narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə olunmuş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma cinayət sayılırdı). Lakin qanunverici CM-ə bu yeni normanı daxil edərkən bir sıra ciddi nöqsanlara yol vermişdir. **Birincisi**, CM-in 193-1-ci maddəsində yalnız **cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlak** barədə danışılır. Əslində isə təkcə cinayət yolu ilə deyil, istənilən qanunsuz yolla əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma eyni dərəcədə ictimai təhlükəli və cəzalandırılmalı əməldir. **İkincisi,** şərh edilən normada «çirkli pulların yuyulması» qismində cinayət əməli kimi maliyyə əməliyyatlarını və ya digər əqdləri həyata keçirmə göstərilir. Lakin təcrübədən də məlumdur ki, bu cinayət daha çox sahibkarlıq fəaliyyəti formasında törədilir. Sahibkarlıq fəaliyyətinin də əsasən maliyyə əməliyyatlarından və əqdlərin bağlanmasından ibarət olmasına baxmayaraq, şərh olunan normanın dispozisiyasında bu cinayət tərkibinin obyektiv cəhətinin əlamətləri kimi sahibkarlıq fəaliyyəti və digər iqtisadi fəaliyyətin də göstərilməsi daha uğurlu olardı. Yalnız bu yolla istintaq və məhkəmə orqanlarının adı çəkilən cinayət əməlinin tövsifi ilə bağlı fəaliyyətində ortaya çıxacaq anlaşılmazlıqları və çətinlikləri aradan qaldırmaq mümkündür.

Azərbaycan Respublikasının 1 mart 2003-cü il tarixli 420-IIQ saylı Qanunu ilə ratifikasiya edilmiş «Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında» 8 noyabr 1990-cı il tarixli Avropa Şurasının Konvensiyası «çirkli pulların yuyulması» ilə mübarizə sahəsində Avropa Şurasının üzvü olan dövlətlərin əsas öhdəliklərini müəyyən etmişdir. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi aşağıdakı qəsdən törədilən əməlləri vasitələrin (Konvensiyanın 1-ci maddəsinin «c» yarımbəndinə əsasən «vasitə» dedikdə istənilən üsulla, ümumilikdə və ya qismən cinayət hüquqpozmasını və ya cinayət hüquqpozmalarını törətmək məqsədi ilə istifadə etmək üçün nəzərdə tutulan və ya istifadə olunan hər bir əşya başa düşülür) leqallaşdırılması ilə əlaqədar hüquqpozmalar sırasına aid etmişdir:

a) əmlakın qeyri-qanuni mənbəyini gizlətmək və ya əsas hüquq pozuntusunun törədilməsində iştirak edən hər bir şəxsə öz əməllərinə görə hüquqi məsuliyyətdən qaçmaq üçün yardım etmək məqsədi ilə əmlakın verilməsi və ya mübadiləsi, əgər məlumdursa ki, həmin əmlak cinayət yolu ilə əldə edilən gəlirdir;

b) əmlakın həqiqi xüsusiyyətlərinin, mənşəyinin, olduğu və yerləşdiyi yerin, hərəkətinin və ya ona olan hüquqların gizlədilməsi və ya ört-basdır edilməsi, əgər məlumdursa ki, həmin əmlak cinayət yolu ilə əldə edilən gəlirdir;

c) öz konstitusional prinsiplərini və öz hüquqi sisteminin əsas konsepsiyalarını nəzərə alaraq;

d) əmlakın əldə olunması, ona sahiblik və ya onun istifadə edilməsi, əgər onu alan zaman məlum idi ki, o, cinayət yolu ilə əldə edilən gəlirdir;

e) bu maddədə müəyyən edilən hər hansı bir hüquqpozmanın törədilməsin-

də və ya ona cəhddə iştirakçılıq və ya birgə iştirakçılıq, eləcə də bu cür cinayətin törədilməsi ilə əlaqədar yardım, təhrikçilik, kömək və ya məsləhət vermə.

2. CM-in 193-1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyekti** normal sahibkarlıq fəaliyyətinin qanunla müəyyən edilmiş qaydalarını təmin edən ictimai münasibətlərdir. Qanunla qorunan müxtəlif dəyərlərlə bağlı ictimai münasibətlər bu cinayətin **əlavə obyekti** qismində çıxış edə bilər.

Nəzərdən keçirilən cinayətin **predmeti** cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və digər əmlakdır. Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli, 1003-IIQ saylı Qanunu ilə ratifikasiya edilmiş **Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının** 2-ci maddəsinin «e» bəndinə və «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununun 1.0.1-ci maddəsinə əsasən **cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlak** dedikdə CM-də təsbit edilmiş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı yolla əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz, maddi və ya qeyri-maddi əmlak, mülkiyyət hüquqlarını təsdiq edən hüquqi sənədlər başa düşülür. Burada söhbət cinayət hesab edilən istənilən əməlin törədilməsi ilə əldə edilən pul vəsaitləri və əmlakdan gedir. Həmin cinayətə görə cəza tətbiq edilib-edilməməsinin, cinayət məsuliyyətinə cəlbetmə müddətinin keçib-keçməməsinin heç bir əhəmiyyəti yoxdur.

Pul vəsaitləri dedikdə milli və ya xarici valyuta, pulun ekvivalenti qismində çıxış edən qiymətli kağızlar (səhmlər, çeklər və s.) başa düşülür. **Əmlak** dedikdə Avropa Şurasının «Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında» Konvensiyasının 1-ci maddəsinin «b» yarımbəndinə əsasən hər bir növ əmlak, maddi və ya qeyri-maddi, daşınar və ya daşınmaz əmlak, habelə bu cür əmlaka hüquq verən hüquqi akt və ya sənəd başa düşülür. Belə əmlak qismində müəyyən dəyərə malik olan və cinayət yolu ilə əldə edilmiş olsa da, həmin dəyəri saxlayan istənilən əşyalar və qeyri-maddi əmlak dəyərlərinin toplusu başa düşülməlidir. Belə əmlak mahiyyətcə müəyyən tələbatı ödəməyə qadir olmalıdır, çünki heç nəyə yararlı olmayan əmlakın leqallaşdırılmasının əhəmiyyəti yoxdur. Həmin əmlakın sərbəst dövriyyədə olması, onun dövriyyəsinin məhdudlaşdırılması, yaxud onun mülki dövriyyədən çıxarılması tövsif üçün əhəmiyyətli deyildir. Lakin bir məqama diqqət yetirilməlidir. Belə ki, mülki dövriyyəsi məhdudlaşdırılmış və mülki dövriyyədən çıxarılmış bəzi əşyaların hansı yolla əldə edilməsindən asılı olmayaraq, leqallaşdırılması ümumiyyətlə mümkün deyildir, çünki onların ayrı-ayrı şəxslərdə olması özlüyündə cinayət məsuliyyəti yaradır (məsələn, narkotik vasitələr, müəyyən odlu silahlar və s.). Lakin mülki dövriyyəsi məhdudlaşdırılmış və mülki dövriyyədən çıxarılmış bəzi əşyaların ayrı-ayrı şəxslərin mülkiyyətində qanuni yolla olması mümkündürsə, həmin əşyalar CM-in 193-1-ci maddəsində təsbit edilmiş cinayətin predmeti ola bilər.

3. Şərh olunan maddədə göstərilən cinayət BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının 23-cü maddəsinə əsasən cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulmasının növlərindən biridir. Konvensiyanın istinad edilən maddəsinin

1-ci hissəsinin «a» bəndində hər bir iştirakçı dövlət üzərinə daxili qanunvericiliyinin əsas prinsiplərinə uyğun olaraq qəsdən törədildiyi halda, aşağıdakı əməlləri cinayət hüquqpozması kimi təsnif etmək üçün lazım gələn qanunvericilik və başqa tədbirlərin görülməsi məsələsinə baxmaq öhdəliyi qoyulur:

- cinayət yolu ilə əldə edildiyi məlum olan əmlakın cinayətkar mənbəyinin gizlədilməsi və ya itirilməsi məqsədilə, yaxud əsas hüquq pozuntusunun törədilməsində iştirak etmiş hər hansı şəxsin öz əməllərinə görə məsuliyyətdən yayınması üçün ona kömək göstərilməsi məqsədilə həmin əmlakın konversiyası və ya köçürülməsi;
- cinayət yolu ilə əldə edildiyi məlum olan əmlakın əsl xarakterinin, mənbəyinin, olduğu yerin, sərəncam və ya daşınma üsulunun, bu əmlaka hüquqların və ya onun mənsubiyyətinin gizlədilməsi və ya itirilməsi.

CM-in 193-1.1-ci maddəsinin dispozisiyası 5 mart 2010-cu il tarixli Azərbaycan Respublikası Qanunu ilə yeni redaksiyada verilərək orada təsbit edilmiş kriminal əməllər Konvensiyanın istinad olunan normasına uyğunlaşdırılmışdır.

4. CM-in şərh olunan maddəsində bir sıra əlamətləri ilə bir-birindən fərqlənən **iki cinayət tərkibi** (CM-in 193-1.1.1-ci və 193-1.1.2-ci maddələri) təsbit edilmişdir. Bu tərkibləri fərqləndirən başlıca əlamət obyektiv cəhəti təşkil edən əməllərin bir-birindən fərqli olması və subyektiv cəhətdə xüsusi məqsədin olmasıdır.

CM-in 193-1.1.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhəti **iki alternativ kriminal əməli** təsbit etmişdir: a) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın konversiyası və ya köçürülməsi; b) belə pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsi.

5. Pul vəsaitlərinin və ya digər əmlakın **konversiyası** dedikdə həmin vəsaitlərin və ya əmlakın digərləri ilə dəyişdirilməsi, müxtəlif qiymətli kağızlara və ya valyuta sərvətlərinə çevrilməsi, hər hansı başqa formada mübadiləsi və s. başa düşülməlidir. Pul vəsaitlərinin bir valyuta növündən digərinə dəyişdirilməsi də konversiyadır.

Pul vəsaitlərinin və ya digər əmlakın **köçürülməsi** isə həmin dəyərlərin bir şəxsin adından digərinin (digərlərinin) adına keçirilməsini, başqa şəxslərə (o cümlədən hüquqi şəxslərə) verilməsini, pul vəsaitlərinin bir bank hesabından digərinə (digərlərinə) köçürülməsini və bu dəyərlərin ötürülməsi (verilməsi) ilə bağlı digər oxşar hərəkətləri ehtiva edir.

Əməlin CM-in şərh olunan maddəsi üzrə tövsifi üçün konversiya edilən və ya köçürülən pul vəsaitinin və ya əmlakın bir hissəsinin cinayət yolu ilə əldə edilmiş olması da kifayətdir.

6. **Pul vəsaitləri və ya digər əmlakla əməliyyat** dedikdə pul vəsaitləri və ya digər əmlakla bağlı mülki hüquqların əldə edilməsi, həyata keçirilməsi, dəyişdirilməsi və ya onlara xitam verilməsinə yönəlmiş əməllər başa düşülür («Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununun 1.0.3-cü

maddəsi). **Maliyyə əməliyyatı** dedikdə bank hesablarının açılması, idarə edilməsi, kredit, hesablaşma, depozit və sair əməliyyatları əhatə edən maliyyə fəaliyyəti başa düşülür.

MM-in 324.1-ci maddəsinə görə **əqd** mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

CM-in şərh edilən maddəsində **maliyyə əməliyyatları həyata keçirmə** dedikdə qanunsuz yolla əldə edilmiş pul vəsaitlərindən istifadə etməklə bank hesabları açma və həmin hesablar üzrə əməliyyatlar aparma, qeyd olunan pul vəsaitlərindən ödəniş vasitəsi qismində istifadə etmə, belə pullarla qiymətli kağızlar (səhmlər, vekseller, istiqrazlar və s.) alma, bu pul vəsaitlərindən müəssisələrin nizamnamə kapitalının formalaşdırılması üçün istifadə etmə və sair bu kimi hərəkətlər başa düşülür.

Nəzərə almaq lazımdır ki, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının aktlarının verilməsi, habelə onların vəzifəli şəxslər tərəfindən icra edilməsi, bu hərəkətlər şərh olunan maddədə nəzərdə tutulan pul vəsaitlərindən istifadə edilməklə törədilsə də, maliyyə əməliyyatları hesab edilmir.

7. **Digər əqdləri həyata keçirmə** dedikdə cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərindən və ya əmlakdan istifadə etməklə alqı-satqı, borc, bağışlama, icarə və s. müqavilələri bağlama, belə müqavilələri həyata keçirmə başa düşülür. Belə əqdlər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar və ya şəxsi, ailə ehtiyaclarının təmin edilməsi, habelə başqa məqsədlər üçün (məsələn, yaxın dostu üçün bahalı hədiyyənin alınması) bağlana bilər. Lakin cinayət yolu ilə əldə olunmuş əmlak və pul vəsaitlərindən istifadə etməklə həcminə görə mühüm olmayan əqdlərin həyata keçirilməsi (məsələn, adi bir mənzilin kirayə haqqının ödənilməsi), CM-in 14.2-ci maddəsinə müvafiq olaraq, şərh olunan cinayətin tərkibini yaratmır.

Əməlin şərh edilən maddə üzrə tövsif edilməsi üçün maliyyə əməliyyatının və ya əqdin bütövlükdə və ya qismən cinayət yolu ilə əldə edilmiş pul vəsaiti və ya əmlak hesabına həyata keçirilməsinin əhəmiyyəti yoxdur.

8. CM-in 193-1.1.2-ci maddəsində təsbit edilmiş cinayət tərkibinin **obyektiv cəhəti** pul vəsaitlərinin və ya digər əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə pul vəsaitləri və digər əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasının ört-basdır edilməsi və ya gizlədilməsini nəzərdə tutur.

Şərh olunan normada pul vəsaitinin və ya əmlakın **həqiqi xarakteri** dedikdə həmin dəyərlərin məhz cinayət əməli nəticəsində əldə edilmiş olması, onların kim tərəfindən, hansı üsul və vasitələrlə əldə olunması, bu dəyərlərin həcmi (miqdarı), çeşidi və s. bu kimi məlumatlar başa düşülməlidir.

Pul vəsaitlərinin və ya əmlakın **mənbəyi** dedikdə həmin dəyərlərin konkret olaraq hansı əməllər nəticəsində, habelə hansı şəxslərdən (fiziki və hüquqi şəxslərdən) əldə olunması başa düşülməlidir.

Qeyd olunan dəyərlərin **yeri** dedikdə onların faktiki olaraq saxlandığı (yerləşdiyi, olduğu) yer (məsələn, bank hesabları, anbarlar, müxtəlif şəxslərə aid tikili və qurğular, digər saxlanc yerləri və s.) nəzərdə tutulur.

Pul vəsaitlərinə və ya digər əmlaka **sərəncam verilməsi** onların istehlak edilməsini, başqa şəxslərə verilməsini, digər üsullarla özgəninkiləşdirilməsini, bir sözlə, bu dəyərlərin sonrakı taleyi ilə bağlı müxtəlif hərəkətləri ehtiva edir.

Göstərilən dəyərlərin **yerdəyişməsi** dedikdə onların olduğu (saxlandığı) yerdən başqa yerə aparılması, o cümlədən bir bankdan digərinə köçürülməsi nəzərdə tutulur.

Şərh olunan normada **pul vəsaitlərinə və ya digər əmlaka olan hüquqlar** dedikdə bu dəyərlərə həm rəsmi sənədlərdə qeyd olunmuş mülkiyyət və sahiblik hüququ, həm də faktiki mövcud olan mülkiyyət və ya sahiblik hüququ, onların **kimə məxsus olması** dedikdə isə həmin dəyərlərin həm qanunvericiliklə müəyyən edilmiş qaydada qeydə alınmış mülkiyyətçiləri və ya sahibləri, həm də faktiki mülkiyyətçiləri və sahibləri başa düşüləcəkdir.

9. CM-in 193-1.1.2-ci maddəsində kriminal əməli ifadə etmək üçün işlədilmiş **ört-basdır etmə** və **gizlətmə** ifadələri mənaca çox yaxın olsa da, həm beynəlxalq-hüquqi aktlarda, həm də milli qanunvericiliyimizdə bu ifadələrin hər ikisinin işlədilməsində məqsəd cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər dəyərlərin leqallaşdırılmasına, həmin dəyərlərin müvafiq dövlət orqanlarının və cəmiyyətin diqqətindən yayındırılmasına, onların aşkarlanmasının qarşısını almağa yönəlmiş istənilən passiv və aktiv davranışı kriminallaşdırmaqdır. Ona görə də CM-in 193-1.1.2-ci maddəsinin dispozisiyasında göstərilənlər barədə məlumatların istənilən üsul, vasitə və formada gizlədilməsinə, ört-basdır edilməsinə, həqiqətdən yayındırılmasına yönələn hərəkət və ya hərəkətsizlik digər tərkib əlamətləri də olduqda həmin maddə üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

Qeyd olunan məlumatları **ört-basdır etmə və gizlətmə** daha çox cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və digər əmlakın özü barədə, habelə bu dəyərlərlə bağlı maliyyə əməliyyatları və digər əqdlər barədə məlumat verməmədə, həmin dəyərləri və ya onlarla bağlı əməliyyatları gizlətmək üçün saxta sənədlər tərtib etmədə, bu dəyərlərin uydurma mülkiyyətçisi və ya sahibi kimi çıxış etmədə, öz adından, lakin bu dəyərlərin həqiqi sahibinin mənafeyi üçün müəyyən tədbirlər görmədə (həmin dəyərləri saxlanca qəbul etmək, onlara xidmət etmək və s.) və başqa bu kimi hərəkət və hərəkətsizlikdə ifadə olunacaqdır.

10. Şərh olunan cinayət **formal tərkib** vasitəsi ilə ifadə olunmuşdur, ona görə də onun obyektiv cəhətini təşkil edən və CM-in 193-1.1.1-ci və 193-1.1.2-ci maddələrinin dispozisiyasında nəzərdə tutulan hərəkətlərdən hər hansı biri törədildiyi andan **başa çatmış** hesab edilir.

11. CM-in həm 193-1.1.1-ci, həm də 193-1.1.2-ci maddəsində təsbit edilmiş cinayətin **subyektiv cəhəti birbaşa qəsdi** nəzərdə tutur. Təqsirkar cinayət yolu ilə əldə edilmiş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma üzrə qeyd olunan əməlləri törətdiyini dərk edir və məhz bu şəkildə hərəkət etməyi arzulayır. Şərh olunan maddə üzrə cinayət məsuliyyətinin yaranması üçün təqsirkar şəxsin müvafiq pul vəsaitlərinin və ya digər əmlakın məhz hansı cinayət əməli (CM-in konkret maddəsi ilə tövsif edilən əməl) nəticəsində əldə edilmiş olmasını dəqiq bilməsi yox, bu dəyərlərin ümumiyyətlə kriminal əməl

nəticəsində əldə olunduğunu bilməsi vacibdir.

CM-in 193-1.1.1-ci və 193-1.1.2-ci maddələrində təsbit edilən cinayətlərin subyektiv cəhətini bir-birindən fərqləndirən əlamət CM-in 193-1.1.1-ci maddəsində nəzərdə tutulan əməlin **xüsusi məqsədlə** törədilməsidir (CM-in 193-1.1.2-ci maddəsində göstərilən əməlin məqsədi zəruri tərkib əlaməti kimi nəzərdə tutulmamışdır).

CM-in 193-1.1.1-ci maddəsində nəzərdə tutulan **cinayətin məqsədi** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etməkdir. Həmin dəyərlərin həqiqi mənbəyini gizlətmək nəticəsində onlara qanuni status vermək, həmin pul vəsaitlərini və ya əmlakı normal mülki dövriyyəyə daxil etmək, bank hesabında yerləşdirmək, nəzərdə tutulduğu hallarda rəsmi dövlət qeydiyyatına aldırmaq və s. xeyli dərəcədə asanlaşır, başqa sözlə, həmin dəyərlərin leqallaşması mümkün olur.

Şərh edilən normada **cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək** məqsədi dedikdə cinayətin predmeti olan dəyərlərin əldə edilməsi ilə nəticələnən əməli törədən şəxsə istənilən formada kömək göstərilməsi nəzərdə tutulur. Belə kömək həmin şəxsin müvafiq cinayəti törətməsindən sonra qabaqcadan vəd edilmədən göstərildikdə əməl CM-in şərh olunan maddəsi ilə tövsif olunacaqdır. Həmin şəxsə qabaqcadan vəd edilmiş köməyin göstərilməsi isə müvafiq cinayətdə iştirakçılıq olacaqdır.

12. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, istənilən anlaqlı fiziki şəxs ola bilər. Şəxs həm özünün, həm də başqalarının törətdiyi cinayət nəticəsində əldə edilmiş pul vəsaitlərini və əmlakı leqallaşdırdıqda təhlil edilən cinayətə görə məsuliyyətə cəlb ediləcəkdir. Bu zaman hər bir halda təqsirkar həmin pul vəsaitlərinin və ya əmlakın cinayət yolu ilə əldə edildiyini bilməlidir (konkret hansı cinayətin törədilmiş olduğunu bilib-bilməməsi əhəmiyyət daşımır). Pul vəsaitləri və ya əmlak şəxsin özünün törətdiyi cinayət nəticəsində əldə edilmişdirsə, şəxs həmin əmələ görə məsuliyyətə cəlb edilməmişdirsə və cəlbetmə müddəti keçməmişdirsə, onda onun əməli törətdiyi cinayətin nəzərdə tutulduğu maddə və CM-in şərh olunan maddəsi ilə cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

Lakin bir sıra hallarda bu cinayətin subyekti spesifik əlamətlərə malik ola bilər. Belə ki, «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanunu bu sahədə monitorinq iştirakçıları və nəzarət orqanları üzərində bir sıra vəzifələr qoymuşdur. Həmin vəzifələrin yerinə yetirilməməsi CM-in 193-1-ci maddəsində nəzərdə tutulan əməlin əlamətlərini yaratdıqda, müvafiq təqsirli şəxslər şərh olunan maddə üzrə cinayət məsuliyyətinə cəlb olunacaqdır.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

13. CM-in 193-1.2-ci maddəsində şərh olunan cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** göstərilmişdir: 1) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmə; 2) təkrar törədilmə; 3) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilmə.

Birinci ağırlaşdırıcı əlamət bu cinayətin obyektiv cəhətini təşkil edən hərəkətləri icra etməzdən öncə onu birgə törətmək haqqında razılığa gəlmiş şəxslərin qeyd olunan cinayəti törətməsini nəzərdə tutur. Qabaqcadan əlbir olan şəxslərin müvafiq dəyərlərin əldə edilməsi ilə nəticələnmiş cinayəti birgə törətməsi (iştirakçılığın növündən asılı olmayaraq) vacib deyildir. Əməlin CM-in 193-1.2.1-ci maddəsi üzrə tövsifi üçün yalnız leqallaşdırma əməlində qabaqcadan əlbir olmaq kifayətdir.

Təhlil edilən cinayətin **təkrar** törədilməsi onun iki dəfə və ya daha çox törədilməsini nəzərdə tutur. Təkrarlığın yaranması üçün şəxs əvvəllər törətdiyi cinayətə görə cinayət məsuliyyətindən azad edilməməli, həmin cinayətə görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməməli, yaxud cinayət məsuliyyətinə cəlb edilməməlidir. Təkrarlığın yaranması üçün təqsirkarın CM-in 193-1.1.1-ci, 193-1.1.2-ci, 193-1.2-ci və 193-1.3-cü maddələrində nəzərdə tutulan əməlləri ən azı iki dəfə istənilən ardıcıllıqla törətməsi kifayətdir. CM-in 193-1-ci maddəsində göstərilən cinayəti törətmiş şəxs məhkum edildikdə, lakin məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən bu cinayəti törətməsi cinayətin residivi sayılır.

Üçüncü ağırlaşdırıcı tərkib əlaməti isə şəxsin şərh olunan cinayəti öz qulluq səlahiyyətlərindən, qulluq imkanlarından və nüfuzundan istifadə etməklə törətməsini nəzərdə tutur. Təhlil edilən cinayət əməlinin özünəməxsusluğundan çıxış edərək nəzərə almaq lazımdır ki, təqsirkar şəxs ona müəyyən maddi dəyərlərin (o cümlədən cinayət yolu ilə əldə edilmiş dəyərlərin bir hissəsinin) verilməsi müqabilində öz qulluq mövqeyindən istifadə edərək bu cinayəti törədərsə, onun əməli CM-in 193-1.2.3-cü və 311-ci (rüşvət alma) maddələrində təsbit edilən cinayətlərin məcmusu kimi tövsif ediləcəkdir.

CM-in 193-1.3-cü maddəsində bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: 1) müteşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi; 2) külli miqdarda törədilməsi nəzərdə tutulur.

Cinayətin **mütəşəkkil dəstə və cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinin** anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir. Mütəşəkkil dəstənin və cinayətkar birliyin (cinayətkar təşkilatın) üzvlərinin müvafiq dəyərlərin əldə edilməsi ilə nəticələnmiş cinayəti birgə törətməsi (iştirakçılığın növündən asılı olmayaraq) vacib deyildir. Əməlin CM-in 193-1.2.1-ci maddəsi üzrə tövsifi üçün yalnız leqallaşdırma əməlində iştirak etmə kifayətdir.

CM-in 193-1-ci maddəsinin qeydinə əsasən **külli miqdar** leqallaşdırılan pul vəsaitinin və ya əmlakın dəyərinin **qırx beş min** manatdan artıq olan məbləğdə olması kimi başa düşülür. Külli miqdar əlaməti müəyyən edilərkən təqsirkarın vahid kriminal niyyəti ilə əhatə olunmuş dəyərlərin əməl törədilən zaman mövcud olmuş məbləği əsas götürülməlidir.

Təcrübədə bəzən CM-in 193-1-ci və 194-cü maddələrində təsbit edilən

normaların rəqabəti yarana bilər. Lakin **eyni bir əməl** bu iki maddədə göstərilən cinayətlərin məcmusunu yarada bilməz (əlavə olaraq CM-in 194-cü maddəsinin şərhinə bax).

Maddə 194. Cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə

194.1. Qabaqcadan vəd etmədən cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud onların əldə edilməsinin həqiqi mənbəyini gizlətmədən onlara sərəncam vermə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

194.1-1. Eyni əməllər xeyli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

194.2. Bu Məcəllənin 194.1 və ya 194.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər:

194.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

194.2.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

194.2.3. - 20 oktyabr 2017-ci il tarixli Qanunla ləğv edilmişdir. Bu Qanun 2017-ci il dekabrın 1-dən qüvvəyə minmişdir - «Azərbaycan» q., 9 noyabr 2017-ci il.

194.2.4. külli miqdarda törədildikdə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 5 mart 2010-cu il, 31 may 2011-ci il, 7 mart 2012-ci il, 28 aprel 2015-ci il, 6 may 2016-cı il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 21 mart 2010-cu il; 2 iyul 2011-ci il; 16 mart 2012-ci il; 25 may 2016-cı il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 194-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** pul vəsaitlərinin və əmlakın mülki-hüquqi dövriyyəsi ilə əlaqədar sahibkarlıq fəaliyyəti zamanı yaranan ictimai münasibətlərdir. Cinayətin əlavə obyekti qismində müxtəlif sosial dəyərlər çıxış edə bilər.

Bu cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, cinayət yolu ilə əldə olunmuş pul vəsaitləri və ya digər əmlak müxtəlif üsullarla dövlət orqanlarının qanunvericiliklə nəzərdə tutulmuş nəzarətindən kənar mülki dövriyyəyə daxil olaraq onun digər iştirakçılarının, ilk növbədə iqtisadi fəaliyyət subyektlərinin mənafeyini təhlükə altına alır. Belə əmələ görə cinayət məsuliyyəti nəzərdə tutularkən maddi və qeyri-maddi əmlak dəyərlərinin və pul vəsaitlərinin dövriyyəsinin qanunauyğunluqlarına, onlardan istifadənin və onlara nəzarətin mövcud qaydalarına riayət edilməsi zərurəti nəzərə alınmışdır.

Şərh olunan maddədə təsbit edilmiş cinayət də BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının 23-cü maddəsinə əsasən cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulmasının növlərindən biridir. Konvensiyanın həmin maddəsinin 1-ci hissəsinin «b» bəndində hər bir iştirakçı dövlət üzərinə öz hüquq sisteminin əsas prinsiplərinə riayət etmək şərtilə, əldə edildiyi zaman cinayət yolu ilə əldə edilən gəlir olduğu məlum olan əmlakın əldə olunması, ona sahiblik edilməsi və ya ondan istifadə edilməsini cinayət hüquqpozması kimi təsnif etmək üçün lazım gələn qanunvericilik və başqa tədbirlərin görülməsi məsələsinə baxmaq öhdəliyi qoyulur.

2. Təhlil edilən cinayətin **predmeti** cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və digər əmlakdır. Bu əmələn predmeti CM-in 193-1 maddəsində təsbit edilmiş cinayətin predmeti ilə eynidir (CM-in 193-1-ci maddəsinin şərhinə bax).

Mülki dövriyyəsi ilə əlaqədar **hərəkətlər** (əldə etmə, saxlama, istifadə, satma və s.) ayrıca cinayət tərkibi yaradan əşyalar hansı yolla əldə edilmiş olmasından asılı olmayaraq CM-in 194-cü maddəsində nəzərdə tutulmuş cinayətin predmeti ola bilməz (CM-in 226-cı, 228-ci, 234-cü və 240-cı maddələrinin şərhinə bax).

3. Cinayət hesab edilən istənilən əmələn törədilməsi nəticəsində **əldə edilmiş pul vəsaitləri və əmlak** təhlil edilən cinayətin predmeti qismində çıxış edə bilər. Həmin cinayətə görə cəza tətbiq edilib-edilməməsinin, ona görə cinayət məsuliyyətinə cəlbetmə müddətinin keçib-keçməməsinin heç bir əhəmiyyəti yoxdur. Lakin azyaşlı şəxsin və cinayətin subyekti ola bilməyən digər şəxsin qanunsuz yolla əldə etdiyi pul vəsaitləri və ya əmlak barəsində təhlil edilən normada göstərilən əməlləri törətmə bu cinayətin tərkibini yarada bilməz.

4. CM-in 194.1-ci maddəsi Azərbaycan Respublikasının 5 mart 2010-cu il tarixli Qanunu ilə yeni redaksiyada verilmiş və təhlil edilən norma xeyli dərəcədə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının 23-cü maddəsində verilmiş əlamətlərə uyğunlaşdırılmışdır. Həmin yenilikdən sonra şərh edilən cinayət tərkibinin **obyektiv cəhəti** aşağıdakı alternativ əməlləri ehtiva edir: a) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı əldə etmə; b) belə dəyərlərə sahiblik etmə; c) həmin dəyərlərdən istifadə etmə; ç) onların əldə edilməsinin həqiqi mənbəyini gizlətmədən onlara sərəncam vermə.

5. **Bilə-bilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı əldə etmə** belə dəyərlərin bilavasitə və ya onlara olan hüquqları təsdiq edən sənədlərin təqsirkar tərəfindən əvəzli və ya əvəzsiz əldə edilməsində ifadə oluna bilər. Bu zaman həmin əmlaka mülkiyyət hüququ alana keçmir, çünki o, qanunsuz vicdansız sahibdir (MM-in 166.2-ci maddəsi).

6. Şərh edilən cinayətin predmetinə **sahiblik etmə** dedikdə bu anlayışın mülki-hüquqi mənası, yəni həmin dəyərlərə faktiki sahib olma (MM-in 159-cu maddəsi) başa düşülməlidir. Normanın məzmununa əsasən sahibliyin müddəti əmələn CM-in 194-cü maddəsi üzrə tövsifi üçün heç bir əhəmiyyət daşımır. Lakin nəzərə almaq lazımdır ki, əmlakı müvəqqəti saxlamaya qəbul etmə təhlil edilən maddə üzrə məsuliyyət yarada bilməz və müvafiq tərkib əlamətləri olduqda belə əməl CM-in 193-1-ci maddəsi üzrə tövsif ediləcəkdir.

7. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan **istifadə etmə** dedikdə təqsirkarın öz ehtiyaclarını, yaxud yaxınlarının ehtiyaclarını ödəmək üçün həmin dəyərlərin faydalı xüsusiyyətlərindən yararlanması (məsələn, pulu xərcləməsi, borc verməsi, cinayət yolu ilə əldə edilmiş evdə yaşaması və ya onu kirayəyə verməsi, cinayət yolu ilə əldə olunmuş nəqliyyat vasitəsini sürməsi və s.) başa düşüləcəkdir. Həmin dəyərlərdən istifadə müxtəlif forma və məzmunda ola bilər və əməlin tövsifi üçün bunun heç bir əhəmiyyəti yoxdur. Bu zaman həmin dəyərlərdən bir neçə şəxs istifadə edərsə və onların hər biri bunun cinayət yolu ilə əldə edilmiş olduğunu bilərsə, cinayətin subyekti ola bilən belə şəxslərin hər biri məsuliyyətə cəlb ediləcəkdir (qabaqcadan əlbir olma və ya müteşəkkil dəstə əlaməti olduqda məsuliyyət CM-in 194.2.1-ci maddəsi üzrə yaranacaqdır).

8. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinə və ya digər əmlaka **sərəncam vermə** də bu anlayışın mülki-hüquqi mənası əsas götürülməklə təfsir edilməlidir. Belə ki, təhlil olunan normada sərəncam vermə dedikdə müxtəlif mülki-hüquqi əqdlər vasitəsi ilə cinayətin predmetinin özgəninkiləşdirilməsi, habelə bu predmetlərin taleyinin birtərəfli qaydada həll edilməsi (məsələn, onların məhv edilməsi) başa düşüləcəkdir. Lakin bununla bağlı xüsusi bir məqama diqqət yetirilməlidir. Məsələ burasındadır ki, şəxs cinayət yolu ilə əldə edilmiş dəyərləri dövlət orqanlarına təhvil verməklə də onların barəsində sərəncam verə bilər. Belə qaydada sərəncam vermə faydalı olduğundan cinayət məsuliyyətinə səbəb olmamalıdır. Ümumiyyətlə isə, hesab edirik ki, CM-in 194-cü maddəsinə CM-in 228-ci maddəsinin qeydinə analoji olaraq **cinayət məsuliyyətini istisna edən xüsusi halın** əlavə edilməsi çox yaxşı olardı, çünki bu üsulla həmin əməli törətmiş şəxslərin öz kriminal davranışını heç bir risk olmadan aradan qaldırmasına təminat verilmiş olardı.

CM-in 194.1-ci maddəsində cinayətin predmetləri barədə sərəncam vermənin bu norma üzrə məsuliyyətə səbəb olması üçün əlavə şərt – həmin dəyərlərin **həqiqi mənbəyini gizlətmədən** onların barəsində sərəncam vermə nəzərdə tutulmuşdur. Lakin bu müddəanın heç bir təcrübi əhəmiyyəti yoxdur, çünki: **birincisi**, həmin predmetlərə sərəncam verən şəxs onların cinayət yolu ilə əldə edildiyini dəqiq bilir və sərəncam verməyə görə də məsuliyyəti o özü daşıdığından bu dəyərlərin mənbəyini kimsəsə bildirib-bildirməməyin onun məsuliyyətinə heç bir təsiri yoxdur; **ikincisi**, yuxarıda qeyd etdik ki, təqsirkar bu dəyərlər barəsində birtərəfli qaydada da sərəncam verə bilər (onları məhv etməklə, kimsəsiz bir yerə atmaqla və s.). Belə hallarda isə həmin dəyərlərin mənbəyinin bildiriləsi olduğu digər şəxs sadəcə olaraq mövcud deyildir. Beləliklə, hesab edirik ki, CM-in 194.1-ci maddəsinin dispozisiyasından «onların əldə edilməsinin həqiqi mənbəyini gizlətmədən» sözləri çıxarılmalıdır.

9. CM-in 194.1-ci maddəsinin dispozisiyasında sadalanan əməllər mahiyyət etibarilə bir-birinin ardınca gələn hərəkətlərdir (təqsirkar əvvəlcə pul vəsaitini və ya digər əmlakı əldə edir, ona sahiblik və ondan istifadə edir, daha sonra onun barəsində sərəncam verir). Lakin konkret şəxs tərəfindən bu hərəkətlərdən yalnız birinin də edilməsi mümkündür: məsələn, təqsirkar müəyyən əmlakı əldə edərkən mənbəyi barədə məlumatı olmasa da, sonradan onun cinayət yolu ilə əldə edilmiş olduğunu bilir, lakin ona sahiblik etməyi bundan sonra da davam etdirir.

Nəzərə almaq lazımdır ki, şərh edilən maddənin dispozisiyasında sadalanan alternativ əməllərdən yalnız birinin törədilməsi bu maddə üzrə cinayət məsuliyyətinin yaranması üçün kifayətdir. Lakin şəxs eyni pul vəsaitləri və ya digər əmlak barəsində bu hərəkətlərdən bir neçəsini törətdikdə də cinayətlərin məcmusu və ya təkrarlıqdan söhbət gedə bilməz və onun əməli vahid cinayət kimi tövsif ediləcəkdir.

10. Şərh edilən cinayətin **subyektiv cəhəti birbaşa qəsdlə** xarakterizə olunur. Təqsirkar müvafiq əməli cinayət yolu ilə əldə olunmuş pul vəsaitləri və ya digər əmlak barəsində etdiyini dərk edir və bunu etməyi arzu edir.

CM-in 194-cü maddəsi ilə məsuliyyətin yaranması üçün şəxs müvafiq dəyərlərin **cinayət yolu ilə əldə edildiyini** dəqiq bilməlidir. Ona görə də pul vəsaitlərinin və ya digər əmlakın mənşəyi barədə şəxsdə şübhələrin olması bu maddə ilə məsuliyyət yarada bilməz. Digər tərəfdən, təqsirkarın əmlakın məhz hansı cinayətin nəticəsində əldə edildiyini bilməsi də tövsif üçün əhəmiyyət kəsb etmir, başlıcası odur ki, həmin əmlak cinayət yolu ilə əldə edilmiş olmalı və təqsirkar bunu bilməlidir.

Əgər şəxs əmlakın cinayət yolu ilə əldə edildiyini bilməmişdirsə, onun təhlil edilən maddə üzrə cinayət məsuliyyətindən söhbət gedə bilməz, çünki bu halda şəxs qanunsuz vicdanlı sahibdir (MM-in 182.1-ci maddəsi).

11. Təhlil edilən cinayət tərkibinin daha bir zəruri əlaməti bilə-bilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlak barədə hərəkətlərin (hərəkətsizliyin) **qabaqcadan vəd verilmədən** edilməsidir. Əks təqdirdə, yəni təqsirkar qabaqcadan cinayət yolu ilə əldə ediləcək dəyərlər barədə həmin əməlləri edəcəyini vəd etdikdə onun əməli təhlil edilən maddə üzrə deyil, nəticəsində əmlak əldə edilmiş cinayətdə iştirakçılıq kimi tövsif ediləcəkdir. Təqsirkar qabaqcadan vəd verməsə də, cinayət yolu ilə əldə edilmiş dəyərləri mütəmadi olaraq əldə etdikdə, saxladıqda, istifadə etdikdə və ya onların barəsində sərəncam verdikdə və həmin əmlakı əldə edən cinayətkarların onun bu hərəkətlərinə güvəndiklərini dərk etdikdə də əməl cinayətdə iştirakçılıq kimi tövsif edilməlidir.

12. Təhlil edilən cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Lakin nəzərə almaq lazımdır ki, bilə-bilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın əldə edilməsi ilə nəticələnmiş cinayəti törətmiş şəxs eyni dəyərlər barəsində CM-in 194-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ola bilməz. Həmin şəxsin bu normada sadalanan əməllərdən ikisini (istifadə etməni və sərəncam verməni) etməsi müvafiq tərkib əlamətləri olduqda CM-in 193-1-ci maddəsi üzrə məsuliyyətə səbəb olacaqdır, digər iki əməli (əldə etmə və sahiblik etmə) isə bu şəxs həmin dəyərləri əldə etdiyi cinayəti törədərkən artıq etmiş olur və onun bu davranışının əlavə cinayət-hüquqi tövsifinə ehtiyac yoxdur. Başqa sözlə, təhlil edilən cinayətin subyekti yalnız kənar şəxs ola bilər. Belə kənar şəxsə cinayət yolu ilə əldə olunmuş pul vəsaiti və ya digər əmlak cinayəti törətmiş şəxsin özü və ya onun vasitəçisi tərəfindən verilə bilər.

CM-in təhlil olunan maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

13. CM-in 194.1-1-ci maddəsində təhlil edilən cinayətin **xeyli miqdarda** törədilməsi **ağırlaşdırıcı hal** kimi nəzərdə tutulmuşdur. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən bu, **iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğə** bərabərdir.

Pul vəsaitlərinin və ya digər əmlakın miqdarı müəyyən edilərkən onların əməlin törədilməsi anındakı dəyəri (xarici valyutanın məzənnəsi) əsas götürülməlidir. Cinayət əməli vahid niyyətlə, lakin bir neçə epizodda həyata keçirildikdə, pul vəsaitlərinin və ya digər əmlakın miqdarı bütün epizodlar üzrə cəmlənməklə müəyyən edilməlidir.

14. CM-in 194.1-ci və ya 194.1-1-ci maddsində nəzərdə tutulmuş əməllərin aşağıdakı **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** CM-in 194.2-ci maddəsində verilmişdir: 1) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilmə; 2) vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədilmə; 3) külli miqdarda törədilmə.

Qabaqcadan əlbir olan bir qrup şəxsin və mütəşəkkil dəstənin anlayışı CM-in 34-cü maddəsində verilmişdir (həmin maddənin şərhinə bax).

CM-in 194.2.2-ci maddəsində nəzərdə tutulmuş **vəzifəli şəxs** dedikdə CM-in 308-ci maddəsinin qeydində nəzərdə tutulmuş anlayışla əhatə olunan istənilən şəxs başa düşülməlidir. Vəzifəli şəxs öz qulluq səlahiyyətlərindən istifadə edərək təhlil edilən hərəkətləri törətdikdə onun əməli bu əlamət üzrə tövsif ediləcəkdir.

CM-in 194.2.4-cü maddəsində müəyyən edilmiş ağırlaşdırıcı tərkib əlamətinin mövcud olması üçün təqsirkarın əldə etdiyi, sahiblik etdiyi, istifadə etdiyi və ya sərəncam verdiyi cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya əmlakın miqdarı (dəyəri) yüz min manatdan artıq olan məbləğə bərabər olmalıdır (CM-in 190-cı maddəsinin «Qeyd»i).

15. Təcrübi və nəzəri baxımdan CM-in 193-1.1.1-ci maddəsində və 194-cü maddəsində təsbit ediliş **normaların rəqabəti** yarana bilər. CM-in 193-1.1.1-ci maddəsində göstərilən əməli şərh olunan maddədə təsbit edilmiş əməldən **fərqləndirən əsas əlamət** subyektiv cəhətin zəruri tərkib əlaməti kimi **xüsusi məqsədin** olmasıdır. Belə ki, CM-in 193-1.1.1-ci maddəsində göstərilən əməl törədilərkən təqsirkar cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədini güdməlidir. Ona görə də təqsirkar şəxs CM-in 194.1-ci maddəsində təsbit edilmiş əməlləri də həmin məqsədlə törədərsə, onun əməli CM-in 194-cü deyil, 193-1-ci maddəsi ilə tövsif ediləcəkdir. Bu zaman nəzərə almaq lazımdır ki, şəxsin **eyni bir əməli** heç bir halda CM-in 193-1-ci və 194-cü maddələrində göstərilən cinayətlərin məcmusunu yarada bilməz.

Maddə 195. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə

195.1. Təşkilatın rəhbəri və ya fərdi sahibkar tərəfindən təşkilatın, yaxud fərdi sahibkarın təsərrüfat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatlar verməklə kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin alınması, habelə ondan təyinatı üzrə istifadə edilməməsi xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

195.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə cinayətini nəzərdə tutan bu maddə qanunvericilikdə tamamilə yeni bir normadır.

2. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə iqtisadi münasibətlərin iştirakçılarının qanuni mənafeləri və bütövlükdə maliyyə sisteminin əsaslarına qəsd etdiyindən həmin münasibətlər bu cinayətin obyektini təşkil edir.

3. **Obyektiv cəhətdən** qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə: a) təşkilatın, yaxud fərdi sahibkarın təsərrüfat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatlar verməklə kredit, güzəştli şərtlərlə kredit və ya məqsədli dövlət kreditinin alınması; b) məqsədli dövlət kreditindən təyinatı üzrə istifadə edilməməsi; c) göstərilən hərəkətlərlə xeyli miqdarda ziyan vurulmasında ifadə olunur. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə **maddi tərkibli** cinayət olduğundan cinayətin bitməsi üçün yuxarıda qeyd edilən ictimai təhlükəli hərəkətlərin, onların bilavasitə nəticəsinin (xeyli miqdarda ziyan vurulması), habelə həmin hərəkətlərlə baş vermiş nəticə arasında səbəbli əlaqənin mövcudluğu araşdırılmalıdır.

Burada səbəbli əlaqə onda ifadə olunur ki, kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin verilməsi haqqında qərar məhz təqsirkar tərəfindən onun təsərrüfat və ya maliyyə vəziyyəti barədə yalan məlumatlar verməsi nəticəsində qəbul edilir. Həmin yalan məlumatlar kredit verilməsi haqqında qərarın qəbulunun səbəbi kimi çıxış edir.

4. **Kredit** (latınca «credit» — «o inanır») istifadə üçün müəyyən faiz ödəməklə qaytarmaq şərtilə müəyyən müddətə kreditor tərəfindən borc alan şəxsə verilən pul və ya əmtəədir. Kreditlərin formasına, şərtlərinə, verilmə və ödənilmə müddətlərinə görə 30-dan artıq növü fərqləndirilir.

Kredit növlərindən hər hansı birinin verilməsinin hüquqi əsasını kredit müqaviləsi təşkil edir. Kredit müqaviləsinin bağlanması, icrası, həmçinin onunla

əlaqədar digər öhdəliklər mülki qanunvericiliklə tənzim edilir.

5. **Güzəştli kredit** dedikdə borc alanın müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulan güzəştlərə malik olduğu halda verilən kredit başa düşülməlidir.

Kredit müqaviləsi üzrə kreditorun səlahiyyətləri daxilində bank tərəfindən edilən güzəştlər CM-in 195-ci maddəsinin nəzərdə tutduğu mənada güzəştli kredit hesab edilmir.

6. **Məqsədli dövlət krediti** büdcə qanunvericiliyi və ya digər normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada dövlət adından ödənişli əsaslarla pul vəsaitləri və ya cinsi əlamətlərinə görə müəyyən edilən əşya, yaxud digər hüquq və üstünlüklər formasında verilir.

Mülki qanunvericiliklə nizama salınan münasibətlər çərçivəsində verilən kreditlər dövlət krediti hesab edilmir.

Müvafiq normativ-hüquqi aktlarda və kredit verilməsi haqqında digər qərarlarda məqsədli dövlət kreditindən təyinatı üzrə istifadə edilməsi zərurəti göstərilir. Verilmiş kreditdən göstərilən təyinat üzrə istifadə edilməməsi CM-in 195.1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibini yaradır.

7. Təşkilat və ya fərdi sahibkarın təsərrüfat və ya maliyyə vəziyyəti haqqında **məlumatlar** dedikdə elə göstəricilər başa düşülür ki, onlar qüvvədə olan normativ-hüquqi aktlara və mövcud təcrübəyə əsasən kreditorun iradəsinə təsir göstərməklə kredit verilməsi barədə qərar qəbul edilməsinə səbəb olur. Bu məlumatlara aşağıdakılar aid edilə bilər:

a) təşkilatın və ya fərdi sahibkarın balansı haqqında məlumatlar;

b) təşkilatın və ya fərdi sahibkarın mədaxili və məxarici haqqında məlumatlar;

c) təşkilatın və ya fərdi sahibkarın əsas və dövriyyə vəsaitləri və bütövlükdə mülkiyyəti haqqında məlumatlar;

ç) əmlak hüquqları və öhdəlikləri haqqında məlumatlar;

d) məhsul alınması və ya xidmət göstərilməsi ilə əlaqədar sifarişlərin olub-olmaması haqqında məlumatlar.

8. Göstərilən məlumatların aşkar surətdə yalan olması aşağıdakılarda ifadə olunur:

a) müvafiq sənədə şüurlu surətdə onun məna və məzmununu təhrif edən məlumatlar daxil edilir və ya faktiki xarakterli məlumatlar tam əks olunmur;

b) onlara şüurlu surətdə düzgün olmayan məlumatlar əsasında qiymət verilir.

9. Kreditora bilə-bilə yalan **məlumat verilməsi** həmin məlumatların normativ-hüquqi akt üzrə zəruri olan formada kredit haqqında qərar qəbul edən şəxsə təqdim edilməsini nəzərdə tutur. Bu məlumatlarda zəruri rekvizitlər, məlumatın konkret şəxs tərəfindən verilməsini və onun iradəsini ifadə etməsini göstərən, habelə məsul şəxsin imzasını təsdiq edən digər əlamətlər əks olunur.

Göstərilən məlumatların kredit haqqında qərar qəbul edən şəxsə çatdırılması vaxtı, qaydası və forması kredit müqaviləsi ilə əlaqədar münasibətləri nizama salan mülki qanunvericilik normaları ilə müəyyən olunur.

10. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə cinayətinin zəruri tərkib əlamətlərindən biri də alınmış məqsədli kreditin qanunsuz olmasıdır.

Qanunsuz məqsədli dövlət krediti alma təqsirkarın kredit almanın hüquqi əsaslarını müəyyən edən normativ-hüquqi aktlarda nəzərdə tutulan qaydaları qəsdən pozmaqla onu əldə etməsində ifadə olunur.

11. Məqsədli dövlət kreditindən **təyinatı üzrə istifadə edilməməsi** məqsədli dövlət kreditinin verilməsi haqqında qərarda nəzərdə tutulmuş şərtlərə zidd olaraq ondan istifadə edilməsində və ya həmin vəsaitlərdən aralıq mərhələlərdə gəlir əldə etmək üçün istifadə olunmasında (məsələn, mənzil tikintisi üçün alınmış məqsədli krediti sələmə verməklə qazanc götürmək) ifadə olunan hərəkətlər mülkiyyət əleyhinə olan cinayətlər və ya vəzifə cinayətlərinin tərkibini yaratmadıqda CM-in 195-ci maddəsi ilə məsuliyyətə səbəb olur.

Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə zamanı törədilən əməllər (məsələn, sənədləri saxtalaşdırma, saxta sənədlərdən istifadə etmə, aldatma hərəkətləri və s.) bu cinayətin törədilməsi üsulu və ya vasitəsi kimi çıxış etdiyi hallarda cinayətlərin cəmi deyil, vahid cinayət tərkibi mövcud olur.

12. Nəzərə almaq lazımdır ki, təyinatı üzrə istifadə edilməyən kreditlər **dövlət borcalmaları və ya dövlət zəmanəti verilmiş öhdəlik üzrə cəlb olunmuş vəsait** olduqda təqsirkarın əməli şərh edilən maddə üzrə deyil, CM-in 195-1-ci maddəsi üzrə tövsif ediləcəkdir. Lakin dövlət borcalmaları və ya dövlət zəmanəti verilmiş öhdəlik üzrə cəlb olunmuş vəsaitin qanunsuz olaraq kredit kimi alınması (təsərrüfat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatların verilmiməsi yolu ilə) təhlil edilən maddə üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır, çünki CM-in 195-1-ci maddəsi belə əmələ görə məsuliyyət müəyyən etməmişdir (CM-in 195-1-ci maddəsinin şərhinə bax).

13. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə qanunda maddi tərkibli cinayət kimi nəzərdə tutulduğundan həmin əməllərin konkret ictimai təhlükəli nəticəyə — ziyan vurulmasına səbəb olması tələb olunur. Həmin ziyan xeyli miqdarda olduqda cinayət tərkibi mövcud olur.

CM-in 195-ci maddəsində nəzərdə tutulduğu mənada **xeyli miqdar** dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür (CM-in 190-cı maddəsinin qeydi).

Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə nəticəsində ziyan kredit verənə vurulur və həmin ziyanın miqdarı kreditor borcunun həcmi üzrə hesablanmaqla verilmiş kreditin məbləğinə əsasən müəyyən edilir.

14. **Subyektiv cəhətdən** qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə təqsirin qəsd formasında törədilir. Təqsirkar şəxs qanunsuz olaraq kredit, güzəştli şərtlərlə və ya məqsədli dövlət krediti alındığını, yaxud məqsədli dövlət kreditindən təyinatı üzrə istifadə etmədiyini dərk edir, bunun ictimai təhlükəli nəticələrini (xeyli miqdarda ziyan vurulması) qabaqcadan görür və bunun baş verməsini arzu edir **(birbaşa qəsd)** və ya buna şüurlu surətdə yol verir **(dolayı qəsd)**.

15. Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə ci-

nayətinin **subyekti**, təhlil edilən maddənin birbaşa göstərişinə əsasən həmin kreditin verildiyi təşkilatın rəhbəri və ya fərdi sahibkar ola bilər.

16. CM-in 195.2-ci maddəsində şərh edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin külli miqdarda ziyan vurması nəzərdə tutulmuşdur.

Burada **külli miqdar** yüz min manatdan artıq olan məbləğə bərabərdir (CM-in 190-cı maddəsinin «Qeyd»i).

Maddə 195-1. Dövlət borcundan və ya dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozma

195-1.1. Əsas və təkrar borcalan tərəfindən dövlət borcalmaları və ya dövlət zəmanəti yolu ilə cəlb olunan vəsaitin istifadəsi və qaytarılması (istifadəçiyə şamil olunmur) haqqında məlumatların, öz bank hesablarının vəziyyəti haqqında məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada vaxtında verilməməsi və ya təhrif olunmuş məlumatların verilməsi dövlətə xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

195-1.2. Dövlət borcalmaları və ya dövlət zəmanəti verilmiş öhdəlik üzrə cəlb olunmuş vəsaitdən təyinatı üzrə istifadə edilməməsi dövlətə xeyli miqdarda ziyan vurduqda —

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya bir ildən iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

195-1.3. Bu Məcəllənin 195-1.1-ci və 195-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər dövlətə külli miqdarda ziyan vurduqda —

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın dörd mislindən altı mislinədək miqdarda cərimə və ya iki ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 28 oktyabr 2008-ci il tarixli qanunla əlavə edilmiş, 31 may 2011-ci il və 6 may 2016-cı il tarixli qanunlarla dəyişikliklər edilmişdir — «Azərbaycan» q., 14 dekabr 2008-ci il; 2 iyul 2011-ci il; «Azərbaycan» q., 25 may 2016-cı il).*

1. CM-in 195-1-ci maddəsində nəzərdə tutulmuş kriminal əməl CM-in 195-ci maddəsində təsbit edilmiş əməllə bir sıra ümumi əlamətlərə malik olduğundan şərh edilən norma (CM-in 195-1-ci maddəsi) cinayət qanununun 195-ci maddəsinə münasibətdə müəyyən dərəcədə **xüsusi normadır**. Lakin CM-in 195-1-ci maddəsində nəzərdə tutulmuş əməlin törədilməsi iqtisadi münasibətlərə ziyan vurmaqla yanaşı, birbaşa olaraq Azərbaycan dövlətinə **maddi ziyan** vurur, dövlətin maliyyə-kredit sisteminin normal fəaliyyətini pozur, bəzən isə beynəlxalq aləmdə **dövlətin imicinə zərər yetirir**.

2. Şərh olunan maddədə təsbit edilmiş cinayət tərkibinin əsas **bilavasitə obyekti** dövlət borclarından, habelə dövlət zəmanəti ilə alınmış borclardan istifadə, onların qaytarılması sahəsində yaranan iqtisadi münasibətlərdir. Cinayətin **əlavə obyekti** qismində dövlətin iqtisadi maraqları, o cümlədən dövlətin mülkiyyət hüququ çıxış edir.

3. CM-in 195-1.1-ci və 195-1.2-ci maddələrində bir sıra əlamətləri ümumi olan, lakin başlıca olaraq obyektiv cəhətləri bir-birindən fərqlənən cinayət əməlləri nəzərdə tutulmuşdur.

CM-in 195-1.1-ci maddəsində təsbit edilmiş cinayət tərkibinin **obyektiv cəhəti** alternativ əməlləri, onların törədilməsinin ictimai təhlükəli nəticəsini (dövlətə xeyli miqdarda ziyanın vurulması), habelə baş vermiş nəticə ilə törədilmiş əməl arasında səbəbli əlaqəni nəzərdə tutur. Bu tərkibin obyektiv cəhətini təşkil edən **alternativ əməllər** aşağıdakılardır: a) dövlət borcalmaları və ya dövlət zəmanəti yolu ilə cəlb olunan vəsaitin istifadəsi və qaytarılması haqqında məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada vaxtında verilməməsi; b) dövlət borcalmaları və ya dövlət zəmanəti yolu ilə cəlb olunan vəsaitin istifadəsi və qaytarılması haqqında təhrif olunmuş məlumatların verilməsi; c) əsas və ya təkrar borcalanın bank hesablarının vəziyyəti haqqında məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada vaxtında verilməməsi; ç) əsas və ya təkrar borcalanın bank hesablarının vəziyyəti haqqında təhrif olunmuş məlumatların verilməsi.

Bu əməllərdən hər hansı birinin, yaxud bir neçəsinin törədilməsi digər tərkib əlamətləri də olduqda CM-in 195-1.1-ci maddəsi üzrə məsuliyyətə səbəb olacaqdır.

4. Şərh olunan maddənin tətbiqi zamanı nəzərə almaq lazımdır ki, **dövlət borcu** dedikdə «Dövlət borcu haqqında» Azərbaycan Respublikasının 22 may 2007-ci il tarixli Qanununun 1.1-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikası adından bağlanmış müqavilələrdən yaranan öhdəliklər üzrə ödənilməli olan borc başa düşülür.

Dövlət borcu **iki növə** bölünür: a) daxili dövlət borcu; b) xarici dövlət borcu.

Daxili dövlət borcu Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələrdən yaranan öhdəliklər üzrə borcdur (adı çəkilən Qanunun 1.2-ci maddəsi).

Xarici dövlət borcu Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının qeyri-rezidentləri ilə bağlanmış müqavilələrdən yaranan öhdəliklər üzrə borcdur («Dövlət borcu haqqında» Qanunun 1.3-cü maddəsi).

Dövlət borcalması dedikdə Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri və qeyri-rezidentləri tərəfindən qaytarılma şərtləri borcverənlə razılaşdırılmaqla müəyyən müddətə maliyyə vəsaitinin cəlb edilməsi başa düşülür («Dövlət borcu haqqında» Qanunun 1.5-ci maddəsi).

Daxili dövlət borcalması Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən aşağıdakı formalarda həyata keçirilir: a) Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələr üzrə kreditlərin alınması; b) daxili maliyyə bazarında yerləşdirilmək üçün dövlət qiymətli kağızlarının buraxılması; c) Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələr üzrə dövlət zəmanəti ilə borc alınması («Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsi).

Xarici dövlət borcalmaları Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən aşağıdakı formalarda həyata keçirilir: a) Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının qeyri-rezidentləri ilə bağlanmış müqavilələr üzrə kreditlərin alınması; b) xarici maliyyə bazarlarında yerləşdirilmək üçün dövlət qiymətli kağızlarının emissiyası; c) Azərbaycan Respublikasının qeyri-rezidentləri ilə bağlanmış müqavilələr üzrə dövlət zəmanəti ilə borc alınması; ç) Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan digər borcalma əqdlərinin bağlanması («Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsi).

Şərh edilən maddədə nəzərdə tutulmuş mənada **dövlət zəmanəti** dedikdə əsas borcalan öz öhdəliklərini yerinə yetirmədikdə onun zəmanət verilmiş öhdəliyi üzrə borcunun tam məbləğdə və ya qismən ödənilməsinə dair Azərbaycan Respublikasının öhdəliyi başa düşülür («Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsi).

Dövlət zəmanəti «Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci və 12-ci maddələrində nəzərdə tutulmuş şərtlərə, qaydalara və tələblərə riayət edilməklə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qərarı əsasında verilir. Dövlət zəmanəti Azərbaycan Respublikası Maliyyə naziri və ya bu Nazirliyin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Dövlət zəmanəti ilə bağlı məsələ həll edilərkən maraqlı tərəflərin (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, borcalanın, borcverənin, yaxud istifadəçinin və s.) sorğusu əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyi hüquqi rəy verir.

5. Dövlət borcu və ya dövlət zəmanəti ilə alınmış borc üzrə münasibətlər mülki qanunvericiliyin ümumi tələblərinə də uyğun olmalıdır. MM-in 739.1-ci maddəsində deyilir ki, **borc müqaviləsinə** görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür. MM-in 739.2-ci maddəsinə əsasən borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, **kredit müqaviləsi** adlandırılır.

6. «Dövlət borcu haqqında» Qanunun 8.1-ci maddəsinə müvafiq olaraq, dövlət borcalmaları və ya dövlət zəmanəti yolu ilə cəlb olunan vəsaitdən istifadə edən şəxs kreditorla bağladığı müqavilə və ya Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə bağladığı təkrar müqavilə üzrə aldığı vəsaitlərin bölüşdürülməsini, istifadəsini və qaytarılmasını təmin etməlidir. Bu zaman əsas və təkrar borcalan cəlb olunmuş vəsaitin istifadəsi və qaytarılması (istifadəçiyə şamil olunmur), öz bank hesablarının vəziyyəti haqqında məlumatları və digər zəruri məlumatları Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim edir. Belə məlumatlar qanunvericilikdə müəyyən edilmiş qaydada və dövrilikdə, habelə qanunvericiliyin nəzərdə tutduğu məsələlərə dair təqdim edilməlidir. **Məlumatların təqdim edilməsi** qaydası, dövriliyi və başqa bu kimi məsələlər tərəflər arasında bağlanmış müqavilədə də göstərilməlidir. Məlumatların məzmununa, habelə onların təqdim edilməsinə dair şərtlər qanunvericiliyin və bağlanmış

müqavilələrin müəyyən etdiyi kimi olmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, əsas və ya təkrar borcalanın, yaxud istifadəçinin xeyrinə və ya ziyanına olmasından asılı olmayaraq müqavilədə qanunvericiliyə uyğun olmayan şərtlərin nəzərdə tutulması yolverilməzdir və belə qanunazidd müqavilə şərtlərinə istinad edərək əsas və ya təkrar borcalanın, yaxud istifadəçinin hüquqi məsuliyyəti, o cümlədən cinayət məsuliyyəti müəyyən edilə bilməz.

7. Şərh edilən maddədə dövlət borcalmaları və ya dövlət zəmanəti yolu ilə cəlb olunan vəsaitin istifadəsi və qaytarılması haqqında **məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada vaxtında verilməməsi** dedikdə belə öhdəliyi olan hüquqi şəxsin müvafiq məlumatları Azərbaycan Respublikası Maliyyə Nazirliyinə ümumiyyətlə verməməsi, yaxud bunun üçün müəyyən edilmiş müddət keçənədək verməməsi başa düşüləcəkdir. Təhlil edilən normanın məzmununa əsasən məlumatların verilməsi üçün qanunvericilikdə müəyyən edilmiş vaxt (konkret tarix, yaxud konkret müddət) ötürüldükdən dərhal sonra digər tərkib əlamətləri də olduqda cinayət məsuliyyəti yaranacaqdır. Lakin vaxtın ötürülməsi üzrlü hesab edilə bilən ciddi səbəblərlə bağlı olduqda cinayət məsuliyyəti istisna olunacaqdır. Məlumatların bir hissəsinin verilməsi (yəni natamam verilməsi) də müvafiq tərkib əlamətləri olduqda təhlil edilən maddə üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

8. Dövlət borcalmaları və ya dövlət zəmanəti yolu ilə cəlb olunan vəsaitin istifadəsi və qaytarılması haqqında **təhrif olunmuş məlumatların verilməsi** dedikdə qanunvericilikdə nəzərdə tutulmuş məlumatlar verilsə də, onların reallıqdan kənar olması, təşkilatın həqiqi vəziyyətini əks etdirməməsi, bir sözlə, həmin məlumatların düzgün olmaması başa düşülməlidir.

Lakin nəzərə almaq lazımdır ki, təhlil edilən əməllər qəsdən törədildiyinə görə təqdim edilən məlumatlarda ehtiyatsızlıqdan texniki xətalara yol verilməsi və bu kimi yanlışlıqlar şərh edilən maddə üzrə cinayət məsuliyyətinə səbəb olmayacaqdır.

Cinayət məsuliyyətinin yaranması üçün məlumatların tamamilə və ya qismən təhrif edilməsinin əhəmiyyəti yoxdur. Təqdim edilmiş məlumatlardan yalnız birinin təhrif edilməsi də müvafiq tərkib əlamətləri olduqda CM-in 195-1.1-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

9. Şərh olunan maddədə əsas və ya təkrar borcalanın **bank hesablarının vəziyyəti haqqında məlumatların** qanunvericiliklə müəyyən edilmiş qaydada **vaxtında verilməməsi** dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinə həmin məlumatların ümumiyyətlə verilməməsi, yaxud qanunvericilikdə nəzərdə tutulmuş vaxt (konkret tarix və ya konkret müddət) başa çatanadək verilməməsi başa düşülməlidir. Bank hesablarının vəziyyəti barədə məlumatların qəsdən natamam verilməsi, eləcə də bir neçə bank hesabı olduqda onlardan birinin və ya bir neçəsinin barəsində məlumatın vaxtında verilməməsi də digər tərkib əlaməti olduqda təhlil edilən maddə üzrə cinayət məsuliyyəti yaradacaqdır. Lakin məlumatların üzrlü səbəbdən vaxtında verilməməsi bu cinayət tərkibini yaratmayacaqdır.

10. Əsas və ya təkrar borcalanın **bank hesablarının vəziyyəti haqqında təhrif olunmuş məlumatların verilməsi** dedikdə bank hesabları haqqında

həqiqətə uyğun gəlməyən, təşkilatın maliyyə vəziyyətini, həyata keçirdiyi bank əməliyyatlarını düzgün əks etdirməyən məlumatların Azərbaycan Respublikası Maliyyə Nazirliyinə verilməsi başa düşülməlidir. Verilən məlumatların tam və ya qismən təhrif edilməsindən asılı olmayaraq digər tərkib əlamətləri də olduqda təhlil edilən maddə üzrə məsuliyyət yaranacaqdır. Lakin obyektiv yanılma olduqda, yəni təhrif qəsdən deyil, üzrlü səbəblərdən baş verdikdə cinayət məsuliyyəti istisna olunacaqdır.

11. CM-in 195-1.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** dövlət borcalmaları və ya dövlət zəmanəti verilmiş öhdəlik üzrə cəlb olunmuş vəsaitdən təyinatı üzrə istifadə edilməməsində ifadə olunan əməldən, bu əməl nəticəsində dövlətə xeyli miqdarda ziyan vurulmasından, habelə törədilmiş əməllə baş vermiş nəticə arasında səbəbli əlaqədən ibarətdir.

12. Dövlət borcalmaları və ya dövlət zəmanəti verilmiş öhdəlik üzrə cəlb olunmuş vəsaitdən **təyinatı üzrə istifadə edilməməsi** dedikdə konkret borcalanın, yaxud istifadəçinin ona ayrılan vəsaitlərdən borc müqaviləsində, dövlət zəmanətinin verilməsinə dair qərarda, yaxud istifadəçi ilə bağlanmış müqavilədə nəzərdə tutulmuş təyinatdan fərqli məqsədlər üçün istifadə etməsi başa düşülməlidir.

Qeyd edək ki, «Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən dövlət borcalmaları ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramların həyata keçirilməsini təmin etmək, dövlət büdcəsinin kəsirini örtmək, dövlət investisiyalarını maliyyələşdirmək və Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilən digər məsələlərin həlli məqsədi ilə həyata keçirilir. Dövlət borcalması və ya dövlət zəmanəti verilmiş borcalma üzrə cəlb edilən istənilən vəsait bu normada ümumi şəkildə təsbit edilmiş məqsədlərin həyata keçirilməsi üçün istifadə edilməlidir. Ona görə də hər bir konkret əsas və ya təkrar borcalanla, habelə istifadəçi ilə bağlanmış müqavilədə və digər sənədlərdə borc olaraq cəlb edilən vəsaitlərin təyinatı dəqiq və aydın şəkildə göstərilməlidir. Belə müqavilə və sənədlərdə, yaxud ona əlavə edilən plan və ya layihələrdə cəlb edilən vəsaitin istifadə ediləcəyi istiqamətlər kifayət qədər təfərrüatlarla göstərilməli, hər bir istiqamət üzrə xərclərin məbləği nəzərdə tutulmalıdır. Cəlb edilmiş vəsaitlər yalnız bu sənədlərdə göstərilən təyinat üzrə istifadə edilməli və bu öz əksini maliyyə sənədlərində, habelə konkret yerinə yetirilmiş işdə tapmalıdır.

Təyinatdan kənar istifadə o halda mövcud olacaqdır ki, cəlb edilmiş vəsaitlər bağlanmış müqavilələrdə, habelə digər sənədlərdə nəzərdə tutulmuş öhdəliklərin, planların, layihələrin yerinə yetirilməsi üçün deyil, başqa istiqamətlərdə istifadə edilsin.

Cəlb edilmiş vəsaitlərdən təyinatı üzrə istifadə etməmə həm də bu vəsaitlərdən ümumiyyətlə **istifadə etməmədə** (yəni həmin vəsaitlər hesabına heç bir işi görməmədə) ifadə oluna bilər. Bu halda da digər tərkib əlamətləri mövcud olduqda CM-in 195-1.2-ci maddəsi üzrə cinayət məsuliyyəti yaranacaqdır (məsələn, cəlb edilmiş vəsait uzun müddət istifadə edilmədən saxlandıqdan sonra qaytarılır, lakin həmin vəsaitlər üzrə faizlərin ödənilməsi nəticəsində dövlətə xeyli miqdarda ziyan dəyir).

Cəlb edilmiş vəsaitlər şəxsi və ya başqa bu kimi məqsədlərlə mənimsənilərək təyinatı üzrə istifadə edilmədikdə təqsirkar şəxsin əməli CM-in 195-1.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin və konkret hallardan asılı olaraq müvafiq mülkiyyət əleyhinə olan cinayətin (məsələn, CM-in 179-cu maddəsində təsbit edilmiş cinayətin) və vəzifə cinayətinin məcmusunu yarada bilər.

13. CM-in 195-1.1-ci və 195-1.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlər **maddi tərkiblər** vasitəsi ilə ifadə olunmuşdur. Hər iki maddə üzrə cinayətin mövcud olması üçün törədilmiş əməlin nəticəsi olaraq **dövlətə xeyli miqdarda ziyan** vurulmalıdır. Bu normalarda **xeyli miqdar** dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür.

Dövlətə vurulmuş ziyan CM-in 195-1-ci maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində dövlət borcalması və ya dövlət zəmanəti verilmiş öhdəlik üzrə cəlb edilmiş borclara görə faizlərin dövlət büdcəsindən ödənilməsi, cəlb edilmiş vəsaitlərin təyinatı üzrə istifadə edilməməsi və ya təşkilatın maliyyə-təsərrüfat vəziyyətinin normal olmaması səbəbindən icra edilməmiş və ya yarımçıq qalmış layihələrə dövlətin əlavə vəsaitlər sərf etməsi və başqa bu kimi formalarda ola bilər. Hər bir halda dövlətə **real ziyan vurulması** və bu ziyanın təhlil edilən maddələrdə göstərilən həcmdə olması cinayət məsuliyyətinə səbəb olacaqdır.

14. Cinayət məsuliyyəti məsələsinin həll edilməsi zamanı dövlətə vurulmuş ziyanın məhz CM-in 195-1-ci maddəsində göstərilən əməllərin nəticəsi olduğu, yəni əməllə nəticə arasında **səbəbli əlaqə** olduğu dəqiq müəyyən edilməlidir.

15. CM-in 195-1-ci maddəsində göstərilən cinayətin **subyektiv cəhəti** təqsirin **birbaşa və ya dolayı qəsd** formasını nəzərdə tutur. Təqsirkar şəxs CM-in 195-1.1-ci və ya 195-1.2-ci maddəsində nəzərdə tutulmuş əməlləri (onlardan birini və ya bir neçəsini) törətdiyini dərk edir və bunun dövlətə xeyli miqdarda ziyan vuracağını qabaqcadan görür, bunun baş verməsini arzu edir (birbaşa qəsd) və ya buna şüurlu surətdə yol verir (dolayı qəsd).

Şəxsin bu əməlləri törədərkən rəhbər tutduğu **motiv və məqsəd** əməlin şərh edilən maddə üzrə tövsifi üçün əhəmiyyət daşımır. Lakin bəzi motiv və məqsədlərin olması əməlin cinayətlərin məcmusu qaydasında tövsifinə səbəb ola bilər (məsələn, tamah və ya şəxsi mənfəət əldə etmək məqsədi ilə cəlb edilmiş vəsaitdən təyinatı üzrə istifadə etməmə təhlil edilən maddədə və CM-in 179-cu maddəsində nəzərdə tutulmuş cinayətlərin məcmusunu yarada bilər).

16. CM-in 195-1-ci maddəsində göstərilmiş cinayətin **subyekti xüsusidir**. Şərh edilən maddənin, habelə «Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun təhlilindən aydın olur ki, bu əməllərin subyekti qismində əsas borcalanın, təkrar borcalanın, yaxud cəlb edilmiş vəsaitlərin istifadəçisinin müvafiq səlahiyyətli rəhbər şəxsləri çıxış edə bilər. Konkret halda bu, həmin təşkilat və orqanların rəhbərləri, onların baş mühasibləri, maliyyə-iqtisadiyyat şöbələrinin rəhbərləri, eləcə də cəlb edilmiş vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə, bu vəsaitlərdən istifadə, onların qaytarılması, habelə təşkila-

tın bank hesabları barədə məlumat verilməsinə görə məsul olan digər vəzifəli şəxsləri olacaqdır.

«Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununun 1.7-ci maddəsinə əsasən **əsas borcalan** dövlət zəmanəti verilmiş öhdəlik üzrə borclu olan hüquqi şəxsdir. Həmin Qanunun 1.10-cu maddəsində isə deyilir ki, **təkrar borcalan** dövlət borcalmaları yolu ilə alınmış və qaytarılması dövlət büdcəsi hesabına nəzərdə tutulmayan borc vəsaitindən təkrar müqavilə əsasında istifadə edən hüquqi şəxsdir. Adı çəkilən Qanunun 1.8-ci maddəsi isə müəyyən edir ki, **istifadəçi** dövlət borcalmaları yolu ilə alınmış və qaytarılması dövlət büdcəsi hesabına nəzərdə tutulan borc vəsaitindən təkrar müqavilə əsasında istifadə edən hüquqi şəxs və ya dövlət orqanıdır.

Göründüyü kimi, əsas və təkrar borcalan, habelə istifadəçi qismində yalnız **hüquqi şəxslər** çıxış edə bilər. Həmin təşkilatlara ayrılmış vəsaitlərlə bağlı təhlil etdiyimiz əməllər törədildikdə isə cinayət məsuliyyətinə yuxarıda qeyd etdiyimiz vəzifəli şəxslər cəlb ediləcəkdir.

Nəzərə almaq lazımdır ki, CM-in 195-1.1-ci maddəsində göstərilən əməllər yalnız əsas və təkrar borcalan təşkilatda törədilə bilər, çünki «Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanunu istifadəçi təşkilatın üzərinə cəlb olunmuş vəsaitin istifadəsi və qaytarılması, habelə öz bank hesablarının vəziyyəti barədə məlumat vermək vəzifəsi qoymamışdır. Lakin əsas və ya təkrar borcalan təşkilat eyni zamanda özü istifadəçi qismində də (vəsaitlərin yönəldiyi layihənin icrasında iştirak etdikdə) çıxış edə bilər.

CM-in 195-1.2-ci maddəsində təsbit edilmiş cinayət isə həm əsas və təkrar borcalan, həm də istifadəçi təşkilatda törədilə bilər.

17. CM-in 195-1-ci maddəsində yalnız alınmış olan dövlət borcundan və ya dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutulduğundan əsas və ya təkrar borcalan, yaxud istifadəçi həmin vəsaitlərin alınması qaydalarını pozduqda (yəni qanunsuz kredit aldıqda) törədilmiş əməl digər tərkib əlamətləri də olduqda CM-in 195-ci maddəsi üzrə **qanunsuz kredit alma** kimi tövsif ediləcəkdir.

18. CM-in 195-1.3-cü maddəsində təhlil edilən cinayət əməllərinin **ağırlaşdırıcı tərkib əlaməti** – bu əməllərin törədilməsinin dövlətə külli miqdarda ziyan vurması göstərilmişdir.

Bu normada **külli miqdar** dedikdə vurulmuş ziyanın məbləğinin yüz min manatdan **artıq** olması başa düşülür (CM-in 190-cı maddəsinin qeydi).

Əməli bu maddə üzrə tövsif edərkən külli miqdarda ziyanla törədilmiş əməl arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

Maddə 195-2. Daxili və xarici borcalma qaydasını pozma

195-2.1. Dövlətə məxsus olan hüquqi şəxslərin müvafiq icra hakimiyyəti orqanının razılığını almadan daxili və ya xarici borcalması dövlətə xeyli miqdarda ziyan vurduqda —

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın bir mislindən üç mislinədək miqdarında cərimə və ya iki ildək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildək müddətə azadlıq-

dan məhrumetmə ilə cəzalandırılır.

195-2.2. Eyni əməllər dövlətə külli miqdarda ziyan vurduqda —

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarında cərimə və ya iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «dövlətə məxsus olan hüquqi şəxslər» dedikdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan kommersiya hüquqi şəxsləri, dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər, habelə qeyd olunan hüquqi şəxslərin yaratdığı paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə həmin hüquqi şəxslərə məxsus olan törəmə təsərrüfat cəmiyyətləri, qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər nəzərdə tutulur *(17 noyabr 2017-ci il tarixli Qanunla əlavə edilmişdir - «Azərbaycan» q., 16 dekabr 2017-ci il).*

1. CM-in 195-2-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin **ictimai təhlükəliliyi** Azərbaycan Respublikasına **maddi ziyan** vurulmasında, dövlətin maliyyə-kredit sisteminin normal fəaliyyətinin və maliyyə intizamının pozulmasında, dövlətin iqtisadi siyasətinin zəifləməsində ifadə olunur.

2. Şərh olunan maddədə təsbit edilmiş cinayət tərkibinin **əsas bilavasitə obyektini** dövlətə məxsus olan hüquqi şəxslərin daxili və ya xarici borcalması qaydalarını tənzim edən maliyyə-kredit münasibətləri təşkil edir. Cinayətin **əlavə obyekti** qismində mülkiyyət münasibətləri çıxış edir.

3. CM-in 195-2.1-ci maddəsində təsbit edilmiş cinayət **obyektiv cəhətdən** dövlətə məxsus olan hüquqi şəxslərin müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin) razılığını almadan daxili və ya xarici borcalmasını ehtiva edən hərəkətlərdə və belə hərəkətlər nəticəsində dövlətə xeyli miqdarda ziyanın vurulmasını əhatə edən ictimai təhlükəli nəticədə ifadə olunur.

4. Şərh olunan maddənin «Qeyd»inə görə **«dövlətə məxsus olan hüquqi şəxslər»** dedikdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan kommersiya hüquqi şəxsləri, dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər, habelə qeyd olunan hüquqi şəxslərin yaratdığı paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə həmin hüquqi şəxslərə məxsus olan törəmə təsərrüfat cəmiyyətləri, qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər nəzərdə tutulur.

Dövlət borcu, onun növləri, dövlət borcalması, daxili və ya xarici borcalmasının anlayışı haqqında CM-in 195-1-ci maddəsinin şərhinin 4-cü bəndinə bax.

Şərh olunan maddə üzrə cinayət məsuliyyətinin yaranması üçün dövlətə məxsus olan hüquqi şəxslər daxili və ya xarici borcalmanı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığını almadan həyata keçirməlidirlər.

5. CM-in 195-2.1-ci və 195-2.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlər **maddi tərkibli** cinayətlərdir. Dövlətə məxsus olan hüquqi şəxslərin Azər-

baycan Respublikası Maliyyə Nazirliyinin razılığını almadan daxili və ya xarici borcalması dövlətə **xeyli miqdarda** ziyan vurduqda CM-in 195-2.1-ci maddəsi ilə, **külli miqdarda** ziyan vurduqda CM-in 195-2.2-ci maddəsi ilə (**ağırlaşdırıcı hal**) cinayət məsuliyyəti yaranır. **Xeyli miqdar** dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, **külli miqdar** dedikdə isə yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ başa düşülür.

Cinayət məsuliyyətinin yaranması üçün dövlətə vurulmuş ziyanla razılıqsız daxili və ya xarici borcalma arasında **səbəbli əlaqə** olmalıdır.

CM-in 195-2-ci maddəsində nəzərdə tutulmuş **dövlətə vurulmuş ziyan** alınan borcun təyinatı üzrə xərclənməməsi, lazımi qaydada xərclənməməsi, səmərəsiz xərclənməsi, mənimsənilməsi və ya israf edilməsi və sair əməllər nəticəsində dövlətə məxsus olan hüquqi şəxslərin (müəssisənin, təşkilatın) müflisləşməsi, yaxud müflisləşmə həddinə çatması, habelə maliyyə vəsaitlərinin tükənməsi və buna görə də dövlətin həmin hüquqi şəxslərin vəziyyətinin yaxşılaşdırılması məqsədilə əlavə vəsait ayırması formasında və digər bu kimi formalarda ola bilər. Dövlətə vurulmuş ziyan **real ziyan** olmalı və həmin ziyan **xeyli və ya külli miqdarda** olmalıdır.

6. CM-in 195-2-ci maddəsində göstərilən cinayətin **subyektiv cəhəti** təqsirin **dolayı qəsd** formasını nəzərdə tutur. Təqsirkar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığını almadan daxili və ya xarici borcalmanın ictimai təhlükəli olduğunu dərk edir, bunun dövlətə xeyli və ya külli miqdarda ziyan vuracağını qabaqcadan görür, belə əməlin törədilməsini arzu etmir, lakin onun nəticələrinin baş verməsinə şüurlu surətdə yol verir.

Əgər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığını almadan daxili və ya xarici borcalmanı həyata keçirən şəxs həm də həmin əməli nəticəsində dövlətə xeyli və ya külli miqdarda ziyan vurmağı arzu edirsə, onun əməli məzmunundan asılı olaraq mənimsəmə və ya israf etmə (CM-in 179-cu maddəsi), dələduzluq (CM-in 178-ci maddəsi) və ya müvafiq əlamətlər olduqda qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə (CM-in 195-ci maddəsi) kimi tövsif edilməlidir.

7. CM-in 195-2-ci maddəsində əks olunmuş cinayətin **subyekti xüsusidir**. Bu cinayətin subyekti qismində təşkilati-hüquqi formasından asılı olaraq dövlətə məxsus olan hüquqi şəxsin rəhbəri (direktor, sədr, prezident və s.), rəhbərin səlahiyyətlərini icra edən şəxs, hüquqi şəxsin fəaliyyətini tənzim edən sənədə (əsasnamə, nizamnamə və s.) əsasən hüquqi şəxsin adından borc almaq səlahiyyətinə malik olan şəxs çıxış edə bilər.

Maddə 196. Kreditor borclarını ödəməkdən qəsdən yayınma

196.1. Məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarına əsasən təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən qəsdən yayınması xeyli miqdarda ziyan vurduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

196.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 18 iyun 2010-cu il, 31 may 2011-ci il, 6 may 2016-cı il 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 17 iyul 2010-cu il; 2 iyul 2011-ci il; «Azərbaycan» q., 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Təhlil edilən cinayətə görə məsuliyyət nəzərdə tutan maddə Respublikamızın cinayət qanunvericiliyinin yeniliklərindən biridir. Bu maddə şəxsin qanundan və ya məhkəmə qərarından irəli gələn öhdəlikləri yerinə yetirməməsinə görə mülki-hüquqi vasitələrin kifayət etmədiyi halda cinayət məsuliyyəti nəzərdə tutur.

2. CM-in 196-cı maddəsində nəzərdə tutulan cinayətin **obyekti** maliyyə-kredit münasibətləri sahəsində yaranan ictimai münasibətlərdir. Bu münasibətlərə qəsd edilməsi, bir tərəfdən, ölkənin iqtisadi sisteminin mühüm tərkib hissəsi olan pul-kredit münasibətlərinin sabitliyini pozur, digər tərəfdən, maliyyə vəsaitlərinin kriminal elementlərin nəzarətinə keçməsinə və beləliklə də, sahibkarlıq fəaliyyəti subyektlərinin, dövlətin və ayrı-ayrı şəxslərin mənafelərinin pozulmasına səbəb olur. Belə qəsdlərin məhkəmə qərarlarına məhəl qoyulmadan törədilməsi göstərilən əməllərin ictimai təhlükəliliyini dəfələrlə artırır.

3. Təhlil edilən cinayət tərkibinin zəruri əlamətlərindən biri obyektiv cəhətə daxil olan əməllərin qanuni qüvvəyə minmiş məhkəmə qərarına məhəl qoyulmadan törədilməsi olduğundan bu cinayətlə CM-in 306-cı maddəsi arasında rəqabət yarana bilər. Lakin təhlil edilən cinayət qəsd obyektinin xüsusiyyətlərinə görə «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər» fəslinə daxil edilmişdir və CM-in 306-cı maddəsinə münasibətdə **xüsusi tərkibdir**.

4. CM-in 196-cı maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** qanuni qüvvəyə minmiş müvafiq məhkəmə qərarından sonra kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən yayınmadan, bunun nəticəsində xeyli miqdarda ziyan vurulmasından və həmin əməllərlə vurulmuş ziyan arasında səbəbli əlaqə olmasından ibarətdir.

5. Şərh edilən maddənin dispozisiyasında nəzərdə tutulmuş mənada **kreditor borcu** dedikdə təkcə borc müqaviləsinin deyil, **istənilən növ öhdəliklərin icra edilməməsi** başa düşülməlidir. MM-in 442-ci maddəsinə əsasən öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür.

6. **«Qiymətli kağız»** anlayışı barədə CM-in 203-cü maddəsinin şərhinə bax.

Qiymətli kağız üzrə öhdəliklər və onların icrası MM-in 988-ci maddəsində müəyyən edilmişdir. Nəzərə almaq lazımdır ki, bəzi qiymətli kağızlar üzrə ödəmə, ümumiyyətlə, nəzərdə tutulmur, yaxud da müəyyən hallarda nəzərdə tutulur.

7. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti kreditor borcun ödənilməsi və ya qiymətli kağızların ödənilməsi haqqında **qanuni qüvvəyə minmiş məhkəmə qərarının** olmasıdır. Qanuni qüvvəyə minmiş məhkəmə qərarı dedikdə MPM-də (İPM-də) müəyyən edilmiş qaydalara əsasən məhkəmə (inzibati-iqtisadi məhkəməsi, münsiflər məhkəməsi) tərəfindən iş üzrə çıxarılmış və qanuni qüvvəyə minmiş qətnamə başa düşülməlidir.

Məhkəmənin iş üzrə qətnaməsi ilə borclu kreditor qarşısındakı borcunu ödəməyə, üzərinə götürdüyü borcu real icra etməyə, fərdi-müəyyən əşyanı verməyə məcbur edilə bilər.

8. Kreditor borc, yaxud qiymətli kağızları ödəməkdən **yayınma** dedikdə təqsirkarın məhkəmənin müvafiq qətnaməsi ilə üzərinə qoyulmuş öhdəlikləri icra etməməsində ifadə olunan hərəkət və ya hərəkətsizliyi başa düşülür. Yayınma kreditor borcların və ya qiymətli kağızların qətnamədə göstərilmiş müddətdə ödənilməməsində, ödəmənin yönələcəyi əmlakın borclu tərəfindən özgəninkiləşdirilməsində, borcun ödənilməsini həyata keçirən orqanlara gəlməkdən boyun qaçırmada, ödəmənin icra edilməsinə maneələr yaratmada, kreditora qanunsuz təsir göstərmədə və s. ifadə oluna bilər.

Ödəmənin qətnamədə müəyyən edilmiş ardıcıllıqla hissə-hissə ödənilməsi, borclunun kreditora qarşılıqlı maliyyə tələbləri irəli sürməsi və məhkəmədə müvafiq iddia ilə çıxış etməsi ödəmədən yayınma kimi qiymətləndirilə bilməz.

9. Təhlil edilən cinayət **maddi tərkib** vasitəsi ilə ifadə olunduğundan ödəmədən yayınmanın xeyli miqdarda ziyan vurduğu andan **başa çatmış** hesab ediləcəkdir. Burada **xeyli miqdar** dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür. Vurulmuş ziyanın miqdarı müəyyən edilərkən icrası borclu üçün məcburi hesab edilmiş məhkəmə qətnaməsində göstərilmiş ödəmənin miqdarı əsas götürülməlidir.

10. Şərh edilən cinayət **subyektiv cəhətdən** qəsdən törədilir. Təqsirkar qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən sonra kreditor borcu və ya qiymətli kağızları ödəməkdən boyun qaçırdığını dərk edir, bunun nəticəsində zərərçəkmişə (kreditora və ya qiymətli kağızın sahibinə) xeyli miqdarda ziyan vurulacağını qabaqcadan görür və bunu arzu edir **(birbaşa qəsd)** və ya buna şüurlu surətdə yol verir **(dolayı qəsd).**

11. Cinayətin subyekti təşkilatın rəhbəri və ya vətəndaş ola bilər.

Təşkilatın rəhbəri dedikdə hüquqi şəxsin nizamnaməsinə və ya başqa təsis sənədinə əsasən onun əmlakı barəsində sərəncam vermək və öhdəlikləri üzrə qərar qəbul etmək səlahiyyəti olan şəxs başa düşülür.

Vətəndaş dedikdə 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs nəzərdə tutulur. Lakin 18 yaşına çatmayan şəxsin məsuliyyəti barədə məsələ həll edilərkən belə şəxsin mülki-hüquqi fəaliyyət qabiliyyəti haqqında MM-in 30-cu maddəsinin tələblərinə riayət edilib-edilməməsi yoxlanılmalıdır.

12. CM-in 196.2-ci maddəsində kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən yayınmanın **ağırlaşdırıcı əlaməti** kimi həmin əməllərin **külli miqdarda** ziyan vurması nəzərdə tutulmuşdur. CM-in 190-cı maddəsinə əsasən bu, yüz min manatdan artıq olan məbləğə bərabərdir.

Maddə 197. Əmtəə nişanlarından qanunsuz istifadə etmə

197.1. Özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunması xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

197.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; «Azərbaycan» q., 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in 197-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** qismində əmtəə və ya xidmət etmə nişanlarının, əmtəənin mənşə yerinin adının qeydiyyatı, mühafizə olunması və istifadə edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlər, habelə sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak mənafeləri və istehlakçıların mənafeləri çıxış edir.

2. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, əmtəə və ya xidmət nişanından, əmtəənin mənşə yerinin adından qanunsuz istifadə həmin fərqlənmə nişanlarının qanuni sahiblərinin mənafelərinə və işgüzar nüfuzuna ziyan vurmaqla yanaşı, istehlakçıların «saxta» əmtəə və xidmətlərlə aldadılmasına, bəzən isə onların mənafeyinə daha ciddi ziyan vurulmasına səbəb olur.

3. CM-in 197-ci maddəsində nəzərdə tutulmuş cinayətin **predmeti** qismində əmtəə nişanı, xidmət etmə nişanı, əmtəənin mənşə yerinin adı və əmtəələrin adına oxşar adlar çıxış edir.

4. **Əmtəə nişanının (xidmət etmə nişanının)** anlayışı «Əmtəə nişanı və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikasının 12 iyun 1998-ci il tarixli Qanununun 1-ci maddəsində verilmişdir: «**Əmtəə nişanı (xidmət etmə nişanı)** — sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır)».

5. «Əmtəə nişanı və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən **coğrafi göstərici (əmtəənin mənşə yerinin adı)** əmtəənin mənşəyinin dövlət, bölgə, ərazi, yaxud müəyyən ərazidəki yer ilə (coğrafi obyektlə) bağlılığını müəyyənləşdirən, eyni zamanda bu

əmtəənin xüsusi keyfiyyətini, şöhrətini və başqa xassələrini əsasən coğrafi mənşə ilə əlaqədar əks etdirən işarədir.

Əmtəə nişanı, xidmət etmə nişanı, əmtəənin mənşə yerinin adı «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş qaydalara riayət edilməklə Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində qeydiyyata alınaraq, Dövlət reyestrinə daxil edilir. Əmtəə və ya xidmət etmə nişanının, əmtəənin mənşə yerinin adının qeydiyyatı barədə onların sahibinə şəhadətnamə verilir. Bu şəhadətnamə qeyd olunan fərqləndirici nişanların sahibinin həmin nişanlardan istifadəyə müstəsna hüququnu təsdiq edir.

6. **Eynicinsli əmtəələrin adına oxşar ad** dedikdə əmtəənin (xidmətin) işarə edilməsi üçün istifadə edilən və başqa eynicinsli əmtəənin (xidmətin) sahibinin adına qeydiyyatdan keçirilmiş nişanla fərqləndirilməsi çətin olacaq dərəcədə oxşar olan ad başa düşülməlidir. «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 1-ci hissəsində belə oxşar nişanların siyahısı verilmiş və həmin nişanların əmtəə nişanı kimi dövlət qeydiyyatına alınması qadağan edilmişdir.

7. Təhlil edilən cinayətin **obyektiv cəhəti** aşağıdakıları əhatə edir: a) özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə edilməsində ifadə olunan hərəkətlər; b) həmin hərəkətlərin xeyli miqdarda ziyan vurması.

8. **Özgənin** əmtəə nişanı (xidmət etmə nişanı) dedikdə digər şəxsin adına qeydiyyatdan keçmiş və istifadə hüququna dair lisenziya müqaviləsi əsasında və ya əmtəə nişanına dair müqavilə əsasında həmin nişanın aid edildiyi əmtəələrin və xidmətlərin hamısı və ya bir hissəsi barədə təqsirkar şəxsə verilməmiş əmtəə nişanı (xidmət etmə nişanı) başa düşülür.

9. Əmtəə nişanından (xidmət etmə nişanından) və əmtəənin mənşə yerinin adından **istifadə etmə** dedikdə «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə əsasən həmin nişanların onların aid edildiyi əmtəələrdə, əmtəə qablarında və göstərilən xidmətlərdə tətbiqi başa düşülür. Onların reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgilərin və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiqi də istifadə sayılır. Adı çəkilən Qanunun 28-ci maddəsinin 1-ci hissəsinə əsasən əmtəə nişanından (xidmət etmə nişanından) istifadə hüququ başqa şəxsə verilə bilər. Lakin bu maddənin sonuncu hissəsinə əsasən coğrafi göstəricidən istifadə hüququ başqa şəxsə verilə bilməz.

10. Təhlil edilən cinayət tərkibinin mühüm əlamətlərindən biri özgənin əmtəə (xidmət) nişanından, əmtəənin mənşə yerinin adından istifadənin **qanunsuz** olmasıdır.

Özgənin əmtəə (xidmət) nişanından qanunsuz istifadə dedikdə «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinə əsasən əmtəə nişanı sahibinin razılığı olmadan ondan istifadə edilməsi nəzərdə tutulur. Əmtəə (xidmət) nişanından qanunsuz istifadə lazımi razılıq alınmadan özgənin belə nişanını istehsal etmədə, ixrac etmədə, satmada, bu nişanla nişanlanmış əmtəələri istehsal etmədə, satmada və başqa cür mülki dövriyyəyə daxil etmədə ifadə oluna bilər.

Əmtəənin mənşə yerinin adından qanunsuz istifadə adı çəkilən Qanunun 32-ci maddəsinin 4-cü hissəsinə əsasən əmtəənin həqiqi mənşə yeri məlum olsa da, həmin mənşə yeri adının qeydiyyatı haqqında şəhadətnamənin olmadığı, mənşə yerinin adının tərcümədə göstərilmiş olduğu və ya «cins», «tip», «təqlid» və başqa ifadələrlə birgə işləndiyi, habelə istehlakçıları yanılda bilən bircinsli əmtəələr barəsində eyni və ya oxşar nişandan istifadə edildiyi halda mövcud olacaqdır.

11. **Xeyli miqdarda ziyan** dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğdə olan ziyan başa düşülür. Belə ziyan həm qeyd edilən fərqlənmə nişanlarının sahibinə, həm də istehlakçıya vurula bilər.

12. Şərh edilən cinayətin subyektiv cəhəti **birbaşa** və ya **dolayı** qəsddən ibarətdir.

13. Cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

14. Əmtəə (xidmət) nişanından qanunsuz istifadə müəlliflik hüququ və ya əlaqəli hüquq obyektlərindən qanunsuz istifadə, özgənin müəllifliyini başqa cür mənimsəmə ilə əlaqədar olduqda əməl cinayətlərin məcmusu qaydasında CM-in 165-ci və 197-ci maddələri üzrə tövsif ediləcəkdir.

15. CM-in 197.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** — eyni əməllərin külli miqdarda ziyan vurmaqla törədilməsi nəzərdə tutulmuşdur. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən **külli miqdar** yüz min manatdan artıq məbləğə bərabərdir.

Maddə 198. Bilə-bilə yalan reklam etmə

198.1. Əmtəələr, qulluq və xidmətlər haqqında, habelə onların istehsalçıları (icraçıları, satıcıları) haqqında tamah məqsədilə bilə-bilə yalan məlumatlardan reklamda istifadə etmə xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

198.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; «Azərbaycan» q., 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Təhlil edilən cinayət də Respublikamızın cinayət qanunvericiliyinin yeniliklərindəndir. Belə bir maddənin yeni cinayət qanununa daxil edilməsi heç də təsadüfi deyildir, çünki Respublikamızda azad rəqabətə söykənən bazar iqtisadiyyatının təşəkkül tapdığı bir şəraitdə mühüm iqtisadi elementlərdən biri olan reklamdan sui-istifadə nəinki sahibkarlıq fəaliyyəti subyektləri üçün, həm

də istehlakçıların mənafeyi baxımından çox təhlükəlidir.

2. CM-in 198-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** əmtəələr (işlər, xidmətlər) barəsində reklamın istehsalı, yerləşdirilməsi və yayılması ilə əlaqədar yaranan ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində hüquqi və fiziki şəxslərin əmlak mənafeləri, sahibkarlıq subyektlərinin işgüzar nüfuzu çıxış edir.

3. **«Reklam»** anlayışı «Reklam haqqında» Azərbaycan Respublikasının 3 oktyabr 1997-ci il tarixli Qanununun 1-ci maddəsində verilmişdir: **reklam** fiziki və hüquqi şəxslər, əmtəə, ideya və yeniliklər (reklam informasiyası) haqqında maraq formalaşdırmaq və ya bu marağı saxlamaq, əmtəənin satılmasına, ideya və yeniliklərin həyata keçirilməsinə kömək göstərmək məqsədi ilə yayılan informasiyadır.

4. Şərh edilən cinayətin **obyektiv cəhəti** aşağıdakılardan ibarətdir: əmtəələr, qulluq və xidmətlər haqqında, habelə onların istehsalçıları (icraçıları, satıcıları) haqqında bilə-bilə yalan məlumatlardan reklamda istifadə etmə; bunun nəticəsində xeyli miqdarda ziyan vurulması; törədilmiş əməllə vurulmuş ziyan arasında səbəbli əlaqə.

5. Təhlil edilən normanın mahiyyətinə əsasən reklamda əmtəələr, qulluq və xidmətlər haqqında, habelə onların istehsalçıları (icraçıları, satıcıları) haqqında **bilə-bilə yalan məlumatdan istifadə etmə** bilərəkdən yalan reklam deməkdir. «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən o reklam bilərəkdən yalan reklam hesab edilir ki, onun köməyi ilə reklam sifarişçisi (reklam istehsalçısı, reklam yayıcısı və ya reklam agentliyi) reklam istehlakçısını qəsdən yanlış istiqamətləndirir.

Reklamda istifadə edilən o məlumat yalan hesab ediləcəkdir ki, əmtəənin (xidmətin, işin) kəmiyyəti, keyfiyyəti və başqa istehlak xüsusiyyətləri haqqında, habelə onların istehsalçıları (icraçıları, satıcıları) haqqında mühüm yanlışlıqlara yol verilsin, yaxud onlar haqqında, ümumiyyətlə, yalan məlumat verilsin.

Yalnız təhlil edilən maddənin dispozisiyasında sadalananlar (əmtəələr, qulluq və ya xidmətlər, habelə onların istehsalçıları, icraçıları, satıcıları) barəsində bilə-bilə yalan məlumatlardan reklamda istifadə etmə CM-in 198-ci maddəsi üzrə məsuliyyətə səbəb olur. Ona görə də siyasi və sosial xarakterli, habelə sahibkarlıq fəaliyyəti subyekti olmayan ayrı-ayrı şəxslərin elanları şəklində olan bilə-bilə yalan reklam vermə təhlil edilən cinayətin tərkibini yaratmır.

6. Bilə-bilə yalan məlumatlardan reklamda istifadə etmə konkret olaraq belə məlumatların daxil edildiyi reklamın **istehsalında, yerləşdirilməsində** və yayılmasında ifadə olunmalıdır.

7. Şərh edilən cinayət **maddi tərkib** vasitəsilə ifadə olunduğundan xeyli miqdarda ziyan vurulduğu andan **başa çatacaqdır**. Burada **xeyli miqdar**, CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğə bərabərdir.

Ziyan istehlakçıların həyat və sağlamlığına vurulmuş zərərdə, sahibkarlıq fəaliyyəti subyektlərinin əldən çıxmış mənfəətində və ya onlara vurulmuş əmlak ziyanında və s. ifadə oluna bilər. Hər bir halda bilə-bilə yalan məlumatlardan reklamda istifadə etmə və vurulmuş ziyan arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

8. Şərh edilən cinayətin **subyektiv cəhəti birbaşa qəsddən və tamah məqsədindən** ibarətdir. Təqsirkar əmtəələr, qulluq və xidmətlər haqqında, yaxud onların istehsalçıları (icraçıları, satıcıları) haqqında yalan məlumatlardan reklamda istifadə etdiyini dərk edir, bunun xeyli miqdarda ziyan vuracağını qabaqcadan görür və tamah məqsədi ilə bunu arzu edir.

Tamah məqsədi təqsirkarın yalan reklamın köməyi ilə adi halda olduğundan artıq mənfəət (gəlir) əldə etmək istəməsində ifadə olunur.

9. CM-in 198-ci maddəsinin mahiyyətinə əsasən təhlil edilən cinayət yalnız **xüsusi subyekt** tərəfindən törədilə bilər. Bu, reklam sifarişçisi, reklam istehsalçısı və ya reklam yayıcısı ola bilər. Onların anlayışı «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində verilmişdir.

Reklam sifarişçisi reklamın istehsalı, yerləşdirilməsi və yayılması üçün reklam informasiyasının mənbəyi olan fiziki və ya hüquqi şəxsdir. Lakin təhlil edilən cinayətin subyekti qismində sahibkarlıq fəaliyyəti subyekti olan fiziki şəxs və ya kommersiya təşkilatının müvafiq səlahiyyətli şəxsi (təsisçisi, rəhbəri) çıxış edə bilər.

Reklam istehsalçısı reklam informasiyasını yayım üçün tam və ya qismən hazırlayan fiziki və ya hüquqi şəxsdir (cinayətin subyekti bu hüquqi şəxsin rəhbəri olacaqdır).

Reklam yayıcısı əmlakdan, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə və ya onun istifadəyə verilməsi yolu ilə və digər üsullarla reklamı yerləşdirən (yayan) fiziki və ya hüquqi şəxsdir (cinayətin subyekti hüquqi şəxsin rəhbəri olacaqdır).

10. CM-in 198.2-ci maddəsində bilə-bilə yalan reklam etmənin **ağırlaşdırıcı tərkib əlaməti** — həmin əməllərin **külli miqdarda** ziyan vurması nəzərdə tutulmuşdur. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən bu, yüz min manatdan artıq olan məbləğə bərabər olmalıdır.

Maddə 199. İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma

199.1. Təsərrüfat subyektlərinin digər rəqibləri bazardan kənarlaşdırmaq və ya yeni rəqiblərin bazara daxil olmasının qarşısını almaq məqsədilə rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsi, belə sövdələşmədə iştirak etmə, yaxud rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratma, məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmə və ya digər inhisarçılıq hərəkətlərini etmə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə edilməklə iki il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

199.2. Eyni əməllər:

199.2.1. təkrar törədildikdə;

199.2.2. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

199.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

199.2.4. xeyli miqdarda ziyan vurduqda və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə —

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

199.3. Bu Məcəllənin 199.1-ci və ya 199.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

199.3.1. cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

199.3.2. hədə-qorxu ilə tələb etmə əlamətləri olmadan, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə özgənin əmlakını məhv etməklə və ya zədələməklə və ya belə məhv etmə və ya zədələmə hədəsi ilə törədildikdə;

199.3.3. külli miqdarda ziyan vurduqda və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə edilməklə yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 199.2.4-cü maddəsində «xeyli miqdar» dedikdə on min manatdan əlli min manatadək olan məbləğ, 199.3.3-cü maddəsində isə «külli miqdar» dedikdə əlli min manatdan artıq olan məbləğ başa düşülür.

2. Bu Məcəllənin 199.1-ci maddəsində nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla həmin cinayət əməlinin aşkar edilməsinə və qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir *(5 aprel 2016-cı il tarixli Qanunla yeni redaksiyada verilmiş, 31 may 2017-ci il tarixli Qanunla düzəliş edilmişdir - «Azərbaycan» q., 3 may 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Mülkiyyət formalarının müxtəlifliyi və təsərrüfat plüralizmi şəraitində əmtəə (xidmət, iş) bazarının səmərəli fəaliyyətinin, azad rəqabətin normativ tənzimlənməsinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyəti subyektlərinin vicdanlı rəqabəti pozan, başqa subyektlərin təsərrüfat fəaliyyətini məhdudlaşdıran hərəkətləri, habelə müxtəlif dövlət orqanlarının iqtisadi münasibətlər sahəsinə müdaxilə edərək əmtəə (xidmət, iş) bazarı iştirakçılarının sərbəst rəqabət imkanlarını məhdudlaşdırması qanunvericiliklə, o cümlədən cinayət qanunvericiliyi ilə qadağan olunmuşdur.

2. Şərh edilən cinayətin **obyekti** əmtəə (xidmət, iş) bazarında iqtisadi fəaliyyət subyektlərinin azad rəqabəti ilə əlaqədar yaranan ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində şəxsiyyətin sağlamlığı, şərəf və ləyaqəti, habelə hüquqi və fiziki şəxslərin əmlak mənafeləri çıxış edə bilər.

3. CM-in 199.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** 1) rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsində; 2) belə sövdələşmədə iştirak etmədə; 3) rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratmada; 4) məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmədə; və digər inhisarçılıq hərəkətlərini etmədə ifadə olunur.

4. **İnhisarçılıq hərəkətləri** dedikdə inhisarçılıq fəaliyyətini təşkil edən bu və ya başqa hərəkətlər başa düşülməlidir. «Antiinhisar fəaliyyəti haqqında» 4 mart 1993-cü il tarixli Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən **inhisarçılıq fəaliyyəti** inhisarçılığın bu və ya digər forması olub, təsərrüfat subyektlərinin, yaxud icra hakimiyyəti və idarəetmə orqanlarının rəqabətə yol verməməyə, onu məhdudlaşdırmağa, yaxud aradan qaldırmağa yönəldilmiş fəaliyyətidir. İnhisarçılıq fəaliyyəti CM-in 199-cu maddəsinin dispozisiyasında nəzərdə tutulmuş konkret hərəkətlərlə törədildikdə şərh edilən cinayət tərkibi yaranır.

5. **Rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsi** dedikdə eyni əmtəə (xidmət) bazarında rəqabət aparan, maliyyə və hüquqi baxımdan müstəqil olan iki və ya daha çox təsərrüfat subyektinin digər rəqibləri bazardan kənarlaşdırmaq və (və ya) yeni rəqiblərin bazara daxil olmasının qarşısını almaq məqsədilə bazarın ərazi prinsipinə, alqı-satqının həcminə, malların çeşidinə və ya müştərilərə (sifarişçilərə) görə bölüşdürülməsi, malların (xidmətlərin) alınmasından və ya satılmasından imtina edilməsi, qiymətlərin (tariflərin) yüksəldilməsi, azaldılması və ya bir səviyyədə saxlanılması, malların satışına və ya xidmətlərin göstərilməsinə güzəştlərin, endirimlərin və əlavələrin müəyyən edilməsi, yaxud rəqabəti məhdudlaşdıran digər vasitələrin tətbiqi barədə hər hansı bir formada könüllü sövdələşməsi başa düşülməlidir. Ən azı iki təsərrüfat subyektinin kartel sövdələşməsində iştirakının olması zəruridir.

Rəqabəti məhdudlaşdıran vasitələrdən biri kimi bazarın ərazi prinsipinə, alqı-satqının həcminə, malların çeşidinə və ya müştərilərə (sifarişçilərə) görə bölüşdürülməsidir. **Bazarı bölüşdürmə** əraziyə görə, satılan malların çeşidinə görə, yaxud satıcıların və ya alıcıların dairəsinə görə təsərrüfat subyektləri arasında bazarın dəqiq müəyyən olunmuş paylara bölünməsidir. Bazarı bölüşdürmə təsərrüfat subyektlərinin öz aralarında bağladığı saziş üzrə və ya saziş olmasa da, razılaşdırılmış birgə fəaliyyət yolu ilə həyata keçirilir. Bazarı bölüşdürmə nəticəsində hər hansı subyektin bazarda hökmran mövqeyi yaranarsa, bu, inhisarçılıq hərəkəti hesab edilməlidir.

Malların (xidmətlərin) alınmasından və ya satılmasından imtina edilməsi rəqiblərin təklif etdikləri malların (xidmətlərin) qiymətlərinin aşağı, şərtlərin isə əlverişli olmasından asılı olmayaraq onların alqı-satqısının rədd edilməsi anlaşılmalıdır.

Qiymətlərin (tariflərin) yüksəldilməsi dedikdə əmtəə bazarında istehsalçı və ya satıcı qismində hökmran mövqe tutan təsərrüfat subyektinin əmtəənin

keyfiyyətinin aşağı salınması hesabına əlavə mənfəət əldə etmək məqsədi ilə qiymətləri yüksək müəyyən etməsi başa düşülməlidir

Qiymətlərin (tariflərin) azaldılması dedikdə əmtəə bazarında satıcı qismində hökmran mövqe tutan subyektin əlavə mənfəət əldə etmək məqsədi ilə, yaxud əmtəə bazarında istehsalçı (və ya satıcı) qismində hökmran mövqe tutan subyektin bazardan başqa rəqibləri sıxışdırıb çıxarmaq məqsədi ilə əmtəəyə satışdan ziyan gətirən səviyyədə qiymət qoyması nəzərdə tutulur.

Qiymətlərin (tariflərin) bir səviyyədə saxlanılması müəyyən növ məhsul bazarına əmtəə müdaxiləsinin həyata keçirilməsində, rəqiblərin müəyyən etdiyi qiymətlə müqayisədə aşağı qiymət müəyyən etməklə qiymətlərin sabit saxlanılmasında ifadə oluna bilər.

Qanunvericiliklə dövlət tərəfindən tənzimi nəzərdə tutulmuş əmtəələrə vahid normativ qiymət qoyulması və ya belə qiymətin saxlanması inhisarçılıq hərəkətləri hesab edilə bilməz.

Rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsində iştirak etmə dedikdə təsərrüfat subyektlərinin kartel razılaşması hesab olunan könüllü razılaşmasına (sazişinə) qoşulma başa düşülür. Belə iştirak (qoşulma) yazılı və ya şifahi formada təzahür edə bilər. Kartel sövdələşməsində iştirak ən azı iki təsərrüfat subyektinin kartel sövdələşməsinə üçüncüsünün qoşulması deməkdir.

Rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratma dedikdə yeni rəqiblərin bazara daxil olmasına maneçilik (giriş maneələri) etmək və bazarda fəaliyyət göstərən təsərrüfat subyektlərinin buranı tərk etmək cəhdləri qarşısında maneələr qoymaq (çıxış maneələri) başa düşülür. Belə hərəkətlərə süni qıtlıq yaratmaq, yaxud qiymətləri artırmaq məqsədi istehsalın həcminin dəyişdirilməsi və əmtəələrin dövriyyədən çıxarılması, digər təsərrüfat subyektlərinin bazara daxil olmasına və ya bazarı tərk etməsinə əsassız maneələr yaradılması, məhsulun alternativ satıcıları və alıcıları olmadıqda təsərrüfat subyektləri arasında ayrı-seçkilik yaratmaq məqsədilə həmin məhsulu satmaqdan və ya almaqdan imtina edilməsi və s. aiddir.

Məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmə dedikdə təsərrüfat subyektlərinin bu və ya digər bazarda öz fəaliyyət sahəsini rəqiblərdən qorumaq və təcrid etmək, bununla da həmin bazarda rəqabəti məhdudlaşdırmaq üçün ehtiyatları və satış kanallarını elə keçirməsi, təsərrüfat subyektlərinin qovuşması və birinin digərini öz tərkibinə daxil etməsi, bazarı bölmək məqsədilə sazişlər bağlanması, qiymətlərlə manipulyasiya, rəqiblərin boykot edilməsi, patent inhisarçılığı və s. başa düşülməlidir.

CM-in 199.1-ci maddəsində **digər inhisarçılıq hərəkətləri** bazara daxil olma imkanını məhdudlaşdırmada, bazardan iqtisadi fəaliyyətin digər subyektlərini kənarlaşdırmada, rəqiblərin bazarda fəaliyyət göstərməsinə fiziki maneələr yaratmada, qanunsuz və əsassız yoxlamalar aparmada, əsassız məhdudiyyət və qadağalar müəyyən etmədə, fəaliyyət imkanlarını çətinləşdirmədə və s. bu kimi hərəkətlərdə ifadə oluna bilər.

6. Şərh olunan cinayət **formal tərkibli** olduğundan inhisarçılıq hərəkətlərini

təşkil edən əməllərdən birinin edildiyi andan **başa çatmış** hesab edilir.

7. CM-in 199-cu maddəsində əks olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Cinayətin törədilməsində **məqsəd** təsərrüfat subyektlərinin digər rəqibləri bazardan kənarlaşdırmaq və ya yeni rəqiblərin bazara daxil olmasının qarşısını almaqdır. Motiv müxtəlif ola bilər (qisas, daha çox mənfəət əldə etmək və s.).

8. Cinayətin **subyekti xüsusidir**. Bu, fərdi sahibkar, təsərrüfat subyektlərinin rəhbəri, mərkəzi və yerli dövlət hakimiyyəti və idarəetmə orqanlarının, habelə yerli özünüidarə orqanlarının əmtəə (xidmət, iş) bazarında rəqabətə təsir edən qərarlar qəbul edən vəzifəli şəxsləri ola bilər.

9. CM-in 199.2-ci maddəsində inhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırmanın **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur. CM-in 199.1-ci maddəsində əks olunan əməllərin: 1) təkrar törədilməsi; 2) mütəşəkkil dəstə tərəfindən törədilməsi; 3) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi; 4) xeyli miqdarda ziyan vurduqda və ya xeyli miqdarda gəlir əldə etməklə törədilməsi.

Cinayətin **təkrar** törədilməsi haqqında CM-in 16-cı, **mütəşəkkil dəstə** tərəfindən törədilməsi haqqında CM-in 34-cü maddəsinin şərhinə bax.

10. Şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratma, məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmə və ya digər inhisarçılıq hərəkətləri etməsi CM-in 199.2.3-cü maddəsi ilə tövsif olunur və 308-ci maddə ilə əlavə tövsif tələb etmir.

11. CM-in 199.2.4-cü maddəsində «xeyli miqdar» dedikdə on min manatdan əlli min manatadək olan məbləğ başa düşülür.

12. CM-in 199.3-cü maddəsi təhlil edilən cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətlərini** nəzərdə tutmuşdurr. CM-in 199.1-ci və 199.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin: 1) cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi; 2) hədə-qorxu ilə tələb etmə əlamətləri olmadan, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə özgənin əmlakını məhv etməklə və ya zədələməklə və ya belə məhv etmə və ya zədələmə hədəsi ilə törədilməsi; 3) bu əməllərin külli miqdarda ziyan vurması və ya külli miqdarda gəlir əldə etməklə törədilməsi.

Hədə-qorxu ilə tələb etmənin, zor tətbiq etmənin və zor tətbiq etmə hədəsinin anlayışı CM-in 182-ci, **özgənin əmlakını məhv etmə** və ya **zədələmənin** anlayışı 186-cı, özgənin əmlakını məhv etmə və ya zədələmə **hədəsinin** anlayışı isə 201-ci maddəsinin şərhində verilmişdir.

Zor tətbiq etmə zamanı sağlamlığa ağır zərər vurulduqda əməl cinayətlərin məcmusu qaydasında CM-in 126-cı və 199.3.2-ci maddələri ilə tövsif olunacaqdır.

CM-in 199.3.3-cü maddəsində **«külli miqdar»** dedikdə əlli min manatdan artıq olan məbləğ başa düşülür.

13. CM-in 199-cu maddəsinin **«Qeyd»inin 2-ci bəndinə** görə CM-in 199.1-ci maddəsində nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını

vaxtında xəbərdar etməklə və ya başqa üsulla həmin cinayət əməlinin aşkar edilməsinə və qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

Maddə 200. İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma

200.1. İstehlakçıları aldatma, yəni mal satan və ya əhaliyə xidmət göstərən təşkilatlarda, həmçinin ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyəti və ya keyfiyyətinə dair istehlakçıları xeyli miqdarda aldatma —

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.

200.2. Eyni əməllər:

200.2.1. təkrar törədildikdə;

200.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

200.2.3. külli miqdarda ziyan vurmaqla törədildikdə —

beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

200.3. Bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

on min manatdan on beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

200.4. Bu Məcəllənin 200.3-cü maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «xeyli miqdar» dedikdə üç yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğ, «külli miqdar» dedikdə üç min manatdan yuxarı olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 14 fevral 2012-ci il, 30 aprel 2013-cü il, 6 may 2016-cı il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 16 mart 2012-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 22 may 2016-cı il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Təhlil edilən cinayətin **obyekti** əmtəələrin (xidmətlərin) istehsalı və satışı prosesində istehsalçı və ya satıcı ilə istehlakçı arasında yaranan münasibətlərdir. **Əlavə obyekt** qismində istehlakçının həyat və sağlamlığı, habelə əmlak mənafeləri çıxış edir.

Əvvəl təhlil etdiyimiz iqtisadi fəaliyyət sahəsində olan cinayətlərdən fərqli olaraq, bu cinayət tərkibində istehlak sahəsində yol verilən ictimai təhlükəli qəsdlərə görə məsuliyyət müəyyən edilmişdir. Belə qəsdlər, bir tərəfdən, istehlakçıların aldadılması yolu ilə istehsalçının və ya satıcının əsassız varlanması ilə, digər tərəfdən isə pis keyfiyyətli əmtəələrin (xidmətlərin) satışı nəticəsində istehlakçıların həyatı və sağlamlığına zərər vurulması ilə təhlükəlidir.

2. CM-in 200-cü maddəsi hər biri mahiyyətcə müstəqil cinayət olan iki hissədən və bu hissələrin hər birinin ağırlaşdırıcı tərkib əlamətlərindən ibarətdir.

CM-in 200.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** istehlakçıları aşağıdakı formalarda aldatmanı nəzərdə tutmuşdur: malın (xidmətin) ölçüsünə görə; malın (xidmətin) çəkisinə görə; malın (xidmətin) hesabına görə; malın (xidmətin) istehlak xüsusiyyətinə dair; malın (xidmətin) keyfiyyətinə dair.

3. Şərh edilən cinayətdən **zərərçəkmiş** qismində istehlakçı çıxış edir. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə müvafiq olaraq, **istehlakçı** şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir.

4. **İstehlakçıları aldatma** dedikdə istehlakçını müxtəlif üsullardan istifadə etməklə yanıltma başa düşülməlidir. Aldatmanın əsas mümkün formaları təhlil edilən maddənin dispozisiyasında sadalanmışdır.

5. Malın (xidmətin) **ölçüsünə, çəkisinə görə aldatma** bağlanmış müqaviləyə və ya müəyyən olunmuş standartlara uyğun gəlməyən çəkidə, ölçüdə, həcmdə, miqdarda malın verilməsi və ya xidmətin göstərilməsi deməkdir. Bu zaman malın (xidmətin) ölçü və çəki parametrlərinin hansı üsulla pozulmasının tövsif üçün əhəmiyyəti yoxdur. Belə aldatma malın qablaşdırılması, çəkilməsi, ölçülməsi zamanı və s. hallarda törədilə bilər.

6. Malın (xidmətin) **hesabına görə aldatma** satıcının, xidmət göstərənin və ya başqa şəxsin istehlakçıdan xəbərsiz malın (xidmətin) razılaşdırılmış qiymətini qaldırmasında ifadə olunur. Hesabda aldatma malın (xidmətin) qiymətini artırılmış məbləğdə hesablama, pulun qalığını qaytarmama və s. üsulla törədilə bilər. Qiyməti normativ qaydada müəyyən edilmiş malın (xidmətin) qiymətini bilə-bilə qaldırma da hesabda aldatma kimi qiymətləndirilməlidir.

7. Malın (xidmətin) **istehlak xüsusiyyəti** və ya **keyfiyyətinə dair aldatma** dedikdə istehlakçıya malın (xidmətin) bu və ya başqa xüsusiyyətləri barədə yanlış, yaxud natamam məlumat verilməsi başa düşülür. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının 19 sentyabr 1995-ci il tarixli Qanununun 5-ci maddəsinin 1-ci hissəsinə əsasən istehlakçı satıcıdan (istehsalçıdan, icraçıdan) alınmış malın (görülmüş işin, göstərilmiş xidmətin) keyfiyyətinin normativ sənədlərə, müqavilə şərtlərinə uyğunluğu barədə və həmçinin mal (iş, xidmət) haqqında satıcının (istehsalçının, icraçının) təqdim etdiyi məlumata cavab verməsini tələb etmək hüququna malikdir.

Malın (xidmətin) istehlak xüsusiyyətlərinə və ya keyfiyyətinə dair aldatma konkret olaraq malın hazırlanma tarixi, çeşidi, istehsal olunduğu ölkə, standar-

tı, texniki göstəriciləri və s. bu kimi xüsusiyyətləri barədə aldatmada ifadə olu-na bilər.

8. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti aldatma-nın **xeyli miqdarda** olmasıdır. Burada xeyli miqdarda aldatma dedikdə mad-dənin dispozisiyasında sadalanmış aldatma hərəkətlərinin istehlakçıya vurdu-ğu və ya vura biləcəyi ziyan başa düşülməlidir. CM-in 200-cü maddəsinin qey-dinə əsasən həmin ziyan **üç yüz manatdan yuxarı, lakin üç min manatdan artıq** olmadıqda xeyli miqdarda aldatma mövcud olacaqdır. Təqsirkarın **bir is-tehlakçıya, yaxud vahid niyyətlə bir neçə istehlakçıya** vurduğu ziyanın həcmi göstərilən miqdarda olduqda cinayət məsuliyyəti yaranacaqdır.

9. CM-in 200.1-ci maddəsinin mətninə əsasən cinayət xeyli miqdarda al-datmanın törədildiyi andan **başa çatmış** hesab ediləcəkdir.

10. İstehlakçıları aldatma **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törə-dilir. Təqsirkar istehlakçını xeyli miqdarda aldatdığını dərk edir və bunu törət-məyi arzu edir. Cinayətin törədilməsi əsasən tamah məqsədi ilə baş versə də, bu, əməlin tövsifinə təsir etmir.

11. Təhlil edilən cinayətin **subyekti xüsusidir**. Maddənin dispozisiyasında birbaşa göstərildiyi kimi, bu, mal satan və ya əhaliyə xidmət göstərən təşkilat-ların müvafiq işçiləri, habelə ticarət (xidmət) sahəsində fərdi sahibkar kimi fəa-liyyət göstərən fiziki şəxslər ola bilər. Ona görə də təşkilatın satışla (xidmət göstərilməsi ilə) məşğul olmaq hüququ olmayan işçisi və ya fərdi sahibkar ki-mi qeydiyyata alınmamış vətəndaş tərəfindən istehlakçını aldatma müvafiq əlamətlər olduqda dələduzluq kimi tövsif ediləcəkdir.

12. CM-in 200.2-ci maddəsində istehlakçıları aldatmanın aşağıdakı **ağırlaş-dırıcı tərkib əlamətləri** təsbit edilmişdir: a) eyni əməllərin təkrar törədilməsi; b) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi; c) külli miqdar-da ziyan vurmaqla törədilməsi.

İstehlakçıları əvvəlki aldatmaya görə cinayət məsuliyyətinə cəlb etmə müd-dəti keçdikdə, habelə məhkumluq ödənildikdə və ya götürüldükdə təkrarlıq əlaməti olmayacaqdır. Təkrarlığın mövcud olması üçün əvvəlki və sonrakı al-datmanın müxtəlif formada (birinci dəfə çəkidə, ikinci dəfə hesabda aldatma) olması da əhəmiyyət kəsb etmir. Lakin eyni niyyətlə əhatə olunan və eyni za-manda, yaxud eyni mal (xidmət) barəsində bir neçə formada (həm çəkidə, həm hesabda və s.) aldatma təkrarlıq yaratmayacaqdır.

Qabaqcadan əlbir olan bir qrup şəxsin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir. Belə qrupun ən azı iki üzvü xüsusi subyekt olduqda təhlil edilən əlamət mövcud olacaqdır.

Külli miqdarda ziyan vurma dedikdə CM-in 200-cü maddəsinin qeydinə əsasən istehlakçıya (istehlakçılara) vurulmuş ziyanın məbləğinin **üç min ma-natdan artıq** olması başa düşülür. Bu həcmdə ziyan **bir istehlakçıya, yaxud vahid niyyətlə bir neçə istehlakçıya** vurulduqda nəzərdən keçirilən ağırlaş-dırıcı tərkib əlaməti mövcud olacaqdır.

13. CM-in 200.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cə-həti** aşağıdakılardan ibarətdir: a) bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı; belə məhsulların satışa buraxılması; belə məhsulların satışı; belə məhsulların

keyfiyyətsiz olmasının gizlədilməsi; b) zərərçəkmişin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olmadan ibarət ictimai təhlükəli nəticə; c) tö-rədilmiş əməllə baş vermiş nəticə arasında səbəbli əlaqə.

14. Təhlil edilən cinayətin **predmeti** qismində **pis keyfiyyətli məhsul** nə-zərdə tutulmuşdur.

15. **Məhsul** dedikdə insan əməyi nəticəsində istehsal olunmuş (emal olun-muş, əldə edilmiş) və müəyyən istehlak dəyərinə malik olan əşyalar başa dü-şülür.

16. Məhsulun keyfiyyətinə qoyulan tələblər ümumi şəkildə «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununda mü-əyyən edilmişdir. Həmin tələblər ilk növbədə məhsulun təhlükəsizliyidir. Adı çəkilən Qanunun 1-ci maddəsinə əsasən malın (işin, xidmətin) təhlükəsizliyi onun istifadə edilməsinin, saxlanmasının, daşınmasının, işlədilməsinin adi şə-raitində istehlakçının həyatına, sağlamlığına, əmlakına, habelə ətraf mühitə zə-rər vurulmasının istisna olunmasıdır.

17. Malların təhlükəsizliyini təmin etməli olan tələblər ilk növbədə standart-larda nəzərdə tutulur.

«Standartlaşdırma haqqında» Azərbaycan Respublikasının 16 aprel 1996-cı il tarixli Qanununa müvafiq olaraq, **standartlaşdırma** məhsullar üçün nor-ma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyət olub, məhsulların in-sanın həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün təhlükəsizliyini və bir sıra başqa tələbləri təmin etmək məqsədi daşıyır. Standartlaşdırma Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi normativ aktlarla müəyyən edil-miş qaydada həyata keçirilir.

Qanunlarla və standartlarla təhlükəsizliyi üçün tələblər qoyulmuş məhsullar məcburi olaraq sertifikatlaşdırılmalıdır. Sertifikatlaşdırma zamanı məhsulun standartlara, sanitar normalara və başqa təhlükəsizlik tələblərinə cavab ver-məsi müəyyən edilir və həmin məhsulun istehsalçısına və ya satıcısına müva-fiq uyğunluq sertifikatı verilir. Uyğunluq sertifikatı sertifikatlaşdırma sisteminin qaydaları üzrə sertifikatlaşdırılmış məhsulun müəyyən edilmiş tələblərə uyğun-luğunu təsdiq etmək üçün verilmiş sənəddir. «Standartlaşdırma haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, Azərbaycan Respublika-sının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sertifikatlaşdır-ma və standartlaşdırma sahəsində fəaliyyətə ümumi rəhbərliyi həyata keçirir.

Təkcə ölkəmizdə istehsal edilmiş yox, həm də idxal edilmiş məhsullar sertifikatlaşdırılmalıdır.

Qanunvericilikdə sertifikatlaşdırılması məcburi hesab edilmiş yerli və idxal edilən malların uyğunluq sertifikatı olmadan realizə edilməsi qadağandır.

18. **Pis keyfiyyətli məhsul** dedikdə sertifikatlaşdırılması məcburi hesab edilən, lakin uyğunluq sertifikatı alınmamış və ya sertifikatlaşdırılması məcburi hesab edilməsə də, təhlükəsizliyi üçün standartlarda müəyyən edilmiş tələblə-rə cavab verməyən məhsullar başa düşülməlidir.

19. Şərh edilən cinayətin **obyektiv cəhətinin** əlaməti kimi pis keyfiyyətli məhsulların **istehsalı** dedikdə belə məhsulların hazırlanması və ya emal edil-məsi başa düşülməlidir.

20. Belə məhsulların **satışa buraxılması** dedikdə pis keyfiyyətli məhsulların bazara çıxarılması üzrə istehsal müəssisəsinin və ya fərdi sahibkarın fəaliyyəti başa düşülməlidir.

21. Pis keyfiyyətli məhsulların **satışı** belə məhsulların bilavasitə istehlakçılara satılmasını və ya satış üçün təklif edilməsini nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, saxta və ya müddəti keçmiş sertifikatla, habelə ölkəmizdə lazımi qaydada tanınmamış xarici sertifikatla məhsulların satışı da obyektiv cəhətin bu əlamətini yaradacaqdır.

22. Pis keyfiyyətli məhsulların **keyfiyyətsiz olmasının gizlədilməsi** həm istehsalçı və ya satıcı, həm də sertifikatlaşdırmanı həyata keçirən orqan tərəfindən edilə bilər. İstehsalçı və ya satıcı başqa məhsullar üçün verilmiş və ya bilə-bilə qanunsuz uyğunluq sertifikatından istifadə etdikdə, sertifikatlaşdırmanı həyata keçirən orqan isə saxta sertifikat verdikdə təhlil edilən əlamət mövcud olacaqdır.

23. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti zərərçəkmiş şəxsin **sağlamlığına az ağır** və ya **ağır zərər vurulmasıdır**. Sağlamlığa vurulan az ağır zərərin anlayışı CM-in 127-ci, ağır zərərin anlayışı isə 126-cı maddəsində verilmişdir.

Hər bir halda törədilmiş əməllə zərər arasında **səbəbli əlaqə** olmalıdır.

24. CM-in 200.3-cü maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən** təqsirin qarışıq formasında (**bütövlükdə ehtiyatsızlıqdan**) törədilir. Təqsirkar pis keyfiyyətli məhsulları istehsal etdiyini, satışa buraxdığını, satdığını və ya onların keyfiyyətsiz olduğunu gizlətdiyini dərk edir, bunun zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vura biləcəyi imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir, yaxud belə imkanı lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür.

25. Təhlil edilən cinayətin **subyekti xüsusidir**. Bu, istehsal və ya satışla məşğul olan təşkilatın müvafiq səlahiyyətli işçisi, yaxud fərdi sahibkar, habelə sertifikatlaşdırmanı həyata keçirən orqanın (məhsulların keyfiyyətsiz olmasını gizlətmə əlaməti üzrə) vəzifəli şəxsləri ola bilər.

26. CM-in 200.4-cü maddəsində pis keyfiyyətli məhsul istehsal etmə və ya satmanın **ağırlaşdırıcı tərkib əlamətləri** — 200.3-cü maddədə nəzərdə tutulmuş əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması göstərilmişdir.

Burada **ağır nəticə** dedikdə pis keyfiyyətli məhsulun istehsalı və ya satışı nəticəsində bir neçə şəxsin sağlamlığına zərər vurulması, külli miqdarda əmlak ziyanı vurulması, ətraf mühitə mühüm ziyan vurulması və s. başa düşülə bilər.

İstənilən halda təqsirkarın qeyd edilən nəticələrə psixi münasibəti ehtiyatsızlıq formasında olmalıdır. Zərərçəkmişin ölümü və ya başqa ağır nəticə ilə təqsirkarın əməli arasında səbəbli əlaqə olmalıdır.

Maddə 200-1. Dərman vasitələrinin qanunsuz dövriyyəsi

200-1.1. Bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə

cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, qanunla dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən dərman vasitələrinin satışı, satış məqsədilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədilə saxlanması və ya idxalı, bu əməllər xeyli miqdarda törədildikdə —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç min manatdan beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

200-1.2. Eyni əməllər:

200-1.2.1. təkrar törədildikdə;

200-1.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

200-1.2.3. külli miqdarda törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

200-1.3. Bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, qanunla dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən dərman vasitələrinin satışı, satış məqsədilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədilə saxlanması və ya idxalı zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

200-1.4. Bu Məcəllənin 200-1.3-cü maddəsində göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 200-1.1-ci maddəsində «xeyli miqdar» dedikdə min manatdan iki min manatadək olan məbləğ, 200-1.2.3-cü maddəsində isə «külli miqdar» dedikdə iki min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 16 iyun 2007-ci il, 16 may 2008-ci il və 20 oktyabr 2017-ci il tarixli tarixli Qanunu ilə əlavə edilmişdir — «Azərbaycan» q., 20 avqust 2007-ci il; 7 iyun 2008-ci il; 9 noyabr 2017-ci il).*

1. Cinayət qanunundakı yeri nəzərə alındıqda CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayətin **bilavasitə obyekti** dərman vasitələrinin dövriyyəsi (istehsalı, idxalı, saxlanması, satışı və s.) ilə bağlı iqtisadi məzmunlu ictimai münasibətlər, əlavə obyekti isə insanların sağlamlığı və həyatıdır. Lakin

dərman vasitələrinin təyinatı, habelə CM-in 200-1.3-cü və 200-1.4-cü maddələrinin dispozisiyası nəzərə alındıqda, demək olar ki, CM-in 200-1-ci maddəsi ilə cinayət məsuliyyəti müəyyən edilmiş əməlin obyekti insanların həyat və sağlamlığıdır. Odur ki, Azərbaycan Respublikasının 16 iyun 2007-ci il tarixli, 391-IIIQD saylı Qanunu ilə CM-ə əlavə edilmiş bu maddənin cinayət qanunundakı yeri mübahisə doğura bilər.

2. Təhlil edilən kriminal əməlin **predmeti** dərman vasitələridir. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının 22 dekabr 2006-cı il tarixli, 208-IIIQ saylı Qanununun 1.0.1-ci maddəsinə əsasən **dərman vasitələri** xəstəliklərin diaqnostikası, profilaktikası və müalicəsi, hamiləliyin qarşısının alınması, xəstələrin reabilitasiyası, insan orqanizminin vəziyyətinin və fizioloji funksiyalarının dəyişdirilməsi üçün istifadə edilən bioloji və farmokoloji fəallığa malik təbii (bitki, heyvan mənşəli, mineral və s.), sintetik, biotexnoloji mənşəli dərman maddələri və ya onların qarışığı, o cümlədən immunobioloji dərman preparatlarıdır. Xəstəliklərin diaqnostikası, profilaktikası və müalicəsi məqsədi ilə istifadə edilən **tibb vasitələri** (tibb cihazları, məmulatları, əşya və materialları, alətləri, avadanlıqları, tibbi reaktivlər və optik ləvazimatlar) adı çəkilən Qanunun məqsədləri üçün dərman vasitələrinə bərabər tutulur. Odur ki, həm dərman vasitələri, həm də tibbi vasitələr şərh edilən cinayətin predmeti qismində çıxış edəcəkdir.

3. Lakin şərh edilən cinayətin predmeti qismində istənilən dərman vasitəsi (tibbi vasitə) yox, keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, qanunla dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş, habelə saxta dərman vasitələri (tibbi vasitələr) nəzərdə tutulmuşdur. Bu əlamətlərdən birinin olması dərman vasitəsinin (tibbi vasitənin) CM-in 200-1-ci maddəsində nəzərdə tutulan cinayətin predmeti olmasına səbəb olur.

4. **Keyfiyyətsiz** dərman vasitəsi (tibbi vasitə) dedikdə dövlət standartlarının tələblərinə uyğun olmayan dərman vasitələri nəzərdə tutulur. Dərman vasitəsinin təyinatı, tərkibi, farmokoloji xüsusiyyəti və s. nəzərə alınmaqla onun keyfiyyət standartları müəyyən edilir. Hər bir dərman vasitəsi dövlət qeydiyyatına alınarkən və sertifikatlaşdırılarkən onun standartlara uyğunluğu (keyfiyyətliliyi) müəyyən edilir.

Ümumiyyətlə, konkret dərman vasitəsinin keyfiyyətli olub-olmaması yalnız normativ-texniki sənədlər əsasında müəyyən edilə bilməz. Keyfiyyətliliyə şübhə yarandığı hər bir halda müvafiq ekspertiza keçirilməli və bu zaman standartlara uyğunluq müəyyən edilməlidir.

5. **Normativ-texniki sənədlərin tələblərinə cavab verməyən** dərman vasitəsi (tibbi vasitə) dedikdə dərman vasitələrinin dövriyyəsini və onlarla davranış qaydalarını müəyyən edən müxtəlif normativ-texniki sənədlərdə göstərilmiş şərtlərə uyğun gəlməyən dərman vasitələri nəzərdə tutulur. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 4.2.8-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi dərman vasitələri ilə davranışın tənzimlənməsi məqsədilə dərman vasitələrinə dair normativ-texniki sənədləri və dövlət standartlarını hazırlayır və öz səlahiyyətləri daxilində təsdiq

edir. Həmin normativ-texniki sənədlərdə dərman vasitələrinin qablaşdırılmasına, saxlanmasına, daşınmasına, satılmasına aid tələblər, onların tərkibi, yararlılıq müddəti, farmokoloji xüsusiyyətləri ilə bağlı tələblər, habelə onlardan istifadə təlimatlarına dair və başqa bu kimi tələblər əks olunur.

6. **Mənşəyi məlum olmayan** dərman vasitələri dedikdə istehsal yeri, istehsalçısı, tərkibinin əsas komponentləri məlum olmayan dərman vasitələri başa düşülməlidir. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən dərman vasitələrinin istehsal edildiyi ölkə, onun istehsalçısı, dərman vasitəsinin tərkibindəki komponentlər haqqında məlumat onların **istifadəsi təlimatlarında** göstərilməlidir.

7. **Yararlılıq müddəti bitmiş** dərman vasitəsi (tibbi vasitə) dedikdə müvafiq standartlara uyğun olaraq istifadə edilmə müddəti keçmiş vasitələr başa düşülməlidir. Yararlılıq müddəti dərman vasitəsinin istifadəsinə dair təlimatda, habelə onun qabında göstərilir. Dərman vasitəsinin istifadə müddəti əsassız olaraq uzadılmış olduqda da yararlılıq müddəti bitmiş hesab edilməlidir.

8. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən həmin Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dərman vasitələrinin Azərbaycan Respublikasına idxalına, Azərbaycan Respublikası ərazisində istehsalına, satışına və istifadəsinə yalnız dövlət qeydiyyatına alındıqdan sonra yol verilir. Adı çəkilən Qanunun 6.3-cü maddəsində **dövlət qeydiyyatına alınmalı olan dərman vasitələrinin siyahısı** verilmişdir: orijinal dərman vasitələri; dərman vasitələrinin analoqları (generiklər); dövlət qeydiyyatına alınmış dərman vasitələrinin yeni kombinasiyaları; dövlət qeydiyyatı müddəti bitmiş dərman vasitələri; dərman vasitələrinin istehsalında təsiredici maddə kimi istifadə olunan dərman maddələri (dərman substansiyaları).

Həmin Qanunun 6.4-cü maddəsinə müvafiq olaraq, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qeydiyyat sənədlərində əks olunan məlumatlarda hər hansı dəyişiklik edilərsə, həmin dəyişikliklər dövlət qeydiyyatına alınır. Adı çəkilən Qanunun 6.5-ci maddəsi isə dövlət qeydiyyatı tələb olunmayan dərman vasitələrinin siyahısını vermişdir: sərgidə nümayiş etdirilmək üçün nəzərdə tutulan dərman və tibb vasitələri (sərgi nümunələri); dövlət qeydiyyatından keçmiş dərman vasitələri əsasında həkim resepti üzrə aptek təşkilatlarında hazırlanan dərman vasitələri; epidemiya, təbii fəlakət və digər fövqəladə hallarda istifadə məqsədi ilə idxal olunan dərman vasitələri; elmi tədqiqatların, klinikaya qədər tədqiqatların və klinik sınaqların aparılması üçün nəzərdə tutulan dərman vasitələri; dövlət qeydiyyatı məqsədilə qanunvericiliklə müəyyən edilmiş miqdarda və qaydada nümunə kimi idxal edilən dərman vasitələri; fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün zəruri miqdarda gətirilən dərman vasitələri; Ümumdünya Səhiyyə Təşkilatının müvafiq təsdiqedici sənədi ilə istifadəsi tövsiyə olunan dərman vasitələri; nadir hallarda rast gəlinən və spesifik müalicə tələb edən xəstəliklərin müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri.

Dərman vasitələrinin dövlət qeydiyyatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2007-ci il tarixli, 108 saylı Qərarı ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

Şərh edilən normada **qanunla dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələri** dedikdə dövlət qeydiyyatına alınması məcburi olan, lakin dövlət qeydiyyatına alınmamış, dövlət qeydiyyatı müddəti bitmiş, habelə dövlət qeydiyyatı etibarsız hesab edilmiş dərman vasitələri başa düşülməlidir. Nəzərə almaq lazımdır ki, tibbi vasitələrin dövlət qeydiyyatı nəzərdə tutulmamışdır (Azərbaycan Respublikası Nazirlər Kabinetin adı çəkilən Qərarı ilə təsdiq edilmiş Qaydaların 1.2-ci bəndi).

9. **Saxta** dərman vasitələri (tibbi vasitələr) dedikdə adı, tərkibi, farmokoloji göstəriciləri, mənşəyi, təyinatı, yararlılıq müddəti və s. saxtalaşdırılmış vasitələr nəzərdə tutulur. Saxtalaşdırma dövlət standartları ilə və normativ-texniki sənədlərlə qoyulan tələblərdən kənara çıxmada, yalançı qablaşdırmada, keyfiyyət sertifikatının və ya dövlət qeydiyyatının saxtalaşdırılmasında və başqa bu kimi üsullarda ifadə oluna bilər.

10. CM-in 200-1-ci maddəsində predmeti eyni olan, lakin bir sıra obyektiv və subyektiv əlamətləri ilə bir-birindən fərqlənən **iki cinayət tərkibi** təsbit olunmuşdur.

CM-in 200-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin **obyektiv cəhəti** aşağıdakı alternativ hərəkətləri nəzərdə tutmuşdur: cinayətin predmeti olan dərman vasitələrini satma, onları satış məqsədilə saxlama, onları idxal etmə, saxta dərman vasitələri istehsal etmə.

11. Şərh olunan normada **satma** dedikdə cinayətin predmeti olan dərman vasitələrini (tibbi vasitələri) əvəzli və ya əvəzsiz olmasından asılı olmayaraq istehlakçılara vermə (özgəninkiləşdirmə), başa düşülməlidir. Dərman vasitəsinin bilavasitə xəstənin bədəninə daxil edilməsi də müvafiq əlamətlər olduqda satma kimi CM-in 200-1-ci maddəsi üzrə məsuliyyətə səbəb olmalıdır.

12. **Satış məqsədilə saxlama** dərman vasitələrinin istehlakçılara satılması üçün anbarlarda, apteklərdə, mənzillərdə və ya başqa yerlərdə saxlanmasını nəzərdə tutur. Belə məqsədin mövcud olmaması (məsələn, keyfiyyətsiz dərman vasitələrinin məhv edilmək üçün saxlanması) saxlamaya görə cinayət məsuliyyətini istisna edir.

13. Cinayətin predmeti olan dərman vasitələrinin (tibbi vasitələrin) **idxalı** onların müxtəlif yollarla və üsullarla Azərbaycan Respublikasının gömrük ərazisinə keçirilməsini nəzərdə tutur. Bu zaman nəzərə almaq lazımdır ki, qanunsuz dərman vasitələrini ölkə ərazisinə gətirən şəxsin əməlində qaçaqmalçılıq cinayətinin əlamətləri olarsa, onun əməli cinayətlərin məcmusu qaydasında CM-in 200-1-ci və 206-cı maddələri üzrə tövsif ediləcəkdir.

14. Saxta dərman vasitələrini (tibbi vasitələri) **istehsal etmə** dedikdə həmin vasitələri müxtəlif üsullarla (kustar üsulla, müxtəlif maddələri birləşdirməklə, adi məhsullara dərman vasitəsi görüntüsü verməklə və s.) hazırlama başa düşülür. CM-in 200-1.1-ci və 200-1.3-cü maddələrinin dispozisiyasından belə nəticə çıxır ki, istehsal etmə yalnız saxta dərman vasitələri barəsində törədilə bilər. Lakin fikrimizcə, keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan dərman vasitələrini, yararlılıq müddəti keçmiş komponentlərdən (maddələrdən) hazırlanmış, habelə dövlət qeydiyyatından keçməmiş dərman vasitələrini istehsal etmə də müvafiq əlamətlər olduqda **CM-in 200-1-ci maddəsi üzrə tövsif edilməlidir**, çünki qeyd olunan hallarda hazırlanmış dərman vasitələri əslində saxta dərman vasitələri olacaqdır.

15. Obyektiv cəhəti təşkil edən əməllərdən birinin törədilməsi müvafiq əlamətlər olduqda əməlin CM-in 200-1.1-ci maddəsi üzrə tövsif üçün kifayətdir. Şəxs eyni partiyadan olan dərman vasitələri barəsində həmin əməllərdən bir neçəsini törətmişdirsə, **cinayətlər çoxluğundan söhbət gedə bilməz**, çünki o, bu əməlləri vahid kriminal niyyətlə törətmişdir.

16. CM-in 200-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhətinin daha bir əlaməti **xeyli miqdar** əlamətidir ki, bu da şərh edilən maddənin «Qeyd»inə əsasən dərman vasitələrinin dəyərinin min manatdan iki min manatadək olmasını nəzərdə tutur. Dərman vasitələrinin dəyəri müəyyən edilərkən onların əməlin törədildiyi vaxtda olan **satış qiyməti** (tənzimlənən qiymətlər olduqda isə Tarif Şurasının müəyyən etdiyi qiymət) əsas götürülməlidir. Bu zaman eyni cinayətkar niyyətlə əhatə olunan bütün dərman vasitələrinin (istehsal edilmiş, idxal edilmiş, satılmış, satış üçün saxlanan) dəyəri cəmlənməlidir.

17. CM-in 200-1.1-ci maddəsində **formal** cinayət tərkibi təsbit edilmişdir. Ona görə də dispozisiyada sadalanan alternativ hərəkətlərdən birinin xeyli miqdarda dərman vasitələri barəsində törədildiyi andan cinayət **başa çatmış** olacaqdır.

18. CM-in 200-1.1-ci maddəsində nəzərdə tutulan əməl **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Şəxs istehsal etdiyi, idxal etdiyi, satdığı və ya satış üçün saxladığı xeyli miqdarda dərman vasitəsinin dispozisiyada göstərilən əlamətlərə malik olduğunu dərk edir və onların barəsində həmin hərəkətləri törətməyi arzu edir.

Yalnız saxlama hərəkəti üçün zəruri tərkib əlaməti olan xüsusi məqsəd — **satış məqsədi** nəzərdə tutulmuşdur. Cinayətin predmetlərinin istənilən başqa məqsədlə (geri qaytarmaq üçün, məhv edilmək üçün və s.) saxlanması şərh edilən maddə üzrə tövsifi istisna edir. Satış məqsədi şəxsin həmin dərman vasitələrinin bir hissəsini satması, onları satış üçün təqdim etməsi (vitrinə qoyması, reklam etməsi, başqa üsullarla alıcılara təqdim etməsi) və s. hallarla sübut edilə bilər.

19. CM-in 200-1.2-ci maddəsində CM-in 200-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** təsbit edilmişdir: 1) həmin əməllərin təkrar törədilməsi; 2) bu əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; 3) bu cinayətin külli miqdarda törədilməsi.

Təkrarlıq o halda mövcud olacaqdır ki, şəxsin CM-in 200-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllərdən hər hansı birini (və ya bir neçəsini) törətməsinə görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş olsun, habelə o həmin əməllərə görə məsuliyyətdən azad edilməmiş olsun. CM-in 200-1-ci maddəsində göstərilən cinayəti törətmiş şəxs məhkum edildikdə, lakin məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən bu cinayəti törətməsi cinayətin residivi sayılır. CM-in 200-1.1–200-1.4-cü maddələrində sada-

lanan əməllərdən istənilən biri digəri üçün təkrarlıq yaradır (məsələn, ilk dəfə idxal, sonrakı dəfə satma, yaxud ilk dəfə zərərçəkmiş şəxsin ölümünə səbəb olmaqla satma, sonrakı dəfə xeyli miqdarda satış məqsədi ilə saxlama). Lakin eyni kriminal niyyətlə əhatə olunan, yaxud eyni partiyadan olan dərman vasitələri barəsində müxtəlif əməllər (satma, satış məqsədi ilə saxlama) təkrarlıq yaratmayacaqdır.

20. **Qabaqcadan əlbir olan bir qrup şəxsin** və **müteşəkkil dəstənin** anlayışları CM-in 34-cü maddəsinin şərhində verilmişdir. Qrup və ya dəstə üzvlərinin dispozisiyada göstərilən müxtəlif əməlləri törətməsi (məsələn, onlardan birinin idxal etməsi, digərinin isə satması) əməlin bu əlamət üzrə tövsifini istisna etmir.

21. CM-in 200-1-ci maddəsinin qeydinə əsasən **külli miqdar** iki min manatdan artıq məbləği nəzərdə tutur.

22. CM-in 200-1.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhətini təşkil edən əməllər** CM-in 200-1.1-ci maddəsinin dispozisiyasında sadalananlarla eynidir. Lakin CM-in 200-1.3-cü maddəsində təsbit edilmiş cinayət **maddi tərkib** vasitəsi ilə ifadə edilmiş olduğundan, **ictimai təhlükəli nəticəni** — zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasını nəzərdə tutur.

Sağlamlığa az ağır və ağır zərər vurulması anlayışlarının izahı CM-in 127-ci və 126-cı maddələrinin şərhində verilmişdir.

23. Əməlin CM-in 200-1.3-cü maddəsi ilə tövsif olunması üçün dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı əməllərlə sağlamlığa vurulmuş zərər arasında **səbəbli əlaqə** müəyyən edilməlidir. Sağlamlığa az ağır və ya ağır zərər vurulduğu andan **başa çatmış** cinayət mövcud olacaqdır. Belə ictimai təhlükəli nəticənin hansı miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı baş verdiyi əhəmiyyət daşımır və dərman vasitəsinin miqdarından asılı olmayaraq əməl CM-in 200-1.3-cü maddəsi üzrə tövsif olunmalıdır.

24. CM-in 200-1.3-cü maddəsində təsbit edilmiş əməl **subyektiv cəhətdən** təqsirin **dolayı qəsd** növünü nəzərdə tutur. Şəxs dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı əməl törətdiyini, bunun başqa şəxsin sağlamlığına az ağır və ya ağır zərər vura biləcəyini dərk edir, həmin nəticəni arzulamasa da, buna şüurlu surətdə yol verir. Fikrimizcə, CM-in 24.2-ci maddəsinin tələbinə baxmayaraq, CM-in 200-1.3-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkibi ictimai təhlükəli nəticəyə psixi münasibətin ehtiyatsızlıq formasını da ehtiva edir.

Baş vermiş nəticəyə psixi münasibət birbaşa qəsd formasında olarsa, bu təqsirkar şəxsin dərman vasitəsindən istifadə edərək başqa şəxsin sağlamlığına qəsdən az ağır və ya ağır zərər vurması olacaqdır və əməl CM-in 200-1.3-cü maddəsi ilə deyil, müvafiq olaraq 126-cı və ya 127-ci maddəsi ilə tövsif ediləcəkdir.

25. CM-in 200-1.1–200-1.4-cü maddələrində nəzərdə tutulmuş əməllərin **subyekti** eynidir — 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs.

Lakin əczaçılıq fəaliyyətinin (dərman vasitələrinin istehsalı və satışının) tam lisenziyalaşdırılmış olması bir sıra məqamlara diqqət yetirməyi tələb edir. Belə

ki, CM-in 200-1-ci maddəsində nəzərdə tutulmuş əməli xüsusi icazə (lisenziya) almamış və ya lisenziyalaşdırma şərtlərini pozan şəxs törətdikdə onun əməli müvafiq əlamətlər mövcud olduqda CM-in 192-ci və 200-1-ci maddələri üzrə cinayətlərin məcmusu kimi tövsif ediləcəkdir.

Dərman vasitələrinin qanunsuz dövriyyəsinə aid əməllərin törədilməsi zamanı narkotik vasitələrdən, psixotrop maddələrdən istifadə edildikdə də əməlin tövsifində çətinlik yarana bilər.

Əgər **saxta dərman vasitələrinin istehsalında** «Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli, 565-IIQ saylı Qanununun 8-ci bəndində göstərilmiş qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrdən, psixotrop maddələrdən, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrdən xüsusi icazə olmadan istifadə olunmuşsa, onda şəxsin əməli CM-in 192-ci və 200-1-ci maddələri üzrən cinayətlərin məcmusu kimi tövsif edilməlidir.

26. CM-in 200-1.4-cü maddəsində CM-in 200-1.3-cü maddəsində təsbit edilmiş cinayət tərkibinin **ağırlaşdırıcı tərkib əlamətləri** — həmin əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması göstərilmişdir.

Ehtiyatsızlıqdan adam öldürmənin anlayışı CM-in 124-cü maddəsinin şərhində verilmişdir.

Digər ağır nəticələr dedikdə xeyli sayda şəxsin sağlamlığına az ağır və ya ağır zərərin vurulması, bir neçə şəxsin ölümü, yoluxucu xəstəliklərin və ya başqa ağır xəstəliklərin yayılması, insanlara ciddi maddi ziyanın vurulması, ətraf mühitə mühüm ziyanın dəyməsi və s. bu kimi nəticələr başa düşülməlidir.

Hər bir halda baş vermiş nəticəyə psixi münasibət **ehtiyatsızlıq** formasında olmalıdır.

CM-in 200-1.4-cü maddəsində göstərilən nəticə — ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölməsi baş verdikdə CM-in 124-cü maddəsi üzrə əlavə tövsifə ehtiyac yoxdur.

27. CM-in təhlil olunan maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 200-2. Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz dövriyyəsi

200-2.1. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsər-

rüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını bilə-bilə idxal etmə və ya satma, bu əməllər xeyli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

200-2.2. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edərək yeyinti məhsullarını istehsal etmə —

on min manatdan on beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

200-2.3. Bu Məcəllənin 200-2.1-ci və 200-2.2-ci maddələrində göstərilən əməllər külli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 28 aprel 2015-ci il tarixli Qanunu ilə əlavə edilmiş, 6 may 2016-cı il və 31 may 2017-ci il tarixli Qanunla dəyişikliklər edilmişdir - «Azərbaycan» q., 25 may 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Bu cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, genetik modifikasiya olunmuş bitkilərin (GMOB), yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz olaraq Azərbaycan Respublikasına gətirilməsi, satılması, istehsalı, istehlakı insanların sağlamlığına zərər vurur, belə bitkilərin əkildiyi ərazilərin yaxınlığında becərilən mədəni bitkilərə, təbii flora elementlərinə, həmin bitkilərin və onlardan hazırlanan məhsullarla yemlənən kənd təsərrüfatı heyvanlarına və bal arılarına, habelə genetik modifikasiya olunmuş bitkilərin əkildiyi ərazilərdə məskunlaşan vəhşi heyvanlara və həşəratlara zərərli təsir göstərir.

2. Şərh olunan cinayətin **obyekti** mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi ilə bağlı olan ictimai münasibətlərdir. Əlavə obyekt qismində insanların sağlamlığı, bitki və heyvanalar aləminin normal inkişafı çıxış edir.

3. Şərh olunan cinayətin **predmeti** genetik modifikasiya olunmuş bitkilər, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarıdır.

Genetik modifikasiya olunmuş bitkilər, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları dedikdə genomunda müasir biotexnoloji və gen mühəndisliyi metodları

ilə dəyişikliklər edilmiş, hər hansı geni və ya gen fraqmenti dəyişdirilmiş (başqası ilə əvəz edilmiş) bitkilər, o cümlədən onların toxumları, tingləri, şitilləri, kök materiallar başa düşülür.

Genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan **yeyinti məhsulları** dedikdə belə bitkilərin toxumlarından, meyvələrindən və digər hissələrindən istifadə edilməklə hazırlanan ərzaq xammalı (bitki, heyvan, mikrobioloji və mineral mənşəli məhsullar), qida məhsulları (insan tərəfindən təbii və ya emal edilmiş halda istifadə olunan məhsullar) və əlavələri (inqrediyentləri), tamlı mallar qrupuna daxil edilmiş məhsullar başa düşülür.

4. CM-in 200-2.1-200-2.2-ci maddələri ilə cinayət məsuliyyətinin yaranması o halda istisna olunur ki, genetik modifikasiya olunmuş bitkilər, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmuş olsun. Əgər genetik modifikasiya olunmuş bitkilər, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları sadalanan məqsədlərlə Azərbaycan Respublikasına idxal edilmişdirsə, yaxud istehsal olunmuşdursa, cinayət məsuliyyəti yaranmır. Sadalanan məqsədlərlə bu cinayətin predmetlərinin Azərbaycan Respublikasına gətirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli qərarı ilə təsdiq edilmiş «Genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədi ilə Azərbaycan Respublikasına idxalı Qaydası» ilə tənzimlənir.

5. CM-in 200-2.1-ci maddəsində əksini tapmış cinayət **obyektiv cəhətdən** genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını xeyli miqdarda: 1) idxal etmədə; və ya 2) satmada ifadə olunur.

Genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını **idxal etmə** dedikdə onların Azərbaycan Respublikasına hər hansı yolla gətirilməsi, Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi başa düşülməlidir. «Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında» 13 dekabr 2011-ci il tarixli, 273-IVQ nömrəli Azərbaycan Respublikası Qanununun 21.1-ci maddəsinə görə genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsi, rayonlaşdırılması və dövlət reyestrinə daxil edilməsi qadağan edildiyinə görə onların idxalı bütün hallarda

qanunsuz sayılır. İdxal yalnız bir halda qanuni sayılır: belə bitkilər, bitki materialları və yeyinti məhsulları elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün Azərbaycan Respublikasının ərazisinə gətirildikdə.

Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının idxalında ifadə olunan hərəkət bu cinayətin predmetlərinin Azərbaycan Respublikasının **dövlət sərhədindən keçirildiyi andan** başa çatmış sayılır. Sərhəddən keçirilərkən onların aşkar edildiyi hallarda cinayət etməyə cəhdə görə məsuliyyət yaranır.

Genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını **satma** dedikdə bu cinayətin predmetlərinin əvəzli (pul və ya natura formasında satma, dəyişdirmə və s.) və ya əvəzsiz (bağışlama) olaraq özgəninkiləşdirilməsi başa düşülməlidir.

6. CM-in 200-2.1-ci maddəsində təsbit olunan cinayət **maddi** tərkiblidir. Cinayət məsuliyyəti bu cinayətin predmetlərinin idxal edilən, satılan qiyməti xeyli miqdarda olduqda yaranır. Onlar az miqdarda olduqda İXM-in 449-cu maddəsi ilə inzibati məsuliyyət yaranır. **Xeyli miqdar** dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür.

7. CM-in 200-2.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkibi** nəzərdə tutulmuşdur. Həmin maddədə əks olunan cinayətin bütün tərkib əlamətləri, CM-in 200-2.1-ci maddəsindəki cinayətin tərkib əlamətləri ilə eynidir. Yeganə fərq cinayətin hansı hərəkətlə törədilməsindədir. Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək yeyinti məhsullarının istehsalı CM-in 200-2.2-ci maddəsi ilə məsuliyyət yaradır. Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək yeyinti məhsullarının **istehsalı** dedikdə bu cinayətin predmetlərinin son (hazır) məhsul halına gətirilməsindəə ifadə olunan hərəkət (hərəkətlər zəncirində sonuncu hərəkət) başa düşülməlidir. Əgər istehsalı nəzərdə tutulmuş genetik modifikasiya olunmuş bitki, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialı və ya genetik modifikasiya olunmuş bitkinin genetik materiallarından istifadə edilərək yeyinti məhsulu son (hazır) məhsul halına gətirilməmişdirsə, CM-in 200-2.2-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin törədilməsinə cəhdə görə məsuliyyət yaranır. İstehsal olunan məhsulun bir və ya bir neçə olması, yaxud xeyli miqdarda və ya bu miqdardan az olması (külli miqdarda istehsal CM-in 200-2.3-cü maddəsi ilə məsuliyyət yaradır) əməlin CM-in 200-2.2-ci maddəsi ilə tövsifinə mane olmur.

Şərh olunan cinayətin predmetlərini istehsal edən şəxsin onları satması yalnız CM-in 200-2.2-ci maddəsi ilə tövsif edilməlidir.

8. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını bilə-bilə idxal etmə, satma və ya istehsal etmə külli miqdarda törədildikdə CM-in 200-2.3-cü maddəsi ilə məsuliyyət yaranır. Külli miqdar dedikdə yüz min manatdan artıq olan məbləğ başa düşülür (CM-in 190-cı maddəsinin qeydi).

9. Şərh olunan cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Şəxs elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını bilə-bilə xeyli (külli) miqdarda idxal etdiyini, satdığını və ya istehsal etdiyini dərk edir, həmin əməllərinin cinayət olduğunu görür, belə əməlləri törətməyi arzu edir. Cinayətin motivi müxtəlif ola bilər: tamah, qisas və s. Motiv əməlin tövsifində iştirak etmir.

10. Şərh olunan cinayətin **subyekti ümumidir**: cinayət törədilənədək 16 yaşına çatmış anlaqlı fiziki şəxs. Cinayətin vəzifəli və ya vəzifəli olmayan şəxs tərəfindən törədilməsi əməlin bu maddə ilə tövsifinə mane olmur.

11. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 201. Əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə

201.1. Hədə-qorxu ilə tələb etmə əlamətləri olmadan, zor işlətmək, özgənin əmlakını məhv etmək və ya zədələmək, habelə zərərçəkmiş şəxsə və ya onun yaxın qohumlarının mənafeyinə əhəmiyyətli ziyan vura biləcək məlumatları yaymaq hədəsi ilə əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

201.2. Eyni əməllər:

201.2.1. təkrar törədildikdə;

201.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 201-ci maddəsində nəzərdə tutulmuş cinayət Respublikamızın cinayət qanunvericiliyində yeni tərkiblərdən biridir. Belə əməllərə görə cinayət

məsuliyyəti nəzərdə tutulması mülki dövriyyə iştirakçılarının mühüm hüquqi təminatlarındandır.

2. Təhlil edilən cinayətin **obyekti** sahibkarlıq fəaliyyəti subyektlərinin sərbəst fəaliyyətini təmin edən ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində hüquqi və fiziki şəxslərin əmlak mənafeləri, habelə ayrı-ayrı şəxslərin şərəf və ləyaqəti çıxış edir.

3. Bu cinayətin **ictimai təhlükəliliyi** onun mülki dövriyyə iştirakçılarının sərbəst iradə ifadəsinə mane olmasıdır. Müxtəlif əqdlərin bağlanması zamanı tərəflərin azad iradəsinin mümkünsüz edilməsinə yönəlmiş belə qəsdlər təkcə konkret əqdin iştirakçısının deyil, habelə onun yaxın qohumlarının şərəf və ləyaqətini təhlükə altına alır.

4. Təhlil edilən cinayətin **obyektiv cəhəti** maddənin dispozisiyasında göstərilmiş üsullarla hədələməklə əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmədən ibarətdir.

5. Şərh edilən maddənin məzmununa əsasən **məcbur etmə** dedikdə müxtəlif üsullarla və formalarda hədələmədən istifadə etməklə zərərçəkmiş şəxsə öz iradəsini sərbəst ifadə edə bilməyəcək dərəcədə təsir etmə başa düşülməlidir.

6. Maddənin dispozisiyasında məcburetmənin vasitəsi kimi istifadə edilən hədələmənin konkret üsulları sadalanmışdır: zor işlətməklə hədələmə; özgənin əmlakını məhv etmək və ya zədələməklə hədələmə; zərərçəkmiş şəxsə və ya onun yaxın qohumlarının mənafeyinə əhəmiyyətli ziyan vura biləcək məlumatları yaymaqla hədələmə.

Şərh edilən maddədə hədələmənin mühüm bir şərti — **hədə-qorxu ilə tələb etmə əlamətlərinin olmaması** verilmişdir. Bu o deməkdir ki, təqsirkarın hədəsi əmlak əldə keçirməyə yönəlməmişdir və bu hədənin son məqsədi mülkiyyət münasibətlərini dəyişdirməkdən ibarət deyildir. Əks təqdirdə — hədə-qorxu ilə tələb etmə əlamətləri olduqda əməl yalnız CM-in 182-ci maddəsi ilə tövsif ediləcəkdir.

7. Hədə **real** və **həyata keçirilə bilən** olmalıdır. Hədənin zərərçəkmiş şəxs tərəfindən məhz bu qisimdə qəbul edilməsi hədələmənin şəraiti, hədələyənin şəxsiyyətini xarakterizə edən hallar, hədələyən və zərərçəkmiş arasındakı münasibətlər və s. bu kimi obyektiv və subyektiv amillər əsasında müəyyən edilir. Hədə istənilən formada — yazılı, şifahi, telefonla, başqa şəxslər vasitəsilə və s. çatdırıla bilər.

8. **Zor işlətmək hədəsi** dedikdə zərərçəkmiş şəxsin həyatına və sağlamlığına qarşı istənilən səviyyədə və formada hədələmə başa düşülməlidir.

9. **Özgənin əmlakını məhv etmək** və ya **zədələmək hədəsi** təqsirkara məxsus olmayan əmlakı istənilən üsulla məhv etmək və ya zədələməklə (CM-in 186-cı maddəsinin şərhinə bax) hədələmədə ifadə oluna bilər. Lakin burada «özgənin» ifadəsi çox geniş başa düşülə bilməz. Təqsirkarın hədəsi yalnız zərərçəkmişin özünün və ya onun yaxın qohumlarının əmlakına yönəldikdə şərh edilən cinayət tərkibini yarada bilər.

10. Hədələmənin digər üsulu zərərçəkmişin, yaxud onun yaxın qohumlarının barəsində törədilən **şantajdır**. Bu zaman təqsirkarın yaymaqla hədələdiyi

məlumatların həqiqətə uyğun, habelə rüsvayedici olub-olmaması heç bir əhəmiyyət kəsb etmir. Başlıcası odur ki, belə məlumatların yayılması, zərərçəkmişin fikrincə, onun özünün və ya yaxın qohumlarının mənafeyinə əhəmiyyətli ziyan vura biləcək olsun. Bu məlumatlara övladlığa götürmə sirri, zərərçəkmişin əxlaqı ilə bağlı məlumatlar və s. aid edilə bilər.

11. Təqsirkarın hədəsi **əqdin bağlanmasına** və ya **onun bağlanmasından imtinaya məcbur etməyə** yönəlmiş olmalıdır. Burada **əqd** dedikdə mülki qanunvericilikdə müəyyən olunduğu kimi, hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitamına yönəlmiş istənilən iradə ifadəsi başa düşülür. Belə əqdlər konkret olaraq əvəzli xidmətlər göstərilməsindən, müəyyən işləri yerinə yetirməkdən və s. ibarət ola bilər.

12. Şərh edilən cinayət **formal tərkib** vasitəsi ilə ifadə olunduğundan hədənin mövcud olduğu andan **başa çatmış** hesab ediləcəkdir.

13. Təhlil edilən cinayətin **subyektiv cəhəti birbaşa qəsddən** və **xüsusi məqsəddən** ibarətdir. Təqsirkar zərərçəkmişi əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmək məqsədi ilə hədələdiyini dərk edir və bunu etməyi arzu edir.

14. Cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

15. CM-in 201.2-ci maddəsində əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmənin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur: a) eyni əməllərin təkrar törədilməsi; b) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi.

Təkrarlıq dedikdə əvvəlki əmələ görə məsuliyyətə cəlb edilib-edilməməsindən asılı olmayaraq, CM-in 201.2-ci maddəsində nəzərdə tutulmuş əməlin təqsirkar tərəfindən iki və daha artıq dəfə törədilməsi başa düşülür. Lakin əvvəlki əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi, onun məhkum olunması, habelə məhkumluğun ödənilmiş və ya götürülmüş olması bu ağırlaşdırıcı tərkib əlamətini istisna edir.

Qabaqcadan əlbir olan bir qrup şəxsin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

Maddə 201-1. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi

201-1.1. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi xeyli miqdarda ziyan vurmaqla və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

201-1.2. Eyni əməllər külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə

azadlıqdan məhrumetmə ilə cəzalandırılır *(25 aprel 2017-ci il tarixli Qanunla əlavə edilmişdir - «Azərbaycan» q., 23 may 2017-ci il).*

1. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** hüquqi şəxslərin öz üzvləri (rəhbərləri, işçiləri) ilə əqdlərin bağlanması qaydalarının pozulmasının, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsinin korrupsiyaya şərait yaratmasında, dövlət büdcəsinə ödəmələrin həyata keçirilməməsində və sair nəticələrdə ifadə olunur.

2. CM-in 201-1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektini** hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarını, belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməsini tənzim edən ictimai münasibətlər təşkil edir.

3. Şərh olunan cinayət **obyektiv cəhətdən** cinayət tərkibinin aşağıdakı elementlərini əhatə edir: 1) hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsində ifadə olunan əməl; 2) belə əməl nəticəsində xeyli miqdarda ziyan vurulması və ya xeyli miqdarda gəlir əldə edilməsi; 3) sadalanan əməllərlə vurulmuş ziyan (əldə edilmiş gəlir) arasında səbəbli əlaqənin olması.

4. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması, habelə belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməsi qaydaları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunur.

Hüquqi şəxslərə aidiyyəti olan şəxslərə aiddir: 1) hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvləri; 2) hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri; 3) 1-ci və 2-ci bəndlərdə göstərilən şəxslərin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları); 4) hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs; 5) 1-ci, 2-ci və 4-cü bəndlərdə göstərilən şəxslərin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslər; 6) hüquqi şəxsin, nizamnamə kapitalında ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxs; 7) 4-cü və 6-cı bəndlərdə göstərilən hüquqi şəxslərdə ən azı 20 faiz paya (səhmlərə) malik olan hər hansı şəxs; 8) 4-cü və 6-cı bəndlərdə göstərilən hüquqi şəxslərin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanlarının rəhbərləri (MM-in 49-1.1-ci maddəsi).

Şərh olunan maddədə əqd dedikdə Mülki Məcəllənin 324-cü maddəsində nəzərdə tutulmuş əlamətlərə malik iradə ifadəsini ehtiva edən əqdlər başa düşülür.

Mülki Məcəllə hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanmasının **iki qaydasını** müəyyən edir:

1) aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçı məsələ ilə əlaqədar olan

səsvermədə iştirak edə bilməz (MM-in 49-1.2-ci maddəsi);

2) aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya icra orqanı tərəfindən qəbul olunur. Bu halda iştirakçıların ümumi yığıncağında, direktorlar şurasının (müşahidə şurasının) və kollegial icra orqanının iclaslarında aidiyyəti şəxs olan iştirakçı (üzv) səsvermədə iştirak edə bilməz. Hüquqi şəxsin təkbaşına icra orqanının rəhbəri, habelə onun bu Məcəllənin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxsləri aidiyyəti şəxs qismində çıxış etdikdə onlarla hüquqi şəxs arasında əqd direktorlar şurasının (müşahidə şurasının), o olmadıqda isə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə bağlanılır (MM-in 49-1.3-cü maddəsi).

Birinci halda hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydası aşağıdakı **formalarda pozula** bilər: 1) əqdin hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi olmadan bağlanılması; 2) hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi olsa da, əqdin hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağında qəbul edilmədən, yaxud ümumi yığıncaqda qəbul edilsə də, sadə səs çoxluğu qaydaları pozulmaqla qəbul edilməsi; 3) bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçının məsələ ilə əlaqədar olan səsvermədə iştirak etməsi.

İkinci halda hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydası aşağıdakı **formalarda pozula** bilər: 1) əqdin hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı tərəfindən qəbul olunmaması; 2) əqdin hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, hüquqi şəxsin direktorlar şurası (müşahidə şurası) tərəfindən qəbul olunmaması; 3) əqdin hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, hüquqi şəxsin icra orqanı tərəfindən qəbul olunmaması; 4) əqd hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya icra orqanı tərəfindən qəbul olunsa da, aidiyyəti şəxs olan iştirakçının (üzvün) səsvermədə iştirak etməsi; 5) hüquqi şəxsin təkbaşına icra orqanının rəhbəri, onun qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları), habelə hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs aidiyyəti şəxs qismində çıxış etdikdə onlarla hüquqi şəxs arasında əqdin direktorlar şurasının (müşahidə şurasının), o olmadıqda isə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə bağlanılmaması.

Şərh olunan cinayətin obyektiv cəhətinə daxil olan ikinci əməl hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə bağlanılmış əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsidir. Mülki Məcəllə **bu qaydanın pozulması hallarına** aşağıdakıları aid edir: 1) hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və ya üzvləri özlərinin, onların qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənlə-

ri), qardaşları və bacıları), habelə hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin, o cümlədən digər şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı hüquqi şəxsin iştirakçılarına təqdim etməməsi; 2) sadalanan şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı hüquqi şəxsin iştirakçılarına yazılı şəkildə təqdim etməmələri.

5. Şərh olunan cinayət **maddi tərkiblidir**. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi nəticəsində xeyli miqdarda ziyan vurulduğu və ya xeyli miqdarda gəlir əldə edildiyi andan cinayət **başa çatmış** hesab edilir.

6. **Xeyli miqdarda ziyan (gəlir)** dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğdə ziyan (gəlir) başa düşülür.

7. Şərh edilən cinayət subyektiv cəhətdən **birbaşa** və ya **dolayı** qəsdlə törədilə bilər. Təqsirkar hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulmasının, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsinin ictimai təhlükəliliyini qabaqcadan görür, belə pozutuların xeyli miqdarda ziyan vurulmasına və ya xeyli miqdarda gəlir əldə edilməsinə səbəb olacağını dərk edir, onların baş verməsini arzu edir, yaxud bunlara şüurlu surətdə yol verir.

8. Cinayətin **subyekti** xüsusidir. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması əməlinin **subyekti** qismində hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və ya üzvü, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri çıxış edə bilər. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə bağlanılan əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi əməlinin **subyekti** hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və ya üzvü, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs, o cümlədən digər şəxs ola bilər.

9. CM-in 201-1.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədilməsi nəzərdə tutulmuşdur. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən **külli miqdar** yüz min manatdan artıq olan məbləği nəzərdə tutur.

Maddə 202. Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma

202.1. Kommersiya və ya bank sirlərini təşkil edən məlumatların toplanması, həmin məlumatları yaymaq və ya onlardan qanunsuz istifadə etmək məqsədi ilə sənədləri oğurlamaqla, satın almaqla və ya hədələməklə, habelə digər qanunsuz üsulla törədildikdə —

min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

202.2. Sahibkarın razılığı olmadan kommersiya və ya bank sirri olan məlumatların tamah və ya başqa şəxsi niyyətlə qanunsuz yolla istifadə edilməsi və ya yayılması külli miqdarda ziyan vurmaqla törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 25 may 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Təhlil edilən cinayət ölkəmizin cinayət qanununun Xüsusi hissəsinin mühüm yeniliklərindən biridir. Bazar iqtisadiyyatı şəraitində hər bir təsərrüfat subyekti özünün mühüm texniki-istehsal xarakterli məlumatlarını başqa rəqiblərin qanunsuz əldə etməsindən və istifadə etməsindən əhəmiyyətli ziyan çəkə bilər. CM-in 202-ci maddəsində nəzərdə tutulmuş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsindən məqsəd məhz təsərrüfat subyektlərinin kommersiya və bank sirləri ilə əlaqədar mənafelərini mühafizə etməkdir.

2. Şərh edilən cinayətin **obyekti** normal sahibkarlıq fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

3. CM-in 202-ci maddəsində nəzərdə tutulan cinayətin **ictimai təhlükəliliyi** maddənin dispozisiyasında sadalanan əməllərin törədilməsi nəticəsində təsərrüfat subyektləri arasında azad rəqabət prinsipinin pozulmasından və bununla da ayrı-ayrı kommersiya təşkilatlarının və fərdi sahibkarların iqtisadi mənafelərinə müxtəlif xarakterli ziyan yetirilməsindən ibarətdir.

4. Şərh olunan cinayətin **predmeti** qismində kommersiya və ya bank sirri çıxış edir.

Kommersiya sirri dedikdə hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar başa düşülür («Kommersiya sirri haqqında» Azərbaycan Respublikasının 4 dekabr 2001-ci il tarixli Qanununun 2.0.1-ci maddəsi).

«Kommersiya sirri haqqında» Azərbaycan Respublikasının 4 dekabr 2001-ci il tarixli Qanununun 4-cü maddəsinə görə aşağıdakı məlumatlar kommersiya sirri hesab edilmir: dövlət sirrini təşkil edən məlumatlar; təsis sənədlərində əksini tapan məlumatlar; sahibkarlıq fəaliyyətinin bəzi növləri ilə məşğul olmaq hüquq verən lisenziyalar haqqında məlumatlar; qanunvericilikdə nəzərdə tutulan hallarda auditor rəyi daxil olmaqla maliyyə (mühasibat) hesablarında olan məlumatlar; Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən vergi ödəyicisi barədə kommersiya sirri hesab olunmayan məlumatlar; əməyin ödənilməsi formaları və məbləği barədə, əmək haqqı və sosial ödənişlər üzrə

borclar, işçilərin say tərkibini, boş iş yerlərinin mövcudluğunu əks etdirən məlumatlar; patent və digər mühafizə sənədləri ilə qorunan əqli mülkiyyət obyektləri haqqında məlumatlar; qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qiymətli kağızların emitenti, qiymətli kağızlar bazarının peşəkar iştirakçısı və ya qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı tərəfindən açılmalı olan məlumatlar; qeyri-kommersiya təşkilatlarının fəaliyyəti barədə məlumatlar; özəlləşdirmənin dövlət proqramının həyata keçirilməsi və konkret obyektlərin özəlləşdirmə şərtləri barədə məlumatlar; hüquqi şəxsin ləğvi və onun kreditorları tərəfindən tələbələrin irəli sürülməsi qaydası və müddəti barədə məlumatlar; Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən barəsində məsuliyyət növü nəzərdə tutulan əməllərə dair məlumatlar; ekoloji və antiinhisar qanunvericiliyinə əməl olunması, əməyin təhlükəsizliyinin təmin edilməsi, əhalinin sağlamlığına ziyan vura bilən məhsulların satışı ilə bağlı məlumatlar; kommersiya sirri rejiminin qoyulması qüvvədə olan qanunvericiliklə məhdudlaşdırılan məlumatlar; telekommunikasiya operatoruna və telekommunikasiya provayderinə nömrə resursunun ayrılması, dəyişdirilməsi və geri alınması haqqında məlumatlar; qanunvericiliyə əsasən kommersiya sirri hesab edilməyən digər məlumatlar.

Kommersiya sirri həm müxtəlif hüquqi şəxslərə, həm də fərdi sahibkarlara məxsus ola bilər. Həmin sirri təşkil edən məlumatların tərkibi və həcmi, onların mühafizəsi qaydası hüquqi şəxsin rəhbərliyi və ya fərdi sahibkar tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə müəyyən edilir.

Bank sirri də kommersiya sirrinin özünəməxsus bir növü hesab edilə bilər. «Banklar haqqında» Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli Qanununun 41-ci maddəsinə əsasən bank hesabı, hesab üzrə əməliyyatlar və qalıqlar, habelə müştəri haqqında məlumatlar, o cümlədən müştərinin adı, ünvanı, rəhbərləri haqqında məlumatlar, müştərilərin bank saxlancında əmlakının mövcudluğu, bu cür əmlakın sahibləri, xarakteri və dəyəri haqqında məlumatlar **bank sirri** hesab olunur.

Bank sirri təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilər. Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

5. CM-in 202-ci maddəsində ayrı-ayrılıqda müstəqil cinayətlər hesab edilə bilən iki cinayət tərkibi nəzərdə tutulmuşdur. Onların arasında təkcə obyektiv cəhətlərinə görə deyil, subyektiv cəhətlərinə və subyektlərinə görə də xeyli fərqlər mövcuddur.

6. CM-in 202.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti kommersiya və ya bank sirlərini təşkil edən məlumatların aşağıdakı üsullarla toplanmasından ibarətdir: sənədləri oğurlamaqla; satın almaqla; hədələməklə; digər qanunsuz üsullarla.

Ümumiyyətlə, **kommersiya və ya bank sirlərini təşkil edən məlumatları toplama** dedikdə barəsində xüsusi məxfilik rejimi müəyyən edilmiş və azad surətdə əldə edilməsi mümkün olmayan məlumatların qanunsuz olaraq aşkar edilməsi və ələ keçirilməsi üzrə fəaliyyət başa düşülməlidir. Belə məlumatlar

istənilən növ daşıyıcılarda ola bilər (sənəddə, kompüter disketlərində, məxfi xarakterli əşyalarda və s.). Məlumatları toplama müxtəlif üsullarla törədilə bilər, lakin maddənin dispozisiyasında daha çox rast gəlinən üsullar sadalanmışdır.

7. Kommersiya və ya bank sirrini təşkil edən məlumatların toplanması üsulu kimi **sənədləri oğurlama** dedikdə həmin məlumatları özündə əks etdirən müxtəlif yazılı materialları (rəsmi sənədləri, çertyojları, sxemləri, blankları və s.) qanunsuz yolla və gizli olaraq götürmə başa düşülməlidir. Burada «oğurlama» anlayışını geniş təfsir edərək talamanın digər formalarını da bura aid etmək düzgün olmazdı. Talamanın digər formalarından istifadə etməklə qeyd edilən sənədləri götürmə **digər qanunsuz üsullara** aid edilməlidir.

8. Təhlil edilən maddənin dispozisiyasında **satın alma** dedikdə kommersiya və ya bank sirri olan məlumatların müəyyən məbləğdə pul, başqa maddi nemətlər verilməsi və ya müəyyən xidmətlər göstərilməsi hesabına əldə edilməsi başa düşülməlidir. Bu zaman belə məlumatlara malik olan şəxslərin pulla ələ alınması da satın alma hesab edilməlidir.

9. Qeyd edilən məlumatları əldə etmək üçün **hədələmə** dedikdə kommersiya və ya bank sirrini təşkil edən məlumatlara malik olan şəxsləri və ya onların yaxın qohumlarını döyməklə, sağlamlığına zərər vurmaqla, öldürməklə, onların barəsində rüsvayedici məlumatlar yaymaqla, onların əmlakını məhv etmək və ya zədələməklə hədələmə başa düşülməlidir. Belə hədə real və bilavasitə, yaxud gələcəyə yönəlmiş olmalıdır. Hədələmə təkcə məlumatın maddi daşıyıcılarını əldə etməyə deyil, həm də zərərçəkmişə məlum olan belə məlumatları şifahi formada almaya yönələ bilər.

10. Kommersiya və ya bank sirri olan məlumatları toplamanın **digər qanunsuz üsullarına** kompüter şəbəkəsinə qanunsuz daxil olmanı, aldatma və ya etibardan sui-istifadə etməni və s. aid etmək olar.

11. Təhlil edilən cinayət **formal tərkib** vasitəsi ilə ifadə olunduğundan, kommersiya və ya bank sirlərini təşkil edən məlumatların toplanmasına yönəlmiş hərəkətlərin törədilməyə başlandığı andan başa çatmış hesab ediləcəkdir.

12. CM-in 202.1-ci maddəsinin **subyektiv cəhəti birbaşa qəsdi** və **xüsusi məqsədi** nəzərdə tutmuşdur. Təqsirkar kommersiya və ya bank sirlərini təşkil edən məlumatları toplamağa yönəlmiş əməl törətdiyini dərk edir və həmin məlumatları yaymaq və ya onlardan qanunsuz istifadə etmək məqsədi ilə bunu etməyi arzu edir.

13. Təqsirkarın **məqsədi** kimi **yayma** dedikdə kommersiya və ya bank sirri olan məlumatların təqsirkarın özündən başqa ən azı bir nəfərə çatdırılması başa düşülməlidir. Lakin həmin şəxs qeyd edilən məlumatı əldə etmək hüququna malik olmayan şəxs olmalıdır. Yayma ən müxtəlif üsullarla (sənədləri verməklə, şifahi məlumat çatdırmaqla və s.) ola bilər.

14. Kommersiya və ya bank sirri olan məlumatlardan **qanunsuz istifadə etmə** belə məlumatları əvəzli surətdə başqasına vermədə, onlardan öz fəaliyyətində istifadə etmədə, onları istifadə üçün öz yaxınlarına vermədə və sairədə ifadə oluna bilər.

Kommersiya və ya bank sirri kimi öz əhəmiyyətini itirmiş məlumatların ya-

yılması və istifadə edilməsi təhlil edilən cinayətin tərkibini yaratmır.

15. Qeyd olunan xüsusi məqsədlərin — belə məlumatları yaymaq və ya onlardan qanunsuz istifadə etmək məqsədlərinin olması cinayətin törədildiyi şəraitlə, təqsirkarın zərərçəkmişlə münasibətlərinin xarakteri ilə, təqsirkarın bu məlumatlardan istifadə etmək imkanı ilə və s. hallarla müəyyən edilməlidir.

16. CM-in 202.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti 16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

17. CM-in 202.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** aşağıdakılardan ibarətdir: a) sahibkarın razılığı olmadan kommersiya və ya bank sirri olan məlumatların qanunsuz yolla istifadə edilməsi və ya yayılmasından ibarət əməl; b) külli miqdarda ziyan vurulmasından ibarət nəticə; c) əməl və vurulmuş ziyan arasında səbəbli əlaqə.

18. Təhlil edilən cinayətin törədilməsinin zəruri əlamətlərindən biri qeyd olunan məlumatların istifadə edilməsinə və ya yayılmasına **sahibkarın razılığının olmamasıdır.** Burada **«sahibkar»** dedikdə məlumatın **qanuni sahibi** başa düşülməlidir.

Lakin bəzi məlumatların sahibinin razılığının olması da həmin məlumatlardan istifadənin qanuni olması demək deyildir. Belə məlumatlara digər şəxslərin də mənafeyinə toxunan kommersiya və ya bank sirləri, habelə yayılması və ya istifadə edilməsi qanunvericiliklə qadağan edilmiş məlumatlar (məsələn, strateji məhsulların istehsalı ilə əlaqədar kommersiya məlumatları) aid edilə bilər.

Məlumatın sahibinin razılığı qanunvericilikdə nəzərdə tutulmuş formada verilmədikdə, habelə məcburetmə altında verildikdə də həmin məlumatlardan istifadə və ya onları yayma qanunsuz olacaqdır.

19. Kommersiya və ya bank sirri olan məlumatları yaymanın anlayışı təhlil edilən maddənin şərhinin 13-cü bəndində, həmin məlumatlardan istifadə etmənin anlayışı isə 14-cü bəndində verilmişdir. Lakin nəzərə almaq lazımdır ki, şəxsin məlumatdan öz xidməti səlahiyyətlərinə uyğun istifadə etməsi və ya onu belə məlumatı əldə etmək hüququ olan şəxsə çatdırması təhlil edilən cinayətin tərkibini yaratmayacaqdır.

20. Təhlil edilən cinayətin zəruri əlaməti olan **külli miqdarda ziyan**, CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən yüz min manatdan artıq məbləğə bərabər olmalıdır. Belə ziyan məlumatın sahibinə və ya başqa şəxsə vurulmuş real ziyandan, əldən çıxmış mənfəətdən və s. ibarət ola bilər.

21. CM-in 202.2-ci maddəsi **subyektiv cəhətdən birbaşa qəsdlə** və **tamah** və ya **başqa şəxsi niyyətlə** xarakterizə olunur. Təqsirkar sahibinin razılığı olmadan kommersiya və ya bank sirri olan məlumatdan qanunsuz istifadə etdiyini və ya onu qanunsuz yaydığını dərk edir, bu əməlin külli miqdarda ziyan vuracağını qabaqcadan görür və tamah və yə sair şəxsi niyyətlə bunu törətməyi arzu edir.

22. **Tamah niyyəti** həmin məlumatlardan istifadə etmə və ya onları yayma nəticəsində maddi mənfəət əldə etmədə və s. ifadə oluna bilər.

23. **Başqa şəxsi niyyət** qisas almadan, xidmət üzrə yüksəlmə arzusundan, öz yaxınları üçün əmlak və ya sair fayda əldə etmədən ibarət ola bilər.

24. CM-in 202.2-ci maddəsinin dispozisiyasının məzmununa əsasən bu cinayətin **subyekti 16** yaşına çatmış istənilən şəxs, o cümlədən xidməti səlahiyyətləri və əmək müqaviləsi üzrə kommersiya və ya bank sirri olan məlumatlara malik olan vəzifəli şəxslər ola bilər. Kənar şəxs, məsələn, belə məlumatları özündə əks etdirən itmiş sənədi təsadüfən tapmış şəxs bu cinayətin subyekti ola bilməz.

Maddə 202-1. İxrac nəzarətinə aid sənəd və məlumatları yayma

202-1.1. Hüquqi və fiziki şəxslərdən alınmış ixrac nəzarətinə aid sənəd və məlumatların və ya onların məzmununun açıqlanması və ya üçüncü şəxslərə verilməsi —

min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

202-1.2. Eyni əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 20 sentyabr 2005-ci il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 may 2016-cı il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir — «Azərbaycan» q., 24 noyabr 2005-ci il; 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 25 may 2016-cı il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 202-1-ci maddəsində nəzərdə tutulan əmələ görə cinayət məsuliyyəti müəyyən edilməsinin məqsədi ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) barədə məlumatların konfidensiallığını qorumaq və bu yolla həmin malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) mülkiyyətçilərinə, sahiblərinə, istehsalçılarına, istifadəçilərinə dəyə biləcək zərərin yarısını almaq, habelə əksər hallarda yüksək təhlükə mənbəyi olan belə mallar barədə məlumatların təsadüfi şəxslərin (xüsusən kriminal ünsürlərin) əlinə keçməsinin qarşısını almaqdır.

Bu əmələn **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, həmin mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) barədə məlumatların yayılması onların istehsalçısının, mülkiyyətçisinin, sahibinin, istifadəçisinin kommersiya maraqlarına ziyan yetirir. Digər tərəfdən, həmin yüksək texnologiya və yüksək təhlükəli əşyalar barədə məlumatların təsadüfi əllərə keçməsi ictimai təhlükəsizliyi ciddi təhlükə altına alır.

2. Şərh edilən cinayətin **əsas obyekti** normal sahibkarlıq fəaliyyəti ilə bağlı ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində ictimai təhlükəsizlik çıxış edir. Lakin ixrac nəzarətinə aid mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) barədə məlumatların təsadüfi əllərə keçməsi ictimai təhlükəsizlik baxımından daha təhlükəlidir, çünki kütləvi qırğın silahlarının hazırlanmasına, yüksək texnologiyalardan kriminal məqsədlərlə istifadə olunmasına gətirib çıxara bilər. Ona görə də təhlil edilən cinayət tərkibinin CM-in «İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər» adlanan XXV fəslində yerləşdirilməli olduğunu mübahisə etmək olar.

3. CM-in 202-1-ci maddəsində təsbit edilmiş **cinayətin predmeti** ixrac nəzarətinə aid sənəd və məlumatlar, habelə onların məzmunudur.

«İxrac nəzarəti haqqında» Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il tarixli Qanununun 1.1.1-ci maddəsinə müvafiq olaraq, **ixrac nəzarəti** ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) Azərbaycan Respublikasının ərazisinə gətirilməsi, bu ərazidən çıxarılması və tranzitinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara uyğun həyata keçirilməsini təmin edən tədbirlər kompleksidir.

İxrac nəzarətinə aid sənəd dedikdə məzmunu ixrac nəzarətinə aid əməliyyatlar, ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri), onların mənşəyi, çeşidli, əlamətləri, texnoloji xüsusiyyətləri, təyinatı, göndərildiyi ünvan və s. barədə məlumatları əks etdirən müxtəlif maddi daşıyıcılar (kağız üzərində, audio və ya video lentdə, elektron daşıyıcıları) başa düşülməlidir. Belə sənədlər qaimələr, sertifikatlar, texniki pasportlar, lisenziyalar, gömrük bəyannamələri və başqa müşayiətedici sənədlər formasında, kompüter informasiyası şəklində və s. ola bilər.

İxrac nəzarətinə aid məlumat dedikdə ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri), onların istehsalçısı, istifadəçisi, daşıyıcısı, bu malların çeşidi, təyinatı, texniki göstəriciləri və başqa bu kimi bilgilər başa düşülməlidir. Həmin məlumatların hansı daşıyıcılarda olması (sənədlərin, elektron daşıyıcıların surətini çıxarma, əllə qeydlər etmə, yadda saxlama və s.) əməlin təhlil edilən maddə üzrə tövsifi üçün heç bir əhəmiyyət daşımır.

İxrac nəzarətinə aid sənəd və məlumatların məzmunu isə ixrac nəzarətinin həyata keçirilməsi, ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) barədə əsas bilgilər kimi başa düşülməlidir.

4. İxrac nəzarətinə aid sənəd və məlumatlarda, xüsusən də ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) barədə məlumatlarda kommersiya və ya dövlət sirrini təşkil edən məlumatlar da ola bilər. Belə olan halda həmin sənəd və məlumatların yayılması müvafiq tərkib əlamətləri olduqda **cinayətlərin məcmusu qaydasında** CM-in 202 və 202-1-ci, yaxud 202-1-ci və 284-cü maddələri ilə tövsif edilməlidir. Təqsirkarın əməlində dövlətə xəyanətin əlamətləri olduqda isə CM-in 274-cü və 202-1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin məcmusu mövcud olacaqdır.

5. Təhlil edilən cinayətin predmeti kimi **hüquqi və fiziki şəxslərdən alınmış** sənəd, məlumat və onların məzmunu göstərilmişdir. CM-in 202-1-ci maddəsinin mahiyyətinə əsasən əməlin bu tərkib üzrə tövsifi üçün sənəd və məlumatların **qanuni və ya qanunsuz yolla alınmasının** heç bir əhəmiyyəti yoxdur.

6. Şərh edilən cinayət tərkibinin **obyektiv cəhəti** ixrac nəzarətinə aid sənəd və məlumatların və ya onların məzmununun açıqlanması və ya üçüncü şəxslərə verilməsi kimi hərəkətlərdən ibarətdir.

Sənədin və ya məlumatın, yaxud onların məzmununun **açıqlanması** dedikdə ixrac nəzarətinə aid sənəd və ya məlumatı istənilən üsulla (bilavasitə ötürməklə, surətini çıxarmaqla, məzmununu köçürməklə, şifahi söyləməklə, elektron poçtla və ya başqa rabitə vasitələri ilə göndərməklə, başqalarının əldə edə

biləcəyi və ya tanış ola biləcəyi yerdə və ya vəziyyətdə qoyub getməklə, məqalədə, müsahibədə və ya başqa yazılı materialda qeyd etməklə və s.) həmin sənəd və məlumatı əldə etmək hüququ olmayan istənilən şəxsə (və ya şəxslərə) çatdırma başa düşülür.

Sənədin və ya məlumatın, yaxud onların məzmununun **üçüncü şəxslərə verilməsi** dedikdə isə həmin sənəd və məlumatları, onların məzmununu müxtəlif üsullarla sahibindən (istifadəsindən) başqa, bu sənəd və ya məlumatları əldə etmək hüquqi olmayan şəxsə (şəxslərə) ötürmək başa düşülür.

7. Təhlil edilən cinayət əməli **formal tərkib** vasitəsilə ifadə olunmuşdur. Ona görə də obyektiv cəhətə aid əməllərdən hər hansı biri edildiyi, yəni sənəd, məlumat və ya onların məzmunu hər hansı bir şəxsə açıqlandığı, yaxud ötürüldüyü andan cinayət **başa çatmış** hesab ediləcəkdir.

8. Şərh edilən cinayət tərkibinin **subyektiv cəhəti birbaşa qəsd** formasında təqsiri nəzərdə tutur. Təqsirkar şəxs ixrac nəzarətinə aid sənəd və ya məlumatı onları əldə etməyə səlahiyyəti olmayan şəxsə (şəxslərə) açıqladığını, yaxud verdiyini dərk edir və bunu etməyi arzulayır.

9. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

Qeyd etdik ki, ixrac nəzarətinə aid sənəd və məlumatlar həm onları qanuni əldə etmiş, həm də qanunsuz əldə etmiş şəxslər tərəfindən yayıldıqda təhlil edilən cinayət tərkibi yaranır. Bu məlumatları qanuni əldə edən şəxslər ixrac nəzarəti ilə bağlı fəaliyyətdə iştirak edən dövlət orqanlarının vəzifəli şəxsləri olacaqdır. Onları qanunsuz yolla əldə etmiş şəxslər isə istənilən fiziki şəxs ola bilər.

10. CM-in 202-1.2-ci maddəsində təhlil edilən cinayətin ağırlaşdırıcı tərkib əlaməti kimi «külli miqdarda ziyan vurma» göstərilmişdir. Şərh edilən maddə CM-ə Azərbaycan Respublikasının 20 sentyabr 2005-ci il tarixli Qanunu ilə əlavə edilsə də, CM-in 189-cu maddəsinin qeydi bu maddəyə də aiddir. Ona görə də **külli miqdarda ziyan** vurulması dedikdə yüz min manatdan artıq məbləğdə ziyanın vurulması başa düşüləcəkdir.

Təhlil edilən cinayətin ağırlaşdırıcı tərkib əlaməti maddi xarakterli olduğundan vurulmuş ziyanla törədilmiş əməl arasında **səbəbli əlaqənin** olduğu müəyyən edilməlidir.

Zərər ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) sahibinə, mülkiyyətçisinə, istifadəçisinə, daşıyıcısına, yaxud dövlətə və başqa fiziki və hüquqi şəxslərə vurula bilər.

Maddə 202-2. İnsayder tərəfindən insayd məlumatdan qanunsuz istifadə

202-2.1. İnsayder tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan insayd məlumatdan tamah və ya başqa şəxsi niyyətlə qanunsuz olaraq istifadə edilməsi və ya əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsi, külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislin-

dən beş mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

202-2.2. Eyni əməllər:

202-2.2.1. təkrar törədildikdə;

202-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 202-2.1-ci maddəsində «insayd məlumat» və «insayder» dedikdə «Qiymətli kağızlar bazarı haqqında» Azərbaycan Respublikası Qanununun müvafiq olaraq 78.2-ci və 79.1-ci maddələrində nəzərdə tutulmuş məlumat və şəxslər başa düşülür *(Azərbaycan Respublikasının 5 mart 2010-cu il tarixli Qanunu ilə əlavə edilmiş, 31 may 2011-ci il, 7 mart 2012-ci il, 6 may 2016-cı il, 11 noyabr 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəlişlər edilmişdir — «Azərbaycan» q., 21 mart 2010-cu il; 2 iyul 2011-ci il; 16 mart 2012-ci il; 25 may 2016-cı il; 30 dekabr 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** qiymətli kağızlar bazarında qiymətli kağızlar bazarının iştirakçılarının hüquq və qanuni mənafelərinin pozulmasında, qiymətli kağızlar bazarının bir iştirakçısına digər iştirakçıya münasibətdə üstün mövqeyin təmin edilməsində və s. ifadə olunur.

2. CM-in 202.2-ci maddəsində təsbit olunan cinayətin **obyektini** qiymətli kağızlar bazarında insayd məlumatlarının qorunması, həmin məlumatlardan istifadə qaydaları (rejimi) təşkil edir.

3. Şərh olunan cinayətin **predmeti** qismində insayderə etibar edilmiş və ya xidməti vəzifəsinə, yaxud işinə görə ona məlum olan insayd məlumatları, başqa sözlə, qiymətli kağızlar bazarında insayd məlumatları çıxış edir. **İnsayd məlumat** dedikdə ümumi qaydada (dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, internet və ya digər açıq mənbələrdən) əldə edilə bilməyən, qiymətli kağızlar bazarının iştirakçısı olan təşkilatlarda, yaxud müvafiq dövlət orqanlarında tutduğu vəzifə ilə əlaqədar olaraq əldə edilən və ya emitentlə bağlanmış müqaviləyə əsasən qiymətli kağızlar bazarının subyektləri, qiymətli kağızlar, onlarla əməliyyatlar, qiymətlər, qiymətli kağızların emitenti və digər xüsusatlar üzrə açıqlanmamalı olan və istifadə edildikdə məlumat sahibinə qiymətli kağızlarla əməliyyatların aparılmasında digər iştirakçılardan daha üstün mövqe təmin edən məlumat başa düşülür. İnsayderlər insayd məlumatın məxfiliyini təmin etməlidirlər.

4. CM-in 202-2-ci maddəsində əks olunan cinayət **obyektiv cəhətdən** bu tərkib əlamətləri ilə xarakterizə edilir: 1) insayder tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan insayd məlumatdan qanunsuz olaraq istifadə edilməsi; 2) insayder tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan insayd məlumatın əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsi; 3) qiymətli kağızlar bazarında insayd məlumatdan qanunsuz olaraq istifadə edilməsinin və ya əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsinin külli miqdarda ziyan vurma, yaxud külli miqdarda gəlir əldə etmə ilə nəticələnməsi; 4) insayd məlumatdan qanunsuz istifadə edilməsi, yaxud həmin məlumatın əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsi ilə külli miqdarda ziyan vurulması və ya külli miqdarda gəlir əldə edilməsi arasında səbəbli əlaqənin olması.

Qiymətli kağızlar bazarında insayd məlumatdan **qanunsuz istifadə edilməsi** dedikdə insayderin həmin məlumatdan istifadə edərək qiymətli kağızların alqı-satqısını həyata keçirməsi, başqa təşkilatla əlaqəli olan fəaliyyətin həyata keçirilməsi nəticəsində həmin təşkilat barəsində əldə edilmiş məlumatın ümumi qaydada açıqlanmasından əvvəl ondan istifadə edilməsi və s. hərəkətlər başa düşülməlidir.

Qiymətli kağızlar bazarında insayd məlumatlarından istifadə etməklə qiymətlərlə manipulyasiya edilməsi digər əlamətlər də olduqda CM-in şərh olunan maddəsi və 203-1-ci maddəsi ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

Qiymətli kağızlar bazarında insayd məlumatın **əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsi** dedikdə insayder tərəfindən insayd məlumatın qüvvədə olan qanunvericiliyə və vəzifəsinə görə verilməli olmadığı şəxslərə açıqlanması (bildirilməsi), şəxsən verilməsi və ya hər hansı üsulla onlara ötürülməsi başa düşülməlidir. İnsayd məlumatın üçüncü şəxslərə verilmə forması (şifahi və ya yazılı) əməlin bu əlamətlə tövsifi üçün əhəmiyyət kəsb etmir. İnsayder tərəfindən insayd məlumatın üçüncü şəxslərə verilməsində məqsəd üçüncü şəxslər tərəfindən əqdlərin bağlanmasıdır. Belə məqsəd olmadıqda insayd məlumatın üçüncü şəxslərə verilməsi cinayət məsuliyyətini istisna edəcəkdir.

5. Şərh olunan cinayət **maddi** tərkiblidir və qiymətli kağızlar bazarında insayd məlumatdan qanunsuz istifadə edilməsi və ya belə məlumatın əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsi külli miqdarda ziyan vurma, yaxud külli miqdarda gəlir əldə etmə ilə nəticələndiyi andan başa çatmış sayılır. Bu maddədə **«külli miqdar»** dedikdə yüz min manatdan artıq olan məbləğ başa düşülür. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi az miqdarda ziyan vurmaqla və ya az miqdarda gəlir əldə etməklə nəticələndikdə, əməl İXM-in 420-ci maddəsi ilə inzibati məsuliyyətə səbəb olacaqdır.

6. Şərh olunan cinayət **subyektiv cəhətdən** birbaşa qəsdlə xarakterizə olunur. İnsayder qiymətli kağızlar bazarında insayd məlumatdan qanunsuz olaraq istifadə etdiyini və ya həmin məlumatları əqdlərin bağlanılması üçün üçüncü şəxslərə verdiyini dərk edir və həmin əməlləri törətməyi arzu edir. Cinayətin **motivi** cinayət tərkibinin zəruri əlamətidir. Bu cinayət tamah və ya başqa şəxsi niyyətlə törədilə bilər. **Tamah niyyəti** maddi mənfəət əldə etmədə, yaxud maddi xərclərdən azad olmada ifadə olunur. **Başqa şəxsi niyyət** qisas almada, bununla kiməsə öz xidmətini göstərmədə, vəzifəyə təyin edilmə arzusunda və s. ifadə oluna bilər.

7. CM-in şərh olunan maddəsində nəzərdə tutulan cinayətin **subyekti xü-**

susidir. Bu cinayətin subyekti qiymətli kağızlar bazarında insayd məlumatın etibar edildiyi və ya xidməti vəzifəsinə və ya işinə görə belə məlumatların məlum ola bildiyi şəxslər – **insayderlər** ola bilər. İnsayder qiymətli kağızlar bazarında xidməti məlumata malik olan şəxsdir. İnsayderlərə aiddir: 1) emitentin orqanlarının və audit komitəsinin üzvləri; 2) benefisiar mülkiyyətçilər; 3) insayd məlumatı tutduğu vəzifəyə, müqaviləyə əsasən yaxud emitent və ya digər insayder tərəfindən müvafiq hüququn verilməsi nəticəsində əldə etmək imkanı olan şəxs; 4) emitentin icra orqanının səlahiyyətlərini müqaviləyə əsasən həyata keçirən şəxs; 5) emitentin nizamnamə kapitalının 10 və ya daha çox faizini təşkil edən paya birbaşa və ya dolayı yolla malik olan şəxs; 6) insayd məlumatı qeyri-qanuni yolla əldə etmiş şəxs; 7) insayd məlumatı müqavilə əsasında, yaxud emitent və ya digər insayder tərəfindən müvafiq hüququn verilməsi nəticəsində əldə etmək imkanı olan şəxs; 8) bu siyahının 4-cü və 5-ci bəndlərində göstərilən şəxslər hüquqi şəxs olduqda, onun hesabına əqdin bağlanması qərarının verilməsində iştirak edən şəxs; 9) bu siyahının 1-5-ci bəndlərində göstərilən şəxslərin yaxın qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri və götürülənləri, qardaşları və bacıları) («Qiymətli kağızlar bazarı haqqında» Azərbaycan Respublikası Qanununun 79.1-ci maddəsi).

İnsayderlə birlikdə insayder olmayan şəxslər də CM-in 202-2-ci maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsində iştirak etdikləri hallarda həmin şəxslər bu cinayətin təşkilatçısı, təhrikçisi və ya köməkçisi qismində cinayət məsuliyyətinə cəlb olunmalıdırlar.

8. Şərh olunan cinayətin **cəzanı ağırlaşdıran hallarına** aiddir:

1) insayder tərəfindən qiymətli kağızlar bazarında insayd məlumatından təkrar qanunsuz istifadə (CM-in 202-2.2.1-ci maddəsi); 2) bu cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi (CM-in 202-2.2.2-ci maddəsi).

İnsayder tərəfindən qiymətli kağızlar bazarında xidməti məlumatdan **təkrar qanunsuz istifadə** cinayət tərkibi o halda yaranacaqdır ki, CM-in 202-2-ci maddəsində nəzərdə tutulmuş hərəkətlər şəxsin (insayderin) vahid niyyəti ilə əhatə olunmasın, əvvəlki əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş olsun, şəxs məhkum edilməsin. Əgər CM-in 202-2-ci maddəsində nəzərdə tutulmuş əməllərin yenidən törədilməsi halları şəxsin (insayderin) vahid niyyəti ilə əhatə olunmuşdursa, əməl CM-in 202-2.2.1-ci maddəsi ilə deyil, konkret davam edən cinayət kimi CM-in 202-2.1-ci maddəsi ilə (CM-in 202-2.2.2-ci maddəsində göstərilən cinayətin əlamətləri olmadıqda) tövsif edilməlidir.

Qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən bu cinayətin törədilməsi əlaməti o halda yaranacaqdır ki, ən azı iki insayderin həmin cinayətin törədilməsi barədə razılığı olsun və onlar cinayətin obyektiv cəhətini təşkil edən hərəkətləri birgə icra etmiş olsunlar.

Maddə 203. Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma

203.1. Qiymətli kağızların emissiya prospektinə (informasiya memorandumuna) bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatların daxil edilməsi, həmçinin bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən emissiya prospektinin (informasiya memorandumunun) təsdiq edilməsi və ya bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən qiymətli kağızların emissiyası və ya kütləvi təklifinin yekunları haqqında hesabatın təsdiq edilməsi xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

203.2. Eyni əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 30 aprel 2013-cü il, 6 may 2016-cı il və 11 noyabr 2016-cı il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 25 may 2016-cı il; 30 dekabr 2016-cı il).*

1. CM-in 203-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkibi ölkəmizdə bazar iqtisadiyyatının təşəkkül tapmasına və inkişaf etməsinə yönəlmiş yeni cinayət-hüquqi vasitələrdən biridir. Bu cinayət-hüquqi qadağanın qanunvericiliyə daxil edilməsi normal bazar iqtisadiyyatı şəraitində mühüm iqtisadi vasitələrdən biri olan qiymətli kağızların buraxılışı və dövriyyəsi ilə əlaqədar müxtəlif subyektlərin mənafelərini mühafizə etməkdir.

2. Təhlil edilən cinayətin **obyekti** qiymətli kağızların buraxılması zamanı yaranan iqtisadi münasibətlərdir. **Əlavə obyekt** qismində sərmayəçilərin və qiymətli kağızların tədavülündə iştirak edən digər subyektlərin əmlak mənafeləri çıxış edir.

3. Bu cinayət əməlinin **ictimai təhlükəliliyi** onun emissiya qiymətli kağızlarının buraxılması və yerləşdirilməsi zamanı müxtəlif təsərrüfat subyektlərinin, habelə fiziki şəxslərin qanunla qorunan mənafelərinə ziyan vurmasından ibarətdir. Nəticədə isə nəinki konkret zərərçəkmiş şəxslərin normal təsərrüfat fəaliyyəti pozulur, həm də ölkənin iqtisadi sisteminə mühüm zərbə vurulması təhlükəsi yaranır. Göstərilən kriminal nəticələrin baş verməsi ehtimalı təhlil edilən əməlin iqtisadi cinayətkarlıq üzrə «ixtisaslaşmış» qruplar tərəfindən törədilməsi hallarında xüsusilə artır.

4. CM-in 203-cü maddəsində nəzərdə tutulmuş cinayətin **predmeti** emissiya qiymətli kağızlarıdır. Emissiya qiymətli kağızlarına investisiya qiymətli kağızları (istiqrazlar və səhmlər), dövlət və bələdiyyə qiymətli kağızları aiddir.

Qiymətli kağız müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər. Qiymətli kağız başqasına verildikdə onun təsdiqlədiyi bütün hüquqlar da keçir (MM-in 987.1-ci maddəsi).

İnvestisiya qiymətli kağızları buraxılışlarla yerləşdirilir və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq bir buraxılış daxilində hüquqların həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlardır (MM-in

997.2-ci maddəsi).

Emissiya qiymətli kağızları aşağıdakı formalardan birində emissiya edilə bilər: a) sənədli adlı qiymətli kağızlar; b) sənədsiz adlı qiymətli kağızlar; c) sənədli adsız qiymətli kağızlar. İnvestisiya qiymətli kağızının forması və buraxılış şərtləri investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və investisiya qiymətli kağızlarının emissiya prospektində (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa) birmənalı müəyyən edilməlidir.

5. Şərh edilən cinayət tərkibinin **obyektiv cəhəti** bir-birindən fərqlənən üç alternativ əməldən ibarətdir: 1) qiymətli kağızların emissiya prospektinə (informasiya memorandumuna) bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatların daxil edilməsi; 2) bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən emissiya prospektinin (informasiya memorandumunun) təsdiq edilməsi; 3) bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən qiymətli kağızların emissiyası və ya kütləvi təklifinin yekunları haqqında hesabatın təsdiq edilməsi. Obyektiv cəhətin digər zəruri əlamətləri xeyli miqdarda ziyanın vurulması və baş vermiş nəticə ilə törədilmiş əməl arasında səbəbli əlaqənin olmasıdır.

Qiymətli kağızların buraxılışı emitentin qiymətli kağızların bir növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızlarının toplusudur (MM-in 997.2-ci maddəsi).

Qiymətli kağızların emissiyası dedikdə emitentin qiymətli kağızlarının emissiyası haqqında qərarının qəbulunun, emissiya prospektinin tərtibinin, qiymətli kağızların buraxılışının, yerləşdirilməsinin «Qiymətli kağızlar bazarı haqqında» Qanunu ilə müəyyən edilmiş digər tədbirlərinin məcmusu başa düşülür. Qiymətli kağızların emissiyası aşağıdakı mərhələləri əhatə edir: 1) emitent tərəfindən investisiya qiymətli kağızlarının buraxılışı haqqında qərarın qəbul edilməsi; 2) emitent tərəfindən investisiya qiymətli kağızlarının emissiya prospektinin və ya informasiya memorandumunun tərtib edilməsi (kütləvi təklif edilən investisiya qiymətli kağızları üçün); 3) maliyyə bazarlarına nəzarət orqanının investisiya qiymətli kağızlarının buraxılışını dövlət qeydiyyatına alması və emissiya prospektini və ya informasiya memorandumunu təsdiq etməsi; 4) investisiya qiymətli kağızlarının emissiya prospektində və ya informasiya memorandumunda olan məlumatların açıqlanması (kütləvi təklif edilən investisiya qiymətli kağızları üçün); 5) investisiya qiymətli kağızlarının yerləşdirilməsi və ya tənzimlənən bazarlara ticarətə buraxılması; 6) maliyyə bazarlarına nəzarət orqanının investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatı təsdiq etməsi; 7) investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatda olan məlumatların açıqlanması (investisiya qiymətli kağızları kütləvi təklif edildikdə).

6. **İnvestisiya qiymətli kağızlarının buraxılışları** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasında dövlət qeydiyyatına alınmalıdır. Qeydiyyat üçün aşağıdakı sənədlər təqdim edilməlidir: 1) investisiya qiymətli kağızlarının qeydiyyata alınması üçün ərizə; 2) investisiya qiymətli kağızlarının buraxılışı haqqında qərar; 3) emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatına

alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya «İnzibati icraat haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surətləri; 4) investisiya qiymətli kağızlarının emissiya prospekti (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunarsa); 5) investisiya qiymətli kağızlarının emissiya prospektinin təsdiq edilməsi üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunarsa).

Təmin edilmiş istiqrazların buraxılışının dövlət qeydiyyatı yalnız onlar üzrə verilmiş təminatın qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməsindən sonra həyata keçirilir.

8. **Qiymətli kağızların emissiya prospektinə (informasiya memorandumuna) bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatların daxil edilməsi** dedikdə qiymətli kağızların emissiya prospektinə (informasiya memorandumuna) həqiqətə uyğun olmayan, təhrif olunmuş məlumatların daxil edilməsi və ya daxil edilməsi məcburi hesab edilən məlumatların emissiya prospektinə (informasiya memorandumuna) daxil edilməməsi başa düşülməlidir. Belə yanlış, yaxud təhrif edilmiş məlumatlar emitentin maliyyə-təsərrüfat vəziyyəti, onun keçmiş borcları, qiymətli kağızlar buraxılışının həcmi və s. mühüm göstəricilərlə əlaqədar ola bilər.

CM-in 203-cü maddəsinin dispozisiyası yalnız emissiya prospektinə (informasiya memorandumuna) yanlış, yaxud təhrif edilmiş məlumatlar daxil etməyə görə məsuliyyət nəzərdə tutmuşdur. Ona görə də bilə-bilə etibarlı olmayan məlumatları başqa sənədlərə (məsələn, qiymətli kağızlar buraxılması haqqında qərara) daxil etmə təhlil edilən cinayət tərkibini yaratmır.

9. **Bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən emissiya prospektinin (informasiya memorandumunun) təsdiq edilməsi** dedikdə emitentin idarəetmə orqanının səlahiyyətli vəzifəli şəxsi (şəxsləri) tərəfindən özündə yanlış, yaxud təhrif edilmiş məlumatları əks etdirən emissiya prospektinin bəyənilməsi və beləliklə də ona hüquqi qüvvə verilməsi başa düşülməlidir.

Emissiya prospekti (informasiya memorandumu) təsdiq edildikdən sonra dövlət qeydiyyatına alınaraq reyestrə daxil edilmək üçün təqdim edilir.

10. **Bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən qiymətli kağızların emissiyası və ya kütləvi təklifinin yekunları haqqında hesabatın təsdiq edilməsi** dedikdə özündə emissiya nəticələri haqqında təhrif olunmuş və ya yanlış məlumatları əks etdirən sənədlərin bəyənilməsi haqqında qərar qəbul edilməsi və belə sənədlərin qeydiyyata alınması başa düşülməlidir.

«Qiymətli kağızlar bazarı haqqında» Qanunun 11.1-ci maddəsinə əsasən investisiya qiymətli kağızlarının kütləvi təklifi və ya yerləşdirilməsi başa çatdıqdan sonra on iş günü müddətində emitent və ya investisiya qiymətli kağızlarını təklif edən şəxs maliyyə bazarlarına nəzarət orqanına investisiya qiymətli kağızlarının emissiyasının və ya kütləvi təklifinin yekunları haqqında hesabatı

təqdim etməlidir. Həmin hesabatda investisiya qiymətli kağızlarının yerləşdirilməsinin başlanması və başa çatması tarixi, yerləşdirilmiş investisiya qiymətli kağızlarının sayı, investisiya qiymətli kağızlarının yerləşdirilməsindən daxil olan vəsaitin ümumi məbləği, investisiya qiymətli kağızlarının yerləşdirilməsi zamanı emitentlə investorlar arasında bağlanılmış əqdlər haqqında məlumat göstərilməlidir. Qeyd olunan göstəriciləri təhrif olunmuş şəkildə əks etdirən və ya ümumiyyətlə, əks etdirməyən hesabat təsdiq edilərək qeydiyyat orqanına göndərildikdə, habelə bu orqan tərəfindən qeydiyyata alındıqda bilə-bilə etibarlı olmayan emissiya nəticələrinin təsdiq edilməsi əlaməti mövcud olacaqdır.

11. CM-in 203.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **maddi tərkib** vasitəsi ilə ifadə olunmuşdur. Qiymətli kağızların emissiya prospektinə (informasiya memorandumu) bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatların daxil edilməsi, bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən emissiya prospektinin təsdiq edilməsi və ya bilə-bilə yanlış, yaxud təhrif edilmiş məlumatları özündə əks etdirən qiymətli kağızların emissiyası və ya kütləvi təklifinin yekunları haqqında hesabatın təsdiq edilməsi xeyli miqdarda ziyan vurulduğu andan **başa çatmış** cinayət hesab edilir. Burada **xeyli miqdar** dedikdə CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür.

12. Ziyan qiymətli kağızları əldə edən hüquqi və fiziki şəxslərə, habelə dövlətə yetirilə bilər. Zərərçəkmiş qismində həmçinin sığorta təşkilatları və müxtəlif sərmayəçilər də çıxış edə bilər.

Hər bir halda vurulmuş ziyanla törədilmiş əməl arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

13. Şərh edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Təqsirkar qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozduğunu dərk edir, bunun xeyli miqdarda ziyan vura biləcəyini qabaqcadan görür və bu əməli etməyi arzu edir.

14. Təhlil edilən cinayətin **subyekti xüsusidir**. Bu, qiymətli kağızların emitenti olan təşkilatın rəhbəri, habelə qiymətli kağızların emissiya prospektinin tərtibi, emissiya prospektinin təsdiqi və ya onun nəticələrinin təsdiqi üzrə səlahiyyətlərə malik digər vəzifəli şəxslər ola bilər.

15. CM-in 203.2-ci maddəsi qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozmanın **ağırlaşdırıcı tərkib əlamətini** — eyni əməllər nəticəsində külli miqdarda ziyan vurulmasını nəzərdə tutmuşdur. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən burada **külli miqdar** yüz min manatdan artıq məbləğə bərabərdir.

Maddə 203-1. Qiymətli kağızlar bazarında manipulyasiyalar

203-1.1. Qiymətli kağızlar bazarında manipulyasiyalar külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə müəyyən vəzifə

tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

203-1.2. Eyni əməllər:

203-1.2.1. təkrar törədildikdə;

203-1.2.2. müteşəkkil dəstə tərəfindən törədildikdə —

203-1.2.3. - 11 noyabr 2016-cı il tarixli, 386-VQD nömrəli Qanunla 203-1.2.3-cü maddə ləğv edilmişdir («Azərbaycan» q., 30 dekabr 2016-cı il).

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 203-1.1-ci maddəsində «manipulyasiyalar» dedikdə «Qiymətli kağızlar bazarı haqqında» Azərbaycan Respublikası Qanununun 78.4-cü maddəsində nəzərdə tutulmuş hərəkətlər başa düşülür *(Azərbaycan Respublikasının 5 mart 2010-cu il tarixli Qanunu ilə əlavə edilmiş, 31 may 2011-ci il, 7 mart 2012-ci il, 6 may 2016-cı il 11 noyabr 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 21 mart 2010-cu il; 2 iyul 2011-ci il; 16 mart 2012-ci il; 25 may 2016-cı il; 30 dekabr 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** qiymətli kağızların dövriyyəsi ilə əlaqədar yaranan iqtisadi münasibətlərdir. **Əlavə obyekt** qismində qiymətli kağızlar bazarının ayrı-ayrı iştirakçılarının, qiymətli kağız mülkiyyətçilərinin (sahiblərinin), habelə qiymətli kağızlarla bağlı digər subyektlərin əmlak mənafeləri çıxış edə bilər.

Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** onun törədilməsi nəticəsində qiymətli kağızlar bazarının sabitliyinin pozula bilməsində, ayrı-ayrı fiziki və hüquqi şəxslərə maddi-iqtisadi ziyan vurulmasında, ölkədəki investisiya mühitinin pisləşməsində, bu əməl nəticəsində əldə olunan gəlirlərin gizli iqtisadiyyata, cinayətkarlığın (o cümlədən terrorçuluğun) maliyyələşdirilməsinə yönəldilə bilməsində ifadə olunur.

2. CM-in 203-1.1-ci maddəsinin dispozisiyası təhlil edilən cinayətin **obyektiv cəhəti:** 1) qiymətli kağızlar bazarında manipulyasiyalardan (qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən əməllərdən, yəni qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış və qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsindən və s.) ibarət olan əməllərdən; 2) belə əməllər nəticəsində külli miqdarda ziyan vurulmasından və ya külli miqdarda gəlir əldə edilməsindən; 3) törədilmiş əməllə baş vermiş nəticə arasında səbəbli əlaqədən təşkil olunmuşdur.

3. Şərh edilən cinayət tərkibini yaradan ictimai təhlükəli əməl, normanın adından da göründüyü kimi, qiymətli kağızlar bazarında manipulyasiyanı ehtiva edir. Sözün hərfi mənasında **manipulyasiya** latın dilində «əl işi», «əllə edilən iş» mənasını verir və bir qədər məcazi mənada «ələ alma», «süni olaraq dəyişdirmə» kimi başa düşülür. Qiymətli kağızlar bazarında manipulyasiya isə

müəyyən məqsədə nail olmaq üçün qiymətli kağızların qiymətinin süni olaraq dəyişdirilməsini ehtiva edir.

Şərh olunan maddənin «Qeyd»inə görə «Qiymətli kağızlar bazarı haqqında» 15 may 2015-ci il tarixli Qanunun 78.4-cü maddəsinə əsasən qiymətli kağızlar bazarında manipulyasiyalara aşağıdakılar aid edilir: 1) qiymətli kağızların və törəmə maliyyə alətlərinin qiymətinə və ya onlara olan tələb və təklifə dair yanlış və ya aldadıcı məlumatlar verən və ya verə bilən əqdlər bağlanması və ya tapşırıqlar (sifarişlər) verilməsi; 2) əqdlər bağlanması və ya əqdlər bağlanması üçün tapşırıq verilməsi vasitəsilə bir və ya birgə hərəkət edən bir neçə şəxs tərəfindən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin qiymətinin süni səviyyədə saxlanılması və dəyişdirilməsi; 3) saxta vasitələrdən istifadə etməklə, yaxud qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə saxtakarlıqla müşayiət olunan əqdlərin bağlanması və ya belə əqdlərin bağlanması üçün tapşırıq verilməsi; 4) kütləvi informasiya və ya hər hansı digər vasitələrlə qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə dair yanlış və yayındırıcı təsəvvür yaradan və ya yarada biləcək xəbərlərin, şayiələrin və digər məlumatın yayılması.

Təkcə birja iştirakçıları deyil, qiymətli kağızlar bazarının digər iştirakçıları tərəfindən də törədilmiş belə əməllər müvafiq tərkib əlamətləri olduqda CM-in şərh olunan maddəsi üzrə məsuliyyətə səbəb olacaqdır.

Şəhr olunan normada **qiymətli kağızlar bazarı** dedikdə «Qiymətli kağızlar bazarı haqqında» 15 may 2015-ci il tarixli Qanunun 1.0.11-ci maddəsinə əsasən qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu başa düşülür.

Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiya müxtəlif formalarda təzahür edə bilər. Şəxs qiymətli kağızlar bazarında aşağıdakı hallarda qiymətlərlə manipulyasiya etmiş hesab edilir:

- başqa şəxslərin bir emitent tərəfindən buraxılmış qiymətli kağızların alınmasına, satılmasına və ya almaqdan və ya satmaqdan imtina etməsinə təhrik edilməsi məqsədini güdməklə, həmin qiymətli kağızların qiymətini süni surətdə artırdıqda və ya aşağı saldıqda, həmçinin süni sürətdə artmasına və ya düşməsinə səbəb olan əməliyyatlar həyata keçirdikdə;
- qiymətli kağızlara mülkiyyət hüququnun real keçməsini nəzərdə tutmayan alqı-satqı əqdlərini bağladıqda;
- qiymətli kağızların qiymətinə təsir etmək məqsədi ilə yanlış məlumatı açdıqda.

4. Şərh olunan maddədə nəzərdə tutulmuş cinayət **maddi tərkiblidir**. Bu cinayətin **başa çatması üçün** qiymətli kağızların qiymətləri ilə manipulyasiya nəticəsində külli miqdarda gəlir əldə edilməsi zəruridir.

Təhlil olunan normada **ziyan vurulması** dedikdə manipulyasiya nəticəsində qiymətli kağızlar bazarı iştirakçılarının (və ya konkret iştirakçısının), habelə müxtəlif qiymətli kağızların mülkiyyətçilərinin (sahiblərinin), bu kağızların dövriyyəsindən gəlir əldə edən başqa şəxslərin məruz qaldığı maddi itkilər başa

düşülməlidir. Ziyan qiymətli kağızın dəyərdən düşməsində, iştirakçının müflis olması ilə qiymətli kağızlara qoyulmuş sərmayənin batmasında və s. ifadə oluna bilər.

Əməl nəticəsində bir neçə subyektə ziyan dəyərsə, külli miqdarda ziyanın hesablanması zamanı həmin subyektlərə dəymiş ziyanın məbləği cəmlənməlidir. Ziyanın miqdarı hesablanarkən əldən çıxmış fayda nəzərə alına bilməz.

5. Şərh olunan normada **gəlir əldə etmə** dedikdə bu əməlin törədilməsində iştirakı olan şəxsin (şəxslərin) və ya digər şəxslərin manipulyasiyanın nəticəsində real maddi fayda (gəlir) əldə etməsi başa düşüləcəkdir. Lakin nəzərə almaq lazımdır ki, təqsirkarın (təqsirkarların) deyil, digər şəxslərin gəlir əldə etdiyi halda həmin şəxslərin gəlir əldə etməsi də təqsirkarın iradəsi ilə əhatə olunmalıdır. Başqa sözlə, bu əməl nəticəsində təqsirkarın iradəsindən kənar digər (təsadüfi) şəxsin əldə etdiyi gəlir əməlin tövsifi zamanı nəzərə alına bilməz.

Gəlirin miqdarını müəyyən edərkən bütün təqsirkarların, habelə onların iradəsi əhatəsində gəlir əldə etmiş digər şəxslərin əldə etdikləri gəlirlər cəmlənəcəkdir.

6. CM-in 203-1-ci maddəsi üzrə məsuliyyətin yaranması üçün vurulmuş ziyanın və ya əldə edilmiş gəlirin miqdarı külli miqdarda, yəni CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən **yüz min manatdan artıq** olmalıdır.

Nəzərdən keçirilən cinayətin mövcud olması üçün törədilmiş əməllə baş vermiş nəticə arasında **səbəbli əlaqə** olmalıdır, yəni zərərçəkmişə dəymiş ziyan, yaxud əldə olunmuş gəlir məhz bu əməlin nəticəsi kimi çıxış etməlidir.

7. Şərh olunan cinayətin **subyektiv cəhəti** təqsirin **qəsd** formasını (həm dolayı, həm də birbaşa) nəzərdə tutur. Motiv və məqsəd əməlin bu norma ilə tövsifi üçün heç bir əhəmiyyət daşımır.

8. Təhlil edilən cinayətin **subyekti xüsusidir**. Bu qisimdə **qiymətli kağızlar bazarının iştirakçıları** çıxış edəcəkdir. Qiymətli kağızlar bazarının iştirakçıları qiymətli kağızların emissiyasında, tədavülündə, ödənilməsində, sahibliyində, saxlanılmasında, qiymətli kağızlarla əməliyyatların aparılmasında subyekt və ya tərəf kimi çıxış edən şəxslər, habelə qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən dövlət və qeyri-kommersiya təşkilatları olan qiymətli kağızlar bazarının iştirakçılarının özünü tənzimləyən təşkilatlarıdır.

Qiymətli kağızlar bazarının manipulyasiya etmiş iştirakçısı hüquqi şəxs olduqda cinayət məsuliyyətinə bu hüquqi şəxsin manipulyasiya ilə bağlı razılaşmada iştirak etmiş konkret əməkdaşı cəlb ediləcəkdir.

9. CM-in 203-1.2-ci maddəsində bu cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** göstərilmişdir: a) təkrar törədilmə; b) mütəşəkkil dəstə tərəfindən törədilmə.

Bu normada **təkrar törədilmə** dedikdə CM-in 203-1.1-ci və ya 203-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinə görə məhkum olunmamış və ya cinayət məsuliyyətindən azad edilməmiş şəxsin həmin əməlləri yenidən törətməsi başa düşülür. Təhlil edilən əməllərin vahid kriminal niyyətlə əhatə olunan bir neçə epizodda törədilməsi təkrarlıq hesab edilə bilməz.

Əməlin **mütəşəkkil dəstə** tərəfindən törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsində verilmişdir.

Maddə 204. Saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma

204.1. Satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma —

beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

204.2. Eyni əməllər xeyli miqdarda törədildikdə —

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

204.3. Bu Məcəllənin 204.1 və ya 204.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

204.3.1. müteşəkkil dəstə tərəfindən törədildikdə;

204.3.2. külli miqdarda törədildikdə —

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2007-ci il, 7 mart 2012-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 13 iyun 2007-ci il; 16 mart 2012-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in 204-cü maddəsində nəzərdə tutulmuş cinayət ən qədim tarixə malik olan və iqtisadi sistem üçün yüksək təhlükəliliyi ilə fərqlənən kriminal əməllərdən biridir.

2. Təhlil edilən cinayətin **obyekti** Azərbaycan Respublikasının maliyyə-pul sisteminin mövcudluğunu və normal fəaliyyətini təmin edən ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində dövlətin iqtisadi mənafeləri çıxış edə bilər.

3. Saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satmanın **ictimai təhlükəliliyi** bu əməllər nəticəsində qeyri-qanuni tədavülə buraxılan saxta pul və ya qiymətli kağızların ölkənin maliyyə-pul sistemini ciddi təhlükə altında qoymasından ibarətdir. Saxta ödəniş vasitələrinin tədavüldə olması nəticəsində bazar münasibətlərinin müxtəlif subyektlərinin iqtisadi mənafelərinə mühüm ziyan vurula bilər. Ona görə də şərh edilən cinayətin nəzərdə tutulmasından məqsəd həm ölkəmizin milli valyutasının, xarici valyutanın və müxtəlif qiymətli kağızların cinayətkar qəsdlərdən qorunması, həm də bazar münasibətləri iştirakçılarının mənafelərinin saxta ödəniş vasitələri ilə vurula biləcək ziyandan mühafizə olunmasıdır.

Şərh edilən cinayət tərkibində göstərilən əməllərlə mübarizə beynəlxalq əhəmiyyətə malikdir. Bu, pul nişanlarının saxtalaşdırılması ilə mübarizə üzrə 20 aprel 1929-cu il tarixli Beynəlxalq Konvensiyada da öz əksini tapmışdır. Məhz bu səbəbdən xarici valyuta və ya xarici valyutada ifadə olunmuş qiymətli kağızlar barəsində də həmin əməllərin törədilməsinə görə CM-in 204-cü maddəsi ilə məsuliyyət nəzərdə tutulmuşdur.

4. CM-in 204-cü maddəsində nəzərdə tutulmuş cinayət əməlinin predmeti saxta milli valyuta, saxta qiymətli dövlət kağızları, saxta xarici valyuta və xarici valyutada ifadə olunan saxta qiymətli kağızlardır.

5. Azərbaycan Respublikasının **milli valyutası manatdır**. Milli valyutanın emissiyası Azərbaycan Respublikasının Mərkəzi Bankının müstəsna səlahiyyətidir («Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli Qanununun 27-ci maddəsi).

6. **Qiymətli kağız** MM-in 987-ci maddəsinə əsasən müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər.

Qiymətli kağızlara orderlər, veksellər, çeklər, istiqrazlar, səhmlər, əmtəə kağızları, depozit sertifikatı, ipoteka kağızı, opsion, fyuçers, girov kağızı, mənzil sertifikatı aiddir (MM-in 997.1-ci maddəsi). Lakin CM-in 204.1-ci maddəsinin dispozisiyasına əsasən yalnız dövlət qiymətli kağızlarının saxtalaşdırılması və ya belə saxta qiymətli kağızların satılması təhlil edilən cinayət tərkibini yarada bilər.

Dövlət qiymətli kağızları dedikdə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası) və müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı tərəfindən buraxılan qiymətli kağızlar, bələdiyyə qiymətli kağızları dedikdə isə bələdiyyə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada buraxılan qiymətli kağızlar başa düşülməlidir (MM-in 997-1-ci maddəsi).

7. «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli Qanununun 1-ci maddəsinin 3-cü bəndinə əsasən **xarici valyuta** müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları, habelə xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlərdir.

8. **Xarici valyutada ifadə olunmuş qiymətli kağızlar** dedikdə istənilən xarici dövlətin pul vahidində ifadə olunmuş ödəniş sənədləri (çeklər, veksellər və s.), habelə fond dəyərləri (səhmlər, istiqrazlar və s.) başa düşülür.

9. Şərh edilən cinayət **obyektiv cəhətdən** iki alternativ əməldən ibarətdir: 1) satış məqsədi ilə CM-in 204.1-ci maddəsində sadalanan saxta ödəniş vasitələrini hazırlama; 2) həmin saxta ödəniş vasitələrini satma.

10. **Saxta ödəniş vasitələrini hazırlama** pulun, qiymətli dövlət kağızlarının, xarici valyutanın, yaxud xarici valyutada ifadə olunmuş qiymətli kağızların qismən saxtalaşdırılmasında və ya onların bütövlükdə saxta yolla hazırlanmasında ifadə oluna bilər. Qismən saxtalaşdırma mövcud olan qanuni pul nişanının və ya qiymətli kağızın məzmununun (çox vaxt nominal dəyərinin) dəyişdirilməsində, həmin sənədlərə əlavə qeydlər olunmasında təzahür edir (məsələn, 10-luq əskinasın 100-lük əskinasa çevrilməsi). Tam saxta pul və ya qiymətli kağız hazırlama isə qanuni ödəniş vasitəsi ilə rənginə, formasına və başqa əlamətlərinə görə oxşar olan saxta pul və ya qiymətli kağız hazırlamada ifadə olunur. Belə hazırlama müxtəlif üsullarla həyata keçirilə bilər (şəklini çəkməklə, texniki vasitələrdən istifadə etməklə və s.).

Əməlin təhlil edilən tərkib üzrə tövsif edilməsi üçün saxta ödəniş vasitəsinin qanuni ödəniş vasitəsinə **oxşar olması** lazımdır. Açıq-aşkar hiss olunan ko-

bud saxtalaşdırma bu cinayət tərkibini yarada bilməz. Belə halda əməl, müvafiq əlamətlər olduqda, dələduzluq (CM-in 178-ci maddəsi) və ya dələduzluğa hazırlıq kimi tövsif edilə bilər.

11. Satış məqsədi ilə saxta pulu, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları **əldə etmə** dedikdə cinayətin sadalanan predmetlərinin satın alınması, başqa əmlakla və əşya ilə dəyişdirilməsi, borc və ya bəxşiş kimi alınması, borc əvəzinə ödənilməsi və ya hər hansı digər üsulla onlara yiyələnmə və s. hərəkətlər başa düşülməlidir.

12. CM-in 204.1-ci maddəsində sadalanan **saxta ödəniş vasitələrini satma** dedikdə həmin ödəniş vasitələrindən istifadə etməklə maliyyə əməliyyatları keçirilməsi, onlardan konkret əqdlərdə ödəniş vasitəsi kimi istifadə edilməsi, onların dəyişdirilməsi və ümumiyyətlə, istənilən formada əvəzli və ya əvəzsiz olaraq özgəninkiləşdirilməsi başa düşülməlidir.

Saxta ödəniş vasitələri həm onları hazırlayan şəxslər tərəfindən, həm də onu müxtəlif yolla əldə etmiş şəxslər tərəfindən satıldıqda təhlil edilən cinayət tərkibi yaranır.

13. Şərh edilən cinayət **formal tərkib** vasitəsi ilə ifadə edilmişdir. Heç olmazsa bir nüsxə saxta pul, qiymətli dövlət kağızı, xarici valyuta və ya xarici valyutada ifadə olunmuş qiymətli kağız hazırlandığı andan, yaxud belə ödəniş vasitələrindən heç olmazsa bir nüsxə satıldığı və ya onlardan heç olmazsa bir dəfə ödəniş vasitəsi kimi istifadə olunduğu andan cinayət **başa çatmış** hesab edilir.

14. Cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar saxta ödəniş vasitəsini hazırladığını, əldə etdiyini və ya onu satdığını dərk edir və bunu etməyi arzu edir. Saxta ödəniş vasitələrini hazırlamanın subyektiv cəhətinin daha bir zəruri əlaməti **satış məqsədinin** olmasıdır.

15. Cinayətin **subyekti 16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

16. CM-in 204.2-ci maddəsində saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satmanın **ağırlaşdırıcı tərkib əlamətləri** — həmin əməllərin xeyli miqdarda törədilməsi nəzərdə tutulmuşdur.

CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən **xeyli miqdar** dedikdə hazırlanan və ya satılan saxta pulun və ya qiymətli kağızların məbləğinin iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləği başa düşülür.

17. CM-in 204.3-cü maddəsi təhlil edilən cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində bu əməllərin mütəşəkkil dəstə tərəfindən törədilməsini, habelə həmin əməllərin külli miqdarda törədilməsini nəzərdə tutmuşdur.

Cinayətin **mütəşəkkil dəstə** tərəfindən törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsində verilmişdir.

Saxta pul və ya qiymətli kağızın məbləği **yüz min manatdan artıq olduqda külli miqdar** əlaməti mövcud olacaqdır (CM-in 190-cı maddəsinin qeydi).

Maddə 205. Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama, əldə etmə və ya satma

205.1. Qiymətli kağız sayılmayan saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini satış məqsədi ilə hazırlama, habelə əldə etmə və ya satma —

iki min manatdan dörd min manatadək miqdarda cərimə olunmaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

205.2. Eyni əməllər:

205.2.1. təkrar törədildikdə;

205.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

205.2.3. külli miqdarda törədildikdə —

dörd ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2007-ci il, 16 may 2008-ci il, 7 mart 2012-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 13 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 16 mart 2012-ci il; 25 may 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Təhlil edilən cinayət tərkibi Respublikamızın cinayət qanunu üçün yenidir. Bu tərkibin nəzərdə tutulması zərurəti ölkəmizdə təşəkkül tapmaqda olan bazar iqtisadiyyatına müvafiq yeni tipli ödəniş vasitələrinin meydana gəlməsi ilə əlaqədar yaranan maliyyə-kredit münasibətlərini kriminal qəsdlərdən qorumaqla bağlıdır.

2. CM-in 205-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** dövlətin maliyyə-kredit sisteminin normal fəaliyyətini təmin edən ictimai münasibətlərdir.

3. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, təhlil edilən əməllərin törədilməsi nəticəsində mülki dövriyyə iştirakçısı olan fiziki və hüquqi şəxslərin əmlak mənafelərinə mühüm ziyan vurulması təhlükəsi yaranır. Digər tərəfdən, nağdsız ödəniş vasitələrinin saxtalaşdırılması və dövriyyəyə buraxılması kriminal ünsürlərin əlində «çirkli» maliyyə vəsaitlərinin cəmlənməsinə və beləliklə də, ölkənin iqtisadi sisteminə dağıdıcı təsir göstərilməsinə səbəb olur.

4. CM-in 205-ci maddəsində nəzərdə tutulmuş cinayətin **predmeti** qiymətli kağız hesab edilməyən saxta kredit və ya hesab kartları və ya başqa ödəniş sənədləridir.

5. **Kredit və ya hesab kartı** bankda hesabı olan hüquqi və fiziki şəxslərə verilən və onlara əmtəələrin, işlərin və xidmətlərin əvəzini kreditlə ödəməyə imkan verən adlı ödəniş sənədləridir. Belə sənədlər qiymətli kağız hesab edilmir və konkret sahibin adına fərdi qaydada verilir.

6. Təhlil edilən maddədə nəzərdə tutulmuş mənada **başqa ödəniş sənədləri** dedikdə özündə pulla ifadə olunmuş müəyyən məbləği ödəmək öhdəliyini və ya tapşırığını əks etdirən sənəd başa düşülür. Belə sənədlərə misal olaraq akkreditivləri, ödəmə sənədlərini, bank qaydaları və mülki dövriyyənin işgüzar adətləri ilə nəzərdə tutulmuş digər sənədləri göstərmək olar. Həmin sənədlər də qiymətli kağızlar deyildir və fərdi xarakterli olur.

7. Şərh edilən cinayətin **obyektiv cəhəti** iki alternativ əməldən ibarətdir: qiymətli kağız sayılmayan saxta kredit və ya hesab kartlarını və ya ödəniş sənədlərini satış məqsədi ilə hazırlama; onları əldə etmə; belə kredit və ya hesab kartlarını və ya ödəniş sənədlərini satma.

8. Saxta ödəniş sənədlərini **hazırlama, əldə etmə** və **satmanın** izahı CM-in 204-cü maddəsinin şərhinin 10-12-ci bəndlərində verilmişdir.

9. Təhlil edilən cinayət də **formal tərkib** vasitəsi ilə ifadə olunmuşdur. Heç olmazsa, bir saxta ödəniş vasitəsinin hazırlandığı və ya satıldığı andan cinayət başa çatmış hesab edilir.

10. Cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Təqsirkar qiymətli kağız hesab edilməyən saxta ödəniş vasitələri hazırladığını, əldə etdiyini və ya satdığını dərk edir və bunu etməyi arzu edir. Saxta ödəniş vasitələrinin hazırlanmasının subyektiv cəhətinin zəruri əlamətlərindən biri də xüsusi məqsədin — **satış məqsədinin** olmasıdır.

11. Cinayətin **subyekti 16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

12. CM-in 205.2-ci maddəsində saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş vasitələrini hazırlama, əldə etmə və ya satmanın aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** göstərilmişdir: a) həmin əməllərin təkrar törədilməsi; b) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; c) külli miqdarda törədilməsi.

Cinayətin **təkrar** törədilməsinin anlayışı CM-in 16-cı maddəsində, cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə** tərəfindən törədilməsinin anlayışları isə müvafiq olaraq CM-in 34.2-ci və 34.3-cü maddələrində verilmişdir.

Şərh edilən maddədə **külli miqdar** dedikdə hazırlanmış, əldə edilmiş və ya satılmış saxta ödəniş vasitələrinin yüz min manatdan artıq olan məbləğdə olması başa düşülür (CM-in 190-cı maddəsinin «Qeyd»i).

Maddə 205-1. Saxta aksiz markalarının dövriyyəsi

Saxta aksiz markalarını hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama, fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədi ilə əldə etmə istisna olmaqla, saxta aksiz markaları ilə markalanmış məhsulları (malları) əldə etmə, saxlama və ya satma —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Saxta aksiz markası ilə markalanmış məhsulları (malları) əldə edən, saxlayan və ya satan şəxs həmin məhsulların (malların) digər şəxsdən alınmasını təsdiq edən ciddi hesabat blankı, elektron qaimə-faktura təqdim etdikdə cinayət məsuliyyətinə cəlb olunmur *(Azərbaycan Respublikasının 31 may 2007-ci il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il tarixli Qanunu ilə düzəliş edilmiş, 20 oktyabr 2015-ci il tarixli, 1388-IVQD nömrəli Qanunla yeni redaksiyada verilmiş, 31 may 2017-ci il tarixli Qanunu ilə düzəliş edilmişdir - «Azərbaycan» q., 13 iyun 2007-ci il: 7 iyun 2008-ci il; 9 dekabr 2015-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh edilən cinayətin **obyekti** və **ictimai təhlükəliliyi** barədə CM-in 213-1-ci maddəsinin şərhinə bax.

2. CM-in 205-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **predmeti** saxta

aksiz markaları və aksiz markası ilə markalanmalı olan məhsullardır (mallardır). Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları»nın 2-ci bəndinə görə **aksiz markaları ilə markalanmalı olan mallara** içməli spirt, spirtli içkilərin bütün növləri, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər, tütün məmulatları aiddir.

Aksiz markaları aksizli malların bəzi növlərinə tətbiq edilir (daha ətraflı CM-in 213-1-ci maddəsinin şərhinə bax).

Aksiz markalarının hazırlanmasının, satışının, uçotunun, onlardan istifadənin, onların dövriyyəsinə nəzarətin qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 mart 1999-cu il tarixli, 33 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası ərazisində etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatının Satış qaydaları», 8 yanvar 2001-ci il tarixli, 10 nömrəli Qərarı ilə təsdiq edilmiş «Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydaları» ilə, Azərbaycan Respublikası Maliyyə nazirinin 11 sentyabr 1999-cu il tarixli əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası ərazisində istehsal olunan və ölkə ərazisinə idxal olunan alkoqollu içkilərə, etil (yeyinti) spirtinə və tütün məmulatına aksiz markalarının tətbiq edilməsi haqqında» Təlimatla müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yuxarıda adı çəkilən Qərarının 3-cü bəndinə əsasən aksiz markalarının hazırlanmasını və satışını Azərbaycan Respublikası Maliyyə Nazirliyi həyata keçirir.

Azərbaycan Respublikası Maliyyə nazirinin 11 sentyabr 1999-cu il tarixli əmri ilə təsdiq edilmiş Təlimatın 1.9-cu bəndinə müvafiq olaraq, aksiz markalarının hazırlanması Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən müvafiq poliqrafiya müəssisələrində sifariş olunur.

Azərbaycan Respublikası Maliyyə nazirinin 11 sentyabr 1999-cu il tarixli əmri ilə təsdiq edilmiş Təlimatın 2.4-cü bəndinə uyğun olaraq, aksiz markalarını markalanmalı məhsulların istehsalçıları və idxalçıları, həmin məhsulları müsadirə etmiş müvafiq orqanlar Maliyyə Nazirliyindən ala bilərlər. Adı çəkilən Təlimatın 1.8-ci bəndinə müvafiq olaraq, alınmış aksiz markalarının digər şəxslərə verilməsinə, satılmasına və onların surətlərinin çıxarılmasına yol verilmir. İstifadə olunmamış aksiz markaları Maliyyə Nazirliyinə qaytarılmalıdır. Həmin Təlimatın 2.1-ci bəndinə əsasən Maliyyə Nazirliyi tərəfindən aksiz markalarının uçotu və saxlanılması ciddi hesabat blankları üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Deməli, **saxta aksiz markası** dedikdə yuxarıda adı çəkilən normativ aktlarla müəyyən edilmiş qaydalardan kənar hazırlanmış və ya sonradan saxtalaşdırılmış markalar başa düşülməlidir. Başqa sözlə, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sifarişindən kənar hazırlanmış istənilən aksiz markası şərh edilən cinayətin predmeti olacaqdır. Belə aksiz markaları Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sifariş verdiyi poliqrafiya müəssisəsində həmin sifarişdən kənar hazırlandıqda da saxta olacaqdır.

3. Şərh edilən cinayət tərkibinin **obyektiv cəhəti** saxta aksiz markaları ha-

zırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama, saxta aksiz markaları ilə markalanmış məhsulları (malları) əldə etmə, saxlama və ya satma kimi alternativ hərəkətləri nəzərdə tutur.

Saxta aksiz markası hazırlama müxtəlif üsullarla (kustar üsulla, poliqrafiya avadanlığının, printerlərin və s. köməyi ilə, rəsmini çəkməklə və s.) belə markaların hazırlanmasında, habelə mövcud aksiz markalarının (artıq istifadə olunmuş, istifadədən çıxarılmış və s.) saxtalaşdırılmasında (o cümlədən surətini çıxarmaqla) ifadə oluna bilər. Mövcud markaları saxtalaşdırma onların təyinatını, seriyasını, sıra nömrəsini dəyişdirməklə həyata keçirilə bilər.

Saxta hazırlanmış və ya saxtalaşdırılmış aksiz markası açıq-aşkar aksiz markasına oxşamadıqda CM-in 205-1-ci maddəsi üzrə cinayət məsuliyyəti istisna edilməlidir.

Şəxs saxta aksiz markalarının hazırlanmasını başqasına sifariş verdikdə (məsələn, poliqrafiya müəssisəsinə) onların hər ikisinin əməli hazırlama kimi, lakin birgə iştirakçılıqda rolları nəzərə alınmaqla tövsif ediləcəkdir.

Saxta aksiz markalarını əldə etmə dedikdə həmin markaları istənilən üsulla (bilavasitə, poçtla, vasitəçinin köməyi ilə və s.) əvəzli və ya əvəzsiz olaraq başqasından alma, bəxşiş kimi qəbul etmə, başqa mallara və ya xidmətlərə dəyişməklə əldə etmə, sahibsiz atıldığı yerdən götürərək mənimsəmə və istənilən başqa üsulla onlara yiyələnmə başa düşülməlidir.

Saxta aksiz markalarını saxlama dedikdə məqsədindən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla həmin markaların saxlanmasına yönəldilmiş bütün hərəkətlər başa düşülür. Başqa sözlə, bu, saxlamanın yerindən və müddətindən asılı olmayaraq, saxta aksiz markalarına qanunsuz surətdə faktiki malik olma deməkdir. Təqsirli şəxsin saxta aksiz markalarını öz ixtiyarında (məsələn, üstündə, gizli saxlanc yerlərində, binalarda və s.) saxlaması ilə əlaqədar olan hər hansı qəsdən edilən hərəkətləri saxlama kimi başa düşülməlidir.

Saxta aksiz markalarını satma onların əvəzli və ya əvəzsiz olaraq istənilən üsulla (alqı-satqı, bağışlama, dəyişmə və s.) başqasına verilməsi (özgəninkiləşdirilməsi) kimi başa düşülməlidir. Saxta aksiz markasını konkret məhsula (mala) tətbiq edərək həmin malı satma da saxta aksiz markasını satma hesab edilməlidir.

Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama dedikdə həmin məhsulların (malların) üzərinə saxta «etil (yeyinti) spirtli», «alkoqollu içkilər», «pivə», «tütün məmulatı» aksiz markalarının yapışdırılması başa düşülür.

Saxta aksiz markaları ilə markalanmış məhsulları (malları) əldə etmə, saxlama və ya satma (fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədi ilə əldə etmə istisna olmaqla) hərəkətlərinin izahı bu maddənin şərhinin 3-cü bəndində verilmişdir.

4. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş əməl **formal tərkib** vasitəsilə ifadə olunmuşdur. Ona görə də saxta aksiz markası hazırlandığı, əldə edildiyi, saxlandığı, satıldığı və ya aksiz markası ilə markalanmalı olan məhsulların (malların) saxta aksiz markaları ilə markalandığı, habelə saxta aksiz markaları ilə markalanmış məhsulların (malların) əldə edildiyi, saxlandığı, satıldığı andan cinayət **başa çatmış** olacaqdır. Saxta aksiz markasından **istifadə edilib-edilməməsinin** (konkret mala tətbiq edilib-edilməməsinin) əməlin bu maddə üzrə tövsifi üçün heç bir əhəmiyyəti yoxdur. Saxta aksiz markası ilə markalanmış məhsul (mal) aksiz markası ilə markalanmamış məhsul (mal) hesab edildiyinə görə şəxs hazırladığı və ya əldə etdiyi saxta aksiz markasını tətbiq edərək konkret məhsulu (malı) satarsa, satış məqsədi ilə saxlayarsa, istehsal binasının hüdudlarından kənara çıxararsa və ya idxal edərsə, müvafiq əlamətlər olduqda onun əməli cinayətlərin məcmusu qaydasında CM-in 205-1-ci və 213-1-ci maddələri üzrə tövsif olunacaqdır (CM-in 213-1-ci maddəsinin şərhinə bax).

Nəzərə almaq lazımdır ki, təhlil edilən normanın məzmununa əsasən hətta bir ədəd saxta aksiz markasının satış məqsədilə hazırlanması, habelə əldə edilməsi və ya satılması CM-in 205-1-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olur. Lakin fikrimizcə, belə yanaşma çox sərtdir və yaxşı olardı ki, bu cinayətin predmeti müəyyən kəmiyyətlə (məsələn, həmin markaların tətbiq edildiyi (ediləcəyi) malın dəyəri ilə) məhdudlaşdırılsın və həmin miqdardan aşağı saxta aksiz markaları ilə bağlı hərəkətlərə görə inzibati məsuliyyət müəyyən edilsin. Məhkəmə təcrübəsində isə bu əməlin bir neçə (çox az sayda) aksiz markası barəsində törədildiyi halda CM-in 14.2-ci maddəsi tətbiq edilə bilər.

5. CM-in şərh olunan maddəsinin dispozisiyasında alternativ əməllər göstərilmişdir. Eyni bir şəxsin həmin əməllərdən bir neçəsini vahid niyyətlə və ya eyni aksiz markaları (eyni partiyadan olan aksiz markaları) barəsində törətməsi vahid cinayət kimi tövsif ediləcəkdir və bu zaman cinayətlərin çoxluğundan söhbət gedə bilməz.

6. CM-in 205-1-ci maddəsində nəzərdə tutulan əməl təqsirin yalnız **birbaşa qəsd** forması ilə törədilə bilər. Məqsəd bu cinayət tərkibinin yaranması üçün zəruri əlamət deyildir.

7. Təhlil edilən cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər. Bu əməllər hüquqi şəxs tərəfindən (məsələn, poliqrafiya müəssisəsi) törədildikdə, həmin hüquqi şəxsin müvafiq məsul şəxsləri (rəhbəri, sex rəisi və s.) məsuliyyətə cəlb ediləcəkdir.

Azərbaycan Respublikası Maliyyə nazirinin 11 sentyabr 1999-cu il tarixli əmri ilə təsdiq edilmiş Təlimatın 1.8-ci bəndi aksiz markalarının başqasına verilməsini qadağan edir. Lakin fiziki və ya hüquqi şəxs həmin qadağanı pozaraq qanuni əsaslarla ona satılmış (verilmiş) aksiz markalarını başqasına satarsa, onun və bu markaları alanın əməli şərh edilən maddə üzrə məsuliyyətə səbəb ola bilməz, çünki onun başqasına satdığı (verdiyi) aksiz markaları saxta deyildir. Bu halda söhbət yalnız maliyyə-vergi intizamının pozulmasından gedəcəkdir.

8. CM-in şərh olunan maddəsinin **qeydinə əsasən** saxta aksiz markası ilə markalanmış məhsulları (malları) əldə edən, saxlayan və ya satan şəxs həmin məhsulların (malların) digər şəxsdən alınmasını təsdiq edən ciddi hesabat blankı, elektron qaimə-faktura təqdim etdikdə cinayət məsuliyyətinə cəlb olunmur.

Maddə 205-2. Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı

205-2.1. Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşdursa —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

205-2.2. Eyni əməllər:

205-2.2.1. təkrar törədildikdə;

205-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

205-2.2.3. külli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 30 aprel 2013-cü il tarixli Qanunu ilə əlavə edilmiş, 6 may 2016-cı il tarixli Qanunla düzəlişlər edilmişdir — «Respublika» q., 21 may 2013-cü il; «Azərbaycan» q., 25 may 2016-cı il).*

1. CM-in şərh edilən maddəsində təsbit edilmiş cinayətin **obyekti** nəzarət markalarının tətbiq edilməsinə və nəzarət markalarının dövriyyəsinə nəzarətin həyata keçirilməsini, əqli mülkiyyətə hüquq sahiblərinin hüquqlarının təminatını və mənafelərinin qorunmasını təmin edən ictimai münasibətlərdir.

2. CM-in 205-2-ci maddəsində əks olunan cinayətin **predmeti** nəzarət markasıdır. Nəzarət markalarının qanuni dövriyyəsinin hüquqi tənzimi «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş «Nüsxələrinə nəzarət markası yapışdırılması nəzərdə tutulan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrinin aparılması Qaydaları» və s. normativ aktlarla həyata keçirilir.

Nəzarət markası audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinin müəlliflik hüququ və əlaqəli hüquqlara əməl edilməklə hazırlandığını (istehsal olunduğunu) təsdiq edən və həmin nüsxələri yaymaq hüququ verən, nüsxələrə yapışdırılan hərf-rəqəm kodu və holoqrafik müdafiə vasitəsi olan və birdəfəlik istifadə üçün nəzərdə tutulan vahid nümunəli xüsusi nişandır («Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun 1.0.13-cü maddəsi).

Audiovizual əsər müvafiq maddi daşıyıcıya yazılmış, bir-biri ilə əlaqəli olub hərəkət təsəvvürü doğuran və müvafiq texniki qurğuların köməyi ilə görmə (eşitmə) qavrayışı üçün nəzərdə tutulan təsvirlər silsiləsindən ibarət (səslə müşayiət olunan, yaxud olunmayan) kinematoqrafiya əsərləri və kinematoqrafiya vasitələrinə bənzər vasitələrlə ifadə edilmiş digər əsərlərdir (telefilmlər, videofilmlər, diafilmlər, slaydfilmlər, animasiya filmləri və sair).

Fonoqram ifaların və digər səslərin müvafiq maddi daşıyıcıya müstəsna olaraq səsli yazılmasıdır.

Kompyuter proqramı maşınla oxunan formada ifadə edilən və müəyyən məqsədə və ya nəticəyə nail olmaq üçün kompyuteri hərəkətə gətirən sözlər, kodlar, sxemlər və başqa şəkildə təlimatlar məcmusudur (kompyuter proqramı ilkin, yaxud obyekt kodlarında ifadə edilmiş həm əməliyyat sistemi, həm də tətbiqi proqramı ehatə edir).

Məlumat toplusu sistemli və ya metodik qaydada tərtib edilmiş və elektron, yaxud digər vasitələrlə əldə oluna bilən əsərlərin, verilənlərin və digər materialların müvafiq maddi daşıyıcıda təqdiminin obyektiv formasıdır.

Nəzarət markası almaq hüququ olan şəxslərin dairəsini, nəzarət markasının və onun verilməsi üçün ərizənin nümunələrini, bu ərizəyə baxılma müddətini, nəzarət markalarının verilməsi üçün tələb olunan sənədlərin siyahısını, nəzarət markalarını verməkdən imtinanın əsaslarını, onların vurulma yeri və üsulunu da nəzərdə tutan nəzarət markalarının verilməsi və onlardan istifadə qaydaları Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş «Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları» təsdiq edilir («Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun 13.2-ci maddəsi).

Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi tərəfindən verilən nəzarət markası yapışdırılmalıdır.

3. CM-in 205-2-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti:** 1) nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışında ifadə olunan əməllərdən; 2) sadalanan əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmasında ifadə olunan kriminal nəticələrdən; və 3) sadalanan əməllərlə vurulmuş ziyan arasında səbəbli əlaqədən ibarətdir.

Şərh olunan cinayətin obyektiv cəhətini yaradan əməllərə aiddir: a) nəzarət markalarının qəsdən məhv edilməsi; b) nəzarət markalarının qeyri-qanuni yolla hazırlanması; c) nəzarət markalarının qeyri-qanuni yolla istifadəsi; ç) nəzarət markalarının qeyri-qanuni yolla satışı.

4. **Nəzarət markalarının məhv edilməsi** dedikdə şəxsin elə qanunsuz hərəkətləri başa düşülür ki, həmin hərəkətlər nəzarət markalarının tamamilə sıradan çıxarılması (yandırılması, cırılması, xırda hissələrə parçalanması və s.) ilə və yaxud onların istifadə edilməsi üçün tam yararsız vəziyyətə gətirilməsi (markanın suya və digər mayenin içərisinə atılması və s.) başa düşülür.

5. **Nəzarət markalarının saxtalaşdırılması** dedikdə tamamilə saxta olan nəzarət markalarının hazırlanması, saxta olmayan nəzarət markalarının mətnində düzəlişlər edilməsi, hərf-rəqəm kodunun dəyişdirilməsi və s. kimi qanunsuz hərəkətlərin edilməsi yolu ilə onun təhrif edilməsi başa düşülür.

Nəzarət markalarının saxtalaşdırılmasının hansı məzmunda və formada edilməsindən asılı olmayaraq belə hərəkətlərin cinayətin tövsifi baxımından əhəmiyyəti yoxdur. Cinayət tərkibinin yaranması üçün saxtalaşdırma faktının

özü kifayətdir.

6. **Nəzarət markalarının qeyri-qanuni yolla hazırlanması** dedikdə nəzarət markalarının buna hüququ olmayan şəxs tərəfindən hazırlanması və ya buna hüququ olsa da, qanunvericiliklə müəyyən edilmiş qaydaya, formaya və ya məzmuna uyğun olmayan nəzarət markalarının hazırlanması başa düşülməlidir.

7. **Nəzarət markalarından qeyri-qanuni yolla istifadə etmə** dedikdə nəzarət markalarının Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi tərəfindən dövlət reyestrinə daxil edilmədən, habelə saxta nəzarət markalarının audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə yapışdırılması başa düşülür. «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun 15.4-cü maddəsinə görə nəzarət markalarının dövlət reyestri Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi tərəfindən həyata keçirilir. Reyestrə daxil edilməmiş nəzarət markalarından istifadə qanunsuz hesab edilir və xeyli miqdarda ziyan vurulduğu hallarda CM-in şərh olunan maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

«Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun 15.2-ci maddəsinə görə Azərbaycan Respublikası ərazisində kütləvi nümayiş (kinozal, videozal, video yayım məntəqələri, efir və kabel televiziyası) üçün nəzərdə tutulmuş audiovizual əsərlərin (filmlərin) nüsxələrinə nəzarət markaları həmin film «Kinematoqrafiya haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən qeydə alındıqdan və filmlərin dövlət reyestrinə daxil edildikdən sonra yapışdırılır. Deməli, kütləvi nümayiş (kinozal, videozal, video yayım məntəqələri, efir və kabel televiziyası) üçün nəzərdə tutulmuş audiovizual əsərlərin (filmlərin) nüsxələrinə nəzarət markalarının Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən qeydə alınmadan istifadəsi də qanunsuz sayılır və kriminal nəticə olduqda CM-in şərh olunan maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Ölkəyə idxal edilən müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə nəzarət markalarının yapışdırılması proseduru gömrük rəsmiləşdirilməsindən sonra həyata keçirilir («Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun 15.6-cı maddəsi). Deməli, bu halda gömrük rəsmiləşdirilməsi olmadan nəzarət markalarının yapışdırılması da onlardan qanunsuz istifadə kimi qiymətləndirilməli və CM-in 205-2-ci maddəsində göstərilən kriminal nəticə olduqda şərh olunan maddə ilə cinayət məsuliyyəti yaratmalıdır.

8. **Nəzarət markalarının qeyri-qanuni yolla satışı** dedikdə nəzarət markalarının digər şəxslərə (hüquqi və fiziki şəxslərə) təkcə əvəzli (pulla) deyil, həm də əvəzsiz əsaslarla (satmaqla, ödəmə vasitəsi kimi istifadə etməklə, dəyişməklə, bağışlamaqla və s.) verilməsi başa düşülməlidir. Satmanın üsullarının müxtəlifliyi cinayətin tövsifini dəyişmir. Nəzarət markalarının qeyri-qanuni yolla satışını həmin markaları hazırlayan, saxtalaşdıran şəxs, habelə başqa

şəxs həyata keçirə bilər.

9. Şərh olunan cinayət **maddi** tərkiblidir və CM-in 205-2-ci maddəsinin dispozisiyasında göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi və həmin hərəkətlərin xeyli miqdarda ziyan vurulmasına səbəb olduğu andan **başa çatmış** hesab olunur. Xeyli miqdarda ziyan dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür. Vurulmuş ziyan nəzarət markaları qanuni dövriyyədə olduğu halda dövlətin əldə edə biləcəyi maliyyə itkisində ifadə olunur. CM-in 205-2-ci maddəsinin dispozisiyasında göstərilən hərəkətlər ziyan vurulması ilə nəticələnmədikdə şəxsin əməli İXM-in 413-cü maddəsi ilə inzibati məsuliyyətə səbəb olur.

10. CM-in 205-2-ci maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs nəzarət markalarını qəsdən məhv etdiyini, saxtalaşdırdığını, qeyri-qanuni yolla hazırladığını, istifadə etdiyini və satdığını dərk edir, bu əməllərin xeyli miqdarda ziyan vurduğunu qabaqcadan görür və bunları arzu edir. Cinayət istənilən motivlə törədilə bilər, lakin bir qayda olaraq, bu cinayət tamah motivi ilə törədilir.

11. Şərh olunan cinayətin **subyekti** 16 yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

12. CM-in 205-2.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkibləri** nəzərdə tutulmuşdur: 1) cinayətin təkrar törədilməsi; 2) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; 3) külli miqdarda ziyan vurmaqla törədilməsi.

Təkrarlıq o halda mövcud olur ki, CM-in 205-2.1-ci maddəsində göstərilən əməli əvvəllər törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etmə müddəti keçmədiyi, cinayət məsuliyyətindən azad edilmədiyi, yaxud şəxsin məhkumluğu olmadığı hallarda yenidən həmin cinayəti törətmiş olsun. Əvvəllər CM-in 205-2.1-ci maddəsində göstərilən əməli törətmiş və buna görə məhkum edilmiş şəxsin məhkumluğu götürülməmiş və ya ödənilməmiş müddətdə yenidən həmin əməli törətdiyi hallarda **cinayətin residivi** yaranır. Bu halda əməli CM-in 205-2.1-ci maddəsində göstərilən cinayətin təkrarlığı kimi tövsif etmək olmaz. Cinayətin residivi CM-in 205-2.1-ci maddədə tərkib əlaməti kimi nəzərdə tutulmadığına görə əməlin tövsifi zamanı residivi cəzanı ağırlaşdıran hal qismində təsbit edən CM-in 61.1.1-ci maddəsinə istinad edilməlidir.

Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsinin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

CM-in 205-2.3-cü maddəsində **külli miqdar** dedikdə yüz min manatdan artıq olan məbləğ başa düşülür.

Maddə 206. Qaçaqmalçılıq

206.1. Qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla malların və digər əşyaların külli miqdarda keçirilməsi —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.2. Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi silahın və texnikanın (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), odlu silah və yaxud döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların və avadanlıqların, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammalın, mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.3. Bu Məcəllənin 206.1 və ya 206.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

206.3.1. təkrar törədildikdə;

206.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

206.3.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə;

206.3.4. gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədildikdə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.4. Bu Məcəllənin 206.1-206.3-cü maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 206.1-ci maddəsində «külli miqdar» dedikdə keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin dörd min manatdan yuxarı olan məbləğ başa düşülür.

2. Bu Məcəllənin 206.2-ci maddəsində «mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar» dedikdə Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlər başa düşülür *(Azərbaycan Respublikasının 16 may 2008-ci il tarixli, 7 mart 2012-ci il, 29 oktyabr 2013-cü il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 7 iyun 2008-ci il; 16 mart 2012-ci il; 30 noyabr 2013-cü il; 9 noyabr 2017-ci il).*

1. CM-in 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** dövlətin normal xarici-iqtisadi fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərdir.

Əlavə obyekt qismində gömrük nəzarətini həyata keçirən şəxslərin sağlamlığı çıxış edir.

2. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** cinayət tərkibinin obyektiv cəhətinə daxil olan əməllərin törədilməsi nəticəsində malların ölkəmizin gömrük sərhədindən keçirilməsinin müəyyən edilmiş qaydalarının və şərtlərinin pozulmasından, bununla da dövlətin, hüquqi və fiziki şəxslərin qanunla qorunan hüquq və mənafelərinə ziyan vurulmasından ibarətdir. Digər tərəfdən, gömrük nəzarətindən kənar ictimai təhlükəli əşya və maddələrin ölkəyə gətirilməsi daxili ictimai asayişi, əhalinin sağlamlığını və başqa mühüm dəyərləri ciddi təhlükə altına alır.

3. Qaçaqmalçılığın **predmetinə** gömrük sərhədindən keçirilən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 135-ci maddəsinin və GM-nin 1.0.34 və 1.0.42-ci maddələrinin tələblərinə müvafiq olaraq daşınar əşyalara aid edilmiş nəqliyyat vasitələri də daxil olmaqla mal hesab edilən istənilən əmlak, eləcə də qanunvericilikdə Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin müəyyən qaydası və şərtləri müəyyən edilmiş, mal olmayan digər əşyalar (məsələn, beynəlxalq daşımalar üçün istifadə olunan, mal əlamətlərinə malik olmayan nəqliyyat vasitələri, elmi məqalənin əlyazması və ya mal dəyəri olmayan, material daşıyıcıda olan digər əqli mülkiyyət obyekti, xüsusi olaraq faydalı model, sənaye nümunəsi və sair), habelə nağd xarici valyuta, Azərbaycan Respublikasının milli valyutası, yol çekləri, sənədli formada xarici və (və ya) daxili qiymətli kağızlar, qızıl-zinət əşyaları və CM-in 206.2-ci maddəsində sadalanmış əşyalar aiddirlər («Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2 iyun 2016-cı il tarixli 10 nömrəli qərarının 4-cü bəndi).

Qaçaqmalçılığın predmeti kimi tutulmuş digər əşyalar dedikdə pul, qiymətli kağızlar və zinət əşyaları, mal-qara, habelə azad dövriyyəsi qadağan edilmiş digər predmetlər başa düşülməlidir.

4. CM-in 206.1-ci və 206.2-ci maddələrinin predmetləri bir-birindən fərqlənir. CM-in 206.2-ci maddəsində qaçaqmalçılığın **xüsusi predmetləri** sadalanmışdır. Onlardan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının anlayışı CM-in 234-cü, güclü təsirli və zəhərli maddələrin anlayışı 240-cı, radioaktiv maddələrin anlayışı 226-cı, partlayıcı maddələrin və qurğuların, hərbi silahın və texnikanın, odlu silah və döyüş sursatının anlayışı isə 228-ci maddəsinin şərhində verilmişdir. Həmin predmetlərin qalanlarını izah edək.

5. **Zəhərləyici maddə** dedikdə kimyəvi silah hesab edilməyən elə maddələr başa düşülür ki, onların, az miqdarda olsa da, insanın sinir və ya tənəffüs sisteminə daxil olması həmin orqanların sıradan çıxmasına səbəb olur.

6. Nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının anlayışı və bu kateqoriyaya aid edilən silahların siyahısı BMT-nin aktları və bir sıra digər beynəlxalq-hüquqi sənədlərlə müəyyən edilmişdir.

Nüvə silahı dedikdə zərbə dalğasının, işıq şüasının, nüfuzedici radiasiyanın və radioaktiv zəhərlənmənin birgə təsir etməsi yolu ilə canlı qüvvə və texnikanın məhv edilməsi üçün nəzərdə tutulmuş nüvə döyüş sursatının, onun hədəfə çatdırılması və idarə edilməsi vasitələrinin məcmusu başa düşülür.

Kimyəvi silah dedikdə canlı qüvvənin və texnikanın məhv edilməsi üçün nəzərdə tutulmuş yüksək toksiki zəhərləyici maddələrin, onların hədəfə çatdırılması və idarə olunması vasitələrinin məcmusu başa düşülür.

Bioloji silah dedikdə insanların, heyvanların və bitkilərin kütləvi xəstəliklərlə yoluxdurulması üçün nəzərdə tutulmuş və canlı daşıyıcılar (həşəratlar, gəmiricilər) vasitəsi ilə və ya məhlullar və tozlar şəklində tətbiq edilən bakterioloji vasitələrin məcmusu başa düşülür.

Digər kütləvi qırğın silahlarına tətbiq edilməsi beynəlxalq-hüquqi aktlarla (məsələn, 1981-ci il Beynəlxalq Konvensiyası) qadağan edilmiş və kütləvi qırğın törədə bilən, yaxud yüksək təhlükəli olan bəzi silah növləri aid edilə bilər.

7. **Kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materiallara və avadanlıqlara** belə silahların işlənib hazırlanması, istehsalı, sınaqdan keçirilməsi üçün lazım olan xammal, material, avadanlıq, qurğular, texniki vasitələr və texnologiyalar aid edilir. Belə material və avadanlıqlar müxtəlif siyahılara daxil edilmiş və onların barəsində xüsusi hüquqi rejim müəyyən edilmişdir.

8. **Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammalın** siyahısı Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 1992-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Həmin Siyahıda neft və neft məhsulları, qaz kondensatı, müxtəlif süni kimyəvi materiallar, filizlər, əlvan və qiymətli metalların konsentratları, barama, yun, pambıq və onların tullantıları, gön-dəri xammalı, tütün və tütün məmulatları və s. göstərilmişdir.

9. CM-in 206-cı maddəsinin qeydinin 2-ci bəndinə görə Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş **mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar** dedikdə Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlər başa düşülür. Həmin predmetlərin anlayışı CM-in 207-ci maddəsinin şərhində verilmişdir.

10. CM-in 206.1-ci maddəsinin **obyektiv cəhəti** aşağıdakılardan ibarətdir: a) malların və digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzrə qanunsuz hərəkətlər; b) belə qanunsuz hərəkətlərin törədilmə üsulları; c) keçirilən malların və digər əşyaların külli miqdarda olması.

11. GM-in 3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisi vahid gömrük ərazisidir. Gömrük ərazisinə Azərbaycan Respublikasının quru ərazisi, daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (o cümlədən, orada yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanı daxildir. Gömrük ərazisində Gömrük Məcəlləsində müəyyən edilmiş qaydada sərbəst zonalar yaradıla bilər. Gömrük ərazisinin hüdudları, həmçinin sərbəst zonaların perimetrləri **gömrük sərhədidir**. Sərbəst zonaların perimetrləri istisna olmaqla, gömrük sərhədi Azərbaycan Respublikasının dövlət sərhədi ilə üst-üstə düşür.

12. GM-in 1.0.22-ci maddəsinə müvafiq olaraq **gömrük sərhədindən keçirmə** malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən beynəlxalq poçt göndərişləri, boru kəmərləri və elektrik ötürücü xətlər vasitəsilə gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə hərəkətlərdir. Belə hərəkətlər malların və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi zamanı və ya sərbəst gömrük zonaları ərazisindən və sərbəst anbarlardan Azərbaycan Respublikasının gömrük ərazisinin qalan hissəsinə gətirilməsi zamanı Azərbaycan Respublikasının gömrük sərhədindən faktiki keçirilmədən, malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən aparılması zamanı və ya malların və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinin qalan hissəsindən sərbəst gömrük zonası ərazisinə və sərbəst anbarlara aparılması zamanı gömrük bəyannamələrinin verilməsindən, malların və nəqliyyat vasitələrinin müvafiq olaraq gətirilməsi və ya aparılması niyyətinin bilavasitə reallaşdırılmasına yönələn digər hərəkətlərdən ibarətdir.

13. CM-in 206-cı maddəsində qaçaqmalçılığın törədilmə üsulları kimi malların və digər əşyaların gömrük sərhədindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi göstərilmişdir. Həmin üsulları ayrıca nəzərdən keçirək.

14. **Gömrük nəzarəti** gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük orqanlarının həyata keçirdiyi tədbirlərin məcmusudur. Həmin tədbirlər malların və nəqliyyat vasitələrinin yoxlanılması, şəxsi yoxlama, gömrük məqsədləri üçün lazım olan məlumatların, elektron və ya kağız üzərində yazılı formalarda sənədlərin, o cümlədən Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarla (şəhadətnamələrlə) müşayiət olunmasının yoxlanılması, gömrük auditi, şəxslərin sorğu-sual edilməsi, gömrük nəzarətindən keçməli olan mallara və nəqliyyat vasitələrinə, onların yerləşdiyi ərazilərə və binalara, müvəqqəti saxlanc və gömrük anbarlarında, sərbəst zonalarda yerləşən ərazilərə və binalara, həmçinin icrasına nəzarət gömrük orqanına həvalə edilmiş fəaliyyətin həyata keçirildiyi digər yerlərə gömrük baxışının keçirilməsi, keşik çəkmənin (patrulluğun) və gömrük müşahidəsinin aparılması formalarında həyata keçirilir. Beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda, gömrük nəzarəti gömrük ərazisindən kənar ərazidə də həyata keçirilə bilər (GM-in 92.2-92.3-cü maddələri).

15. **Gömrük nəzarətindən kənar keçirmə** malların və ya nəqliyyat vasitələrinin gömrük orqanlarının müəyyən etdiyi yerlərdən kənar və ya gömrük nəzarətini həyata keçirən orqanların iş vaxtından kənar keçirmədə ifadə oluna bilər.

16. **Gömrük nəzarətindən gizli keçirmə** malların və ya nəqliyyat vasitələrinin gömrük nəzarəti zamanı aşkar oluna bilməyəcək formalarda və ya üsullarla keçirilməsindən ibarətdir (məsələn, gizli saxlanc yerlərindən istifadə etmə, bir malın başqa bir malın zahiri görkəmi ilə gizlədilməsi və s.).

17. Gömrük nəzarətindən keçirilməli olan malların və nəqliyyat vasitələrinin olduğu və ya ola biləcəyi nəqliyyat vasitələri, binalar və digər yerlər, həmçinin

icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş fəaliyyətlərin həyata keçirildiyi yerlər, gömrük nəzarəti altında olan mallar və nəqliyyat vasitələri gömrük orqanları tərəfindən eyniləşdirilə bilər. **Gömrük eyniləşdirməsi vasitələrinə** plombların qoyulması, rəqəmlə, hərflə nişanlama, markalama, eyniləşdirmə işarələri, möhürlərin və ştampların vurulması, prob və nümunələrin götürülməsi, malların və nəqliyyat vasitələrinin təsviri, çertyojların çəkilməsi, miqyaslı təsvirlərin, fotoşəkillərin, illüstrasiyaların hazırlanması, malların müşayiətedici və başqa sənədlərindən və digər eyniləşdirmə vasitələrindən istifadə etmə aiddir (GM-in 87-ci maddəsi). GM-in 296-cı maddəsinə əsasən gömrük sərhədindən boru kəməri və elektrikötürücü xətlər vasitəsi ilə keçirilən mallara eyniləşdirilmə vasitələri tətbiq olunmur.

18. **Sənədlərdən aldatma yolu ilə istifadə etmə** dedikdə malların və nəqliyyat vasitələrinin keçirilməsi zamanı saxta və ya təhrif olunmuş məlumatları əks etdirən, bunun üçün səlahiyyəti olmayan şəxs tərəfindən tərtib edilmiş və ya təsdiq edilmiş sənədləri gömrük orqanlarına təqdim etmə başa düşülür. Belə hərəkətlərdən məqsəd malların və ya nəqliyyat vasitələrinin keçirilməsi üçün gömrük orqanlarının vəzifəli şəxslərini aldatmaq və onlar tərəfindən yanlış qərarlar qəbul edilməsinə nail olmaqdır. GM-in 146.3-cü maddəsinin tələblərinə müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli 263 saylı Qərarı ilə təsdiq edilmiş «Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları»nda malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı hər bir prosedur üçün gömrük orqanına təqdim edilməli olan sənədlərin və məlumatların tam dairəsi müəyyən edilmişdir. Bunu nəzərə alaraq, malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsini həyata keçirən şəxsin gömrük orqanlarına əlavə, normativ-hüquqi aktlarda nəzərdə tutulmamış sənədləri və məlumatları təqdim etməməsi qeyri-qanuni hesab edilə bilməz.

19. **Gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etmə** dedikdə plombların, möhürlərin, rəqəmlə və ya hərflə işarələmələrin, habelə başqa eyniləşdirmə vasitələrinin saxtalaşdırılması, həmin vasitələrə oxşar qanunsuz eyniləşdirmə vasitələrinin tətbiq edilməsi və s. başa düşülür.

20. GM-in 146-cı maddəsinə əsasən gömrük sərhədindən keçirilən bütün mallar və nəqliyyat vasitələri onların gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanlarına **bəyan edilməlidir**. Bəyanetmə malların və nəqliyyat vasitələrinin yerləşdirilməsi nəzərdə tutulan gömrük proseduru haqqında, habelə gömrük məqsədləri üçün lazım olan digər məlumatların müəyyən olunmuş formada (şifahi, kağız üzərində yazılı, elektron) gömrük orqanlarına verilməsi ilə həyata keçirilir. Bəyanetmənin forması və qaydaları, həmçinin gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilərək rəsmi nəşrlərdə dərc olunur və Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Dövlət Gömrük Komitəsinin rəsmi internet saytlarında yerləşdirilir. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi gömrük orqanlarının bəyanetmə ilə bağlı fəaliyyət zonasını və funksiyalarını, habelə malların yerləşdirildiyi gömrük prosedurlarının xüsusiyyətlərini nəzərə alaraq iş günlərini və saatlarını müəyyən edir.

21. Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi zamanı **bəyan etməmə** və ya **düzgün bəyan etməmə** bəyannamənin təqdim edilməməsində və ya lazımi qaydada, formada və müddətlərdə təqdim edilməməsində, bəyannamədə göstərilməli olan məlumatların göstərilməməsində və ya təhrif edilməməsində və s. hərəkətlərdə ifadə oluna bilər. Həmin hərəkətlər malların və digər əşyaların gömrük sərhədindən qanunsuz keçirilməsi məqsədi ilə edilir.

22. CM-in 206.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhətinin daha bir zəruri əlaməti keçirilən malların və digər əşyaların **külli miqdarda** olmasıdır. Burada külli miqdar dedikdə CM-in 206-cı maddəsinin qeydinə əsasən keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin **4000** manatdan çox olması başa düşülür.

Qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və digər əşyaların dəyəri müəyyən edilərkən onların dövlət tərəfindən tənzimlənən qiymətləri, bu qiymətlər olmadıqda isə - cinayətin törədildiyi vaxt faktiki (bazar) qiymətləri əsas götürülməlidir. Xarici ölkədən Azərbaycana gətirilən malların və digər əşyaların dəyəri təqdim olunmuş qaimə-fakturalara və digər sənədlərə müvafiq olaraq onların həmin ölkədə alındığı qiymətlər əsasında müəyyən edilir. Cinayət təqibi zamanı malların və digər əşyaların dəyərinə dair mübahisə yarandıqda və ya buna qədər müəyyən edilmiş qiymətlər şübhə doğurduqda, habelə Azərbaycan Respublikasının ərazisinə gətirilən malların xarici ölkədən alınmasına dair qaimə-fakturalar, invoys sənədləri təqdim edilmədikdə və ya saxtalaşdırıldıqda qiymətlərin düzgün müəyyən edilməsi üçün cinayət təqibi zamanı məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməsi zəruridir. Gömrük sərhədindən qeyri-qanuni yolla keçirilmiş xarici valyutanın dəyəri həmin valyutanın cinayətin törədildiyi vaxt Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi Azərbaycan Manatına münasibətdə məzənnəsi əsasında tənzimlənir. Nəzərə alınmalıdır ki, həm GM-nin 1.0.34-cü maddəsinin tələbinə əsasən həm də CM-in 206.1-ci maddəsinin mənasına uyğun olaraq saxta valyuta mallara və digər əşyalara aid edilmədiyinə və buna görə də qaçaqmalçılıq cinayətinin predmeti hesab olunmadığına görə saxta valyutanı qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının gömrük sərhədindən keçirən şəxsin əməli buna müvafiq əsaslar olduqda yalnız CM-in 204-cü maddəsi ilə tövsif edilir (adı şəkilən Plenum qərarının 8-ci bəndi).

Lakin CM-in 206.2-ci maddəsi üzrə məsuliyyətin yaranması üçün həmin maddənin dispozisiyasında sadalanan malların və digər əşyaların hansı miqdarda olmasının heç bir əhəmiyyəti yoxdur.

23. Məhkəmə təcrübəsində başqa şəxsə məxsus pulun və digər əmlakın qaçaqmalçılıq cinayətinin predmeti olduğu hallarda pulun və digər əmlakın müsadirə edilməsi ilə əlaqədar səhvlərə yol verildiyinin şahidi oluruq. Buna misal olaraq Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin E.Ə.Nəzərov haqqında 14 yanvar 2009-cu il tarixli hökmünü göstərmək olar.

Hökmlə E.Ə.Nəzərov CM-in 206.3.3-cü maddəsi ilə təqsirli bilinərək əmlakı müsadirə edilməməklə 5 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, onun Azərbaycan Respublikasının gömrük sərhədindən bəyan etməməklə keçirdiyi E.S.Quliyevə məxsus 81.015 manat pul müsadirə edilmişdir. E.S.Quliyev hökmdən apellyasiya şikayəti verərək pulunun ona qaytarılmasını xahiş etmişdir. Bakı Apellyasiya Məhkəməsi 29 mart 2009-cu il tarixli qərarı ilə hökmü qüvvədə saxlamış, qaçaqmalçılıq cinayətinin predmeti olduğu üçün pulun CPM-in 132.0.4-cü maddəsinə uyğun olaraq düzgün müsadirə edildiyi qərarına gəlmişdir.

Bakı Apellyasiya Məhkəməsinin qərarından kassasiya şikayətinə baxan Azərbaycan Respublikasının Ali Məhkəməsi pulun düzgün olaraq müsadirə edilmədiyini qeyd edərək 10 fevral 2010-cu il tarixli qərarı ilə Bakı Apellyasiya Məhkəməsinin 29 mart 2009-cu il tarixli qərarını mülki iddiaya dair hissədə ləğv etmişdir. Qərar onunla əsaslandırılmışdır ki, birinci və apellyasiya məhkəmələri öz qərarlarında pulun qaçaqmalçılıq cinayətini törədən E.Ə.Nəzərova deyil, E.S.Quliyevə məxsus olduğunun sübuta yetirildiyini göstərsələr də, həmin məbləği onun qanuni sahibinə qaytarmalı olduqları halda heç bir qanuni əsas olmadan onun müsadirə edilməsini qət (düzgün hesab) etmişlər[1].

Azərbaycan Respublikasının Ali Məhkəməsinin qərarı düzgündür. Ona görə ki, pulun müsadirə edilməsi üçün istinad olunmuş CPM-in 132.0.4-cü maddəsi aşağı instansiya məhkəmələr tərəfindən düzgün tətbiq edilməmişdir. Həmin maddəyə görə cinayətinin predmeti olan pul və qiymətli əşyalar məhkəmənin hökmü ilə cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsinə yönəldilir, zərərçəkmiş şəxs məlum olmadıqda isə dövlətin nəfinə keçirilir. CPM-in 89.1-ci maddəsinə görə cinayət nəticəsində maddi ziyan vurulmuş şəxs mülki iddiaçı kimi tanınır. Bu normaya əsasən E.S.Quliyev cinayət nəticəsində maddi ziyan vurulmuş şəxs kimi mülki iddiaçı qismində tanınmışdır. Deməli, bu halda cinayətinin predmeti olan pul CPM-in 132.0.4-cü maddəsinə əsasən məhkəmənin hökmü ilə cinayət nəticəsində maddi ziyan vurulmuş E.S.Quliyevə qaytarılmalıdır. Əlbəttə ki, qaçaqmalçılıq cinayətinin predmeti olan pul həmin cinayəti törədən E.Ə.Nəzərova məxsus olsaydı, onda iş üzrə cinayət nəticəsində maddi ziyan dəymiş şəxs mövcud olmayacaqdı və deməli bu halda pul CPM-in 132.0.4-cü maddəsinin tələbinə uyğun olaraq dövlətin nəfinə keçirilə bilərdi.

Nəzərə almaq lazımdır ki, CM-ə daxil edilmiş «Xüsusi müsadirə» fəsli artıq cinayətin predmetini müsadirə edilməli olan əmlak sırasında göstərmir. Bu, o deməkdir ki, qanuni dövriyyədə olan pul və ya digər əmlak (cinayətin predmeti qismində) cinayət törədən şəxsə, yaxud başqa şəxsə məxsus olub-olmamasından asılı olmayaraq müsadirə edilə bilməz.

24. Şərh edilən cinayət **formal tərkib** vasitəsi ilə ifadə edilmişdir. Qaçaqmalçılıq faktiki olaraq əşyaların gömrük sərhədindən keçirildiyi andan **başa çatmış** sayılır.

Malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi zamanı sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, bəyan etməməklə və ya düzgün bəyan etməməklə törədilmiş qaçaqmalçılıq bu cinayətin qeyd olunan qeyri-qanuni üsullardan biri ilə törədilməsinin, o cümlədən, gömrük orqanına qeyd olunmuş sənədlərin daxili gömrük tranziti, malların gömrük prosedurasına salınması və ya malların və digər əşyaların buraxılması ilə bağlı gömrük prosedurunun həyata keçirilməsi prosesində təqdim edilməsi zamanı bu faktın aşkarlandığı və bunun qarşısının alındığı andan **başa çatmış** hesab edilir. Malların və ya digər əşyaların daşınması prosesində sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, eləcə də bəyan etməmə, düzgün bəyan etməmə və ya gömrük nəzarətindən gizlətmə faktları aşkar olunmadığı halda CM-in 206-cı maddəsi ilə nəzərdə tutulmuş cinayət gömrük orqanları tərəfindən mallar və ya digər əşyaların buraxılmasına icazə verildiyi andan, şəxsin gömrük prosedurunun başa çatdırılmasından yayındığı halda isə mallar və ya digər əşyaların gömrük nəzarətindən faktiki çıxarılmasında ifadə olunan cinayət xarakterli hərəkətlərin törədildiyi andan **başa çatmış** hesab edilir. Malların və ya digər əşyaların Azərbaycan Respublikasının ərazisinə gömrük nəzarətindən kənar və ya ondan gizli gətirilməsi zamanı törədilmiş qaçaqmalçılıq bu cinayətin predmeti olan əşyaların gömrük sərhədindən keçirildiyi andan **başa çatmış** hesab edilir.

Təqsirkarın hərəkətləri qaçaqmalçılığa hazırlıq və ya bu cinayəti törətməyə cəhd etmə kimi qiymətləndirilərkən CM-in 28 və 29-cu maddələrinin tələbləri ilə yanaşı, həmçinin malların və ya digər əşyaların gömrük ərazisinə gətirilib-gətirilməməsi və burada gömrük prosedurlarının başlanılıb-başlanılmaması, habelə qaçaqmalçılığın törədilməsi üçün əvvəlcədən müəyyən hərəkətlərin edilib-edilməməsi nəzərə alınmalıdır. Şəxs CM-in 206.3 və 206.4-cü maddələrində nəzərdə tutulmuş tövsifedici əlamətlərlə qaçaqmalçılığın törədilməsi üçün gömrük ərazisinə daxil olana qədər və ya gömrük sərhədini qanunsuz keçənədək qaçaq malın keçirilməsi üçün nəqliyyat vasitələrini gizli saxlanc yerləri ilə təchiz etdikdə, yaxud da xarici ölkəyə aparmaq niyyəti ilə dövriyyəsi məhdudlaşdırılmış və ya qadağan olunmuş malları və digər əşyaları əldə etdikdə, habelə sair bu kimi hazırlıq tədbirləri gördükdə, lakin iradəsindən asılı olmayaraq cinayəti başa çatdıra bilmədikdə onun əməlləri qaçaqmalçılığa hazırlıq kimi qiymətləndirilir. Şəxsin gömrük sərhədini keçənədək qaçaqmalçılıq cinayətinin törədilməsinə bilavasitə yönəldilmiş hərəkətlər (məsələn, qaçaqmalçılığın törədilməsi məqsədilə gömrük sərhəd buraxılış məntəqəsində gömrük orqanının əməkdaşı ilə sövdələşməsi, yaxud ona qarşı zor tətbiq etməsi, yaxud da cinayətin predmeti olan mal və ya digər əşya ilə birlikdə dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar keçməyə cəhd etməsi və sair) törətməsi, lakin iradəsindən asılı olmayaraq cinayəti başa çatdırmaması həmin cinayəti etməyə cəhd hesab edilir (adı çəkilən Plenum qərarının 18-ci bəndi).

25. Təhlil edilən cinayət **subyektiv cəhətdən** yalnız birbaşa qəsdlə törədilir. Təqsirkar əməlinin ictimai təhlükəli olduğunu dərk edir və bunu törətməyi arzu edir.

26. Cinayətin **subyekti 16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

[1] Bakı Apellyasiya Məhkəməsinin arxivi. İş № 1 (103) – 187/2009. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. İş № 1 (102) – 86/2010.

27. CM-in 206.3-cü maddəsi 206.1-ci və 206.2-ci maddələrdə nəzərdə tutulmuş əməllərin təkrar, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə və gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədilməsini qaçaqmalçılığın **ağırlaşdırıcı tərkib əlamətləri** kimi nəzərdə tutmuşdur.

28. Cinayət məsuliyyətinə cəlb edilib-edilməməsindən asılı olmayaraq əvvəllər qaçaqmalçılıq törətmiş şəxs tərəfindən yenidən bu əməlin törədilməsi **təkrarlıq** yaradacaqdır. Lakin əvvəlki qaçaqmalçılığa görə cinayət məsuliyyətindən azad edilmiş şəxsin törətdiyi qaçaqmalçılıq təkrarlıq yaratmayacaqdır.

29. **Qabaqcadan əlbir olan bir qrup şəxs** tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34.2-ci maddəsində verilmişdir.

Qaçaqmalçılığın törədilməsi barədə qabaqcadan razılaşmış şəxslərdən biri (bir neçəsi) bu cinayətin bilavasitə icrası ilə bağlı əlverişli şəraitin yaradılması istiqamətində müəyyən hərəkətlər etdikdə (məsələn, qaçaqmalçılığın predmeti olan mal və ya digər əşyaları gömrük sərhədinədək müşayiət etdikdə, malların və ya digər əşyaların gömrük sərhədindən qanunsuz, o cümlədən gizli keçirilməsinin təmin edilməsi məqsədilə bilavasitə icraçını xüsusi avadanlıqla və ya nəqliyyat vasitələri ilə təmin etdikdə, yaxud gömrük nəzarətindən kənar yerlərdə gömrük sərhədini maneəsiz keçmək üçün şərait yaratdıqda, yaxud qeyd olunan əşyaların bilavasitə keçirildiyi yerlərdə onları qəbul etdikdə və sair), digəri (digərləri) isə mal və ya digər əşyaları bilavasitə ölkəyə gətirdikdə və ya ölkədən apardıqda da təqsirkarların hamısının əməlləri CM-in 206.3.2-ci maddəsi ilə tövsif edilir. Bu cinayətin törədilməsində iştirak edən şəxslərdən yalnız biri (bir neçəsi) malları və ya digər əşyaları Azərbaycan Respublikasının gömrük sərhədindən qeyri-qanuni üsullarla bilavasitə keçirdikdə və ya qaçaqmalçılığın bilavasitə icrası ilə bağlı əlverişli şəraitin yaradılması üçün başqa hərəkətlər etdikdə, digəri (digərləri) isə bu əməllərin törədilməsini təşkil etdikdə və ya həmin əməllərin törədilməsinə icraçını təhrik etdikdə, yaxud da CM-in 32.5-ci maddəsində nəzərdə tutulmuş hərəkətləri etməklə cinayətin törədilməsinə köməklik göstərdikdə, icraçının (icraçıların) əməlləri qaçaqmalçılıq predmetinin mənsubiyyətindən və başqa tövsifedici əlamətlərdən asılı olaraq CM-in 206.1 və ya 206.2, yaxud 206.3.1, 206.3.2 və ya 206.3.3-cü maddələri ilə, digər iştirakçıların əməlləri isə (onların eyni vaxtda birgə icraçı kimi cinayətin törədilməsində iştirak etdikləri hallar istisna olunmaqla) iştirakçılığın növündən asılı olaraq CM-in 32.3, 32.4 və ya 32.5-ci maddələrinə istinad edilməklə icraçının (icraçıların) əməllərinə uyğun olaraq CM-in 206.1, 206.2, 206.3.1, 206.3.2 və ya 206.3.3-cü maddələri ilə tövsif edilir. İki və ya daha çox icraçı tərəfindən qabaqcadan razılaşmadan qrup şəklində qaçaqmalçılığın törədilməsi müəyyən edildikdə, qrup üzvlərinin hər birisinin belə əməlləri cinayətin predmetinə və CM-in 206.3.1, 206.3.3 və ya 206.3.4-cü maddələrində nəzərdə tutulmuş tövsifedici əlamətlərin olub-olmamasına uyğun olaraq müstəqil şəkildə tövsif edilir. Mal və ya digər əşyalar qaçaqmalçılıq yolu ilə gömrük sərhədindən keçirildikdən sonra bu barədə məlumat alaraq onları qəbul etmiş şəxsin bu cinayətin törədilməsində iştirakı müəyyən edilmədikdə, onun qaçaqmalçılıq cinayətini törətməsinə görə məsuliyyəti istisna edilir (adı şəkilən Plenum qərarının 19-cu

bəndi).

Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 26 noyabr 2010-cu il tarixli hökmü ilə A.M.Xancanov CM-in 206.3.2, 234.4.1, 234.4.3-cü maddələri ilə təqsirli bilinib məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən A.Xancanov satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə əldə etmək üçün şəxsiyyəti istintaqa məlum olmayan İran İslam Respublikasının vətəndaşı ilə qabaqcadan əlbir olub qrup təşkil edərək, 27 aprel 2010-cu ildə avtomobillə Bakı şəhərinə gəlib İran İslam Respublikasının vətəndaşı tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəddindən gömrük nəzarətindən kənar və gizli, qaçaqmalçılıq yolu ilə keçirilmiş külli miqdarda narkotik vasitə olan heroini Bakı şəhəri Binəqədi qəsəbəsi ərazisindəki yolun kənarında plitənin altından götürmüşdür.

Bakı Apelyasiya Məhkəməsinin cinayət kollegiyasının 5 aprel 2011-ci il tarixli qərarı ilə məhkumun apellyasiya şikayəti təmin edilmiş, yuxarıda göstərilən hökm cəzaya aid hissədə dəyişdirilmişdir.

Apellyasiya instansiyası məhkəməsinin qərarından kassasiya şikayəti verilərək apellyasiya instansiyası məhkəməsinin qərarının dəyişdirilərək məhkuma bəraət verilməsi barədə qərarın qəbul edilməsi xahiş edilmişdir.

Kassasiya kollegiyası belə nəticəyə gəlmişdir ki, A.M.Xancanovun əməlinin CM-in 206.3.2-ci maddəsi ilə tövsif edilməsi üçün onun qaçaqmalçılıq cinayətinin obyektiv tərəfini təşkil edən hərəkətləri həmin cinayətin törədilməsi məqsədilə qabaqcadan əlbir olmuş qrupun digər üzvləri ilə birgə icra etməsi, yəni qaçaq malını (narkotik vasitəni) Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirməsi tələb olunur. Lakin iş üzrə müəyyən olunmuş hallardan görünür ki, A.M.Xancanov narkotik vasitənin Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar Azərbaycan Respublikasına keçirilməsində bunu yerinə yetirən şəxslə birgə iştirak etməmiş və onunla birlikdə cinayətin obyektiv tərəfini təşkil edən hərəkətləri icra etməmişdir. Bu hərəkətləri istintaqa məlum olmayan İran İslan Respublikasının vətəndaşı yerinə yetirmişdir. O, narkotik vasitəni dövlət sərhədindən Azərbaycan Respublikasının ərazisinə keçirməklə narkotik vasitələrin qaçaqmalçılığı cinayətininin obyektiv tərəfini təşkil edən hərəkətləri tam yerinə yetirmiş, yəni cinayəti başa çatdırmışdır. A.M.Xancanov isə qaçaqmalçılıq cinayəti başa çatdırıldıqdan sonra narkotik vasitəni gizlədilmiş saxlanc yerindən götürmüş, yəni narkotik vasitənin qaçaqmalçılığı cinayətinin obyektiv tərəfinə aid olmayan hərəkətləri yerinə yetirmişdir.

A.M.Xancanovla narkotik vasitənin qaçaqmalçılıq yolu ilə İİR-dən Azərbaycan Respublikasına gətirilməsi haqqında qabaqcadan razılığın əldə olunması da, Xancanovu həmin cinayətin icraçısına çevirmir. Belə olan halda A.M.Xancanovun hərəkətlərinin qaçaqmalçılıq cinayətinin icraçısı kimi, CM-in 206.3.2-ci maddəsi ilə tövsif olunması üçün əsas yaranmır.

Lakin A.M.Xancanovun cinayətin digər iştirakçısı ilə narkotik vasitənin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına gətirilməsinə dair qabaqcadan razılıq əldə etməsi və bu razılığa uyğun olaraq qaçaqmalçılıq yolu ilə gətirilməli olan narkotik vasitəni əldə etməyi qabaqcadan vəd edib Bakı şəhərində

onu təhvil alması onun qaçaqmalçılığın törədilməsində köməkçi qismində iştirak etdiyinə dəlalət edir.

Kollegiya A.M.Xancanovun sözügedən əməlini CM-in 206.3.2-ci maddəsindən həmin Məcəllənin 32.5, 206.2-ci maddəsinə tövsif etmişdir[1].

«K.H.Əliyevin işi üzrə» qərarında da Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyası qeyd etmişdir ki, şəxsin CM-in 206.3.2-ci maddəsi ilə təqsirləndirilməsi üçün onun məhz bu cinayətin törədilməsində qabaqcadan əlbir olan qrupun tərkibində qaçaqmalçılıq cinayətinin obyektiv tərəfini təşkil edən hərəkətləri qrupun digər üzvləri ilə birgə icra etməsi, yəni qaçaq malını Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirməsi tələb olunur[2].

30. **Vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə** törədilmiş qaçaqmalçılıq dedikdə CM-in 308-ci maddəsinin qeydində verilmiş əlamətlərə malik şəxslərin öz səlahiyyətlərindən şəxsi və ya sair məqsədlə istifadə edərək CM-in 206.1-ci və ya 206.2-ci maddəsində göstərilmiş əməlləri törətməsi başa düşülməlidir.

31. **Gömrük nəzarətini həyata keçirən şəxs** dedikdə qanunvericiliyə müvafiq olaraq gömrük orqanlarının gömrük nəzarətinə aid olan tədbirləri həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsləri başa düşülməlidir. Belə şəxslərə göstərilən **zor** həm **psixi,** həm də **fiziki** zor ola bilər. Qaçaqmalçılıq cinayətini törədən şəxsin eyni zamanda gömrük nəzarətini həyata keçirən şəxsə qarşı malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən qeyri-qanuni keçirilməsinə mane olmamağa məcbur etmək məqsədi ilə istənilən zor və ya psixi təsir tətbiq etməsi (məsələn, zərbə vurması, əl-qolunu bağlaması və sair), habelə zərər çəkmiş şəxsin sağlamlığına yüngül və ya az ağır zərər vurması CM-in 206.3.4-cü maddəsi ilə tövsif edilməlidir. Lakin həmin şəxsin sağlamlığına ağır zərər vurulduqda əməl cinayətlərin məcmusu qaydasında — CM-in 126.2.2-ci və 206.3.4-cü maddələri üzrə tövsif ediləcəkdir.

32. CM-in 206.4-cü maddəsi qaçaqmalçılığın **xüsusilə ağırlaşdırıcı tərkib əlamətini** — bu əməlin mütəşəkkil dəstə tərəfindən törədilməsini nəzərdə tutmuşdur. **Mütəşəkkil dəstə** tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsində verilmişdir.

Hər hansı vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi zamanı qulluq mövqeyindən istifadə etməklə qaçaqmalçılıq cinayətinin tərkibini yaradan əməllər törətdikdə onun bu əməlləri CM-in 206.3.3-cü maddəsi ilə tövsif edilir. Bu halda vəzifəli şəxsin öz qulluq mövqeyindən istifadə etməklə törətdiyi qaçaqmalaçılığın əlavə olaraq CM-in 308-ci maddəsi ilə tövsif edilməsi tələb olunmur. Vəzifəli şəxsin qulluq mövqeyindən istifadə etməklə törətdiyi qaçaqmalçılıq cinayətinin təşkilatçılarının, təhrikçilərinin və köməkçilərinin hərəkətləri müvafiq olaraq CM-in 32.3, 32.4 və 32.5-ci və CM-in 206.3.3-cü maddəsi ilə tövsif edilir. Eyni

[1] «A.M.Xancanovun işi üzrə» Azərbaycan Respublikası Ali Məhkəməsinin 24 avqust 2011-ci il tarixli qərarı. Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2011-ci il, № 3, s.10-14.

[2] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2011-ci il, № 4, s.17-21.

zamanda nəzərə alınmalıdır ki, qaçaqmalçılığın icraçısı olmayan vəzifəli şəxs CM-in XXXIII fəslində nəzərdə tutulmuş hər hansı cinayət əməllərini törətməklə (məsələn, rüşvət almaqla, vəzifəsindən sui-istifadə etməklə və sair) digər şəxslər tərəfindən qaçaqmalçılığın törədilməsində iştirak etdikdə, onların əməlləri CM-in 32 və 206-cı maddələri (iştirakçılığın növündən, qaçaqmalçılığın predmetindən və tövsifedici əlamətlərin mövcudluğundan asılı olaraq) və korrupsiya cinayətlərinə və qulluq mənafeyi əleyhinə digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan CM-in müvafiq maddəsi ilə tövsif edilir (adı şəkilən Plenum qərarının 21-ci bəndi).

Gömrük brokerinin mütəxəssisi qaçaqmalçılıq cinayətini törətdikdə onun əməli CM-in 206.3.3-cü maddəsi ilə deyil, gömrük sərhədindən keçirilən malların və ya digər əşyaların CM-in 206.1, yaxud 206.2-ci maddələrində göstərilən predmetlərə aid edilməsindən və digər tövsifedici əlamətlərin mövcudluğundan asılı olaraq CM-in 206.1, 206.2, 206.3.1, 206.3.2 və ya 206.4-cü maddəsi ilə, gömrük orqanının vəzifəli şəxsinin törətdiyi qaçaqmalçılıq cinayətində iştirak etdikdə isə CM-in 32.5-ci maddəsinə istinad olunmaqla, CM-in 206.3.3-cü maddəsi ilə tövsif edilməlidir (adı şəkilən Plenum qərarının 22-ci bəndi).

33. Gömrük orqanı tərəfindən malların sərbəst dövriyyəyə buraxılması haqqında qərar qəbul edildikdən sonra şəxsin xeyli və ya küllü miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınması ilə bağlı əməlləri qaçaqmalçılıq cinayətinin tərkibini yaratmır və belə əməllər yalnız CM-in 209-cu maddəsi ilə tövsif edilir. Şəxsin CM-in 206-cı maddəsinin «Qeyd»inin 1-ci bəndində nəzərdə tutulmuş külli miqdarda bilə-bilə pis keyfiyyətli məhsulları, keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, qanunla dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən dərman vasitələrini qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının ərazisinə gətirməsi və satması qeyd olunan məhsulların növündən və dəyərindən asılı olaraq CM-in 206-cı maddəsi ilə yanaşı həm də müvafiq olaraq CM-in 200 və ya 200-1-ci maddələri ilə tövsif edilir (adı şəkilən Plenum qərarının 24-25-ci bəndləri).

Maddə 207. Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq qaytarılması məcburi olan Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi və arxeoloji sərvəti olan əşyaların müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasına qaytarmama —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə — «Azərbaycan» q., 16 mart 2012-ci il).*

1. CM-in 207-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi və arxeoloji sərvəti olan əşyalara sahiblik, istifadə və sərəncam hüququ ilə əlaqədar yaranan və xüsusi qaydada tənzimlənən ictimai münasibətlərdir.

2. Bu cinayətin **ictimai təhlükəliliyi** incəsənət, tarixi və ya arxeoloji baxımdan əvəzedilməz hesab edilən və xüsusi qaydada mühafizə edilən əşyaların əvəzsiz olaraq itirilməsi təhlükəsindən ibarətdir. Belə əşyalara öz unikallığına görə xüsusi rejim tətbiq edilir və onların ölkədən aparılması və ya ölkəyə gətirilməsi xüsusi qaydada həyata keçirilir. Həmin qaydaların pozulması xalqın tarixi-mədəni irsinə böyük zərbə vurulmasına səbəb ola bilər.

3. Şərh edilən cinayətin **predmeti** qismində Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi və arxeoloji sərvəti olan əşyaların adı çəkilir.

İncəsənət, tarixi və ya arxeoloji sərvət olan əşyalar dedikdə «Mədəniyyət haqqında» 6 fevral 1998-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə və başqa normativ hüquqi aktlarla mədəniyyət sərvətləri kateqoriyasına aid edilmiş əşyalar başa düşülür. Bu və ya başqa əşyanın incəsənət, tarixi və ya arxeoloji sərvət hesab edilməsi həmin əşyanın mədəni-tarixi dəyərinin müəyyən edilməsi yolu ilə həyata keçirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1998-ci il tarixli 204 saylı qərarı ilə təsdiq edilmiş «Milli mədəniyyət sərvətlərinin mühafizə Qaydaları»na əsasən milli mədəniyyət sərvətləri Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə Siyahısında qeydə alındıqdan sonra onların mühafizəsi təmin olunur.

4. Şərh edilən cinayət tərkibinin **obyektiv cəhəti** aşağıdakılardan ibarətdir: a) Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq qaytarılması vəzifəsinin olması; b) həmin əşyaları müəyyən olunmuş müddətdə Azərbaycan Respublikasına qaytarmama.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1998-ci il tarixli 204 saylı qərarı ilə təsdiq edilmiş «Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları»na (2-ci bənd) müvafiq olaraq, milli mədəniyyət sərvətləri yalnız Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən müvafiq ekspert komissiyasının verdiyi mühafizə dərəcəsinə uyğun olaraq ölkədən çıxarılır. Mədəni sərvətləri ölkədən çıxarmaq istəyən hüquqi və ya fiziki şəxsin ərizəsinə əsasən həmin komissiya mədəniyyət sərvətinin mühafizə siyahısına daxil edildiyi barədə şəhadətnamə və ya onun sərbəst istifadəsinə icazə verir.

Mədəni sərvətin xaricə aparılması barədə icazə verilərkən həmin sərvətin geri qaytarılmasının məcburiliyi, habelə geri qaytarmanın dəqiq vaxtı da müəyyən edilir. Belə sərvətlər sərgi, qastrol səfərləri, bərpa, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi məqsədi ilə aparıla bilər və onların xaricdə olma müddəti, bir qayda olaraq, il ərzində 6 aydan artıq ola bilməz.

6. Qeyd edilən əşyaları qaytarmaq vəzifəsi real olmalıdır və həmin əşyaların aparıldığı ölkənin qanunvericiliyinə zidd olmamalıdır. İncəsənət, tarixi, arxeoloji sərvət olan əşyalar xaricə aparılarkən onları qaytarmanın dəqiq vaxtı, bunu etməli olan şəxs, habelə digər zəruri şərtlər müəyyən edilməlidir.

7. Şərh edilən cinayət əməli **hərəkətsizlikdə** — göstərilən əşyaları geri

qaytarmaq vəzifəsi ola-ola bunu etməmədə ifadə olunur. Bu, həmin əşyaları qaytarmaq üçün lazım olan hərəkətləri etməmə yolu ilə törədilə bilər, lakin çox vaxt belə hərəkətsizlik incəsənət, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaytarılmaması üçün hüquqi və faktiki zəmin hazırlanmasına yönəlmiş hərəkətlərlə (məsələn, həmin əşyaların özgəninkiləşdirilməsi, onların itirilməsinin bilə-bilə təşkil edilməsi və s.) müşayiət olunur.

8. Cinayət **formal tərkib** vasitəsilə ifadə olunmuşdur. Təqsirkar qaytarılması məcburi olan əşyaları qaytarmaq üçün imkana malik olduğu halda həmin əşyaları müəyyən edilmiş müddət bitdikdən sonra qaytarmadıqda cinayət **başa çatmış** hesab ediləcəkdir. Qaytarmanın obyektiv səbəblər üzündən müəyyən edilmiş müddətdə mümkün olmaması cinayət məsuliyyətini istisna edir (məsələn, əşyaların aparıldığı ölkə ilə bütün nəqliyyat, poçt və s. əlaqələrin müvəqqəti kəsilməsi və s.).

9. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar incəsənət, tarixi, arxeoloji sərvət olan əşyaları müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasına qaytarmalı olduğunu dərk edir, bu vəzifəni yerinə yetirmək imkanına malik olsa da, bunu etməməyi arzu edir. Motiv və məqsəd əməlin tövsifi üçün əhəmiyyət kəsb etmir.

10. Cinayətin **subyekti** üzərinə göstərilən əşyaları xaricdən qaytarmaq vəzifəsi qoyulmuş **16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

Maddə 208. Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama

208.1. Təşkilat rəhbərləri tərəfindən xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvəkkil edilmiş bankının hesabına məcburi qaydada köçürülməli olan xeyli miqdarda xarici valyuta vəsaitlərini xaricdən qaytarmama —

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

208.2. Eyni əməllər:

208.2.1. külli miqdarda törədildikdə;

208.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «xeyli miqdar» dedikdə qaytarılmamış xarici valyuta vəsaitlərinin iyirmi min manatdan yuxarı, lakin otuz min manatdan artıq olmayan məbləği, «külli miqdar» dedikdə otuz min manatdan artıq olan məbləği başa düşülür *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir - «Azərbaycan» q., 7 iyun 2008-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Şərh edilən cinayətin **obyekti** dövlətin valyuta tənzimi və valyuta nəzarəti sahəsində fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

2. Bu cinayətin **ictimai təhlükəliliyi** CM-in 208-ci maddəsində nəzərdə tutulan əməllərin törədilməsi nəticəsində ölkəmizin valyuta sisteminin pozulması təhlükəsinin yaranmasından ibarətdir. Xarici iqtisadi fəaliyyətin həyata keçiril-

məsindən əldə edilmiş valyuta vəsaitlərinin Azərbaycan Respublikasına qaytarılmaması ölkəmizin milli valyutasının — manatın dönərliyini zəiflədir, eyni zamanda bunun nəticəsində ölkəmizin maddi sərvətlərinin qanunsuz olaraq xaricə axmasına şərait yaradır.

3. CM-in 208-ci maddəsində nəzərdə tutulmuş cinayətin **predmeti** xarici valyutadır. «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 3-cü bəndinə əsasən **xarici valyuta** müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları, habelə xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlərdir.

4. Şərh edilən cinayətin **obyektiv cəhətinə** aşağıdakılar daxildir: a) xarici iqtisadi fəaliyyət nəticəsində əldə edilmiş xeyli miqdarda xarici valyuta vəsaitlərinin mövcud olması; b) həmin valyuta vəsaitlərinin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvəkkil edilmiş bankına köçürülməli olmasına baxmayaraq, onları xaricdən qaytarmama.

5. **Xarici iqtisadi fəaliyyət** dedikdə Azərbaycan Respublikasından əmtəələrin ixracı, habelə xaricdə işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə fəaliyyət başa düşülür. Belə fəaliyyət üzrə hesablaşmalar, bir qayda olaraq, xarici valyutada aparılır.

6. CM-in 208-ci maddəsinin qeydinə əsasən xarici iqtisadi fəaliyyətdən əldə edilmiş xarici valyuta vəsaitləri o halda **xeyli miqdarda** olacaqdır ki, onun məbləği ölkəmizin milli valyutasının həmin vaxtda mövcud olan məzənnəsinə uyğun olaraq **iyirmi min manatdan yuxarı, lakin otuz min manatdan artıq** olmasın.

7. «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən başqa hal müəyyən edilmədikdə rezident müəssisə və təşkilatlar əldə etdikləri xarici valyutanı məcburi şəkildə müvəkkil banklardakı öz hesablarına köçürməlidirlər. Belə hesablarla valyuta əməliyyatları aparılması Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin 27 may 2002-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında Qaydalar»la tənzimlənir.

Müvəkkil banklar dedikdə «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 11-ci bəndinə əsasən valyuta əməliyyatlarının aparılması üçün maliyyə bazarlarına nəzarət orqanının lisenziyasını almış banklar və digər kredit təşkilatları başa düşülür.

«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 2-ci bəndinin məzmunundan göründüyü kimi, xarici valyuta vəsaitlərini Azərbaycan Respublikasının müvəkkil banklarındakı hesaba köçürmək vəzifəsi yalnız rezident təşkilat və müəssisələrin üzərinə qoyulmuşdur. Ona görə də qeyri-rezidentlər tərəfindən əldə edilmiş xarici valyuta vəsaitlərinin göstərilən hesablara köçürülməməsi təhlil edilən maddə üzrə cinayət məsuliyyətinə səbəb ola bilməz.

8. «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 5-ci bəndinə əsasən **rezident təşkilat və müəssisələr** dedikdə aşağıdakılar başa düşülür: Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış hüquqi şəxslər; Azərbaycan Respublikasında yerləşən və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış, lakin hüquqi şəxs olmayan müəssisə və təşkilatlar; Azərbaycan Respublikası hüdudlarından kənarda yerləşən Azərbaycan Respublikasının diplomatik və digər rəsmi nümayəndəlikləri; Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış hüquqi şəxslərin, habelə Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış, lakin hüquqi şəxs olmayan müəssisə və təşkilatların Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən filialları və nümayəndəlikləri.

9. Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama sözün birbaşa mənasında başa düşüldükdə xaricə aparılmış vəsaitlərin geri qaytarılmaması demək olardı. Lakin şərh edilən maddədə **xarici valyuta vəsaitlərini xaricdən qaytarmama** dedikdə rezident müəssisə və təşkilatların xarici iqtisadi fəaliyyətdən əldə etdikləri xarici valyuta vəsaitlərini Azərbaycan Respublikasının müvəkkil bankındakı hesaba köçürməməsindən ibarət hərəkətsizlik başa düşülməlidir. Belə hərəkətsizlik xarici valyuta vəsaitlərini köçürmək üçün lazımi sərəncamı verməmədə, müvafiq sənədləri banka və ya başqa kredit təşkilatına təqdim etməmədə və s.-də ifadə oluna bilər. Bəzən bu hərəkətsizlik xarici valyuta vəsaitlərini gizlətməyə yönəlmiş bir sıra hərəkətlərlə də müşayiət oluna bilər. Lakin həmin hərəkətlər əməlin təhlil edilən maddə üzrə tövsifinə təsir etmir.

10. Şərh edilən cinayət **formal tərkib** vasitəsilə ifadə edilmişdir və xarici valyuta vəsaitlərinin qaytarılmadığı andan **başa çatmış** hesab edilir.

11. Cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar xarici iqtisadi fəaliyyətdən əldə etdiyi xarici valyuta vəsaitlərini xaricdən qaytarmaq vəzifəsini icra etmədiyini, bunun ictimai təhlükəli olduğunu dərk edir və bunu etməyi arzu edir.

12. Təhlil edilən cinayətin **subyekti** xarici valyuta vəsaitlərini Azərbaycan Respublikasına qaytarmalı olan **rezident təşkilatın rəhbəri** ola bilər.

13. CM-in 208.2-ci maddəsində xarici valyuta vəsaitlərini xaricdən qaytarmamanın aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur: külli miqdarda xarici valyuta vəsaitlərini xaricdən qaytarmama və CM-in 208.1-ci maddəsində nəzərdə tutulmuş əməlin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi.

Burada **külli miqdar** dedikdə xaricdən qaytarılmayan xarici valyuta vəsaitlərinin məbləğinin **30.000** manatdan artıq olması başa düşülür (CM-in 208-ci maddəsinin «Qeyd»i).

Qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34.2-ci maddəsində verilmişdir.

Maddə 209. Gömrük ödənişlərinin ödənilməsindən yayınma

209.1. Xeyli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınma — cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək

miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

209.2. Bu Məcəllənin 209.1-ci maddəsində nəzərdə tutulmuş əməllər:

209.2.1. təkrar törədildikdə;

209.2.2. külli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

209.3. Bu Məcəllənin 209.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın dörd mislindən beş mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «xeyli miqdar» dedikdə ödənilməmiş gömrük ödənişlərinin iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləği, «külli miqdar» dedikdə yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləği, «xüsusilə külli miqdar» dedikdə beş yüz min manatdan yuxarı olan məbləği başa düşülür *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir - «Azərbaycan» q., 7 iyun 2008-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in 209-cu maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** dövlətin maliyyə fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərdir.

2. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** göstərilən maddədə nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində dövlətin maliyyə fondlarının formalaşmasında mühüm rol oynayan gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmamasından ibarətdir. Həmin vəsaitlərin gizlədilməsi bütövlükdə ölkənin iqtisadiyyatını ciddi təhlükə altına alır.

3. Cinayətin **predmeti** gömrük ödənişləridir. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 1.0.17-ci maddəsinə əsasən **gömrük ödənişləri** dedikdə Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda gömrük orqanları tərəfindən alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, dövlət rüsumu və haqq başa düşülür. GM-in 224.1-ci maddəsinə əsasən **gömrük ödənişlərinə** aşağıdakılar daxildir: gömrük rüsumları; əlavə dəyər vergisi; aksizlər; yol vergisi; gömrük yığımları; haqq; dövlət rüsumu.

4. Konkret mallar üzrə gömrük rüsumlarının dərəcələrini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Gömrük rüsumlarının dərəcələri rəsmi nəşrlərdə dərc olunur və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin rəsmi internet saytlarında yerləşdirilir. Mallar üzrə tarif güzəştləri, gömrük rüsumlarından azad edilmə, tarif preferensiyalarının və güzəştlərinin verilməsi halları və qaydaları «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

5. GM-in 243.1-ci maddəsinə əsasən gömrük ödənişləri üzrə gömrük borcu

gömrük orqanları tərəfindən gömrük bəyannaməsi təsdiq edilənədək və ya gömrük bəyannaməsinin təsdiqi ilə eyni vaxtda ödənilir.

Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar üzrə gömrük borcu, onlar gömrük sərhədindən keçirilərkən sadələşdirilmiş bəyannamənin təsdiqi ilə eyni vaxtda ödənilir. Gömrük bəyannaməsinin verilməsi gecikdirildikdə gömrük borcunun ödənilməsi müddəti gömrük bəyannaməsinin verilməsi üçün müəyyən edilən müddətin başa çatdığı gündən hesablanır. Gömrük Məcəlləsinin 156.2-ci maddəsində nəzərdə tutulan dövri bəyannamə verildiyi halda (gömrük orqanları eyni malları və nəqliyyat vasitələrini gömrük sərhədindən müntəzəm olaraq keçirən şəxsə onları müəyyən müddət ərzində bir dövri bəyannamə əsasında keçirməsinə icazə verirlər), gömrük borcu mallar müvafiq gömrük orqanına təqdim olunduğu tarixdən 15 (on beş) gündən gec olmayaraq ödənilməlidir (GM-in 243.2-243.4-cü maddələri).

6. **Gömrük ödənişlərinin ödənilməsindən yayınma** həm **fəal hərəkətlərlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Aktiv hərəkətlərlə yayınma keçirilən malların və ya nəqliyyat vasitələrinin gizlədilməsində, onların gömrük dəyərinin, mənşə ölkəsinin və gömrük ödənişlərini hesablamaq üçün zəruri olan başqa məlumatların gizlədilməsində və ya saxtalaşdırılmasında və s.-də ifadə oluna bilər.

Hərəkətsizlik yolu ilə gömrük ödənişlərinin ödənilməsindən yayınma müəyyən edilmiş müddətdə gömrük ödənişlərinin ödənilməməsi kimi başa düşülməlidir.

GM-in 243.3-cü maddəsinə əsasən gömrük bəyannaməsinin verilməsi gecikdirildikdə gömrük borcunun ödənilməsi müddəti gömrük bəyannaməsinin verilməsi üçün müəyyən edilən müddətin başa çatdığı gündən hesablanır.

7. Təhlil edilən maddə üzrə cinayət məsuliyyəti ödənilməsindən yayınılan gömrük ödənişi xeyli miqdarda olduqda yaranır. Burada xeyli miqdar əlamətinin mövcud olması üçün ödənilməyən gömrük ödənişi **iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq** olmamalıdır (CM-in 209-cu maddəsinin qeydinin 1-ci bəndi).

8. Təhlil edilən cinayət gömrük ödənişlərinin ödənilməsi müddəti bitdiyi andan **başa çatmış** hesab edilir.

9. Cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar xeyli miqdarda gömrük ödənişlərini ödəməkdən yayındığını, bunun ictimai təhlükəli olduğunu dərk edir və bunu törətməyi arzu edir.

10. Şərh edilən cinayətin **subyekti** gömrük ödənişlərini ödəməyə borclu olan şəxsdir.

11. CM-in 209.2-ci maddəsində gömrük ödənişlərinin ödənilməsindən yayınmanın **ağırlaşdırıcı tərkib əlamətləri** — təkrarlıq və külli miqdar əlamətləri nəzərdə tutulmuşdur.

Cinayətin **təkrar** törədilməsinin anlayışı CM-in 16-cı maddəsində verilmişdir.

Şərh edilən maddədə **külli miqdar** dedikdə ödənilməsindən boyun qaçırılan gömrük ödənişlərinin **100.000** manatdan artıq, lakin beş yüz min manatdan artıq olmayan məbləği başa düşülür (CM-in 209-cu maddəsinin «Qeyd»i).

12. CM-in 209.3-cü maddəsində gömrük ödənişlərinin ödənilməsindən yayınma əməlinin xüsusilə külli miqdarda törədilməsi cinayət tərkibinin xüsusilə **ağırlaşdırıcı əlaməti kimi** nəzərdə tutulmuşdur. CM-in 209-cu maddəsinin «Qeyd»inə əsasən **xüsusilə külli miqdar** dedikdə **beş yüz min manatdan yuxarı olan** məbləğ başa düşülür.

13. **CM-in 209.1-ci və 209.2.2-ci** (külli miqdarda törədilmə) maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir (CM-in 73-2.1-ci maddəsi).

Burada «cinayət nəticəsində vurulmuş ziyan» dedikdə dövlət büdcəsinə daxil olmalı olan, lakin şərh edilən cinayətin törədilməsi nəticəsində daxil olmayan gömrük ödənişinin məbləği başa düşülür.

CM-in **209.2.1-ci** (təkrar törədilmə) və **209.3-cü** (xüsusilə külli miqdarda törədilmə) maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir (CM-in 73-2.2-ci maddəsi).

CM-in 209-cu maddəsində nəzərdə tutulmuş cinayətlərin törədilməsinə görə şəxs cinayət məsuliyyətindən **yalnız bir dəfə** azad edilir (CM-in 72-ci maddəsinin «Qeyd»i).

Maddə 210. Müflisləşmə zamanı qanunsuz hərəkətlər

210.1. Borclu təşkilatın rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən müflisləşmə zamanı və ya müflisləşmə güman edilən zaman əmlakın və ya əmlak öhdəliklərinin, əmlak haqqında məlumatların, onun miqdarının, olduğu yerin, yaxud əmlak haqqında digər məlumatların gizlədilməsi, əmlakın digərinin sahibliyinə verilməsi, əmlakın özgəninkiləşdirilməsi və ya məhv edilməsi, habelə iqtisadi fəaliyyəti əks etdirən mühasibat və ya digər hesabat sənədlərinin gizlədilməsi, məhv edilməsi və ya saxtalaşdırılması xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

210.2. Borclu təşkilatın rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən özünün müflis olduğunu bilə-bilə digər kreditorların mənafeyinə ziyan vurmaqla ayrı-ayrı kreditorların əmlak tələblərinin təmin edilməsi, habelə müflisləşmiş borclunun üstünlük verdiyi kreditor tərəfindən əmlakın qəbul edilməsinin digər kreditorlara ziyan vurduğunu bilə-bilə həmin əmlakın qəbul edilməsi külli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 6 may 2016-cı il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 25 may 2016-cı il).*

1. Təhlil edilən cinayət tərkibi ölkəmizin yeni cinayət qanunvericiliyinin mühüm yeniliklərindən biridir. CM-in 210-cu maddəsində nəzərdə tutulmuş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi bazar iqtisadiyyatı şəraitində iqtisadi fəaliyyət subyektlərinin əmlak mənafelərini ödəmə qabiliyyəti olmayan borclunun qanunsuz hərəkətlərindən mühafizə etmək zərurətindən irəli gəlmişdir.

2. Bu cinayətin **obyekti** sahibkarlıq fəaliyyəti subyektlərinin normal iqtisadi fəaliyyətindən irəli gələn ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində hüquqi və fiziki şəxslərin, habelə dövlətin əmlak mənafeləri çıxış edir.

3. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** maddənin dispozisiyasında göstərilən əməllərin nəticəsində iqtisadiyyatın sağlamlaşdırılmasının mühüm vasitələrindən olan müflisləşmə prosesi zamanı müxtəlif təsərrüfat subyektlərinin mənafelərinə ziyan vurulmasında ifadə olunur. Müflisləşmə prosesində yol verilən qanun pozuntuları bir sıra hallarda təkcə konkret kreditor və borcluların deyil, bütövlükdə ölkə iqtisadiyyatının müəyyən sahəsinin normal fəaliyyətini təhlükə altında qoyur.

4. Təhlil edilən cinayətin **obyektiv cəhəti** aşağıdakılardan ibarətdir: 1) müflisləşmə və ya müflisləşmənin güman edilməsi ilə bağlı obyektiv şərait; 2) belə şəraitdə törədilən qanunsuz hərəkətlər; 3) xeyli miqdarda ziyan vurulması; 4) vurulmuş ziyanla qeyri-qanuni hərəkətlər arasında səbəbli əlaqə.

5. «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli Qanununun 1-ci maddəsinə əsasən **müflisləşmə** dedikdə borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması başa düşülür. Borclu o halda ödəmə qabiliyyəti olmayan sayılır ki, bunu özü təsdiq etsin, yaxud məhkəmə və ya kreditorlar müəyyən etsin ki: a) borclu kreditorun irəli sürdüyü qanuni ödəmə tələbini bu cür tələb verildikdən sonra iki ay ərzində yerinə yetirməmişdir və ya; b) borclu qanunvericiliyə müvafiq surətdə həyata keçirməli olduğu ödənişləri vaxtı çatdıqca həyata keçirməyə qadir deyildir və ya; c) borclu öz borclarını vaxtı çatdıqca ödəməyə qadir deyildir («Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi).

6. İflas prosesi iflas haqqında işin qaldırılması üçün kreditorun (kreditorların) və ya borclunun iqtisad məhkəməsinə təqdim olunan ərizəsi əsasında başlanılır. İflas prosesinə məhkəmənin iştirakı olmadan borclu müəssisə (borclu dövlət müəssisəsi olduğu halda, həmçinin İqtisadiyyat Nazirliyi tərəfindən qəbul olunmuş müvafiq qərara əsasən də başlana bilər.

İflas prosesinin başlanması ödəmə qabiliyyəti olmayan müəssisə üçün xüsusi hüquqi rejim nəzərdə tutur. Belə rejim iflas prosesinin başlandığı andan iflas haqqında işə baxılaraq müvafiq qərar qəbul edilənədək davam edir. İflas prosesinin nəticəsində iqtisad məhkəməsi aşağıdakı qərarlardan birini qəbul edir: 1) borclunun müflis elan edilməsi və əmlak inzibatçısının təyin edilməsi barədə; 2) müvəqqəti əmlak inzibatçısının təyin edilməsi və ya təyinatının uzadılması barədə; 3) borclunu müflis elan etməkdən imtina barədə.

«Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən iflas prosesinə başlanması məqamından etibarən borclu öz təsərrüfat fəaliyyətini həyata keçirmək və ya öhdəliklərini yerinə yetirmək məqsədi ilə, yaxud digər məqsədlərlə öz əmlakının hər hansı hissəsi barədə

sərəncam verə bilməz. Bu cür sərəncamları borclu yalnız məhkəmənin, əmlak inzibatçısının və ya müvəqqəti əmlak inzibatçısının müvafiq icazəsi ilə qəbul edə bilər.

7. **Müflisləşmə güman edilən zamanın** anlayışı qanunvericilikdə müəyyən edilməmişdir. Lakin bu obyektiv şəraitə borclunun iflas haqqında ərizə ilə iqtisad məhkəməsinə müraciət etmək vəzifəsinin yarandığı halları, belə ərizə ilə iqtisad məhkəməsinə müraciət edilməsi və ya məhkəmədən kənar iflas prosesinin başlanması haqqında qərar çıxarılması hallarını, habelə kreditorların ehtimal olunan iflas barədə xəbərdarlıq edilməsi hallarını aid etmək olar.

8. Borclunun **müflis** elan olunmasının məqamı «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin birinci hissəsinə əsasən aşağıdakılardır: 1) borclunun müflis elan olunması haqqında məhkəmə qərarının qanuni qüvvəyə minməsi tarixi; 2) kreditorların ilkin yığıncağında borclu müəssisənin müflis elan olunması barədə müvafiq qərarın qəbul edilməsi tarixi.

Borclunun müflis elan olunması məqamından etibarən bir sıra məhdudiyyətlər tətbiq edilir: bütün məhkəmə araşdırmalarına və borcludan alınmalı məbləğlərin tutulması üçün digər hərəkətlərə son qoyulur; borcluya qarşı tələblər yalnız «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan iflas prosesi çərçivəsində irəli sürülə bilər; qanunvericiliyə zidd olmayan hallarda bu məqamdan əvvəl borclunun əmlakına dair çıxarılmış hər hansı məhkəmə qərarının icrası dayandırılır; əmlak inzibatçısı tərəfindən verilən səlahiyyətlər istisna olmaqla, borclu müəssisənin müdiri bütün digər səlahiyyətlərini itirir; borclu müəssisə öz əmlakı barəsində hər hansı sərəncam vermək və hərəkətlər etmək səlahiyyətlərini itirir («Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin 2-ci hissəsi).

9. CM-in 210.1-ci maddəsinin dispozisiyasında müflisləşmə zamanı yol verilən aşağıdakı cinayət əməlləri sadalanır: əmlakın və ya əmlak öhdəliklərinin, əmlak haqqında məlumatların, onun miqdarının, olduğu yerin, yaxud əmlak haqqında digər məlumatların gizlədilməsi; əmlakın digərinin sahibliyinə verilməsi, əmlakın özgəninkiləşdirilməsi, əmlakın məhv edilməsi; iqtisadi fəaliyyəti əks etdirən mühasibat və ya digər hesabat sənədlərinin gizlədilməsi, məhv edilməsi və ya saxtalaşdırılması.

10. **Əmlakın və ya əmlak öhdəliklərinin, əmlak haqqında məlumatların, onun miqdarının, olduğu yerin, yaxud əmlak haqqında digər məlumatların gizlədilməsi** əmlakın başqa yerə aparılmasında, uçotdan silinməsində, əmlak və əmlak öhdəlikləri barədə sənədlərin təqdim edilməməsində, belə sənədlərə yanlış məlumatlar daxil edilməsində və başqa hərəkətlərdə ifadə oluna bilər.

11. **Əmlakın digərinin sahibliyinə verilməsi, özgəninkiləşdirilməsi və ya məhv edilməsi** müxtəlif üsullarla, o cümlədən əmlakın saxlamaq üçün verilməsi, satılması, girov qoyulması, kirayəyə və ya icarəyə verilməsi, bağışlanması, yandırılması, sökülməsi, istehlak edilməsi və s. yollarla edilə bilər. Bütün bu hərəkətlərin nəticəsində borclunun əmlakı azaldılmış olur.

12. **İqtisadi fəaliyyəti əks etdirən mühasibat və ya digər hesabat sənədlərinin gizlədilməsi, məhv edilməsi və ya saxtalaşdırılması** həmin sənədlərin təqdim edilməməsində, başqa yerə aparılmasında, yandırılmasında, onlara yanlış məlumatların daxil edilməsində və s. ifadə oluna bilər. Belə əməllər borclunun borc öhdəliklərinin, habelə onun real əmlak vəziyyətinin gizlədilməsinə yönəlmiş olur.

13. Təhlil edilən əməllər nəticəsində **xeyli miqdarda ziyan** vurulduqda CM-in 210.1-ci maddəsi üzrə məsuliyyət yaranacaqdır. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən burada **xeyli miqdar** dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür. Belə ziyan müxtəlif borcların ödənilməməsi şəklində kreditorlara, habelə vergi və digər ödəmələrin ödənilməməsi şəklində dövlətə vurula bilər. Hər bir halda törədilmiş qanunsuz hərəkətlərlə vurulmuş ziyan arasında səbəbli **əlaqə müəyyən** edilməlidir.

14. CM-in 210.1-ci maddəsində nəzərdə tutulmuş cinayət subyektiv cəhətdən **dolayı qəsdlə** törədilir. Təqsirkar müflisləşmə və ya müflisləşmə güman edilən şəraitdə qanunsuz hərəkətlər etdiyini dərk edir, belə hərəkətlərlə xeyli miqdarda ziyan vurulacağını qabaqcadan görür və buna şüurlu surətdə yol verərək həmin hərəkətləri törədir.

15. CM-in 210.1-ci maddəsində göstərilmiş cinayətin **subyekti xüsusidir**. Bu, borclu təşkilatın **rəhbəri** və ya **mülkiyyətçisi**, yaxud **fərdi sahibkar** ola bilər.

16. CM-in 210.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** iki alternativ əməli əhatə edir: 1) özünün müflis olduğunu bilən borclu təşkilatın rəhbəri və ya mülkiyyətçisi, yaxud fərdi sahibkar tərəfindən digər kreditorların mənafeyinə ziyan vurmaqla ayrı-ayrı kreditorların əmlak tələblərinin təmin edilməsi; 2) müflisləşmiş borclunun üstünlük verdiyi kreditor tərəfindən əmlakın qəbul edilməsinin digər kreditorlara ziyan vurduğunu bilə-bilə həmin əmlakın qəbul edilməsi.

17. **Əmlak tələblərinin qanunsuz təmin edilməsinin** ifadə olunduğu yuxarıda göstərilmiş əməllər müflis elan etmə barədə müvafiq qərar qəbul edildikdən sonra kreditorların əmlak tələblərinin ödənilməsi barədə müvafiq razılaşma əldə olunduğu halda, habelə sağlamlaşdırma prosesinin həyata keçirilməsi zamanı kreditor borcların ödənilməsi növbəliliyi pozulmaqla törədilir. Belə əməllər nəticəsində müflis olmuş borclunun öz borclarını ödəməsinin «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş ardıcıllığı pozulur və ayrı-ayrı kreditorların mənafeyinə ziyan vurulur.

18. **Əmlakın borcludan qanunsuz qəbul edilməsi** kreditor tərəfindən borclunun əmlak öhdəliyinin icrasını qəbul etmək üzrə hərəkətlərdə, məsələn, avadanlığın, xammalın və başqa maddi dəyərlərin öz fonduna qəbul edilməsində, pul borcunun geri alınması üçün sənədlərin tərtib edilməsində və sair hərəkətlərdə ifadə oluna bilər.

19. CM-in 210.2-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibi əmlak tələblərinin qanunsuz təmin edilməsi ilə **külli miqdarda ziyan** vurulduqda mövcud olur. Burada külli miqdar dedikdə vurulmuş ziyanın məbləğinin yüz min

manatdan artıq olması başa düşülür (CM-in 190-cı maddəsinin qeydi).

20. Kreditor borcların qanunsuz təmin edilməsi **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar əmlak tələbini qanunsuz ödədiyini və ya borcludan əmlakı qanunsuz qəbul etdiyini dərk edir, bunun digər kreditorların mənafeyinə külli miqdarda ziyan vurduğunu qabaqcadan görür və bunu etməyi arzu edir.

21. CM-in 210.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** də **xüsusidir**. Əmlak tələbinin qanunsuz təmin edilməsinin subyekti borclu təşkilatın **rəhbəri** və ya **mülkiyyətçisi**, yaxud **fərdi sahibkar**, əmlakın borcludan qanunsuz qəbul edilməsinin subyekti isə kreditor təşkilatın **rəhbəri** və ya **mülkiyyətçisi**, yaxud kreditor qismində çıxış edən **fərdi sahibkar** ola bilər.

Maddə 211. Qəsdən müflisləşmə

211.1. Qəsdən müflisləşmə, yəni kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən özünün və ya digər şəxslərin mənafeyi naminə qəsdən ödəmə qabiliyyətsizliyinin yaradılması və ya artırılması xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

211.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir - «Azərbaycan» q., 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Şərh edilən cinayət də ölkəmizin cinayət qanunvericiliyinə daxil edilmiş yeni tərkiblərdəndir. Həmin tərkibin cinayət qanununa gətirilməsi zərurəti sahibkarlıq fəaliyyəti sahəsində vicdanlı işgüzar münasibətlərin qorunub saxlanması, iqtisadi sistemdə sabitliyin yaradılması, habelə müxtəlif təsərrüfat subyektlərinin və dövlətin hüquq və qanuni mənafelərini qorumaq ehtiyacından irəli gəlmişdir.

2. Qəsdən müflisləşmə cinayətinin **obyekti** sahibkarlıq fəaliyyəti subyektlərinin normal maliyyə fəaliyyətini təmin edən ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində müxtəlif təsərrüfat subyektlərinin və dövlətin əmlak mənafeləri çıxış edir.

3. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** qəsdən müflisləşmə zamanı müxtəlif kontragentlərin normal iqtisadi fəaliyyətinin təhlükə altına alınması və onlara real maddi ziyan vurulmasından ibarətdir. Digər tərəfdən, bu əməl qəsdən müflisləşən müəssisənin işçilərini işsiz qoyaraq, onların da mənafeyinə zərər vurur.

4. Qəsdən müflisləşmə cinayətinin **obyektiv cəhətinə** aşağıdakılar daxildir: a) ödəmə qabiliyyətsizliyinin yaradılması və ya artırılması; b) bunun nəticəsində xeyli miqdarda ziyan vurulması; c) törədilmiş əməllə vurulmuş ziyan arasında səbəbli əlaqənin olması.

5. Şərh edilən maddədə **ödəmə qabiliyyətsizliyi** müflisləşmənin zahiri əlaməti kimi nəzərdən keçirilir. Ödəmə qabiliyyətsizliyinin anlayışı CM-in 210-cu maddəsinin şərhinin 5-ci bəndində verilmişdir.

6. Ödəmə qabiliyyətsizliyinin **yaradılması** və ya **artırılması** kommersiya təşkilatı və ya fərdi sahibkar üçün əlverişsiz olan əqdlər bağlamada, zaminlik qaydasında özgəsinin borc öhdəliklərini öz üzərinə götürmədə, maddi-maliyyə vəsaitlərinin səmərəsiz istifadə edilməsində, əmlakın saxtakarlıqla özgəninkiləşdirilməsində, habelə özünün maliyyə-təsərrüfat vəziyyətini pisləşdirən sair hərəkətlərdə ifadə olunur.

7. Təhlil edilən cinayət **maddi tərkib** vasitəsilə ifadə olunmuşdur. Ona görə də cinayət xeyli miqdarda ziyan vurulduğu andan **başa çatmış** hesab edilir. CM-in 190-cı maddəsinin «Qeyd»inə əsasən burada **xeyli miqdar** dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ başa düşülür.

Vurulmuş ziyan qəsdən müflis olan kommersiya təşkilatının və ya fərdi sahibkarın kreditorlarına dəymiş maliyyə və ya əmlak xarakterli ziyanda, müflisləşmə ilə bağlı sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar dövlət büdcəsindən ayrılmış vəsaitlər şəklində dövlətə dəymiş ziyanda, müflisləşən təşkilatın işçilərinə dəymiş ziyanda ifadə oluna bilər.

8. Qəsdən müflisləşmə **subyektiv cəhətdən birbaşa** və ya **dolayı qəsdlə** törədilir. Təqsirkar öz əməlinin ictimai təhlükəli olduğunu dərk edir, bunun xeyli miqdarda ziyan vuracağını qabaqcadan görür və bunu etməyi arzu edir (birbaşa qəsd) və ya bunun baş verməsinə şüurlu surətdə yol verir.

9. Cinayət tərkibinin subyektiv cəhətinin daha bir zəruri əlaməti təhlil edilən əməlin **təqsirkarın özünün** və ya **digər şəxslərin mənafeyi naminə** törədilməsidir. Belə mənafelər həm əmlak xarakterli, həm də başqa xarakterli ola bilər (məsələn, vergilərin və ya borcların ödənilməsindən yayınmaq, sağlamlaşdırma üçün ayrılacaq vəsaitləri əldə etmək, xidmət üzrə yüksəlmək, öz yaxınları üçün əlverişli rəqabət şəraiti yaratmaq cəhdi və s.).

10. Cinayətin **subyekti xüsusidir**. Bu, kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar ola bilər.

11. CM-in 211.2-ci maddəsində qəsdən müflisləşmənin **ağırlaşdırıcı tərkib əlamətləri** — eyni əməllərin külli miqdarda ziyan vurması və ya digər ağır nəticələrə səbəb olması göstərilmişdir.

Şərh edilən maddədə **külli miqdar** yüz min manatdan artıq məbləğə bərabərdir (CM-in 190-cı maddəsinin qeydi).

Digər ağır nəticələrə qəsdən müflis olan təşkilatın və ya fərdi sahibkarın kreditorlarının tam iflasa uğraması, həyat əhəmiyyətli təsərrüfat subyektlərinin işinin pozulması, kreditorların və ya müflis olan təşkilatın işçilərinin psixi xəstəliyə tutulması və s. aid edilə bilər.

Maddə 212. Saxta müflisləşmə

212.1. Saxta müflisləşmə, yəni kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən kreditorlara olan borcun

ödənilməsini təxirə salmaq və ya möhlət almaq, habelə borcun azaldılmasına nail olmaq və ya borcu ödəməkdən yayınmaq üçün kreditorları aldatmaq məqsədi ilə özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etməsi xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

212.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 6 may 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir - «Azərbaycan» q., 7 iyun 2008-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. CM-in 212-ci maddəsində nəzərdə tutulmuş cinayət də ölkəmizin cinayət qanunu ilə ilk dəfə kriminal hesab edilmiş əməllərdəndir. Belə bir cinayət tərkibinin meydana gəlməsi bazar iqtisadiyyatı şəraitində sahibkarlıq subyektlərinin lazımi davranışının mövcud olması, habelə kreditorların və dövlətin əmlak mənafelərini qorumaq zərurətindən doğmuşdur.

2. Şərh edilən cinayətin **obyekti** bazar iqtisadiyyatı subyektlərinin normal təsərrüfat fəaliyyətini təmin edən ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində borclu müəssisənin kreditorlarının, habelə dövlətin əmlak mənafeləri çıxış edir.

3. Saxta müflisləşmənin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 212-ci maddəsində nəzərdə tutulan əməlin törədilməsi nəticəsində normal bazar münasibətləri iştirakçılarının mənafeyinə, xüsusilə də kredit münasibətlərinin iştirakçılarına mühüm ziyan vurulur. Bundan başqa, saxta müflisləşmə zamanı müflisləşən müəssisənin və ya fərdi sahibkarın sağlamlaşdırılması üçün dövlət büdcəsindən vəsaitlər ayrılır ki, bu da dövlətə ziyan vurulmasına gətirib çıxarır.

4. Təhlil edilən cinayətin **obyektiv cəhəti** kommersiya təşkilatının və ya fərdi sahibkarın özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etməsində ifadə olunmuş hərəkətlərdən, belə hərəkətlər nəticəsində xeyli miqdarda ziyan vurulmasından və həmin hərəkətlərlə vurulmuş ziyan arasında səbəbli əlaqənin olmasından ibarətdir.

5. Kommersiya təşkilatının, yaxud fərdi sahibkarın **ödəmə qabiliyyətinin olmamasının** əlamətləri «Müflisləşmə və iflas haqqında» 13 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində verilmişdir. Həmin əlamətlər mövcud olduqda borclu təşkilat və ya fərdi sahibkar özünü könüllü surətdə ödəmə qabiliyyəti olmayan elan edə bilər.

6. Özünü ödəmə qabiliyyəti olmayan elan etmə borclunun iflas haqqında ərizə ilə məhkəməyə müraciət etməsi («Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli Qanununun 4-cü maddəsi), habelə iflas prosesi məhkəmənin iştirakı olmadan həyata keçirildikdə borclunun (borclu dövlət müəssisəsi olduqda həmçinin İqtisadiyyat Nazirliyinin) qə-

bul etdiyi müvafiq qərarla («Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddəsi) həyata keçirilir. Ödəmə qabiliyyətinin olmaması haqqında qərar çıxarıldıqdan və ya iflas haqqında ərizə məhkəməyə verildikdən sonra qanunvericiliklə müəyyən edilmiş qaydada borclunun kreditorlarına məlumat verilir və iflas prosesi başlanır.

7. **Özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etmə** o halda mövcud olacaqdır ki, borclu özünü ödəmə qabiliyyəti olmayan elan edərkən «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununa və başqa qanunvericilik aktlarına tam riayət etmiş olsun, lakin ödəmə qabiliyyəti olmama haqqında qərar bilə-bilə saxta məlumatlar əsasında çıxarılmış olsun. Belə saxta məlumatlar borclunun əmlakı, maliyyə-təsərrüfat balansı, habelə onun ödəmə qabiliyyətinin müəyyən edilməsi üçün mühüm əhəmiyyət kəsb edən digər faktlar barədə həqiqətə uyğun gəlməyən, təhrif olunmuş məlumatlardan ibarət ola bilər. Saxta məlumatlar təsərrüfat-maliyyə göstəricilərini əks etdirən sənədlər formasında rəsmiləşdirilərək kreditorlara, məhkəməyə və ya başqa maraqlı şəxslərə təqdim edilə bilər.

8. CM-in 212.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **maddi tərkib** vasitəsi ilə ifadə edilmişdir və xeyli miqdarda ziyan vurulduğu andan **başa çatmış** olacaqdır. Burada **xeyli miqdar** iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğə bərabərdir (CM-in 190-cı maddəsinin «Qeyd»i).

Vurulmuş ziyan kreditorlara qaytarılmamış borcdan, onların xeyrinə icra edilməli olan, lakin icra edilməmiş əmlak xarakterli öhdəliklərdən, habelə saxta müflisləşən borclunun sağlamlaşdırılması üçün dövlət büdcəsindən ayrılan vəsaitlərdən ibarət ola bilər. Hər bir halda vurulmuş ziyanla saxta müflisləşmənin ifadə edildiyi hərəkət arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

9. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** və **xüsusi məqsədlə** törədilir. Təqsirkar öz əməlinin ictimai təhlükəli olduğunu dərk edir, bununla xeyli miqdarda ziyan vuracağını qabaqcadan görür və CM-in 212-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün həmin əməli törətməyi arzu edir.

10. Saxta müflisləşmə **kreditorlara olan borcun ödənilməsini təxirə salmaq** və ya **möhlət almaq**, habelə **borcun azaldılmasına nail olmaq** və ya **borcu ödəməkdən yayınmaq** üçün kreditorları **aldatmaq məqsədi** ilə törədilir.

11. Kreditorlara olan borcun ödənilməsini təxirə salmaq və ya möhlət almaq, habelə borcun azaldılmasına nail olmaq və ya borcu ödəməkdən azad olmaq qanunvericilik əsasında, o cümlədən «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 35-37-ci maddələri ilə nəzərdə tutulmuş qaydada kreditorlarla barışıq sazişi bağlamaq yolu ilə, yaxud rəsmi olaraq müflis elan olunmanın nəticəsi kimi mümkündür.

12. **Kreditorları aldatma** özünü ödəmə qabiliyyəti olmayan elan etmə zamanı onlara yalan məlumatların verilməsi yolu ilə edilir. Belə aldatma balansda öz əmlakını düzgün göstərməməkdə, maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən sənədləri saxtalaşdırmada və s. bu kimi hərəkətlərdə ifadə oluna bilər.

Yalan və ya təhrif olunmuş məlumatların təsdiq edilməsi əsasında əldə edilmiş barışıq sazişi məhkəmə qaydasına etibarsız sayılır («Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikası Qanununun 39-cu maddəsi).

13. Şərh edilən cinayətin **subyekti** CM-in 211-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ilə eynidir (CM-in 211-ci maddəsinin şərhinin 10-cu bəndinə bax).

14. CM-in 212.2-ci maddəsində saxta müflisləşmənin **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur. Həmin əlamətlər CM-in 211-ci maddəsinin ağırlaşdırıcı tərkib əlamətləri ilə eynidir (CM-in 211-ci maddəsinin şərhinin 11-ci bəndinə bax).

Maddə 213. Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma

213.1. Xeyli miqdarda vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

213.2. Eyni əməllər:

213.2.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

213.2.2. külli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

213.3. Bu Məcəllənin 213.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «xeyli miqdar» dedikdə iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, «külli miqdar» dedikdə yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, «xüsusilə külli miqdar» dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 31 may 2007-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmiş, 16 may 2008-ci il, 6 may 2016-cı il, 20 oktyabr 2017-ci il və 24 aprel 2018-c il tarixli qanunları ilə düzəliş edilmişdir - «Azərbaycan» q., 13 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 25 may 2016-cı il; 9 noyabr 2017-ci il; 16 may 2018-ci il).*

1. CM-in 213-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** dövlətin maliyyə-vergi və sosial sığorta sisteminin normal fəaliyyətini təmin edən ictimai münasibətlərdir.

2. **Vergilər** istənilən dövlətin iqtisadi sisteminin zəruri həlqələrindən biri olub, ictimai həyatın bütün sahələrinin maliyyələşdirilməsi üçün başlıca mənbə rolunu oynayır. Ona görə də vergilərdən yayınma təkcə ölkənin iqtisadi sistemini deyil, ictimai inkişafın digər istiqamətlərini də təhlükə altına alır.

Məcburi dövlət sosial sığorta haqqı fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş sosial sığorta ödəmələrinin əsas mənbəyidir. Xüsusi vahid fondda toplanan həmin haqlar başlıca olaraq sığorta hadisəsi baş verdikdə pensiya və müavinət şəklində fiziki şəxslərə ödənilir.

3. Respublikamızda vergilərin müəyyən edilməsi, ödənilməsi və bununla bağlı digər məsələlər Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 yanvar 2001-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzim olunur. Məcburi dövlət sosial sığorta haqlarının hüquqi tənzimi ilə əlaqədar məsələlər isə «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının 18 fevral 1997-ci il tarixli, 250-IQ saylı Qanunu və digər normativ-hüquqi aktlarla həyata keçirilir. **İşsizlikdən sığortanın** hüquqi tənzimi isə Azərbaycan Respublikasının «İşsizlikdən sığorta haqqında» 30 iyun 2017-ci il tarixli Qanununda nəzərdə tutulmuşdur.

4. Şərh edilən cinayətin **predmeti** vergilər, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarıdır.

VM-in 11-ci maddəsinə əsasən **vergi** dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

Vergilər bilavasitə mənbədən, bəyannamə və bildiriş üzrə ödənilir (VM-in 5-ci maddəsi).

VM-in 4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasında üç qrup vergilər müəyyən edilmişdir: dövlət vergiləri, muxtar respublika vergiləri və yerli vergilər (bələdiyyə vergiləri). Bunların hər birinə aid olan vergi növləri VM-in 6-cı, 7-ci və 8-ci maddələrində göstərilmişdir. Həmin normalarda göstərilən istənilən növ verginin ödənilməsindən yayınma müvafiq əlamətlər olduqda CM-in 213-cü maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

«Sosial sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə əsasən **məcburi dövlət sosial sığorta haqqı** sığortalamaya görə sığortaçı təşkilata verilən pul vəsaitidir. Məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir və sığortaedənin (olunanın) vəsaitləri hesabına ödənilir.

«İşsizlikdən sığorta haqqında» Qanunun 2.0.1-ci və 2.0.7-ci maddələrinə görə **işsizlikdən sığorta** sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsinə yönəldilmiş təminat forması, **işsizlikdən sığorta haqqı** sığortaolunan və sığortaedən tərəfindən sığortaçıya ödənilməli olan pul məbləğidir.

5. CM-in 213-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** xeyli miqdarda vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta

haqlarını ödəməkdən yayınmanı nəzərdə tutur.

Təhlil edilən normanın dispozisiyasından görünür ki, orada təsbit edilmiş cinayət əməli subyektin öz konkret öhdəliyini – vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını ödəmək vəzifəsini yerinə yetirməməsi formasında **hərəkətsizliyi** nəzərdə tutur. Başqa sözlə, araşdırılan cinayət əməli hərəkətsizliklə törədilir. Lakin şəxs vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmaq üçün müxtəlif aktiv hərəkətlər də edə bilər.

6. Ümumiyyətlə, vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma əməli başlıca olaraq **iki qrup üsulla** törədilə bilər: 1) vergilərin, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarının ödəyicisi tərəfindən saxta mühasibat və vergi sənədlərinin tərtib edilməsi, həmin sənədlərə yanlış məlumatların daxil edilməsi, əmlakın, gəlirlərin və ümumiyyətlə, vergitutma obyektinin gizlədilməsi, işçilərin sayının düzgün göstərilməməsi, işçilərlə əmək münasibətlərinin rəsmiləşdirilməməsi, onların real əmək haqlarının gizlədilməsi və s. üsullarla; 2) mühasibat və vergi sənədlərində hər şeyin qaydasında olmasına baxmayaraq, vergilərin və məcburi dövlət sosial sığorta haqlarının ödənilməməsi.

Birinci üsullardan istifadə edildiyi halda təqsirkar vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmaq üçün qanunsuz yolla həmin vergilərin, işsizlikdən sığorta və haqların ödənilməməli olması görüntüsünü yaradır və bu üsulla vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını **ödəməkdən yayınır**. İkinci halda isə mövcud sənədlərdə şəxsin vergiləri, işsizlikdən sığorta və həmin haqları ödəməli olduğu əksini tapmış olsa da, o, vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını qanunla müəyyən edilmiş müddətin keçməsinə baxmayaraq, **qəsdən ödəmir**. Lakin ikinci halda şəxsin əməli CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyətinə o zaman səbəb olacaqdır ki, onun vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını **ödəməmək niyyəti** mövcud olsun. Əks təqdirdə, məsələn, maddi-maliyyə çətinlikləri və başqa səbəblərdən (şəxsin başqa yerdə olması, uzun müddət xəstə olması və s.) şəxs vergilərin, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarının ödənilməsini gecikdirdiyi halda cinayət məsuliyyəti istisna ediləcəkdir. Hər bir halda əsas diqqət subyektiv meyarlara, yəni şəxsin vergiləri, işsizlikdən sığorta və həmin haqları ödəmək niyyətinin olub-olmamasına yönəlməlidir.

7. Vergiləri ödəməkdən yayınma **fiziki şəxslər** tərəfindən daha çox qanunvericilikdə nəzərdə tutulmuş hallarda gəlirlər haqqında bəyannamə təqdim etməməklə, gəlirlərin həcmini azaltmaqla və ya xərclərin həcmini artırmaqla, əmlakı uçotdan gizlətməklə, öz fəaliyyəti və əlavə gəlir mənbələri haqqında məlumatları təhrif etməklə, bəyannamə verməyə borclu olan şəxs olduğunu gizlətməklə, vergi güzəştləri əldə etmək üçün saxta sənədlər təqdim etməklə və digər üsullarla, **hüquqi şəxslər** tərəfindən isə mühasibat və vergi sənədlərinə gəlirlərin azaldılmasına, xərclərin artırılmasına və ya vergi tutulması üçün əhəmiyyət kəsb edən digər faktların qəsdən saxtalaşdırılmasına yönəlmiş həqiqətə uyğun gəlməyən, yalan məlumatların daxil edilməsi, əmlakın gizlədilməsi, təşkilatın həyata keçirdiyi kommersiya və ya başqa təsərrüfat-maliyyə əməliyyatlarının qeydiyyata alınmaması və s. üsullarla törədilə bilər.

Məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma isə mühasibat sənədlərinə, dövlət sosial müdafiə fonduna təqdim edilən hesabatlara saxta və təhrif olunmuş məlumatların daxil edilməsi, belə hesabatların verilməməsi, işçilərin sayının və ya onlara ödənilən əmək haqqının gizlədilməsi, yaxud qəsdən az göstərilməsi, işçilərlə əmək münasibətlərinin rəsmiləşdirilməməsi və s. üsullarla törədilə bilər.

Bundan başqa, vergilərin, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarının, guya ki, ödənilmiş olduğu barədə saxta qəbzlərin, bank ödəniş sənədlərinin tərtib və təqdim edilməsi, ödəmə imkanını istisna edən üzrlü səbəblər barədə saxta sənədlər təqdim edilməsi də şərh edilən cinayətin törədilmə üsulları sırasına aid edilə bilər.

8. CM-in təhlil edilən maddəsi üzrə cinayət məsuliyyətinin yaranması üçün subyektin ödəməkdən yayındığı vergilər, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqları xeyli miqdarda olmalıdır. Burada **xeyli miqdar** dedikdə **iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ** başa düşülür (CM-in 213-cü maddəsinin «Qeyd»i).

9. Şərh edilən cinayət **formal tərkib** vasitəsilə ifadə olunmuşdur. Ona görə də xeyli miqdarda vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma anından (faktiki olaraq saxta və ya təhrif olunmuş mühasibat və vergi sənədlərini lazımi qaydada rəsmiləşdirərək tərtib etmə anından, həmin sənədlərin təqdim edilməli olmasına baxmayaraq, onların təqdim edilmə vaxtının bitdiyi andan (vergi tutma obyektləri gizlədilərkən), vergiləri və həmin haqları ödəmək üçün müəyyən olunmuş müddətin başa çatdığı andan və s.) cinayət başa çatmış olacaqdır.

10. CM-in 213-cü maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar xeyli miqdarda vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayındığını dərk edir və bunu törətməyi arzu edir. Əgər şəxs mühasibat uçotunda yol verilmiş səhvlər, yanlışlıqlar, hesablama metodlarından düzgün istifadə etməmə, qanunvericiliyin tətbiqi ilə bağlı məhkəmə mübahisələrindən doğan səhvlər nəticəsində vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını düzgün hesablamamış və ya düzgün ödəməmişdirsə, onun CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyəti istisna olunur.

11. CM-in 213-cü maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti xüsusidir.** Bu, qanunvericiliyə uyğun olaraq vergi və ya məcburi dövlət sosial sığorta haqları ödəyicisi olan fiziki şəxslər, habelə hüquqi şəxslərin məsul işçiləri (rəhbəri, baş mühasibi, eləcə də qanunvericiliklə və ya əmək müqaviləsi ilə mühasibat sənədlərinin tərtib edilməsi və rəsmiləşdirilməsi, müəssisənin əmlakının və təsərrüfat-maliyyə fəaliyyətinin uçotunun aparılması vəzifəsi həvalə edilmiş digər şəxsləri) ola bilər. **İşsizlikdən sığorta haqqının ödənilməməsi əməlinin subyektləri** qismində sığortaedən (Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq əmək müqaviləsi bağladıqları işçiləri işsizlikdən sığorta edən işəgötürənlər), yəni hüquqi şəxslərin, habelə onların və xarici hüquqi

şəxslərin filialları və nümayəndəliklərinin, dövlət orqanlarının, seçkili orqanların rəhbərləri, sığorta haqqını ödəməyə məsul olan digər səlahiyyətli şəxslər, habelə fiziki şəxslər çıxış edirlər.

12. CM-in 213.2-ci maddəsində vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmanın aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur: 1) eyni əməlin mütəşəkkil dəstə tərəfindən törədilməsi; 2) həmin əməlin külli miqdarda törədilməsi.

Mütəşəkkil dəstə tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34-cü maddəsində verilmişdir. Belə mütəşəkkil dəstə həm eyni bir hüquqi şəxsin işçilərindən, həm bir-biri ilə əlaqəli iqtisadi fəaliyyəti həyata keçirən hüquqi şəxsin işçilərindən və fiziki şəxslərdən, həm də vergi ödəyicisi olan subyektlərin əməkdaşlarından, vergi nəzarətini həyata keçirən vəzifəli şəxslərdən və başqa şəxslərdən ibarət ola bilər.

CM-in 213-cü maddəsinin «Qeyd»inə əsasən burada **külli miqdar** əlaməti ödənilməsindən yayınılan vergi, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarının **100.0000** manatdan yuxarı, lakin **500.000** manatdan artıq olmayan məbləğin olmasını nəzərdə tutur.

13. CM-in 213.3-cü maddəsində vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma əməlinin xüsusilə külli miqdarda törədilməsi cinayət tərkibinin **xüsusilə ağırlaşdırıcı əlaməti** kimi nəzərdə tutulmuşdur. CM-in 213-cü maddəsinin «Qeyd»inə əsasən «xüsusilə külli miqdar» dedikdə **beş yüz min manatdan yuxarı olan** məbləğ başa düşülür.

14. **CM-in 213.1-213.3-cü** maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir (CM-in 73-2.1-ci maddəsi).

Burada **cinayət nəticəsində vurulmuş ziyan** dedikdə təhlil edilən cinayətin törədilməsi ilə faktiki olaraq ödənilməmiş vergilərin, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarının miqdarı başa düşülür.

CM-in 213-cü maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsinə görə şəxs cinayət məsuliyyətindən **yalnız bir dəfə** azad edilir (CM-in 72-ci maddəsinin «Qeyd»i).

Maddə 213-1. Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, belə məhsulların (malların) nağd qaydada alqı-satqısı

213-1.1. Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan xeyli miqdarda satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

213-1.2. Bu Məcəllənin 213-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər:

213-1.2.1. külli miqdarda törədildikdə;

213-1.2.2. təkrar törədildikdə;

213-1.2.3. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

213-1.3. Pərakəndə satış istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alma —

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

213-1.4. Bu Məcəllənin 213-1.3-cü maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 213-1.1-ci maddəsində «xeyli miqdar» dedikdə beş yüz manatdan iki min manatadək olan məbləğ, 213-1.2-ci maddəsində «külli miqdar» dedikdə iki min manatdan yuxarı olan məbləğ, 213-1.3-cü maddəsində «xeyli miqdar» dedikdə əlli manatdan min manatadək olan məbləğ, 213-1.4-cü maddəsində «külli miqdar» dedikdə isə min manatdan yuxarı olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 20 iyun 2003-cü il Qanunu ilə əlavə edilmiş, Azərbaycan Respublikasının 31 may 2007-ci il, 16 may 2008-ci il, 7 mart 2012-ci il 20 oktyabr 2015-ci il, 18 mart 2016-cı il, 6 may 2016-cı il, 16 dekabr 2016-cı il və 31 may 2017-ci il tarixli qanunlarla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 6 avqust 2003-cü il; 13 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 16 mart 2012-ci il; 9 dekabr 2015-ci il; «Azərbaycan Respublikasının Qanunvericilik Toplusu», 2016-cı il, №4, maddə 634; 25 may 2016-cı il; 31 dekabr 2016-cı il; 19 iyul 2017-ci il).*

1. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** aksizli mallara aksiz markalarının tətbiq edilməsi və aksiz markası ilə markalanmalı olan malların dövriyyəsinə nəzarətin həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

2. Təhlil edilən cinayətin predmeti aksiz markası ilə markalanmalı olan, lakin belə marka ilə markalanmamış mallardır. Azərbaycan Respublikası VM-in 190.1-ci maddəsinə əsasən aksizli mallar aşağıdakılardır: a) içməli spirt, pivə və spirtli içkilərin bütün növləri; b) tütün məmulatları; c) neft məhsulları; ç) minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla); d) istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr; e) idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz. Lakin aksiz markaları həmin malların heç də hamısına tətbiq edilmir. Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları»nın 2-ci bəndinə görə **aksiz markaları ilə markalanmalı olan mallara** içməli spirt, spirtli içkilərin bütün növləri, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içki-

lər, tütün məmulatları aiddir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2001-ci il tarixli 10 saylı Qərarı ilə təsdiq edilmiş «Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydaları»nın 2.1-ci bəndinə əsasən yuxarıda göstərilən mallara aksiz markaları yalnız o halda tətbiq edilir ki, onlar qablaşdırılmış halda olsun. Həmin malların qablaşdırılmış halda olması dedikdə onların kütləvi istehlakçılara satılmaq üçün müvafiq vəziyyətə gətirilmiş olması başa düşülməlidir. Qablaşdırılmamış mallara aksiz markaları tətbiq edilmir.

Qaydaların 4.1-ci bəndinə əsasən aksiz markaları həm Azərbaycan Respublikası ərazisində istehsal edilən, həm ölkə ərazisinə idxal edilən, həm də müvafiq dövlət orqanları tərəfindən müsadirə olunmuş mallara tətbiq olunur. Həmin Qaydaların 4.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının ərazisində istehsal olunan markalanmalı mallara tətbiq edilən aksiz markaları bu malların istehsal olunduğu yerdə onların istehsalçıları tərəfindən yapışdırılır. Qaydaların 4.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının ərazisinə idxal olunan markalanmalı mallara (pivə istisna olmaqla) tətbiq edilən aksiz markaları həmin malların istehsalçıları və ya Azərbaycan Respublikasının hüdudlarından kənar onların satışında vasitəçilik fəaliyyətini həyata keçirən subyekt tərəfindən yapışdırılır. Azərbaycan Respublikasının ərazisinə idxal olunan pivəyə tətbiq olunan aksiz markaları Azərbaycan Respublikasının gömrük buraxılış məntəqələrində həmin malı idxal edən şəxs tərəfindən gömrük orqanlarının əməkdaşlarının nəzarəti altında yapışdırılır.

3. Aksiz markalarına olan ümumi tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2001-ci il tarixli 10 saylı Qərarı ilə təsdiq edilmiş «Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydaları»nın 3-cü bəndində müəyyən edilmişdir. Həmin tələblərə cavab verməyən aksiz markaları ilə, qanunsuz yollarla əldə edilmiş, saxta aksiz markaları ilə, habelə həmin növ mallar üçün nəzərdə tutulmamış aksiz markaları ilə markalanmış mallar da aksiz markası olmayan mallar hesab edilməli və təhlil edilən cinayətin predmeti sayılmalıdır.

Bu zaman nəzərə almaq lazımdır ki, təhlil edilən cinayətin predmetini təşkil edən mallara tətbiq edilmiş aksiz markaları təqsirkar tərəfindən qanunsuz olaraq hazırlanmışdırsa (saxtadırsa) və ya əldə edilmişdirsə, onda onun əməli müvafiq əlamətlər olduqda **cinayətlərin məcmusu qaydasında** CM-in 205-1-ci və 213-1-ci maddələri üzrə tövsif ediləcəkdir.

4. Şərh edilən maddədə nəzərdə tutulmuş cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, aksiz markaları ilə markalanmalı olan, lakin belə marka ilə markalanmamış malların dövriyyəyə buraxılması aksiz vergisinin ödənilməməsinə, nəticədə isə dövlətin iqtisadi sisteminə zərər yetirilməsinə səbəb olur. Digər tərəfdən, aksiz markası olmayan malların dövriyyəyə çıxarılması onların istehsal mənşəyini və lazımi standartlara cavab verib-verməməsini də şübhə altına alır.

5. CM-in 213-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhəti bu cinayətin alternativ olaraq aşağıdakı hərəkətlərdən hər hansı birinin edilməsi ilə törədildiyini nəzərdə tutur: a) aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan xeyli miqdarda satma; b) həmin məhsulları (malları) xeyli miqdarda satış məqsədi ilə saxlama; c) həmin məhsulları (malları) xeyli miqdarda istehsal binasının hüdudlarından kənara çıxarma; ç) həmin məhsulları (malları) xeyli miqdarda idxal etmə. Göstərilən hərəkətlərdən hər hansı birinin törədilməsi digər tərkib əlamətləri olduqda şərh edilən maddə üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

6. CM-in şərh edilən maddəsinin məzmununa əsasən aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan **satma** dedikdə həmin məhsulların (malların) istənilən üsulla (alqı-satqı, bağışlama, dəyişmə və s.) başqasına — hüquqi və ya fiziki şəxsə verilməsi (özgəninkiləşdirilməsi) başa düşülməlidir. Aksiz markası ilə markalanmamış xeyli miqdarda malların satılması həm belə malların vahid əqd nəticəsində, həm də bu miqdarda vahid partiyadan olan malların müxtəlif vaxtlarda, lakin vahid niyyətlə özgəninkiləşdirilməsi zamanı mövcud olacaqdır. Vahid əqd nəticəsində aksiz markası olmayan müxtəlif malların xeyli miqdarda satılması da CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

7. Aksiz markası ilə markalanmamış məhsulların (malların) satış məqsədi ilə **saxlanması** dedikdə belə məhsullara (mallara) müddətindən və yerindən (anbarda, istehsal binasında, mağazada, mənzildə, gizli saxlanc yerində və s.) asılı olmayaraq faktiki malik olma başa düşülməlidir. Lakin saxlama hərəkətləri xüsusi məqsədlə — həmin malların satışı məqsədi ilə həyata keçirildikdə şərh edilən cinayət əməlinin obyektiv cəhətini yaradacaqdır. Satış məqsədi olmadan (məsələn, şəxsi istehlak üçün, təkrar emal edilmək üçün, məhv edilmək üçün və s.) saxlama əməli CM-in şərh edilən maddəsi üzrə cinayət məsuliyyətinə səbəb ola bilməz.

İstehsalçı və ya idxalçı tərəfindən aksiz markalarının müvafiq mallara yapışdırılmasının müddəti müəyyən edilmədiyindən müvafiq qaydada qablaşdırılmış, lakin belə aksiz markası ilə markalanmamış məhsulların istehsalçının (və ya idxalçının) anbarında və ya başqa saxlanc yerində olması CM-in şərh edilən maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olmayacaqdır. Lakin belə malların aksiz markası olmadan satışa çıxarılacağı sübut edildikdə (məsələn, belə malların bir hissəsi artıq aksiz markası olmadan satışa buraxıldıqda, onlar üçün aksiz markası sifariş edilmədikdə, həmin mallar müvafiq maliyyə-hesabat uçotundan gizlədildikdə və s.) təhlil edilən maddə üzrə cinayət məsuliyyəti yaranacaqdır.

Aksiz markası olmayan mallar satış məqsədi ilə ticarət obyektlərində saxlanıldıqda həmin malları aksiz markası olmadan istehsal binasının hüdudlarından kənara çıxarmış və ya idxal etmiş şəxs də müvafiq əsaslar olduqda CM-in şərh edilən maddəsi üzrə cinayət məsuliyyəti daşıyacaqdır.

8. **Aksiz markası ilə markalanmamış məhsulları (malları) istehsal binasının hüdudlarından kənara çıxarma** dedikdə həmin məhsulların (malların) istənilən məqsədlə onların qablaşdırılmış vəziyyətə gətirildiyi istehsal binasının ərazisindən çıxarılması başa düşülməlidir.

Azərbaycan Respublikası VM-in 184.1.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində aksiz vergisinin vergitutma obyekti istehsal edilən ak-

sizli malların istehsal binasının hüdudlarından kənara buraxılmasıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2001-ci il tarixli 10 saylı Qərarı ilə təsdiq edilmiş Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydalarının 4.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində istehsal olunan markalanmalı mallara tətbiq edilən aksiz markaları bu malların istehsal olunduğu yerdə onların istehsalçıları tərəfindən yapışdırılır. Ona görə də belə malları aksiz markası yapışdırılmadan istehsal binasının hüdudlarından kənara istənilən üsulla çıxarma CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhətini yaradacaqdır.

Burada istehsal binası dedikdə Azərbaycan Respublikası VM-in 184.2-ci maddəsinə əsasən istehsalın olduğu ərazidə yerləşən anbarlar, köməkçi anbar sahələri və digər oxşar binalar başa düşüləcəkdir. Müvafiq malın hazır vəziyyətə gətirildiyi istənilən obyekt də istehsal binası hesab ediləcəkdir.

Aksiz markası ilə markalanmamış məhsullar (mallar) istehsal binasının hüdudlarından xeyli miqdarda çıxarıldıqda şərh edilən cinayət əməlinin obyektiv cəhəti yaranacaqdır. Bu zaman eyni bir məhsulun müxtəlif vaxtlarda (hissə-hissə), lakin vahid niyyətlə, yaxud müxtəlif məhsulların eyni bir partiyada vahid niyyətlə çıxarılması xeyli miqdar əlamətini yaratdıqda da CM-in şərh edilən maddəsi üzrə cinayət məsuliyyəti yaranacaqdır.

9. Aksiz markası ilə markalanmamış məhsulları (malları) **idxal etmə** dedikdə belə məhsulları (malları) Azərbaycan Respublikasının gömrük ərazisinə gətirmə başa düşülməlidir. Bu zaman nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası ərazisinə idxal edilən pivədən başqa digər aksizli mallara aksiz markaları onların istehsalçıları və ya Azərbaycan Respublikası hüdudlarından kənar onların satışında vasitəçilik fəaliyyətini həyata keçirən subyekt tərəfindən yapışdırılır. Deməli, belə mallar Azərbaycan Respublikası ərazisinə gətirilərkən onlara artıq aksiz markası yapışdırılmış olmalıdır. Azərbaycan Respublikası ərazisinə idxal edilən pivəyə isə aksiz markası Azərbaycan Respublikasının gömrük buraxılış məntəqəsində həmin malı idxal edən şəxs tərəfindən gömrük orqanlarının nəzarəti altında yapışdırılır. Deməli, idxal edilmiş pivə gömrük nəzarətindən çıxarılarkən aksiz markası ilə təmin edilmiş olmalıdır.

10. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhətinin daha bir zəruri əlaməti cinayətin predmetini təşkil edən məhsulların (malların) xeyli miqdarda olmasıdır. Burada **xeyli miqdar** dedikdə CM-in 213-1-ci maddəsinin «Qeyd»inə əsasən aksiz markası ilə markalanmamış məhsulların (malların) dəyərinin beş yüz manatdan iki min manatadək olması başa düşülür. Aksiz markası olmayan malların dəyərini müəyyən etmək çətinlik yaratdıqda onların müvafiq bazar qiymətləri əsas götürülməlidir.

Aksiz markası ilə markalanmamış malların dəyəri 500 manatdan az olduqda təqsirkar şəxslərin əməli inzibati məsuliyyətə səbəb olacaqdır (İXM-in 450-ci maddəsi).

11. Şərh edilən cinayət əməli **formal tərkib** vasitəsi ilə təsbit olunmuşdur. CM-in 213-1.1-ci maddəsinin dispozisiyasında sadalanmış hərəkətlərdən hər hansı birinin edildiyi andan cinayət başa çatmış olacaqdır. Aksiz markası ilə markalanmamış malları satış məqsədi ilə saxlama uzanan cinayətdir və saxlamanın başlandığı andan cinayət başa çatmış hesab edilməlidir.

12. CM-in 213-1.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** göstərilmişdir. Burada **külli miqdar** dedikdə şərh edilən maddənin dispozisiyasında nəzərdə tutulan əməllərin 2000 manatdan artıq dəyəri olan aksiz markası ilə markalanmamış məhsullar (mallar) barəsində törədilməsi başa düşülməlidir. Cinayətin təkrar törədilməsinin və qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsinin anlayışı CM-in müvafiq olaraq 16-cı və 34-cü maddələrinin şərhində verilmişdir.

13. CM-in 213-1.3-cü maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda satmada və belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda almada ifadə olunur.

Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) satmanın anlayışı bu maddənin şərhinin 6-cı bəndində göstərilmişdir. Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) **alma** dedikdə həmin məhsulları (malları) istənilən üsulla (bilavasitə, poçtla, vasitəçinin köməyi ilə və s.) əvəzli və ya əvəzsiz olaraq başqasından alma, bəxşiş kimi qəbul etmə, başqa mallara və ya xidmətlərə dəyişməklə əldə etmə və istənilən başqa üsulla onlara yiyələnmə başa düşülməlidir. Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) alma əməlinə görə CM-in 213-1.3-cü maddəsi ilə cinayət məsuliyyəti o halda yaranır ki, belə məhsullar (mallar) **satış məqsədi ilə** əldə edilmiş olsun. Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları»nın 3.2-ci bəndinə görə markalanmalı malların (tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla) satılması və satış məqsədi ilə alınması zamanı həmin malların dəyərinin nağd qaydada ödənilməsinə yol verilmir.

CM-in 213-1.3-cü maddəsində **xeyli miqdar** dedikdə əlli manatdan min manatadək olan məbləğ başa düşülür.

14. Pərakəndə satış istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada **külli miqdarda** satma və ya belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada **külli miqdarda** alma CM-in 213-1.3-cü maddəsində təsbit olunan cinayətin ağırlaşdırıcı halıdır. Burada «külli miqdar» dedikdə min manatdan yuxarı olan məbləğ başa düşülür.

15. CM-in şərh edilən maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən təqsirin birbaşa qəsd forması** ilə törədilir. Təqsirli şəxs aksiz markası ilə markalanmalı olan, lakin belə marka ilə markalanmamış xeyli miqdarda məhsullar (mallar) barəsində CM-in 213-1.1-ci və 213-1.3-cü maddələrində sadalanan hərəkətləri etdiyini dərk edir və məhz həmin hərəkətləri etməyi arzulayır.

Təhlil edilən cinayət əməlləri aksiz markası olmadan malları saxlamada (CM-in 213-1.1-ci maddəsi) və aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda almada (CM-in 213-1.3-cü maddəsi) ifadə olunduqda subyektiv cəhətin daha bir zəruri əlaməti həmin hərəkətin **xü-**

susi məqsədlə — bu malların satışı məqsədi ilə edilməsidir. Burada satış məqsədini də geniş mənada başa düşmək lazımdır. Belə ki, aksiz markası ilə markalanmamış məhsulların (malların) istənilən üsulla (alqı-satqı, bağışlama, dəyişmə və s.) özgəninkiləşdirmək məqsədilə saxlanması və alınması digər əlamətlər də olduqda CM-in 213-1-ci maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyətinə səbəb olacaqdır.

16. Təhlil edilən cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər. Lakin CM-in 213-1.1-ci və 213-1.3-cü maddələrinin dispozisiyasında sadalanmış hərəkətlər hüquqi şəxs tərəfindən edildikdə həmin hərəkətləri bilavasitə icra edən şəxslərlə yanaşı, bu hüquqi şəxsin müvafiq səlahiyyətli şəxsləri də (rəhbəri, şöbə müdiri, anbardarı və s.) həmin hərəkətlərdə iştirak dərəcələrinə və rollarına görə cinayət məsuliyyətinə cəlb ediləcəklər.

Maddə 213-2. Qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma

Qiymətli metallar və qiymətli daşlar hasil, istehsal etmiş subyektlər tərəfindən yerin təkindən hasil olunmuş qiymətli metallar və qiymətli daşlar, standarta uyğun affinaj edilmiş qiymətli metallar, habelə rekuperasiya edilmiş qiymətli daşlar çeşidlənmiş şəkildə satılarkən, onları ilkin olaraq dövlətə satmaqdan yayınma, əgər bu əməl xeyli miqdarda törədilibsə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «xeyli miqdar» dedikdə yeddi min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 17 aprel 2007-ci il tarixli Qanunu ilə əlavə edilmişdir, 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 24 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in şərh olunan maddəsində təsbit olunmuş cinayətin **obyekti** qiymətli metalların və qiymətli daşların dövriyyəsi ilə əlaqədar dövlətin mənafelərini təmin edən iqtisadi xarakterli ictimai münasibətlərdir.

Təhlil edilən cinayət əməlinin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, həmin əməllərin törədilməsi ilə dövlətin qızıl-valyuta ehtiyatlarına daxil edilməli olan qiymətli metallar və daşlar kənar alıcıların əlinə keçə bilər ki, bu da dövlətin maliyyə-iqtisadi mənafelərinə ziyan yetirir.

2. Bu normada təsbit olunmuş cinayətin **predmeti** yerin təkindən hasil olunmuş qiymətli metallar və çeşidlənmiş şəkildə olan qiymətli daşlar, standarta uyğun affinaj edilmiş qiymətli metallar, rekuperasiya edilmiş və çeşidlənmiş şəkildə olan qiymətli daşlardır.

«Qiymətli metallar və qiymətli daşlar» haqqında Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli Qanununun 1.1.1-ci maddəsinə müvafiq olaraq, **qiymətli metallar** istənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş (saflaşdırılmış, təmizlənmiş halda), habelə xammalda, xəlitələrdə, yarımfabrikatlarda, sənaye məhsullarında, kimyəvi birləşmələrdə, zərgərlik və digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarında olan qızıl, gümüş, platin və platin qrupu metallarıdır (palladium, iridium, osmium, rodium və rutenium).

Həmin Qanunun 1.1.2-ci maddəsinə əsasən **qiymətli daşlar** işlənilmiş və işlənilməmiş şəkildə olan təbii almazlar, zümrüdlər, yaqutlar, sapfirlər, aleksandritlərdir.

Hasil olunmuş qiymətli metallar və qiymətli daşlar dedikdə yerin təkindən faydalı qazıntı şəklində əldə edilmiş qiymətli metallar və qiymətli daşlar nəzərdə tutulur.

3. **Standarta uyğun affinaj edilmiş qiymətli metallar** dedikdə qarışıqlardan və kənar komponentlərdən təmizlənmiş, Azərbaycan Respublikasının dövlət standartlarına, texniki şərtlərə və beynəlxalq standartlara uyğun keyfiyyətə çatdırılmış qiymətli metallar nəzərdə tutulur («Qiymətli metallar və qiymətli daşlar» haqqında Azərbaycan Respublikası Qanununun 1.1.7-ci maddəsi).

Rekuperasiya edilmiş qiymətli daşlar dedikdə müəyyən səbəblərə görə istifadədən çıxarılmış avadanlıq və cihazlardan, texniki təyinatlı digər məmulatlardan, habelə tərkibində qiymətli daşlar olan tullantılardan təkrar əldə edilmiş, müvafiq texniki şərtlərə və ya almazların təsnifatına uyğun keyfiyyətə çatdırılmış (təmizlənmiş) qiymətli daşlar başa düşülür («Qiymətli metallar və qiymətli daşlar» haqqında Azərbaycan Respublikası Qanununun 1.1.8-ci maddəsi).

Çeşidlənmiş şəkildə qiymətli daşlar isə təsdiq olunmuş kolleksiya nümunələri və təsnifatlar əsasında hasil olunmuş mineral xammaldan qiymətli daşların ayrılması, habelə onların dünya bazarında qəbul olunmuş növlərə bölünməsini təmin edən zənginləşmə prosesi mərhələsini keçmiş qiymətli daşlardır (həmin Qanunun 1.1.6-cı maddəsi).

4. CM-in 213-2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** bu cinayətin predmetini təşkil edən xeyli miqdarda qiymətli metalları və qiymətli daşları satarkən, onları ilkin olaraq dövlətə satmadan yayınmada ifadə olunur.

«Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, digər qəbildən olan müqavilələrdə, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada verilmiş xüsusi razılıqlarda (lisenziyalarda) başqa hallar nəzərdə tutulmadıqda, yerin təkindən çıxarılmış qiymətli metallar və qiymətli daşlar, onların hasilatı zamanı qanuni alınan digər məhsullar və gəlirlər qiymətli metalların və qiymətli daşların hasilatı subyektlərinə məxsusdur. Həmin Qanunun 15.1-ci maddəsində isə deyilir ki, əqdlərin şərtlərində başqa hal nəzərdə tutulmamışdırsa, affinajdan sonra qiymətli metallara mülkiyyət hüququ onların ilkin mülkiyyətçilərində saxlanılır.

Adı çəkilən Qanunun 10.4-cü maddəsinə əsasən qiymətli metalların və qiymətli daşların qırıntılarını və tullantılarını yığan hüquqi şəxslər, o cümlədən hərbi hissələr və hərbi qurumlar tərəfindən həmin qırıntılar və tullantılar təkrar istifadə üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilmiş

qaydada emal (təkrar emal) oluna və ya qiymətli metalların istehsalı və affinajı, qiymətli daşların rekuperasiyası üçün fəaliyyətə xüsusi razılıq almış hüquqi şəxslərə satıla bilər.

Beləliklə, «Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun 4.4-cü, 15.1-ci və 10.4-cü maddələrinin təhlilindən belə məlum olur ki, CM-in 213-2-ci maddəsində göstərilən cinayətin predmetini təşkil edən qiymətli metallar və daşlar ilkin olaraq xüsusi razılıq (lisenziya) əsasında onları hasil etmiş, qiymətli metalları affinaj etmiş və qiymətli daşları rekuperasiya etmiş subyektlərin mülkiyyətində ola bilər və ilk dəfə onlar tərəfindən satıla bilər.

5. «Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun 4.5-ci maddəsinə müvafiq olaraq, yerin təkindən hasil olunmuş qiymətli metallar və qiymətli daşlar, standarta uyğun affinaj edilmiş qiymətli metallar, habelə rekuperasiya edilmiş qiymətli daşlar çeşidlənmiş şəkildə satılarkən onları hasil və istehsal etmiş subyektlər həmin qiymətli metalları və qiymətli daşları Azərbaycan Respublikasının qızıl ehtiyatını doldurmaq üçün ilk növbədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinə qanunvericiliklə müəyyən edilmiş qaydada təklif etməlidirlər. Qeyd edilən qiymətli metalların və qiymətli daşların satışı baş tutduqda ödəniş qiymətli metalların və qiymətli daşların dünya və ölkədaxili bazar qiymətləri nəzərə alınmaqla həyata keçirilir.

Deməli, CM-in 213-2-ci maddəsinin dispozisiyasında təhlil edilən cinayətin predmetini təşkil edən qiymətli metallar və qiymətli daşlar satılarkən, **onları ilkin olaraq dövlətə satmaqdan yayınma** dedikdə adı çəkilən Qanunun 4.5-ci maddəsində təsbit olunmuş məcburi tələbin pozulması, yəni həmin metalların və daşların ilk növbədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təklif edilməməsi, habelə bu dövlət orqanının müvafiq təklifi vaxtında qəbul etməsinə baxmayaraq, həmin metalların və daşların başqa müştəriyə satılması başa düşülməlidir. Başqa sözlə, şərh edilən cinayət əməli qanunvericiliklə subyektin üzərinə qoyulmuş vəzifənin yerinə yetirilməməsi formasında **hərəkətsizliklə** törədiləcəkdir. Lakin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq təklifə vaxtında cavab verməməsi, yaxud subyekt üçün qanunvericiliyin tələblərini pozan və onun mənafelərinə zidd olan (aşağı qiymət, uzunmüddətli ödəniş və s.) təkliflər verməsi hallarında həmin metalların və daşların başqa müştərilərə təklif edilməsi və ya satılması şərh edilən maddə üzrə cinayət məsuliyyəti yarada bilməz.

«Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun 4.5-ci, 10.2-ci və başqa normalarının təhlilindən məlum olur ki, belə metalları və daşları hasil və istehsal edənlər yalnız onları satmaq istədikdə ilk növbədə dövlətə təklif etmək vəzifələri yaranır. Ona görə də şərh edilən cinayət əməli o halda mövcud olacaqdır ki, bu metalları və daşları hasil və istehsal edənlər onları satmaq üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyinə müvafiq təklif verməmişdən əvvəl başqa şəxslərə təklif etmiş və ya artıq satmış olsunlar.

6. Şərh edilən cinayət tərkibinin obyektiv cəhətinin daha bir zəruri əlaməti dövlətə satılmaqdan yayındırılan qiymətli metalların və qiymətli daşların xeyli

miqdarda olmasıdır. Burada **xeyli miqdar** dedikdə dövlətə satılmaqdan yayındırılan qiymətli metalların və daşların dəyərinin **7000 manatdan artıq** məbləğdə olması başa düşülür (CM-in 213-2-ci maddəsinin «Qeyd»i). Qiymətli metalların və daşların dəyəri onların dünya və ölkədaxili qiymətləri nəzərə alınmaqla müəyyən edilməlidir.

Cinayət hərəkətsizliklə törədildiyindən dövlətə satılmaqdan yayındırılan qiymətli metalların və daşların miqdarının dəqiq müəyyən edilməsi çətinliklər yarada bilər. Bu zaman kənar müştərilərə edilmiş təklifin məzmunu, onlarla aparılmış sövdələşmələrdə (müqavilə layihələrində, niyyət protokolunda və s.) əksini tapan miqdar, yaxud da artıq həyata keçirilmiş alqı-satqının məbləği əsas götürülməlidir. Əgər belə təklif bir neçə müştəriyə edilmişsə və ya bir neçə müştəri ilə alqı-satqı həyata keçirilmişdirsə, onda dövlətə satılmaqdan yayındırılmış qiymətli metalların və daşların dəyəri bütün təklif və ya alqı-satqı əməliyyatlarının məcmusu olacaqdır.

Lakin nəzərə almaq lazımdır ki, belə metalları və daşları hasil və ya istehsal edən subyektlərin öz mülkiyyətində də həmin metal və daşlar uzun müddət və böyük həcmdə ola bilər. Belə saxlama dövlətə satmaqdan yayınma hesab edilə bilməz.

7. CM-in 213-2-ci maddəsində nəzərdə tutulmuş cinayət **formal tərkib** vasitəsilə təsbit edilmişdir. Ona görə də xeyli miqdarda qiymətli metallar və daşlar ilkin olaraq dövlətə satılmaqdan yayındırıldığı, yəni başqa müştərilərə təklif edildiyi və ya ilkin olaraq dövlətə təklif edilmədən başqa müştərilərə satıldığı andan cinayət **başa çatmış** olacaqdır.

8. Şərh edilən cinayət əməli təqsirin **birbaşa qəsd** forması ilə törədilir. Şəxs qiymətli metalları və daşları ilkin olaraq dövlətə satmaqdan yayındığını dərk edir və bunu arzu edir.

9. CM-in 213-2-ci maddəsində təsbit olunmuş cinayətin **subyekti xüsusidir**: qiymətli metalları və qiymətli daşları **hasil və istehsal etmiş subyektlər** (belə subyektlər hüquqi şəxs olduqda onların müvafiq səlahiyyətli şəxsləri).

«Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun 4.4-cü, 15.1-ci və 10.2-ci maddələrinin təhlilindən aydın olur ki, CM-in 213-2-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş subyektlər qismində xüsusi razılıq (lisenziya) əsasında qiymətli metalların və daşların hasil edilməsi, qiymətli metalların affinajı və qiymətli daşların rekuperasiyası ilə məşğul olan fiziki şəxslər (yalnız hasil etmə ilə) və hüquqi şəxslər çıxış edəcəkdir.

Bu zaman nəzərə almaq lazımdır ki, qiymətli metalları və daşları satan digər hüquqi və fiziki şəxslər (məsələn, banklar, onların alqı-satqısı ilə məşğul olan kommersiya təşkilatları, onları idxal edən subyektlər və s.) bu cinayətin subyekti deyillər, çünki təhlil edilən normada subyektlər qismində yalnız hasil və istehsal edənlər göstərilmişdir.

Maddə 213-3. Dövlət əyar damğalarını saxtalaşdırma

213-3.1. Qiymətli metallar və qiymətli daşlardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması (istehsalı) ilə məşğul olan şəxslər tərəfindən dövlət əyar damğalarını saxtalaşdırma —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

213-3.2. Eyni əməllər təkrar törədildikdə —

iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 17 aprel 2007-ci il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il, 6 may 2016-cı il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir — «Azərbaycan» q., 24 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 22 may 2016-cı il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh edilən **cinayətin obyekti** dövlət əyar damğalarından qanunvericiliklə müəyyən edilmiş istifadə sahəsində yaranan ictimai münasibətlərdir. Əyar damğalarının saxtalaşdırılması, qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış pis keyfiyyətli, saxta zərgərlik məmulatlarının və digər məişət məmulatlarının dövriyyəyə çıxarılmasına səbəb olur ki, bu da həm dövlətin, həm də istehlakçıların mənafeyinə ziyan vurur.

2. CM-in 213-3-cü maddəsində nəzərdə tutulmuş cinayətin **predmeti** dövlət əyar damğalarıdır.

«Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli Qanununun 1.1.10-cu maddəsinə əsasən **əyar** məmulat hazırlanan ərintinin dəyərini müəyyən edən və min çəki vahidində qiymətli metalın miqdarını təsdiqləyən dövlət standartıdır. Azərbaycan Respublikasında qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının hazırlanması üçün əyarların siyahısı adı çəkilən Qanunun 11.4-cü maddəsində müəyyən edilmişdir.

«Damğa» sözü **iki mənada** işlədilir: 1) konkret məmulatın, əşyanın üzərində əks olunmuş müəyyən təsvir; 2) belə təsvirin məmulatın, əşyanın və s. üzərinə qoyulması (damğalanması) üçün vasitə. Təhlil edilən cinayət-hüquq norması «damğa» sözünün qeyd olunan hər iki mənasını ehtiva edir.

Beləliklə, **dövlət əyar damğası** qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının üzərinə həkk olunaraq onların əyarını bildirən xüsusi təsir və bu təsvirin məmulat üzərinə qoyulması (damğalanması) üçün vasitədir.

Dövlət əyar damğalarının tətbiqinin, müxtəlif məmulatların damğalanmasının qaydası, habelə əyar damğalarının növləri və quruluşu Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında qiymətli metallardan hazırlanmış məmulatların əyarlanma və damğalanma Qaydalarının və Əyar damğalarının növləri və quruluşunun təsdiq edilməsi haqqında» 1 fevral 2001-ci il tarixli, 30 saylı Qərarında müəyyən edilmişdir. Həmin qərarla təsdiq edilmiş Azərbaycan Respublikasında qiymətli metallardan hazırlanmış məmulatların əyarlanma və damğalanma Qaydalarının 2-ci bəndinə əsasən Azərbaycan Respublikasının ərazisində qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatları, eyni zamanda xaricdən Azərbaycan Respublikasına satış üçün gətirilən belə məmulatlar həmin Qaydalarla müəyyən edilmiş əyarlara uyğun olmalı və Azərbaycan Respublikasında qəbul edilmiş əyar damğası ilə damğalanmalıdır. Qiymətli metallardan və onların ərintilərindən hazırlanan bədii təsvir üsullarını, qiymətli, yarımqiymətli bəzək daşlarını, təbii və süni mənşəli materialları tətbiq etməklə hazırlanmış zərgərlik, məişət və ibadət məmulatları, əşyaları, eyni zamanda qiymətli metallardan hazırlanmış xatirə, yubiley və digər nişanlar, medallar (emissiya olunmuş yubiley sikkələri və statusu Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş dövlət mükafatları istisna olmaqla) əyar damğaları ilə damğalanmalıdır.

Azərbaycan Respublikasında qiymətli metallardan olan zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatası tərəfindən həyata keçirilir (adı çəkilən Qaydaların 3-cü bəndi)

Qiymətli metallardan hazırlanmış məmulatlar əyarlanmaq və damğalanmaq üçün onların istehsalçıları tərəfindən, xaricdən satış üçün Azərbaycan Respublikasının ərazisinə gətirilən məmulatlar isə onları gətirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən təqdim edilməlidir (həmin Qaydaların 4-cü bəndi).

3. Təhlil edilən cinayətin **obyektiv cəhəti** dövlət əyar damğalarını saxtalaşdırmanı nəzərdə tutur.

Əyar damğalarını saxtalaşdırma dedikdə məmulat üzərindəki damğanın dəyişdirilməsi, ona əlavələr edilməsi, Dövlət Əyar Palatasında damğalanmamış məmulata damğa vurulması, habelə saxta yolla damğalama vasitəsi hazırlama başa düşülməlidir. Deməli, saxtalaşdırma əsasən üç formada olacaqdır: 1) artıq damğalanmış məmulatın damğasının dəyişdirilməsi, başqası ilə əvəz edilməsi və s.; 2) damğalanmamış məlumata saxta damğa vurulması; 3) məmulatları damğalamaq üçün saxta damğa (damğalama vasitəsi) hazırlama.

Saxtalaşdırma ən müxtəlif yollarla həyata keçirilə bilər.

4. Təhlil edilən cinayət əməli **formal tərkib** vasitəsi ilə ifadə edilmişdir və heç olmasa bir məmulatın və ya başqa məişət məmulatının dövlət əyar damğasının saxtalaşdırıldığı və ya saxta damğalama vasitəsinin hazırlandığı andan cinayət **başa çatmış** olacaqdır. Cinayət məsuliyyəti əyar damğası saxtalaşdırılan məmulatın kəmiyyət göstəricisi ilə məhdudlaşdırılmamışdır. Lakin xüsusi ilə dəyərli olan zərgərlik məmulatlarının və ya digər məişət məmulatlarının, habelə çoxlu sayda (eyni partiyadan olmaqla) məmulatların əyar damğasının saxtalaşdırılması məsuliyyəti fərdiləşdirərkən nəzərə alınmalıdır.

Dövlət əyar damğasını saxtalaşdırma cinayəti damğalama vasitənin hazırlanması üsulu ilə törədilərkən, bu vasitənin konkret məmulatın damğalanmasında istifadə edilib-edilməməsi əməlin tövsifi üçün əhəmiyyət kəsb etmir.

5. CM-in 213-3-cü maddəsində göstərilmiş cinayətin **subyektiv cəhəti** təqsirin **birbaşa qəsd** formasını nəzərdə tutur.

Əyar damğası saxtalaşdırılmış məmulat daha yüksək əyarlı məmulat kimi satılarsa, müvafiq əlamətlər olduqda şəxsin əməli cinayətlərin məcmusu qaydasında CM-in 200-cü və 213-3-cü maddələri üzrə tövsif edilməlidir.

6. Şərh edilən cinayətin **subyekti xüsusidir**: qiymətli metallardan və qiy-

mətli daşlardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması (istehsalı) ilə məşğul olan şəxslər.

«Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsinə əsasən Azərbaycan RespublikAsında qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi üzrə fəaliyyət qanunvericiliyə müvafiq olaraq xüsusi razılıq əsasında həyata keçirilir.

Deməli, CM-in 213-3-cü maddəsində göstərilən cinayətin subyektləri qismində xüsusi razılıq (lisenziya) əsasında qiymətli metallardan və qiymətli daşlardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması (istehsalı) ilə məşğul olan fiziki şəxslər, habelə belə hüquqi şəxslərin müvafiq səlahiyyətli şəxsləri (o cümlədən konkret saxtalaşdırmanı həyata keçirmiş əməkdaşı) çıxış edəcəkdir.

Lakin CM-in 213-3-cü maddəsində təsbit edilmiş cinayətin subyektlərinin dairəsini belə məhdudlaşdırmaq, fikrimizcə, doğru deyildir, çünki əyar damğaları istənilən şəxs tərəfindən saxtalaşdırıla bilər və bu, heç də az ictimai təhlükə kəsb etmir. Digər tərəfdən, təhlil edilən normada göstərilən xüsusi subyektlərdən başqa, digər şəxslər tərəfindən həmin əməlin törədildiyi halda hüquqi məsuliyyət məsələsində boşluq qalmışdır.

7. CM-in 213-3.2-ci maddəsində dövlət əyar damğalarını saxtalaşdırmanın **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməlin təkrar törədilməsi göstərilmişdir. Burada təkrarlıq üçün cinayət məsuliyyətinə cəlb edilməmiş olduqda cəlbetmə müddətinin keçməməsi, məhkumluğun olmaması tələb olunur.

CM-in 213-3.2-ci maddəsi tətbiq edilərkən nəzərə almaq lazımdır ki, şəxsin vahid kriminal niyyətlə və ya eyni partiyadan (dəstdən) olan bir neçə məmulat üzərində əyar damğasını saxtalaşdırması təkrarlıq hesab edilməməlidir.

X BÖLMƏ
İCTİMAİ TƏHLÜKƏSİZLİK VƏ İCTİMAİ QAYDA ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

XXV Fəsil
İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər

Maddə 214. Terrorçuluq

214.1. Terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə —

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

214.2. Eyni əməllər:

214.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

214.2.2. təkrar törədildikdə;

214.2.3. odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə;

214.2.4. ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda;

214.2.5. beynəlxalq tədbirin keçirildiyi vaxt və ya kütləvi tədbirin keçirildiyi yerdə törədildikdə;

214.2.6. dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəmində törədildikdə —

on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Terrorçuluq əməlinin hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir *(Azərbaycan Respublikasının 17 may 2002-ci il, 7 mart 2012-ci il, 14 mart 2014-cü il, 30 may 2014-cü il, 20 oktyabr 2015-ci il və 28 oktyabr 2016-cı il tarixli qanunlarla edilmiş dəyişikliklərlə — «Azərbaycan» q., 31 may 2002-ci il; 16 mart 2012-ci il; 3 aprel 2014-cü il; 20 iyun 2014-cü il; 4 noyabr 2015-ci il; 18 dekabr 2016-cı il).*

1. Cinayət hüququ üzrə olan müasir ədəbiyyatlarda (dərsliklərdə, monoqrafiyalarda və s.) terrorçuluq ictimai təhlükəsizlik əleyhinə olan ən təhlükəli cinayətlərdən biri kimi qiymətləndirilir. Bu cinayət əməlinin cinayət-hüquqi baxımdan təhlili onun təkcə milli deyil, həm də beynəlxalq xarakter daşıdığını qətiyyətlə söyləməyə əsas verir. Məhz buna görə də 1977-ci il yanvarın 27-də Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən «Terrorçuluqla mübarizə üzrə»

Avropa Konvensiyası imzalanmışdır və hazırda qüvvədədir. Bu Konvensiyanı imzalayan dövlətlər terrorçuluqda təqsirli hesab edilən cinayətkarları xarici dövlətə təhvil vermə barəsində razılığa gəlmiş və öz üzərlərinə bir sıra mühüm öhdəliklər götürmüşlər. Bundan başqa, BMT-nin Baş Məclisi günahsız insanların həyatını təhlükə altına alan və ya onların həlak olmasına gətirib çıxaran, beynəlxalq münasibətlər üçün zərərli nəticələr doğuran və dövlətlərin təhlükəsizliyini qorxu altına salan, birbaşa və ya dolayı surətdə dövlətlərin iştirak etdikləri aktlar da daxil olmaqla, bütün təzahür formalarında terrorçuluq aktlarından dərindən narahat olaraq, habelə beynəlxalq terrorçuluq aktlarının qarşısının alınmasının beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasına xidmət etdiyinə əmin olaraq, beynəlxalq terrorçuluq probleminin müxtəlif cəhətlərinə aid olan mövcud beynəlxalq müqavilələrə — 1963-cü il sentyabrın 14-də Tokioda imzalanmış «Hava gəmilərinin göyərtəsində törədilən cinayətlər və bir sıra digər aktlar haqqında» Konvensiyaya, «Hava gəmilərinin qanunsuz ələ keçirilməsi ilə mübarizə haqqında» 16 dekabr 1970-ci il tarixli Haaqa Konvensiyasına, «Adamların girov götürülməsi ilə mübarizə haqqında» 17 dekabr 1979-cu il tarixli Nyu-York Beynəlxalq Konvensiyasına, «Dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz aktlarla mübarizə haqqında» 10 mart 1988-ci il Roma Konvensiyasına və s. əsaslanaraq 1994-cü il dekabrın 9-da «Beynəlxalq terrorçuluğun ləğv edilməsi üzrə tədbirlər haqqında» Bəyannamə qəbul etmişdir. Bəyannamədə deyilir ki, terrorçuluq aktları, metodları və praktikası BMT-nin məqsəd və prinsiplərinə kobud surətdə etinasızlıq ifadə edir. Bu isə beynəlxalq sülh və təhlükəsizlik üçün qorxu törədir, dövlətlər arasındakı dostluq əlaqələrini təhlükə altına alır, beynəlxalq əməkdaşlığa mane olur və insan hüquqlarının, cəmiyyətin əsas azadlıqlarının və demokratik əsaslarının sarsıdılmasına səbəb olur.

2. Qeyd olunan beynəlxalq-hüquqi aktlarla yanaşı, respublikamızın milli qanunvericiliyində də bu məsələyə xüsusi diqqət yetirilmişdir. Belə ki, hazırda **«Terrorçuluğa qarşı mübarizə haqqında»** Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli Qanunu qüvvədədir. Bu Qanun Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edir, terrorçuluq əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə bu sahədə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edir. Həmin Qanunun 1-ci maddəsinə görə **terrorçuluq** dedikdə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədi ilə insanların kütləvi surətdə qırılmasına, onlara bədən xəsarəti yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə (zədələnməsinə) və ya başqa ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəldilmiş hədə başa düşülməlidir.

3. Terrorçuluq hərəkətləri zahirən müxtəlif formalarda ifadə olunsa da, diqqətlə təhlil etdikdə onların hamısının iki ümumi əlamətə malik olduğunu görmək olar. Terrorçuluq hərəkətlərinin dövlət hakimiyyətini və ictimai asayişi sarsıtmağa yönəlmiş olması birinci əlamət, bu hərəkətlərin terrorçular tərəfindən

mütəşəkkil formada və qəddarcasına zorakılıq tətbiq etməsinin təsiri altında əhalidə vahimə və köməksizlik hissi yaratması isə ikinci əlamət kimi göstərilə bilər.

4. Terrorçuluğa görə cinayət məsuliyyəti ilk dəfə Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli Qanunu ilə (əvvəlki CM-in 212—3-cü maddəsi) müəyyən edilmişdir.

5. Şərh olunan cinayət eyni vaxtda bir neçə obyektə qəsd edir. Bunlara **ictimai təhlükəsizlik, hakimiyyət orqanlarının və beynəlxalq təşkilatların normal fəaliyyəti,** habelə **vətəndaşların həyatı və sağlamlığı, həmçinin mülkiyyət münasibətləri** aiddir.

İctimai təhlükəsizlik dedikdə cəmiyyətin həyati əhəmiyyətli mənafelərinin, yəni ödənilməsi cəmiyyətin mütərəqqi inkişafını və mövcudluğunu etibarlı surətdə təmin edən ehtiyaclar məcmusunun qorunub saxlanması vəziyyəti başa düşülür. Terrorçuluq özünün qorxunc, vahiməyə salan təsiri ilə vətəndaşların qeyri-müəyyən dairəsinə, çox zaman isə bütöv şəhərlərin və inzibati rayonların əhalisinə, yaxud da təşkilati-sərəncamverici qərarlar qəbul etmək səlahiyyətinə malik olan konkret vəzifəli şəxslərə və hakimiyyət orqanlarına, bəzən isə beynəlxalq təşkilatlara ünvanlanmış olur. İctimai təhlükəsizlik terrorçuluq cinayətinin əsas obyekti, insanların həyatı və sağlamlığı, əmlakı, habelə idarəetmə qaydaları və beynəlxalq təşkilatların normal fəaliyyəti isə əlavə obyektdir.

6. Terrorçuluğun **obyektiv cəhətini** təşkil edən hərəkətləri iki qrupa ayırmaq olar: a) insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlərin (terror aktı) edilməsi; b) belə hərəkətlərin edilməsi ilə hədələmə.

Qanunvericinin CM-in 214.1-ci maddəsində nəzərdə tutduğu mənada **«digər hərəkətlər (terror aktı)»** dedikdə partlayış və yanğınlara aid olmayan, binaların, mədəniyyət və ya dini tikililərin dağıdılmasına, ətraf mühitin radioaktiv, kimyəvi, bakterioloji və digər formada zəhərlənməsinə və s. səbəb olan qəzaların, daş uçqunlarının, subasmaların, yaşayış məntəqələrini su, istilik, elektrik enerjisi və s. ilə təmin edən həyati əhəmiyyətli obyektlərdə qəzaların və digər bu tipli ümumi təhlükəli hərəkətlərin törədilməsi başa düşülməlidir.

7. **Partlayış** dedikdə qısa zaman kəsiyi ərzində məhdud həcmdə külli miqdarda enerjinin ayrılaraq böyük təzyiq altında olan möhkəm qızmış qaz (plazma) əmələ gətirməsi və bunun genişlənərək ətrafdakı cisimlərə dağıdıcı mexaniki təsir göstərməsi başa düşülür.

«Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununun 1-ci maddəsinə görə **yanğın** dedikdə maddi ziyan vuran, insanların həyatına və sağlamlığına, habelə təbiətə zərər yetirən nəzarətsiz yanma başa düşülür.

8. Terrorçuluq **kəsik** tərkibli cinayət olduğuna görə, o, CM-in 214.1-ci maddəsinin dispozisiyasında sadalanan hərəkətlər (hədə istisna olmaqla) törədildiyi və bu hərəkətlərin adamların həlak olmasına, onların sağlamlığına zərər vurulmasına, əhəmiyyətli əmlak ziyanının vurulmasına, habelə başqa ictimai təh-

lükəli nəticələrin baş verməsinə real təhlükə yaratdığı andan **başa çatmış** hesab edilir.

CM-in 214.1-ci maddəsində qeyd olunan ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsinin nə dərəcədə real olması ümumi təhlükəli əməllərin törədilmə yeri, vaxtı, şəraiti, üsulu haqqında mövcud olan iş materiallarına, ekspertlərin rəylərinə və cinayətkar qəsdin mexanizminə digər kənar, çox zaman təsadüfi olan halların (məsələn, insanların, texnikanın, nəqliyyat vasitələrinin və s. toplaşması) göstərdiyi təsirə əsasən müəyyən olunur.

9. Şərh olunan cinayət əməlinin obyektiv cəhətində terrorçuluq hərəkətlərini **törətməklə** hədələmə təqsirkarın hakimiyyət orqanlarına, beynəlxalq təşkilatlara və ya əhaliyə psixi təsir göstərməsinin bir növü kimi nəzərdən keçirilməlidir. Burada hədə şifahi, yazılı, telefonla, telefaksla və ya digər üsullarla həyata keçirilə bilər. Hədə real və həqiqi olmalı, yəni onun dərhal həyata keçirilə bilməsini güman etməyə əsaslar olmalıdır. Hədənin məqsədi insanları vahiməyə salmaq, hakimiyyət orqanlarına və ya beynəlxalq təşkilatlara təsir göstərmək olduğuna görə hədə şəxslərin geniş və ya dar dairəsinə çatdığı andan (əgər bu, hədənin həyata keçirilməsinə real təhlükə yaratmışdırsa) terrorçuluq cinayəti **başa çatmış** hesab edilir. Burada şərh olunan cinayətin subyektinin hədəni faktiki olaraq həyata keçirmək niyyətinin olub-olmaması əməlin cinayət-hüquqi tövsifi üçün əhəmiyyət kəsb etmir. Digər hərəkətləri törətməklə hədələmə terrorçuluq tərkibini deyil, başqa cinayətin tərkibini (məsələn, CM-in 134-cü, 288-ci, 315-ci maddələrində nəzərdə tutulan cinayətlərdən birinin tərkibini) yarada bilər.

10. **İnsanların həlak olması təhlükəsi** dedikdə heç olmazsa bir insanın həyatı üçün real təhlükənin mövcudluğu başa düşülməlidir.

11. **İnsanların sağlamlığına zərər vurulması təhlükəsi** dedikdə heç olmazsa bir insanın sağlamlığına zərər yetirilməsi təhlükəsinin mövcudluğu başa düşülməlidir. Bu zaman həmin zərərin hansı dərəcədə olduğunun əməlin tövsifi üçün heç bir əhəmiyyəti yoxdur.

12. Terrorçuluq əməlləri nəticəsində vurula biləcək əmlak ziyanının əhəmiyyətli olub-olmaması məhv edilməsi və ya korlanması üçün real təhlükə yaranmış maddi dəyərlərin mövcud qiyməti və əhəmiyyəti, habelə pərakəndə satış qiyməti, təsərrüfat təyinatı, həcmi, miqdarı və s. nəzərə alınmaqla, işin konkret hallarından asılı olaraq müəyyən edilməlidir.

13. CM-in 214.1-ci maddəsində nəzərdə tutulan mənada **başqa ictimai təhlükəli nəticələr** dedikdə ətraf mühitə ziyan vurulması, həyat təminatı əhəmiyyətli obyektlərin işinin ciddi pozulması, vətəndaşlar arasında çaxnaşma salınması və bunun nəticəsində yaşayış məntəqəsində qeyri-sabit şəraitin yaradılması və s. başa düşülməlidir.

14. Terrorçuluq **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs öz əməlinin ictimai təhlükəli olduğunu dərk edir, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görür və bunları arzu edir. Burada ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul etməsinə təsir göstərmək məqsədi terrorçuluq cinayətinin subyektiv cəhətinin zəruri əlamətidir.

15. Terrorçuluq cinayəti ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda, subyektiv cəhətdən təqsirin qarışıq forması ilə törədilmiş olur (CM-in 214.2.4-cü maddəsi). Belə ki, terrorçuluq hərəkətlərinə münasibətdə birbaşa qəsd, CM-in 214.2.4-cü maddəsinin dispozisiyasında göstərilən ictimai təhlükəli nəticələrə münasibətdə isə ehtiyatsızlıq (cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq) mövcud olur.

16. Terrorçuluq hərəkətlərinin törədilməsi zamanı qəsdən adam (yaxud bir neçə adam) öldürüldükdə, bu, terrorçuluq cinayətinin tərkibi ilə əhatə olunmur və əlavə olaraq CM-in 120.2.11-ci maddəsi üzrə cinayətlərin məcmusu qaydasında tövsif edilir.

17. CM-in 20.2-ci maddəsinə əsasən terrorçuluq cinayətinin **subyekti** bu cinayəti törədənədək **14** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in 214-cü maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

18. CM-in 214.2-ci maddəsinə əsasən terrorçuluq cinayətinin: a) qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi (CM-in 214.2.1-ci maddəsi); b) təkrar törədilməsi (CM-in 214.2.2-ci maddəsi); c) odlu silahdan və silah qismində istifadə edilən əşyalardan istifadə etməklə törədilməsi (CM-in 214.2.3-cü maddəsi); ç) ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olması (CM-in 214.2.4-cü maddəsi); d) beynəlxalq tədbirin keçirildiyi vaxt və ya kütləvi tədbirin keçirildiyi yerdə törədilməsi (CM-in 214.2.5-ci maddəsi); 6) dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsi (CM-in 214.2.6-cı maddəsi) bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** hesab edilir.

19. Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinin izahı CM-in 34.2-ci maddəsinin şərhində verilmişdir.

20. Cinayətin təkrar törədilməsinin anlayışı CM-in 16-cı maddəsinin şərhində verilir.

21. «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının 1 mart 1998-ci il tarixli Qanununun 2-ci maddəsinin 8-ci bəndinə görə **odlu silah** dedikdə barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi məxaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah başa düşülür. Odlu silaha tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar və s. aid edilir. **Odlu silahdan istifadə edilməsi** dedikdə insanın sağlamlığına zərər vurmaq məqsədi ilə belə silahın faktiki olaraq tətbiq edilməsi başa düşülür. Bu barədə CM-in 181-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

22. Cinayətin ehtiyatsızlıqdan insan ölümünə səbəb olmasının (CM-in 214.2.4-cü maddəsi) izahı CM-in 124-cü və 126-cı maddələrinin şərhində ətraflı verilmişdir.

CM-in 214.2.4-cü maddəsində nəzərdə tutulan mənada **digər ağır nəticələr** dedikdə hakimiyyət və idarəetmə orqanlarının, habelə beynəlxalq təşkilatların işinin, mühüm siyasi, yaxud sosial-mədəni əhəmiyyət kəsb edən tədbirlərin pozulması, şəhərləri və digər yaşayış məntəqələrini istilik, su, elektrik enerjisi və s. ilə təmin edən həyati əhəmiyyətli obyektlərin, nəqliyyatın, rabitənin işinin iflic vəziyyətinə salınması və onların işində uzun müddətə fasilə yaranması, iki və ya daha artıq şəxsin sağlamlığına ağır zərər vurulması və s. bu kimi ictimai təhlükəli nəticələr başa düşülməlidir.

CM-in 214.2.5-ci maddəsində terrorçuluq cinayətinin ağırlaşdırıcı əlamətləri kimi cinayətin **törədilmə vaxtı** (beynəlxalq tədbirin keçirildiyi vaxt) və **yeri** (kütləvi tədbirin keçirildiyi yer) nəzərdə tutulmuşdur. **Beynəlxalq tədbir** dedikdə bir neçə dövlətin təmsilçilərinin qatıldığı beynəlxalq statuslu konfrans, sessiya, məsləhətləşmə, iclas və s. başa düşülür. Beynəlxalq tədbirin dövlət tədbiri, qeyri-hökumət təşkilatlarının tədbiri, idman tədbiri, mədəni, mədəni-kütləvi, siyasi, iqtisadi, məzmunlu tədbir olmasının əməlin bu maddə ilə tövsifinə təsiri yoxdur. Bütün hallarda əməl bu maddə ilə tövsif edilməlidir. Əməlin bu maddə ilə tövsif edilməsi üçün terrorçuluq cinayəti beynəlxalq tədbirin keçirildiyi vaxt çərçivəsində törədilməlidir. Beyənlxalq tədbirin keçirildiyi vaxt həmin tədbirin faktiki başlanması anından faktiki qurtarma anınadək olan müddəti nəzərdə tutur. Həmin müddət bir neçə saatdan bir neçə həftəyə və ya ayadək (məsələn, avroviziya musiqi yarışması) davam edə bilər. **Kütləvi tədbir** dedikdə mitinqlər, nümayişlər, küçə yürüşləri, konsertlər, müşavirələr, qurultaylar, seçkilərlə bağlı toplantılar və s. başa düşülür. Kütləvi tədbir qapalı yerlərdə, yaxud açıq meydançalarda keçirilə bilər və həmin yer əməlin tövsifi üçün əhəmiyyət kəsb etmir.

23. Terrorçuluq cinayət tərkibini yaradan əməllərin **dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm** hisslərindən irəli gələn motivlərlə törədilməsi bu cinayətin ağırlaşdırıcı halı kimi CM-in 214.2.6-cı maddəsində təsbit edilmişdir. Dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm dini ekstremizmin (dini ekstremist fəaliyyətin) təzahür formalarıdır («Dini ekstremizmə qarşı mübarizə haqqında» 4 dekabr 2015-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsi).

Dini düşmənçilik zəminində terroçuluq əməllərinin törədilməsi hər hansı dinə, dini məzhəbə (dini cərəyana), onun mövcudiyyətinə nifrətdən irəli gələn, dinə, dini məzhəbə (dini cərəyana) mənsubiyyətindən asılı olaraq insanların, insanların hüquq və azadlıqları arasında fərq qoyulmasında, üstünlüklər və ya məhdudiyyətlər müəyyən olunmasında və sairdə ifadə olunan hisslərdən doğan 214.1-ci maddədə təsbit olunmuş əməllərin törədilməsi başa düşülür. «Dini ekstremizmə qarşı mübarizə haqqında» 4 dekabr 2015-ci il tarixli Qanunun 1.0.2-ci maddəsinə görə **dini radikalizm** hər hansı dini etiqad çərçivəsində ifrat dini baxışlara bağlılığı ifadə edən, həmin dini baxışların müstəsnalığının təsbit edilməsində barışmaz mövqe nümayiş etdirən və yayılmasında aqressiv üsul və vasitələrdən istifadə edilməsi ilə səciyyələnən davranışı nəzərdə tutur. **Dini fanatizm** dini ekstremizmin ideoloji əsaslarından biri olmaqla, dini inamın hər hansı tənqidi yanaşmanı istisna edən və dini normalara kor-koranə riayət

etmə ilə müşayiət edilən dini inamın ifrat dərəcəsini özündə ehtiva edir.

24. CM-in 214-cü maddəsinin qeydində terrorçuluq əməlinin hazırlanmasında iştirak etmiş şəxsin hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayət tərkibinin əlamətləri olmadıqda, **cinayət məsuliyyətindən azad edilməsi** nəzərdə tutulur.

Hakimiyyət orqanlarının xəbərdar edilməsi yalnız o halda vaxtında edilmiş sayıla bilər ki, bu xəbərdarlıqdan dərhal sonra həmin orqanların terrorçuluq hərəkətlərinin, yaxud CM-in 214.1-ci maddəsində qeyd olunan ictimai təhlükəli nəticələrin baş verməsinin qarşısını almağa real imkanları olmuş olsun.

Terrorçuluq əməlinin qarşısını almanın **başqa üsulları** dedikdə subyektin özünün təkbaşına və ya digər vətəndaşları cəlb etməklə partlayış və ya yanğının mənbəyinin zərərsizləşdirilməsinə, cinayətkarların silah və ya nəqliyyat vasitələrini ələ keçirməsinin qarşısının alınmasına, əhalinin terrorçuluq hərəkətləri barəsində xəbərdar edilməsinə və s. yönəldilmiş fəal hərəkətlər etməsi başa düşülməlidir.

25. Terrorçuluq obyektiv cəhətinin əlamətlərinə görə onunla oxşar digər cinayətlərdən (məsələn, təxribat, özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə və s.) terrorçuluq əməllərinin istiqamətinə (yönümünə) görə fərqlənir. Belə ki, CM-in 282-ci, yaxud 186-cı maddələrində nəzərdə tutulmuş cinayət əməllərindən fərqli olaraq, terrorçuluqda Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini zəiflətmək, yaxud özgənin əmlakına ziyan vurmaq məqsədi mövcud olmur.

Maddə 214-1. Terrorçuluğu maliyyələşdirmə

Əldə olunma mənbəyindən asılı olmayaraq pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və yaxud qismən, bilavasitə və ya dolayısı ilə bu Məcəllənin 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi üçün istifadə olunacağını bilərək pul vəsaitlərinin və ya digər əmlakın qəsdən toplanılması və ya verilməsi —

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Pul vəsaitlərinin və ya digər əmlakın terror aksiyalarının törədilməsində və ya törədilməsinə cəhddə faktiki istifadə olunmaması və ya konkret terror aktı ilə əlaqədar olmaması əmələ görə cinayət məsuliyyətini aradan qaldırmır.

2. Bu Məcəllənin 214-1-ci maddəsi ilə nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla terrorçuluq əməlinin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətin-

dən azad edilir *(Azərbaycan Respublikasının 17 may 2002-ci il tarixli Qanunu ilə əlavə edilmişdir; Azərbaycan Respublikasının 5 mart 2010-cu il tarixli Qanunu ilə yeni redaksiyada; Azərbaycan Respublikasının 7 mart 2012-ci il, 14 mart 2014-cü il və 31 may 2016-cı il tarixli qanunları ilə edilmiş dəyişikliklərlə — «Azərbaycan» q.,, 31 may 2002-ci il; 21 mart 2010-cu il; 7 mart 2012-ci il; 3 aprel 2014-cü il; 29 iyun 2016-cı il).*

1. Terrorçuluğu maliyyələşdirmə cinayət tərkibi «Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında» 9 dekabr 1999-cu il tarixli BMT-nin Konvensiyasının müddəalarının icra edilməsi üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi istiqamətində görülən tədbir olaraq CM-ə daxil edilmişdir (Azərbaycan Respublikası bu Konvensiyaya 1 oktyabr 2001-ci ildə qoşulmuşdur).

2. Terrorçuluğu maliyyələşdirmə cinayətinin **ictimai təhlükəliliyi** adamların həlak olması, əhəmiyyətli əmlak ziyanının vurulması, başqa ağır nəticələrin baş verməsi təhlükəsi törədən partlayışların, yanğınların və ya digər hərəkətlərin edilməsi, habelə bu hərəkətlərin edilməsi hədəsinin həyata keçirilməsi, habelə CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi üçün əlverişli şəraitin yaradılmasında ifadə olunur.

3. Şərh olunan cinayətin **obyekti** ictimai təhlükəsizlik, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, dövlətlər arasında mehriban qonşuluq və dostluq əlaqələrinin və əməkdaşlığın həyata keçirilməsi ilə bağlı ictimai münasibətlərdir.

4. Təhlil olunan cinayətin **predmeti** qismində pul vəsaitləri və ya digər əmlak çıxış edir.

Pul vəsaitləri Azərbaycan Respublikasının milli valyutası və ya xarici valyuta şəklində ola bilər.

«Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında» Konvensiyada «pul vəsaitləri» deyil, daha geniş anlayış kimi «vəsaitlər» anlayışından istifadə edilmişdir. Konvensiyanın 2-ci maddəsinə görə terrorçuluğun maliyyələşdirilməsində **«vəsaitlər»** dedikdə əldə edilmə üsulundan asılı olmayaraq istənilən növ daşınar və ya daşınmaz aktivlər, bank kreditləri, yol çekləri, bank çekləri, poçt göndərişləri, səhmlər və qiymətli kağızlar, istiqrazlar, veksellər, akkreditivlər, bu cür aktivlərə olan hüquqlar və ya onlarda iştirakı təsdiq edən hər hansı formada, o cümlədən elektron və ya rəqəmli formada hüquqi sənədlər və ya aktlar başa düşülməlidir.

Digər əmlak dedikdə CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi üçün verilən hava gəmiləri, hər hansı başqa nəqliyyat vasitəsi, xüsusi qurğularla təchiz olunmuş binalar, mənzillər, odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular və s. başa düşülür.

Pul vəsaitləri və ya digər əmlak qanunsuz və ya qanuni yolla, hüquqi və ya fiziki şəxslərdən, nağd və ya köçürmə yolu ilə, habelə əcnəbilərdən (vətəndaşlığı olmayan şəxslərdən) və ya Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxslərindən əldə edilə bilər. Pul vəsaitlərinin və ya digər əmlakın **əldə olunma mənbəyi** əməlin şərh olunan maddə ilə tövsif edilməsi üçün əhəmiyyət kəsb etmir. Pul vəsaitləri və ya digər əmlak cinayət yolu ilə əldə edilərək leqallaşdırılma vasitəsilə terrorçuluğun maliyyələşdirilməsi məqsədilə toplanırsa, yaxud verilirsə, müvafiq əlamətlər olduğu hallarda təqsirkarın əməli CM-in 193-1-ci və 214-1-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

5. Terrorçuluğu maliyyələşdirmə cinayətinin **obyektiv cəhəti** iki kateqoriya əməlin törədilməsində ifadə olunur: 1) CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün pul vəsaitlərinin və ya digər əmlakın toplanılması; 2) CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün pul vəsaitlərinin və ya digər əmlakın verilməsi. Qısaca demək olar ki, terrorçuluğu maliyyələşdirmə **birincisi**, şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsini, **ikincisi**, CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməlləri törədəcək şəxsin və ya qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsini əhatə edir.

Şərh olunan maddə terrorçuluğu maliyyələşdirmə adlansa da, yalnız CM-in 214-cü maddəsində nəzərdə tutulan cinayətin (terrorçuluq əməlinin) maliyyələşdirilməsini deyil, CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində öz əksini tapan əməllərin maliyyələşdirilməsini də ehtiva edir.

Şərh olunan maddədə təsbit edilən cinayətin **törədilmə üsulu** pul vəsaitlərinin və ya digər əmlakın **bilavasitə,** yaxuq **dolayısilə** toplanılması və ya verilməsində ifadə olunur.

Pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və ya qismən qəsdən toplanması dedikdə CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun (dəstənin, təşkilatın) təmin edilməsi məqsədilə pul vəsaitlərinin nağd şəkildə və ya bank hesablarında yığılması, habelə onlara vermək üçün partlayıcı maddələrin və qurğuların (onların hissələrinin) toplanması, hər hansı bir maliyyə əməliyyatından əldə edilən vəsaitin, yaxud əmlakın hamısının və ya bir hissəsinin həmin məqsədlə ayrılması və s. başa düşülür. Vəsaitin məbləğinin və ya əmlakın dəyərinin əməlin tövsifi üçün heç bir əhəmiyyəti yoxdur.

Pul vəsaitlərinin və ya digər əmlakın bilavasitə və ya dolayısilə qəs-

dən toplanması dedikdə pul vəsaitlərinin və əmlakın terror aksiyalarının təşkil edilməsinə, planlaşdırılmasına, hazırlanmasına və həyata keçirilməsinə, fiziki və hüquqi şəxslər üzərində zorakılıq edilməsinə, maddi obyektlərin məhv edilməsinə və ya zədələnməsinə, terror aksiyalarının həyata keçirilməsi məqsədi ilə qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaradılmasına, habelə belə aksiyalarda iştirak etməyə, şəxsləri CM-in 102, 214, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280 və 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasına, təşkil olunmasına və ya törədilməsinə cəlb etməyə, silahlandırmağa, onlara təlim keçməyə və onlardan istifadə etməyə yönəldilməsi üçün toplanması və s. başa düşülməlidir.

Pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və ya qismən, bilavasitə və ya dolayısı ilə qəsdən verilməsi dedikdə CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun (dəstənin, təşkilatın) təmin edilməsi məqsədilə pul vəsaitlərinin və ya əmlakın sadalanan cinayətləri törədəcək fiziki və ya hüquqi şəxslərin hesablarına köçürülməsi, şəxsən verilməsi və s. başa düşülməlidir. Pul vəsaitlərinin və ya əmlakın əvəzli, yaxud əvəzsiz verilməsinin əməlin CM-in 214-1-ci maddəsi ilə tövsif edilməsi üçün əhəmiyyəti yoxdur.

6. CM-in 214-1-ci maddəsinin qeydinin 1-ci bəndinə görə terrorçuluğun maliyyələşdirilməsi əməlinə görə cinayət məsuliyyəti bu hallarda da aradan qalxmır: 1) terrorçuluğun maliyyələşdirilməsi məqsədilə toplanılan və ya verilən pul vəsaitlərinin və ya digər əmlakın terror aksiyalarının törədilməsində və ya törədilməsinə cəhddə faktiki istifadə olunmaması; 2) terrorçuluğun maliyyələşdirilməsi məqsədilə toplanılan və ya verilən pul vəsaitlərinin və ya digər əmlakın konkret terror aktı ilə əlaqədar olmaması. Hər iki halda vacib şərt odur ki, pul vəsaitləri və ya digər əmlak CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun (dəstənin, təşkilatın) təmin edilməsi məqsədilə toplanılsın və ya verilsin. Sadalanan cinayətlərdən birinin törədilməsinin maliyyələşdirilməsi məqsədilə toplanılan və ya verilən pul vəsaitləri və ya digər əmlak faktiki olaraq CM-in 214-1-ci maddəsində göstərilən siyahıdakı başqa cinayətin (cinayətlərin) törədilməsinin maliyyələşdirilməsində istifadə edildiyi hallarda da şəxsin əməli şərh olunan maddə ilə tövsif edilməlidir.

7. Şərh olunan maddədə **qrup (dəstə, təşkilat)** dedikdə qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) başa düşülməlidir.

Terrorçuluğu maliyyələşdirmə cinayətini törədən şəxs həm də cinayətkar birlik (təşkilat) yaratma əməlini törətmiş olarsa, onun əməli CM-in 214-1-ci və 218-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir. Şəxs terrorçuluğu maliyyələşdirmə məqsədilə cinayətkar birlik (təşkilat) yaratdıqda da, onun əməli eyni qaydada cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

8. Şərh olunan cinayət **formal** tərkiblidir. Bu cinayət pul vəsaitlərinin və ya digər əmlakın CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun (dəstənin, təşkilatın) təmin edilməsi məqsədilə toplandığı və ya verildiyi andan **başa çatmış** sayılır.

CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilib-törədilməməsinin əməlin şərh olunan maddə ilə tövsif edilməsinə heç bir təsiri yoxdur. Əgər pul vəsaitlərini və ya digər əmlakı CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun (dəstənin, təşkilatın) təmin edilməsi məqsədilə toplayan şəxs həm də sadalanan cinayətlərdən birini və ya bir neçəsini törədərsə, onun əməli CM-in 214-1-ci maddəsi və törədilmiş konkret cinayətin (cinayətlərin) nəzərdə tutulduğu maddə ilə (maddələrlə) cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

Terrorçuluğun maliyyələşdirilməsi başqa bir cinayət tərkibini yaradan hərəkətlərin (məsələn, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma (CM-in 193-1-ci maddəsi) cinayətinin) edilməsi ilə müşayiət olunarsa, onda təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

Əgər şəxs terrorçuluğun maliyyələşdirilməsi məqsədilə qanunsuz olaraq odlu silah, döyüş sursatı və ya partlayıcı maddələr və qurğular əldə edərsə, onun əməli CM-in 214-1-ci və 228-ci maddələri ilə tövsif edilməlidir.

Şəxsin vəsaitlərin və ya digər əmlakın terrorçuluğun maliyyələşdirilməsinə yönəldilən hərəkətləri ondan asılı olmayan səbəblərə görə başa çatdırılmamışdırsa, onun əməli terrorçuluğu maliyyələşdirməyə cəhdə görə (CM-in 29-cu və 214-1-ci maddələri) tövsif edilməlidir.

9. Terrorçuluğu maliyyələşdirmə cinayəti **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar pul vəsaitlərini və ya digər əmlakı tamamilə və ya qismən, bilavasitə və ya dolayısı ilə CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun (dəstənin, təşkilatın) təmin edilməsi məqsədilə topladığını və ya verdiyini dərk edir və belə hərəkətləri etməyi arzu edir.

Məqsəd şərh olunan cinayət tərkibinin zəruri əlamətidir. CM-in 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi, yaxud göstərilən cinayətlərin törədilməsi üçün şəxsin və ya qrupun

(dəstənin, təşkilatın) təmin edilməsi şərh olunan cinayətin məqsədidir.

Pul vəsaitlərinin və ya digər əmlakın başqa məqsədlərlə toplanılması və ya verilməsi CM-in 214-1-ci maddəsi ilə tövsif edilə bilməz.

10. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

CM-in təhlil olunan maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

11. CM-in 214-1-ci maddəsinin «Qeyd»inin 2-ci bəndi terrorçuluğu maliyyələşdirmə cinayətini törətmiş şəxsin səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad edilməsinin xüsusi halını nəzərdə tutur. Eyni məzmunlu qeydin izahı barədə CM-in 214-cü maddəsinin şərhinin 24-cü bəndinə bax.

Maddə 214-2. Terrorçuluğa açıq çağırışlar

Bu Məcəllənin 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinə açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materiallar yayma —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 14 mart 2014-cü il tarixli, 919-IVQD nömrəli Qanunu ilə əlavə edilmişdir — «Azərbaycan» q., 3 aprel 2014-cü il).*

1. Şərh olunan cinayətin **obyekti** ictimai təhlükəsizliklə, hakimiyyət orqanlarının və beynəlxalq təşkilatların normal fəaliyyəti ilə, vətəndaşların həyatı və sağlamlığı ilə bağlı ictimai münasibətlərdir. Cinayətin predmeti qismində terrorçuluğa açıq çağırışları özündə əks etdirən hər hansı material (maddi daşıyıcı) çıxış edir.

2. Bu cinayət **obyektiv cəhətdən** CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinə: 1) açıq çağırışlar etmədə; 2) bu cür məzmunlu materialları yaymada ifadə olunur.

3. Bu maddə ilə cinayət məsuliyyəti o halda yaranır ki, açıq çağırışlarda və ya yayılan materiallarda məhz CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi ifadə olunsun. Məsələn, beynəlxalq müdafiədən istifadə edən xarici dövlət nümayəndəsinə və ya beynəlxalq təşkilatın əməkdaşına, habelə həmin şəxslərin xidməti və ya yaşayış sahələrinə, yaxud nəqliyyat vasitələrinə hücum etməyə açıq çağırışlar edildikdə, yaxud qeyd olunan məzmunda materiallar yayıldıqda, CM-in 214-2-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.

4. Çağırışların anlayışı, açıqlığı, çağırışların yer aldığı materialların dairəsi və yayılması haqqında CM-in 281-ci maddəsinin şərhinin 3-cü və 6-cı bəndlərinə bax.

5. Açıq çağırışların edildiyi və materialların yayıldığı andan cinayət **başa çatmış** hesab olunur. Açıq çağırışlar edən, yaxud bu cür məzmunlu materiallar yayan şəxs tərəfindən CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllər törədilmiş olduqda, şəxsin əməli cinayətlərin məcmusu ilə: CM-in 214-2-ci və sadalanan cinayətləri nəzərdə tutan maddələrlə tövsif edilməlidir.

6. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinə yönələn açıq çağırışlar etdiyini, yaxud bu cür məzmunlu materiallar yaydığını dərk edir və bunları törətməyi arzu edir. Cinayət istənilən motivlə törədilə bilər. Motiv əməlin tövsifini dəyişdirmir.

7. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Maddə 214-3. Terrorçuluq məqsədi ilə təlim keçmə

214-3.1. Bu Məcəllənin 102, 214, 215, 219, 219-1, 226, 227, 277 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədi ilə həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə təlim alma —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

214-3.2. Bu Məcəllənin 214-3.1-ci maddəsində nəzərdə tutulan təlimləri təşkil etmə və ya keçirmə —

doqquz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 214-3-cü maddəsi ilə *nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür təlimlərin keçirilməsində nəzərdə tutulan məqsədlər üzrə cinayət əməllərinin qarşısının alınmasına, belə təlimlərdə iştirak etmiş, belə təlimləri təşkil etmiş, maliyyələşdirmiş şəxslərin aşkar edilməsinə yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir* *(Azərbaycan Respublikasının 14 mart 2014-cü il tarixli, 919-IVQD nömrəli Qanunu ilə əlavə edilmişdir — «Azərbaycan» q., 3 aprel 2014-cü il).*

1. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, terrorçuluq məqsədi ilə odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə təlim alan şəxslər maddədə sadalanan cinayətlərin törədilməsini daha mükəmməl şəkildə həyata keçirirlər, belə əməllərin daha çox insan tələfatı ilə nəticələnən sonucla başa çatdırılmasını təmin etməyə nail olurlar. Təlimlərin təşkili və ya keçirilməsini təmin edən şəxslərin fəaliyyəti isə daha çox insanın sadalanan cinayətlərin törədilməsinə cəlb edilməsini asanlaşdırır.

2. Bu cinayətin **obyekti** CM-in 214-2-ci maddəsində əks olunan cinayətin obyekti ilə eynidir.

3. CM-in 214-3.1-ci maddəsində göstərilən cinayət **obyektiv cəhətdən** CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi üsulları, odlu silahdan,

partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə **təlim almada** ifadə olunur.

Odlu silahın, partlayıcı maddələrin və ya qurğuların anlayışı CM-in 228-ci, zəhərli maddələrin anlayışı 240-cı maddələrinin şərhində verilmişdir.

CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinin **digər ümumi təhlükəli üsullarına** nüvə, kimyəvi, bakterioloji silahlardan istifadə etməni, yanğınların, su daşqınlarının yaradılmasını, **texniki vasitələrinə** döyüş texnikasından, hava və ya su gəmilərindən istifadəni və s-i aid etmək olar.

CM-in 214-3-cü maddəsində sadalanan cinayətlərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə **təlim alma** dedikdə odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, döyüş texnikasından, hava və su gəmilərindən istifadə etmənin taktiki-texniki qaydalarını öyrənmə başa düşülür. Təlim almanın forma və üsulları əməlin tövsifinə təsir göstərmir. Təlim canlı şəkildə təlim meydançalarında, mənzillərdə və s. yerlərdə keçilə bilər, yaxud texniki vasitələrdən, kompüterdən və s.-dən istifadə etməklə aparıla bilər.

4. CM-in 214-3.1-ci maddəsində əks olunan cinayət **uzanan** cinayətdir. Bu cinayət şəxsin təlim almağa (öyrənməyə) başladığı andan **başa çatmış** sayılır. Təlim alan şəxsin CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətdiyi hallarda, onun əməli cinayətlərin məcmusu ilə: CM-in 214-3.1-ci və sadalanan cinayətlərdən hər hansı birini (bir neçəsini) nəzərdə tutan maddə ilə (maddələrlə) tövsif edilməlidir.

5. CM-in 214-3.1-ci maddəsində göstərilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədi ilə həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə təlim aldığını dərk edir və bunu arzu edir. **Məqsəd** CM-in 214-3.1-ci maddəsində təsbit eidlmiş cinayət tərkibinin zəruri əlamətidir. Bu maddə ilə cinayət məsuliyyəti o halda yarana bilər ki, şəxs CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədini güdmüş olsun. İstənilən başqa məqsəd bu maddə ilə məsuliyyəti istisna edir.

Cinayət istənilən motivlə (tamah, qisas, mili, dini təəssübkeşlik və s.) törədilə bilər. Motiv əməlin tövsifini dəyişdirmir.

6. CM-in 214-3.1-ci maddəsində ifadə olunan cinayətin **subyekti** cinayət törədilərkən **16 yaşına** çatmış anlaqlı fiziki şəxs ola bilər.

7. Şərh olunan cinayətin **ağırlaşdırıcı halı** CM-in 214-3.2-ci maddəsində nəzərdə tutulmuşdur: CM-in 214-3.1-ci maddəsində nəzərdə tutulan təlimləri təşkil etmə və ya keçirmə.

Təlimləri təşkil etmə təlim məkanlarını və vaxtlarını müəyyən edib seçmədə, təlim verənləri və alanları axtarıb tapmada, təlim yerlərini maddi-texniki vasitələrlə təmin etmədə, təlimləri maliyyələşdirmədə və başqa hərəkətlərdə ifadə olunur. **Təlimlər keçirmə** dedikdə təlim alanlara odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, döyüş texnikasından, kimyəvi, bakterioloji silahlardan istifadə etmənin taktiki-texniki qaydalarını öyrətmə başa düşülür. Təlimlərin keçirilməsinin forma və üsullarının müxtəlifliyi əməlin CM-in 214-3.2-ci maddəsi ilə tövsifini dəyişmir. Təlimlər təlim məşğələləri formasında, canlı ünsiyyətdə olmaqla, yaxud uzaqdan kompyuter vasitəsilə və başqa üsullarla keçirilə bilər.

8. CM-in 214-3.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **formal** tərkiblidir: təlimlərin təşkil edildiyi və ya keçirildiyi andan **başa çatmış** sayılır. Təlimlərin **təşkil edilməsi** təlim alanın (alanların) və təlim verənin (verənlərin) müəyyən edildiyi andan başa çatmış sayılır. Təlimlərin təşkilinə yönəldilmiş hərəkətlərin qarşısı şəxsin iradəsindən asılı olmayaraq alınmışdırsa, əməl təlimlərin təşkilinə cəhd kimi tövsif edilməlidir.

9. CM-in 214-3.2-ci maddəsində əks olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədi ilə həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə təlimləri təşkil etdiyini və ya keçirdiyini dərk edir və bunları törətməyi arzu edir. Cinayət istənilən motivlə törədilə bilər: motiv əməlin tövsifini dəyişdirmir.

10. CM-in 214-3.2-ci maddəsində göstərilən cinayətin **subyekti** cinayət törədilərkən **16 yaşına** çatmış anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 214-3-ci maddəsinin qeydi terrorçuluq məqsədi ilə təlim keçmə cinayətini törətmiş şəxsin səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad edilməsinin xüsusi halını nəzərdə tutur. Burada cinayət məsuliyyətindən azad etmənin iki şərti göstərilmişdir: 1) şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür təlimlərin keçirilməsində nəzərdə tutulan məqsədlər üzrə cinayət əməllərinin qarşısının alınmasına, belə təlimlərdə iştirak etmiş, belə təlimləri təşkil etmiş, maliyyələşdirmiş şəxslərin aşkar edilməsinə yardım etməlidir; 2) onun əməlində başqa cinayətin tərkibi olmamalıdır.

Təlimlərdə iştirak etmiş, belə təlimləri təşkil etmiş, maliyyələşdirmiş şəxslərin aşkar edilməsinə yardım etmə hərəkətləri həmin şəxslərin axtarılıb tapılmasını təşkil etmədə, onların yerini bəlli etmədə ifadə oluna bilər.

Buna oxşar qeydin izahı barədə əlavə olaraq CM-in 214-cü maddəsinin şərhinin 24-cü bəndinə bax.

Maddə 215. Adamları girov götürmə

215.1. Girov götürülən şəxsin azad olunması şərti ilə dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək məqsədi ilə şəxsi girov götürmə və ya saxlama —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırı-

lır.

215.2. Eyni əməllər:

215.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

215.2.2. təkrar törədildikdə;

215.2.3. həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə;

215.2.4. odlu silahdan və ya silah qismində istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə;

215.2.5. bilə-bilə yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;

215.2.6. təqsirkar tərəfindən aşkar surətdə hamilə qadın barəsində törədildikdə;

215.2.7. iki və ya daha çox şəxs barəsində törədildikdə;

215.2.8. tamah niyyəti ilə törədildikdə —

on ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

215.3. Bu Məcəllənin 215.1 və ya 215.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə nəzərdə tutulmuş əməli törətmiş şəxs könüllü və ya hakimiyyət orqanlarının tələbi ilə girov götürüləni azad edərsə, onun əməlində başqa cinayət tərkibinin əlamətləri olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

1. Adamları girov götürmə respublikamızın qüvvədə olan cinayət qanunvericiliyində ictimai təhlükəsizlik əleyhinə törədilən ən təhlükəli cinayətlərdən biri kimi nəzərdə tutulur. Dünyanın bir sıra qabaqcıl ölkələrinin cinayətkarlıqla mübarizə təcrübəsi göstərir ki, adamların girov götürülməsi dövlətə onun iştirak etdiyi beynəlxalq münasibətlərdə siyasi və iqtisadi ziyan vurulmasına, mühüm dövlətlərarası əhəmiyyət kəsb edən qərarların qəbul edilməsinin pozulmasına, yaxud təxirə salınmasına səbəb ola bilər. Bu cinayət çox zaman transmilli xarakter daşıdığına görə onunla mübarizə beynəlxalq əhəmiyyət kəsb edir. 1979-cu ilin dekabrında BMT Baş Məclisinin adamları girov götürmə ilə mübarizə haqqında Beynəlxalq Konvensiya qəbul etməsi faktı da bunu sübut edir.

2. Adamları girov götürmə cinayətinin **obyekti** ictimai təhlükəsizlik, insanların həyatı və sağlamlığı, habelə Azərbaycan Respublikasının Konstitusiyasında (28-ci və 32-ci maddələr) təsbit olunmuş insanın şəxsi azadlığı və toxunulmazlığıdır.

Cinayətkarın öz məqsədinə çatmaqdan ötrü azadlıqdan məhrum etdiyi hər hansı şəxs şərh olunan cinayət əməlindən **zərərçəkmiş** hesab olunur. Zərərçəkmiş şəxs Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxs, vəzifəli (yaxud vəzifəsi olmayan) şəxs, dövlət xadimi, ictimai xadim, yaxud hakimiyyət nümayəndəsi, dini təriqətin nümayəndəsi, azadlıqdan məhrumetmə yerlərində olan məhbus və s. ola bilər.

3. CM-in 215.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** adamları girov götürmədə və ya adamları (adamı) girov qismində zorla saxlamada ifadə olunur.

4. Adamları **girov götürmə** dedikdə insanın azadlığının elə qeyri-hüquqi fiziki məhdudlaşdırılması başa düşülür ki, bu zaman zərərçəkmiş şəxsin sonradan azad edilməsi cinayətkarın dövlətə, təşkilata, fiziki və ya hüquqi şəxslərə ünvanladığı tələblərin yerinə yetirilməsindən asılı olur. Bu cinayət müxtəlif **üsullarla** — gizli və ya açıq, zor tətbiq etməklə və ya etməməklə, zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan (CM-in 215.1-ci maddəsi), yaxud təhlükəli olan (CM-in 215.2-ci maddəsi) zor tətbiq etməklə həyata keçirilə bilər. Lakin bu cinayətlə mübarizə təcrübəsi göstərir ki, adamları girov götürmə, bir qayda olaraq, silahdan (odlu silahdan və ya silah qismində istifadə edilən əşyalardan) istifadə etmə hədəsi ilə müşayiət edilən fiziki zor tətbiq olunmaqla törədilir. CM-in 215.1-ci maddəsi ilə tövsif olunan girov götürmə zərərçəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq edilməsi ilə törədilir, yəni bu zor döymə və ya fiziki ağrı verən, lakin CM-in 128-ci maddəsində göstərilən nəticələrə səbəb olmayan digər zorakı hərəkətlərin törədilməsi çərçivəsindən kənara çıxmır. Zərərçəkmiş şəxsi aldatma yolu ilə girov götürməni zor tətbiq etməməklə adamları girov götürməyə misal göstərmək olar. Zərərçəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etmənin anlayışı CM-in 128-ci və 180-ci maddələrinin şərhində ətraflı verilmişdir.

5. Şəxsi **girov qismində saxlama** dedikdə onun azad edilməsinə və ya saxlanıldığı yerdən çıxıb getməsinə zor tətbiq etməklə mane olma başa düşülür. Bu, bir qayda olaraq, zərərçəkmiş şəxsi müəyyən bir qapalı, özünün müstəqil surətdə çıxıb gedə bilməyəcəyi yerdə (məsələn, evdə, otaqda, qarajda, anbarda, gizli saxlanc yerində, mağarada, komada və s.) onun iradəsinə zidd olaraq saxlamada ifadə olunur. Girov saxlama, adətən, psixi və ya fiziki zor tətbiq etməklə qanunsuz olaraq hüquqazidd şəkildə zərərçəkmiş şəxsi azadlıqdan məhrumetmə ilə müşayiət olunur.

6. Şərh olunan cinayətin subyekti girov götürülənləri azad etmə müqabilində dövlətin, təşkilatın və ya vətəndaşın hər hansı hərəkət etməsi və ya hər hansı hərəkətdən çəkinməsi şərtini qoyur. Ümumiyyətlə, burada cinayətkarın dövlətin, təşkilatın və ya vətəndaşın qarşısına qoyduğu tələblərin məzmunu, xarakteri çox müxtəlif ola bilər və bu, əməlin tövsifinə təsir etmir. Bu cinayətdə tələbin ünvanı istənilən dövlət (cinayətkarın vətəndaşı olduğu və ya xarici), eləcə də təşkilat (yerli və ya xarici) ola bilər. Cinayətkarın irəli sürdüyü tələblərin xarakterindən asılı olaraq, bu tələblərin ünvanı fərdi müəyyən də ola bilər (məsələn, konkret müəssisə rəhbəri, vəzifəli şəxs, hakimiyyət nümayəndəsi, ictimai xadim və s.), yaxud olmaya da bilər. Bu da əməlin tövsifinə heç bir təsir göstərmir.

Cinayətkarlıqla mübarizə təcrübəsi göstərir ki, adamları girov götürən şəxsin irəli sürdüyü tələblərin xarakteri kifayət qədər müxtəlifdir və ölkəni tərk etmək, milli və ya xarici valyuta ilə külli miqdarda pul almaq, hər hansı siyasi qə-

rarın (beynəlxalq müqavilənin) ləğv edilməsinə, yaxud əksinə, onun qəbul edilməsinə məcbur etməyə, məhbusların azad edilməsinə, konkret şəxsin əfv olunmasına nail olmaq, nəqliyyat vasitəsi, narkotik maddələr, silah, partlayıcı maddələr əldə etmək, KİV-in əməkdaşları ilə görüşün təmin olunmasına nail olmaq və s. arzusu ilə bağlı ola bilər.

Adamları girov götürmə zamanı təqsirkar tələblərini açıq şəkildə irəli sürür. Çox zaman cinayətin subyekti bilə-bilə «müraciət» ilə çıxış etməklə, ultimatum verməklə və s. üsullarla irəli sürdüyü tələblərə geniş siyasi rezonans verməyə cəhd edir. Bu hərəkətlər əməlin tövsifinə təsir etməyərək, yalnız onun ictimai təhlükəliliyinin qiymətləndirilməsi və məhkəmə tərəfindən cəzanın növünün və həddinin müəyyən edilməsi zamanı nəzərə alınır.

7. Şərh olunan cinayət əməli zərərçəkmiş şəxs azadlıqdan faktiki məhrum edildiyi, yaxud müddətindən asılı olmayaraq belə vəziyyətdə (yəni azadlıqdan faktiki olaraq məhrum edilmiş vəziyyətdə) saxlanıldığı andan başa çatmış hesab edilir.

Cinayətkarın öz məqsədinə (dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etməyə) nail ola bilmədiyinə görə girov götürülmüş şəxsi azad etməsi CM-in 30-cu maddəsinə əsasən şərh olunan cinayəti törətməkdən könüllü imtina etmə kimi qiymətləndirilə bilməz. Adamları girov götürmə cəhdi baş tutmadıqda, əməl bu cinayəti etməyə cəhd kimi CM-in 29-cu və 215-ci maddələri ilə tövsif olunmalıdır.

8. CM-in 215.1-ci və 215.2-ci maddələrində nəzərdə tutulan cinayətlər, eləcə də 215.3-cü maddəsində nəzərdə tutulan müteşəkkil dəstə tərəfindən adamları girov götürmə subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Təqsirkar CM-in nəzərdən keçirdiyimiz maddəsində göstərilən hərəkətləri törətdiyini, onların ictimai təhlükəli olduğunu dərk edir və qeyd olunan ictimai təhlükəli nəticələrin baş verməsini arzu edir. Bu cinayətin subyekti zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olan adamları girov götürmə cinayətini təqsirin qarışıq forması ilə, yəni CM-in 215.1-ci maddəsində göstərilən hərəkətlərə münasibətdə birbaşa qəsdlə, CM-in 215.3-cü maddəsində qeyd olunan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrin baş verməsinə münasibətdə isə ehtiyatsızlıqla törətmiş olur.

CM-in 215.1-ci maddəsinin dispozisiyasında qeyd olunan xüsusi məqsəd, yəni girov götürülən şəxsin azad olunması şərti ilə dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək məqsədi adamları girov götürmənin subyektiv cəhətinin zəruri əlamətidir. Burada **hər hansı hərəkət** dedikdə konkret məhbusun (məhbusların) azad edilməsi, cinayətkarlara müəyyən pul məbləğinin ödənilməsi, onların pul, silah, nəqliyyat vasitəsi və s. ilə təmin edilməsi, dövlətlər arasında müəyyən beynəlxalq müqavilənin imzalanmaması və s. başa düşülməlidir. Cinayətkarın məqsədinin məzmunu və xarakteri əməlin tövsifinə təsir etmir.

9. Bu cinayətin **subyekti** cinayəti törədənədək **14** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Nəzərə almaq lazımdır ki, həm adamları girov götürən, həm də zərərçəkmiş şəxsi girov qismində saxlayan şəxslər bu cinayətin icraçısı hesab olunur.

10. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

11. CM-in 215.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur.

12. Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi haqqında CM-in 34.2-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

13. Cinayətin təkrar törədilməsinin izahı CM-in 16-cı maddəsinin şərhində verilmişdir.

14. Cinayətin insanın həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədilməsi haqqında CM-in 181-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur. İnsanın həyatı və ya sağlamlığı üçün təhlükəli olan **zor tətbiq edilməsi** dedikdə qəsdən sağlamlığa yüngül zərər vurma (CM-in 128-ci maddəsi), qəsdən sağlamlığa az ağır zərər vurma (CM-in 127-ci maddəsi), əzab vermə (CM-in 133-cü maddəsi), qəsdən sağlamlığa ağır zərər vurma (CM-in 126-cı maddəsi) başa düşülməlidir.

15. Odlu silahdan və ya silah qismində istifadə edilən əşyalardan istifadə edilməsinin anlayışı CM-in 181-ci və 228-ci maddələrinin şərhində verilmişdir. **Silah qismində istifadə edilən əşyalar** dedikdə təsərrüfat-məişət təyinatlı müxtəlif predmetlər (balta, bel, dəryaz, kərənti və s.), habelə dəyənək, daş və s. başa düşülməlidir.

16. Cinayətin bilə-bilə yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsi haqqında CM-in 144-cü və 145-ci maddələrinin şərhində ətraflı qeyd olunmuşdur. **Yetkinlik yaşına çatmayan şəxs** dedikdə cinayət törədilən anadək 18 yaşı tamam olmayan şəxs başa düşülür. Təqsirkarın əməli CM-in 215.2.5-ci maddəsi ilə yalnız o halda tövsif oluna bilər ki, o, zərərçəkmişin 18 yaşının tamam olmadığını qabaqcadan (bu cinayəti törətməzdən əvvəl) bilə-bilə onu girov götürmüş, yaxud girov qismində saxlamış olsun.

17. Cinayətin təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədilməsinin izahı CM-in 61.1.7-ci maddəsinin şərhində verilmişdir.

18. Cinayətin iki və ya daha çox şəxs barəsində törədilməsi haqqında CM-in 120.2.7-ci maddəsinin şərhində danışılır. Törədilmiş əməlin CM-in 215.2.7-ci maddəsində nəzərdə tutulan ağırlaşdırıcı tərkib əlaməti ilə tövsif olunması üçün təqsirkar zərərçəkmiş şəxslərə münasibətdə vahid qəsdlə hərəkət etmiş olmalıdır. Şərh olunan cinayətin törədilməsinə olan qəsd hər bir zərərçəkmiş şəxsə münasibətdə müstəqil surətdə yarandıqda, əməl təkrar törədilən cinayət kimi CM-in 215.2.2-ci maddəsi ilə tövsif olunmalıdır.

19. Cinayətin tamah niyyəti ilə törədilməsinin anlayışı CM-in 61.1.6-cı və 120.2.5-ci maddələrinin şərhində verilmişdir.

20. CM-in 215.3-cü maddəsində adamları girov götürmənin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində bu Məcəllənin 215.1-ci və ya 215.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin müteşəkkil dəstə tərəfindən törədilməsi və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəti-

cələrə səbəb olması qeyd olunur.

21. Cinayətin müteşəkkil dəstə tərəfindən törədilməsinin izahı CM-in 34.3-cü maddəsinin şərhində verilmişdir.

22. Ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olmanın anlayışı CM-in 124-cü maddəsinin şərhində verilmişdir. Adamları girov götürmə cinayəti törədilərkən zərərçəkmiş şəxs qəsdən (birbaşa və ya dolayı qəsdlə) öldürülərsə, bu, CM-in 215-ci maddəsinin hüdudlarından kənara çıxır. Bu halda əməl əlavə olaraq CM-in 120.2.9-cu maddəsi ilə adamları girov götürməklə bağlı olaraq adam öldürmə əlaməti üzrə tövsif edilməlidir.

23. CM-in 215.3-cü maddəsində nəzərdə tutulan mənada **digər ağır nəticələr** dedikdə girov götürülən adamların sağlamlığına ağır zərər vurulması, külli miqdarda əmlak ziyanı vurulması, ictimai qaydanın, nəqliyyatda qəzaların, o cümlədən aviasiya qəzasının baş verməsinə səbəb olan kobud pozuntuların, kütləvi iğtişaşların törədilməsi halları, beynəlxalq konfliktlərin meydana gəlməsi, əhali arasında çaxnaşma yaranması və s. başa düşülür.

Şərh olunan cinayəti düzgün tövsif etmək üçün adamları girov götürmə və ya girov qismində saxlama ilə baş vermiş ağır nəticələr arasında **səbəbli əlaqə** müəyyən olunmalıdır.

24. CM-in 215-ci maddəsinin qeydinə əsasən girov götürülən şəxs bu cinayəti törətdikdən sonra könüllü və ya hakimiyyət orqanlarının tələbi ilə girov götürüləni azad edərsə və onun əməlində başqa cinayət tərkibinin əlamətləri olmazsa, cinayət məsuliyyətindən azad edilir.

25. Adamları girov götürmə obyektiv cəhətinin müəyyən əlamətlərinə görə onunla oxşar olan adam oğurluğu (CM-in 144-cü maddəsi) və qanunsuz azadlıqdan məhrumetmə (CM-in 145-ci maddəsi) cinayətlərindən obyektinə görə fərqlənir. Belə ki, adamları girov götürmənin obyekti ictimai təhlükəsizlik, müqayisə olunan digər cinayətlərin obyekti isə insanın şəxsi azadlığıdır.

Adamları girov götürmədə zərərçəkmiş şəxsi azadlıqdan məhrumetmə təqsirkarın bilavasitə məqsədi deyil, məqsədə çatmaq vasitəsidir. Bu məqsədlərə çatmaqdan ötrü adamları girov götürmə faktının özü və bu zaman irəli sürülən tələblər nəinki gizlədilmir, əksinə, dövləti, təşkilatı, fiziki və ya hüquqi şəxsləri girov götürülən şəxsin azad olunması şərti ilə irəli sürülən tələbləri yerinə yetirmə vasitəsi kimi çıxış edir. CM-in 144-cü və 145-ci maddələrində nəzərdə tutulan cinayətlərdə isə subyekt hətta tamah niyyəti ilə hərəkət etsə də, onların hamıya elan edilməsində maraqlı olmur.

Maddə 216. Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə

İnsanların həlak olmasına, əhəmiyyətli əmlak ziyanının vurulmasına və ya sair ictimai təhlükəli nəticələrin baş verməsinə səbəb ola biləcək hazırlanan partlayış, yanğın və başqa hərəkətlər barəsində bilə-bilə yalan məlumat vermə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 17 may 2002-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə — «Azərbaycan» q., 31 may 2002-ci il).*

1. Bu cinayətin yüksək təhlükəliliyi onunla izah olunur ki, ədalət mühakiməsi orqanlarının normal fəaliyyətinə vurulan ziyan cinayət edilməsi haqqında bilə-bilə yalan xəbərçilik etmə (CM-in 296-cı maddəsi) zamanı vurulan ziyandan xeyli ciddi olur.

2. Şərh olunan cinayət əməli eyni vaxtda bir neçə **obyektə** qəsd etdiyindən yüksək ictimai təhlükəliliyə malik olan cinayətlərə aid edilir. Belə ki, bu cinayətin törədilməsi nəticəsində həm ictimai təhlükəsizliyə, həm də hakimiyyət orqanlarına, dövlət idarəetmə orqanlarının normal fəaliyyətinə, dövlət, ictimai, özəl və digər müəssisə, idarə və təşkilatların işinə, onların iqtisadi mənafelərinə, habelə ayrı-ayrı vətəndaşların hüquqlarına və qanuni mənafelərinə ziyan vurulur.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə müəssisə, idarə və təşkilatların normal fəaliyyətini iflic vəziyyətinə salır, hüquq mühafizə orqanlarının və ekstremal situasiyalarda təxirəsalınmaz yardım etməli olan xidmət idarələrinin (məsələn, təcili tibbi yardım, yanğınsöndürmə bölmələri, partlayış texnikası üzrə mütəxəssislərin və s.) qüvvəsinin və vaxtının, habelə bütün bu işlərin yerinə yetirilməsinə dövlətin büdcəsindən xeyli maddi vəsaitin lazımsız yerə sərf olunmasına səbəb olur. Müəssisələrdə, xüsusilə fasiləsiz işləyən müəssisələrdə istehsalat fəaliyyətinin məcburi dayandırılması mühüm iqtisadi ziyan vurulmasına, insanların kütləvi narazılığına və müxtəlif şayiələrin yaranmasına səbəb olur.

3. Bu cinayət əməlinin **obyektiv cəhəti** insanların həlak olmasına, əhəmiyyətli əmlak ziyanının vurulmasına və ya sair ictimai təhlükəli nəticələrin baş verməsinə səbəb ola biləcək hazırlanan partlayış, yanğın və başqa hərəkətlər barəsində bilə-bilə yalan məlumat vermədə ifadə olunur. Bir sözlə, təqsirkar terrorçuluq hərəkətlərinin törədiləcəyi barədə bilə-bilə yalan məlumat verir. Terrorçuluq hərəkətləri və onların məzmunu barəsində CM-in 214-cü maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

4. Terrorçuluq barəsində yalan məlumat, bir qayda olaraq, dövlət hakimiyyəti və idarəetmə, eləcə də hüquq mühafizə orqanlarına, müəssisə, idarə və təşkilatların vəzifəli şəxslərinə ünvanlanır. Belə məlumat sıravi vətəndaşlara (məsələn, guya ki, terrorçuluq nəticəsində partladılacaq yaşayış binasının sakininə, yaxud təyyarənin, qatarın, avtobusun, metronun sərnişininə və s.) da verilə bilər.

5. **Yalan məlumat** dedikdə real həqiqətə uyğun gəlməyən, həqiqəti əks etdirməyən uydurma xəbər başa düşülür.

6. Yalan məlumat müxtəlif **üsullarla** (şifahi, yazılı, telefonla, kütləvi informasiya vasitələri ilə və s.) verilə bilər. Yalan məlumatın hansı üsulla verilməsi əməlin tövsifinə təsir etmir.

7. Yalan məlumatın həcmi CM-in 216-cı maddəsinin dispozisiyasında qeyd olunan əlamətlərə uyğun olmalıdır, yəni bu məlumatda insanların həlak olmasına, əhəmiyyətli əmlak ziyanının vurulmasına və ya sair ictimai təhlükəli nəticələrin baş verməsinə səbəb ola biləcək hazırlanan partlayış, yanğın və başqa hərəkətlər əks olunmalıdır. İstintaq və məhkəmə təcrübəsi göstərir ki, faktiki olaraq bu məlumatın həcmi daha geniş ola bilir. Belə ki, burada konkret «terrorçu», yaxud «terrorçu təşkilat», bu «cinayəti» törətməkdə onların motiv və

məqsədi və s. göstərilə bilər.

Şərh olunan cinayət hər hansı şəxslərin (şəxsin) partlayış, yanğın və ya başqa ümumi təhlükəli hərəkətləri törətməyə hazırlaşması haqqında bilə-bilə yalan məlumat verilməsi anından **başa çatmış** hesab olunur. Qeyd olunan ictimai təhlükəli hərəkətləri törətməyə yalnız niyyətin olması haqqında yalan məlumatlar vermə şərh olunan cinayətin tərkibini yaratmır.

8. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** formasında törədilir. Təqsirkarın **məqsədi** fiziki və hüquqi şəxsləri aldatmaqla ictimai təhlükəsizliyi, hüquq mühafizə orqanlarının, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini pozmaqdan, ayrı-ayrı vətəndaşların hüquq və mənafelərinə ziyan vurmaqdan, gərginlik yaratmaqdan, vahimə və qorxu hissi yaymaqdan, bir sıra hallarda isə hüquq mühafizə orqanlarının diqqətini tamamilə başqa yerdə törədiləcək əsl cinayətdən yayındırmaqdan ibarət olur.

Bu cinayətin motivlərinə xuliqanlıq niyyəti, milli hisslər, qisas, tamah və s. aid edilir.

Bu cinayətin subyekti hazırlanan terror aktı barəsində bilə-bilə yalan məlumat verərkən ictimai təhlükəsizliyi pozmaq, əhalini qorxudub vahiməyə salmaq, yaxud hakimiyyət orqanlarının qərar qəbul etməsinə təsir göstərmək məqsədini güdmüşdürsə, terrorçuluq əməlinin törədilməsi təhlükəsi göz qabağındadır (CM-in 214-cü maddəsi).

9. Məlumatın yalan olduğunu bilə-bilə yalan məlumat vermə təqsirkar şəxsin həm bu cinayəti törədənədək, həm də bilavasitə törədən zaman verdiyi məlumatın həqiqətə uyğun olmadığını dərk etdiyini ifadə edir. Şəxs baş verən hadisələrin mahiyyətini qiymətləndirərkən xəbər verdiyi məlumatların həqiqiliyi haqqında vicdanlı surətdə yanılmışdırsa, şərh olunan cinayət tərkibinin əlamətləri və eləcə də cinayət məsuliyyəti istisna edilir.

10. Nəzərdən keçirdiyimiz cinayət əməlinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 217. Banditizm

217.1. Təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə sabit silahlı qruplar (bandalar) təşkil etmə, belə qruplara (bandalara) rəhbərlik etmə —

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

217.2. Sabit silahlı qruplarda (bandalarda) və ya onların törətdikləri basqınlarda iştirak etmə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə — « Azərbaycan» q., 16 mart 2012-ci il).*

1. Azərbaycan Respublikasının 1960-cı il CM-də banditizm dövləti cinayətlər fəslində nəzərdə tutulurdu. Bu, onunla izah oluna bilər ki, əvvəllər banditizm cinayəti çox vaxt siyasi məqsədlərlə, sovet dövlət quruluşunu sarsıtmaq niyyəti ilə törədilirdi. Müasir dövrdə isə bu cinayət maddi mənfəət, qazanc əldə etmək məqsədi ilə törədilir və mahiyyət etibarilə özündə cinayətkar dəstə tərəfindən törədilən silahlı quldurluq və ya reketin daha təhlükəli hallarını əks etdirir.

Azərbaycan Respublikasının yeni CM-də isə qanunverici haqlı olaraq banditizm cinayətinin obyektini düzgün müəyyən edərək onu ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər fəslində yerləşdirmişdir. Bundan başqa, qanunverici yeni CM-də banditizm cinayət tərkibinin quruluşunu da əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Belə ki, 1960-cı ildə qəbul edilmiş CM-in banditizmə görə məsuliyyət nəzərdə tutan 70-ci maddəsinin dispozisiyasında həm təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə silahlı qruplar təşkil etməyə, həm də belə qruplarda və ya onların törətdikləri basqınlarda iştirak etməyə görə məsuliyyət nəzərdə tutulurdusa, yeni CM-in 217-ci maddəsində sabit silahlı qruplar (bandalar) təşkil etmə və onlara rəhbərlik etmə (CM-in 217.1-ci maddəsi) ayrıca cinayət tərkibi kimi nəzərdə tutulur və bandada və ya onun törətdiyi basqınlarda iştirak etmədən (CM-in 217.2-ci maddəsi) fərqləndirilir.

2. Banditizm eyni zamanda bir neçə obyektə qəsd etdiyindən çoxobyektli cinayət hesab olunur. Bu cinayətin **əsas obyekti** ictimai təhlükəsizlik, **əlavə obyekti** isə insanların həyatı və sağlamlığı, habelə dövlət və ictimai mülkiyyət, eləcə də mülkiyyətin digər formalarıdır.

3. Banditizm cinayətinin **obyektiv cəhəti** CM-in 217.1-ci və 217.2-ci maddələrinin dispozisiyalarında qeyd olunan fəal hərəkətlərdə, yəni sabit silahlı qruplar (bandalar) təşkil etmədə, belə qruplara (bandalara) rəhbərlik etmədə, sabit silahlı qruplarda (bandalarda) və ya onların törətdikləri basqınlarda iştirak etmədə ifadə olunur.

4. Qanunverici CM-in 217-ci maddəsində bandanın aşağıdakı əlamətlərə malik olduğunu qeyd edir: a) qrup halında, yəni iki və ya daha çox şəxsdən ibarət olması; b) sabit olması; c) silahlı olması; ç) təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə yaradılması.

Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bəzi normalarının tətbiqi qaydası haqqında» 11 aprel 1995-ci il tarixli Qərarının 3-cü bəndinə görə banda dedikdə bunun iki və ya daha çox şəxsdən ibarət olması, iştirakçılar arasında möhkəm təşkilati birlik olması, iştirakçılardan hər hansı birində odlu və ya soyuq silahın olması və digər iştirakçıların bunu bilməsi, iştirakçıların basqınlar (basqın) etmək məqsədi ilə qabaqcadan birləşməsi başa düşülməlidir.

«Banditizm işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 7 iyul 1996-cı il tarixli Qərarının 3-cü bəndinə əsasən **bandanın möhkəm təşkilati birliyi** (sabitliyi) dedikdə onun tərkibinin və təşkilati quruluşunun sabitliyi (iştirakçıların tərkibinin, bir qayda olaraq, dəyişməməsi, iştirakçılar arasında vəzifə bölgüsünün — rəhbər-tabeçilik münasibətlərinin mövcud olması) banda üzvləri arasında sıx birlik (əvvəlcə kriminal əlbirliyin olması, vahid kriminal niyyətin mövcudluğu), kriminal fəaliyyətin eyni forma və metodlarla bağlılığı (əməlin fiziki, yaxud psixi zorla müşayiət olu-

nan basqınla bağlı olması), müəyyən cinayətin, yaxud da cinayətlərin müntəzəm törədilməsi niyyətinin olması nəzərdə tutulur.

Plenum Qərarında daha sonra qeyd olunur ki, bandanın əsas əlamətlərindən biri onun iştirakçılarında silah olmasıdır. Bu silahlar döyüş, ov silahı, zavod üsulu ilə və ya əldə düzəldilmiş soyuq silah, müxtəlif partlayıcı qurğular, qaz silahı və s. ola bilər.

Banda üzvləri tərəfindən istifadə olunan predmetlərin silah olub-olmamasının müəyyən edilməsi üçün müvafiq ekspertiza rəyinin alınması zəruridir.

Banda üzvlərinin heç olmasa, birində silah olması, həmin silahın tətbiq edilməsinin mümkünlüyünü yəqin edən digər banda üzvlərində bu haqda məlumat olması, həmin bandanın silahlı banda hesab edilməsinə əsas verir (istinad olunan Plenum Qərarının 4-cü bəndi).

Silah dedikdə canlı hədəfi məhv etmək üçün xüsusi olaraq nəzərdə tutulmuş predmetlər və qurğular başa düşülməlidir.

Bandada silah qismində istifadəyə yararsız silahın (məsələn, vurucusu olmayan tapançanın) və ya silahı imitasiya edən predmetlərin (məsələn, taxtadan düzəldilmiş avtomat və ya tapança modeli) olması bandanı silahlı hesab etməyə əsas vermir, yəni belə olduqda banda silahlı hesab oluna bilməz. Qeyd olunan hallarda cinayətkar dəstənin üzvləri banditizmə görə deyil, quldurluğa və ya digər cinayətlərə görə cinayət məsuliyyətinə cəlb oluna bilər.

5. CM-in 217.1-ci maddəsində **banda təşkil etməyə** və ya ona rəhbərlik etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun istinad olunan Qərarının 5-ci bəndinə əsasən **silahlı bandanın təşkil edilməsi** dedikdə vətəndaşlara və ya idarə, müəssisə və təşkilatlara basqın edilməsi üçün silahlı möhkəm qrupun yaradılmasına gətirib çıxaran hər hansı bir hərəkət başa düşülməlidir. Belə hərəkətlər razılaşmada, iştirakçıların axtarılmasında, silah əldə edilməsində, banda üzvləri arasında rolların bölünməsi və planların tərtib edilməsində özünü göstərə bilər.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda istinad edilən Qərarının 6-cı bəndinə əsasən banditizm cinayəti vətəndaşlara və ya təşkilatlara basqın etmək məqsədi ilə sabit silahlı qrup (banda) təşkil edildiyi andan, bandanın planlaşdırdığı cinayətin törədilib-törədilməməsindən asılı olmayaraq, **başa çatmış** hesab olunur. Deməli, banditizm **kəsik tərkibli** cinayətdir.

6. **Möhkəm təşkilati birliyə malik silahlı dəstənin (bandanın)** yaradılmasına yönələn fəal hərəkətlərin qarşısı alındıqda və ya bu hərəkətlər başqa səbəblər üzündən bandanın yaradılmasına gətirib çıxarmadıqda, belə hərəkətlər **bandanın təşkilinə cəhd etmə** kimi qiymətləndirilir.

Bandanın təşkilinə yönələn fəaliyyətdə bandanın komplektləşdirilməsi üçün zəruri olan üzvlər (ikinci bir şəxs) tapılmış və razılıq alınmış olsa da, silah əldə edilməmişdirsə, yaxud da əksinə, belə fəaliyyətlə silah əldə edilsə də, bandanın komplektləşdirilməsi üçün üzvlər tapılmamışdırsa, bu halda məsuliyyət cinayət etməyə, yəni banditizmə cəhdə görə yaranır (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun istinad edilən qərarının 6-cı bəndi).

7. Qanunun mənasından aydın olur ki, silahlı bandanı təşkil etmiş şəxs və ya şəxslər sonradan bandanın fəaliyyətində iştirak etməsələr də, yaxud onun

təşkilatçılarından sıravi iştirakçılarına çevrilmiş olsalar da, bandanı təşkil etməyə görə cinayət məsuliyyəti daşımalıdırlar, yəni qeyd olunan bütün hallarda onların əməli bandanı təşkil etmə kimi tövsif olunmalıdır.

8. **Bandaya rəhbərlik etmə** dedikdə bandanın üzvlərinin axtarılıb tapılması və bandaya cəlb olunması, onların arasında rolların bölüşdürülməsi, basqın planlarının işlənib hazırlanması, basqın ediləcək obyektlərin və basqının edilmə üsullarının seçilməsi, bandanın üzvləri ilə hazırlıq işlərinin aparılması, onun təqsirli üzvlərinin cəzalandırılması, zərərçəkmiş şəxslərin və şahidlərin fiziki olaraq aradan götürülməsi, talanmış əmlakın gizlədilməsi və satılması haqqında qərar qəbul edilməsi, bandanın üzvlərinə göstəriş və sərəncamlar verilməsi və s. üzrə cinayətkar fəaliyyət başa düşülür.

CM-in 34.6-cı maddəsinin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, bandanı təşkil etmiş şəxs (şəxslər) eyni zamanda həm silahlı qrupu (bandanı) yaratmağa və ona rəhbərlik etməyə görə, həm də bu şəxsin (şəxslərin) niyyəti ilə əhatə olunduğu hallarda bandanın törətdiyi bütün cinayətlərə görə məsuliyyət daşıyır.

Bir qayda olaraq, hər bir bandada lider, yəni rəhbər funksiyasını yerinə yetirən şəxs olur. Bu şəxs özü bilavasitə bandanın törətdiyi basqınlarda iştirak etməsə də, bandanın qalan üzvləri ona tabe olur.

9. **Bandanın sıravi üzvlərinin fəaliyyəti** CM-in 217.2-ci maddəsi ilə bandada və ya onların törətdikləri basqınlarda iştirak etmə kimi tövsif olunur.

10. Azərbaycan Respublikası Ali Məhkəməsinin istinad edilən Plenum qərarının 7-ci bəndinə əsasən **silahlı bandada iştirak etmə** dedikdə nəinki bandanın basqınlarında bilavasitə iştirak etmə, həmçinin bandanın mənafeyi üçün digər hərəkətlərin həyata keçirilməsi də başa düşülür (məsələn, rəhbərlik etmə, maliyyələşdirmə, silahla təchiz etmə, basqın üçün obyektləri müəyyən etmə, nəqliyyatla təmin etmə və s.). Bandada iştirak etmə kimi qiymətləndirilən hərəkətlərin sırasına hüquq mühafizə orqanlarının rüşvətlə ələ alınmış işçiləri ilə əlaqə yaratmanı da daxil etmək olar.

Ali Məhkəmənin istinad olunan Plenum Qərarının 8-ci bəndinə görə bandanın üzvü olmayan, lakin banda tərəfindən törədilən cinayətlərdə iştirak etdiyini başa düşən şəxslərin əməlləri də silahlı bandada iştirak etmə kimi qiymətləndirilir. Başqa sözlə, bandanın üzvü olmayan şəxslərin CM-in 217.2-ci maddəsi ilə o halda silahlı bandada iştirak etməyə görə məsuliyyəti yarana bilər ki, həmin şəxslər məhz banda tərəfindən törədilən cinayətlərdə iştirak etdiklərini dərk etmiş olsunlar. Əks təqdirdə CM-in 217-ci maddəsi ilə cinayət məsuliyyəti istisna edilməlidir.

Ağır cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2003-cü il 24 oktyabr tarixli hökmünə əsasən R.Nadirov CM-in 120.2.1, 120.2.5, 120.2.11, 181.3.1, 181.3.2, 181.3.3, 217.2 və 228.3-cü maddələri ilə təqsirli bilinərək məhkum edilmişdir.

R.Nadirov ona görə məhkum edilmişdir ki, o, tamah məqsədilə adam öldürmə, özgəsinə məxsus külli miqdarda əmlakı ələ keçirmək üçün ayrı-ayrı şəxslərə qarşı quldurluq edərək silah tətbiq etmək niyyəti ilə Q.Nuriyevin təşkil etdiyi A.İmanov və R.İslamovdan ibarət mütəşəkkil dəstənin - sabit silahlı qru-

pun (bandanın) tərkibində həmin bandanın törətdiyi basqında iştirak etmişdir.

Belə ki, onun daxil olduğu banda N.İsmayılovu öldürüb əmlakını ələ keçirmək qərarına gəlmişlər. Q.Nuriyev, A.İmanov və R.İslamov sonuncunun evində birgə plan hazırlayarkən R.Nadirov məsləhətləri və məlumatları ilə onlara cinayətin törədilməsini asanlaşdırmaq üçün yardım etmişdir. R.Nadirov bildirmişdir ki, N.İsmayılovun üstündə ən azı 3000 ABŞ dolları məbləğində pul olmalıdır və ona axşam işdən qayıdarkən və ya səhər işə gedərkən basqın etmək əlverişlidir. Bundan sonra o, N.İsmayılovun yaşadığı evi A.İmanov, Q.Nuriyev və R.İslamova göstərmiş və N.İsmayılovun işdən çıxma vaxtını öyrənib banda üzvlərinə mobil telefonla bildirsə də, onlar gec olduğuna görə planlarını həyata keçirməyi sabaha saxladıqlarını bildirmişlər. Gecə saat 3 radələrində A.İmanov A.Nadirova zəng edib çıxmağı təklif etdikdə o, təklifdən boyun qaçırmış və «Allah işinizi avand eləsin!» sözlərini demişdir. Bundan sonra Q.Nuriyev, R.İslamov və A.İmanov saat 7.30 radələrində N.İsmayılovun həyətində ona silahlı basqın edərək özünü öldürmüş, külli miqdarda əmlakını ələ keçirmişlər.

Hökmdən verilmiş apellyasiya şikayəti Apellyasiya Məhkəməsinin 26 dekabr 2003-cü il tarixli qərarı ilə, apellyasiya qərarından verilən kassasiya şikayəti isə Ali Məhkəmənin 28 dekabr 2004-cü il tarixli qərarı ilə təmin edilməmişdir.

Məhkumun müdafiəçisi tərəfindən əlavə kassasiya şikayəti verilmiş və R.Nadirov cinayəti törətməkdən könüllü imtina etdiyinə görə onun əməlində cinayət tərkibinin olmaması səbəbindən kassasiya qərarının ləğv edilməsi və işin yeni kassasiya baxışına qaytarılması xahiş edilmişdir. Dövlət ittihamçısı isə R.Nadirovun əməlini CM-in 32,181.3-cü maddəsi ilə tövsif edilməsini, qalan maddələrlə cinayət işinin icraatına R.Nadirovun əməlində həmin cinayət tərkiblərinin olmaması əsası ilə xitam verilməsini bildirmişdir.

Ali Məhkəmənin Plenumu hesab etmişdir ki, R.Nadirov Azərbaycan Respublikası CM-in 120.2, 217.2 və 228.3-cü maddələri ilə, yəni ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, sabit silahlı qruplarda (bandalarda) iştirak etmə və mütəşəkkil dəstənin tərkibində odlu silah əldə etmə cinayətlərini törətməyə görə əsassız olaraq təqsirli bilinmişdir. Ona görə ki, cinayət işində məhkum R.Nadirovun Q.Nuriyevin A.İmanov və R.İslamovdan ibarət sabit silahlı qrup (banda) təşkil etməsini bilməsi və cinayət törətmək məqsədilə həmin qrupa daxil olması barədə hər hansı məlumat yoxdur. Əksinə, işdən görünür ki, bandanın təşkilatçısı Q.Nuriyevlə onun hadisə günündədək, ümumiyyətlə, tanışlıqları olmamışdır. Q.Nuriyev, A.İmanov, R.İslamov ibtidai istintaq dövründə verdikləri ifadələrində göstərmişlər ki, onlar N.İsmayılovun evinə basqın etmək üçün tapança ilə silahlanıb gələrkən yolda A.İmanov tanışı R.Nadirova mobil telefonla zəng vurmuşlar ki, görüşmək üçün R.İslamovun evinə gəlsin. R.İslamovun yaşadığı evində görüşərkən R.Nadirov onların N.İsmayılova basqın edəcəyini bilsə də, orada İsmayılovun öldürülməsi barədə söhbət getməmişdir. Qeyd olunduğu kimi, R.Nadirov nəinki N.İsmayılovun öldürülməsində iştirak etməmiş, ümumiyyətlə, hadisə yerində olmamışdır. Nəhayət, R.Nadirovun odlu silah əldə edilməsində iştirak etməsi barədə də işdə hər hansı məlumat

yoxdur.

Beləliklə, Plenum hesab etmişdir ki, R.Nadirovun əməlində CM-in 120.2.1, 120.2.5, 120.2.1, 217.2 və 228.3-cü maddələrlə nəzərdə tutulan cinayətlərin tərkibi yoxdur. Kassasiya instansiyası məhkəməsinin qərarı hissə ilə ləğv edilməklə həmin maddələrlə cinayət işinin icraatına xitam verilməlidir. R.Nadirovun məhz cinayətkar mütəşəkkil dəstənin tərkibində cinayət törətməsi barədə sübutlar olmadığından, o, Azərbaycan Respublikası CM-in 181.3.1-ci maddəsi ilə də təqsirli bilinməməlidir. R.Nadirov külli miqdarda özgə əmlakını ələ keçirmək məqsədilə törədilən, zərərçəkmişə ağır zərər vurmaqla nəticələnən quldurcasına silahlı basqında köməkçi qismində iştirak etdiyi üçün onun əməli CM-in 32,181.2.3 və 32,181.3.3-cü maddələri ilə tövsif edilməlidir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı ilə cinayət işinin CM-in 120.2.1, 120.2.5, 120.2.11, 217.2 və 228.3-cü maddələri ilə olan hissəsinə R.Nadirovun əməlində həmin cinayətlərin tərkibi olmadığına görə xitam verilmiş, o, CM-in 181.3.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayəti törətməkdə təqsirli bilinməmişdir.

R.Nadirovun əməli Azərbaycan Respublikası CM-in 32,181.3.2 və 32,181.3.3-cü maddələri ilə tövsif edilməkdə ona həmin maddə ilə 10 (on) il azadlıqdan məhrum etmə cəzası təyin edilmişdir[1].

Bandada iştirak etmə həm daimi, həm də birdəfəlik tapşırıqların yerinə yetirilməsində ifadə oluna bilər.

CM-in 34.6-cı maddəsindən aydın olur ki, silahlı qrupun (bandanın) üzvləri həm bandada iştirak etdiklərinə, həm də banda tərəfindən hazırlanmasında və ya törədilməsində iştirak etdikləri cinayətlərə görə cinayət məsuliyyətinə cəlb olunur.

11. «Bandanın üzvü olmayan və onun basqınlarında iştirak etməyən, lakin onun cinayətkar əməllərinin həyata keçirilməsinə kömək edən şəxslərin əməlləri CM-in 17, 70-ci maddəsi ilə tövsif edilməlidir» (Ali Məhkəmənin istinad edilən Plenum Qərarının 8-ci bəndi) (qüvvədə olan CM-in 32-ci maddəsinin müvafiq bəndi və 217-ci maddəsi). Məsələn, banditizmə köməkçilik etmə **obyektiv cəhətdən** bandanın üzvlərinə silah satmada, nəqliyyat vermədə, basqın obyektini nişan vermədə və s. ifadə oluna bilər. Lakin belə hərəkətlər yalnız birdəfəlik xarakter daşımalıdır. Əks təqdirdə, yəni belə hərəkətlər mütəmadi xarakter daşıdıqda şəxs bandanın üzvünə çevrilir.

Banditizmdə iştirakçılıq **subyektiv cəhətdən** onunla xarakterizə olunur ki, iştirakçı cinayət törətməkdə məhz bandaya (yəni hər hansı digər cinayətkar dəstəyə deyil) yardım etdiyini dərk etməlidir.

12. Bandanın törətdiyi basqınlarda iştirak etmə zamanı təqsirkar bandanın üzvü olmur, lakin onun törətdiyi bir və ya bir neçə basqında iştirak edir. Məsələn, şəxs özünün idarə etdiyi şəxsi avtomobilində bandanın üzvlərini cinayət törədiləcək yerə gətirir, obyektə basqında şəxsən iştirak edir, bundan sonra cinayətkarları cinayət yerindən öz avtomobilində uzaqlaşdırır və bütün bunların müqabilində cinayət yolu ilə əldə edilmiş əmlakın bir hissəsini mükafat qismində alır.

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2006-cı il, № 6.

13. Azərbaycan Respublikası Ali Məhkəməsinin istinad edilən Plenum Qərarının 9-cu bəndində deyilir: «Zərərçəkmiş üzərində zor tətbiq etməklə cinayətkar nəticənin əldə edilməsi və ya dərhal zor tətbiq edilməsi üçün real təhlükə yaratmağa yönəldilmiş hərəkətlər **basqın etmə** kimi qiymətləndirilməlidir». Beləliklə, CM-in 217.2-ci maddəsində nəzərdə tutulan mənada **basqın** dedikdə zərərçəkmiş üzərində zor tətbiq etməklə cinayətkar nəticənin əldə edilməsi və ya dərhal zor tətbiq edilməsi üçün real təhlükə yaratmağa yönəldilmiş hərəkətlər başa düşülür.

Bandanın üzvlərində olan silahın tətbiq edilmədiyi, cinayətin məqsədinə isə zərərçəkmiş şəxsə məlum olan və ya onun görmədiyi, lakin haqqında məlumatı olduğu silahın tətbiq edilməsi ilə hədələmə nəticəsində nail olunduğu hallarda da silahlı bandanın basqını baş tutmuş hesab olunmalıdır.

14. Banditizm cinayətinin **subyektiv cəhəti birbaşa qəsdlə** xarakterizə olunur. Təqsirkar şəxs sabit silahlı qrup (banda) təşkil etdiyini və ya ona rəhbərlik etdiyini, yaxud bandanın üzvlüyünə daxil olaraq onun tərkibində iştirak etdiyini və bu bandanın təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə yaradıldığını dərk edir və bunu arzu edir.

Sabit silahlı qrup silahla, narkotik maddələrlə alver edirsə, lakin hər hansı obyektə basqın etmək məqsədi güdmürsə və bu qrupun üzvlərini tutmağa cəhd edərkən onlar hüquq mühafizə orqanlarına silahlı müqavimət göstərmişlərsə, onların hərəkətlərini banditizm kimi tövsif etmək olmaz. Belə əməllər qanunsuz olaraq odlu silah satma (CM-in 228-ci maddəsi) və ya qanunsuz olaraq narkotik vasitələr satma (CM-in 234-cü maddəsi) və hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə (CM-in 315-ci maddəsi) kimi cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

15. CM-in 217.1-ci maddəsində qanunverici sabit silahlı qrupların (bandaların) **xüsusi məqsədlə**, yəni təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə yaradıldığını qeyd edir. Belə məqsəd banditizmin subyektiv cəhətinin zəruri əlaməti hesab edilir. Lakin belə qrupların (bandaların) basqınlarının konkret məqsədinin nədən ibarət olması CM-in 217-ci maddəsində göstərilməmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun istinad edilən Qərarının 10-cu bəndində deyilir ki, bu məqsəd yalnız vətəndaşların, idarə, müəssisə, təşkilatların əmlakını, pulunu və digər qiymətli mallarını bilavasitə əldə etmək deyil, həm də adamöldürmə, zorlama, başqasının əmlakını zədələmə və ya məhv etmə və digər ağır cinayətlər də ola bilər.

İstintaq və məhkəmə təcrübəsi göstərir ki, sabit silahlı qrup (banda) zorlama və şəxsiyyət əleyhinə olan digər cinayətləri, habelə idarəetmə qaydası və ictimai təhlükəsizlik əleyhinə olan cinayətləri (məsələn, narkotik maddələrin alqı-satqısı) törətmək məqsədi ilə də yaradıla bilər.

16. Banditizm cinayətinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 7 iyul 1996-cı il tarixli 1 saylı Qərarının 13-cü bəndində deyilir ki, məhkəmələrin nəzərinə çatdırılsın ki, CM-in 70-ci maddəsinin (qüvvədə olan CM-in 217-ci maddəsi) subyekti 16 yaşına çatmış şəxslər ola bilərlər. Bandanın tərkibində müxtəlif cinayətlər törətmiş 16 yaşına qədər şəxslər yalnız konkret cinayətlərə görə 14 yaşına çatmış şəxslər üçün qanunda nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyət daşıyırlar.

17. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

18. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun istinad edilən Qərarının 11-ci bəndinə görə bandanın basqınları ilə bağlı qəsdən adam öldürüldükdə, əmlak talan edildikdə, zorlama və s. ağır cinayətlər törədildikdə, təqsirli şəxsin hərəkətləri cinayətlərin məcmusu qaydasında həm banditizmə görə, həm də faktiki törədilən cinayətə görə tövsif edilməlidir.

19. Banditizm qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törədilən **quldurluq** cinayətindən aşağıda qeyd olunan xüsusiyyətlərə görə fərqlənir:

1) banda sabit silahlı qrup olduğu halda, quldurluqda vətəndaşlara və ya təşkilatlara yalnız bir basqın edilməsi haqqında razılığa gələn bir qrup şəxs mövcud olur;

2) banditizmdə bandanın üzvlərində silahın olması kifayət olduğu halda, quldurluqda təkcə silahın olması deyil, həm də onun faktiki olaraq tətbiq edilməsi tələb olunur;

3) quldurluqda silah olmayan, lakin silah qismində istifadə edilən əşyalardan da istifadə edilməsi mümkün olduğu halda, banditizm tərkibinin yaranması üçün yalnız xüsusi olaraq canlı hədəfi məhv etmək üçün nəzərdə tutulan soyuq və ya odlu silahdan istifadə olunması cinayət məsuliyyətinə səbəb olur;

4) banditizm cinayəti banda təşkil olunduğu andan **başa çatmış** hesab olunduğu halda, quldurluq özgə əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın törədildiyi andan başa çatmış hesab edilir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun istinad edilən Qərarının 12-ci bəndində deyilir ki, banditizm bir qrup şəxs tərəfindən zorakılıqla törədilən digər cinayətlərdən (CM-in 181.2-ci maddəsi) onun tərkibinin daha mütəşəkkil, davamlı və möhkəm olması, bandanın silahlanması ilə fərqlənir.

Maddə 218. Cinayətkar birlik (təşkilat) yaratma

218.1. Ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədi ilə cinayətkar birlik (təşkilat) yaratma, habelə belə birliklərə (təşkilatlara) və ya onların tərkib hissəsi olan struktur bölmələrinə rəhbərlik etmə, həmçinin ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün plan və şərtlərin işlənib hazırlanması məqsədi ilə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyini yaratma —

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

218.2. Cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə —

altı ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

218.3. Bu Məcəllənin 218.1 və ya 218.2-ci maddələrində nəzərdə tutulmuş əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə — «Azərbaycan» q., 16 mart 2012-ci il).*

1. Cinayətkar birlik (təşkilat) yaratma CM-də ilk dəfə nəzərdə tutulur, yəni respublikamızın cinayət qanunvericiliyi tarixində indiyədək belə cinayət əməli nəzərdə tutulmamışdır. Son dövrlərdə respublikamızda yüksək ictimai təhlükəliliyə malik olan **mütəşəkkil cinayətkarlıq** əhəmiyyətli dərəcədə genişlənmişdir. Buna görə də qeyd olunan kriminal hadisə ilə mübarizəni təmin edəcək xüsusi cinayət-hüquqi normaların yaradılması zərurəti ortaya çıxmışdır.

Mütəşəkkil cinayətkarlıq dedikdə ierarxiyalı təşkilati quruluşu, konkret cinayətkar fəaliyyət sahəsində (məsələn, quldurluq, qaçaqmalçılıq, valyuta alveri və s.) sıx birliyinin olması, yaxşı işlənilib hazırlanmış məxfilik və hüquq mühafizə orqanlarından müdafiə sisteminin, rüşvətlə elə almanın mövcudluğu, xarici ölkələrə çıxışın və beynəlxalq mafiya ilə əlaqələrin olması da daxil olmaqla, cinayətkar fəaliyyətin geniş miqyası ilə fərqlənən (xarakterizə olunan) sabit cinayətkar birliklərin (təşkilatların) fəaliyyəti başa düşülməlidir.

Beləliklə, cinayətkar birliyin (təşkilatın) əlamətlərinə aşağıdakıları aid etmək olar: a) ağır və ya xüsusilə ağır cinayətin törədilməsi məqsədi ilə sabit mütəşəkkil cinayətkar qrupun yaradılması; b) eyni məqsədlərlə iki və ya daha çox mütəşəkkil cinayətkar qrupun sabit birliyi; c) birliyin üzvlərinin sabitliyi və onların arasında sıx birliyin olması; ç) onların ümumi cinayətkar niyyətlər əsasında birləşməsi; d) bu birliyin ierarxiyalı struktura malik olması (birlikdə (təşkilatda) rəhbərlərin, sıravi icraçıların olması, birliyin üzvləri arasında funksiyaların və öhdəliklərin bölüşdürülməsi).

2. Bu cinayət ictimai təhlükəsizliyə, eləcə də dövlətin özünün təhlükəsizliyinə qəsd etdiyi üçün onun **obyekti** məhz ictimai, həmçinin dövlət təhlükəsizliyinin təmin olunması ilə bağlı olan münasibətlərdir.

3. CM-in 218-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin **obyektiv cəhəti** aşağıda sadalanan hərəkətlərdən hər hansı birinin törədilməsində ifadə olunur: 1) ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədi ilə cinayətkar birlik (təşkilat) yaratma; 2) belə birliklərə (təşkilatlara) və ya onların tərkib hissəsi olan struktur bölmələrinə rəhbərlik etmə; 3) ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün plan və şərtlərin işlənib hazırlanması məqsədi ilə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyini yaratma (CM-in 218.1-ci maddəsi); 4) cinayətkar birlikdə (təşkilatda) iştirak etmə; 5) mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə (CM-in 218.2-ci maddəsi); 6) şəxsin yuxarıda sadalanan əməlləri öz qulluq mövqeyindən istifadə etməklə törətməsi (CM-in 218.3-cü maddəsi).

4. **Cinayətkar birlik (təşkilat) yaratma** dedikdə buraya üzvlərin axtarılıb

tapılması və cəlb olunması, cinayətkar məqsədlərin müəyyən edilməsi, ayrı-ayrı hallarda isə sədaqət andı içməklə təşkilata üzvlüyə qəbul edilmənin formal qeydə alınması və s. başa düşülür. Cinayətkar birlik (təşkilat) yaratma bir çox əlamətlərinə görə sabit silahlı qrup (banda) təşkil etməyə xeyli oxşayır (CM-in 217-ci maddəsinin şərhinə bax). Bandanın təşkil edilməsində olduğu kimi, cinayətkar birlik yaratma zamanı da üzvlər axtarılır və birliyə cəlb edilir, onun struktur bölmələri, təşkilati formaları yaradılır, birlik daxilində tabeçilik sistemləri işlənib hazırlanır, rolların, vəzifələrin bölgüsü həyata keçirilir və s. Lakin bandadan fərqli olaraq, cinayətkar birliyin (təşkilatın) yaradılması daha mürəkkəb, bir çox pillələrdən və ya mərhələlərdən ibarət olan bir prosesdir. Təəssüf ki, bu özünəməxsusluq CM-in 218-ci maddəsində kifayət qədər tam şəkildə öz əksini tapmamışdır.

Cinayətkar birlik (təşkilat) bandadan həm də məqsəd və vəzifələrinə görə fərqlənir. Belə ki, banda təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə yaradıldığı halda, cinayətkar birlik, əsasən cinayətkar fəaliyyətin narkotik maddələr, silah, dərman preparatları, spirtli içkilər və s. istehsal etmə, yayma, daşıma, satma, saxta pul kəsmə və s. bu kimi növləri ilə məşğul olmaq, başqa sözlə, ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədi ilə yaradılır və fəaliyyət göstərir.

Bandada olduğu kimi, cinayətkar birlikdə də silah ola bilər, lakin bandadan fərqli olaraq, cinayətkar birlikdə silahdan basqın etmək məqsədi ilə deyil, digər cinayətkar qrupların basqınlarından müdafiə olunmaq məqsədi ilə istifadə edilir. Cinayətkar birlik özünün yuxarıda qeyd olunan kriminal fəaliyyət növləri ilə yanaşı, banditizmlə də məşğul olduqda, əməl CM-in 217-ci və 218-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

5. **Cinayətkar birliyə (təşkilata) və ya onun tərkib hissəsi olan struktur bölmələrinə rəhbərlik etmə** dedikdə həmin qurumlara rəhbərlik, onlara aid idarəetmə funksiyalarının həyata keçirilməsi başa düşülür. Bu, cinayətkar fəaliyyət planlarının işlənib hazırlanmasında, birliyin üzvləri arasında vəzifələrin bölüşdürülməsində, cinayətkar qəsdlərin obyektlərinin müəyyən olunmasında, birliyin sıravi üzvlərinə göstəriş və tapşırıqların verilməsində və s. bu kimi hərəkətlərdə ifadə olunur. **Cinayətkar birliyin (təşkilatın) struktur bölmələri** dedikdə onun filialları, şöbələri, məntəqələri, asılı müəssisələri və s. nəzərdə tutulur. Mütəşəkkil cinayətkar dəstə də cinayətkar birliyin struktur bölməsidir. Cinayətin mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilməsi haqqında CM-in 34-cü maddəsinin şərhində qeyd olunmuşdur. Cinayətkar birliyin struktur bölmələri bütövlükdə birliyin cinayətkar fəaliyyətinin əlaqələndirilməsinə, ona yardım edilməsinə və onun inkişaf etdirilməsinə, mütəmadi olaraq ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsinə xidmət edir. Qanun cinayətkar birliyin rəhbərlərinə onun struktur bölmələrini yaradan və bunlara rəhbərlik edən şəxsləri də aid edir.

6. Qanunverici CM-in 218.1-ci maddəsinin dispozisiyasında ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün plan və şərtlərin işlənib hazırlanması məqsədi ilə **mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyinin yaradılmasını** nəzərdə tutur. Belə birliklərin

vəzifəsi ağır və ya xüsusilə ağır cinayətlərin mütəmadi olaraq törədilməsi üçün planları və şərtləri işləyib hazırlamaqdan ibarətdir. Bundan əlavə, həmin birliklər cinayətkar fəaliyyətin sahələrinin və ərazilərinin (rayon, şəhər, məhəllə və s. üzrə) bölgüsünü aparır, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, dövlət hakimiyyət və idarəetmə orqanlarının vəzifəli şəxslərinin pulla ələ alınması, leqal siyasətə və biznes aləminə daxil olma, beynəlxalq mütəşəkkil cinayətkar qruplarla əlaqələrin qurulması və sair bu kimi işlərlə məşğul olurlar.

7. Cinayətin təşkilatçısının anlayışı CM-in 32.3-cü maddəsinin şərhində verilir.

8. **Mütəşəkkil dəstələrin sair nümayəndələri** dedikdə (CM-in 218.1-ci və 218.2-ci maddələri), dərəcələrindən və daimi və ya müvəqqəti yerinə yetirdikləri funksiyalardan asılı olmayaraq, onların istənilən nümayəndələri başa düşülür.

9. CM-in 218.2-ci maddəsində nəzərdə tutulan **cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə** dedikdə bu birliyin üzvlüyünə daxil olma, birliyin cinayətkar fəaliyyətində iştirak etməyə razılıq vermə, cinayətkar fəaliyyət planlarının işlənib hazırlanması və bu fəaliyyətin xarakteri ilə bağlı iclas və müşavirələrdə iştirak etmə, cinayətkar təşkilatın rəhbərlərinin tapşırıqlarını yerinə yetirmə və s. başa düşülür. Birliyin iştirakçılarına həm cinayət əməllərinin bilavasitə icraçıları, həm də cinayətin törədilməsində köməkçi funksiyaları yerinə yetirən şəxslər aid edilir. Ümumiyyətlə, birliyin iştirakçısını xarakterizə edən bütün əlamətlər bandanın iştirakçısının CM-in 217.2-ci maddəsinin şərhində qeyd olunan əlamətləri ilə üst-üstə düşür.

10. CM-in 218.3-cü maddəsinin mənasına görə, CM-in 218.1-ci və ya 218.2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməllərinin subyekti **vəzifəli şəxs** də ola bilər. Cinayətkar birliyin (təşkilatın) üzvü olan vəzifəli şəxs CM-in 218-ci maddəsində qeyd olunan cinayəti törədərkən öz qulluq mövqeyindən istifadə etməmişdirsə, onun əməli CM-in 218.3-cü maddəsi ilə tövsif oluna bilməz. Bu halda əməl müvafiq olaraq CM-in 218.1-ci və ya 218.2-ci maddələrindən biri ilə tövsif edilməlidir.

11. Nəzərdən keçirilən cinayət əməli CM-in 218-ci maddəsində qeyd olunan hərəkətlərdən hər hansı biri törədildiyi andan **başa çatmış** hesab olunur. Başqa sözlə, CM-in 218-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün cinayətkar birliyin (təşkilatın) hər hansı konkret cinayəti törətməsi tələb olunmur. Deməli, bu, kəsik tərkibli cinayətdir və bu baxımdan CM-in 218-ci maddəsinin quruluşu CM-in banditizmə görə cinayət məsuliyyəti nəzərdə tutan 217-ci maddəsinin quruluşu ilə eynidir.

12. Cinayətkar birliyi (təşkilatı) yaradan və ya ona rəhbərlik edən şəxs CM-in 218-ci maddəsi, eləcə də cinayətkar birliyin törətdiyi və təqsirkarın niyyəti ilə əhatə olunan bütün cinayətlərə görə, bu cinayətlərin törədilməsində iştirak edib-etməməsindən asılı olmayaraq, məsuliyyət daşıyır. Cinayətkar birliyin digər iştirakçıları bu birlikdə iştirak etdiklərinə görə CM-in 218-ci, eləcə də cinayətkar birlik tərəfindən hazırlanmasında və ya törədilməsində iştirak etdikləri cinayətlərə görə məsuliyyət nəzərdə tutulan maddələri ilə məsuliyyət daşıyırlar. Cinayətkar birlik (təşkilat) öz cinayətkar fəaliyyətinə başladıqda və onun üzvləri bu təşkilatın cinayətkar planına daxil olan bir sıra konkret cinayətləri törətdikdə, onların hərəkətləri cinayətlərin məcmusu qaydasında CM-in 218-ci və digər müvafiq maddələri, məsələn, 120-ci, 181-ci, 215-ci və s. maddələri ilə tövsif olunmalıdır.

Cinayətkar birliyin ayrı-ayrı üzvləri bu birliyin məqsədlərində nəzərdə tutulmayan və onun fəaliyyət planına daxil olmayan cinayət (cinayətlər) törətdikdə həmin cinayətə (cinayətlərə) görə müstəqil surətdə cinayət məsuliyyəti daşıyırlar.

13. CM-in 218-ci maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədi ilə cinayətkar birlik (təşkilat) yaratdığını, ona rəhbərlik etdiyini və ya belə birlikdə iştirak etdiyini dərk edir və bunu arzu edir.

Bu cinayət müxtəlif **motivlərlə** törədilə bilər. Əksər hallarda bu cinayətin motivi qazanc, maddi gəlir əldə etmək olur. Ağır və ya xüsusilə ağır cinayətlər törətmək **məqsədi** bu cinayətin subyektiv cəhətinin zəruri əlamətidir.

Ağır və xüsusilə ağır cinayətlərin anlayışı CM-in 15-ci maddəsinin şərhində verilmişdir.

14. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş anlaqlı fiziki şəxs ola bilər. CM-in 218.3-cü maddəsi üzrə bu cinayətin subyekti yalnız öz qulluq mövqeyindən cinayətkar məqsədlər üçün istifadə edən vəzifəli şəxslər, yaxud hakimiyyət nümayəndələri ola bilər.

15. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 219. Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma

219.1. Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma, habelə belə gəmiləri və ya qatarı qaçırmaq məqsədi ilə ələ keçirmə —

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

219.2. Eyni əməllər:

219.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

219.2.2. həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə;

219.2.3. silah və ya silah qismində istifadə edilən əşya tətbiq etməklə törədildikdə;

219.2.4. təkrar törədildikdə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

219.3. Bu Məcəllənin 219.1 və ya 219.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb ol-

duqda —

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(30 may 2014-cü il tarixli Qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 20 iyun 2014-cü il).*

1. Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma nəqliyyatın işini pozur, insan tələfatı ilə müşayiət olunan qəzaların baş verməsi və eyni zamanda sərnişinlərin, heyət üzvlərinin həyat və sağlamlığı üçün real təhlükə yaradır, cəmiyyətə və dövlətə külli miqdarda maddi zərər vurur. Məsələn, cinayətkarlar hava gəmisini qaçırdıqda və dövlət sərhədini icazəsiz keçdikdə hava gəmilərinin toqquşması, hava hücumundan mühafizə vasitələrinin döyüş hazırlığı vəziyyətinə gətirilməsi, sərhədyanı dövlətlə atəş vasitələrinin tətbiq edilməsi, ciddi nəticələr meydana çıxdıqda isə dövlətlərarası münasibətlərin pisləşməsi təhlükəsi yaranır. Deməli, bu cinayətin **əsas bilavasitə obyekti** ictimai təhlükəsizlikdir. İnsanların həyatı və sağlamlığının, habelə mülkiyyətin toxunulmazlığı ilə bağlı olan ictimai münasibətlər nəzərdən keçirilən cinayətin **əlavə obyekti** hesab edilir. Bu cinayətin **predmeti** hava və ya su nəqliyyatı gəmisi, yaxud dəmir yolu qatarıdır. Qeyd olunan nəqliyyat növlərinin idarə və ya şəxsi mənsubiyyəti və məqsədli təyinatı əməlin cinayət-hüquqi tövsifinə təsir etmir.

Hava gəmisi dedikdə mülkiyyət formasından (dövlət, xüsusi), idarə mənsubiyyətindən (hərbi və ya mülki idarə, nazirlik və s.) və məqsədli təyinatından (sərnişin, yük, sanitar və s.) asılı olmayaraq istənilən uçan aparatlar — təyyarələr, vertolyotlar, deltaplanlar, dirijablar, hava şarları və uçuş zamanı idarə olunması təhlükəsizlik tədbirlərinə riayət edilməsini tələb edən digər uçan qurğular başa düşülür.

Su gəmisi dedikdə sənaye, hərbi, elmi-tədqiqat və sair məqsədlər üçün nəzərdə tutulan, su ilə sərnişinlərin və yüklərin daşınmasına xidmət edən nəqliyyat vasitəsi başa düşülür. Bunlar dəniz və çay, özüyeriyən və özüyerimə-yən, bilavasitə su, suüstü (hava yastıqları üzərində) və sualtı gəmilərdir.

Dəmir yolu qatarına dəmir yolu nəqliyyatının hərəkət etmə vasitələri — elektrovozlar, lokomotivlər, vaqonlar, platformalar, drezinlər və motrislər və s. aid edilir.

2. CM-in 219.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhətini** bir-birilə sıx bağlı olan iki hərəkət təşkil edir: 1) hava və ya su gəmisini, yaxud dəmir yolu qatarını qaçırma; 2) qeyd olunan nəqliyyat vasitələrini qaçırmaq məqsədi ilə ələ keçirmə.

3. **Qaçırma** dedikdə hava və ya su gəmisinin, yaxud dəmir yolu qatarının onların dayandıqları və ya marşrut üzrə hərəkət etdikləri vaxt heyətə və ya mühafizəçilərə zor tətbiq etməklə və ya zor tətbiq etmə ilə hədələyərək, yaxud aldatma yolu ilə cinayətkarın (cinayətkarların) seçdiyi marşrut üzrə onların məqsəd və planlarına müvafiq olaraq sürülüb aparılması nəzərdə tutulur.

Yerdə olan **hava gəmisini qaçırma** onu ələ keçirmənin bundan öncə olub-olmamasından asılı olmayaraq, hava gəmisinin uçuş anından **başa çatmış** cinayət hesab olunur. Hava gəmisinin havada uçuşu zamanı onun üçün müəyyən olunmuş hərəkət marşrutunun cinayətkarın iradəsi ilə dəyişdirildiyi andan

şərh olunan cinayət **başa çatmış** hesab olunur.

Hərəkətdə olmayan **su gəmisini və ya dəmir yolu qatarını qaçırma** onların cinayətkarın (cinayətkarların) nəzarəti altında hərəkətə gətirilməsi anından **başa çatmış** hesab olunur. Qeyd olunan nəqliyyat vasitələri hərəkətdə olduqda isə bu cinayət hərəkət marşrutunun dəyişdirildiyi andan **başa çatmış** hesab olunur.

4. **Ələ keçirmə** dedikdə hava və ya su gəmisinə və ya dəmir yolu qatarına onların dayandıqları və ya marşrut üzrə hərəkət etdikləri vaxt zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, yaxud aldatma yolu ilə qanunsuz olaraq sahib olma başa düşülür.

Zor və hədə həm heyət üzvlərinə və sərnişinlərə, həm də xidmət, mühafizə heyətinə və s. tətbiq oluna bilər. Ələ keçirmə əksər hallarda qeyd olunan nəqliyyat vasitələrini qaçırmadan öncə baş verir, lakin nəqliyyat vasitəsini sonradan qaçırmaq məqsədi olmuşdursa, ələ keçirmə şərh olunan cinayətin **obyektiv cəhətinin** müstəqil əlaməti kimi də çıxış edə bilər.

Qaçırma məqsədi olmadan qeyd olunan nəqliyyat vasitəsini ələ keçirmə bu cinayət tərkibini yaratmır. Məsələn, hava və ya su nəqliyyatı gəmisini ələ keçirmə və sərnişinləri girov elan etmə işin konkret hallarından asılı olaraq CM-in 144-cü və ya 145-ci maddəsi ilə tövsif olunmalıdır.

5. CM-in 219.1-ci maddəsinin məntiqi təhlili qeyd olunan gəmilərin və ya dəmir yolu qatarının insanın həyatı və sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etməklə qaçırılmasını və ya qaçırmaq məqsədi ilə ələ keçirilməsini nəzərdə tutduğunu söyləməyə əsas verir. **Həyat və sağlamlıq üçün təhlükəli olmayan zor** dedikdə fiziki ağrı verən, lakin CM-in 128-ci maddəsində göstərilən nəticələrə səbəb olmayan sair zorakı hərəkətlər və zorakılığın digər, daha az təhlükəli növləri (məsələn, zorla azadlıqdan məhrumetmə) başa düşülür. Zor və hədə hava və ya su gəmisinin, dəmir yolu qatarının heyət üzvlərinə, sərnişinlərə, aeroportun, vağzalın işçilərinə qarşı tətbiq oluna bilər.

6. CM-in 219.1-ci və 219.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərinin, eləcə də bu cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsinin **subyektiv cəhəti birbaşa qəsdlə** xarakterizə olunur.

Ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olan bu cinayətin subyektiv cəhəti **təqsirin qarışıq forması** ilə, yəni qaçırma və ya ələ keçirmə hərəkətlərinə münasibətdə birbaşa qəsdlə, qeyd olunan nəticələrə münasibətdə isə ehtiyatsızlıqla xarakterizə olunur. Şərh olunan cinayət əməli müxtəlif motivlərlə törədilə bilər. Qeyd olunan nəqliyyat vasitələrinin ələ keçirilməsinə münasibətdə təqsirkar şəxs tamah motivi ilə də hərəkət edə bilər. Belə olduqda əməl müvafiq olaraq talama cinayətlərindən hər hansı birinin tərkibi (CM-in 177—181-ci maddələrinin şərhinə bax) ilə cinayətlərin məcmusu qaydasında tövsif olunur.

7. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, istənilən anlaqlı fiziki şəxs ola bilər. Burada subyekt hava və ya su gəmisinin, yaxud dəmir yolu heyətinin üzvləri də ola bilər.

8. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüqu-**

qi şəxsə cinayət-hüquqi tədbirlər tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

9. CM-in 219.2-ci maddəsi bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətlərini** nəzərdə tutur.

10. Cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs** tərəfindən törədilməsinin anlayışı haqqında CM-in 34.2-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

11. Həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə haqqında CM-in 181-ci maddəsinin şərhində qeyd olunmuşdur.

12. Silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq etmə haqqında CM-in 181.2.5-ci maddəsinin şərhində qeyd olunmuşdur.

13. Təkrarlığın anlayışı haqqında CM-in 16-cı maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

14. CM-in 219.3-cü maddəsi **xüsusilə ağırlaşdırıcı** hallarda törədilən hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırmağa görə cinayət məsuliyyəti nəzərdə tutur.

15. Cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi haqqında CM-in 34.3-cü maddəsinin şərhində qeyd olunmuşdur.

16. CM-in 219.3-cü maddəsində 219.1-ci və ya 219.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması nəzərdə tutulduğuna görə zərərçəkmiş şəxs qəsdən öldürüldükdə əməl cinayətlərin məcmusu qaydasında — CM-in 120-ci və 219-cu maddələri ilə tövsif edilməlidir.

17. **Digər ağır nəticələr** dedikdə bir neçə şəxsin sağlamlığına ağır zərər vurma, nəqliyyat vasitələrini məhv etmə və ya korlama, ətraf mühiti əhəmiyyətli dərəcədə çirkləndirmə, sərnişinlərin əmlakının, aerodromun, limanın qurğularının məhv edilməsi və ya korlanması, qəzaların, insan tələfatının baş verməsi, nəqliyyatın işinin uzun müddətə pozulması və s. başa düşülür.

18. CM-in 219-cu maddəsində nəzərdə tutulan cinayət hava və ya su gəmisi, yaxud dəmir yolu qatarı sonradan onu qaçırmaq məqsədi ilə faktiki olaraq ələ keçirildiyi andan **başa çatmış** hesab edilir. Təqsirkarın qeyd olunan nəqliyyat vasitələrini ələ keçirdikdən sonra qaçırmağa nail olub-olmaması cinayətin başa çatma momentinə təsir etmir. Qaçırma ələ keçirilmiş nəqliyyat vasitəsinin cinayətkarın göstərdiyi istiqamətdə hərəkətə başladığı andan **başa çatmış** hesab edilir.

Maddə 219-1. Dəniz quldurluğu

219-1.1. Dəniz quldurluğu, yəni özgənin əmlakını ələ keçirmək məqsədi ilə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə dəniz və çay gəmisinə edilən basqın —

beş ildən on ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

219-1.2. Eyni əməllər:

219-1.2.1. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

219-1.2.2. silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törədildikdə —

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

219-1.3. Eyni əməllər:

219-1.3.1. təkrar törədildikdə;

219-1.3.2. mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

219-1.3.3. ehtiyatsızlıqdan şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli Qanunu ilə əlavə edilmişdir; Azərbaycan Respublikasının 7 mart 2012-ci il və 30 may 2014-cü il tarixli qanunla edilmiş düzəlişlərlə — Azərbaycan Respublikası QT, 2001, № 7, m 455; «Azərbaycan» q., 16 mart 2012-ci il; 20 iyun 2014-cü il).*

1. Dəniz quldurluğu ən qədim tarixi olan beynəlxalq cinayətlərdən biridir. Bu cinayətin **ictimai təhlükəliliyi** su məkanından istifadə edən dövlətlərin marağına ciddi zərbə vurmasında ifadə olunur.

Dəniz quldurluğu cinayətin **obyektini** ictimai təhlükəsizlik təşkil edir.

2. Bu cinayətin **obyektiv cəhəti** özgənin əmlakını ələ keçirmək məqsədi ilə zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə dəniz və ya çay gəmisinə edilən basqında ifadə olunur.

Basqın dedikdə dəniz və çay gəmisinə qəflətən edilən zorakı təsir başa düşülür. Basqının məzmunu zor tətbiq etmə, zor tətbiq etməklə hədələmə, habelə zərurət olduqda zor tətbiq etmə hazırlığını əhatə edir.

Zor tətbiq etmə zərərçəkmiş şəxsin sağlamlığına yüngül, az ağır zərər yetirmədə ifadə olunur. Zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurma (sağlamlığına ağır zərər vurmaya psixi münasibət təqsirin qəsd formasında olduqda) cinayətlərin məcmusu qaydasında CM-in 219-1-ci və 226-cı maddələri tövsif edilməlidir.

Zor tətbiq etməklə hədələmə zərərçəkmiş şəxsə göstərilən psixi təsiri nəzərdə tutur. Psixi təsir zərərçəkmiş şəxsə fiziki zərər yetirmədən bütün mümkün üsullardan istifadə etməklə onun iradəsinə göstərilən təsiri özündə ehtiva edir.

Şərh olunan cinayətin **predmetini** dəniz və ya çay gəmisi təşkil edir. Təqsirkarın əməlinin şərh olunan norma ilə tövsif edilməsi üçün dəniz və ya çay gəmisi dövlət sərhədindən kənarda, yəni beynəlxalq sularda olmalıdır. Dövlət sərhədi daxilində dəniz və ya çay gəmisinə basqın etmə əməlin xüsusiyyətlərindən asılı olaraq quldurluq, soyğunçuluq, banditizm və s. kimi tövsif oluna bilər.

3. Təcrübədə dəniz və ya çay gəmisini ələ keçirmə və saxlama, gəmi heyəti üzvlərinə və sərnişinlərə fiziki zərər vurma, gəmini batırma, quldurluq və ya soyğunçluq yolu ilə əmlaka yiyələnmə, gəminin atəşə tutulması və s. hərəkətlər dəniz quldurluğu cinayət tərkibini yaradır. Gəminin atəşə tutulmasında və bombalanmasında ifadə oluna havadan, uçuş aparatlarından hücum etmə də dəniz quldurluğu hesab edilir.

4. Şərh olunan cinayət **formal** tərkiblidir. Bu cinayət özgənin əmlakını ələ keçirmək məqsədilə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə dəniz və ya çay gəmisinə basqın edildiyi andan **başa çatmış** sayılır.

5. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar zor tətbiq etməklə, yaxud zor tətbiq etmə hədəsi ilə dəniz və ya çay gəmisinə basqın etdiyini dərk edir və bunu törətməyi arzu edir. **Məqsəd** bu cinayətin zəruri əlamətidir. Təqsirkarın məqsədi özgənin əmlakını ələ keçirməkdən ibarətdir.

6. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər. Dəniz və ya çay gəmisinə hücum edən başqa gəmi və ya təyyarə yalnız xüsusi sahiblikdə olmalıdır. Hücum hərəkətləri hərbi gəmilərin, yaxud dövlət ticarət gəmilərinin heyəti tərəfindən həyata keçirildikdə, bu, təcavüz aktı hesab olunur və CM-in başqa normaları ilə tövsif edilir.

7. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

8. Şərh edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən (CM-in 219-1.2.1-ci maddəsi) və silah və ya silah qismində istifadə edilən əşya tətbiq etməklə (CM-in 219-1.2.2-ci maddəsi) cinayətin törədilməsi nəzərdə tutulmuşdur.

9. Cinayətin **bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs** tərəfindən törədilməsinin anlayışı haqqında CM-in 34.2-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

10. Silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq etmə haqqında CM-in 181.2.5-ci maddəsinin şərhində qeyd olunmuşdur.

11. Şərh olunan cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** CM-in 219-1.3-cü maddəsində göstərilmişdir.

12. Cinayətin **mütəşəkkil dəstə** tərəfindən törədilməsi haqqında CM-in 34.3-cü maddəsinin şərhində qeyd olunmuşdur.

13. Dəniz quldurluğunun **təkrar** törədilməsi (CM-in 219-1.3.1-ci maddəsi) dedikdə əvvəllər bu cinayəti törədən şəxsin cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş dövrdə və cinayət məsuliyyətindən azad edilmədiyi halda, habelə məhkum olunmadıqda yenidən həmin cinayəti törətməsi başa düşülməlidir.

14. Dəniz quldurluğunun ehtiyatsızlıqdan şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması əlaməti CM-in 219-cu maddəsinin 15-ci və 16-cı bəndlərində şərh olunmuşdur.

Maddə 220. Kütləvi iğtişaş

220.1. Zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə —

dörd ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

220.2. Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il).*

1. Bu cinayətin ictimai təhlükəliliyi onunla izah olunur ki, kütləvi iğtişaşlar dövlət hakimiyyəti və idarəetmə orqanlarının fəaliyyətini iflic vəziyyətinə salır, çox vaxt ictimai qaydanın kütləvi pozuntularına, insan tələfatına səbəb olur, dövlətə, cəmiyyətə, yaxud konkret vətəndaşlara ciddi maddi zərər vurur. Xeyli insanın, yəni kütlənin kriminal hərəkətləri, bir qayda olaraq, təcavüzkarlıqla, güclü emosional davranışla, bu situasiyadan cinayətkar ünsürlərin fəal istifadə etməsi ilə fərqlənir. Beləliklə, **kütləvi iğtişaş** dedikdə ictimai əmin-amanlığın (dincliyin, sakitliyin) və təhlükəsizliyin kortəbii surətdə toplanmış insanlar qrupu (kütlə) tərəfindən elə pozulması başa düşülür ki, bu zaman hakimiyyət orqanlarının fəaliyyəti iflic vəziyyətinə salınır və ictimai dincliyin bərpası üçün fövqəladə tədbirlər, yəni yanğınsöndürənlərin, qoşun bölmələrinin, gücləndirilmiş polis dəstələrinin cəlb olunması və s. həyata keçirilir.

2. Kütləvi iğtişaş cinayətinin **obyekti** ictimai təhlükəsizlikdir. İnsanların həyatı və sağlamlığının, habelə mülkiyyətin müxtəlif formalarının (dövlət, xüsusi və s.) təhlükəsizliyi ilə bağlı olan ictimai münasibətlər bu cinayətin **əlavə obyekti** qismində çıxış edir.

3. CM-in 220.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmədə ifadə olunur. Qanunverici obyektiv cəhəti təşkil edən hərəkətləri iki yerə ayırır: 1) yuxarıda qeyd olunan əlamətlərə malik kütləvi iğtişaşları təşkil etmə; 2) belə iğtişaşlarda iştirak etmə.

4. **Kütləvi iğtişaşlar təşkil etmə** dedikdə bir və ya bir neçə şəxsin kütləvi iğtişaşların planlaşdırılmasında və hazırlanmasında, CM-in 220.1-ci maddəsinin dispozisiyasında qeyd olunan hərəkətlərin törədilməsi üçün dəstələri hazırlamada, iştirakçılar arasında rolları, vəzifələri bölüşdürmədə, kütləyə rəhbərlik etmədə və s. ifadə olunan fəaliyyəti başa düşülür. Kütləvi iğtişaşları təşkil etməyə yönəldilmiş təşkilati hərəkətlərin həyata keçirilməsi üsullarına kütləyə müraciət olunması, həyəcan siqnallarının verilməsi, müxtəlif petisiyaların, vərəqələrin, çağırışların elan olunması, təşkilatçının öz «köməkçiləri» arasında rolları bölüşdürməsi, insanların əhvalı, narazılıq və inciklikləri nəzərə alınmaqla, onların hərəkət (davranış) planlarının işlənib hazırlanması və s. aiddir.

Bu cinayət kriminal nəticələrin baş verib-verməməsindən asılı olmayaraq, kütləvi iğtişaş törədilməsinə yönəldilmiş təşkilati fəaliyyət həyata keçirildiyi andan **başa çatmış** hesab olunur.

5. CM-in 220.1-ci maddəsində kütləvi iğtişaşların ifadə olunduğu hərəkətlər

sadalanır. Bunlara zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, hakimiyyət nümayəndəsinə müqavimət göstərilməsi aiddir.

6. **Zorakılıq** dedikdə fiziki və ya psixi təsir göstərməklə başqa şəxsləri müəyyən hərəkətləri yerinə yetirməyə məcbur etmə başa düşülür. Təqsirkarlar bir sıra hallarda hakimiyyət nümayəndələrinə də belə zorakılıq tətbiq edərək, onları qanunsuz hərəkətlər törətməyə məcbur edirlər. Kütləvi iğtişaş zamanı tətbiq olunan zorakı hərəkətlər insanın sağlamlığına qəsdən az ağır zərər vurmada (CM-in 127-ci maddəsi), yaxud qəsdən yüngül zərər vurmada (CM-in 128-ci maddəsi) və ya əzab vermədə (CM-in 133-cü maddəsi) ifadə olunur. Kütləvi iğtişaş zamanı zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulduqda əməl cinayətlərin məcmusu qaydasında — CM-in 126-cı və 220-ci maddələri ilə tövsif olunmalıdır.

Məhkəmə təcrübəsində kütlə tərəfindən azadlıqdan məhrumetmə yerlərində olan, yaxud istintaq təcridxanasında həbsdə olan şəxslərin zor tətbiq olunmaqla azad edilməsi faktları da kütləvi iğtişaşa aid olunur. Kütləvi iğtişaşın iştirakçısı iğtişaş zamanı daha ağır cinayət (məsələn, zorlama, banditizm, qəsdən adam öldürmə və s.) törətmişdirsə, onun əməli cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

7. **Talan** dedikdə tikililərin, nəqliyyatın, mağazaların, binaların, rabitə vasitələrinin, əmlakın, istehsal alət və vasitələrinin dağıdılması və qarət olunması nəzərdə tutulur.

8. **Yanğınların törədilməsinə** binaların, inzibati, mülki və s. təyinatlı qurğuların, habelə nəqliyyat vasitələrinin yandırılması ilə nəticələnən qəsdən edilən hərəkətlər aid edilir.

9. **Əmlakı məhv etmə** haqqında CM-in 186-cı maddəsinin şərhində qeyd olunmuşdur.

10. Odlu silah, partlayıcı maddələr və ya qurğuların anlayışı CM-in 228-ci maddəsinin şərhində verilmişdir. Odlu silahın, partlayıcı maddələrin və ya qurğuların **tətbiq edilməsi** dedikdə onlardan təyinatlarına uyğun istifadə olunması (məsələn, qorxutmaq üçün havaya atəş açma, yaxud atəşi (partlayışı) imitasiya etmə, hədəfi məhv etmək məqsədi ilə atəş açma (yaxud partlayış törətmə) və s.) başa düşülür.

11. **Hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərmə** dedikdə kütlənin hakimiyyət nümayəndəsinin öz vəzifə borcunu yerinə yetirməsinə, yəni ictimai asayişi qorumasına odlu, soyuq və ya qaz silahı, habelə partlayıcı maddələr və ya qurğular tətbiq etməklə və ya tətbiq etmə ilə hədələməklə mane olması başa düşülür. Kütləvi iğtişaşın iştirakçısı tərəfindən taxta, daş, dəyənək və s. bu kimi predmetlərdən istifadə olunması hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi kimi tövsif oluna bilməz.

12. **Kütləvi iğtişaşlarda iştirak etmə** dedikdə şəxsin iğtişaş törədən kütlənin içərisində talanları, zorakılıqları, yanğınları və CM-in 220.1-ci maddəsində sadalanan digər hərəkətləri fəal şəkildə törətməsi nəzərdə tutulur. Kütləvi iğtişaşın gedişində adam öldürmə, qəsdən sağlamlığa ağır zərər vurma və sair daha ağır cinayətlər törədildikdə, əməl əlavə olaraq CM-in müvafiq maddələri

ilə tövsif edilməlidir.

13. CM-in 220.2-ci maddəsində nəzərdə tutulan cinayətin obyektiv cəhəti **hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar** etmədə ifadə olunur. Belə hərəkətlər kütləvi iğtişaşları təşkil etmədən fərqləndirilməlidir. Qanunun mənasına görə çağırışçılar kütləvi iğtişaşda iştirak etməyən, sadəcə, kütləni sadalanan hərəkətləri törətməyə çağıran şəxslərdir. Qeyd olunan **çağırışlar** dedikdə kütləyə fitnəkar və təhrikedici müraciətlər etmə, vərəqələr paylama və digər formalarda, yəni kütləvi iğtişaş iştirakçılarının şüuruna, iradəsinə, emosiyalarına onları qeyd olunan ictimai təhlükəli əməlləri törətməyə sövq etmək məqsədi ilə təsir göstərmə başa düşülməlidir. Belə təsir göstərilməsi kütlənin hərəkətlərinə ümumi rəhbərlik etmə xarakteri daşımır və kütləvi iğtişaşların başlanması üçün təkan rolunu oynamır.

Çağırışın üsulları şifahi, radio, televiziya, mətbu nəşrlər vasitəsi ilə ola bilər və bunlar əməlin tövsifinə təsir etmir.

Vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar fərdi müəyyən şəxslərə ünvanlanmır. Bunlar bütövlükdə kütləni qızışdırmaqdan ibarətdir və konkret deyil, ümumi xarakter daşıyır. Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə kütləvi iğtişaşları təşkil etmə və ya onlara rəhbərlik etmənin tərkib hissəsi ola bilər. Belə olduqda, təqsirkarın əməli CM-in 220.1-ci maddəsi ilə tövsif edilir. Başqa sözlə, çağırışlar təhrikçinin hərəkətləri ilə əhatə olunduqda məsuliyyət CM-in 220.2-ci, təşkilatçının hərəkətləri ilə əhatə olunduqda isə CM-in 220.1-ci maddəsi ilə yaranır.

14. Bu cinayət kütləvi iğtişaşlar başlandığı, yəni kütləvi iğtişaşın iştirakçısı tərəfindən yuxarıda qeyd olunan əməllər törədildiyi andan **başa çatmış** hesab edilir. Bunun üçün CM-in 220.1-ci maddəsində sadalanan ictimai təhlükəli nəticələrin baş verməsi tələb olunmur.

15. Kütləvi iğtişaşlar **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Kütləvi iğtişaşların iştirakçısının baş vermiş ictimai təhlükəli nəticələrə psixi münasibəti təqsirin **dolayı qəsd** formasında da ola bilər. Cinayətkarların **motiv və məqsədləri** müxtəlif ola bilər (məsələn, milliyyətçilik, tamah, siyasi motivlər və s.). Kütləvi iğtişaşın həm təşkilatçıları, həm iştirakçıları, həm də CM-in 220.2-ci maddəsində sadalanan hərəkətləri törətməyə çağırışlar edən şəxslər ictimai təhlükəli əməl törətdiklərini dərk edir və bunu arzu edirlər. Təqsirkarların motiv və məqsədləri əməlin tövsifinə təsir etmir və məhkəmə tərəfindən cəza təyin edilərkən nəzərə alınır.

16. Kütləvi iğtişaşın **subyekti** yalnız bu cinayətin cinayət törədənədək 16 yaşı tamam olmuş təşkilatçıları, iştirakçıları və çağırışları həyata keçirən şəxslər ola bilər. İğtişaş törədən kütlənin içərisində 14 yaşından 16 yaşa qədər olan digər şəxslər kütləvi iğtişaş şəraitində faktiki olaraq törətdikləri konkret cinayətlərə görə cinayət məsuliyyəti daşıyırlar.

17. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu

maddələrinin şərhinə bax).

18. Kütləvi iğtişaşlar banda tərəfindən süni surətdə yaradıldıqda, təqsirkarların əməli CM-in 217-ci və 220-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif olunur.

Maddə 221. Xuliqanlıq

221.1. Xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər —

min manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

221.2. Eyni əməllər:

221.2.1. bir qrup şəxs tərəfindən və ya təkrar törədildikdə;

221.2.2. ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədildikdə —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

221.3. Bu Məcəllənin 221.1-ci və ya 221.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda —

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il, 30 aprel 2013-cü il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - Azərbaycan Respublikası QT, 2001, № 7, m 455; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 9 noyabr 2017-ci il).

1. CM-in 221.1-ci maddəsinin dispozisiyasında qeyd olunduğu kimi, xuliqanlıq ictimai qaydanı kobud surətdə pozan əməldir. Deməli, xuliqanlıq cinayətinin **bilavasitə obyekti** ictimai qaydadır. CM-in 221.1-ci maddəsinin dispozisiyasından məlum olur ki, xuliqanlıq şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət olunur. Ona görə də xuliqanlığın əlavə obyektini insanların sağlamlığının, şərəf və ləyaqətinin, habelə mülkiyyətin mühafizəsi ilə bağlı olan ictimai münasibətlər təşkil edir.

Xuliqanlıqdan **zərərçəkmiş şəxs** qismində hər hansı şəxs çıxış edə bilər. CM-in 221.2.2-ci maddəsi üzrə cinayətdən zərərçəkmiş şəxs qismində yalnız ictimai qaydanı qorumaq üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsi və ya digər şəxs çıxış edir.

Hakimiyyət nümayəndəsi dedikdə ictimai qaydanın pozulmasının qarşısını almaq səlahiyyəti olan bütün vəzifəli şəxslər başa düşülür.

Digər şəxslər dedikdə üzərinə ictimai vəzifələrin yerinə yetirilməsi öhdəliyi qoyulmuş, yaxud vətəndaşlıq borcunu yerinə yetirməsi ilə əlaqədar ictimai qaydanın qorunmasında iştirak edən hakimiyyət nümayəndəsi olmayan şəxs başa düşülür.

2. Xuliqanlıq **obyektiv cəhətdən** ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlərin törədilməsində ifadə olunur. Xuliqanlıq hərəkətləri müxtəlif formalarda ifadə olunsa da, onların hamısı aşağıdakı üç əlamətə malik olmalıdır: 1) bu hərəkətlər ictimai qaydanı kobud surətdə pozmalıdır; 2) belə pozuntu cəmiyyətə açıqca hörmətsizlik ifadə etməlidir; 3) şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilməlidir.

3. **İctimai qayda** dedikdə cəmiyyətdə insanlar arasında təşəkkül tapmış, adət və ənənələrlə, əxlaq normaları ilə, habelə qüvvədə olan qanunvericiliklə müəyyən edilən qarşılıqlı davranış və birgəyaşayış qaydalarının sistemi başa düşülür. CM-in 221.1-ci maddəsinin nəzərdə tutduğu mənada ictimai qaydanı kobud surətdə pozma qiymətləndirici anlayışdır və pozuntunun mühümlüyünü, əhəmiyyətli olmasını ifadə edir. Bu anlayışa cəmiyyətə açıqca hörmətsizlik ifadə etmə əlaməti də əlavə edilmişdir. Məhz bu əlamət xuliqanlığın zəruri əlaməti hesab edilir.

İctimai qaydanı kobud surətdə pozan hərəkətlər dedikdə ictimai və ya şəxsi mənafelərə əhəmiyyətli zərər vuran və ya cəmiyyətdə insanlar arasında bərqərar olmuş birgəyaşayış və davranış qaydalarının qərəzli surətdə pozulmasında ifadə olunan hərəkətlər başa düşülür. Məsələn, mədəni, dini və ya digər ictimai tədbiri, gecə vaxtı insanların dincliyini pozma və s.

«Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 saylı qərarının 1-ci bəndinə əsasən təqsirkar şəsin ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən qərəzli hərəkətləri yalnız həmin hərəkətlər şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq ediləcəyi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edildiyi hallarda **Cinayət Məcəlləsinin 221.1-ci maddəsində nəzərdə tutulan cinayətin tərkibi** yaranır. İctimai qaydanın pozulması və cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlər fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq ediləcəyi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilmədikdə, təqsirkar şəxsin əməli İXM-in 510-cu maddəsinə müvafiq olaraq, xırda xuliqanlığa görə inzibati məsuliyyətə səbəb olur.

4. Cəmiyyətə açıqca hörmətsizlik ifadə edilməsi xuliqanlığın sosial mahiyyətini əks etdirir. «Açıqca hörmətsizlik ifadə etmə» anlayışı xuliqanlığın, bir qayda olaraq, ictimai yerlərdə, yəni küçədə, ictimai müəssisə və idarələrdə, kafedə, restoranda, ictimai nəqliyyatda və s. törədilməsini nəzərdə tutur.

Cəmiyyətə açıqca hörmətsizlik etmə dedikdə təqsirkarın özü və ətrafdakı digər şəxslər üçün aşkar surətdə ictimai qaydaya əhəmiyyətli dərəcədə laqeydlik, etinasızlıq göstərilməsi, cəmiyyətdə hamı tərəfindən qəbul olunmuş elementar davranış, əxlaq, mənəviyyat normalarının «tapdalanması», bir çox insanın və ya cəmiyyətin hər hansı bir üzvünün mənafelərinə toxunan hərəkətlərin edilməsi başa düşülür. Xuliqanlıq zamanı təqsirkarın hərəkətləri şəxsi motivlərə görə konkret şəxsə qarşı deyil, çox zaman heç tanımadığı şəxsə qarşı yönəlmiş olur. Təqsirkar bu cinayəti təsadüfən rastlaşdığı və tanımadığı və ya az tanıdığı şəxslər barəsində törədir. Çox vaxt təqsirkar zərərçəkmiş şəxsin davranışından xuliqanlıq hərəkətlərini həyata keçirmək üçün bəhanə kimi istifadə edir. Bu zaman xuliqanlıq hərəkətləri ilə onu doğuran səbəblər arasında açıq-aşkar uyğunsuzluq mövcud olur.

5. Şəxsi münasibətlər zəminində evdə, mənzildə, ailədə, yəni ictimai olmayan yerlərdə tanışların, qohumların məhdud dairəsində zərərçəkmiş şəxsi döymə, təhqir etmə, onun sağlamlığına zərər vurma və s. bu kimi hərəkətlər etmə xuliqanlıq kimi tövsif oluna bilməz və bunun üçün əsaslar olduqda, əməl Cinayət Məcəlləsinin şəxsiyyət əleyhinə olan, yaxud başqa cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələri ilə tövsif olunur.

Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin hökmü ilə Ş.Rəhimov CM-in 221.3-cü maddəsi ilə təqsirli bilinərək ona görə məhkum olunmuşdur ki, o, sərxoş vəziyyətdə ictimai qaydanı kobud surətdə pozub, cəmiyyətə açıqca hörmətsizlik ifadə edərək, Yaşıllaşdırma İdarəsinin həyətində olan su kranının kənarında yun təmizləyən və 4 il faktiki ər-arvad kimi yaşadığı Y.Ağayevanı krandan su içənin kimliyini deməməsinə görə üstündə gəzdirdiyi cib bıçağı ilə vurub ona sağlamlığını qısa müddətə pozan yüngül dərəcəli bədən xəsarəti yetirmişdir.

Ş.Rəhimov sərxoş vəziyyətdə faktiki ər-arvad kimi yaşadığı Y.Ağayevanın tanımadığı bir nəfər cavan oğlanla söhbət etməsini görüb şübhələnərək qısqanclıq zəminində ona özündə olan cib bıçağı ilə sağlamlığını qısa müddətdə pozan yüngül dərəcəli bədən xəsarəti yetirmişdir.

Cinayət hadisəsi baş verən yerdə məhkum Ş.Rəhimov, zərərçəkmiş Y.Ağayeva və onun azyaşlı uşağı olmuş, zərərçəkmişlə söhbət edən adam qaçıb getmiş, hadisə yerində hörmətsizlik olunacaq digər şəxslər olmamış, məhkumun zərərçəkmişi bıçaqla vuraraq xəsarət yetirməsi, ictimai qaydanın kobud surətdə pozulması və cəmiyyətə qarşı açıqca hörmətsizliklə müşayiət olunmamışdır. Məhkum arvadına söhbət etdiyi tanımadığı şəxsə qısqanclıqdan şəxsi münasibətlər zəminində baş verən mübahisə zamanı xəsarət yetirmişdir.

Apellyasiya Məhkəməsi Ş.Rəhimovun əməlini CM-in 221.3-cü maddəsindən 128-ci maddəyə tövsif etmişdir[1].

Şəxsi münasibətlər zəminində zərərçəkmiş şəxsi döymə, təhqir etmə, onun sağlamlığına zərər vurma və s. bu kimi hərəkətlərdə ictimai qaydanı pozmağa yönəlmiş birbaşa qəsd mövcuddursa, xuliqanlıq cinayət tərkibi yaranır. Ali Məhkəmənin yuxarıda adı çəkilən qərarında da göstərilir ki, şəxsi münasibətlər zəminində başlanılmış belə hərəkətlər sonradan ictimai qaydanı kobud surətdə pozmağa və cəmiyyətə qarşı açıq-aşkar hörmətsizlik ifadə edən hərəkətlərə çevrilərsə, onda şəxsin əməli xuliqanlıq kimi qiymətləndirilə bilər.

[1] Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin arxivi, 2003-cü il.

6. CM-in 221.1-ci maddəsində nəzərdə tutulan **zor tətbiq edilməsi** dedikdə zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurmada ifadə olunan hərəkətlərin edilməsi başa düşülür. Bu zaman təqsirləndirilən şəxsin hərəkətləri Cinayət Məcəlləsinin 221.1-ci maddəsi ilə tam əhatə olunduğundan əməlin əlavə olaraq CM-in 128-ci maddəsilə tövsif edilməsinə ehtiyac qalmır.

Zor tətbiq edilməsi nəticəsində zərərçəkmişin sağlamlığına az ağır və ya ağır zərər vurulduqda, əməl cinayətlərin məcmusu üzrə CM-in 221-ci və müvafiq olaraq 127-ci və ya 126-cı maddələri ilə tövsif edilməlidir.

7. **Zor tətbiq etmə ilə hədələmə** dedikdə zərərçəkmiş şəxsi fiziki zor tətbiq ediləcəyi ilə qorxutmaqla onun şüuruna və iradəsinə psixi təsir göstərmə başa düşülür. Hədələmə zamanı təqsirkar zərərçəkmiş şəxsi döymə, sağlamlığına ağır zərər vurma, bədən üzvlərini kəsmə, öldürmə və s. ilə qorxuda bilər.

Hədənin icra ediləcəyi üçün real əsaslar olmadıqda, qeyd olunan hərəkətlərdə Cinayət Məcəlləsinin 221.1-ci maddəsinin dispozisiyası ilə tam əhatə olunduğundan təqsirləndirilən şəxsin zərərçəkəni öldürməklə və ya sağlamlığına ağır zərərvurma ilə hədələməsinə görə əməlinin əlavə olaraq Cinayət Məcəlləsinin 134-cü maddəsilə tövsif edilməsinə ehtiyac qalmır («Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 saylı qərarının 4-cü bəndi).

8. CM-in 221.1-ci maddəsindən aydın olur ki, xuliqanlıq hərəkətləri özgənin əmlakını məhv etmə və ya zədələmə ilə də nəticələnə bilər. **Əmlakı məhv etmə** dedikdə ona sonradan bərpa edilməsinin mümkün olmayacağı dərəcədə zərər vurulması başa düşülür. **Zədələmə** dedikdə əmlaka onun sonradan bərpa oluna biləcək dərəcədə zərər vurulması nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, xuliqanlıq nəticəsində vurulan əmlak ziyanının miqdarı CM-in 186-cı maddəsində nəzərdə tutulandan az olmalıdır. Əks təqdirdə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 221.1-ci və 186-cı maddələri ilə tövsif edilməlidir.

Bu halda əməlin hüquqi tövsifi xuliqanlıq nəticəsində vurulan maddi ziyanın miqdarından asılıdır. Həmin ziyanın miqdarı Cinayət Məcəlləsinin 177-ci maddəsinin «Qeyd»inin 2-ci bəndinə müvafiq olaraq, beş min manatdan az olduqda, təqsirləndirilən şəxsin əməli yalnız Cinayət Məcəlləsinin 221-ci maddəsi ilə, ziyanın məbləği xeyli və ya külli miqdar olduqda əməl cinayətlərin məcmusu qaydasında Cinayət Məcəlləsinin 221-ci maddəsi ilə və müvafiq olaraq 186.1-ci, yaxud 186.2.1-ci maddələri ilə tövsif olunmalıdır («Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 saylı qərarının 4-cü bəndi).

Şərh olunan cinayət törədilən zaman xuliqanlıq niyyəti ilə özgənin əmlakı yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla məhv edilmiş və ya zədələnmişdirsə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 221.1-ci və 186.2.2-ci maddələri ilə tövsif olunmalıdır.

9. Xuliqanlıq cinayətini xuliqanlıq niyyətilə törədilən qəsdən adamöldürmə,

qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma cinayətlərindən fərqləndirərkən nəzərə alınmalıdır ki, xuliqanlıq niyyəti konkret cinayətin motivi kimi özünü büruzə verdiyi halda, xuliqanlıq əməli təqsirkarın təhlükəli davranışıdır.

Ona görə də xuliqanlıq niyyətilə qəsdən adam öldürmə, yaxud qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma cinayətlərini törətmiş şəxsin əməli müvafiq olaraq Cinayət Məcəlləsinin 120.2.2, yaxud 126.2.4 və ya 127.2.3-cü maddələri ilə tövsif edilməlidir. Bu zaman qeyd edilən cinayətlərdən hər hansı birinin törədilməsi ilə yanaşı, təqsirləndirilən şəxsin həm də ictimai qaydanın kobud surətdə pozulmasına və cəmiyyətə qarşı açıqdan-açığa hörmətsizlik etməyə səbəb olan qəsdən sair hərəkətlər də etməsi müəyyən edilərsə, onda həmin şəxsin əməli cinayətlərin məcmusu qaydasında, həm də Cinayət Məcəlləsinin 221-ci maddəsilə tövsif olunmalıdır («Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 saylı qərarının 5-ci bəndi).

9. Xuliqanlıq **formal** tərkibli cinayət olduğundan CM-in 221-ci maddəsində qeyd olunan hərəkətlər törədildiyi andan **başa çatmış** hesab edilir.

10. Xuliqanlıq **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs ictimai qaydanı kobud surətdə pozduğunu, cəmiyyətə açıqca hörmətsizlik ifadə etdiyini, habelə CM-in 221-ci maddəsində sadalanan digər xuliqanlıq hərəkətlərini törətdiyini dərk edir və bunu arzu edir. Bu cinayətin **motivi** təqsirkarın qeyri-müəyyən şəxslər dairəsinin şüurunda özünün müstəsna şəxsiyyət olduğunu və başqalarından əsaslı surətdə fərləndiyini təsdiq etməkdir. Xuliqanlıq niyyəti ilə deyil, digər motivlərlə, məsələn, şəxsi münaqişə, barışmazlıq, nifrət zəminində və s. törədilən hərəkətlər xuliqanlıq kimi tövsif oluna bilməz.

A.M. Əmirhəmzəyev ibtidai araşdırma zamanı, CM-in 221.1-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmişdir ona görə ki, o, sərxoş vəziyyətdə küçədə ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunması ilə müşayiət edilən qərəzli hərəkətlər edərək, E.P.Babayevi ucadan nalayiq söyüşlərlə söyərək təhqir etmiş, yumruqla döyərək ona alının sıyrığı, üst dodağın selikli qişasına qanşızma, döş qəfəsinin sol tərəfində dişləməyə xarakterik sıyrığı kimi xəsarətlər yetirməklə xuliqanlıq etmişdir.

Xaçmaz rayon Məhkəməsinin 26 may 2010-cu il tarixli hökmü ilə E.P.Babayev CM-in 127.1-ci maddəsi ilə, A.M.Əmirhəmzəyev isə CM-in 132-ci maddəsi ilə təqsirli bilinmişlər.

Hökmdən dövət ittihamçısı tərəfindən verilmiş apellyasiya protestinə əsasən işə baxan Sumqayıt Apellyasiya Məhkəməsinin cinayət kollegiyası özünün 28 iyul 2010-cu il tarixli qərarı ilə apellyasiya protestini təmin etmədən, hökmü isə dəyişdirmədən saxlamışdır.

Sumqayıt Apellyasiya Məhkəməsinin həmin qərarından dövət ittihamçısı kassasiya protesti verərək, qərarın ləğv edilib, cinayət işininin yeni apellyasiya baxışına qaytarılmasını xahiş etmişdir. Protestdə E.Babayevlə A.Əmirhəmzəyevin küçədə ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən və şəxslər üzərində zor tətbiq olunması ilə müşaylət olunan

qərəzli hərəkətlər edərək bir-birinin ünvanına ucadan nalayiq söyüşlər söyərək, qarşılıqlı dalaşaraq, bir-birinə xəsarətlər yetirərək xuliqanlıq etdikləri öz əksini tapmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyası kassasiya protesti əsasında işə baxaraq aşağıdakı əsaslara görə kassasiya protestini təmin etmədən, apellyasiya instansiyası məhkəməsinin qərarını isə dəyişdirmədən saxlamışdır[1].

Kollegiya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «B.Yusifovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri və inzibati hüquqpozmalara dair işlər üzrə məhkəmə kollegiyasının 2005-ci il 7 mart tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair» 17 fevral 2006-cı il tarixli qərarına istinad etməklə göstərmişdir ki, təqsirkarın ictimai qaydanı kobud surətdə pozmaq və cəmiyyətə açıqca hörmətsizlik ifadə etmək niyyətinin olduğu müəyyənləşdirilməyibsə, əməl xuliqanlıq kimi qiymətləndirilə bilməz.

Baxılan iş üzrə müəyyən edilmişdir ki, toy mağarında aralarında yaranmış mübahisənin başqa şəxslərin istirahətini, toy mərasimi qaydasını pozmamaq üçün hər iki təqsirləndirilən şəxs bir-biri ilə razılaşaraq mağardan xeyli uzaqlaşmışlar. Bu hal onu göstərir ki, hadisədən əvvəl təqsirləndirilən şəxslər toy mərasiminin pozulmasına, kənd sakinlərinin və ya hər hansı konkret səxsin hüquqlarının və qanuni mənafelərinin toxunulmazlığına təhlükə və həyəcanın yaranmasına, habelə qanunvericiliklə tənzimlənən birgəyaşayış qaydalarının qərəzli surətdə pozulmasınma nəinki qəsd etməmişlər, hətta bu nəticələrin baş verməməsi üçün tədbir görmüşlər. Onların bu hərəkətləri ictimai qaydanı kobud surətdə pozmaq və cəmiyyətə açıqca hörmətsizlik etmək niyyətinin olmamasına dəlalət edən hərəkətlərdir.

Xuliqanlıqda məqsəd təqsirkarın zərərçəkmiş şəxsi kobud zorakılıqla sarsıtmaq, onda vahimə yaratmaq və müvəqqəti də olsa, onu öz iradəsinə tabe etdirməkdən ibarətdir.

11. CM-in 221.1-ci maddəsində nəzərdə tutulan, yəni ağırlaşdırıcı tərkib əlamətləri olmayan xuliqanlıq cinayətinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, anlaqlı fiziki şəxsdir. CM-in 221.2.1-ci, 221.2.2-ci və 221.3-cü maddələrində nəzərdə tutulan ağırlaşdırıcı tərkib əlamətləri olan xuliqanlığın **subyekti** isə bu cinayəti törədənədək **14** yaşına çatmış, anlaqlı fiziki şəxsdir.

12. CM-in 221.2-ci maddəsində xuliqanlıq cinayətinin ağırlaşdırıcı tərkib əlamətləri qismində bu cinayətin: a) bir qrup şəxs tərəfindən və ya təkrar törədilməsi (CM-in 221.2.1-ci maddəsi) və; b) ictimai qaydanın qorunması üzrə vəzifəni yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədilməsi (CM-in 221.2.2-ci maddəsi) nəzərdə tutulur.

13. Cinayətin təkrar törədilməsi CM-in 16-cı maddəsinin şərhində izah edilmişdir.

14. Cinayətin bir qrup şəxs tərəfindən törədilməsinin anlayışı haqqında CM-

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2010-cu il, № 4, s.33-37.

in 34.1-ci maddəsinin şərhində qeyd olunmuşdur. Xuliqanlıq, yəni CM-in 221.1-ci maddəsində nəzərdə tutulan hərəkətlər qabaqcadan razılaşmadan iki və ya daha çox icraçının birgə iştirakı ilə törədildikdə, **bir qrup şəxs tərəfindən** törədilmiş hesab olunur.

15. CM-in 221.2.2-ci maddəsi üzrə **ictimai qaydanın qorunması üzrə vəzifənin yerinə yetirilməsi** dedikdə küçələrdə və ya ictimai yerlərdə post-patrul xidmətinin həyata keçirilməsi, nümayişlər, piketlər, mitinqlər, tamaşalar, kütləvi tədbirlər, qəza və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması zamanı qaydanın qorunması halları başa düşülməlidir.

CM-in 221.2.2-ci maddəsinin nəzərdə tutduğu mənada **müqavimət göstərmə** dedikdə qeyd olunan şəxslərə sadəcə olaraq tabe olmama deyil, onlara qarşı xuliqanlıq hərəkətlərinin qarşısının alınması imkanını aradan qaldıran fəal əks təsir göstərilməsi başa düşülməlidir. Əslində bu, xuliqanlığın mürəkkəb növüdür. Belə ki, bu zaman ayrılıqda götürüldükdə hər biri müstəqil cinayət tərkibi olan iki davranış aktı — xuliqanlıq hərəkətləri etmə və ictimai qaydanı qoruyan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərmə mövcud olur. Burada müqavimət göstərmə artıq başlanmış xuliqanlıq hərəkətlərinin davamı kimi çıxış etməlidir. Əks halda, yəni zor tətbiq etməklə müqavimət göstərmə xuliqanlıq hərəkətləri qurtardıqdan sonra ələ keçməkdən yaxa qurtarmaq məqsədi ilə törədilərsə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 221-ci və 315-ci maddələri ilə tövsif edilməlidir. Müqavimət göstərmə zorakı xarakter daşımaya da bilər. Məsələn, təqsirkar onu tutmağa çalışanların əlindən dartınıb çıxır, onu otaqdan çıxarmaq istəyənlərə mane olmaq məqsədi ilə müxtəlif predmetlərdən (dirək, məhəccər və s.) yapışır və s. Müqavimət hədələmədə və ya fiziki zor tətbiq edilməsində də, məsələn, zərbələr endirmədə, zərərçəkmişin əynindəki paltarını cırmada (yaxud başqa cür zədələmədə) və s. ifadə oluna bilər. Bu halda tətbiq edilən zor həyat və ya sağlamlıq üçün təhlükəli olmamalıdır.

Müqavimət göstərmə zamanı həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq edilməsi (vurma, döymə və s.) CM-in 221.2.2-ci maddəsi ilə tam əhatə edilir və CM-in 315.1-ci maddəsi ilə əlavə tövsifə ehtiyac qalmır. Bu müddəa xuliqanlıq prosesində hakimiyyət nümayəndəsinin təhqir edilməsinə də aiddir. Xuliqanlıq hərəkətləri qurtardıqdan sonra müqavimət göstərmə (məsələn, təqsirkarın tutulması ilə əlaqədar olaraq) bu cinayətin ağırlaşdırıcı tərkib əlaməti kimi qiymətləndirilməməlidir və cinayətlərin məcmusu qaydasında CM-in 221-ci və 315-ci maddələri ilə tövsif olunmalıdır.

Xuliqanlıq zamanı hakimiyyət nümayəndəsinə qarşı onun həyatı və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə müşayiət olunan müqavimət göstərildikdə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 221.2.2-ci və 315.2-ci maddələri ilə tövsif olunmalıdır. Hakimiyyət nümayəndəsi olmayan, lakin xuliqanlıq hərəkətlərinin qarşısını alan şəxsə onun həyatı və sağlamlığı üçün təhlükəli olan zor tətbiq edilərsə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 221-ci və şəxsiyyətə vurulan zərərin xarakterindən asılı olaraq 126-cı, 127-ci maddələri ilə tövsif olunmalıdır.

İctimai qaydanın qorunması üzrə vəzifəsini yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə də müqavimət göstərməklə törədilən xuliqanlıq hərəkəti Cinayət Məcəlləsinin 221.2.2-ci maddəsinin dispozisiyası ilə tam əhatə olunduğundan, CM-in digər maddələri ilə əlavə tövsifə ehtiyac qalmır («Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 saylı qərarının 6-cı bəndi).

16. CM-in 221.3-cü maddəsində xuliqanlığın **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** qismində CM-in 221.1-ci və ya 221.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunması nəzərdə tutulmuşdur. Bu, **xüsusilə qərəzli** xuliqanlıq hesab edilir.

17. **Silah** canlı qüvvənin və digər obyektlərin, o cümlədən texnikanın və tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş, yaxud işarəvermə üçün nəzərdə tutulmuş, lakin canlı qüvvənin və digər obyektlərin məhv edilməsi üçün istifadə oluna bilən qurğu və vasitədir (Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» 1 mart 1998-ci il tarixli Qanununun 2-ci maddəsinin 1-ci bəndi). Odlu və soyuq silahın anlayışı Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» 1 mart tarixli Qanununun 2-ci maddəsinin 6-cı və 8-ci bəndlərində verilmişdir.

Odlu silaha tapançalar, revolverlər, tüfənglər, avtomatlar və s. aiddir.

Soyuq silaha isə bıçaqlar, xəncərlər, süngülər, döyüş baltaları, nizələr, beybutlar, cidalar, habelə soyuq atıcı silah hesab olunan yay-ox, arbalet, atıcı bıçaqlar və s. aid olunur.

Silah həm zavod istehsalı, həm də əldəqayırma (yaxud kustar üsulu ilə hazırlanmış) ola bilər. Xuliqanlıq zamanı qaz silahından istifadə edildikdə də əməl CM-in 221.3-cü maddəsi ilə tövsif olunmalıdır.

18. Silah qismində istifadə edilən əşyaların anlayışı haqqında CM-in 181.2.5-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur. **Silah qismində istifadə edilən əşyalar** dedikdə insanın sağlamlığına zərər yetirə bilən istənilən predmetlər başa düşülür. Belə predmetlərə təsərrüfat təyinatlı alətləri (məsələn, baltaları, təsərrüfat bıçaqları, mətbəx bıçağı, çəkiclər, bizlər və s.), habelə xüsusi olaraq insanlara hücum etmək məqsədi ilə ələ keçirilən velosiped zəncirləri, idman taxtaları və s. aid olunur.

19. Xüsusilə qərəzli xuliqanlıq təkcə təqsirkarın silah və ya silah qismində istifadə edilən əşyaların köməyilə zərərçəkmişin sağlamlığına zərər vurduğu və ya zərər vurmağa cəhd etdiyi halları deyil, həm də şəxslərin həyatı və ya sağlamlığı üçün real təhlükə yaratdığı halları əhatə edir. **Silahdan istifadə etmə** dedikdə yalnız zərərçəkmişin sağlamlığına fiziki zərər vurulması və ya buna cəhd etmə deyil (məsələn, insana atəş açarkən güllənin yan keçməsi, bıçaqla zərbə vurmağa cəhd etmə və s.), həm də silahı nümayiş etdirməklə hədələmə başa düşülür.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.3-cü maddəsinin şərh edilməsinə

dair» 20 may 2011-ci il tarixli Qərarında da deyilir ki, CM-in 221.3-cü maddəsində (1 dekabr 2017-ci il tarixinədək qüvvədə olmuş) **«tətbiq etməklə»** müddəası xuliqanlıq hərəkətləri zamanı silah və ya silah qismində istifadə edilən əşyaların vasitəsi ilə sağlamlığa zərər vurulmasını, yaxud həyat və ya sağlamlıq üçün real təhlükə yarandığı halları ehtiva edir. **Silahın nümayiş etdirilməsi**, silahın real tətbiqinə cəhd olmadan onu tətbiq edəcəyi ilə şifahi (sözlə) hədələmə, həmçinin xuliqanlıq zamanı yararsız odlu silahdan istifadə edilməsi əməlin Cinayət Məcəlləsinin 221.3-cü maddəsi ilə tövsif olunmasını istisna edir.

CM-in 221.3-cü maddəsində nəzərdə tutulmuş cinayətə görə məsuliyyətin yaranması üçün xuliqanlığın (CM-in 221.1-ci və ya 221.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin) silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunmalıdır. CM-in 221.3-cü maddəsinin 20 oktyabr 2017-ci il tarixli Qanunla yeni redaksiyada verilmiş mətnində maddənin əvvəlki redaksiyasında olmayan «zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda» ifadəsinin nəzərdə tutulması, fikrimizcə, artıqdır. Ona görə ki, cinayət məsuliyyəti yaradan xuliqanlığın CM-in 221.1-ci maddəsində əksini tapan əlamətlərindən biri də məhz qeyd olunan həmin əlamətdir. Bu əlamətin CM-in 221.3-cü maddəsində yenidən təkrar edilməsinə ehtiyac yox idi.

20. Xüsusilə qərəzli xuliqanlıq bu cinayətin törədilməsi prosesində silahın və ya silah qismində istifadə edilən əşyalardan faktiki istifadə edildiyi andan **başa çatmış** hesab edilir.

21. Xuliqanlıq müvafiq xüsusi icazəsi olmayan odlu və ya soyuq silah tətbiq edilməsi ilə müşayiət olunduqda, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 221.3-cü və 228.1-ci maddələri ilə tövsif olunmalıdır. Xuliqanlıq prosesində silah və ya silah qismində istifadə edilən əşyaların tətbiq edilməsi zərərçəkmiş şəxsin ölümünə və ya onun sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda, əməl cinayətlərin məcmusu qaydasında CM-in 221.3-cü və müvafiq surətdə 120-ci, 126 və ya 127-ci maddələri ilə tövsif edilməlidir.

22. Xuliqanlıq hərəkətlərinin edilməsi prosesi davam edən xuliqanlıq zamanı xüsusilə qərəzli xuliqanlıq həddinədək inkişaf edə bilər. Belə olduqda, əməl CM-in xuliqanlığın daha ağır növünə görə məsuliyyət nəzərdə tutan maddəsi, yəni 221.3-cü maddəsi ilə tövsif edilməlidir.

Ali Məhkəmənin yuxarıda adı çəkilən qərarının 11-ci bəndinə görə müxtəlif vaxtlarda törədilən xuliqanlıq hərəkətləri xuliqanlığın ağırlaşdırıcı tərkib əlamətlərinin mövcudluğundan asılı olaraq, hər biri müstəqil cinayət kimi tövsif olunmalıdır.

23. Xuliqanlığa görə cəza təyin edərkən cinayətin xarakterinin və ictimai təhlükəlilik dərəcəsinin nəzərə alınması ilə yanaşı, məhkəmələr eyni zamanda

nəzərə almalıdırlar ki, hadisələrin təsadüfi axarı zəminində, ilk dəfə ağırlaşdırıcı hallar olmadan xuliqanlıq cinayəti törətmiş şəxslərə, o cümlədən yetkinlik yaşına çatmayanlara cəza təyin edilərkən, CM-in 221.1 və 221.2-ci maddələrinin sanksiyasında daha ağır cəza növü kimi nəzərdə tutulan azadlıqdan məhrumetmə yalnız o vaxt təyin oluna bilər ki, həmin qanunda buna alternativ olan az ciddi cəza növlərinin təyin olunması, cəzanın məqsədini təmin edə bilməsin («Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 saylı qərarının 13-cü bəndi).

Maddə 222. Tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma

222.1. Tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin, eləcə də mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulması insanların həyat və sağlamlığı üçün real təhlükə yaratdıqda —

bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

222.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulmasına səbəb olduqda —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

222.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə yeni redaksiyada - «Azərbaycan» q., 28 oktyabr 2007-ci il).*

1. CM-in 222-ci maddəsində nəzərdə tutulan cinayətin **obyekti** tikinti, mədən işlərinin və sair işlərin aparılması zamanı ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı olan münasibətlərdir. CM-in 222.2-ci maddəsinə əsasən bu cinayətin **əlavə obyektini** insanların həyat və sağlamlığı, ayrı-ayrı hallarda isə mülkiyyət münasibətləri təşkil edir.

2. Bu cinayət obyektiv cəhətdən tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin, eləcə də mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulmasının insanların həyat və sağlamlığı üçün real təhlükə yaratmasında ifadə olunan əməllə törədilir. Şərh olunan cinayət həm **hərəkətlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Birinci halda təqsirkar normativ aktlarda yazılan qaydaların ziddinə hərəkət edir, ikinci halda

isə bu qaydaların tələblərini hərəkətsizlik göstərərək yerinə yetirmir.

3. ŞTM-in 3.0.9-cu maddəsinə əsasən **tikinti fəaliyyəti** tikinti obyektlərinin tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası) və ya sökülməsi məqsədi ilə həyata keçirilən fəaliyyətdir. **Tikinti-quraşdırma işləri** isə tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması yaxud bərpasıdır (ŞTM-in 3.0.17-ci maddəsi). Tikinti işlərinə yaşayış binalarının, otaqlarının, istehsalat, anbar, məişət, ictimai və ya digər təyinatlı qurğuların ucaldılması, yenidən qurulması, təmir olunması, yerinin dəyişdirilməsi və ya sökülməsi ilə əlaqədar olaraq tikinti meydançasında, eləcə də tikinti meydançasından kənarda rabitə xətlərinin, elektrik şəbəkələrinin, yolların, istilik, qaz təchizatı, kanalizasiya qurğularının və sair mühəndis şəbəkələrinin təmiri və çəkilişi ilə əlaqədar olaraq aparılan torpaq, daş, beton, montaj, demontaj, izolyasiya, elektromontaj, ayırıcı, sanitar-texniki, yükvurma-yükboşaltma və digər işlər aiddir. Tikinti işlərinin aparılmasının təhlükəsizliyi qaydalarının pozulması həm bilavasitə xüsusi tikinti qaydalarının və tikinti işlərinin aparılması zamanı tikinti mexanizmlərinin istismarı qaydalarını, həm də sanitariya qaydalarını pozmada ifadə oluna bilər.

4. **Mədən işləri** dedikdə dağ-mədən sənayesində həyata keçirilən, dağ süxurlarının çıxarılması, qazılması, təmizlənməsi və saxlanması ilə bağlı olan işlər nəzərdə tutulur. Mədən işlərinin aparılması qaydaları Azərbaycan Respublikasının «Yerin təki haqqında» 13 fevral 1998-ci il tarixli Qanunu və digər normativ aktlarla tənzimlənir. Belə qaydaların pozulmasına, məsələn, lağımların torpaq uçqunundan mühafizəsi üzrə zəruri tədbirlərin görülməməsini, quyuların dibinin hava tənzimi ilə təmin olunmamasını və s. aid etmək olar.

5. **Sair işlər** dedikdə xüsusi qaydalarla tənzimlənən, insanların həyatı və sağlamlığı, habelə ətraf mühit üçün müəyyən risqlə bağlı olan istənilən növ spesifik (qeyd olunan mədən və tikinti işləri istisna olmaqla) işlər başa düşülür. Belə işlərə, məsələn, torpaq və ya şosse yollarının çəkilməsi zamanı aparılan partlayış işlərini aid etmək olar.

6. **İşlərin aparılmasının təhlükəsizliyi qaydaları** müəyyən növ müəssisələrə aid olan xüsusi qaydaları və texniki təhlükəsizlik qaydalarını özündə birləşdirən əməyin mühafizəsinin ümumi qaydalarından ibarətdir. Əmək mühafizəsi qaydalarını pozma insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayət kimi CM-in 162-ci maddəsində nəzərdə tutulur. CM-in 162-ci maddəsində qeyd olunan norma nəzərdən keçirdiyimiz 222-ci maddəyə münasibətdə ümumidir. CM-in 222-ci maddəsi isə öz növbəsində xüsusidir, çünki burada əməyin mühafizəsinin ümumi qaydalarının deyil, tikinti, mədən və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulması haqqında söhbət gedir.

Eyni zamanda əməyin mühafizəsinin həm ümumi, həm də nəzərdən keçirdiyimiz xüsusi qaydaları pozulduqda, əməl cinayətlərin məcmusu qaydasında CM-in 162-ci və 222-ci maddələri ilə tövsif edilməlidir.

7. Tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin,

eləcə də mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulması o halda cinayət məsuliyyətinə səbəb olur ki, həmin təhlükəsizlik qaydalarının pozulması **insanların həyat və sağlamlığı üçün real təhlükə yaratmış olsun**. Təhlükəsizlik qaydalarının pozulması insanların həyat və sağlamlığı üçün real təhlükə yaratmadıqda cinayət məsuliyyəti istisna edilir. - **Real təhlükənin yaranması** dedikdə təhlükəsizlik qaydalarının pozulmasının qarşısının alınmamasının labüd olaraq insanların həyat və sağlamlığına zərər vurulmasına gətirib çıxaracaq şərait başa düşülməlidir. Təhlükənin reallığı qiymətləndirilən anlayışdır və təhlükəsizlik qaydalarının kobud şəkildə pozulması, işçilərin iş vaxtından artıq işlədilməsi, onların üzərinə həddən artıq işlərin yerinə yetirilməsi öhdəliyinin qoyulması, əmək şəraitinin tələblərinin inkar edilməsi və s. hallar nəzərə alınmaqla müəyyən edilə bilər.

8. Şərh olunan maddədə təhlükəsizlik qaydalarının pozulmasının **insanların** həyat və sağlamlığı üçün real təhlükə yaratmasına görə məsuliyyət nəzərdə tutulur. Burada «insanlar» dedikdə zərərçəkmiş şəxs qismində bir insan da başa düşülməlidir. Ona görə də bir insanın da həyat və sağlamlığı üçün real təhlükənin yaranması CM-in 222-ci maddəsində təsbit edilən cinayətin tərkibini yaradır.

9. CM-in 222-ci maddəsi **blanket** dispozisiyalıdır. Belə ki, burada təqsirkarın konkret hansı təhlükəsizlik qaydalarını pozduğunu müəyyən etmək üçün tikinti, mədən işlərinin və sair işlərin aparılmasının texniki təhlükəsizliyini təmin edən xüsusi qaydaları özündə əks etdirən müvafiq normativ aktlara müraciət edilməlidir. CM-in 222.1-ci maddəsində nəzərdə tutulan cinayət **formal** tərkiblidir və tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarının pozulmasının insanların həyat və sağlamlığı üçün real təhlükə yaratması anından başa çatmış sayılır. CM-in 222.2-ci və 222.3-cü maddələrində nəzərdə tutulan cinayətlər isə **maddi** tərkiblidir, yəni əməli bu maddələr üzrə tövsif etmək üçün həmin maddələrdə qeyd olunan ictimai təhlükəli nəticələr baş verməlidir: zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulmalı (CM-in 222.2-ci maddəsi) və ya əməl zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olmalıdır (CM-in 222.3-cü maddəsi). Tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarının pozulması ilə real təhlükənin yaranması bir-birini tamamlayan əməllər kimi bütövlükdə götürülməklə qiymətləndirilməlidir. Bunların hər ikisi ictimai təhlükəli əməl olmaqla biri digəri ilə səbəbli əlaqədədir, yəni real təhlükə işlərin aparılmasının təhlükəsizlik qaydalarının pozulmasının nəticəsi olaraq yaranmalıdır.

10. CM-in 222.1-ci maddəsində göstərilən cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** (təqsirkar sadalanan işlərin aparılması zamanı təhlükəsizlik qaydalarını pozmaqla insanların həyat və sağlamlığı üçün real təhlükə yaratdığını qabaqcadan görür, belə vəziyyəti arzu etmir, lakin belə təhlükənin yaranmasına şüurlu surətdə yol verir) və ya **ehtiyatsızlıqla** törədilə bilər. CM-in 222.2-ci və 222.3-cü maddələrində nəzərdə tutulmuş cinayətlər isə **subyektiv cəhətdən ehtiyatsızlıqla** xarakterizə olunur. Şəxs CM-in 222.1-ci maddəsində sadalanan işlərin təhlükəsizliyi qaydalarını pozduğunu və CM-in 222.2-ci və 222.3-cü maddələrində göstərilən ictimai təhlükəli nəticələrin baş verə bilə-

cəyi imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir, yaxud onların baş verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda görmür. Öz-özlüyündə tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarının pozulması cinayət məsuliyyəti yaratmır, lakin CM-in 222.1-ci maddəsində qeyd olunan real təhlükə yaranmadıqda və ya CM-in 222.2-ci və 222.3-cü maddələrində nəzərdə tutulan ictimai təhlükəli nəticələr baş vermədikdə, törədilmiş əməl cinayət məsuliyyətinə səbəb olmur.

Təqsirkarın baş vermiş ictimai təhlükəli nəticələrə psixi münasibəti **qəsd** formasında olduqda isə əməl daha ağır qəsdən törədilən cinayət (məsələn, şəxsiyyət əleyhinə olan) kimi tövsif olunmalıdır.

11. CM-in 222-ci maddəsində nəzərdə tutulan cinayətin **subyekti** cinayəti törədənədək 16 yaşı tamam olmuş, həm vəzifəli, həm də daimi və ya müvəqqəti fəaliyyəti qeyd olunan işlərlə bağlı olan digər şəxs, habelə kənar şəxslər (məsələn, ekskursiyaya gələnlər, təcrübə keçənlər və s.) ola bilər.

12. CM-in şərh olunan 222.2-ci maddəsində nəzərdə tutulan cinayət tərkibi 222.1-ci maddədə təsbit edilən əməlin ağırlaşdırıcı tərkib əlamətini əks etdirir. Bu cinayətin **obyektiv cəhəti** ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulmasına səbəb olan tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin, eləcə də mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulmasında ifadə olunur.

13. CM-in 222.2-ci maddəsində ictimai təhlükəli nəticə kimi zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulması nəzərdə tutulur. Zərərçəkmiş istənilən şəxs, yəni həm sadalanan işləri yerinə yetirən işçi, həm də kənar şəxs ola bilər. Sağlamlığa ağır zərər vurmanın anlayışı CM-in 126.1-ci maddəsinin, az ağır zərər vurmanın anlayışı isə CM-in 127.1-ci maddəsinin şərhində verilmişdir.

14. CM-in 222.3-cü maddəsində bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində qeyd olunan qaydaların pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması nəzərdə tutulur.

15. **Digər ağır nəticələr** dedikdə ehtiyatsızlıqdan bir neçə şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulması, vətəndaşlara və təşkilatlara külli miqdarda maddi ziyanın, ətraf mühitə mühüm ziyanın vurulması, eləcə də müəssisələrin, sexlərin işində uzun müddətə məcburi fasilə yaranması və s. başa düşülməlidir. «Digər ağır nəticələr» öz ağırlıq dərəcəsinə görə CM-in 222.2-ci maddəsində sadalananlarla müqayisə edilə bilən olmalıdır. Qanunun göstərişinə əsasən təqsirkarın digər ağır nəticələrin baş verməsinə və zərərçəkmişin ölümünə münasibəti yalnız təqsirin ehtiyatsızlıq formasında ola bilər.

Maddə 222-1. Özbaşına tikinti işləri aparma

222-1.1. Qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan özbaşına bina və qurğular tikmə, mövcud tikililərin konstruksiyasında dəyişiklik etmə, habelə bu tikililərin funksional təyinatı dəyişdirilməklə, onlarda yenidən planlaşdırma, yenidənqurma işlərini aparma insanların həyat və sağlamlığı üçün real təhlükə yaratdıqda —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

222-1.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

222-1.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 14 may 2002-ci il tarixli Qanunu ilə əlavə edilmiş, 1 oktyabr 2007-ci il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmişdir — «Azərbaycan» qəzeti, 2 iyun 2002-ci il; 28 oktyabr 2007-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 222-1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyekti** tikinti aparılmasının qanunvericiliklə müəyyən olunmuş qaydalarının təmin olunması ilə bağlı olan ictimai münasibətlərdir. Bu cinayətin **əlavə** obyekti qismində insanların həyat və sağlamlığı, habelə mülkiyyət münasibətləri çıxış edir.

2. Şərh olunan cinayətin **obyektiv cəhəti** aşağıdakı əlamətlərlə xarakterizə olunur: 1) qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan özbaşına bina və qurğular tikmə; 2) mövcud tikililərin konstruksiyasında dəyişiklik etmə; 3) bu tikililərin funksional təyinatı dəyişdirilməklə onlarda yenidən planlaşdırma, yenidənqurma işlərini aparma; 4) yuxarıda sadalanan hərəkətlər nəticəsində insanların həyat və sağlamlığı üçün real təhlükənin yaranması.

3. **Tikinti işinin** anlayışı CM-in 222-ci maddəsinin şərhinin 3-cü bəndində verilmişdir.

4. CM-in 222-1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibi **blanket** dispozisiyalıdır.

Qanunvericiliklə müəyyən olunmuş qaydada bina və qurğular tikmə, mövcud tikililərin konstruksiyasında dəyişiklik etmə, tikililərin funksional təyinatı dəyişdirilməklə onlarda yenidən planlaşdırma və yenidənqurma işləri aparma qaydaları ŞTM-də, «Memarlıq fəaliyyəti haqqında» 15 may 1998-ci il və «Şəhərsalmanın əsasları haqqında» 11 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2006-cı il tarixli, 511 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agent-

liyi haqqında Əsasnamə»də, Nazirlər Kabinetinin «Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları və Şəhərsalma fəaliyyətinə, o cümlədən şəhərsalma sənədlərinin həyata keçirilməsində sifarişçinin, tərtibatçının və podratçının fəaliyyətinə də nəzarətin həyata keçirilməsi Qaydalarının təsdiq edilməsi barədə», «Azərbaycan Respublikasında Dövlət şəhərsalma kadastrı və şəhərsalma fəaliyyəti obyektlərinin monitorinqinin vahid sistemlə aparılması və kadastr xidmətinin təşkili Qaydası barədə», «Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydalarının təsdiq edilməsi barədə» 4 sentyabr 2000-ci il tarixli 158, 159, 160 saylı qərarlarında təsbit olunmuşdur.

5. 2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş ŞTM-in tələblərinə əsasən tikintinin həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanlarının razılığının və ya xüsusi razılığının (lisenziyasının) tələb edilib-edilməməsindən asılı olaraq bu işlər **üç qrupa ayrılır**: 1) tikintisinə icazə tələb olunmayan obyektlərin tikilməsi (ŞTM-in 79-cu maddəsi); 2) tikintisi məlumatlandırmadan sonra aparılan obyektlərin tikilməsi (ŞTM-in 80-ci maddəsi); 3) tikintisinə icazə tələb olunan obyektlərin tikilməsi (ŞTM-in 74-cü maddəsi).

ŞTM-in 79-cu maddəsinə görə mülkiyyətdə, icarədə və ya istifadədə olan torpaq sahəsində aşağıdakı tikinti obyektlərinin tikintisinə **icazə tələb olunmur**: hündürlüyü ən çoxu 5 metr, sahəsi 100 kvadratmetr olan bir mərtəbəli yardımçı tikililərin, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyəti ilə bağlı obyektlərin; xüsusi mülkiyyətdə olan torpaq sahələrində həcmi ən çoxu 60 kubmetr və dərinliyi ən çoxu 5 metr olan quyuların, yeraltı su və çirkab su anbarlarının (rezervuarların), habelə həcmi ən çoxu 200 kubmetr olan hovuzların; hündürlüyü ən çoxu 2 metr 20 santimetr olan və qonşu torpaq sahəsi ilə sərhəddə və ya küçə boyunca hasarların (təbii və süni daşdan olan hasarlar da daxil olmaqla); hündürlüyü ən çoxu 8 metr olan enerji və ya işıqlandırma dirəklərinin, antena qüllələrinin və ya tutumu ən çoxu 10 kubmetr olan su çənləri qüllələrinin; reklam qurğuları istisna olmaqla, kiçik memarlıq formalarının (köşklər, örtüklər və buna bənzər digər obyektlərin), açıq idman və ya oyun meydançalarının, açıq avtomobil dayanacaqlarının; tutumu 100 nəfərə qədər olan müvəqqəti tikililərin; fasadının mövcud qabaritləri dəyişdirilmədən təmir edilən tikinti obyektlərinin; təmir edilən yol və ya mühəndis-kommunikasiya təminatı xətlərinin; ŞTM-in 70.2-ci maddəsinin tələblərinə əməl edilməklə, yaşayış evlərinin həyətyanı sahələrində hündürlüyü ən çoxu 3 metr və sahəsi ən çoxu 100 kvadratmetr olan yardımçı tikililərin; hündürlüyü ən çoxu 3 metr və sahəsi ən çoxu 300 kvadratmetr olan istixanaların və oranjereyaların.

ŞTM-in 80-ci maddəsinə görə mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində təyinatı üzrə yerüstü mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən (binanın hündürlüyü «0» səviyyəsindən, yəni birinci yerüstü mərtəbənin döşəməsinin üst hissəsindən sonuncu mərtəbənin örtüyünün alt hissəsinədək (çardaqaltı döşəmənin alt hissəsi) və aşırımlarının uzunluğu 6

metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi ilə bağlı **məlumatlandırma icraatı** həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız zirzəmilərin, mərtəbələrin, dam örtüklərinin planlarından, kəsiklərdən və fasadlardan ibarət memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin hazırlanması tələb olunur. Bundan başqa, ŞTM-in 79.2-ci maddəsinə görə hündürlüyü 5 metrdən, sahəsi 100 kvadratmetrdən çox olan bir mərtəbəli yardımçı tikililərin, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyəti ilə bağlı obyektlərin, xüsusi mülkiyyətdə olan torpaq sahələrində həcmi 60 kubmetrdən və dərinliyi 5 metrdən çox olan quyuların, yeraltı su və çirkab su anbarlarının (rezervuarların), habelə həcmi 200 kubmetrdən çox olan hovuzların, yaşayış evlərinin həyətyanı sahələrində hündürlüyü 3 metrdən və sahəsi 100 kvadratmetrdən çox olan yardımçı tikililərin tikintisinə məlumatlandırma icraatı şamil olunur.

Barəsində məlumatlandırma icraatının tətbiq edildiyi tikinti obyektlərinin tikintisinə icazənin alınması tələb olunmur.

ŞTM-in 75.1-ci maddəsinə uyğun olaraq, barəsində icazə tələb olunan tikinti şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə zidd olmadığı təqdirdə, yerli icra hakimiyyəti orqanı tərəfindən tikintiyə icazə verilməlidir. Belə icazə alınmadan həmin obyektlərin tikintisi **qanunsuz** sayılacaqdır.

ŞTM-in 80.4-cü maddəsinə əsasən tikintisi **məlumatlandırmadan sonra aparılan obyektin** tikintiyə başlamazdan əvvəl tikinti niyyəti barədə müvafiq icra hakimiyyəti orqanına [yerli icra hakimiyyəti orqanına] məlumat verir və bu Məcəllənin 80.1-ci və 80.3-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğunluğunun yoxlanılması üçün tikinti obyektlərinin layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrini, habelə torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surətini həmin orqana təqdim edir. Müvafiq icra hakimiyyəti orqanı [yerli icra hakimiyyəti orqanı] tərəfindən bu Məcəllənin 80.1-ci maddəsində nəzərdə tutulmuş tikinti obyektlərinə münasibətdə 10 gün müddətində layihəyə dair irad sifarişçiyə təqdim edilmədikdə, sifarişçi tikinti işlərinə başlaya bilər. İradlar olduqda, həmin iradlar normativ hüquqi aktlara istinad olunmaqla və onların pozulan tələbləri dəqiq göstərilməklə əsaslandırılmalıdır. Deməli, belə obyektin tikintisi barədə məlumat vermədən, habelə yerli icra hakimiyyəti irad bildirdiyi halda həmin irad aradan qaldırılmadan bu obyektin tikintisi də **qanunsuz** olacaqdır. Yerli icra hakimiyyəti orqanı tərəfindən 10 gün müddətində layihəyə dair irad sifarişçiyə təqdim edilmədikdə obyektin tikintisi qanuni sayılır.

6. CM-in 222-1-ci maddəsini tətbiq edərkən nəzərə almaq lazımdır ki, ŞTM-in qəbul edilməsindən sonra tikinti fəaliyyətinin müxtəlif tərəflərini tənzimləyən qanunvericilikdə xeyli dəyişikliklərə zərurət yaranmışdır. Aydınlaşdırılmalı məsələlərdən biri tikintisinə razılıq alınmalı olan obyektlərin dairəsi ilə bağlıdır. Hazırda qüvvədə olan qanunvericiliyə əsasən razılıq alınmalı olan tikinti-quraşdırma işlərinin həyata keçirilməsi üçün yerli icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və müəyyən hallarda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin razılığı alınmalıdır. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq olunmuş şəhərsal-

ma sənədləri üzrə yeni obyektlərin yer üzərində yerləşdirilməsi təklifinə yerli icra hakimiyyətinin memarlıq-tikinti xidməti tərəfindən baxılmalı və nəticələri yerli icra hakimiyyəti rəhbərliyinə bildirilməlidir. Yeni obyektlərin yerləşdirilməsi ilə əlaqədar hazırlanan memarlıq-planlaşdırma həlli (sxem və cizgi şəklində) təsdiq olunmuş şəhərsalma sənədlərində dəyişikliklər edilməsini tələb etdiyi hallarda o, yerli icra hakimiyyətinin memarlıq-tikinti xidməti ilə razılaşdırılmalıdır. Yeni obyektlərin yerləşdirilməsi ilə əlaqədar hazırlanan memarlıq-planlaşdırma həlli baş planlarda, rayonların planlaşdırma sxemlərində, iri obyektlərin texniki iqtisadi əsaslandırılmasında, sənaye rayonlarının inkişaf sxemlərində dəyişikliklər edilməsini tələb etdiyi hallarda o, yerli icra hakimiyyətinin müvafiq orqanı və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə, respublika əhəmiyyətli obyektlər isə Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmalıdır. Yeni obyektlərin yerləşdirilməsi və tikintisi üzrə tamamlanmış layihə təsdiq edilənə qədər o, layihə müəllifinin iştirakı ilə yerli icra hakimiyyətinin memarlıq-tikinti xidməti tərəfindən baxılmalı və razılaşdırılmalıdır (NK-nın «Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydalarının təsdiq edilməsi barədə» 4 sentyabr 2000-ci il tarixli, 160 saylı qərarının 2-ci bəndi).

7. **Özbaşına bina və qurğular tikmə** dedikdə qanunvericilikdə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını (xüsusi razılığını (lisenziyasını) almadan, habelə qanunvericilikdə müvafiq icra hakimiyyəti orqanlarına məlumat verilməsi nəzərdə tutulduğu halda belə məlumat vrmədən, yaxud yerli icra hakimiyyətinin iradı bildirildikdən sonra belə fəaliyyətlə məşğul olma başa düşülməlidir.

8. **Özbaşına olaraq mövcud tikililərin funksional təyinatı dəyişdirilməklə onlarda yenidən planlaşdırma, yenidənqurma işlərini aparma** dedikdə məsələn, yerli icra hakimiyyəti orqanlarının razılığı olmadan ümumi istifadə sahələrinin, xüsusilə zirzəmilərin təyinatından kənar məqsədlər üçün istifadə olunması və bununla əlaqədar binanın yükgötürən konstruksiyalarının zəiflədilməsi, mövcud binalarda artırmaların tikilməsi, eyvanların genişləndirilməsi və yenilərinin quraşdırılması, bünövrələrin, mərtəbəarası örtüklərin, yükdaşıyan divarların, arakəsmələrin sökülməsi, əlavə qapı və pəncərə boşluqlarının açılması və s. başa düşülməlidir.

9. **Mövcud tikililərin konstruksiyasında özbaşına dəyişiklik etmə** dedikdə hüquqi və fiziki şəxslər tərəfindən icazəsiz olaraq yükdaşıyan divarların və bünövrələrin konstruktiv həllinin dəyişdirilməsi, zirzəmi daxilində kommunikasiya xətlərinin mühəndis sxeminin dəyişdirilməsi və s. başa düşülməlidir.

Tarix, mədəniyyət və memarlıq abidələrində aparılacaq dəyişikliklər Mədəniyyət Nazirliyinin, «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılacaq dəyişikliklər isə «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə razılaşdırılmalıdır (NK-nın «Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydalarının təsdiq edilməsi barədə» 4 sentyabr 2000-ci il tarixli qərarının 4.4-cü bəndi).

Bina və qurğularda dəyişikliklərin aparılmasına **yol verilməyən hallara** daxildir: mühəndis qurğularının yerləşdirilməsi və kommunikasiyasının çəkilməsi üçün nəzərdə tutulmuş texniki mərtəbələrin başqa məqsədlər üçün istifadəsinə (texniki zirzəmilərdə, çardaqlarda və s.); zirzəmi divarları tağvari daş konstruksiyadan olan qədim binalarda tağlar söküldükdə və ya konstruksiyası dəyişdirildikdə; bina və qurğularda evakuasiya yolları olan sahələr bağlandıqda; konsol tipli balkonlar əlavə yüklənməklə genişləndirildikdə; mərtəbəarası örtüklərdə yükdaşıyan rigel və ya tirlərin kənar çıxıntı hissələri ləğv edildikdə və ya hündürlük boyu ölçüləri dəyişdirildikdə; panel binalarda düyün birləşmələri olan hissələrdə və ya onların yaxınlığında oyuqlar açıldıqda; mənzillərin genişləndirilməsi məqsədilə konstruktiv yükdaşıyıcı divar və ya arakəsmə, panellər söküldükdə; bina və qurğuların konstruktiv həllindən və mərtəbənin sayından asılı olmayaraq, lift və ventilyasiya şaxtaları ləğv edildikdə; zirzəmilərdən istifadə etmək məqsədi ilə zirzəminin hündürlüyünü artırmaq üçün torpaq çıxarılaraq, zirzəminin döşəməsinin mövcud səviyyəsindən aşağı salındıqda; zirzəmi nəzərdə tutulmamış binalarda zirzəmi yaradıldıqda; yaşayış sahəsində, habelə zirzəmidə sənaye istehsalatının yerləşdirilməsi, rezonans yarada biləcək dəzgah və qurğulardan istifadə olunması nəzərdə tutulduqda; açılacaq oyuqlar mövcud oyuqların sırasından kənar açıldıqda; zirzəmidə tezalışan və kəskin iyli maddələr anbarı yerləşdirildikdə (NK-nın yuxarıda adı çəkilən qərarının 6-cı bəndi).

10. CM-in 222-1.1-ci maddəsində nəzərdə tutulan cinayət **formal** tərkiblidir və dispozisiyada sadalanan əməllərin insanların həyat və sağlamlığı üçün real təhlükə yaratdığı andan başa çatmış sayılır. Bu cinayət tərkibinin zəruri əlaməti insanların həyat və sağlamlığı üçün real təhlükənin yaranmasıdır (real təhlükə haqqında CM-in 222-ci maddəsinin şərhinin 7-ci bəndinə bax). Müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan, yaxud onlara məlumat vermədən özbaşına bina və qurğular tikmə, mövcud tikililərin konstruksiyasında dəyişiklik etmə, habelə bu tikililərin funksional təyinatı dəyişdirilməklə, onlarda yenidən planlaşdırma, yenidənqurma işlərini aparma insanların həyat və sağlamlığı üçün real təhlükə yaratmadıqda, əməl inzibati xəta kimi İXM-in 395-ci maddəsi («Özbaşına tikinti işlərinin aparılması») ilə inzibati məsuliyyətə səbəb olacaqdır. Yaranan real təhlükə (imkan) gerçəkliyə çevrilərsə, yəni ehtiyatsızlıqdan insanın (insanların) sağlamlığına zərər vurulmasına səbəb olarsa, təqsirkarın əməli CM-in 222-1.2-ci maddəsi ilə, həyatdan məhrum olmasına və ya digər ağır nəticələrə gətirib çıxararsa, CM-in 222-1.3-cü maddəsi ilə tövsif edilməlidir.

11. CM-in 222-1.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** nəzərdə tutulmuşdur. Bu cinayət **maddi** tərkiblidir. Təqsirkarın əməlini CM-in 222-1.2-ci maddəsi ilə tövsif etmək üçün zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərər yetirilməlidir. Hər bir halda məsuliyyətin yaranması üçün

CM-in 222-1.1-ci maddəsində sadalanan əməllərlə baş vermiş nəticə arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

Sağlamlığa ağır zərər vurmanın anlayışı CM-in 126-cı, az ağır zərər vurmanın anlayışı isə 127-ci maddəsinin şərhində verilmişdir.

12. Bu cinayətdən **zərərçəkmiş şəxs** qismində həm CM-in 222-1.1-ci maddəsində nəzərdə tutulmuş işləri yerinə yetirən şəxs, həm də kənar şəxs çıxış edə bilər.

13. CM-in 222-1.1-ci maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** (təqsirkar müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan, yaxud onlara məlumat vermədən özbaşına bina və qurğular tikdiyini, mövcud tikililərin konstruksiyasında dəyişiklik etdiyini, bu tikililərin funksional təyinatı dəyişdirilməklə, onlarda yenidən planlaşdırma, yenidənqurma işlərini apardığının insanların həyat və sağlamlığı üçün real təhlükə yaratdığını qabaqcadan görür, belə vəziyyəti arzu etmir, lakin belə təhlükənin yaranmasına şüurlu surətdə yol verir) və ya **ehtiyatsızlıqla** törədilə bilər.

CM-in 222-1.2-ci və 222-1.3-cü maddələrində nəzərdə tutulan cinayət əməlləri **subyektiv cəhətdən ehtiyatsızlıqla** törədilə bilər. Təqsirkarın dispozisiyada sadalanan işlərin müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan, yaxud onlara məlumat vermədən özbaşına aparılmasının insanların həyat və sağlamlığı üçün real təhlükə yaratmasına və zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulmasına, onun ölümünə və ya digər ağır nəticələrə psixi münasibəti təqsirin **ehtiyatsızlıq** forması ilə xarakterizə olunur.

Təqsirkarın baş vermiş ictimai-təhlükəli nəticələrə münasibəti təqsirin qəsd formasında olduqda, onun əməli şəxsiyyət əleyhinə olan cinayət kimi tövsif edilməlidir.

14. Şərh olunan cinayətin **subyekti** müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan, yaxud onlara məlumat vermədən CM-in 222-1.1-ci maddəsində sadalanan işləri həyata keçirən 16 yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

15. CM-in 222-1.3-cü maddəsində tikinti qaydalarının pozulmasının zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olması **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** kimi göstərilmişdir. Qeyd olunan əlamətlərin anlayışı CM-in 222-ci maddəsinin şərhinin 15-ci bəndində verilmişdir.

Maddə 222-2. Müvafiq icazə almadan mühafizə zonalarında tikinti və ya quraşdırma işləri aparma

222-2.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icazə almadan magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında tikinti və ya quraşdırma işləri aparma

—

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

222-2.2. Eyni əməllər ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olduqda

—

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il tarixli Qanunu ilə əlavə edilmiş, 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə düzəliş edilmişdir — «Azərbaycan» qəzeti, 10 noyabr 2004-cü il; 28 oktyabr 2007-ci il).

1. Şərh olunan maddədə nəzərdə tutulmuş cinayət tərkibinin **obyekti** ictimai əhəmiyyət daşıyan müxtəlif obyektlərin (magistral boru kəmərinin, elektrik şəbəkəsinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və suların) mühafizə edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində (bu cinayət ağırlaşdırıcı tərkib əlaməti olmaqla törədildikdə) insanların həyat və sağlamlığı, mülkiyyət münasibətləri, müxtəlif kommunikasiya şəbəkələrinin və həyat əhəmiyyətli obyektlərin normal fəaliyyəti çıxış edə bilər.

2. Bu cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, maddənin dispozisiyasında göstərilən obyektlərin mühafizə zonasında qanunsuz tikinti və quraşdırma işlərinin aparılması, bir tərəfdən, ictimai əhəmiyyət daşıyan həmin obyektlərin normal, təhlükəsiz fəaliyyətini təhlükə altına alır, digər tərəfdən isə bu tikinti və quraşdırma işlərini aparan, habelə qanunsuz tikilən bina və qurğularda işləyən və ya yaşayan insanların həyat və sağlamlığı təhlükəyə məruz qoyulur.

3. Təhlil olunan cinayət tərkibinin **obyektiv cəhəti** özündə iki əsas əlaməti birləşdirir: a) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icazə olmadan tikinti və quraşdırma işləri aparma (ictimai təhlükəli əməl); b) həmin hərəkətin xüsusi məkanda - magistral boru kəmərlərinin, elektrik şəbəkəsinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və suların mühafizə zonasında edilməsi.

4. Şərh olunan norma **blanket xarakterli** olduğundan cinayət əməlinin törədildiyi məkanın – konkret obyektlərin **mühafizə zonasının** müəyyən edilməsi üçün müvafiq normativ aktlara müraciət edilməlidir. Bu normada adı çəkilən obyektlərin mühafizə zonaları, onların hüdudları, onlardan istifadə qaydaları və s. məsələlər Azərbaycan Respublikasının qanunvericiliyində təsbit edilmişdir.

5. **Magistral boru kəmərlərinin** anlayışı CM-in 268-ci maddəsinin şərhində verilmişdir. Burada həm təbii qazın, həm də neftin və neft məhsullarının nəqli üçün inşa edilmiş magistral boru kəmərləri nəzərdə tutulur.

6. **Təbii qazın nəqli üçün nəzərdə tutulmuş magistral boru kəmərlərinin mühafizə zonaları** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 iyun 1999-cu il tarixli, 103 saylı qərarı ilə təsdiq edilmiş «Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları»nda müəyyən edilmişdir. Qaydaların 2.2-ci bəndinə müvafiq olaraq təbii qazın nəqli sahəsində magistral boru kəmərlərinə aşağıdakılar daxildir:

- şaxələnmiş qollarla, bağlayıcı armaturlarla, təbii və süni maneələrdən ke-

çən keçidlərlə, kompressor stansiyalarına qoyulmuş qovşaqlarla, təmizləyici qurğuların qəbul və buraxma qovşaqları ilə, qaz sərfi qovşaqları ilə, metanolu daxil edən qurğularla birlikdə boru kəmərləri;

- boru kəmərlərini paslanmadan mühafizə edən elektrokimyəvi mühafizə, texnoloji rabitənin qurğuları və xətləri, boru kəmərlərinin telemexanika ləvazimatları;
- məsafədən idarə edilən bağlayıcı armaturların, boru kəmərlərinin elektrokimyəvi mühafizə qurğularının elektrik ötürücü xətləri və elektrik təchizatı cihazları;
- yanğından mühafizə ləvazimatı, boru kəmərlərinin eroziyaya qarşı mühafizə qurğuları;
- kondensatın saxlanması və qazsızlaşdırılması üçün tutumlar, sıxılmış karbohidrogenlərin buraxılması üçün yeraltı anbarlar;
- boru kəmərlərinin istismarında xidməti xətt qurğuları;
- boru kəmərləri boyunca yerləşən daimi yollar, vertolyot meydançaları, kəmərlərə gedən yollar, boru kəmərlərinin yerlərini göstərən fərqləndirici və xəbərdaredici nişanlar;
- əsas və aralıq kompressor və qazpaylayıcı stansiyalar, avtomobillərə sıxılmış qazdoldurma stansiyaları;
- yeraltı qazsaxlama stansiyaları.

Həmin Qaydaların 2.7-ci bəndinə əsasən boru kəmərlərinin, çəkilmə tərzindən asılı olmayaraq, istismarına normal şərait yaratmaq və zədələnmə hallarının qarşısını almaq məqsədi ilə aşağıdakı **mühafizə zonası** təyin edilir:

boru kəmərləri xətti boyunca, onun orta oxundan hər tərəfə şərti xətlərlə 50 m keçən torpaq sahəsi **mühafizə zonası** üçün ayrılmalıdır. Kənd təsərrüfatı üçün yararlı olan torpaq sahələrindən keçən, boru kəmərləri xətti boyunca onun orta oxundan hər tərəfə şərti xətlərlə 25 metrdən keçən torpaq sahəsi **mühafizə zonası** üçün ayrılmalıdır;

çoxlu sayda qarışıq boru kəmərləri boyunca, kənar kəmərlərin orta oxundan hər tərəfə, şərti xətlərlə 50 metrdən keçən torpaq sahəsi **mühafizə zonası** üçün ayrılmalıdır;

kənd təsərrüfatı üçün ayrılmış torpaq sahələrindən keçən çoxsaylı qarışıq boru kəmərləri xətti boyunca, onun kənar kəmərinin orta oxundan hər tərəfə, şərti xətlərlə 25 metrdən keçən torpaq sahəsi mühafizə zonası üçün ayrılmalıdır;

boru kəmərlərinin sualtı keçidləri xətti boyunca su səthindən onun dibinə qədər olan məkanda, paralel müstəvilər arasında, kənar xəttin orta oxundan hər tərəfə 100 m mühafizə zonası ayrılır;

kondensatın saxlanması, qazdan ayrılması üçün tutumların, neft və neft məhsullarının, kondensatlarının, sıxılmış qarışıqların qəza vəziyyətində axıdılması üçün torpaq anbarlarının əhatəsində göstərilən obyektlərin ərazisinin sərhədlərindən hər tərəfə 50 m olmaqla qapalı xətlə hüdudlanmış torpaq sahəsi şəklində olmalıdır;

baş və aralıq sorulub-vurulma və doldurma nasos stansiyalarının, çən parklarının, kompressor və qazpaylayıcı stansiyaların, qaz məsrəflərinin ölçüldüyü

qovşaqların, doldurma və qəbuletmə körpülərinin, yeraltı qazsaxlama stansiyalarının, neft və neft məhsullarının qızdırılması məntəqələrinin əhatəsində göstərilən obyektlərin sərhədlərindən hər tərəfə 100 m olmaqla qapalı xətlə hüdudlanmış torpaq sahəsi şəklində olmalıdır.

«Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları»nın 2.11-ci bəndində deyilir ki, boru kəmərlərinin mühafizə zonalarında onu istismar edən hüquqi və fiziki şəxslər Dövlət Neft Şirkəti və onun yerli orqanlarının **yazılı razılığı olmadan** aşağıda göstərilən işlərin aparılması qadağandır:

a) hər hansı tikinti və ya quraşdırma işləri;

b) bütün növ kol və ağacların basdırılması, yem məhsullarının, gübrə və materialların yığılması, ot və samanların taya vurulması, heyvan saxlamaq, balıq yetişdirmək üçün yerlərin ayrılması, balıq və su heyvanlarını tutmaq, bitkiləri yığmaq, buz sındırılması və yığılması;

c) boru kəmərlərinin üstündən və yanından keçidlərin düzəldilməsi, avtomobil və digər nəqliyyat vasitələri, traktor və mexanizmlər üçün dayanacaqların təşkili, kollektiv bağ və bostan salınması;

ç) torpaq meliorasiya işlərinin aparılması, suvarma və qurutma sistemlərinin quraşdırılması;

d) hər növ dağ, quraşdırma, partlayış və torpaq səthini düzləndirmə işləri;

e) quyuların quraşdırılması, şurf açılması və yerin təkindən nümunə götürülməsi məqsədi ilə geoloji-seysmik, geodeziya və başqa axtarış işləri.

Boru kəmərlərinin **mühafizə zonasında** iş aparılmasına yazılı şəkildə icazə almış hüquqi və fiziki şəxslər boru kəmərlərinin mühafizəsini təmin edən şərtlərə əməl etməyə borcludurlar. Boru kəmərlərinin mühafizə zonasında iş aparılması şərtləri magistral boru kəmərlərini istismar edən Dövlət Neft Şirkətinin yerli orqanları tərəfindən təyin edilir və müvafiq yerli icra hakimiyyəti və Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırıldıqdan sonra həyata keçirilir.

Boru kəmərlərinin **mühafizə zonalarında** partlayış işlərinin aparılmasına yazılı icazə ancaq Dövlətdağmədəntexnəzarət Komitəsi tərəfindən təsdiq edilmiş partlayış işlərinin təhlükəsiz aparılmasının vahid qaydalarına uyğun olaraq həmin işləri aparan müəssisə (təşkilat) tərəfindən tələb olunan materiallar təqdim edildikdən sonra verilməlidir.

Beləliklə, təbii qazı nəql edən magistral boru kəmərlərinin mühafizə zonalarında tikinti və quraşdırma işləri yalnız Dövlət Neft Şirkətinin və onun yerli orqanlarının **yazılı razılığı əsasında** həyata keçirildikdə qanuni olacaqdır. Belə razılıq olmadıqda görülən işlər qanunsuz olacaqdır və müvafiq tərkib əlamətləri olduqda CM-in 222-2-ci maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyəti yaranacaqdır.

7. **Neft və neft məhsulları nəql edən magistral boru kəmərlərinin, habelə neft buruqlarının mühafizə zonaları** SSRİ dövründən qüvvədə olmuş norma və normativlərlə müəyyən edilir. Lakin hazırda milli qanunvericiliyimizdə bu münasibətləri tənzimləyən normativ aktın olmaması bir sıra çətinliklər yaradır.

Odur ki, neft borularının, neft buruqlarının və bununla bağlı digər obyektlərin mühafizə zonalarının hüdudlarını, ondan istifadə və onun mühafizəsi qay-

dalarını tənzimləyən qanunvericilik aktının qəbul edilməsi zərurəti çoxdan yetişmişdir. Belə bir aktın olmaması CM-in şərh olunan maddəsinin tətbiqində də ciddi problemlər yaradacaqdır.

8. Magistral boru kəmərinin bir növü də ixrac neft boru kəmərləridir. **İxrac neft boru kəmərlərinin mühafizə zonaları** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 noyabr 2004-cü il tarixli, 167 saylı qərarı ilə təsdiq edilmiş «İstismar olunan ixrac neft boru kəmərlərinin mühafizə zonasının müəyyənləşdirilməsi Qaydaları»nda müəyyən edilmişdir. Qaydaların 1.2-ci bəndinə müvafiq olaraq ixrac neft boru kəmərləri yeraltı, yer üzərində, tökmə torpaq altında, yerüstü dayaqlarda, sualtı boru kəmərləri və onlarla bağlı neftin istehlakçıya nəqlini, qəbulunu, təhvilini, boşaldılıb-yüklənməsini təmin edən nasos stansiyaları, neft anbarları və digər texnoloji obyektlərdən ibarət mühəndis qurğularıdır.

Həmin Qaydaların 4-cü bəndinə əsasən ixrac neft boru kəmərlərinin istismarı üçün şərait yaratmaq və onların döşəndiyi şəraitdən asılı olaraq zədələnmə ehtimalının qarşısının alınmasını təmin etmək məqsədi ilə aşağıdakı mühafizə zonaları müəyyənləşdirilir:

ixrac neft boru kəmərlərinin marşrutu boyunca — boru kəməri oxunun hər tərəfindən 50 metrlik məsafədən keçən torpaq sahəsi şərti xətlərlə məhdudlaşdırılır; kənd təsərrüfatı təyinatlı torpaqlarda mühafizə zonası boru kəməri oxunun hər tərəfindən 25 metrlik məsafədən keçən şərti xətlərlə məhdudlaşdırılır;

çoxxətli ixrac neft boru kəmərləri xətləri (marşrutları) boyunca — kənar boru kəmərlərinin oxlarından hər tərəfdən 50 metrlik məsafədən keçən torpaq sahəsi şərti xətlərlə məhdudlaşdırılır; kənd təsərrüfatı təyinatlı torpaqlarda mühafizə zonası kənar boru kəmərlərinin oxlarından hər tərəfdən 25 metrlik məsafədən keçən şərti xətlərlə məhdudlaşdırılır;

su altından keçən boru kəmərinin oxu boyunca — sahilin hər iki tərəfindən 25 metr, çoxxətli boru kəmərlərinin boyunca kənar kəmərlərin oxlarından hər tərəfə 100 metrlik məsafədə, su səthindən dibinə qədər mühafizə sahəsi təşkil edilir;

fövqəladə hallarda içərisinə neftin, neft məhsullarının buraxılması üçün xüsusi anbarların ətrafı — bu obyektlərin sərhədlərindən hər tərəfə 50 metrlik məsafədə yerləşən torpaq sahəsi şərti xətlə məhdudlaşdırılır;

əsas və aralıq vurma, doldurma stansiyalarının, rezervuar parklarının, doldurma və boşaltma estakadalarının və körpülərinin, neftin və neft məhsullarının qızdırılması məntəqələrinin ətrafında göstərilən obyektlərin sərhədlərindən hər tərəfə 100 metrlik məsafədə yerləşən torpaq sahəsi şərti xətlə məhdudlaşdırılır.

Adı çəkilən Qaydaların 5.1-ci bəndi mühafizə zonasında İqtisadiyyat Nazirliyinin (istismarçı təşkilatın rəyini almaqla) rəsmi icazəsi olmadan aşağıdakıların edilməsini qadağan edir:

bina və qurğuların tikintisi;

ağac və kolların əkilməsi, quru otların və küləşin tayalanması, at bağlanan yerlərin təşkil edilməsi, mal-qara saxlanması, balıq saxlamaq üçün sahələrin ayrılması, balıq ovu və eləcə də başqa su heyvanlarının və bitkilərinin yetişdirilib istehsalının həyata keçirilməsi,

heyvanların suvarılma yerlərinin təşkil edilməsi, buzun parçalanması işlərinin həyata keçirilməsi;

boru kəmərləri marşrutu üzərində keçidlərin tikilməsi, yolların salınması, avtomobil nəqliyyatı vasitələri, traktorlar və mexanizmlər üçün dayanacaqların təşkil edilməsi;

meliorasiya məqsədləri üçün torpaq işlərinin həyata keçirilməsi, suvarma və qurutma sistemlərinin tikintisi;

hər cür mədən, tikinti-quraşdırma, geoloji çəkiliş, axtarış, geodeziya və quyuların, şurfların qazılması, qrunt nümunələrinin (torpaq nümunələrindən başqa) götürülməsi ilə əlaqədar digər tədqiqat işlərinin həyata keçirilməsi.

Beləliklə, ixrac neft boru kəmərlərinin mühafizə zonalarında İqtisadiyyat Nazirliyinin (istismarçı təşkilatın rəyini almaqla) rəsmi icazəsi olmadan tikinti və quraşdırma işlərinin aparılması qanunsuz olacaqdır və müvafiq tərkib əlamətləri olduqda CM-in 222-2-ci maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyəti yaranacaqdır.

9. Şərh edilən maddə üzrə cinayət məsuliyyəti həm də qanunsuz tikinti və quraşdırma işləri **gərginliyi 1000 voltdan artıq olan elektrik şəbəkələrinin mühafizə zonalarında** həyata keçirildikdə yaranır. Belə mühafizə zonalarının hüdudları, ondan istifadə qaydaları və CM-in şərh olunan maddəsinin tətbiqi ilə bağlı başqa məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmiş «Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları»nda müəyyən edilmişdir.

Həmin Qaydaların 5-ci bəndinə əsasən elektrik şəbəkələrinin mühafizə zonaları aşağıdakı kimi müəyyən edilir:

a) hava elektrik ötürücü xətləri boyunca kənar naqillərin meyl etməmiş vəziyyətində hər iki tərəfdən şaquli müstəvilərlə məhdudlaşan torpaq sahəsi və hava fəzası şəklində, aşağıdakı cədvəldə göstərilən məsafələrdə:

Un, kV	1-20	35	110	150	220	330-500
L, m	10	15	20	25	25	30

(burada Un, kV — xətlərin gərginliyi; L, m — məsafələrdir)

b) yeraltı elektrik ötürücü kabel xətləri boyunca, kənar kabellərin hər iki tərəfindən 1 m aralıda yerləşən, şaquli müstəvilərlə məhdudlaşan torpaq sahəsi;

c) sualtı elektrik ötürücü kabel xətləri boyunca, kənar kabellərin hər iki tərəfindən 100 m aralıda yerləşən, şaquli müstəvilərlə məhdudlaşan, suyun səthindən dibinə qədər olan su boşluğu;

ç) hava elektrik ötürücü xətlərinin su hövzələrindən (çaylar, kanallar, göllər və s.) keçidi boyunca, gəmiçilik üçün yararlı hövzələrdə kənar naqillərin yellənməyən vəziyyətində hər iki tərəfdən 100 m aralıda yerləşən şaquli müstəvilərlə məhdudlaşan su hövzəsinin səthindəki hava məkanı, gəmiçilik üçün yararlı olmayan hövzələrdə isə hava elektrik ötürücü xətlərinin mühafizə zonalarının müəyyən edilməsi üçün nəzərdə tutulmuş məsafə.

Qaydaların 12-ci bəndinə əsasən elektrik şəbəkələrinin mühafizə zonalarında həmin şəbəkələrin istismarçılarının və yaxud mülkiyyətçilərinin rəsmi ra-

zılığı olmadan aşağıda göstərilən işlərin yerinə yetirilməsi qadağandır: a) binaların və qurğuların tikintisi, quraşdırılması, təmiri, yenidən qurulması və sökülməsi; b) hər növ dağ-mədən işləri, yükləmə-boşaltma (dənizdə, çayda, göldə və s.), dibdərinlətmə, torpaqqazma, partladılma, meliorasiya işlərinin görülməsi, ağac və kol əkilməsi, qırılması, budanması, çöl düşərgələrinin qurulması, mal-qaranın yerləşdirilməsi, çəpər çəkilməsi, üzümlük və bağlar üçün dayaqların quraşdırılması, kənd təsərrüfatı bitkilərinin suvarılması; c) sualtı kabel elektrik ötürücü xətlərinin mühafizə zonalarında sudibi ov alətləri ilə balıq və digər su heyvanlarının ovlanması, bitkilərin yığılması və məhv edilməsi, heyvanların suvarılması üçün suvatlar qurulması; ç) hava elektrik ötürücü xətlərinin mühafizə zonalarında ümumi hündürlüyü yol səthindən 4,5 m-dən artıq olan maşın və mexanizmlərin keçməsi; d) yeraltı kabel elektrik ötürücü xətlərinin mühafizə zonalarında 0,3 m-dən artıq, şumlanan torpaqlarda isə 0,45 m-dən artıq dərinlikdə torpaq işlərinin aparılması və planlaşdırılması.

10. **Metropolitenin və müdafiə obyektlərinin mühafizə zonalarında** da qanunsuz tikinti və quraşdırma işlərinin həyata keçirilməsi şərh edilən cinayət tərkibinin obyektiv cəhətini yaradır. Burada **metropoliten** dedikdə Bakı metropoliteninin stansiyaları, keçidləri, tunelləri, habelə başqa yeraltı və yerüstü qurğu və tikililəri başa düşülməlidir. **Hərbi obyektlər** dedikdə isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinə və Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq yaradılmış digər silahlı birləşmələrə məxsus, müxtəlif təyinatlı stasionar tikililər, qurğular, xüsusi ərazilər (hərbi hissələrin əraziləri, kazarmalar, poliqonlar, sınaq meydançaları, aerodromlar, liman qurğuları və s.) başa düşülməlidir. Qeyd etmək lazımdır ki, ölkəmizin milli qanunvericiliyində nə metropolitenin, nə də müdafiə obyektlərinin mühafizə zonaları ilə bağlı məsələləri tənzimləyən qanunvericilik qəbul edilməmişdir. Odur ki, CM-in şərh edilən maddəsinin tətbiqini asanlaşdırmaq üçün müvafiq qanunvericilik aktlarının qəbul edilməsi zəruridir.

11. **Dəmir yolu qurğularının mühafizə zonalarının** tərkib hissələri, onların hüdudları və onlardan istifadə qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 fevral 2005-ci il tarixli, 33 saylı qərarı ilə təsdiq edilmiş «Dəmir yolu nəqliyyatı təyinatlı torpaqlardan və dəmir yolunun xüsusi mühafizə zonasına aid torpaqlardan istifadə olunması Qaydaları»nda müəyyən edilmişdir. Qaydaların 2-ci bəndinə əsasən **dəmir yolu qurğularının mühafizə zonaları** aşağıdakı tərkib hissələrindən ibarətdir:

xüsusi mühafizə zonası uçqun, sürüşmə, sel suları və digər təbii təsirlərin təhlükəsi olan yerlərdə dəmir yol nəqliyyatı obyektlərinin mühafizəsi məqsədi ilə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinə və ya həmin təbii təsirlərin təhlükəsi olan yerlərdə dalan yollarının mühafizəsi üçün başqa təşkilatlara, müəssisələrə və ya idarələrə verilmiş dəmir yol nəqliyyatı təyinatlı torpaqlardır;

təhkim zolağı dəmir yolunun mühafizə zonasına aid olan və dəmir yol xətlərinin torpaq yatağına bitişən, dəmir yol nəqliyyatının təhlükəsiz fəaliyyət göstərməsi məqsədi ilə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinə və ya başqa təşkilatlara, müəssisələrə və ya idarələrə verilmiş dəmir yol

nəqliyyatı təyinatlı torpaqlardır;

sanitariya-mühafizə zonası yaşayış məntəqələrində əhalinin təhlükəsizliyinin təmin olunması, dəmir yol nəqliyyatı obyektlərinin istismarına lazımi şərait yaradılması üçün həmin obyektlərin ətrafında yaradılan xüsusi hüquqi rejimli mühafizə zonasıdır.

Təhkim zolağının və sanitariya-mühafizə zonasının ölçüləri dəmir yolları üçün və dəmir yolunun sanitariya-mühafizə zonası üçün torpaqayırma normalarına, müvafiq tikinti normalarına və layihələndirmə qaydalarına uyğun olaraq müəyyən edilir (Qaydaların 4-cü bəndi). Xüsusi mühafizə zonasının ölçüləri isə hər bir konkret obyekt üçün ayrıca olaraq müvafiq tikinti normalarına və layihələndirmə qaydalarına uyğun müəyyən edilir (Qaydaların 5-ci bəndi).

Dəmir yolunun mühafizə zonasında tikinti və quraşdırma işlərinin aparılması da həmin ərazinin hüquqi rejimindən asılı olaraq müəyyən edilmişdir. Belə ki, adı çəkilən Qaydaların 15-ci bəndində **xüsusi mühafizə zonası hüdudlarında** yalnız dəmir yol obyektlərinin möhkəmliyi və dayanıqlığının təmin edilməsinə yönəldilmiş işlərin görülməsi mümkün hesab edilmişdir. Həmin Qaydalarda nəzərdə tutulmuş fəaliyyət istisna olmaqla, xüsusi mühafizə zonası ərazisində hər hansı digər təsərrüfat fəaliyyəti qadağan edilir.

Qaydaların 16-cı bəndində deyilir ki, dəmir yolunun **sanitariya-mühafizə zonasında** torpaq sahələri onların mülkiyyətçiləri və ya istifadəçiləri tərəfindən yalnız bostan və tərəvəz becərilməsi, habelə örüş və ot çalını məqsədləri üçün fiziki və ya hüquqi şəxslərə qısamüddətli istifadəyə verilə bilər.

Təhkim zolağı hüdudlarında müəyyən obyektin yerləşdirilməsinə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin razılığı ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmi icazə verilə bilər (Qaydaların 17-ci bəndi).

Deməli, dəmir yolunun **xüsusi mühafizə zonası hüdudlarında və sanitariya-mühafizə zonasında** dəmir yolu üçün zəruri olan obyektlərin inşasından başqa istənilən digər tikinti və quraşdırma işləri, dəmir yolunun **təhkim zolağı hüdudlarında isə** Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin razılığı olmadan aparılan tikinti və quraşdırma işləri qanunsuz olacaqdır və müvafiq tərkib əlamətləri olduqda CM-in 222-2-ci maddəsi üzrə cinayət məsuliyyəti yaradacaqdır.

12. CM-in 222-2-ci maddəsində nəzərdə tutulmuş **avtomobil yollarının mühafizə zonası** ilə bağlı məsələlər Azərbaycan SSR Nazirlər Sovetinin «Azərbaycan SSR ərazisində avtomobil yollarından və yol qurğularından istifadə olunması, onların qorunması qaydalarını təsdiq etmək haqqında» 1989-cu il 17 noyabr tarixli, 461 nömrəli qərarına müvafiq olaraq tənzimlənir. Həmin Qərara, habelə «Azərbaycan Respublikasının avtomobil yollarında təhkim və mühafizə zolağından istifadənin tənzimlənməsinə dair əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2004-cü il tarixli, 18 saylı Qərarına əsasən respublika əhəmiyyətli avtomobil yollarında 60 metr, yerli əhəmiyyətli avtomobil yollarında isə 25 metr enində ərazi mühafizə zonası hesab edilir və həmin ərazidə tikinti və quraşdırma işləri yalnız Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Daxili

İşlər Nazirliyinin razılığı (icazəsi) ilə mümkündür.

13. CM-in şərh edilən maddəsində **su təchizatı sistemi** dedikdə suyu mənbədən götürən, təmizləyən və istehlakçıya çatdıran bir və ya bir qrup qurğu, o cümlədən magistral (ümumiləşdirilmiş) və paylayıcı (daxili) su kəmərləri (xətləri) şəbəkəsi, **kanalizasiya sistemi** dedikdə isə yaşayış məntəqəsində və ya sənaye müəssisələrinin fəaliyyəti nəticəsində əmələ gələn tullantı sularını tullantı təmizləyən məntəqəyə nəql etdirən şəbəkə başa düşülür («Su təchizatı və tullantı suları haqqında» Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununun 1-ci maddəsi).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli, 109 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısı, mühafizə rejimi və təhlükəsizliyi üzrə Təsnifatı»nın 3.1-ci bəndinə əsasən **su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğuları** hidrotexniki qurğuların bir növüdür. Ona görə də **su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının mühafizə zonaları ilə bağlı məsələlər də** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli, 109 nömrəli qərarı ilə təsdiq edilmiş «Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları» ilə tənzimlənir.

Göstərilən Qaydaların 6-cı bəndində **hidrotexniki qurğuların mühafizə zonalarının hüdudları** müəyyən edilmişdir. Qaydaların 5-ci bəndinə əsasən hidrotexniki qurğuların mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi onların təhlükəsizliyi üzrə təsnifatından asılı olaraq aidiyyəti üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən müəyyən edilir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Qaydaların 9-cu bəndində isə deyilir ki, şəhərlərin və digər yaşayış məntəqələrinin ərazilərində hidrotexniki qurğuların mühafizə zonalarının ölçüləri və sərhədləri planlaşdırma və tikinti şəraitindən asılı olaraq təsdiq olunmuş baş planlara əsasən müəyyən edilir.

«Su təchizatı və tullantı suları haqqında» Azərbaycan Respublikası Qanununun 70-ci maddəsinə əsasən su təchizatı və kanalizasiya müəssisəsinin rəsmi (yazılı) icazəsi olmadan su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının ətrafında müəyyən olunmuş ərazilər hüdudlarında, həmçinin su kəmərləri və kanalizasiya sistemlərinə aid olan magistrallardan, boru kəmərlərindən və digər texniki qurğulardan beş metrdən az olan məsafədə hər hansı torpaq və tikinti işlərini yerinə yetirmək qadağan edilir.

Beləliklə, su təchizatı və kanalizasiya müəssisəsinin rəsmi (yazılı) icazəsi olmadan su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının mühafizə zonalarında tikinti və quraşdırma işlərinin aparılması müvafiq tərkib əlamətləri olduqda CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyəti yaradacaqdır.

14. Qanunsuz tikinti və quraşdırma işləri **suların mühafizə zonalarında** aparıldıqda da CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olur. Suların mühafizə zonalarının hüdudları, onlardan istifadə qaydaları və

başqa bu kimi məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli, 56 nömrəli qərarı ilə təsdiq edilmiş «Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları» ilə tənzimlənir. Həmin Qaydaların 5-ci bəndinə əsasən su mühafizə zonalarının və sahil mühafizə zolaqlarının ölçüləri, sərhədləri və istifadəsi onların fiziki-coğrafi, torpaq, hidroloji və sair şəraitindən asılı olaraq, su obyektlərinin sahil xəttinin dəyişməsi proqnozu nəzərə alınmaqla Dövlət Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılaraq müəyyən edilir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Qaydaların 8-12-ci bəndlərində çayların, göllərin, su anbarlarının, bataqlıqların, magistral və təsərrüfatlararası kanalların və kollektorların mühafizə zonalarının hüdudları müəyyən edilmişdir.

Azərbaycan Respublikası Su Məcəlləsinin 83-cü maddəsinə əsasən su mühafizə zonalarında yerləşən torpaq sahələri fiziki və hüquqi şəxslərin istifadəsinə Azərbaycan Respublikasının torpaq qanunvericiliyi və Su Məcəlləsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla verilə bilər.

«Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları»nın 22-ci bəndinə əsasən su obyektlərinin istifadəsi və mühafizəsinə nəzarət orqanı (Azərbaycan Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur) ilə razılaşdırılmış layihə sənədləri olmadan faydalı qazıntıların, boru, kabel və digər kommunikasiyaların çəkilməsi, ictimai-iaşə və digər xidmət müəssisələrinin yerləşdirilməsi, tikinti, quraşdırma, partlayış, torpaq qazma, buruq qazma və digər işlərin aparılması qadağan edilir.

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su mühafizə zonası ilə bağlı münasibətlər xüsusi qaydada tənzimlənir. Belə ki, «Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları»nın 6-cı bəndinə əsasən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su mühafizə zonasının, sahil mühafizə zolağının ölçüləri, sərhədləri və istifadəsi rejimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

15. Yuxarıda sadalanan mühafizə zonalarında tikinti və ya quraşdırma işlərinin aparılmasının müvafiq icazə almadan həyata keçirilməsi ilə əlaqədar nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin «Magistral boru kəmərlərinin, körpülərin, hidrotexniki qurğuların və yüksək gərginlikli elektrik hava xətlərinin mühafizəsinin gücləndirilməsinə dair bəzi tədbirlər barədə» 20 avqust 2008-ci il tarixli, 191 saylı Qərarına əsasən həmin qərarın qəbul edildiyi tarixdən neft və qaz boru kəmərlərinin, yüksək gərginlikli elektrik hava xətlərinin, körpülərin və hidrotexniki qurğuların mühafizəsi, onların təhlü-

kəsiz və etibarlı istismarı üçün normal şəraitin yaradılması və baş verə biləcək hadisələrin qarşısının alınması məqsədi ilə çay keçidlərinin yuxarı və aşağı axarları boyunca 500 metrlik məsafədə **faydalı qazıntıların, partlayışların, torpaq qazma işlərinin aparılması, çay yatağı materiallarının çıxarılması** üçün aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən **torpaq sahələrinin ayrılması, lisenziya və icazələrin verilməsi** dayandırılmışdır.

16. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhətinin daha bir zəruri əlaməti göstərilən mühafizə zonalarında **Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icazə almadan** tikinti və quraşdırma işlərinin aparılmasıdır. Başqa sözlə, həmin yerlərdə tikinti və quraşdırma işləri **qanunsuz** aparıldıqda cinayət məsuliyyəti yaranacaqdır.

17. Tikinti işlərinin anlayışı CM-in 222-ci maddəsinin şərhində verilmişdir.

Quraşdırma işləri də tikinti işlərinin bir növü olub, müxtəlif təyinatlı və müxtəlif xarakterli qurğuların, tikililərin və başqa stasionar obyektlərin inşa edilməsi kimi başa düşülməlidir. Nəzərə almaq lazımdır ki, yalnız stasionar obyektlərin quraşdırılması təhlil edilən cinayətin obyektiv cəhətini yarada bilər (məsələn, bir neçə saatlıq dincəlmək üçün adı çəkilən obyektlərdən birinin mühafizə zonasında çadır qurulması təhlil edilən cinayət tərkibini yaratmayacaqdır).

18. Tikinti və quraşdırma işləri qanunsuz, yəni **müvafiq icazə olmadan** aparıldıqda təhlil edilən cinayət tərkibini yaradacaqdır. CM-in şərh edilən maddəsində adı çəkilən obyektlərin mühafizə zonasında tikinti və digər işlərin aparılmasına icazənin verilməsi qaydası, bu icazəni vermək səlahiyyəti olan orqanlar yuxarıda təhlil etdiyimiz normativ hüquqi aktlarda müəyyən edilmişdir (şərhin əvvəlki bəndlərinə bax). **Müvafiq icazənin olmaması** dedikdə tikinti və quraşdırma işlərini aparan şəxsin həmin orqanlardan heç bir icazə almaması və ya buna səlahiyyəti olmayan orqandan (vəzifəli şəxsdən) icazə alması, yaxud saxta icazədən istifadə etməsi başa düşülməlidir. Qeyd etmək lazımdır ki, icazənin saxta olması və ya buna səlahiyyəti olmayan orqan (vəzifəli şəxs) tərəfindən verilmiş olması tikinti və quraşdırma işlərini aparan şəxs üçün o halda CM-in şərh edilən maddəsi üzrə cinayət məsuliyyəti yaradacaqdır ki, həmin şəxs icazənin saxta və ya qanunsuz olduğunu bilsin. Belə saxta və ya qanunsuz icazəni vermiş vəzifəli şəxs isə müvafiq əlamətlər olduqda CM-in 314-2-ci maddəsi üzrə cinayət məsuliyyəti daşıyacaqdır.

19. Adı çəkilən obyektlərin mühafizə zonasında tikinti və quraşdırma işləri müvafiq icazə olmadan aparıldıqda, həmin tikinti və quraşdırma işləri üçün ümumi icazənin (CM-in 222-1-ci maddəsinin şərhinə bax) olub-olmamasından asılı olmayaraq, CM-in şərh edilən maddəsi üzrə cinayət məsuliyyəti yaranacaqdır. Ümumiyyətlə, CM-in 222-1-ci və 222-2-ci maddələri arasında rəqabət yarandıqda 222-2-ci maddə tətbiq edilməlidir, çünki həmin maddə 222-1-ci maddəyə nisbətən **xüsusi normadır**. Qanunsuz tikinti və quraşdırma işlərinin aparıldığı yer eyni zamanda bir neçə obyektin mühafizə zonası olduqda da cinayətlərin məcmusundan söhbət gedə bilməz və şəxsin əməli vahid cinayət tərkibini yaradacaqdır.

20. CM-in 222-2.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməli **formal tərkib** kimi təsvir edilmişdir. Ona görə də qeyd olunan obyektlərin mühafizə zonasında tikinti və quraşdırma işləri **həyata keçirilməyə başlandığı andan** cinayət başa çatmış hesab ediləcəkdir.

21. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayət əməli **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Şəxs adı çəkilən obyektlərin mühafizə zonasında müvafiq icazə almadan tikinti və quraşdırma işləri apardığını bilir və bunu arzu edir. Əgər şəxs tikinti və quraşdırma işləri apardığı yerin mühafizə zonası olduğunu bilmirsə, onun əməlində CM-in 222-2-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibi olmayacaqdır. Şərh olunan cinayət əməlinin subyektiv cəhətinin düzgün müəyyən edilməsi üçün mühafizə zonalarının hüdudlarını müəyyən edən xüsusi nişanların olub-olmamasına, tikinti və quraşdırma işləri aparmaq istəyən şəxslərin xəbərdar edilib-edilməməsinə xüsusi diqqət yetirilməlidir.

22. Təhlil edilən cinayət əməlinin **subyekti** 16 yaşına çatmış, istənilən anlaqlı fiziki şəxs ola bilər.

23. CM-in 222-2.2-ci maddəsində şərh edilən cinayət əməlinin **ağırlaşdırıcı tərkib əlaməti** qismində həmin əməlin **ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olması** göstərilmişdir. Burada ağır nəticə dedikdə insanların sağlamlığına ağır və az ağır zərərin yetirilməsi, insan ölümü, vətəndaşlara, dövlətə və ayrı-ayrı hüquqi şəxslərə mühüm maddi ziyanın dəyməsi, ətraf mühitə ciddi zərərin yetirilməsi, sənaye müəssisələrinin, nəqliyyatın, müxtəlif kommunikasiyaların fəaliyyətinin əhəmiyyətli dərəcədə pozulması, su, enerji təminatının ciddi surətdə pisləşməsi və ya pozulması və s. aid edilə bilər. Ümumiyyətlə, ağır nəticələr qiymətləndirilən anlayışdır və hər bir halda məhkəmə tərəfindən müəyyən edilməlidir.

Subyektin baş vermiş ağır nəticələrə psixi münasibəti **ehtiyatsızlıq** formasında olmalıdır. Əks təqdirdə, yəni qəsd olduqda şəxsin əməli cinayətlərin məcmusu üzrə – CM-in 222-2.2-ci maddəsində nəzərdə tutulmuş cinayət və şəxsiyyət, mülkiyyət əleyhinə və s. konkret cinayət əməllərinin məcmusu kimi tövsif ediləcəkdir.

Maddə 222-3. Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin dayandırılması barədə dövlət orqanlarının qərarlarını qərəzli olaraq icra etməmə

Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını qərəzli olaraq icra etməmə —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə əlavə edilmişdir - «Azərbaycan» q., 28 oktyabr 2007-ci il).*

1. CM-in 222-3-cü maddəsində nəzərdə tutulan cinayətin **ictimai təhlükəliliyi** tikinti, yenidən planlaşdırma, yenidənqurma, mövcud tikililərin konstruksi-

yalarında dəyişiklik aparılması işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarının, bu işləri yerinə yetirən şəxslər tərəfindən qəsdən icra edilməməsinin insanların həyat və sağlamlığı, mülkiyyət və s. üçün real zərər yetirilməsi təhlükəsinin yaratmasında ifadə olunur.

2. CM-in şərh olunan maddəsində təsvir edilən cinayətin **obyekti** tikinti, yenidən planlaşdırma, yenidənqurma, mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin qanunvericiliklə müəyyən olunmuş qaydalara uyğun aparılmasını təmin edən ictimai münasibətlərdir. Bu cinayətin **əlavə obyektini** insanların həyat və sağlamlığı, habelə mülkiyyət münasibətləri təşkil edir.

3. Bu cinayət **obyektiv cəhətdən** qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını qərəzli olaraq **icra etməmədə** ifadə olunur. Şərh olunan cinayət **hərəkətsizliklə** törədilir. Tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin dayandırılması barədə müvafiq dövlət orqanının qərarını icra etməli olan şəxs tərəfindən həmin qərarın yerinə yetirilməməsindən ibarət olan **hərəkətsizlik** CM-in 222-3-cü maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

4. Tikinti işlərinin anlayışı CM-in 222-ci maddəsinin şərhinin 3-cü bəndində, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin anlayışı isə CM-in 222-1-ci maddəsinin şərhinin 9-11-ci bəndlərində verilmişdir.

5. CM-in 222-3-cü maddəsində nəzərdə tutulan cinayət tərkibi **blanket** dispozisiyalıdır. Bu maddə ilə əməlin tövsifi zamanı istinad edilməli olan normativ hüquqi aktların siyahısı CM-in 222-1-ci maddəsinin şərhinin 4-cü bəndində verilmişdir. Həmin aktlardan başqa Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar»ın təsdiq edilməsi barədə» 4 oktyabr 2007-ci il tarixli, 154 saylı Qərarına da istinad edilməlidir. Həmin qərar yalnız Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması hallarını nəzərdə tutur.

6. CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyətinin yaranması üçün tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işləri qanunvericiliklə müəyyən olunmuş qaydalar **pozulmaqla** həyata keçirilməlidir. Qanunvericiliklə müəyyən olunmuş qaydaların pozulması ilə tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması iki halda ola bilər: 1) **qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan, yaxud bu barədə onları məlumatlandırmadan** tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin aparılması; 2) müvafiq icra hakimiyyəti orqanlarının razılığı alınsa da, **yaxud bu barədə onlar məlumatlandırılsa da qanunvericiliklə müəyyən olunmuş tikinti norma və qaydalarına riayət edilmədən** tikinti,

yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin aparılması.

7. Tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin aparılmasına qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığının alınmasına, **yaxud bu barədə onların məlumatlandırılmasına** dair CM-in 222-1-ci maddəsinin şərhinin 5-7-ci bəndlərinə bax.

8. **Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin aparılması** dedikdə şəhər və digər yaşayış məskənlərinin inkişafının planlaşdırılması, onların torpaqlarından təyinatı üzrə və səmərəli istifadə olunması, qorunması, tikintisi və yenidən qurulmasında şəhərsalma norma və qaydalarına əməl olunmaması, mülkiyyət forması və mənsubiyyətindən asılı olmayaraq, şəhərsalma obyektlərinin tikintisi və yenidənqurulması üzrə tərtib olunmuş layihə sənədləri və görülmüş tikinti işlərinin müvafiq tikinti norma, qayda və standartlarına, tikinti aparılmasına və başlanmasına verilən icazə sənədlərinin tələblərinə uyğun olmaması, tikintidə istifadə olunan tikinti materiallarının, konstruksiyalarının və avadanlıqlarının müvafiq sertifikatlarının olmaması, onların dövlət standartlarının tələblərinə cavab verməməsi, müəyyən olunmuş qaydada istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməməsi, tikinti və tikinti ətrafı ərazilərdə təhlükəsizlik tələblərinə əməl olunmaması və s. başa düşülməlidir.

9. CM-in şərh olunan maddəsi üzrə cinayət məsuliyyətinin yaranması üçün qanunvericiliklə müəyyən olunmuş qaydaların **hər iki halda** (qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan və ya onlara bu barədə məlumat vermədən tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin aparılması; müvafiq icra hakimiyyəti orqanlarının razılığı alınsa da və ya onlara məlumat verilsə də, qanunvericiliklə müəyyən olunmuş tikinti norma və qaydalarına riayət edilmədən tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin aparılması) pozulması ilə həyata keçirilən tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin **dayandırılması barədə** müvafiq dövlət orqanının qərarı olmalıdır.

CM-in 222-3-cü maddəsinin dispozisiyasında **müvafiq dövlət orqanları** dedikdə tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin dayandırılması barədə qərar qəbul etmək səlahiyyətinə malik olan orqanlar başa düşülməlidir. Həmin **dövlət orqanlarının səlahiyyətlərini** Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyi həyata keçirirlər (Azərbaycan Respublikası Prezidentinin 22 may 2015-ci il tarixli, 533 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Tikinti işlərinin dayandırılması Qaydası»nın 1.3-1.4-cü bəndləri).

10. Tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konst-

ruksiyalarında dəyişiklik aparılması işlərinin **dayandırılması barədə müvafiq dövlət orqanları tərəfindən qərar** tikinti işlərinin həyata keçirilməsi zamanı aşağıdakı pozuntu halları aşkar edildikdə qəbul edilə bilər: 1) tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyekti belə icazə alınmadan tikildikdə; 2) tikinti obyektinin təhlükəsizliyinə və etibarlılığına təhlükə yaradan qüsurlar müəyyən edildikdə və həmin qüsurları digər tikinti işlərini dayandırmadan aradan qaldırmaq mümkün olmadıqda; 3) tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyekti belə icazə alınmadan tikildikdə və müəyyən edilən pozuntularla bağlı təqdim edilmiş ilk yazılı Göstərişdə nəzərdə tutulan pozuntular ən geci 4 (dörd) ay müddətində aradan qaldırılmadıqda; 4) tikinti obyektinin təhlükəsizliyinə və etibarlılığına təhlükə yaradan qüsurlar müəyyən edildikdə və həmin qüsurları digər tikinti işlərini dayandırmadan aradan qaldırmaq mümkün olmadıqda və müəyyən edilən pozuntularla bağlı təqdim edilmiş ilk yazılı Göstərişdə nəzərdə tutulan pozuntular ən geci 1 (bir) il müddətində aradan qaldırılmadıqda; 5) 3-cü və 4-cü bəndlərdə müəyyən edilən pozuntularla bağlı təqdim edilmiş ilk yazılı Göstərişdə nəzərdə tutulan pozuntular ən geci 1 (bir) ay müddətində aradan qaldırılmadıqda.

Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyi sadalanan pozuntularla bağlı texniki baxış aktı əsasında, onun tərtib edildiyi gündən 4 (dörd) iş günü müddətində tərəfindən tikinti işlərinin dayandırılması barədə qərar tərtib edir. Həmin qərar Agentliyin rəhbərliyi tərəfindən imzalanır və möhürlə təsdiq edilir («Tikinti işlərinin dayandırılması Qaydası»nın 3.1, 3.3 və 3.4-cü bəndləri).

11. Şərh olunan cinayət **formal** tərkiblidir və qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını icra etməmə anından başa çatmış sayılır. Tikinti işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını icra etməmənin cinayət məsuliyyəti yaradan hər hansı ictimai təhlükəli nəticəyə səbəb olması hallarında təqsirkarın əməli **cinayətlərin məcmusu** qaydasında tövsif edilməlidir. Qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan və ya onlara bu barədə məlumat vermədən tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik işlərinin insanların həyat və sağlamlığı üçün real təhlükə yaratması (CM-in 222-1.1-ci maddəsi), yaxud ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulmasına (CM-in 222-1.2-ci maddəsi) və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması (CM-in 222-1.3-cü maddəsi) hallarında həmin işləri həyata keçirən şəxs həm də sadalanan işlərin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını qərəzli olaraq icra etmədikdə, onun əməli cinayətlərin məcmusu qaydasında CM-in 222-1.1-ci, 222-1.2-ci və ya 222-1.3-cü və 222-3-cü maddələri ilə tövsif edilməlidir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icazə almadan magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında tikinti və ya quraşdırma işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarları qərəzli olaraq icra edilmədikdə də təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 222-2-ci və 222-3-cü maddələri ilə tövsif edilməlidir. Tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulması ilə həyata keçirilən işlərin insanların həyat və sağlamlığı üçün real təhlükə yaratması hallarında həm də sadalanan işlərin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarları qərəzli olaraq icra edilmədikdə təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 222-ci və 222-3-cü maddələri ilə tövsif edilməlidir.

12. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** formasında törədilir. Təqsirkar qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti, yenidən planlaşdırma, yenidənqurma və mövcud tikililərin konstruksiyalarında dəyişiklik aparılması işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını icra etməkdən imtina etdiyinin ictimai təhlükəli olduğunu görür və belə hərəkət etməyi arzu edir.

13. CM-in 222-3-cü maddəsində nəzərdə tutulan cinayətin **subyekti** 16 yaşına çatmış və maddənin dispozisiyasında sadalanan işlərinin dayandırılması barədə müvafiq dövlət orqanlarının qərarlarını icra etməyə borclu olan şəxslər ola bilər.

Maddə 223. Partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma

223.1. Partlayış təhlükəli obyektlərdə və ya partlayış təhlükəli sexlərdə təhlükəsizlik qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

223.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **obyekti** partlayış təhlükəli müəssisələrin (obyektlərin, sexlərin) işinin təhlükəsizliyinin təmin olunması ilə bağlı olan ictimai münasibətlərdir. Nəzərdən keçirilən cinayət əməlinin **əlavə obyekti** qismində insanların həyat və sağlamlığı, bir sıra hallarda həm də mülkiyyət çıxış edir.

2. Bu cinayətin **obyektiv cəhəti** partlayış təhlükəli obyektlərdə və ya partlayış təhlükəli sexlərdə təhlükəsizlik qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olmasında ifadə olunur.

3. **Partlayış təhlükəli obyektlərə** texnoloji prosesin gedişində partlayış təhlükəli qarışıqların və birləşmələrin (məsələn, yanar qazların və ya buxarların hava, oksigen ilə qarışığı) yarandığı müəssisələr, sexlər aid edilir. Müəssisə özü bütövlükdə və ya onun ayrı-ayrı sexləri partlayış təhlükəli ola bilər. Belə müəssisələrdə ammonyak, aseton, benzin, butan, metan, spirt, efir və sair partlayış təhlükəli maddələrdən istifadə olunur. Partlayış təhlükəli müəssisələrə, məsələn, kömür, kükürd və sulfit tozunun partlayış təhlükəsi olan, kömürün və qazın gözlənilməz alışmasına meylli olan şaxtalar (quyular), neft çıxaran və neft emal edən müəssisələr, kimya sənayesinin bəzi müəssisələri, partlayıcı maddələr (məsələn, barıt, döyüş sursatı) istehsal edən bütün müəssisələr aid edilir. Obyektin (sexin) partlayış təhlükəli olub-olmaması baş vermiş nəticələrin xarakteri ilə deyil, texnoloji reqlamentlə müəyyən olunan istehsalatın partlayış təhlükəliliyi üzrə kateqoriyası və sinfi ilə müəyyən olunur. Buna görə də CM-in 223-cü maddəsində nəzərdə tutulan cinayət işləri üzrə müəssisənin (sexin) müəyyən partlayış təhlükəliliyi kateqoriyasına aid edilməsi haqqında normativ aktların (əmrlərin, əsasnamələrin, reqlamentlərin) surəti olmalıdır.

«Təhlükə potensiallı obyektlərin Siyahısının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 may 2001-ci il tarixli 94 saylı Qərarı ilə partlayış təhlükəli obyektlərin siyahısı müəyyən edilmişdir. Həmin siyahıda, məsələn, partlayıcı, pirotexnik, zəhərləyici, yüksək zəhərləyici, tezalovlanan, tezalışan, oksidləşən və ətraf mühit üçün təhlükəli maddələr üzrə ammonyakın, radioaktiv elementlərin, izotopların və radioaktiv birləşmələrin, nüvə reaktorlarının istifadə olunmuş (işlənmiş) yanacaq elementlərinin, ağır suyun (deyteri oksidi) və s. alınması, istifadə edilməsi, emal olunması, düzəldilməsi, saxlanılması, nəql olunması və məhv edilməsi ilə məşğul olan obyektlər, stasionar şəkildə quraşdırılmış və səyyar yükqaldıran mexanizmləri, eskalatorları, kanat yolları, funikulyorları və liftləri, o cümlədən körpülü, portal və qülləli kranları, vışkaları, sərnişin və yük liftləri, asma sərnişin və yük kanat yolları olan obyektlər, sənaye əhəmiyyətli partlayış işləri aparılan obyektlər və s. təhlükə potensiallı obyektlər sırasına aid edilmişdir.

4. CM-in 223-cü maddəsi blanket dispozisiyalı olduğu üçün cinayət məsuliyyətinə cəlb etmə zamanı təqsirkarın qeyd olunan hərəkətsizlik qaydalarının məhz hansı normasını pozduğunu müəyyən etmək lazımdır.

5. Qaydaların pozulması həm **hərəkətlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Partlayış təhlükəli obyektlərdə istehsalatın təhlükəsizlik qaydaları texnoloji intizama riayət edilməməsi, yəni istehsalat işlərinin aparılması qaydalarından, onların rejimindən kənara çıxma, maddələrin təhlükəsiz qarışıq səviyyəsini aşma və s. nəticəsində pozulur.

6. Partlayış təhlükəli obyektlərdə **təhlükəsizliyi təmin etmə qaydaları** əməyin mühafizəsinin ümumi qaydalarından ibarətdir. Partlayış təhlükəli obyektlərdə və ya partlayış təhlükəli sexlərdə əməyin mühafizəsinin ümumi qaydalarını pozma CM-in 162-ci maddəsi ilə tövsif olunmalıdır. Eyni zamanda həm ümumi, həm də xüsusi qaydaları pozma isə cinayətlərin məcmusu qaydasında CM-in 162-ci və 223-cü maddələri ilə tövsif olunmalıdır.

7. CM-in 223.1-ci maddəsinin dispozisiyasına görə, bu cinayət tərkibinin zəruri əlaməti təhlükəsizlik qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olmasıdır. Belə nəticələrə səbəb olmayan qaydaları cüzi pozma intizam xətası və ya vəzifə cinayətidir (CM-in 314-cü maddəsi).

8. CM-in 223.1-ci maddəsində nəzərdə tutulan cinayət **maddi tərkiblidir** və əməli zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulması anından **başa çatmış** hesab edilir.

9. Bu cinayətdən **zərərçəkmiş** istənilən şəxs, yəni həm partlayış təhlükəli müəssisənin və ya sexin işçisi, həm də kənar şəxs ola bilər.

11. CM-in 223.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində zərərçəkmiş şəxsin ölümünün və ya digər ağır nəticələrin baş verməsi nəzərdə tutulmuşdur.

Digər ağır nəticələr CM-in 222.2-ci maddəsində nəzərdə tutulan nəticələrlə eynidir. Qanunun birbaşa tələbinə görə təqsirkarın belə nəticələrə münasibəti yalnız təqsirin **ehtiyatsızlıq** (özünəgüvənmə və ya etinasızlıq) formasında olmalıdır. Əməlin tövsifi zamanı qaydaların pozulması ilə baş vermiş nəticələr arasında səbəbli əlaqə müəyyən edilməlidir.

12. Bu cinayət **subyektiv cəhətdən** həm pozuntulara, həm də ictimai təhlükəli nəticələrin baş verməsinə münasibətdə ehtiyatsızlıqla xarakterizə olunur. İstənilən halda təqsirkar qeyd olunan ictimai təhlükəli nəticələrin baş verməsi imkanını qabaqcadan görür və kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir, yaxud belə nəticələrin baş verə biləcəyini qabaqcadan görməli olduğu və görə biləcəyi halda bunları görmür.

Belə nəticələr **qəsdən** törədildikdə, əməl şəxsiyyət və ya mülkiyyət əleyhinə olan qəsdən edilən cinayət kimi tövsif olunmalıdır.

13. Bu cinayətin **subyekti** cinayəti törədənədək 16 yaşına çatmış istənilən şəxslər — həm adları çəkilən təhlükəsizlik qaydalarına riayət etməli olan vəzifəli şəxslər və müəssisənin sıravi işçiləri, həm də kənar şəxslər (məsələn, ekskursiyaya gələnlər, təcrübə keçənlər və s.) ola bilər.

Maddə 224. Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozma

Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozma, habelə bu maddələri və məmulatları poçtla və baqajla qanunsuz olaraq göndərmə, həmin əməllər ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olduqda —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Bu cinayətin **bilavasitə obyekti** partlayıcı, tez alışan maddələrlə və ya pirotexniki məmulatla davranış sahəsində ictimai təhlükəsizlikdir. Müəyyən hallarda bu cinayətin **əlavə obyekti** qismində insanların həyatı və sağlamlığı,

habelə mülkiyyət münasibətləri çıxış edir.

2. Bu cinayətin **obyektiv cəhəti** partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını ağır nəticələrə səbəb olan dərəcədə pozmada, habelə bu maddələri və məmulatları poçtla və baqajla qanunsuz olaraq göndərmədə ifadə olunur. Qeyd olunan kriminal əməllərlə baş verən ağır nəticələr arasında səbəbli əlaqə müəyyən edilməlidir.

3. Nəzərdən keçirilən cinayətin **predmeti** partlayıcı və tez alışan maddələr, habelə pirotexniki məmulatdır.

Partlayıcı maddələr dedikdə tezliklə özüyayılan kimyəvi çevrilmə xüsusiyyətinə və partlama qabiliyyətinə malik kimyəvi birləşmələrdən ibarət maddələr başa düşülməlidir. Bunlara trotil, ammonitlər, plastidlər, elastitlər, tüstülü və tüstüsüz barıt, bərk raket yanacağı və s. aiddir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 27 may 2005-ci il tarixli 2 saylı Qərarının 4-cü bəndi).

Tez alışan maddələr dedikdə hava, su, od ilə qarşılıqlı təsirdən və ya digər amillərin təsirindən öz-özünə alışa bilən maddələr, habelə aşağı alovlanma temperaturu ilə fərqlənən maddələr (məsələn, benzin, spirtlər, fosfor, şora, efirlər, kerosin, aseton və s.) başa düşülür.

Pirotexniki məmulat dedikdə hərbi işdə və dinc məqsədlərlə istifadə edilməsi nəzərdə tutulan müxtəlif işıqlandırıcı, yandırıcı, yaxud tüstüləyici qurğular, atəşfəşanlıq qurğuları və s. başa düşülür.

4. CM-in 224-cü maddəsi **blanket** dispozisiyalıdır. Bu maddə ilə məsuliyyətə cəlb etmək üçün qaydaların məhz hansı normasının pozulduğu müəyyən edilməli, habelə adları çəkilən maddələrin poçtla və baqajla göndərilməsi, onların uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını nizama salan normativ aktın adı dəqiq göstərilməlidir.

5. Maddələrin və ya məmulatın partlayıcı, tez alışan və pirotexniki olub-olmadığını müəyyən etmək zərurəti yarandıqda məhkəmə-texniki ekspertiza təyin oluna bilər.

6. Bu cinayət əksər hallarda **fəal hərəkətlərlə** törədilir, lakin bir sıra hallarda **hərəkətsizliklə**, yəni müvafiq normativ aktlarda təsbit edilmiş qaydaları yerinə yetirməmədə də ifadə oluna bilər.

7. CM-in 224-cü maddəsinin dispozisiyasında sadalanan maddələrin və məmulatın **uçotu** dedikdə bu predmetlərin hər hansı növünün və ya sayının, sonradan onların həqiqətən mövcud olmasını planlı və ya operativ surətdə yoxlamaqla, xüsusi qeydiyyat sənədlərinə (kitablar, reyestrlər, məlumatlar və s.) salınması nəzərdə tutulur.

Bu cinayətin predmetlərinin **saxlanması** dedikdə onların oğurlanması, habelə öz-özünə alışması və ya partlaması imkanını aradan qaldıran müvafiq təhlükəsiz şəraitdə qorunması başa düşülür.

Qeyd olunan maddələrin və məmulatın **daşınması** dedikdə onların istənilən nəqliyyat vasitələrindən (həm yük, həm də sərnişin nəqliyyatından) istifadə etməklə bir yerdən başqa yerə aparılması nəzərdə tutulur.

Sadalanan predmetləri poçtla və ya baqajla qanunsuz olaraq göndərmə dedikdə onları rabitə və nəqliyyat orqanlarının icazəsi olmadan istənilən formada, yəni bağlama, banderol və s. şəklində, yaxud baqaj şöbələrində xüsusi müəyyən olunmuş qaydaları pozmaqla hər hansı nəqliyyat vasitəsi ilə yola salma başa düşülür.

8. Şərh olunan cinayət **maddi tərkibli** olduğu üçün ağır nəticələr baş verdiyi andan **başa çatmış** hesab edilir. CM-in 224-cü maddəsinin nəzərdə tutduğu mənada **ağır nəticələr** dedikdə bir və ya bir neçə insanın ölümünün, partlayışın, yanğının baş verməsi, insanların sağlamlığına ağır və ya az ağır zərər vurulması, külli miqdarda maddi zərər vurulması, nəqliyyat, rabitə təşkilatlarının normal işinin uzun müddətə pozulması və s. nəzərdə tutulur.

9. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** yalnız təqsirin **ehtiyatsızlıq** (özünəgüvənmə və ya etinasızlıq) forması ilə xarakterizə olunur. Təqsirkar qanunda göstərilən nəticələrin baş verməsi imkanını qabaqcadan görür, lakin onların qarşısını alacağına kifayət qədər əsaslar olmadan yüngülfikirliliklə ümid edir, yaxud da lazımi diqqət və ya ehtiyatlılıq göstərərək belə nəticələrin baş verə biləcəyi imkanını qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür. Öz-özlüyündə qeyd olunan qaydalar həm şüurlu surətdə, həm də ehtiyatsızlıqdan pozula bilər. Lakin maddi tərkibli cinayətlərdə təqsirin forması bütövlükdə ictimai təhlükəli nəticələrə münasibətə görə müəyyən edilir. Beləliklə, bu cinayət ehtiyatsızlıqdan törədilmiş cinayət sayılır.

CM-in 224-cü maddəsinin nəzərdə tutduğu ağır nəticələrin baş verməsinə təqsirkarın qəsdən törətdiyi hərəkətlər səbəb olduqda, əməl müvafiq olaraq şəxsiyyət və ya mülkiyyət əleyhinə qəsdən edilən cinayət kimi tövsif olunmalıdır.

10. Bu cinayətin **subyekti** cinayəti törədənədək 16 yaşı tamam olmuş şəxs ola bilər. Qeyd olunan predmetləri qanunsuz daşıma və göndərmə zamanı bu cinayətin subyekti qaydalara riayət etməli olan qulluqçular (poçt, nəqliyyat işçiləri), habelə kənar şəxslər (məsələn, sərnişinlər) ola bilər. Göstərilən maddələrin və məmulatın uçotu, saxlanması və istifadə edilməsi qaydalarını pozmanın subyekti isə yalnız belə qaydalara vəzifəsinə və ya peşəsinə görə riayət etməli olan şəxslər ola bilər. CM-in 224-cü maddəsində qeyd olunan maddələrlə davranış qaydalarını pozan hərbi qulluqçunun əməli CM-in 350-ci maddəsi ilə tövsif edilir.

Maddə 224-1. İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) istifadə qaydalarını pozma

Kütləvi qırğın silahlarının, silahların, hərbi texnikanın və sursatların yaradılmasında və hazırlanmasında istifadə oluna bilən ikili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması dövlətin milli təhlükəsizliyi və maraqlarına zərər vurduqda —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 20 sentyabr 2005-ci il tarixli Qanunu ilə əlavə edilmişdir

— «Azərbaycan» q.. 24 noyabr 2005-ci il).

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** onun predmetini təşkil edən yüksək təhlükəli əşya və maddələrin xüsusiyyətləri ilə bağlıdır. Onlardan təyinatı üzrə istifadə olunmaması, habelə onların təsadüfi ellərə keçməsi geniş miqyaslı faciələrə səbəb ola bilər.

2. CM-in 224-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **əsas obyekti** ictimai təhlükəsizlikdir. **Əlavə obyekt** qismində Azərbaycan dövlətinin milli təhlükəsizliyi və maraqları çıxış edir, çünki bu cinayət tərkibinin zəruri əlaməti olaraq dövlətin milli təhlükəsizliyinə və maraqlarına zərər vurulması göstərilmişdir.

Şərh edilən cinayət tərkibinin CM-in XXV fəslinə əlavə edilməsi mübahisə doğura bilər. Belə ki, bu əməl dövlətin milli təhlükəsizliyinə və maraqlarına zərər yetirdikdə başa çatmış cinayət hesab edilir. İctimai təhlükəsizliyə ziyan yetirilib-yetirilməməsi isə tövsif üçün əhəmiyyət daşımır (baxmayaraq ki, bu cinayətin predmetlərindən kənar məqsədlər üçün istifadə edilməsi cəmiyyət üçün kifayət qədər ciddi potensial təhlükə yaradır). Nəzərə alsaq ki, cinayət qanununun qoruduğu dəyərlər kimi bəşəriyyət, şəxsiyyət, cəmiyyət və dövlət bir-birindən fərqləndirilir, onda şərh edilən cinayət tərkibinin CM-in XXXI fəslinə (Dövlətin Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər) daxil edilməsi daha düzgün olardı.

3. Təhlil edilən cinayətin **predmeti** qismində kütləvi qırğın silahlarının, silahların, hərbi texnikanın və sursatların yaradılmasında və hazırlanmasında istifadə oluna bilən ikili təyinatlı mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) çıxış edir.

«İxrac nəzarəti haqqında» Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il tarixli Qanununun 1.1.2-ci maddəsinə əsasən **ikili təyinatlı mallar (işlər, xidmətlər)** dedikdə mülki məqsədlər üçün istifadə edilən, lakin kütləvi qırğın silahları və onların çatdırılma (daşınma) vasitələrinin, digər silah növlərinin, hərbi texnikanın, sursatın yaradılmasında və hazırlanmasında da istifadə edilə bilən mallar (işlər, xidmətlər) başa düşülür.

İkili təyinatlı mallar ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) bir qrupudur («İxrac nəzarəti haqqında» Azərbaycan Respublikası Qanununun 5.0.3-cü maddəsi). Ümumiyyətlə, ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin), o cümlədən də **ikili təyinatlı malların siyahısı** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 2006-cı il tarixli 42 saylı Qərarında verilmişdir.

4. CM-in 224-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** aşağıdakı zəruri əlamətləri ehtiva edir: a) ikili təyinatlı mallardan sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması; b) həmin əməlin dövlətin milli təhlükəsizliyi ilə maraqlarına zərər vurması; c) əməllə bu nəticə arasında səbəbli əlaqə.

İkili təyinatlı mallar (işlər, xidmətlər) ilə bağlı iqtisadi fəaliyyət müstəsna olaraq xüsusi icazə (lisenziya) əsasında həyata keçirilir. Həmin xüsusi icazənin verilməsi şərtləri, onu verməyə səlahiyyəti olan dövlət orqanlarının dairəsi, bu xüsusi icazənin verilməsi qaydası, xüsusi icazə verildikdən sonra həmin mallar barəsində həyata keçirilən fəaliyyətə nəzarət və s. bu kimi məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin «İxrac nəzarəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə» 15 dekabr 2005-ci il tarixli, 230 saylı Qərarı ilə müəyyən edilmişdir. Həmin qərara əsasən ikili təyinatlı mallarla iqtisadi fəaliyyəti həyata keçirmək üçün hüquqi və fiziki şəxslərə verilən xüsusi icazədə **bu mallardan istifadənin məqsədi** (sifariş edilmiş məqsəd) dəqiq göstərilməlidir. İkili təyinatlı mallardan yalnız həmin məqsəd üçün istifadə edilə bilər ki, buna da nəzarəti xüsusi icazəni verən orqan həyata keçirir.

CM-in 224-1-ci maddəsinin dispozisiyasındakı **«sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması»** ifadəsi ikili təyinatlı mallarla iqtisadi fəaliyyət üçün verilmiş xüsusi icazədə göstərilən məqsədlərdən kənara çıxmanı nəzərdə tutur. Lakin burada təsbit olunmuş əməli – **istifadə olunmamanı** bir qədər geniş təfsir etmək lazımdır. Belə ki, ilk baxışdan şərh edilən cinayətin hərəkətsizliklə törədildiyi qənaətinə gəlmək olar. Əslində isə «sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması» ifadəsi həm də ikili təyinatlı mallardan xüsusi icazədə göstərilmiş məqsəddən kənar məqsədlər üçün istifadə etməni də ehtiva edir. Odur ki, CM-in şərh edilən maddəsinin birmənalı tətbiqini təmin etmək üçün onun dispozisiyasında ictimai təhlükəli əməlin **«sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması və ya kənar məqsədlər üçün istifadə olunması»** kimi verilməsi daha düzgün olardı.

Beləliklə, şərh edilən cinayət həm hərəkətsizliklə (sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması), həm də hərəkətlə (bu məqsəddən kənar məqsədlər üçün istifadə olunması) törədilə bilər.

5. Təhlil edilən cinayət **maddi tərkib** vasitəsilə ifadə olunmuşdur və ona görə də **ictimai təhlükəli nəticələrin baş verməsi** — dövlətin milli təhlükəsizliyi və maraqlarına zərər vurulması ilə başa çatacaqdır.

Azərbaycan Respublikasının «Milli təhlükəsizlik haqqında» 29 iyun 2004-cü il tarixli Qanununun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının **milli təhlükəsizliyi** dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir.

Həmin Qanunun 6-cı maddəsinə əsasən Azərbaycan Respublikasının **milli maraqları** Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur.

Azərbaycan Respublikasının **milli təhlükəsizliyinə və maraqlarına vurulmuş zərər** iqtisadi, siyasi, hərbi, ictimai xarakterli ola bilər. Belə zərər, məsələn, Azərbaycan Respublikasının «Milli təhlükəsizlik haqqında» Qanununun 7-ci maddəsində göstərilmiş təhdidlərdən hər hansı birinin (və ya bir neçəsinin) təqsirkarın əməli nəticəsində real mövcud olmasında ifadə oluna bilər. Hər bir halda zərərin xarakteri, dərəcəsi dəqiq müəyyən edilərək qiymətləndirilməlidir.

Şərh edilən cinayət tərkibi üzrə cinayət məsuliyyətinin yaranması üçün vurulmuş zərərlə törədilmiş əməl arasında **səbəbli əlaqə** olmalıdır.

6. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin həm **birbaşa**, həm də **dolayı qəsd** forması ilə törədilə bilər.

7. CM-in 224-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti xüsusidir. Bu, ikili təyinatlı mallar barəsində iqtisadi fəaliyyəti həyata keçirmək üçün xüsusi icazə almış, lakin həmin mallardan sifariş edilmiş məqsədlər üçün istifadə etməyən və ya başqa məqsədlər üçün istifadə edən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya belə xüsusi icazə almış hüquqi şəxsin məsul şəxsləri (rəhbəri, baş mühəndisi, texnoloqu və s.) ola bilər. Hər bir halda təqsirkar şəxs ikili təyinatlı mallarla işləmək üçün icazəsi və ya səlahiyyəti (əmək müqaviləsi əsasında) olan şəxs olmalıdır.

Nəzərdən keçirilən əməl ikili təyinatlı mallarla bağlı iqtisadi fəaliyyəti həyata keçirmək üçün **xüsusi icazəsi olmayan şəxs** tərəfindən törədildikdə onun əməli CM-in 224-1-ci maddəsi ilə deyil, mövcud hallardan asılı olaraq CM-in 192-ci (qanunsuz sahibkarlıq), 236-cı (radioaktiv materiallarla qanunsuz davranma), 233-1-ci (qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma) və ya başqa maddəsi ilə tövsif edilə bilər.

Maddə 224-2. İxrac rejimini pozma

İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin), bu malların ixracına qadağan və ya məhdudiyyət qoyulmuş dövlətlərə və son istifadəçilərə ixrac olunması —

bir ildən iki ilədək müddətə islah işləri və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır (Azərbaycan Respublikasının *20 sentyabr 2005-ci il tarixli Qanunu ilə əlavə edilmişdir, 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 24 noyabr 2005-ci il; 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il*).

1. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** ictimai təhlükəsizliyi təmin edən münasibətlərdir.

İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) onların ixracı qadağan edilmiş və ya məhdudlaşdırılmış ölkələrə və son istifadəçilərə ixrac olunması təkcə Azərbaycan Respublikasında yox, həm də həmin ölkələrdə və ya regionlarda ictimai təhlükəsizliyi təhdid altına alır, bəzən hətta sülh və əmin-amanlıq üçün təhlükə yarada bilər.

2. Şərh edilən cinayətin **predmeti** ixrac nəzarətinə düşən mallardır.

«İxrac nəzarəti haqqında» Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il tarixli Qanununun 5-ci maddəsinə əsasən mənşəyindən, mülkiyyətçisindən və istehsal vaxtından asılı olmayaraq aşağıdakı mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) **ixrac nəzarətinə düşür**: a) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) və texnologiyalar; b) kütləvi qırğın silahları və onların çatdırılma (daşınma) vasitələri daxil olmaqla hərbi təyinatlı mallar; c) kütləvi qırğın silahlarının, silahların, hərbi

texnikanın və sursatların yaradılmasında və hazırlanmasında istifadə oluna bilən ikili təyinatlı mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri); ç) partlayıcı və radioaktiv maddələr, materiallar, radioaktiv mənbəli cihazlar, ionlaşdırıcı şüa mənbələri, qurğular; d) Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi, o cümlədən son istifadəsinə və ya istifadəçisinə görə ixrac nəzarətinə düşən digər mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri).

3. CM-in 224-2-ci maddəsində təsbit olunmuş cinayət tərkibinin **obyektiv cəhəti** ixrac nəzarətinə düşən malların, bu malların ixracına qadağan və ya məhdudiyyət qoyulmuş dövlətlərə və son istifadəçilərə ixrac olunmasında ifadə olunmuş hərəkəti nəzərdə tutur.

«İxrac nəzarəti haqqında» Qanunun 8.2-ci maddəsinə müvafiq olaraq, İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracına qadağan qoyulmuş dövlətlərin, son istifadəçilərin, habelə onlara ixracı qadağan edilən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) siyahısını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

Gömrük Məcəlləsinin 14-cü fəsli ilə malların ixracı, təkrar ixracı və müvəqqəti ixracı fərqləndirilir.

4. Təhlil edilən cinayət **formal tərkib** vasitəsilə ifadə olunmuşdur. Ona görə də ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin), bu malların ixracına qadağan və ya məhdudiyyət qoyulmuş dövlətlərə və ya son istifadəçilərə ixrac olunmaq üçün Azərbaycan Respublikasının **gömrük sərhədindən çıxarıldığı andan başa çatmış cinayət** mövcud olacaqdır.

5. CM-in 224-2-ci maddəsində nəzərdə tutulmuş cinayət təqsirin **birbaşa qəsd** forması ilə törədilir. Təqsirkar ixrac nəzarətinə düşən malları bunun qadağan edildiyi və ya məhdudlaşdırıldığı ölkəyə və ya son istifadəçiyə ixrac etdiyini dərk edir və bunu arzulayır.

6. Şərh edilən cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər. Lakin bu əməli ixrac nəzarətinə düşən mallarla xarici iqtisadi fəaliyyəti həyata keçirmək üçün xüsusi icazəsi olmayan şəxs törətdikdə onun əməli (qaçaqmalçılıq tərkibinin əlamətləri olduqda) cinayətlərin məcmusu qaydasında CM-in 206-cı və 224-1-ci maddəsi üzrə tövsif ediləcəkdir. Belə şəxsin əməlində CM-in 226-cı və ya 233-1-ci maddələrindən birində nəzərdə tutulmuş cinayətin əlamətləri olduqda onda onun əməli üç cinayətin məcmusu kimi tövsif ediləcəkdir.

Maddə 225. Yanğın təhlükəsizliyi qaydalarını pozma

225.1. Üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə

və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

225.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).

1. Bu cinayətin **bilavasitə obyekti** insan fəaliyyətinin bütün sahələrində yanğın təhlükəli mənbələrlə davranmanın qanunvericiliklə müəyyən edilmiş qaydasıdır. Qeyd olunan cinayət əməlinin **əlavə obyekti** insanların həyatı və sağlamlığı, habelə mülkiyyət münasibətləridir.

2. Bu cinayətin **predmeti** müəyyən şəraitdə əşyaların alışıb yanmasına səbəb ola bilən istənilən təhlükə mənbəyidir (məsələn, partlayıcı maddələr, döyüş sursatı, yanacaq-sürtgü materialları, elektrik məişət cihazları və s.).

3. Nəzərdən keçirilən cinayətin **obyektiv cəhəti** bunlardan ibarətdir: 1) yanğın təhlükəsizliyi qaydalarını pozma; 2) insanın sağlamlığına ağır və ya az ağır zərər vurulması; 3) yanğın təhlükəsizliyi qaydalarını pozma ilə qeyd olunan ictimai təhlükəli nəticələrin baş verməsi arasında səbəbli əlaqənin olması.

4. Yanğın təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının «Yanğın təhlükəsizliyi haqqında» 10 iyun 1997-ci il tarixli Qanunu ilə nizama salınır.

5. **Yanğın** dedikdə maddi ziyan vuran, insanların həyatına və sağlamlığına, habelə təbiətə zərər yetirən nəzarətsiz yanma başa düşülür («Yanğın təhlükəsizliyi haqqında» 10 iyun 1997-ci il tarixli Qanunun 1-ci maddəsi).

6. **Yanğın təhlükəsizliyi** təşkilati, iqtisadi, sosial, elmi-texniki, tərbiyə və təbliğat tədbirlərinin elə bir kompleksidir ki, bu, təsərrüfat sahələrinin və obyektlərinin, binaların, qurğuların, inzibati-ərazi vahidlərinin, şəhərlərin, rayonların və digər yaşayış məntəqələrinin təhlükəsiz fəaliyyətini, yanğınların törənməsi və yayılması imkanlarının aradan qaldırılmasını, onların son dərəcə sürətlə aşkar və ləğv olunmasını, insanların həyatının və sağlamlığının mühafizəsini təmin etməli, yanğınların təhlükəli amillərinin insanlara və ətraf mühitə təsirini aradan qaldırmalı, maddi və mənəvi sərvətləri yanğından məhv olmaqdan qorumalıdır.

7. **Yanğın təhlükəsizliyi tələbləri** yanğın təhlükəsizliyini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş, sosial və texniki xarakterli xüsusi şərtdir.

8. **Yanğın təhlükəsizliyi tələblərinin pozulması** yanğın təhlükəsizliyi tələblərinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsidir.

9. CM-in 225.1-ci maddəsi **blanket dispozisiyalıdır**, yəni bu maddə ilə cinayət məsuliyyətinə cəlb etmək üçün Azərbaycan Respublikasının yuxarıda adı çəkilən Qanununa müraciət etmək lazımdır.

10. Bu cinayət obyektiv cəhətdən həm fəal hərəkətlə, həm də hərəkətsizliklə törədilə bilər.

11. CM-in 225.1-ci maddəsi üzrə cinayət məsuliyyəti yalnız bu cinayətin obyektiv cəhətinin zəruri əlaməti olan ehtiyatsızlıqdan insanın sağlamlığına az ağır və ya ağır zərər vurulduğu halda yaranır.

12. Sağlamlığa az ağır zərər vurma haqqında CM-in 127.1-ci maddəsinin, ağır zərər vurma haqqında isə CM-in 126.1-ci maddəsinin şərhində qeyd olunmuşdur.

13. Bu cinayət **maddi tərkibli** olduğu üçün qeyd olunan kriminal nəticələr baş verdiyi andan **başa çatmış** hesab edilir. CM-in 225.1-ci maddəsində nəzərdə tutulan yanğın təhlükəsizliyi qaydalarının pozulması ilə baş vermiş ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqənin olması müəyyən edilməlidir.

14. Yanğının qeyd olunan pozuntu nəticəsində deyil, başqa səbəblər üzündən baş verməsi CM-in 225-ci maddəsi ilə məsuliyyətin yaranmasını istisna edir. Yanğının səbəblərinin müəyyən edilməsi üçün yanğın-texniki ekspertizanın təyin olunması zəruridir.

15. CM-in 225.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində zərərçəkmiş şəxsin ölümü və ya digər ağır nəticələr nəzərdə tutulur.

16. CM-in 225.2-ci maddəsində nəzərdə tutulan mənada **digər ağır nəticələr** dedikdə bir neçə şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulması, müəssisə və təşkilatların işinin əhəmiyyətli dərəcədə pozulması, mühüm maddi ziyan vurulması və s. başa düşülür.

17. Bu cinayətin **subyektiv cəhəti** yanğın təhlükəsizliyi qaydalarının pozulmasına, habelə baş vermiş kriminal xarakterli nəticələrə ehtiyatsızlıqdan ibarət olan psixi münasibətdə ifadə olunur. Yanğın təhlükəsizliyi qaydaları qəsdən pozulduqda və qeyd olunan nəticələr baş verdikdə əməl CM-in şəxsiyyət və ya mülkiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddəsi (yaxud maddələri) ilə tövsif olunmalıdır. Belə ki, məsələn, yandırmaqla qəsdən özgənin əmlakını məhv etmə CM-in 187-ci maddəsi ilə tövsif olunmalıdır.

18. Bu cinayətin **subyekti** cinayəti törədənədək 16 yaşı tamam olmuş anlaqlı fiziki şəxs ola bilər. Qanunvericinin CM-in 225.1-ci maddəsinin dispozisiyasında əks olunmuş birbaşa tələbinə görə, bu cinayətin **subyekti** üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxsdir. Belə şəxslərə həm vəzifəli şəxslər (məsələn, müəssisə və təşkilatların rəhbərləri, onların yanğın təhlükəsizliyi məsələləri üzrə müavinləri və s.), həm də yanğın təhlükəli işləri icra edən şəxslər (məsələn, elektrik qaynaqçısı, qaz qaynaqçısı və s.) və bu işlərə rəhbərlik edən şəxslər aid edilir.

19. CM-in 225.2-ci maddəsində nəzərdə tutulan cinayəti CM-in 187.2-ci maddəsində əks olunmuş cinayət əməlindən (odla ehtiyatsız davranma üzündən başqasının əmlakını məhv etmə və ya zədələmə) fərqləndirmək lazımdır.

Maddə 226. Radioaktiv materiallarla qanunsuz davranma

226.1. Radioaktiv materialları qanunsuz əldə etmə, saxlama, istifadə etmə, satma, başqasına vermə və ya dağıtma —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

226.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Bu cinayətin **bilavasitə obyekti** radioaktiv materiallarla davranma sahəsində ictimai təhlükəsizliklə bağlı olan ictimai münasibətlərdir. CM-in 226.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin **əlavə obyekti** qismində insanın həyatı və sağlamlığı, habelə mülkiyyətin toxunulmazlığı ilə bağlı olan ictimai münasibətlər çıxış edir.

2. Bu cinayətin **predmeti** radioaktiv materiallardır.

Radioaktiv maddə dedikdə kənar (xarici) təsir olmadan atom nüvəsinin çevrilməsi nəticəsində ionlaşdırıcı şüa buraxan izotoplar (atomlar) başa düşülür («Əhalinin radiasiya təhlükəsizliyi haqqında» 30 dekabr 1997-ci il tarixli Qanunun 1-ci maddəsi).

Radioaktiv materiallar dedikdə canlı orqanizmlər üçün zərərli dozalarda elektromaqnit və ya korpuskulyar şüalanmaya aparıb çıxaran, ionlaşdırıcı dağıntı törətmək qabiliyyətinə malik olan təbii və ya süni mənşəli materiallar başa düşülür. Bunlara radium, uran, sezium, stronsium, plutonium, kobalt-60 və s. aiddir.

3. **İonlaşdırıcı şüalanma** — radioaktiv çevrilmələr və nüvə parçalanması zamanı ətraf mühitlə qarşılıqlı təsir nəticəsində maddədə müxtəlif işarəli ionlar yarada bilən şüalardır «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» 30 dekabr 1997-ci il Qanunun 1-ci maddəsi).

4. Bu cinayətin **obyektiv cəhəti** radioaktiv materialları qanunsuz əldə etmə, saxlama, istifadə etmə, satma, başqasına vermə və ya dağıtmada ifadə olunur.

5. CM-in 226.1-ci maddəsinin dispozisiyasından aydın olur ki, bu cinayət fəal hərəkətlərlə törədilir.

6. **Radioaktiv materialları qanunsuz əldə etmə** dedikdə onlara talama və hədə-qorxu ilə tələb etmə istisna olmaqla, istənilən üsulla (pul ilə alma, dəyişmə və s.) sahib olma başa düşülür.

7. **Radioaktiv materialları saxlama** dedikdə onlara faktiki sahib olma nəzərdə tutulur.

8. **Radioaktiv materiallardan istifadə etmə** dedikdə onların ionlaşdırıcı şüalanma mənbəyi kimi tətbiq olunması başa düşülür.

9. **Radioaktiv materialları satma** dedikdə onların pul müqabilində başqa şəxslərə (və ya şəxsə) verilməsi başa düşülür.

10. **Radioaktiv materialları başqasına vermə** dedikdə onların həm özgəninkiləşdirilməsi (məsələn, satmaqla, bağışlamaqla və s.), həm də mülkiyyət hüququ əldə etmədən başqasının sahibliyinə (məsələn, saxlamaq üçün) keçməsi başa düşülür.

11. **Radioaktiv materialları dağıtma** dedikdə onların məhv edilməsi (məsələn, radioaktiv mənbələri olan qurğuları, cihazları zədələmə və ya korlama) başa düşülür.

12. Nəzərdən keçirilən cinayət **formal tərkibli** olduğuna görə CM-in 226.1-ci maddəsinin dispozisiyasında sadalanan hərəkətlərdən hər hansı biri törədildiyi andan **başa çatmış** hesab olunur. CM-in 226.1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb etmək üçün müvafiq ictimai təhlükəli nəticələrin baş verməsi tələb edilmir.

13. CM-in 226.1-ci maddəsində nəzərdə tutulan mənada radioaktiv materialları **qanunsuz** əldə etmə, saxlama və s. sadalanan hərəkətləri etmə dedikdə qeyd olunan hərəkətlərin Azərbaycan Respublikasının «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» 30 dekabr 1997-ci il tarixli Qanununa və radioaktiv materiallarla davranmanın xüsusi qaydalarını müəyyən edən digər normativ aktlara zidd olaraq edilməsi başa düşülməlidir.

14. CM-in 226.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümü və ya digər ağır nəticələrin baş verməsi nəzərdə tutulur.

15. **Digər ağır nəticələr** dedikdə insanların sağlamlığına, ətraf mühitə zərər vurulması, insanların, heyvanların radioaktiv materiallarla zəhərlənməsi, vurulan əhəmiyyətli ziyanın nəticələrinin aradan qaldırılmasına böyük miqdarda maddi xərclər çəkilməsi və s. başa düşülür.

16. CM-in 226.2-ci maddəsində əks olunan cinayət **maddi tərkiblidir** və yalnız insanın ölümü və ya digər ağır nəticələr baş verdiyi andan **başa çatmış** hesab edilir. Törədilən ictimai təhlükəli əməllərlə baş vermiş ağır nəticələr arasında səbəbli əlaqə olmalıdır.

17. CM-in 226.1-ci maddəsində nəzərdə tutulan cinayətin **subyektiv cəhəti birbaşa qəsdlə** xarakterizə olunur. Təqsirkar şəxs radioaktiv materialları qanunsuz olaraq əldə etdiyini, saxladığını, istifadə etdiyini, satdığını, başqasına verdiyini və ya dağıtdığını dərk edir və bunu arzu edir.

18. Təqsirkarın CM-in 226.2-ci maddəsində qeyd olunan ictimai təhlükəli nəticələrə **subyektiv münasibəti** təqsirin yalnız **ehtiyatsızlıq** formasında ola bilər. İnsanların həyatına və sağlamlığına qəsdən zərər vurulduqda və ya qəsdən əmlak ziyanı vurulduqda, əməl şəxsiyyət və ya mülkiyyət əleyhinə olan qəsdən edilən cinayət kimi tövsif edilməlidir.

19. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Bu cinayətin subyekti qulluq vəzifəsinə görə radioaktiv maddələrin etibar edildiyi şəxs də ola bilər.

Maddə 227. Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə

227.1. Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə —

dörd min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

227.2. Eyni əməllər:

227.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

227.2.2. təqsirkar tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

227.2.3. həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə

və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə —

beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

227.3. Bu Məcəllənin 227.1 və ya 227.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

227.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

227.3.2. həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 7 mart 2012-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 16 mart 2012-ci il; 19 iyul 2017-ci il).*

1. Nəzərdən keçirilən cinayətin **bilavasitə obyekti** radioaktiv materiallarla davranış sahəsində mövcud olan ictimai təhlükəsizlikdir. Bu cinayətin **əlavə obyekti** mülkiyyətdir, bir sıra ağırlaşdırıcı hallarda (məsələn, bu cinayətin zor tətbiq edilməklə törədilməsi) isə insanların həyatı və sağlamlığıdır.

2. Bu cinayətin **predmeti** radioaktiv materiallardır. Onların anlayışı CM-in 226.1-ci maddəsinin şərhində verilmişdir.

3. Bu cinayətin **obyektiv cəhəti** radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmədir.

4. **Talamanın** anlayışı haqqında CM-in 177.1-ci maddəsinin, **hədə-qorxu ilə tələb etmənin** anlayışı haqqında isə CM-in 182.1-ci maddəsinin şərhində qeyd olunmuşdur.

5. CM-in 227.1-ci maddəsində nəzərdə tutulan cinayətdə **talama** radioaktiv materiallar ələ keçirildiyi andan, hədə-qorxu ilə tələb etmə isə müəyyən hərəkətlərin törədilməsi hədəsi altında əmlakın verilməsi haqqında tələblər irəli sürüldüyü andan **başa çatmış** hesab edilir. Deməli, radioaktiv materialları talama maddi, hədə-qorxu ilə tələb etmə isə **formal tərkibli** cinayətdir.

6. Talamanı tövsif etmək üçün əmlaka sahib olma şəklində kriminal nəticənin mövcudluğu və bu nəticə ilə təqsirkarın hərəkətləri arasındakı səbəbli əlaqənin olması müəyyən edilməlidir.

7. Bu cinayət yalnız **fəal hərəkətlərlə** törədilə bilər.

8. Bu cinayətin törədilməsinin **üsulu** yalnız ağırlaşdırıcı rol oynayır. Təqsirkar nəzərdən keçirilən cinayəti həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törətdikdə, onun əməli CM-in 227.2.3-cü maddəsi ilə tövsif edilməlidir. Həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilən eyni əməl CM-in 227.3.2-ci maddəsi ilə tövsif olunmalıdır.

9. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs radioaktiv materialları taladığını və ya hədə-qorxu ilə tələb etdiyini dərk edir və məhz belə hərəkət etməyi arzu edir. Bu cinayətin motivi tamahdır. Hədə-qorxu ilə tələb etmənin motivi qisas və sair niyyət də ola bilər.

10. CM-in 227-ci maddəsində nəzərdə tutulan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, anlaqlı fiziki şəxs, eləcə də qulluq vəzifəsinə görə radioaktiv materialların etibar edildiyi şəxs ola bilər.

11. CM-in 227.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur.

12. Cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən** törədilməsi haqqında CM-in 34.2-ci maddəsinin şərhində qeyd olunmuşdur.

13. Bu cinayətin **təqsirkar tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə** törədilməsi haqqında CM-in 178.2.3-cü maddəsinin şərhində danışılır.

14. Nəzərdən keçirilən cinayətin həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi haqqında CM-in 180.2.4-cü maddəsinin şərhində qeyd olunmuşdur.

15. CM-in 227.3-cü maddəsində bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulur.

16. Cinayətin **mütəşəkkil dəstə tərəfindən** törədilməsinin anlayışı haqqında CM-in 34.3-cü maddəsinin şərhində qeyd olunmuşdur.

17. Cinayətin həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi haqqında CM-in 181.1-ci maddəsinin şərhində qeyd olunur.

Maddə 228. Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə

228.1. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə —

iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.2. Eyni əməllər:

228.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

228.2.2. təkrar törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.3. Bu Məcəllənin 228.1 və ya 228.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.4. Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla —

üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə göstərilən əşyaları könüllü surətdə təhvil verən

şəxs, əgər onun əməllərində başqa cinayət əməlinin tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad edilir *(Azərbaycan Respublikasının 10 iyun 2011-ci il, 30 aprel 2013-cü il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 6 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **bilavasitə obyekti** silah, döyüş sursatı, partlayıcı maddələr və partlayıcı qurğularla davranma sahəsində ictimai təhlükəsizlikdir.

2. CM-in 228—232-ci maddələrində nəzərdə tutulan cinayətlərin tövsifi zamanı Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» 30 dekabr 1997-ci il tarixli Qanununa və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228-ci maddəsinin şərh edilməsinə dair» 29 dekabr 2003-cü il və «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 21 iyun 2010-cu il tarixli qərarlarının müddəalarını nəzərə almaq lazımdır.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumu «Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» 27 may 2005-ci il tarixli 2 saylı Qərarında silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz dövriyyəsi ilə əlaqədar məhkəmə təcrübəsini ümumiləşdirərək bir sıra tövsiyələr vermişdir.

3. CM-in 228.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmədə ifadə olunur.

4. Şərh olunan cinayətin **predmeti** odlu silah, onun komplekt hissələri, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğulardır.

5. Təqsirləndirilən şəxsdən götürülən predmetin qeyd edilən maddələrin dispozisiyalarında nəzərdə tutulan predmetə aid olub-olmaması məsələsi «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun və «Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlaması üzərində nəzarət haqqında» Avropa Konvensiyasının müddəaları əsasında müəyyənləşdirilməlidir.

Təqsirləndirilən şəxsin qanunsuz əldə etdiyi, başqasına verdiyi, saxladığı, daşıdığı, gəzdirdiyi, hazırladığı, təmir etdiyi, taladığı və ya hədə-qorxu ilə tələb etdiyi predmetin odlu silaha, onun komplekt hissələrinə, döyüş sursatına, partlayıcı maddələrə və ya qurğulara aid olub-olmamasını müəyyən etmək üçün xüsusi biliyə ehtiyac olduqda, iş üzrə ekspertizanın keçirilməsi zəruridir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan Qərarının 1-ci bəndi).

6. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş «odlu silah» anlayışı BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan «Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş

sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı» Protokolunda göstərilmişdir (Azərbaycan Respublikası 2004-cü il 10 sentyabr tarixli, 750-IIQ nömrəli Qanunla həmin Protokola qoşulmuşdur). Həmin Protokolun 3-cü maddəsinin «a» bəndinə görə **odlu silah** dedikdə əntiq odlu silahlar və ya onların modelləri istisna olmaqla, atəş açan, atəş açmaq üçün nəzərdə tutulan və ya asanlıqla atəş açmaq üçün vasitəyə çevrilə bilən hər hansı daşına bilən lüləli odlu silah, güllə və ya partlayıcı reaktiv mərmi başa düşülür. Əntiq odlu silahlar və onların modelləri daxili qanunvericiliyə müvafiq olaraq müəyyən edilir. 1899-cu ildən sonra istehsal olunan odlu silahlar heç bir halda əntiq silahlara aid edilmir.

Odlu silah barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silahdır («Xidməti və mülki silah haqqında» 30 dekabr 1997-ci il tarixli Qanunun 2-ci maddəsinin 8-ci bəndi).

Odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular və soyuq silah həm sənaye, həm də kustar üsulla istehsal edilə və hazırlana bilər.

CM-in 228-ci maddəsinə və «Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlaması üzərində nəzarət haqqında» 1978-ci il 28 iyun tarixli Avropa Konvensiyasının müddəalarına əsasən odlu silaha aşağıdakılar aiddir:

a) avtomatik silah;

b) yarımavtomatik mexanizmli, yenidən doldurma tələb edən mexanizmli və ya tək-tək atəş açan mexanizmli qısalüləli silah;

c) yarımavtomatik mexanizmli və ya yenidən doldurma tələb edən mexanizmli, minimum bir yivli lüləli mexanizmli uzunlüləli silah;

ç) yivli lüləsi birdən az olmayan təkatılan uzunlüləli silah;

d) əl reaktiv qumbara atanlar;

e) hücum və ya müdafiə odsaçanlar;

ə) yay tipli atıcı mexanizmli silah.

Odlu silahlara, həmçinin yivli lüləsi olan müxtəlif növ tapançalar, minaatanlar, təyyarəvuran toplar və yuxarıda sadalanan «a-ə» yarımbəndlərində göstərilən xüsusiyyətlərə malik olan digər silahlar da aiddir.

Pnevmatik silah, işıqverici, işarəverici, fişəng atıcı, tikinti-montaj təyinatlı tapança və revolverlər, elektroşok qurğuları, eləcə də soyuq silah odlu silah hesab edilmir.

«Avtomatik» termini, ondan növbə ilə atəş açıla bilən silahlara aiddir. «Yarımavtomatik» termini, tətiyi hər dəfə sıxarkən atəş açıla bilən silahlara aiddir. «Yenidən doldurma tələb edilən mexanizmli» termini, tətiyi sıxmaqdan başqa, onun hərəkətə gətirilməsi üçün hər dəfə yenidən doldurulmasının yerinə yetirilməsi zəruri olan silahlara aiddir. «Təkatılan» termini, lüləli və ya lülələri hər növbəti atəşin açılması üçün yenidən doldurulan silahlara aiddir. «Qısalüləli» termini, lüləsinin uzunluğu 30 santimetrdən çox olmayan və ya ümumi uzunluğu 60 santimetrdən az olan silahlara aiddir. «Uzunlüləli» termini, lüləsinin uzunluğu 30 santimetrdən çox, ümumi uzunluğu isə 60 santimetrdən çox olan

silahlara aiddir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda adı çəkilən Qərarının 2-ci bəndi).

7. Qaz silahı, soyuq silah, eləcə də soyuq atıcı silah odlu silah hesab edilmir. Onlar CM-in 228.4-cü maddəsində nəzərdə tutulan cinayətin predmetidir.

8. Pnevmatik silah da odlu silaha aid edilmir. Adı çəkilən Qanunun 2-ci maddəsinin 9-cu bəndinə görə **pnevmatik silah** sıxılmış havanın və ya qazın təzyiqindən yaranan enerji hesabına gülləsi istiqamətlənmiş hərəkət edərək hədəfə məsafədən zədə yetirmək təyinatına malik olan silahdır.

9. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan qərarının 4-cü bəndinə görə **odlu silahın komplekt hissələri** dedikdə onun funksional təyinatını müəyyən edən hissələr – odlu silahın lüləsi, zərbə, buraxılış (tətik), bağlayıcı mexanizmi, baraban (güllə yuvacığı), eləcə də kompleks halında silahdan təyinatı üzrə istifadə etməyə – atəş açmağa imkan verən digər detalları başa düşülür. Lakin odlu silahın üzərində olsa belə, həmin silahdan təyinatı üzrə atəş açmağa imkan verməyən əşyalar və qurğular (süngü bıçağı, süngü və s.) CM-in 228 və 229-cu maddələrində nəzərdə tutulmuş odlu silahın komplekt hissələrinə aid deyil.

10. Qanunun 2-ci maddəsinin 5-ci bəndinə görə **döyüş sursatı** müvafiq silah növündən atəş açmaq üçün nəzərdə tutulmuş konstruktiv qurğu və ya əşyalardır.

Döyüş sursatı dedikdə hədəfi məhv etmək üçün müəyyən olunmuş və tərkibində dağıdıcı, tullayıcı və vurub çıxardığı atım, yaxud onların məcmusu olan silahlanma predmetləri və ya tullayıcı sursatlar başa düşülür.

Döyüş sursatlarına hədəfi məhv etmək üçün nəzərdə tutulan artilleriya mərmi və minaları, döyüş raketləri, aviabombalar, hərbi-mühəndis atımları (partlayış törədici qanadlı, ballistik raket və qurğular), minalar, tank əleyhinə qumbaralar, əl qumbaraları, piyada əleyhinə olan və reaktiv qumbaralar, kalibrindən asılı olmayaraq sənaye və kustar üsulla istehsal olunmuş hədəfi məhv etmək elementi (karteç, qırma, mərmi-güllə və s.) ilə yanaşı, digər bütün elementləri olan müxtəlif odlu silah patronları aid edilir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 4-cü bəndi).

Hədəfi zədələmək və ya məhv etmək üçün nəzərdə tutulan elementi (mərmisi, gülləsi, qırması və s.) olmayan və canlı hədəfi məhv etmək təyinatına malik olmayan işarəverici, işıqverici, tikinti-montaj işlərində istifadə edilən qaz və təlim patronları döyüş sursatı hesab edilmir.

Xüsusi təyinatlı sursatlara hədəfi məhv etmək üçün nəzərdə tutulmamış, yəni məhv etmə elementləri (mərmisi, gülləsi, karteçi, qırması və s.) olmayan, atəşin səsinə, işığına görə aldatma məqsədilə istifadə etmək üçün aldadıcı döyüş patronları və ya işıqlandırıcı, işarəverici, səsverici, idarəedici fişəng patronları, fişəng atıcıları, gözyaşardıcı qaz patronları və balonları, müəyyən müddətə halsızlaşdıran qurğular, yerüstü sahəni dumanla örtən tüstüburaxıcı patron və qurğular, aşındırıcı xassəli, kimyəvi-hərbi zəhərləyici maddələri olan patronlar, balonlar və qurğular, həmçinin rezin, taxta, plastmas, polietilen, yumşaq materialdan olan kisəciklərə yerləşdirilmiş xırda qurğuşun qırmaları, iynə şprisli, sink xəlitəsindən mərmiləri olan ağrıdıcı və ya heyvanları müvəqqəti ölümcül vəziyyətə gətirmək üçün nəzərdə tutulmuş patronlar, mıx atan qurğular, arbaletlər, balıq ovlamaq üçün nəzərdə tutulmuş müxtəlif qarpunlar aiddir və bu əşyalar CM-in 228-229, 231, 232-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin predmetləri hesab edilmirlər (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 4-cü bəndi).

11. **Partlayıcı maddələr** dedikdə tezliklə özüyayılan kimyəvi çevrilmə xüsusiyyətinə və partlama qabiliyyətinə malik kimyəvi birləşmələrdən ibarət maddələr başa düşülməlidir. Bunlara trotil, ammonitlər, plastidlər, elastitlər, tüstülü və tüstüsüz barıt, bərk raket yanacağı və s. aiddir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 4-cü bəndi).

12. **Partlayıcı qurğular** dedikdə konstruktiv təyinatına görə partlayışın baş verməsi üçün qığılcım yaradan xüsusi qurğulardan (məsələn, detonator, fitil və s.) ibarət olan predmetlər nəzərdə tutulur. Partlayıcı qurğuda partlayıcı maddənin olub-olmamasının həmin qurğunun şərh olunan maddə üzrə cinayətin predmeti hesab edilməsi üçün heç bir əhəmiyyəti yoxdur, başlıcası odur ki, bu qurğu partlayışı törətmək üçün (məsələn, elektrik dövriyyəsinin qapanması yolu ilə qığılcım baş verməsi) nəzərdə tutulmuş olsun.

Partlayıcı qurğular həm sənaye, həm də kustar üsulla istehsal edilə bilər.

13. CM-in 228.1-ci maddəsində sadalanan odlu silah və qeyd olunan digər predmetlərlə edilən hərəkətlər bütövlükdə silah dövriyyəsinin müəyyən növləri kimi qiymətləndirilir. Qanunun 2-ci maddəsinin 16-cı bəndinə görə **silah dövriyyəsi** silahın istehsalı, gətirilməsi, aparılması, idxalı, ixracı, satışı, başqasına verilməsi, əldə edilməsi, kolleksiya edilməsi, sərgisinin keçirilməsi, uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, istifadə edilməsi, göndərilməsi, götürülməsi və məhv edilməsidir.

Nəzərdən keçirilən Qanunun 5-ci maddəsinin 4-cü hissəsinə görə Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın **dövriyyəsinin əsası** onlara verilən **uyğunluq sertifikatıdır.** Azərbaycan Respublikasında xidməti və mülki silahın dövriyyəsi ilə əlaqədar müəyyən edilən qadağanlar Qanunun 3-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuşdur.

Adı çəkilən Qanunun 9-cu, 10-cu, 13-cü, 17-ci maddələrinə görə, silahın əldə edilməsi, istehsalı, satışı, kolleksiya edilməsi və ya sərgisinin keçirilməsi lisenziyalaşdırılmalı, yəni Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən bunlara xüsusi icazə verilməlidir. Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli, 769 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Mülki silahın kolleksiya edilməsi və ya onun sərgisinin keçirilməsi Qaydaları»na və «Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları»na əsasən mülki silahın əldə edilməsinə, satışı ilə məşğul olmağa, habelə kolleksiya edilməsi və ya sərgisinin keçirilməsinə xüsusi icazəni Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi verir.

«Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə «Xidməti və mülki silahın Dövlət Kadastrının aparılması qaydası»; «Xarici döv-

lətlərin hüquqi şəxslərinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvafiq olaraq xidməti və mülki silah əldə etməsi, saxlaması və təyinatı üzrə istifadə etmə Qaydaları»; «Xidməti silahın saxlanılması, gəzdirilməsi və ondan təyinatı üzrə istifadə qaydaları üzrə hazırlıq proqramı, odlu silahın istifadəçisinin həmin silahın tətbiqi şəraitində yararlığı baxımından dövri olaraq yoxlamadan keçirilməsi qaydaları, habelə xidməti silahın əldə edilməsi və onun fiziki şəxslərə verilməsi qaydası»; «Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları»; «Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları»; «Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları»; «Silahın mühafizəsi ilə bağlı Tələblər»; «Xidməti silahın xidməti vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar tətbiq edilməsi Qaydaları»; «Odlu silahın tətbiqi ilə bağlı ov etmə, eləcə də idmanla məşğul olma Qaydaları»; «Mülki silahın kolleksiya edilməsi və ya onun sərgisinin keçirilməsi qaydaları»; «Təmir edilməsi mümkün olmayan, texniki şərtlərə uyğun gəlməyən odlu silah və onun döyüş sursatının əvəzsiz olaraq geri alınma və məhv edilmə Qaydaları»; «Silahın geri alınması Qaydaları» təsdiq edilmişdir.

Hərbi qulluqçuların silahı saxlamasının, gəzdirməsinin və istifadə etməsinin qaydaları Azərbaycan Respublikasının «Hərbi qulluqçuların statusu haqqında» Qanunu və ümumi qoşun nizamnamələri ilə tənzimlənir.

14. Qanunverici CM-in 228.1-ci maddəsinin dispozisiyasında sadalanan hərəkətlərin **qanunsuz olaraq** edilməsini nəzərdə tutur. Qanunsuzluq həmin hərəkətlərin nəzərdən keçirdiyimiz normativ aktların tələblərini pozmaqla törədilməsində ifadə olunur.

15. CM-in 228.1-ci maddəsində sadalanan predmetləri **qanunsuz əldə etmə** dedikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qeyd olunan Qərarının 9-cu bəndinə görə onların satın alınması, başqa əmlakla və ya əşya ilə dəyişdirilməsi, borc və ya bəxşiş kimi alınması, borc əvəzinə ödənilməsi, habelə qeyd olunan predmetlər tapıldıqda, onların mənimsənilməsi və s. hərəkətlər başa düşülməlidir. Odlu silahı və qeyd olunan digər predmetləri talama CM-in 228.1-ci maddəsinin nəzərdə tutduğu mənada əldə etmə hesab edilmir və CM-in 232.1-ci maddəsi ilə tövsif olunur. Odlu silahı, onun komplekt hissələrini və s. talama və sonradan saxlama, gəzdirmə və qeyd olunan digər hərəkətləri etmə cinayətlərin məcmusu qaydasında CM-in 232.1-ci və 228.1-ci maddələri ilə tövsif edilir.

«Xidməti və mülki silah haqqında» Qanunun 7-ci maddəsinə görə xüsusi nizamnamə vəzifələrini yerinə yetirən dövlət orqanlarının və hüquqi şəxslərin; xidməti və mülki silahın işlənib hazırlanması, sınaqdan keçirilməsi, istehsalı ilə və ya silahın satışı ilə məşğul olan müəssisələrin; idman və ovçuluq cəmiyyətlərinin; təhsil müəssisələrinin, on səkkiz yaşına çatmış Azərbaycan Respublikası vətəndaşlarının, habelə Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının və digər vəzifəli şəxslərin müvafiq olaraq mülki və xidməti silah əldə etmək hüququ vardır.

Mülkiyyətində kolleksiya əşyaları istisna olmaqla, beş ədəddən artıq odlu

ov və ya idman silahı olduqda; haqqında alkoqolizm, narkomaniya, ruhi xəstəlikdə, habelə görmə qabiliyyətinin pozulması ilə bağlı müvafiq səhiyyə orqanının tibbi əks göstərişi olduqda; ağır cinayətlərə görə, habelə silahdan, döyüş sursatından və ya partlayıcı maddələrdən istifadə etməklə törədilmiş cinayətlərə görə məhkum olunduqda; haqqında ov və balıq ovu qaydalarının, odlu silahın və ya döyüş sursatının əldə edilməsi, saxlanılması və tətbiqi qaydalarının, ictimai qaydanın və müəyyən olunmuş idarəçilik qaydalarının pozulmasına görə, habelə odlu silahdan və ya döyüş sursatından istifadə etməklə törədilmiş digər hüquqpozmalara görə inzibati tənbeh tədbirləri tətbiq edildikdə (həmin inzibati tənbehin tətbiqindən bir il müddətində); polis orqanlarında profilaktik və əməliyyat uçotunda olduqda; fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edildikdə; silahla təhlükəsiz davranma qaydalarını bilməməsi müəyyən olunduqda vətəndaşın xidməti və ya mülki silah əldə etməsi qadağan edilir (adı çəkilən Qanunun 7-ci maddəsinin 4-cü bəndi).

Vətəndaşın odlu ov və ya idman silahının saxlanılması və təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnamənin etibarlılıq müddəti üç ildir. Şəxsin mülki silahın əldə edilməsinə xüsusi icazəsi varsa, bu eyni zamanda onun özünümüdafiə silahının (aerozol qurğuları istisna olmaqla) saxlanılması və gəzdirilməsi üçün xüsusi icazəsi olması sayılır. Vətəndaşın odlu ov və ya idman silahının saxlanılması və təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnaməsi ona həmin silah üçün döyüş sursatı əldə etməyə, saxlamağa və təyinatı üzrə istifadə etməyə hüquq verir. Pnevmatik silahın və ya aerozol qurğularının əldə edilməsi üçün xüsusi icazə tələb olunmur (adı çəkilən Qanunun 9-cu maddəsinin 7, 9-11-ci bəndləri).

Əcnəbi Azərbaycan Respublikasında mülki silah əldə etmək üçün vətəndaşı olduğu dövlətin diplomatik nümayəndəliyinin vəsatətinə əsasən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən xüsusi icazə almalıdır. Mülki silah əldə edilməsinə xüsusi icazə verilərsə, əcnəbilər mülki silahı aldığı andan ən geci 5 gün müddətində onu Azərbaycan Respublikasının ərazisində saxlaya bilərlər. Həmin müddət bitənədək silahı əldə etmiş əcnəbi onu müəyyən edilmiş qaydada Azərbaycan Respublikasından aparmalıdır. Əcnəbilər pnevmatik silahı və aerozol qurğularını Daxili İşlər Nazirliyinin xüsusi icazəsi olmadan əldə edə bilərlər.

16. Odlu silahı və CM-in 228.1-ci maddəsində göstərilən digər predmetləri **qanunsuz olaraq başqasına vermə** dedikdə həmin predmetləri digər şəxslərin sahibliyinə verməklə özgəninkiləşdirmə başa düşülür. Bu, odlu silahı və digər qeyd olunan predmetləri özgəsinə bağışlama, müvəqqəti saxlama və ya istifadə etmək üçün vermə və s. formalarda ola bilər.

Mülki dövriyyədən çıxarılmayan yivsiz lüləli ov tüfənginin qanunsuz hazırlanması, əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması CM-in 228, 229 və 232-ci maddələrinin tərkibini yaratmır. Lakin qadağan edilmiş, uzunluğu 800 mm-dən az olan, habelə konstruksiyası onu qatlamaq, sökmək və ya yığmaq imkanı verən və bu zaman atəş imkanını aradan qaldırmayan odlu ov silahının qanunsuz dövriyyəsi

CM-in yuxarıda qeyd edilən maddələrinin tərkibini yaradır.

Bununla belə, ov tüfənglərindən, o cümlədən yivsiz lüləli ov tüfənglərindən təyinatını itirən kəsilmiş tüfəngin hazırlanması, əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması müvafiq olaraq CM-in 228, 229 və 232-ci maddələrinin tərkibini yaradır.

«Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun tələbinə görə, kalibri 4,5 mm-dən çox, gülləsinin uçuş sürəti saniyədə 150 metrdən çox olan odlu silahın idman obyektlərindən kənarda saxlanılması, istifadə edilməsi və vətəndaşlar tərəfindən əldə edilməsi qadağan olunduğundan, həmin növ silahların qanunsuz əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması, müvafiq olaraq, CM-in 228 və ya 232-ci maddələrinin tərkibini yaradır.

Partlayıcı maddələrdən və konstruktiv təyinatına görə partlayış törədilməsi üçün qurğulardan ibarət olan müxtəlif partlayıcı qurğuların qanunsuz əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması da, müvafiq olaraq, CM-in 228 və ya 232-ci maddələrində nəzərdə tutulan cinayət məsuliyyətini yaradır (Azərbaycan Respublikası Ali Məhkəməsinin adı çəkilən Plenum qərarının 6, 7, 8-ci bəndləri).

17. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 9-cu bəndinə görə sadalanan predmetləri **qanunsuz satma** dedikdə onların qanunsuz olaraq hər hansı bir üsulla yayılması (satılması, dəyişdirilməsi, bəxşiş verilməsi, borc əvəzinə və ya borc olaraq verilməsi və s.) başa düşülməlidir.

Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın, onun döyüş sursatının satışını qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti və mülki silahın istehsalı ilə məşğul olan müəssisələr, xidməti və mülki silahın satışı ilə məşğul olan müəssisələr, Azərbaycan Respublikasının dövlət orqanları, hüquqi şəxsləri, idman və ovçuluq cəmiyyətləri və təhsil müəssisələri həyata keçirirlər (Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları»nın 2-ci bəndi).

Xidməti və mülki silahın, onun döyüş sursatının satışını həyata keçirən müəssisələr Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən bunun üçün müvafiq xüsusi icazə almalıdırlar. Xüsusi icazə iki il müddətinə verilir. Xüsusi icazənin qüvvədə olma müddəti bitdikdən sonra həmin müddət uzadıla bilər.

Xidməti və mülki silahın və onun döyüş sursatının onları əldə etmək hüququna malik olmayan subyektlərə satılması; odlu silah üçün döyüş sursatının xidməti silah əldə edilməsinə xüsusi icazəsi olmayan subyektlərə satılması; odlu silah üçün döyüş sursatının odlu ov və ya idman silahı saxlamaq və təyinatı üzrə istifadə etmək hüququnu təsdiq edən şəhadətnaməsi olmayan Azərbaycan Respublikasının vətəndaşına satılması qadağan edilir (müvafiq Qanunun 13-cü və adı çəkilən Qaydaların 14-cü bəndi).

Damğasız, nömrəsiz, qanunvericiliklə müəyyən edilmiş qaydada sertifikatlaşdırılmamış silahların; Azərbaycan Respublikasının muzey fonduna daxil olan silahların; DİN tərəfindən müəyyən edilmiş qaydalar əsasında nəzarətyoxlama atəşi keçirilməmiş yivli silahların; dövriyyəsi «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi ilə qadağan edilmiş silahların satılması qadağandır (adı çəkilən Qaydaların 15-ci bəndi).

18. Bu cinayətin predmetlərini **qanunsuz saxlama** dedikdə onların binalarda, gizli saxlanc yerlərində, habelə mühafizəsi təmin edilən və üzərində zəruri nəzarət həyata keçirilən digər yerlərdə saxlanılması başa düşülməlidir.

Silahın qanuni saxlanılmasına silah və onun döyüş sursatını istehsal edən müəssisələr üçün — xidməti və mülki silahın istehsalı üçün qanunvericiliklə müəyyən edilmiş qaydada verilən xüsusi icazə əsasında; silah və onun döyüş sursatının satışı ilə məşğul olan müəssisələr üçün — xidməti və mülki silahın satışı üçün verilən xüsusi icazə əsasında; dövlət orqanları və hüquqi şəxslər üçün — xidməti silahın saxlanılması və ondan təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnamə əsasında; vətəndaşlar üçün — mülki silahın əldə edilməsi üçün verilən xüsusi icazə və odlu ov və ya idman silahının saxlanılması və təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnamə əsasında; əcnəbilər üçün — Azərbaycan Respublikasının ərazisində mülki silahın əldə edilməsinə verilən xüsusi icazə (silah əldə edildiyi gündən ən çoxu 5 gün müddətində onu Azərbaycan Respublikasından aparmaq şərti ilə), Azərbaycan Respublikasında ov etmək barədə Azərbaycan Respublikasının müvafiq hüquqi şəxsi ilə müqavilə, idman yarışlarında və ya silah sərgisində iştirak etmək haqqında müvafiq olaraq yarışların və sərginin təşkilatçılarının dəvəti (əcnəbilərin Azərbaycan Respublikasına gətirdikləri silaha münasibətdə) əsasında, habelə Azərbaycan Respublikası Milli Məclisinin deputatları və qanunvericilikdə nəzərdə tutulan digər vəzifəli şəxslər xidməti silahı belə silahın onlara verilməsini nəzərdə tutan qanunvericilik aktları və silahın konkret olaraq onlara təhkim edilməsi barədə sənəd əsasında saxlayırlar (Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları»nın 3.1-ci bəndi).

Vətəndaşlar əldə etdikləri mülki silahı və onun döyüş sursatını özlərinin yaşayış yerlərində həmin silah və sursatın mühafizəsini, təhlükəsizliyini təmin edən və kənar şəxslər tərəfindən onların ələ keçməsini istisna edən, etibarlı şəkildə bağlı olan yerlərdə saxlamalıdırlar. Həmin silahların qeydiyyatda olduğu daxili işlər orqanları vətəndaşlara məxsus olan silah və döyüş sursatının saxlanma şəraitini yoxlamaq hüququna malikdir.

İstifadəsində və ya mülkiyyətində silah olan vətəndaşlar əvvəlki yaşayış yerindən qeydiyyatdan çıxarkən və yeni yaşayış yerində qeydiyyata düşərkən, silaha malik olmaları barədə müvafiq olaraq əvvəlki və yeni yaşayış yeri üzrə daxili işlər orqanlarına məlumat verməlidirlər (adı çəkilən Qaydaların 3.13-cü və 3.14-cü bəndləri).

Silahı təsadüfən tapmış, lakin onu mənimsəməyən və onun sonradan gizlədilməsi üçün heç bir tədbir görməyən şəxs CM-in 228.1-ci maddəsi ilə cinayət məsuliyyətinə alına bilməz. Təsadüfən tapdığı özgənin silahının gizlədildiyi yeri dəyişən şəxs isə mahiyyətcə onu əldə etmiş və saxlamış olduğuna görə qeyd olunan cinayətə görə məsuliyyət daşıyır.

19. CM-in 228.1-ci maddəsində qeyd olunan predmetləri **qanunsuz daşıma** dedikdə onların yerinin dəyişdirilməsi məqsədi ilə istənilən üsulla qəsdən edilən hər hansı bir hərəkət başa düşülməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 9-cu bəndi). Göstərilən predmetlərin müvafiq xüsusi icazə olmadan təqsirkarın idarə etdiyi nəqliyyat vasitəsində olması işin konkret hallarından asılı olaraq onları qanunsuz saxlama, daşıma və ya gəzdirmə kimi tövsif olunmalıdır.

Vətəndaşlar mülki silahın əldə edilməsi üçün verilən xüsusi icazə və odlu ov və ya idman silahının saxlanılması və təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnamə əsasında onlara məxsus olan silah və sursatı (7 ədəd odlu silahdan və ya 400 ədəd patrondan artıq olmamaq şərti ilə) daşıya bilərlər. Milli Məclisin deputatları və qanunvericilikdə nəzərdə tutulan digər vəzifəli şəxslər xidməti silahı belə silahın onlara verilməsini nəzərdə tutan qanunvericilik aktları və həmin silahın bilavasitə onlara təhkim edilməsi barədə müvafiq sənəd əsasında daşımaq hüququna malikdirlər. Əcnəbilər Azərbaycan Respublikasının ərazisində mülki silahın əldə edilməsinə verilən xüsusi icazə (silah əldə edildiyi gündən ən çoxu 5 gün müddətində onu Azərbaycan Respublikasından aparmaq şərti ilə) əsasında onlara məxsus olan silah və sursatı Azərbaycan Respublikasının ərazisində daşıyırlar (Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları»nın 5.8-5.10-cu bəndləri).

20. Odlu silahın və bu cinayətin digər predmetlərini **qanunsuz gəzdirilməsi** dedikdə onların təqsirli şəxsin bilavasitə paltarında, yaxud bədəninin üstündə olması, eyni zamanda çantada, portfeldə və s. əl yükündə predmetlərdə gəzdirilməsi başa düşülməlidir.

Göstərilən predmetlərin, müvafiq icazə olmadan, təqsirkarın idarə etdiyi nəqliyyat vasitəsində olması, işin konkret hallarından asılı olaraq, onları qanunsuz saxlama, daşıma və ya gəzdirmə kimi tövsif olunmalıdır. Odlu silahın qeyd etdirilməsi (yenidən qeyd etdirilməsi) üçün qanunvericilikdə müəyyən edilmiş müddətlər bitdikdən sonra onların saxlanması, gəzdirilməsi, daşınması CM-in 228-ci maddəsinin tərkibini yaratmır (qeyd olunan Plenum Qərarının 9-cu bəndi).

Xidməti və mülki silahın qanuni gəzdirilməsi halları prezidentin adı çəkilən fərmanında nəzərdə tutulmuşdur.

Xidməti və mülki silaha malik olan şəxslər onlara məxsus silahı qanunvericiliklə müəyyən edilmiş qaydada verilən sənədlər əsasında gəzdirirlər (həmin sənədlərin siyahısı bu maddənin şərhinin 18-ci bəndində verilmişdir).

Prezidentin adı çəkilən Fərmanı ilə təsdiq edilmiş müvafiq Qaydalara görə, dövlət orqanlarının və hüquqi şəxslərin işçiləri onlara məxsus olan xidməti silahı yalnız öz xidməti vəzifələrinin icrası ilə əlaqədar, vətəndaşlar özləri ilə onlara məxsus olan özünümüdafiə silahını hər zaman, odlu ov və idman silahını isə müvafiq olaraq ovla məşğul olduqları zaman və ya idman yarışlarının, yaxud təlim-atəş məşqlərinin keçirilməsi zamanı, əcnəbilər onlara məxsus silahı Azərbaycan Respublikasının ərazisində müvafiq olaraq həmin silahı Azərbaycan Respublikasından aparmaq, ov etmək, idman yarışlarında və ya silah sərgisində iştirak etməklə əlaqədar gəzdirə bilərlər.

Qaydalara əsasən silahların, onların gəzdirilməsi zamanı döyüş vəziyyətində olmasına, bir qayda olaraq, yol verilmir. Silahlar gəzdirilərkən onların döyüş vəziyyətinə gətirilməsinə yalnız zəruri müdafiə və son zərurət şəraitində qanunvericiliklə müəyyən edilmiş hallarda yol verilir. Yivli və yivsiz odlu uzun lüləli ov silahları çəxolda, qısa lüləli və idman silahı isə qoburda gəzdirilməlidir. Silahı gəzdirən şəxslər özləri ilə şəxsiyyəti təsdiq edən sənədləri və silah gəzdirməyə hüquq verən sənədləri götürməlidirlər. Tarixi və mədəni baxımdan əhəmiyyətə malik olan silahların gəzdirilməsinə yalnız kütləvi bayram keçirilən zaman Azərbaycan xalqının milli geyiminin atributu qismində yol verilir.

21. CM-in 228-ci maddəsi ilə cinayət məsuliyyəti, nəinki funksional istifadə üçün yararlı olan silahların qanunsuz dövriyyəsi, həmçinin təmir edilmiş yararsız odlu silahların və ya odlu silah vəziyyətinə gətirilmiş təlim silahının qanunsuz dövriyyəsi zamanı da yaranır.

Əgər şəxs sadalanan predmetlərin dövriyyəsi ilə bağlı hərəkətlər edərkən, vicdanlı surətdə yanılmışdırsa, bu, onun CM-in 228-ci maddəsi ilə cinayət məsuliyyəti daşımasını istisna edir (məsələn, sürücü daşıdığı yükün sahibinin həmin yükün içərisində odlu silah və ya döyüş sursatı gizlətdiyindən xəbərsiz olaraq yükü daşıyır) (Azərbaycan Respublikası Ali Məhkəməsinin yuxarıda adı çəkilən qərarının 12-ci bəndi).

22. Bu cinayət **formal tərkibli** olduğu üçün CM-in 228.1-ci maddəsində sadalanan hərəkətlər törədildiyi andan **başa çatmış** hesab edilir. Qeyd olunan maddə ilə cinayət məsuliyyətinin yaranması üçün hər hansı kriminal nəticələrin baş verməsi tələb edilmir, lakin onlar məsuliyyətin fərdiləşdirilməsi zamanı nəzərə alına bilər.

23. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

24. Nəzərdən keçirilən cinayət əməli **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları əldə etdiyini, başqasına verdiyini, satdığını, saxladığını, daşıdığını və ya gəzdirdiyini dərk edir və bunu arzu edir. Şəxs sadalanan predmetlərlə bağlı işləri yerinə yetirərkən vicdanlı surətdə yanılmışdırsa, bu, onun qeyd olunan maddə ilə cinayət məsuliyyətini istisna edir. Məsələn, sürücü daşıdığı yükün içərisində yük sahibinin odlu silah və ya döyüş sursatı və göstərilən digər predmetləri gizlətdiyindən xəbərsiz həmin yükü daşıyır.

25. CM-in 228.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi (CM-in 228.2.1-ci maddəsi) və təkrar törədilməsinə görə (CM-in 228.2.2-ci maddəsi) cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

26. Cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs** tərəfindən törədilməsi haqqında CM-in 34.2-ci maddəsinin şərhində qeyd olunur.

27. Cinayətlərin **təkrar** törədilməsi haqqında CM-in 16-cı maddəsinin şərhində danışılır. CM-in 228.1-ci, 228.2.1-ci və 228.3-cü maddələrində nəzərdə

tutulan cinayətlərdən hər hansı birinin iki dəfə və ya iki dəfədən çox törədilməsi bu cinayətin təkrar törədilməsi hesab edilir. CM-in 16.3-cü maddəsinə görə bu cinayətin təkrar törədilmiş hesab edilməsi üçün cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməməlidir. Təkrarlıqda aralarında zaman fasiləsi olan iki cinayətdən söhbət gedir. Şəxs qanunsuz olaraq odlu silah və ya CM-in 228.1-ci maddəsində sadalanan digər predmetləri əldə edir, sonra saxlayır və özündə gəzdirirsə, onun əməli vahid cinayət kimi CM-in 228.1-ci maddəsi ilə tövsif edilməlidir. Əgər şəxs təkbaşına qanunsuz olaraq odlu silah əldə edir, onu saxlayır və sonradan hər hansı şəxslər qrupunun tərkibində, məsələn, döyüş sursatı və odlu silah əldə edir və gəzdirirsə, onun əməli CM-in 228.2.1-ci maddəsi ilə, bu cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi və CM-in 228.2.2-ci maddəsi ilə odlu silahı və döyüş sursatını qanunsuz olaraq təkrar əldə etmə kimi tövsif edilməlidir.

CM-in 228.4-cü maddəsində nəzərdə tutulan hərəkətlər törədildikdən sonra CM-in 228.1-ci, 228.2.1-ci və 228.3-cü maddələrində qeyd olunan əməllərin törədilməsi onların təkrar törədilməsi hesab oluna bilməz. Bu, onunla izah olunur ki, CM-in 228.1-ci və 228.4-cü maddəsində göstərilən cinayət tərkibləri bir-birinə münasibətdə müstəqildir. CM-in 228.2.1-ci, 228.2.2-ci və 228.3-cü maddələrində qeyd olunan əlamətlər yalnız əsas cinayət tərkibinə, yəni CM-in 228.1-ci maddəsində nəzərdə tutulan cinayətə aiddir. Deməli, məsələn, qanunsuz olaraq soyuq silah əldə etdikdən sonra qanunsuz odlu silah əldə etmə təkrarlıq yarada bilməz.

28. CM-in 228.3-cü maddəsində bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** qismində onun mütəşəkkil dəstə tərəfindən törədilməsi nəzərdə tutulur. Cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi haqqında CM-in 34.3-cü maddəsinin şərhində qeyd olunur.

29. CM-in 228.4-cü maddəsində milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla, qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirməyə görə cinayət məsuliyyəti nəzərdə tutulur.

Bu cinayətin predmetlərinin anlayışı Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» 30 dekabr 1997-ci il tarixli Qanununun 2-ci maddəsində verilir.

Qaz silahı gözyaşardıcı, qıcıqlandırıcı, zəhərləyici, sinir-iflic və ya başqa güclü təsir göstərən digər maddələrin tətbiqi ilə canlı hədəfin müvəqqəti sıradan çıxarılması üçün nəzərdə tutulmuş silahdır (qeyd olunan Qanunun 2-ci maddəsinin 10-cu bəndi). Qanunun 2-ci maddəsinin 11-ci bəndindən aydın olur ki, mülki qaz silahına gözyaşardıcı, qıcıqlandırıcı və ya qısa müddətə sinir-iflicedici maddələrlə təchiz edilmiş qaz tapançaları (revolverlər), mexaniki-püskürdücü və ya aerozol qurğuları aid edilir.

Qanunun 2-ci maddəsinin 6-cı bəndinə görə **soyuq silah** — konstruksiyasına, ölçülərinə və materialına görə birbaşa istehsalat və ya təsərrüfat-məişət məqsədləri üçün nəzərdə tutulmayan, xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvurma obyekti ilə bilavasitə təmas zamanı xəsarət

yetirmək təyinatına malik olan silahdır.

Soyuq silaha soyuq tiyəli silah (silah hesab olunan xəncərlər, döyüş, milli, ov bıçaqları, süngülər, qılınclar, beybutlar və s.), sair kəsici, deşici və ya qarışıq təyinatlı silahlar (nizə, döyüş baltası və s.), eləcə də zərbə-dağıdıcı təsirli əşyalar (beşbarmaqlar, nunçaklar, gürzlər və s.) aid edilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228-ci maddəsinin şərh edilməsinə dair» 29 dekabr 2003-cü il tarixli qərarında da bu haqda birbaşa göstəriş vardır. Həmin qərarla Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilmişdir ki, CM-in 228-ci maddəsinin adı ilə dispozisiyası arasında olan uyğunsuzluq aradan qaldırılsın. Konstitusiya Məhkəməsi CM-in 228.4-cü maddəsində soyuq silahla əlaqədar əməllərə görə cinayət məsuliyyətinin nəzərdə tutulduğuna əsasən belə bir tövsiyə vermişdir. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi 31 may 2011-ci il tarixli Qanunu ilə həmin tövsiyə nəzərə alınaraq CM-in 228.4-cü maddəsinin dispozisiyasında «tullayıcı silah» ifadəsi «soyuq atıcı silah» ifadəsi ilə əvəzlənmişdir.

«Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 7-ci bəndinə görə **soyuq atıcı silah** dedikdə insan əzələsinin və ya mexaniki qurğunun enerjisi hesabına istiqamətlənmiş hərəkət əldə edən əşyalarla məsafədən hədəfi zədələmək təyinatına malik olan silah başa düşülür.

Soyuq silah sənaye üsulu ilə hazırlanmış və ya əldəqayırma ola bilər.

30. Cinayətin predmetlərinin soyuq silah olub-olmadığını müəyyən etmək üçün xüsusi biliyə ehtiyac olduqda, iş üzrə ekspertiza aparılması zəruridir.

31. Qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı qanunsuz olaraq əldə etmə, satma və gəzdirmənin şərhi CM-in 228.1-ci maddəsində odlu silah, onun komplekt hissələri və s. barəsində qeyd olunan eyni adlı anlayışların şərhi ilə üst-üstə düşür. Nəzərə almaq lazımdır ki, qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı başqasına vermə, saxlama və daşıma cinayət məsuliyyətinə səbəb olmur.

32. CM-in 228-ci maddəsinin qeydində bu maddədə göstərilən əşyaları könüllü surətdə təhvil verən şəxsin, əgər onun əməllərində başqa cinayət əməlinin tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 22-ci bəndinə görə **könüllü surətdə təhvil vermə** dedikdə odlu silaha, döyüş sursatına və ya partlayıcı maddələrə istədiyi kimi sərəncam vermək imkanına malik olan şəxsin motivindən asılı olmayaraq, bu predmetlərin təqdim edilməsi və ya onların saxlandığı yer barədə məlumat verməsi başa düşülməlidir.

Məhkəmə təcrübəsində bu cinayətin predmetlərinin həm şəxsin öz təşəbbüsü ilə, həm də digər şəxslərin məsləhəti əsasında, eləcə də müəyyən növ silahı təhvil verməni vətəndaşların öhdəliyi qismində müəyyən edən müvafiq hakimiyyət orqanlarının tövsiyəsinə görə təhvil verilməsi onları könüllü təhvil vermə hesab edilir.

CM-in 228.1-ci maddəsində sadalanan predmetləri könüllü surətdə təhvil

verən şəxs CM-in 228.1-228.4-cü maddələrində qeyd olunan bütün növ əməllərə görə cinayət məsuliyyətindən azad edilir.

33. Şəxs silahdan istifadə etməklə cinayət törətdikdə onun əməli ayrıca tövsif edilir. Məsələn, silah tətbiq etməklə quldurluq törədildikdə, əməl CM-in 181.2.5-ci və 228-ci maddəsi ilə tövsif olunmalıdır.

34. Nəzərdən keçirilən cinayətin predmetləri şəxs tərəfindən başqa bir cinayəti (ağır və ya xüsusilə ağır cinayəti) törətmək məqsədi ilə əldə edilir, başqasına verilirsə, satılırsa, saxlanırsa, daşınırsa və ya gəzdirilirsə, onun əməli cinayətlərin məcmusu qaydasında CM-in 228-ci maddəsi ilə başa çatmış cinayət və digər cinayəti törətməyə hazırlıq kimi qiymətləndirilməlidir.

35. Şəxs zəruri müdafiə zamanı silah tətbiq edirsə, o, qanunsuz olaraq silah əldə etməyə və ya gəzdirməyə görə CM-in 228-ci maddəsi ilə məsuliyyət daşımalıdır (Azərbaycan Respublikası Ali Məhkəməsinin yuxarıda adı çəkilən qərarının 16-cı bəndi).

36. Şəxs odlu silah, döyüş sursatı, partlayıcı maddələri və qurğuları başqa cinayətin törədilməsi üçün digər şəxsə verdikdə, onun əməli, müvafiq olaraq, CM-in 228-ci maddəsi ilə və həmin cinayətlərin törədilməsində köməkçiliyə görə məsuliyyət nəzərdə tutulan maddələrlə tövsif edilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsinin yuxarıda adı çəkilən qərarının 16-cı bəndi).

37. Məhkəmələr odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələr və qurğuların talanmasına kömək etmiş səbəb və şəraiti müəyyən etdikdə, onların aradan qaldırılmasına müvafiq orqanların diqqətini xüsusi qərar çıxarma yolu ilə cəlb etməlidirlər.

Bunlarla yanaşı, məhkəmələr bu növ cinayətlər törətmiş şəxslərə cəza təyin edərkən, onların hərəkətlərinin məqsədi və motivini, talanmış odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatlarının, partlayıcı maddələrin və qurğuların əldə edilmə mənbəyini və ələ keçirilmə üsulunu, onların növünü, miqdarını, dəyərini və döyüş xüsusiyyətlərini nəzərə almalıdırlar (Azərbaycan Respublikası Ali Məhkəməsinin yuxarıda adı çəkilən qərarının 28-ci bəndi).

Maddə 229. Qanunsuz olaraq silah hazırlama

229.1. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlama, habelə odlu silahı təmir etmə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

229.2. Eyni əməllər:

229.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

229.2.2. təkrar törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

229.3. Bu Məcəllənin 229.1 və ya 229.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

229.4. Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı hazırlama —

üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə göstərilən əşyaları könüllü surətdə təhvil verən şəxs, əgər onun əməllərində başqa cinayət tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad edilir *(Azərbaycan Respublikasının 10 iyun 2011-ci il və 30 aprel 2013-cü il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 6 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il).*

1. Bu cinayətin **bilavasitə obyektini** silah (odlu, qaz və ya soyuq) istehsalı və dövriyyəsi sahəsində ictimai təhlükəsizlik təşkil edir.

2. Nəzərdən keçirilən cinayətin **obyektiv cəhəti** qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlama, habelə odlu silahı təmir etmədə ifadə olunur.

3. CM-in 229.1-ci maddəsinin dispozisiyasında bu cinayətin predmetləri qismində odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular göstərilir. Sadalanan predmetlərin anlayışı CM-in 228.1-ci maddəsinin şərhində verilmişdir.

«Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 27 may 2005-ci il tarixli 2 saylı Qərarının 4-cü bəndinə görə **odlu silahın komplekt hissələrinə** onun funksional təyinatını müəyyən edən əsas hissələri — lülə, zərbə, buraxılış (tətik), bağlayıcı mexanizmləri, baraban (güllə yuvacığı), eləcə də kompleks halında silahdan atəş açmağa imkan verən silahın digər hissələri aid edilir.

4. «Silah hazırlama» anlayışı əslində «silah istehsalı» terminində uyğun izah edilməlidir. Lakin Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan Qərarının 10-cu bəndinə görə cinayət məsuliyyəti yaradan **silahın, döyüş sursatının və ya partlayıcı maddələrin hazırlanması** (istehsal edilməsi) dedikdə onların yaradılması və ya itirilmiş məhv etmə qabiliyyətinin bərpa edilməsi, habelə onların (məsələn, raket atanların, qaz, start və tikinti-montaj, məişət və idman təyinatlı inventarların) üzərində dəyişiklik etmə nəticəsində onların odlu və ya soyuq silah, döyüş sursatı, yaxud partlayıcı maddə xüsusiyyətlərini əldə etmə vəziyyətinə gətirilməsi başa düşülməlidir.

Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» Qanununun 10-cu maddəsinə görə xidməti və mülki silahın istehsalını bunun üçün xüsusi icazəsi olan müəssisələr həyata keçirirlər. Belə xüsusi icazəni Daxili İşlər Nazirliyi verməlidir. Xidməti və mülki silah dövlət müəssisələrində və ya dövlət mülkiyyətinin payı 51 faizdən az olmayan müəssisələrdə istehsal olunur.

5. **Odlu silahı təmir etmə** dedikdə onun itirilmiş məhv etmə xüsusiyyətlərinin bərpa edilməsi nəzərdə tutulur. Təmir nəticəsində odlu silah təyinatı üzrə istifadə üçün yararlı vəziyyətə gətirilməlidir.

6. Şərh olunan cinayət hazırlama zamanı odlu silah və bu maddədə qeyd olunan digər predmetlər tam hazır şəkildə yaradıldığı andan, odlu silahı təmir etmə zamanı isə onun məhvedici xassələrinin bərpa edilməsi yekunlaşdığı an-

dan **başa çatmış** hesab edilir. Şəxs bu cinayətin predmetlərini hazırlama, habelə odlu silahı təmir etmə üzrə texnoloji prosesi apararkən yaxalanarsa, onun əməli CM-in 229.1-ci maddəsində nəzərdə tutulan cinayəti törətməyə cəhd etmə kimi tövsif edilməlidir.

7. CM-in 229.1-ci, eləcə də 229.2-ci, 229.3-cü və 229.4-cü maddəsində nəzərdə tutulan cinayət **formal tərkiblidir**. Ona görə də bu cinayətin başa çatmış hesab edilməsi üçün hər hansı kriminal nəticənin baş verməsi tələb olunmur və belə nəticələr əməlin tövsifi üçün əhəmiyyət kəsb etmir.

8. Şəxs bu cinayətin predmetlərini qanunsuz olaraq hazırladıqdan, habelə odlu silahı təmir etdikdən sonra gəzdirir, satır, daşıyır, başqasına verir və ya saxlayırsa, onun əməli cinayətlərin məcmusu qaydasında — CM-in 228.1-ci və 229.1-ci maddələri ilə tövsif edilməlidir.

9. CM-in 228.1-ci maddəsində göstərilmiş **yivsiz odlu ov silahının, onun komplekt hissələrinin və onun üçün döyüş sursatının qanunsuz olaraq hazırlanması** CM-in 229.1 maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaradır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 21 iyun 2010-cu il tarixli Qərarı).

10. Şəxs odlu silahın komplekt hissələrini **taladıqda** və sonradan həmin hissələrdən istifadə edərək qanunsuz olaraq odlu silah **hazırladıqda**, onun əməli cinayətlərin məcmusu qaydasında CM-in 229.1-ci və 232.1-ci maddələri ilə tövsif edilməlidir.

Odlu silahın komplekt hissələri bir şəxs tərəfindən talanmış, digər hissələrin hazırlanması və odlu silahın yığılması isə başqa şəxs tərəfindən həyata keçirilmişdirsə, bu şəxslərdən hər birinin əməli ayrıca (yəni birinci şəxsin əməli CM-in 232-ci, ikincininki isə CM-in 229-cu maddəsi ilə) tövsif olunur. Cinayətlərin hər biri bir şəxs tərəfindən törədildiyindən qabaqcadan əlbir olma olduğu zaman cinayətin bir qrup şəxs tərəfindən törədilməsi əlaməti təqsirə daxil edilir. Bu şəxslərdən biri cinayətin digər şəxs tərəfindən törədilməsinin təşəbbüskarı kimi çıxış etdikdə, onu cinayəti törətməyə təhrik etmiş olduqda və s. hallarda təqsirkarın təhrikçiliyə və iştirakçılığın (CM-in 32-ci maddəsi) digər növlərinə görə cinayət məsuliyyətinə cəlb edilməsi istisna olunmur. Məsələn, odlu silahın komplekt hissələrini talamış şəxs başqasını dilə tutaraq çatışmayan hissələri hazırlamağa və istifadəyə yararlı silah yığmağa təhrik edir. Burada silahı hazırlayanın əməli CM-in 229.1-ci, təhrikçinin əməli isə CM-in 32.4-cü, 229.1-ci, eləcə də 232.1-ci maddələri ilə tövsif olunur (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan Qərarının 18-ci bəndi).

11. Odlu silahın, döyüş sursatının və partlayıcı maddələrin və qurğuların istifadəyə yararsız olan komplekt hissələrini, **onları təmir etmək məqsədi olmadan** əldə etmə, saxlama, daşıma, satma, başqasına vermə və ya gəzdirmə CM-in 228.1-ci maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyətini yaratmır (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan Qərarının 19-cu bəndi).

12. CM-in 229.1-ci maddəsində sadalanan predmetləri yalnız **qanunsuz**

olaraq hazırlamağa, habelə odlu silahı təmir etməyə görə məsuliyyət nəzərdə tutulur. Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» Qanununa görə, xidməti və mülki silahın istehsalını (hazırlanmasını) yalnız bunun üçün xüsusi icazəsi olan müəssisələr həyata keçirir. Deməli, belə icazəsi olmayan dövlət və ya qeyri-dövlət müəssisələrində odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlayan və ya təmir edən şəxsin əməli şərh edilən maddə ilə tövsif edilməlidir.

13. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

14. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs bu cinayətin predmetlərini qanunsuz olaraq hazırladığını və ya odlu silahı təmir etdiyini dərk edir və bunu arzu edir. Təqsirkarın bu cinayəti törədərkən hansı motivlə hərəkət etdiyi və hansı məqsədi izlədiyi əməlin tövsifinə təsir etmir.

15. CM-in 229.2-ci maddəsində bu cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi və təkrar törədilməsi **ağırlaşdırıcı tərkib əlaməti** kimi nəzərdə tutulur.

Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi haqqında CM-in 34.2-ci maddəsinin, təkrar törədilməsi haqqında isə CM-in 16-cı maddəsinin şərhində danışılır.

CM-in 229.1-ci maddəsində sadalanan predmetlərin əvvəllər CM-in 229.4-cü maddəsində qeyd olunan predmetləri qanunsuz olaraq hazırlayan şəxs tərəfindən hazırlanması CM-in 229.1-ci maddəsində nəzərdə tutulan cinayəti təkrar törətmə hesab edilə bilməz. Bu, onunla izah edilir ki, CM-in 229.1-ci və 229.4-cü maddələri bir-birinə münasibətdə müstəqil cinayət tərkiblərini nəzərdə tutur. CM-in 229.2.1-ci, 229.2.2-ci və 229.3-cü maddələrində sadalanan ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri yalnız CM-in 229.1-ci maddəsində göstərilən əsas tərkibə aiddir. Buna görə də, məsələn, qanunsuz olaraq qaz silahını hazırladıqdan sonra odlu silah hazırlama və ya təmir etmə təkrarlıq yaratmır.

16. CM-in 229.3-cü maddəsi bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətinə** CM-in 229.1-ci və ya 229.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin mütəşəkkil dəstə tərəfindən törədilməsini aid edir.

Cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi haqqında CM-in 34.3-cü maddəsinin şərhində qeyd olunmuşdur.

17. CM-in 229.4-cü maddəsi qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı hazırlamağa görə cinayət məsuliyyəti nəzərdə tutur. Bu cinayətin sadalanan predmetlərinin anlayışı haqqında CM-in 228.4-cü maddəsinin şərhində qeyd olunur.

Qeyd olunan predmetləri «qanunsuz olaraq hazırlama» anlayışı CM-in 229.1-ci maddəsində istifadə edilmiş eyni anlayışla analoji qaydada şərh edilir.

Nəzərə almaq lazımdır ki, odlu silahdan fərqli olaraq, qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı qanunsuz olaraq təmir etmə cinayət məsuliyyəti yaratmır.

18. CM-in 229-cu maddəsinin qeydinə əsasən bu maddədə göstərilən əş-

yaları könüllü surətdə təhvil verən şəxs, əgər onun əməllərində başqa cinayət tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad edilir.

Nəzərdən keçirilən qeyd CM-in 228-ci maddəsinin qeydi ilə eyni qaydada şərh edilir.

19. CM-in 229.1-ci və 229.4-cü maddələrində göstərilən cinayətlərin predmetlərini talama və ya hədə-qorxu ilə tələb etməklə əldə etmiş şəxs onları könüllü surətdə təhvil verdikdə, yalnız həmin əşyaları qanunsuz olaraq hazırlamağa, habelə odlu silahı təmir etməyə görə cinayət məsuliyyətindən azad edilir. Deməli, o, CM-in 232.1-ci maddəsi ilə məsuliyyətə cəlb edilməməkdir.

20. CM-in 229-cu maddəsində sadalanan predmetləri qanunsuz olaraq hazırlama başqa cinayəti (ağır və ya xüsusilə ağır cinayəti) törətmək məqsədi ilə edildikdə, əməl cinayətlərin məcmusu qaydasında **başa çatmış** cinayət kimi CM-in 229-cu maddəsi ilə və digər cinayəti törətməyə hazırlıq kimi tövsif edilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 16-cı bəndi).

Maddə 230. Odlu silahı diqqətsiz saxlama

Odlu silahın diqqətsiz saxlanılması ilə yaranmış şərait nəticəsində həmin silahdan başqa şəxsin istifadə etməsi ağır nəticələrə səbəb olduqda —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **bilavasitə obyekti** odlu silahla davranma sahəsində ictimai təhlükəsizlikdir. Nəzərdən keçirilən cinayətin **əlavə obyekti** qismində insanların həyatı və sağlamlığı, bir sıra hallarda isə mülkiyyətin toxunulmazlığı ilə bağlı münasibətlər çıxış edir.

2. Bu cinayətin **predmeti** istifadə üçün yararlı olan istənilən odlu silahdır. Həmin odlu silah qanuni əsaslarla saxlanılmalıdır. Soyuq silah, partlayıcı maddələr və ya qurğular, habelə döyüş sursatı bu cinayətin predmeti hesab edilmir.

Odlu silahın anlayışı haqqında CM-in 228.1-ci maddəsinin şərhində qeyd olunmuşdur.

3. Şərh olunan cinayətin **obyektiv cəhəti** qanuni əsaslarla odlu silahı olan şəxsin onu diqqətsiz saxlaması ilə yaranmış şərait nəticəsində həmin silahdan başqa şəxsin istifadə etməsinin ağır nəticələrə səbəb olmasında ifadə olunur.

4. Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» 30 dekabr 1997-ci il tarixli Qanunun 15-ci maddəsinin 2-ci hissəsinə görə silah onun mühafizəsini, təhlükəsizliyini təmin edən və kənar şəxslər tərəfindən onun ələ keçirilməsini istisna edən şəraitdə saxlanılmalıdır.

Xidməti və mülki silahın saxlanılması qaydaları Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları»nda öz əksini tapmışdır (CM-in 228-ci maddəsinin şərhinin 18-ci bəndinə bax).

Odlu silahı diqqətsiz saxlama dedikdə odlu silahın saxlanılması üzrə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydaları pozma başa düşülür. Burada qeyd olunan qaydaların pozulması odlu silahdan başqa şəxsin istifadə etməsi üçün şərait yaratmalıdır. Məsələn, odlu silahın sahibi onu qapısı qıfıllanmamış iş otağında stolun üstündə və ya ailə üzvlərinin, yaxud digər şəxslərin asanlıqla əldə edə biləcəkləri yerdə qoyaraq çıxıb gedir.

5. Nəzərdən keçirilən cinayətin təhlili onun **hərəkətsizliklə** törədildiyini söyləməyə imkan verir.

6. Odlu silahı qanunsuz olaraq saxlama (CM-in 228.1-ci maddəsi) onu diqqətsiz saxlamadan fərqləndirilməlidir. Belə ki, şərh olunan cinayəti törədən şəxs qanuni əsaslarla sahib olduğu odlu silahı diqqətsiz saxlayır.

7. CM-in 228.1-ci maddəsində göstərilmiş **yivsiz odlu ov silahının diqqətsiz saxlanması** CM-in 230-cu maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaradır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 21 iyun 2010-cu il tarixli Qərarı).

8. Şərh edilən cinayət maddi **tərkibli olduğu** üçün ağır nəticələr baş verdiyi andan **başa çatmış** hesab edilir. Bu əməl yalnız ağır nəticələr baş verdiyi halda cinayət məsuliyyətinə səbəb olur.

9. CM-in 230-cu maddəsində nəzərdə tutulmuş **ağır nəticələr** dedikdə təqsirləndirilən şəxsin odlu silahı diqqətsiz saxlaması üzündən, həmin silahın başqasının əlinə keçməsinin insan tələfatına (o cümlədən intihara), başqasının sağlamlığına ağır və ya az ağır zərər dəyməsinə, əmlakının ciddi zədələnməsi və ya məhv edilməsinə səbəb olması və bu kimi hallar başa düşülməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 26-cı bəndi).

Odlu silahın saxlanılmasının təhlükəsizliyi qaydaları ilə baş vermiş ağır nəticələr arasında **səbəbli əlaqə** olmalıdır. Belə ki, məsələn, mənzilə quldurcasına basqın edən cinayətkarın diqqətsiz saxlanılan odlu silahı təsadüfən ələ keçirməsi silah sahibinin CM-in 230-cu maddəsi ilə məsuliyyətinin yaranmasına səbəb ola bilməz. Bu cinayətin tövsifi üçün a) odlu silahı saxlama qaydalarını pozma; b) digər şəxsin bu silahdan birbaşa təyinatına görə istifadə etməsi; c) diqqətsiz saxlanılan silahdan başqasının istifadə etməsinin ağır nəticələrə səbəb olması arasında səbəbli əlaqə müəyyən olunmalıdır. Əks təqdirdə şərh olunan maddə ilə cinayət məsuliyyəti istisna olunur.

10. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşına çatmış, odlu silaha qanuni olaraq sahiblik edən istənilən anlaqlı fiziki şəxs ola bilər. Odlu silahın mühafizəsi tapşırılmış şəxsin öz vəzifəsini lazımınca yerinə yetirməməsi ağır nəticələrə səbəb olduqda, əməl CM-in 230-cu maddəsi ilə deyil, 231-ci maddəsi ilə tövsif edilməlidir.

Odlu silahın vəzifəli şəxs tərəfindən diqqətsiz saxlanması ağır nəticələrə səbəb olduqda, onun əməli CM-in 230-cu maddəsi ilə tövsif edilməli, hərbi qulluqçunun xidməti istifadəsinə verilmiş silahın və ya döyüş sursatının onların diqqətsiz saxlanılması nəticəsində itirilməsi isə, Məcəllənin 347-ci maddəsində

nəzərdə tutulmuş cinayət kimi qiymətləndirilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 26-cı bəndi).

11. Nəzərdən keçirilən cinayətin təhlili onun **subyektiv cəhətdən** yalnız **ehtiyatsızlıqla** (cinayətkarcasına özünəgüvənmə, yaxud cinayətkarcasına etinasızlıq) törədildiyini sübut edir. **Cinayətkarcasına özünəgüvənmə** zamanı bu cinayətin subyekti odlu silahı saxlamanın təhlükəsizliyi qaydalarını pozur, ondan başqa şəxslərin istifadə edəcəyini və bunun ağır nəticələrə səbəb ola biləcəyi imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağına güman edir. Məsələn, odlu silahı iş stolunun siyirməsində qıfıllanmamış qoyan şəxs evdə yaşayan başqa şəxslərin, xüsusilə də yeniyetmə uşaqların onu tapa bilməyəcəyini güman edir.

Cinayətkarcasına etinasızlıq zamanı şəxs odlu silahın təhlükəsiz saxlanılması qaydalarını pozur. Bu zaman o, odlu silahı kənar şəxslərin də istifadə edə biləcəyi və bunun ağır nəticələrə səbəb olacağı imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür. Məsələn, şəxs heç kimin yaşamadığı bağ evində odlu silahı qıfıllanmamış otaqda saxlayır. Oğurluq məqsədi ilə bağ evinə girmiş yeniyetmələr odlu silahı ələ keçirib başqa bir cinayətin, məsələn, quldurluğun törədilməsində ondan istifadə edirlər.

Qanuni olaraq sahib olduğu odlu silahı diqqətsiz saxlayan şəxs ondan başqa şəxsin istifadə etməsi və bunun ağır nəticələrə səbəb olmasını qabaqcadan görərək belə nəticələrin baş verməsini arzu edir, yaxud şüurlu surətdə onlara yol verirsə, onun əməli qəsdən törədilən cinayətdə köməkçilik formasında iştirakçılıq kimi tövsif edilməlidir. Məsələn, ata oğlunun öz arvadı ilə tez-tez mübahisə, dava-dalaş etdiyini və onu öldürməklə hədələdiyini bilə-bilə özünün ov tüfəngini növbəti mübahisə zamanı otaqda patronla doldurulmuş vəziyyətdə qoyub gedir. Bu halda o, oğlunun öz arvadını mübahisə zamanı onun ov tüfəngindən istifadə edərək öldürə biləcəyini qabaqcadan görür və belə ağır nəticənin baş verməsinə şüurlu surətdə yol verir.

Maddə 231. Silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi üzrə vəzifələri lazımınca yerinə yetirməmə

Odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi tapşırılmış şəxs tərəfindən öz vəzifəsinin lazımınca yerinə yetirilməməsi, onların talanmasına və ya məhv edilməsinə, yaxud digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **bilavasitə obyekti** ictimai təhlükəsizlik, **əlavə obyekti** isə mülkiyyətin, şəxsiyyətin toxunulmazlığını təmin edən ictimai münasibətlərdir.

2. Şərh olunan cinayətin **predmetləri** odlu silah, döyüş sursatı, partlayıcı

maddələr və qurğulardır. Həmin predmetlərin anlayışları CM-in 228.1-ci maddəsinin şərhində verilmişdir.

CM-in 228.1-ci və 229.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərdən fərqli olaraq, odlu silahın komplekt hissələri CM-in 231-ci maddəsində göstərilən cinayətin predmeti deyildir.

3. CM-in 228.1-ci maddəsində göstərilmiş **yivsiz odlu ov silah və onun üçün döyüş sursatının mühafizəsi üzrə vəzifələrin lazımınca yerinə yetirilməməsi** CM-in 231-ci maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaradır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 21 iyun 2010-cu il tarixli Qərarı).

4. Nəzərdən keçirilən cinayətin **obyektiv cəhəti** odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi tapşırılmış şəxs tərəfindən öz vəzifəsinin sadalanan predmetlərin talanmasına və ya məhv edilməsinə, yaxud digər ağır nəticələrə səbəb olan şəkildə lazımınca yerinə yetirilməməsində ifadə olunur.

5. CM-in 231-ci maddəsinin nəzərdə tutduğu mənada **şəxsin öz vəzifəsini lazımınca yerinə yetirməməsi** dedikdə sadalanan predmetlərin mühafizəsinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunan qaydalarını pozma başa düşülür. Bu cinayət həm stasionar anbarların (məsələn, cəbbəxanaların, silah istehsal edən müəssisələrin anbarlarının və s.), həm də səyyar və müvəqqəti anbarların (məsələn, bu maddədə qeyd olunan silah və digər predmetlərin daşınması zamanı) mühafizəsi zamanı törədilir. Təcrübədə şərh olunan cinayətin anbardan kənarda olan silahın (məsələn, nəqliyyat vasitəsinə yükləmə zamanı) mühafizəsi zamanı törədilməsinə də rast gəlinir.

Odlu silah onun mühafizəsi tapşırılmış şəxs tərəfindən talandıqda, əməl, CM-in 232-ci maddəsi ilə tövsif edilir.

6. Şərh olunan cinayəti CM-in 347-ci maddəsində nəzərdə tutulan cinayət əməlindən — hərbi əmlakı itirmədən fərqləndirmək lazımdır. Bu cinayət əməlləri bir-birindən subyektlərinə və obyektiv cəhətinə görə fərqlənir. Belə ki, CM-in 347-ci maddəsi üzrə xüsusi subyekt, yəni hərbi qulluqçu, 231-ci maddə üzrə isə ümumi subyekt nəzərdə tutulmuşdur. Obyektiv cəhətə gəldikdə, CM-in 347-ci maddəsində xidməti istifadə üçün verilmiş silahın itirilməsi, CM-in 231-ci maddəsində isə istifadə üçün deyil, mühafizə edilmək üçün verilmiş silahın talanması və ya məhv edilməsi ilə nəticələnən vəzifənin lazımınca yerinə yetirilməməsindən söhbət gedir.

7. Sadalanan predmetlərin mühafizəsi üzrə vəzifənin lazımınca yerinə yetirilməməsi yalnız bu predmetlərin talanmasına və ya məhv edilməsinə, yaxud digər ağır nəticələrə səbəb olduqda, cinayət məsuliyyətinə səbəb olur.

8. Nəzərdən keçirilən cinayət **maddi tərkiblidir.** Bu səbəbdən də CM-in 231-ci maddəsi ilə məsuliyyətə cəlb etmək üçün qeyd olunan nəticələrin baş verməsi və silahın mühafizəsi üzrə vəzifələrin lazımınca yerinə yetirilməməsi arasında səbəbli əlaqə müəyyən edilməlidir.

9. «Talama» anlayışının izahı CM-in 177.1-ci maddəsinin şərhində verilmişdir.

Odlu silahı talama silahın mühafizəsi tapşırılmış şəxs tərəfindən deyil, digər şəxs tərəfindən törədilməlidir. Odlu silah onun mühafizəsi tapşırılmış şəxs tərəfindən talandıqda, əməl CM-in 232-ci maddəsi ilə tövsif olunur.

10. Odlu silahı və qeyd olunan digər predmetləri **məhv etmə** dedikdə onları sonradan bərpa edilərək təyinatı üzrə istifadə olunması imkanını aradan qaldıran vəziyyətə salma başa düşülür. Məsələn, pulemyotu yandıraraq əritmə, dinamiti partlatma, bantı suya salıb islatma və s.

11. CM-in 231-ci maddəsində nəzərdə tutulan mənada digər **ağır nəticələr** dedikdə odlu silahı və ya qeyd olunan digər predmetləri talayan şəxsin insanın sağlamlığına ağır və ya az ağır zərər vurması, digər şəxsi öldürməsi, partlayış və ya yanğın törətməklə fiziki və ya hüquqi şəxslərə külli miqdarda maddi ziyan vurması və s. bu kimi nəticələr başa düşülməlidir.

12. Bu cinayət **xüsusi subyektlidir**, yəni onun subyekti müqavilə və ya xüsusi sərəncam əsasında, yaxud xidməti vəzifəsinə görə odlu silahın və bu cinayətin digər predmetlərinin mühafizəsi tapşırılmış **16** yaşına çatmış şəxs ola bilər. Lakin təcrübədə odlu silahın mühafizəsinin 18 yaşına çatmayan şəxslərə tapşırılmasına, demək olar ki, rast gəlinmir.

13. CM-in 231-ci maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** yalnız ehtiyatsızlıqla (özünəgüvənmə və ya etinasızlıqla) törədilə bilər. Özünəgüvənmə zamanı təqsirkar şəxs odlu silahın və bu cinayətin digər predmetlərinin mühafizəsi üzrə vəzifəsini lazımınca yerinə yetirmədiyini dərk edir, bunun nəticəsində onların talanması və ya məhv edilməsi, yaxud digər ağır nəticələrin baş verməsi imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir. Məsələn, silah satılan mağazanın qarovulçusu öz postunu müvəqqəti tərk edərək, yerində itini qoyur və bununla da silahın talanmasının qarşısını alacağını güman edir.

Etinasızlıq zamanı şəxs odlu silahın və digər predmetlərin mühafizəsi üzrə vəzifəsini lazımınca yerinə yetirmədiyini dərk edir, bunun ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür. Məsələn, subyekt mühafizə olunan obyektə vaxtından bir qədər gec gedir və bu zaman heç bir kriminal nəticə baş verməyəcəyinə ümid bəsləyir. Lakin bu müddət ərzində kənar şəxs mühafizəçinin gəlmədiyindən istifadə edərək obyektdən odlu silah və ya döyüş sursatı, yaxud partlayıcı maddə talayır.

14. Bu cinayətin predmetlərinin mühafizəsi tapşırılmış şəxs qeyd olunan kriminal nəticələrin baş verməsini qabaqcadan görür, lakin öz vəzifəsini lazımınca yerinə yetirmir və bu zaman həmin nəticələrin baş verməsini ya arzu edir, yaxud da şüurlu surətdə onlara yol verirsə, onun əməli qəsdən törədilən cinayət kimi, məsələn, CM-in 232.1-ci maddəsində təsvir olunan cinayətdə iştirakçılıq kimi tövsif edilməlidir.

Maddə 232. Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə

232.1. Odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama, yaxud hədə-qorxu ilə tələb etmə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

232.2. Eyni əməllər:

232.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

232.2.2. təkrar törədildikdə;

232.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

232.2.4. həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

232.3. Bu Məcəllənin 232.1 və ya 232.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

232.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

232.3.2. həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə —

altı ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə — «Azərbaycan» q., 16 mart 2012-ci il).*

1. Bu cinayətin **obyekti** CM-in 232.1-ci maddəsində qeyd olunan predmetlərin qanunla tənzimlənən dövriyyəsi sahəsində ictimai təhlükəsizlik və mülkiyyət münasibətləridir.

2. Şərh olunan cinayətin **predmetlərinin** (odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular) anlayışı CM-in 228.1-ci maddəsinin şərhində verilmişdir.

3. Nəzərdən keçirilən cinayətin **obyektiv cəhəti** odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama, yaxud hədə-qorxu ilə tələb etmədə ifadə olunur.

4. Bu cinayət yalnız **hərəkətlə** törədilə bilər.

5. CM-in 232.1-ci maddəsində **«talama»** dedikdə odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə, israf etmə yolu ilə ələ keçirmə başa düşülür.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 27 may 2005-ci il tarixli 2 saylı Qərarının 11-ci bəndində deyilir ki, **odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların talanması** dedikdə belə predmetləri mənimsəmək və ya başqa şəxsə vermək, habelə öz mülahizəsinə uyğun şəkildə istifadə etmək məqsədi ilə onları hər hansı bir üsulla (quldurluq istisna olmaqla) ələ keçirmək başa düşülməlidir.

Fikrimizcə, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarında tutulan mövqe cinayət qanunvericiliyinə uyğun deyildir. Cinayət qanunvericiliyində «talama» anlayışı CM-in 177-ci, 178-ci, 179-cu, 180-ci və 181-ci maddələrində nəzərdə tutulan cinayətləri əhatə edir. Ona görə də Azər-

baycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarında qul-durluğun talama cinayətlərinin törədilmə üsullarından kənarda saxlanılmasını başa düşmək çətindir.

CM-in 232.1-ci maddəsində göstərilən odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etməyə görə cinayət məsuliyyətinin yaranması üçün bu predmetlərin mülkiyyətçisinin və ya sahibinin kim olması, habelə onların miqdarı və dəyəri əhəmiyyət kəsb etmir.

Həmin predmetlərin talama, yaxud hədə-qorxu ilə tələb edilməsinin **şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi** dedikdə həmin əşyaların müəyyən müddətə xüsusi vəzifələri yerinə yetirmək üçün (məsələn, qarovulçu, növbə üzrə asayişin mühafizəsində iştirak edən, müəyyən qaydalar üzrə daimi silah gəzdirmək hüququ olan polis əməkdaşları, keşikçi, inkassatorun öz xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar) verildiyi şəxs tərəfindən onların talanması və ya hədə-qorxu ilə tələb edilməsi başa düşülür.

Eyni zamanda, mühafizə üçün etibar olunduğu şəxs tərəfindən odlu silahın və şərh olunan cinayətin digər predmetlərinin talanması dedikdə onların anbarda və ya başqa saxlanc yerində nəinki qoruyub mühafizə etmək vəzifələrini yerinə yetirən şəxs, həmçinin onların xidməti vəzifələri ilə əlaqədar öhdəsində olduğu vəzifəli və maddi məsuliyyətli şəxs tərəfindən talanması başa düşülür (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 25-ci bəndi).

6. CM-in 228.1-ci maddəsində göstərilmiş **yivsiz odlu ov silahının, onun komplekt hissələrinin və onun üçün döyüş sursatının talanması və ya hədə-qorxu ilə tələb edilməsi** CM-in 232.1-ci maddələrində nəzərdə tutulan cinayətin tərkibini yaradır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 21 iyun 2010-cu il tarixli Qərarı).

7. «Hədə-qorxu ilə tələb etmə»nin anlayışı CM-in 182.1-ci maddəsinin şərhində verilmişdir.

8. CM-in 232.1-ci maddəsində nəzərdə tutulan predmetləri talama **maddi**, hədə-qorxu ilə tələb etmə isə **formal tərkibli** olduğu üçün bu cinayətlərin başa çatma momentləri bir-birindən fərqlənir. Belə ki, talama qeyd olunan predmetlər ələ keçirildiyi andan, hədə-qorxu ilə tələb etmə isə həmin predmetlərin müəyyən hərəkətlər ediləcəyi hədəsi altında verilməsi tələbi irəli sürüldüyü andan **başa çatmış** hesab edilir. Törədilmiş əməli qeyd olunan predmetləri talama kimi tövsif etmək üçün onların ələ keçirilməsindən ibarət olan nəticə, habelə təqsirkar şəxsin hərəkətləri ilə belə nəticə arasında səbəbli əlaqə müəyyən edilməlidir.

9. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda adı çəkilən Qərarının 12-ci bəndinə görə CM-in 232-ci maddəsi ilə cinayət məsuliyyəti, nəinki funksional istifadə üçün yararlı olan silahların talanması, həmçinin təmir edilmiş yararsız odlu silahların və ya odlu silah vəziyyətinə gətirilmiş təlim silahının talanması zamanı da yaranır.

Təqsirli şəxs yanılıb funksional istifadə üçün yararlı olmayan silahı, döyüş sursatını, partlayıcı maddəni və qurğunu yararlı hesab edərək talamışsa, onun əməli həmin predmetlərin talanmasına cəhd kimi tövsif edilməlidir.

Odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular dövlət və digər müəssisə və təşkilatlardan, eləcə də onları qanuni və qanunsuz yolla əldə etmiş ayrı-ayrı vətəndaşlardan talandıqda, CM-in 232-ci maddəsində nəzərdə tutulmuş məsuliyyət yaranır.

10. Odlu silahın komplekt hissələrini talama və sonradan həmin hissələrdən odlu silah hazırlama cinayətlərin məcmusu qaydasında CM-in 229.1-ci və 232.1-ci maddələri ilə tövsif edilməlidir.

11. CM-in 20.2-ci maddəsinə görə bu cinayətin **subyekti** cinayəti törədənədək 14 yaşı tamam olmuş, eləcə də odlu silahın və bu cinayətin digər predmetlərinin xidməti vəzifəsinə görə inanılıb tapşırıldığı şəxs ola bilər (məsələn, odlu silahı mənimsəmə yolu ilə talama).

12. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar odlu silahı və qeyd olunan digər predmetləri taladığını və ya hədə-qorxu ilə tələb etdiyini dərk edir və bu hərəkətləri etməyi arzu edir.

13. CM-in 228.1-ci maddəsində nəzərdə tutulan əməl müstəqil cinayət tərkibi kimi müəyyən edildiyi üçün bu cinayətin predmetlərin talanması və onların sonradan başqasına verilməsi, satılması, saxlanılması, daşınması və gəzdirilməsi CM-in 228.1-ci və 232.1-ci maddələrində nəzərdə tutulan cinayətlərin real məcmusu qaydasında tövsif edilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun istinad edilən Qərarının 17-ci bəndi).

14. CM-in 228.1-ci, 229.1-ci və 232.1-ci maddələrində təsvir olunan cinayətlər başqa cinayəti törətmək məqsədi ilə edildikdə, təqsirli şəxsin əməli cinayətlərin məcmusu qaydasında **başa çatmış** cinayət kimi CM-in 228.1-ci və ya 229.1-ci, yaxud 232.1-ci maddələri və başqa cinayətin (ağır və ya xüsusilə ağır cinayətin) edilməsi üçün hazırlıq kimi tövsif edilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan Qərarının 16-cı bəndi).

15. CM-in 232.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: 1) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi; 2) təkrar törədilməsi; 3) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi; 4) həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi nəzərdə tutulur.

Cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi** anlayışı CM-in 34.2-ci maddəsinin şərhində verilmişdir.

CM-in 232.2.2-ci maddəsində göstərilən **təkrarlıq** əlaməti, təqsirkar şəxs, əvvəllər odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların talanması üstündə məhkum olunmadıqda yaranır. Şəxs cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçdikdə, məhkumluq edildikdə və məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən bu cinayəti törətməsi təkrarlıq əlaməti yaranmır. Bu halda cinayətin residivinə görə cəza təyin edilir.

CM-in 232.1-ci maddəsində qeyd olunan predmetləri talama, yaxud hədə-qorxu ilə tələb etmənin **şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə** törədilməsi dedikdə həmin əşyaların müəyyən müddətə xüsusi vəzifə-

ləri yerinə yetirmək üçün (məsələn, qarovulçu, növbə üzrə asayişin mühafizəsində iştirak edən, müəyyən qaydalar üzrə daimi silah gəzdirmək hüququ olan polis əməkdaşları, keşikçi, inkassatorun öz xidməti vəzifələrini yerinə yetirdiyi zaman) verildiyi şəxs tərəfindən onların talanması və ya hədə-qorxu ilə tələb edilməsi başa düşülür.

Mühafizə üçün etibar olunduğu şəxs tərəfindən odlu silahın və şərh olunan cinayətin digər predmetlərinin **talanması** dedikdə onları anbarda və ya başqa saxlanc yerində nəinki qoruyub mühafizə etmək vəzifələrini yerinə yetirən şəxs, həmçinin onların xidməti vəzifələri ilə əlaqədar öhdəsində olduğu vəzifəli və maddi məsuliyyətli şəxs tərəfindən talanması başa düşülməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 25-ci bəndi).

Həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etməklə hədələmənin anlayışı CM-in 180.2.4-cü və 182.1-ci maddələrinin şərhində verilmişdir.

16. CM-in 232.3-cü maddəsində bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: 1) mütəşəkkil dəstə tərəfindən törədilməsi; 2) həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi nəzərdə tutulur.

Cinayətin **«mütəşəkkil dəstə»** tərəfindən törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsinin şərhində verilmişdir.

Həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə və ya belə zor tətbiq etməklə hədələmənin anlayışı CM-in 181.1-ci maddəsinin şərhində verilmişdir.

17. Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etməyə görə cinayət məsuliyyətinin yaranması üçün bu predmetlərin mülkiyyətçisinin və ya sahibinin kim olması, habelə onların miqdarı və dəyəri əhəmiyyət kəsb etmir.

Maddə 233. İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə

İctimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə —

beş min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 2 noyabr 2012-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 11 noyabr 2012-ci il; 9 noyabr 2017-ci il).*

1. Nəzərdən keçirilən cinayətin adından da göründüyü kimi, onun **bilavasitə obyekti** qismində ictimai qayda, habelə nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətini təmin edən ictimai münasibətlər çıxış edir.

2. Şərh olunan cinayət **obyektiv cəhətdən** ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmədə və ya bu cür hərəkətlərdə fəal iştirak etmədə ifadə olunur.

3. **İctimai qaydanın kobud surətdə pozulması** dedikdə şəxsi və ya ictimai mənafelərə mühüm ziyan vuran, cəmiyyət üzvlərinə qərəzli surətdə təhqiredici təsir göstərən hərəkətlər başa düşülür. İctimai qaydanın kobud surətdə pozulması onun pozulmasının dərəcəsini əks etdirir və bu pozuntunun mühümlüyünü, ciddiliyini bildirir. Bu pozuntunun məzmunu hərəkətlərin törədilmə yeri və üsulu, onların intensivliyi və davam etmə müddəti, eləcə də işin digər halları nəzərə alınmaqla müəyyən edilməlidir. İctimai qaydanı kobud surətdə pozan hərəkətlərə mədəni, dini və ya sair ictimai tədbiri pozma, ictimai yerlərdə təsadüfi şəxsləri və ya şəxsi ucadan söyüş söyərək təhqir etmə, gecə vaxtı vətəndaşların dincliyini, ictimai asayişi uzun müddətə pozma və s. aid edilə bilər.

4. **Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmama** dedikdə təqsirkar şəxsin törətdiyi qanunazidd hərəkətləri dayandırmaq haqqında hakimiyyət nümayəndəsinin irəli sürdüyü tələbi (yaxud tələbləri) dərk edərək, onları şüurlu surətdə yerinə yetirməməsi başa düşülməlidir.

Hakimiyyət nümayəndəsi dedikdə hüquq mühafizə və ya nəzarətedici orqanın vəzifəli şəxsi, habelə ondan xidməti asılılıqda olmayan şəxslərə münasibətdə qanunla müəyyən edilmiş qaydada sərəncamverici səlahiyyətlərə malik olan digər vəzifəli şəxs başa düşülür. Bunlara millət vəkilləri, hüquq mühafizə orqanlarının əməkdaşları (polis işçiləri, prokurorluğun işçiləri, hakimlər və s.), eləcə də nəzarətedici orqanın (gömrük, immiqrasiya, vergi, sanitar-karantin, baytarlıq, yanğınsöndürmə və s.) işçiləri aid edilir.

5. CM-in 233-cü maddəsinin dispozisiyasından aydın olur ki, bu maddə ilə cinayət məsuliyyəti hakimiyyət nümayəndəsinin yalnız qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan hərəkətlərin törədilməsi nəticəsində yarana bilər. Deməli, hakimiyyət nümayəndəsinin tələbləri qeyri-qanuni xarakter daşıyırsa, şəxs belə tələblərə tabe olmamağa görə cinayət məsuliyyəti daşıya bilməz.

Hakimiyyət nümayəndəsinin qanuni tələblərinin məzmunu müxtəlif ola bilər. Lakin belə tələblər, əsasən təqsirkarın qanunazidd əməllərini dayandırması barədə olur.

Təqsirkar şəxs hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmağa real imkana malik olmalıdır. Məsələn, əyləci işləməyən avtomobili qanunla qadağan edilən yerdə yüksək sürətlə idarə edən şəxs hakimiyyət nümayəndəsinin (dövlət yol polisi əməkdaşının) onu dərhal saxlamaq haqqında tələbinə riayət etmək istəsə də, avtomobilin texniki vəziyyəti onu bu imkandan məhrum edir. Qeyd olunan hal şəxsin cinayət məsuliyyətini istisna edə və ya onu yüngülləşdirə bilər.

6. **Nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin po-**

zulmasına səbəb olan hərəkətlər dedikdə bu obyektlərin fəaliyyətinin müvafiq qanunvericilik aktlarında nəzərdə tutulan qaydalarını pozan hərəkətlər başa düşülür. Belə hərəkətlərə nəqliyyat vasitələrinin hərəkət yollarını daşlarla, müxtəlif ağır predmetlərlə kəsmədə, müəssisə, idarə və təşkilatların elektrik enerjisi ilə təchizatını pozmada və s. bu kimi hərəkətlərin törədilməsində ifadə oluna bilər.

7. CM-in 233-cü maddəsində nəzərdə tutulan mənada **ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə** dedikdə iki və ya daha çox icraçını toplamağa, onları maddədə göstərilən ictimai təhlükəli hərəkətləri törətməyə cəlb etməyə yönəldilmiş hərəkətlərə yol vermə, yaxud sadalanan cinayətkar hərəkətlərin həyata keçirilməsi üçün qeyd olunan bir qrup şəxsə bilavasitə rəhbərlik etmə (konkret sərəncamlar vermə, qrupun üzvlərinin hərəkətlərini istiqamətləndirmə və s.) başa düşülür.

8. CM-in 233-cü maddəsində təsvir edilən hərəkətlərdə **fəal iştirak etmə** dedikdə ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin törədilməsində bilavasitə və şəxsən iştirak etmə başa düşülməlidir.

CM-in 233-cü maddəsinin dispozisiyasında göstərilən hərəkətlərin törədilməsində fəal iştirak etməyən, yəni bilavasitə və şəxsən həmin hərəkətləri icra etməyən şəxsin bu maddə üzrə cinayət məsuliyyəti istisna edilir.

9. Şərh edilən cinayət obyektiv cəhətdən yalnız **hərəkətlə** törədilə bilər.

10. Bu cinayət əməli **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs CM-in 233-cü maddəsinin dispozisiyasında qeyd olunan ictimai təhlükəli nəticələrə səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etdiyini və ya bu cür hərəkətlərdə fəal iştirak etdiyini şüurlu surətdə dərk edir və bunu arzu edir.

Nəzərdən keçirilən cinayətin **motiv** və **məqsədi** müxtəlif ola bilər (məsələn, milliyyətçilik, siyasi motivlər və s.). Bunlar əməlin tövsifinə təsir etmir və yalnız məhkəmə tərəfindən cəzanın növünün və ölçüsünün müəyyən edilməsində nəzərə alınır.

11. CM-in 233-cü maddəsində nəzərdə tutulan cinayət **formal tərkibli** olduğu üçün bu maddənin dispozisiyasında təsvir edilən ictimai təhlükəli hərəkətlər törədildiyi andan **başa çatmış** hesab olunur, yəni bu cinayətin başa çatmış hesab edilməsi üçün hər hansı kriminal nəticələrin baş verməsi tələb olunmur.

12. Şərh olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, istənilən anlaqlı fiziki şəxs ola bilər.

13. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 233-1. Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma

233-1.1. Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

233-1.2. Eyni əməllər:

233-1.2.1. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə;

233-1.2.2. təkrar törədildikdə;

233-1.2.3. ağır nəticələrə səbəb olduqda —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyalardan hər hansı birinin qanunsuz olaraq hazırlanması, əldə edilməsi, saxlanması, daşınması, gəzdirilməsi, başqasına verilməsi və ya satılmasına görə bu Məcəllənin digər maddələrində və ya Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində məsuliyyət nəzərdə tutulduqda, həmin əmələ bu maddənin qüvvəsi şamil edilmir *(Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il tarixli Qanunu ilə əlavə edilmişdir; Azərbaycan Respublikasının 7 mart 2012-ci il və 28 aprel 2015-ci il tarixli qanunları ilə edilmiş düzəlişlə — «Azərbaycan» q., 10 noyabr 2004-cü il; 16 mart 2012-ci il).*

1. Şərh edilən cinayət əməlinin **bilavasitə obyekti** ictimai təhlükəsizlik mülahizələrinə görə mülki dövriyyədən çıxarılmış əşyalarla və maddələrlə davranma sahəsində təhlükəsizliyin təmin edilməsi ilə bağlı ictimai münasibətlərdir.

2. CM-in 233-1-ci maddəsində nəzərdə tutulmuş əməlin **ictimai təhlükəliliyi** həmin normada sadalanan əşya və maddələrlə bağlıdır. Adi halda tam normal hesab edilən həmin hərəkətlər məhz sadalanan əşya və maddələrlə bağlı olduqda ictimai təhlükəli xarakter alır. Odur ki, təhlil edilən cinayət tərkibinin əsas əlamətlərindən biri cinayətin predmetidir.

Cinayətin predmeti qismində qanunverici **qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların** adını çəkir. Azərbaycan Respublikasının «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» 23 dekabr 2003-cü il tarixli Qanununa əsasən həmin əşyalara aşağıdakılar aiddir:

- döyüş təyinatlı hərbi texnika;
- qanunla dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatı;
- dövlət hakimiyyəti orqanlarının rabitə şəbəkəsi, müdafiə, təhlükəsizlik və asayişi mühafizə ehtiyacları üçün nəzərdə tutulan rabitə şəbəkələri;
- müdafiə, milli təhlükəsizlik, hərbi əks-kəşfiyyat, xüsusi dövlət mühafizə xidməti orqanlarının şəxsi heyətinin xüsusi ləvazimatı və onların istehsalına və işlədilməsinə dair normativ-texniki sənədlər;
- hərbi səfərbərlik təyinatlı əmlak;
- Dövlət kəmiyyət vahidləri etalonları;

- dövlət, peşə, qulluq, bank, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına dair məlumatları əks etdirən sənədlər;
- Azərbaycan Respublikasının qızıl ehtiyatı və əyar damğası;
- pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıq;
- qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr;
- insan orqanı və (və ya) toxumaları;
- tətbiqi müəyyən edilmiş qaydada qadağan edilmiş dərman vasitələri;
- rəsmi sənədlər, şəxsiyyəti təsdiq edən sənədlər, Azərbaycan Respublikasının dövlət təltifləri;
- dövlət arxiv fondunun sənədləri;
- hazırlanmasının və ya uyğunlaşdırılmasının əsas məqsədi kibercinayətlər törətmək olan qurğular və ya kompyuter proqramları;
- elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkilər, həmçinin müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları.
- elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan, genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları.
- diametri 0,5 mm-dən az olan sintetik təkqat saplardan toxunmuş və dəliklərin konstruktiv ölçüləri 120 mm-dən kiçik ilgəkli balıqtutan torlar.
- keçirici naqillərlə birləşdirilmiş elektrik siqnal generatoru və akkumulyatordan (batareya) ibarət, balıq və digər su bioresurslarını elektrik cərəyanı vasitəsilə ovlamaq üçün istifadə edilən balıqtutan cihazlar.

Lakin CM-in 233-1-ci maddəsinin tətbiqi zamanı bu normanın qeydini nəzərə almaq lazımdır. Həmin qeydin tələbinə əsasən **silah hesab edilən hərbi texnika** (toplar, minaatanlar, raket qurğuları və s.), **qanunla dövriyyəsi qadağan edilən istənilən növ silah və döyüş sursatı, qanunla dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr və prekursorlar** CM-in 233-1-ci maddəsində nəzərdə tutulan cinayətin predmeti deyildir. Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyalardan hər hansı birinin qanunsuz olaraq hazırlanması, əldə edilməsi, saxlanması, daşınması, gəzdirilməsi, başqasına verilməsi və ya satılmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində məsuliyyət nəzərdə tutulduqda da həmin əməl barəsində CM-in 233-1-ci maddəsi tətbiq edilə bilməz.

3. Şərh edilən cinayətin **predmeti** olan əşya və maddələr Azərbaycan Respublikasının «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» 23 dekabr 2003-cü il tarixli, 564-IIQ saylı Qanununda qruplar şəklində müəyyən edilmişdir və bu qruplardan hər birinə kifayət qədər geniş çeşiddə əşya və maddələr daxildir. Ona görə də hər hansı bir əşya və maddənin bu cinayətin predmeti olub-olmamasının müəyyən edilməsi təcrübədə müəyyən çətinliklər yarada bilər. Odur ki, adı çəkilən Qanunda siyahısı verilmiş hər bir qrupa aid əşya və maddələrin normativ anlayışını və dairəsini müəyyən edən normativ aktlara müraciət edilməlidir. CM-in 233-

1-ci maddəsinin predmetini təşkil edən bəzi əşya və maddələrin əlamətləri, təsnifatı, dövriyyəsi ilə bağlı məsələlər aşağıdakı normativ aktlarda müəyyən edilmişdir:

- Azərbaycan Respublikasının «Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Qanunu;
- Azərbaycan Respublikasının «Telekommunikasiya haqqında» 14 iyun 2005-ci il tarixli Qanunu;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1998-ci tarixli, 204 saylı qərarı ilə təsdiq edilmiş «Milli mədəniyyət sərvətlərinin mühafizə Qaydaları», «Milli mədəniyyət sərvətlərindən istifadə Qaydaları», «Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları»;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 avqust 1999-cu il tarixli, 130 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının mədəniyyət sərvətlərinin milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınması Qaydası»;
- «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli, 910 saylı Qanunu;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 oktyabr 2004-cü il tarixli, 157 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları»;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 sentyabr 2000-ci il tarixli, 168 saylı qərarı ilə təsdiq edilmiş «Transplantasiya obyekti olan orqan və (və ya) toxumaların Siyahısı»;
- «İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında» Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli, 726-IQ saylı Qanunu;
- «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının 22 dekabr 2006-cı il tarixli Qanunu;
- «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli, 817 saylı Qanunu;
- «Pasportlar haqqında» Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli, 813 saylı Qanunu;
- «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının 10 noyabr 1992-ci il tarixli, 370 saylı Qanunu;
- Azərbaycan Respublikası Prezidentinin 14 may 1999-cu il tarixli, 130 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə»;
- «Azərbaycan Respublikasının fəxri adları haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli, 706 saylı Fərmanı;
- «Milli arxiv fondu haqqında» Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli, 694-IQ saylı Qanunu;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 mart 2000-ci il tarixli, 32 saylı qərarı ilə təsdiq edilmiş «Dövlət arxiv fondunun sənədlərindən istifadə Qaydaları».

Lakin həmin əşya və maddələrin bəzilərinin dəqiq təsnifatını müəyyən edən normativ aktlar hələ ki, qəbul edilməmişdir. Bu səbəbdən konkret əşya və ya maddənin CM-in 233-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin predmeti olub-olmadığını müəyyən etmək üçün hər bir halda müvafiq ekspertiza keçirilməlidir.

4. Təhlil edilən cinayət tərkibinin **obyektiv cəhəti** mülki dövriyyədən çıxarılmış predmetlər barəsində aşağıdakı **qanunsuz hərəkətləri alternativ olaraq** nəzərdə tutur: a) həmin əşyaları qanunsuz olaraq hazırlama; b) onları qanunsuz olaraq əldə etmə; c) onları qanunsuz olaraq saxlama; ç) onları qanunsuz olaraq daşıma; d) onları qanunsuz olaraq gəzdirmə; e) onları qanunsuz olaraq başqasına vermə; ə) həmin əşyaları qanunsuz olaraq satma.

Həmin hərəkətlərin izahı CM-in 228-ci və 229-cu maddələrinin şərhində verilmişdir.

5. Nəzərdən keçirilən əməllərin cinayət hesab edilməsi üçün bu əməllərin **qanunsuz** olması tələb olunur. Bu hərəkətlərin qanunsuz olması dedikdə həmin hərəkətlərin CM-in 233-1-ci maddəsində göstərilən predmetlərin xüsusi hüquqi rejimini və qanuni dövriyyəsinin müəyyən olunmuş qaydalarını pozmaqla törədilməsi başa düşülməlidir. Şərh edilən cinayətin predmetlərinin hüquqi rejimi və qanuni dövriyyəsinin qaydaları yuxarıda sadalanan normativ aktlarda verilmişdir (nəzərə almaq lazımdır ki, bu predmetlərdən bəzilərinin dövriyyəsi ilə bağlı qanunvericilikdə boşluq mövcuddur).

6. CM-in 233-1-ci maddəsində nəzərdə tutulmuş cinayət **formal tərkiblidir** və sadalanan hərəkətlərdən hər hansı birinin törədildiyi andan **başa çatmış** hesab ediləcəkdir.

7. Təhlil edilən cinayət tərkibinin **subyektiv cəhəti** təqsirin **birbaşa qəsd** formasını nəzərdə tutur. Təqsirkar şəxs mülki dövriyyədən çıxarılmış predmetlər barəsində göstərilən qanunsuz hərəkətləri etdiyini dərk edir və bunu arzu edir.

8. Şərh edilən cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

9. CM-in 233-1.2-ci maddəsində təhlil edilən cinayət tərkibinin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** verilmişdir: a) qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satmanın bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədilməsi; b) bu əməllərin təkrar törədilməsi; c) həmin əməllərin ağır nəticələrə səbəb olması.

Cinayətin **bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədilməsinin** anlayışı CM-in 34-cü maddəsində, **təkrar** törədilməsinin anlayışı isə CM-in 16-cı maddəsində verilmişdir.

CM-in 233-1.2.3-cü maddəsində **ağır nəticələr** dedikdə mülki dövriyyədən çıxarılmış predmetlərlə qanunsuz hərəkətlər nəticəsində insan sağlamlığına ağır və az ağır zərər yetirilməsi, insan ölümü, dövlətin, ayrı-ayrı fiziki və hüquqi şəxslərin mənafeyinə əhəmiyyətli ziyan dəyməsi, ətraf mühitə ciddi zərərin vu-

rulması, həmin predmetlərdən istifadə olunmaqla terrorçuluq aksiyalarının və başqa bu kimi ağır və xüsusilə ağır cinayətlərin törədilməsi və s. bu kimi nəticələr başa düşülməlidir.

Təqsirləndirilən şəxsin baş vermiş ağır nəticələrə psixi münasibəti **ehtiyatsızlıq** formasında olacaqdır. Qəsd olduqda onun əməli cinayətlərin məcmusunu (CM-in 233-1-ci maddəsi və konkret nəticədən asılı olaraq cinayət məsuliyyəti nəzərdə tutan digər maddəsi) yaradacaqdır.

Maddə 233-2. Sertifikatlaşdırılmamış rabitə vasitələrinin satışının təşkili

Qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkili dövlətin və milli təhlükəsizliyin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda —

min manatdan iki min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 20 oktyabr 2006-cı il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il tarixli Qanunu ilə düzəliş edilmişdir — «Azərbaycan» q., 13 dekabr 2006-cı il; 7 iyun 2008-ci il).*

1. Şərh olunan maddədə nəzərdə tutulan cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, sertifikatlaşdırılması qanunvericiliklə tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışı milli təhlükəsizliyə və dövlət təhlükəsizliyinə zərər vurulmasına səbəb ola bilər.

2. CM-in 233-2-ci maddəsində göstərilmiş cinayətin **xüsusi obyektini** ictimai təhlükəsizliyi və ictimai qaydanı təmin edən ictimai münasibətlər, **bilavasitə obyektini** isə rabitə vasitələrinin sertifikatlaşdırılmasını sahəsində təhlükəsizliyi təmin edən ictimai münasibətlər təşkil edir.

3. CM-in 233-2-ci maddəsində nəzərdə tutulan cinayət tərkibi **blanket** dispozisiyalıdır. Blanket əlamətlərdən biri bu cinayətin predmeti ilə əlaqədardır. Şərh olunan cinayətin **predmeti** qismində qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələri çıxış edir. Qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin siyahısı və onların satışı ilə əlaqədar normalar «Telekommunikasiya haqqında» Azərbaycan Respublikasının 14 iyun 2005-ci il tarixli Qanununda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında» 1 iyul 1993-cü il, «Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydalarının təsdiq edilməsi haqqında» 21 avqust 1998-ci il və «Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında» 7 iyul 2005-ci il tarixli qərarlarında nəzərdə tutulmuşdur.

4. Şərh olunan maddədə qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkilinə görə cinayət məsuliyyəti nəzərdə tutulsa da, fikrimizcə, bu cinayətin predmeti genişləndirici təfsir olunmalıdır. Ona görə ki, təkcə rabitə vasitələrinin deyil, həm də **rabitə qurğu-**

larının məcburi sertifikatlaşdırılması haqqında normativ hüquqi aktlarda birbaşa göstəriş nəzərdə tutulur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydalarının təsdiq edilməsi haqqında» 21 avqust 1998-ci il tarixli Qərarına əlavədə həm rabitə (telekommunikasiya) vasitələri, həm də rabitə (telekommunikasiya) qurğularının məcburi sertifikatlaşdırılması ilə əlaqədar müddəalar təsbit olunmuşdur. Fikrimizcə, qanunverici şərh olunan maddədə rabitə vasitələri dedikdə həm də rabitə qurğularını nəzərdə tutur.

Rabitə vasitələri (qurğuları) dedikdə yeraltı, hava və sualtı kabel rabitə xətləri, məftilli rabitə xətləri, radiorele xətləri və stansiyaları, yerüstü peyk stansiyaları, GSM, CDMA və digər müasir standartlı mobil şəbəkələrin stansiyaları, kabel xətlərinin yerüstü və yeraltı qurğuları, xidmət olunmayan gücləndirici məntəqə, kabel köşkləri və şkafları, yeraltı kabel xətlərini göstərən nişanlayıcı direklər, telekommunikasiya xidmətlərinin göstərilməsi üçün istifadə edilən bina, qüllə və digər mühəndis-texniki qurğular başa düşülür. Lakin nəzərə almaq lazımdır ki, CM-in 233-2-ci maddəsi üzrə cinayət məsuliyyəti yalnız sertifikatlaşdırılması tələb olunan, lakin sertifikatlaşdırılmayan rabitə (telekommunikasiya) vasitələrinin satışının təşkili ilə əlaqədar olaraq yaranır.

5. Qanunvericiliklə **sertifikatlaşdırılması tələb olunan rabitə (telekommunikasiya) vasitələri və qurğuları** 7 qrupa bölünür: 1) kommutasiya sistemi funksiyasını yerinə yetirən telekommunikasiya vasitələri və qurğuları (beynəlxalq telefon stansiyaları, şəhərlərarası telefon stansiyaları və s.); 2) rəqəmli daşıyıcı sistem funksiyasını yerinə yetirən telekommunikasiya vasitələri və qurğuları (sinxron rəqəm ierarxiyalı rəqəmli veriliş sistemləri, rəqəmli televiziya və səs yayım veriliş sistemləri və s.); 3) idarəetmə sistemi və monitorinq funksiyalarını həyata keçirən telekommunikasiya vasitələri və qurğuları (radiorele telekommunikasiya sisteminin idarəetmə və monitorinq avadanlıqları və s.); 4) ümumistifadəli telekommunikasiya şəbəkələrində göstərilən xidmətlərin həcminin qeydiyyatı (uçotu) üçün istifadə olunan avadanlıqlar (avtomatlaşdırılmış hesablama sistemi və s.); 5) radioelektron telekommunikasiya vasitələri və qurğuları (radiorele rabitə sistemləri, analoq-rəqəm radiorele rabitə sistemi və s.); 6) əməliyyat-axtarış fəaliyyəti zamanı müvafiq tədbirlərin yerinə yetirilməsini təmin edən telekommunikasiya avadanlıqları və proqram təminatı (əməliyyat-axtarış fəaliyyəti zamanı müvafiq tədbirlərin yerinə yetirilməsini təmin edən və kommutasiya sistemləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən avadanlıqlar və proqram təminatı və s.); 7) ümumistifadəli telekommunikasiya şəbəkəsinin son kabel avadanlıqları, son telekommunikasiya avadanlıqları, telekommunikasiya kabelləri və naqilləri, elektrik qida avadanlıqları (paylayıcı qurğular, kabel qutuları və s.) (Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydalarının təsdiq edilməsi haqqında» 21 avqust 1998-ci il tarixli qərarına Əlavə). Məcburi sertifikatlaşdırmaya aid məhsulların siyahısı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunur və ona ildə bir dəfədən az olmamaq şərtilə yenidən baxılır (Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə

tətbiq edilməsi haqqında» 1 iyul 1993-cü il tarixli Qərarının 3.1.4-cü bəndi).

6. CM-in 233-2-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** aşağıdakı əlamətlərlə xarakterizə olunan cinayət əməlinin törədilməsində ifadə olunur: 1) qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkilindən ibarət olan hərəkət; 2) belə rabitə vasitələrinin satışının təşkilinin dövlət təhlükəsizliyinin və milli təhlükəsizliyin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasında ifadə olunan nəticə; 3) rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkilindən ibarət olan hərəkətlə mühüm zərər vurmada ifadə olunan nəticə arasında səbəbli əlaqə.

7. CM-in 233-2-ci maddəsi yalnız qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkilinə görə cinayət məsuliyyəti nəzərdə tutur. Sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin **sertifikatlaşdırılmadan satışının təşkili** dedikdə həmin rabitə vasitələrinin satışı barədə kütləvi informasiya vasitələrində və digər üsulla reklam və elanların yerləşdirilməsi, hərracların keçirilməsi, satış məntəqələrinin yaradılması və s. hərəkətlər başa düşülməlidir.

Şərh olunan maddənin mənasına görə, sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkili istisna olmaqla, **digər bütün əməllər** cinayət məsuliyyəti yaratmır. Lakin belə vasitə və qurğuların satışının təşkili ilə müqayisədə onların satışı daha çox ictimai təhlükəliliyə malikdir. Fikrimizcə, qeyd olunan halda cinayət məsuliyyətinin nəzərdə tutulması mümkün idi. Digər tərəfdən, əslində satışın təşkili deyil, rabitə vasitələrinin satışı dövlətin və milli təhlükəsizliyin qanunla qorunan mənafelərinə mühüm zərər vura bilər. Bundan başqa, ola bilər ki, rabitə vasitələrinin satışını bir nəfər təşkil etsin, digər şəxs isə yalnız onun satışını həyata keçirsin. CM-in 233-2-ci maddəsinə əsasən bu halda satan şəxsin əməli cinayət məsuliyyətinə deyil, qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan sertifikatlaşdırılmamış rabitə vasitələrinin realizə edilməsinə görə yalnız inzibati məsuliyyətə səbəb olur (İXM-in 363-cü maddəsi).

8. CM-in 233-2-ci maddəsində nəzərdə tutulan cinayət **maddi tərkiblidir**. Bu cinayət sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkilinin dövlət təhlükəsizliyinin və milli təhlükəsizliyin qanunla qorunan mənafelərinə **mühüm zərər vurduğu** andan **başa çatmış** sayılır. Sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışının təşkilinin dövlət təhlükəsizliyinin və milli təhlükəsizliyin qanunla qorunan mənafelərinə **mühüm zərər vurması** dedikdə Azərbaycan Respublikasının dövlət müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlərin yaranması, ictimai-siyasi sabitliyin pozulması, milli və dini münasibətlərin kəskinləşməsi, separatçılıq, etnik, dini və siyasi ekstremizm hallarının yayılması, qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılması, silahlı qiyamın təşkil edilməsi, dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə görə onun həyatına sui-qəsd edilməsi, boru kəmərlərinin, digər kommunikasiyaların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin pozulması və s. başa düşülməlidir. Əgər belə mühüm zərər vurulmamışdırsa, cinayət məsuliyyəti də istisna olunacaqdır.

9. Şərh olunan maddədə nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Şəxs qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan rabitə vasitələrinin sertifikatlaşdırılmadan satışını təşkil etdiyini dərk edir, belə əməlinin dövlətin və milli təhlükəsizliyin qanunla qorunan mənafelərinə mühüm zərər vuracağını qabaqcadan görür və həmin hərəkətləri və onların nəticələrini arzu edir. Motivlər müxtəlif ola bilər və əməlin CM-in 233-2-ci maddəsi ilə tövsifi üçün əhəmiyyət kəsb etmir.

10. CM-in 233-2-ci maddəsində nəzərdə tutulan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Maddə 233-3. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması

Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması —

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir iladək müddətə islah işləri və ya bir iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 20 oktyabr 2006-cı il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə düzəliş edilmişdir — «Azərbaycan» q., 13 dekabr 2006-cı il; 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan maddədə nəzərdə tutulan cinayətin **ictimai təhlükəliliyi** əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması nəticəsində cinayət əməllərinin, milli təhlükəsizlik və dövlət təhlükəsizliyi üçün yaranan təhdidlərin və digər bu kimi halların qarşısının alınmasına yönələn maneələrin yaradılmasında ifadə olunur.

2. CM-in 233-3-cü maddəsində göstərilmiş cinayətin **xüsusi obyektini** ictimai təhlükəsizliyi və ictimai qaydanı təmin edən ictimai münasibətlər, **bilavasitə obyektini** isə rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edən ictimai münasibətlər təşkil edir.

3. Şərh olunan cinayət tərkibi **blanket dispozisiyalıdır**. Blanket əlamətlər bu cinayətin obyektiv cəhətinə və subyektinə aid olan əlamətləri əhatə edir. Əməlin tövsifi üçün Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «Əməliyyat-axtarış fəaliyyəti haqqında», 29 iyun 2004-cü il tarixli «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» və 14 iyun 2005-ci il tarixli «Telekommunikasiya haqqında» qanunlarına istinad edilməlidir.

4. CM-in 233-3-cü maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmamasında ifadə olunur.

5. **Əməliyyat-axtarış tədbirləri** dedikdə əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən həyata keçirilən aşağıdakı əməliyyat-axtarış tədbirləri nəzərdə tutulur: 1) vətəndaşların sorğusu; 2) soraqlaşma; 3) telefon danışıqlarına qulaq asma; 4) poçt, teleqraf və digər göndərişlərin yoxlanılması; 5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması; 6) məhkumların məktublarının yoxlanılması; 7) nəqliyyat vasitələrinə baxış keçirilməsi; 8) binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə; 9) binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi; 10) insanların güdülməsi; 11) şəxsiyyətin eyniləşdirilməsi; 12) nəzarət qaydasında mal alınması; 13) əşya və sənədlərin tədqiqi; 14) müqayisəli tədqiq üçün nümunələrin toplanılması; 15) nəzarətli göndəriş; 16) cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi; 17) hüquqi şəxsin yaradılması; 18) əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi (Azərbaycan Respublikasının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanununun 10-cu maddəsinin 1-ci hissəsi).

Kəşfiyyat tədbirləri dedikdə kəşfiyyat fəaliyyətinin subyektləri tərəfindən həyata keçirilən aşağıdakı kəşfiyyat tədbirləri başa düşülür: a) vətəndaşların sorğusu; b) soraqlaşma; c) radioelektron, video, audio, kino və fotoçəkilişlərinin aparılması; ç) rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması; d) əşya və sənədlərin tədqiqi; e) müqayisəli tədqiqat üçün nümunələrin toplanılması; ə) şəxsiyyətin eyniləşdirilməsi; h) nəzarətli göndərişlərin həyata keçirilməsi; f) hüquqi şəxsin yaradılması («Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanunun 11.1-ci maddəsi). Əks-kəşfiyyat fəaliyyətinin subyektləri isə «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş əməliyyat-axtarış tədbirlərini və dövlət sirri təşkil edən digər xüsusi tədbirləri həyata keçirmək hüququna malikdirlər.

6. **Rabitə (telekommunikasiya) müəssisələri** dedikdə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində hər hansı rabitə xidməti (telefon (məftilli), sellülar (mobil), peycinq, radiotrank və simsiz telefon, respublikadaxili və beynəlxalq telekommunikasiya xidməti, internet xidməti, televiziya və radio yayımı xidmətləri, universal telekommunikasiya xidmətləri və s.) göstərən müəssisələr başa düşülməlidir. Rabitə (telekommunikasiya) şəbəkələri sisteminə ümumistifadəli telekommunikasiya şəbəkəsi, fiziki və hüquqi şəxslərin telekommunikasiya şəbəkəsi, xüsusi təyinatlı telekommunikasiya şəbəkəsi və televiziya və radio yayımı şəbəkəsi daxildir.

7. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən **zəruri şəraitin yaradılmaması** dedikdə müvafiq tədbirləri həyata keçirəcək şəxslərin rabitə müəssisəsinə buraxılmaması, belə tədbirlərin keçirilməsi üçün texniki şəraitin yaradılmaması, rabitə sistemlərinin müvafiq əlavə (xüsusi) texniki vasitələrlə (avadanlıqlarla) - telekommunikasiyalara nəzarət sistemləri ilə təchiz edilməməsi, müvafiq rabitə şəbəkəsindən informasiyanın çıxarılmasını təmin etməmə və s. başa düşülməlidir. Rabitə müəssisələrinin (operatorların, provayderlərin)

vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması o halda CM-in şərh olunan maddəsi ilə məsuliyyət yaradır ki, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsinin Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» və «Kəşfiyyat və əks kəşfiyyat fəaliyyəti haqqında» qanunlarında nəzərdə tutulmuş qayda, üsul və şərtlərinə riayət edilmiş olsun. Başqa sözlə, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin qanuni olaraq həyata keçiriləcəyi təqdirdə zəruri şəraitin yaradılmaması cinayət məsuliyyəti yaradır. Belə tədbirlər qanunsuz olduqda zəruri şəraitin yaradılmaması cinayət məsuliyyətini istisna edir.

8. Rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmamasında ifadə olunan əməllərdən biri əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə sistemlərinin müvafiq əlavə (xüsusi) texniki vasitələrlə (avadanlıqlarla) - **telekommunikasiyalara nəzarət sistemləri** ilə təchiz edilməməsidir. Telekommunikasiyalara Nəzarət Sistemi (TSN) rabitə xidmətlərindən istifadə edənlərin hədəf kimi müəyyən edilməsini, onların məlumat mübadilələrinə və həmçinin şəbəkənin bütün statistik informasiyalarına gizli qaydada nəzarəti təmin edən xüsusi aparat-proqram vasitələridir. TNS məlumat çıxarma vasitələri, nəqliyyat şəbəkəsi və Nəzarət Mərkəzlərindən ibarətdir. Rabitə müəssisələri rabitə sistemlərini TNS-lərlə təchiz edərkən aşağıdakıları nəzərə almalıdırlar: 1) rabitə müəssisələrində müvafiq tədbirlərin keçirilməsi üçün TNS-lərin dəqiq sayı və tərkibi həmin müəssisələr tərəfindən öz rabitə sistemlərinin konfiqurasiyası barədə tam həcmdə məlumatlar təqdim edildikdən sonra Dövlət Təhlükəsizliyi Xidmətindən alınmış konkret texniki-təşkilati şərtlər əsasında müəyyən edilir; 2) TNS-lərin yaradılması və tətbiqi, onlara texniki xidmət göstərilməsi və ayrıca texniki tələblərin yerinə yetirilməsi ilə bağlı maliyyə xərclərinin ödənilməsi rabitə müəssisələrinin hesabına həyata keçirilir; 3) TNS-lərin tətbiqi ilə bağlı işlər MTN-lə razılaşdırılmış məhdud heyət cəlb olunmaqla konfidensial qaydada həyata keçirilir; 4) konspirasiya və istismar şərtlərinə müvafiq olaraq rabitə müəssisələri tərəfindən TNS-lərin yerləşdirilməsi üçün xidməti ərazilər təqdim edilir və həmin ərazilərə MTN əməkdaşlarının daxil olması təmin edilir; 5) quraşdırılmış TNS-lərin istismarı MTN tərəfindən həyata keçirilir; 6) əməliyyat-axtarış və kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin səlahiyyətli subyektləri rabitə şəbəkələrində müvafiq tədbirləri MTN-in istismarında olan TNS-lər vasitəsi ilə həyata keçirirlər; 7) rabitə şəbəkələrində müvafiq tədbirlər «Əməliyyat-axtarış fəaliyyəti haqqında» və «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanunlarında nəzərdə tutulan qaydada həyata keçirilir; 8) müvafiq tədbirlərin keçirilməsinə əsas verən qərarlar və əldə olunan məlumatlar əməliyyat-axtarış və kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri tərəfindən rabitə müəssisələrinə təqdim edilmir (Dövlət Təhlükəsizliyi Xidməti, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Ədliyyə Nazirliyinin birgə təsdiq etdiyi 21 fevral 2006-cı il tarixli «Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin keçirilməsi üçün rabitə şəbəkələrinin rabitə müəssisələri tərəfindən əlavə texniki vasitələrlə təchiz edilməsi Qaydaları»nın 1.5-ci bəndi).

9. CM-in 233-3-cü maddəsində nəzərdə tutulan cinayət **formal** tərkiblidir. Bu cinayət rabitə müəssisəsinin vəzifəli şəxsi tərəfindən əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmadığı andan **başa çatmış** sayılır. Zəruri şəraitin yaradılmaması anı, məsələn, belə şəraiti yaratmaqdan imtina etmə anı ilə müəyyən oluna bilər.

10. Şərh olunan maddədə nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Rabitə müəssisəsinin vəzifəli şəxsi əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün zəruri şərait yaratmadığını dərk edir və belə əməli törətməyi arzu edir. Motivlər müxtəlif ola bilər və əməlin CM-in 233-3-cü maddəsi ilə tövsifi üçün əhəmiyyət kəsb etmir.

10. CM-in 233-3-cü maddəsində nəzərdə tutulan cinayətin **subyekti xüsusidir.** Bu cinayətin subyekti müvafiq **rabitə müəssisəsinin vəzifəli şəxsi** ola bilər. Vəzifəli şəxs qismində rabitə müəssisəsinin rəhbəri (rəhbəri əvəz edən şəxs), rabitə xidməti göstərən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs çıxış edə bilər.

XXVI Fəsil
Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər

Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma

234.1. Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma —

bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.2. Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.3. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları satma, yaxud prekursorları eyni məqsədlə xeyli miqdarda hazırlama, əldə etmə, saxlama, göndərmə və ya daşıma —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.3-1. Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə bu Məcəllənin 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində, yaxud həbs yerlərində törətmə —

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.4. Bu Məcəllənin 234.2 və 234.3-cü maddəsində nəzərdə tutulmuş

əməllər:

234.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

234.4.2. təkrar törədildikdə;

234.4.3. külli miqdarda törədildikdə —

beş ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.5. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, verilməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı, tranzit nəql edilməsi və ya məhv edilməsi qaydalarının, bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması —

min manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

2. Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq və külli miqdarı, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli və külli miqdarı müvafiq qanunlarla müəyyən edilir *(Azərbaycan Respublikasının 30 dekabr 2005-ci il, 17 aprel 2007-ci il, 16 may 2008-ci il, 7 mart 2012-ci il, 6 may 2016-cı il, 31 may 2017-ci il, 17 noyabr 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 15 fevral 2006-cı il; 30 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 16 mart 2012-ci il; 25 may 2016-cı il; 19 iyul 2017-ci il; 1 dekabr 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 234-cü maddəsi mürəkkəb quruluşa malikdir. Qanunverici bu maddədə mahiyyət etibarilə dörd ayrıca cinayət tərkibini nəzərdə tutmuşdur: a) satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama (CM-in 234.1-ci maddəsi); b) satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma (CM-in 234.2-ci, 234.4-cü maddələri); c) narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma (CM-in 234.3-cü, 234.4-cü maddələri); ç) yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə bu Məcəllənin 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində, yaxud həbs yerlərində törətmə (CM-in 234.3-1-ci maddəsi); d) narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, prekursorların, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı və ya məhv edilməsi qaydalarının bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması (CM-in 234.5-ci maddəsi).

Sadalanan cinayət tərkibləri bir-birindən ictimai təhlükəlilik dərəcəsinə görə də fərqlənir. Əsas diqqət narkotik vasitələrin və ya psixotrop maddələrin satış məqsədi ilə qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlər üzərində cəmlənmişdir. Burada narkotik vasitələrlə gizli ticarət, onların qeyri-leqal laboratoriyalarda hazırlanması və narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində mütəşəkkil cinayətkar fəaliyyətin digər formaları haqqında söhbət gedir.

2. Şərh olunan cinayətin **əsas bilavasitə obyekti** əhalinin sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir. Lakin nəzərdən keçirilən cinayət əməlləri eyni zamanda digər ictimai münasibətlərə də qəsd edib ziyan vurduqları üçün ictimai təhlükəsizlik, dövlət idarə və müəssisələrinin normal fəaliyyəti, konkret-müəyyən insanın — fərdin sağlamlığı CM-in 234-cü maddəsində təsvir edilən cinayətlərin **əlavə obyektləri** hesab olunur.

3. Bu cinayətin fərqləndirici əlamətlərindən biri kimi onun **predmetini**, yəni narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını göstərmək olar.

Qeyd olunan predmetlərin anlayışı Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanununun 1-ci maddəsində verilmişdir. **Narkotik vasitələr** BMT-nin 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyasında, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir.

Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları təsdiq edilmişdir (həmin siyahılar bu maddənin şərhinin sonuna əlavə olunur).

Ümumiyyətlə isə beynəlxalq hüquqda narkotik vasitələrin adları göstərilməklə dörd siyahıya daxil edilməsi qəbul olunmuşdur. Bu siyahılar 1961-ci il 30 mart tarixli «Narkotik vasitələr haqqında Vahid Konvensiya»da əks olunmuşdur.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlər beynəlxalq xarakter daşıdığı üçün onların anlayışı və siyahısı hər şeydən əvvəl beynəlxalq-hüquqi sənədlərdə müəyyən olunur. Azərbaycan Respublikası həmin sənədlərdən aşağıda göstərilənləri ratifikasiya etmişdir: «Narkotik vasitələr haqqında» Vahid Konvensiyaya düzəlişlər haqqında 1972-ci il Protokolu ilə edilmiş düzəlişlərlə birlikdə 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiya; «Psixotrop maddələr haqqında» 1971-ci il tarixli Konvensiya; «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» BMT-nin 1988-ci il Konvensiyası.

Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasının 1-ci maddəsinin «k» bəndinə görə «narkotik vasitə» I və II siyahılara daxil edilmiş təbii və süni maddələrdən hər hansı biridir.

Psixotrop maddələr BMT-nin 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır («Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1.0.2-ci maddəsi).

«Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» BMT-nin 19 dekabr 1988-ci il tarixli Konvensiyasının 1-ci maddəsinin «q» bəndinə görə «psixotrop maddə» 1971-ci il Konvensiyasının I, II, III və IV Siyahılarına daxil edilmiş təbii və ya süni istənilən maddə və ya istənilən təbii materialdır[1].

Narkotik vasitənin və ya psixotrop maddənin konkret növünün və adının müəyyən edilməsi onların qanunsuz dövriyyəsi ilə əlaqədar işlərə baxılmasında mühüm əhəmiyyət daşıyır. Şəxsin CM-in 234-240-cı maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsi və təqsirli bilinməsi məsələsi həll edilərkən maddələrin narkotik vasitə, psixotrop maddə, prekursor, güclü təsir edən və ya zəhərli maddə olduğunun, onların tibb məqsədləri üçün istifadəyə yararlı olub-olmamasını, bitkilərin narkotik xassəli bitkilər olmasının aydınlaşdırılması üçün xüsusi biliklər tələb edildiyindən həmin məsələlər üzrə müvafiq ekspertizanın keçirilməsi zəruridir. Maddənin məhz narkotik vasitə və ya yuxarıda göstərilən hər hansı maddə olması, onun miqdarı, bitkinin isə narkotik xassəli olması dəqiq müəyyən edilmədikdə (bu barədə ekspert rəyi olmadıqda) şəxs bunlar barədə yalnız ehtimallar əsasında yuxarıda göstərilən maddələrlə cinayət məsuliyyətinə cəlb oluna bilməz (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 3-cü bəndi). Ekspertizanın rəyi nə aqrar-sənaye və ya tibb idarələrinin işçilərinin arayışları, nə də müttəhimin müvafiq maddənin xarakterinin ona məlum olması haqqında ifadələri ilə əvəz oluna bılməz.

Narkotik və ya psixotrop maddə cinayətin predmeti kimi özündə həcmə

[1] Действующее международное право. Т. 3, М., 1997. с. 60.

çəkiyə, yəni konkret kəmiyyət və keyfiyyət əlamətlərinə malik olan müəyyən növ maddi obyekti əks etdirir. Narkotik vasitənin və ya psixotrop maddənin miqdarı törədilmiş cinayətin hüquqi qiymətləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Şərh olunan cinayətin predmetlərinin külli miqdarda olması CM-in 234.4.3-cü maddəsində nəzərdə tutulan ağırlaşdırıcı əlamətdir.

Narkotik vasitənin ölçüsü haqqında məsələ hər bir konkret halda onun faktiki kəmiyyətinə (həcminə, çəkisinə), habelə bir-birindən insan orqanizminə təsir etmə dərəcəsinə görə fərqlənən narkotik vasitələrin müxtəlif növlərinin xüsusiyyətlərinə əsasən həll edilir. Narkotik vasitənin fəallıq dərəcəsi ekspertizanın köməyi ilə müəyyən olunur.

4. CM-in 234.1—234.4-cü maddələrində nəzərdə tutulan cinayət əməlləri **obyektiv cəhətdən** fəal hərəkətlərlə törədilir.

Bu cinayətlər **formal tərkibli** olduğundan onların başa çatmış hesab edilməsi üçün təqsirkarın qeyd olunan maddələrdə nəzərdə tutulan hərəkətləri (yaxud hərəkətlərdən birini) törətməsi faktını müəyyən etmək kifayətdir. Şərh olunan cinayətlərin kriminal nəticələri (onlar çox ağır ola bilər) isə cinayət tərkibinin hüdudlarından kənarda qalır və yalnız məsuliyyətin fərdiləşdirilməsinə təsir göstərir.

5. CM-in 234.1-ci maddəsində təsvir edilən cinayət əməlinin **obyektiv cəhəti** satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımadır.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlərdir (adı çəkilən Qanunun 1.0.9-cu maddəsi).

Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq əldə etmə əslində onları qeyri-qanuni üsullarla sahibliyə keçirmədir. Qeyri-qanuni üsullar içərisində bu cinayətin predmetlərini talama və əkib-becərmə başqa cinayət tərkibini yaratdığı üçün istisna təşkil edir. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1-ci maddəsinə görə qeyd olunan predmetlərin qanunsuz əldə edilməsi həm əvəzli (pulla alma, qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul etmə, başqa əşyalara dəyişdirmə), həm də əvəzsiz (hədiyyə etmə, mənimsəmə) ola bilər. Məhkəmə və istintaq təcrübəsinin ümumiləşdirilməsi narkotiklərin əldə olunmasının çox zaman əvəzli xarakter daşıdığını göstərir.

Narkotik vasitələri, eləcə də psixotrop maddələri qanunsuz əldə etmə onların təqsirkarın sahibliyinə keçdiyi andan **başa çatmış** cinayət hesab edilməlidir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının **narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz saxlanması** məqsədindən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla şəxsin idarəçiliyində olan narkotik vasitələrin

və psixotrop maddələrin öz sərəncamında saxlanmasına yönəldilmiş bütün hərəkətlərdir (adı çəkilən Qanunun 1.0.10-cu maddəsi). Başqa sözlə, bu, saxlamanın yerindən və müddətindən asılı olmayaraq, narkotik vasitələrə və ya psixotrop maddələrə qanunsuz surətdə faktiki malik olma deməkdir. Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz saxlama **uzanan** cinayətdir.

Təqsirli şəxsin narkotik vasitələri öz ixtiyarında (məsələn, üstündə, gizli saxlanc yerlərində, binalarda və s.) saxlaması ilə əlaqədar olan hər hansı qəsdən edilən hərəkətləri saxlama kimi başa düşülməlidir. Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq başqa şəxsdən əmanət kimi saxlamaq üçün qəbul etmiş şəxs də bu maddələri saxlamağa görə məsuliyyət daşımalıdır (adı çəkilən Plenum Qərarının 5-ci bəndinin 2-ci və 3-cü abzasları).

Qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda **hazırlama, emal etmə, daşıma** əməllərinin izahı bu maddənin şərhinin 7-ci bəndində verilmişdir.

CM-in 234.1-ci maddəsinin dispozisiyasından aydın olur ki, bu cinayətin predmetlərini yalnız **şəxsi istehlak miqdarından artıq miqdarda** əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma cinayət məsuliyyətinə səbəb olur. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il Qanunun 21.1-ci maddəsinə görə **narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı** şəxsi istehlak üçün mümkün, hər bir narkotik vasitənin və ya psixotrop maddənin ayrı-ayrılıqda birdəfəlik istehlakı həcminə əsasən müəyyən edilir. Şəxsi istehlak üçün nəzərdə tutulan narkotik vasitələrin və psixotrop maddələrin miqdarı onların təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyən olunur. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq miqdarı «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında» 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuşdur (həmin miqdarları özündə əks etdirən cədvəl bu maddənin şərhinin sonuna əlavə olunur).

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının satış məqsədi olmadan qanunsuz hazırlanmasında, kultivasiyasında, əldə edilməsində, saxlanılmasında və daşınmasında təqsirləndirilən şəxsdə cinayətin predmeti olan narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulduğu miqdardan artıq olmaması həmin vasitələrin və maddələrin şəxsi istehlak məqsədi daşıdığına dəlalət edir.

Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq saxlamağa görə onları başqa şəxsdən əmanət kimi saxlamaq üçün qəbul etmiş şəxs də məsuliyyət daşımalıdır. Bu məqam heç də həmişə istintaq və məhkəmə təcrübəsində nəzərə alınmır.

Azərbaycan Respublikasının 1960-cı il CM-dən fərqli olaraq hazırda qüvvədə olan CM-də narkotik vasitələri və ya psixotrop maddələri satış məqsədi olmadan qanunsuz olaraq təkrar əldə etmə və ya saxlama ağırlaşdırıcı tərkib əlaməti qismində nəzərdə tutulmamışdır. Bu isə belə əməllərin tövsif olunması ilə əlaqədar olaraq istintaq və məhkəmə təcrübəsində çətinliklər yarada bilər. Belə ki, bir qisim istintaq və məhkəmə orqanları törədilmiş əməli CM-in 234.1-

ci maddəsi, digər məhkəmə və istintaq işçiləri isə hər epizodu ayrılıqda CM-in 234.1-ci maddəsi ilə tövsif edə bilər. Buna görə də, fikrimizcə, bu məsələni həll etmək məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu müvafiq qərar qəbul etməli və burada satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda təkrar əldə etmə və ya saxlamanın CM-in 234.1-ci maddəsi ilə tövsif edilməli olduğunu məhkəmələrə izah etməlidir.

6. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslər tərəfindən istehlak miqdarından artıq miqdarda narkotik vasitənin və psixotrop maddənin satış məqsədi olmadan əldə edilməsi və saxlanılması və ya bu maddələrin miqdarından asılı olmayaraq onların satış məqsədi ilə hazırlanması, saxlanılması və daşınması əməlləri müvafiq olaraq CM-in 234.1-ci və ya 234.2-ci, yaxud 234.4.3-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibi ilə əhatə olunur, həmin maddələrlə tövsif edilməli və həmin əməllərin əlavə olaraq CM-in 317-2-ci maddəsi ilə tövsif olunmasına ehtiyac yoxdur.

Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə istehlak miqdarında və ondan az miqdarda narkotik vasitə və ya psixotrop maddənin satış məqsədi olmadan ötürülməsi və həmin şəxslər tərəfindən həmin miqdarda belə maddələr hazırlanması, saxlanılması, gəzdirilməsi əməlləri yalnız müvafiq olaraq CM-in 317-1-ci və 317-2-ci maddələri ilə tövsif olunmalıdır.

Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında şəxslərə satış məqsədi olmadan istehlak miqdarından artıq miqdarda narkotik vasitə və ya psixotrop maddənin və satış məqsədi ilə həmin maddələrin hər hansı miqdarda ötürülməsi əməlləri isə cinayətlərin məcmusu qaydasında CM-in 317-1-ci maddəsi və narkotik vasitənin və psixotrop maddənin ötürülməsi məqsədindən və miqdarından asılı olaraq CM-in 234.1-ci və ya 234.2-ci, yaxud 234.4.3-cü maddələri ilə tövsif olunmalıdır (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 15-ci bəndi).

7. CM-in 234.2-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin **obyektiv cəhəti** satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satmada ifadə olunur.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla istehlaka yarayan və ya yaramayan narkotik vasitələrin və psixotrop maddələrin bilavasitə hazırlanmasına, yəni narkotik vasitələrin və psixotrop maddələrin istehsalına, emalına, saflaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevirilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə, tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına, narkotik vasitələrin və psixotrop maddələrin alınmasına yönəldilmiş hərəkətlərdir (adı

çəkilən Qanunun 1.0.7-ci maddəsi).

Qanunun mənasına görə, narkotik vasitələrin və ya psixotrop maddələrin seriyalarla mütəmadi istehsalı da, onları hazırlama kimi tövsif edilməlidir.

Məhkəmə və istintaq təcrübəsi göstərir ki, narkotik vasitələr qanunsuz olaraq çox zaman onları təbii xammaldan emal etmə (məsələn, hind çətənəsindən həşiş), yaxud bir sıra maddələri istənilən üsullarla birləşdirmə yolu ilə hazırlanır. Sonuncu üsul həm ayrı-ayrı şəxslər, həm də əczaçılıq müəssisələrinin, tibb idarələrinin buna səlahiyyəti olmayan işçiləri tərəfindən həyata keçirilir.

İstintaq və məhkəmə təcrübəsində narkotik vasitələrin qanunsuz olaraq hazırlanması ilə əlaqədar olan cinayətlərin başa çatma anının bir-birindən fərqli surətdə müəyyən edilməsi müşahidə edilir. Belə ki, bir qisim istintaqçılar və hakimlər istehsal prosesinin nəticəsi kimi hazır narkotikin alınmasını bu cinayətin başa çatma anı kimi müəyyən edirlər. Bu isə Qanunun mənasına uyğun gəlmir.

«Narkotik vasitələr» haqqında 1961-ci il Vahid Konvensiyasına əsasən **narkotik vasitələri hazırlama** dedikdə bir qisim narkotik vasitələrin digərinə çevrilməsi, təmizlənib saflaşdırılması da daxil olmaqla, onların alınması ilə nəticələnən bütün proseslər başa düşülür. Bu proseslər nəticəsində hazır narkotik vasitənin alınması başa çatmış cinayət tərkibinin mövcudluğunun zəruri şərti deyildir. Başqa sözlə, tərkibində narkotik maddə olan bitkilərdən və onların hissələrindən narkotik vasitələrin qanunsuz olaraq hazırlanması, yaxud xammalın və ya yarımfabrikatların, eləcə də müxtəlif dərman preparatlarının onlardan narkotik vasitələr almaq məqsədi ilə təkrar emalı və ya belə vasitələrin kimyəvi reaksiyalar aparmaq yolu ilə alınması prosesinin özü artıq qanunsuz olaraq narkotik vasitələri hazırlama cinayətinin başa çatmış olduğunu ifadə edir. Məntiqi olaraq «narkotik vasitələri və ya psixotrop maddələri hazırlama» anlayışı həm də onların istehsalı prosesini əhatə edir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 7-ci bəndinə görə **narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması** dedikdə həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik tərkibli bitkilərdən, dərmanlardan, kimyəvi və digər maddələrdən istehlaka yarayan və ya yaramayan narkotik vasitələrin və psixotrop maddələrin alınmasına (bilavasitə hazırlanmasına) qəsdən yönəlmiş hərəkətlər, belə maddələrin istehsalı dedikdə onların davamlı şəkildə qanunsuz hazırlanmasına qəsdən yönəlmiş hərəkətlər (xüsusi avadanlıqlardan istifadə etməklə, belə maddələrin bu məqsədlər üçün nəzərdə tutulmuş istehsalat sahəsində və qablaşdırılmış şəkildə hazırlanması), **bu maddələrin emalı** dedikdə isə onların saflaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevrilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə qəsdən yönəldilmiş hərəkətlər başa düşülməlidir.

Xaşxaş bitkisinin qozasından süd şirəsinin alınması da bitmiş narkotik vasitələri **qanunsuz hazırlama** cinayətidir, çünki artıq tam yetişmiş xaşxaş qozasından alınan süd şirəsinin tərkibində narkotik vasitə hesab olunan tiryək var-

dır. İstintaq və məhkəmə təcrübəsindən məlumdur ki, narkotik vasitələrin qanunsuz saxlanmasının və gizlədilməsinin üsullarından biri də pambıqdan və ya sarğı materialından tamponlar düzəldərək onların xaşxaşın süd şirəsi ilə hopdurulmasıdır. Bu səbəbdən də qeyd olunan hərəkətlərdə nəzərdən keçirilən cinayət tərkibinin olmadığını və bu üsulla narkotikləri qanunsuz hazırlamaqda və daşımaqda təqsirli olan şəxslər barəsində cinayət işini əsassız olaraq xitam edən ayrı-ayrı məhkəmələrin təcrübəsi səhv hesab edilməlidir.

Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz hazırlama cinayətinin başa çatmış hesab edilməsi üçün bu cinayətin predmetlərinin qatılığı və fəallıq dərəcəsi əhəmiyyət daşımır.

Şəxsə narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz hazırlamağa və ya emal etməyə görə ittiham irəli sürüldüyü hər bir iş üzrə hazırlanmış və ya emal olunmuş maddənin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının Siyahısına daxil edilib-edilməməsi, onun istehlak və istifadə üçün hazır olub-olmaması, kənar qarışıqlardan təmizləndikdən sonra preparatda hansı narkotik vasitələrin və psixotrop maddələrin hansı qatılıqda olması müəyyənləşdirilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 7-ci bəndinin 4-cü abzası).

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin şəxsin özündə, poçtla, nəqliyyat vasitələri ilə, daşınan predmetin narkotik vasitələr və psixotrop maddələr olması haqqında məlumatı olmayan şəxsin vasitəsi ilə və digər yollarla yerinin dəyişdirilməsinə yönəldilmiş bütün hərəkətlərdir («Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1.0.8-ci maddəsi).

Bu cinayətin predmetlərini daşıma təkcə onun sahibi və ya onları müvəqqəti saxlayan şəxs tərəfindən deyil, həm də digər şəxslər tərəfindən törədilə bilər. Narkotik vasitələri bir yerdən başqa yerə aparma da onu saxlamanın bir növü kimi qiymətləndirilməlidir.

Şəxsin şəxsi istehlak miqdarından artıq olmayan ölçüdə satış məqsədi olmadan narkotik vasitəni və ya psixotrop maddəni səfər edərkən saxlaması bu predmetləri qanunsuz daşıma kimi tövsif oluna bilməz. Fikrimizcə, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun müvafiq qərar qəbul edərək bu məsələni məhkəmələrə izah etməsi məqsədəuyğun olardı.

Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən aparılmış nəzərdən keçirilən kateqoriya işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsinin nəticələri təqsirkarların hərəkətlərində narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz daşıma cinayət tərkibinin əlamətlərinin olmasını təsdiq etmək üçün əsas cəhətləri ayırmağa imkan verir. Nəqliyyat vasitəsindən mütləq istifadə edilməsi, narkotik vasitənin şəxsi istehlak üçün nəzərdə tutulan miqdardan artıq olması, cinayətin predmeti tərkibində tərkibində narkotik maddələr olan maddələr olan bitkilər olduqda, onların az və ya çox dərəcədə mühüm həcmdə olması, narkotik vasitələrin və ya psixotrop maddələrin müxtəlif yerlərdə, məsələn, avtomobilin oturacaqlarının altında və ya digər yerlərində giz-

lədilməsi qeyd olunan əsas cəhətlərdir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının şərh edilən cinayətin predmetlərinin dövriyyəsi haqqında 28 iyun 2005-ci il tarixli Qanunun 24-cü maddəsinə görə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi), Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi) və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti) «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq, nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq və qanunla nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

Şəxsin hərəkətlərində bu cinayətin predmetlərini qanunsuz daşıma tərkibinin olması və bu cinayət tərkibinin səfər (səyahət) zamanı narkotik vasitəni və ya psixotrop maddəni qanunsuz saxlama cinayətindən fərqləndirilməsi haqqında məsələ məhkəmə tərəfindən hər bir konkret halda nəqliyyat vasitəsindən istifadə olunmasının məqsədi, narkotik vasitələrin və ya psixotrop maddələrin miqdarı, ölçüsü, həcmi və olduğu yer, habelə işin bütün digər halları nəzərə alınmaqla həll edilməlidir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq Azərbaycan Respublikasının gömrük sərhədlərindən daşınmaqla və ya göndərməklə keçirilməsinin həm də qaçaqmalçılıq cinayətinin tərkibini yaratdığı müəyyən edildikdə, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında, yəni həm narkotik vasitələri və psixotrop maddələri qanunsuz daşımağa və ya göndərməyə görə və həm də qaçaqmalçılığa görə tövsif olunmalıdır. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 7-ci bəndi belə nəticəyə gəlməyə imkan verir.

CM-in 234.2-ci maddəsində nəzərdə tutulan cinayət əməllərinin növlərindən biri də narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq satmadır. Yuxarıda adı çəkilən Qanunun 1.0.11-ci maddəsinə görə **narkotik vasitələri və psixotrop maddələri qanunsuz satma dedikdə** miqdarından asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin əvəzli və ya qazanc əldə etmək, yaxud digər şəxsi maraq məqsədi ilə yayılmasına yönəldilmiş hərəkətlər başa düşülməlidir.

Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq yetkinlik yaşına çatmayan şəxsə satma CM-in 234.2-ci maddəsi ilə deyil, 234.3-1-ci maddəsi ilə tövsif edilməlidir.

Təqsirkarın narkotik vasitələri satmaq niyyətində olması müəyyən edilərkən başqa sübutlarla və narkotik vasitələrin miqdarı ilə yanaşı, istehlakçı ilə əvvəlcədən razılıq əldə edilməsi, narkotik vasitənin çəkilib xırda bağlamalara bükülməsi, onların hazırlanması üçün avadanlığın olması və işin digər halları nəzərə alınmalıdır.

Qeyd olunan hərəkətlər nəticəsində bir şəxsin narkotik vasitələri və ya psixotrop maddəni digər şəxsin faktiki sahibliyinə ötürməsinin forması, bunun əvəzli və ya əvəzsiz olması əməlin hüquqi tövsifinə təsir göstərmir. Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq satma cinayəti onları başqa şəxs aldığı andan **başa çatmış** hesab edilir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 noyabr 2012-ci il tarixli hökmünə əsasən E.H. Ağayev CM-in 234.4.3-cü maddəsi ilə təqsirli bilinərək məhkum edilmişdir.

E.Ağayev ona görə məhkum edilmişdir ki, o külli miqdarda narkotik vasitə olan heroini satın almaqla əldə edib evində saxlamış, həmin heroinin bir qismini istifadə etdikdən sonra qalan hissəsini satıb qazanc əldə etmək məqsədi ilə üstündə gəzdirmişdir.

Hökmdən apellyasiya şikayəti verilmiş, Sumqayıt Apellyasiya Məhkəməsinin 22 fevral 2013-cü il tarixli qərarı ilə apellyasiya şikayəti təmin edilmiş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 noyabr 2012-ci il tarixli hökmü dəyişdirilmiş, E.Ağayevin CM-in 234.4.3-cü maddəsi ilə tövsif edilmiş əməli, CM-in 29, 234.4.3-cü maddəsinə tövsif edilmişdir.

Apellyasiya Məhkəməsinin qərarından verilmiş kassasiya protestində məhkumun əməlinin CM-in 29, 234.4.3-cü maddəsinə tövsifi əsassız hesab edilmişdir.

Kassasiya kollegiyası qeyd etmişdir ki, cinayət qanunvericiliyinə əsasən CM-in 234.1-234.4-cü maddələrində nəzərdə tutulan cinayət əməlləri formal tərkibli olduğundan onların başa çatmış hesab edilməsi üçün təqsirkarın qeyd olunan maddələrlə nəzərdə tutulan hərəkətləri törətməsi faktının müəyyən edilməsi kifayətdir. Belə tərkiblərə əsasən məsuliyyətin həllində ancaq dispozisiyada göstərilən hərəkət, yaxud da hərəkətsizlik müəyyən edilir, nəticə tərkibdən kənarda qaldığı üçün onun müəyyən edilməsi lüzumu aradan qalxır. Baxılan iş üzrə məhkumun məqsədinin məhz həmin narkotik maddəni satmağa yönəldiyi sübut edildiyini nəzərə alaraq, narkotik maddəni satması, yaxud satmaması onun əməlinin 234.1-234.4-cü maddələrində nəzərdə tutulan başa çatmış cinayət kimi tövsif edilməsini istisna etmir[1].

Narkotik vasitələri alıb-satma ağırlaşdırıcı tərkib əlamətlərinin olub-olmamasından asılı olaraq CM-in 234.2-ci, 234.4.1-ci, 234.4.2-ci, 234.4.3-cü maddələri ilə tövsif olunur.

Vətəndaşların pulunu və ya əmlakını ələ keçirmək məqsədi ilə narkotik vasitə, güclü təsir edən və ya zəhərli maddə adı ilə hər hansı digər vasitəni və maddəni satan şəxsin hərəkəti dələduzluq kimi tövsif edilməli, bu yolla əldə edilmiş pul və ya əmlak isə müsadirə edilməlidir. Alıcılar isə bir sıra hallarda qeyd olunan predmetləri qanunsuz olaraq əldə etməyə cəhd etdiklərinə görə məsuliyyətə cəlb olunurlar.

Qanunsuz dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, eləcə də onların qanunsuz hazırlanması üçün istifadə edilən

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2013-cü il, № 3, s.9-12.

alət və avadanlıq, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında istifadə edilən və bunun nəticəsində əldə olunan əmlak və maliyyə vəsaitləri aşkar edildikdə onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görülür (adı çəkilən Qanunun 32-ci maddəsi), başqa sözlə, onlar müsadirə edilir.

Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz satma cinayət əməlinin tövsifinə onları almış şəxsin bu predmetlərlə necə davranması, yəni şəxsən istehlak etməsi, başqa şəxsə verməsi, saxlaması və s. heç bir təsir göstərmir.

Şəxs qanunsuz olaraq satdığı narkotik vasitələrdən və ya psixotrop maddələrdən alıcının başqa cinayəti (məsələn, narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə, tiryəkxananın müştərilərinə satma) törətmək üçün istifadə etdiyini bilə-bilə bu maddələri ona satırsa, onun əməli cinayətlərin məcmusu üzrə həm də müvafiq cinayətlərin törədilməsində köməkçilik kimi tövsif edilməlidir.

CM-in 234-cü maddəsinin şərh olunması zamanı «polisin fitnəkarlığı» nəticəsində bu maddə ilə təqsirləndirilmələrə məruz qalma hallarının təcrübədə çox yer alması ilə əlaqədar Ali Məhkəmənin qərarlarının təsiri əlbəttə ki, ibrətamiz olardı.

Bərdə rayon Məhkəməsinin 25 iyun 2012-ci il tarixli hökmü ilə C.A.Məmmədov CM-in 234.2-ci maddəsi ilə təqsirli bilinərək 3 (üç) il azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Hökmə əsasən C.A.Məmmədov ona görə təqsirli bilinmişdir ki, o, T.S.Xudiyevin xahişinə əsasən ondan 5 (beş) manat put alaraq tanışı A.H.Əliyevlə görüşüb sonuncuya 5 manat muqabilində narkotik vasitə (marixuana) satmağı təklif etmiş, onlar arasında olan yaxın münasibətə görə A.Əliyev pulu ondan almayaraq narkotik vasitə olan qurudulmuş marixuananı ona bəxşiş etdiyini bildirdiyinə görə həmin marixuananı ondan götürüb T.Xudiyevin işlədiyi yeməkxanaya gətirmiş, ona təqdim etmiş, lakin T.Xudiyev hələlik ona özündə saxlamağı təklif etdiyi üçün gödəkçəsinin cibinə qoymuş, 5 manat pulu isə qazanc olaraq özünə götürməklə narkotik vasitəni satmışdır.

Hadisə belə baş vermişdir. T.S.Xudiyev Bərdə Rayon Polis Şöbəsinə C.A.Məmmədovun narkotik vasitələrin satışı ilə məşğul olması barədə müraciət edərək onun cinayətlərinin ifşa olunması üçün hazır olduğunu bildirmiş, Xudiyevin ərizəsi nəzərə alınaraq qərarla əməliyyat-axtarış tədbiri təyin edilmiş və həmin tədbirə Xudiyev cəlb edilmişdir.

Əməliyyat təyin edildikdən sonra T.Xudiyev telefonla C.A.Məmmədova zəng edib onu işlədiyi kafeyə dəvət etmiş, C.Məmmədov gələ bilmədiyini bildirdikdə öz maşını ilə C.Məmmədovun arxasınca gedib onu kafeyə gətirmişdir. Orada T.Xudiyev C.A.Məmmədovdan ona narkotik vasitə tapmasını xahiş etmiş və C.Məmmədov narkotik vasitənin əldə edilməsi üçün pulunun olmadığını dedikdə sonuncuya 5 manat pul vermişdir. C.A.Məmmədov həmin xahişə əsasən A.Əliyevə həmin məqsədlə zəng etmiş və bir qədər sonra başqa bir yerdə A.Əliyevlə görüşmüşdür. A.Əliyev ona narkotik vasitəni vermiş, C.A.Məmmədovun bunun müqabilində ona vermək istədiyi 5 manat pulu isə

götürməmişdir. Bundan sonra onlar kafeyə qayıtmış, kafedə C.Məmmədov narkotik vasitəni Xudiyevə verəndə, sonuncu hələlik narkotik vasitənin onda qalmasını deyib otaqdan çıxmış, bundan dərhal sonra polis işçiləri otağa daxil olub C.A.Məmmədovla A.Əliyevi yaxalamış, polis şöbəsinə gətirildikdə C.Məmmədovun T.Xudiyev üçün aldığı narkotik vasitə (0,78 qram qurudulmuş marixuana) ondan götürülmüşdür.

C.A.Məmmədov barəsində CM-in 234.2-ci maddəsi ilə cinayət işi başlanılmış, o, Bərdə rayon Məhkəməsinin 25 iyun 2012-ci il tarixli hökmü ilə CM-in 234.2-ci maddəsi ilə təqsirli bilinib məhkum edilmiş, müdafiəçinin mahiyyətcə kassasiya şikayəti ilə eyni məzmunda olan apellyasiya şikayətinə baxan Gəncə Apellyasiya Məhkəməsinin Cinayət kollegiyası isə şikayəti təmin etməyib 31 avqust 2012-ci il tarixli qərarı ilə C.Məmmədovun məhkum edilməsi məsələsində birinci instansiya məhkəməsi ilə tamamilə razılaşmışdır.

İş materiallarından görünür ki, T.Xudiyevin polis əməliyyatında iştirakı müvafiq qərarla rəsmiləşdirildiyinə görə o, həmin əməliyyatda «gizli agent» kimi iştirak etmiş və narkotik vasitəni əldə edib ona verməkdən ötrü C.A.Məmmədovu özü ilə kafeyə gəlməyə təhrik etmişdir. Cinayət işinin gedişində C.Məmmədovun həmin təhrikedici hərəkətlər (yəni polisin müdaxiləsi) olmadan törətdiyi, və yaxud törətməyə hazırlaşdığı hər hansı bir əməli müəyyən olunmamış, C.Məmmədovun barəsində CM-in 234.2-ci maddəsi ilə cinayət işinin başlanmasına, istintaqın aparılmasına, onun həmin maddə ilə təqsirli bilinib məhkum edilməsinə yalnız T.Xudiyevin təhriki və beləliklə, polisin müdaxiləsi ilə törətdiyi hərəkətlər - A.Əliyevdən T.Xudiyev üçün narkotik vasitə əldə edib kafeyə gətirməsi səbəb olmuşdur.

Başqa sözlə, T.Xudiyevin təhriki C.Məmmədovun polisin müdaxiləsi olmadan törətdiyi və yaxud törətməyə hazırlaşdığı cinayətin ifşa edilməsini təmin etmədiyi üçün Vanyanın işində olduğu kimi Avropa Məhkəməsinin müəyyən etdiyi «gizli agent» anlayışının hüdudlarından kənara çıxmış, C.Məmmədovun törətməkdə təqsirli bilindiyi əməl isə «polis müdaxiləsi»nin nəticəsi olmuşdur.

Oxşar vəziyyətdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətə görə məhkum olunmuş Q.A. Vanyanın Rusiya Federasiyasına qarşı verdiyi şikayət üzrə 15 dekabr 2005-ci il tarixli qərarında İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Vanyanın təqsirli bilinməsi haqqında məhkəmə hökmünün əsasən polisin müdaxiləsi ilə yaradılmış sübutlar vasitəsi ilə əsaslandırılmasını, xüsusilə də məhkəmələrin, o cümlədən işə nəzarət qaydasında baxan Moskva şəhər Məhkəməsinin Rəyasət heyətinin işdə olan milis provakasiyası kimi məsələyə əhəmiyyət verməmələrini və bu provakasiyanın ədalətli məhkəmə araşdırmasına təsirini, həmin təsirin nə dərəcədə olmasını araşdırmamalarını Rusiya məhkəmələrinin yol verdikləri ciddi nöqsan kimi qeyd etmişdir.

Sözügedən işdə Rusiyanın milis orqanında Q.A.Vanyanın narkotiklərin satışı ilə məşğul olması haqqında məlumat var idi. Bu məlumatın yoxlanılması məqsədi ilə Q.A.Vanyandan narkotik vasitə əldə edə biləcək şəxs kimi milis sonuncunun tanışı O.Z.-ni seçmişdir. O.Z. şərti alıcı kimi istintaq şöbəsi tərəfindən həyata keçirilən əməliyyat axtarış tədbirində iştirak etməyə razılıq vermişdir. Bunun üçün ona 200 rubl pul verilmişdir. Milisin nəzarət edə bildiyi şəraitdə O.Z. ərizəçi Vanyanla görüşdükdən sonra Vanyan 400 rubla, o cümlə-

dən O.Z.-nin verdiyi pula S.Z.-dən müəyyən qədər heroin əldə etmiş, bundan narkotik vasitənin bir hissəsini 200 manat müqabilində S.Z.-yə vermiş, qalan hissəsini isə özündə saxlamışdır. Vanyan milis əməkdaşları tərəfindən yaxalanmış, onun üzərindən narkotik vasitənin qalan hissəsi götürülmüşdür.

Lyublin rayon Məhkəməsinin 2 aprel 1999-cu il tarixli hökmü ilə ərizəçi (eləcə də narkotiki ona satan S.Z.) RF Cinayət Məcəlləsinin 228-ci maddəsinin 4-cü hissəsi ilə, yəni satış məqsədi ilə külli miqdarda narkotik vasitə əldə etmə və saxlamağa, habelə satmağa görə təqsirli bilinib 7 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, həmin hökm müdafiə tərəfinin kassasiya şikayəti əsasında işə baxan Moskva şəhər Məhkəməsinin 17 may 1999-cu il tarixli qərarı ilə dəyişdirilmədən saxlanılmışdır. RF Ali Məhkəməsinin sədr müavininin protesti əsasında işə nəzarət qaydasında baxan Moskva şəhər Məhkəməsinin rəyasət heyəti 16 noyabr 2000-ci il tarixli qərarı ilə Vanyanın narkotik vasitənin qanunsuz dövriyyəsi üzrə cinayətdə satıcı S.Z.-nin deyil, alıcı O.Z.-nin maraqları naminə, məhz sonuncu ilə əlbirliklə iştirak etdiyini, eləcə də onun özündən götürülmüş heroini də şəxsi istehlakı üçün əldə edib saxladığını nəzərə alaraq, onun əməlini RF CM-in 228-ci maddəsinin 1-ci hissəsinə tövsif etmiş və həmin maddə ilə ona 2 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edib, amnistiya haqqında qərara əsasən onu cəzanı çəkməkdən və həbsdən azad etmişdir.

Ərizəçi Vanyan Avropa Məhkəməsi qarşısında ittihamın O.Z. ilə əlaqədar olan hissəsi üzrə məhkum edilməsinin onun Avropa Konvensiyasının 6-cı maddəsinin nəzərdə tutduğu ədalətli məhkəmə araşdırmasına olan hüququnu pozduğunu iddia etmiş və bu zaman onu əsas gətirmişdir ki, o, həmin cinayətə milis tərəfindən təhrik edilmişdir (cinayət milis provakasiyasının nəticəsi idi), həmçinin onun məhkum edilməsi bu provakasiyada iştirak etmiş O.Z.-nin və milis əməkdaşlarının ifadələrinə əsaslanmışdır.

Avropa Məhkəməsi «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində hər kəsin ona qaşı istənilən cinayət ittihamı irəli sürülərkən işin məhkəmə tərəfindən ədalətli araşdırılmasına hüququnun təsbit edildiyini nəzərə alıb, ərizəçinin və RF Hökumətinin dəlillərini araşdırıb, əvvəlki təcrübəsinə, xüsusilə də «Teyxeyra de Kastro Portuqaliyaya qarşı» iş üzrə 9 iyun 1998-ci il tarixli qərarına əsaslanmaqla bir daha qeyd etmişdir ki, Konvensiyanın 6-cı maddəsində əksini tapmış ədalətli məhkəmə araşdırmasına dair tələbdən belə nəticə irəli gəlir ki, hətta narkotiklərin satışına qarşı mübarizəyə olan ictimai marağın özü polis fitnəkarlığı nəticəsində əldə olunmuş sübutlardan istifadə edilməsinə bəraət qazandıra bilməz. O halda ki, polisin gizli agentlərinin hərəkətləri şəxsin cinayətə təhrik edilməsinə yönəldilir və həmin şəxsin bu cinayəti onların (agentlərin) müdaxiləsi olmadan da törədə biləcəyini göstərən əsaslar mövcud deyil, bu vəziyyət «gizli agent» anlayışından kənara çıxır və artıq fitnəkarlıq adlandırıla bilər.

Vanyanın O.Z.-nin xahişi ilə narkotik vasitənin əldə edilməsində ifadə olunan cinayət əməli milisin fitnəkarlığının nəticəsi olunduğuna, ərizəçinin təqsirli bilinməsi isə əsasən milisin fitnəkarlığı nəticəsində əldə olunmuş sübutlara əsaslandığından Avropa Məhkəməsi Vanyana qarşı cinayət işində Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində təsbit olunmuş ədalətli məh-

kəmə araşdırması hüququnun pozulduğu qənaətinə gəlmişdir. Məhkəmə belə nəticəyə gəlmişdir ki, milisin müdaxiləsi və bunun nəticəsində əldə olunmuş sübutlardan ərizəçiyə qarşı cinayət işinin qaldırılması üçün istifadə edilməsi məhkəmə araşdırmasının ədalətliliyinə bərpaedilməz zərər vurmuşdur (qərarın 49-cu bəndi).

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası hesab etmişdir ki, əgər iş üzrə sübutlar müstəsna olaraq polis fitnəkarlığının nəticəsidirsə və şəxsin yalnız polis fitnəkarlığının nəticəsi kimi meydana gələn hərəkətlərini (cinayət kimi görülən əməlini) ifşa edirsə, belə materiallar əməliyyat-axtarış tədbiri nəticəsində əldə olunmuş sübutların CPM-in 125 və 137-ci maddələrinin tələbləri nöqteyi-nəzərindən qanuniliyi və mümkünlüyü şəxsin cinayətdə təqsirli olduğunu göstərən əsaslar kimi qəbul edilə bilməz.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunla nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri də şəxsi əslində törətmək niyyətində olmadığı cinayətə sövq edən hərəkətlər olaraq çıxış etməməli, yəni şəxsin cinayət kimi qiymətləndirilən əməli müstəsna olaraq polisin təhriki ilə törədilmiş hərəkətlərdən ibarət olmamalıdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının qərarında qeyd olunur: «Nəzarət qaydasında malın alınması kimi əməliyyat-axtarış tədbirinin gedişində şəxsin onda olan narkotik vasitəni polis əməliyyatına cəlb edilmiş şərti alıcıya «satması» da, şəxsin bu əməliyyatadək, yəni polisin müdaxiləsi olmadan törətdiyi kriminal hərəkətlərinin ifşa edilməsi üçün həyata keçirlən tədbir kimi nəzərdən keçirilməlidir. Məsələn, qanunsuz olaraq narkotik vasitə saxlayan şəxs şərti alıcı vasitəsi ilə nəzarət qaydasında malın alınması əməliyyatının gedişində ifşa olunursa, məsuliyyət yaradan kriminal davranış kimi həmin şəxsin qanunsuz olaraq narkotik vasitəni saxlaması və bunu məhz satış məqsədi ilə etməsi çıxış edir, narkotik maddənin əməliyyatın gedişində şərti alıcıya «satılması» isə onun əməliyyatadək (polisin müdaxiləsi olmadan) törətmiş olduğu həmin cinayətini (satış məqsədi ilə narkotik vasitəni saxlamasını) ifşa etməyə kömək edən vasitə rolunu oynayır və şübhəsiz ki, şəxsin başqa (polisin müdaxiləsi olmadan törətdiyi) kriminal hərəkətləri müəyyən edilmədiyi halda özü-özlüyündə cinayət məsuliyyəti yaradan əməl olaraq qiymətləndirilə bilməz (həm də ona görə ki, əməliyyatın gedişində narkotik vasitənin şərti alıcıya «satılması» zamanı, sözün əsl mənasında, yəni ictimai təhlükəli xarakter daşıyan narkotik vasitənin satışı, yayılması kimi əməl baş tutmur, əksinə bu vəziyyətdə «narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılması»nda özünü göstərən əməliyyat axtarış orqanının fəaliyyəti mövcud olur).

Başqa sözlə, əməliyyat-axtarış tədbiri provakasiya yolu ilə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün faktiki əsasların «yaradılmasını» deyil, polisin müdaxiləsi olmadan törədilmiş və yaxud hazırlanan cinayətin ifşa edilməsini təmin etməli və məhz belə olduqda həm əməliyyatın özü, həm də onun nəticəsində əldə olunmuş sübutlar qanunilik tələbinə cavab verən, şəxsin hüquq və azadlıqlarını pozmayan, beləliklə də, şəxsin təqsirliliyinin əsaslandırılmasında istifadə edilə bilən əsaslar kimi qəbul edilməlidir. Bunun əksinə olaraq, əgər şəxsin polisin müdaxiləsi olmadan da ona istinad edilən cinayəti törədəcəyini (tərətməyə hazırlaşdığını) göstərən əsaslar yoxdursa və törədilmiş

əməl, elcə də şəxsin təqsirliliyi barədə nəticənin əsaslandırılmasında istifadə olunmuş sübutlar polis provakasiyasının nəticəsidirsə, şəxsin məsuliyyətə cəlb edilib cinayətdə təqsirli bilinməsi sübutlara və sübutların tədqiqinə dair qaydalara, ümumiyyətlə ədalətli məhkəmə araşdırması hüququnun ehtiva etdiyi tələblərə cavab verən araşdırmanın nəticəsi kimi qiymətləndirilə bilməz».

Hökmdən verilmiş apellyasiya şikayətinə əsasən işə baxan Gəncə Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 31 avqust 2012-ci il tarixli qərarı ilə apellyasiya şikayəti təmin edilməmiş, hökm isə dəyişdirilmədən saxlanılmışdır.

Apellyasiya Məhkəməsinin qərarından verilmiş kassasiya şikayətini qismən təmin edən Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının qərarında göstərilmişdir ki, kassasiya şikayətində irəli sürülmüş C.Məmmədovun narkotik vasitəni satan şəxsin tərəfində deyil, onu «əldə edən» T.Xudiyevin tərəfində təqsirli bilindiyi əməlin törədilməsində iştirak etdiyinə görə onun hərəkətlərinin CM-in 234.2-ci maddində nəzərdə tutulmuş cinayət kimi qiymətləndirilməsinin düzgün olmaması haqqında dəlillərlə də razılaşmamaq üçün əsas yoxdur.

Belə ki, narkotik vasitə C.Məmmədova deyil, onu satana məxsus olmuş, onların arasında narkotik vasitəni satmaq barədə hər hansı razılaşmanın olması müəyyən edilməmiş, C.Məmmədov narkotik vasitənin alqı-satqısından mənfəət əldə etməmiş, əksinə əldə edənin verdiyi pulu özünə saxlamış, C.Məmmədovun niyyəti narkotik maddəni satana deyil, onu əldə etmək istəyən T.Xudiyevə kömək etmək olmuşdur. Bu hallar narkotik vasitənin A.Əliyevdən C.Məmmədova keçdiyi andan, həm də T.Xudiyevə keçməsini şərtləndirdiyi üçün (nə qədər ki, C.Məmmədov narkotiki Xudiyev üçün əldə edirdi) və işin gedişatı göstərdiyi kimi, C.Məmmədov həmin narkotiki ona sahiblənmək, özgəninkiləşdirmək niyyəti olmadan həqiqətən də Xudiyevə çatdırmaq məqsədi ilə kafeyə gətirdiyinə görə, narkotik vasitənin C.Məmmədova keçməsindən sonra baş verənlər, yəni A.Əliyevin (satıcının) 5 manatı götürməyib, kafeyə getməsi, C.Məmmədovun isə həmin 5 manatı özünə saxlaması, sonuncunun hərəkətlərinin müstəqilləşdirilməsi (Xudiyevin hərəkətlərindən ayrılması) və onun son nəticədə narkotik satıcısı kimi qiymətləndirilməsi üçün əsas ola bilməz[1].

Deməli, S.Məmmədovun məhz T.Xudiyevin onun üçün narkotik tapmaq xahişi (təhriki) ilə, yəni satıcının deyil, «alıcının» maraqları naminə hərəkət etməsi əsas götürüldükdə də «satıcı»nın hərəkətinin polisin fitnəkarlığının nəticəsi olaraq cinayət kimi qiymətləndirilmədiyini nəzərə alaraq alcının da əməlinin cinayət sayılmasının mümkünsüzlüyü qənaətinə gəlinməlidir.

8. CM-in 234.3-cü maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satmada ifadə olunur.

Bu cinayətin predmeti prekursorlardır. CM-in 234-cü maddəsinin şərhində istinad edilən Azərbaycan Respublikasının müvafiq Qanununa əsasən **prekursorlar** narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədi

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2013-cü il, № 2, s.8-17.

ilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan kimyəvi maddələr və onların duzlarıdır.

Prekursorları qanunsuz hazırlamanın anlayışı Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanununda nəzərdə tutulmamışdır. Fikrimizcə, həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədi ilə istifadə edilən dövriyyəsi məhdudlaşdırılmış kimyəvi maddələrin və onların duzlarının bilavasitə hazırlanmasına, yəni onların istehsalına, emalına, saflaşdırılmasına yönəldilmiş hərəkətlər prekursorları qanunsuz hazırlama kimi başa düşülməlidir. Prekursorları qanunsuz əldə etmə, saxlama, göndərmə, daşıma və satmanın anlayışları adı çəkilən Qanunun 1-ci maddəsində əks olunmuş və CM-in 234.2-ci maddəsinin şərhində verilmişdir.

Narkotik vasitələr və ya psixotrop maddələrlə törədilən əməllərin şərhində qeyd olunan müddəalar psixotrop maddələrlə əlaqədar törədilən eyni adlı əməllərə də şamil olunur.

9. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 10-cu bəndində deyilir ki, CM-in 234.3-cü maddəsinin dispozisiyasına əsasən prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə və daşıma və ya satma hərəkətlərinə görə məsuliyyət yalnız o vaxt yaranır ki, bu hərəkətlər narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında həmin prekursorların istifadə edilməsi məqsədi ilə törədilsin. Bu səbəbdən də həmin hərəkətləri etmiş şəxsin məqsədi dəqiq müəyyən edilməlidir. Şəxsin yuxarıda göstərilən hərəkətləri digər məqsədlə etməsi müəyyən olunduqda və ya həmin maddədə göstərilən məqsədin olduğu sübuta yetirilmədikdə CM-in 234.3-cü maddəsi ilə məsuliyyət yaranmır.

CM-in 234.3-cü maddəsi ilə nəzərdə tutulan cinayətin tərkibinin yaranması üçün prekursorları hazırlamış, əldə etmiş, saxlamış, göndərmiş və ya daşımış şəxsin tamah niyyətinin və ya sair marağının olub-olmaması əhəmiyyət kəsb etmir. Hazırladığı, əldə etdiyi, saxladığı, göndərdiyi və ya daşıdığı prekursorlardan istifadə etməklə şəxsin özünün satış məqsədi ilə narkotik vasitə və ya psixotrop maddələri hazırlaması və ya emal etməsi bu maddələrin miqdarından asılı olaraq CM-in müvafiq olaraq 234.2-ci və 234.4.3-cü maddələrinin tərkibi ilə əhatə olunduğundan həmin maddələrlə tövsif edilməli və belə əməllərin cinayətlərin məcmusu qaydasında əlavə olaraq CM-in 234.3-cü maddəsi ilə tövsif olunmasına ehtiyac yoxdur.

Hazırladığı, əldə etdiyi, saxladığı, göndərdiyi və ya daşıdığı prekursorlardan istifadə etməklə şəxsin satış məqsədi olmadan narkotik vasitə və ya psixotrop maddə hazırlaması, istehsal etməsi və ya emal etməsi əməli yalnız CM-in 234.3-cü maddəsinin tərkibini yaradır və həmin əməlin cinayətlərin məcmusu qaydasında əlavə olaraq CM-in 234.1-ci maddəsi ilə tövsif edilməsinə ehtiyac

yoxdur.

10. 20 oktyabr 2017-ci il tarixli Qanunla CM-in 234-cü maddəsinə əlavə edilmiş və 2017-ci il dekabrın 1-dən qüvvədə olan 234.3-1-ci maddədə nəzərdə tutulan cinayətlər 234.2-234.3-cü maddələrdə əks olunan cinayətlərin **ağırlaşdırıcı əlamətləridir.**

CM-in 234.3-1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** iki qrup əməlin törədilməsində ifadə olunur: 1) yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma; 2) CM-in 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində, yaxud həbs yerlərində törətmə.

Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma əməlini nəzərdə tutan CM-in 234.3-1-ci maddəsi CM-in 234.2-ci maddəsində nəzərdə tutulmuş eyni əmələ münasibətdə **xüsusi normada** ifadə olunur. Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri **satma** əməli CM-in 234.2-ci maddəsi ilə deyil, bütün hallarda 234.3-1-ci maddə ilə tövsif edilməlidir. Əməlin bu maddə ilə tövsif edilməsi üçün satılan narkotik vasitənin və ya psixotrop maddənin şəxsi istehlak miqdarından artıq miqdarda olub-olmamasının əhəmiyyəti yoxdur.

Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri **satma** əməli belə vasitə və ya maddələri cinayət törədilənədək 18 yaşına çatmayan şəxslərə satmanı nəzərdə tutur. Bu əlamət üzrə cinayət məsuliyyətinin yaranması üçün təqsirkar zərərçəkmiş şəxsin 18 yaşına çatmadığını aşkar surətdə bilməlidir. Zərərçəkmiş şəxsin yetkinlik yaşına çatmadığı haqqında məlumat müxtəlif mənbələrdən əldə edilə bilər (məsələn, zərərçəkmiş şəxsin zahiri görünüşü, orta məktəbdə oxuduğu haqqında əvvəlcədən məlumatın olması, özünün söyləməsi və s.). Təqsirkar narkotik vasitələri və ya psixotrop maddələri yetkinlik yaşına çatmayana satdığını dərk edirsə, lakin onun 18 yaşına çatdığı məlum olarsa, məsuliyyət CM-in 234.3-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə cəhd kimi tövsif edilməlidir. Əksinə, təqsirkar narkotik vasitələri və ya psixotrop maddələri yetkinlik yaşına çatmış şəxsə satdığını dərk edirsə, lakin onun 18 yaşına çatmadığı məlum olarsa, məsuliyyət müvafiq əlamətlər olduqda CM-in 234.2-ci və ya 234.3-cü maddəsi ilə tövsif edilməlidir.

CM-in 234.3-1-ci maddəsi 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin ağırlaşdırıcı əlamətni (cinayətin törədilmə yerini) müəyyən edir. Həmin maddələrdə sadalanan əməllər təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində, yaxud həbs yerlərində törədildikdə şəxsin əməli CM-in 234.2-ci və ya 234.3-cü maddəsi ilə deyil, 234.3-1-ci maddəsi ilə tövsif edilməlidir (CM-in 234.3-1-ci maddəsində nəzərdə tutulmuş norma 234.2-ci və 234.3-cü maddələrində əks olunan normalara münasibətdə xüsusi normadır).

Azərbaycan Respublikası «Təhsil haqqında» 19 iyun 2009-cu il tarixli Qanununun 1.0.47-ci maddəsinə görə **təhsil müəssisəsi** müvafiq təhsil proqramları əsasında təhsil prosesini həyata keçirən və məzunlara müvafiq təhsil haqqında dövlət sənədi verən qurumdur. Qanunun 14.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasında dövlət, bələdiyyə və özəl təhsil müəssisələri fəaliyyət göstərir. Qanunun 14.5-ci maddəsi **təhsil müəssisələrinin** aşağıdakı **tipləri və növlərini** müəyyən edir: 1) məktəbəqədər təhsil müəssisələri (körpələr evi, körpələr evi-uşaq bağçası, uşaq bağçası, sanator tipli təhsil müəssisəsi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəbəqədər təhsil müəssisələri); 2) ümumi təhsil müəssisələri (ibtidai, ümumi orta, tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, inteqrasiya təlimli internat tipli təhsil müəssisələri, xüsusi məktəblər, xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr); 3) məktəbdənkənar təhsil müəssisələri (yaradıcılıq və inkişaf mərkəzləri, ekologiya və turizm məktəbləri, uşaq-gənclər idman şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri və s.); 4) ilk peşə-ixtisas təhsili müəssisələri (peşə məktəbləri, peşə liseyləri, peşə təhsil və tədris mərkəzləri (kompleksləri)); 5) orta ixtisas təhsili müəssisələri (kolleclər); 6) ali təhsil müəssisələri (universitetlər, akademiyalar, institutlar və s.); 7) əlavə təhsil müəssisələri (universitetlər, institutlar, mərkəzlər və s.); 8) təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr (uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri və s.).

Səhiyyə müəssisələrinə dövlət səhiyyə sisteminə daxil olan müalicə-profilaktika, elmi-tədqiqat, əczaçılıq, sanitariya-profilaktika müəssisələri, tibbi texnika və dərman vasitələri istehsal edən müəssisələr, sanitariya-epidemiologiya xidməti, məhkəmə-tibb ekspertizası müəssisələri, eləcə də özəl tibb müəssisələri, əmlakını bələdiyyə mülkiyyəti təşkil edən tibb və əczaçılıq müəssisələri və sair bu tipli müəssisələr aiddir.

Cəzaçəkmə müəssisələrinin siyahısı CM-in 56.1-ci və 85.5-ci maddələrində verilmişdir.

Həbs yerlərinin siyahısı «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 22 may 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində öz əksini tapışdır. Qanunla **həbs yerlərinə** müvəqqəti saxlama yerləri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtları, istintaq təcridxanaları, səfərə çıxmış gəmidə cinayət törətməkdə şübhəli olduğuna görə dəniz gəmisinin kapitanı və ya onu əvəz edən şəxs tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulmuş şəxsin saxlanıldığı xüsusi ayrılmış yerlər aiddir.

Şəxsin əməli o halda CM-in 234.3-1-ci maddəsi ilə tövsif edilə bilər ki, CM-

in 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməllər təhsil və ya səhiyyə müəssisələrinin, cəzaçəkmə müəssisələrinin, yaxud həbs yerlərinin rəsmi sənədlərlə (qanunvericiliklə, qərarla, əmrlə, sərəncamla və s.) müəyyən edilmiş ərazi hüdudlarında (məktəbin və xəstəxananın binası daxilində, həyətində, bağında və s.) törədilmiş olsun. Sadalanan müəssisələrin və ya həbs yerlərinin hüdudlarından kənarda belə əməllərin törədilməsi CM-in 234.3-1-ci maddəsi ilə deyil, müvafiq olaraq 234.2-ci və ya 234.3-cü maddəsi ilə tövsif edilməlidir.

CM-in 234.2-ci maddəsində nəzərdə tutulmuş əməllərdən «satma» hərəkəti təhsil və ya səhiyyə müəssisələrinin, cəzaçəkmə müəssisələrinin, həbs yerlərinin hüdudlarında, yaxud hüdudlarından kənarda edilməsindən asılı olmayaraq yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə əməl bütün hallarda CM-in 234.3-1-ci maddəsi ilə tövsif olunmalıdır.

11. CM-in 234.4-cü maddəsində 234.2-ci və 234.3-cü maddələrdə nəzərdə tutulmuş əməllərin **ağırlaşdırıcı tərkib əlamətləri** təsvir olunur.

Qeyd olunan cinayət əməllərinin **qabaqcadan əlbir olan bir qrup şəxs** tərəfindən törədilməsi bu cinayətlərdə onları birgə törətmək haqqında qabaqcadan razılaşmaqla iki və ya daha çox şəxsin birlikdə iştirak etməsidir. Qabaqcadan əldə edilən razılığın forması əməlin tövsifinə təsir etmir. Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi haqqında daha ətraflı məlumat CM-in 34.2-ci maddəsinin şərhində verilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 11-ci bəndində deyilir ki, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən yuxarıda göstərilən cinayətin törədilməsi həm də o zaman yaranır ki, iştirakçılar arasında razılaşmaya əsasən həmin maddələrdə (CM-in 234.2-ci və 234.3-cü maddələrində) göstərilən hərəkətləri onlardan biri həyata keçirsin. Qabaqcadan razılaşmaya və vəzifə bölgüsünə əsasən cinayətin bilavasitə icraçısına kömək göstərməyə yönəldilmiş hərəkətlər etmiş şəxs də cinayətin icraçısı hesab edilir (birgəicraçılıq) və belə hallarda əməl CM-in 32-ci maddəsinə istinad edilmədən tövsif edilir.

Cinayətin gedişində cinayətə qoşulmaqla (cinayətin digər iştirakçıları ilə qabaqcadan cinayətin törədilməsi məqsədi ilə əlbir olmadan) cinayətdə iştirak etmiş və ya digər cinayət törətmiş şəxsin hərəkətləri cinayətin iştirakçıları (icraçıları) ilə qabaqcadan cinayət əlaqəsinə girməklə cinayəti əlbir olan qrup şəkildə törətməsi kimi qiymətləndirilməməli və həmin şəxs özünün törətdiyi konkret hərəkətlərə görə məsuliyyət daşımalıdır.

Yalnız CM-in 234.2-ci və 234.3-cü maddələrində göstərilən hərəkətlərin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsinin CM-in 234.4.1-ci maddəsinin tərkibini yaratması nəzərə alınmaqla məhkəmələrə həm də izah edilsin ki, təqsirkar şəxsin narkotik vasitəni satanla və ya satış məqsədi olmadan əldə edənlə qabaqcadan əlbir olmasının dəqiq müəyyən edilməsi əməlin düzgün tövsifi üçün mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar məhkə-

mələr digər şəxsin xahişi ilə (sonuncu üçün) və ya birgə istifadə üçün təqsirkarın (vasitəçinin) narkotik vasitə və ya psixotrop maddə, yaxud prekursoru alması əməli qiymətləndirilərkən təqsirkarın bu hərəkətləri kimin mənafeyinə (həmin maddələri satanın və ya alanın) uyğun etdiyini, həmin maddələri satan şəxslə onların satışı barədə əvvəlcədən razılığa gəlib-gəlməməsini, özünün bu maddələrin satışından mənfəət əldə edib-etməməsini araşdırmalıdır. Belə razılığın və ya mənfəətin əldə edilməsi təsdiq edilmədiyi halda digər şəxsin xahişi ilə və ya sonuncu ilə birlikdə satış məqsədi olmadan narkotik vasitə almış təqsirkarın əməli narkotiki satanla qabaqcadan əlbir olma kimi deyil, habelə narkotik vasitə satma kimi deyil, satış məqsədi olmadan narkotik vasitə əldə etmə kimi qiymətləndirilməlidir.

Prekursorları göndərən və ya satan təqsirkarla prekursorları alıb onları istifadə etməklə narkotik vasitə və psixotrop maddə hazırlayan, istehsal edən və ya emal edən şəxs arasında bu münasibətlər prekursorların göndərilməsi və satışı və ya narkotik vasitənin (psixotrop maddənin) hazırlanması, emalı, istehsalı məqsədi ilə qabaqcadan cinayət əlaqəsinə girmə kimi qiymətləndirilə bilməz. Belə olan halda prekursorları göndərən və ya satan şəxsin əməli CM-in 234.3-cü maddəsi ilə, prekursorları alıb onlardan istifadə etməklə narkotik vasitəni və ya psixotrop maddəni satış məqsədi ilə hazırlayan, emal və ya istehsal edən şəxsin əməli isə narkotik vasitənin və psixotrop maddənin miqdarından asılı olaraq CM-in 234.2 və 234.4.3-cü maddəsi ilə tövsif edilməlidir.

12. Şərh olunan cinayət əməllərinin **mütəşəkkil dəstə** tərəfindən törədilməsi bu dəstənin bütün iştirakçılarının, onların hər birinin narkotik vasitələrin və ya prixotrop maddələrin, habelə prekursorların qanunsuz dövriyyəsində yerinə yetirdiyi roldan asılı olmayaraq, birgə icraçılar tərəfindən törədilməsini ehtiva edir. Dəstənin mütəşəkkil olması bir qrup şəxsin ediləcək cinayəti əvvəlcədən planlaşdırması, cinayətkar qəsdin həyata keçirilməsi üçün vasitələrin hazırlanması, cinayətin iştirakçılarının seçilməsi və dəstəyə cəlb edilməsi, dəstəyə cəlb olunanların arasında rolların bölünməsi, cinayətin gizlədilməsini təmin edən tədbirlərin görülməsi və sair əlamətlərlə xarakterizə oluna bilər (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 12-ci bəndi).

Cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi haqqında daha ətraflı izah CM-in 34.3-cü maddəsinin şərhində verilir.

13. CM-in 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulan əməllərin **təkrar** törədilməsi onlardan hər hansı birinin iki dəfə və ya daha çox törədilməsi deməkdir. Təqsirkar həmin maddələrdə sadalanan cinayətlərdən hər hansı birini etməyə görə əvvəllər cinayət məsuliyyətinə cəlb edilmədikdə, cinayət məsuliyyətindən azad edilmədikdə, məhkum olunmadıqda və cinayət məsuliyyətinə cəlb etmə müddəti keçmədikdə təkrarlıq əlamətinə görə məsuliyyət yaranır. CM-in sadalanan maddələrində göstərilən cinayətləri törətmiş şəxs məhkum edildikdə, lakin məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən həmin cinayətləri törətdikdə, bu, cinayətin residivi sayılır.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələ-

rin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 13-cü bəndində deyilir ki, şəxs narkotik vasitəni və ya psixotrop maddəni satış məqsədilə əldə edir və özündə saxlayırsa, belə maddə bir şəxsə və ya bir çox şəxsə satıla bilər. Əgər qeyd edilən maddə və ya onun bir hissəsi eyni vaxtda, yaxud da müxtəlif vaxtlarda iki və ya daha çox şəxsə satılarsa, belə satma həmin maddələrin satış məqsədi ilə əldə edilib saxlanılması hərəkətləri ilə birlikdə vahid niyyətlə əhatə olunduğundan təkrar satma kimi deyil, belə maddənin satış məqsədi ilə əldə edilməsi (saxlanılması) və satılması əməli kimi (bir əməl) qiymətləndirilməli və satış məqsədi ilə əldə olunmuş narkotik vasitə, psixotrop maddənin miqdarından asılı olaraq CM-in 234.2 və ya 234.4.3-cü maddəsi ilə tövsif edilməlidir. Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsində narkotik vasitələri və ya psixotrop maddələri satış məqsədi olmadan qanunsuz olaraq təkrar əldə etmə və ya saxlama ağırlaşdırıcı tərkib əlaməti kimi nəzərdə tutulmamışdır. Buna görə də satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda bir neçə dəfə əldə etmə və ya saxlama əməli CM-in 234.1-ci maddəsi ilə əhatə olunur və həmin maddə ilə tövsif olunmalı, satış məqsədi olmadan narkotik vasitələri və psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda təkrar əldə etmə CM-in 61.1.1-ci maddəsinə əsasən cəzanı ağırlaşdıran hal kimi nəzərə alınır.

CM-in 234.4.2-ci maddəsi ilə bu Məcəllənin 234.2 və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin təkrar törədilməsinə görə məsuliyyət müəyyən edildiyindən, əvvəllər CM-in 234.1-ci maddəsi ilə nəzərdə tutulan cinayət törətmiş şəxs tərəfindən, həmin əməllərin hər hansı birinin törədilməsi CM-in 234.4.2-ci maddəsi ilə tövsif oluna bilməz. Prekursorlar hazırlamış, əldə etmiş, saxlamış, göndərmiş və ya daşımış şəxsin sonradan həmin prekursorları istifadə etməklə ilk dəfə narkotik vasitə və ya psixotrop maddə hazırlaması, istehsal etməsi və ya emal etməsi hərəkətləri həmin cinayəti təkrar törətməsi kimi qiymətləndirilə bilməz (prekursorlar elə narkotik vasitə hazırlamaq, istehsal etmək və ya emal etmək məqsədi ilə hazırlanmış, əldə edilmiş, saxlanılmış, göndərilmiş və daşınmışdır). CM-in 234.3-cü maddəsində göstərilən hərəkətlərin bu maddədə qeyd olunan məqsədlə dəfələrlə edilməsi və ya ilk dəfə həmin hərəkətlər edilməsinə baxmayaraq, hazırlanmış, əldə edilmiş, saxlanılmış, göndərilmiş və daşınmış prekursorlar istifadə edilməklə dəfələrlə satış məqsədi ilə narkotik vasitə hazırlama, istehsal etmə və ya emal etmə CM-in 234.4.2-ci maddəsinin tərkibini (təkrarlıq) yaradır. Əvvəllər CM-in 234.2 və 234.3-cü maddələri ilə cinayət törətmiş təqsirkar tərəfindən təkrarən bu maddələrlə nəzərdə tutulan cinayət və ya CM-in 234.4.1-ci, yaxud 234.4.3-cü maddəsi ilə nəzərdə tutulan cinayətlərin hər hansı biri törədildikdə, şəxsin hərəkətlərinin hamısı CM-in 234.4.2-ci maddəsi və ya CM-in 234.4.1-ci, 234.4.2-ci, yaxud 234.4.3-cü, 234.4.2-ci maddələri ilə tövsif edilməli, belə olan halda əməlin əlavə olaraq CM-in 234.2 və 234.3-cü maddələri ilə tövsif edilməsinə ehtiyac yoxdur (bu maddələrdə nəzərdə tutulan cinayətlər başqa ardıcıllıqla törədildikdə də əməllər yuxarıda göstərilən qaydada tövsif edilməlidir) (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop

maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 13-cü bəndinin 5, 6, 7-ci abzasları).

14. CM-in 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulan əməllərin **külli miqdarda** törədilməsinin düzgün cinayət-hüquqi tövsifi bu miqdarın müvafiq normativ hüquqi aktlarla necə müəyyən edilməsindən asılıdır.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 14-cü bəndində deyilir ki, CM-in 234.2 və 234.3-cü maddələrində nəzərdə tutulan əməllərin külli miqdarda törədilib-törədilməməsi məsələsi Azərbaycan Respublikasının «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanunu ilə müvafiq miqdarları özündə əks etdirən siyahılara uyğun (I və II siyahılar) olaraq həll olunmalıdır. Bir neçə növ narkotik vasitənin və ya psixotrop maddənin satış məqsədi ilə əldə edilməsi, saxlanılması, hazırlanması, istehsal edilməsi, emal edilməsi, daşınması və göndərilməsi müəyyən edildikdə, külli miqdar ağırlaşdırıcı əlamətinin olub-olmaması məsələsi həll edilərkən hər bir növ narkotik vasitənin miqdarı əsas götürülməli, hər hansı bir növ narkotikin miqdarı yuxarıda qeyd edilən siyahılarda külli miqdar kimi göstərilmiş miqdarı təşkil etdikdə əməl CM-in 234.4.3-cü maddəsi ilə tövsif edilməli, aşkar olunmuş narkotik vasitələrin və psixotrop maddələrin heç biri külli miqdar təşkil etmədikdə isə əməl (satış məqsədi ilə həmin maddələrin əldə edilməsi, saxlanılması və sair) CM-in 234.2-ci maddəsi ilə tövsif edilməlidir. Aşkar edilmiş narkotiklərin bir növünün külli miqdar, digərinin isə külli miqdar təşkil etmədiyi hallarda əməl cinayətlərin məcmusu qaydasında CM-in 234.2 və 234.4.3-cü maddələri ilə deyil, yalnız CM-in 234.4.3-cü maddəsi ilə tövsif edilməlidir.

Satış məqsədi olmadan narkotik vasitələrin və ya psixotrop maddələrin əldə edilməsi və saxlanılması cinayətinin tərkibinin mövcudluğu həll edilərkən də nəzərə alınmalıdır ki, CM-in 234.1-ci maddəsi ilə cinayət məsuliyyəti aşkar olunmuş narkotik vasitələrin və ya psixotrop maddələrin heç olmasa bir növünün miqdarı adı çəkilən siyahılarda bu növ üçün şəxsi istehlak miqdarından artıq miqdar daxil olmaqla yuxarı həddi göstərilmiş miqdardan çox olduqda yaranır. Aşkar edilmiş ayrı-ayrı növ narkotik vasitə, psixotrop maddələrin hər birinin miqdarı həmin siyahılarda göstərilənlərdən az olduqda isə belə məsuliyyət yaranmır (bir neçə növ narkotik vasitələrin miqdarlarının cəmi hər hansı növ maddə üçün həmin siyahılarda göstərilən miqdardan çox olduqda belə). Maddənin tərkibini bir neçə növ narkotik vasitə (psixotrop maddə) təşkil etdikdə də narkotik vasitənin (psixotrop maddənin) miqdarı yuxarıda göstərilən qaydada müəyyən edilməlidir. Maddənin tərkibində olan narkotik vasitə sayılmayan maddələrin çəkisi isə nəzərə alınmamalıdır. Prekursorla CM-in 234.3-cü maddəsində göstərilən hərəkətlərin hansı hallarda «külli miqdarda» törədilmiş hesab edilməli olduğu qanunvericilikdə tənzimlənilmədiyindən prekursorun miqdarından asılı olmayaraq həmin prekursorlarla əlaqədar törədilmiş hərəkətlər CM-in 234.3-cü maddəsinin tərkibi ilə əhatə olunur (Azərbaycan Respublikası

Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 13-cü bəndinin 4, 5-ci abzasları).

Azərbaycan Respublikasının «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanunu ilə müvafiq miqdarları özündə əks etdirən siyahı təsdiq edilmişdir. Həmin siyahılardan istifadə edən istintaq və məhkəmə işçiləri narkotik vasitələr və psixotrop maddələrlə bağlı cinayətlərin tövsifi kimi mürəkkəb məsələni birmənalı olaraq asanlıqla, normativ qaydada həll edə bilirlər.

Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları

I Siyahı
Narkotik vasitələr

№	Dərman preparatlarının beynəlxalq adı	Şəxsi istehlak miqdarından artıq miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri	Külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri
1.	Asetilə edilən tiryək	0,5	50
2.	BDB (əsası və duzları)	0,2	1
3.	Etilmorfin	0,2	10
4.	Fentanil	0,0004	0, 002
5.	Heroin	0,15	2
6.	Həşiş	1	100
7.	Həşiş qatranı	0,4	40
8.	Həşiş yağı	0,5	50
9.	Xaş-xaş kütləsi:		
	a) qurudulmuş	10	1000
	b) qurudulmayan	50	5000
10.	Kokain	0,02	1
11.	Kodein (əsası və duzları)	0,2	10
12.	Marixuana-Kannabis:		
	a) qurudulmuş	5	500
	b) qurudulmayan	25	2500
13.	Metadon	0,02	1,6
14.	Morfin (əsası və duzları)	0,05	2,5
15.	MBDB (əsası və duzları)	0,2	1
16.	Omnopon-pantopon	0,05	2,5
17.	Piritramid	0,05	2,5
18.	Propanidid	0,5	3
19.	Tiryək (o cümlədən ekstrasiya edilən)	0,5	50
20.	Trimeperidin	0,05	2

II Siyahı
Psixotrop maddələr

№	Dərman preparatlarının beynəlxalq adı	Şəxsi istehlak miqdarından artıq miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri	Külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri
1.	Amfetamin	0,15	2
2.	Amobarbital	0,6	3,0
3.	Alprazolam	0,03	0,1
4.	Allobarbital	1	10
5.	Aminoreks	0,01	0,1
6.	Asetildihidrokodein	0,01	1
7.	Brolamfetamin	0,001	1,002
8.	Buprenorfin	0,05	2,5
9.	Butalbital	0,75	7,5
10.	Barbital	0,6	15
11.	Benzfetamin	0,75	7,5
12.	Bromazepam	1	10
13.	Butobarbital	1,5	1,5-dən yuxarı
14.	DET	0,02	1
15.	DMA	0,02	1
16.	DMQP	0,05	5
17.	DOET	0,001	0,01
18.	Deksamfetamin	0,15	1,5
19.	Delorazepam	0,03	0,5
20.	Diazepam	2	50
21.	Estazolam	0,2	0,5
22.	Etxlorvinol	5	50
23.	Etinamat	5	50
24.	Etil Loflazepat	0,02	0,2
25.	Etilamfetamin-N-etilamfetamin	0,3	3
26.	Etisiklidin	0,01	0,02
27.	Efedron	0,3	3
28.	Efedrindən kustar yolla alınan preparatlar	1	100
29.	Fenetillin	0,5	5
30.	Fenmetrazin	0,5	5
31.	Flunitrazepam	0,1	0,5
32.	Fenkamfamin	0,8	8
33.	Fenproporeks	0,2	2
34.	Fledlazepam	0,05	0,5
35.	Flurazepam	0,3	3
36.	Fendimetrazin	0,7	7
37.	Fenobarbital	2,5	15

38.	Fentermin	0,15	1,5
39.	Fepranon	0,2	1,6
40.	Xlordiazepoksid	1	10
41.	Katinon	0,02	1
42.	Kamazepam	0,3	3
43.	Klobazam	0,2	2
44.	Klonazepam	0,1	1
45.	Klorazepat	0,2	2
46.	Klotiazepam	0,15	1,5
47.	Kloksazolam	0,1	1
48.	Katin (+) – Norpsev-doefedrin	0,2	2
49.	Ketazolam	0,3	3
50.	QOMK	40	300
51.	Qalazepam	1	10
52.	Qaloksazolam	0,5	5
53.	Qlütemid	2,5	25
54.	Levamfetamin	0,15	1,5
55.	Levometamfetamin	0,15	1,5
56.	Lefetamin	0,75	7,5
57.	Loprazolam	0,2	2
58.	Lorazepam	0,15	1
59.	Lormetazepam	0,1	0,5
60.	(+) - Lizergid	0,0001	0,0001-dən yuxarı
61.	MDE, N-etil MDA	0,02	1
62.	MDMA (MDMA)	0,03	5
63.	Meskalin	0,03	5
64.	Metkatinon	0,15	1,5
65.	4-metilamironeks	0,01	0,01-dən yuxarı
66.	MMDA	0,02	1
67.	Metafetamin	0,15	2
68.	Metafetamin resemat	0,15	1,5
69.	Metalvalon	0,05	1
70.	Mazindol	0,1	1
71.	Medazepam	0,2	2
72.	Mefenoreks	0,6	6
73.	Meprobamat	5	25
74.	Metilfenobarbital	1	10
75.	Metiprilon	2	20
76.	Midazolam	1,5	10
77.	N-hidrooksi MDA	0,02	1
78.	Nimetazepam	1,5	10
79.	Nitrazepam	1	5
80.	Oksazepam	1,5	10
81.	Oksazolam	1	10

82.	Paradeksil	0,05	5
83.	PMA	0,02	1
84.	Psilosin, Psilotsin	0,01	0,1
85.	Pentozosin	0,03	1,5
86.	Psilosibin	0,01	0,1
87.	Pemolin	0,4	4
88.	Pinazepam	0,15	1,5
89.	Pipradrol	0,3	13
90.	Prazepam	0,3	3
91.	Pirvaleron	0,4	4
92.	Pentobarbital	0,6	30
93.	Rolisiklidin	0,01	0,01-dən yuxarı
94.	Sekobarbital	0,75	7,5
95.	Zipeprol	0,5	3
96.	STP, DOM	0,002	0,002-dən yuxarı
97.	Siklobarbital	0,2	20
98.	Tenoksiklidin	0,01	0,01-dən yuxarı
99.	Tenamfetamin	0,002	1
100.	Temazepam	0,2	2
101.	Tetrazepam	1	10
102.	Triazolam	0,015	0,02
103.	Vinilbital	1,5	15
104.	Zolpidem	1	10

III Siyahı

Qanunsuz kultivasiya edilən, tərkibində narkotik maddələr olan bitkilər

Bitkilərin adı	Qanunsuz kultivasiya edilən, tərkibində narkotik maddələr olan bitkilərin miqdarı	
	xeyli miqdar	külli miqdar (daxil olmaqla aşağı hədləri)
Azərbaycan Respublikasında bitən, lakin kultivasiyası qadağan olunmuş tərkibində narkotik maddələr olan bitkilər:		
1. Tiryək xaşxaşı, yağlı xaşxaşın digər növləri	2-10 ədəd (4-20 hissə)	11 ədəd (21 hissə)
2. Çətənə növlü bitkilər	3-15 ədəd (6-30 hissə)	16 ədəd (31 hissə)
Yetişdirmək məqsədilə qanunsuz becərilməsi təşkil edilmiş, çoxillik xaşxaşın və yabanı bitmiş çətənələrin kol-koslan	3-50 ədəd (6-100 hissə)	51 ədəd (101 hissə)
Azərbaycan Respublikasının ərazisində iqlim şəraitinə görə bitməyən və kultivasiyası qadağan olunan bitkilər:		
1. Kokain kolu	1 ədəd (2 hissə)	2 ədəd (3 hissə)
2. Kat	2 ədəd (4 hissə)	3 ədəd (5 hissə)

15. CM-in 234.1-ci, 234.2-ci, 234.3-cü və 234.4-cü maddələrində nəzərdə tutulan cinayət tərkibləri **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar sadalanan maddələrin dispozisiyalarında təsvir olunan cinayət əməllərini törətdiyini dərk edir və onları törətməyi arzu edir.

Törədilmiş cinayət əməlini CM-in 234.1-ci maddəsi ilə tövsif etmək üçün təqsirkar bu cinayətin predmetlərini satış məqsədi olmadan əldə etməli və ya saxlamalıdır. **«Satış məqsədi olmadan»** ifadəsi təqsirkarın narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə edərkən və ya saxlayarkən onları başqa şəxsin sərəncamına vermək niyyətində olmadığını bildirir. Əgər burada satış məqsədi olarsa, əməl işin hallarından asılı olaraq müvafiq surətdə CM-in 234.2-ci, 234.3-cü, 234.4-cü maddələrindən biri ilə tövsif olunmalıdır. Belə tövsif narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq həm satış məqsədi ilə, həm də bunsuz hazırlama, emal etmə, daşıma və göndərmə zamanı da həyata keçirilir.

İstintaq və məhkəmə təcrübəsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində satış məqsədinin müəyyən edilməsi bir sıra çətinliklər yaradır. Ayrı-ayrı hallarda hüquq mühafizə orqanları yanlış olaraq şəxsdə narkotik vasitələrin şəxsi istehlak miqdarından çox olmasını satış məqsədinin mövcudluğu kimi qiymətləndirirlər. Lakin təqsirkarda narkotik vasitənin şəxsi istehlak miqdarından artıq olması birmənalı surətdə satış məqsədinin olmasını təsdiq edə bilməz. Buna görə də təqsirkardan götürülən narkotik vasitələrin miqdarı satış məqsədinin mövcudluğunu sübut edən işin digər halları ilə məcmu halında araşdırılmalıdır. Burada xüsusilə məsuliyyətə cəlb edilən təqsirkarların qazanc mənbələri, əldə edilmiş narkotiklərin dəyəri, qeyd olunan şəxslərin onları istehlak edib-etmədikləri və s. haqqında məlumatlar təhlil olunmalı və qiymətləndirilməlidir. Bu halların tam aydınlaşdırılmaması məhkəmə səhvlərinə gətirib çıxarır.

16. CM-in 234.1-ci, 234.2-ci, 234.3-cü və 234.4-cü maddələrində nəzərdə tutulan cinayət əməllərinin **subyekti** cinayəti törədənədək **16** yaşına çatmış Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilər.

İstintaq və məhkəmə təcrübəsinin təhlili nəzərdən keçirilən cinayətlərin çox zaman narkotik vasitələri şəxsən istehlak edən, eləcə də artıq «narkoman» və ya «toksikoman» hesab edilən şəxslər tərəfindən törədildiyini göstərir. Buna görə də qeyd olunan cinayətlərin istintaqı zamanı məhkəmə-psixiatriya ekspertizasının aparılması zəruridir. Bir qayda olaraq, narkomanlar törətdikləri ictimai təhlükəli əmələ münasibətdə anlaqlı hesab olunurlar. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1.0.20-ci maddəsinə görə **narkomanlıq xəstəliyinə düçar olan şəxs** narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində onlardan psixi və (və ya) fiziki asılılıq vəziyyətinə düşən, o cümlədən psixi və davranış pozuntuları ilə müşahidə olunan və barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji-tibb müəssisəsi tərəfindən «narkomanlıq» diaqnozu təyin edilmiş şəxsdir.

Narkotik vasitələri şüurlu surətdə orqanizminə qəbul edən şəxs hətta onlardan asılı vəziyyətə düşdükdə də narkotik sərxoşluq vəziyyətində öz hərəkətlərinin xarakterini, ictimai təhlükəlilik dərəcəsini başa düşür. Doğrudur, narkomanların əksəriyyətində narkotik sərxoşluq vəziyyətində öz hərəkətlərinə nəzarət və onları idarə etmək qabiliyyəti aşağı səviyyədə olur. Lakin təqsirkar şüurlu surətdə öz-özünü belə bir vəziyyətə saldığı üçün CM-in 23-cü maddəsinə əsasən törətmiş olduğu cinayətə görə cinayət məsuliyyətindən azad edilmir. Bununla yanaşı, narkotiklərin mütəmadi istehlakı şəxsin psixikasında güclü dəyişikliklərə səbəb olaraq onun öz hərəkətlərinə rəhbərlik etmək imkanını aradan qaldırdıqda, məhkəmə-psixiatriya ekspertizası onu anlaqsız hesab edə bilər. Bütün bunlar psixotrop maddələrin istehlakı ilə bağlı hallara da eyni dərəcədə şamil olunur.

17. CM-in 234.5-ci maddəsində nəzərdə tutulan cinayətin **bilavasitə obyekti** narkotik vasitələri və psixotrop maddələri istehsal edən, eləcə də bu predmetlərlə digər əməliyyatları həyata keçirən dövlət müəssisələrinin və idarələrinin normal fəaliyyəti, **əlavə obyekti** isə əhalinin sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir.

Şərh olunan cinayətin **obyektiv cəhəti** narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, prekursorların, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, verilməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı, tranzit nəql edilməsi və ya məhv edilməsi qaydalarının bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulmasında ifadə olunur.

Nəzərdən keçirilən cinayətin **predmeti** narkotik vasitələr və psixotrop maddələr, habelə onların hazırlanması üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammal, prekursorlar, alətlər və avadanlıqlardır. Alət və avadanlıqlar istisna olmaqla, qalan predmetlərin anlayışı CM-in 234.1, 234.2, 234.3-cü maddələrinin şərhində verilmişdir. **Alət və avadanlıqlara** narkotik vasitələrin və psixotrop maddələrin həb formasına salınması üçün sənaye və kustar (əldəqayırma) istehsalı olan maşın və ya qurğular; avtomatik və ya əl ilə işləyən, mətbəx elektrik avadanlığına aid olmayan, bu cinayətin predmeti olan maddələrin qarışdırıcıları; yarımfabrikatlar, şprislər, müxtəlif həcmli kapsullar; vakuumla mayelərin süzgəcdən keçirilməsi üçün qurğular və s. aid edilir.

Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin **prekursorların xeyli və külli miqdarının Siyahısı** Azərbaycan Respublikasının 17 noyabr 2017-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir (həmin siyahı bu maddənin şərhinin sonunda verilmişdir).

Obyektiv cəhətdən bu cinayət həm hərəkətlə, həm də hərəkətsizliklə törədilə bilər. CM-in 234.5-ci maddəsində nəzərdə tutulan qaydaların pozulması müvafiq müəssisənin, idarənin işçilərinin təlimatlandırılmamasında, narkotik preparatların istehsalında, qablaşdırılmasında və saxlanmasında sanitariya

qaydalarına riayət olunmamasında, qeyd olunan maddələrin hazırlanması, daşınması, göndərilməsi, buraxılması qaydalarına riayət edilməsinə müəssisə rəhbərlərinin etinasızlıqla yanaşmasında, narkotik vasitələr və psixotrop maddələrdən cinayətkar məqsədlər üçün istifadə olunmasına səbəb olan həmin predmetlərin təhvil verilməsi üzərində zəruri nəzarətin həyata keçirilməməsində və s. ifadə oluna bilər.

CM-in 234.5-ci maddəsi **blanket dispozisiyalıdır.** Buna görə də əməlin düzgün tövsifi üçün narkotik vasitələrin və ya psixotrop maddələrin dövriyyəsini nizama salan normativ aktlara müraciət edilməlidir.

Şərh olunan cinayət **formal tərkibli** olduğundan onun başa çatmış hesab edilməsi üçün ictimai təhlükəli nəticələrin baş verməsi tələb olunmur. Başqa sözlə, narkotiklərlə davranma qaydalarının pozulması faktı bu cinayətin başa çatmış hesab edilməsi üçün kifayətdir. Bu cinayətin ictimai təhlükəliliyi onun törədilməsi nəticəsində narkotik vasitələrin və ya psixotrop maddələrin nəzarət altından çıxmasına şərait yaradılması ilə xarakterizə olunur.

Əməlin CM-in 234.5-ci maddəsi ilə tövsif edilməsi məsələsi həll edilərkən qəsdən törədilən hərəkətlərin motivi (tamah məqsədinin və ya sair şəxsi marağın olmaması, yaxud hər hansı bir şəxsə rəhm göstərməklə törədilməsi)əhəmiyyət kəsb etmir. Eyni zamanda nəzərə alınmalıdır ki, qaydalara riayət etməli olan şəxs bu qaydaları narkotik vasitələri talama məqsədi ilə pozursa, onun əməli yalnız CM-in 235-ci maddəsi ilə tam əhatə olunduğundan həmin maddə ilə tövsif edilməli, belə əməlin həm də CM-in 234.5-ci maddəsi ilə tövsif olunmasına isə ehtiyac yoxdur (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 16-cı bəndinin 4-cü abzası).

18. CM-in 234.5-ci maddəsində təsvir edilən cinayət **subyektiv cəhətdən** qəsdən (birbaşa və ya dolayı) törədilə bilər (CM-in 24.2-ci maddəsinin tələbinə görə). Fikrimizcə, bu cinayət **ehtiyatsızlıqdan** (özünəgüvənmə və ya etinasızlıq) da törədilə bilər. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 16-cı bəndində də bu cinayətin qəsdən və ehtiyatsızlıqdan törədilə bilməsi barədə göstəriş nəzərdə tutulmuşdur.

Bu cinayətin **subyekti** həm vəzifəli şəxslər, həm də onlara tapşırılmış işə görə qeyd olunan qaydalara riayət etməyə borclu olan digər şəxslərdir. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 16-cı bəndində deyilir ki, qaydalara riayət edilməsi müvafiq xidməti təlimat, əmr və ya sərəncamla tapşırıla bilər. Belə qaydalara riayət etməli olmayan şəxslər həmin maddədə göstərilən hərəkətlərə görə məsuliyyətə cəlb edilə bilməzlər.

Vəzifəli şəxs CM-in 234.5-ci maddəsində nəzərdə tutulan qaydaları pozmaqla yanaşı, həm də dövlət qulluğu mənafeyi əleyhinə olan cinayətləri (vəzifə səlahiyyətlərindən sui-istifadə, rüşvət alma və s.) törətmişdirsə, onun əməli cinayətlərin məcmusu üzrə CM-in 234.5-ci və 308.1-ci və ya 311.1-ci maddə-

ləri ilə tövsif olunmalıdır. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 16-cı bəndində də birbaşa göstəriş vardır.

19. CM-in 234-cü maddəsinin 1-ci qeydində narkotik vasitələr, psixotrop maddələr və ya onların prekursorları ilə qanunsuz əməllərə görə cinayət məsuliyyətindən azad etmənin xüsusi növü nəzərdə tutulmuşdur. Bu qeydə əsasən narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

Bu müddəa mühüm profilaktik əhəmiyyətə malikdir və narkotik vasitələr, psixotrop maddələr və ya prekursorlarla əlaqədar cinayət törətmiş şəxslərin könüllü surətdə hüquq mühafizə orqanlarına gəlib təqsirlərini etiraf etmələrinin zəmini rolunda çıxış edir.

Nəzərdən keçirilən qeyddə narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətindən azad etmənin iki şərti göstərilir: 1) cinayətin adları çəkilən predmetlərini hakimiyyət orqanlarına könüllü surətdə təhvil vermə; 2) narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmə.

Şərh olunan cinayətlərin predmetlərini **könüllü surətdə təhvil vermə** dedikdə şəxsin həmin predmetlər barəsində başqa cür sərəncam verməyə real imkanı olmasına baxmayaraq, onları hakimiyyət nümayəndələrinə, əsasən də hüquq mühafizə orqanlarına verməsi başa düşülür. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 23-cü bəndində birbaşa göstəriş vardır. Qərarının 23-cü bəndində həm də deyilir ki, şəxs tutulan zaman, habelə narkotik vasitənin və psixotrop maddənin aşkar edilib götürülməsi məqsədi ilə istintaq hərəkətləri aparılarkan bu hərəkətləri aparan müvafiq vəzifəli şəxsin təklifi ilə və artıq bu hərəkətlərlə əlaqədar təqsirkarın narkotik vasitələrə sərəncam vermək imkanının olmadığını dərk etməsi nəticəsində narkotik vasitələrin təhvil verilməsi təqsirkara CM-in 234-cü maddəsinin «Qeyd»inin 1-ci bəndinin tətbiq edilməsinə əsas vermir. Həmin qeydin məzmununa və mənasına görə qeyddə göstərilən hərəkətlərin edilməsi narkotik vasitənin və ya psixotrop maddənin əldə edilməsinin və saxlanılmasının məqsədindən asılı olmayaraq (satış məqsədi və ya belə məqsəd olmadan) şəxsin cinayət məsuliyyətindən azad olunmasına əsas verir (səbəb olur). Şəxsin əldə edib saxladığı narkotik vasitə və ya psixotrop maddənin, yaxud prekursorların bir hissəsini satdığı, qalan hissəsini isə qeydə uyğun qaydada təhvil verdiyi halda, həmin şəxs yalnız satdığı narkotik vasitənin, psixotrop maddənin və ya prekursorların satışına görə məsuliyyət daşımalıdır.

Şəxsin narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını müvafiq orqanlara təhvil verməyə təkcə niyyətinin olması, belə niyyət yazılı

formada ifadə olunsa da, həmin şəxsi cinayət məsuliyyətindən azad etmir. İstintaq və məhkəmə təcrübəsindən məlumdur ki, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətləri törətməkdə təqsirli olan şəxslər cinayət məsuliyyətindən yaxa qurtarmaq üçün özlərində bu maddələri təhvil vermək haqqında hazır yazılı ərizə saxlayırlar. Odur ki, qanunverici bu halı cinayət məsuliyyətindən azad etmənin əsası kimi qəbul etmir.

Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı **cinayətlərin açılmasında və ya qarşısının alınmasında fəal iştirak etmə** şəxsin könüllü surətdə polisin və ya digər təhqiqat orqanının qeyd olunan növdən olan cinayətlərin açılmasına və ya qarşısının alınmasına yönəldilən qanunvericiliklə nəzərdə tutulmuş əməliyyat-axtarış fəaliyyətində şəxsən iştirak etməsi deməkdir. **Cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında**, qeyd olunan **cinayətləri törətmiş şəxslərin aşkar edilməsində fəal iştirak etmə** dedikdə təkcə bu cinayətin predmetlərinin saxlandığı, hazırlandığı və ya satıldığı yer haqqında deyil, onların, valyutanın, zinət əşyalarının və s. qanunsuz dövriyyəsindən əldə edilən digər əmlakın, habelə şərh olunan cinayətləri törətmiş şəxslərin olduğu yer haqqında hüquq mühafizə orqanlarına məlumat vermə başa düşülməlidir.

CM-in 234-cü maddəsinin «Qeyd»inin 1-ci bəndində göstərilən cinayət məsuliyyətindən azad etmənin **müstəqil əsaslarından** biri kimi narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmənin tətbiqi ilə əlaqədar məhkəmə və istintaq təcrübəsində yanlış təcrübə formalaşmışdır. Həmin yanlış təcrübə adı çəkilən əsasın yalnız CM-in 234-cü maddəsində nəzərdə tutulan cinayətlər törədildiyi hallarda tətbiq edilməsində özünü göstərir. Lakin belə təcrübənin formalaşmasının səbəbləri başa düşülən deyildir. Ona görə ki, bu əsasın yalnız CM-in 234-cü maddəsində nəzərdə tutulan cinayətlər törədildiyi hallarda tətbiqinə dair qeyddə hər hansı göstəriş yoxdur. Qeyddən də aşkar görünür ki, təkcə CM-in 234-cü maddəsində təsbit edilmiş cinayətlərin deyil, **ümumiyyətlə narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin**, yəni CM-in 234-240-cı maddələrində nəzərdə tutulmuş cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmə cinayət məsuliyyətindən azad etmə üçün əsasdır. Ona görə ki, CM-in 26-cı fəslinin adı «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər» adlanır. Bu da o deməkdir ki, CM-in 26-cı fəslində əks olunan cinayətləri törədən şəxslər həmin cinayətlərin açılmasında və ya qarşısının alınmasında fəal iştirak etdikləri hallarda cinayət məsuliyyətindən azad edilə bilərlər.

2005-ci il 28 iyun tarixli Qanunla təsdiq edilmişdir

Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları

I Siyahı

Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr və psixotrop maddələr

1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr:

1. Allilprodin	42. Fenadokson	81. Norkodein
2. Alfameprodin	43. Fenazosin	82. Nikomorfin
3. Alfametadol	44. Fenampromid	83. Norasetimetadol
4. Alfa-metilfentanil	45. Fenomorfan	84. Norlevorfanol
5. Alfa-metiltiofentanil	46. Fenoperidin	85. Normetadon
6. Alfaprodin	47. Furetidin	86. Normorfin
7. Alfasetilmetadol	48. Folkodin	87. Norpipanon
8. Anileridin	49. Heroin	88. Oksikodon
9. Asetil-alfa-metilfentanil	50. Hidrokodon	89. Oksimorfon
10. Asetilmetadol	51. Hidroksipetidin	90. PEPAP
11. Asetorfin	52. Hidromorfinol	91. Petidin
12. Asetildihidrokodein	53. Hidromorfon	92. Petidinin aralıq məhsulu A
13. Bezitramid	54. Xaşxaş kütləsinin konsentratı	93. Petidinin aralıq məhsulu V
14. Benzetidin	55. İzometadon	94. Petidinin aralıq məhsulu S
15. Benzilmorfin	56. Kannabis qətranı, ekstraktı və cövhəri	95. Pimipodin
16. Beta-hidroksi-3-metilfentanil	57. Ketobemidon	96. Proqeptazin
17. Beta-hidroksifentanil	58. Klonitazen	~~97. Properidin~~
18. Betameprodin	59. Kodoksim	98. Rasemetorfan
19. Betametadol	60. Kokain	99. Rasemoramid
20. Betaprodin	61. Koka yarpağı	100. Rasemorfan
21. Betasetilmetadol	62. Levometorfan	101. Remifentanil
22. Dezomorfin	63. Levomoramid	102. Tiryək
23. Dekstromoramid	64. Levorfanol	103. Tebakon
24. Dekstropropoksifen	65. Levofenasilmorfan	104.AH-7921
25. Diampromid	66. Metadonun aralıq məhsulu	105.AM-2201
26. Dihidroetorfin	67. Metazosin	106.5F-AKB-48
27. Dihidromorfin	68. Metildezorfin	107.JWH-015
28. Dimenoksadol	69. Metildihidromorfin	108.JWH-018
29. Dimepqeptanol	70. 3-metiltiofentanil	109.JWH-122
30. Dimetiltiambuten	71. 3-metilfentanil	110.JWH-210
31. Dioksafetil-butirat	72. Metopon	111.Oripavin (3-O-dimetiltebain)
32. Dipipanon	73. Mirofin	112.UR-144 (fenil sianid 2, 4, 6-triizopropil)
33. Difenoksilat	74. Moramidin aralıq məhsulu	113.Propiram (N-(1-metil-2-piperidinoetil)-N-2-piridilpropionamid)
34. Difenoksin	75. Moreridin	114. MT-45 (İC-6)
35. Dietiltiambuten	76. MorfinmetobroMİD	115. Asetilfentanil
36. Drotebanol	77. Morfin-N-oksid	
37. Ekqonin	78. MFPP	
38. Etilmetiltianbuten	80. Nikokodin	
39. Etokseridin		
40. Etonitazen		
41. Etorfin		

Bu siyahıda göstərilmiş narkotik vasitələrin başqa adlarla, habelə onların bütün duzlarının və birləşmələrinin Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

II. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələr:

1. Amineptin	22. 4-metilamironeks	44. Tetrahidrokannabinol İzomeri
2. Amfetamin	23. 4-MTA	45. 2 S-B
3. Brolamfetamin DQB	24. Metkatinon	46.25B-NBOMe (2C-B-NBOMe)
4. DMA	25. MMDA	
5. DMQP	26. Meklokvalon	47. BZP-N-benzilpiperazin
6. DMT	27. Metamfetamin	
7. DOET	28. Metamfetamin rasemat	48. 25C-NBOMe (2C-C-NBOMe)
8. DET	29. Metakvalon	
9. Deksamfetamin	30. Metilfenidat	49. 25I-NBOMe (2C-I-NBOMe)
10. Dronabinol- Delta-9-tetrahidrokannabinol	31. N-li MDA	
	32. N-hidroksi MDA	50. MDPV-3,4-metilendioksipirovaleron
11. Etisiklidin FSQ	33. Paraqeksil	
12. Etriptamin	34. PMA	51. Mefedron (4-metilmetkatinon)
13. Fenetillin	35. Psilosin, Psilotsin	
14. Fenmetrazin	36. Psilosibin	52. Metilon (beta-keto-MDMA)
15. Fensiklidin (FSP)	37. Rolisiklidin, (FQP, FSPİ)	
16. Katinon		53. alfa-pirrolidinovalerofenon (a-PVP)
17. Lizerqid (LSD, LSD-25)	38. STP, DOM	
	39. Sekobarbital	54. Metoksetamin (MXE)
18. Levamfetamin	40. Zipeperol	
19. Levometamfetamin	41. TMA	55. para-metoksimetilamfetamin (PMMA)
20. MDMA	42. Tenamfetamin (MDA)	
21. Meskalin	43. Tencksiklidin (TSP)	56. para-metil-4-metilaminoreks (4,4-DMAR)

Bu siyahıda göstərilmiş psixotrop maddələrin, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

II Siyahı

Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr və psixotrop maddələr

I. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr:

1. Alfentanil	9. Piritramid
2. Dihidrokodein	10. Properidin
3. Etilmorfin	11. Papaveratum (pantapon, omnopon)
4. Fentanil	
5. Kodein və duzları (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)	12. Sufentanil
	13. Tebain
	14. Tilidin
6. Metadon	15. Tiofentanil
7. Morfin və duzları	16. Trimeperidin
8. Para-fluorofentanil	

Bu siyahıda göstərilmiş narkotik vasitələrin başqa adlarla, başqa tərkibdə və onların başqa birləşmələrinin Azərbaycan Respublikasına idxalı həmçinin məhdudlaşdırılır. Bu siyahıda göstərilmiş narkotik vasitələr Azərbaycan Respublikasının ərazisinə yalnız dövlət orqanları tərəfindən gətirilir.

II. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan psixotrop maddələr:

1. Amobarbital	5. Qlyutetimid
2. Buprenorfin	6. Pentazosin
3. Butalbital	7. Pentobarbital
4. Katin (+) - Norpsevdoefedrin	8. Siklobarbital

Bu siyahıda göstərilmiş psixotrop maddələrin beynəlxalq adı göstərilmədən, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin məhdudlaşdırılır. Bu siyahıda göstərilmiş psixotrop maddələr Azərbaycan Respublikasının ərazisinə yalnız dövlət orqanları tərəfindən gətirilir.

III Siyahı

Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr

Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr:

1. Allobarbital	21. Fentermin	43. Meprobamat
2. Alprozolam	22. Fludiazepam	44. Metilfenobarbital
3. Aminoreks	23. Flurazepam	45. Metiprilon
4. Amfepramon-Dietilpropion	24. Flunitrazepam	46. Mefenoreks
5. Barbital	25. Xlordiazepoksid	47. Midazolam
6. Benzfetamin	26. Kamazepam	48. Nimetazepam
7. Bromazepam	27. Ketazolam	49. Nitrazepam
8. Brotizolam	28. Kloksazolam	50. Nordazepam
9. Butobarbital	29. Klobazam	51. Oksazepam
10. Delorazepam	30. Klonazepam	52. Oksazolam
11. Diazepam	31. Klorazepat	53. Pemolin
12. Estazolam	32. Klotiazepam	54. Pinazepam
13.Etilamfetamin-N-etilamfetamin	33. Qalazepam	55. Pipradrol
	34. Qaloksazolam	56. Pipradrol
14. Etil loflazepat	35. QOMK	57. Pirovaleron
15. Etinamat	36. Loprazolam	58. Sekbutabarbital
16. Etxlorvinol	37. Lorazepam	59. Temazepam
17. Fendimetrazin	38. Lormetazepam	60. Tetrazepam
18. Fenkafamin	39. Lefetamin (SPA)	61. Triazolam
19. Fenobarbital (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)	40. Mazindol	62. Vinibital
	41. Medazepam	63. Zolpidem
	42. Mezokarb	64. Fenazepam
20. Fenproporeks		

Bu siyahıda göstərilmiş psixotrop maddələrin beynəlxalq adı göstərilmədən, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

IV Siyahı

Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorlar

Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorlar:

1. Antranil turşusu 2. Aseton 3. Erqotamin 4. Efedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır) 5. Etil efiri 6. Erqometrin 7. Fenilsirkə turşusu 8. Xlorid turşusu	9. İzosafrol 10. Kalium permanqanat 11. Lizergin turşusu 12. Metiletilketon (MEK) 13. Norefedrin 14. N-asetilantranilt turşusu 15. Piperonal 16. Psevdoefedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)	17. Piperidin 18. Sirkə turşusunun anhidridi 19. Safrol 20. Sulfat turşusu 21. Toluol 22. 1-Fenil-2-propanon 23. 3,4-metilendioksi-fenil-2-propanon

Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir

Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının SİYAHISI

Sıra Nəsi	Prekursorun adı	Xeyli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri	Külli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri
1.	Antranil turşusu	2500 qram	25000 qram
2.	Aseton	50 litr	200 litr
3.	Erqotamin	0,3 qram	3 qram
4.	Efedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)	25 qram	5000 qram
5.	Etil efiri	20 litr	200 litr
6.	Erqometrin (erqonovin)	0,3 qram	3 qram
7.	Fenilsirkə turşusu	1000 qram	10000 qram
8.	Xlorid turşusu	100 litr	1000 litr
9.	İzosafrol	500 qram	5000 qram
10.	Kalium permanqanat	500 qram	3000 qram
11.	Lizergin turşusu	0,1 qram	1 qram

12.	Metiletilketon (MEK)	20 litr	200 litr
13.	Norefedrin	25 qram	5000 qram
14.	N-asetilantranil turşusu	300 qram	3000 qram
15.	Piperonal	20 qram	200 qram
16.	Psevdoefedrin (başqa mürəkkəb tərkibli dərmann preparatlarının tərkibində nəzarətdə saxlanılmır)	25 qram	5000 qram
17.	Piperidin	20 qram	200 qram
18.	Sirkə turşusunun anhidridi	100 qram	5000 qram
19.	Safrol	500 qram	5000 qram
20.	Sulfat turşusu	100 litr	1000 litr
21.	Toluol	100 litr	1000 litr
22.	1-Fenil-2-propanon	10 qram	2000 qram
23.	3,4-metilendioksifenil-2-propanon	10 qram	2000 qram

Maddə 235. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə

235.1. Narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.2. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları talama və ya hədə-qorxu ilə tələb etmə —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.3. Bu Məcəllənin 235.1 və 235.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

235.3.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

235.3.2. təkrar törədildikdə;

235.3.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

235.3.4. həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə —

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.4. Bu Məcəllənin 235.1-235.3-cü maddələrində nəzərdə tutulmuş

əməllər:

235.4.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

235.4.2. külli miqdarda törədildikdə;

235.4.3. həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə;

235.4.4. - 20 oktyabr 2017-ci il tarixli Qanunla 235.4.4-cü maddə ləğv edilmişdir. Bu Qanun 2017-ci il dekabrın 1-dən qüvvəyə minmişdir - «Azərbaycan» q., 9 noyabr 2017-ci il.

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 17 aprel 2007-ci il, 7 mart 2012-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 30 iyun 2007-ci il; 16 mart 2012-ci il; 9 noyabr 2017-ci il).*

1. Azərbaycan Respublikasının 1960-cı il CM-in 226-2-ci maddəsindən fərqli olaraq, qüvvədə olan CM-in 235-ci maddəsində qanunverici narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını təkcə talamağa görə deyil, həm də onları hədə-qorxu ilə tələb etməyə görə cinayət məsuliyyəti nəzərdə tutmuşdur. Qanunvericinin məhz bu cür qərar qəbul etməsinin məqsədəuyğunluğu haqqında fikirlərə cinayət hüququ üzrə xüsusi ədəbiyyatlarda əvvəllər də rast gəlinirdi. Nəhayət ki, qanunverici narkotik vasitələrin və ya psixotrop maddələrin, eləcə də onların prekursorlarının təkcə talanması ilə deyil, həm də hədə-qorxu ilə tələb olunması ilə müşayiət olunan əməllərin yüksək ictimai təhlükəliliyini CM-də nəzərə aldı.

2. Şərh olunan cinayətin **əsas bilavasitə obyekti** əhalinin sağlamlığının təhlükəsizliyidir. Bu cinayətin **əlavə obyekti** qismində mülkiyyət münasibətləri, insanların həyat və sağlamlığının təhlükəsizliyi çıxış edir.

Nəzərdən keçirilən cinayətin **predmeti** bundan öncə şərh olunan cinayət əməlində olduğu kimi narkotik vasitələr, psixotrop maddələr və prekursorlardır. Məhz predmetinə görə bu cinayət əməli oxşar cinayətlərdən, xüsusilə də özgənin əmlakını talama və hədə-qorxu ilə tələb etmədən fərqlənir.

Qeyd olunan predmetlərin anlayışı «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanununda verilmiş, habelə CM-in 234-cü maddəsinin şərhində ətraflı nəzərdən keçirilmişdir.

3. CM-in 235.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmədə ifadə olunur.

Qanunverici burada «talama» terminindən mülkiyyət əleyhinə edilən cinayətlərin müəyyən qrupunu ifadə edən ümumiləşdirici anlayış kimi istifadə etmişdir. Deməli, burada söhbət narkotik vasitələrin və ya psixotrop maddələrin oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə, israf etmə yolu ilə talan edilməsindən gedir. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 17-ci bəndində də tövsiyə vardır. Həmin bənddə deyilir ki, **narkotik vasitələri, psixotrop maddələri və prekursorları talama** dedikdə bu maddələrin oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə və israf etmə yolu ilə talan edilməsi başa düşülməlidir.

İstintaq və məhkəmə təcrübəsində bitki mənşəli narkotik vasitələrə (məsələn, xaşxaşın gövdəsi və qozası, çətənənin gövdəsi və s.) qanunsuz sahib olmanın tövsif edilməsi və talamanın predmetinin qiymətləndirilməsi ilə bağlı bir sıra çətinliklər yaranır. Belə ki, tərkibində narkotik vasitələr olan bitkilərin kənd təsərrüfatı müəssisələrinin əkin yerlərindən və vətəndaşların torpaq sahələrindən qanunsuz olaraq yığılması yanlış olaraq talama kimi deyil, narkotik vasitələri qanunsuz əldə etməyə, yaxud hazırlamağa hazırlıq hərəkətləri kimi tövsif edilir. Bununla əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yuxarıda adı çəkilən Qərarının 17-ci bəndində də deyilir ki, narkotik tərkibli bitkilərin və onların hissələrinin bu bitkilərin təsərrüfat məqsədi ilə əkilib-becərilməsi və mühafizə olunan ərazilərdən yığılması da talama kimi qiymətləndirilməlidir. Tərkibində narkotik vasitələr olan bitkiləri və ya onların hissələrini bu bitkilərin təsərrüfat məqsədi ilə əkilmədiyi və mühafizə olunmayan ərazilərdən yığılması məqsədindən asılı olaraq CM-in 234.1-ci, yaxud da 234.2-ci maddələri ilə tövsif olunmalıdır. Törədilmiş əməlin CM-in 235-ci maddəsi ilə tövsif edilməsi üçün narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların dövlət və ya ictimai, yaxud özəl müəssisələrə, idarələrə, təşkilatlara yaxud da bu maddələrə qanuni və ya qanunsuz olaraq sahiblik edən ayrı-ayrı vətəndaşlara məxsus olması əhəmiyyət daşımır.

4. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını **hədə-qorxu ilə tələb etmə** dedikdə zor tətbiq etmə, yaxud özgənin əmlakını məhv etmə və ya zədələmə, habelə zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə adı çəkilən maddələrin verilməsini tələb etmə başa düşülür.

Şərh edilən cinayətin predmetlərini hədə-qorxu ilə tələb etmə **obyektiv cəhətdən** zərərçəkmiş şəxsə psixi zor (hədə) tətbiq edilməsi ilə törədilir. Psixi zor əsasən üç formada təzahür edir: 1) fiziki zor tətbiq etmə hədəsi; 2) özgənin əmlakını məhv etmə və ya zədələmə hədəsi; 3) zərərçəkmiş şəxs və ya onun yaxın qohumları haqqında rüsvayedici, yaxud zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının hüquqlarına və ya qanuni mənafelərinə mühüm ziyan vura bilən digər məlumatlar yayma hədəsi.

CM-in 235.1-ci maddəsində obyektiv cəhəti narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə olan sadə cinayət tərkibi nəzərdə tutulmuşdur. Burada qeyd olunan cinayət əməlinin törədilməsinin konkret üsulları göstərilməsə də, müqayisəli təhlil belə üsulların oğurluq, zor tətbiq etmədən soyğunçuluq, dələduzluq, ağırlaşdırıcı tərkib əlamətləri olmadan hədə-qorxu ilə tələb etmə olduğunu söyləməyə əsas verir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 17-ci bəndində deyilir ki, narkotik vasitələri, psixotrop maddələ-

ri və prekursorları talama və ya hədə-qorxu ilə tələb etmənin sonradan həmin predmetləri satma məqsədi ilə törədilməsi müəyyən olunarsa, onda təqsirləndirilənin əməli cinayətlərin məcmusu qaydasında, həm də CM-in müvafiq maddələri ilə nəzərdə tutulan cinayətə hazırlıq kimi tövsif olunmalıdır. Cinayət Məcəlləsinin 235-ci maddəsi ilə tövsif etmə zamanı əməlin əlavə olaraq narkotik vasitələri qanunsuz əldə etmə kimi tövsif edilməsinə ehtiyac qalmır, çünki bu əməl adları çəkilən predmetləri talama və ya hədə-qorxu ilə tələb etmə anlayışı ilə tam əhatə olunur.

Şərh olunan cinayətin predmetlərini talama və ya hədə-qorxu ilə tələb etmədən sonra bu predmetləri satış məqsədi ilə və ya bunsuz saxlama, emal etmə, daşıma və göndərmə mövcud olarsa, əməl cinayətlərin məcmusu üzrə CM-in 235-ci və 234-cü maddələri ilə tövsif olunmalıdır («Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 17-ci bəndinin 6-9-cu abzasları).

5. CM-in 235.2-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları talama və ya hədə-qorxu ilə tələb etmədə ifadə olunur. «Talama» və «hədə-qorxu ilə tələb etmə» anlayışlarının izahı CM-in 235.1-ci maddəsinin şərhində verilmişdir.

6. CM-in 235.3-cü maddəsində **ağırlaşdırıcı tərkib əlamətləri** qismində CM-in 235.1-ci və 235.2-ci maddələrində təsvir olunan əməllərin: a) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi; b) təkrar törədilməsi; c) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi; ç) həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi nəzərdə tutulmuşdur.

7. CM-in 235.4-cü maddəsində **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində CM-in 235.1-235.3-cü maddələrində təsvir olunmuş əməllərin: a) mütəşəkkil dəstə tərəfindən törədilməsi; b) külli miqdarda törədilməsi; c) həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi nəzərdə tutulmuşdur.

8. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmənin həm ağırlaşdırıcı, həm də xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri CM-in 234-cü maddəsində təsvir olunan cinayət əməllərinin şərhində ətraflı surətdə nəzərdən keçirilmişdir.

Həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq edilməsinin izahı CM-in 180.2.4-cü maddəsinin, həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq edilməsinin anlayışı isə CM-in 181.1-ci maddəsinin şərhində verilmişdir.

Şərh olunan cinayətin predmetlərini **şəxsin öz qulluq mövqeyindən istifadə etməklə talaması** və ya **hədə-qorxu ilə tələb etməsi** onun bu məqsədlə qulluq vəzifəsi üzrə qeyri-qanuni hərəkətlər törətməsində ifadə olunur. Deməli, bu zaman cinayətin **subyekti** dövlət və ya qeyri-dövlət müəssisə və ya təşkilatında qulluq mövqeyinə malik olan şəxsdir. Bu həm vəzifəli şəxs, həm də vəzifəsi olmayan, lakin qeyd olunan maddələrin xidməti istifadə üçün ona verildiyi və ya bu maddələrin mühafizəsi tapşırılan şəxs ola bilər. Belə şəxslərə tibb işçiləri (həkimlər, feldşerlər, əczaçılar), narkotik vasitələrin istehsal olunduğu müəssisələrin işçiləri, bu maddələrin saxlandığı anbarların keşikçiləri, hakimiyyət orqanlarının nümayəndələri və s. aid edilir.

9. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 17-ci bəndinə görə banda tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının oğurlanması (talanması) cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

10. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmənin **başa çatma anı** bu əməllərin obyektiv cəhətlərinin məzmunundan asılıdır.

Şərh olunan cinayətlərin predmetlərini oğurluq, soyğunçuluq və dələduzluq yolu ilə talama zamanı cinayət bu predmetlər elə keçirildiyi və təqsirkar şəxsin onlar barəsində sərəncam vermək (məsələn, gizlətmək, aparmaq və s.) imkanı yarandığı andan **başa çatmış** hesab olunur. Mənimsəmə, israf etmə və ya qulluq mövqeyindən sui-istifadə etmə yolu ilə talama zamanı cinayət əməli təqsirkar şəxsə onun qulluq mövqeyi ilə əlaqədar inanılıb tapşırılmış və ya mühafizə edilmək üçün verilmiş narkotik vasitələr, psixotrop maddələr və ya prekursorlar qanunsuz olaraq götürüldüyü andan **başa çatmış** hesab edilir. Adları sadalanan predmetləri quldurluq yolu ilə talama zamanı cinayət həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq edilməsi və ya belə zor tətbiq etmə hədəsi ilə müşayiət olunan basqın edildiyi andan **başa çatmış** hesab olunur.

Hədə-qorxu ilə tələb etmə qanunverici tərəfindən **formal tərkibli** cinayət kimi nəzərdə tutulduğundan, o, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz olaraq təqsirkar şəxsə verilməsi haqqında tələb irəli sürüldüyü andan bu tələbin təmin edilib-edilməməsindən və cinayətkarın onlara sahib ola bilib-bilməməsindən asılı olmayaraq, **başa çatmış** sayılır.

11. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını qanunsuz olaraq talamaqla elə keçirdiyini, yaxud hədə-qorxu ilə tələb etdiyini dərk edir və bunu arzu edir. CM-in 235-ci maddəsində təsvir olunan cinayət əməli əksər hallarda tamah motivi ilə törədilir. Lakin bu, həmişə belə olmur. Nəzərdən keçirilən cinayət bir sıra hallarda narkotik maddəyə olan aclığı (abstinensiyanı) «söndürmək» məqsədi ilə yaxud narkomaniyadan əziyyət çəkən xəstəyə yazığı gəldiyi üçün və s. motivlərlə törədilə bilər. Belə hallarda tamah motivi mövcud olmasa da, qeyd edilən cinayət tərkibinin bütün əlamətləri müşahidə olunur. Hər bir halda tamah motivinin mövcud olub-olmamasının müəyyənləşdirilməsi zəruridir, çünki bu, əməlin xarakterinin və ictimai təhlükəlilik dərəcəsinin qiymətləndirilməsinə təsir edir.

Şərh olunan cinayətin tövsifi zamanı bu cinayətin törədilmə **məqsədi** də aydınlaşdırılmalıdır. Nəzərdən keçirilən cinayətin predmetlərini talama və ya hədə-qorxu ilə tələb etmənin sonradan həmin predmetləri satma məqsədi ilə törədilməsi müəyyən olunduqda, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında əlavə olaraq müvafiq surətdə həm də CM-in 234.2-ci, 234.3-cü və 234.4-cü maddələrindən biri ilə nəzərdə tutulan cinayətə hazırlıq kimi tövsif

olunmalıdır. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 8-ci bəndinin mənasına görə də belə bir nəticə hasil olur.

CM-in 235-ci maddəsi ilə tövsif etmə zamanı əməlin əlavə olaraq narkotik vasitələri qanunsuz əldə etmə kimi tövsif edilməsinə ehtiyac qalmır, çünki bu əməl adları çəkilən predmetləri talama və ya hədə-qorxu ilə tələb etmə anlayışı ilə tam əhatə olunur. Şərh olunan cinayətin predmetlərini talama və ya hədə-qorxu ilə tələb etmədən sonra bu predmetləri satış məqsədi ilə və ya bunsuz saxlama, emal etmə, daşıma və göndərmə, habelə onları satma törədilmişdirsə, əməl cinayətlərin məcmusu üzrə CM-in 235-ci və 234-cü maddələri ilə tövsif edilməlidir.

12. Nəzərdən keçirilən cinayət oğurluq, dələduzluq, hədə-qorxu ilə tələb etmə yolu ilə törədildikdə onun **subyekti** cinayəti törədənədək **14** yaşı tamam olmuş anlaqlı fiziki şəxs ola bilər. Bu cinayət mənimsəmə və ya israf etmə yolu ilə törədildikdə, cinayətin subyekti narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların bağlanmış əmək müqaviləsinə görə mühafizə etmək üçün etibar olunduğu şəxs ola bilər, yəni burada cinayət xüsusi subyektlidir.

Maddə 236. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə

236.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə —

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cazalandırılır.

236.2. Eyni hərəkətlər:

236.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

236.2.2. təkrar törədildikdə;

236.2.3. bilə-bilə yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində törədildikdə;

236.2.4. zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

236.3. Bu Məcəllənin 236.1 və 236.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olduqda —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **əsas bilavasitə obyekti** əhalinin sağlamlığı, **əlavə obyekti** isə yetkinlik yaşına çatmayanların sağlamlığı, həyatı, habelə normal fiziki və psixi inkişafıdır.

Şərh olunan cinayətin **predmeti** narkotik vasitələr və psixotrop maddələrdir. Bu predmetlərin anlayışı CM-in 234-cü maddəsinin şərhində ətraflı surətdə nəzərdən keçirilmişdir.

2. Bu cinayətin **obyektiv cəhəti** narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmədə ifadə olunur.

Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanununun 1.0.16-cı maddəsinə görə **narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına təhrik etmə** dedikdə bədii, audio, video və sair materialların, o cümlədən kompüterləşdirilmiş informasiya və digər vasitələr ilə düzünə və ya dolayı yolla narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik etmə başa düşülməlidir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 17-ci bəndinə görə narkotik vasitələrin istehlakına təhrik etmə dedikdə dilə tutma, təklif etmə, məsləhət vermə, aldatma və sair üsullarla narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə həvəsini yaratmağa yönəldilmiş hər hansı qəsdən edilmiş hərəkətlər başa düşülməlidir.

Nəzərdən keçirilən cinayət narkotik vasitələri və ya psixotrop maddələri yaymanın bir növü olmaqla yüksək ictimai təhlükəlilik dərəcəsi ilə xarakterizə olunur. Belə ki, bu cinayətin törədilməsi yetkinlik yaşına çatmayanların və gənclərin sırasından narkomanların sayının artmasına səbəb olur.

CM-in 236.1-ci maddəsində nəzərdə tutulan cinayətin törədilməsi şəxsdə narkotik vasitələri və ya psixotrop maddələri istehlak etməyə dilə tutma, təklif etmə, məsləhət vermə, aldatma, qeyd olunan maddələri orqanizmə qəbul etdikdən sonra yaranan hissləri tərif etmə və s. üsullarla həvəs yaratmaqla baş verir.

Nəzərə almaq lazımdır ki, «təhrik etmə» anlayışı ilə narkotik vasitələri və ya psixotrop maddələri istehlak etməyə həm bir dəfə, həm də dəfələrlə təhrik etmə halları əhatə olunur. CM-in 236.1-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün zərərçəkmiş şəxsi narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına hətta cəmi bir dəfə təhrik etmə kifayətdir. Bu əmələ görə cinayət məsuliyyətinin yaranması üçün zərərçəkmiş şəxsin sonradan narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına davam edib-etməməsi əhəmiyyət daşımır.

Nəzərdən keçirilən cinayət tərkibinin yaranması üçün zərərçəkmiş şəxsin təhrik edilənədək olan davranışı mühüm rol oynayır. Belə ki, bu cinayətdən zərərçəkmiş şəxs təhrik olunana qədər öz təşəbbüsü ilə narkotik vasitələri və ya psixotrop maddələri «düşəndən-düşənə», yəni epizodik olaraq qəbul edən şəxslər də ola bilər. Bu şəxsləri narkotik vasitələrin və ya psixotrop maddələrin mütəmadi istehlakına təhrik edən və bu yolla onlarda qeyd olunan maddələrdən fiziki və psixi asılılıq yaranmasına səbəb olan təqsirkar CM-in 236.1-ci maddəsi ilə məsuliyyət daşıyır.

Zərərçəkmiş şəxs əvvəllər narkotik vasitələri və ya psixotrop maddələri mütəmadi qəbul edən şəxs olduqda, işin bütün hallarını hərtərəfli araşdırmaq və inandırma, dilə tutma, zor tətbiq etmə və s. üsullarla təhrik etmə faktının mövcud olduğunu sübut etmək zəruridir.

Şərh edilən cinayət əməlində təhrik etmənin **zorakı** və **qeyri-zorakı** üsullarını fərqləndirmək mümkündür. CM-in 236.1-ci maddəsi yalnız qeyri-zorakı üsulları (məsələn, dilə tutma, vəd vermə, təklif etmə, məsləhət vermə və s.) nəzərdə tutur. Əslində nəzərdən keçirilən üsullar zərərçəkmiş şəxsi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb etməyə yönəlmişdir. Azərbaycan Respublikasının adı çəkilən 28 iyun 2005-ci il tarixli Qanunun 1.0.17-ci maddəsinə görə **narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb etmə** dedikdə nəticəsindən asılı olmayaraq düzünə və ya dolayı yolla digər şəxslərin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb edilmə (təklif etmə, qonaq etmə və sair) başa düşülməlidir.

Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanununun 1.0.14-cü maddəsinə görə **narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı** Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsidir.

İstintaq və məhkəmə təcrübəsi göstərir ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı onları həblər (məsələn, kodein, barbamil) və ya toz (məsələn, quru morfin, tiryək) şəklində daxilə qəbul etmə, inyeksiya yolu ilə orqanizmə yeritmə (məsələn, morfin, promedol), narkotik vasitənin (məsələn, kokainin) tozunu burnuna çəkmə, qəlyan, yaxud siqaret kimi çəkmə (məsələn, həşiş), bitkiləri çeynəmə (məsələn, kokain kolunun yarpaqlarını), cövhər şəklində içmə (məsələn, qaynadılmış xaşxaş suyu) və s. formalarda baş verir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 11-ci bəndinin mənasına görə, başqasında narkotik vasitələrdən və ya psixotrop maddələrdən istifadəyə meyl yaratmış şəxs onları satmışsa və yaxud həmin vasitələrin oğurlanması, əldə edilməsi, saxlanması, daşınması və yaxud göndərilməsinə köməklik göstərmişsə, onun əməli cinayətlərin məcmusu üzrə CM-in (qüvvədə olan) 236.1-ci maddəsi və müvafiq olaraq 234.2-ci və ya 234.1-ci maddələri ilə tövsif olunmalıdır.

Şərh edilən cinayətin **obyektiv cəhəti** ictimai təhlükəli nəticənin baş verməsini zəruri əlamət kimi nəzərdə tutmadığı üçün bu, **formal tərkibli** cinayətdir. Buna görə də bu cinayət zərərçəkmiş şəxs narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik edildiyi andan başa çatmış hesab olunur. Cinayətin başa çatmış hesab edilməsi üçün təhrik etmə nəticəsində zərərçəkmiş şəxsin narkotik vasitələri və ya psixotrop maddələri həqiqətən istehlak etməsi və ya bundan imtina etməsi, yaxud bunun qarşısının alınması heç bir əhəmiyyət daşımır.

3. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar zərərçəkmiş şəxsi narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz olaraq istehlakına təhrik etdiyini dərk edir və bunu arzu edir. Bu cinayətin motivi zərərçəkmiş şəxsi narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına cəlb etmək cəhdidir.

4. Şərh olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. CM-in 236.2.3-cü maddəsində nəzərdə tutulan, bilə-bilə yetkinlik yaşına çatmayan şəxs barəsində törədilən cinayətin subyekti isə cinayəti törədənədək **18** yaşı tamam olmuş şəxsdir, yəni bu cinayət xüsusi subyektlidir.

5. CM-in 236.2-ci maddəsi şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsini; b) təkrar törədilməsini; c) bilə-bilə yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində törədilməsini; ç) zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsini nəzərdə tutur.

Burada «a» və «b» bəndlərində qeyd olunan ağırlaşdırıcı tərkib əlamətləri CM-in 234.4.1-ci və 234.4.2-ci maddələrinin şərhində ətraflı nəzərdən keçirilmişdir.

Təqsirkar şəxsi bilə-bilə yetkinlik yaşına çatmayanı narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə əlaməti üzrə CM-in 236.2.3-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb etmək üçün onun bu cinayəti 18 yaşına çatmayan şəxs barəsində törətdiyini qabaqcadan dəqiq bildiyi sübut edilməlidir.

İki və ya daha çox şəxsi narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə zamanı hər bir zərərçəkmiş şəxsi təhrik etməyə qəsd müstəqil olaraq, yəni ayrı-ayrılıqda yaranır. Bu zaman iki və ya daha çox şəxsi təhrik etmə, bir qayda olaraq, eyni vaxtda, yaxud qısa zaman fasiləsi ilə törədilir, lakin burada zərərçəkmiş şəxslərin hamısını təhrik etməyə qəsdin eyni vaxtda yaranmış olduğunu sübut etmək zəruridir. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən Qərarının 18-ci bəndinin 3-cü abzasında da deyilir ki, təqsirkarın hərəkəti iki və daha çox şəxsdə narkotik vasitələrdən və ya psixotrop maddələrdən istifadə həvəsi yaratmağa yönəlmişsə, bu hərəkətin hər iki şəxs barəsində eyni vaxtda və yaxud ayrı-ayrı vaxtlarda edilməsindən asılı olmayaraq, onun əməli CM-in 236.2.3-cü maddəsi ilə tövsif olunmalıdır. Belə hərəkətlər təkrar törədilən əməl kimi qiymətləndirilə bilməz.

CM-in 236.2.4-cü maddəsinin nəzərdə tutduğu mənada **zor** dedikdə zərərçəkmiş şəxsi narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmək məqsədi ilə tətbiq olunan fiziki və ya psixi zor başa düşülür. **Psixi zor** fiziki güc tətbiq etməklə hədələmədə ifadə olunur. **Fiziki zor** tətbiq edilməsi zərərçəkmişin sağlamlığına yüngül, az ağır və ya ağır zərər vurmada, ona əzab vermədə, zərərçəkmiş şəxsin sağlamlığına zərər vurmayan digər zorakı hərəkətlərdə (döymə, azadlıqdan məhrumetmə və ya azadlığını məhdudlaşdırma, zərbələr endirmə və s.) ifadə olunur. Zor tətbiq etmək hədəsi zərərçəkmiş şəxsi onun sağlamlığına zərər vurmaqla qorxutmada ifadə olunur. Bu zaman əməl cinayətlərin məcmusu üzrə CM-in 236.2.4-cü və 134-cü maddələri ilə tövsif oluna bilər.

Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə təhrik etmə nəticəsində zərərçəkmiş

şəxs narkomaniya və ya toksikomaniya ilə xəstələnərsə, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 236.2.4-cü və 126.1-ci maddələri ilə tövsif olunmalıdır. Belə tövsif CM-in 236-cı maddəsində nəzərdə tutulan cinayət əməlinin formal tərkibli olması və buna görə də hər cür ictimai təhlükəli nəticələrin bu tərkibin hüdudlarından kənarda qalması, yəni ayrıca cinayət-hüquqi tövsifin zəruri olması ilə izah olunur.

6. Şərh olunan cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində CM-in 236.1-ci və 236.2-ci maddələrində təsvir olunan əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olması nəzərdə tutulur. Təqsirkarın CM-in 236.3-cü maddəsi ilə cinayət məsuliyyətinə alınması üçün zərərçəkmiş şəxsin ölümünün məhz narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmənin nəticəsi olduğu, yəni nəzərdən keçirilən əməl ilə zərərçəkmişin ölümü arasında səbəbli əlaqənin olması müəyyən edilməlidir. Əks təqdirdə əməl qeyd olunan xüsusilə ağırlaşdırıcı tərkib əlaməti üzrə tövsif oluna bilməz.

Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə ehtiyatsızlıqdan zərərçəkmişin ölümünə səbəb olduqda, bu, CM-in 236.3-cü maddəsi ilə tam əhatə olunduğu üçün CM-in 124-cü maddəsi ilə əlavə tövsifə ehtiyac qalmır. Zərərçəkmiş şəxsin ölümünə münasibətdə təqsirkarın qəsdən hərəkət etməsi müəyyən olunduqda, bu, müstəqil tövsif olunmalıdır. Başqa sözlə, bu halda əmələ qəsdən adam öldürmə kimi hüquqi qiymət verilməli və həmin əməl CM-in 236.3-cü maddəsi ilə deyil, CM-in 120.1-ci və ya 120.2-ci maddəsi ilə tövsif olunmalıdır. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 18-ci bəndində də tövsiyə vardır.

CM-in 236.3-cü maddəsinin nəzərdə tutduğu mənada **başqa ağır nəticələr** dedikdə zərərçəkmiş şəxsin intihar etməsi, ruhi xəstəliyə tutulması, zöhrəvi xəstəliyə, insan immunçatışmazlığı virusuna yoluxması başa düşülür. Fikrimizcə, burada zərərçəkmiş şəxsin narkomaniya və ya toksikomaniyaya tutulması «başqa ağır nəticələr» anlayışına daxil edilməməlidir. Belə ki, CM-in 236.3-cü maddəsi başqa ağır nəticələrin ehtiyatsızlıqdan vurulduğunu nəzərdə tutur, lakin təqsirkarın zərərçəkmişin narkomaniya xəstəliyinə tutulmasına münasibəti qəsd formasındadır. Bir qayda olaraq, cinayətin **subyekti** zərərçəkmiş şəxsi narkomana çevirmək məqsədi ilə narkotik maddələrin və ya psixotrop maddələrin istehlakına cəlb edir və bu yolla onu özünün daimi müştərisinə çevirir.

Ağır nəticələr baş verdikdə, əməl cinayətlərin məcmusu qaydasında da (məsələn, CM-in 236.3-cü və 126.1-ci maddələri) tövsif oluna bilər.

Maddə 237. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə

237.1. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri xeyli miqdarda kultivasiya etmə (əkmə, yetişdirmə və ya onları (onların hissələrini) toplama) —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir ildən

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

237.2. Eyni hərəkətlər:

237.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

237.2.2. təkrar törədildikdə;

237.2.3. külli miqdarda törədildikdə —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 17 aprel 2007-ci il, 16 may 2008-ci il, 1 fevral 2017-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 30 iyun 2007-ci il; 7 iyun 2008-ci il; 23 fevral 2017-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 237-ci maddəsində nəzərdə tutulan cinayətin **əsas bilavasitə obyekti** əhalinin sağlamlığının təhlükəsizliyidir. Bu cinayətin **əlavə obyekti** bir sıra hallarda ictimai təhlükəsizlik hesab edilir.

Şərh olunan cinayətin **predmeti** tərkibində narkotik maddələr olan bitkilər, onların hissələri, çətənə, xaşxaş növləri, tərkibində narkotik maddələr olan digər bitkilərdir. **Becərilməsi qadağan edilmiş tərkibində narkotik maddələr olan bitkilərə** tiryək xaşxaşı, yağlı xaşxaşın digər növləri, hind, Cənubi Mancuriya, Cənubi Çu, Cənubi Arxon və Cənubi Krasnodar çətənəsi, çətənə növlü bitkilər, kokain kolu, kat və s. bu kimi bitkilər aid edilir.

Bu bitkilərin kultivasiyasına yalnız əczaçılıq sənayesinin ehtiyaclarını ödəmək üçün, yaxud elmi məqsədlərlə yol verilir. Haqqında söhbət gedən bitkilərin tərkibində narkotik maddələrin qatılığı çox olduğu üçün onlar özləri və ya onların hissələri Azərbaycan Respublikasının «Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında» və «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında» 28 iyun 2005-ci il tarixli qanunları ilə təsdiq edilən müvafiq Siyahılarla narkotik vasitə hesab olunur.

2. CM-in 237.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin **obyektiv cəhəti** qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmədə, yəni belə bitkiləri əkmədə, yetişdirmədə, onları (onların hissələrini) toplamada ifadə olunur. CM-in 237.1-ci maddəsində nəzərdə tutulan cinayətin tərkibinin yaranması üçün kultivasiya edilən bitkilərin **xeyli miqdarda** olması zəruridir. Qanunsuz kultivasiya edilən, tərkibində narkotik maddələr olan bitkilərin **xeyli və külli miqdarlarının Siyahısı** (III Siyahı) Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir (həmin siyahı 234-cü maddənin şərhinin sonunda verilmişdir).

Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanununun 1.0.6-cı maddəsinə görə **tərkibində narkotik maddələr olan bitkilərin**

qanunsuz kultivasiyası dedikdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, yetişdirilməsi və ya toplanması başa düşülür.

«Kultivasiya etmə» termini dilimizdə «nəyisə əkmək, becərmək, onun inkişafını müəyyən üsullarla təkmilləşdirmək» mənasında istifadə edilir. Deməli, tərkibində narkotik maddələr olan bitkiləri, habelə çətənə, xaşxaş növlərini və ya tərkibində narkotik maddələr olan digər bitkiləri kultivasiya etmə onları əkmə və yetişdirməkdən başqa bir şey deyildir.

Geniş mənada qeyd olunan bitkiləri **kultivasiya etmə** dedikdə onların toxumlarını seleksiya etmə, bu bitkilərin müxtəlif növlərini calaq etmə və onların yetişdirilməsi üsullarının səmərəliliyini artırma başa düşülür.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 19-cu bəndinə görə **qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri əkmə** dedikdə qanunsuz olaraq həmin bitkilərin toxumunu və ya şitilini hər hansı torpaq sahələrində əkmə başa düşülməlidir. **Yetişdirmə** dedikdə isə narkotik xassəli bitkilərin əkildiyi və ya təbii şəkildə bitdiyi torpaq sahələrinə və burada böyüyən bitkilərə qulluq etmə başa düşülməlidir.

Əvvəlki CM-dən fərqli olaraq, qanunverici yeni CM-in 237.1-ci maddəsinin dispozisiyasında «becərmə» sözünü «yetişdirmə» anlayışı ilə əvəz etmişdir. Fikrimizcə, Plenumun qeyd olunan Qərarında «becərmə» terminə verilən anlayışı «yetişdirmə» ifadəsinə də eyni dərəcədə şamil etmək olar. Bu, «becərmə» və «yetişdirmə»nin sinonim, yəni eyni mənalı sözlər olması ilə izah olunur.

Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri (onların hissələrini) toplama dedikdə bu bitkilərin əkildiyi, yetişdirildiyi mühafizə olunmayan əkin sahələrindən onları, eləcə də onların hissələrini yığma başa düşülür.

Nəzərdən keçirilən cinayətin obyektiv cəhətinin xüsusiyyəti onun əlamətlərinin **blanket** xarakterli olmasıdır. Deməli, onların mənasını aydınlaşdırmaq üçün tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya edilməsi qaydalarını tənzimləyən müvafiq normativ aktlara müraciət etmək lazımdır.

Şərh olunan cinayətin **obyektiv cəhətini** qeyd olunan bitkiləri kultivasiya etmə, yəni yalnız qanunsuz əkmə, yetişdirmə, toplama təşkil edir. Müvafiq normativ aktlar sadalanan bitkilərin ixtisaslaşdırılmış kənd təsərrüfatı müəssisələri tərəfindən qanun əsasında sənaye və tibbi məqsədlər üçün kultivasiya edilməsini nizama salır. Tərkibində narkotik maddələr olan bitkiləri **qanunsuz olaraq əkmə, yetişdirmə, toplama** (kultivasiya etmə) dedikdə bu fəaliyyət növlərinin buna səlahiyyəti olmayan subyektlər tərəfindən, yaxud yol verilən həcmdən artıq miqdarda həyata keçirilməsi başa düşülür.

3. Şərh olunan cinayət **formal tərkibli** olduğu üçün qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri əkmə (bu halda cinayət həmin bitkilərin yetişdirilməsi üçün nəzərdə tutulan torpaq sahələrinə toxum və ya şitilin əkildiyi andan, onların yetişdirilməsindən və sonrakı inkişafından asılı olmayaraq başa çatmış sayılır), yetişdirmə (bu halda cinayəti qulluq etmənin başlandığı andan başa çatmış hesab olunur), toplama (kultivasiya etmə) anından başa çatmış hesab olunur. Hər hansı ictimai təhlükəli nəticələrin baş verməsi cinayətin başa çatma anına təsir etmir.

Tərkibində narkotik maddələr olan bitkiləri əkmə, yetişdirmə üçün istifadə edilmiş torpaq sahələrinin dövlət, ictimai və ya xüsusi mülkiyyətdə olması, yaxud istifadə edilməyən torpaqlar olması törədilmiş əməlin CM-in 237.1-ci maddəsi ilə tövsifinə təsir etmir.

Tərkibində narkotik maddələr olan bitkilərin məhsulunu yığmanın və onları yetişdirmənin məqsədindən asılı olmayaraq, bu bitkiləri qanunsuz olaraq kultivasiya etmə anından cinayət **başa çatmış** hesab edilir. Tərkibində narkotik maddələr olan bitkilər şəxsi istehlak məqsədi ilə yetişdirildikdə, təqsirkarın əməli CM-in 237.1-ci maddəsi ilə tam əhatə olunur. Tərkibində narkotik maddələr olan bitkilərin, habelə çətənə, xaşxaş növlərinin satış məqsədi ilə və bunsuz əkilməsi, yetişdirilməsi, qanunsuz olaraq onlardan narkotik vasitələr hazırlanması, onların saxlanması, daşınması və göndərilməsi, habelə satılması ilə əlaqədar hərəkətlər cinayətlərin məcmusu üzrə CM-in 237.1-ci və müvafiq olaraq 234.2-ci və ya 234.1-ci maddələri ilə tövsif olunmalıdır.

4. Nəzərdən keçirilən **cinayət subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri əkdiyini, yetişdirdiyini, onları (onların hissələrini) topladığını (kultivasiya etdiyini) dərk edir və bunu arzu edir.

Qanunverici CM-in 237.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan əməlin şəxsi istehlak və ya satış məqsədi ilə törədilməsini bu cinayət tərkibinə daxil etmir. Deməli, əməlin CM-in 237.1-ci maddəsi ilə tövsif edilməsi üçün göstərilən məqsədlərin heç bir əhəmiyyəti yoxdur. Burada satış məqsədinin olması CM-in 61.1.6-cı maddəsinə əsasən tamah məqsədinin olması əlaməti üzrə cəzanı ağırlaşdıran hal kimi qiymətləndirilməlidir.

Tərkibində narkotik maddələr olan bitkilər təsərrüfat ehtiyacları üçün, məsələn, lif, toxum, yağ əldə etmək məqsədi ilə əkildikdə, yetişdirildikdə, bu əməl özünün ictimai təhlükəliliyini itirmir, çünki başqa şəxslər bu bitkilərdən qanunsuz olaraq narkotik vasitələr hazırlamaq üçün istifadə edə bilər. Buna görə də tərkibində narkotik maddələr olan bitkilər hətta sırf təsərrüfat ehtiyaclarını ödəmək üçün qanunsuz olaraq əkildikdə, yetişdirildikdə, əməl CM-in 237.1-ci maddəsi ilə tövsif edilməlidir.

5. Şərh olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Bu cinayətin subyekti həm də vəzifəli şəxslər, məsələn, kənd təsərrüfatı müəssisələrinin, təşkilatlarının rəhbərləri və s. ola bilər.

6. CM-in 237.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; b) təkrar törədilməsi; c) külli miqdarda törədilməsi nəzərdə tutulmuşdur.

Bu cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil**

dəstə tərəfindən törədilməsi haqqında CM-in 234.4.1-ci maddəsinin, təkrar törədilməsi haqqında isə 234.4.2-ci maddəsinin şərhində ətraflı qeyd olunmuşdur.

Təkrarlıq əlaməti ilə bağlı olaraq qeyd etmək lazımdır ki, tərkibində narkotik maddələr olan bitkilərin toxumlarını və ya şitillərini eyni vaxtda müxtəlif sahələrdə əkmə, yaxud müxtəlif yerlərdə əkilmiş belə bitkilərə qulluq etmə şərh olunan cinayətin təkrar törədilməsi hesab edilməməlidir. Təqsirkar tərkibində narkotik maddələr olan bitkiləri müxtəlif vaxtlarda və ya yerdə kultivasiya etmək üzrə işlər görürsə və bu cür hərəkət etmək qəsdi onda hər dəfə yenidən yaranırsa, təkrarlıq mövcud olur.

Qanunsuz kultivasiya edilən, tərkibində narkotik maddələr olan bitkilərin **xeyli və külli miqdarlarının Siyahısı** (III Siyahı) Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir (həmin siyahı 234-cü maddənin şərhinin sonunda verilmişdir). **«Külli miqdar»** əlamətinin şərhi CM-in 234-cü maddəsinin 13-cü bəndində verilmişdir.

7. Tərkibində narkotik maddələr olan bitkiləri əkmə, yetişdirmə və kultivasiya etmə rolların bölüşdürülməsi ilə ayrı-ayrı şəxslər tərəfindən həyata keçirilə bilər, yəni bu zaman onların bir qismi əkir, digərləri yetişdirir və s. Bu şəxslərin hamısı şərh olunan cinayətin birgə icraçıları kimi məsuliyyət daşıyırlar. Ərazisində tərkibində narkotik maddələr olan bitkilər yetişdirilən torpaq sahəsinin sahibinə başqa cür köməklik göstərən (məsələn, həmin torpaq sahəsinin keşiyini çəkən) şəxslər CM-in 32.5-ci və 237.1-ci maddələri ilə qeyd olunan cinayətdə köməkçi qismində iştirakçılığa görə məsuliyyətə cəlb olunurlar.

Maddə 238. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama

238.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermə —

dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

238.2. Eyni hərəkətlər:

238.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

238.2.2. təkrar törədildikdə —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Bu cinayətin **əsas bilavasitə obyekti** əhalinin sağlamlığının təhlükəsizliyidir. Qeyd olunan cinayətin **əlavə obyekti** qismində bir sıra hallarda ictimai təhlükəsizlik, ictimai qayda və ictimai mənəviyyat çıxış edə bilər.

Bu cinayətin **predmeti** tiryəkxananın müştəriləri tərəfindən istehlak edilən narkotik vasitələr və psixotrop maddələrdir. Bunların anlayışı CM-in 234-cü maddəsinin şərhində verilmişdir.

2. CM-in 238.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermədə ifadə olunur.

Tiryəkxana dedikdə yaşayış (mənzil, ev, bağ evi, mənzilin otağı və s.) və ya qeyri-yaşayış (anbar, zirzəmi, qaraj, evin çardağı və s.), yaxud xidməti (gözətçinin və ya meşəbəyinin daxması, istilikxana və s.) təyinatlı tikililər başa düşülür. Buraya həmçinin xüsusi olaraq hazırlanmış yerlər (məsələn, meşəlikdə düzəldilmiş koma, çadır, torpaq qazmalar) aid edilə bilər. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən qərarının 20-ci bəndində həmçinin deyilir ki, tiryəkxananın təşkili və saxlanılması məqsədi ilə binanın verilməsi də konstruktiv təyinatından asılı olmayaraq istənilən tikilinin və yaxud onun bir hissəsinin həmin məqsədlər üçün başqa şəxsin (tiryəkxananı təşkil edənin, saxlayanın) istifadəsinə verilməsini ehtiva edir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 20-ci bəndinə görə **narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə** dedikdə tiryəkxana üçün yaşayış və qeyri-yaşayış sahələrinin əldə edilməsi, icarəyə, əvəzsiz olaraq istifadəyə və ya sahibliyə götürülməsi, təmir olunması, yenidən qurulması, xüsusi avadanlıqlarla təhciz edilməsi və sair bu kimi hərəkətlər başa düşülməlidir. **Tiryəkxana saxlama** dedikdə isə artıq şəxsin özü və yaxud başqası tərəfindən təşkil olunmuş tiryəkxananın fəaliyyətinin davam etdirilməsinə yönələn hərəkətlər, məsələn, tiryəkxananın yerləşdiyi yaşayış və yaxud qeyri-yaşayış sahələrinin istismarı ilə bağlı maliyyə xərclərinin çəkilməsi, onların mühafizəsinin təşkil edilməsi, tiryəkxanadan istifadəni nizamlamaq üçün tədbirlərin görülməsi başa düşülməlidir.

Tiryəkxananın fəaliyyət göstərməsinin təmin olunmasına yönəlmiş bir sıra hərəkətlər — tiryəkxananın stol və stullarla və s. məişət predmetləri ilə təchiz olunması, mühafizə edilməsi, burada təmir işlərinin aparılması, silinib-süpürülməsi, müştərilərə xidmət göstərilməsi və s. tiryəkxana saxlama kimi tövsif edilir. Tiryəkxana saxlayan şəxs həm bu tikilinin (evin, mənzilin, otağın və s.) sahibi ola bilər, həm də onun barəsində digər əsaslarla sərəncam verə bilər. Bu cinayətin predmetlərinin istehlakı üçün **binalar vermə** dedikdə bu tikililərin qeyd olunan məqsədlər üçün icarəyə verilməsi başa düşülür.

Əksər hallarda tiryəkxana saxlayan şəxs həm də onu təşkil edən şəxs olur.

3. Nəzərdən keçirilən cinayət **formal tərkibli** olduğu üçün narkotik vasitələrin və ya psixotrop maddələrin istehlak edilməsi məqsədi ilə tiryəkxana təşkil edildiyi andan başa çatmış hesab olunur. Burada tiryəkxananın faktiki fəaliyyətə başlayıb-başlamaması heç bir rol oynamır.

4. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxana təşkil etdiyini və ya saxladığını, yaxud bu məqsədlərlə binalar verdiyini dərk edir və belə hərəkət etməyi arzu edir. Bu cinayət çox zaman **tamah motivi** ilə törədilir. Lakin bu, şərh olunan cinayət tərkibinin subyektiv cəhətinin zəruri ünsürü deyildir. Nəzərdən keçirilən cinayətin subyektiv cəhətinin zəruri əlaməti narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakını təmin etmədən ibarət olan **xüsusi məqsəddir.** CM-in 238.1-ci maddəsi ilə cinayət məsuliyyəti

narkotik vasitələrdən və ya psixotrop maddələrdən həm bir dəfə, həm də dəfələrlə istifadə olunması üçün bina, mənzil, otaq və s. verilməsinə görə təqsirkarın tamah məqsədinin olub-olmamasından asılı olmayaraq yaranır.

5. CM-in 238.1-ci maddəsində nəzərdə tutulan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Tiryəkxananın təşkil edilməsinə və ya fəaliyyət göstərməsinə köməklik etmiş digər şəxslər (məsələn, mühafizəçilər, müştərilərə xidmət göstərən şəxslər və s.) bu cinayətdə köməkçi qismində iştirakçılığa görə CM-in 32.5-ci və 238.1-ci maddələri ilə məsuliyyət daşıyırlar.

6. CM-in 238.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; b) təkrar törədilməsi nəzərdə tutulmuşdur. Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətləri haqqında CM-in 234.4.1-ci və 234.4.2-ci maddələrinin şərhində ətraflı danışılır.

7. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermə əməllərinin **təkrar törədilməsi** dedikdə (CM-in 238.2.2-ci maddəsi), məhz CM-in 238.1-ci maddəsində təsvir olunmuş kriminal hərəkətlərin, yəni tiryəkxananın təşkil edilməsinin və saxlanmasının, eləcə də tiryəkxananın təşkil edilməsi və saxlanması məqsədi ilə binanın verilməsinin iki və ya iki dəfədən çox törədilməsi başa düşülür (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 20-ci bəndinin 7-ci abzası).

8. Nəzərdən keçirilən cinayət narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə, habelə onları belə vasitə və maddələrlə təmin etmə (satma və s.) əməllərinin törədilməsi ilə müşayiət oluna bilər və mövcud istintaq təcrübəsinə görə bir sıra hallarda belə də olur. Bu zaman təqsirkarın əməlləri cinayətlərin məcmusu üzrə müvafiq olaraq CM-in 238-ci və 236-cı, yaxud 238-ci və 234.2-ci (234.4-cü) maddələri ilə tövsif olunmalıdır. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən qərarının 20-ci bəndində də tövsiyə vardır.

Maddə 239. Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma

Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 9 noyabr 2017-ci il).*

1. Azərbaycan Respublikasının 1960-cı il CM-də bu cinayət tərkibi nəzərdə tutulmurdu. Qanunverici qeyd olunan cinayət əməlinin yüksək ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, onun törədilməsinə görə yeni CM-in ayrıca maddəsində cinayət məsuliyyəti nəzərdə tutmuşdur.

Qanunverici CM-in 239-cu maddəsində iki cinayət tərkibini nəzərdə tutur: 1) narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə; 2) belə reseptləri saxtalaşdırma. Bu cinayət tərkibləri bir-birindən obyektiv və subyektiv cəhətlərinin xüsusiyyətlərinə, habelə cinayətin subyektinə görə fərqlənir. Bu cinayət tərkibləri üçün yalnız qəsdin obyekti ümumidir.

2. Şərh olunan cinayətin **əsas obyekti** əhalinin sağlamlığının təhlükəsizliyidir. Bu cinayətin əlavə obyekti qismində subyektin işlədiyi sahənin (tibb, əczaçılıq və s.) qulluq mənafeləri çıxış edir.

Nəzərdən keçirilən cinayət əməlinin **predmeti** narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptlərdir.

Resept dedikdə həkimin dərmanların hazırlanması və buraxılması, habelə onlardan istifadə olunması haqqında aptekə təqdim olunmaq üçün verdiyi yazılı tövsiyə başa düşülür.

Burada **tibbi göstəricilər** dedikdə insan orqanizmində xəstəlik və ya fizioloji dəyişikliklər nəticəsində, eləcə də cərrahiyyə əməliyyatları zamanı müşahidə olunan və yalnız narkotik və psixotrop dərman preparatları vasitəsilə aradan qaldırıla bilən dözülməz ağrılar və s. hallar başa düşülür. Narkotik və psixotrop dərman preparatlarının tibbi məqsədlərlə istifadəsinə yol verilən belə halların tam siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 39 saylı 9 fevral 2006-cı il tarixli qərarı ilə təsdiq edilmiş «Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası»nda əks olunmuşdur. Qaydanın 11-ci bəndinə görə narkotik dərman preparatları tibbi məqsədlərlə aşağıdakı hallarda istifadə edilir:

adi ağrıkəsici dərman preparatının təsirinin az olduğu və tam olmadığı hallarda güclü ağrı sindromunu aradan qaldırmaq məqsədilə;

cərrahi əməliyyatlardan əvvəl premidikasiya məqsədilə;

cərrahi əməliyyatlar vaxtı anesteziyanın komponenti kimi;

cərrahi əməliyyatlardan sonra ağrısızlaşdırmaq məqsədilə;

anafilaktik reaksiyaları aradan qaldırmaq məqsədilə;

narkomanlıq xəstəliyinə düçar olmuş xəstələrin müalicəsində terapevtik vasitə kimi ancaq dövlət narkoloji-tibb müəssisələrində;

eksperimental tədqiqatlar zamanı hər hansı bir patalogiyanın modelləşdirilməsi, təcrübələrin həyata keçirilməsi məqsədilə.

«Qayda»nın 12-ci bəndinə görə psixotrop maddələrdən tibbi məqsədlərlə mərkəzi sinir sisteminin, şüurun müxtəlif formalı və gedişli funksional, üzvi dəyişiklikləri müşahidə edilən hallarda profilaktik, müalicəvi vasitə kimi istifadə olunur.

3. Nəzərdən keçirilən cinayətin **obyektiv cəhəti** narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırmada ifadə olunur.

CM-in 239-cu maddəsinin dispozisiyasına əsasən **narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstərici-**

lər olmadan qanunsuz vermə cinayətinə görə məsuliyyət o vaxt yaranır ki, resept belə sənəd vermə səlahiyyəti olan şəxs tərəfindən verilsin (xüsusi subyekt) və buna tibbi göstəricilər olmasın. Səlahiyyəti olmayan şəxs tərəfindən belə resept verilməsi həmin sənədin saxtalaşdırılması kimi qiymətləndirilməlidir (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 21-ci bəndi).

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun adı çəkilən qərarının 21-ci bəndinə görə resept verilməsinə tibbi göstəricələrin olub-olmaması **ekspert rəyi ilə** müəyyənləşdirilməlidir.

Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən **reseptləri saxtalaşdırma** dedikdə əsl sənədə (blanka) bilə-bilə yalan məlumatlar yazma, yaxud əsl reseptə oxşayan tam saxta sənəd düzəltmə və ya əsl reseptin məzmununu burada yazılanları təhrif etməklə (məsələn, ayrı-ayrı sözləri, rəqəmləri müxtəlif üsul və vasitələrlə pozub onların əvəzinə başqa məlumatlar yazma) dəyişdirmə başa düşülür.

Şərh olunan cinayət **formal tərkibli** olduğundan, narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptlər qanunsuz olaraq verildiyi və ya saxtalaşdırıldığı andan **başa çatmış** hesab edilir. Təqsirkarın bu cinayəti törətməklə narkotik vasitə və ya psixotrop maddə əldə etməyə nail olub-olması əhəmiyyət daşımır. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 21-ci bəndində deyilir ki, belə reseptlə narkotik vasitələrin əldə edilməsi ayrıca tövsif edilir, yəni bu halda cinayətlərin məcmusu yaranır. Reseptin saxtalaşdırılması əməlinin həm də CM-in 320-ci maddəsi ilə tövsif edilməsinə ehtiyac yoxdur.

4. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar qanunsuz olaraq başqa şəxsə narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri verdiyini, yaxud onları saxtalaşdırdığını dərk edir və belə hərəkət etməyi arzu edir. Bu cinayət, bir qayda olaraq, tamah motivi ilə törədilir, lakin digər motivlərin də olması istisna edilmir.

5. Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan vermənin **subyekti** xüsusidir, yəni yalnız belə reseptləri vermək səlahiyyətinə malik olan şəxslərdir. Belələrinə həkimlər, baş həkimlər, tibb idarələrinin şöbə müdirləri və s. aid edilir. Qeyd olunan reseptləri saxtalaşdırma cinayətinin **subyekti** isə cinayəti törədənədək **16** yaşı tamam olmuş həm vəzifəli, həm də vəzifəsi olmayan anlaqlı fiziki şəxs ola bilər.

Nəzərdən keçirilən cinayət vəzifəli şəxs tərəfindən tamah və ya sair şəxsi maraq üzündən törədildikdə, əməl həm də CM-in 308.1-ci maddəsi ilə tövsif olunmalıdır.

Maddə 240. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi

240.1. Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal

etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satma —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.1-1. Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satma —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.2. Bu Məcəllənin 240.1 və 240.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər:

240.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

240.2.2. təkrar törədildikdə —

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.3. Bu Məcəllənin 240.1, 240.1-1 və 240.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

240.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

240.3.2. güclü təsir edən maddələrə münasibətdə külli miqdarda törədildikdə —

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.4. Güclü təsir edən və ya zəhərli maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması, daşınması və ya göndərilməsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olduqda —

min manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllədə göstərilən, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və zəhərli maddələr, habelə güclü təsir edən maddələrin külli miqdarı qanunla müəyyən edilir *(16 may 2008-ci il, 29 may 2015-ci il, 18 mart 2016-cı il, 31 may 2017-ci il 6 may 2016-cı il tarixli qanunlarla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 21 iyun 2015-ci il; 23 aprel 2016-cı il; 25 may 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Fikrimizcə, CM-in 240-cı maddəsinin adı o qədər də uğurlu hesab oluna bilməz. Bu maddənin adını onunla «qohum» olan CM-in 234-cü maddəsinin adı ilə müqayisə etdikdə belə nəticə çıxarmaq mümkündür. Belə ki, CM-in 234-cü maddəsinin adında narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar olan konkret hərəkətlər, yəni adları çəkilən predmetləri qanunsuz «hazırlama», «istehsal etmə», «əldə etmə», «saxlama», «daşıma», «göndərmə», «satma» sadalanır. CM-in 240-cı maddəsinin adında isə qanunverici ümumi anlayışdan, yəni «qanunsuz dövriyyə» terminindən istifadə etmişdir. Bu isə məntiqi hesab oluna bilməz,

çünki «qanunsuz dövriyyə» konkret hərəkətlərdə ifadə olunur. CM-in 240-cı maddəsinin adında qanunverici məhz bu konkret hərəkətləri göstərməli idi. Bundan əlavə, CM-in 240.4-cü maddəsində nəzərdə tutulan cinayət əməli şərh olunan maddənin adına açıq-aşkar uyğun gəlmir.

2. Nəzərdən keçirilən cinayətin **əsas bilavasitə obyekti** əhalinin sağlamlığının təhlükəsizliyidir. Bu cinayətin əlavə obyekti qismində ictimai təhlükəsizlik, mülkiyyət münasibətləri, dövlət müəssisə və idarələrinin normal fəaliyyəti çıxış edir.

Şərh olunan cinayət əməlinin **predmeti** narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, habelə bu maddələri hazırlamaq və ya emal etmək üçün olan avadanlıqdır. Şərh olunan maddənin «Qeyd»inə əsasən narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və zəhərli maddələr, habelə onların külli miqdarı **qanunla** müəyyən edilir. Azərbaycan Respublikasının 18 mart 2016-cı il tarixli Qanunu ilə «Güclü təsir edən maddələr və onların külli miqdarının Siyahısı» və «Zəhərli maddələrin Siyahısı» təsdiq edilmişdir. Həmin siyahılar bu maddənin şərhinin sonuna əlavə edilmişdir.

Güclü təsir edən maddələr dedikdə xeyli miqdarda qəbul edildikdə və istehlak olunması barədə tibbi əks göstərişlər olduqda, insanların həyatına və sağlamlığına təhlükəli təsir göstərən maddələr başa düşülür. Belə maddələr insanlarda fiziki və psixi asılılıq yarada, hallüsinasiyalara və ya düşünmə, qavrama, davranış funksiyalarının pozulmasına, əhval-ruhiyyənin dəyişməsinə səbəb olaraq, mərkəzi sinir sisteminə stimulverici və ya depressiv təsir göstərə bilər.

Zəhərli maddələr dedikdə insanın orqanizminə zəhərləyici (toksik) təsir göstərən maddələr nəzərdə tutulur. Belə maddələr hətta ən az dozada insan orqanizminə daxil edildikdə güclü zəhərlənməyə və ya insanın ölümünə səbəb ola bilir.

Bu və ya digər maddənin güclü təsir edən və ya zəhərli maddələrə aid edilməsi yalnız **müvafiq ekspertizanın aparılması** əsasında həyata keçirilməlidir.

Güclü təsir edən və ya zəhərli maddələri hazırlamaq, yaxud emal etmək üçün **avadanlıq** dedikdə qeyd olunan məqsədlər üçün istifadə edilən istənilən alətlər, cihazlar, qurğular və mexanizmlər başa düşülür.

3. CM-in 240.1-ci və 240.1-1-ci maddələrində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satmadır.

Güclü təsir edən (CM-in 240.1-ci maddəsi) **və zəhərli maddələrin** (CM-in 240.1-1-ci maddəsi) **hazırlanması** dedikdə hər hansı hərəkətlərin nəticəsində onların təbii və ya sintetik xammaldan hazırlanması başa düşülməlidir.

«Emal etmə», «əldə etmə», «saxlama», «daşıma», «göndərmə» anlayışları CM-in 234.2-ci maddəsinin şərhində ətraflı izah olunmuşdur.

Zəhərli və güclü təsiredici maddələrin qəbulu, saxlanması, istifadə edilməsi və buraxılması qaydaları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 8 fevral 1999-cu il tarixli 9 saylı əmri ilə təsdiq olunmuş 10 saylı Əlavədə nəzərdə tutulmuşdur.

Satma dedikdə güclü təsir edən və zəhərli maddələrin qanunsuz olaraq hər hansı bir üsulla yayılması başa düşülməlidir (satma, bəxşiş vermə, dəyişdirmə, borc əvəzinə vermə, borc olaraq vermə, başqa şəxsə iynə vurma və s.).

CM-in 240.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan və şərh edilən cinayətin **obyektiv cəhətini** təşkil edən bütün əməllər yalnız qanunsuz olaraq törədildikdə cinayət məsuliyyətinə səbəb olur. Güclü təsir edən və zəhərli maddələrin hazırlanması və emalı yalnız xüsusi icazəsi olan ixtisaslaşdırılmış dövlət müəssisələri, idarələri tərəfindən həyata keçirilə bilər. Nəzərdən keçirilən hərəkətlərin ayrı-ayrı şəxslər, habelə xüsusi icazəsi olmayan müəssisələrin işçiləri tərəfindən edilməsi qanunsuz hesab edilir.

Şərh olunan cinayət **formal tərkibli** olduğu üçün CM-in 240.1-ci maddəsində nəzərdə tutulan hərəkətlərdən hər hansı biri törədildiyi andan başa çatmış hesab olunur. Dəqiqləşdirmə məqsədi ilə qeyd edək ki, güclü təsir edən və ya zəhərli maddələri hazırlama bu maddələr insanların həyatı və sağlamlığı üçün təhlükə yarada bilən miqdarda və qatılıqda əldə edildiyi andan **başa çatmış** hesab edilir. Qeyd olunan maddələrin hələ əldə edilmədiyi, lakin onların hazırlanması prosesinin özü cinayət etməyə cəhd kimi qiymətləndirilir və CM-in 29-cu və 240.1-ci maddələri ilə tövsif olunur.

Güclü təsir edən və ya zəhərli maddələrdən istifadə edilməsi nəticəsində insanın sağlamlığına ağır zərər vurulmuşdursa, yaxud onun ölümü baş vermişdirsə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 240.1-ci maddəsi və CM-in həyat və sağlamlıq əleyhinə müvafiq cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə tövsif olunur.

4. CM-in 240.1-1-ci maddəsində nəzərdə tutulan cinayət 240.1-ci maddədə təsbit olunan cinayətdən cinayətin predmetinə görə fərqlənir.

5. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar güclü təsir edən və ya zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırladığını, emal etdiyini, əldə etdiyini, saxladığını, daşıdığını və ya göndərdiyini, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satdığını dərk edir və məhz belə hərəkət etməyi arzu edir.

CM-in 240.1-240.3-cü maddələri ilə məsuliyyət bu maddələrdə nəzərdə tutulan əməllər satış məqsədi ilə törədildikdə yaranır. Məhz bu səbəbdən qaz balonlarında yerləşdirilmiş güclü təsir edən maddələrin xüsusiyyətlərindən istifadə edilməsi, habelə qaz tapançalarının tətbiq olunması, bu hərəkətləri qeyd olunan maddələri satma kimi qiymətləndirmək mümkün olmadığı üçün onlara şərh olunan maddənin qüvvəsi şamil olunmur.

Güclü təsir edən və ya zəhərli maddələri satma həm tamah məqsədi ilə, həm də bunsuz törədilə bilər.

6. CM-in 240.1-240.3-cü maddələrində nəzərdə tutulan cinayət əməllərinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş həm vəzifəli olmayan,

həm də vəzifəli şəxs ola bilər.

7. CM-in 240.2-ci maddəsində CM-in 240.1-ci və 240.1-1-ci maddələrində nəzərdə tutulan cinayətin: a) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi; b) təkrar törədilməsi **ağırlaşdırıcı tərkib əlaməti** qismində nəzərdə tutulur.

CM-in 240.3-cü maddəsində bu Məcəllənin 240.1-ci, 240.1-1-ci və 240.2-ci maddələrində göstərilən əməllərin: a) mütəşəkkil dəstə tərəfindən törədilməsi; b) külli miqdarda törədilməsi **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** qismində nəzərdə tutulmuşdur.

Qeyd olunan ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı əlamətlərin məzmunu CM-in 234-cü maddəsinin şərhində ətraflı surətdə təhlil edilmişdir.

8. CM-in 240.4-cü maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** güclü təsir edən və ya zəhərli maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması, daşınması və ya göndərilməsi qaydalarının ehtiyatsızlıqdan onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olan şəkildə pozulmasında ifadə olunur. Bu, müstəqil cinayət tərkibi olsa da, CM-in 234.5-ci maddəsində nəzərdə tutulan cinayət əməlinə oxşarlığı vardır. Lakin CM-in 234.5-ci maddəsində nəzərdə tutulan cinayət əməlindən fərqli olaraq, bu cinayətin predmeti güclü təsir edən və ya zəhərli maddələrdir.

CM-in 240.4-cü maddəsinin dispozisiyası **blanket** xarakterli olduğu üçün güclü təsir edən və zəhərli maddələrin istehsalı və dövriyyəsi qaydalarını tənzimləyən müvafiq normativ aktlara müraciət etmək zəruridir. Şərh olunan maddədə sadalanan qaydaların pozulması faktının tədqiq edilməsi texnoloji və ya mühasibat ekspertizasının köməyi ilə aparılmalıdır.

Nəzərdən keçirilən cinayət **maddi tərkibli** olduğu üçün yalnız güclü təsir edən və ya zəhərli maddələr ilə davranış qaydalarının pozulması onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olduğu andan başa çatmış hesab olunur. Qeyd olunan xüsusi qaydaların pozulması ilə baş vermiş ictimai təhlükəli nəticələr arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

Şərh olunan cinayətin predmetlərinin talanması (istənilən üsul ilə) zamanı bunun məhz həmin maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması, daşınması və ya göndərilməsi qaydalarının pozulması nəticəsində mümkün olması müəyyən edilməlidir. Belə bir əlaqə mövcud olmadıqda CM-in 240.4-cü maddəsində nəzərdə tutulan cinayət tərkibi istisna edilir. Bu maddənin dispozisiyasının mənasına görə, güclü təsir edən və ya zəhərli maddələrin hansı həcmdə və dəyərdə talanmasının əməlin tövsifi üçün heç bir əhəmiyyəti yoxdur. Qeyd olunan predmetlər cüzi miqdarda talandıqda da, şərh edilən cinayət tərkibi yaranır, çünki güclü təsir edən və ya zəhərli maddələr, hətta çox az miqdarda belə, insanın sağlamlığına mühüm zərər vura bilir.

Başqa mühüm ziyan dedikdə insanların zəhərlənməsi, ətraf mühitin çirklənməsi, istehsalı baha qiymətə başa gələn güclü təsir edən və ya zəhərli maddələrin, onların hazırlanması, saxlanması, daşınması və ya göndərilməsi üçün istifadə edilən avadanlığın məhv edilməsi və s. başa düşülür. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət

işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli 2 saylı Qərarının 22-ci bəndində deyilir ki, CM-in 240.4-cü maddəsində nəzərdə tutulmuş **başqa mühüm ziyan vurulması** şəxsin uzun sürən xəstəliyə tutulmasında, ətraf mühitin zəhərli maddələrlə çirkləndirilməsi, istehsalat prosesinin uzun müddətə dayandırılmasında, ehtiyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurmada və sair nəticələrdə ifadə oluna bilər. Bu hərəkətlər ehtiyatsızlıqdan adam ölümünə səbəb olduqda həmin hərəkətlər cinayətlərin məcmusu qaydasında CM-in 240.4-cü maddəsi və CM-in 124.1-ci və ya 124.2-ci maddələri ilə tövsif olunmalıdır.

Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** təqsirin **qəsd** (birbaşa və ya dolayı) və ya **ehtiyatsızlıq** (özünəgüvənmə və ya ehtiyatsızlıq) formaları ilə törədilir.

Şərh olunan cinayət əməlində təqsirkar güclü təsir edən və ya zəhərli maddələrlə davranış qaydalarının pozulmasına qəsd, baş vermiş ictimai təhlükəli nəticələrə isə ehtiyatsızlıq formasında psixi münasibət göstərir. Lakin burada təqsirin qarışıq forması yaranmır, çünki qeyd olunan maddələrlə davranış qaydalarını pozma öz-özlüyündə cinayət məsuliyyətinə səbəb olmur. Buna görə də təqsirkarın adları çəkilən maddələrlə davranış qaydalarının pozulması faktına münasibəti hüquqi əhəmiyyət kəsb etmir. Deməli, son nəticədə bu cinayət ehtiyatsızlıqla törədilir.

Bu, **xüsusi subyektli** cinayətdir. Burada subyekt qismində həm vəzifəli şəxs, həm də vəzifəli olmayan, lakin ona tapşırılmış işə görə qeyd olunan qaydalara riayət etməyə borclu olan şəxs çıxış edir.

Haqqında CM-in 240.4-cü maddəsində söhbət gedən qaydaları pozmuş vəzifəli şəxslərin hərəkətlərində qulluq mənafeyi əleyhinə olan cinayətlərin (vəzifə səlahiyyətlərindən sui-istifadə, rüşvət alma və s.) əlamətləri olduqda, onların əməli əlavə olaraq CM-in müvafiq maddələri ilə (CM-in 308-ci və ya 311-ci maddələri) tövsif olunmalıdır.

Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli Qanunu ilə təsdiq edilmişdir

Güclü təsir edən maddələrin və onların külli miqdarının SİYAHISI

Sıra №-si	Maddələrin adı	Külli miqdar (qramlarla) daxil olmaqla aşağı hədləri
1	2	3
1.	Androstanolon	2,5
2.	Androstenediol	2,5
3.	Androstenedion	2,5
4.	Baklofen (β-(aminometil)-4-xlorbenzolpropanol turşusu)	12
5.	Benaktizin (amizil) (2-dietilamin efirinin benzoy turşusunun hidroxloridi)	2
6.	Benzobarbital (1-benzoil-5-etil-5-fenilbarbitur turşusu)	10

7.	Bolasteron	10
8.	Boldenon	10
9.	Boldion (androst-1,4-dien-3,17-dion)	10
10.	Bromizoval (N-(aminokarbonil)-2-brom-3-metilbutanamid)	15
11.	Çovdar mahmızı (çovdar mahmızının erqotamin ştamının skle-rosiyaları, çovdar mahmızının erqotoksin ştamının sklerosiyala-rı)	100
12.	Danazol (17 α)-preqn-2,4-dien-20-ino 2,3-d-izoksazol-17- ol)	20
13.	Dehidroxlormetiltestosteron (4-xlor-17β-hidroksi-17α-metiland-rost-1,4-dien-3-on	10
14.	Dezoksimetiltestosteron (17α-metil-5α-androst-2-en-17β- ol)	10
15.	Drostanolon	10
16.	Efedrin – həb və ampul şəklində (başqa mürəkkəb tərkibli dər-man preparatlarının tərkibində güclü təsiredici sayılmır)	10
17.	Efedra otu (Acılıqotu) və Efedra cinsinə aid olan istənilən növ bitkilərin oduncaqlaşmamış zoğları, eləcə də onların emal məhsulları	1000
18.	Erqotal (çovdar mahmızının alkaloidlərinin fosfat duzlarının qa-rışığı)	1
19.	Etilxlorid (xloretil)	300
20.	Etilestrenol (19-nor-17α-preqn-4-en-17-ol) və eyni kimyəvi strukturla və ya eyni bioloji effektlə olan ayrı substansiyalar	10
21.	Feprozidnin (sidnofen) (3-(β-fenilizopropil) sidnonimin hidroxlo-rid)	0,6
22.	Fenfluramin N-Etil-α-metil-3-(triftormetil) benzoletanamin	2
23.	Fluoksimesteron	2,5
24.	Formebolon	10
25.	Furazabol (17 metil-5α-androstano[2,3-c]furazan-17β-ol)	10
26.	İsofluran 2-xlor -2-(diftorometoksi)-1,1,1-triftoretan	250
27.	Heksobarbital (5-(1-tsikloheksen-1-il)-1,5-dimetil-2,4,6 (1H, 3H,5H)- pirimidintrion	1
28.	Gestrinon (17α-13-etil-17-hidroksi-18,19-dinorpreqna- 4,9,11-trien-20-in-3-on)	10
29.	4-hidroksitestosteron (4,17β-dihidroksiandrost-4-en-3-on)	10
30.	Xinbolon (kvinobolon)	10
31.	Xloroform	1500
32.	Xlorfenilpiperazin	0,2
33.	Kalusteron	10
34.	Klonidin (klofelin) (2-(2,6-dixlorfenilamin)-imidazolin hidroxlorid	2
35.	Klostebol	2,5
36.	Kava-kava (sərxoşedici bibər) və onun tərkibində olan maddə-lər	10
37.	Qammabutirolakton	10
38.	Levomepromazin ((R)-2-metoksi-N,N,β-trimetil-10H-fenotiazin-10 propanamin)	2
39.	Mestanolon	10
40.	Mesterolon (1α-metilandrostanodon)	2,5
41.	Metandienon (metandrostenolon) (17β-hidroksi-17α-metiland-	2,5

	rost-1,4-dien-3-on)	
42.	Metandriol	10
43.	Metasteron (2α, 17α-dimetil-5α-androstan-3-on-17β-ol)	10
44.	Metenolon	10
45.	Metil-1-testosteron (17β-hidroksi-17α-metil-5α-androst-1-en-3-on)	10
46.	Metildienolon (17 β-hidroksi-17α-metilestr-4,9-dien-3-on)	10
47.	Metilnortestosteron (17 β-hidroksi-17α-metilestr-4-en-3-on)	10
48.	Metiltestosteron	10
49.	Metiltrienolon (17 β-hidroksi-17α-metilestr-4,9,11-trien-3-on)	10
50.	Miboleron 10 51. 19- norandrostenediol	2,5
52.	19- norandrostenedion (est-4-en-3, 17-dion)	2,5
53.	N-metilefedrin	10
54.	Nalbufin (-)-17-(siklobutilmetil)-4,5α-epoksimorfinan-3,6α,14-triolhidroxlorid)	10
55.	Nandrolon	2,5
56.	Norboleton	10
57.	Norklostebol	10
58.	Noretandrolon	10
59.	Oksabolon	10
60.	Oksandrolon	2,5
61.	Oksimesteron	10
62.	Oksimetolon	10
63.	Orto-xlorbenzilidenmalonodinitril	2
64.	Propofol (Diprivan) (2,6-di(propan-2-il) fenol)	1
65.	Prostanozol ([3,2-c] pirazol-5α -etioalloxolan-17 β-tetrahidropi-ranol)	10
66.	Propilheksedrin	2
67.	Psevdoefedrin – həb və ampul şəklində (başqa mürəkkəb tər-kibli dərman preparatlarının tərkibində güclü təsiredici sayılmır)	10
68.	Preqabalin (S)-3-(aminometil)-5-metilheksan turşusu	5
69.	Sibutramin və onun eyni psixoaktiv təsirə malik struktur ana-loqları	0,5
70.	Sefedrin (2-[1-fenil-2-metil-(β-sianetil)]amino-propanol-1- hid-roxlorid)	10
71.	Stanozolol	2,5
72.	Stenbolon	10
73.	Trenbolon	10
74.	Tianeptin (RS)- 7 [(3-xlor-6,11-dihidro-6-metildibenzo [s,f] [1,2] tiazepin-11-il) amino] heptanoik turşusu S, S-dioksid	10
75.	1-testosteron (17β-hidroksi-5α-androst-1-en-3-on)	10
76.	Tetrahidrohestrinon (18α-homo-preqn-4,9,11-trien-17β-ol-3-on)	10
77.	Triheksifenidil (siklodol) (1-sikloheksil-1-fenil-3- piperidinpro-pan-1-ol)	10
78.	Tropikamid N-etil-3-hidroksi-2-fenil-N (piridin-4-il-metil) propa-namid	0,2
79.	Tramadol hidroxlorid 100mq-150mq-200mq və daha artıq. Bü-	6

	tün tramadol tərkibli dərman vasitələrinə şamil olunur. (+/-)-trans-2-[(dimetilamin) metil]-1-(m-metoksifenil)- tsikloheksan-1-ol hidroxlorid)	
80.	Natrium tiopental (5-(1-metilbutil)-5-etil-2 tiobarbitur turşusunun natrium duzu)	1
81.	Zopiklon 4-metil-1-piperazinkarbon turşusunun 6-(5-xlor-2-piridinil) 6,7-dihidro-7-okso-5H-pirrolo [3,4-b] pirazin-5-li-efiri	0,9

Qeyd:

1. Bu Siyahıda göstərilən miqdarlar əsas təsiredici maddələrin təmiz çəkisidir.

2. Bu Siyahıda göstərilən bütün maddələrin duzları (belə duzların mövcudluğu mümkün olduğu halda), izomerləri (belə izomerlərin mövcudluğu mümkün olduğu halda), mürəkkəb və sadə efirləri güclü təsir edən maddələrə aiddir.

3. Bu Siyahıda sadalanan maddələrin daxil olduğu bütün dərman formaları (qarışıq və məhlullar) hansı firma (ticari) adına malik olmasından asılı olmayaraq güclü təsir edən maddələrə aiddir.

Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli Qanunu ilə təsdiq edilmişdir

Zəhərli maddələrin
SİYAHISI

Sıra Nə-si	Maddələrin adı
1	2
1.	N-asetilantranil turşusu 2-asetaminobenzoy turşusu
2.	Akonitin (1α,3α,6α,14α,16β)-8-(asetiloksi)-20-etil-3,13,15-trihidroksi- 1,6,16-trimetoksi-4-(metoksimetil) akonitan-14-ila benzoat) və akonit otunun alkaloidləri (mezakonitin, lappakonitin, akonifin, akomonin, karakolin, talatizamin, metillikakonitin, iezakonitin, hipakonitin)
3.	Aldrin 1, 2, 3, 4, 10, 10-heksaxlor-1, 4, 4a, 5, 8, 8a-heksahidro-1,4-endo, ekzo-5, 8- dimetanonaftalin
4.	Antranil turşusu və onun törəmələri o-aminobenzoy turşusu
5.	Arsenit anhidridi və onun törəmələri, müxtəlif dozalarda olan dərman formaları daxil olmaqla
6.	Arsenat anhidridi və onun törəmələri, müxtəlif dozalarda olan dərman formaları daxil olmaqla
7.	Aseklidin 3-hinuklidinilasetat
8.	Ağ (sarı) fosfor
9.	Brusin, Qarğabükən otunun alkaloidi
10.	Dildrin 1, 2, 3, 4, 10, 10-heksaxlor-6,7-epoksi-1, 4, 4a, 5, 6, 7, 8, 8a-oktahidro-endo-1, 4-,ekzo-5,8- dimetanonaftalin
11.	Erqometrin
12.	Erqometrin-maleat
13.	Etil spirti sintetik və ya spirtli içkilərin hazırlanması üçün yararsız, qeyri-qida xammalından hazırlanmış (hidrolizlə, sulfitlə, həmçinin etol)
14.	Etilmerkurxlorid(etilcivə-xlorid)

15.	Erqotamin
16.	Erqotamin-tartrat
17.	Etilen oksidi (oksiran, 1,2-epoksietan)
18.	Fenilsirkə turşusu 2
19.	Hiosiamin əsası
20.	Hiosiamin-kamforat (L-tropiltropat (kamforat)
21.	Hiosiamin-sulfat (L-tropiltropat (sulfat)
22.	Hinuklidil-3-benzilat
23.	Qliftor Qarışıq 1, 3-diftorpropanol-2 (1) 70-75% (1) 1-ftor-3-xlorpropanol-2(2) 10-20 (2)
24.	Qarğabükən otunun ekstraktı (Strycynos Nux-vomika extract)
25.	İlan zəhəri
26.	İ-M mayesi (50% etilsellüloza, 50% metanol)
27.	Karbaxolin N-(β-karbamoiloksietil)-trimetilammonium xlorid
28.	Merkaptofos
29.	3,4-Metilendioksifenil-2-propanon
30.	Metallik civə və onun duzları (texniki sənədi olan ölçən, işıqlandırıcı və digər cihazların tərkibində olduqda və həmçinin belə cihazların idxalı və ixracını nəzarə almamaqla)
31.	Metil spirti (Metanol)
32.	Natrium-xlorid, uranil-nitrat və 4-xlorbenzaldehid tərkibli maye
33.	Nikel tetrakarbonil
34.	Novarsenol 5-(3-amino-4-hidroksifenilarseno)-2-hidroksianilinometilsulfoksilat
35.	Piperonal 1,3-benzodiokso-5-karbaldehid
36.	Promeran və onun müxtəlif dozalarda dərman formaları N-3-xlorcivə-2-metoksipropil karbamid
37.	Saflaşdırılmış arı zəhəri
38.	Safrol və izosafrol 4-allil-1,2-metilendioksibenzol
39.	Sianid turşusu və onun duzları
40.	Sianplav (qara sianid, kalsium və natrium sianid və xloridlərin qarışığı)
41.	Sink-fosfid
42.	Siklon B
43.	Sintetik etil spirti
44.	Sinxonin
45.	Sirkə turşusunun anhidridi
46.	Skopolamin-hidrobromid
47.	Strixnin, strixnin nitrat və onun bütün dərman formaları 3
48.	Tallium və onun duzları
49.	Tetraetilqurğuşun və etilləşdirilmiş benzindən başqa onun digər maddələrlə qarışıqları (etil mayesi və başqaları)
50.	Xanımotu alkaloidləri

51.	Xlorpikrin
52.	Zarin metilfosfon turşusunun ftoranhidridinin izopropil efiri

Qeyd: Bu Siyahıda göstərilən maddələr elmi-tədqiqat laboratoriyalarında və tibb müəssisələrində kimyəvi reaktiv kimi, həmçinin elmi və tibbi məqsədlər üçün istifadə oluna bilər.

Maddə 241. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma- *Azərbaycan Respublikasının 7 aprel 2006-cı il tarixli Qanunu ilə çıxarılmışdır («Azərbaycan» q., 13 may 2006-cı il).*

XXVII Fəsil
İctimai mənəviyyat əleyhinə cinayətlər

Maddə 242. Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma

Pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədilə qanunsuz hazırlama, yayma, reklam etmə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarət —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il).*

1. Azərbaycan Respublikasının 8 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş CM-in 228-ci maddəsində də adı çəkilən cinayət əməlinə görə məsuliyyət nəzərdə tutulurdu. Qanunverici yeni CM-də əvvəlki Məcəllədən fərqli olaraq, pornoqrafik predmetləri satma və ya yayma məqsədi ilə saxlamanı cinayət tərkibindən çıxarmışdır.

Pornoqrafik materialları və ya əşyaları qanunsuz yaymağa görə cinayət məsuliyyətinin müəyyən edilməsi, hər şeydən əvvəl, dövlətin beynəlxalq-hüquqi öhdəlikləri ilə şərtlənir. Belə ki, hələ 1923-cü ildə bir sıra inkişaf etmiş qabaqcıl dünya dövlətləri «Pornoqrafik məmulatların yayılması və qanunsuz ticarəti ilə mübarizə haqqında» çoxtərəfli Cenevrə Konvensiyasını imzalamışlar. Keçmiş Sovetlər İttifaqı bu Konvensiyaya 8 iyul 1935-ci ildə qoşulmuşdur.

Pornoqrafik materialları və ya əşyaları qanunsuz yaymanın ictimai təhlükəliliyi onların yetkinlik yaşına çatmayanların normal fiziki və psixi inkişafına mənfi təsir göstərməsi ilə izah olunur. Pornoqrafiya bir çox hallarda cinsi münasibətlərlə bağlı insan psixikasının xəstəlik səviyyəsinə qədər pozulmasına səbəb ola bilir. Pornoqrafik materiallarla tanışlıq yetkinlik yaşına çatmayanları cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan zorlama, seksual xarakterli zorakılıq hərəkətləri və s. bu kimi cinayətlər törətməyə sövq edə bilər.

2. Şərh olunan cinayətin **əsas bilavasitə obyekti** ictimai mənəviyyatdır. Bu cinayətin predmeti pornoqrafik materiallar və ya əşyalardır.

Pornoqrafik materiallar və ya əşyalar dedikdə əsas məzmunu cinsi münasibətlərin anatomik və ya fizioloji xüsusiyyətlərinin kobud naturalist formada müfəssəl təsvirindən ibarət olan bədii, qrafik, ədəbi, musiqi və digər əsərlər başa düşülür.

Nəzərə almaq lazımdır ki, materialların və əşyaların **xarakteri** mütləq müvafiq ekspertizanın (ədəbiyyatşünaslıq, sənətşünaslıq, seksoloji və s.) rəyi əsasında müəyyən olunmalıdır. Bu, pornoqrafiyanın erotik xarakterli əsərlərdən fərqləndirilməsinin zəruriliyi ilə izah olunur. Burada əsas fərq **təsvir etmənin metodundadır**. Lakin hər bir halda pornoqrafiya ilə erotikanın fərqləndirilməsi çox mürəkkəb və çətin məsələ olduğu üçün sənətşünaslıq ekspertizası aparılmalıdır.

Qanunverici CM-in 242-ci maddəsində cinayətin **predmetləri** qismində pornoqrafik xarakterli nəşrləri, kino və ya video materialları, şəkilləri və sair əşyaları qeyd edir.

Fikrimizcə, **sair əşyalar** dedikdə pornoqrafik xarakterli audio yazılar, plastinkalar, kompakt disklər nəzərdə tutulur.

3. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədi ilə qanunsuz hazırlama, yayma, reklam etmə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarət etmədə ifadə olunur.

Hazırlama dedikdə pornoqrafik xarakterli təsviri, ədəbiyyat, musiqi və s. əsərin, şəkil və ya fotomaterialın, heykəltəraşlıq əsərinin tam hazır vəziyyətdə yaradılması başa düşülür. Artıq hazır materialın nüsxələrinin çoxaldılması (surətinin çıxarılması və s.), onun dəyişdirilməsi və ya ona əlavələr edilməsi də hazırlama hesab edilməlidir. «Hazırlama» termini həm materialın yaradılması prosesini, həm də artıq hazır materialın və ya əşyanın reklam məqsədi ilə əldə olunmasını əhatə edir.

Hazırlamağa görə cinayət məsuliyyəti yalnız təqsirkar şəxs bu cinayətin predmetlərini yaymaq, satmaq və ya reklam etmək məqsədi ilə hazırladıqda yarana bilər. Sadalanan predmetlərin şəxsi istehlak məqsədi ilə, yaxud dar şəxslər dairəsində istifadə etmək üçün hazırlanması CM-in 242-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olmur. Qeyd olunan predmetlər əxlaqsız hərəkətlər törətmək üçün istifadə edilmişdirsə, təqsirkar şəxs CM-in 153-cü maddəsi ilə məsuliyyətə cəlb olunmalıdır.

Yayma dedikdə şərh olunan cinayətin predmetlərini digər şəxslərə onların məzmunu ilə tanış olmaq üçün vermə başa düşülür. Bu, çəkilmiş şəkillərin, kino və ya video filmlərin nümayiş etdirilməsi, pornoqrafik xarakterli ədəbiyyat əsərlərinin, jurnal və qəzetlərin və s. ucadan oxunması, pornoqrafik şouların təşkil edilməsi və keçirilməsi və s. üsullarla edilə bilər. Qeyd olunan cinayətin predmetlərini yayma əvəzli (məsələn, satma və ya icarəyə vermə) və əvəzsiz (oxumaq və ya baxmaq üçün vermə, bağışlama) xarakter daşıya bilər. Şəxsin pornoqrafik materialları və ya əşyaları öz ailə üzvlərinə, qohumlarına, tanışlarına nümayiş etdirməsi və ya verməsi CM-in 242-ci maddəsində nəzərdə tutulan mənada yayma hesab oluna bilməz.

Pornoqrafik materialları və ya əşyaları on dörd yaşına çatmayan şəxslər

arasında yayma, onları bu materiallarla tanış etmə, habelə bu şəxslərdən pornobiznesdə istifadə etmə cinayətlərin məcmusu qaydasında CM-in 242-ci və 153-cü maddələri ilə tövsif edilməlidir. Cinayət-hüquqi tövsifin bu cür aparılması BMT-nin uşaq hüquqları haqqında 1989-cu il tarixli Konvensiyasının müddəalarına uyğundur.

Reklam etmə dedikdə insanlara pornoqrafik materialların və ya əşyaların olması, onların məzmunu, əldə olunma şərtləri və s. haqqında məlumat verilməsi nəzərdə tutulur. Bu, qeyd olunan predmetlərin mağazaların vitrinlərində hamının görə biləcəyi şəkildə qoyulması, kütləvi informasiya vasitələrində bu predmetlər haqqında məlumat verilməsi və s. üsullarla həyata keçirilə bilər.

Pornoqrafik predmetləri və ya əşyaları həm onları hazırlayanlar, həm də digər şəxslər reklam edə və yaya bilərlər.

Ticarət dedikdə şərh olunan cinayətin predmetlərinin realizə edilməsi (satılması, icarəyə verilməsi, başqa əmlakla dəyişdirilməsi və s.), yaxud bu məqsədlə təklif olunması başa düşülür. Əslində ticarət yaymanın bir forması olsa da, qanunverici onu müstəqil cinayət tərkibi kimi fərqləndirmişdir. Nəzərə almaq lazımdır ki, CM-in 242-ci maddəsində bu cinayətin predmetləri ilə qanunsuz ticarətə görə məsuliyyət haqqında söhbət gedir. **Qanunsuz ticarət** pornoqrafik material və ya əşyalarla qadağan olunmuş yerlərdə ticarətin qanunla müəyyən olunmuş qaydalarını pozmada, onları yetkinlik yaşına çatmayanlara satmada və s. ifadə oluna bilər. Ticarət həmişə əvəzli xarakter daşıyır. Şərh olunan cinayətin predmetləri ilə qanunsuz ticarət təqsirkarın bu predmetlərdən heç olmazsa birini satmağa nail olub-olmamasından asılı olmayaraq, onlar satışa çıxarıldığı andan **başa çatmış** hesab olunur.

4. CM-in 242-ci maddəsinin dispozisiyasından aydın olur ki, qanunverici bu maddədə sadalanan hərəkətlərin yalnız **qanunsuz** olaraq törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutur. **Pornoqrafik materialların və ya əşyaların qanunsuz hazırlanması və ya yayılması** dedikdə onlardan istifadə olunmasının qanunla müəyyən edilmiş qaydasının pozulması başa düşülür. Belə qayda ali qanunverici orqan tərəfindən qəbul edilən qanunla müəyyən oluna bilər.

Müasir seksologiyada pornoqrafik materiallardan, məsələn, videofilmlərdən bəzi seksual pozuntuların müalicəsində terapevtik məqsədlərlə istifadə olunur.

Lakin bütün bu qeyd olunanlara baxmayaraq, nə qədər ki respublikamızda şərh olunan məsələ ilə bağlı müvafiq qanun və ya digər normativ akt yoxdur, pornoqrafik materialları və ya əşyaları hazırlama, yayma, reklam etmə, habelə onlarla ticarət qanunsuz xarakter daşıyır. Buna görə də, fikrimizcə, şərh olunan maddənin adında «qanunsuz» sözünün istifadə edilməsinə ehtiyac yoxdur.

Nəzərdən keçirilən cinayət əməli bütövlükdə **formal tərkibli** olduğu üçün CM-in 242-ci maddəsinin dispozisiyasında sadalanan hərəkətlərdən hər hansı biri törədildiyi andan **başa çatmış** hesab olunur.

5. Şərh olunan cinayət əməli **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar CM-in 242-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan hərəkətləri törətdiyini dərk edir və məhz belə hərəkət etməyi arzu edir. Bu cinayətin məqsədi pornoqrafik materialları və ya əşyaları yaymaq və reklam etmək-

dir. Burada məqsəd qeyd olunan cinayət əməlinin subyektiv cəhətinin **zəruri əlaməti** kimi nəzərdə tutulur. Pornoqrafik materialları və ya əşyaları şəxsi istehlak məqsədi ilə hazırlama və ya əldə etmə şərh olunan cinayət tərkibini yaratmır.

Nəzərdən keçirdiyimiz cinayət əməli əksər hallarda **tamah motivi** ilə törədilir. Lakin bu cinayətin motivləri əməlin tövsifinə təsir etmir.

6. Şərh olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Bu cinayət vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 242-ci və 308.1-ci maddələri ilə tövsif olunmalıdır.

7. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 243. Fahişəliyə cəlb etmə

243.1. Gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmə —

iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

243.2. Eyni əməllər:

243.2.1. şəxsin köməksiz vəziyyətindən, fiziki və ya psixi qüsurlarından istifadə etməklə törədildikdə;

243.2.2. mütəşəkkil dəstə tərəfindən törədildikdə —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 5 aprel 2013-cü il və 30 aprel 2013-cü il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 19 aprel 2013-cü il; 15 iyun 2013-cü il).*

1. Azərbaycan Respublikasının 1960-cı il 8 dekabr tarixli qanunu ilə təsdiq edilmiş CM-də (215-ci maddə) yalnız yetkinlik yaşına çatmayanları fahişəliyə cəlb etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulurdu. Lakin yeni CM-də həm yetkinlik yaşına çatmayanların fahişəliyə cəlb edilməsinə (CM-in 171-ci maddəsi), həm də cinayət törədilənədək artıq 18 yaşı tamam olmuş şəxslər barəsində bu cinayətin törədilməsinə görə CM-in 243-cü maddəsi ilə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Fahişəliyə cəlb etmə ilə mübarizə sahəsində bir sıra dövlətlər üzərlərinə beynəlxalq-hüquqi öhdəliklər götürmüşlər. Belə ki, 2 dekabr 1949-cu ildə BMT-nin Baş Məclisinin 4-cü sessiyasında «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında» Konvensiya qəbul edilmişdir (Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli Qanunla həmin Konvensiyaya qoşulmuşdur). Konvensiyanın iştirakçısı olan dövlətlər: a) başqa şəxsi hətta onun razılığı olsa da, fahişəliyə cəlb edən; b) onun fahişəliyini istismar edən; c) fahişəxana saxlayan və ya idarə edən; ç) üçüncü şəxslər tə-

rəfindən fahişəlik məqsədi ilə istifadə ediləcəyini bilə-bilə ev və ya digər yer icarəyə verən və ya götürən şəxsləri cəzalandırmağı öhdəlik kimi qəbul edirlər. Konvensiyanın 18-ci maddəsinə görə tərəflər onların öz qanunları ilə müəyyən edilən şərtlərə müvafiq olaraq, fahişəliklə məşğul olan bütün əcnəbilər haqqında onların şəxsiyyətini və sosial mənşəyini müəyyən etmək, habelə onları öz dövlətlərini tərk etməyə təhrik etmiş şəxsləri aşkara çıxarmaq məqsədi ilə məlumat toplamağı öhdəlik kimi öz üzərlərinə götürürlər.

2. Nəzərdən keçirilən cinayətin **əsas bilavasitə obyekti** ictimai mənəviyyatdır. Bu cinayətin **əlavə obyekti** qismində insanın sağlamlığı, şərəf və ləyaqəti, habelə şəxsi həyatının və mülkiyyətinin toxunulmazlığı çıxış edir.

Şərh olunan cinayətin **predmeti** qismində bir sıra hallarda zərərçəkmiş şəxsin əmlakı çıxış edir.

3. Təhlil edilən cinayət əməlinin **obyektiv cəhəti** gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmədə ifadə olunur.

Fahişəlik dedikdə mükafat müqabilində, qabaqcadan mükafat barəsində razılaşmaqla müxtəlif şəxslərlə mütəmadi olaraq (yəni dəfələrlə) cinsi əlaqəyə girmə başa düşülür. Beləliklə, fahişəlik üçün səciyyəvi olan əlamətlər: a) cinsi əlaqəyə mükafat (adətən, pula görə) müqabilində girmə; b) mükafatın məbləği barədə qabaqcadan (cinsi əlaqəyə girməzdən öncə) razılıq əldə edilməsi; c) cinsi əlaqəyə eyni bir şəxslə deyil, müxtəlif şəxslərlə (müştərilərlə) girmə; ç) cinsi əlaqəyə mükafat müqabilində mütəmadi olaraq, yəni dəfələrlə girmədir. Mükafat müqabilində olsa da, yalnız bir dəfə cinsi əlaqəyə girmə fahişəlik kimi qiymətləndirilmir.

Ənənəvi olaraq fahişəliklə qadınların məşğul olması başa düşülürdü. Lakin hazırda məhkəmə və istintaq təcrübəsindən fahişəliklə həm qadın, həm də kişi cinsindən olan şəxslərin məşğul olması halları məlumdur.

Fahişəliyə cəlb etmə dedikdə heç olmazsa bir şəxsi fahişəliklə məşğul olmağa təhrik edən, onda belə meyl yaradan istənilən hərəkətlər başa düşülməlidir.

Qanunverici CM-in 243.1-ci maddəsində **istənilən üsulla** fahişəliyə cəlb etməni cinayət məsuliyyəti yaradan əməl kimi müəyyən etmişdir. Maddənin dispozisiyasında 19 aprel 2013-cü il tarixli, 610-IVQD nömrəli qanunla edilmiş düzəlişlə cinayətin törədilmə üsulları (zor tətbiq etmə, zor tətbiq etməklə hədələmə, şantaj, əmlakı məhv etmə, zədələmə, aldatma) tərkib əlaməti kimi normadan çıxarılmış, bununla da şərh olunan cinayətin istənilən üsulla törədilməsinin kriminallığı müəyyən edilmişdir.

Fahişəliyə cəlb etmə həm zorakı (zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə, şantaj, əmlakı məhv etmə, zədələmə və s.), həm də qeyri-zorakı (aldatma, vəd vermə və s.) üsullarla törədilə bilər.

Fahişəliyə cəlb etmənin üsulu kimi **zor tətbiq etmə** dedikdə zərərçəkmişin iradəsi əleyhinə fiziki güc tətbiq edilməsi, yəni onun azadlığını məhdudlaşdırma, sağlamlığına yüngül zərər vurma başa düşülür. Sağlamlığa yüngül zərər vurma CM-in 243.1-ci maddəsi ilə əhatə olunduğu üçün CM-in digər müvafiq maddəsi (CM-in 128-ci maddəsi) ilə əlavə tövsifə ehtiyac qalmır. Zərərçəkmiş şəxsin sağlamlığına qəsdən ağır, yaxud az ağır zərər vurulduqda və ya ona

əzab verildikdə isə əməl cinayətlərin məcmusu qaydasında — CM-in 243.1-ci və 126.1-ci, yaxud 127-ci və ya 133-cü maddələri ilə tövsif edilməlidir.

Zor tətbiq etməklə hədələmə dedikdə zərərçəkmiş şəxsin iradəsi əleyhinə, yaxud onun iradəsi ziddinə ona psixi təsir göstərilməsi başa düşülür. Zor tətbiq etməklə hədələmə şifahi, yazılı, telefon vasitəsilə, müxtəlif hərəkətlər və ya predmetlər nümayiş etdirməklə və s. üsullarla törədilə bilər. Zor və ya zor tətbiq etmək hədəsi yalnız fahişəliyə cəlb edilən şəxsə deyil, habelə onun qohumlarına, yaxın adamlarına ünvanlana bilər. Hədə bütün hallarda həqiqi və real olmalıdır. Onun intensivlik dərəcəsi əməlin tövsifinə təsir etmir.

Şantaj dedikdə fahişəliyə cəlb edilən şəxs və ya onun yaxın qohumları haqqında rüsvayedici, yaxud belə olmasa da, yayılması zərərçəkmiş şəxs üçün arzuolunmaz nəticələrə səbəb ola bilən məlumatları maraqlı şəxslərə (məsələn, zərərçəkmiş şəxsin valideynlərinə), digər şəxslərə (məsələn, zərərçəkmiş şəxsin qonşularına, iş yoldaşlarına), yaxud dövlət orqanlarına, kütləvi informasiya vasitələrinə çatdırmaqla hədələmə başa düşülür. Şantaj etmək üçün istifadə edilən materiallar həm həqiqi, həm də böhtan xarakterli ola bilər. Şantaj yalnız rüsvayedici və ya digər məlumatları yaymaqla zərərçəkmişi hədələməni əhatə edir, yəni belə məlumatların faktiki olaraq yayılması şantaj anlayışı ilə əhatə olunmur.

Şantaj təkcə fahişəliyə cəlb edilən şəxsə deyil, eləcə də onun yaxın qohumlarına ünvanlana bilər. Bu xüsusiyyətin istintaq və məhkəmə orqanları tərəfindən nəzərə alınmaması şərh olunan cinayətin məzmununu əhəmiyyətli dərəcədə daralda və təqsirkarın cinayət məsuliyyətindən kənarda qalmasına imkan yarada bilər.

Əmlakı məhv etmə və ya zədələmə dedikdə zərərçəkmişin paltarını, avtomobilini, yaşayış yerini (evini, mənzilini) və s. tam yararsız hala salma və ya korlama başa düşülür.

Əmlakı məhv etmə və ya zədələmə yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə, əməl cinayətlərin məcmusu qaydasında CM-in 243.1-ci və 186.2.2-ci maddələri ilə tövsif olunmalıdır.

Aldatma fahişəliyə cəlb etmənin üsulu kimi zərərçəkmiş şəxsə bilə-bilə yalan, yaxud təhrif edilmiş məlumatlar vermə və ya həqiqi faktlar haqqında təqsirkarın susmasında ifadə olunur. Yalan məlumatlar, əsasən zərərçəkmiş şəxsin görməli olduğu işlərin xarakteri barəsində olur (məsələn, zərərçəkmiş şəxsə onun gözəllik müsabiqəsində iştirak edəcəyi, yaxud xarici dövlətdə geyimlərin nümayişində model və ya foto-model qismində işləyəcəyi və s. haqqında yalan məlumatlar verməklə onu fahişəliyə cəlb etmə). Zərərçəkmiş şəxsi aldadan şəxs ondan fahişə qismində istifadə etmək məqsədi güdür. İstintaq və məhkəmə təcrübəsindən məlumdur ki, əsasən qadınları yüksək maaşlı və yaxşı perspektivləri olan işlə təmin etmək haqqında vədlərlə aldadıb xarici ölkələrə aparan təqsirkar şəxs (yaxud şəxslər) sonradan onların pasport və pullarını əllərindən alaraq qərib ölkədə köməksiz, həm də özlərindən asılı vəziyyətə salır və fahişəliklə məşğul olmağa məcbur edirlər.

4. Şərh olunan cinayət **formal tərkibli** olduğu üçün CM-in 243.1-ci maddəsində göstərilən əməl törədildiyi andan başa çatmış hesab edilir. Bu cinayətin

başa çatmış hesab edilməsi üçün zərərçəkmiş şəxsin həqiqətən fahişəliklə məşğul olub-olmaması, habelə fahişəliyə cəlb edilənlərin sayı heç bir rol oynamır.

5. Nəzərdən keçirilən cinayət əməli **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar zərərçəkmiş şəxsi fahişəliyə cəlb etdiyini dərk edir və bunu arzu edir. Bu cinayət, bir qayda olaraq, **tamah motivi** ilə törədilir. Burada motiv əməlin tövsifinə təsir etmir.

Şərh olunan cinayət əməli **gəlir və ya digər fayda əldə etmək məqsədi** ilə törədilir.

Digər fayda dedikdə təqsirkarın fahişənin «xidmətləri» ilə təmin etdiyi müştəridən bunun müqabilində hər hansı bir işi yerinə yetirməsinə (məsələn, təqsirkarın özünü və ya onun qohumunu hər hansı idarə və müəssisədə, yaxud özəl təşkilatda işə qəbul etməsi və s.) nail olması başa düşülməlidir.

6. Araşdırılan cinayət əməlinin **subyekti** cinayəti törədənədək 16 yaşı tamam olmuş həm kişi, həm də qadın cinsindən olan şəxs ola bilər.

7. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

8. CM-in 243.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) şəxsin köməksiz vəziyyətindən, fiziki və ya psixi qüsurlarından istifadə etməklə törədilməsi; b) mütəşəkkil dəstə tərəfindən törədilməsi nəzərdə tutulmuşdur.

Şəxsin köməksiz vəziyyətindən, fiziki və ya psixi qüsurlarından istifadə etmə dedikdə zərərçəkmiş şəxsin təqsirkara təsirli müqavimət göstərə bilməməsindən, psixi inkişaf səviyyəsinə görə təqsirkarın onun barəsində törətdiyi hərəkətlərin xarakterini düzgün dərk edə bilməməsindən istifadə edərək fahişəliyə cəlb edilməsi başa düşülür. Əksər hallarda təqsirkar özü zərərçəkmiş şəxsi qəsdən köməksiz vəziyyətə salaraq, onu fahişəliklə məşğul olmağa məcbur edir (xarici ölkələrə «perspektivli, yüksək maaşlı işlə» təmin ediləcəyi haqqında yalan vədlərlə aldadılıb aparılan qadınların misalında olduğu kimi).

Cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsinin şərhində verilmişdir.

Mütəşəkkil cinayətkarlığın öyrənilməsi göstərir ki, fahişəliyin istismarı onun fəaliyyət formalarından biridir. Bir çox hallarda mütəşəkkil dəstələr qanuni fəaliyyət göstərən müəssisələr kimi pərdələnən seksual xidmətlərin göstərilməsi üzrə müxtəlif leqal (məsələn, bar, sauna, əyləncə mərkəzləri və s.) və qeyri-leqal obyektlər (fahişəxana) yaradır və onları idarə edirlər. Belə mütəşəkkil dəstələr təkcə başqa şəxsləri fahişəliyə cəlb edənləri deyil, həm də fahişələrin fəaliyyətinə, bu fəaliyyətdən əldə olunan gəlirlərin toplanılmasına və bölüşdürülməsinə nəzarət edən şəxsləri, yəni sutenyorları özündə birləşdirir.

Maddə 244. Əxlaqsızlıq yuvaları saxlama

244.1. Fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə —

iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya dörd yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244.2. Eyni əməllər:

244.2.1. təkrar törədildikdə;

244.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).

1. Bu cinayət əməlinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi, hər şeydən əvvəl, Azərbaycan Respublikasının beynəlxalq-hüquqi öhdəliklərinin olması ilə izah olunur. Belə ki, respublikamız 31 may 1996-cı ildə BMT Baş Məclisinin 4-cü sessiyasında 2 dekabr 1949-cu ildə qəbul edilmiş «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında» Konvensiyaya qoşulmuşdur. Bu Konvensiyanın 2-ci maddəsinə görə tərəflər (Konvensiyanın iştirakçısı olan dövlətlər): 1) fahişəxana saxlayan və ya onu idarə edən və ya fahişəxananın maliyyələşdirilməsində iştirak edən və ya onu şüurlu surətdə maliyyələşdirən; 2) binanı və ya digər yeri və ya onun bir hissəsini bunlardan üçüncü şəxslərin fahişəlik məqsədləri ilə istifadə ediləcəyini bilə-bilə icarəyə verən və ya götürən hər bir kəsi cəzalandırmağı öhdələrinə götürürlər.

2. Şərh olunan cinayətin **əsas bilavasitə obyekti** ictimai mənəviyyatdır. Bu cinayətin predmeti qismində fahişəliklə məşğul olmaq üçün əxlaqsızlıq yuvaları çıxış edir.

CM-in 244.1-ci maddəsində nəzərdə tutulan mənada **əxlaqsızlıq yuvası** dedikdə fahişəliklə məşğul olmaq üçün istifadə edilən ev, bina, mənzil, otaq və ya digər yer başa düşülür.

İstintaq və məhkəmə təcrübəsindən yaşayış mənzillərinin, xidməti otaqların, texniki və ya köməkçi təyinatlı tikililərin (qazanxana, camaşırxana, gözətçi daxması, qaraj və s.), anbarların, zirzəmilərin və s. əxlaqsızlıq yuvası qismində istifadə edilməsi halları məlumdur. Cinayət hüququna dair ədəbiyyatda fahişəliklə məşğul olan şəxslərə «müştəri» ilə cinsi əlaqəyə girmək üçün təqdim olunan avtomobillərin də əxlaqsızlıq yuvası hesab edilməsi fikrinə rast gəlinir.

3. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahəsi vermədə ifadə olunur.

Fahişəliyin və fahişəliklə məşğul olmanın anlayışı CM-in 243-cü maddəsinin şərhində verilmişdir.

Əxlaqsız yuvalar təşkil etmə dedikdə fahişəliklə məşğul olmaq üçün istifadə etmək məqsədi ilə ev, bina, mənzil, otaq və s. yer axtarma, onu istifadəyə yararlı vəziyyətə gətirmə (məsələn, təmir etdirmə, mebel, məişət avadanlığı, yorğan-döşək və s. ilə təchiz etmə), fahişəliklə məşğul olan şəxsləri, eləcə

də müştəriləri seçmə və s. bu kimi hərəkətlərin yerinə yetirilməsi başa düşülür. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair» 17 mart 2011-ci il tarixli Qərarında göstərilir ki, əxlaqsızlıq yuvalarının təşkil edilməsi fahişəliklə məşğul olmaq üçün istifadə etmək məqsədi ilə ev, bina və sair yer axtarma (alma, icarəyə götürmə), onu yararlı vəziyyətə gətirmə və uyğunlaşdırma (təmir etmə, mebel, məişət avadanlığı və sair ilə təchiz etmə), fahişəliklə məşğul olan şəxsləri, eləcə də müştəriləri seçmə hərəkətlərinin yerinə yetirilməsi hesab edilir. Əxlaqsızlıq yuvaları yaşayış (ev, mənzil, bağ) və ya qeyri-yaşayış (qaraj, tikililərin zirzəmisi, çardağı), o cümlədən stasionar (ev) və ya səyyah (gəminin kayutası, qatarın kupesi və s.) yerlərdə təşkil oluna bilər.

Əxlaqsızlıq yuvalarının təşkili ilə mütəşəkkil dəstə məşğul olduqda, dispetçerlərdən, cangüdənlərdən, həkimlərdən və s. ibarət bütöv bir «heyət» bu işə cəlb olunur və mütəşəkkil dəstənin başçısı bu heyətə rəhbərlik edir.

Qanunverici əxlaqsızlıq yuvasının fəaliyyətə başlayıb-başlamamasından asılı olmayaraq, onun təşkil edilməsi prosesinin özünə görə CM-in 244.1-ci maddəsi ilə cinayət məsuliyyəti müəyyən edir.

Əxlaqsız yuvalar saxlama dedikdə belə yuvaların fəaliyyət göstərməsini təmin etməyə yönəldilmiş fəaliyyət başa düşülür. Əxlaqsızlıq yuvası olan evin, mənzilin, otağın və ya digər yerin təmizlənməsi (silinib-süpürülməsi), buradakı döşəkağıların dəyişdirilməsi, spirtli içkilərlə, ərzaq məhsulları ilə təchiz edilməsi və s. bu kimi hərəkətlər əxlaqsız yuvalar saxlamanın məzmununu təşkil edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 mart 2011-ci il tarixli Qərarında göstərilir ki, əxlaqsızlıq yuvaları saxlanılması onun təşkil edilməsindən sonra fahişəliklə məşğul olmaq üçün uyğunlaşdırılmış yerin fəaliyyəti ilə bağlı xərclərin ödənilməsini, həmin yerin ödənişli və ya pulsuz verilməsini və onun fəaliyyətini təmin etmək üçün digər tədbirlərin (yerin təmizlənməsi, mühafizənin, yataq dəstləri və s. təmin edilməsi) görülməsini nəzərdə tutur.

Əxlaqsızlıq yuvası kimi fəaliyyət göstərən ev, bina, mənzil, otaq və digər yer həm buranı saxlayan şəxsin yaşadığı yer, həm də başqa yer ola bilər. Çox zaman eyni bir şəxs əxlaqsızlıq yuvasını həm təşkil edir, həm də saxlayır.

Əxlaqsızlıq yuvası qismində istifadə olunan mənzil, otaq və s. ödəniş müqabilində verilərsə, bu ödəniş ya fahişəliklə məşğul olan şəxsdən, ya da müştəridən alınır. Əxlaqsızlıq yuvası olan otaq, mənzil və s. cinsi əlaqə aktının ödənilməsi şərti ilə və ya başqa motivlərlə pulsuz da verilə bilər.

Əxlaqsızlıq yuvaları təşkil etmə və ya saxlama məqsədləri üçün mənzil sahələri vermə dedikdə təqsirkarın mənzil sahəsindən hansı məqsədlər üçün istifadə olunacağını bilə-bilə mənzili əxlaqsızlıq yuvasının təşkilatçısına və ya onu saxlayan şəxsə verməsi başa düşülür. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun adı çəkilən Qərarında göstərilir ki, əxlaqsızlıq yuvaları təşkil etmə və ya saxlama məqsədləri üçün mənzil sahələri vermə, şəxsin mənzil sahəsindən əxlaqsızlıq yuvasının təşkil edilməsi və saxlanılması üçün istifadə olunacağını bilə-bilə mənzili əxlaqsızlıq yuvasını təşkil

edən və ya onu saxlayan şəxsə verilməsi kimi başa düşülməlidir.

Fikrimizcə, qanunvericinin araşdırılan məsələ ilə bağlı vahid mövqeyinin olmaması təəssüf doğurmalıdır. Belə ki, CM-in narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlamağa görə məsuliyyət müəyyən edən 238.1-ci maddəsində tiryəkxanaların təşkili və ya saxlanılması məqsədləri üçün binaların, CM-in 244.1-ci maddəsində isə fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə və ya saxlama məqsədləri üçün mənzil sahələrinin verilməsi haqqında söhbət gedir. Belə hesab edirik ki, obyektiv cəhətlərinə görə xeyli dərəcədə oxşar olan bu cinayət əməllərinin nəzərdən keçirilən əlaməti üzrə qanunvericinin vahid anlayışdan (yaxud anlayışlardan) istifadə etməsi daha məqsədəuyğun olardı.

Şərh olunan əlamət üzrə yalnız bir anlayışdan, yəni misal üçün ya «bina», yaxud da «mənzil sahələri» anlayışlarının ancaq birindən istifadə edilməsi onun həqiqi məzmununu daralda və cinayətkarların məsuliyyətdən yayınmasına şərait yarada bilər. Belə ki, fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə və ya saxlama məqsədi ilə təkcə mənzil sahəsi deyil, digər yerlər, məsələn, ev, anbar, zirzəmi, qaraj, avtomobil və s. verilə bilər. Odur ki, qanunvericinin bütün bu obyektləri əhatə edə bilən ümumi, toplayıcı anlayışdan istifadə etməsi daha məqsədəuyğun olardı. Bu qeyd olunanlar eyni dərəcədə CM-in 238.1-ci maddəsinə də aiddir.

Mənzil sahəsini verən şəxs onun CM-in 244.1-ci maddəsində göstərilən məqsədlər üçün istifadə ediləcəyini bilməmişdirsə, o, bu maddə ilə cinayət məsuliyyətinə cəlb oluna bilməz. Digər tərəfdən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 mart 2011-ci il tarixli Qərarında göstərilir ki, əxlaqsızlıq yuvalarını təşkil etmək, onları saxlamaq və ya bu məqsədlər üçün mənzil sahələrini vermək əməllərinə görə cinayət məsuliyyəti yalnız belə hərəkətlərin fahişəliklə məşğul olmaq üçün təşkil olunmasının sübuta yetirilməsindən sonra yarana bilər.

CM-in 244.1-ci maddəsində təsbit edilən hər üç kriminal əməldə **ayrı-ayrılıqda** (əxlaqsızlıq yuvaları təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə) **cinayət tərkibinin bütün əlamətləri mövcud olur** və cinayət başa çatmış hesab edilir. Eyni zamanda bu əməli törətməyə yönələn **bir hərəkət də** (əxlaqsızlıq yuvaları təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə) Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin tərkibini yaradır. Bu cinayət əməllərindən hər hansı birinin **təkrar törədilməsi** Cinayət Məcəlləsinin 244.2-ci maddəsində nəzərdə tutulan məsuliyyətə, yəni həmin Məcəllənin 16.1-ci maddəsi ilə müəyyən edilmiş təkrarlılığa səbəb olur (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 mart 2011-ci il tarixli Qərarı).

Təqsirkar mənzil sahəsini qeyd olunan məqsədlər üçün, bir qayda olaraq, **gəlir əldə etmək məqsədi ilə** verir.

4. Nəzərdən keçirilən cinayət əməli fahişəliklə məşğul olmaq üçün əxlaqsızlıq yuvasının təşkil edildiyi, saxlanıldığı və ya bu məqsədlər üçün verildiyi (sadalanan hərəkətlərin ilk dəfə törədildiyi) andan **başa çatmış** hesab olunur.

5. Şərh olunan cinayət əməli **subyektiv cəhətdən birbaşa qəsdlə** törədi-

lir. Təqsirkar fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etdiyini və ya saxladığını, yaxud bu məqsədlər üçün mənzil sahələri verdiyini dərk edir və bunu arzu edir. Bu cinayət, bir qayda olaraq, tamah motivi ilə, qazanc əldə etmək məqsədi ilə törədilir. Lakin bunlar əməlin tövsifinə təsir etmir.

6. Təhlil edilən cinayət əməlinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Fahişəliklə məşğul olmaq üçün əxlaqsızlıq yuvası vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə təşkil olunursa, əməl cinayətlərin məcmusu qaydasında — CM-in 244.1-ci və 308.1-ci maddələri ilə tövsif edilməlidir.

7. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

8. CM-in 244.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) təkrar törədilməsi; b) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi nəzərdə tutulmuşdur. Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətlərinin anlayışı CM-in müvafiq olaraq 16-cı, 34.2-ci və 34.3-cü maddələrinin şərhində verilmişdir.

Maddə 244–1. Qumarxana təşkil etmə və ya saxlama

244-1.1. Qumarxana, yəni qumar oyunlarının keçirilməsi üçün yer təşkil etmə və ya saxlama —

on min manatdan on beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.2. Eyni əməllər:

244-1.2.1. təkrar törədildikdə;

244-1.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 244-1-ci maddəsində «qumar oyunu» dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyun başa düşülür.

2. Lotereyalara və idman mərc oyunlarına bu maddənin qüvvəsi şamil edilmir *(Azərbaycan Respublikasının 30 sentyabr 2011-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 27 noyabr 2011-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **əsas obyekti** ictimai mənəviyyat, cəmiyyətin əxlaqi-mənəvi dəyərləri, **predmeti** isə qumarxana, yəni qumar oyunlarının təşkil edildiyi və ya keçirildiyi yerlərdir.

Şərh olunan maddədə **qumarxana** dedikdə qumar oyunlarının təşkil edildiyi və ya keçirildiyi yer başa düşülür.

Qumar oyunları yaşayış və qeyri-yaşayış sahələrində (evlərdə, mənzillərdə, xidməti otaqlarda, ofislərdə, mehmanxana otaqlarında, sosial və mədəni-məişət xidməti göstərən idarə, müəssisə və təşkilatların binalarında, qazanxanada, qarajda, anbarda, zirzəmidə və s. yerlərdə təşkil edilə və keçirilə bilər. Qumarxanalar təkcə qapalı yerlərdə deyil, açıq sahələrdə də təşkil edilə və keçirilə bilər. Qumarxananın təşkil edildiyi və keçirildiyi yerin əməlin bu maddə ilə tövsifi üçün əhəmiyyəti yoxdur.

3. CM-in 244-1-ci maddəsində təsbit edilən cinayət **obyektiv cəhətdən** qumar oyunlarının keçirilməsi üçün yer təşkil etmə və ya saxlamada ifadə olunur.

Şərh olunan maddənin qeydinə görə **qumar oyunu** dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyun başa düşülür. Qanunvericinin qumar oyununa verdiyi anlayış Azərbaycan Respublikası Mülki Məcəlləsinin oyun və mərclərə verdiyi anlayışdan fərqlənmir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1083.1-ci maddəsinə görə oyunlar və mərclər hər hansı təsərrüfat məqsədi daşımayan müqavilələrdir, onlara əsasən iştirakçılar qismən də olsa, qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan mənfəət götürür və ya zərər çəkirlər. Mülki Məcəllənin oyuna verdiyi anlayış da oyunun pul vəsaitləri, maddi və sair nemət barəsində oynanıldığını nəzərdə tutur: burada kimsə mənfəət götürür, kimsə zərərə uğrayır. Deməli, oyun və mərclərin təşkili və keçirilməsi mülki qanunvericiliklə fiziki və hüquqi şəxslərin hüquqları sırasına aid edilmişdir. CM-in 244-1-ci maddəsində belə hüququn ləğvi, yəni kriminallaşdırılması absurddur. Bir yandan oyunların və mərclərin keçirilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsi ilə fiziki və hüquqi şəxslərin hüququ elan edilir, digər tərəfdən, CM-in 244-1-ci maddəsi bu hüququ ləğv edir (cinayət hesab edir).

4. Qanunverici qumar oyununu digər oyun növlərindən fərqləndirmədiyi üçün pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan istənilən oyun (kart, nərd, loto oyunları və s.) başa düşülməlidir.

Oyunun, o cümlədən qumar oyununun **əlamətlərinə** aiddir: 1) oyun pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılır. Oyunun oynanılmasında məbləğindən asılı olmayaraq maddi maraq (pul vəsaitləri, maddi və sair nemət) formasında uduş nəzərdə tutulmursa, yaxud qeyri-maddi digər maraqlar (məsələn, oyunun qalibinə «titul» verilməsi) vardırsa, belə oyun qumar oyunu sayıla bilməz; 2) oyunun uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olmalıdır. Qeyri-müəyyənlik əvvəlcədən oyunun qalibinin (qaliblərinin) müəyyən edilməməsində, təsadüf isə oyun iştirakçısının (iştirakçılarının) bəxtinin gətirməsində ifadə olunur.

Şərh olunan maddənin qeydinin 2-ci bəndinə əsasən lotereyalar və idman mərc oyunları qumar oyunları sırasına aid deyil, ona görə də qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və keçirilməsi, habelə onların keçirilməsi üçün yer təşkil etmə və ya saxlama şərh olunan maddə ilə deyil, uyğun əlamətlər olduqda CM-in 192-1.1-ci və ya 192-1.2-ci maddəsi ilə tövsif edilməlidir.

5. **Qumar oyunlarının keçirilməsi üçün yer təşkil etmə** dedikdə qumar oyunlarının keçirilməsi məqsədilə ev, bina və sair yer əldə etmə, icarəyə və ya kirayəyə, müvəqqəti istifadəyə götürmə, onu yararlı vəziyyətə gətirmə və oyu-

nun keçirilməsi formasına uyğunlaşdırma (təmir etmə, oyun avadanlıqları, məişət əşyaları və s. ilə təchiz etmə), oyun iştirakçılarını seçmə və başqa hərəkətlər başa düşülür.

Qumar oyunlarının keçirilməsi üçün yer təşkil etmə belə oyunların keçirilməsi üçün hazırlıq hərəkətləri hesab edilir və həmin hərəkətlər edildiyi, başqa sözlə, qumarxananın təşkil edilməsinə yönələn hərəkətlərin hər hansı birinin edildiyi andan bu cinayət başa çatmış sayılır. Qumarxananın fəaliyyətə başlayıb-başlamaması CM-in 244-1-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranmasını istisna etmir.

Qumar oyunlarının keçirilməsi üçün yer saxlama dedikdə təşkil edilmiş yerin fəaliyyət göstərməsi üçün xidmətçilərin işə cəlb edilməsi, qumarxananın işləməsini təmin etmək məqsədilə xərclərin ödənilməsi, oyun iştirakçılarına müxtəlif məzmunlu sosial-məişət xidmətlərinin göstərilməsi, yerin mühafizəsinin təmin edilməsi və s. hərəkətlər başa düşülür.

Qumarxana kimi fəaliyyət göstərən yer (ev, bina, mənzil, otaq və digər yer) həm belə yeri təşkil edən və saxlayan şəxsin mülkiyyətində və ya hər hansı formada istifadəsində olan yer, həm də başqa yer ola bilər.

Qumarxana kimi fəaliyyət göstərən yerin ödənişli, yaxud ödənişsiz əsaslarla təşkil edilməsinin və saxlanmasının CM-in 244-1-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün əhəmiyyəti yoxdur.

6. Şərh olunan cinayət **formal** tərkiblidir və qumar oyunlarının keçirilməsi üçün yerin təşkil edildiyi və ya saxlandığı andan **başa çatmış** hesab olunur.

7. Subyektiv cəhətdən bu cinayət **birbaşa qəsdlə** törədilir. Şəxs qumar oyunlarının keçirilməsi üçün yer təşkil etdiyini və (və ya) saxlandığını dərk edir və bunu arzu edir. Cinayətin motivi və məqsədi əməlin tövsifinə təsir etmir. Yer verən şəxs onun qumar oyunlarının keçirilməsi üçün istifadə ediləcəyini bilməmişdirsə, o, CM-in 244-1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb oluna bilməz, əksinə olduqda isə bu maddə ilə cinayət məsuliyyəti yaranır.

8. Təhlil edilən cinayət əməlinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə qumarxana təşkil olunduğu hallarda əməl CM-in 244.1-ci və 308.1-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir. Qumar oyununda iştirak edən, yəni qumar oynayan şəxslər İXM-in 525-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilirlər.

9. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

10. CM-in 244-1.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı əlamətləri**: a) təkrar törədilməsi; b) qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi nəzərdə tutulmuşdur. Qeyd olunan ağırlaşdırıcı əlamətlərin anlayışı CM-in müvafiq olaraq 16-cı və 34-cü maddələrinin şərhində verilmişdir.

Maddə 245. Qəbir üzərində təhqiredici hərəkət

Qəbir və ya meyit üzərində təhqiredici hərəkət —

iki ilədək müddətə islah işləri və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Qeyd olunan cinayət əməli Azərbaycan Respublikasının 1960-cı il 8 dekabr tarixli qanunu ilə təsdiq edilmiş CM-in 231-ci maddəsində də göstərilən ad altında nəzərdə tutulurdu. Qanunverici yeni CM-də qəbirin içində və ya üstündə olan predmetlərin oğurlanmasını bu cinayət tərkibindən haqlı olaraq çıxarmışdır. Belə ki, qəbirin içində (məsələn, qiymətli bəzək əşyaları, qızıl diş qapaqları və s.) və ya üstündə olan predmetlərin (məsələn, qəbir və ya sinə daşı, heykəl, skamyalar, ağaclar, qəbir üstünə qoyulmuş gül dəstələri və s.) oğurlanması şübhəsiz, qəbir üzərində təhqiredici hərəkətlər olsa da, bu hərəkətlərin tamah motivi ilə törədilməsi və onların törədilməsi üsulunun özü CM-in 245-ci maddəsində nəzərdə tutulan cinayət tərkibi ilə əhatə olunmur. Fikrimizcə, mərhumun varisləri onun qəbrinin üstündə və ya içində olan predmetlərin mülkiyyətçisi hesab edildiklərinə görə, onların oğurlanması mülkiyyət əleyhinə edilən cinayət kimi qiymətləndirilməlidir. Odur ki, göstərilən halda təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında — CM-in 177-ci və 245-ci maddələri ilə tövsif edilməlidir.

2. CM-də bu maddənin nəzərdə tutulmasında əsas məqsəd cinayət-hüquqi vasitələrlə ictimai mənəviyyatı, həmin mənəviyyatı əks etdirən abidələri, insanların mənəvi duyğularını kriminal qəsdlərdən qorumaqdır.

3. Şərh olunan cinayət əməlinin **əsas bilavasitə obyekti** ictimai mənəviyyatdır. Bu cinayətin **əlavə obyekti** qismində bir sıra hallarda mülkiyyət çıxış edir.

Nəzərdən keçirilən cinayətin **predmeti** qəbir, qəbir üzərində mərhumu yad etmək üçün düzəldilmiş tikililər, xatirə daşları və lövhələri, dəfn olunmuş şəxslərin qalıqlarıdır. Qəbirüstü tikililərə abidə, hasarlanmış gül-çiçək sahəsi, sərdabə və s. aiddir.

Qəbir dedikdə ölmüş şəxslərin meyitlərinin (qalıqlarının) basdırılması (dəfn olunması) üçün etik, sanitariya və ekoloji tələblərə uyğun olaraq ayrılan torpaq sahəsi başa düşülür. Mənsubiyyətinə görə qəbirlərin bölgüsü aparıla bilər. Belə ki, onları dövlət və bələdiyyə qəbirlərinə ayırmaq olar. Adətlərə görə ictimai, dini və hərbi, tarixi və mədəni təyinatına görə isə tarixi-memorial qəbirlər fərqləndirilə bilər.

3. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** qəbir və ya meyit üzərində təhqiredici hərəkətlərin edilməsində ifadə olunur.

Qəbir və ya meyit üzərində təhqiredici hərəkətlər dedikdə meyitin dəfn edilməsinin xalq arasında ümumi qəbul edilmiş qaydalarını, bu sahədə mövcud olan adət və ənənələri kobud surətdə pozan, qəbirlərin dağıdılması, zədələnərək korlanması, qəbir daşlarının üzərində əxlaqsız söz və ifadələr yazılması, şəkillər, işarələr çəkilməsi və s. bu kimi mənəviyyatsız, rüsvayedici hərəkətlərin törədilməsi başa düşülür. Belə hərəkətlərə qəbirin qazılması, meyitin oradan çıxarılması, qanunsuz olaraq meyitin orqan və toxumalarının götürülməsi, meyitin ayrı-ayrı hissələrə parçalanması və ya onun dərisi üzərində müxtəlif işarələr çəkilməsi və s. aid edilir. İstintaq və məhkəmə təcrübəsində meyitlə cinsi əlaqəyə girmə (nekrofiliya), meyitin ayrı-ayrı orqanlarının yeyilməsi halla-

nna rast gəlinir. Fikrimizcə, bunların hamısı CM-in 245-ci maddəsi ilə tövsif edilməlidir. Meyitlə cinsi əlaqədə olmaq, habelə meyitin ayrı-ayrı hissələrini yemək məqsədi ilə adam öldürmə halları cinayətlərin məcmusu qaydasında CM-in 120-ci və 245-ci maddələri ilə tövsif olunmalıdır. Öldürülmüş şəxsin meyiti üzərində təhqiramiz hərəkətlərin törədilməsi (məsələn, meyitin dərisində müəyyən ədəbsiz məzmunlu işarə, söz və ifadələr yazma və ya cinsiyyət orqanlarını kəsib götürmə və s.) də cinayətlərin məcmusu qaydasında CM-in 120-ci və 245-ci maddələri ilə tövsif edilməlidir.

Təhqiredici hərəkətlər qanuna görə tarixi-mədəniyyət əhəmiyyətli obyekt hesab edilən qəbir üzərində edilmişdirsə, əməl CM-in 246-cı maddəsi ilə tövsif edilməlidir.

4. Nəzərdən keçirilən cinayət **formal tərkibli** olduğu üçün şərh olunan hərəkətlərdən hər hansı biri törədildiyi andan başa çatmış hesab edilir. Mərhumun doğmalarına və yaxın qohumlarına qeyd olunan törədilmiş hərəkətlər haqqında məlumatın çatıb-çatmaması, eləcə də təqsirkarın qəbir və ya meyit barəsində daha hansısa hərəkətləri törətməyə hazırlaşması əməlin tövsifinə heç bir təsir göstərmir.

5. Şərh olunan cinayət əməli **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar şəxs qəbir və ya meyit üzərində CM-in 245-ci maddəsinin şərhində nəzərdən keçirdiyimiz təhqiredici hərəkətləri törətdiyini dərk edir və bunu arzu edir. Təqsirkarın bu cinayəti hansı motivlə törətməsi, habelə hansı məqsədi izlədiyi əməlin tövsifinə təsir etmir. Ümumiyyətlə, bu cinayətin **motivləri** mərhumun sağlığında onun özü ilə, yaxud qohumları ilə şəxsi münaqişənin, ədavətin olması, qisas, habelə milli və ya dini ədavət və s. ola bilər.

6. Təhlil etdiyimiz cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

Maddə 246. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama

Dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan cinayət əməli Azərbaycan Respublikasının 1960-cı il CM-də də 231-1-ci maddədə «tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə, dağıtma və ya korlama» adı altında nəzərdə tutulurdu.

Qanunverici yeni CM-də, əvvəlkindən fərqli olaraq, şərh olunan cinayət tərkibinin obyektləri sırasından «təbiət obyektlərini», obyektiv cəhətindən isə «dağıtma»nı çıxarmışdır.

2. CM-də 246-cı maddənin nəzərdə tutulmasının **məqsədi** Azərbaycan xalqının milli dəyərləri olan tarix və mədəniyyət abidələrini cinayətkar qəsdlərdən cinayət-hüquqi vasitələrlə mühafizə etmək, qorumaqdır.

Qeyd olunan maddənin CM-də nəzərdə tutulması hər şeydən öncə Azərbaycan Respublikasının beynəlxalq-hüquqi öhdəlikləri ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikası 21 aprel 1993-cü il tarixli Qanunla 14 may 1954-cü ildə qəbul edilmiş «Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyasına, 22 aprel 1997-ci il tarixli Qanunla isə 19 aprel 1954-cü ildə qəbul edilmiş «Avropa Mədəniyyət Konvensiyası»na qoşulmuşdur.

«Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında» 14 may 1954-cü il tarixli Konvensiyada mədəni sərvətlərə aid edilən obyektlərin ümumi siyahısı verilir, Konvensiyaya qoşulan dövlətlərin mədəni sərvətlərin qorunması, mühafizəsi və onlara hörmət edilməsi üzrə öz üzərlərinə götürdükləri bir sıra mühüm öhdəliklər nəzərdə tutulur.

Qeyd edilən beynəlxalq-hüquqi aktlardan savayı, Azərbaycan Respublikası 6 dekabr 1993-cü il tarixli Qanunla YUNESKO-nun 16 noyabr 1972-ci ildə qəbul edilmiş «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» Konvensiyasına da qoşulmuşdur.

3. Şərh olunan cinayət əməlinin **obyekti** ictimai mənəviyyat, habelə tarix və mədəniyyət abidələrinin qorunub saxlanılmasını təmin edən ictimai qaydadır. Bu cinayətin **predmeti** isə dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələridir.

CM-in 246-cı maddəsi **blanket** xarakterli norma olduğundan, onun mahiyyətini müəyyən etmək üçün bir sıra normativ aktlara müraciət etmək zəruridir. Qeyd olunan normativ aktlardan ən əsası Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edən 6 fevral 1998-ci il tarixli «Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunudur. Adı çəkilən Qanunda tarix və mədəniyyət abidələrinin ayrıca anlayışı verilməsə də, onlar «mədəniyyət sərvətləri» ümumi anlayışı ilə əhatə olunur. Qeyd olunan Qanunun 33-cü maddəsinə görə mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər, tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir.

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur.

Azərbaycan Respublikasının «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» 10 aprel 1998-ci il tarixli Qanununun 2-ci maddəsinə görə **tarix və mədəniyyət abidələri** arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar, xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir.

Beləliklə, tarix və mədəniyyət abidələri məcmu halında iki əlamətə malik olmalıdır: 1) mədəni əhəmiyyət kəsb etməlidir; 2) tarix və mədəniyyət abidəsi

qismində hüquqi cəhətdən dövlət tərəfindən tanınmalıdır.

Yeni aşkar edilmiş milli və başəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətləri belə obyektlərin siyahılarında (yeni aşkar edilmiş maddi mədəniyyət obyektlərinin siyahılarında) qeydiyyata alınır və dövlət uçotuna götürülmələri haqqında məsələ həll edilənədək, artıq qeydiyyata alınmış tarix və mədəniyyət abidələrinin mühafizə rejimi onlara da şamil edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 avqust tarixli 130 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının mədəniyyət sərvətlərinin milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınması Qaydası»nın 13-cü bəndinə görə milli mədəniyyət əmlakı sayılan mədəniyyət sərvətinə aid sənədlər baxılmaq üçün Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və ya «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə verildikdə, onların «Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilməsi məsələsinə 2 ay ərzində baxılmalıdır.

Qeyd olunan normativ aktın 16-cı bəndinə görə Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan milli mədəniyyət obyektlərinə xüsusi mühafizə dərəcəsi şamil edilir.

Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektləri mülki dövriyyədən çıxarılır və Azərbaycan Respublikası Nazirlər Kabinetinin icazəsi olmadan onları ləğv etmək, başqa yerə köçürmək, surətini çıxarmaq və bərpa etmək qadağandır (istinad edilən normativ aktın 9-cu bəndi).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 204 saylı Qərarı ilə təsdiq edilmiş «Milli mədəniyyət sərvətlərinin mühafizəsinin, kənara çıxarılmasının və onlardan istifadə Qaydaları»nın 2-ci bəndinə görə milli mədəniyyət sərvətləri Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alındıqdan sonra onların mühafizəsi təmin olunur. Bu Qaydaların 4-cü bəndində milli mədəniyyət sərvətlərinin qorunmasına görə nəzarəti Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəniyyət sərvətlərinin mühafizə siyahısına uyğun olaraq Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində isə «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təmin etməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti qeyd etdiyimiz normativ aktlardan savayı, 1998-ci il 15 oktyabr tarixli 204 saylı Qərarı ilə «Milli mədəniyyət sərvətlərindən istifadə Qaydaları»nı və «Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları»nı təsdiq etmişdir.

Azərbaycan Respublikasının «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» 10 aprel 1998-ci il tarixli Qanununun 2-ci maddəsinə görə dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələri **daşınar (səyyar)** və **daşınmaz (stasionar)** ola bilər. Birincilərə arxeoloji qazıntılar nəticəsində əldə edilmiş arxeoloji və numizmatik xarakterli əşyalar, əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, markalar, tətbiqi sənət əsərləri — xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı, qədim nadir kolleksiyalar və otuz ildən çox tarixi olan muzey əhəmiyyətli əşyalar (o cümlədən mebel, musiqi alətləri və s.), ikincilərə isə memarlıq abidələri, tikili nümunələri, xatirə yerləri və məqbərələr, habelə vaxtilə müəyyən mühüm tarixi əhəmiyyətli hadisələrin baş verdiyi ərazilər və s. aid edilir.

4. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlamada ifadə olunur.

Məhv etmə dedikdə qeyd olunan obyektlərin dağıtma, yandırma, partlatma və ya digər mexaniki təsir üsulu ilə öz dəyərini həmişəlik itirən və bundan sonra təyinatı üzrə istifadə edilməsi mümkün olmayan tam yararsız vəziyyətə salınması başa düşülür. **Korlama** dedikdə dövlət tərəfindən mühafizə edilən adları çəkilən obyektlərin bütövlüyünün, yaxud digər xüsusiyyətlərinin qismən itirilməsinə səbəb olan, onların bərpa edilmədən təyinatı üzrə istifadə edilməsi qeyri-mümkün olan vəziyyətə salınması başa düşülür. Qeyd olunan obyektlərin korlanma dərəcəsi mütəxəssis olmayan şəxslərə də aşkar vəziyyətdə olmalıdır. Tarix və mədəniyyət abidələri üzərində çətin silinən yazılar yazma, şəkillər çəkmə və ya rəngləmə və s. bu kimi hərəkətlər CM-in 246-cı maddəsinin nəzərdə tutduğu mənada onları korlama hesab edilmir.

Şərh olunan əməlin CM-in 246-cı maddəsi ilə tövsif edilməsi üçün tarix və mədəniyyət abidələrini qəsdən məhv etmənin və ya korlamanın üsulu heç bir əhəmiyyət kəsb etmir. Belə ki, qeyd olunan obyektlər kimyəvi, mexaniki və sair üsullarla məhv edilə və ya korlana bilər.

5. Nəzərdən keçirilən cinayət **maddi** tərkibli olduğu üçün o, tarix və mədəniyyət abidələri qəsdən məhv edildiyi və ya korlandığı andan **başa çatmış** hesab edilir. Bu obyektlərin məhv edilməsi və ya korlanması ilə təqsirkarın törətdiyi ictimai təhlükəli hərəkətlər arasında səbəbli əlaqə müəyyən edilməlidir.

6. Şərh olunan cinayət əməli çox zaman **fəal hərəkətlərlə** törədilir (məsələn, tarix və mədəniyyət abidələrini yandırma, partlatma, dağıtma və s.). Lakin bir sıra hallarda bu cinayət əməli hərəkətsizliklə də törədilə bilər (məsələn, təqsirkar qəsdən tonqalı və ya qalamış olduğu ocağı, yaxud elektrik cihazını söndürmür, tarix və mədəniyyət abidələrinin xilas edilməsi üçün zəruri tədbirlər görməyə borclu olduğu halda, bunu etmir və s.).

7. Təhlil edilən cinayət əməli **subyektiv cəhətdən** təqsirin **qəsd** forması ilə törədilir. Burada ya **birbaşa**, ya da **dolayı qəsd** ola bilər. Bu cinayət əməlinin ehtiyatsızlıqla törədilməsi CM-in 246-cı maddəsi ilə cinayət məsuliyyətini istisna edir.

Şərh olunan cinayət əməli müxtəlif **motivlərlə** (məsələn, xuliqanlıq, qisas, paxıllıq, milli və ya dini ədavət və s.) törədilə bilər. Qeyd olunan əməlin tövsifi üçün bu motivlər heç bir hüquqi əhəmiyyət daşımır.

8. CM-in 246-cı maddəsində nəzərdə tutulan cinayət əməlinin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

XXVIII Fəsil
Ekoloji cinayətlər

Maddə 247. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma

Sənaye, kənd təsərrüfatı, elmi və digər obyektlərin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və istismarı zamanı ətraf mühitin mühafizəsi qaydalarına riayət olunması üçün cavabdeh şəxslər tərəfindən bu qaydaların pozulması radioaktiv fonun əhəmiyyətli dərəcədə dəyişməsinə, insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə və ya digər ağır nəticələrə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 9 noyabr 2017-ci il).*

1. CM-in 247-ci maddəsi yenidir və faktiki olaraq özündə təsərrüfat fəaliyyətinin gedişində ətraf mühitə ziyan vurulmasına görə məsuliyyət nəzərdə tutan ümumi cinayət tərkibini əks etdirir. Qeyd olunan maddəni CM-də nəzərdə tutmaqda qanunvericinin **əsas məqsədi** sənaye, kənd təsərrüfatı, elmi və digər obyektlərin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və istismarı zamanı ətraf mühitin mühafizəsi üçün zəruri olan texnoloji nizam-intizamı cinayət-hüquqi vasitələrlə təmin etməkdir.

2. Şərh olunan cinayət əməlinin **obyekti** təsərrüfat və ya digər fəaliyyət prosesində təbiət obyektlərinin qorunub saxlanılmasının, ətraf mühitin sağlamlaşdırılmasının, əhalinin radiasiya təhlükəsizliyinin təmin olunması ilə bağlı olan ictimai münasibətlərdir.

3. Ətraf mühitin mühafizəsi qaydaları ümumi məcburi qüvvəyə malik olmaq üçün müvafiq normativ hüquqi aktlarda nəzərdə tutulmalıdır. Müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmayan ətraf mühitin mühafizəsi haqqında elmi tövsiyələr nə qədər inandırıcı və əhəmiyyətli olsa da, hamı üçün məcburi qüvvəyə malik hesab edilə bilməz. Ətraf mühitin mühafizəsi qaydaları öz məzmununa görə barəsində CM-in digər maddələrində məsuliyyət nəzərdə tutulan ümumi və xüsusi təhlükəsizlik qaydalarından fərqlənir.

Ətraf mühitin mühafizəsi qaydaları Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli Qanununda, «Ekoloji təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının eyni tarixli Qanununda, «Əhalinin radiasıya təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanununda, Azərbaycan Respublikasının «Yerin təki haqqında» 13 fevral 1998-ci il tarixli Qanununda, Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Meşə Məcəlləsində, Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Su Məcəlləsində və digər qanunvericilik aktlarında nəzərdə tutulmuşdur.

4. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** sənaye, kənd təsərrüfatı,

elmi və digər obyektlərin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və istismarı zamanı ətraf mühitin mühafizəsi qaydalarına riayət olunması üçün cavabdeh şəxslər tərəfindən bu qaydaların radioaktiv fonun əhəmiyyətli dərəcədə dəyişməsinə, insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə və ya digər ağır nəticələrə səbəb olan dərəcədə pozulmasında ifadə olunur.

Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli Qanununun 1-ci maddəsinə görə **ətraf mühit** dedikdə insan fəaliyyətindən asılı olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusu başa düşülür. **Ətraf mühitin mühafizəsi** dedikdə ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrinə yol verilməməsi, qorunub saxlanması başa düşülür.

Fikrimizcə, qanunverici CM-in 247-ci maddəsində «radioaktiv fon» terminini «təbii radiasiya fonu» anlayışının sinonimi kimi istifadə etmişdir. Azərbaycan Respublikasının «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» 30 dekabr 1997-ci il tarixli Qanununun 1-ci maddəsinə görə **təbii radiasiya fonu** dedikdə kosmik şüalanmaların və təbii radionuklidlərin torpaqda, suda, havada, biosferanın digər elementlərində, qida maddələrində, habelə insan orqanizmində təbii yaratdığı şüalanma dozası başa düşülür.

5. CM-in 247-ci maddəsində nəzərdə tutulan işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi qaydaları həm **hərəkətlə**, həm də **hərəkətsizliklə** pozula bilər. Birinci halda müvafiq qaydaların qadağan etdiyi texnoloji proseslərdən istifadə edilir, qeyd olunan işlərin görülməsi üçün verilən icazənin şərtlərinə uyğun olmayan şəkildə fəaliyyət göstərilir, təmizləyici qurğular yol verilən həddən artıq yüklənir və s. İkinci halda isə ətraf mühitin mühafizəsi qaydalarında birbaşa nəzərdə tutulan öhdəliklər (hərəkətlər) yerinə yetirilmir. Məsələn, müvafiq təsərrüfat qərarlarının qəbul edilməsi üçün nəzərə alınması zəruri olan məlumatın əldə edilməməsi və ya ona etinasızlıq göstərilməsi, dövlət ekoloji ekspertizasının rəyində nəzərdə tutulan tələblərin yerinə yetirilməməsi, zəruri təmizləyici qurğuların tikilməsindən imtina edilməsi və s.

CM-in 247-ci maddəsində qeyd olunan işlərin görülməsinin istənilən mərhələsi yalnız səlahiyyətli orqan və ya şəxslər tərəfindən qanunla müəyyən edilən qaydada qəbul edilən idarəetmə qərarı əsasında həyata keçirilməlidir.

«Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 52-ci maddəsinə görə təsərrüfat və başqa fəaliyyətlər nəticəsində ətraf mühitə təsirin qiymətləndirilməsinin dolğunluğunu və düzgünlüyünü, qəbul olunan qərarların ekoloji təhlükəsizlik dərəcəsini, təbii resurslardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi barədə təklif olunan tədbirlərin səmərəsini müəyyənləşdirmək məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dövlət ekoloji ekspertizası təşkil olunur və həyata keçirilir. Bu Qanunun 54-cü maddəsində isə dövlət ekoloji ekspertizasının obyektlərinin, yəni həyata keçirilməsi üçün barəsində mütləq dövlət ekoloji ekspertizasının müsbət rəyinin olması tələb edilən təsərrüfat və digər fəaliyyət növlərinin və obyektlərinin siyahısı verilmişdir.

6. **İşlərin müxtəlif növlərinin yerinə yetirilməsi** ekoloji qanunvericiliyin,

habelə onunla əlaqəli olan digər qanunvericilik sahələrinin müəyyən etdiyi ətraf mühitin mühafizəsinin həm ümumi, həm də xüsusi qaydaları ilə tənzimlənir.

Sənaye, kənd təsərrüfatı, elmi və digər obyektlərin layihələşdirilməsi dedikdə səlahiyyətli şəxslər tərəfindən qəbul edilən və müəyyən hüquqi nəticələrə səbəb olan xüsusi qərar əsasında həyata keçirilən texnoloji üsulların məcmusu başa düşülür. Şəxsin öz təşəbbüsü ilə fərdi, yəni yaradıcı təklifləri əsasında qeyd olunan obyektlərin layihələşdirilməsi ətraf mühitin mühafizəsi qaydalarının pozulması ilə müşayiət olunsa da, şərh olunan cinayət tərkibinin obyektiv cəhətini yaradan hərəkət kimi qiymətləndirilə bilməz.

Obyektlərin yerləşdirilməsi dedikdə planlaşdırılan qurğuların, nəqliyyat infrastrukturunun, yaşayış məntəqələrinin, istehlak komplekslərinin və sair obyektlərin hansı məkanda tikilməsi və təşkil olunmasının müəyyən edilməsi üzrə fəaliyyət başa düşülür.

Adları çəkilən **obyektlərin tikintisi** dedikdə onların qurulması, yenidən qurulması və ya təchiz edilməsi və digər formada yaradılması, yaxud mövcud obyektlərin yenidən təşkil edilməsi üzrə fəaliyyət nəzərdə tutulur.

Obyektlərin istismara buraxılması dedikdə icraçı tərəfindən tikilmiş, yenidən qurulmuş, müasirləşdirilmiş və s. obyektin dəqiq müəyyən edilmiş hüquqi formada təhvil verilməsi və həm sənədlərin, həm də obyektin faktiki vəziyyətinin yoxlanılması, sınaq buraxılışı, daimi texnoloji dövrəyə qoşulması, fəaliyyətə, istifadə olunmağa və tətbiq edilməyə başlaması da daxil olmaqla, xüsusi səlahiyyətli şəxslər tərəfindən qəbul edilməsi başa düşülür.

Obyektin istismarı dedikdə onun məhsul əldə edilməsi, əhalinin tələbatının təmin olunması və s. məqsədlərlə istifadə edilməsi başa düşülür.

7. Qanunverici CM-in 247-ci maddəsində təsvir edilən işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi qaydalarını pozmanın ictimai təhlükəli nəticələri qismində radioaktiv fonun əhəmiyyətli dərəcədə dəyişməsini, insan sağlamlığına zərər vurulmasını, heyvanların kütləvi məhvini və ya digər ağır nəticələri nəzərdə tutmuşdur.

Radioaktiv fonun əhəmiyyətli dərəcədə dəyişməsi dedikdə kosmik şüalanmaların və təbii radionuklidlərin torpaqda, suda, havada, biosferanın digər elementlərində, qida maddələrində, habelə insan orqanizmində təbii yaratdığı şüalanma dozasının artması və bunun ətraf mühitə, eləcə də canlılara ziyan vurması və ya ziyan vurulması təhlükəsi yaratması başa düşülür. «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» 30 dekabr 1997-ci il tarixli Qanunun 13-cü maddəsinə görə ərazi, müəssisə və təşkilatların radioaktiv təhlükəsizliyə hazırlığının vəziyyəti hər il ərazi, müəssisə və təşkilatların radioloji-gigiyenik pasportlarında əks olunur. Bu pasportlarda radiasiya təhlükəsizliyinə verilən qiymət ionlaşdırıcı şüalanmanın təsirinin yüksək həddinə məruz qalmış ərazilər və əhali qrupları haqqında məlumat, radiasiya vəziyyətinin proqnozları və digər məlumatlar əks olunur.

«Əhalinin radiasiya təhlükəsizliyi haqqında» Qanunun 1-ci maddəsinə görə **texnogen dəyişdirilmiş radiasiya fonu** insan fəaliyyəti nəticəsində təbii radiasiya fonunun dəyişdirilməsidir.

İnsan sağlamlığına zərər vurulması dedikdə sağlamlığın həm müvəqqəti əmək qabiliyyətinin itirilməsinə, həm də xroniki şəkil almış xəstəlik, funksional pozuntular, habelə əmək qabiliyyətinin uzun müddətə və ya tam itirilməsinə səbəb olan daha ağır pozuntuları başa düşülür.

Heyvanların kütləvi məhvi dedikdə müəyyən ərazilərdə, bir və ya bir neçə su obyektlərində eyni və ya müxtəlif növlərdən olan heyvanların eyni vaxtda xeyli sayda məhv olması və bu zaman onların ölüm səviyyəsinin orta statistik göstəricilərinin üç dəfə və ya daha çox olduğu hallar nəzərdə tutulur.

Digər ağır nəticələr dedikdə ətraf mühitin keyfiyyətinin, yaxud təbiət obyektlərinin vəziyyətinin müşahidə olunan dövrdə aradan qaldırılması mümkün olmayan və ya bunun üçün xeyli miqdarda maliyyə və maddi xərclərin tələb olunduğu dərəcədə pisləşməsi, ayrı-ayrı obyektlərin məhv olması, torpaqların deqradasiyası və ətraf mühitin təbiətdən istifadənin qanuni növlərinin, təbiətin qorunub saxlanılması vəzifələrinin həyata keçirilməsinə mane olan digər neqativ xarakterli dəyişiklikləri başa düşülür.

8. Törədilmiş əməl CM-in 247-ci maddəsi ilə tövsif olunarkən, təqsirkarın kriminal əməli ilə baş vermiş ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqənin, yəni qeyd olunan nəticələrin hər hansı digər və ya əlavə amillərin təsiri ilə deyil, məhz ətraf mühitin mühafizəsinin qanunla müəyyən edilmiş qaydalarının pozulması nəticəsində baş verdiyinin müəyyən edilməsi zəruridir. Ətraf mühitin mühafizəsi qaydalarına riayət edilməsi CM-in 247-ci maddəsində sadalanan ictimai təhlükəli nəticələrin baş verməsinin qarşısını ala bilməzdisə, qeyd olunan qaydaların pozulması ilə baş vermiş zərərli nəticələr arasında səbəbli əlaqədən söhbət gedə bilməz və deməli, şərh olunan cinayət tərkibi də mövcud olmayacaqdır.

9. Təhlil etdiyimiz cinayət CM-in 247-ci maddəsində nəzərdə tutulan, ətraf mühitin mühafizəsi qaydalarının pozulması ilə səbəbli əlaqədə olan ictimai təhlükəli nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab olunur.

10. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. CM-in 24.2-ci maddəsinin tələbinə görə, CM-in 247-ci maddəsində nəzərdə tutulan cinayət **ehtiyatsızlıqla** törədilə bilməz. Çünki bu, CM-in 247-ci maddəsinin mətnində nəzərdə tutulmur. Təqsirkar CM-in 247-ci maddəsində qeyd olunan işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi qaydalarını pozduğunu dərk edir, ictimai təhlükəli nəticələrin baş verəcəyini qabaqcadan görür, bunları arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir.

11. Şərh olunan cinayətin **subyekti 16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Qanunverici bu cinayətin subyektinin ətraf mühitin mühafizəsi qaydalarına riayət olunması üçün cavabdeh şəxslər olduğunu CM-in 247-ci maddəsinin dispozisiyasında bilavasitə qeyd edir. Bunlara işlərin yerinə yetirilməsinə görə ümumi məsuliyyət daşıyan şəxslər, habelə işlərin ayrı-ayrı növlərinin və ya funksiyaların həyata keçirilməsinə görə xüsusi məsuliyyət daşıyan şəxslər (məsələn, təmizləyici qurğuların işləməsinə, müəssisədə xüsusi təbiəti mühafizə bölmələrinin fəaliyyətinin təşkilinə görə cavabdehlik daşıyan şəxslər) aid edilir.

Maddə 248. Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma

248.1. Təhlükəli tullantıların qadağan olunmuş növlərinin istehsalı, müəyyən edilmiş qaydaların pozulması ilə radioaktiv, bakterioloji, kimyəvi maddələrin və tullantıların daşınması, saxlanması, basdırılması, istifadəsi və ya sair dövriyyəsi, bu əməllər insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurma təhlükəsi yaratdıqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

248.2. Eyni əməllər ətraf mühitin çirklənməsinə, zəhərlənməsinə, insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə səbəb olduqda və ya təhlükəli ekoloji vəziyyət zonasında törədildikdə —

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

248.3. Bu Məcəllənin 248.1 və ya 248.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya insanların kütləvi xəstələnməsinə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu maddə respublikamızın CM-də yenidir və özündə təhlükəli maddələrlə və tullantılarla davranış qaydalarını pozmağa görə cinayət məsuliyyətini nəzərdə tutaraq, ümumi ekoloji cinayət tərkibini əks etdirir. CM-in 248-ci maddəsi təhlükəli hesab edilən, yaxud istehsalı tamamilə qadağan edilmiş maddələr və tullantılarla davranışın bütün mərhələlərini tənzimləyən bütün növ qaydaları pozmağa görə cinayət məsuliyyətinin ümumi əsaslarını müəyyən edir.

2. Şərh olunan maddəni CM-də nəzərdə tutmaqda qanunvericinin **məqsədi** qanunla qadağan edilən tullantı növlərinin istehsalına yol verilməməsini və ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların qanunla müəyyən edilmiş dövriyyəsi qaydalarına riayət olunmasını təmin etməkdir.

Qanunverici CM-in 248-ci maddəsində eyni ictimai təhlükəli nəticələrin baş verməsinə səbəb olan iki müstəqil cinayət tərkibini nəzərdə tutmuşdur: 1) təhlükəli tullantıların qadağan olunmuş növlərinin istehsalı; 2) müəyyən edilmiş qaydaların pozulması ilə radioaktiv, bakterioloji, kimyəvi maddələrin və tullantıların daşınması, saxlanması, basdırılması, istifadəsi və ya sair dövriyyəsi.

Qeyd olunan cinayət tərkiblərinin hər ikisi eyni ağırlaşdırıcı tərkib əlamətlərinə malikdir.

3. Şərh olunan cinayət əməlinin **obyekti** ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi zamanı insanların sağlamlığının və ətraf mühitin mühafizəsinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir.

Nəzərdən keçirilən cinayətin **predmeti** təhlükəli tullantıların qadağan olunmuş **növləri, radioaktiv, bakterioloji, kimyəvi maddələr və onların tullantı-**

larıdır.

Təhlükəli tullantıların qadağan olunmuş növləri dedikdə istehsal üçün yararsız olan məhsullar, yaxud öz istehlak xüsusiyyətlərini itirmiş xammal növləri, onların istehlak edilməyən qalıqları, məmulatlar və ya texnoloji proseslərin gedişində yaranan, bərk, maye və ya qaz halında olan, canlı varlıqları və onların yaşadığı mühiti zəhərləyə və ya digər formada korlaya bilən maddələr başa düşülür.

«İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikasının 30 iyun 1998-ci il tarixli Qanununun 1-ci maddəsinə görə **təhlükəli tullantılar** tərkibində təhlükəli xüsusiyyətlərə malik partlayıcı, yanma qabiliyyətli, oksidləşdirici, toksiki, infeksion, korroziya təsirinə malik və ekotoksiki maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılardır.

Qeyd olunan tullantılar zəhərləyici, radioaktiv və sair növlərə bölünür. **Zəhərləyici (toksiki) tullantılar** dedikdə istehsal prosesində istifadə olunmayan məhsullar, məmulatlar, tərkibində zəhərləyici maddələr olan xammal növləri nəzərdə tutulur.

Radioaktiv tullantılar dedikdə sonrakı istifadəsi nəzərdə tutulmayan nüvə materialları və radioaktiv maddələr başa düşülür. Burada **nüvə materialları** dedikdə tərkibində parçalanan (hissələrə ayrılan) nüvə maddələri olan materiallar nəzərdə tutulur. Azərbaycan Respublikasının «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» 30 dekabr 1997-ci il tarixli Qanununun 1-ci maddəsinə görə **radioaktiv maddə** dedikdə kənar (xarici) təsir olmadan atom nüvəsinin çevrilməsi nəticəsində ionlaşdırıcı şüa buraxan izotoplar (atomlar) başa düşülür.

Radioaktiv tullantılar anlayışına təkcə sonrakı istifadəsi mümkün olmayan maddələr və materiallar deyil, həm də tərkibində radionuklidlərin miqdarı müvafiq normativ aktlarda müəyyən edilmiş həddən çox olan məmulatlar, avadanlıqlar, bioloji mənşəli obyektlər daxildir. Bunlar radioaktiv maddələrin yataqlarının çıxarılması və emalı, nüvə yanacağının, atom elektrik stansiyalarında enerjinin, nüvə silahlarının hazırlanması üçün nüvə materiallarının istehsalı, işlənmiş nüvə yanacağının emalı, nəqliyyat nüvə energetik qurğuları olan gəmilərin istismarı prosesində, tibbdə, elmdə, texnikada radionuklidlərdən istifadə, yeraltı nüvə partlayışları, radioaktiv maddələrdən istifadə etməklə elmi-tədqiqat işlərinin görülməsi zamanı yaranır.

Bakterioloji maddələr dedikdə canlı xəstəlik daşıyıcıları (məsələn, həşəratlar, gəmiricilər və s.) vasitəsilə yayılan və ya döyüş sursatlarında, cihazlarında insanların, heyvanların və bitkilərin kütləvi xəstələnməsinə səbəb olmaq məqsədi ilə suspenziyalar və tozlar şəklində istifadə olunan bakteriyalar, viruslar, rikketsiyalar, göbələklər və onların həyat fəaliyyətinin toksiki məhsulları başa düşülür.

Bakterioloji (bioloji) və toksiki silahların işlənib hazırlanmasının, istehsalının və bu silahların ehtiyatlarının toplanmasının qadağan edilməsi və onların məhv edilməsi haqqında BMT-nin 1972-ci ildə qəbul edilmiş beynəlxalq Konvensiyasına uyğun olaraq, hər bir iştirakçı dövlət heç vaxt, heç bir halda profilaktiki, müdafiə və ya digər məqsədlər üçün nəzərdə tutulmayan miqdarda və növlər-

də mənşəyindən və ya istehsal edilmə üsullarından asılı olmayaraq mikrobioloji və ya digər bioloji agentləri və ya toksinləri; qeyd olunan agentlərdən və ya toksinlərdən hərbi münaqişələrdə və ya düşmənçilik məqsədləri ilə istifadə edilməsi üçün nəzərdə tutulan silahları, qurğuları istehsal etməməyi, işləyib hazırlamamağı və ya əldə etməməyi, toplamamağı və saxlamamağı öhdəlik qismində üzərinə götürür.

Kimyəvi maddələr dedikdə şərti olaraq sinir-iflicedici, dəri-aşındırıcı, boğucu, qıcıqlandırıcı və psixotomimetik növlərə bölünən yüksək toksikliyə malik zəhərləyici maddələr başa düşülür. Qeyri-sabit, sabit, zəhərli, tüstü yaradan kimyəvi maddələr mövcuddur. Təhlükəlilik dərəcəsinə görə kimyəvi maddələr 4 sinfə bölünür: 1) fövqəladə təhlükəli; 2) yüksək təhlükəli; 3) orta təhlükəli; 4) az təhlükəli kimyəvi maddələr.

Pestisidlər üçün də xüsusi təsnifat işlənib hazırlanmışdır.

Bakterioloji tullantılar dedikdə tərkibində təhlükəli xassələrə malik toksiki, infeksion, xəstəlik törədici maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar başa düşülür.

Kimyəvi tullantılar dedikdə tərkibində təhlükəli xüsusiyyətlərə malik toksiki, partlayıcı, yüksək reaksiya və yanma qabiliyyətli maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar başa düşülür. Bunlara müxtəlif zavod və fabriklərin (məsələn, alüminium zavodu, boru-prokat zavodu, qara və əlvan metallurgiya sənayesi müəssisələri və s.) istehsalat tullantıları aid oluna bilər. «İstehsalat və məişət tullantıları haqqında» 30 iyun 1998-ci il tarixli Qanunun 1-ci maddəsinə görə **istehsalat tullantıları** dedikdə istehsal, yaxud işlərin (xidmətlərin) yerinə yetirilməsi prosesində əmələ gələn və ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən xammal, material, maddə, yarımfabrikat, əşya və digər məhsulların qalıqları, habelə istehsal obyekti olmayan və öz istifadə olunma xüsusiyyətlərinə görə texnoloji prosesə daxil olmayan, yenidən əmələ gələn eyni mənşəli əşya və maddələr başa düşülür.

4. CM-in 248.1-ci maddəsində nəzərdə tutulan iki müstəqil cinayət tərkibindən **birincisinin obyektiv cəhəti** insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurulmasından ibarət olan təhlükənin yaranması ilə nəticələnən təhlükəli tullantıların qadağan olunmuş növlərinin istehsalıdır. Bu cinayət əməlinin **obyektiv cəhətinə** təhlükəli tullantıların istehsalını təşkil edən hərəkətlərin törədilməsi, insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurma təhlükəsinin yaranmasından ibarət ictimai təhlükəli nəticələrin baş verməsi, təhlükəli tullantıların qadağan olunmuş növlərinin istehsalı ilə qeyd olunan təhlükənin yaranması arasında **səbəbli əlaqənin** olması daxildir.

Təhlükəli tullantıların istehsalı qadağan edilmiş növlərinin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Qeyd olunan tullantılara döyüş sursatlarının istifadəsindən sonra qalan partlayıcı maddələr, onların istehsalat tullantıları, partlayış vasitələri, sənayedə tətbiq edilməsi nəzərdə tutulan barıt və pirotexniki məmulatlar, o cümlədən radioaktiv, zəhərləyici və s. tullantılar və maddələr aid olunur.

Təhlükəli tullantıların qadağan edilmiş növlərini istehsal etmə dedikdə

qeyd olunan tullantı növlərinin əsas və ya əlavə (kənar, törəmə) məhsul qismində əmələ gəlməsi ilə nəticələnən, peşəkar surətdə daimi və ya müvəqqəti olaraq öncədən müəyyən edilmiş məqsədlər üçün həyata keçirilən texnoloji proses və ya texnoloji proseslərin kompleksi başa düşülür.

Təhlükəli tullantıların qadağan edilmiş növlərinin istehsalı səlahiyyətli şəxslər (və ya şəxs) tərəfindən texnoloji prosesin başlanılması haqqında göstəriş verilməsindən, müvafiq texnologiyanın, avadanlığın seçilməsindən, habelə istehsalın təmin edilməsi üçün digər tədbirlərin görülməsindən, eləcə də texnoloji proseduraların sistemlərinin və onların üzərində nəzarətin bilavasitə həyata keçirilməsindən və s. bu kimi hərəkətlərdən ibarətdir.

Elmi-təcrübi işlərin icrası törəmə maddələr qismində təhlükəli tullantıların qadağan edilmiş növlərinin yaranması ilə nəticələnsə də, bu, təhlükəli tullantıların qadağan edilmiş növlərinin istehsalı kimi qiymətləndirilmir.

5. Şərh olunan cinayət əməlinin törətdiyi ictimai təhlükəli nəticələri 3 qrupa bölmək olar: 1) insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurulması təhlükəsinin yaranması; 2) ətraf mühitin çirklənməsi, zəhərlənməsi, insan sağlamlığına zərər vurulması və ya heyvanların kütləvi məhv olması; 3) ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünün və ya insanların kütləvi xəstələnməsinin baş verməsi.

Burada sonuncu iki ictimai təhlükəli nəticə CM-in 248.2-ci və 248.3-cü maddələrində təhlil etdiyimiz cinayətin **ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində nəzərdə tutulmuşdur.

6. **İnsan sağlamlığına əhəmiyyətli ziyan vurma təhlükəsi** dedikdə ən azı insanın həyatı üçün təhlükəli olan zərərin və ya CM-in 126.1-ci maddəsində göstərilən insan sağlamlığına ağır zərər vurulması hallarının baş verməsinin mümkünlüyü, yaxud insanın həyat fəaliyyətinin ekoloji şəraitinin insanın sağlamlığı üçün real təhlükə yaradan dərəcədə kəskin pisləşməsi başa düşülür.

Ətraf mühitə əhəmiyyətli ziyan vurma təhlükəsinin yaranması dedikdə insanın müdaxilə etməsi ilə dayandırılmadıqda zərərli nəticələrin yaranmasına səbəb ola bilən halların meydana gəlməsi, yaxud obyektiv şəraitin mövcud olması başa düşülür. Buna torpaqların, su hövzələrinin zəhərli, radioaktiv, kimyəvi və s. maddələr və tullantılarla zəhərlənməsi, çirklənməsi, təbiət obyektlərinin vəziyyətinin sair şəkildə pisləşməsi təhlükəsinin yaranması aiddir.

Qeyd olunan təhlükənin mövcudluğu son nəticədə məhkəmə tərəfindən işin bütün hallarının nəzərə alınması ilə qiymətləndirilir. Burada təhlükənin obyektiv əlaməti digər hallarda mövcud olmayan zərərli nəticələrin baş verməsi ehtimalının yüksək yəqinlik dərəcəsinə malik olmasıdır.

7. Şərh olunan cinayətin obyektiv cəhətinin araşdırılması zamanı təhlükəli tullantıların qadağan olunmuş növlərinin istehsalı ilə insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurma təhlükəsinin yaranması arasında **səbəbli əlaqə** müəyyən edilməlidir. Burada insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurma təhlükəsi təhlükəli tullantıların qadağan edilmiş növlərinin istifadəsi və ya onlarla davranış qaydalarının pozulması nəticəsində və ya digər amillərin təsiri altında deyil, məhz həmin tullantı növlərinin istehsalı nəticəsində yaranır.

8. Təhlükəli tullantıların qadağan edilmiş növlərinin istehsalı CM-in 248.1-ci maddəsində nəzərdə tutulan ikinci əsas cinayət tərkibindən, yəni ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsinin müəyyən edilmiş qaydalarının pozulmasından **predmetinə** və **obyektiv cəhətinə** görə fərqlənir. Belə ki, ikinci əsas cinayət tərkibinin **predmeti** təhlükəli tullantıların qadağan olunmuş növləri deyil, radioaktiv, bakterioloji, kimyəvi maddələr və tullantılardır. Bunların dövriyyəsi qadağan edilməsə də, bu, müvafiq normativ aktlarla müəyyən edilən xüsusi qaydalara riayət etməklə həyata keçirilməlidir. Radioaktiv, bakterioloji, kimyəvi maddələrin və tullantıların anlayışı bu maddənin şərhinin 3-cü bəndində verilmişdir.

Kimyəvi maddələrin toksiki göstəricilərinin, yəni daxil edilmiş və ya sorulmuş maddənin miqdarı, orqanizmə daxil olma yolları, dəymiş zərərin tipi və xarakteri, zərərli təsirin özünü göstərməsi üçün lazım olan vaxt, ilkin kimyəvi maddənin ətraf mühitə düşdükdə digər maddələrlə qarşılıqlı təsiri zamanı toksikiliyinin artması və s. nəzərə alınması şərh olunan cinayət əməlinin obyektiv cəhətinin müəyyən edilməsində zəruridir.

Bakterioloji (bioloji) maddələr və tullantılarla davranış qaydaları ətraf mühitə ona xas olmayan canlı orqanizmlərin daxil edilməsini, müəssisələrin, təşkilatların və vətəndaşların təbii ehtiyatlardan istifadə etməsi və ətraf mühitə təsir göstərməsi ilə bağlı fəaliyyətini (məsələn, ekoloji və sanitariya qaydaları), bitkilərin və heyvanların, bioloji maddələrin və tullantıların ölkəyə gətirilməsi və ölkədən çıxarılmasını nizama salır.

Radioaktiv və kimyəvi maddələrin və tullantıların dövriyyəsinin ümumi qaydaları bir sıra normativ hüquqi aktlarda təsbit edilmişdir. Məsələn, «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanununun 44-cü maddəsində radioaktiv maddələrlə iş zamanı, 45-ci maddəsində isə potensial təhlükəli kimyəvi və bioloji maddələrin istehsalı və istifadəsi zamanı ekoloji tələblər, 47-ci maddəsində ətraf mühitin istehsalat və məişət tullantılarından mühafizəsinin ümumi qaydaları nəzərdə tutulur. Qeyd olunan cinayət əməlinin predmeti olan maddələr və tullantıların dövriyyəsinin xüsusi qaydaları isə müxtəlif qanun qüvvəli aktlarda nəzərdə tutulmuşdur.

9. Radioaktiv, bakterioloji, kimyəvi maddələrin və tullantıların dövriyyəsi qaydaları onların dövriyyəsinin istənilən mərhələsində hərəkət və ya hərəkətsizliklə törədilə bilər. Bu zaman hərəkətlər müvafiq normativ aktlarda təsbit edilmiş qaydalara zidd olan üsulların, proseduraların, digər davranış aktlarının törədilməsində, hərəkətsizlik isə şəxsin müəyyən qaydalarda nəzərdə tutulan öhdəlikləri yerinə yetirməməsində ifadə olunur.

Şərh olunan cinayət əməlinin predmeti olan **maddələrin və tullantıların daşınması** dedikdə onların toplandığı, saxlandığı, istehsal olunduğu, anbara yığıldığı yerdən sonrakı saxlanma, emal olunma və ya basdırılma yerinə aparılması (nəqliyyatla) başa düşülür.

Qeyd olunan **maddələrin və tullantıların saxlanması** dedikdə onların sonradan təkrar istifadə olunması, yaxud basdırılması məqsədi ilə toplayıcılarda (adətən, xüsusi qablarda — konteynerlərdə) yerləşdirilməsi başa düşülür.

Bu cinayətin predmetlərinin basdırılması dedikdə onların sonrakı istifadəyə yararsız olduqları üçün, ətraf mühitə düşərək zərərli təsir göstərməsinin qarşısını almaq məqsədi ilə xüsusi konteynerlərdə, eləcə də xüsusi avadanlıqlarla təchiz edilmiş yerlərdə daimi yerləşdirməklə, ətraf mühitdən tam təcrid edilməsi başa düşülür.

Adları çəkilən maddələrin və tullantıların istifadəsi dedikdə onların əmtəə (məhsul) istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi, enerji hasil edilməsi üçün tətbiq olunması başa düşülür.

Fikrimizcə, radioaktiv, bakterioloji, kimyəvi maddələrin və tullantıların sair dövriyyəsi dedikdə qanunverici onların utilizasiyasını, yəni eyni zamanda sonrakı istehsal üçün zəruri olan faydalı məhsulların əldə olunması ilə zərərsizləşdirilməsini, yerləşdirilməsini, yəni tullantıların həm saxlanılmasını, həm də basdırılmasını, anbara yığılmasını, yəni müvəqqəti saxlanılmasını, zərərsizləşdirilməsini, yəni ətraf mühitə və insanın sağlamlığına təsirini azaltmaq məqsədi ilə tullantıların xüsusi qurğularda emalını (o cümlədən, yandırılmasını) və ya basdırılmasını nəzərdə tutur.

Təhlükəli maddələrin və tullantıların dövriyyəsinin ayrı-ayrı mərhələləri Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Su Məcəlləsi ilə, eləcə də Azərbaycan Respublikasının ərazisində istehsal edilən və xaricdən alınan təbii və süni mənşəli potensial təhlükəli kimyəvi və bioloji maddələrin məcburi qeydiyyatı da daxil olmaqla, onların dövriyyəsi qaydalarını müəyyən edən qanun qüvvəli aktlarla tənzimlənir. Bitkilərin kimyəvi və bioloji mühafizə vasitələri, kənd təsərrüfatı bitkilərinin və meşə əkililərinin boy artımının tənzimləyiciləri, əczaçılıq preparatları, habelə atmosferin ozon qatına dağıdıcı təsir göstərən maddələr üçün xüsusi qaydalar müəyyən olunmuşdur.

10. Radioaktiv, bakterioloji, kimyəvi maddələrin və tullantıların dövriyyəsi qaydalarının pozulmasından ibarət olan cinayət əməlinin ictimai təhlükəli nəticələri təhlükəli tullantıların qadağan olunmuş növlərinin istehsalı cinayətinin kriminal nəticələri ilə eynidir.

11. CM-in 248.2-ci maddəsində CM-in 248.1-ci maddəsində təsvir olunan əməllərin ətraf mühitin çirklənməsinə, zəhərlənməsinə, insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə səbəb olması və ya təhlükəli ekoloji vəziyyət zonasında törədilməsi şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** qismində nəzərdə tutulur.

Ətraf mühitin çirklənməsi, habelə zəhərlənməsi dedikdə insanın antropoloji fəaliyyətinin təsiri nəticəsində torpağın, havanın, suyun zərərli kimyəvi, bioloji, fiziki dəyişikliklərə uğraması, eləcə də ekoloji sistemin ayrı-ayrı komponentlərinin ekoloji tarazlığın pozulmasına səbəb olan dərəcədə kəmiyyət və keyfiyyətcə dəyişməsi başa düşülür.

CM-in 248.2-ci maddəsində nəzərdə tutulan mənada **insan sağlamlığına zərər vurulması** dedikdə ekoloji cəhətdən təhlükəli tullantıların və maddələrin dövriyyəsi qaydalarının pozulması nəticəsində heç olmasa bir insanın sağlamlığına istənilən ağırlıq dərəcəsində (ağır, az ağır və ya yüngül) zərər vurulması başa düşülməlidir.

Heyvanların kütləvi məhvi dedikdə şərh olunan cinayət (ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma) nəticəsində

müəyyən ərazidə, bir və ya bir neçə su obyektlərində bir növdən və ya müxtəlif növlərdən olan xeyli sayda heyvanların eyni vaxtda məhv olması başa düşülür.

CM-in 248.2-ci maddəsində şərh olunan **cinayətin törədilmə yeri** — təhlükəli ekoloji vəziyyət zonası təhlil etdiyimiz ağırlaşdırıcı tərkibdə nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının ekoloji qanunvericiliyini təşkil edən normativ hüquqi aktlarda **«təhlükəli ekoloji vəziyyət zonası»** anlayışı bilavasitə nəzərdə tutulmasa da, Azərbaycan Respublikasının «Ekoloji təhlükəsizlik haqqında» və «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli qanunlarının təhlili əsasında qeyd olunan anlayışı aşağıdakı şəkildə vermək olar:

Təhlükəli ekoloji vəziyyət zonası dedikdə antropogen və təbii təsirlər, o cümlədən fəlakət və qəzalar nəticəsində ətraf mühitin dağılma təhlükəsi ilə və ya vəziyyətində mənfi dəyişikliklərlə səciyyələnən və bu səbəbdən insanın və cəmiyyətin həyati əhəmiyyətli maraqlarına təhlükə yaradan vəziyyətin mövcud olduğu ərazi hissələri, su hövzəsi və hava fəzası hissələri başa düşülür.

«Ətraf mühitin mühafizəsi haqqında» və «Ekoloji təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının qanunları ilə fövqəladə vəziyyət və ekoloji fəlakət zonalarının elan edilməsi qaydaları, Azərbaycan Respublikasının bütün ərazisinin, o cümlədən Xəzər dənizinin (gölünün) ona mənsub olan bölməsinin ekoloji təhlükənin dərəcəsi üzrə zonalara bölünməsi, qeyd olunan zonaların statusu, onların hüquqi rejimi, icazə verilən və qadağan olunan fəaliyyət növləri, təsərrüfat və digər fəaliyyət sahələrinə ekoloji tələblər, müxtəlif növ məhdudiyyətlər və s. bu kimi məsələlər nəzərdə tutulur.

12. CM-in 248.3-cü maddəsində CM-in 248.1-ci və ya 248.2-ci maddələrində nəzərdə tutulan əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya insanların kütləvi xəstələnməsinə səbəb olması şərh olunan cinayət əməlinin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində nəzərdə tutulur.

İnsanların kütləvi xəstələnməsi dedikdə tullantıların qadağan olunmuş növlərinin istehsalı və ya kimyəvi, bakterioloji (bioloji), radioaktiv maddələrin dövriyyəsi qaydalarının pozulması nəticəsində xeyli sayda insanın eyni vaxtda şüa xəstəliyinə, müxtəlif təhlükəli infeksion xəstəliklərə tutulması, kimyəvi maddələr və tullantılarla zəhərlənərək xəstələnməsi başa düşülür.

13. Qanunverici CM-in 248.1-ci maddəsində nəzərdə tutulan cinayət **formal tərkibli** cinayətlər qismində nəzərdə tutulduğundan, onlar insan sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurma təhlükəsi yaratdıqları andan **başa çatmış** hesab olunur. Şərh olunan ağırlaşdırıcı tərkib əlamətləri mövcud olduqda isə cinayət əməli CM-in 248.2-ci və ya 248.3-cü maddələrində sadalanan ictimai təhlükəli nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab edilir.

14. Təhlil edilən cinayət əməli **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. Bu cinayətin **subyekti** ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozduğunu, bunun nəticəsində insanların həyatı və sağlamlığı və ya ətraf mühit üçün təhlükəli, zərərli nəticələrin baş verməsini qabaqcadan görür, bunları arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir.

Cinayət təhlükəli ekoloji vəziyyət zonasında törədildikdə şəxsin qeyd olunan əraziyə qanunla müəyyən edilmiş qaydada təhlükəli ekoloji vəziyyət zonası statusu verilmiş olduğunu qabaqcadan bilib-bilməməsi müəyyən olunmalıdır.

15. Şərh olunan cinayətin **subyekti** bu cinayəti törədənədək **16** yaşı tamam olmuş, üzərinə müvafiq normativ hüquqi və ya hüquq tətbiqedici aktlarla ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi, bu fəaliyyətin təhlükəsizliyinin təmin edilməsi üzrə vəzifələr qoyulmuş istənilən anlaqlı, fiziki şəxs ola bilər.

Maddə 249. Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma

249.1. Baytarlıq qaydalarının pozulması, ehtiyatsızlıqdan epizootiyanın yayılmasına və ya digər ağır nəticələrə səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

249.2. Bitki xəstəliklərinə və ya ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarının pozulması ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).

1. Azərbaycan Respublikasının 1960-cı il CM-də də baytarlıq qaydalarını pozma (maddə 224-1) və bitki karantini qaydalarının pozulması (maddə 224-2) adlı cinayət tərkibləri nəzərdə tutulduğundan, qüvvədə olan CM-in 249-cu maddəsini respublikamızın cinayət qanunvericiliyində yeni hesab etmək olmaz. Bu maddə əvvəlki CM-də nəzərdə tutulan adlarını yuxarıda qeyd etdiyimiz iki cinayət tərkibini özündə birləşdirir.

2. Qanunvericinin şərh olunan maddəni CM-də nəzərdə tutmasında **əsas məqsəd** predmetinə və məzmununa görə müxtəlif olan, baytarlıq işini, habelə bitki xəstəlikləri və ziyanvericilərinə qarşı aparılan mübarizəni nizama salan qaydalara riayət edilməsini və beləliklə, respublika əhalisinin və ərazisinin sanitariya-epidemioloji, baytarlıq və fitosanitariya təhlükəsizliyini təmin etməkdən ibarətdir.

3. CM-in 249-cu maddəsində əks olunan cinayət hüquq norması əhalinin həyat və sağlamlığının, kənd təsərrüfatı istehsalının, birinci növbədə heyvandarlığın, bitkiçiliyin, bağçılığın, ərzaq məhsulları istehsalının, habelə ətraf mühitin həm xarici dövlətlərdən gətirilən, həm də ölkənin daxilində formalaşmış mənbələrdən yayılan müxtəlif infeksion xəstəliklərdən mühafizəsi üzrə fəaliyyət sahəsində tətbiq edilmək üçün nəzərdə tutulur.

4. Şərh olunan cinayətin **obyekti** insanların, heyvanların və bitkilərin onlar üçün ümumi olan bir sıra xəstəliklərdən mühafizə edilməsi sahəsində ekoloji təhlükəsizliyi təmin edən ictimai münasibətlərdir.

5. CM-in 249.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** ehtiyatsızlıqdan epizootiyanın yayılmasına və ya digər ağır nəticələrə səbəb olan baytarlıq qaydalarının pozulmasında ifadə olunur.

Baytarlıq qaydaları Azərbaycan Respublikasının bir sıra normativ hüquqi aktları, habelə heyvanların, heyvandarlıq məhsullarının ölkəyə gətirilməsi və buradan çıxarılması, onların tranzit daşımaları qaydalarını müəyyən edən beynəlxalq sazişlərlə müəyyən olunur. Bunların arasında Azərbaycan Respublikasının «Baytarlıq haqqında» 31 may 2005-ci il tarixli Qanunu xüsusi yer tutur.

Baytarlıq (baytarlıq-sanitariya) qaydaları dedikdə dövlət baytarlıq xidmətini həyata keçirən orqan tərəfindən hazırlanan, baytarlıq normativləri əsasında baytarlıq tədbirlərinin aparılması qaydasını müəyyən edən və baytarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən yerinə yetirilməsi məcburi olan tədbirləri təsbit edən normativ sənədlər başa düşülür.

«Baytarlıq haqqında» Qanunun 8.2-ci maddəsi dövlət baytarlıq xidmətini həyata keçirən orqanlarının vəzifələrinə baytarlıq sahəsində fəaliyyətin prioritet istiqamətlərini müəyyən etməni, heyvanların xüsusi təhlükəli xəstəliklərinin profilaktikasına dair dövlət proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etməni; profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşdirilən xüsusi təhlükəli heyvan xəstəliklərinin, karantin və digər məhdudiyyət tədbirləri tətbiq olunan yoluxucu xəstəliklərin siyahısını hazırlamanə; Azərbaycan Respublikasının ərazisində heyvanların yoluxan və yoluxmayan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğv edilməsi üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada müvfiq baytarlıq tədbirləri həyata keçirməklə mal-qaranı və başqa heyvanları xəstəliklərdən qorumanı; səhiyyə orqanları ilə birlikdə heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən əhalinin qorunmasını təşkil etmək və informasiya mübadiləsi aparmaq, metodik seminarlar keçirməni; heyvandarlıqda isthesalın və məhsuldarlığın artırılması məqsədilə baytarlıq xidmətinin həyata keçirilməsini təmin etməni; Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən yoluxucu və ekzotik xəstəliklərin törədicilərinin keçməsinin və yayılmasının qarşısını almaq məqsədilə müvafiq tədbirlər həyata keçirmək və idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baytarlıq (baytarlıq-sanitariya) vəziyyətini qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq və müvafiq baytarlıq sənədi verməni; qanunvericiliklə müəyyən edilmiş qaydada epizootiya monitorinqi aparmanı, heyvanların yoluxan və yoluxmayan xəstəliklərlə xəstələnmə və ölümünün səbəbini müəyyən etmək, xəstəliklərin aradan qaldırılması və profilaktikasına dair epizootiya əleyhinə tədbirlər planı hazırlayıb təsdiq olunmaq üçün müvafiq icra hakimiyyəti orqanına təqdim etməni; heyvan, heyvan mənşəli məhsullar və xammal sahibləri tərəfindən baytarlıq qanunvericiliyinə əməl edilməsinə qanunla müəyyən edilmiş qaydada nəzarət etməni; baytarlıq preparatlarının, yem və yem əlavələrinin təhlükəsizliyini, saxlanması, daşınması və istifadə edilməsini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təşkil etməni; dövlət baytarlıq nəzarətində olan yüklərin idxalına və ixracına, onların ölkə daxilində daşınmasına və tranzitinə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada baytarlıq nəzarətini həyata keçirməni və s. aid edir.

6. Baytarlıq qaydaları həm **hərəkətlə**, həm də **hərəkətsizliklə** pozula bilər. Birinci halda cinayətin **subyekti** ev heyvanlarının saxlanması, daşınması, istifadə edilməsi və s. ilə, yaxud Azərbaycan Respublikası ərazisinə xarici ölkələrdən xəstə heyvanların və ya yoluxucu xəstəlik yayılmış ərazilərdən heyvanların gətirilməsi və alınması və s. ilə, eləcə də heyvanların xəstəliklərinin yaranmasının və yayılmasının səbəbi olmuş heyvan yemlərinin istehsalı və istifadəsi ilə əlaqədar olan qanunla qadağan edilmiş əməliyyatları törədir.

Bu cinayətin hərəkətsizliklə törədilməsi zamanı subyekt profilaktiki peyvəndləri aparmır, karantin müddətlərinə riayət etmir, baytarlıq nəzarəti orqanlarına heyvanların yoluxucu xəstəliklərə tutulması halları haqqında məlumat vermir, xəstə heyvanların saxlanılmış olduğu binalarda və ya onların daşındığı nəqliyyat vasitələrində dezinfeksiya işlərini aparmır, heyvanlar üçün təhlükəli olan yoluxucu xəstəlik mənbələrinin ləğv edilməsi üzrə müvafiq təşkilati-təsərrüfat tədbirlərini yerinə yetirmir və s.

Mal-qaranın kəsilməsi də baytarlıq qaydalarının pozulması ilə, məsələn, mal-qaranın ilkin müayinəsindən boyun qaçırmaqla, heyvanların kəsilməsi zamanı sanitariya normalarına riayət edilməməsi ilə və s. müşayiət oluna bilər. Baytarlıq-sanitariya qaydalarına gön-dəri, xəz və digər heyvan mənşəli xammalın emalı və istifadəsi zamanı da riayət olunmaya bilər. Burada nəzərə almaq lazımdır ki, ət, süd və digər heyvandarlıq, quşçuluq məhsullarının (məsələn, yun, yumurta və s.) baytarlıq qaydalarını pozmaqla satılması həyat və sağlamlıq əleyhinə ehtiyatsızlıqla törədilən cinayət, yaxud istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və ya satma (CM-in 200-cü maddəsi) kimi tövsif edilməlidir.

7. CM-in 249.1-ci maddəsində baytarlıq qaydalarının pozulmasının ictimai təhlükəli nəticələri qismində epizootiyanın yayılması və ya digər ağır nəticələrin baş verməsi nəzərdə tutulur.

Epizootiya dedikdə xeyli ərazidə bir və ya bir neçə növdən olan çoxlu sayda heyvanlar (həm ev, həm də vəhşi heyvanlar) arasında eyni vaxtda xəstəliklərin yayılması başa düşülür.

Digər ağır nəticələr dedikdə epizootiya əlamətləri olmadan ev heyvanlarının kütləvi məhvi, müəyyən regionda vəhşi heyvanlar arasında xəstəliklərin yayılması və onların tələf olması, ən azı bir şəxsin insanlar və heyvanlar üçün ümumi olan xəstəliyə yoluxması, insanlar və heyvanlar üçün təhlükəli olan yoluxucu xəstəliklərin mənbələrinin ləğv edilməsinə külli miqdarda pul vəsaitlərinin xərclənməsi, əlavə karantin məhdudiyyətlərinin tətbiqi və heyvanların, heyvandarlıq məhsullarının, yemlərin gətirilməsinin (aparılmasının) məhdudlaşması ilə əlaqədar xeyli mənfəət itkisinin baş verməsi və s. başa düşülür.

8. Şərh olunan cinayət yuxarıda nəzərdən keçirilən və CM-in 249.1-ci maddəsində qeyd olunan ictimai təhlükəli nəticələrdən hər hansı birinin baş verdiyi andan **başa çatmış** hesab edilir.

9. Baytarlıq qaydalarının pozulması **subyektiv cəhətdən** təqsirin həm **dolayı qəsd,** həm də **ehtiyatsızlıq** formasında törədilə bilər. Təqsirkar bu cinayəti dolayı qəsdlə törətdikdə, baytarlıq qaydalarını pozduğunu dərk edir, bunun ictimai təhlükəli nəticələrə səbəb ola biləcəyini qabaqcadan görür, belə nəticələrin baş verməsini arzu etmir, lakin buna şüurlu surətdə yol verir. Buna baxmayaraq, baytarlıq qaydalarını pozmağa görə cinayət məsuliyyəti CM-in 249.1-ci maddəsində qeyd olunan kriminal nəticələr yalnız ehtiyatsızlıqla törədildikdə yaranır. Bu barədə maddənin dispozisiyasında birbaşa göstəriş vardır.

10. Nəzərdən keçirilən cinayətin **subyekti** onu törədənədək **16** yaşı tamam olmuş anlaqlı, fiziki şəxs ola bilər. Bu cinayətin subyekti fərdi heyvandarlıqla məşğul olan həm sıravi vətəndaşlar (məsələn, mal-qara sahibləri, karantin qaydalarını pozan nəqliyyat vasitələrinin sürücüləri), həm də dövlət və qeyri-dövlət idarə və müəssisələrinin (heyvandarlıq fermalarının, quşçuluq fabriklərinin, ət-süd kombinatlarının, baytarlıq nəzarəti orqanlarının və s.) vəzifəli şəxsləri və digər işçiləri ola bilər.

11. İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan «Baytarlıq haqqında qanunvericiliyin pozulması» (İXM-in 289-cu maddəsi) adlı inzibati xəta şərh olunan cinayət əməlindən nəticələrinə görə fərqlənir. Belə ki, inzibati məsuliyyətə cəlb edilməsi üçün baytarlıq baxışından keçirilməyən, baytarlıq (baytarlıq-sanitariya) tələblərinə cavab verməyən və ticarət üçün xüsusi ayrılmış yerlərdən kənarda heyvanların kəsilməsinə, heyvan mənşəli məhsulların qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq (baytarlıq-sanitariya) ekspertizası aparılmadan satışına və istehsalına, heyvanların kütləvi xəstələnməsi və ya onların qeyri-adi vəziyyətləri, heyvan tələfatı halları haqqında müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməməyə, habelə belə heyvanları təcrid etməməyə, yoluxucu xəstəliklərin qarşısının alınması üzrə karantin tədbirlərinin və baytarlıq (baytarlıq-sanitariya) qaydalarının, yaxud dövlət baytarlıq nəzarətini həyata keçirən orqanların epizootiya əleyhinə dair qərarlarının pozulması və digər qərarları icra etməmə kifayət sayılır, yəni burada CM-in 249.1-ci maddəsində nəzərdə tutulan nəticələrin baş verməsi tələb olunmur.

12. CM-in 249.2-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** bitki xəstəliklərinə və ya ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarının ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olan dərəcədə pozulmasında ifadə olunur.

Bitki xəstəliklərinə və ya ziyanvericilərinə qarşı mübarizə aparılması üçün qaydalar çoxlu sayda xüsusi normativ hüquqi aktlarla müəyyən edilir. Belə aktlara Azərbaycan Respublikasının «Fitosanitar nəzarəti haqqında» 12 may 2006-cı il tarixli Qanun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar Qaydalarının təsdiq edilməsi haqqında» 9 fevral 1999-cu il tarixli 16 saylı Qərarı aid oluna bilər. Azərbaycan Respublikası Bitki karantini sahəsində əməkdaşlıq haqqında MDB iştirakçısı olan dövlətlərin Sazişinə 17 fevral 1998-ci il tarixli Qanunla qoşulmuşdur.

Şərh olunan əməlin hüquqazidd olması ətraf mühitin, heyvanlar aləminin mühafizəsi haqqında qanunvericilik aktları, habelə Azərbaycan Respublikasının Su və Meşə Məcəllələri və s. normativ hüquqi aktlarla müəyyən edilir.

Bitki karantininin əsas vəzifələrinə Azərbaycan Respublikasının ərazisini başqa dövlətlərdən karantin obyektlərinin (bitki ziyanvericilərinin, xəstəliklərinin törədicilərinin və alaq otlarının) daxil olmasından qorumaq; karantin obyekti mənbələrini vaxtında aşkar etmək, onların təcrid edilməsi və ləğvi üçün tədbirlər görmək; karantin nəzarətində olan məhsulların istehsalı, tədarükü, daşınması, saxlanılması, emalı, satışı və istifadəsi zamanı karantin normalarına və qaydalarına riayət edilməsi, bitki karantini tədbirlərinin yerinə yetirilməsi üzərində dövlət nəzarətini həyata keçirmək daxildir.

Müasir dövrdə bitki xəstəliklərinə, ziyanvericilərinə, habelə alaq otlarına qarşı mübarizə vasitələri qismində pestisidlərdən və aqrokimyəvi maddələrdən geniş istifadə olunur. Qeyd olunan maddələrdən istifadə qaydalarının pozulması ictimai təhlükəli nəticələrə səbəb ola bilər. Buna görə də «Fitosanitar nəzarəti haqqında» 12 may 2006-cı il tarixli Qanunun 29.5-ci maddəsi Azərbaycan Respublikasının dövlət standartlarının tələblərinə və ya Azərbaycan Respublikasının ərazisində rəsmi tanınan beynəlxalq standartlara uyğun olmayan, habelə dövlət sınağından keçməmiş, qeydiyyata alınmamış və istifadəsi qadağan olunmuş zəhərli kimyəvi maddələrin istehsalına, satışına və tətbiqinə yol verilmir. Bu Qanunun 30.2-ci maddəsinə görə isə mənşəyi və keyfiyyəti barədə sertifikatları olmayan pestisidlərin və bioloji preparatların idxalı, satışı, tətbiqi və reklam edilməsi qadağan edilir.

13. CM-in 249.2-ci maddəsində nəzərdə tutulan cinayət **hərəkətlə** törədildikdə, bu, təqsirkarın müxtəlif qeyri-qanuni, ictimai təhlükəli hərəkətlərində, məsələn, Azərbaycan Respublikasının ərazisinə bitki xəstəliklərinə yoluxmuş toxumluq taxıl, kartof, digər bitkilər gətirməsində; belə toxumları əkməsində; bitki ziyanvericilərinə qarşı mübarizə vasitəsi kimi istifadəsi yararsız və qadağan olunmuş pestisidləri və aqrokimyəvi maddələri və digər vasitələri tətbiq etməsində; bitki ziyanvericilərinin meydana gəlməsi haqqında məlumatları gizlətməsində və s. ifadə olunur.

Şərh olunan cinayətin **hərəkətsizliklə** törədilməsi zamanı təqsirkar bitki xəstəliklərinə və ya ziyanvericilərinə qarşı yuxarıda adları çəkilən normativ hüquqi aktlarda təsbit edilmiş mübarizə qaydalarını yerinə yetirməli olduğu halda, bunu etmir. Konkret olaraq bu, cinayətin subyektinin məcburi xarakterli aqrotexniki tədbirləri icra etməməsində, meşə fondunun zərərvericilərinə və xəstəliklərinə qarşı müvafiq mübarizə tədbirlərini görməməsində, bitki xəstəliklərinin törədiciləri ilə yoluxmuş ərazi sahələrini məhdudlaşdırmamasında, bitki xəstəliklərinə yoluxmuş toxumları məhv etməməsində və s. ifadə olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 1999-cu il tarixli 16 saylı Qərarı ilə təsdiq edilmiş «Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə fitosanitar Qaydaları» meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsini tənzimləyir. Bu Qaydaların 2-ci bəndinə görə meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi, meşə fondunun vəziyyəti üzərində müntəzəm müşahidə aparmaq, zərərvericilərin və xəstəliklərin mənbələrini aşkara çıxarmaq, həmin yerlərdə profilaktik və fitosanitar tədbirləri aparmaq, bu halların yayılmasının qarşısını almaq və onları aradan

qaldırmaq yolu ilə təmin edilir. Qaydaların 3-cü bəndinə görə meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi üzrə profilaktik və fitosanitar tədbirləri öz səlahiyyətləri daxilində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər.

Bitki karantini qaydalarının pozulması şərh olunan cinayətin hərəkətsizliklə törədilməsinin daha tez-tez rast gəlinən hallarına misal göstərilə bilər. Azərbaycan Respublikasının «Fitosanitar nəzarəti haqqında» 12 may 2006-cı il tarixli Qanununun 1.0.2-ci maddəsinə görə **bitki karantini** bitki və bitkiçilik məhsullarında karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınmasına yönəldilmiş tədbirləri nəzərdə tutan hüquqi rejimdir.

İlkin karantin yoxlanışı Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən gətirilən toxumların, bitkilərin, əkin materialının və digər obyektlərin laboratoriya ekspertizasını və onlara nəzarət edilməsini, onların, habelə xarici dövlətlərdən daxil olan sair obyektlərin və nəqliyyat vasitələrinin zərərsizləşdirilməsini, qeyd olunan obyektlərin sənədlərinin öyrənilməsini əhatə edir.

14. CM-in 249.2-ci maddəsində nəzərdə tutulan mənada **ağır nəticələr** dedikdə epifitotiyanın, yəni ayrı-ayrı regionları, bir ölkənin və ya bir neçə ölkənin ərazisini bürüyən bitkilərin infeksion xəstəliklərinin yayılması, insan sağlamlığına zərər vurulması, ev heyvanlarının xəstələnməsi və tələf olması, vəhşi heyvanların xəstələnməsi və məhv olması, meşə sahələrinin məhv edilməsi və ya korlanması, bitkiçilik, bağçılıq üçün istifadə edilən kənd təsərrüfatı torpaqlarının dövriyyədən çıxarılması, habelə məhsulun, çoxillik mədəni əkililərin məhv edilməsi, bitkilərin xəstəliklərə yoluxmasının və ya bitki ziyanvericilərinin yayılmasının nəticələrinin ləğv edilməsi ilə əlaqədar yaranan əmlak ziyanı və s. başa düşülür.

Bitki ziyanvericiləri dedikdə həm kənd təsərrüfatı, həm də ağac-kol meşə örtüyü bitkilərinin müxtəlif hissələri və toxumaları ilə qidalanan heyvanlar (əsasən gəmiricilər), həşəratlar və gənələr, canlı göbələklər, bakteriyalar, viruslar, nematodlar və bitkiləri məhv edən və ya korlayan, yaxud onların böyüməsinə (inkişafına) neqativ təsir göstərən digər alaq otları başa düşülür. Bunların vurduqları ziyan bitkilərin yarpaqlarının, çiçəklərinin, pöhrələrinin, köklərinin və s. tam və ya qismən korlanmasında və ya yeyilməsində ifadə olunur.

15. Şərh olunan cinayət yuxarıda qeyd olunan ağır nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab olunur. Bu nəticələrin ağırlığı məhkəmə tərəfindən işin bütün hallarının, faktiki zərərin və əldən çıxmış mənfəətin nəzərə alınması ilə müəyyən edilir.

16. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** təqsirin **ehtiyatsızlıq** forması ilə törədilir. Bu barədə CM-in 249.2-ci maddəsində düzünə göstəriş vardır.

17. Təhlil olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, xüsusi normativ və ya hüquq tətbiqedici aktların qüvvəsinə görə bitki xəstəliklərinə və ya ziyanvericilərinə qarşı mübarizə qaydalarının yerinə yetirilməsi və ya buna nəzarət olunması vəzifəsini daşıyan anlaqlı fiziki şəxslər (mə-

sələn, bitkilərin mühafizəsi üzrə stansiyaların, nəzarət orqanlarının işçiləri, kənd təsərrüfatı müəssisələrinin, bitkilərin, toxumların, bitkiçilik məhsullarının alınması və daşınması ilə məşğul olan xarici ticarət təşkilatlarının vəzifəli şəxsləri və s.), habelə kənd təsərrüfatı məhsullarının istehsalı, bağçılıq və bitkilərin becərilməsi, satışı ilə bağlı olan digər fəaliyyətlə məşğul olan sıravi vətəndaşlar ola bilər.

18. Şərh olunan cinayət tərkibi İXM-də nəzərdə tutulan inzibati xətalardan nəticələrinə görə fərqlənir. İnzibati məsuliyyət tədbirlərinin tətbiq edilməsi üçün zərərli nəticələrin baş verməsi tələb olunmur. Bunun üçün bitki xəstəliklərinə və ya ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarının pozulması faktının mövcud olması kifayətdir.

Maddə 250. Suyu (su mənbələrini) çirkləndirmə

250.1. Yerüstü və ya yeraltı suların, istifadə olunan su mənbələrinin çirkləndirilməsi, tükənməsi və ya onların təbii xassələrinin başqa cür dəyişdirilməsi, heyvanlar və ya bitki aləminə, balıq və digər su bioresurslarına, meşə və ya kənd təsərrüfatına əhəmiyyətli zərərin vurulmasına səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya beş iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki iladək müddətə islah işləri və ya bir iladək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

250.2. Eyni əməllər insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə səbəb olduqda, habelə qoruqların ərazisində və ya təhlükəli, yaxud fövqəladə ekoloji vəziyyət zonasında törədildikdə —

altı min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki iladək müddətə islah işləri və ya iki iladək müddətə azadlığın məhdudlaşdırılması və ya iki iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

250.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ildən beş iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 mart 2015-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 7 mart 2015-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan maddə Azərbaycan Respublikasının cinayət qanunvericiliyi üçün yeni deyildir. Bu onunla izah edilir ki, Azərbaycan Respublikasının 1960-cı il CM-də «Sututarları və havanı çirkləndirmə» adlı 160-cı maddə nəzərdə tutulurdu. Lakin yeni CM-in 250-ci maddəsi özünün bir sıra xüsusiyyətlərinə görə, artıq qüvvədən düşmüş CM-in 160-cı maddəsindən fərqlənir. Bu xüsusiyyətlər aşağıdakılardır:

1) qanunverici suların və istifadə olunan su mənbələrinin təbii xassələrinin qanunsuz dəyişdirilməsinin çirkləndirməyə aid edilməyən digər növlərinin ət-

raflı siyahısını müəyyən etmişdir; 2) sulara ziyan vuran tullantıların və maddələrin siyahısından imtina edilmişdir; 3) suları çirkləndirən subyektlərin dairəsinin sənaye, kənd təsərrüfatı, kommunal və digər müəssisə, idarə və təşkilatlarla məhdudlaşdırılmasından imtina olunmuşdur; 4) barəsində cinayət törədilən obyektlərin siyahısı müəyyən edilmişdir; 5) ictimai təhlükəli nəticələrin və ağırlaşdırıcı əlamətlərin sair xüsusiyyətləri verilmişdir.

2. Bu normanı CM-də nəzərdə tutmaqda qanunvericinin məqsədi sudan istifadə qaydalarına riayət olunmasına, suların keyfiyyətinin qorunub saxlanmasına, habelə heyvanlara, meşələrdən kənarda mövcud olan bitki aləminə, balıq ehtiyatlarına, meşə və kənd təsərrüfatına, insanların həyatına və sağlamlığına vurula biləcək ziyanın qarşısının alınmasını cinayət-hüquqi vasitələrlə təmin etməkdir.

Məlumdur ki, su insanın, bütün canlı varlıqların həyat fəaliyyətinin ən zəruri şərtidir. Buna görə də suyun (su mənbələrinin) çirkləndirilməsi və ya onların vəziyyətinin başqa cür pisləşməsi ətraf mühitin digər elementlərinə, yəni heyvanlar və bitki aləminə, meşələrə, torpağa, yerin təkinə ölçüyəgəlməz zərərli təsir vurulmasına, meydana çıxan ictimai təhlükəli nəticələrin aradan qaldırılmasına külli miqdarda maddi vəsait xərclənməsinə, bir sıra hallarda belə nəticələrin bərpasının çox çətin və ya ümumiyyətlə, qeyri-mümkün olmasına səbəb olur.

3. CM-in 250-ci maddəsi mürəkkəb quruluşa malikdir. Belə ki, burada həm sadə, həm də kriminal nəticələrin xarakterindən və cinayətin törədilmə yerindən asılı olaraq fərqləndirilən ağırlaşdırıcı tərkib əlamətləri olan tərkiblər nəzərdə tutulur.

4. Sudan istifadəçilərin fəaliyyəti, tikintidə, sənayedə, kənd təsərrüfatında, boru və digər nəqliyyatda suların (su mənbələrinin) mühafizəsi və suların, habelə ətraf mühitin digər elementlərinin vəziyyətinə və keyfiyyətinə antropogen təsirin tənzimlənməsi üzrə ictimai münasibətlər CM-in 250-ci maddəsində əks olunmuş cinayət-hüquqi normanın qüvvəsinin şamil olunma sahəsidir.

5. Şərh olunan cinayətin **obyekti** sudan istifadə və su obyektlərinin mühafizəsi sahəsində yaranan ictimai münasibətlərdir. Bu cinayətin **predmeti** yerüstü və yeraltı sular, habelə istifadə olunan, yəni içməli su mənbələridir.

Sulardan istifadənin əsasları, su obyektlərinin mühafizə qaydaları bir sıra qanunvericilik və digər normativ hüquqi aktlarda, yəni Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Su Məcəlləsində, Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli Qanununda, suların çirklənmədən mühafizəsi qaydalarında, çirkli maddələrin atılması və tullantıların yerləşdirilməsinin, normativlərin və ödənişlərin alınmasını müəyyən edən qaydalarda, sanitariya-gigiyena və digər normativlərdə müəyyən edilir.

Azərbaycan Respublikasının Su Məcəlləsinin 6-cı maddəsinə görə **yerüstü sular** dedikdə yerin səthində yerləşən, yerüstü su hissəsindən, yatağından, dibindən və sahilindən ibarət olan, çoxtəyinatlı əhəmiyyətə malik, eyni vaxtda bir və ya bir neçə məqsəd üçün istifadə edilə bilən yerüstü su axınları, yerüstü sututarları, buzlaqlar və qar örtükləri başa düşülür.

Yeraltı sular dedikdə mineral sular da daxil olmaqla, yeraltı su obyektlərində toplanmış sular başa düşülür. Su Məcəlləsinin 7-ci maddəsinə görə yeraltı su obyektləri yerin təkində yerləşən geoloji strukturlarda toplanmış sulardır. Yeraltı su obyektlərinə **sulu horizont** — yerin təkində geoloji struktur daxilində yerləşən, məsamələrində, çatlarında və boşluqlarında hidravlik əlaqəli sular toplanmış suxurlar təbəqəsi (lay), **yeraltı su hövzəsi** — yerin təkində müəyyən geoloji struktur daxilində yerləşən sulu horizontların, sulu qatların məcmusu, **yeraltı su yatağı** — sulu horizontun yeraltı suların çıxarılması üçün əlverişli şəraiti olan hissəsi aid edilir.

Fikrimizcə, qanunverici CM-in 250.1-ci maddəsində istifadə olunan **su mənbələri** dedikdə içməli su təchizatı mənbələrini nəzərdə tutur. Belə mənbələrə müəyyən olunmuş sanitariya tələblərinə cavab verən, içməli su təchizatı sistemlərinə bu və ya digər texnologiya ilə emal edilməklə içməli suyun götürülməsi üçün istifadə olunan, yaxud bu məqsədlə istifadə oluna bilən suyu olan su obyekti və ya onun hissəsi aiddir.

6. Təhlil olunan cinayətin **obyektiv cəhəti** yerüstü və ya yeraltı suların, istifadə olunan su mənbələrinin (içməli su təchizatı mənbələrinin) çirkləndirilməsindən, tükənməsindən və ya onların xassələrinin başqa cür qiymətləndirilməsindən; CM-in 250.1-ci maddəsində nəzərdə tutulan ictimai təhlükəli nəticələrdən; bu nəticələrlə qeyd olunan qanunazidd əməllər arasında səbəbli əlaqədən ibarətdir.

7. Su Məcəlləsinin 1-ci maddəsinə görə **su obyektlərinin çirkləndirilməsi** dedikdə suların keyfiyyətini pisləşdirən, su obyektlərinin səthinə, dibinə və ətrafına mənfi təsir edən zərərli maddələrin tökülməsi və ya axıdılması başa düşülür.

8. **Suların zibillənməsi** dedikdə su obyektlərindən istifadəni çətinləşdirən əşyaların, bərk maddə hissəciklərinin müxtəlif çeşidli texnogen mənşəli və məişət tullantılarının su obyektlərinə tökülməsi başa düşülür.

Qanunverici CM-in 250.1-ci maddəsinin dispozisiyasında suların zibillənməsini şərh olunan cinayətin obyektiv cəhətinin ünsürü kimi nəzərdə tutmamışdır. Fikrimizcə, obyektiv cəhətin qeyd olunan elementinin CM-in 250.1-ci maddəsində bilavasitə nəzərdə tutulması daha məqsədəuyğun olardı.

9. Azərbaycan Respublikasının Su Məcəlləsinin 81-ci, 82-ci, 94-cü və s. maddələrində suların tükənmədən mühafizəsi haqqında danışılsa da, bütövlükdə Su Məcəlləsində suların tükənməsinin anlayışı verilməmişdir. Fikrimizcə, **suların tükənməsi** dedikdə yerüstü və yeraltı suların keyfiyyətinin pisləşməsi və belə su ehtiyatlarının davamlı olaraq azalması başa düşülməlidir. Suların tükənməsi sənaye, kənd təsərrüfatı, kommunal və digər ehtiyaclar üçün sudan istifadə limitlərinə riayət edilməsi, su ehtiyatlarının qorunub saxlanılması üçün hidrotexniki tədbirlərə əməl olunmaması və s. bu kimi əməllər nəticəsində baş verir.

10. **Suların təbii xassələrinin başqa cür dəyişdirilməsi** dedikdə bilavasitə su obyektlərində və ya onların yaxınlığında partlayış, tikinti və digər işlərin aparılması nəticəsində suların bioloji müxtəlifliyinin, onların fiziki, eləcə də elektromaqnit, müalicəvi, radiasiya və s. xassələrinin neqativ dəyişikliklərinin

baş verməsi başa düşülür.

11. Şərh olunan cinayət yalnız hərəkətlə deyil, hərəkətsizliklə də törədilə bilər. Bu, sutoplayıcı və digər qurğuların tikintisi zamanı sutəmizləyici və suqeydəalıcı cihazların qurulmamasında, çirkab sularının su obyektlərinə axıdılmazdan öncə zəhərli (toksiki) maddələrdən təmizlənməsi üzrə zəruri tədbirlərin görülməməsində, su təsərrüfatı qurğuları və avadanlığı zədələndikdə, sıradan çıxdıqda, onların təmir edilməməsində və s. ifadə olunur.

12. CM-in 250.1-ci maddəsində qanunverici şərh olunan cinayətin **ictimai təhlükəli nəticələri** qismində heyvanlar və ya bitki aləminə, balıqlara və digər su bioresurslarına, meşə və ya kənd təsərrüfatına əhəmiyyətli zərərin vurulmasını nəzərdə tutur. **Əhəmiyyətli zərər** dedikdə suda yaşayan heyvanların və bitkilərin, su obyektlərinin sahillərində yaşayan digər heyvanların və bitkilərin xəstələnməsi və ya tələf olması, balıqların və digər su bioresurslarının, balıqların kürütökmə və kökəldilmə yerlərinin, kürütökmə yerlərinə keçid yollarının məhv edilməsi, meşə massivlərinin xəstələnməsi və ya məhv olması, torpaqların məhsuldarlığının azalması və ya onların deqradasiyası, bataqlıqlaşması və ya şoranlaşması, meliorasiya, gübrələmə, sahillərin təmizlənməsi üzrə xeyli miqdarda əlavə xərclər çəkilməsi və s. başa düşülür.

13. Təhlil olunan cinayət nəticəsində vurulan zərər müvafiq nırxlar (məzənnələr) və normativlər üzrə hesablanır.

14. Meşə və kənd təsərrüfatı üçün baş vermiş nəticələrin ağırlığının qiymətləndirilməsi məhkəmə tərəfindən müvafiq normativ aktların, nırxların (məzənnələrin) əsasında və işin konkret hallarının, birinci növbədə kənd təsərrüfatı bitkilərinin çirklənmiş sularla suvarılması nəticəsində məhv olmasında ifadə olunan real ziyanın, əldən çıxan mənfəətin, habelə bərpaedici işlərin və nəticələrin aradan qaldırılmasının həcmi və bunlara çəkilən xərclər nəzərə alınmaqla həyata keçirilir.

15. CM-in 250.1-ci maddəsinin mənasına görə nəzərdən keçirdiyimiz əməllə qeyd olunan ictimai təhlükəli nəticələr arasında **səbəbli əlaqə** təhlil etdiyimiz kriminal əməllərin törədilməsinin suların təbii xassələrinin zərərli dəyişikliklərinə, bunun isə öz növbəsində heyvanlar və ya bitki aləminə, balıq ehtiyatlarına, meşə və ya kənd təsərrüfatına əhəmiyyətli zərərin vurulmasına səbəb olmasından ibarətdir.

Təhlil olunan cinayətin törədilməsi (məsələn, yerüstü suların çirkləndirilməsi və ya tükənməsi) ilə yanaşı olaraq, heyvanların populyasiyalarının və ya balıq ehtiyatlarının məhv olması başqa səbəblərin doğurduğu epizootiya nəticəsində baş vermişdirsə, səbəbli əlaqədən söhbət gedə bilməz.

16. CM-in 250.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** qismində insan sağlamlığına zərər vurulması və ya heyvanların kütləvi məhvi, 250.3-cü maddəsində isə eyni əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması nəzərdə tutulmuşdur. Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətlərinin təhlili CM-in 247-ci, 248-ci, 249-cu maddələrinin şərhində ətraflı verilmişdir.

17. CM-in 250.2-ci maddəsində şərh olunan cinayətin ağırlaşdırıcı əlaməti qismində həm də qeyd olunan kriminal əməllərin qoruqların ərazisində və ya

təhlükəli, yaxud fövqəladə ekoloji vəziyyət zonasında törədilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» 10 aprel 1998-ci il tarixli Qanununun 1-ci maddəsinə görə qoruqlar dedikdə torpaq və mədəniyyət üçün böyük əhəmiyyəti olan, dövlət tərəfindən mühafizə edilən ərazilər və ya məskənlər başa düşülür. Lakin bu anlayış yalnız tarix və mədəniyyət abidələrini əhatə etdiyinə görə və burada təbiət obyektlərinin mühafizəsi nəzərdə tutulmadığı üçün bir qədər natamamdır. Azərbaycan Respublikasının hazırda qüvvədə olan ekoloji qanunvericiliyinə aid edilən normativ hüquqi aktlarda qoruqların anlayışı nəzərdə tutulmur. Yalnız Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli Qanununun 61-ci maddəsində qeyd olunur ki, **dövlət təbiət qoruq fondu** — ekoloji, elmi-tədqiqat, nadir genetik mənşə, tədris və tarixi dəyərlərə malik olan ətraf mühit obyektlərinin məcmusudur.

Dövlət təbiət qoruqları dedikdə təbiətdə baş verən proseslərin və hadisələrin təbii gedişini, bitki və heyvanlar aləminin genetik fondunu, bitki və heyvanların ayrı-ayrı növlərinin və qruplarının, tipik və unikal ekoloji sistemlərin qorunub saxlanması və öyrənilməsi ilə məşğul olan təbiəti mühafizə, elmi-tədqiqat, ekoloji-maarifçi idarələr başa düşülür.

«Ekoloji təhlükəsizlik haqqında» 8 iyun 1999-cu il tarixli Qanununun 10-cu maddəsinə görə Azərbaycan Respublikasının bütün ərazisi, o cümlədən Xəzər dənizinin (gölünün) ona mənsub olan bölməsi ekoloji təhlükəlilik dərəcəsi üzrə zonalara bölünür.

Təhlükəli ekoloji vəziyyət zonasının anlayışı CM-in 248.2-ci maddəsinin şərhində verilmişdir.

Fövqəladə ekoloji vəziyyət zonasının anlayışı respublikamızın hazırda qüvvədə olan ekoloji qanunvericiliyində bilavasitə nəzərdə tutulmur. Lakin müvafiq normativ hüquqi aktların müddəalarının ümumiləşdirilməsi əsasında bu anlayışı vermək olar. Belə ki, Azərbaycan Respublikasının «Ekoloji təhlükəsizlik haqqında» Qanununun 1-ci, «Ətraf mühitin mühafizəsi haqqında» Qanununun 66-cı maddəsinin mənasına görə **fövqəladə ekoloji vəziyyət zonası** dedikdə insanların həyat və sağlamlığının, habelə ətraf mühitin qorunması məqsədi ilə zəruri təcili tədbirlərin həyata keçirilməsini tələb edən təhlükəli ekoloji vəziyyətin yarandığı ərazi hissələri, su hövzəsi və hava fəzası hissələri başa düşülür.

Azərbaycan Respublikasının ekoloji qanunvericiliyi qeyd olunan zonaların statusunu və hüquqi rejimini, onların elan edilməsi qaydalarını, bu zonaların hüdudları daxilində icazə verilən və qadağan edilən fəaliyyət növlərini və digər bu kimi məsələləri ətraflı surətdə nizama salır.

Təbii ehtiyatlar üzrə qanunvericilik aktları da xüsusi zonaların statusunu ümumi şəkildə müəyyən edir. Belə ki, Azərbaycan Respublikasının Su Məcəlləsinin (Azərbaycan Respublikasının 29 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir) 91-ci maddəsinə görə təsərrüfat fəaliyyəti və ya təbii proseslər nəticəsində insanlara, heyvanlar və bitkilər aləminə, ətraf mühitə təhlükə yarada bilən su obyektlərini (onların bir hissəsini) və onların sutoplayıcı sahələrini müvafiq icra hakimiyyəti orqanı (burada müvafiq icra hakimiyyəti orqanı-

nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir) fövqəladə ekoloji vəziyyət və ekoloji fəlakət zonaları elan edə bilər.

18. Şərh olunan cinayət əməli yuxarıda qeyd olunan nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab olunur.

19. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. Təqsirkar CM-in 250.1-ci maddəsində sadalanan kriminal əməlləri törətdiyini dərk edir, onların ictimai təhlükəli nəticələrə səbəb olacağını qabaqcadan görür, bunları arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir, yaxud da etinasızcasına yanaşır. Qanunverici insan ölümündən ibarət nəticəyə münasibətdə təqsirkarın təqsirin ehtiyatsızlıq formasında hərəkət etdiyini birbaşa nəzərdə tutmuşdur.

20. Təhlil olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

21. CM-in 250-ci maddəsində nəzərdə tutulan cinayət tərkiblərinin İXM-in 264-cü maddəsində nəzərdə tutulan «su obyektlərinin mühafizəsi qaydalarının pozulması» adlı inzibati xətadan fərqləndirilməsi onların obyektiv cəhətinə, birinci növbədə baş vermiş nəticələrə görə aparılır. Belə ki, CM-in 250.1-ci maddəsində ətraf mühitin müxtəlif komponentlərinə əhəmiyyətli zərərin vurulmasından, İXM-də isə su obyektlərinin çirklənməsi, zibillənməsi, torpaqların su erroziyası və sair bu kimi zərərli nəticələr nəzərdə tutulmuşdur.

Maddə 251. Atmosferi (havanı) çirkləndirmə

251.1. Çirkləndirici maddələrin havaya buraxılması qaydalarının pozulması və ya avadanlıqların, qurğuların və digər obyektlərin istismarı qaydalarının pozulması havanın çirkləndirilməsinə və ya onun təbii xassələrinin başqa cür dəyişilməsinə səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

251.2. Eyni əməllər insan sağlamlığına zərər vurulmasına səbəb olduqda —

altı min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

251.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan maddə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yeni hesab edilmir. Belə ki, Azərbaycan Respublikasının 8 dekabr 1960-cı il CM-in 160-cı maddəsi («Sututarları və havanı çirkləndirmə») oxşar cinayət tərkibini nəzərdə tuturdu. Qanunverici yeni CM-də (CM-in 251-ci maddəsi) əvvəlki CM-dən fərqli olaraq bir sıra dəyişikliklər etmişdir. Həmin dəyişikliklər aşağıdakılardan ibarətdir:

1) atmosferi çirkləndirən maddələrin havaya buraxılması və avadanlıqların, qurğuların və digər obyektlərin istismarı qaydalarının pozulması bu cinayətin törədilməsinin üsulu kimi nəzərdə tutulur; 2) cinayət məsuliyyəti təkcə atmosferi (havanı) çirkləndirməyə görə deyil, həm də onun təbii xassələrinin zərərli istiqamətdə istənilən şəkildə başqa cür dəyişdirilməsinə görə də müəyyən olunur; 3) qanunverici keçmiş CM-in 160-cı maddəsində qeyd olunan ictimai təhlükəli nəticələrin siyahısını yeni CM-də dəyişmişdir.

Atmosferin (havanın) mühafizəsi Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında», «Atmosfer havasının mühafizəsi haqqında» qanunları və digər normativ hüquqi aktlarla tənzimlənir.

2. Qanunvericinin CM-in 251-ci maddəsində qeyd olunan normanı nəzərdə tutmaqda **məqsədi** stasionar və hərəkət edən mənbələrdən atmosferə (havaya) çirkləndirici maddələrin buraxılmasının normativlərinə riayət olunmasını, insanın və digər canlı orqanizmlərin həyat fəaliyyətinin ən zəruri şərti olan atmosferin çirkləndirilməsinin və ya onun təbii xassələrinin başqa cür dəyişdirilməsinin qarşısının alınmasını cinayət-hüquqi vasitələrlə təmin etməkdir.

3. CM-in 251.1-ci maddəsi konstruksiyasına görə ayrıca iki əsas cinayət tərkibini: 1) çirkləndirici maddələrin havaya buraxılması qaydalarının pozulmasını; 2) avadanlıqların, qurğuların və digər obyektlərin istismarı qaydalarının pozulmasını nəzərdə tutur.

4. Şərh olunan cinayət hüquq normasının **tətbiq olunma sahəsi** atmosfer havasına təsir göstərən sənaye, kənd təsərrüfatı müəssisələrinin, nəqliyyatın və digər obyektlərin fəaliyyəti prosesində yaranan ictimai münasibətlərdir.

5. Nəzərdən keçirilən cinayətin **obyekti** atmosfer havasının çirklənmədən və ya təbii xassələrinin zərərli şəkildə başqa cür dəyişilməsindən mühafizəsi və əhalinin ekoloji təhlükəsizliyinin təmin olunması sahəsində yaranan ictimai münasibətlərdir.

Təhlil olunan cinayətin **predmeti** atmosfer, hava, onun təbii xassələridir. «Atmosfer havasının mühafizəsi haqqında» Qanuna görə, **atmosfer havası** dedikdə yaşayış, istehsal və digər sahələrdən kənarda ətraf mühiti əhatə edən atmosfer qazlarının təbii qarışığı başa düşülür.

İstehsalat binalarının (yerlərinin) iş zonasının havasının insanların sağlamlığı üçün zərərli olan maddələrlə yol verilən qatılıqdan (həddən) artıq dərəcədə çirkləndirilməsi və bunun insan sağlamlığına zərər vurması CM-in 162-ci maddəsi ilə tövsif edilməlidir.

Atmosfer dedikdə Yer planetinin bir neçə təbəqədən (qatdan, laydan) ibarət olan qaz şəklində örtüyü başa düşülür. Atmosferin ən aşağı qatı olan troposfer Yerin atmosfer havasının 80 %-ni təşkil edir və orta enliklərdə 10-12 km-ə çatır.

6. Şərh edilən cinayətin **obyektiv cəhəti**: a) çirkləndirici maddələrin havaya buraxılması və ya avadanlıqların, qurğuların və digər obyektlərin istismarı

qaydalarının pozulmasından ibarət olan hərəkət və ya hərəkətsizliklə törədilən əməldən; b) kriminal nəticələrdən və; c) qeyd olunanlar arasındakı səbəbli əlaqədən ibarətdir.

7. **Çirkləndirici maddələrin havaya buraxılmasının müvafiq normativ hüquqi aktlarla müəyyən olunmuş qaydalarının pozulması** dedikdə qanunla birbaşa qadağan edilmiş, yaxud çirkləndirici maddələrin havaya buraxılmasının müvafiq qaydalarla müəyyən edilmiş əsaslarını, qaydasını, həcmini, keyfiyyət tərkibini və digər şərtlərini pozan hərəkətlər, yaxud çirkləndirici maddələrin havaya buraxılması zamanı müvafiq təlimatlarla və digər qaydalarla birbaşa nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməməsindən ibarət olan hərəkətsizlik başa düşülür.

Adı çəkilən Qanuna görə, **çirkləndirici (zəhərli) maddələr** dedikdə atmosfer havasına atılan və müəyyən səviyyədə insan sağlamlığına və ətraf mühitə zərərli təsir göstərən kimyəvi maddələr və onların qarışıqları başa düşülür.

8. **Avadanlıqların, qurğuların və digər obyektlərin istismarı qaydalarının pozulması** dedikdə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydalara riayət edilməməsi, yaxud müxtəlif fəal hərəkətlər, məsələn, təmizləyici qurğuların söndürülməsi, avadanlıqların və qurğuların iş rejiminin qanunsuz olaraq dəyişdirilməsi və s. başa düşülür. Nəzərdən keçirilən əməl hərəkətsizliklə törədildikdə, bu, normativlərlə müəyyən edilmiş iş rejimlərinə riayət olunmamasında, nəzarət aparatlarından istifadə edilməməsində, atmosfer havasına buraxılan çirkləndirici maddələrin keyfiyyət tərkibi haqqında informasiyaya etinasızlıqla yanaşmada və s. ifadə olunur.

9. CM-in 251.1-ci maddəsində nəzərdə tutulan mənada **buraxılma** dedikdə maddələrin mənbədən atmosferə daxil olması başa düşülür. Atmosfer havasını çirkləndirən zərərli maddələrin buraxılmasının yol verilən son həddi normativləri obyektin istehsal gücünün, ətraf təbii mühitdə zərərli maddələrin yol verilən son həddi qatılıqlarının qüvvədə olan normativlərinə müvafiq olaraq, hər bir çirkləndirici mənbə üzrə mutagen təsirin və digər zərərli nəticələrin mövcud olması haqqında məlumatlar nəzərə alınmaqla müəyyən edilir. Yol verilən son həddi qatılıqları (YSQ) isə öz növbəsində müəyyən zaman müddətində daimi təmasda və ya təsirdə olduqda, insanın sağlamlığına və ətraf mühitin keyfiyyətinə praktiki olaraq təsir etməyən zərərli maddənin kəmiyyətinə əsaslanaraq hesablanır.

Adı çəkilən Qanuna görə, **atmosfer havasının çirkləndirilməsi** dedikdə atmosfer havasına zərərli maddələri onların miqdarının normativ hüquqi aktlarla müəyyən edilmiş gigiyenik və ekoloji normalarından artıq atılması başa düşülür.

Atmosfer havasının keyfiyyətinin **gigiyenik norması** dedikdə atmosfer havasında insan sağlamlığına zərərli təsiri istisna edən və zərərli maddələrin maksimal yol verilə bilən həddini əks etdirən atmosfer havasının keyfiyyət meyarı başa düşülür.

Atmosfer havasının keyfiyyətinin **ekoloji norması** dedikdə atmosfer havasında ətraf mühitə zərərli təsiri istisna edən və zərərli maddələrin maksimal yol verilə bilən həddini əks etdirən atmosfer havasının keyfiyyət meyarı başa düşülür.

Atmosfer havasının təbii xassələrinin başqa cür dəyişilməsi dedikdə havanın tərkibində onun şəffaflığına, ozonun miqdarına və s. təsir edən kimyəvi maddələrin və ya asılı hissəciklərin qatılığının artması, yaxud onun istilik rejiminin, radiasiya, elektromaqnit, səs-küy göstəricilərinin müəyyən region üçün təbii fon nəzərə alınmaqla sanitariya-gigiyena və ekoloji normativləri aşan dərəcədə dəyişilməsi başa düşülür. Havanın təbii xassələrinin başqa cür dəyişilməsi atmosferin mövcud olmuş vəziyyətindən neqativ, yəni zərərli istiqamətdə kənaraçıxma kimi qiymətləndirilir.

Səs-küy mənbələri dedikdə akustik çirklənməyə səbəb olan nəqliyyat vasitələrinin bütün növləri və sənaye müəssisələri, elektromaqnit çirklənməyə səbəb olan sənaye tezlikli dəyişən elektrik cərəyanının elektrik ötürücülərinin hava xətləri, paylayıcı yarımstansiyalar, energetik qurğular, radiolokasiya stansiyaları, maqnit sahələrinin tətbiqinə əsaslanan texnologiyalar, şanvari və kosmik rabitə və s. başa düşülür.

Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli Qanununun 42-ci maddəsinin 3-cü bəndinə görə atmosfer havasına atılan zəhərli qazların miqdarının azaldılması məqsədi ilə magistral avtomobil yollarında daimi fəaliyyət göstərən, lazımi avadanlıqlarla təchiz edilmiş ekoloji postlar yaradılır.

11. Şərh olunan cinayət əməllərinin **ağırlaşdırıcı tərkib əlaməti** qismində insanın sağlamlığına zərər vurulması nəzərdə tutulur. İnsanın sağlamlığına onun nəfəs alarkən çirkləndirici maddələrin absorbsiyası (sorulması), yaxud belə maddələrlə təmasda olarkən, dəri örtüyünün, selikli və digər orqanlarının zədələnməsi, normadan artıq səs-küy zonasında, yaxud ionlaşdırıcı olmayan elektromaqnit şüalanması zonasında olarkən, yaxud radioaktiv çirklənmiş hava ilə nəfəs alarkən və ya tərkibində sezium-137, stronsium-90, natrium-24 və digər radionuklidlərin normadan artıq qatılıqları olan atmosfer çöküntülərinin təsiri altında olması nəticəsində zərər dəyir. Burada insanın sağlamlığına yüngül, az ağır və ya ağır zərər növlərindən hər hansı birinin vurulması nəzərdə tutulur.

CM-in 251.3-cü maddəsində isə şərh olunan cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** — ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olma nəzərdə tutulmuşdur.

12. Çirkləndirici maddələrin havaya buraxılması və ya avadanlıqların, qurğuların, digər obyektlərin istismarı qaydalarının pozulması ilə nəzərdən keçirdiyimiz ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqə çirkləndirici maddələrin havanın təbii xassələrinin dəyişilməsinə, bunun isə öz növbəsində insanın sağlamlığına zərərli təsir göstərməsinə gətirib çıxardıqda mövcud olur.

Təhlil olunan kriminal xarakterli nəticələr müəyyən (verilmiş) mənbədən buraxılan çirkləndirici maddələrin digər amillərlə, məsələn, xarici ölkələrin ərazisindən hava cərəyanı (axını) nəticəsində qaz halında daxil olan çirkləndirici maddələrlə qarşılıqlı təsirdə olma nəticəsində yarandıqda, səbəbli əlaqə istisna edilir.

13. Şərh olunan cinayət qeyd olunan ictimai təhlükəli nəticələrdən hər han-

sı biri (havanın çirklənməsi, onun təbii xassələrinin başqa cür dəyişilməsi, insanın sağlamlığına zərər vurulması və ya zərərçəkmiş şəxsin ölümü) baş verdiyi andan **başa çatmış** hesab edilir.

14. CM-in 251.1-ci və 251.2-ci maddələrində nəzərdə tutulan ictimai təhlükəli nəticələrə münasibətdə təqsirkar **subyektiv cəhətdən dolayı qəsdlə** hərəkət edir. Bu cinayətin subyekti müvafiq qaydaları pozduğunu dərk edir, atmosfer havasının vəziyyəti və ya insanın sağlamlığı üçün ictimai təhlükəli nəticələrin baş verəcəyini qabaqcadan görür, bunları arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir. CM-in 251.3-cü maddəsində nəzərdə tutulan nəticəyə münasibətdə isə təqsirkar **ehtiyatsızlıqla** hərəkət edir.

15. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, normativ hüquqi və ya hüquqtətbiqedici aktların qüvvəsinə görə atmosferə çirkləndirici maddələrin buraxılması, yaxud stasionar və hərəkət edən qurğuların, avadanlıqların və digər obyektlərin, o cümlədən nəqliyyat vasitələrinin istismarı qaydalarına riayət edilməsi və buna nəzarət olunması üzrə vəzifələr daşıyan istənilən anlaqlı fiziki şəxs ola bilər.

Maddə 252. Dəniz mühitini çirkləndirmə

252.1. Dəniz mühitini quruda olan mənbələrdən çirkləndirmə, yaxud nəqliyyat vasitələrindən və ya dənizdə quraşdırılmış süni qurğulardan insan sağlamlığı və dənizin canlı sərvətləri üçün zərərli olan, yaxud dənizdən qanuni istifadəyə mane olan maddələri və ya materialları tullama və ya basdırma qaydalarını pozmaqla dəniz mühitini çirkləndirmə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

252.2. Eyni əməllər insan sağlamlığına, heyvanlar və bitki aləminə, balıq və digər su bioresurslarına, ətraf mühitə, istirahət zonalarına və ya qanunla qorunan digər maraqlara əhəmiyyətli zərər vurulmasına səbəb olduqda —

altı min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

252.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 6 mart 2015-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 7 mart 2015-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan cinayət hüquq norması respublikamızın cinayət qanunvericiliyində yeni deyildir. Belə ki, Azərbaycan Respublikasının 8 dekabr 1960-cı il CM-də də «dənizi adamların səhhəti üçün və ya dənizin canlı sərvətləri üçün

zərərli olan maddələrlə, yaxud digər tullantı və materiallarla çirkləndirmə» adı altında 160-1-ci maddə nəzərdə tutulurdu. Qüvvədə olan CM-in qeyd olunan maddəsində qanunvericinin nəzərdə tutduğu və əvvəlki CM-in 160-1-ci maddəsindən fərqlənən əlamətlər aşağıdakılardan ibarətdir:

1) qanunverici daha ümumi anlayışlardan, ifadə formalarından istifadə etmişdir; 2) dənizə müxtəlif maddələrin, zərərli tullantıların və ya materialların qanunsuz atılmasını nəzərdə tutan müstəqil cinayət tərkibləri CM-in 252.1-ci maddəsinin dispozisiyasından çıxarılmışdır; 3) qanunverici zərərli maddələrin dənizə axıdılması və ya belə əməllərin hazırlanması haqqında xəbər verməməni nəzərdən keçirdiyimiz 152-ci maddədən istisna etmişdir.

Qeyd olunan dəyişikliklərin aparılması CM-in 252.1-ci maddəsinin mətninin əhəmiyyətli dərəcədə qısalmasına və nisbətən sadələşməsinə gətirib çıxarmışdır. Bundan başqa, qanunverici əvvəlki CM-in 160-1-ci maddəsindən fərqli olaraq, yeni CM-in 252.1-ci maddəsində dəniz mühitini quruda olan mənbələrdən çirkləndirməyə görə də cinayət məsuliyyəti müəyyən etmişdir.

2. Şərh olunan maddəni CM-də nəzərdə tutmaqda qanunvericinin **məqsədi** dəniz mühitini və dənizin canlı sərvətlərini çirklənmədən cinayət-hüquqi vasitələrlə mühafizə etməkdən, dənizdən qanunauyğun surətdə istifadə edilməsini, habelə qanunla qorunan digər maraqlara əhəmiyyətli ziyan vurulmasının qarşısını almaqdan ibarətdir.

3. Təhlil olunan cinayət hüquq normasının **qüvvədə olma sahəsi** dəniz və hava nəqliyyatı, faydalı qazıntıların kəşfiyyatı və çıxarılması, balıqçılıq, habelə dəniz mühitindən digər formalarda istifadə olunması zamanı ətraf mühitin mühafizəsi, sənaye, yaşayış-kommunal təsərrüfatı və başqa sahələrdir.

4. Şərh olunan maddə mürəkkəb quruluşa malikdir. Qanunverici CM-in 252-ci maddəsində iki sadə cinayət tərkibini və baş verən nəticələrə görə fərqləndirilən, ağırlaşdırıcı tərkib əlamətləri olan daha iki cinayət tərkibini nəzərdə tutmuşdur.

5. Şərh olunan cinayətin **obyekti** dəniz mühitinin ekoloji təhlükəsizliyi ilə bağlı olan ictimai münasibətlərdir. Bu cinayətin predmeti dəniz mühitidir. **Dəniz mühiti** dedikdə Azərbaycan Respublikasının daxili dəniz suları, ərazi dəniz suları, sahilyanı şelfi örtən sular, açıq dəniz, habelə dənizin yaşayış mühiti ilə sıx bağlı olan dənizin canlı ehtiyatları (sərvətləri) başa düşülür.

«Dövlət sərhədi haqqında» Qanununun 5-ci maddəsinə görə Azərbaycan Respublikasının **ərazi sularına** Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikası ilə həmsərhəd dövlətlərin sərhədləri arasındakı sular, sərhədboyu çayın və başqa sututarların Azərbaycan Respublikasındakı sahilindən dövlət sərhədinədək olan suları aiddir.

Sahilyanı zolaq dedikdə Azərbaycan Respublikasının daxili dəniz sularına bitişik olan ərazi başa düşülür.

Dənizin canlı sərvətləri dedikdə Yerin (Dünya okeanının) hidrosferasına daxil olan, bütün həyat dövrəsi ilə qırılmaz surətdə bağlı olan su bioehtiyatları (sərvətləri) başa düşülür.

6. Dəniz mühitinin çirklənmədən mühafizəsi bir sıra beynəlxalq-hüquqi aktlarla, milli qanunvericilik normaları və qanun qüvvəli normativ aktlarla tənzim-

lənir. Azərbaycan Respublikasının Su Məcəlləsi Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən istifadə edilməsinin və onun mühafizəsinin ümumi qaydalarını müəyyən edir. Digər qanunlar, məsələn, Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli «Heyvanlar aləmi haqqında» Qanunu Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaşayan heyvanlar aləmi obyektlərindən istifadə edilməsi və onların mühafizəsi qaydalarını, habelə statusunu müəyyən edir.

Azərbaycan Respublikasının Milli Məclisi «Azərbaycan Respublikasının sahilyanı şelfi haqqında» Qanun qəbul etməmişdir. Müqayisə üçün qeyd etmək olar ki, RF-də «RF-in sahilyanı şelfi haqqında» 30 noyabr 1995-ci il tarixli Qanun qüvvədədir. Bu Qanun dəniz mühitinə müxtəlif maddələrin, materialların və tullantıların atılması və onların dənizdə basdırılması, dənizdə quraşdırılmış süni qurğuların (məsələn, platformaların, süni adaların və s.) istismarı və s. qaydalarını müəyyən edir.

7. Şərh olunan cinayətin **obyektiv cəhəti fəal hərəkətlərdə**, məsələn, müvafiq icazə olmadan çirkləndirici maddələrin dənizə atılmasında, neft məhsullarının dənizə axıdılmasında, tam işlənilməmiş (sərf olunmamış) nüvə yanacağının dənizdə basdırılmasında və s., habelə **hərəkətsizlikdə**, məsələn, səlahiyyətli vəzifəli şəxslər tərəfindən çirkləndirici maddələrin dənizə axıdılmasının qarşısının alınması üçün müvafiq tədbirlər görülməməsində, eləcə də baş vermiş ictimai təhlükəli nəticələrdə və bunlar arasındakı səbəbli əlaqədə ifadə olunur.

CM-in 252.1-ci maddəsinin mənasına görə, qanunverici «çirkləndirmə» əməli ilə hər hansı ictimai təhlükəli nəticələrin baş verməsini əlaqələndirmir.

Şərh olunan cinayətin **nəticələri** dəniz mühitinin çirkləndirilməsindən, yəni buraya dəniz mühitinin keyfiyyətini pisləşdirən, ondan istifadə edilməsini məhdudlaşdıran, dənizin canlı sərvətlərinin məhv edilməsinə, onların ehtiyatlarının azalmasına, xəstələnməsinə və s. səbəb olan maddələrin və ya materialların, tullantıların atılmasından ibarətdir.

CM-in 252.1-ci maddəsində qeyd olunan maddələrin və ya materialların basdırılması qaydalarının pozulması tullanılması və ya basdırılması yalnız müvafiq qaydalara riayət edilməklə mümkün olan müxtəlif növ obyektlərin dəniz mühitinə atılması və burada normativləri aşan həcmdə qalması, yaxud həmin maddələrin ilkin və ya əlavə təmizlənmə aparılmadan dənizə tullanılması, yaxud həmin hərəkətlərin bunun üçün müəyyən edilməyən yerlərdə törədilməsi, habelə adları çəkilən maddələrin və materialların basdırılması və ya tullanılmasının tamamilə qadağan olunduğu hallarda icra edilməsi zamanı mövcud olur.

8. **Nəqliyyat vasitələri** dedikdə Azərbaycan Respublikasının dəniz gəmiləri və digər üzən vasitələri, mülki hava gəmiləri, hərbi gəmilər, hərbi-köməkçi və hərbi-hava gəmiləri, xarici ölkəyə məxsus gəmilər və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən digər üzən vasitələr başa düşülür.

Dənizdə quraşdırılmış süni qurğular dedikdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində axtarış (kəşfiyyat), elmitədqiqat, qazıntı işlərinin aparılması məqsədi ilə yerləşdirilmiş süni adalar,

qazma qurğuları, platformalar və digər obyektlər başa düşülür.

CM-in 252.1-ci maddəsində qeyd olunan **maddələrin və ya materialların tullanılması və ya basdırılması qaydalarının pozulması** onların müvafiq icazə olmadan dənizə atılması, hərbi gəmilərdən, o cümlədən sualtı qayıqlardan neft məhsullarının dənizə axıdılması və s. hərəkətlərdə, eləcə də hərəkətsizlikdə, yəni məsələn, neft məhsulları və ya digər çirkləndirici maddələrin dənizə axıdılmasının qarşısını almaq üçün müvafiq səlahiyyətli şəxslərin vaxtında zəruri tədbirlər görməməsində və s. ifadə olunur.

Dəniz mühitini quruda olan mənbələrdən çirkləndirmə də həm fəal hərəkətlərdə, məsələn, icazə olmadan dəniz mühitinə kimyəvi, çirkləndirici maddələrin atılmasında, dənizin çirklənməsi zamanı sahilyanı zolağa qeyd olunan maddələrin və ya materialların atılmasında və s., həm də hərəkətsizlikdə, məsələn, sənaye müəssisələrində təmizləyici qurğuların işinə nəzarət edilməməsində və s. ifadə olunur.

9. CM-in 252.2-ci maddəsində nəzərdə tutulan **ağırlaşdırıcı tərkib əlamətləri** olan cinayət tərkiblərinin **obyektiv cəhəti** CM-in 252.1-ci maddəsində nəzərdə tutulan kriminal əməllərdən, onların ictimai təhlükəli nəticələrindən və bunlar arasındakı səbəbli əlaqədən ibarətdir.

10. **İnsan sağlamlığına əhəmiyyətli zərər vurulması** dedikdə insanın sağlamlığının pozulması, əmək qabiliyyətinin müvəqqəti və ya daimi itirilməsi halları başa düşülür.

Heyvanlar və bitki aləminə, balıq və digər su bioresurslarına əhəmiyyətli zərər vurulması dedikdə dənizin bioloji sərvətlərinin, yəni balıqların, dəniz məməlilərinin və dənizdə yaşayan digər heyvanların, canlı orqanizmlərin və bitkilərin kütləvi qırılması, onların kürüləmə yerlərinin məhv edilməsi, müəyyən regionun bir və ya bir neçə balıq növlərinin istehsal ehtiyatlarının azaldılması, yaxud məhv edilməsi, onların yem bazasının məhv edilməsi və s. başa düşülür.

İstirahət zonalarına əhəmiyyətli zərər vurulması dedikdə sahilyanı zolağın və dəniz akvatoriyasının, yəni təbii, süni və ya şərti sərhədlərlə məhdudlaşdırılmış dəniz suları məkanının onlardan vətəndaşların istirahət və sağlamlıq zonaları qismində istifadə edilməsini qeyri-mümkün edən, zərərli nəticələrin (çirklənmənin) aradan qaldırılması üçün xeyli maddi xərclər tələb edən dərəcədə çirkləndirilməsi başa düşülür.

Qanunla qorunan digər maraqlara əhəmiyyətli zərər vurulması dedikdə dənizdə həyata keçirilən iqtisadi fəaliyyətin, gəmiçiliyin işinin uzun müddətə dayandırılması və s. başa düşülür.

Dəniz mühitinə onun çirkləndirilməsi nəticəsində vurulan zərərin ölçüsü haqqında məsələ məhkəmə tərəfindən işin konkret halları və müəyyən edilmiş nisbətlər nəzərə alınmaqla həll edilir.

11. Dəniz mühitini quruda olan mənbələrdən çirkləndirmə, yaxud nəqliyyat vasitələrindən və ya dənizdə quraşdırılmış süni qurğulardan insan sağlamlığı və dənizin canlı sərvətləri üçün zərərli olan, yaxud dənizdən qanuni istifadəyə mane olan maddələri və ya materialları tullama və ya basdırma qaydalarını pozmaqla dəniz mühitini çirkləndirmə ilə CM-in 252-ci maddəsində qeyd olu-

nan ictimai təhlükəli nəticələr arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

12. CM-in 252.1-ci maddəsində nəzərdə tutulan cinayət əməli dəniz mühiti çirkləndiyi andan CM-in 252.2-ci və 252.3-cü maddələri üzrə isə bu maddələrdə qeyd olunan ictimai təhlükəli nəticələr baş verdiyi andan **başa çatmış** hesab olunur.

13. Şərh olunan cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir, yəni təqsirkar öz əməlinin ictimai təhlükəli və qanunsuz olduğunu dərk edir, kriminal xarakterli nəticələrin baş verə biləcəyini qabaqcadan görür, bunları arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir. Dəniz mühitinin çirkləndirilməsi nəticəsində insanın ölümünə münasibətdə təqsirkar **subyektiv cəhətdən ehtiyatsızlıqla** davranmış olur.

14. Təhlil olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, müvafiq normativ hüquqi və ya hüquqtətbiqedici aktlara görə ətraf mühitin mühafizəsi, çirkləndirici maddələrin və materialların nəqliyyat gəmilərindən, dənizdə quraşdırılmış süni qurğulardan atılması və basdırılması qaydalarına riayət edilməsi və buna nəzarət olunması üzrə peşə (xidməti) vəzifələri daşıyan istənilən anlaqlı fiziki şəxslər ola bilər. Bu cinayətin subyektlərinə dəniz mühitini quruda olan mənbələrdən çirkləndirən müəssisələrin vəzifəli şəxsləri də aiddir.

Maddə 253. Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma

253.1. Qanunsuz olaraq Azərbaycan Respublikasının sahilyanı şelfində tikililər və ya başqa qurğular ucaltma, onların ətrafında təhlükəsizlik zonasını yaratma, habelə quraşdırılan tikililərin və dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi vasitələrinin tikintisi, istismarı, mühafizəsi və ya ləğv olunması qaydalarını pozma —

dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

253.2. Azərbaycan Respublikasının sahilyanı şelfində xarici hüquqi və fiziki şəxslər tərəfindən təbii sərvətlərin tədqiqi, kəşfiyyatı, işlənməsi və başqa işlər görülməsi, əgər bu hərəkətlərin həyata keçirilməsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə və ya Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının verdiyi xüsusi icazədə nəzərdə tutulmamışdırsa —

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan maddə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yeni deyildir. Belə ki, Azərbaycan Respublikasının 1960-cı il CM-in 158-1-ci maddəsində «Azərbaycan Respublikasının sahilyanı şelfi haqqında qanunlarını pozma» adlı cinayət tərkibi nəzərdə tutulurdu. CM-in 253.1-ci maddəsində keçmiş CM-in 158-1-ci maddəsindən fərqli olaraq, bu cinayətin obyektiv cəhətini təşkil edən əməllərin (hərəkət və hərəkətsizliyin) dairəsi məhdudlaşdırılmış, CM-in 253.2-ci maddəsində isə bu cinayətin subyektlərinin dairəsi genişləndirilmişdir.

2. Qeyd olunan maddəni CM-də nəzərdə tutmaqda qanunvericinin **məqsədi** Azərbaycan Respublikasının sahilyanı şelfinin ətraf mühitin vacib elementi (ünsürü) kimi qanunsuz təsirlərdən mühafizə olunmasını və Azərbaycan Respublikasının suverenliyini təmin etməkdən ibarətdir.

3. Təhlil edilən cinayətin **obyekti** Azərbaycan Respublikasının sahilyanı şelfinin təbii sərvətlərinin mühafizəsinin və dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi sahəsində yaranan ictimai münasibətlərdir.

4. **«Sahilyanı şelf»** anlayışı «Azərbaycan Respublikasının sahilyanı şelfi haqqında» müvafiq qanununda müəyyən olunmalıdır. 12 avqust 2018-ci ildə beş Xəzəryanı dövlət (Rusiya Federasiyası, Azərbaycan, Qazaxıstan, Türkmənistan respublikaları və İran İslam Respublikası) arasında imzalanmış «Xəzər dənizinin hüquqi statusu haqqında» Konvensiyada da belə bir anlayış nəzərdə tutulmamışdır. Qeyd olunan anlayışın sinonimi kimi mövcud qanunvericilikdə «Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi» anlayışından istifadə olunur (Su Məcəlləsinin 9-cu maddəsi).

Sahilyanı şelfin təbii sərvətlərinə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində dənizin dibinin və onun təkinin mineral və digər canlı ehtiyatları, habelə ovlanılması mümkün olan dövrdə dənizin dibində və ya onun üstündə tərpənməz vəziyyətdə olan, yaxud dənizin dibi və ya onun təki ilə daimi fiziki təmasdan başqa hərəkət etmək qabiliyyəti olmayan «oturaq» növlü canlı orqanizmlər (məsələn, xərçəngkimilər, molyusklar, yengəclər və s.) aid edilir.

Ümumiyyətlə, beynəlxalq hüquqda sahilyanı şelf deyil, qitə şelfi anlayışından istifadə edilir. 1958-ci il Cenevrə Konvensiyasına müvafiq olaraq, bu anlayış (yəni qitə şelfi) sahilyanı dövlətin sahilə bitişik, lakin ərazi sularının hüdudlarından kənarda yerləşən 200 metr dərinliyə qədər və ya bu həddən sonra onun üzərini örtən suyun dərinliyi təbii sərvətlərin işlənilməsinə imkan verdiyi yerə qədər sualtı rayonların səthini və təkini əhatə edir.

«Təhlükəsizlik zonası» anlayışı da sahilyanı şelf anlayışı kimi Azərbaycan Respublikasının sahilyanı şelfi haqqında qanunvericilikdə müəyyən olunmalıdır. Təhlükəsizlik zonası süni adaların, qurğuların və tikililərin ətrafında sahilyanı şelfin təbii sərvətlərinin tədqiqi, kəşfiyyatı və işlənilməsi üçün yaradılır. Təhlükəsizlik zonasının qeyd olunan obyektlərdən hansı məsafədə yaradılması müvafiq qanunla, yəni Azərbaycan Respublikasının sahilyanı şelfi haqqında qanunvericilikdə ilə müəyyən edilməlidir.

5. CM-in 253.1-ci maddəsində nəzərdə tutulan cinayətin obyektiv cəhətini qanunsuz olaraq Azərbaycan Respublikasının sahilyanı şelfində tikililər və ya başqa qurğular ucaltma, onların ətrafında təhlükəsizlik zonasını yaratma, habelə quraşdırılan tikililərin və dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi vasitələrinin tikintisi, istismarı, mühafizəsi və ya ləğv olunması qaydalarını pozma təşkil edir.

6. **Qanunsuz olaraq Azərbaycan Respublikasının sahilyanı şelfində tikililər və ya başqa qurğular ucaltma** dedikdə tikintinin məqsədindən asılı olmayaraq, qüvvədə olan müvafiq normativ hüquqi aktlarla nəzərdə tutulan, səlahiyyətli orqanlar tərəfindən lazımi qaydada verilən icazə olmadan istənilən qurğuların Azərbaycan Respublikasının sahilyanı şelfində tikintisinin aparılması, yaxud icazə alınmış olsa da, tikintinin onun şərtlərindən kənara çıxmaqla aparılması başa düşülür.

İcazə onun özündə göstərilən fəaliyyət növünün müəyyən müddət ərzində həyata keçirilməsinə verilir və bu fəaliyyətin şərtlərini müəyyən edir. Qeyd olunan icazə xüsusi olaraq yaradılan müvafiq icra hakimiyyəti orqanı tərəfindən belə icazənin verilməsi haqqında ərizəyə daxil olduqdan dörd ay ərzində baxıldıqdan sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi, habelə yerin təkindən istifadə, balıqçılıq, müdafiə, sərhəd xidməti, ətraf mühitin mühafizəsi üzrə və digər dövlət orqanları ilə razılaşdırılmaqla, istifadənin məqsədlərinə (məsələn, regional tədqiqat, axtarış, kəşfiyyat, sahilyanı şelfin mineral ehtiyatlarının işlənməsi və digər qanuni məqsədlərlə) uyğun olaraq verilir.

Azərbaycan Respublikasının sahilyanı şelfində süni qurğuları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, fiziki və hüquqi şəxsləri (yerli ərizəçilər), habelə xarici dövlətlərin fiziki və hüquqi şəxsləri (xarici ərizəçilər), səlahiyyətli beynəlxalq təşkilatlar icazə aldıqdan sonra sahilyanı şelfin regional geoloji öyrənilməsi, axtarışı, kəşfiyyatı, mineral sərvətlərin işlənməsi, canlı təbii ehtiyatların ovlanılması, qorunub saxlanılması və müdafiəsi, dənizdə elmi axtarışların, tədqiqatların aparılması və digər qanuni məqsədlərlə yarada bilər. Süni qurğuların yaradılması üçün mütləq Azərbaycan Respublikasının müvafiq xüsusi səlahiyyətli icra hakimiyyəti orqanı tərəfindən verilən icazənin olması tələb edilir. Ümumiyyətlə, Azərbaycan Respublikasının sahilyanı şelfində tikililər və ya başqa qurğular ucaldılması, onların ətrafında təhlükəsizlik zonasının yaradılması, quraşdırılan tikililərin və dəniz gəmiçiliyinin təmin edilməsi vasitələrinin tikintisi, istismarı, mühafizəsi və ya ləğv olunması qaydaları Azərbaycan Respublikasının sahilyanı şelfi haqqında müvafiq qanunu, eləcə də digər qanunvericilik aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr ilə müəyyən olunmalıdır.

7. **Quraşdırılan tikililərin və dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi vasitələrinin tikintisi, istismarı, mühafizəsi və ya ləğv olunması qaydalarını pozma** həm **fəal hərəkətlərlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Birinciyə süni qurğuların istismarının verilmiş icazədə nəzərdə tutulan şərtləri pozmaqla istifadə edilməsi, istismarı dayandırılmış qurğuların və ya tikililərin kənarlaşdırılması qaydalarını pozma və s., ikinciyə isə süni adaların, qurğuların mövcudluğu haqqında daimi xəbərdaredici vasitələrin texniki cəhətdən saz vəziyyətinin təmin edilməməsi və s. aid oluna bilər.

8. Şərh olunan cinayət **formal tərkibli** cinayət kimi nəzərdə tutulduğundan cinayət məsuliyyətinin yaranması üçün hər hansı ictimai təhlükəli nəticələrin baş verməsi tələb olunmur. Bu cinayət CM-in 253.1-ci maddəsinin dispozisiyasında qeyd olunan əməllərdən hər hansı biri törədildiyi andan **başa çatmış** hesab olunur.

9. CM-in 253.1-ci maddəsində sadalanan əməllər **subyektiv cəhətdən** təqsirin qəsd forması ilə törədilir. Təqsirkar şəxs öz hərəkətlərinin və ya hərəkətsizliyinin ictimai təhlükəli olduğunu dərk edir və onları törətməyi arzu edir.

Qanunverici qeyd olunan cinayət əməlinin **ehtiyatsızlıqla** törədilməsinin mümkünlüyü haqqında CM-də heç bir göstəriş nəzərdə tutmadığından, bu cinayətin ehtiyatsızlıqla törədilməsini söyləmək əsassızdır.

10. Şərh olunan cinayətin **subyekti** bu cinayəti törədənədək **16** yaşı tamam olmuş, Azərbaycan Respublikasının sahilyanı şelfində müvafiq fəaliyyət növü ilə məşğul olmaq üçün icazə almalı olan və ya icazədə nəzərdə tutulan qaydalara, işlərin yerinə yetirilməsinin şərtlərinə riayət edilməsinə görə məsuliyyət daşıyan istənilən anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 253.2-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin **predmeti** Azərbaycan Respublikasının sahilyanı şelfinin təbii sərvətləridir.

12. Təhlil olunan cinayətin **obyektiv cəhətini** Azərbaycan Respublikasının sahilyanı şelfində xarici hüquqi və fiziki şəxslər tərəfindən təbii sərvətlərin Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə və ya Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının verdiyi xüsusi icazədə nəzərdə tutulmayan tədqiqi, kəşfiyyatı, işlənməsi və başqa işlər görülməsi təşkil edir. Cinayət məsuliyyətinin yaranması üçün hər hansı ictimai təhlükəli nəticələrin baş verməsi tələb olunmur.

13. Azərbaycan Respublikasının sahilyanı şelfində qeyd olunan işlərin görülməsinə icazələrin verilməsi qaydası və onların məzmunu Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə nəzərdə tutulmalıdır. Haqqında danışdığımız müvafiq icazənin alınmasının zəruriliyini müəyyən edən əsaslar qəti şəkildə göstərilməlidir və genişləndirici tövsif oluna bilməz.

14. Azərbaycan Respublikasının sahilyanı şelf haqqında qanunvericiliyi burada görülən işlərə bir neçə növ lisenziyanın (icazənin) verilməsini nəzərdə tutmalıdır. Bunlara sahilyanı şelfin regional geoloji öyrənilməsinə, mineral ehtiyatların axtarılmasına, onların kəşfiyyatına və işlənməsinə, dənizdən canlı ehtiyatların tutulmasına, elmi-tədqiqat, qazma işlərinin aparılmasına verilən lisenziyalar aiddir. Qeyd olunan lisenziyaların verilməsi Azərbaycan Respublikasının suveren hüquqlarına əsaslanır və bu hüquqlar Azərbaycan Respublikasının sahilyanı şelfinin təbii sərvətlərindən istifadə olunmasına və gömrük, fiskal, sanitariya, immiqrasiya, təhlükəsizlik və digər qaydaların müəyyən edilməsi, realizəsi və onlara riayət edilməsinə nəzarət olunması zamanı yurisdiksiyanın həyata keçirilməsinə münasibətdə müstəsna xarakterə malikdir.

Haqqında söhbət gedən lisenziyaların verilməsi zəruri və əlavə məlumatları əks etdirən ərizələrə (sorğulara) baxılması prosesini əhatə edən mürəkkəb fəaliyyətdir. Burada **zəruri məlumatlara** hüquqi şəxs, planlaşdırılan fəaliyyətin növləri və müddətləri və s. haqqında, **əlavə məlumatlara** isə sahilyanı şelfin sahələrindən istifadənin ekoloji cəhətdən təmin olunması, o cümlədən ekoloji monitorinqin təşkil edilməsi, dənizin canlı sərvətlərinə vurulan zərərin ödənilməsini sığortalama, işlər görülüb qurtardıqdan sonra qurğuların və tikililərin yığışdırılması və konservasiya tədbirlərinin qarşılıqlı razılaşdırılmış metodikaları və s. haqqında məlumatlar aid edilir. Lisenziyaların (icazələrin) verilməsi sub-

yektlərə və sorğulara baxılması müddətlərinə, müsbət və ya mənfi qərarların xəbər verilməsi qaydasına, sahilyanı şelfin təbii sərvətlərinin tədqiqinin, kəşfiyyatının, işlənməsinin aparılmasına ərizə ilə müraciət edə bilən hüquqi və fiziki şəxslərin dairəsinə görə ciddi tənzimlənməlidir.

15. Azərbaycan Respublikasının sahilyanı şelfində **təbii sərvətlərin tədqiqi, kəşfiyyatı, işlənməsi və başqa işlər görülməsi** sənaye əsasları üzrə istehsal kimi, yaxud peşə kimi məşğul olmaq və ya canlı ehtiyatları öyrənmək məqsədi ilə, yaxud müvafiq icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri, xarici fiziki və hüquqi şəxslər, səlahiyyətli beynəlxalq təşkilatlar tərəfindən dənizdə elmi-tədqiqat işlərinin aparılması zamanı törədilən hərəkətlərdən ibarətdir. Qeyd etmək lazımdır ki, sahilyanı şelfdə həvəskar balıq ovu, yaxud həvəskarcasına sudan yengəc, xərçəng və s. tutma nəzərdən keçirdiyimiz cinayət tərkibini yaratmır.

16. Təhlil etdiyimiz hərəkətlər **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Cinayətin subyekti törətdiyi hərəkətlərin ictimai təhlükəli olduğunu dərk edir və onları törətməyi arzu edir.

17. Bu cinayətin **subyekti** yalnız xarici fiziki şəxslərdir. Bu barədə CM-in 253.2-ci maddəsinin dispozisiyasında birbaşa göstəriş vardır. Xarici fiziki şəxslərin bu cinayətin subyekti olması üçün cinayəti törədənədək **16** yaşa çatmış olmaları və anlaqlı olmaları tələb olunur.

Maddə 254. Torpaqları korlama

254.1. Saxlanması, istifadə edilməsi, yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsi, çirkləndirilməsi, yaxud onların başqa cür korlanması, insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyanın vurulmasına səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

254.2. Eyni əməllər fövqəladə və təhlükəli ekoloji vəziyyət zonasında törədildikdə —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

254.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan maddə respublikamızın cinayət qanunvericiliyində yeni deyildir. Belə ki, Azərbaycan Respublikasının 8 dekabr 1960-cı il CM-in 162-2-ci

maddəsində «Torpaqlardan təsərrüfatsızcasına istifadə etmə, onları korlama və çirkləndirmə» adlı cinayət tərkibi nəzərdə tutulurdu. Qanunverici yeni CM-in 254-cü maddəsində keçmiş CM-in 162-2-ci maddəsi ilə müqayisədə aşağıdakı dəyişiklikləri etmişdir: 1) 254-cü maddə 162-2-ci maddədən fərqli olaraq iki ağırlaşdırıcı tərkib əlamətini nəzərdə tutur; 2) 254.1-ci maddənin dispozisiyasının mətni 162-2-ci maddəninkinə nisbətən xeyli yığcam verilmiş, habelə 254-cü maddənin adında yalnız «torpaqları korlama» ifadəsi saxlanılmışdır.

2. Qanunvericinin 254-cü maddəni CM-də nəzərdə tutmaqda **əsas məqsədi** ətraf mühitin ən mühüm elementlərindən biri olan torpağı onun korlanmasının, yəni təsərrüfat və ya digər fəaliyyətin aparılması qaydalarını pozma nəticəsində torpaqların keyfiyyətinin pisləşməsinin qarşısını almaq yolu ilə mühafizə etməkdir.

3. Nəzərdən keçirilən cinayət hüquq normasının **tətbiq olunma sahəsi** torpaq istifadəçilərinin, eləcə də təsərrüfat və təhlükəli kimyəvi və bioloji maddələrin tədavülü üzrə fəaliyyətin subyektlərinin, yaxud torpağın təbii vəziyyəti üçün zərərli məhsulların (tullantıların) istehsal olunması ilə nəticələnən digər hər hansı fəaliyyət sahəsidir.

4. Torpaqların mühafizəsi və onlardan səmərəli istifadə olunması respublikamızın torpaq və ekologiya qanunvericiliyi sahəsində qəbul edilmiş çoxsaylı ümumi və xüsusi xarakterli normativ hüquqi aktlarla tənzim olunur. Bunların arasında Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Torpaq Məcəlləsi, «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanunu xüsusi yer tutur. Bundan başqa, torpaq islahatı aparılması, torpaqlardan istifadə edilməsi və onların mühafizəsinə nəzarət olunması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanlarını və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, bir sıra idarə normativ hüquqi aktlarını, habelə yerli özünüidarə orqanlarının aktlarını qeyd etmək olar.

5. Şərh olunan cinayətin **obyektini** ətraf mühitin ayrılmaz tərkib hissəsi olan torpaqların mühafizəsi və onlardan istifadə olunması sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

6. Bu cinayətin **predmeti** insan tərəfindən mənimsənilmiş, yaxud hələ mənimsənilən və ya mənimsənilməmiş, üzərindəki mülkiyyət formalarından və sahibliyin xarakterindən asılı olmayaraq torpaqdır. Konkret olaraq buraya kənd təsərrüfatı təyinatlı torpaqlar, yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar, xüsusi qorunan ərazilərin torpaqları, meşə fondu torpaqları, su fondu torpaqları, ehtiyat fondu torpaqları aiddir (Torpaq Məcəlləsinin 9-cu maddəsinin 2-ci bəndi).

CM-in 254-cü maddəsinin nəzərdə tutduğu mənada «torpaq» terminina yaxın olan anlayış «yer» terminidir. **Yer** dedikdə üzvi-mineral törəmə kimi məhsuldarlıqla səciyyələnən torpağın üst qatı (layı) başa düşülür.

7. Şərh olunan cinayətin **obyektiv cəhəti** saxlanması, istifadə edilməsi, yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin

zərərli məhsulları ilə torpaqların insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurulmasına səbəb olan dərəcədə zəhərlənməsi, çirkləndirilməsi, yaxud onların başqa cür korlanmasında ifadə olunur.

8. Azərbaycan Respublikasının torpaq və ekologiya qanunvericiliyində torpaqlara zərərli təsir göstərən proseslərin ifadə edilməsi üçün müxtəlif anlayışlardan, terminlərdən istifadə olunur. Bunlara torpaqların çirklənməsi, zibilənməsi, şoranlaşması, bataqlıqlaşması, kipləşməsi, su və külək eroziyası, su altında qalması, quraqlaşması, kol-kos basması, yerin məhsuldar qatının məhv olması, səhralaşması, bakterial-parazitli və zərərli karantin orqanizmlərlə yoluxdurulması və s. aiddir. Bu proseslər nəticəsində torpaqların deqradasiyası, yəni tənəzzülü baş verir. Deqradasiyaya (tənəzzülə) uğramış torpaqların istifadəsi isə insanların həyat və sağlamlığı üçün təhlükə yaranmasına, fövqəladə vəziyyətlərə, fəlakətlərə, tarixi-mədəni irsin və təbii landşaftların dağılmasına, neqativ ekoloji nəticələrə və kənd təsərrüfatı məhsullarının, su mənbələrinin çirklənməsinə gətirib çıxarır.

Torpaqları korlama dedikdə qəsdən və ya ehtiyatsızlıqdan törədilən hərəkətlər nəticəsində torpaqların məhsuldar qatının tam və ya qismən məhv edilməsi, onun fiziki və ya bioloji xassələrinin pisləşməsi, habelə torpaqların təbii təsərrüfat dəyərinin aşağı düşməsi, məhsuldarlığının itirilməsi və s. başa düşülür.

9. CM-in 254.1-ci maddəsinin nəzərdə tutduğu mənada **təsərrüfat və ya başqa fəaliyyət** dedikdə müəyyən təsərrüfat, rekreasiya (istirahət) və ya digər nəticələr əldə etmək, yəni kənd təsərrüfatı bitkilərinin becərilməsi, onların boy artımının stimullaşdırılması, bitki örtüyünün dəyişdirilməsi ilə bağlı olan təcrübələr aparılması və s. məqsədlərlə torpağa edilən təsirlərin bütün növləri başa düşülür.

Torpaqları korlama təkcə gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində deyil, həm də bir sıra digər hərəkətlərlə (hərəkətsizliklə), məsələn, müxtəlif təyinatlı obyektlərin tikilməsi, yolların salınması, kanalların qazılması, ağır nəqliyyat vasitələrinin gediş-gəlişi, torpaqların rekultivasiyası (yararlı hala salınması) üzrə tədbirlərin görülməməsi, torpaqların meliorasiyası qaydalarının pozulması və s. nəticəsində törədilə bilər. Lakin şərh olunan maddənin mətninə görə, nəzərdən keçirilən əməllər CM-in 254.1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibinin əlamətlərinə malik deyildir. Bu hərəkətlərin (yaxud hərəkətsizliyin) törədilməsinə görə məsuliyyət İXM-in müvafiq surətdə 244-cü («Torpaqların (meşə fondu torpaqlarının) zibilənməsi və korlanması») və ya 245-ci («Torpaqlardan təsərrüfatsızcasına istifadə edilməsi») maddələri üzrə yaranır. Qeyd olunan inzibati xətalar şərh olunan cinayət əməlindən obyektiv cəhətin əlamətlərinə, habelə baş verən nəticələrə görə fərqləndirilir.

Torpaqların çirkləndirilməsi torpağa onun üçün səciyyəvi olmayan fiziki, kimyəvi və bioloji maddələrin, birləşmələrin, bakterial-parazitli və zərərli karantin orqanizmlərinin daxil edilməsi, **torpaqların zəhərlənməsi** isə qeyd olunan maddələrin və birləşmələrin torpağa ondan hər hansı bir şəkildə istifadə olunmasını qeyri-mümkün edən miqdarda daxil edilməsi, yəni belə maddələrlə torpağın çirkləndirilməsidir.

Torpaqların başqa cür korlanması dedikdə torpaqların zibilləndirilməsi, bataqlıqlaşdırılması, quraqlaşdırılması, eroziyası və s. başa düşülür.

10. Gübrələrin, təhlükəli kimyəvi və ya bioloji maddələrin **saxlanması** dedikdə həmin maddələri xüsusi qablarda, yalnız onların saxlanması üçün nəzərdə tutulan anbarlarda qoruyub saxlama başa düşülür.

Pestisidlər və aqrokimyəvi maddələrin **istifadə edilməsi** dedikdə həmin maddələrin xüsusi texnika və avadanlıq olduğu halda kənd təsərrüfatı bitkilərinin şəxsən və ya aqrar-sənaye istehsalatında yetişdirmək üçün tətbiq olunması başa düşülür.

Pestisidlər və aqrokimyəvi maddələrin **daşınması** dedikdə həmin maddələrin istehsal olunduğu, müvəqqəti saxlanıldığı yerdən, habelə anbarlardan istifadə olunacağı yerə aparılması başa düşülür.

11. Gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması həm fəal **hərəkətlərlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Qeyd olunan qaydalar çoxsaylı normativ hüquqi aktlarda təsbit olunmuşdur və qanunda göstərilən hallarda məcburi xarakter daşıyır. Məsələn, Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli Qanununun 33-cü maddəsinə görə insan sağlamlığı və genetik fondun, bitki və heyvanlar aləminin mühafizəsi məqsədi ilə kənd və meşə təsərrüfatlarında mineral gübrələrin, bitkilərin mühafizəsi üçün kimyəvi vasitələr və stimulyatorların, başqa aqrokimyəvi maddələrin müəyyən olunmuş həddinin, aqrotexniki tədbirlərin tətbiqinin normadan artıq olmasına yol verilmir.

Azərbaycan Respublikasının «Fitosanitar nəzarəti haqqında» 12 may 2006-cı il tarixli Qanununun 1.0.10-cu maddəsinə görə **pestisidlər** dedikdə zərərli orqanizmlərə qarşı mübarizə məqsədi ilə istifadə edilən kimyəvi maddələr, **aqrokimyəvi maddələr** dedikdə isə torpaqların münbitliyinin artırılması, bitkilərin məhsuldarlığının yüksəldilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün tətbiq edilən üzvi, mineral və bakterial gübrələr, kimyəvi meliorantlar, bitkilərin boy artımının tənzimləyiciləri və digər maddələr başa düşülür. Həmin Qanunun 28.1.4-cü maddəsinə görə fövqəladə ekoloji şərait zonalarında zəhərli kimyəvi maddələrin tətbiqi məhdudlaşdırılır. Təbiəti mühafizə, sağlamlaşdırma, istirahət və turizm zonalarında, su fondu torpaqlarında, suqoruyucu və xüsusi qorunan digər ərazilərdə pestisidlərin və digər zəhərli kimyəvi maddələrin tətbiqi qadağan olunur.

12. **Gübrələr**, bitkilərin boy artımı stimulyatorları, təhlükəli kimyəvi və ya bioloji maddələrin kənd və meşə təsərrüfatlarında istifadə etmək və yaxud bitkilərin həvəskar və ya digər qeyri-kommersiya məqsədlərlə becərilməsi üçün xüsusi olaraq nəzərdə tutulan maddələrdir. Mineral, kimyəvi, üzvi, bakterial gübrələr bitkilərin gücləndirilmiş qidalanmasına kömək edir və torpağa, su hövzələrinə daxil edildikdə, bitkilərə və onların toxumlarına səpildikdə, bitkilərin sürətli inkişafı üçün lazımi şərait yaradır. Bitkilərin, kənd təsərrüfatı məhsullarının, oduncağın və s. qorunması, habelə bitkilərin boy artımını və inkişafını tənzimləmək, alaq otları ilə mübarizə aparmaq, bitkilər və heyvanlar üçün təhlükəli olan xəstəlikləri məhv etmək və digər bu kimi məqsədlər üçün pestisid-

lərdən istifadə olunur.

Təhlükəli kimyəvi və ya bioloji maddələr haqqında CM-in 248-ci maddəsinin şərhində danışılır.

13. Bitkilərin boy artımı stimulyatorları, mineral, kimyəvi və s. gübrələr olmayan maddələrin istifadə olunması, habelə saxlanması, istifadə edilməsi, yaxud daşınması təsərrüfat və ya başqa fəaliyyətin həyata keçirilməsinin baş verən nəticələrinin xarakterindən asılı olmayaraq, şərh olunan maddənin tətbiqinin mümkünlüyünü istisna edir.

14. Gübrələrlə, bitkilərin boy artımı stimulyatorları ilə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə **davranış qaydalarının pozulması** dedikdə onların (pestisidlərin, gübrələrin və s.) bunun üçün nəzərdə tutulmayan anbarlarda, yaxud açıq hava altında, yaxud onların toksikilik dərəcəsi nəzərə alınmadan saxlanılması; aqrokimyəvi maddələrin davamlı olmayan, yaxud standartlara cavab verməyən qablarda saxlanması, daşınması və ya istehlakçılara verilməsi; aqrokimyəvi maddələrin onları daşımaq üçün nəzərdə tutulmayan nəqliyyatla daşınması və bunun nəticəsində onların torpağa qanunsuz olaraq daxil olması (tökülməsi, dağılması), habelə kənd təsərrüfatı və ya meşə torpaqlarının həmin maddələrlə emalı zamanı onların sərf olunması normalarını aşma və s. başa düşülür. Öz-özlüyündə haqqında danışdığımız qaydaların pozulması, torpağın kimyəvi tərkibinin dəyişməsinə səbəb olmamışdırsa, yəni torpaqların zəhərlənməsi, çirkləndirilməsi və ya başqa cür korlanması insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurulmasına (CM-in 254.1-ci maddəsi) səbəb olmamışdırsa, yaxud fövqəladə və təhlükəli ekoloji vəziyyət zonasında törədilməmişdirsə (CM-in 254.2-ci maddəsi), yaxud da ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə (CM-in 254.3-cü maddəsi) səbəb olmamışdırsa, İXM-in 273.0.5-ci maddəsi ilə «bitki mühafizə vasitələrinin, onların boy stimulyatorlarının, mineral gübrələrin və başqa maddələrin (preparatların) saxlanması, daşınması və tətbiq edilməsi qaydalarının pozulması»na görə inzibati məsuliyyətin yaranmasına səbəb olur.

15. CM-in 254.1-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün torpaqların zəhərlənməsi, çirkləndirilməsi, yaxud başqa cür korlanması gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində baş verməlidir. Torpaqların zəhərlənməsi, çirkləndirilməsi, yaxud başqa cür korlanması gübrələrə, təhlükəli kimyəvi və ya bioloji maddələrə aid olmayan maddələr və ya tullantılarla davranış qaydalarının pozulması, yaxud sənaye istehsalı nəticəsində baş vermişdirsə, CM-in 254-cü maddəsində nəzərdə tutulan cinayətə görə cinayət məsuliyyəti istisna edilir.

16. Qanunverici CM-in 254.1-ci maddəsində şərh olunan cinayətin ictimai təhlükəli nəticələri qismində insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyanın vurulmasını nəzərdə tutur. **İnsanın sağlamlığına əhəmiyyətli zərər vurulması** dedikdə yüngül, az ağır və ya ağır zərər vurulması başa düşülür.

Ətraf mühitə əhəmiyyətli ziyan vurulması dedikdə CM-in 254.1-ci maddəsində qeyd olunan əməllər nəticəsində qeyri kənd təsərrüfatı bitkilərinin, heyvanların (həm vəhşi, həm də ev heyvanlarının), su obyektlərinin bioloji sər-

vətlərinin məhv olması, atmosfer havasının korlanması, ətraf mühitin mühüm elementi kimi torpaqların tənəzzülə uğraması və s. başa düşülür.

Ətraf mühitə vurulan ziyan müvafiq metodikalara və normativlərə görə, bunlar olmadıqda isə, torpaqların keyfiyyətinin pisləşməsi və onlardan istifadənin məhdudlaşmaları nəzərə alınmaqla, tənəzzülə uğramış və çirkləndirilmiş torpaqların bərpasına sərf olunan faktiki məsrəflərə görə hesablanır.

17. Təhlil etdiyimiz cinayət əməli CM-in 254-cü maddəsində qeyd olunan kriminal nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab edilir.

18. Şərh olunan cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. Təqsirkar gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarını pozduğunu dərk edir, bu qaydaların pozulması nəticəsində torpaqların çirklənməsini, zəhərlənməsini, yaxud onların başqa cür korlanmasını, habelə insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyan vurulmasını qabaqcadan görür, bunları arzu etmir, lakin onların baş verməsinə şüurlu surətdə yol verir.

Təqsirkarın zərərçəkmiş şəxsin ölümünə psixi münasibəti (CM-in 254.3-cü maddəsi) yalnız **ehtiyatsızlıq** formasında ifadə olunur.

Zərərçəkmiş şəxsin ölümü çirkləndirilmiş (zəhərlənmiş) torpaqlardan əldə edilmiş (burada yetişdirilmiş) məhsulların istehlak olunması, təhlükəli kimyəvi və digər zərərli maddələrin insanın orqanizminə daxil olması nəticəsində baş verir. Torpaqları korlama ilə insanın ölümü arasında **səbəbli əlaqə** müəyyən olunmalıdır.

19. CM-in 254.2-ci maddəsində **ağırlaşdırıcı tərkib əlaməti** qismində CM-in 254.1-ci maddəsində qeyd olunan əməllərin fövqəladə və təhlükəli ekoloji vəziyyət zonasında törədilməsi nəzərdə tutulur. Fövqəladə və təhlükəli ekoloji vəziyyət zonalarının anlayışı CM-in 248-ci və 250-ci maddələrinin şərhində verilmişdir.

Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətinin CM-in 254-cü maddəsinə daxil edilməsi və buna görə daha ağır məsuliyyət müəyyən olunması torpaqların xüsusi rejimi ilə əlaqədar və belə ərazilərdə (fövqəladə və təhlükəli ekoloji zonalarda) torpaqların əvvəlki vəziyyətinin bərpa edilməsinin, onların rekultivasiyasının çətinliyi ilə izah olunur.

20. Şərh edilən cinayətin **subyekti** təsərrüfat fəaliyyətini və ya CM-in 254.1-ci maddəsində göstərilən maddələrlə davranışla bağlı olan hər hansı digər fəaliyyəti həyata keçirən, cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

Maddə 255. Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma

Dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların, faydalı qazıntıların çıxarılması ilə əlaqəsi olmayan layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və ya istismarı zamanı yerin təkinin qorunması və istifadə edilməsi qaydalarının pozulması, habelə faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti aparılması əhəmiyyətli zərərə səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Qeyd olunan maddə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yenidir. Belə ki, əvvəlki CM-də yerin təkinin cinayət-hüquqi mühafizəsi nəzərdə tutulmurdu. Bu maddədə yerin təkinin qorunması və istifadə edilməsi qaydalarının pozulmasına səbəb olan əməllərin dairəsi göstərilir, cinayətin predmetinin xarakteristikası verilir, habelə nəzərdə tutulan əməllərə görə cinayət məsuliyyətinin həmin əməllər yalnız əhəmiyyətli ziyanın vurulmasına səbəb olduqda yaranması müəyyən olunur.

2. Qanunvericinin bu maddəni CM-də nəzərdə tutmaqda **məqsədi** dağ-mədən müəssisələrinin və yeraltı qurğuların tikintisi, layihələşdirilməsi, istismara buraxılması və ya istismarı zamanı yerin təkinin qorunması və istifadəsi sahəsində hüquq qaydasını təmin etmək, habelə faydalı qazıntıların yerləşdiyi əraziləri qanunsuz tikinti aparılmasından cinayət-hüquqi vasitələrlə mühafizə etməkdir.

3. Qeyd olunan maddədə əks olunmuş cinayət hüquq norması CM-in 247-ci maddəsində nəzərdə tutulan normaya münasibətdə xüsusi norma hesab olunur və əməlin xarakterinə görə fərqlənən bir neçə cinayət tərkibinin əlamətlərini ifadə edir.

4. Bu cinayətin **obyekti** yerin təkinin qorunması və ondan səmərəli istifadə edilməsi sahəsində yaranan ictimai münasibətlərdir.

5. Təhlil olunan cinayətin **obyektiv cəhəti** dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların, faydalı qazıntıların çıxarılması ilə əlaqəsi olmayan layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və ya istismarı zamanı yerin təkinin qorunması və istifadə edilməsi qaydalarının pozulması, yaxud faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti aparılması, bu əməllər nəticəsində əhəmiyyətli zərərin vurulması və həmin əməllərlə baş verən ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqədə ifadə olunur.

6. Yerin təkinin mühafizəsi və istifadə olunması qaydaları çoxsaylı normativ hüquqi aktlarla tənzimlənir. Bunların arasında Azərbaycan Respublikasının 13 fevral 1998-ci ildə qəbul edilmiş «Yerin təki haqqında» Qanunu xüsusi əhəmiyyət kəsb edir. Bu Qanunun 1-ci maddəsinə görə **yerin təki** dedikdə yer qabığının yer səthindən və ya torpaq qatından, su obyektlərinin (sututarların) dibindən aşağıda yerləşən, öyrənilməsi və istifadəsi mümkün olan dərinliklərədək uzanan süxurlardan, mineral-xammal ehtiyatlarından, enerji daşıyıcılarından (neft, qaz və s.), təbii və süni boşluqlardan, geoloji və texnogen törəmələrdən ibarət hissəsi başa düşülür.

7. «Yerin təki haqqında» Qanunun 7-ci maddəsində yerin təkindən istifadənin növləri müəyyən olunmuşdur. Bu maddəyə görə, yerin təki faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı,

faydalı qazıntıların çıxarılması, geoloji və geoekoloji öyrənmə, mineraloji, paleontoloji və digər geoloji kolleksiya materiallarının toplanması, arxeoloji qazıntıların aparılması məqsədi ilə istifadəyə verilə bilər.

8. Nəzərdən keçirilən işlərin yerinə yetirilməsi zamanı yerin təkinin qorunması qaydaları dağ-mədən və ekoloji qanunvericilik sahəsində qüvvədə olan normativ hüquqi aktlarla müəyyən olunur. Bu aktlar dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların faydalı qazıntıların çıxarılması ilə əlaqəsi olmayan layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və ya istismarının şərtlərini, qaydasını, əsaslarını və bu növ işlərin görülməsinə yönəldilən digər tələbləri müəyyən edir. Yerin təkinin qorunması qaydalarına sadalanan işlərin görülməsi zamanı mütləq riayət olunmalıdır. Bu qaydaların əhəmiyyəti və onların nəzərə alınmasının (tətbiqinin, yerinə yetirilməsinin, realizə olunmasının) zəruriliyi həyata keçirilən proseslərin predmetinə, yəni dağ-mədən müəssisələrinə və ya yeraltı qurğulara görə müəyyən olunur.

9. Yerin təkinin qorunması qaydalarının pozulması ilə nəticələnən əməllər həm **fəal hərəkətlərlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Qaydaların pozulması üzrə **hərəkətlər** faydalı qazıntı yataqlarının su basmasına, sulanmaya, yanğına və faydalı qazıntıların keyfiyyətini aşağı sala bilən, yataqların sənaye əhəmiyyətini azaldan və ya onların işlənməsini mürəkkəbləşdirən digər amillərə məruz qalmasında; yerin təkindən istifadə edilərkən, habelə neft, qaz və başqa maddələr və istehsalat tullantıları basdırılarkən, çirkli sular axıdılarkən yer təkinin çirkləndirilməsində; faydalı qazıntılar çıxaran müəssisələrin və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların fəaliyyətinin müvəqqəti dayandırılması və ləğv edilməsi qaydalarının pozulmasında; içməli, yaxud sənayenin su təchizatı üçün istifadə edilən sututarlarda və yeraltı sular yayılan yerlərdə sənaye və məişət tullantılarının yığılmasında və s. ifadə olunur.

Yerin təkinin qorunması qaydalarının **hərəkətsizliklə** pozulması faydalı qazıntıların və yanaqı komponentlərin yerin təkindən daha dolğun çıxarılmasının təmin edilməsi üçün zəruri tədbirlərin görülməməsində, faydalı qazıntıların çıxarılmasına verilən lisenziyanın şərtlərinə riayət edilməməsində, yerin təkinin geoloji öyrənilməsi, səmərəli və kompleks istifadəsi və mühafizəsinin dolğunluğunun təmin edilməməsində, dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların tikintisi üzrə qabaqlayıcı geoloji və geoekoloji işlərin aparılmamasında və s. ifadə oluna bilər.

Nəzərdən keçirilən əməllər yerin təkindən faydalı qazıntıların çıxarılmasının, tikinti obyektlərinin, texnoloji avadanlıqların, yeraltı qurğuların və s. dağ-mədən işlərinin zərərli təsirindən qorunması, dağ-mədən süxurlarının zərərli maddələrin təsirinə məruz qalmasından, faydalı qazıntı yataqlarının su basmasından, sulanmadan və onların keyfiyyətini aşağı salan digər zərərli amillərdən mühafizə edilməsi, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların tikintisi və istismarının zərərli təsirlərindən ətraf mühitin qorunması üzrə qanunvericiliyin tələblərini pozur.

10. **Faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti aparılması** dedikdə xüsusi səlahiyyətli dövlət orqanlarının müvafiq icazəsi olmadan qeyri-

istehsal təyinatlı qurğular da daxil olmaqla, istənilən qurğuların, tikililərin ucaldılması başa düşülür. Faydalı qazıntıların yerləşdiyi ərazidə tikinti aparılması üçün icazənin alınmasının məcburiliyi müvafiq normativ hüquqi aktlarla müəyyən edilir. Belə aktlara «Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 mart tarixli qərarı ilə təsdiq edilmiş «Ümumi yayılmış faydalı qazıntı yataqlarının işlənməsi üçün yer təkinin verilməsi Qaydaları», 8 noyabr 1999-cu il tarixli, 176 saylı qərarı ilə təsdiq edilmiş «Faydalı qazıntı yataqlarının geoloji-iqtisadi qiymətləndirilməsinin tələbləri və meyarları» və s. aktlar aid edilir.

«Yerin təki haqqında» Qanununun 23-cü maddəsinə görə faydalı qazıntılar yerləşən sahələrdə yaşayış məntəqələrinin, sənaye komplekslərinin və digər təsərrüfat obyektlərinin layihələşdirilməsinə və tikintisinə dair işlərin aparılmasına, eləcə də həmin sahələrdə yeraltı qurğuların yerləşdirilməsinə faydalı qazıntıların çıxarılmasının mümkünlüyünü və tikinti işlərinin iqtisadi cəhətdən məqsədəuyğunluğunu, habelə dağ-mədən işlərinin təhlükəsiz aparılmasını və yerli şəraiti nəzərə almaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən icazə verilir. Qeyd olunan obyektlərin inşasına tikinti işləri aparılacaq sahənin altındakı yerin təkində faydalı qazıntılar olmadığı halda da müvafiq icra hakimiyyəti orqanı tərəfindən icazə verilir.

Faydalı qazıntılar yerləşən sahələrdə özbaşına aparılan tikinti işləri, onlara qoyulan vəsait, tikililərin sökülməsinə və sahənin rekultivasiyasına çəkilən xərclər ödənilmədən dayandırılır.

Faydalı qazıntılar yerləşən sahələrdə tikinti işlərinin aparılması qaydalarına riayət edilməsi, əgər bu işlərin görülməsinə müvafiq icazə alınmamışdırsa, tikintinin qanunsuz olmasını aradan qaldırmır. Müvafiq icazədə nəzərdə tutulan şərtlərə riayət olunmadan aparılan tikinti işləri də, icazənin alınmış olmasına baxmayaraq, qanunsuz və ya özbaşına aparılan tikinti hesab olunmalıdır.

11. Dağ-mədən müəssisələrinin və ya qurğuların layihələşdirilməsi, tikintisi, istismara buraxılması və istismarının anlayışı CM-in 247-ci maddəsinin şərhində verilmişdir.

12. Şərh olunan cinayətin törədilməsi nəticəsində **əhəmiyyətli zərər vurulması** dedikdə faydalı qazıntıların keyfiyyətinin aşağı düşməsi, onların ehtiyatlarının itirilməsi, torpaqların vəziyyətinin pisləşməsi, onların istismardan çıxarılması, faydalı qazıntı yataqlarının istismarının çətinləşməsi, ətraf mühitin obyektlərinin ekoloji vəziyyətinin pozulması və s. başa düşülməlidir. Vurulan zərərin əhəmiyyətli olub-olmaması hər bir halda məhkəmə tərəfindən işin bütün hallarının hərtərəfli araşdırılması və nəzərə alınması əsasında müəyyən olunur.

13. Şərh olunan cinayət əməli CM-in 255-ci maddəsində nəzərdə tutulan əməllərin törədilməsi nəticəsində əhəmiyyətli zərərin vurulduğu andan **başa çatmış** hesab olunur.

14. Təhlil edilən cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. Təqsirkar yerin təkindən istifadə olunması və onun qorunması qaydalarını pozduğunu, yaxud faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti apardığını dərk edir, bunun ictimai təhlükəli nəticələrə səbəb olacağını qabaqcadan görür, belə nəticələrin baş verməsini arzu etmir, lakin onların baş verməsinə şüurlu surətdə yol verir.

15. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, yerin təkinin qorunması və istifadəsi qaydalarına riayət etməyə borclu olan anlaqlı fiziki şəxs ola bilər.

16. Şərh olunan cinayətin İXM-in 243-cü maddəsində nəzərdə tutulan «Yerin təkindən istifadə qaydalarının pozulması» adlı inzibati xətadan fərqləndirilməsi əməlin obyektiv cəhətinə, habelə cinayət törədildikdə əhəmiyyətli zərər şəklində müəyyən edilən ictimai təhlükəli nəticələrin baş verməsinə görə aparılır.

Maddə 256. Balıq və digər su bioresurslarını qanunsuz tutma

256.1. Balıq və digər su bioresurslarının qanunsuz tutulması xeyli miqdarda ziyan vurduqda —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz iyirmi saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

256.2. Eyni əməllər:

256.2.1. külli miqdarda ziyan vurulmaqla törədildikdə;

256.2.2. özüyeriyən və özüüzən nəqliyyat vasitəsindən və ya partlayıcı və ya kimyəvi maddələrdən və ya balıq və digər su bioresurslarının kütləvi məhvinə səbəb olan vasitələrdən istifadə etməklə törədildikdə;

256.2.3. qoruqların ərazisində və ya fövqəladə, yaxud təhlükəli ekoloji vəziyyət zonasında törədildikdə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

256.3. Bu Məcəllənin 256.1-ci və ya 256.2-ci maddələrində nəzərdə tutulmuş əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya qabaqcadan əlbir olan bir qrup şəxs, yaxud mütəşəkkil dəstə tərəfindən törədildikdə —

altı min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 256.1-ci maddəsində «xeyli miqdar» dedikdə dörd yüz manatdan min manatadək olan məbləğ, 256.2.2-ci maddəsində «külli miqdar» dedikdə isə min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il, 16 may 2008-ci il, 30 aprel 2013-cü il, 6 mart 2015-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlə - Azərbaycan Respublikası QT, 2001, № 7, m 455; «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 7 mart 2015-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu maddə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yeni

deyildir. Belə ki, Azərbaycan Respublikasının 1960-cı il CM-in 159-cu maddəsində «Qanunsuz olaraq balıq tutma və ya sudan başqa şeylər tutma peşəsi ilə məşğul olma» adı altında cinayət tərkibi nəzərdə tutulmuşdu.

Qanunverici yeni CM-in qeyd olunan maddəsində əvvəlki CM-dən fərqli olaraq, ictimai təhlükəli hərəkətlərin törədilmə üsullarını və yerini göstərməklə, bir sıra yeni ağırlaşdırıcı tərkib əlamətləri daxil etməklə şərh olunan cinayət tərkibinin obyektiv cəhətini daha dolğun, ətraflı səciyyələndirmişdir.

2. Qanunvericinin bu maddəni CM-də nəzərdə tutmaqda **əsas məqsədi** ölkənin təbii sərvətlərini cinayət-hüquqi vasitələrlə mühafizə etmək və su obyektlərində yaşayan heyvanların qorunub saxlanmasını, ətraf mühitdə ekoloji tarazlığı təmin etməkdir.

3. Balıq və digər su bioresurslarının tutulması, mühafizə edilməsi və onlara müxtəlif təsirlərin göstərilməsi üzrə fəaliyyət təhlil edilən cinayət hüquq normasının tətbiq olunduğu sahədir.

4. Şərh olunan cinayətin **obyektini** balıqların və digər su bioresurslarının, onların yaşadığı təbii mühitin mühafizəsi, artırılması və istifadə edilməsi sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

5. Bu cinayətin **predmeti** balıqlar və digər su bioresurslarıdır.

Azərbaycan Respublikasının «Balıqçılıq haqqında» 27 mart 1998-ci il tarixli Qanununun 1-ci maddəsinə görə balıqlar dedikdə həm şirin, həm də şor sulu su hövzələrində məskunlaşan, istifadə olunan və ya istifadə oluna bilən bütün yaş həddlərindən olan balıq növləri başa düşülür.

Digər su bioresurslarına suda yaşayan bütün növ suitilər, xərçəngkimilər, tısbağalar, zooplanktonlar, bentik orqanizmlər və digər su canlıları başa düşülməlidir.

6. Suda yaşayan heyvanların mühafizəsinin və balıqçılığın hüquqi tənzimi Azərbaycan Respublikasının bir sıra qanunvericilik və normativ hüquqi aktları vasitəsilə həyata keçirilir. Belə aktlara Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli, «Heyvanlar aləmi haqqında» 4 iyun 1999-cu il tarixli, «Balıqçılıq haqqında» 27 mart 1998-ci il tarixli qanunları, Nazirlər Kabinetinin 6 sentyabr 1999-cu il tarixli, 146 saylı qərarı ilə təsdiq edilmiş «Balıqçılıq əhəmiyyətli su obyektlərinə zərərli təsirin yol verilən normaları», «Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni balıq ovuna görə cərimələr», «Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında balıq ehtiyatlarından istifadə haqqı və qaydaları» və s. aid edilir.

7. Təhlil edilən cinayət əməlinin **obyektiv cəhəti** balıqların və digər su bioresurslarının xeyli miqdarda ziyan vurulmasına səbəb olan qanunsuz tutulmasında ifadə olunur.

8. **Tutma** dedikdə balıqların və digər su bioresurslarının ovlanmış və ya tutulmuş canlı təbiət obyektlərinin həcmindən asılı olmayaraq, onlara faktiki sahib olma ilə nəticələnən ovlanması, tutulması, öldürülməsi (yemək üçün kəsilməsi) və təbii mühitdən digər formada çıxarılması prosesi başa düşülür.

9. **Balıqları və ya başqa su heyvanlarını qanunsuz tutma** dedikdə bu prosesin həyata keçirilməsi zamanı şəxsin ova dair müvafiq normativ hüquqi

aktlarla müəyyən edilmiş ümumi qadağanları pozması, yaxud balıqları və digər su bioresursları tutmanın predmetini, həcmini, yerini, vaxtını və üsullarını müəyyən edən icazənin şərtlərini pozması başa düşülməlidir.

Balıqların və digər su bioresurslarının tutulmasına icazə müvafiq səlahiyyətli orqanlar tərəfindən verilir. Belə icazələrin müxtəlif növləri vardır və onların verilməsi həm balıq və ya başqa su heyvanlarının ovlanması (tutulması) ilə məşğul olan subyektdən, həm də ovun xarakterindən asılıdır. Məsələn, «Balıqçılıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 iyun 1998-ci il tarixli Fərmanının 2-ci bəndinə görə idman və həvəskar balıq ovu Ovçular Cəmiyyəti tərəfindən verilmiş icazə vərəqələri əsasında həyata keçirilir.

Azərbaycan Respublikasının «Balıqçılıq haqqında» Qanununun 11-ci maddəsinin 6-cı hissəsinə görə təbiəti mühafizə, balıqçılıq, ovçuluq, idman və digər cəmiyyətlərin, təşkilatların və mülkiyyətçilərin istifadəsində olan sututarlarda idman və həvəskar balıq ovuna icazə vərəqələri su obyektlərinin mülkiyyətçiləri və ya istifadəçiləri tərəfindən verilir.

Ümumiyyətlə, balıqların və digər su bioresurslarının ovlanmasının (tutulmasının) qanunla müəyyən olunmuş qaydası müvafiq normativ hüquqi aktlarda təsbit edilir (bu maddəyə verilən şərhin 7-ci bəndinə bax).

10. CM-in 256.1-ci maddəsinin mənasına görə, balıqların və digər su bioresurslarının qanunsuz tutulması yalnız **xeyli miqdarda ziyan vurduqda** cinayət məsuliyyətinin yaranmasına səbəb olur. CM-in 256-cı maddəsinin qeydinə görə, xeyli miqdar dedikdə 400 manatdan 1000 manatadək olan məbləğ başa düşülməlidir.

11. CM-in 256.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) külli miqdarda ziyan vurmaqla; b) özüyeriyən və özüüzən nəqliyyat vasitəsindən və ya partlayıcı və ya kimyəvi maddələrdən və ya balıqların və digər su bioresurslarının kütləvi məhvinə səbəb olan vasitələrdən istifadə etməklə; c) qoruqların ərazisində və ya fövqəladə, yaxud təhlükəli ekoloji vəziyyət zonasında törədilməsi nəzərdə tutulur.

12. CM-in 256-cı maddəsinin qeydinə görə, **külli miqdar** dedikdə 1000 manatdan artıq olan məbləğ başa düşülür.

Ümumiyyətlə, şərh olunan cinayət əməlinin törədilməsi nəticəsində xeyli miqdarda, yaxud külli miqdarda ziyan vurulması qiymətli (nadir, nəsli kəsilməkdə olan) balıq növlərinin tutulması, onların xeyli miqdarda ovlanması, balıq körpələrinin, balıqların kürüləmə yerlərinin məhv edilməsi və s. şəklində ifadə olunur.

13. **Özüyeriyən və özüüzən nəqliyyat vasitəsindən istifadə etmə** dedikdə balıqların və digər su bioresurslarının qanunsuz tutulmasında katerlərdən, motorlu qayıqlardan, sair kiçik ölçülü üzən vasitələrdən istifadə olunması başa düşülür.

14. **Partlayıcı və ya kimyəvi maddələrdən istifadə olunması** balıqların və digər su bioresurslarının tutulması zamanı, habelə onların təbii mühitdən fiziki olaraq götürülməsini, çıxarılmasını təmin etmək məqsədi ilə su obyektlə-

rində partlayışların törədilməsində, balıqların və digər su bioresurslarının yaşadığı su hövzələrinə kimyəvi maddələrin tökülməsində ifadə olunur.

15. **Balıqların və digər su bioresurslarının kütləvi məhvinə səbəb olan vasitələrdən istifadə etmə** dedikdə onların qanunsuz tutulması zamanı elektrik cərəyanından, güclü projektor işığından, odlu silahdan, müəyyən edilmiş ölçülərdən kiçik dəlikləri olan balıqçı torlarından, tələlərdən, elektromaqnit dalğalarından, eləcə də bu cinayətin predmetinin kütləvi qırılmasına, tələf olmasına səbəb olan istənilən digər vasitələrdən istifadə olunması başa düşülür.

16. **Qoruqların, fövqəladə, yaxud təhlükəli ekoloji vəziyyət zonasının** anlayışı CM-in 250-ci maddəsinin şərhində verilmişdir.

17. Qanunverici CM-in 256.1-ci və 256.2.1-ci maddələrində **maddi tərkibli**, 256.2.2-ci və 256.2.3-cü maddələrində isə **formal tərkibli** cinayətləri nəzərdə tutmuşdur. Buna görə də CM-in 256.1-ci və 256.2.1-ci maddələrində nəzərdə tutulan cinayət əməlləri xeyli, yaxud külli miqdarda ziyan vurulduğu andan, CM-in 256.2.2-ci və 256.2.3-cü maddələrində qeyd olunan cinayətlər isə bu maddələrdə nəzərdə tutulan ictimai təhlükəli əməllər törədildiyi andan **başa çatmış** hesab olunur.

18. Şərh olunan cinayət **subyektiv cəhətdən** həm **birbaşa**, həm də **dolayı qəsdlə** törədilir. Təqsirkar öz əməllərinin ictimai təhlükəli olduğunu dərk edir, onların qeyd olunan kriminal nəticələrə səbəb olacağını qabaqcadan görür və bunu arzu edir (birbaşa qəsd), yaxud belə nəticələrin baş verməsini (məsələn, külli miqdarda ziyan vurulmasını) arzu etmir, lakin onların baş verməsinə şüurlu surətdə yol verir (dolayı qəsd).

19. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

20. CM-in 256.3-cü maddəsində şərh olunan cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** qismində onun şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya qabaqcadan əlbir olan bir qrup şəxs, yaxud mütəşəkkil dəstə tərəfindən törədilməsi nəzərdə tutulur. Burada **qulluq mövqeyindən istifadə edilməsi** balıqları və digər su bioresurslarını tutmaq üçün zəruri olan informasiyanın əldə edilməsindən, onun gizli xarakterinin, lazımi texniki vasitələrin əldə edilməsi və ya istifadə olunmasını təmin etməkdən və sair analoji hərəkətlərdən ibarət olur. İstintaq və məhkəmə təcrübəsinə görə, bu ağırlaşdırıcı tərkib əlaməti üzrə əsasən qoruqların, vətəgələrin, mühafizə zonalarının əməkdaşları, ətraf mühitin mühafizəsi üzrə dövlət orqanlarının vəzifəli şəxsləri cinayət məsuliyyətinə cəlb olunur.

Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs, yaxud mütəşəkkil dəstə tərəfindən törədilməsinin izahı CM-in 34.2-ci və 34.3-cü maddələrinin şərhində verilir.

21. Şərh olunan cinayət tərkibinin İXM-in 272-ci maddəsində nəzərdə tutulan «Balıq ehtiyatlarının mühafizəsi və ov qaydalarının pozulması» adlı xətadan fərqləndirilməsi əməlin predmetinə və obyektiv cəhətin əlamətlərinə, habelə cinayətin törədilmə yeri, üsulu və alətlərinə, baş vermiş nəticələrə, ağırlaşdırıcı tərkib əlamətlərinə görə aparılır.

Maddə 257. Balıq və digər su bioresurslarının qorunması qaydalarını pozma

Körpülərin, bəndlərin tikintisi, partlayış işlərinin və ya digər işlərin həyata keçirilməsi, habelə suburaxıcı qurğuların istismarı balıq və digər su bioresurslarının qorunması qaydalarını pozmaqla törədildikdə və bu əməllər balıq və digər su bioresurslarının kütləvi məhvinə səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 6 mart 2015-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 7 mart 2015-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh olunan maddə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yenidir. Qanunvericinin bu maddəni CM-də nəzərdə tutmaqda **əsas məqsədi** həyata keçirilməsi ətraf mühit üçün ağır nəticələrin baş verməsinə səbəb ola bilən müxtəlif növ işlərin yerinə yetirilməsi zamanı balıqların və digər su bioresurslarının mühafizəsini cinayət-hüquqi vasitələrlə təmin etməkdir.

2. Hüquqi-texniki baxımdan qeyd olunan maddə **mürəkkəb quruluşa** malikdir. Bu maddədə əməlin məzmununa və ictimai təhlükəli nəticələrə görə fərqlənən bir sıra əsas cinayət tərkibləri nəzərdə tutulmuşdur. Buna baxmayaraq, balıqların və digər su bioresurslarının qorunması qaydalarının pozulması, habelə subyektiv cəhətin əlamətləri qeyd olunan cinayət tərkibləri üçün ümumi hesab oluna bilər.

3. Balıq ehtiyatlarının qorunması qaydaları Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının «Balıqçılıq haqqında» 27 mart 1998-ci il tarixli Qanununda, «Heyvanlar aləmi haqqında» 4 iyun 1999-cu il tarixli Qanununda və digər normativ hüquqi aktlarda müəyyən edilmişdir (CM-in 256-cı maddəsinin şərhinə bax).

4. Şərh olunan cinayətin **obyekti** istehsal fəaliyyəti prosesində su obyektlərindən istifadə edilməsi zamanı balıqların və digər su bioresurslarının, qiymətli balıq növlərinin və digər su heyvanlarının qorunması sahəsində yaranan ictimai münasibətlərdir.

5. Təhlil olunan cinayətin **predmetini** balıq və digər su bioresursları təşkil edir.

6. Bu cinayətin **obyektiv cəhəti** balıq və digər su bioresurslarının qorunması qaydalarını pozmaqla törədilən körpülərin, bəndlərin tikintisindən, partlayış işlərinin və ya digər işlərin həyata keçirilməsindən, habelə suburaxıcı qurğuların istismarından, bu əməllərin balıqların və digər su bioresurslarının kütləvi məhvinə səbəb olmasından, habelə qeyd olunan kriminal xarakterli əməllərlə baş vermiş ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqədən ibarətdir.

7. Balıq ehtiyatlarının qorunması qaydaları müvafiq texnoloji proseslərin və işlərin həyata keçirilməsi üçün nəzərdə tutulur və ya həmin işlərin yerinə yetirilməsi zamanı bu qaydalara məcburi surətdə riayət olunur. Məsələn, «Balıqçı-

lıq haqqında» Qanunun 4-cü və 5-ci fəsillərində balıq ehtiyatlarının, onların məskunlaşdığı mühitin mühafizəsi, onun qaydaları və əsasları təsbit olunur.

Azərbaycan Respublikasının Su Məcəlləsinin 11-ci fəsli su obyektlərindən balıqçılıq və ovçuluq üçün istifadənin əsaslarını, qaydalarını nəzərdə tutur.

8. **Körpülərin tikintisi** dedikdə su obyektlərinin üzərindən nəqliyyat, gediş-gəliş təyinatlı xüsusi qurğuların ucaldılması başa düşülür.

Bəndlərin tikintisi, bir qayda olaraq, su elektrik stansiyalarının ehtiyacları və digər məqsədlərlə xüsusi qurğuların, tikililərin inşa edilməsi üzrə apanlan fəaliyyətdə ifadə olunur.

CM-in 257-ci maddəsinin nəzərdə tutduğu mənada **partlayış işləri** dedikdə balıqların və ya digər su heyvanlarının yaşadığı su obyektlərində bəndlərin, körpülərin tikintisi, dibdərinləşdirici işlərin görülməsi, boru kəmərlərinin çəkilməsi və s. zamanı partlayıcı maddələrdən və onların dağıdıcı qüvvəsindən istifadə etməklə həyata keçirilən işlər başa düşülür. Toksiki maddələrin ayrılması ilə müşayiət olunan texnologiyalardan istifadə edilməklə partlayış işlərinin həyata keçirilməsi müvafiq qanunvericiliklə qadağan edilir.

«Balıqçılıq haqqında» Qanunun 29-cu maddəsində balıqçılıq əhəmiyyətli su obyektləri üzərində inşa edilmiş su təsərrüfatı obyektlərinin istismarına dair tələblərdən biri qismində su bəndlərinin gövdəsində balıqların kürütökmə yerlərinə keçidini təmin edən balıqburaxıcı qurğuların quraşdırılması, hidrotexniki, sügötürücü və suburaxıcı qurğuların, irriqasiya sistemlərinin balıqqoruyucu qurğularla təchiz edilməsi və s. nəzərdə tutulur. Bu Qanunun 28-ci maddəsinə görə isə, balıqçılıq əhəmiyyətli su obyektlərinin vəziyyətinə təsir edə bilən müəssisələrin, qurğuların və digər obyektlərin tikintisi və yenidən qurulması layihələrinin müvafiq normativlərə, texniki şərtlərə və tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə layihə sənədlərinin balıq təsərrüfatı ekspertizası apanlır.

Qanunverici şərh olunan cinayətin obyektiv cəhətinə **«digər işlərin həyata keçirilməsi»** anlayışını daxil etmişdir. Belə işlərə su obyektlərində müxtəlif təyinatlı müəssisələrin və qurğuların istismarı üzrə fəaliyyət növləri aid oluna bilər. Qeyd olunan işlərə bəndlərin tikintisi üçün tullantı materiallarının su obyektlərinə tökülməsi, dirəklərin qadağan edilmiş yerlərdə və ya istifadəsinə icazə verilməyən texnika vasitəsi ilə basdırılması, çınqılın və qumun su obyektlərindən çıxarılıb aparılması, bu obyektlərin səs-küyün, vibrasiyanın, zərbə dalğalarının zərərli təsirlərinə məruz qalmasının digər üsulları və s. misal ola bilər.

Su Məcəlləsinin 70-ci maddəsinə görə balıqçılıq əhəmiyyətli sututarlarda hidrotexniki və başqa qurğular istismar edilərkən balıqların və digər su bioresurslarının qorunmasını və bərpasını təmin edən tədbirlər görülməlidir. Balıqçılıq əhəmiyyətli sututarlardan su götürülərkən onlar balıqqoruyucu qurğularla təchiz olunmalıdır.

Su Məcəlləsinin 71-ci maddəsinə görə balıqçılıq əhəmiyyətli sututarlarda aşağıdakı tədbirlərin həyata keçirilməsi qadağan edilir:

1) balıqların kürütökmə yerlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı olmadan bənd çəkmək və dağılmış bəndləri bərpa etmək;

2) müvafiq orqanların razılığı ilə sanitariya və hidrotexniki tədbirlərin görüldüyü hallar istisna edilməklə, çaylarda, çay qollarında və kanallarda qalaq yaratmaq və ya onların qəbağını kəsmək, göllərdən və limanlardan suyu buraxmaq;

3) ağac emalı zamanı əmələ gələn tullantıları sututarlara axıtmaq və həmin sututarların sahillərində və subasar yerlərində yığmaq;

4) dibdərinlətmə və dibtəmizləmə işləri zamanı qazılmış torpağı balığın kürütökmə yerlərinə və qışladığı çuxurlara yığmaq.

9. Şərh olunan cinayət ictimai təhlükəli nəticələr baş verdiyi andan **başa çatmış** hesab edilir. Qanunverici bu cinayətin ictimai təhlükəli nəticələri qismində CM-in 257-ci maddəsində nəzərdə tutulan əməllərin balıqların və digər su bioresurslarının kütləvi məhvinə səbəb olmasını nəzərdə tutur.

10. **Balıqların və ya digər su heyvanlarının kütləvi məhvi** dedikdə müəyyən ərazidə bir və ya bir neçə su obyektlərində eyni və ya müxtəlif növlərdən olan çoxlu sayda balıqların və digər su bioresurslarının eyni vaxtda tələf olması, qırılması başa düşülür.

11. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. Təqsirkar öz əməllərinin ictimai təhlükəli xarakter daşıdığını şüurlu surətdə dərk edir, onların balıqların və digər su bioresurslarının kütləvi məhvinə səbəb olacağını qabaqcadan görür, belə nəticənin baş verməsini arzu etmir, lakin onların baş verməsinə şüurlu surətdə yol verir.

12. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Buraya müvafiq növ işlərin rəhbərləri və ya icraçıları da daxildir.

Maddə 258. Qanunsuz ov etmə

258.1. Lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş vaxtda, qadağan edilmiş alət və üsullarla ov etmə xeyli miqdarda ziyan vurduqda —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz iyirmi saatadək ictimai işlər və ya bir iladək müddətə islah işləri və ya bir iladək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

258.2. Eyni əməllər:

258.2.1. külli miqdarda ziyan vurulmaqla törədildikdə;

258.2.2. partlayıcı maddələrdən və ya quşların və heyvanların kütləvi məhvinə səbəb olan başqa üsullardan istifadə etməklə törədildikdə;

258.2.3. ovlanması tamamilə qadağan edilmiş quşlara və heyvanlara qarşı törədildikdə;

258.2.4. qoruqların ərazisində və ya ekoloji fəlakət və fövqəladə ekoloji vəziyyət zonasında törədildikdə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir iladək müddətə islah işləri və ya iki iladək müddətə azadlığın məhdudlaşdırılması və ya iki iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

258.3. Bu Məcəllənin 258.1-ci və 258.2-ci maddələrində nəzərdə tutulan əməllər:

258.3.1. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

258.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə —

altı min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 258.1-ci maddəsində «xeyli miqdar» dedikdə dörd yüz manatdan min manatadək olan məbləğ, 258.2.1-ci maddəsində «külli miqdar» dedikdə isə min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 30 aprel 2013-cü il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu maddə Azərbaycan Respublikasının keçmiş CM-in 161-ci maddəsində «Qanunsuz ov etmə» adı altında nəzərdə tutulan cinayət tərkibinin qanunverici tərəfindən bir sıra əlavələr edilməklə yaradılmış yeni forması hesab oluna bilər. Qanunverici keçmiş CM-dən fərqli olaraq, şərh olunan 258-ci maddədə qanunsuz ov etməyə görə cinayət məsuliyyətinin yaranmasının şərti kimi inzibati preyudisiyanı çıxarmış, cinayət məsuliyyətinin yaranmasının əsası kimi «xeyli miqdarda ziyan vurulması» əlamətini daxil etmiş və tamamilə yeni ağırlaşdırıcı tərkib əlamətləri nəzərdə tutmuşdur.

2. Qanunvericinin şərh olunan maddəni CM-də nəzərdə tutmaqda **məqsədi** Azərbaycan Respublikasında heyvanlar aləminin obyektlərini cinayət-hüquqi vasitələrlə ictimai-təhlükəli qəsdlərdən qorumaqdır.

3. CM-in 258.1-ci maddəsində bu cinayətin əsas **maddi** tərkibinin əlamətləri nəzərdə tutulur.

4. Təhlil olunan cinayətin **obyektini** heyvanlar aləminin mühafizəsi və ondan istifadə edilməsi, habelə ətraf təbii mühitin ayrılmaz tərkib elementi kimi vəhşi heyvanların genetik fondunun qorunması sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

5. Bu cinayətin **predmeti** Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, quruda, suda, torpaqda və havada təbii olaraq sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növləridir.

«Ovçuluq haqqında» Azərbaycan Respublikasının 20 aprel 2004-cü il tarixli Qanununun 1.0.3-cü maddəsinə görə **ov obyektinə** qanunvericiliklə müəyyən edilmiş qaydada ovlanmasına icazə verilmiş təbii sərbəstlik və yarımsərbəst şəraitində xüsusi ayrılmış yerlərdə yaşayan, habelə ayrı-ayrı hüquqi və fiziki şəxslər tərəfindən yetişdirilib artırılan vəhşi heyvan növləri daxildir. Həmin Qanunun 5-ci maddəsinə görə isə **ovçuluq fəaliyyətinin obyektlərinə** ov yerlərində təbii sərbəstlik və yarımsərbəst şəraitində yaşayan və ov obyektinə aid edilmiş vəhşi heyvanlar, onların dəriləri, dəri örtükləri, buynuzları, sümükləri,

həyat fəaliyyətinin məhsulları, habelə məskunlaşma yerləri aiddir.

Həşəratlar qanunsuz ov etmə cinayətinin **predmeti** ola bilməz.

İnsan tərəfindən tutularaq heyvanxanalarda, volyerlərdə (qəfəsə alınmış meydançalarda), yaxud digər qeyri-sərbəst şəraitdə saxlanılan vəhşi heyvan növləri qanunsuz ov etmə cinayətinin predmeti hesab edilmir.

6. Şərh olunan cinayətin **obyektiv cəhəti**: a) lazımi icazə olmadan və ya qadağan olunmuş vaxtda, qadağan edilmiş alət və üsullarla ov etmədə; b) bunun nəticəsində xeyli miqdarda ziyan vurulmasında; c) törədilən əməllərlə baş vermiş ictimai təhlükəli nəticə arasında səbəbli əlaqədə ifadə olunur.

7. «Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə əsasən ovçuluq, yəni ov etmə heyvanlar aləminin obyektlərindən istifadənin bir növüdür. Bu Qanunun 15-ci maddəsinin mənasına görə, **ov etmə (ovçuluq)** dedikdə əhalinin maddi və mənəvi, iqtisadiyyatın xammal, material və digər tələbatlarının ödənilməsi məqsədi ilə təbii sərbəstlik şəraitində yaşayan ovçuluq obyektlərinə aid edilmiş vəhşi heyvanların izlənilməsi, təqib edilməsi, tutulması və vurulması başa düşülür.

«Ovçuluq haqqında» Azərbaycan Respublikasının 20 aprel 2004-cü il tarixli Qanununun 1.0.1-ci maddəsinə görə **ovçuluq** quruda və suda təbii sərbəstlik və yarımsərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan, habelə təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılan suda-quruda yaşayanların, xəzdərililərin, sürünənlərin, quşların və məməlilərin (vəhşi heyvanların) izlənilməsi, təqib edilməsi, tutulması və vurulması üzrə fəaliyyət növüdür.

Ovçuluq fəaliyyəti ödənişlidir və bu fəaliyyət ovçuluq bileti və ov etmək üçün verilən icazə əsasında həyata keçirilir (adı çəkilən Qanunun 12.2-ci maddəsi).

Ovçuluq bileti ovçuluq fəaliyyətini həyata keçirmək üçün hüquq verən sənəddir. Ovçuluq bileti Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilir.

Ov etmək üçün icazə ovçuluq fəaliyyətinin həyata keçirilməsinə icazə verən hüquqi sənəddir və ov obyektlərinin hər növünə ayrıca verilir. İcazə ov mövsümündə həvəskar və idman ovunu həyata keçirmək üçün fiziki və hüquqi şəxslərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilir. İcazədə ov obyektinin növü, ovlama üsulu və yeri, norması (sayı), onun vaxtı, icazənin müddəti və şərtləri göstərilir.

Ovçuluq fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ovçuluq üçün ayrılmış ov yerlərində həyata keçirilir.

Ovçuluq təsərrüfatının təşkili və aparılması məqsədi ilə vəhşi heyvanların yaşadığı və nəsil artırdığı ərazilər ovçuluq yerləri kimi istifadə edilir.

Vəhşi heyvanların ov obyektlərinə aid edilməsi, ov yerlərinin ayrılması, ovçuluq təsərrüfatının təşkili və ovun həyata keçirilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

8. Ovçuluqla bağlı olan məsələləri tənzimləyən **normativ hüquqi aktlara** Azərbaycan Respublikasının «Ovçuluq haqqında» Azərbaycan Respublikası-

nın 20 aprel 2004-cü il tarixli və «Heyvanlar aləmi haqqında» 4 iyun 1999-cu il tarixli qanunları, Nazirlər Kabinetinin 30 sentyabr 2004-cü il tarixli, 147 saylı qərarı ilə təsdiq edilmiş «Vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması qaydası», «Ovçular cəmiyyətlərinin ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili və idarə edilməsində iştirak etməsi qaydası», «Dövlət ovçuluq kadastrının və ov obyektlərinin monitorinqinin aparılması qaydası», «Ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması qaydası», «Ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi qaydası», «Ov etmək üçün icazənin verilməsi qaydası», «Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində ov etmək üçün icazənin verilməsi qaydası» və «Azərbaycan Respublikasının ərazisində fəaliyyətini həyata keçirmək üçün istifadə edilən ov alətlərinin növü və istifadəsi qaydası» Qərarı və s. aiddir.

9. Ov etmək üçün ayrılmış yerlərdə (ov yerlərində) tüfənglə, ov itləri, ov quşları və ov alətləri ilə olmanın özü də ov etmə kimi qiymətləndirilir.

CM-in 258-ci maddəsində nəzərdə tutulan mənada qanunsuz ov etmə dedikdə Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş icazə və ya ovçuluq biletləri olmadan, yaxud xüsusi qadağana məhəl qoymadan, yaxud ümumiyyətlə, ov etmək hüququ olmayan (18 yaşı tamam olmayan, habelə məhdud fəaliyyət qabiliyyətli və fəaliyyət qabiliyyəti olmayan şəxslər), yaxud ovçuluq üçün ayrılmış yerlərdən kənarda, yaxud qadağan edilmiş vaxtda və ya qadağan edilmiş alət və üsullarla həyata keçirilən ov başa düşülür.

Qadağan edilmiş alət və üsullara heyvanları şikəst edən, onlara əziyyət verən mexaniki qurğular, tələlər, torlar, vəhşi heyvanların və quşların səslərini çıxaran elektron cihazlar, onların kütləvi şəkildə tutulmasına səbəb olan tələ tipli çalalar və s. aid olunur.

10. CM-in 258.1-ci maddəsinin mənasına görə lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş vaxtda, qadağan edilmiş alət və üsullarla ov etmə yalnız **xeyli miqdarda ziyan vurduqda** cinayət məsuliyyətinin yaranmasına səbəb olur. CM-in 258-ci maddəsinin «Qeyd»inə əsasən «xeyli miqdar» dedikdə 400 manatdan 1000 manatadək olan məbləğ başa düşülür.

11. CM-in 258.2-ci maddəsində qanunsuz ov etmənin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində onun: a) külli miqdarda ziyan vurmaqla; b) partlayıcı maddələrdən və ya quşların və heyvanların kütləvi məhvinə səbəb olan başqa üsullardan istifadə etməklə; c) ovlanması tamamilə qadağan edilmiş quşlara və heyvanlara qarşı; ç) qoruqların ərazisində və ya ekoloji fəlakət və fövqəladə ekoloji vəziyyət zonasında törədilməsi nəzərdə tutulmuşdur.

12. Qanunsuz ov etmə nəticəsində **külli miqdarda ziyan vurulması** dedikdə CM-in 258-ci maddəsinin «Qeyd»inə əsasən 1000 manatdan artıq olan məbləğ başa düşülür. Bu məbləğ qanunsuz ov nəticəsində vurulmuş heyvanların miqdarı, ekoloji, estetik, elmi-tədqiqat və s. dəyərləri, populyasiyası və s. bu kimi xüsusiyyətlər nəzərə alınmaqla müəyyən olunur.

13. **Partlayıcı maddələrin** anlayışı və əlamətləri CM-in 224-cü maddəsinin şərhində verilmişdir. Qanunsuz ov etmə partlayıcı maddələrdən istifadə etməklə törədildikdə, bu, partlayıcı maddələrin vəhşi heyvanların izlənilməsi, təqib olunması, tutulması və vurulması üçün ov etmə prosesində tətbiq edilməsində ifadə olunur.

Qanunsuz ov etmə zamanı **quşların və heyvanların kütləvi məhvinə səbəb olan başqa üsullardan istifadə etmə** dedikdə zəhərli qazlardan, kimyəvi maddələrdən istifadə olunması, yaxud heyvanların toplaşdığı, yuva qurduqları ərazilərdə bitki örtüyünün yandırılması və s. bu kimi hərəkətlərin icrası başa düşülməlidir.

14. Ovlanması tamamilə qadağan edilmiş quşların və heyvanların siyahısı Azərbaycan Respublikasının təbiəti mühafizə üzrə qanunvericiliyində və digər normativ hüquqi aktlarında əks olunur. Qeyd olunan normativ hüquqi aktların tələbinə görə, ovçuluqla məşğul olan şəxs ovlanması tamamilə qadağan edilmiş quşların və heyvanların siyahısını bilməlidir. Bu barədə məlumatının olmadığını əsas gətirməsi belə quşları və ya heyvanları ovlamaqda təqsirli olan şəxsin şərh olunan ağırlaşdırıcı tərkib əlaməti üzrə cinayət məsuliyyətini istisna etmir.

15. **Qoruqların və fövqəladə ekoloji vəziyyət zonalarının** anlayışı CM-in 248-ci və 250-ci maddələrinin şərhində verilmişdir.

Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» Qanunun 66-cı maddəsinin 1-ci bəndinin mənasına görə, **ekoloji fəlakət zonası** dedikdə əlverişli olmayan ekoloji vəziyyət nəticəsində əhalinin sağlamlığına əhəmiyyətli dərəcədə zərər vurulduğu və (və ya) təbii ekoloji sistemlərin dağıdılması, floranın və faunanın məhvi ilə bağlı olan sabit və bərpası mümkün olmayan dəyişikliklərin baş verdiyi ərazi hissələri, su hövzəsi və hava fəzası hissələri başa düşülür.

16. CM-in 258.1-ci və 258.2-ci maddələrində nəzərdə tutulan əməllərin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində həmin əməllərin: a) vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə; b) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi nəzərdə tutulur. Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətlərinin izahı CM-in 256.3-cü maddəsinin şərhində verilmişdir.

17. CM-in 258.1-ci və 258.2.2-ci maddələri üzrə cinayətlər **maddi tərkiblidir** və ictimai təhlükəli nəticələrin baş verdiyi, yəni xeyli və ya külli miqdarda ziyan vurulduğu andan **başa çatmış** hesab olunur. Qeyd olunan cinayət əməli CM-in 258.2.2-ci, 258.2.3-cü və 258.2.4-cü maddələri üzrə ictimai təhlükəli nəticələrin baş verib-verməməsindən asılı olmayaraq, həmin əməllər törədildiyi andan başa çatmış hesab olunur.

18. Qeyd olunan cinayət əməli **subyektiv cəhətdən birbaşa** və ya **dolayı qəsdlə** törədilir.

19. Bu cinayətin subyekti cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

20. Şərh olunan cinayətin İXM-in 272-ci maddəsində nəzərdə tutulan «Balıq və digər su bioresurslarının mühafizəsi və ov qaydalarının pozulması» adlı inzibati xətadan fərqləndirilməsi sonuncuda xeyli və külli miqdarda ziyan vurulması, eləcə də digər ağırlaşdırıcı əlamətlərin olmaması üzrə aparılır.

Maddə 259. Qanunsuz ağac kəsmə

259.1. Meşələrdə və ya xüsusi mühafizə olunan təbiət ərazilərində ağacların, kolların və ya digər yaşıllıqların, eləcə də meşə fonduna daxil olmayan ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi (götürülməsi) xeyli miqdarda ziyan vurduqda —

beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

259.2. Eyni əməllər:

259.2.1. təkrar törədildikdə;

259.2.2. - 11 noyabr 2016-cı il tarixli, 395-VQD nömrəli Qanunla 259.2.2-ci maddə ləğv edilmişdir («Azərbaycan» q., 18 dekabr 2016-cı il);

259.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

259.2.4. külli miqdarda ziyan vurmaqla törədildikdə —

yeddi min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

259.3. Bu Məcəllənin 259.1-ci və ya 259.2-ci maddəsində nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə —

doqquz min manatdan on bir min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: 1. Bu maddənin müddəaları xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqların, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqların (əkinlərin) kəsilməsi (götürülməsi) hallarına şamil edilmir.

2. Bu Məcəllənin 259.1-ci maddəsində «xeyli miqdar» dedikdə min manatdan yeddi min manatadək olan məbləğ, 259.2.4-cü, 260.1-1-ci və 260.3-cü maddələrində «külli miqdar» dedikdə yeddi min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmiş, 16 may 2008-ci il, 20 oktyabr 2009-cu il, 11 noyabr 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə düzəlişlər edilmişdir – «Azərbaycan» q., 28 oktyabr 2007-ci il; 7 iyun 2008-ci il; 27 dekabr 2009-cu il; 18 dekabr 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Qanunvericinin şərh olunan maddəni CM-də nəzərdə tutmaqda məqsədi meşələri və digər ağac-kol bitkilərini qanunsuz ağac kəsmə (götürmə) nəticəsində məhv edilməkdən və korlanmaqdan cinayət-hüquqi vasitələrlə mühafizə

etməkdir.

2. Şərh olunan cinayətin **obyekti** meşələrdən istifadə edilməsi, onların mühafizəsi, qorunması, bərpası, meşələrin ekoloji, iqtisadi və digər potensialının yüksəldilməsi sahəsində yaranan ictimai münasibətlərdir.

Bu cinayətin **obyektini** təşkil edən ictimai münasibətlər Azərbaycan Respublikasının meşə qanunvericiliyi üzrə çoxsaylı normativ hüquqi aktları ilə tənzim olunur. Belə aktlara Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Meşə Məcəlləsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 26 aprel tarixli Qərarı ilə təsdiq edilmiş «Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Qaydası», «Meşəqırma qaydaları», 15 mart 1999-cu il tarixli, 38 saylı Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası meşələrində köküstü oduncaq buraxılışı Qaydaları», 1999-cu il 4 oktyabr tarixli, 161 nömrəli Qərarı ilə təsdiq edilmiş «Meşəqırma biletinin, orderin və meşə biletinin uçotu, saxlanılması, doldurulması və verilməsi Qaydaları», 19 sentyabr 2005-ci il tarixli, 173 saylı Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması Qaydaları» və bir sıra başqa normativ hüquqi aktlar aid edilə bilər.

3. Təhlil olunan cinayətin **predmeti** meşə fonduna daxil olan istənilən kateqoriyalı meşələrdə, qoruqlarda, milli və ya təbii parklarda ağaclar və kollar, habelə meşə fonduna daxil olmayan sahələrdə bitən ağac-kol bitkiləridir.

4. Azərbaycan Respublikası Meşə Məcəlləsinin 1-ci maddəsinə görə **meşə** dedikdə bioloji cəhətdən qarşılıqlı əlaqəli və öz inkişafında bir-birinə təsir göstərən torpağın, suyun, ağac, kol və ot bitkilərinin, heyvanların, mikroorqanizmlərin və ətraf mühitin digər tərkib hissələrinin vəhdəti başa düşülür.

Azərbaycan Respublikası Meşə Məcəlləsi meşələrin iki növünü fərqləndirmişdir: 1) meşə fonduna daxil olan meşələr (6-cı maddənin 1-ci hissəsi); 2) meşə fonduna daxil olmayan ağac-kol bitkiləri və digər yaşıllıqlar (7-ci maddə).

Qeyd etmək lazımdır ki, hazırda qüvvədə olan CM-in 259-cu maddəsinin ilkin redaksiyasında şərh olunan cinayətin predmeti olaraq yalnız qoruyucu, sanitariya-gigiyena və sağlamlaşdırma funksiyasını yerinə yetirən meşələrdə, qoruq meşələrində, milli və ya təbii parklarda bitən ağac və kollar göstərilmişdi. Maddənin Azərbaycan Respublikasının 19 oktyabr 2007-ci il tarixli, 456-IIIQD saylı Qanunu ilə verilmiş yeni redaksiyası isə istənilən kateqoriyadan olan meşələrdə, qoruqlarda, milli və və ya təbii parklarda olan, habelə meşə fonduna aid olmayan sahələrdə bitən ağac və kolları cinayət-hüquqi mühafizə altına almışdır.

5. İqtisadi və ekoloji əhəmiyyətinə, yerləşməsinə və yerinə yetirdiyi funksiyalara görə Azərbaycan Respublikasının **meşə fondu** birinci qrup meşələrə aid olub aşağıdakı qoruyucu kateqoriyalara bölünür: 1) qoruq meşələri; 2) kurort meşələri; 3) xüsusi qiymətli meşə massivləri; 4) şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının meşələri; 5) yabanı meyvə meşələri; 6) dövlət qoruyucu meşə zolaqları; 7) sair meşələr (Nazirlər Kabine-

tinin 26 aprel 1999-cu il tarixli, 70 saylı Qərarı ilə təsdiq edilmiş «Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Qaydası»nın 2-ci bəndi).

6. Azərbaycan Respublikasının «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» 24 mart 2000-ci il tarixli Qanununun 1-ci maddəsinə əsasən **xüsusi mühafizə olunan təbiət əraziləri** dedikdə xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanı başa düşülür.

Adı çəkilən Qanunun 5-ci maddəsinə görə Azərbaycan Respublikasının ərazisində məqsədindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq **xüsusi mühafizə olunan təbiət ərazilərinə**: a) dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları; b) milli parklar; c) təbiət parkları; ç) ekoloji parklar; d) dövlət təbiət yasaqlıqları; e) təbiət abidələri; ə) zooloji parklar; f) nəbatat bağları və dendroloji parklar; g) müalicə sağlamlaşdırma yerləri və kurortlar aid edilir.

Qoruq dedikdə Azərbaycan Respublikasının «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» 24 mart 2000-ci il tarixli Qanununun 17-ci maddəsinə əsasən dövlət təbiət qoruqları, yəni səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilər başa düşülür.

Milli parkların və təbiət parklarının anlayışı da «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Azərbaycan Respublikası Qanununda verilmişdir. Bu Qanunun 21-ci maddəsinə görə **milli parklar** xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilərdir. **Təbiət parkları** isə xüsusi ekoloji və estetik dəyərə malik olan, təbiəti mühafizə və rekreasiya məqsədləri üçün ayrılmış təbiət komplekslərinin yerləşdiyi təbiəti mühafizə idarələri statuslu ərazilərdir (Qanunun 24-cü maddəsi).

7. **Meşə fonduna aid olmayan ağaclar və kollar** dedikdə isə Azərbaycan Respublikası Meşə Məcəlləsinin 7-ci maddəsinə müvafiq olaraq aşağıdakı sahələrdə bitən ağac-kol bitkiləri başa düşülür: kənd təsərrüfatı torpaqlarındakı ağaclar və ağac qrupları, tarlaqoruyucu meşə zolaqları, habelə digər ağac-kol bitkiləri; dəmir yolları və avtomobil yollarını, kanalları və digər su obyektlərini ayıran zolaqlardakı qoruyucu ağaclar; şəhərlərdə və digər yaşayış məntəqələrində olan ağaclar və ağac qrupları, habelə yaşıllıqlar; həyətyanı sahələrdə, yaylaq, qışlaq və bağ sahələrində olan ağaclar və ağac qrupları.

Beləliklə, Azərbaycan Respublikası Meşə fonduna daxil olan istənilən meşələrdə, habelə dövlət təbiət qoruqlarında, milli və təbii parklarda bitən istənilən ağaclar və kollar şərh edilən cinayətin predmetini təşkil edir. Lakin **meşə fonduna daxil olmayan ağac-kol bitkiləri** barəsində məsələ bir qədər başqa

cür olacaqdır. Çünki müstəsna dövlət mülkiyyətində olan meşə fondundan, dövlət təbiət qoruqlarından, milli və təbii parklardan fərqli olaraq, meşə fonduna daxil olmayan ağac-kol bitkiləri fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətində olan torpaq sahələrində də yerləşə bilər. Azərbaycan Respublikası meşə qanunvericiliyi isə xüsusi mülkiyyətdə olan torpaq sahələrində yerləşən ağac-kol bitkilərinin ayrıca rejimini, habelə onlardan istifadənin və onların mühafizəsinin xüsusi qaydasını müəyyən etmir. Odur ki, xüsusi mülkiyyətdə olan torpaq sahələrində olan ağac-kol bitkilərinin qanunsuz kəsilməsi CM-in 259-cu maddəsi üzrə ekoloji cinayət yox, müvafiq tərkib əlamətləri olduqda mülkiyyət əleyhinə cinayət (CM-in 177-ci, 186-cı və ya başqa maddəsi üzrə) kimi tovsif edilməlidir.

Meşə fonduna daxil olmayan yaşıllıqlara aiddir: 1) xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar; 2) xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar; 3) kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər); 4) ümumi istifadədə olan yaşıllıqlar (park, meşə-park, bağ, bağça, bulvar ərazisində olan və digər yaşıllıqlar); 5) məhdud istifadəli yaşıllıqlar (məhəllədaxili, təhsil və səhiyyə, mədəni-məişət, sənaye müəssisələrinin və digər obyektlərin ərazisində olan yaşıllıqlar); 6) xüsusi təyinatlı yaşıllıqlar (sənaye müəssisələri və kompleksləri ilə yaşayış zonaları arasında, infrastruktur obyektlərinin (magistral dəmir və avtomobil yollarının enerji kəmərlərinin və obyektlərinin, su kanallarının, digər bu kimi obyektlərin) hüdudlarında salınmış yaşıllıq zolaqları, tinglikər (şitilliklər), küçə yaşıllıqları, mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalarda, xatirə kompleksləri (xiyabanlar) və qəbiristanlıqlar ərazisində olan və digər yaşıllıqlar) (Meşə Məcəlləsinin 7-ci maddəsi).

Deməli, yalnız **dövlət və bələdiyyə mülkiyyətində olan** torpaqlarda bitən, meşə fonduna aid olmayan ağaclar və kollar təhlil edilən cinayətin predmeti ola bilər. Şərh olunan maddənini «Qeyd»inin 1-ci bəndinə görə bu maddənin müddəaları **xüsusi mülkiyyətdə olan** həyətyanı və bağ sahələrindəki yaşıllıqların, habelə meşə fonduna daxil olmayan yaşıllıqlardan yalnız kənd **təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqların (əkinlərin) kəsilməsi (götürülməsi)** hallarına şamil edilmir.

Şərh edilən maddədə nəzərdə tutulmuş cinayətin predmeti **köküstə yaş** (qurumamış) ağac və kollar ola bilər.

8. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** meşə fonduna aid olan meşələrdə, qoruqlarda, milli və ya təbii parklarda ağacların və ya kolların, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahələrində bitən və meşə fonduna aid olmayan ağacların və kolların xeyli miqdarda ziyan vurmaya səbəb olan qanunsuz kəsilməsində ifadə olunur.

9. **Qanunsuz kəsmə** (götürmə) dedikdə ağacın, kolun qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan və ya şərtləri pozmaqla kökündən ayrılması (kökü ilə birlikdə və ya bunsuz olmasından asılı olmayaraq) başa düşülür. Qanunsuz kəsmənin **üsulları** müxtəlif ola bilər: qırma, mişarlama, kökündən çıxarma, baltalama, buldozerin və ya başqa texnikanın köməyi ilə kökündən qo-

parma (çıxarma) və s.

Kəsmə **qanuni** olduqda cinayət məsuliyyəti istisna olunur. Ağac və kolların kəsilməsinə yol verilən hallar, kəsməyə hüquq verən sənədlər, kəsmə şərtləri və ümumiyyətlə, meşəqırmanın qanuni aparılması Azərbaycan Respublikası meşə qanunvericiliyində müəyyən edilmişdir.

Ağac və kolların qanunvericiliyə müvafiq olaraq kəsilməsi (götürülməsi) meşəqırma qaydasında həyata keçirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli, 70 saylı Qərarı ilə təsdiq edilmiş «Meşəqırma Qaydaları»nın 1.2-ci bəndinə əsasən meşələrdə (qoruq meşələri istisna olunmaqla) bitmə şəraitindən, sahənin relyefindən, mailliyindən, vəziyyətindən, doluluğundan, cins tərkibindən, yaşından, bonitetindən və digər əlamətlərindən asılı olaraq aşağıdakı qırma növləri tətbiq olunur: meşəbərpa qırmaları; aralıq istifadə üçün qırmalar. Qaydaların 1.3-cü bəndində deyilir ki, dövlət qoruqlarının meşələrində yalnız qoruq rejiminə müvafiq olan qırmaların aparılmasına yol verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 1999-cu il tarixli, 38 saylı Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası meşələrində köküstü oduncaq buraxılışı Qaydaları»nın 1.2-ci bəndinə əsasən köküstü oduncaq buraxılışı meşədən istifadə rejiminə uyğun olaraq aşağıdakı kimi aparılır: meşəbərpa qırması qaydası ilə - kurort meşələri, xüsusi qiymətli meşə massivləri, şəhərlərin və digər yaşayış məntəqələri ətrafındakı yaşıllıq zonalarının meşələri və dövlət meşə zolaqları istisna olmaqla, digər meşələrdə bərpa məqsədi ilə aparılan qırmalar; aralıq istifadə qırması ilə - meşələrdə qulluq, sanitariya və az qiymətli meşəliklərin rekonstruksiyası (yenidən əkmə qırmaları) ilə əlaqədar aparılan qırmalar; başqa qırmaları ilə - başdan-başa sanitariya qırmaları (su qovşaqlarının, boru kəmərlərinin, yolların, rabitə və elektrik xətlərinin tikintisi və digər işlərlə əlaqədar, meşə sahələrinin müəyyən olunmuş qaydada qeyri-meşə sahələrinə keçirildiyi zaman), həmçinin yanğından mühafizə keçidlərinin açılması və digər belə məqsədlər üçün aparılan qırmalar.

Göstərilən qırmalar təsdiq olunmuş layihələr və aparılan işlərin texniki şərtlərinə uyğun olaraq yalnız meşəqırma bileti və order əsasında aparılır.

Həmin Qaydaların 1.3-cü bəndində deyilir ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə aşağıdakı hallarda köküstü oduncaq buraxılışı rəsmiləşmədən aparıla bilər və 1 ay müddətində bu əməliyyata meşəqırma bileti və order yazılır: ağacların rabitə və elektrik xətlərinin üstünə düşmək təhlükəsi olduqda və yaxud həmin xətlərdə qəzanın aradan götürülməsi vacibliyi yarandıqda; meşə yanğınlarının söndürülməsi və qəza-xilasetmə tədbirləri həyata keçirildikdə.

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 75-ci maddəsinin 2-ci hissəsinə əsasən kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşən ağac-kol bitkilərində aparılan qırmalar bu bitkilərin vəziyyətinin yaxşılaşmasını və funksiyalarının yerinə yetirilməsini təmin etməlidir. Bu torpaqlardakı ağac-kol bitkilərinə qulluq, sanitariya, yenidən əkmə məqsədilə qırmaların, habelə başqa qırmaların aparılmasına yol verilir.

Həmin Məcəllənin 76-cı maddəsinin 3-cü hissəsinə müvafiq olaraq, dəmir

yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkilərinə qulluq, sanitariya, yenidən əkmə məqsədilə xüsusi təyinatlı və başqa qırmaların aparılmasına yol verilir.

Meşə Məcəlləsinin 77-ci maddəsinin 2-ci hissəsində isə qeyd olunur ki, avtomobil yollarını və kanalları ayıran zolaqlardakı ağac-kol bitkilərində sanitariya və yenidən əkmə ilə əlaqədar qırmaların və başqa qırmaların aparılmasına yol verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2005-ci il tarixli, 173 saylı Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması Qaydaları»nın 7-ci bəndinə əsasən aşağıdakı müstəsna hallarda meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinin həmin torpaqların istifadəçiləri və icarəçiləri tərəfindən qırılmasına və ya köçürülməsinə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı və müəyyən şərtləri ilə aidiyyəti yerli icra hakimiyyəti (şəhər rayonları istisna olmaqla) və özünüidarəetmə (bələdiyyə) orqanlarının qərarları və sərəncamları əsasında yol verilir: köküstə quruduqda; yüksək gərginlikli elektrik xətlərinə toxunduqda; təbii fəlakət nəticəsində, həmçinin xəstəlik və ziyanvericilərlə ciddi zədələndikdə; axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılar ilə zədələndikdə və ya məhv edildikdə; ağacların yerə düşmək təhlükəsi yarandıqda; qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 22-ci maddəsinə əsasən meşə bitkiləri ilə örtülü olmayan meşə fondu torpaqları icarəyə verilə bilər və həmin icarə müqaviləsi əsasında əldə edilmiş meşə sərvətləri icarəçinin mülkiyyətidir. Deməli, icarəçinin icarəyə götürdüyü sahədə əkib-becərdiyi ağac və kolları kəsməsi təhlil edilən cinayətin tərkibini yaratmayacaqdır. Lakin icarəyə götürülmüş meşə fondu sahəsində icarəyə qədər mövcud olmuş ağac və kolların kəsilməsi qanunsuz olacaqdır, çünki icarə müqaviləsi meşəqırma üçün əsas deyildir.

10. Müvafiq hüquqi əsas (meşəqırma bileti, order və s.) olsa da, ağac və ya kol kəsmə zamanı bu icazənin şərtlərinə, yəni ağac və ya kol kəsmək üçün ayrılmış xüsusi sahəyə və ya ağac (kol) qırmanın həcminə, kəsilən ağacların, kolların cins tərkibinə, yaşına və digər əlamətlərinə riayət edilməməsi, müddəti ötmüş və ya saxta sənədlər əsasında ağac və kolların kəsilməsi də qanunsuz ağac kəsmə kimi CM-in şərh edilən maddəsi üzrə tövsif olunur. Bu zaman nəzərə almaq lazımdır ki, qanuni əsası olan şəxsin meşəqırma şərtlərini və qaydasını pozması o vaxt şərh olunan maddə üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır ki, ona verilmiş qanuni sənəddə nəzərdə tutulduğundan kənar və ya onun şərtlərini başqa formada pozmaqla ağac və kolların qırılması nəticəsində xeyli miqdarda ziyan dəymiş olsun.

Meşə Məcəlləsinin 25-ci maddəsinə görə **meşəqırma bileti** oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün hüquq verən sənəddir. Bu biletdə meşə quruluşu layihələri əsasında meşə fondundan istifadə üçün ayrılmış sahənin yeri, oduncağın və ikinci dərəcəli materialların miqdarı, keyfiyyəti, onların qiyməti, işin aparılma müddəti, qırma yerlərinin təmizlənmə-

si, meşənin bərpa edilməsi şərtləri və qaydaları göstərilir.

Order özü yıxılmış və (və ya) qurumuş ağaclardan oduncaq hazırlamaq, ağac tör-töküntüsü və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün hüquq verən sənəddir. Order meşəqırma bileti əsasında verilir.

11. CM-in 259-cu maddəsinin dispozisiyasına görə, qanunsuz ağac kəsmə yalnız **xeyli miqdarda ziyan vurduqda** cinayət məsuliyyətinin yaranmasına səbəb olur. CM-in 259-cu maddəsinin «Qeyd»inin 2-ci bəndinə əsasən **xeyli miqdar** dedikdə 1.000 manatdan 7.000 manatadək olan məbləğ başa düşülür. Vurulan ziyanın xeyli miqdarda olub-olmaması qanunsuz olaraq kəsilmiş ağacların və ya kolların cins tərkibi, yaşı, məhsuldarlığı, mühitqoruyucu rolu, miqdarı, ekoloji, estetik əhəmiyyəti, nadir və nəsli kəsilmək üzrə olan növdən olub-olmaması və digər əlamətləri nəzərə alınmaqla müəyyən edilir. Bu zaman vurulmuş ziyan Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında» 1993-cü il 27 dekabr tarixli, 636 saylı Qərarı nəzərə alınmaqla hesablanmalıdır.

12. Təhlil olunan cinayət qanunsuz olaraq ağacların və ya kolların kəsilməsi nəticəsində xeyli miqdarda ziyan vurulduğu andan **başa çatmış** hesab edilir.

13. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar ağacları və ya kolları qanunsuz olaraq kəsdiyini və bunun xeyli miqdarda ziyan vuracağını qabaqcadan görür və bunları arzu edir.

14. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

15. Şərh olunan cinayətin İXM-in 253-cü maddəsində nəzərdə tutulan «Meşə sahələrində və meşə fonduna daxil olmayan sahələrdə ağacların, kolların və digər yaşıllıqların qanunsuz kəsilməsi (götürülməsi), zədələnməsi və ya məhv edilməsi» adlı inzibati xətadan fərqləndirilməsi əsasən baş verən nəticələrə – vurulmuş ziyanın həcminə görə aparılır.

16. CM-in 259.2-ci maddəsində qanunsuz ağac kəsmənin **ağırlaşdırıcı tərkib əlamətləri** təsbit edilmişdir: təkrar törədilmə; şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilmə; külli miqdarda ziyan vurmaqla törədilmə.

Şərh edilən cinayətin **təkrar törədilməsi** dedikdə CM-in 259.1-ci və ya 259.2-ci maddəsində qeyd olunan əməlin törədilməsindən sonra məhkum olunmamış, yaxud cinayət məsuliyyətindən azad olunmamış şəxs tərəfindən bu əməlin yenidən törədilməsi başa düşülür. Bu zaman nəzərə almaq lazımdır ki, vahid cinayətkar niyyət və məqsədlə müxtəlif vaxtlarda qanunsuz ağac kəsmə təkrarlıq yaratmayacaqdır. Lakin meşə materiallarının qanunsuz tədarükü ilə məşğul olan şəxsin müxtəlif meşə sahələrində və müxtəlif vaxtlarda bu əməli törətməsi zəruri əlamətlər olduqda təkrarlıq kimi qiymətləndiriləcəkdir. CM-in 259.1-ci və ya 259.2-ci maddəsində göstərilən cinayəti törətmiş şəxs məhkum edildikdə, lakin məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən həmin cinayəti törətdikdə bu, cinayətin residivi sayılır.

Cinayətin şəxs tərəfindən **öz qulluq mövqeyindən istifadə etməklə törədilməsinin** anlayışı isə 308-ci maddəsinin şərhində verilmişdir.

Təhlil edilən maddədə **külli miqdar** vurulmuş ziyanın 7.000 manatdan artıq məbləğdə olmasını nəzərdə tutur.

17. CM-in 259.1-ci və 259.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi (CM-in 259.3-cü maddəsi) qanunsuz ağac kəsmə cinayətinin **xüsusilə ağırlaşdırıcı hallarıdır**. Cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsinin** anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

Maddə 260. Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə

260.1. Odla və ya digər yüksək təhlükə mənbələri ilə ehtiyatsız davranma üzündən meşələri, meşə fonduna daxil olmayan ağac və ya kol əkililərini və digər yaşıllıqları məhv etmə və ya zədələmə —

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

260.1-1. Bu Məcəllənin 260.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

260.2. Yandırma və ya digər ümumi təhlükəli üsulla və ya zərərli maddələrlə, istehsalat və məişət tullantıları ilə çirklənməsi nəticəsində, meşələri və ya meşə fonduna daxil olmayan ağac və ya kol əkililəri və digər yaşıllıqları məhv etmə və ya zədələmə —

iki min manatdan üç min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

260.3. Bu Məcəllənin 260.2-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə —

üç min manatdan yeddi min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 11 noyabr 2016-cı il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 18 dekabr 2016-cı il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayət tərkibi Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yeni hesab edilə bilməz. Belə ki, Azərbaycan Respublikasının 1960-cı il CM-in 165-ci maddəsində «Meşə yanğını törətmə» adlı cinayət əməli nəzərdə tutulurdu. Qanunverici yeni CM-də, əvvəlkindən fərqli olaraq, biri ehtiyatsızlıq, digəri isə qəsdlə törədilən iki cinayət tərkibini nəzərdə tutmuş, habelə zərərli maddələrlə, tullantılarla çirkləndirməni də CM-in 260.2-ci maddəsində obyektiv cəhətə daxil etmişdir.

2. Qeyd olunan maddəni CM-də nəzərdə tutmaqda **məqsəd** Azərbaycan Respublikasının milli sərvəti, eləcə də mühüm ekoloji və təsərrüfat əhəmiyyətli təbiət obyektləri kimi meşələri və meşə fonduna aid olmayan ağac və kol əkililərinin cinayət-hüquqi vasitələrlə məhv edilməkdən və korlanmaqdan mühafizə etmək, qoruyub saxlamaqdır.

3. Azərbaycan Respublikasının ekoloji və meşə qanunvericiliyi meşələrin, eləcə də meşə fonduna aid olmayan ağac və kol əkililərinin mühafizəsi və onlardan istifadə edilməsi, habelə zərərli maddələrlə və tullantılarla davranış qaydalarını nizama salır, onların ətraf mühitə atılması qaydalarını və limitlərini müəyyən edir. Qeyd olunan qaydalar Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Meşə Məcəlləsi, Azərbaycan Respublikasının 24 mart 2000-ci il tarixli «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Qanunu, Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli «Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, onların bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Qaydası», «Meşəqırma qaydaları», «Meşə fondunun dövlət uçotu göstəricilərinin Siyahısı» və digər normativ hüquqi aktlarla müəyyən edilmişdir.

4. Şərh olunan cinayətin **obyekti** meşələrdən istifadə edilməsi, onların mühafizəsi, qorunması, bərpa olunması, ekoloji və ehtiyat potensialının yüksəldilməsi sahəsində yaranan ictimai münasibətlərdir.

5. Təhlil edilən cinayətin **predmeti** meşələr və meşə fonduna daxil olmayan ağac və ya kol əkililəri və digər yaşıllıqlardır.

6. Azərbaycan Respublikasının Meşə Məcəlləsinin 1-ci maddəsinə görə **meşə** — bioloji cəhətdən qarşılıqlı əlaqəli və öz inkişafında bir-birinə təsir göstərən torpağın, suyun, ağac, kol və ot bitkilərinin, heyvanların, mikroorqanizmlərin və ətraf mühitin digər tərkib hissələrinin vəhdətidir.

7. Meşə Məcəlləsinin 6-cı maddəsinin 1-ci hissəsinə görə **meşə fondu** dedikdə Azərbaycan Respublikasının ərazisindəki bütün meşələr, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondunun torpaqları (meşə və qeyri-meşə torpaqları) başa düşülür. Meşə fondunun sərhədləri meşə fondunun torpaqlarını digər torpaqlardan ayıran hüdudlarla müəyyən edilir. Meşə fondunun sahələrinə meşə sahələri, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaq sahələri aid edilir.

Meşə fonduna aid olmayan ağac və ya kol əkililəri dedikdə: a) kənd təsərrüfatı torpaqlarındakı ağaclar və ağac qrupları, tarlaqoruyucu meşə zolaqları, habelə digər ağac-kol bitkiləri; b) dəmir yolları və avtomobil yollarını, kanalları və digər su obyektlərini ayıran zolaqlardakı qoruyucu ağaclar; c) şəhərlərdə və digər yaşayış məntəqələrində olan ağaclar və ağac qrupları, habelə yaşıllıqlar; ç) həyətyanı sahələrdə, yaylaq, qışlaq və bağ sahələrində olan ağaclar və ağac qrupları başa düşülür (Meşə Məcəlləsinin 7-ci maddəsi).

Meşə fonduna daxil olmayan yaşıllıqların siyahısı Meşə Məcəlləsinin 7-ci maddəsində verilmişdir (CM-in 259-cu maddəsinin şərhinin 6-cı bəndinə bax).

8. CM-in 260.1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibinin **obyektiv cəhəti** odla və ya digər yüksək təhlükə mənbələri ilə ehtiyatsız davranma

üzündən meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililərini və digər yaşıllıqları məhv etmə və ya zədələmədə ifadə olunur. Bu, konkret olaraq təqsirkarın zəruri təhlükəsizlik tədbirlərinə riayət etməməsi (məsələn, meşədə ocaq qaladıqdan sonra onu söndürməməsi, işlədiyi zaman ətrafa qığılcım yayan maşın və avadanlıqların işlədilməsinin təhlükəsizliyi qaydalarına riayət etməməsi və s.) və bunun nəticəsində meşədə yanğın baş verməsində, yaxud meşə fonduna aid olmayan ağac və ya kol əkililərinin və digər yaşıllıqların yanaraq məhv olmasında və ya zədələnməsində ifadə olunur.

Bu maddədə qanunvericinin nəzərdə tutduğu mənada **digər yüksək təhlükə mənbələri** dedikdə iş prosesində həddən artıq qızmağa və alovlanmaya səbəb olan, yaxud ətrafa qığılcım saçan maşın və avadanlıqlar, müxtəlif texniki cihazlar (məsələn, elektrik əl mişarı və s.) başa düşülür.

9. Təhlil edilən cinayətin **subyektiv cəhəti** təqsirin **ehtiyatsızlıq** forması ilə xarakterizə olunur. Təqsirkar odla və ya digər təhlükə mənbələri ilə ehtiyatsız davrandığını dərk edir, bunun nəticəsində ağac və ya kol əkililərinin və digər yaşıllıqların məhv olacağını və ya korlanacağını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir, yaxud lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür.

10. CM-in 260.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə məsuliyyət CM-in 260.1-1-ci maddəsi ilə yaranır. CM-in 259-cu maddəsinin «Qeyd»inin 2-ci bəndinə əsasən **külli miqdar** dedikdə 7.000 manatdan artıq olan məbləğ başa düşülür.

11. CM-in 260.2-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin **obyektiv cəhəti** yandırma və ya digər ümumi təhlükəli üsulla və ya zərərli maddələrlə, istehsalat və məişət tullantıları ilə çirklənməsi nəticəsində, meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililərini və digər yaşıllıqları məhv etmə və ya zədələmədə ifadə olunur. Bu, konkret olaraq meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililərini və digər yaşıllıqları müxtəlif yandırıcı maddələrlə odlamada, partlayışlar törətmədə, müxtəlif təyinatlı sənaye müəssisələrinin istehsalat tullantıları, zərərli maddələrlə (aqrokimyəvi maddələr, pestisidlər və s.) çirkləndirmədə və s. bu kimi hərəkətlərdə ifadə olunur.

12. **Zərərli maddələrlə, istehsalat və məişət tullantıları ilə çirkləndirmə** sənaye, təsərrüfat və digər fəaliyyət prosesində zərərli maddələrin, tullantıların ətraf mühitə atılması, habelə istehsalat, kommunal-məişət və digər tullantıların meşələrdə yerləşdirilməsi (məsələn, meşələrin ərazisində zibilxanalar yaradılması) və digər üsullarla törədilir.

13. Qanunverici CM-in 260.2-ci maddəsinin dispozisiyasında zərərli maddələrin (kimyəvi, radioaktiv və s.) xarakterini açıb göstərmir və «təhlükəli» deyil, «zərərli» anlayışından istifadə edir. Buna baxmayaraq, analogiya üzrə belə nəticəyə gəlmək olar ki, istənilən halda zərərli maddə dedikdə radioaktiv, bakterioloji, kimyəvi maddələr, habelə təhlükəli maddələr qrupuna aid olmasa da, meşələrə zərərli təsir göstərən (məsələn, ağac-kol və digər bitkilərin xəstələnməsinə və ya qurumasına səbəb olan) maddələr başa düşülməlidir.

«İstehsalat və məişət tullantıları haqqında» 30 iyun 1998-ci il tarixli Qanu-

nun 1-ci maddəsinə görə **istehsalat tullantıları** dedikdə istehsal, yaxud işlərin (xidmətlərin) yerinə yetirilməsi prosesində əmələ gələn və ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən xammal, material, maddə, yarımfabrikat, əşya və digər məhsulların qalıqları, habelə istehsal obyekti olmayan və öz istifadə olunma xüsusiyyətlərinə görə texnoloji prosesə daxil olmayan, yenidən əmələ gələn eyni mənşəli əşya və maddələr, **məişət tullantıları (bərk məişət tullantıları)** dedikdə isə əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyalar, maddələr və materiallar başa düşülür.

14. Şərh olunan cinayət **subyektiv cəhətdən dolayı qəsdlə** törədilir. Təqsirkar öz əməlinin ictimai təhlükəli olduğunu dərk edir, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görür, bunları arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir.

15. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

16. CM-in 260.2-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə məsuliyyət CM-in 260.3-cü maddəsi ilə yaranır. CM-in 259-cu maddəsinin «Qeyd»inin 2-ci bəndinə əsasən **külli miqdar** dedikdə 7.000 manatdan artıq olan məbləğ başa düşülür.

17. CM-in 260-cı maddəsində nəzərdə tutulan cinayət tərkibləri İXM-in 244-cü («Torpaqların (meşə fondu torpaqlarının) zibillənməsi və korlanması») və 518-ci maddəsində («Yanğın təhlükəsizliyi qaydalarının pozulması və ya yerinə yetirilməməsi») əks olunan inzibati xətalardan onların ictimai təhlükəlilik dərəcəsinə, hüquqazidd fəaliyyətin miqyasına və nəticələrinə görə, habelə hər bir konkret halda subyektiv cəhətin əlamətləri nəzərə alınmaqla fərqləndirilir.

Maddə 261. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma

Qoruqların, milli parkların, təbiət abidələrinin və ya dövlət tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizə rejiminin pozulması əhəmiyyətli zərər vurulmasına səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir iladək müddətə islah işləri və ya bir iladək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 261-ci maddəsində «əhəmiyyətli zərər» dedikdə iki min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il, 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - Azərbaycan Respublikası QT, 2001, № 7, m 455; «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in bu maddəsi respublikamızın cinayət qanunvericiliyi üçün yeni hesab edilir.

2. Qeyd olunan cinayət hüquq normasını CM-də nəzərdə tutmaqda məqsəd xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsini təmin etmək, onlara, eləcə də onların ərazisində yaşayan heyvanlar aləminə və burada bitən meşələrə və qeyri-meşə bitkilərinə zərər vurulmasının qarşısını almaq, onların bioloji növ müxtəlifliyini təmin etməkdir.

3. Azərbaycan Respublikasının ekoloji qanunvericiliyi konkret olaraq «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» 24 mart 2000-ci il tarixli Qanunu və digər normativ hüquqi aktlar qeyd olunan ərazilərin və obyektlərin təşkilinin və mühafizəsinin, onların ərazisində təsərrüfat və digər fəaliyyətin məhdudlaşdırılmasının hüquqi rejimlərini, habelə bu əraziləri və obyektləri mühafizə tədbirlərini müəyyən edir.

4. Şərh olunan cinayətin **obyektini** xüsusi mühafizə olunan, nadir təbiət ərazilərinin və obyektlərinin qorunması və istifadə olunması sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

5. Təhlil olunan cinayətin **predmeti** xüsusi mühafizə olunan təbiət əraziləri və təbiət obyektləridir. Azərbaycan Respublikasının «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Qanununun 1-ci maddəsinə görə **xüsusi mühafizə olunan təbiət əraziləri** dedikdə xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanı başa düşülür.

Xüsusi mühafizə olunan təbiət obyektləri elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan, nadir, nəsli kəsilmək təhlükəsi qarşısında olan, səciyyəvi, xüsusi mühafizə rejimli zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektləridir (istinad edilən Qanunun 1-ci maddəsi).

6. «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Qanunun 5-ci maddəsinə görə Azərbaycan Respublikasının ərazisində məqsədindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq xüsusi mühafizə olunan təbiət ərazilərinə: a) dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları; b) milli parklar; c) təbiət parkları; ç) ekoloji parklar; d) dövlət təbiət yasaqlıqları; e) təbiət abidələri; ə) zooloji parklar; f) nəbatat bağları və dendroloji parklar; g) müalicə sağlamlaşdırma yerləri və kurortlar aid edilir.

İstinad edilən Qanunun 10-cu maddəsinə görə xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üçün xüsusi mühafizənin hüquqi rejimi, yaxud təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilir.

Xüsusi mühafizənin hüquqi rejimi xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində və ya xüsusi ayrılmış sahələrdə ətraf mühitin təbii vəziyyətini pozan hər hansı təsərrüfat fəaliyyətinə, həmçinin digər fəaliyyətlərə qadağaları nəzərdə tutur.

Təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində və ya xüsusi ayrılmış sahələrdə təbii ehtiyatların təsərrüfat istifadəsinə məhdudiyyətlər nəzərdə tutur. Məsələn, qoruqların ərazisində təbiət kompleksləri və obyektləri — torpaq, su (akvatoriya) sahələri, yerin təki, bitki və heyvanlar aləmi təsərrüfat dövriyyəsindən tamamilə çıxa-

rılır.

Xüsusi mühafizəni təmin etmək üçün xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağan edilir.

Adı çəkilən Qanunun 17-ci maddəsinin 6-cı hissəsinə görə dövlət təbiət qoruqlarının torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağan olunur.

7. Şərh olunan cinayətin **obyektiv cəhəti** qoruqların, milli parkların, təbiət abidələrinin və ya dövlət tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizə rejiminin əhəmiyyətli zərər vurulmasına səbəb olan dərəcədə pozulmasında ifadə olunur.

8. CM-in 261-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan mənada **qoruqlar** dedikdə dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları başa düşülür. Qanunun 17-ci maddəsinə görə dövlət təbii qoruqları səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədi ilə yaradılan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilərdir.

Dövlət təbiət qoruqları xüsusi ekoloji, elmi və mədəni dəyərə malik olan təbiət obyektlərinin (səciyyəvi və nadir landşaftlar, nadir geoloji törəmələr, bitki və heyvan növləri və sair) yerləşdiyi ərazilərdə (torpaq və su məkanı (akvatoriya) sahələrində) yaradılır.

Dövlət təbiət qoruqlarının əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.

İstinad edilən Qanunun 20-ci maddəsinə əsasən qlobal ekoloji monitorinqin həyata keçirilməsi üçün fəaliyyət göstərən və ya yenidən təşkil edilən dövlət təbiət qoruqlarının əsasında dövlət təbiət biosfer qoruqları yaradıla bilər.

9. Milli parkların anlayışı istinad edilən Qanunun 21-ci maddəsində verilmiş, habelə CM-in 259-cu maddəsinin şərhində nəzərdən keçirilmişdir.

Milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərdə olan torpaq, su, bitki və heyvanlar aləmi onların daimi istifadəsinə verilir.

10. Adı çəkilən Qanunun 29-cu maddəsinə görə **təbiət abidələri** xüsusi ekoloji, elmi, mədəni və estetik əhəmiyyəti olan təbiət obyektləridir.

Təbiət abidəsi obyektlərinə konkret coğrafi zona üçün səciyyəvi olan nadir landşaftlar və yaxud ayrı-ayrı ünsürlər, yerli ağac qruplarının etalonunu təşkil edən və nadir növ tərkibinə görə seçilən qiymətli meşə sahələri, endemik və ya məhv olmaq təhlükəsinə məruz qalan bitkilərin yayıldığı yerlər, çox yaşlı ayrı-ayrı ağaclar, həmçinin geoloji açılışlar, mağaralar, paleontoloji və paleonəbatat qalıqlarının çöküntüləri, bulaqlar, nadir göllər və digər yerlər aid edilir.

Təbiət abidələri yerləşən ərazilərdə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir və onların təbii vəziyyəti qorunub saxlanılır.

11. Dövlət tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin növləri, onların mühafizəsinin hüquqi rejimi, təşkili, kateqoriyaları, istifadəsi və icarəsi, inkişafı, yerləşdirilməsi sxemləri və yaradılması, bu ərazilərdə idarəetmə və digər məsələlər «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Qanunla müəyyən edilir.

12. **Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizə rejimini pozma** dedikdə qeyd olunan ərazilər və obyektlər haqqında qüvvədə olan müvafiq qanunvericilik aktlarının və qanun qüvvəli normativ aktların normaları ilə birbaşa qadağan edilən hərəkətlərin törədilməsi başa düşülməlidir. Belə hərəkətlərə müvafiq icazə olmadan qoruqların ərazisinə daxil olma, xüsusi mühafizə olunan təbiət ərazilərində faydalı qazıntıların kəşfiyyatı və işlənməsi, bağ evlərinin tikilməsi, qeyd olunan təbiət ərazilərinin və obyektlərinin fəaliyyəti ilə əlaqədar olmayan mexanikləşdirilmiş nəqliyyat vasitələrinin hərəkəti və saxlanması, təsərrüfat fəaliyyətinin müxtəlif növlərinin aparılması və s. aid edilir.

13. CM-in 261-ci maddəsinin dispozisiyasına görə, xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozmağa görə cinayət məsuliyyəti əhəmiyyətli zərər vurulmasına səbəb olduqda yaranır. Əhəmiyyətli **zərər** dedikdə CM-in 261-ci maddəsinin qeydinə əsasən iki yüz manatdan artıq olan məbləğ başa düşülür. Bu zərər konkret olaraq ayrı-ayrı təbiət abidələrinin, komplekslərinin məhv edilməsində, onların vəziyyətinin pisləşməsində, xüsusi mühafizə olunan təbiət ərazilərində yaşayan heyvanların tutulmasında, ovlanmasında və s. bu kimi neqativ nəticələrin baş verməsində ifadə olunur.

İstintaq və məhkəmə orqanları tərəfindən təqsirkarın xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizə rejimini pozması ilə əhəmiyyətli zərərin vurulması arasında səbəbli əlaqə hər bir halda müəyyən olunmalıdır.

14. Şərh olunan cinayət **subyektiv cəhətdən həm birbaşa, həm də dolayı qəsdlə** törədilə bilər. Təqsirkar öz hərəkətləri ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizə rejimini pozduğunu dərk edir, onların əhəmiyyətli zərər vurulmasına səbəb olacağını qabaqcadan görür və bunları arzu edir (birbaşa qəsd), yaxud bunları arzu etmir, lakin onların baş verməsinə şüurlu surətdə yol verir (dolayı qəsd).

15. Təhlil olunan cinayət əməli **maddi tərkibli** olduğu üçün ictimai təhlükəli nəticə baş verdiyi, yəni xüsusi mühafizə olunan təbiət ərazilərinə və ya obyektlərinə əhəmiyyətli zərər vurulduğu andan **başa çatmış** hesab olunur.

16. Bu cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

17. Şərh olunan maddədə nəzərdə tutulan cinayət tərkibi İXM-in 242-ci maddəsində əks olunan inzibati xətadan ictimai təhlükəlilik dərəcəsinə, əməlin obyektiv cəhətinin əlamətlərinə (CM-in 261-ci maddəsində «əhəmiyyətli zərər vurulması» əlaməti göstərilir) görə fərqləndirilməlidir.

XXIX Fəsil
Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər

Maddə 262. Dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma

262.1. Yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarına riayət etməyə borclu olan şəxs tərəfindən həmin qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

262.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

262.2. Bu Məcəllənin 262.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

262.3. Bu Məcəllənin 262.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Azərbaycan Respublikasının 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş CM-də respublikamızın cinayət qanunvericiliyi tarixində ilk dəfə olaraq, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər CM-in ayrıca fəslində nəzərdə tutulmuşdur. Əvvəlki CM-in ayrı-ayrı fəsillərində nəzərdə tutulan müxtəlif cinayət tərkibləri yeni CM-in adı çəkilən fəslində başlıca olaraq qəsd obyektinin əlamətlərinə görə toplanılmışdır.

2. Qanunvericinin şərh olunan maddəni CM-də nəzərdə tutmaqda **məqsədi** hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarına riayət olunmasını cinayət-hüquqi vasitələrlə təmin etməkdir.

3. Şərh olunan cinayətin **bilavasitə obyekti** CM-in 262-ci maddəsində sadalanan nəqliyyat vasitələrinin hərəkətinin və istismarının təhlükəsizliyini təmin edən qaydaların yerinə yetirilməsi ilə bağlı olan ictimai münasibətlərdir. Qeyd olunan qaydalar adları çəkilən nəqliyyat vasitələrinin sərnişinləri və yükləri insanların həyat və sağlamlığı üçün, habelə əmlakın məhv olması və ya korlanması təhlükəsi olmadan daşınmasını təmin etməyə yönəldilmişdir.

4. Təhlil olunan cinayətin **predmetini** CM-in 262.1-ci maddəsində sadalanan nəqliyyat növləri, yəni dəmir yolu, su və hava nəqliyyatı təşkil edir.

5. Azərbaycan Respublikasının «Nəqliyyat haqqında» 11 iyun 1999-cu il tarixli Qanununun 1-ci maddəsinə görə **nəqliyyat** dedikdə Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yükləri və insanları daşıma vasitələri, o cümlədən dəmir yolu, avtomobil, dəniz, daxili su, hava, şəhər və şəhərətrafı elektrik, metropoliten, həmçinin Azərbaycan Respublikasının ərazisində yerləşən magistral boru kəmərləri başa düşülür.

6. **Dəmir yolu nəqliyyatı** dedikdə Azərbaycan Respublikasının idarəçiliyində olan relsli nəqliyyat vasitələrinin (məsələn, lokomotivlər, elektrik qatarları və s.), magistral dəmir yolu xətlərinin, o cümlədən sənaye və sair müəssisələrinin magistrala (əsas yola) çıxan yollarının, dar relsli dəmir yollarının və digər xüsusi təyinatlı dəmir yollarının funksional məcmusu, habelə metropoliten başa düşülür. Mədənlərdə, sexlərdə, zavodlarda və digər müəssisələrdə sırf istehsal funksiyalarını yerinə yetirən, texnoloji proseslərin həyata keçirilməsi zamanı istifadə olunan və başlıca olaraq elektrik və ya mexaniki enerji hesabına hərəkət edən elektrovozlar, kiçik vaqonlar və s. bu kimi nəqliyyat vasitələri dəmir yolu nəqliyyatına aid deyil və şərh olunan cinayət əməlinin predmeti ola bilməz. Onların istismarı və hərəkət təhlükəsizliyi qaydalarını pozma ictimai təhlükəli nəticələrə səbəb olduqda, əməl CM-in 162-ci maddəsi («Əmək mühafizəsi qaydalarını pozma»), müvafiq hallarda isə insanın həyatı və sağlamlığı əleyhinə edilən, yaxud əmlakı məhv etmə və ya korlamada ifadə olunan cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələrlə tövsif edilməlidir.

Metro relsli şəhər nəqliyyatı olduğu üçün onun iş şəraiti nəzərə alınmaqla, cinayət-hüquqi mənada dəmir yolu nəqliyyatına bərabər tutulur.

7. **Hava nəqliyyatı** dedikdə mülki hava gəmilərinin bütün növlərinin (təyyarələrin, hidro-təyyarələrin, vertolyotların, aerostatların, dirijablların və s.) funksional məcmusu başa düşülür. Burada hava gəmisinin idarə mənsubiyyəti əhəmiyyət kəsb etmir.

Bəzi müəlliflər hava nəqliyyatına sərnişinlərin və yüklərin hava yolu ilə təhlükəsiz daşınmasını təmin etmə sistemlərinin məcmusunu da aid edirlər.

8. **Su nəqliyyatı** dedikdə su gəmilərinin (paroxodların, teploxodların, üzən bazaların, bərələrin, katerlərin, motorlu qayıqların və s.) və su yolu ilə sərnişinlərin və yüklərin təhlükəsiz daşınmasını təmin edən sistemlərin məcmusu başa düşülür. İdarə normativ aktları ilə su nəqliyyatına aid edilən özügedən olmayan nəqliyyat vasitələri şərh olunan cinayət əməlinin predmeti ola bilməz. Bunlara barjlar, plaşkoutlar və s. üzən vasitələr aid edilir. Belə üzən vasitələr müstəqil nəqliyyat təyinatına malik deyil və yalnız özügedən nəqliyyat vasitəsilə birlikdə istismar edilir. Qeyri-özügedən üzən vasitədən istifadə edilməklə əlaqədar olaraq ictimai təhlükəli nəticə yalnız özügedən su gəmisinin istismarı qaydalarının pozulması nəticəsində baş verə bilər.

Qanunvericinin CM-in 261.1-ci maddəsində əks olunmuş mövqeyinin məntiqi təhlili şərh olunan cinayət hüquq normasının qüvvəsinin Azərbaycan Respublikasının göllərində və çaylarında istismar olunan su nəqliyyatına da şamil edildiyini söyləməyə əsas verir.

9. Uçan hərbi hava aparatları və üzən hərbi su gəmiləri şərh olunan cinayətin predmetinə aid edilmir. Qeyd olunan nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarını pozma hallarında əməl müvafiq olaraq, CM-in 352-ci və ya 353-cü maddələri ilə tövsif edilməlidir.

10. Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma CM-in 263-cü maddəsi ilə cinayət məsuliyyətinin yaranmasına səbəb olur.

11. Şərh olunan cinayətin **obyektiv cəhəti** yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarına riayət etməyə borclu olan şəxs tərəfindən həmin qaydaların ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır (CM-in 262.1-ci maddəsi) və ya ağır zərər (CM-in 262.1-1-ci maddəsi) vurulmasına səbəb olan dərəcədə pozulmasında ifadə olunur.

12. Təhlil olunan cinayət hüquq norması **blanket** dispozisiyaya malikdir. Belə ki, burada nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyinin və istismarının xüsusi qaydalarının pozulmasından söhbət gedir. Bu xüsusi qaydalar isə dəmir yolu, su və hava nəqliyyatının fəaliyyətini tənzimləyən bir sıra idarə normativ hüquqi aktlarında nəzərdə tutulur. Bu idarə normativ aktların hamısını dörd qrupa bölmək mümkündür: 1) CM-in 262.1-ci maddəsinin dispozisiyasında sadalanan nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyini tənzimləyən aktlar; 2) nəqliyyat vasitələrinin istismarının təhlükəsizliyini tənzimləyən aktlar; 3) hərəkətin və istismarın təhlükəsizliyini tənzimləyən aktlar; 4) şəxslərin nəqliyyat vasitələrində işləməyə buraxılmasını tənzimləyən aktlar.

Nəzərə almaq lazımdır ki, normalarının pozulması şərh edilən cinayət tərkibinin yaranmasına səbəb olan normativ aktlara yalnız hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı adlanan aktlar (təlimatlar) aid deyildir. Burada normativ aktın adı yalnız formal xarakter daşıyır. Odur ki, bu və ya digər normativ aktın hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarını müəyyən edib-etmədiyini aydınlaşdırarkən, onun məzmununa istinad etmək lazımdır.

Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları idarə normativ aktlarında forma və məzmunlarına görə müxtəlif şəkildə əks olunur. Belə ki, bunların bir qismi qəti göstəriş, digərləri isə qəti qadağan xarakteri daşıyır. Bu qaydaların pozulması şərh olunan cinayət hüquq norması üzrə cinayət məsuliyyətinin yaranmasına səbəb olur.

Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının təsbit olunduğu bəzi normativ hüquqi aktlarda göstəriş və qadağanlarla yanaşı tövsiyələrə də rast gəlinir. Belə tövsiyələr məcburi xarakter daşımır. Tövsiyələr ümumi qəbul edilmiş mənada «qayda» hesab olunmadıqları üçün onlara riayət edilməməsi cinayət tərkibinin yaranmasına səbəb ola bilməz. Bu, yalnız inzibati xəta kimi qiymətləndirilir və müvafiq surətdə inzibati məsuliyyətin yaranmasına səbəb ola bilər.

Hərəkət təhlükəsizliyi və nəqliyyatın istismarı qaydaları bir-birindən bunların bir qisminin daha ümumi, digərlərinin isə daha konkret xarakterli olmasına görə fərqlənir. İstintaq və məhkəmə orqanları şərh olunan qaydaların pozulması ilə əlaqədar törədilən cinayət əməllərinin tövsifi zamanı həm ümumi, həm də konkret xarakterli qaydalara istinad etməlidirlər.

13. Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarını müəyyən edən qanunvericilik və digər normativ hüquqi aktlara Azərbaycan Respublikasının «Yol hərəkəti haqqında» 3 iyul 1998-ci il tarixli Qanunu, «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının 11 iyun 1999-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin «Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin, Sürücülük vəsiqəsini almaq üçün yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə məsələləri üzrə təcrübi imtahanlara müstəqil hazırlanması qaydalarının və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə» 15 mart 1999-cu il tarixli 40 saylı Qərarı, «Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında» 6 aprel 1999-cu il tarixli 60 saylı Qərarı, «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında nümunəvi Əsasnamənin, Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə» 15 oktyabr 1999-cu il tarixli 163 saylı Qərarı və s. aid edilir.

14. Şəxsin törətdiyi əməl yalnız yuxarıda sadalanan qanunvericilik və digər normativ hüquqi aktların müəyyən etdiyi qaydaların pozulmasında ifadə olunduqda CM-in 262-ci maddəsində nəzərdə tutulan cinayətin tərkibini yarada bilər.

İstintaq və məhkəmə orqanları hərəkət təhlükəsizliyi və nəqliyyatın istismarı qaydalarını ictimai təhlükəli nəticələrə səbəb olan tərzdə pozmağa görə cinayət məsuliyyəti haqqında məsələni həll edərkən, hər bir cinayət işi üzrə hərəkət təhlükəsizliyi və ya nəqliyyatın istismarı qaydalarından məhz hansının pozulmuş olduğunu və belə pozuntunun konkret olaraq hansı əməldə ifadə olunmasını, nəqliyyat işçisinin bu qaydaları yerinə yetirməyə borclu olub-olmamasını dəqiq müəyyən etməlidirlər.

15. CM-in 262.1-ci maddəsində nəzərdə tutulan mənada **qaydaların pozulması** dedikdə dəmir yolu, su və ya hava nəqliyyatında hərəkət təhlükəsizliyi və ya nəqliyyatın istismarı qaydalarını müəyyən edən hüquq normalarına zidd olan, bu normaların tələblərini pozan hərəkətlərin təqsirli olaraq edilməsi, yaxud qeyd olunan qaydaların yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi başa düşülməlidir.

Şərh olunan cinayət hüquq normasında ayrı-ayrı nəqliyyat növlərindən söhbət getdiyindən və bunların hər birinin özünəməxsus cəhətləri olduğu üçün onların hərəkət təhlükəsizliyi və istismarı qaydalarının pozulması da forma və məzmun etibarilə bir-birindən fərqlənən müxtəlif əməllərdə ifadə olunur. Mə-

sələn, dəmir yolu nəqliyyatında — hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması qatarların hərəkət yolunun azad olub-olmadığına nəzarət edilməməsində; iki dəmir yolu stansiyası arasındakı məsafəni özbaşına tutmaqda; sürətin artırılması haqqında işarənin (siqnalın) verilməməsində və s.; hava nəqliyyatında — uçuş sxemlərinin yerinə yetirilməməsində; hava gəmisinin uçuşuna və heyətin işinə dair tələblərə etinasızlıq göstərilməsində; hava hərəkətlərini idarəetmə qaydalarına, hava gəmilərinin idarə olunması qaydalarına, aerodromların istismarının təhlükəsizliyi qaydalarına və s. riayət edilməməsində; su nəqliyyatında — nəqliyyat vasitəsinin idarə olunması zamanı lazımi müşahidənin aparılmaması və bunun nəticəsində gəminin və ya digər maneənin vaxtında aşkar edilməməsində; yol verilən sürət həddini aşmada və əlverişsiz şərtlər daxilində ötmənin icra edilməsində; su nəqliyyatı vasitələrinin bir-birinə təhlükəli yanaşmasını aradan qaldırmaq üçün zəruri tədbirlərin vaxtında görülməməsində; gəmini idarə edənin yanlış ehtimallar irəli sürməsində və yaranmış vəziyyəti düzgün qiymətləndirməməsində və s. bu qəbildən olan əməllərin törədilməsində ifadə olunur.

16. Dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydaları həm **hərəkətlə**, həm də **passiv davranışla**, yəni **hərəkətsizlik** göstərilməsilə pozula bilər. Qeyd olunan qaydaların hərəkətsizliklə pozulmasına görə şəxs yalnız qanunla müəyyən hərəkətləri etmək vəzifəsi daşıdığı, lakin onları icra etmədiyi hallarda cinayət məsuliyyəti daşıyır. Şəxsin müəyyən hərəkətləri yerinə yetirmək vəzifəsi müvafiq idarə normativ aktları ilə müəyyən olunur.

Hərəkətsizliyinə görə cinayət məsuliyyətinə cəlb edilərkən, şərh olunan cinayət əməlinin subyekti dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydaları ilə nizama salınan ictimai münasibətlər sisteminin bir hissəsi kimi nəzərdən keçirildiyindən, onun fəaliyyəti də dəmir yolu nəqliyyatının, donanmanın və mülki aviasiyanın işində tam təhlükəsizlik şəraitini təmin etməyə yönəldilmiş olmalıdır.

17. Qanunverici CM-in 262-ci maddəsində qeyd olunan nəqliyyat vasitələrinin yalnız hərəkət təhlükəsizliyinin deyil, həm də onların istismarı qaydalarının pozulmasına görə cinayət məsuliyyəti nəzərdə tutur. **İstismar qaydalarını pozma** qeyd olunan nəqliyyat vasitələrindən onlara texniki xidmət göstərilməsi tələblərini pozmaqla (məsələn, dəmir yolu qatarından nasaz yollarda istifadə edilməsi, texniki baxımdan yararsız siqnalizasiyadan istifadə olunması, dəmir yolu qatarının, su və ya hava gəmisinin onların təhlükəsiz istismarını istisna edən meteoroloji şəraitdə reysə buraxılması və s.) istifadə edilməsində ifadə olunur.

18. CM-in 262-ci maddəsində «hərəkət təhlükəsizliyi» ilə «istismar qaydaları» anlayışları arasında «və» bağlayıcısından istifadə edilmişdir. Fikrimizcə, CM-in 262-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün həm hərəkət təhlükəsizliyi, həm də istismar qaydalarının yalnız məcmu halında pozulmasının tələb olunduğu haqda yanlış nəticəyə gəlməni aradan qaldırmaqdan ötrü qeyd olunan anlayışlar arasında «və» deyil, «və ya» bağlayıcısından istifadə olunması istər məntiqi, istərsə də hüquqi baxımdan daha düzgün olardı.

Nəqliyyat vasitələrinin istismarı və onların hərəkəti bir-birindən müəyyən qədər fərqlənir. Belə ki, birinci ikinciyə nisbətən daha geniş anlayışdır. Nəqliyyat vasitələrinin hərəkəti onların istismarından kənarda mümkün olmadığı halda, istismar həm hərəkət prosesində, həm də onun hüdudlarından kənarda həyata keçirilə bilər. Gəminin limanda, dəmir yolu qatarının stansiyada dayandığı zaman onların ərazisindən yükvurma və ya yükboşaltma işlərinin görülməsi üçün istifadə olunması, hava gəmisində uçuş qabağı hazırlıq tədbirlərinin görülməsi və s. buna misal ola bilər. Nəqliyyatın istismarı qaydalarının pozulması onun qəzasız işi ilə əlaqədar olmadıqda, bu, təhlil etdiyimiz cinayət tərkibini yaratmır.

19. Şərh olunan qaydaların hərəkətlə və ya hərəkətsizliklə pozulmasından asılı olmayaraq, CM-in 262.1-ci maddəsi ilə cinayət məsuliyyəti yalnız **zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər**, 262.1-1-ci maddəsi ilə isə **ağır zərər vurulduqda** yaranır. Deməli, hər iki halda cinayətlər maddi tərkiblidir.

İnsanın sağlamlığına ağır və az ağır zərər vurulmasının anlayışı müvafiq surətdə CM-in 126-cı və 127-ci maddələrinin şərhində verilmişdir.

Fikrimizcə, şərh olunan cinayət əməlinin törədilməsi qanunda nəzərdə tutulan əsas ictimai təhlükəli nəticələrlə yanaşı əlavə nəticələrin baş verməsinə də səbəb ola bilər. Belə nəticələrə insanın sağlamlığına yüngül xəsarət vurulması aid oluna bilər. Qeyd olunan nəticələr baş verdikdə, onlar şərh olunan cinayət tərkibi ilə tam əhatə olunduğundan, cinayətlərin məcmusu qaydasında tövsif etmə tələb olunmur. Əlavə nəticələr məhkəmə tərəfindən cəza təyini zamanı mütləq nəzərə alınmalıdır.

20. Təhlil edilən cinayətin tövsifi zamanı sadalanan nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulması arasında **səbəbli əlaqə** müəyyən edilməlidir. Bu zaman şərh olunan qəbildən olan cinayətlərdə qaydaları pozan şəxsin davranışına təsir edən və səbəbiyyət əlaqəsinin inkişafını əhəmiyyətli dərəcədə mürəkkəbləşdirən çoxlu amillərin mövcud olması nəzərə alınmalıdır. Müasir dövrümüzdə aparılan tədqiqatlar göstərir ki, nəqliyyat vasitələrinin qəzası hallarını doğuran amillərin sayı orta hesabla təxminən 250-dən çoxdur.

Səbəbli əlaqə şərh olunan cinayətin ictimai təhlükəli nəticələrinin təkcə bir hərəkət və ya hərəkətsizliklə deyil, hər biri ayrılıqda, yaxud digərləri ilə qarşılıqlı əlaqədə kriminal nəticələr doğura biləcək bir neçə əməl ilə şərtləndiyi halda da mövcud ola bilər. Məsələn, bir şəxsin hərəkətləri nəqliyyatda ictimai təhlükəli şəraitin yaranmasına səbəb olur. Başqa bir nəqliyyat işçisi bu şəraiti yanlış qiymətləndirir və özü də nəqliyyatın hərəkət təhlükəsizliyi və ya istisman qaydalarını pozan əməl törədir. Burada baş vermiş ictimai təhlükəli nəticələr hər iki nəqliyyat işçisi tərəfindən yol verilən qaydaları pozmanın qanunauyğun nəticəsi kimi qiymətləndirilməlidir.

21. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin **ehtiyatsızlıq** forması ilə törədilir. Təqsirkar nəqliyyatın hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarını pozduğunu dərk edir, bunun zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərər vura biləcəyi imkanını qabaqcadan görür, lakin kifayət qədər

əsas olmadan onların qarşısını alacağını güman edir (cinayətkarcasına özünəgüvənmə). Cinayətkarcasına etinasızlıq halında isə təqsirkar qeyd olunan ictimai təhlükəli nəticələrin baş verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür.

22. Təhlil olunan cinayət **xüsusi subyektlidir**, yəni bu cinayəti törədənədək 16 yaşı tamam olmuş, yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarına riayət etməyə borclu olan şəxsdir.

Nəqliyyat vasitələrinin hərəkətini və ya istismarını bilavasitə həyata keçirən şəxslərə maşinist, onun köməkçisi, pilot, kapitan, şturman, mexanik, elektromexanik, mexanik köməkçisi, radiooperator, radist, şkiper və s. aiddir.

23. CM-in 262-ci maddəsində sadalanan nəqliyyat növlərinin hərəkəti və ya istismarı ilə əlaqədar olan işə, bir qayda olaraq, 18 yaşı tamam olmuş şəxslər qəbul edilir. Məntiqi olaraq belə nəticəyə gəlmək olar ki, CM-in 262-ci maddəsi ilə cinayət məsuliyyəti də məhz 18 yaşdan yaranır. Yetkinlik yaşına çatmayan şəxslər şərh olunan əməlləri törətdikdə təhlil olunan cinayət tərkibi yaranmır. Belə şəxslərin barəsində xüsusi subyektin əlamətlərinə görə məhdudiyyətlər müəyyən etməyən cinayət hüquq normaları tətbiq oluna bilər.

24. Nəzərə almaq lazımdır ki, törədilmiş əməli şərh olunan maddə ilə yalnız aşağıdakı şərtlər mövcud olduqda tövsif etmək mümkündür: a) əməl dəmir yolu, su və ya hava nəqliyyatında rəsmi surətdə işə qəbul edilmiş şəxs tərəfindən törədildikdə; b) şəxs qeyd olunan əməli yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar üzərinə düşən öhdəliklərin icrası zamanı törətdikdə.

CM-in 262.1-ci maddəsində sadalanan nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarının pozulması zamanı zərərçəkmiş şəxsin sağlamlığına nəqliyyatda işləməyən, yaxud nəqliyyatın hərəkəti və ya istismarı ilə bağlı olmayan işə qəbul edilmiş şəxs tərəfindən zərər vurulmuş olduqda, onun əməli hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayət kimi deyil, şəxsiyyətin həyat və sağlamlığı əleyhinə olan cinayət kimi tövsif olunmalıdır.

Şəxs nəqliyyatın təhlükəsiz fəaliyyətinin təmin edilməsi üzrə və ya bilavasitə onun təhlükəsiz hərəkəti və ya istismarı ilə bağlı olan işi yerinə yetirdikdə və ya yerinə yetirməli olduqda, xidməti vəzifəsini icra edən işçi hesab olunur.

İşçi nəqliyyatın təhlükəsiz fəaliyyətini təmin etmək üzrə işi yerinə yetirməmişdirsə və yerinə yetirməyə borclu deyildisə, yəni iş başında olmamışdırsa, o, şərh olunan cinayətin subyekti hesab edilə bilməz. Məsələn, məzuniyyətdə olarkən dəmir yol nəqliyyatının işçisi rels yolunun nasaz olduğunu görmüş və bu sahədə baş vermiş qəzanın xəbərdar edilməsi üçün heç bir tədbir görməmişdir.

25. Müvafiq idarə normativ aktlarına əsasən şəxsin nəqliyyat sisteminə işə qəbul edilməsi zamanı onun sağlamlığının və peşə hazırlığının vəziyyəti birinci dərəcəli əhəmiyyət kəsb etsə də, bunlar təhlil etdiyimiz cinayətin subyektinin əlamətləri hesab oluna bilməz. Burada kifayət qədər olmayan peşə hazırlığı, zəif iş təcrübəsi, sağlamlıq vəziyyəti cinayət məsuliyyətini aradan qaldırmayaraq, məhkəmə tərəfindən cəzanın növünün və ölçüsünün seçilməsinə təsir

göstərir.

26. CM-in 262.2-ci maddəsində şərh olunan əməllərin bir nəfərin, 262.3-cü maddəsində isə iki və ya daha çox şəxsin ölümünə səbəb olması bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində nəzərdə tutulur.

27. Nəqliyyatın hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarını pozma əməyin mühafizəsi qaydalarını pozma ilə bir sıra ümumi əlamətlərə malikdir. Onlar bir-birlərindən əsasən bu və ya digər işlərin yerinə yetirilməsi zamanı pozulmuş qaydaların xarakterinə görə fərqlənir. Təhlükəsizlik texnikasına və əməyin mühafizəsinin digər qaydalarına yönəldilən tələblər öz məzmununa görə aşağıdakı növlərə bölünür:

a) maddi-texniki tədbirlərin yerinə yetirilməsi, yəni qurğuların (limanların, körpülərin və s.), gəmilərin avadanlıqlarının, kranların və s. lazımi şəkildə saxlanılması; müxtəlif mühafizəedici qurğu və mexanizmlərin qurulması, təhlükəli zonaların hasara alınması və s. bu kimi işlərin görülməsi ilə əlaqədar nəqliyyat idarəsinin müdiriyyəti qarşısında qoyulan tələblər;

b) müxtəlif şəraitlərdə təhlükəsiz iş üsul və metodlarının tətbiq edilməsi ilə əlaqədar nəqliyyatın bütün işçilərinə verilən tələblər. Nəqliyyat idarəsinin müdiriyyəti üzərinə öz işçilərini təhlükəsiz iş üsullarına və metodlarına öyrətmək vəzifəsi qoyulur;

c) cihazların, qurğuların işinin təhlükəsizliyinə, nəqliyyat işçilərinin təhlükəsiz əmək üsul və metodlarını tətbiq etmələrinə gündəlik nəzarət edilməsi üzrə tələblər.

Bütün bunlar məcmu halında nəqliyyatda əməyin təhlükəsizlik şərtlərinin məzmununu təşkil edir.

28. Nəqliyyat işçisinin yerinə yetirdiyi iş və ya tutduğu vəzifəsi üzrə öz öhdəliklərini pozması nəqliyyatın hərəkət təhlükəsizliyi və ya istismarı qaydaları ilə deyil, yalnız əməyin mühafizəsi qaydalarının pozulması ilə əlaqədar olmuşdursa, onun əməli CM-in 162-ci maddəsi ilə tövsif edilməlidir.

29. CM-in 262-ci maddəsi üzrə **zərərçəkmiş şəxs** həm nəqliyyat işçisinin özü, həm də kənar şəxs (məsələn, sərnişin, qohumunu, yaxud tanışını ötürən şəxs və s.) ola bilər. CM-in 162-ci maddəsi ilə məsuliyyət nəzərdə tutulan cinayətdən zərərçəkmiş isə kənar şəxs ola bilməz. Burada zərərçəkmiş şəxs yalnız müəssisə, idarə və ya təşkilat ilə əmək hüquq münasibətlərində olan şəxs ola bilər. Müqayisə edilən cinayət əməllərinin **subyektləri** də müxtəlifdir. Belə ki, CM-in 262-ci maddəsi ilə yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarına riayət etməyə borclu olan şəxslərin, CM-in 162-ci maddəsi ilə isə texniki təhlükəsizlik və ya əmək mühafizəsinin başqa qaydalarına riayət edilməsi vəzifəsi həvalə edilmiş şəxslərin cinayət məsuliyyəti nəzərdə tutulur.

Nəqliyyat işçisinin əməlləri eyni zamanda həm nəqliyyatın hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarını, həm də əməyin təhlükəsizliyini təmin edən qaydaları pozmuş olduqda törədilmiş əməlin CM-in 162-ci və 262-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif olunması mümkündür.

Maddə 263. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma

263.1. Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

iki ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

263.1-1. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

263.2. Bu Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

263.3. Bu Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: 1. Bu Məcəllənin 263.1-ci maddəsində «digər mexaniki nəqliyyat vasitəsi» dedikdə trolleybuslar, traktorlar, motosikllər, habelə başqa özüyeriyən maşın və mexanizmlər nəzərdə tutulur.

2. Bu Məcəllənin 263.1 və ya 263.1-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Bu halda şəxsin əməllərində inzibati xəta tərkibinin əlamətləri olduqda o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **obyekti** yol hərəkətinin və nəqliyyat vasitələrinin istismarının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir. Şərh olunan cinayətin **əlavə obyektini** insanın həyat və ya sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlər təşkil edir.

2. Azərbaycan Respublikasının «Yol hərəkəti haqqında» 3 iyul 1998-ci il tarixli Qanununun 1-ci maddəsinin 3-cü bəndinə görə **yol hərəkətinin təhlükəsizliyi** yol hərəkəti iştirakçılarının və cəmiyyətin yol-nəqliyyat hadisələrindən və onların nəticələrindən müdafiə olunma dərəcəsini göstərən yol hərəkəti vəziyyətidir.

Yol hərəkəti xüsusi nəzərdə tutulmuş yollarda nəqliyyat vasitələrinin köməyi ilə və ya belə kömək olmadan hərəkət etmək, habelə sərnişin və yük daşınması üzrə fiziki və hüquqi şəxslərin tələbatlarını ödəmək prosesində yaranan ictimai münasibətlərin məcmusudur (istinad edilən Qanunun 1-ci maddəsinin 1-ci bəndi).

3. Şərh edilən cinayət əməlinin **predmeti** tramvay, avtomobil və ya digər mexaniki nəqliyyat vasitələri, o cümlədən trolleybuslar, traktorlar, motosikllər, habelə başqa özüyeriyən maşın və mexanizmlərdir. Bu əməl mexaniki nəqliyyat vasitələrinə aid edilməyən nəqliyyat vasitələrindən (velosipedlər, mopedlər, at arabaları və s.) istifadə ilə bağlı törədilə bilməz. Belə nəqliyyat vasitələrini idarə edən şəxsin əməli müvafiq tərkib əlamətləri olduqda, CM-in 267-ci maddəsi üzrə tövsif ediləcəkdir.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 18-ci bəndinə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263 və 263-1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin predmeti olan nəqliyyat vasitələri dedikdə mexaniki nəqliyyat vasitələri, yəni asma mühərrikli velosipedlər və tramvaylardan başqa relsli nəqliyyat vasitələri istisna olmaqla hər hansı özügedən nəqliyyat vasitələri başa düşülür. Bunlara avtomobillər, tramvaylar, trolleybuslar, operativ nəqliyyat vasitələri, qoşqular, yarımqoşqular, uzun ölçülü nəqliyyat vasitələri, özügedən maşınlar, təkərli traktorlar və motosikletlər aiddir. İş həcmi 50 kub santimetrdən çox olmayan mühərriklə hərəkətə gətirilən və maksimum konstruksiya sürəti saatda 50 kilometrdən artıq olmayan iki və ya üçtəkərli nəqliyyat vasitələri (mopedlər) və oxşar xüsusiyyətli digər nəqliyyat vasitələri CM-in 263 və 263-1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin predmeti hesab edilmir. Belə nəqliyyat vasitələrini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması həmin şəxsin CM-in 267-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsinə səbəb ola bilər («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 3-cü bəndi).

Avtomobil də mexaniki nəqliyyat vasitəsidir. Onun anlayışı «Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 19-cu bəndində verilmişdir.

CM-in 263.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan mənada **tramvay** dedikdə sərnişinləri və onların yüklərini daşımaq üçün nəzərdə tutulan, bir və ya bir neçə vaqondan ibarət olan şəhər yerüstü dəmir yolu qatarı başa düşülməlidir.

«Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 18-ci bəndinə görə **mexaniki nəqliyyat vasitəsi** dedikdə asma mühərrikli velosipedlər və relsli nəqliyyat vasitələri istisna olmaqla, hər hansı özügedən nəqliyyat vasitəsi başa düşülməlidir. Mexaniki nəqliyyat vasitələrinə müxtəlif növ daxili yanma və elektrik mühərrikləri ilə təchiz edilmiş avtomobillər, motosikletlər, traktorlar, müxtəlif təyinatlı özügedən maşınlar (kombaynlar, qreyderlər, asfaltbasanlar və s.) aiddir.

CM-in 263.1-ci maddəsində istifadə edilən «**digər mexaniki nəqliyyat vasitələri**»nin anlayışı CM-in 263-cü maddəsinin «Qeyd»inin 1-ci bəndində (trolleybuslar, traktorlar, motosikletlər, habelə başqa özüyeriyən maşın və mexanizmlər) verilmişdir.

Özüyeriyən maşınlar dedikdə tırtıllı traktorlar da daxil olmaqla, tikintidə, meşə və kənd təsərrüfatında, başqa işlərdə istifadə üçün nəzərdə tutulan nəqliyyat vasitələri başa düşülür.

Digər özüyeriyən nəqliyyat vasitələrinə istənilən yol, tikinti, kənd təsərrüfatı və başqa xüsusi təyinatlı maşınlar, məsələn, ekskavator, qreyder, avtokran, skreper, avtoyükləyici və sair bu qəbildən olan maşınlar aid edilir.

Hərbi qulluqçular tərəfindən idarə olunan hərbi maşınlar, döyüş, xüsusi və ya nəqliyyat maşınları (tanklar, zirehli maşınlar, özüyeriyən artilleriya və raket qurğuları, tikinti, yanğınsöndürən, tibbi, sanitar xidməti nəqliyyatı, səyyar təmir emalatxanaları, laboratoriyalar, mühəndis və buna oxşar funksiyaları yerinə yetirən özüyeriyən nəqliyyat vasitələri, şəxsi heyətin, silahların, hərbi sursatın, hərbi-texniki əmlakın daşınması üçün nəzərdə tutulan, habelə gündəlik təsərrüfat, mədəni-məişət və sair xidmətlərin həyata keçirilməsi üçün istifadə edilən maşınlar, hərbi hissənin çöl və daimi parklarında olan bütün mexaniki nəqliyyat vasitələri) CM-in 263 və 263-1-ci maddələrinin predmetinə aid deyil və bunlar döyüş, xüsusi və ya nəqliyyat maşınlarının idarəetmə və istismar qaydalarını pozmağa görə CM-in 351-ci maddəsində məsuliyyət nəzərdə tutan hərbi cinayətin predmeti hesab olunurlar («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 3-cü bəndi).

4. Nəqliyyat vasitəsini və ya digər özügedən maşını idarə edən şəxs yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozduqda və bu, yol-nəqliyyat hadisəsinin baş verməsinə səbəb olduqda, CM-in 263-cü maddəsi ilə cinayət məsuliyyəti daşıyacaqdır. «Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 43-cü bəndinə görə **yol-nəqliyyat hadisəsi** yollarda, küçələrdə, meydanlarda, dəmiryol keçidlərində nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və adamların həlakına və ya müxtəlif dərəcəli bədən xəsarəti almasına, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, nəqliyyat vasitələrinin, yolların, qurğuların zədələnməsinə və ya başqa maddi zərər dəyməsinə səbəb olan hadisədir.

Nəqliyyat vasitəsini idarə edən şəxs müəyyən işlərin görülməsi qaydalarını, texniki təhlükəsizlik və ya əməyin mühafizəsinin digər qaydalarını pozduqda, hətta bu pozuntulara nəqliyyat vasitəsinin və ya digər özügedən maşının hərəkəti zamanı yol verilmiş olsa belə, təqsirkarın əməli CM-in 162-ci maddəsi, müvafiq hallarda isə CM-in insanın həyatı və sağlamlığı əleyhinə olan, yaxud əmlakın məhv olması və ya korlanması ilə nəticələnən cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə tövsif edilməlidir.

5. CM-in 263.1-ci maddəsində təsbit edilən cinayətin **obyektiv cəhəti** avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olan dərəcədə pozulmasında ifadə olunur.

CM-in 263-cü maddəsi ilə cinayət məsuliyyəti yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının harada pozulmasından asılı olmayaraq yaranır.

CM-in 263.1-ci maddəsində nəzərdə tutulan mənada **yol hərəkəti qaydalarının pozulması** dedikdə sürücü tərəfindən «Yol hərəkəti haqqında» Qanunla onun üçün müəyyən olunan vəzifələrə, habelə yol hərəkətinin müxtəlif qaydalarına riayət edilməməsi və ya lazımınca riayət edilməməsi başa düşülməlidir.

«Yol hərəkəti haqqında» Qanunun 5-ci fəsli yol hərəkəti qaydalarına həsr olunmuşdur. Bu fəslin normaları yol hərəkəti iştirakçılarının hərəkətdə iştirakla bağlı vəzifələrini və yollarda hərəkətin müxtəlif qaydalarını müəyyən edir. Həmin qaydalar «yol» termini ilə əhatə olunan müxtəlif təyinatlı və kateqoriyalı yollarda, küçə, prospekt və meydanlarda hərəkətlə bağlı ictimai münasibətləri tənzimləyir və hərəkətin digər növlərinə (məsələn, dəmiryolu ilə, su yolu ilə hərəkət və s.) şamil olunmur.

Yollarda hərəkətin tənzimlənməsi üçün müxtəlif texniki vasitələr (yol nişanları, nişanlanma xətləri, işıqforlar və s.) tətbiq olunur. Bu vasitələrin tələblərinin sürücülər tərəfindən pozulması da müvafiq tərkib əlamətləri olduqda CM-in 263-cü maddəsi üzrə məsuliyyətə səbəb olacaqdır.

Yol hərəkəti qaydalarının pozulması sürət həddini aşmada, ötmə və ya başqa manevr qaydalarını, nəqliyyat vasitəsinin yolun hərəkət hissəsində yerləşdirilməsi qaydalarını, dəmiryol keçidlərini, yolayrıclarını keçmə qaydalarını pozmada, nişanların, nişanlanma xətlərinin və ya işıqforların tələbinə riayət etməmədə, nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etmədə və s. bu kimi əməllərdə ifadə olunur.

6. Təhlil olunan normada nəzərdə tutulan mənada **nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması** dedikdə sürücünün nəqliyyat vasitəsini onun texniki təchizatına dair tələbləri, habelə nəqliyyat vasitəsinin təhlükəsiz istismarına dair digər tələbləri pozmaqla idarə etməsi başa düşülür.

Təəssüf ki, ölkəmizin milli qanunvericiliyində müxtəlif növ nəqliyyat vasitələrinin istismara buraxılmasının texniki tələb və şərtləri ilə bağlı normativ hüquqi akt yoxdur. Bu məsələlərin xeyli hissəsi sovet dövründən mövcud olan normativ aktlarla tənzimlənir. Lakin həmin texniki tələblərin və şərtlərin müfəssəl təsbit olunduğu beynəlxalq hüquqi aktlar mövcuddur ki, onların əsasında milli qanunvericilik aktları yaradıla bilər.

«Yol hərəkəti haqqında» Qanuna 1 saylı Əlavədə «Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların Siyahısı» verilmişdir. Lakin həmin siyahı, adından da göründüyü kimi, yalnız nəqliyyat vasitələrinin istismarına yol verilməyən halları təsbit edir və bu halları nəqliyyat vasitələrinin istismara buraxılmasının texniki tələb və şərtləri ilə eyniləşdirmək olmaz. Bununla belə, həmin siyahıda verilən nasazlıqlardan hər hansı birinin mövcud olması konkret yol-nəqliyyat hadisəsinin səbəbi (məsələn, nəqliyyat vasitəsinin stop-siqnalı işləmədiyindən onun tormozlanması zamanı arxadan gələn

nəqliyyat vasitəsinin ona çırpılması) və ya belə hadisədə CM-in 263-cü maddəsində göstərilən zərərli nəticələri doğuran səbəb (məsələn, motosikletin yanlara aşması zamanı sürücünün və sərnişinin aşağı ətraflarını motosikletin altında qalaraq əzilməkdən qorumaq üçün təhlükəsizlik qövsü olur: əgər aşan motosikletdə həmin qövsün olmaması səbəbindən sərnişinin aşağı ətrafı sınarsa, digər tərkib əlamətləri də olduqda sürücünün CM-in 263-cü maddəsi üzrə məsuliyyəti yaranacaqdır) qismində çıxış etdikdə sürücü bu norma üzrə cinayət məsuliyyətinə cəlb ediləcəkdir.

Nəqliyyat vasitələrinin təhlükəsiz istismarı ilə bağlı bəzi qaydalar «Yol hərəkəti haqqında» Qanunda nəzərdə tutulmuşdur (məsələn, sükanı əldə tutmadan, mühərriki söndürülmüş olmaqla nəqliyyat vasitəsini idarə etmənin qadağan edilməsi və s.).

7. Mövcud təcrübəyə uyğun olaraq, yol-nəqliyyat hadisələri müxtəlif **növlərə** bölünə bilər:

toqquşma, yəni hərəkət edən nəqliyyat vasitələrinin bir-biri ilə və ya dəmiryol qatarı ilə toqquşması. Yol-nəqliyyat hadisəsinin bu növünə qəflətən hərəkətini dayandırmış (məsələn, işıqfor qarşısında, tıxac zamanı və ya texniki nasazlıq üzündən) nəqliyyat vasitəsi ilə, habelə dəmiryol qatarının dəmiryol keçidində dayanmış nəqliyyat vasitəsi ilə toqquşma halları da aid olunur;

çevrilmə (aşma), yəni hərəkət edən nəqliyyat vasitəsinin müxtəlif səbəblərdən çevrilməsi (aşması). Yol-nəqliyyat hadisələrinin bu növünə yoldakı maneəyə dəyməsi və ya qəflətən baş vermiş texniki nasazlıq (məsələn, təkərlərdən birinin sıradan çıxması) üzündən baş vermiş çevrilmə (aşma) da aid edilir;

dayanmış (duracağa qoyulmuş) nəqliyyat vasitəsini vurma. Bu zaman hərəkət edən nəqliyyat vasitəsi dayanmış (durmuş) vəziyyətdə olan nəqliyyat vasitəsinə çırpılır. Nəzərə almaq lazımdır ki, qəflətən hərəkətini dayandırması nəticəsində nəqliyyat vasitəsinə çırpılma toqquşma hesab olunur;

maneəni vurma (yaxud onun üstünə çıxma), yəni nəqliyyat vasitəsinin hərəkətsiz predmetə (körpünün dayağına, sütuna, ağaca, tikinti materiallarına, divara və s.) çırpılması və ya onun üstünə çıxması ilə müşayiət olunan yol-nəqliyyat hadisəsi;

piyadanı vurma, yəni nəqliyyat vasitəsinin yolda və ya yol kənarında nəqliyyat vasitəsindən kənarda olan insana çırpılması və ya belə insanın hərəkət edən nəqliyyat vasitəsinə toxunması, onun təkərləri altına düşməsi ilə müşayiət olunan hadisə. Piyadaların nəqliyyat vasitəsi ilə daşınan yükdən və ya predmetdən (odun, kərpic, daş, taxta lövhələr və s.) zərər çəkdikləri hallar da bu növ yol-nəqliyyat hadisələrinə aid edilir;

velosipedçini və ya moped idarə edən şəxsi vurma, yəni nəqliyyat vasitəsinin velosipedə və ya mopedə çırpılması və ya bu nəqliyyat növlərinin hərəkət edən mexaniki nəqliyyat vasitəsi ilə toqquşması;

yolda mövcud olan qüsurlar səbəbindən baş verən yol-nəqliyyat hadisələri. Bu növ hadisələrə nəqliyyat vasitəsinin qapağı açıq kommunikasiya quyularına (lyuklara) düşməsi, yol örtüyündə yaranmış çalalara düşməsi, qabarıq sahələrə toxunması, yollara dair texniki tələb və standartlardan kənara çıxan başqa qüsurlar səbəbindən baş verən hadisələr aid edilə bilər.

at arabalarını (kirşələri) vurma, yəni nəqliyyat vasitəsinin qoşqu heyvanlarına, habelə bu heyvanların çəkib apardığı arabaya və ya kirşəyə çırpılması, yaxud qoşqu heyvanlarının və ya bu heyvanların dartıb apardığı qoşqunun hərəkət edən nəqliyyat vasitəsinə çırpılması;

heyvanları vurma, yəni nəqliyyat vasitəsinin quşları, vəhşi və ya ev heyvanlarını (o cümlədən yük və ya minik heyvanlarını) vurması ilə müşayiət olunan hadisə (belə hadisə insanların həyat və sağlamlığına CM-in 263-cü maddəsində göstərilən zərər dəydikdə cinayət məsuliyyəti yarada bilər);

sair hadisələr, yəni yuxarıda sadalanan hadisə növlərinə aid olmayan yol-nəqliyyat hadisələri. Sair hadisələrə tramvayın toqquşmaya və ya aşmaya səbəb olmadan relsdən çıxması; nəqliyyat vasitəsi ilə daşınan yükün insanın üstünə düşməsi (tökülməsi) və ya nəqliyyat vasitəsinin təkərinin hərəkət nəticəsində kənara tulladığı predmetin insanın, heyvanın və ya digər nəqliyyat vasitəsinin üzərinə düşməsi; hərəkət iştirakçısı olmayan şəxslərin nəqliyyat vasitəsi ilə vurulması; yolda qəflətən meydana çıxan maneəni (maşından düşmüş yük, yerindən çıxmış təkəri) vurma (onun üstünə çıxma); hərəkət edən nəqliyyat vasitəsində sürətin və ya hərəkətin trayektoriyasının qəflətən dəyişməsi nəticəsində sərnişinlərin nəqliyyat vasitəsindən düşməsi və ya avtomobilin salonunda yıxılması, orada hər hansı predmetə çırpılması və ya başqa sərnişinin üstünə yıxılması və s.

8. Şəxsi yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozmaqda təqsirli hesab edərkən məhkəmələr öz hökmlərində təqsirkarın məhz hansı qaydaları pozmuş olduğunu və bu pozuntunun konkret şəkildə nədə ifadə olunduğunu göstərməlidir.

Nəqliyyat vasitələrini idarə edən şəxslərin əməlləri CM-in 263-cü maddəsində qeyd olunan nəticələrə yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozmaqla deyil, yüklərin boşaldılması və ya yüklənməsi, nəqliyyat vasitələrinin təmiri, tikinti işlərinin aparılması ilə əlaqədar səbəb olduqda, onların əməlləri baş vermiş nəticələrdən və təqsirin formasından asılı olaraq CM-in şəxsiyyət əleyhinə edilən cinayətlərə, yaxud müəyyən işlərin aparılması zamanı təhlükəsizlik qaydalarını pozmağa görə məsuliyyət nəzərdə tutan müvafiq maddələri (CM-in 162-ci, 222-ci, 268-ci və s. maddələri) ilə tövsif olunmalıdır. Bu məzmunlu şərh «Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 14-cü bəndində də nəzərdə tutulmuşdur.

9. Şərh olunan cinayət **maddi** tərkibli olduğu üçün CM-in 263-cü maddəsində sadalanan ictimai təhlükəli nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab olunur.

Şəxs digər cinayət xarakterli əməllər törətməklə (oğurluluq, soyğunçuluq, quldurluq yolu ilə və sair cinayətlər), habelə talama məqsədi olmadan nəqliyyat vasitəsini ələ keçirdikdən sonra onu idarə edərkən həm də yol hərəkəti və nəqliyyat vasitəsinin istismarı qaydalarını və ya döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismar qaydalarını pozduqda onun əməli cinayətlərin məcmusu üzrə müvafiq olaraq CM-in 263, 263-1 və 351-ci maddələri ilə

yanaşı özgə əmlakını qanunsuz ələ keçirməyə görə məsuliyyət nəzərdə tutan CM-in müvafiq maddələri ilə (CM-in 177, 180, 181, 185-ci və sair maddələri ilə) tövsif edilməlidir.

CM-in 263.1-ci və 263.1-1-ci maddələrində şərh olunan cinayətlərin ictimai təhlükəli nəticəsi qismində zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulması nəzərdə tutulmuşdur. Bunların məzmunu CM-in 126-cı və 127-ci maddələrinin şərhində göstərilir.

Yol-nəqliyyat hadisəsində həlak olmuş şəxslərə təkcə hadisə yerində ölmüş insanlar deyil, həm də yol-nəqliyyat hadisəsi ilə bağlı aldığı xəsarətlər nəticəsində müəyyən müddətdən sonra vəfat etmiş şəxslər aid edilməlidir. «Yol hərəkəti haqqında» Qanunun 24-cü maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təhlükəsizliyi vəziyyətinin dövlət uçotu aparılarkən yol-nəqliyyat hadisələrində **həlak olanlara** yol-nəqliyyat hadisəsi yerində həlak olmuş və ya bu cür hadisə nəticəsində sonrakı 7 gün ərzində ölmüş şəxslər aid edilir. Lakin əməlin CM-in 263-cü maddəsi üzrə tövsif edilməsi üçün bu norma nəzərə alına bilməz, çünki həmin norma statistik uçot qaydasını müəyyən edir. Xəsarət almış şəxs həmin hadisədə aldığı xəsarətin bilavasitə nəticəsi olaraq öldükdə və onun ölümü ilə həmin yol-nəqliyyat hadisəsi arasında səbəbli əlaqə olduqda, hadisədən sonra 7 gündən artıq müddət keçsə də, əməl şəxsin ölümünə səbəb olmuş yol-nəqliyyat hadisəsi kimi qiymətləndirilməlidir.

Yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması ilə baş vermiş ictimai təhlükəli nəticələr arasında **səbəbli əlaqə** mövcud olmalı və bu, müəyyən olunmalıdır.

10. «Yol hərəkəti haqqında» Qanunun 37-ci maddəsinin 4-cü hissəsinə müvafiq olaraq, sürücü yol-nəqliyyat hadisəsindən zərərçəkmiş şəxslərə kömək göstərmək üçün mümkün olan tədbirləri görməyə - «təcili tibbi yardım» maşını çağırmağa, həyat üçün təhlükəli xəsarət aldıqları hallarda zərərçəkmişləri eyni səmtə gedən nəqliyyat vasitəsi ilə xəstəxanaya yola salmağa, bu mümkün olmadıqda isə özünün nəqliyyat vasitəsi ilə yaxınlıqdakı müalicə müəssisəsinə çatdırmağa borcludur. Qanunun bu tələbindən irəli gələn vəzifələri yerinə yetirməyən sürücülərin məsuliyyət məsələsini həll edərkən nəzərə alınmalıdır ki, CM-in 263-cü maddəsində nəzərdə tutulmuş nəticələrin baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən, yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozan şəxsin yol-nəqliyyat hadisəsi yerindən qaçması CM-in 263-cü maddəsi ilə yanaşı, həm də CM-in 264-cü maddəsinin tərkibini yaradır (CM-in 264-cü maddəsinin şərhinə bax). Belə vəziyyətdə, sürücü yol-nəqliyyat hadisəsi yerindən qaçmasa da, zərərçəkmiş şəxsi həyat və sağlamlıq üçün təhlükəli vəziyyətdə qoyduğuna görə, ona kömək göstərmək imkanı olduğu halda bunu etmədikdə onun əməli CM-in 263-cü maddəsi ilə yanaşı, həm də CM-in 143-cü maddəsi ilə tövsif oluna bilər. Lakin zərərçəkmiş şəxsin ölümü yol-nəqliyyat hadisəsi anından dərhal sonra baş verdikdə və ya zərərçəkmiş şəxsin sağlamlığına vurulmuş zərərin ağırlığı üzündən, ona təcili tibbi yardım göstərilməsi mümkün olmadıqda və s. bu kimi obyektiv səbəblər üzündən (o cümlədən onun göstərməyə cəhd etdiyi ilkin tibbi yardımın yetərli olma-

ması, təcili yardımın gec gəlməsi səbəbindən) təqsirkar zərərçəkmiş şəxsin həyat və sağlamlığı üçün yaranmış təhlükəni aradan qaldıra bilmədikdə CM-in 143-cü maddəsinin tərkibi istisna edilir. Yol-nəqliyyat hadisəsinin baş verməsində təqsirli olan sürücü özünün aldığı xəsarətlər, yaxud hadisə yerində olan və ya dərhal ora gələn kənar şəxslərin müxtəlif məzmunlu maneəçiliyi (məsələn, ona fiziki təsir göstərməsi və s.) səbəbindən zərərçəkmiş şəxsə kömək edə bilmədiyi hallarda da CM-in 143-cü maddəsinin tərkibindən söhbət gedə bilməz.

Yol-nəqliyyat hadisəsinin iştirakçısı olub-olmamasından asılı olmayaraq, yol hərəkəti və nəqliyyat vasitəsinin istismarı qaydalarını pozmayan, lakin yol-nəqliyyat hadisəsi yerindən qaçıb gedən nəqliyyat vasitələrini idarə edən şəxsin əməlinə CM-in 264-cü maddəsi şamil olunmur.

11. Təhlil olunan cinayətin **subyektiv cəhəti** baş vermiş nəticələrə təqsirin **ehtiyatsızlıq** forması ilə xarakterizə olunur. Yol hərəkəti və ya nəqliyyatın istismarı qaydalarını pozan şəxs bu əməlinin ictimai təhlükəli xarakterini dərk edir, onların insanın sağlamlığına az ağır və ya ağır zərər vurulmasına və ya onun ölümünə səbəb olacağı imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir (cinayətkarcasına özünəgüvənmə), yaxud nəqliyyat vasitəsini idarə edən şəxs yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozarkən qanunda nəzərdə tutulmuş ictimai təhlükəli nəticələrin baş verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görmür (cinayətkarcasına etinasızlıq).

Yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının yol verilən pozuntusunun motivləri və xarakteri, təqsirkarın bu pozuntulara münasibəti əməlin tövsifinə təsir etməsə də, təyin edilən cəzanın növünün və ölçüsünün seçilməsi zamanı nəzərə alınmalıdır.

12. Bu cinayətin **subyekti** nəqliyyat vasitəsini idarə edən, cinayət əməlini törədənədək **16** yaşı tamam olmuş fiziki anlaqlı şəxs ola bilər. Şərh olunan maddə ilə məsuliyyətin yaranması üçün bu cinayət nəqliyyat vasitəsini idarə etmək hüququ olan (yəni müvafiq sürücülük vəsiqəsi olan) şəxs tərəfindən törədilməlidir.

Nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən CM-in 263.1-263.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin törədildiyi hallarda şəxsin əməli uyğun olaraq CM-in 263-1.1-263-1.4-cü maddələri ilə tövsif edilməlidir.

«Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 7-ci bəndinə görə ikitərəfli idarə etmə qurğuları ilə təchiz olunmuş təlim avtomaşınlarının idarə edilməsi zamanı müdavim tərəfindən yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyəti bunun qarşısını almaq imkanında olmuş təlimatçı, təlimatçının göstərişlərinə əməl etmədikdə isə avtomaşını bilavasitə idarə edən şəxs daşıyır. Təlim avtomaşınlarında təlimatçının və müdavimin birlikdə yol hərəkəti qaydalarını pozmaları, məsələn, təlimatçının və müdavimin spirtli içkilər qəbul edə-

rək sərxoş vəziyyətdə avtomaşını idarə etmələri, CM-in 263-1.1-263-1.4-cü maddələrində təsbit edilmiş nəticələrə səbəb olduğu hallarda onların hər ikisi uyğun nəticələri nəzərdə tutan maddə ilə cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan müdavim özbaşına, təlimatçının müşayiəti olmadan və ya sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə edərkən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozduqda CM-in 263-1-ci maddəsi ilə, bütün digər hallarda isə CM-in 263-cü maddəsi ilə məsuliyyət daşıyır.

Döyüş, xüsusi və ya hərbi nəqliyyat maşınlarını idarəetmə və istismar qaydalarını pozma cinayətinin subyekti həm belə maşınları bilavasitə idarə edən, həm də müvafiq normativ sənədlərlə və ya əmrlərlə üzərinə onların istismarı qaydalarına əməl edilməsi vəzifəsi qoyulmuş hərbi qulluqçular ola bilər. Bunlara sürücülər, hərbi hissənin texniki xidmətinin vəzifəli şəxsləri, zirehli və digər döyüş və xüsusi maşınların komandirləri, nəzarət-texniki məntəqələrinin rəisləri, avtopark üzrə növbətçilər və sair şəxslər aiddirlər. Döyüş, xüsusi və ya hərbi nəqliyyat maşınlarını idarə edən, lakin hərbi qulluqçu statusuna malik olmayan şəxsin, habelə öz şəxsi və ya CM-in 351-ci maddəsində nəzərdə tutulmuş cinayətin predmetinə aid olmayan digər nəqliyyat vasitələrini idarə edən hərbi qulluqçuların yol hərəkəti və ya nəqliyyat vasitələrini idarə etmə qaydalarını pozmaları CM-in 263 və ya 263-1-ci maddələri ilə məsuliyyətə səbəb olur («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 8-ci bəndi).

13. Yol-nəqliyyat hadisələri araşdırılarkən sürücü tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulub-pozulmaması sualına cavab vermək üçün çox vaxt müxtəlif texniki qiymətləndirmələrə, hesablamalara və xüsusi bilik tələb edən başqa tədqiqatlara zərurət yaranır. Ona görə də məhkəmə yol-nəqliyyat, avtotexniki və başqa ekspertizalar təyin olunur. Bu ekspertizalarla sürücünün hadisənin qarşısını almağa texniki cəhətdən imkanının olub-olmadığı, zərurət olduqda təxmini hərəkət sürəti, hərəkət istiqaməti, hadisənin mexanizmi ilə bağlı başqa məsələlər, eləcə də konkret nəqliyyat vasitəsinin təchizatı ilə bağlı qüsurların olub-olmadığı (texniki sazlığı) və başqa hallar aydınlaşdırılır. Təəssüf ki, məhkəmə yol-nəqliyyat ekspertizası ilə əlaqədar istintaq və məhkəmə təcrübəsində yanlış bir mövqe formalaşmışdır. Həmin ekspertizanı təyin edən müstəntiqlərin və hakimlərin əksəriyyəti ekspertiza qarşısında ənənəvi olaraq sürücü tərəfindən «Yol hərəkəti haqqında» Qanunun tələblərinin pozulub-pozulmamasına dair (sürücünün hərəkətinə «Yol hərəkəti haqqında» Qanunun tələbləri baxımından qiymət verilməsinə dair) sual qoyurlar (hətta bəzi hallarda bu ekspertizanı təyin etməyin yeganə məqsədi həmin suala cavab almaq olur), ekspertlər isə bu suala cavab verirlər. Lakin həmin sualın qoyulması və ona verilən cavab CPM-in 97-ci maddəsinin tələblərinin kobud surətdə pozulması deməkdir, çünki bu sual sırf hüquqi məsələdir və ekspert qarşısında hüquqi məsələlərə dair sual qoyula bilməz. Sürücünün hərəkətinin «Yol hərəkəti haqqında» Qanunun hər hansı müddəasını pozub-pozmadığını müstəntiq və hakim müəyyən etməlidir. Bu zaman onlar

belə hüquqi qiymətləndirmə üçün ekspert rəyində göstərilən və xüsusi biliklər tələb edən tədqiqat nəticəsində əldə olunan məlumatlardan istifadə edə bilərlər (məsələn, ekspert hadisə yerində aşkar olunan izlər əsasında nəqliyyat vasitəsinin sürətini müəyyən edərək öz rəyində konkret kəmiyyət göstərməlidir, müstəntiq və ya hakim isə hərəkət sürətinin kəmiyyətinin hadisə baş verən yerə aid sürət rejimini pozub-pozmadığını adı çəkilən Qanuna əsasən müəyyən etməlidir). Haqqında danışılan yanlış təcrübə aradan qaldırılmalıdır.

«Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 12-ci bəndində deyilir ki, yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair işlərə tam, hərtərəfli və obyektiv baxılmasının təmin olunması və qanuni və əsaslı qərarların qəbul edilməsi üçün həmin işlər üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirmə aparılmaqla hadisə yerinin müayinə edilməsi, nəqliyyat vasitələrinə baxış keçirilməsi, sürücülərin sağlamlıq və ya sərxoşluq vəziyyətinin yoxlanılması (müvafiq müayinələrdən keçirilməklə), ifadələrin yerində yoxlanılması, istintaq eksperimentinin keçirilməsi kimi istintaq hərəkətlərinin aparılması, iş üzrə məhkəmə-tibbi, məhkəmə-texniki və məhkəmə-yol-nəqliyyat hadisələri ekspertizalarının keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, yol-nəqliyyat hadisələrinin baş verdiyi ərazi videomüşahidə vasitələrinin nəzarəti altında olduqda, müvafiq görüntülərin elektron daşıyıcıda cinayət işinə əlavə olunması təmin edilməlidir. Bu kateqoriyadan olan cinayət işləri üzrə şəxsin təqsirlilik məsələsi həll edilərkən işin bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırılmaqla yanaşı, həm də təqsirləndirilən şəxsin «Yol hərəkəti haqqında» Qanunun məhz hansı normasının tələblərinin pozması və bu pozuntunun konkret nədə ifadə olunması qəbul edilmiş məhkəmə aktlarında göstərilməli, həmin qayda pozuntuları ilə baş vermiş nəticə arasında səbəbli əlaqənin mövcudluğu, habelə təqsirləndirilən şəxsin yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün texniki cəhətdən imkanının olub-olmaması müəyyənləşdirilməlidir.

Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə əlaqədar baş vermiş hadisələr zamanı sürücülər tərəfindən «Yol hərəkəti haqqında» Qanunun tələblərinin pozulub-pozulmaması, bu hadisələrin qarşısını almağa onların texniki cəhətdən imkanlarının olub-olmaması əsas etibarı ilə məhkəmə-yol-nəqliyyat ekspertizasının, zərər çəkmiş şəxsin sağlamlığına məhz yol-nəqliyyat hadisəsi nəticəsində zərərin vurulması və bu zərərin ağırlıq dərəcəsi isə məhkəmə-tibbi ekspertizasının rəyləri əsasında müəyyən edilir. Sübutlar qiymətləndirilərkən iş üzrə təyin edilmiş ekspertizaların səlahiyyətli ekspertiza idarəsi tərəfindən aparılmasına xüsusi diqqət yetirilməlidir. Nəzərə alınmalıdır ki, «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Qanunun 23-cü maddəsinə və qeyd olunan qanunun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2000-ci il, 30 iyul 2001-ci il və 15 oktyabr 2011-ci il tarixli Fərmanlarına əsasən məhkəmə ekspertizası fəaliyyəti səlahiyyətləri hüdudlarında Azərbaycan Respublikasının Ədliyyə və Səhiyyə Nazirliklərinin məhkəmə ekspertiza idarələri tərəfindən həyata keçirilir.

CPM-in 268.1.4-cü maddəsinə uyğun olaraq, təqsirləndirilən şəxsin vəsatəti əsasında onun öz hesabına alternativ ekspertizanın aparıldığı hallarda, bu ekspertizanın rəyi də işdə olan digər materiallar və ekspertiza rəyləri ilə müqayisəli surətdə təhlil edilib qiymətləndirilməlidir.

Verilmiş ekspertiza rəylərində ekspertlər qoyulmuş suallara tam cavab vermədikdə və ya tədqiqat aparılmış obyektlərə dair əlavə suallar yarandıqda aparılmış tədqiqatın və ya rəydəki boşluğun aradan qaldırılması üçün məhkəmə istintaqı zamanı tam, hərtərəfli və obyektiv araşdırılmış sübutlar əsasında əlavə, ekspertin rəyi kifayət qədər əsaslı olmadıqda və ya şübhə doğurduqda, yaxud onun əsaslandığı sübutlar etibarsız (qeyri-mötəbər) hesab edildikdə və ya ekspertiza aparılmasının prosessual qaydaları pozulduqda isə təkrar, habelə zərurət yaranarsa komisyon və ya kompleks ekspertizaların keçirilməsini təmin edilməlidir. Bu zaman ekspertizanın təyin edilməsi haqqında qərarda ekspertlər qarşısında nəqliyyat vasitəsini idarə etmiş şəxslə yanaşı yol hərəkətinin digər iştirakçılarının da yol hərəkəti qaydalarını pozub-pozmaması və belə pozuntularla baş vermiş nəticələr arasında səbəbli əlaqənin olub-olmaması haqqında sualların qoyulması məhkəmələrə tövsiyə edilir. Ekspertlərin qoyulan suallara yalnız səlahiyyətləri çərçivəsində cavab verə bilmələrini nəzərə alaraq, məhkəmələr tərəfindən ekspertizaların təyin olunması haqqında qərarlarda təqsirləndirilən şəxsin təqsirli və ya təqsirsiz olub-olmaması, onun törətdiyi əmələ hüquqi qiymət verilməsi barədə suallar qoyula bilməz («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 19-cu bəndi).

14. Şərh olunan maddənin «Qeyd»inin 2-ci bəndində CM-in 263.1 və ya 263.1-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxsin cinayət **məsuliyyətindən azad edilməsinin xüsusi halı** nəzərdə tutulmuşdur. Maddənin «Qeyd»i cinayət məsuliyyətindən azad **etmənin iki şərtini** əks etdirir: 1) cinayəti törətmiş şəxs zərərçəkmiş şəxslə barışmalıdır; 2) cinayəti törətmiş şəxs zərərçəkmiş şəxsə dəymiş ziyanı tamamilə ödəməlidir.

Hər iki şərtin izahı haqqında CM-in 73-cü maddəsinin şərhinə bax.

CM-in 263.1-ci və 263.1-1-ci maddələrində zərərçəkmiş şəxsə dəymiş **ziyan** dedikdə zərərçəkmiş şəxsin nəqliyyat vasitəsinə dəymiş ziyan, onun sağlamlığının bərpasına çəkilən xərclər, habelə cinayətin doğurduğu neqativ nəticələrin aradan qaldırılmasına sərf olunan digər xərclər başa düşülməlidir. cinayəti törətmiş şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün o, dəymiş ziyanı tamamilə ödəməlidir.

CM-in 263.1-ci və 263.1-1-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs maddənin «Qeyd»inin 2-ci bəndinə uyğun olaraq cinayət məsuliyyətindən azad edildikdə və onun əməllərində inzibati xəta tərkibinin əlamətləri olduqda o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir.

15. CM-in 263-cü maddəsində nəzərdə tutulan cinayət tərkiblərini 3 qrupa

bölmək olar: 1) əsas tərkib (CM-in 263.1-ci maddəsi); 2) ağırlaşdırıcı tərkib əlamətləri olan tərkiblər (CM-in 263.1-1-ci maddəsi); 3) xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri olan tərkiblər (CM-in 263.2-ci və 263.3-cü maddələri).

Şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** qismində zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulması, **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** qismində isə zərərçəkmiş şəxsin ölümü və iki və ya daha çox şəxsin ölümü nəzərdə tutulur.

Ali Məhkəmənin adı çəkilən qərarının 17-ci bəndinə görə konkret bir hadisədə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması həm CM-in 263.1, 263.1-1, 263.2, 263.3, 263-1.1, 263-1.2, 263-1.3, 263-1.4, 351.1, 351.2 və 351.3-cü maddələrində nəzərdə tutulmuş, həm də bu maddələrdə nəzərdə tutulmamış (məsələn, şəxsin sağlamlığına yüngül zərər vurulması, yaxud da onun əmlakının zədələnməsi və ya məhv edilməsi) nəticələrdən bir neçəsinə səbəb olduqda, təqsirləndirilən şəxsə elan olunmuş ittihamda və ittiham hökmünün təsviri hissəsində baş vermiş nəticələrin hamısı göstərilməli, lakin onun əməli cinayət qanununun bu nəticələrdən daha ağırına görə məsuliyyət nəzərdə tutan maddəsi ilə tövsif edilməlidir. Belə hallarda yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlıqlarına fiziki, əmlaklarına isə maddi zərər vurulmuş bütün şəxslər zərər çəkmiş şəxs qismində tanınmalı və cinayət təqibi zamanı onların CPM-in 87-ci maddəsində nəzərdə tutulmuş hüquqları təmin edilməlidir. Bir-biri ilə əlaqədar olmayan və müxtəlif vaxtlarda yol hərəkətinin və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması qeyd edilən maddələrdə nəzərdə tutulmuş eyni nəticələrə səbəb olduqda törədilmiş əməllər CM-in həmin nəticəyə görə məsuliyyət müəyyən edən müvafiq maddəsi ilə, belə əməllərin hər birisi müxtəlif nəticələrə səbəb olduqda isə həmin əməllər cinayətlərin məcmusu qaydasında tövsif edilir.

R.Mahmudov Gədəbəy rayon Məhkəməsinin 26 dekabr 2002-ci il tarixli hökmü ilə CM-in 263.1, 263.2 maddəsi ilə təqsirli bilinib 2 (iki) il müddətinə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 3 (üç) il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir, ona görə ki, o, 11 avqust 2002-ci il tarixdə ona məxsus VAZ-2111 markalı AZ 60-VV-689 dövlət nömrə nişanlı avtomaşını idarə edərkən «Yol hərəkəti haqqında» Qanunun 36-cı maddəsinin 1-ci hissəsinin 3-cü bəndinin tələblərini pozaraq qarşıdan gələn R.Ələkbərovun idarə etdiyi VAZ-2121 markalı AZ 21-VA-753 dövlət nömrə nişanlı avtomaşının yoluna çıxaraq toqquşmuş və nəticədə VAZ-2121 markalı avtomaşında olan azyaşlı K.R.Ələkbərov almış olduğu xəsarətdən ölmüş, K.A.Ələkbərovun, sürücü R.K.Ələkbərovun və R.Mahmudovun özünün idarə etdiyi VAZ-2111 markalı avtomaşında olan azyaşlı Z.Misirovanın sağlamlıqlarına az ağır zərər yetirilmişdir.

Hökmdən verilmiş apelyasiya protesti onunla əsaslandırmışdır ki, CM-in 17.1-ci maddəsinə görə bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri etmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə,

cinayətlərin məcmusu yaranır. Həmin Məcəllənin 17.4-cü maddəsinə görə bu Məcəllənin Xüsusi hissəsində həm ümumi, hə də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur.

CM-in 263.1-ci maddəsində avtomobil və ya digər nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olmasına görə, CM-in 263.2-ci maddəsində isə eyni əməllərin zərərçəkmişin ölümünə səbəb olmasına görə məsuliyyət nəzərdə tutulmuşdur. Belə halda həmin Məcəllənin 263.1-ci maddəsi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin ümumi norması kimi çıxış etdiyinə görə burada cinayətlərin məcmusu yaranmır və təqsirkar şəxsin əməli CM-in 263.2-ci maddəsi ilə əhatə olunur. R.Mahmudovun əməli cinayətlərin məcmusunu yaratmadığı halda məhkəmə onu CM-in 263.1-ci və 263.2-ci maddələri ilə təqsirli bilərək ona hər iki maddə ilə 3 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edərək cinayət qanunu normasını düzgün tətbiq etməmişdir.

Apelliyasiya Məhkəməsinin 3 mart 2003-cü il tarixli qərarı ilə apelyasiya protesti təmin edilmiş və Gədəbəy rayon Məhkəməsinin R.Mahmudov barəsində olan 26 dekabr 2002-ci il tarixli hökmü dəyişdirilərək hökmdən CM-in 263.1-ci maddəsi xaric edilmişdir[1].

Nəqliyyat vasitəsini idarə edən şəxsin yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozması və bunun yalnız onun özünün sağlamlığına az ağır və ya ağır zərərin vurulmasına səbəb olması, habelə piyadanın (sərnişinin) hərəkət təhlükəsizliyi qaydalarını pozması və bu pozuntunun həmin şəxslərin özlərinin CM-in 263 və 351-ci maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olması hadisənin qarşısını almaq imkanında olmayan nəqliyyat vasitəsini idarə edən şəxsin barəsində cinayət təqibini istisna edən hal kimi nəzərdən keçirilməlidir («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 18-ci bəndi).

Yol-nəqliyyat hadisələri bəzi hallarda bir neçə hərəkət iştirakçısının yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarını pozması səbəbindən baş verir. Belə hallarda hər bir hərəkət iştirakçısının əməlinə hüquqi qiymət verilməlidir. Hadisə sürücünün və başqa hərəkət iştirakçısının (piyadanın, velosipedçinin və s.) qarşılıqlı olaraq hərəkət qaydalarını pozması nəticəsində baş verdikdə, müvafiq tərkib əlamətləri olduqda sürücünün əməli CM-in 263-cü, digər hərəkət iştirakçısının əməli isə CM-in 267-ci maddəsi üzrə tövsif olunmalıdır. Hadisədə bir neçə sürücünün təqsirli olduğu məlum olduqda onların hər biri CM-in 263-cü maddəsi üzrə məsuliyyətə cəlb edilməlidir. Lakin bu zaman mühüm bir suala aydınlıq gətirilməlidir: baş vermiş zərərli nəticələr sürücülərin hər birinin əməli ilə səbəbli əlaqəyə malikdirmi və onların hər birinin bu nəticənin baş verməsində rolu nə dərəcədədir?

Bəzən bir neçə hərəkət iştirakçısının aid olduğu yol-nəqliyyat hadisəsi elə baş verir ki, hadisənin əsl səbəbkarı zahirən kənarda qalır. Məsələn, sürücü

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2004-cü il, № 5.

yolayrıcında yol vermə qaydasını pozur, nəticədə istiqamətini dəyişməyə məcbur olan digər sürücünün nəqliyyat vasitəsi üçüncü nəqliyyat vasitəsi ilə toqquşur. Belə hallarda bütün sübutetmə vasitələrinin köməyi ilə hadisədə zahirən bilavasitə iştirak etməmiş, lakin əsl təqsirkar olan sürücü müəyyən edilərək CM-in 263-cü maddəsi üzrə məsuliyyətə cəlb edilməlidir.

«Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarında da göstərilir ki, təqsirləndirilən şəxslərlə yanaşı yol hərəkətinin digər iştirakçılarının da hərəkət və ya hərəkətsizliyinin cinayətin baş verməsinə səbəb olması faktlarına və qarşılıqlı təqsirin mövcudluğuna əhəmiyyət verilməlidir.

16. Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olması cinayətini (CM-in 263.1-1-ci maddəsi) 2 iyul 2011-ci il tarixinədək törədən şəxsə cəza 31 may 2011-ci il tarixli, 137-IVQD nömrəli Azərbaycan Respublikası Qanunu **qüvvəyə minənədək qüvvədə olmuş CM-in 263.1-ci maddəsinin sanksiyasına** uyğun olaraq təyin edilməlidir. Başqa sözlə, 31 may 2011-ci il tarixli, 137-IVQD nömrəli Azərbaycan Respublikasının Qanununun qüvvəsi bu halda geriyə şamil oluna bilməz, ona görə ki, həmin qanun CM-ə 263.1-1-ci maddə əlavə etməklə avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olmasını CM-in 263.1-ci maddəsində təsbit edilmiş cinayətin ağırlaşdırıcı halı kimi müəyyən edərək, həmin maddənin sanksiyasında üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutmuşdur. Beləliklə, qanunverici CM-in 263.1-ci maddəsinin sanksiyasının əvvəlki mətnindən alternativ daha yüngül cəza növünü (azadlığın məhdudlaşdırılması cəzasını) çıxarmış və daha ağır cəza növünün (azadlıqdan məhrum etmə cəzasının) müddətini olduğu kimi saxlamışdır, yəni avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına görə cəzanı ağırlaşdırmışdır. Qeyd olunan halda (yəni bu əməl 2 iyul 2011-ci il tarixinədək törədilmiş olduqda) məhkəmə cinayət törədən şəxsə azadlığın məhdudlaşdırılması cəzasını təyin etmək qənaətinə gələrsə, onda həmin cəzanı təyin etməli, sonra 31 may 2011-ci il tarixli, 137-IVQD nömrəli Azərbaycan Respublikası Qanununun «Keçid müddəaları»nı tətbiq etməklə həmin cəzanı islah işləri və ya cərimə cəzası ilə əvəz etməlidir (əlavə olaraq CM-in 10-cu və 44-cü maddələrinin şərhinə bax).

17. Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olması cinayətini (CM-in 263.1-ci maddəsi) 2 iyul 2011-ci il

tarixinədək törədən şəxsə əsas cəza 31 may 2011-ci il tarixli, 137-IVQD nömrəli Qanun qüvvəyə minənədək qüvvədə olmuş CM-in 263.1-ci maddəsinin sanksiyasına uyğun olaraq təyin edilə bilməz. Ona görə ki, 31 may 2011-ci il tarixli Qanuna əsasən CM-in 263.1-ci maddəsinin sanksiyasında həmin Qanun qüvvəyə minənədək qüvvədə olmuş sanksiya ilə müqayisədə iki yeni daha yüngül əsas cəza növü (cərimə və islah işləri) nəzərdə tutulmuş, azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi üç ildən iki ilə endirilmişdir.

31 may 2011-ci il tarixli Qanun nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum etmə növündə **əlavə cəzanın** tətbiqi dairəsini genişləndirdiyinə görə, yəni həmin cəzanın cərimə və islah işləri növündə əsas cəzalara da məcburi təyin edilməsini müəyyən etməklə cəzanı ağırlaşdırmışdır. Lakin nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum etmə növündə cəzanın azadlıqdan məhrum etmə cəzasına əlavə cəza kimi təyin edilməsi hissəsində 31 may 2011-ci il tarixli Qanun cəzanı yüngülləşdirmişdir (maddənin qüvvədən düşən sanksiyasında nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum etmə cəzasının yuxarı həddi 3 il, yeni sanksiyada isə 2 il müəyyən edilmişdir). Beləliklə, nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum etmə cəzasının əlavə cəza kimi yalnız azadlıqdan məhrum etmə cəzasına qoşulduğu hallarda 31 may 2011-ci il tarixli Qanunla müəyyən edilmiş sanksiya tətbiq edilməlidir. Məhkəmə əsas cəzalardan cərimə və ya islah işləri cəzalarından birini seçdikdə isə nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum etmə cəzasını əlavə cəza kimi təyin edə bilməz.

Bakı şəhəri Səbail rayon Məhkəməsinin 23 fevral 2012-ci tarixli hökmü ilə F.N.Zeynalov CM-in 263.1-ci maddəsi ilə (31 may 2011-ci il tarixli qanunla edilmiş dəyişikliklərin qüvvəyə minməsinədək olan redaksiyada) təqsirli bilinib 1 (bir) il 6 (altı) ay müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, 31 may 2011-ci il tarixli qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər və həmin qanunun keçid müddəalarının 2.1 və 2.1.2-ci maddələri nəzərə alınaraq CM-in 263.1-ci maddəsi ilə təyin edilmiş 1 (bir) il 6 (altı) ay müddətə azadlığın məhdudlaşdırılması cəzası 500 (beş yüz) manat miqdarında cərimə cəzası ilə əvəz edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 4 may 2012-ci il tarixli qərarı ilə həmin hökmdən verilmiş apellyasiya protesti təmin edilmiş, Səbail rayon Məhkəməsinin 23 fevral 2012-ci il tarixli hökmü cəzanın təyini hissəsində dəyişdirilmiş, F.N.Zeynalov CM-in 263.1-ci maddəsi ilə (yeni redaksiyada) təqsirli bilinib 1 (bir) il müddətinə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə qazancının 20%-i dövlət nəfinə tutulmaqla 1 (bir) il 6 (altı) ay müddətə islah işləri cəzasına məhkum edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə ona CM-in 263.1-ci maddəsinin yeni redaksiyasında nəzərdə tutulmuş cəzanın təyin edilməsini əsassız və qanunsuz hesab edən məhkum F.Zeynalov qərardan kassasiya şikayəti vermiş, yeni qanunun onun vəziyyətini pisləşdirdiyini bildirmişdir.

Kassasiya kollegiyası əsas cəzanın mübahisələndirilməsi hissəsində kassasiya şikayətinin dəlilləri ilə ona görə razılaşmamışdır ki, CM-in 263.1-ci maddəsinin sanksiyasında 31 may 2011-ci il tarixli qanunla edilmiş dəyişikliklərin

qüvvəyə minməsinədək üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə üç il müddətinə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduğu halda, həmin normanın yeni redaksiyası iki ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzaları nəzərdə tutmuşdur. Deməli, CM-in 263.1-ci maddəsinin yeni redaksiyasında əsas cəza olaraq nəzərdə tutulmuş azadlıqdan məhrum etmənin yuxarı həddi həmin normanın əvvəlki redaksiyasında nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddindən az olduğundan, eyni zamanda yeni normada CM-in 263.1-ci maddəsinin əvvəlki redaksiyasında nəzərdə tutulmuş cəzalarla müqayisədə daha yüngül cəza növləri - cərimə və islah işi nəzərdə tutulduğundan, 31 may 2011-ci il tarixli qanunla qəbul edilmiş CM-in 263.1-ci maddəsinin sanksiyasının yeni redaksiyası (əsas cəzanın təyin edilməsi hissəsində) cəzanı yüngülləşdirir.

Əlavə cəzanın təyin edilməsinin mübahisələndirilməsi ilə bağlı kollegiya kassasiya şikayətinin dəlilləri ilə ona görə razılaşmışdır ki, CM-in 263.1-ci maddəsinin əvvəlki redaksiyası nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etməni müstəsna olaraq azadlıqdan məhrum etməyə əlavə cəza kimi təsbit etdiyindən, təqsirkara 31 may 2011-ci il tarixli qanunun qüvvəyə minməsinədək törədilmiş cinayətə görə CM-in 263.1-ci maddəsinin yeni redaksiyasına uyğun olaraq azadlıqdan məhrum etmə istisna olmaqla, digər cəzalar təyin edildikdə bunlara əlavə kimi nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə cəzası tətbiq edilə bilməz[1].

18. CM-in 263-cü maddəsində nəzərdə tutulan əmələ görə cəza təyin edilməsi ilə bağlı Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 21-23-cü bəndlərində şərh verilmişdir. Həmin şərhdə deyilir ki, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasında təqsirləndirilən şəxslərə cəza təyin edilərkən nəzərə alınmalıdır ki, cinayətin ağır nəticələrə səbəb olması CM-in 263.2, 263.3, 263-1.3, 263-1.4, 351.2 və 351.3-cü maddələrinin dispozisiyasında cinayət tərkibinin zəruri elementi kimi nəzərdə tutulduğundan həmin nəticələrin mövcudluğu öz-özlüyündə CM-in 61.1.2-ci maddəsinə istinad edilməklə cəzanı ağırlaşdıran hal hesab edilə bilməz.

Törədilmiş cinayətə görə nəzərdə tutulmuş daha ciddi cəza növü və həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza cəzanın məqsədlərini təmin edə bilmir. Odur ki, məhkəmələr tərəfindən bu kateqoriyadan olan işlər üzrə işin cəzaya təsir edə biləcək bütün halları, o cümlədən təqsirləndirilən şəxsin əvvəllər yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar və ya hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər törədib-törətməməsi, buna görə onun inzibati məsuliyyətə cəlb edilməmiş sayılıb-sayılmaması və ya məhkumluğunun ödənilib-ödənilməməsi, inzibati və ya cinayət mühakimə icraatı qaydasında nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilib-edilməməsi, digər tərəfdən isə yol-nəqliyyat hadisəsinin baş verməsində zərərçəkmişin və ya yol hərəkətinin digər iştirakçılarının

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2013-cü il, № 2, s.27-29.

qarşılıqlı təqsirinin mövcudluğu, təqsirləndirilən şəxsin hadisədən sonrakı davranışı, onun hadisə yerindən qaçmayaraq zərərçəkmişə tibbi və ya digər yardım göstərməsi, yol-nəqliyyat hadisəsi nəticəsində zərər çəkmiş şəxsin təqsirkarın yaxın qohumu olması, təqsirləndirilən şəxsin özünün də hadisə nəticəsində xəsarət alması, onun tərəfindən maddi və mənəvi zərərin ödənilməsi və bu kimi sair hallar araşdırılmalı və cəza təyini zamanı nəzərə alınmalıdır.

CPM-nin 106.6-cı maddəsində, CM-in isə 59.1.9-cu maddəsində zərər çəkmiş şəxsin hüquqi varisinin şübhəli və ya təqsirləndirilən şəxslə barışmaq hüququnun nəzərdə tutulmamasını nəzərə alaraq hətta belə barışıq əldə edildikdə bu hal təqsirləndirilən şəxsə cəza təyini zamanı onun barəsində CM-in 60-cı maddəsinin tətbiqi üçün əsas ola bilməz.

CM-in 45-ci maddəsinin mənasına görə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza ictimai işlər, islah işləri, intizam xarakterli-hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzalarına, əsas cəzanın şərti olaraq tətbiq edilib-edilməməsindən asılı olmayaraq, əlavə cəza kimi bir ildən beş ilədək müddətə təyin olunur. Bu növdə əlavə cəzanın səmərəli şəkildə icra olunmasının təmin edilməsi məqsədilə, həbelə şəxsin əməllərinin düzgün tövsif edilməsi üçün sürücülük vəsiqəsinin sübut əhəmiyyətli sənəd olmasını nəzərə alaraq, müvafiq qərar əsasında təqsirləndirilən şəxsin sürücülük vəsiqəsinin əsli götürülməli, cinayət işinə əlavə edilməli və ittiham hökmü qanuni qüvvəyə minənəndək iş materiallarında saxlanılmalı, hökm qanuni qüvvəyə mindikdən sonra isə icra sənədləri ilə birlikdə dövlət yol polisi orqanına göndərilməlidir.

CM-in 263, 263-1, 264 və 351-ci maddələrində nəzərdə tutulmuş cinayətləri törətməkdə təqsirləndirilən şəxslərin sürücülük hüququnun olmaması və ya yetkinlik yaşına çatmaması onun barəsində nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə əlavə cəzanın tətbiq olunmasına maneə deyildir.

CM-in 263.1-ci maddəsinin tələbinə görə, nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə növündə əlavə cəzanın tətbiq edilməsi CM-in 263.1-ci maddəsinin sanksiyasında nəzərdə tutulmuş hər hansı əsas cəzanın (azadlıqdan məhrum etmə, islah işləri və ya cərimə cəzasının) təyin edilməsindən asılı olmayaraq məcburidir. Məhkəmə göstərilən əlavə cəzanı yalnız CM-in 62-ci maddəsində nəzərdə tutulan əsaslar mövcud olduqda, həmin maddəyə istinad etməklə və qəbul olunmuş qərarın motivlərini hökmdə göstərməklə tətbiq etməyə bilər.

Nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum etmənin əlavə cəza kimi tətbiq edildiyi hallarda hökmlərin icrasına xüsusi diqqət yetirilməlidir. Bu halda nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 157.2-ci maddəsinə əsasən həmin cəza intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalara əlavə olaraq təyin edildiyi hallarda əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə hökmdə bu cəza üçün müəyyən edilmiş müddətə şamil olunur.

Nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə növündə cəza intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəzalara əlavə olaraq təyin edildikdə, cəzanı icra edən müəssisə və ya orqan əsas cəza müddəti qurtardıqdan sonra, yaxud məhkum şərti olaraq vaxtından əvvəl əsas cəzadan azad edilərsə və ya cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza ilə əvəz edilərsə, hökmün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi onun yaşadığı yerin icra məmuruna göndərir (CİM-nin 154.3-cü maddəsi). İcra məmuru tərəfindən göstərilən sənədlər icra olunması üçün qəbul edildiyi vaxtdan şəxsə təyin olunmuş nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə növündə əlavə cəza üçün müəyyən edilmiş müddətin axımı başlayır.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə əlavə cəzanın intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzaları ilə əlaqədar olmayan digər cəzalarla birlikdə, habelə əsas cəzanın şərti olaraq tətbiq edilməsi zamanı təyin edildiyi hallarda əlavə cəzanın çəkilməsi müddəti hökmün qanuni qüvvəyə mindiyi vaxtdan hesablanır.

CM-in 79-cu maddəsində nəzərdə tutulmuş əsaslarla şəxsə təyin edilmiş azadlıqdan məhrum etmə növündə cəzanın icrası təxirə salındıqda, həmin cəzaya əlavə olaraq təyin edilmiş nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə növündə cəza icraya yönəldilir.

Maddə 263-1. Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma

263-1.1. Bu Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə altı min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

263-1.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına, yaxud ümumi istifadədə olan nəqliyyat vasitəsinin idarə edilməsi zamanı ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

dörd ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

263-1.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum

etmə ilə cəzalandırılır.

263-1.4. Eyni əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 5 aprel 2013-cü il tarixli, 597-IVQD nömrəli Qanunu ilə əlavə edilmiş, 20 oktyabr 2015-ci il tarixli, 1406-IVQD nömrəli Qanunla düzəliş edilmişdir — «Respublika» q., 19 aprel 2013-cü il; «Azərbaycan» q., 8 noyabr 2015-ci il).*

1. Bu cinayətin **obyekti** yol hərəkətinin və nəqliyyat vasitələrinin istismarının təhlükəsizliyi qaydalarıdır. Şərh olunan cinayətin **əlavə obyektini** insanın həyat və ya sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlər təşkil edir.

2. Şərh olunan cinayətin **predmeti, obyektiv və subyektiv cəhətləri** ilə CM-in 263-cü maddəsində nəzərdə tutulan cinayətin sadalanan əlamətləri eynidir. Cinayətin predmeti barədə CM-in 263-cü maddəsinin şərhinin 3-cü, obyektiv cəhəti barədə 5-10-cu bəndlərinə, subyektiv cəhəti barədə isə 11-ci bəndinə bax.

3. Şərh olunan cinayət **maddi** tərkibli olduğu üçün CM-in 263-1.1-263-1.4-cü maddələrində sadalanan ictimai təhlükəli nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab olunur.

4. CM-in 263-1-ci maddəsində nəzərdə tutulan cinayəti 263-cü maddədə əksini tapan cinayətdən fərqləndirən yeganə cəhət cinayətin subyekti ilə bağlıdır. CM-in 263-cü maddəsində nəzərdə tutulan cinayət alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədildikdə, CM-in 263-cü maddəsi ilə deyil, 263-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.

CM-in 263-cü və 263-1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin **subyekti** yalnız yol-nəqliyyat hadisəsinin törədildiyi anda 16 yaşına çatmış, anlaqlı vəziyyətdə olan və nəqliyyat vasitəsini idarə edən şəxs ola bilər. Nəqliyyat vasitəsini idarə etmək hüququna malik olan şəxs tərəfindən CM-in 263-cü maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi onun həmin maddə ilə, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan və ya spirtli içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan şəxsin eyni əməlləri törətməsi isə CM-in 263-1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 4-cü bəndi). Adı çəkilən Plenum qərarının 6-cı bəndinə görə 16 yaşına çatmamış şəxsin yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozması CM-in 263.3, 263-1.3 və 263-1.4-cü maddələrində (ağır cinayətlər) nəzərdə tutulmuş nəticələrə səbəb olduqda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş müvafiq tədbirlərin görülməsi üçün CPM-in 435-1-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi üçün əsas ola bilər.

Şərh olunan maddə **cinayətin subyekti** qismində iki kateqoriya şəxsi nəzərdə tutur: 1) nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxsi; 2) alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan şəxsi.

Ali Məhkəmənin Plenumunun adı çəkilən qərarının 4-cü bəndinə görə **nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs** dedikdə həmin hüququ ümumiyyətlə əldə etməmiş və ya ondan qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhrum olunmuş, habelə bu hüququ müvəqqəti məhdudlaşdırılmış şəxslərlə yanaşı, həm də müvafiq kateqoriyaya aid olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxslər başa düşülür (məsələn, yalnız «B» kateqoriyasına aid olan avtomaşınları idarə etmək hüququna malik olub avtobusları idarə edən şəxslər).

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəasının şərh edilməsinə dair» 24 sentyabr 2014-cü il tarixli Qərarına görə də Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmiş şəxsi, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxsi, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxsi ehtiva edir. Keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinə malik olan şəxs «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 34-cü maddəsinin V hissəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilir.

Nəqliyyat vasitəsini idarə etmək hüququ **müvəqqəti məhdudlaşdırılmış** şəxslər dedikdə inzibati xəta törətdiyinə görə, habelə «Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş hallarda bu hüququ müvəqqəti məhdudlaşdırılmış şəxslər də başa düşülür.

Şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququnu təsdiq edən sənədin (sürücülük vəsiqəsinin) **etibarlılıq müddəti başa çatdıqdan sonra** CM-in 263-1-ci maddəsində göstərilən nəticələrə səbəb olan yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulduğu hallarda da şəxsin əməli bu maddənin uyğun hissələri ilə tövsif edilməlidir. CM-in 263-1-ci maddəsində göstərilən cinayət əməllərinin **saxta sürücülük vəsiqəsi** olan şəxs tərəfindən törədilməsi də nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilmiş əməl kimi şərh olunan maddə ilə tövsif edilməlidir.

Sürücülük vəsiqəsinin yararsız hala düşməsi və ya itirilməsi, yaxud nəqliyyat vasitəsini idarə etdiyi zaman sürücülük vəsiqəsi üstündə olmayan şəxsin

nəqliyyat vasitəsini idarə etməsi həmin şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs sayılması demək deyildir. CM-in 263-cü maddəsində göstərilən nəticələrə səbəb olan yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulduğu hallarda belə şəxsin əməli CM-in 263-1-ci maddəsi ilə deyil, **263-cü maddəsi ilə** tövsif edilməlidir.

İkitərəfli idarə etmə qurğuları ilə təchiz olunmuş təlim avtomaşınlarının idarə edilməsi zamanı müdavim tərəfindən yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyəti bunun qarşısını almaq imkanında olmuş **təlimatçı**, təlimatçının göstərişlərinə əməl etmədikdə isə avtomaşını **bilavasitə idarə edən şəxs** daşıyır. Təlim avtomaşınlarında təlimatçının və müdavimin birlikdə yol hərəkəti qaydalarını pozmaları (məsələn, təlimatçının və müdavimin spirtli içkilər qəbul edərək sərxoş vəziyyətdə avtomaşını idarə etmələri) CM-in 263-1.1-263-1.4-cü maddələrində təsbit edilmiş nəticələrə səbəb olduğu hallarda onların hər ikisi uyğun nəticələri nəzərdə tutan maddə ilə cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan müdavim özbaşına, təlimatçının müşayiəti olmadan və ya sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə edərkən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozduqda CM-in 263-1-ci maddəsi ilə, bütün digər hallarda isə CM-in 263-cü maddəsi ilə məsuliyyət daşıyır.

Döyüş, xüsusi və ya hərbi nəqliyyat maşınlarını idarəetmə və istismar qaydalarını pozma cinayətinin subyekti həm belə maşınları bilavasitə idarə edən, həm də müvafiq normativ sənədlərlə və ya əmrlərlə üzərinə onların istismarı qaydalarına əməl edilməsi vəzifəsi qoyulmuş hərbi qulluqçular ola bilər. Bunlara sürücülər, hərbi hissənin texniki xidmətinin vəzifəli şəxsləri, zirehli və digər döyüş və xüsusi maşınların komandirləri, nəzarət-texniki məntəqələrinin rəisləri, avtopark üzrə növbətçilər və sair şəxslər aiddirlər. Döyüş, xüsusi və ya hərbi nəqliyyat maşınlarını idarə edən, lakin hərbi qulluqçu statusuna malik olmayan şəxsin, habelə öz şəxsi və ya CM-in 351-ci maddəsində nəzərdə tutulmuş cinayətin predmetinə aid olmayan digər nəqliyyat vasitələrini idarə edən hərbi qulluqçuların yol hərəkəti və ya nəqliyyat vasitələrini idarə etmə qaydalarını pozmaları CM-in 263 və ya 263-1-ci maddələri ilə məsuliyyətə səbəb olur («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 8-ci bəndi).

Ali Məhkəmənin Plenumunun adı çəkilən qərarının 10-cu bəndinə görə nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan, bu hüquqdan qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhrum edilmiş və ya həmin hüququ məhdudlaşdırılmış, habelə «Yol hərəkəti haqqında» Qanunda nəzərdə tutulmuş müvafiq kateqoriyaya aid olan nəqliyyat vasitəsini idarə etmək hüququ əldə etməmiş şəxslərin CM-in 263-1-ci maddəsi ilə təqsirləndərilmələrinə dair işlərə baxarkən belə şəxslərə nəqliyyat vasititəsini idarə etmələrini etibar etmiş nəqliyyat vasitələrinin sahiblərinin (fiziki, hüquqi və ya vəzifəli şəxslərin) bununla bağlı törətdikləri əməllərində hər hansı cinayətin əlamətlərinin olması haqqında məlumatlar aldıqda və bu haqda ibtidai araşdırma orqanları tərəfindən müvafiq qərar qəbul edilmədikdə, məhkəmə CPM-in 207.6-cı maddəsinin

tələblərinə uyğun olaraq onda olan bütün məlumatları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir.

Şəxsin nəqliyyat vasitəsini alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda idarə edib-etməməsi ekspert rəyi, şəxsin sərxoşluğunun müəyyən edilməsi haqqında müayinə aktı ilə müəyyən edilir. Şəxs hadisədən sonra hadisə yerindən qaçdıqda və ya hər hansı vasitə ilə müayinədən və ya ekspertizanın keçirilməsindən imtina etdikdə onun cinayət törədərkən sərxoş olub-olmaması Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 124-cü maddəsində nəzərdə tutulan sübut növləri ilə müəyyən oluna bilər. Bu zaman sərxoşluğun dərəcəsi əməlin həmin maddə ilə tövsifi üçün əhəmiyyət kəsb etmir.

Şəxsin alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə olmasının üsulları (şəxsin özü tərəfindən belə içki və ya maddələrin qəbulu, yaxud başqa şəxslər tərəfindən onun sərxoş vəziyyətə gətirilməsi) əməlin bu maddə ilə tövsifini istisna etmir. Alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadənin üsulları (içmə, çəkmə, iynə ilə bədəninə daxil etmə və s.) da əməlin bu maddə ilə tövsifinə mane olmur (narkotik vasitələrin, psixotrop maddələrin və digər güclü təsir edən maddələrin anlayışı haqqında CM-in 234-cü maddəsinin şərhinə bax). Sərxoşluğun növü və dərəcəsi də əməlin tövsifi üçün əhəmiyyət kəsb etmir.

YHQ-nin 83-cü maddəsinin 3-cü hissəsinin tələbinə görə, nəqliyyat vasitələrinin alkoqol və ya güclü təsir edən digər maddələrdən istifadə nəticəsində yaranmış sərxoş vəziyyətdə idarə edilməsi halları DİN DYP orqanlarının əməkdaşları tərəfindən xüsusi cihazlar (alkotester) vasitəsilə, belə cihazlar olmadıqda, yaxud nəqliyyat vasitəsi sürücüsü müayinədən imtina etdikdə tibb müəssisəsində müəyyən edilməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 27 iyun 2014-cü il tarixli, 209 nömrəli qərarı ilə təsdiq olunmuş «Nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoşluq vəziyyətinin müəyyən edilməsi Qaydaları»nın 2-ci bəndinə görə nəqliyyat vasitəsini idarə edən şəxsin alkoqollu içkidən, narkotik vasitələrdən, psixotrop və digər güclü təsir edən maddələrdən istifadə etməsi faktını təsdiq etmək məqsədi ilə polis əməkdaşı müayinənin nəticəsini kağız daşıyıcıda əks etdirən texniki vasitələrdən (alkotester, narkotester) istifadə edir. Alkoqolun qəbulu faktının xüsusi texniki vasitə ilə yoxlanılması şəxsin nəfəsvermə, narkotik vasitələrdən, psixotrop və digər güclü təsir edən maddələrin qəbulu faktının xüsusi texniki vasitə ilə yoxlanılması isə şəxsin ağız suyundan nümunənin götürülməsi üsulu ilə aparılır.

Xüsusi texniki vasitə qanda alkoqolun konsentrasiyasının 0,3 promilli və daha artıq olmasını və yaxud narkotik vasitələrin, psixotrop və digər güclü təsir edən maddələrin qəbulunu göstərdiyi halda şəxsin sərxoşluq vəziyyətində olduğu hesab edilir. Şəxsin xüsusi texniki vasitələrlə yoxlanılması zamanı alkoqollu içkidən və yaxud narkotik vasitələrdən, psixotrop və digər güclü təsir

edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoşluq vəziyyəti müəyyən olunarsa, polis əməkdaşları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 406-cı maddəsinə uyğun olaraq protokol tərtib edilir. Müayinənin nəticəsini kağız daşıyıcıda əks etdirən sənəd 2 nüsxədə tərtib olunur. Həmin sənədin bir surəti nəqliyyat vasitəsini idarə edən şəxsə verilən protokola əlavə edilir, digər surəti isə polis əməkdaşında saxlanılır. Nəqliyyat vasitəsini idarə edən şəxs alkoqollu içkidən və yaxud narkotik vasitələrdən, psixotrop və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə olub-olmamasının müəyyən edilməsindən imtina etdikdə və ya xüsusi texniki vasitə ilə müayinənin nəticəsindən narazı olduqda, lakin onun sərxoşluq əlamətləri özünü aşkar büruzə verdikdə, həmin şəxs tibbi müayinəyə göndərilir.

Alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində yaranan sərxoşluq hallarının müəyyənləşdirilməsi məqsədi ilə aparılan tibbi müayinə yalnız narkoloji xidmət göstərən dövlət tibb müəssisəsinin həkim-narkoloqu tərəfindən həyata keçirilir. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədi ilə aparılan tibbi müayinə tibbi müayinəyə göndərilmə barədə protokolla, habelə müayinə olunan şəxsin təşəbbüsü ilə həyata keçirilir. Narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində yaranan sərxoşluq hallarının təyini həkim-narkoloq tərəfindən bioloji mayelərin (qan, tüpürcək, sidik, hava və s.) müayinəsi vasitəsilə həyata keçirilir. Şəxsə aid bioloji mayelərdə narkotik vasitələrin, psixotrop maddələrin və digər güclü təsir edən maddələrin izi və sərxoşluğun kliniki əlamətləri aşkar edildikdə, həmin şəxs sərxoş hesab edilir. Müayinə aparan həkim-narkoloq 3 nüsxədən (əsli və surəti) ibarət tibbi müayinə aktı tərtib edir. Aktda yoxlanılan şəxs barədə məlumatlar (adı, soyadı, atasının adı, doğulduğu tarix, sürücülük vəsiqəsinin nömrəsi), müayinə aparılması barədə qərar qəbul edən orqanın adı və müayinənin səbəbi göstərilir. Müayinənin nəticələri aktda qeyd olunur və aktın bir surəti müayinə edilən şəxsə, bir surəti isə onu müayinəyə təqdim etmiş vəzifəli şəxsə təqdim edilir. Müayinə olunan şəxs tibbi müayinənin nəticəsi ilə razı olmadığı təqdirdə, o təkrar tibbi müayinənin keçirilməsi barədə müayinəni keçirən tibb müəssisəsinin rəhbərliyinə yazılı ərizə təqdim edə bilər. Bu halda tibb müəssisəsinin rəhbəri təkrar tibbi müayinənin həkim-narkoloqlar tərəfindən təşkil edilən komisyon qaydada aparılması barədə qərar qəbul edir (Nazirlər Kabinetinin 27 iyun 2014-cü il tarixli, 209 nömrəli qərarı ilə təsdiq olunmuş «Nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoşluq vəziyyətinin müəyyən edilməsi Qaydaları»nın 3-cü bəndi).

5. Şərh olunan cinayətin **ağırlaşdırıcı** (CM-in 263-1.2-ci maddəsi) və **xüsusilə ağırlaşdırıcı** (CM-in 263-1.3-cü və 263-1.4-cü maddələri) əlamətlərinin izahı CM-in 263-cü maddəsinin şərhində verilmişdir.

CM-in 263-1.2-ci maddəsi ilə cinayət məsuliyyəti iki halda yaranır: 1) alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasının ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulduğu halda; 2) alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən ümumi istifadədə olan nəqliyyat vasitəsinin idarə edilməsi zamanı ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulduğu halda.

Ümumi istifadədə olan nəqliyyat vasitəsi dedikdə sərnişin daşınması üçün nəzərdə tutulmuş, müəyyən edilmiş marşrut üzrə təyin edilmiş dayanacaqlarla hərəkət edən nəqliyyat vasitəsi (avtobus, trolleybus, tramvay) başa düşülür («Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 44-cü bəndi).

Maddə 264. Yol-nəqliyyat hadisəsi yerindən qaçma

Bu Məcəllənin 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarını pozan şəxsin yol-nəqliyyat hadisəsi yerindən qaçması —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Zərərçəkmiş şəxsə kömək göstərilməsi ilə əlaqədar yol-nəqliyyat hadisəsi yerini tərk etmiş şəxs bu maddə ilə cinayət məsuliyyətinə cəlb edilməkdən azad olunur *(Azərbaycan Respublikasının 31 may 2011-ci il, 5 aprel 2013-cü il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; «Respublika» q., 19 aprel 2013-cü il; «Azərbaycan» q., 9 noyabr 2017-ci il).*

1. CM-in 264-cü maddəsində nəzərdə tutulan əmələ görə cinayət məsuliyyəti məsələsinin həllində bir sıra nəzəri və təcrübi problemlər mövcuddur. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu «Azərbaycan Respublikası CM-in 264-cü maddəsinin şərh edilməsinə dair» 10 aprel 2012-ci il tarixli Qərarında həmin problemlərin bir hissəsinə aydınlıq gətirsə də (xüsusən də bu maddə üzrə məsuliyyət yarana bilən halları xeyli dərəcədə məhdudlaşdıran şərh verməklə), bu problemlərdən bəziləri qalmaqdadır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu öz qərarında xüsusi vurğulayır ki, sürücünün yol-nəqliyyat hadisəsi yerində qalması vəzifəsinin nəzərdə tutulmasında başlıca məqsəd onun mülki-hüquqi məsuliyyətə cəlb edilməsinin mümkünlüyünü təmin etməkdir. Hesab edirik ki, bu məzmunlu vəzifənin icrasından boyun qaçırmaq cinayət sayıla biləcək ictimai təhlükəli əməl deyildir. Ona görə də bu əmələ görə inzibati məsuliyyət yetərlidir və CM-in 264-cü maddəsi Məcəllədən çıxarılmalıdır.

2. Qeyd olunan cinayət əməlinin **obyekti** yol hərəkətinin və nəqliyyat vasitələrinin istismarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir.

Yol-nəqliyyat hadisəsinin anlayışı «Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsində verilmiş və CM-in 263-cü maddəsinin şərhində qeyd olunmuşdur.

3. Şərh olunan cinayətin **obyektiv cəhəti** CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin — zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulması, zərərçəkmiş şəxsin ölümü, yaxud iki və ya daha çox şəxsin ölümü baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarını pozan şəxsin yol-nəqliyyat hadisəsi yerindən qaçmasında ifadə olunur.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin 4-cü hissəsində yol-nəqliyyat hadisəsinin iştirakçısı olmuş mexaniki nəqliyyat vasitəsi sürücüsünün hadisə yerindəki davranışına dair bir sıra tələblər göstərilmişdir. Həmin tələblər sırasında bu sürücünün nəqliyyat vasitəsini yerindən tərpətməmək, hadisəyə aidiyyəti olan əşyaların yerini dəyişməmək, hadisə haqqında Azərbaycan Respublikasının daxili işlər orqanlarına xəbər vermək, həmin orqanların əməkdaşlarının gəlməsini gözləmək vəzifəsi də vardır.

Lakin yol-nəqliyyat hadisəsində təqsirkar olan sürücünün həmin vəzifəni yerinə yetirmədiyi halda CM-in 264-cü maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən bir sıra məqamları nəzərə almaq zəruridir. Belə ki, Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası CM-in 264-cü maddəsinin şərh edilməsinə dair» 10 aprel 2012-ci il tarixli Qərarında vurğulandığı kimi, sürücünün üzərinə belə vəzifənin qoyulması ilk növbədə istifadə edilməsi üzrə fəaliyyət yüksək təhlükə mənbəyi sayılan mexaniki nəqliyyat vasitəsini onun idarə etməsindən irəli gəlir və yol-nəqliyyat hadisəsində təqsirli olan sürücünün hüquqi məsuliyyətdən (cinayət, inzibati və (və ya) mülki-hüquqi məsuliyyətdən) yayınmasının qarşısını almağa yönəlmişdir. Ona görə də sürücünün yol-nəqliyyat hadisəsi yerindən yayınması hüquqi məsuliyyətdən qaçmaq məqsədi güdmədən, yaranmış zərurətlə (məsələn, təcili tibbi yardıma ehtiyacı olan şəxsi öz nəqliyyat vasitəsində tibb müəssisəsinə çatdırmaq, özünün təxirəsalınmaz tibbi yardıma ehtiyacı olduqda tibb müəssisəsinə getməsi və s.) bağlı olduqda yol-nəqliyyat hadisəsi yerindən yayınma CM-in 264-cü maddəsi üzrə məsuliyyətə səbəb ola bilməz.

Konstitusiya Məhkəməsi Plenumu adı çəkilən Qərarda göstərir ki, CM-in 264-cü maddəsinin mənasına görə yol-nəqliyyat hadisəsi törətmiş şəxs hadisə yerində qalaraq **şəxsiyyəti barədə məlumatları zərərçəkmiş şəxsə (tərəfə) bu və ya digər vasitə ilə çatdırmaq öhdəliyi** daşıyır. **Bu öhdəliyə riayət etməklə** nəqliyyat vasitəsini idarə edən şəxsin yol-nəqliyyat hadisəsi yerini hər hansı bir səbəbdən tərk etməsi, o cümlədən zərərçəkmiş şəxsi tibb müəssisəsinə aparması hadisə yerindən qaçma kimi qiymətləndirilə bilməz.

Deməli, CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrə gətirib çıxaran yol-nəqliyyat hadisəsinin törədilməsində təqsirkar olan sürücünün zərərçəkmiş şəxsə (zərərçəkmiş sürücüyə, piyadaya, sərnişinə), yaxud onun maraqlarını təmin edəcək digər şəxsə özü barədə **zəruri və dəqiq məlumat** verdikdən sonrakı davranışı CM-in 264-cü maddəsi üzrə məsuliyyət məsələsinin həllində əhəmiyyət daşımır. Azərbaycan Respublikası

Konstitusiya Məhkəməsi Plenumunun istinad edilən Qərarında ortaya qoyulan mövqedən aydın olur ki, yol-nəqliyyat hadisəsinin törədilməsində təqsirkar olan sürücü məsuliyyətdən kənarda qalmaq məqsədilə hadisə yerindən yayındıqda CM-in 264-cü maddəsi üzrə məsuliyyət mövcud olacaqdır, yayınma belə məqsəd olmadan digər zərurətlə bağlı olduqda isə bu maddə üzrə məsuliyyət istisna ediləcəkdir. Ona görə də bu sürücünün həm zərərçəkmiş şəxsə (tərəfə), həm də hüquq-mühafizə orqanlarına məlumat verərək hadisə yerini tərk etməsi, habelə hadisə yerini tərk edərək dərhal hüquq-mühafizə orqanlarına getməsi CM-in 264-cü maddəsi üzrə məsuliyyətə səbəb ola bilməz. Lakin bu zaman nəzərə almaq lazımdır ki, hadisə yerindən getmiş təqsirkar şəxs özü barəsində həqiqətə uyğun olmayan məlumat vermiş olduqda və ya sonradan hadisədə iştirak etdiyini inkar edərək, heç kəsə məlumat vermədiyini bildirdikdə, yaxud dəqiq və zəruri məlumat versə də, məsuliyyətdən yaxa qurtarmaq üçün şərait yaratmaq məqsədi ilə hadisə yerini tərk etdikdə (məsələn, sərxoş olduğuna görə hadisə yerindən gedərək, sərxoşluq keçdikdən sonra hüquq-mühafizə orqanlarına gəldikdə) CM-in 264-cü maddəsi üzrə məsuliyyət istisna edilə bilməz.

4. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin 4-cü hissəsi yol-nəqliyyat hadisəsinin iştirakçısı olmuş mexaniki nəqliyyat vasitəsi sürücüsünün üzərinə hadisə yerinin və hadisənin izlərinin qorunub saxlanması vəzifəsini də qoyur, hətta təcili tibbi yardıma ehtiyacı olan şəxsi tibb müəssisəsinə çatdırmaq məqsədi ilə və ya yolda hərəkətin bərpasının qaçılmaz olması səbəbindən nəqliyyat vasitəsini yerindən tərpətdiyi halda əvvəlcə hadisə yerini qeydə almağı ona həvalə edir. Nəzərə almaq lazımdır ki, bu vəzifənin yerinə yetirilməməsi heç bir halda sürücünün CM-in 264-cü maddəsi üzrə məsuliyyətinə səbəb ola bilməz. Eləcə də hadisə yerinin qorunub saxlanmaması hər hansı bir əsasla bu sürücünün ziyanına istifadə edilməməlidir.

5. CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətməkdə təqsirli olmayan, lakin yol-nəqliyyat hadisəsinin iştirakçısı olan və hadisə yerindən qaçıb gedən sürücünün əməlinə CM-in 264-cü maddəsi şamil oluna bilməz. Bu halda həmin sürücünün əməli müvafiq tərkib əlamətləri olduqda CM-in 143-cü maddəsi ilə tövsif olunacaqdır, çünki «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulan vəzifələr təkcə yol-nəqliyyat hadisəsində təqsirkar olan sürücüyə yox, bu hadisənin iştirakçısı olan bütün mexaniki nəqliyyat vasitələrinin sürücülərinə aiddir.

6. Cinayətin törədilmə yeri, yəni təqsirkarın qoyub qaçdığı yol-nəqliyyat hadisəsinin baş verdiyi yer şərh olunan cinayət tərkibinin obyektiv cəhətinin zəruri elementi qismində çıxış edir. Şərh olunan normada nəzərdə tutulan mənada **yol-nəqliyyat hadisəsi yeri** dedikdə yollarda, küçələrdə, meydanlarda, dəmiryol keçidlərində nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və adamların ölməsinə və ya onların sağlamlığına az ağır və ya ağır zərər dəyməsinə səbəb olan hadisənin baş verdiyi məkan (yer) başa düşülür.

7. CM-in 264-cü maddəsinin **qeydinə** görə zərərçəkmiş şəxsə kömək gös-

tərilməsi ilə əlaqədar yol nəqliyyat hadisəsi yerini tərk etmiş şəxs bu maddə ilə cinayət məsuliyyətinə cəlb edilməkdən azad olunur.

CM-in 264-cü maddəsinin qeydi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası CM-in 264-cü maddəsinin şərh edilməsinə dair» 10 aprel 2012-ci il tarixli qərarının müddəaları nəzərə alınmaqla təfsir olunmalıdır. Bu isə o deməkdir ki, şəxsin CM-in 264-cü maddəsi ilə cinayət məsuliyyətini istisna edən əsas kimi o hallar nəzərdən keçirilə bilər ki, yol-nəqliyyat hadisəsi törətmiş şəxs hadisədən dərhal sonra, zərərçəkmişə kömək göstərilməsi ilə əlaqədar hadisə yerini tərk etməzdən əvvəl özünün şəxsiyyəti barədə məlumatları zərər çəkmiş şəxsə (tərəfə) çatdırmış olsun, yaxud da zərərçəkmişin aparıldığı tibb müəssisəsində və ya zərərçəkmişi tibb müəssisəsinə çatdırdıqdan dərhal sonra başqa vasitələrlə özünü bəlli etsin.

CM-in 264-cü maddəsinin qeydindən irəli gələn mənaya, eləcə də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda göstərilən 10 aprel 2012-ci il tarixli və «Azərbaycan Respublikası CM-in 264-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə uyğunluğunun yoxlanılmasına dair» 29 yanvar 2004-cü il tarixli Qərarlarında əksini tapmış hüquqi mövqeyə görə, yol-nəqliyyat hadisəsini törətmiş şəxsin hadisə yerindən qaçması CM-in 263 və 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozan şəxsin yalnız özünü zərər çəkmiş şəxsə (tərəfə) bəlli etmədən hadisə yerini tərk etməsini deyil, həm də özünü istər hadisə yerində, istərsə də başqa yerdə (məsələn, polis orqanlarına müraciət etməklə) bəlli etsə də, zərər çəkmiş şəxsi təhlükədə qoyaraq hadisə yerindən qaçmasını ehtiva edir, yəni CM-in 264-cü maddəsi CM-in 143-cü maddəsinə münasibətdə xüsusi norma kimi çıxış edir. Buna görə, CM-in 263 və 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olmuş yol-nəqliyyat hadisəsini törətmiş şəxsin zərərçəkmişi təhlükədə qoymaqla bu kimi hallarda özü haqqında məlumat verməsi onun CM-in 264-cü maddəsi ilə məsuliyyətini istisna edən əsas kimi qiymətləndirilə bilməz («Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 16-cı bəndi).

7. Təhlil edilən cinayət **formal tərkibli** olduğu üçün 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrdən hər hansı biri baş verdikdən sonra məsuliyyətdən yayınmaq üçün hadisə yerinin tərk edildiyi andan **başa çatmış** hesab olunur.

8. Şərh olunan cinayət əməli **subyektiv cəhətdən** təqsirin **qəsd** forması ilə törədilir. Şəxs CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olan yol-nəqliyyat hadisəsi törətdiyini və hadisə yerini qoyub qaçdığını dərk edir və məhz bu cür hərəkət etməyi arzu edir. Əgər sürücü yol-nəqliyyat hadisəsinin baş verdiyini və ya belə hadisənin CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olduğunu dərk etməmişdirsə, CM-in 264-cü maddəsi üzrə məsuliyyətdən söhbət gedə bilməz.

Məsələn, nəqliyyat vasitəsindəki yükün bir hissəsinin yola düşdüyündən xəbərsiz olan sürücü yolunu davam etdirir, arxadan gələn başqa nəqliyyat vasitəsinin həmin yüklə toqquşması nəticəsində CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələr baş verir. Bu halda hadisədən xəbərsiz olan sürücü CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulan cinayəti törətməkdə (yük daşıma qaydalarını pozduğu üçün) təqsirli olsa da, onun CM-in 264-cü maddəsi ilə məsuliyyəti mövcud deyildir. Eləcə də zərərçəkmiş şəxsin vəziyyətinin normal olduğunu görən sürücü hadisə yerini tərk etdikdən sonra zərərçəkmiş şəxsin vəziyyəti qəflətən dəyişərək CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulan hər hansı nəticə baş verərsə, bu halda da CM-in 263-cü və ya 263-1-ci maddələri üzrə təqsirli olan həmin sürücünün CM-in 264-cü maddəsi üzrə məsuliyyətindən söhbət gedə bilməz.

9. Təhlil olunan cinayətin **subyekti** CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulan cinayətin subyekti ilə tam eynidir. Başqa sözlə, bu cinayətin subyekti qismində nəqliyyat vasitələrini idarə etmək hüququ olan və ya olmayan, o cümlədən nəqliyyat vasitəsini alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda idarə edən şəxs çıxış edə bilər.

Nəzərə almaq lazımdır ki, **yalnız CM-in 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulan cinayəti törətməkdə təqsirli olan şəxs** CM-in 264-cü maddəsində nəzərdə tutulan cinayəti törədə bilər. Ona görə də belə şəxsin əməli CM-in 263-cü və ya 263-1-ci və 264-cü maddələrində nəzərdə tutulan cinayətlərin məcmusu üzrə tövsif edilməlidir.

Maddə 265. Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma

265.1. Nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlıqlarının keyfiyyətsiz təmir edilməsi, habelə nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxs tərəfindən texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismara buraxılması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri ilə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

265.2. Eyni hərəkətlər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

265.3. Bu Məcəllənin 265.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 20 oktyabr 2015-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 8 noyabr 2015-ci il; 9 noyabr 2017-ci il).*

1. Azərbaycan Respublikasının 1960-cı il CM-in 208—3-cü maddəsində «Texniki cəhətdən saz olmayan nəqliyyat vasitələrinin işə buraxılması» adlı ci-

nayət tərkibi nəzərdə tutulmuşdu. Bu cinayət tərkibinin hazırda qüvvədə olan CM-in 265-ci maddəsində nəzərdə tutulan cinayət əməli ilə müqayisəsi aşağıdakıları qeyd etməyə imkan verir:

1) əvvəlki CM-də yalnız texniki cəhətdən saz olmayan nəqliyyat vasitələrinin işə buraxılmasına görə məsuliyyət nəzərdə tutulurdusa, yeni CM-in 265-ci maddəsində bununla yanaşı, həm də nəqliyyat vasitələrinin və ya avadanlıqlarının keyfiyyətsiz təmir edilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulur;

2) keçmiş CM-in 208—3-cü maddəsində cinayətin predmeti qismində yalnız nəqliyyat vasitələri nəzərdə tutulurdusa, yeni CM-in şərh olunan maddəsində nəqliyyat vasitələri ilə yanaşı, həm də nəqliyyat avadanlıqları cinayətin predmeti kimi qeyd olunur;

3) əvvəlki CM-də hazırda qüvvədə olan CM-in 265-ci maddəsindən fərqli olaraq, nəqliyyat vasitələrinin işlədilməsinin hərəkət təhlükəsizliyini təmin edən qaydaların «digər şəkildə kobud surətdə pozulması» obyektiv cəhətin elementi kimi nəzərdə tutulurdu. Burada qanunvericinin konkret olaraq hansı formada, növdə olan pozuntuları nəzərdə tutması açılıb göstərilirdi;

4) yeni CM-in təhlil olunan maddəsində cinayət əməlinin subyektiv cəhətdən ehtiyatsızlıqla törədilməsi açıq şəkildə dispozisiyada qeyd edildiyi halda, əvvəlki CM-in 208—3-cü maddəsinin dispozisiyasında bu, göstərilmirdi.

2. Şərh olunan cinayətin **obyekti** nəqliyyat vasitələrinin hərəkətinin və istismarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir. Burada nəqliyyat vasitələrinin bütün növləri — dəmir yolu, su, hava nəqliyyatı, avtomobil nəqliyyatı və şəhər elektrik nəqliyyatı haqqında söhbət gedir. Təhlil olunan cinayətin **əlavə obyekti** insanların həyatı və ya sağlamlığının təhlükəsizliyidir.

3. Bu cinayətin **predmeti** nəqliyyat vasitələri və ya nəqliyyat avadanlıqlarıdır. Nəqliyyat vasitələrinin anlayışı və növləri CM-in 262-ci və 263-cü maddələrinin şərhində nəzərdən keçirilmişdir. **Nəqliyyat avadanlığı** dedikdə nəqliyyat vasitələrinin istismarının texniki sisteminin bu istismarın təhlükəsizliyini təmin etmək üçün zəruri olan ayrılmaz ünsürləri başa düşülür. Bunlara yollarda ucaldılan köməkçi mexanizmlər və qurğular, məsələn, körpülər, estakadalar, radiolokatorlar, tunellər, şlüzlər, dərə və ya çay üzərindən salınan körpülər aid edilir.

4. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** iki əməldə: 1) nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlıqlarının keyfiyyətsiz təmir edilməsində və 2) texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismara buraxılmasında ifadə olunur. Cinayət məsuliyyətinin yaranması üçün zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmuş olmalı və bu ictimai təhlükəli nəticə ilə yuxarıda qeyd olunan kriminal əməllərdən hər hansı biri (yaxud hər ikisi) arasında səbəbli əlaqə olmalıdır.

5. **Keyfiyyətsiz təmir** nəqliyyat vasitələrinin və ya avadanlıqlarının funksional xassələrinin müvafiq normativ aktlarla müəyyən olunmuş texnoloji proses qaydalarını pozmaqla və ya bu məqsədlər üçün yararsız detallardan, ehtiyat hissələrindən, cihazlardan və texniki tələblərə cavab verməyən, nəqliyyatın təhlükəsiz işini təmin etməyən digər vasitələrdən istifadə etməklə bərpa edilməsində ifadə olunur. Nəqliyyat vasitələrinin və ya avadanlıqlarının keyfiyyətsiz təmir edilməsi faktı müvafiq ekspertizanın köməyi ilə müəyyən edilir.

6. Nəqliyyat vasitələrinin təmir edilməsi qaydaları müvafiq normativ aktlarla müəyyən edilir. Belə aktlara Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 oktyabr 1999-cu il tarixli Qərarı ilə təsdiq edilmiş «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında» nümunəvi Əsasnamə, «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri haqqında» nümunəvi Əsasnamə, «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında» nümunəvi Əsasnamə və s. aid edilir. Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında nümunəvi Əsasnaməyə görə **təminatlı texniki xidmət** dedikdə nəqliyyat vasitələrinin təmirindən və texniki qulluğundan ibarət olmaqla, nasazlıqların aşkar edilib aradan qaldırılmasına, eləcə də etibarlı və təhlükəsiz istismarına, həmçinin ekoloji yararlığına yönəldilmiş kompleks tədbirlər başa düşülür.

7. **Nəqliyyat vasitələrinin istismara buraxılması** dedikdə nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxs tərəfindən texniki nasazlığı olduğu üçün yol-nəqliyyat hadisəsinin (qəzasının) baş verməsinə səbəb ola biləcək nəqliyyat vasitəsindən (yaxud vasitələrindən) istifadə olunmasına icazə və ya göstəriş verilməsi başa düşülür.

İcazə və ya göstəriş yazılı və ya şifahi formada ola bilər (məsələn, sürücüyə yol vərəqəsinin, pilota uçuş tapşırığının verilməsi və s.), habelə həm nəqliyyat vasitəsinin müəssisə və ya idarədən (təşkilatdan) göndərilməsi zamanı, həm də onun istismarı prosesində verilə bilər.

8. Digər nəqliyyat sistemlərinin və aqreqatlarının (məsələn, nəqliyyat kommunikasiyalarının, nəqliyyat avadanlıqlarının, siqnalizasiya və rabitə vasitələrinin və s.) istismarına icazə verilməsi şərh olunan maddə ilə cinayət məsuliyyətinin yaranmasına səbəb olmur. Belə əməl müəyyən şərtlər olduqda, dövlət hakimiyyəti, dövlət qulluğu və ya yerli özünüidarə orqanlarında qulluq mövqeyi əleyhinə olan cinayət kimi tövsif edilə bilər.

9. Nəqliyyat vasitələrinin texniki nasazlıqlarına onların mühərrik və ya əyləc sistemlərinin, sükan idarə mexanizminin, təkər və şinlərin, xarici işıq siqnallarının, habelə nəqliyyat vasitəsinin konstruksiyasının nəqliyyat vasitəsinin hərəkətinin və ya istismarının təhlükəsizliyini təmin edən digər ünsürlərinin çatışmazlıqları (qüsurları), yararsız vəziyyətdə olması halları aid edilir.

10. Şərh olunan cinayət **obyektiv cəhətdən** həm **fəal hərəkətlərlə**, həm də **hərəkətsizliklə** (məsələn, texniki cəhətdən yararsız nəqliyyat vasitəsinin istismarının və ya işlədilməsinin qarşısını almağa yönəldilmiş müvafiq tədbirlərin görülməməsi) törədilir.

11. Təhlil olunan cinayət **maddi tərkibli** olduğu üçün CM-in 265-ci maddəsində nəzərdə tutulan ictimai təhlükəli nəticələrdən hər hansı biri: a) zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulması (CM-in 265.1-ci maddəsi); b) zərərçəkmiş şəxsin ölümü (CM-in 265.2-ci maddəsi); c) iki və ya daha çox şəxsin ölümü (CM-in 265.3-cü maddəsi) baş verdiyi andan **başa çatmış** hesab edilir. Qeyd olunan ictimai təhlükəli nəticələrin məzmunu digər nəqliyyat cinayətlərinin (CM-in 262-ci, 263-cü maddələri) şərhində qeyd olu-

nan qaydada müəyyən edilir.

12. Nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlıqlarının keyfiyyətsiz təmir edilməsi, habelə nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxs tərəfindən texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismara buraxılması ilə CM-in 265-ci maddəsində qeyd olunan ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqə şərh olunan cinayət əməlinin obyektiv cəhətinin zəruri əlaməti hesab olunur. Burada səbəbli əlaqənin özünəməxsusluğu ictimai təhlükəli nəticələrin bilavasitə şərh olunan cinayətin subyekti tərəfindən deyil, texniki nasazlığı olan və ya keyfiyyətsiz təmir edilmiş nəqliyyat vasitəsini istismar etməyə icazə verilmiş şəxs (sürücü) tərəfindən vurulmasındadır. Lakin bu hal səbəb-nəticə asılılığının mövcud olmasını istisna etmir, yəni səbəbin səbəbi həm də son nəticənin səbəbi hesab olunur.

13. Şərh olunan cinayətin **subyektiv cəhəti** baş vermiş nəticələrə münasibətdə təqsirin **ehtiyatsızlıq** formasının mövcud olması ilə xarakterizə olunur. Təhlil edilən cinayət ehtiyatsızlığın həm cinayətkarcasına özünəgüvənmə, həm də cinayətkarcasına ehtiyatsızlıq formalarında törədilir.

Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxmanın motivləri müxtəlif ola bilər və bu əməlin tövsifinə təsir etməyərək, yalnız məhkəmə tərəfindən cəza təyini zamanı nəzərə alınır.

Subyekt şərh olunan kriminal əməlləri **birbaşa** və ya **dolayı** qəsdlə törətdikdə, onun əməli işin konkret hallarından asılı olaraq təxribat, terrorçuluq, qəsdən adam öldürmə, qəsdən sağlamlığa zərər vurma cinayətlərindən biri kimi tövsif edilməlidir.

14. Şərh edilən cinayətin **subyekti** törədilən cinayət əməllərinin xarakterindən asılı olaraq **ümumi** və ya **xüsusi** ola bilər. Belə ki, nəqliyyat vasitələrinin və ya avadanlıqlarının keyfiyyətsiz təmir edilməsi zamanı subyekt təmiri həyata keçirən istənilən şəxs ola bilər, yəni burada subyekt ümumidir. Texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismara buraxılmasında isə subyekt xüsusidir. Burada subyekt müvafiq normativ aktların qüvvəsinə, yaxud tutduğu xidməti vəzifəsinə və ya qulluq mövqeyinə görə nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxsdir. Belə şəxslərə dəmiryolu, su, hava, avtomobil və şəhər elektrik nəqliyyatında çalışan mexanik, dispetçer, avtonəqliyyat müəssisəsinin rəisi, hərəkət təhlükəsizliyi üzrə mühəndis və s. aid edilir.

Fərdi nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri texniki cəhətdən nasaz nəqliyyat vasitəsini digər şəxsə idarə etməyə icazə verdikdə, onların da əməli şərh olunan cinayət tərkibini yaradır və CM-in 265-ci maddəsi ilə tövsif olunur.

Nəqliyyat vasitəsinin texniki vəziyyətinə və istismarına görə üzərinə məsuliyyət (cavabdehlik) qoyulmadan nəqliyyat vasitəsi (məsələn, fərdi avtonəqliyyat vasitəsi) verilmiş şəxs təhlil etdiyimiz cinayət əməlinin subyekti deyildir.

15. Nəqliyyat vasitələrinin keyfiyyətsiz təmir edilməsinə, habelə istismara texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin buraxılmasına görə təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi qeyd olunan nəqliyyat vasitəsini idarə etmiş və ya keyfiyyətsiz təmir edilmiş nəqliyyat vasitəsini istismar etmiş

şəxsin məsuliyyətə cəlb edilməsi haqqında məsələnin həllindən asılı deyildir.

16. Nəqliyyat vasitələrindən keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda əməl CM-in 265.2-ci, iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda isə 265.3-cü maddəsi ilə tövsif olunur.

Maddə 265-1. Ümumi istifadədə olan nəqliyyat vasitəsinin istismara verilməsi qaydalarının pozulması

265-1.1. Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin belə nəqliyyat vasitəsinin idarə edilməsinə buraxılması, yaxud ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücülərinin reysqabağı tibbi müayinəsinin təşkil edilməməsi, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

265-1.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

265-1.3. Bu Məcəllənin 265-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(20 oktyabr 2015-ci il tarixli Qanunla əlavə edilmişdir - «Azərbaycan» q., 8 noyabr 2015-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** ümumi istifadədə olan nəqliyyat vasitələrinin hərəkətinin və istismarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir. **Əlavə obyekt qismində** insanların həyatı və ya sağlamlığını təmin edən ictimai münasibətlər çıxış edir.

2. Bu cinayətin **predmeti** ümumi istifadədə olan nəqliyyat vasitələridir. «Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 44-cü bəndinə görə **ümumi istifadədə olan nəqliyyat vasitəsi** dedikdə sərnişin daşınması üçün nəzərdə tutulmuş, müəyyən edilmiş marşrut üzrə təyin edilmiş dayanacaqlarla hərəkət edən nəqliyyat vasitəsi (avtobus, trolleybus, tramvay) başa düşülür.

4. Şərh olunan cinayət əməlinin **obyektiv cəhəti** iki əməldə: 1) ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin belə nəqliyyat vasitəsinin idarə edilməsinə buraxılmasında; 2) ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücülərinin reysqabağı tibbi müayinəsinin təşkil edilməməsində ifadə olunur. Sadalanan əməllərlə CM-in 265-1.1-265-1.3-cü maddələrində əks olunan nəticələr arasında səbəbli əlaqə olduqda cinayət məsuliyyəti yaranır.

Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan

şəxs dedikdə «D» kateqoriyalı nəqliyyat vasitələrini (sərnişin daşınması üçün nəzərdə tutulan, oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə 8-dən artıq olan, maksimum kütləsi 5 tondan artıq olmayan avtobusları, habelə sərnişin daşınması üçün nəzərdə tutulan, oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə 8-dən artıq olan, maksimum kütləsi 5 tondan artıq olan avtobusları), «Tramvay» və «Trolleybus» kateqoriyalı nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsi olmayan şəxslər, habelə nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış, yaxud bu hüquqdan məhrum edilmiş şəxslər başa düşülür.

Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin belə **nəqliyyat vasitəsinin idarə edilməsinə buraxılması** dedikdə işəgötürən (daşıyıcı) tərəfindən avtobus, trolleybus, tramvayı idarə etmək hüquq olmayan şəxsə belə nəqliyyat vasitələrini idarə etmək üçün icazənin verilməsi başa düşülür.

Ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücülərinin **reysqabağı tibbi müayinəsinin təşkil edilməməsi** dedikdə müvafiq tibb müəssisələri tərəfindən sürücülərin reysqabağı tibbi müayinəsinin Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təyin etdiyi hüquqi və ya fiziki şəxslər tərəfindən təşkil edilmiş məntəqələrdə aparılmaması başa düşülür. Sürücülərin reysqabağı tibbi müayinəsinin nəticələrinin qeydiyyatı müvafiq qaydada xüsusi jurnalda aparılır. Reysqabağı tibbi müayinənin nəticələrinə görə forması Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilən sürücünün reysqabağı tibbi müayinə kitabçasında müayinə məntəqəsinin möhürü ilə təsdiq edilmiş qeydlər aparılır (NK-nın 24 aprel 2009-cu il tarixli, 71 nömrəli qərarı ilə təsdiq edilmiş «Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən sərəncamında olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi Qaydası»nın 3.4, 3.8, 3.9-cu bəndləri).

5. Təhlil olunan cinayət **maddi tərkibli** olduğu üçün CM-in 265-1-ci maddəsində nəzərdə tutulan ictimai təhlükəli nəticələrdən hər hansı biri: a) zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulması (CM-in 265-1.1-ci maddəsi); b) zərərçəkmiş şəxsin ölümü (CM-in 265-1.2-ci maddəsi); c) iki və ya daha çox şəxsin ölümü (CM-in 265-1.3-cü maddəsi) baş verdiyi andan **başa çatmış** hesab edilir. Həmin ictimai təhlükəli nəticələrin məzmunu barədə CM-in 262-ci, 263-cü maddələrinin şərhinə bax.

6. Şərh olunan cinayətin **subyektiv cəhəti** baş vermiş nəticələrə münasibətdə təqsirin **ehtiyatsızlıq** formasının mövcud olması ilə xarakterizə olunur. Bütövlükdə cinayət ehtiyatsızlıqdan törədilmiş cinayət sayılır.

7. Şərh edilən cinayətin **subyekti** ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etməyə buraxmaq hüququna, yaxud ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücülərinin reysqabağı tibbi müayinəsini təşkil etmək vəzifəsinə malik olan şəxs ola bilər.

8. CM-in 265-1.1-ci maddəsinin dispozisiyasında sadalanan əməllər zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda əməl CM-in 265-1.2-ci, iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda isə 265-1.3-cü maddəsi ilə tövsif olunur.

Maddə 266. Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma

266.1. Dağıtmaq, zədələmək və ya başqa üsulla yolların, nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlığının yararsız vəziyyətə salınması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına və ya külli miqdarda ziyan vurulmasına səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

266.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

266.3. Bu Məcəllənin 266.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin həlak olmasına səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **bilavasitə obyektinin** dəmir yolu, su, hava və ya avtomobil nəqliyyatının hərəkət və istismarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlər təşkil edir. Burada insanın həyat və sağlamlığının təhlükəsizliyi ilə bağlı olan ictimai münasibətlər isə cinayətin **əlavə obyekti** hesab edilir.

2. Bu cinayətin **predmeti** yollar, nəqliyyat vasitələri və ya nəqliyyat avadanlığıdır. Nəqliyyat vasitələrinin və nəqliyyat avadanlıqlarının anlayışı CM-in 263-cü və 265-ci maddələrinin şərhində verilmişdir.

CM-in 266-cı maddəsində nəzərdə tutulan mənada **yollar** dedikdə dəmir yolu nəqliyyatında — relslərlə, şpallarla və çınqıl örtüyü ilə birlikdə dəmir yolu örtüyü; hava nəqliyyatında — uçuş-enmə zolaqları, təyyarələrin yerdə hərəkət etmə və dönmələri üçün yollar, təhlükəsizlik zolaqları və s.; su nəqliyyatında — gəminin bir coğrafi məntəqədən (limandan) digərinə okean və ya dənizin açıq sahələrindən, habelə təbii və ya süni keçidlərdən (məsələn, boğazlardan, kanallardan, çaylardan, göllərdən) keçən hərəkət yolları başa düşülür.

Nəqliyyat avadanlığı dedikdə dəmir yollarının, aviasiyanın, dəniz donanmasının təhlükəsiz istismarını təmin etmək üçün zəruri olan mexanizmlərin, qurğuların, cihazların məcmusu başa düşülür.

3. CM-in 266-cı maddəsində haqqında söhbət gedən yollar, nəqliyyat vasitələri və ya avadanlıqları öz konstruksiyalarının xüsusiyyətlərinə görə müxtəlif olsa da, yalnız özlərinə xas olan texniki funksiyaları yerinə yetirsə də, onların hamısı aşağıdakı ümumi əlamətlərə malikdirlər:

a) adları çəkilən qurğuların, yolların və avadanlıqların xüsusi, yəni məqsədli təyinatı dəmir yollarının, aviasiyanın, dəniz donanmasının təhlükəsiz fəaliyyət göstərməsini təmin etməkdir. Bu cür xassələrə malik olmayan qurğular və ya avadanlıqlar şərh edilən cinayətin predmeti hesab edilmir. Məsələn, hava yol-

ları agentlikləri və kassalarının əlaqəsini təmin edən vasitələrin, aeroportdaxili yolların və s. sıradan çıxarılması;

b) qeyd olunan nəqliyyat vasitələrinin və ya avadanlıqlarının istismara yararlılığı, yəni texniki cəhətdən saz vəziyyətdə olması və onların birbaşa təyinatına görə istifadə edilməsinin mümkünlüyü. Bu səbəbdən də texniki cəhətdən nasaz vəziyyətdə olan, yararsız, fəaliyyət göstərməyən (məsələn, ehtiyatda olan, konservləşdirilmiş) nəqliyyat vasitələri və ya avadanlıqları, qurğuları şərh olunan cinayət əməlinin predmeti hesab edilmir;

c) təhlil olunan cinayətin predmeti yüksək təhlükə mənbələrinə aiddir və ya belə mənbələrin normal fəaliyyətini təmin edən obyektlərin sisteminə daxildir;

ç) bu cinayətin predmetlərinin xüsusi hüquqi rejimə malik olması, yəni bu predmetlərin fəaliyyəti nəqliyyatda qüvvədə olan müvafiq normativ hüquqi aktlar ilə tənzimlənir.

Sadalanan bütün bu əlamətlər bir-biri ilə vəhdət halındadır və onlardan hər hansı birinin olmaması nəqliyyat vasitəsinin və ya avadanlığının şərh olunan cinayətin predmeti hesab edilməsini istisna edir.

4. Təhlil olunan cinayətin **obyektiv cəhəti**: a) dağıtmaqla, zədələməklə və ya başqa üsulla nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlığının yararsız vəziyyətə salınmasında; b) zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasında və ya külli miqdarda ziyan vurulmasında; c) bunların arasında səbəbli əlaqədə ifadə olunur.

CM-in 266.1-ci maddəsində nəzərdə tutulan mənada **dağıtma** dedikdə nəqliyyat vasitələrinin və ya avadanlığının, yolların əsas funksiyalarını yerinə yetirmək qabiliyyətini itirməsi ilə nəticələnən, sonradan bərpa edilməsi mümkün olmayan dərəcədə tam yararsız vəziyyətə salınmasıdır. Bu zaman cinayətin sadalanan predmetlərinin bərpa edilməsi texniki cəhətdən mümkün olmur, yaxud da bu, iqtisadi baxımdan məqsədəmüvafiq olmur.

Zədələmə dedikdə şərh olunan cinayətin sadalanan predmetlərinin funksional xassələrinin sonradan bərpa olunması mümkün olan dərəcədə tam və ya qismən pisləşməsi ilə nəticələnən hərəkətlər başa düşülür. Zədələmə nəticəsində qeyd olunan predmetlər təmir edilənədək öz əsas funksiyalarını yerinə yetirmək qabiliyyətini tam və ya qismən itirir.

Yolların, nəqliyyat vasitələrinin və ya avadanlıqlarının başqa üsulla yararsız vəziyyətə salınması dedikdə onların bütün sisteminin və ya ayrı-ayrı elementlərinin özlərinin əsas texnoloji təyinatına görə istifadə edilməsi imkanını aradan qaldıran istənilən hərəkətlərin (dağıtma və ya zədələmə istisna olmaqla) edilməsi başa düşülməlidir. Bu zaman şərh olunan cinayətin predmeti ziyana məruz qalmır, yəni saz vəziyyətdə olur, lakin nəqliyyatın təhlükəsiz fəaliyyət göstərməsini təmin edən nəqliyyatın texniki sistemindən «kənara çıxarılmış» olur. Məsələn, aerodromda xüsusi işarəverici nişanın yerindən götürülüb aparılması təyyarələrin havaya qalxması və enməsi zamanı təhlükəsizliyə təsir edir. Burada siqnalizasiya vasitəsindən təyinatına görə istifadə edilməməsi nəticəsində hava nəqliyyatının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərə zərər vurulur.

İstintaq və məhkəmə təcrübəsində istifadədə olan dəmir yollarında relslərin

üzərinə ağır predmetlərin (məsələn, teleqraf direyi, kötük, daşlar, dəmir parçası və s.) qoyulması kifayət qədər geniş yayılmış hallardır. Belə əməllər dəmir yolunu dəmir yolu qatarlarının təhlükəsiz hərəkəti üçün yararsız vəziyyətə saldığından CM-in 266-cı maddəsi ilə tövsif olunur. Nəzərdən keçirilən cinayətin ictimai təhlükəli nəticələri (zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulması və s.) öz məzmununa görə CM-in 262-ci maddəsində nəzərdə tutulan kriminal nəticələrlə (külli miqdarda ziyan vurulması istisna olmaqla) eynidir.

5. CM-in 266.1-ci maddəsində nəzərdə tutulan **külli miqdarda ziyan vurulması** qiymətləndirici anlayışdır. Belə ki, bu anlayış həm şərh olunan cinayətin predmetlərinin (yollar, nəqliyyat vasitələri və ya nəqliyyat avadanlığı) dağıdılması, zədələnməsi və ya başqa üsulla yararsız vəziyyətə salınması ilə şərtlənən real maddi zərərin vurulmasını, həm də nəqliyyatın hərəkətinin, normal fəaliyyətinin uzun müddətə pozulmasında, «iflic» vəziyyətinə salınmasında ifadə olunan təşkilati xarakterli zərərin vurulmasını əhatə edir. Vurulmuş ziyanın külli miqdarda olan ziyan kimi qiymətləndirilməsi mövcud olan faktlardan asılıdır. Belə ki, yolların, nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlıqlarının məhv olması, onların vacib nəqliyyat keyfiyyətlərinin (məsələn, uçuş-texniki, gəmiçilik, təyyarəçilik və s.) itirilməsi, sahil-mühafizə, hidroqrafik qurğuların məhv olması və ya zədələnməsi, təbii mühitin əhəmiyyətli dərəcədə çirklənməsi, heyvanlar və bitki aləminə zərər vurulması və s. bu kimi ictimai təhlükəli nəticələr CM-in 266.1-ci maddəsində qanunvericinin nəzərdə tutduğu mənada külli miqdarda ziyan vurulması anlayışı ilə əhatə edilir.

6. CM-in 266-cı maddəsində bilavasitə göstərilən ictimai təhlükəli nəticələrlə yanaşı, şərh olunan cinayət əməli, bir qayda olaraq, əlavə xarakterli nəticələrin də baş verməsini nəzərdə tutur. Bu nəticələr xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə qanunverici tərəfindən CM-in təhlil edilən maddəsində təsbit olunma səviyyəsinə çatmayan zərərin vurulmasından ibarətdir. Məsələn, zərərçəkmişin sağlamlığına yüngül zərər vurulması, yaxud külli miqdarda olmayan ziyanın vurulması və s. əlavə nəticələrə aid olunur. Bu ictimai təhlükəli nəticələr şərh olunan cinayət tərkibi ilə əhatə olunduğundan, onlar baş verdikdə əməlin cinayətlərin məcmusu qaydasında tövsif olunması tələb edilmir. Belə nəticələr cəza təyini zamanı nəzərə alınır.

7. Şərh olunan cinayət **subyektiv cəhətdən** baş vermiş ictimai təhlükəli nəticələrə münasibətdə **təqsirin ehtiyatsızlıq** forması ilə xarakterizə olunur. Bu əməl həm **cinayətkarcasına özünəgüvənmə**, həm də **cinayətkarcasına etinasızlıq** formasında törədilə bilər.

8. Araşdırılan cinayət əməlinin **subyekti** cinayəti törədənədək **14** yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

Şərh olunan cinayət bir nəfərin ölümünə səbəb olduqda əməl CM-in 266.2-ci maddəsi, iki və ya daha çox şəxsin həlak olmasına səbəb olduqda isə CM-in 266.3-cü maddəsi ilə tövsif edilməlidir.

9. Təhlil olunan cinayət CM-in 186-cı maddəsində təsvir edilmiş «əmlakı qəsdən məhv etmə və ya zədələmə»dən qəsdin predmetinə görə fərqlənir. Belə ki, 186-cı maddədə özgənin əmlakını qəsdən məhv etməyə və zədələməyə görə cinayət məsuliyyəti nəzərdə tutulduğu üçün cinayətin predmeti qis-

mində özgənin mülkiyyətində olan əmlak (məsələn, ev, avtomobil və s.) çıxış edir. Buna görə də qanunverici tərəfindən nəqliyyat vasitələrinə aid olsa da, nəqliyyatın təhlükəsiz fəaliyyətini təmin etməyən qurğuların və vasitələrin qəsdən məhv edilməsi və ya zədələnməsi nəqliyyat cinayəti kimi deyil, mülkiyyət əleyhinə edilən qəsd kimi nəzərdən keçirilir. Nəqliyyatın yararsız vəziyyətə salınmış texniki sisteminin onun təhlükəsiz işinə, yəni funksional təyinatına nə dərəcədə təsir göstərməsini hər bir konkret halda müəyyən etmək zəruridir. Əks təqdirdə, əməlin tövsifində səhvlərə yol verilməsi labüddür.

İstintaq və məhkəmə təcrübəsində şərh olunan cinayətin predmetlərinin nəqliyyat sistemlərindən hər hansı detalların oğurlanması nəticəsində yararsız vəziyyətə salınması hallarına rast gəlinir. Məsələn, cinayətkar katerdən (yaxud təyyarədən) radiostansiya cihazının detallarını özünün maqnitofonunda quraşdırmaq üçün qanunsuz və əvəzsiz olaraq götürdükdə, yəni oğurladıqda, həm su (yaxud hava) nəqliyyat vasitəsinin rabitə qurğusunu yararsız vəziyyətə salır, həm də özgənin əmlakını oğurlamış olur.

Bu halda əməl cinayətlərin məcmusu qaydasında, yəni həm oğurluq (CM-in 177-ci maddəsi), həm də CM-in 266.1-ci (və ya 266.2, yaxud 266.3-cü) maddəsi ilə tövsif edilməlidir.

10. Araşdırılan cinayət nəzərdən keçirilən ictimai təhlükəli nəticələrdən hər hansı biri baş verdiyi andan **başa çatmış** hesab olunur. Baş vermiş ictimai təhlükəli nəticələr ilə təqsirkarın hərəkətləri arasında səbəbli əlaqə mütləq müəyyən edilməlidir.

Maddə 267. Nəqliyyat vasitələrinin təhlükəsiz işləməsini təmin edən qaydaları pozma

267.1. Sərnisin, piyada və ya yol hərəkətinin digər iştirakçıları (bu Məcəllənin 263-264-cü maddələrində nəzərdə tutulmuş şəxslər istisna olmaqla) tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

267.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

267.3. Bu Məcəllənin 267.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin həlak olmasına səbəb olduqda —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır
(Azərbaycan Respublikasının 31 may 2011-ci il, 5 aprel 2013-cü il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; «Respublika» q., 19 aprel 2013-cü il; «Azərbaycan» q., 9 noyabr 2017-ci il).

1. Bu cinayət əməlinin **bilavasitə obyekti** yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir. Bu cinayətin əlavə obyekti

insanın həyat və ya sağlamlığının təhlükəsizliyi ilə bağlı olan ictimai münasibətlərdir.

2. Şərh olunan cinayətin **predmeti** qismində mexaniki nəqliyyat vasitələrinə və tramvaylara aid edilməyən, lakin yollarda, küçə və prospektlərdə istifadə edilən nəqliyyat vasitələri – müxtəlif növ velosipedlər, mopedlər, at arabaları, kirşələr çıxış edə bilər. Mexaniki nəqliyyat vasitələrindən və tramvaylardan istifadə ilə bağlı təhlil edilən normada göstərilən zərərli nəticələr baş verdikdə təqsirkar sürücünün əməli CM-in 263-cü maddəsi ilə tövsif ediləcəkdir. Bu əməl mal-qara ötürən şəxs tərəfindən mal-qaranın yollardan ötürülməsi (keçirilməsi) zamanı törədildikdə, cinayətin predmeti müxtəlif heyvanlar (iri və ya xırda buynuzlu ev heyvanları, atlar, dəvələr və s.) olacaqdır.

Velosipedin anlayışı «Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 28-ci, **mopedin** anlayışı isə həmin maddənin 27-ci bəndində verilmişdir.

Təhlil edilən kriminal əməl hər hansı predmet olmadan da törədilə bilər, çünki yol hərəkətində piyada və sərnişin qismində iştirak edən şəxslərin yollardakı davranışı hər hansı nəqliyyat vasitəsinin idarə edilməsi ilə bağlı deyildir. Bu əməli sərnişin törətdikdə isə onun sərnişini olduğu nəqliyyat vasitəsi cinayətin predmeti yox, bu əməli törədən şəxsin olduğu yer qismində çıxış edəcəkdir.

3. Araşdınlan cinayətin **obyektiv cəhəti** sərnişin, piyada və ya yol hərəkətinin digər iştirakçıları (mexaniki nəqliyyat vasitələrinin və tramvayların sürücüləri istisna olmaqla) tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına, yaxud zərərçəkmiş şəxsin ölümünə, yaxud da iki və ya daha çox şəxsin həlak olmasına səbəb olan dərəcədə pozulmasında ifadə olunur. Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə baş verən ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqə də müəyyən edilməlidir.

Bu cinayətin tərkib əlamətlərinin aydınlaşdırılması zamanı normanın dispozisiyasında işlədilən anlayışlara diqqət yetirmək zəruridir. Normanın mətnindən aydın görünür ki, bu cinayəti yaradan ictimai təhlükəli əməl qismində **yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması** çıxış edə bilər. Özü də bu əməl **sərnişin, piyada və ya yol hərəkətinin digər iştirakçıları** tərəfindən törədilə bilər. Dispozisiyada həm subyektlər barəsində, həm də kriminal əməl barəsində **«yol hərəkəti»** ifadəsinin işlədilməsi o deməkdir ki, şərh olunan cinayət əməli yalnız yol hərəkəti prosesində törədilə bilər. Ona görə də bu normanı genişləndirici təfsir edərək dəmiryolu, su və hava nəqliyyatında hərəkətlə bağlı da bu əmələn törədilə bilməsi barədə danışmağa yol verilə bilməz. Oxşar əməllərin həmin növ nəqliyyat vasitələri ilə hərəkət zamanı törədilməsinə görə cinayət məsuliyyəti müəyyən etmək üçün ya CM-in 267-ci maddəsinə müvafiq dəyişikliklər edilməli, ya da CM-ə ayrıca bir maddə daxil edilməlidir. Xüsusi vurğulamaq istərdik ki, CM-in 267-ci maddəsində nəzərdə tutulan cinayət əməli yalnız «Yol hərəkəti haqqında» Qanunda müəyyən olunan mənada yol hərəkətində iştirak zamanı mexaniki nəqliyyat vasitələri və tramvaylar istisna olunmaqla, digər nəqliyyat vasitələrini idarə edən şəxslər tərəfindən yol hərəkəti və ya həmin nəqliyyat vasitələrinin istismarı qaydalarının, habelə yol hərəkətində piyada, sərnişin, mal-qara ötürən qismində iştirak

edən şəxslər tərəfindən yol hərəkəti qaydalarının pozulması şəklində törədilə bilər.

Təhlil edilən normada nəzərdə tutulan mənada **yol hərəkəti qaydaları** dedikdə «Yol hərəkəti haqqında» Qanunda, mexaniki nəqliyyat vasitələrinin və tramvayların sürücüləri istisna olmaqla, digər hərəkət iştirakçıları üçün nəzərdə tutulan hərəkət qaydaları, habelə onların yol hərəkətində iştirakla bağlı vəzifələri başa düşülür. Belə hərəkət iştirakçılarının ümumi vəzifələri adı çəkilən Qanunun 36-cı maddəsində, onlara aid yol hərəkəti qaydaları və onların hər birinin özünəməxsus vəzifələri isə 38-41-ci, 46-47-ci, 56-cı və bəzi başqa maddələrində müəyyən olunmuşdur. Göstərilən hərəkət iştirakçıları da işıqforların, yol nişanlarının və nişanlanma xətlərinin onlara aid tələblərinə riayət etməlidirlər.

Şərh olunan normada **nəqliyyat vasitələrinin istismarı qaydaları** dedikdə mexaniki nəqliyyat vasitələri və tramvaylar istisna olmaqla, digər nəqliyyat vasitələrinin (velosipedlər, mopedlər, at arabaları, kirşələr və s.) texniki təchizatına dair tələblər, habelə onlardan yollarda təhlükəsiz istifadə qaydaları başa düşülür. Təəssüf ki, ölkəmizin qanunvericiliyində bu tipli nəqliyyat vasitələrinin texniki təchizatı ilə bağlı ciddi boşluqlar mövcuddur. Lakin «Yol hərəkəti haqqında» 1968-ci il Vyana Konvensiyasında və bir sıra başqa beynəlxalq hüquqi aktlarda həmin məsələlərə dair normalar mövcuddur. Belə nəqliyyat vasitələri bu normalarda göstərilən tələblərə uyğun təchiz edilməklə yollarda istismar edilməlidirlər.

Şərh olunan maddədə nəzərdə tutulan cinayətlərin araşdırılması zamanı təqsirkarın məhz hansı yol hərəkəti və ya nəqliyyatın istismarı qaydalarını pozduğunu və bunun konkret olaraq nədə ifadə edildiyini müəyyən etmək zəruridir. Bunun üçün «Yol hərəkəti haqqında» Qanunun və ya yol hərəkəti qaydalarını müəyyən edən başqa normativ aktın konkret maddəsinə istinad olunmalıdır.

Nəzərdən keçirilən kriminal əməldən **zərər çəkənlər** müxtəlif ola bilər: başqa piyada və ya sərnişin, mexaniki nəqliyyat vasitələrinin sürücü və ya sərnişinləri, kənar şəxslər. Belə əməllərin baş vermə mexanizmi elə ola bilər ki, təqsirkar şəxs zahirən cinayət hadisəsinin iştirakçısı kimi görünməz (məsələn, piyadanın qəflətən yola çıxması səbəbindən iki nəqliyyat vasitəsinin toqquşması, sərnişinin pəncərədən atdığı əşyanın piyadaya, başqa nəqliyyat vasitəsinin sürücüsünə və ya sərnişininə xəsarət yetirməsi və s.). Təcrübə göstərir ki, şərh olunan kriminal əməl daha çox piyadalar tərəfindən törədilir.

4. CM-in şərh olunan maddəsinin adından və məzmunundan göründüyü kimi, bu maddədə nəzərdə tutulan cinayət əməli hər bir halda **nəqliyyat vasitəsinin** iştirakı ilə törədilə bilər. Ona görə də bu maddə ilə tövsif olunan cinayət əməlləri də yol-nəqliyyat hadisələri sayılacaqdır. Digər tərəfdən, yol hərəkətində iştirak vaxtı olsa da, piyadaların və ya sərnişinlərin bir-birinə az ağır və ya ağır zərər yetirməsi, yaxud onların birinin digərinin ölümünə səbəb olan hərəkətləri CM-in 267-ci maddəsi üzrə deyil, tərkib əlamətlərindən asılı olaraq şəxsiyyət əleyhinə cinayət kimi tövsif ediləcəkdir. Lakin yol hərəkətinin nəqliyyatın idarə edilməsi ilə bağlı olmayan iştirakçısı bu cinayəti elə törədə bilər ki, həmin yol nəqliyyat hadisəsində nəqliyyat vasitəsi də iştirak etməklə zərərçəkmiş

qismində piyada, sərnişin və ya mal-qara ötürən şəxs ola bilər (məsələn, piyadanın qəflətən hərəkət hissəsinə çıxması səbəbindən istiqamətini məcburən dəyişən avtomobilin başqa bir piyadanı vurması).

5. Təhlil olunan cinayət **maddi tərkiblidir**. CM-in 267-ci maddəsi ilə məsuliyyətin yaranması üçün zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmalı və ya onun (yaxud bir neçə şəxsin) ölümü baş verməlidir. Belə ictimai təhlükəli nəticələr baş vermədikdə yalnız inzibati xətadan və müvafiq surətdə inzibati məsuliyyətdən söhbət gedə bilər.

6. Araşdırılan cinayət əməli **subyektiv cəhətdən ehtiyatsızlıqla** (cinayətkarcasına özünəgüvənmə və cinayətkarcasına etinasızlıqla) törədilir.

7. Şərh olunan cinayətin **subyekti** sərnişin, piyada və ya yol hərəkətinin digər iştirakçılarıdır. Həmin subyektlərin dairəsini dəqiqləşdirmək üçün «Yol hərəkəti haqqında» Qanuna müraciət edilməlidir.

Adı çəkilən Qanunun 1-ci maddəsinin 35-ci bəndinə əsasən **sərnişin** nəqliyyat vasitəsində hərəkətdə olan, lakin onun idarə edilməsinə aidiyyəti olmayan şəxsdir. Bu maddənin 36-cı bəndində deyilir ki, **piyada** nəqliyyat vasitələrindən kənarda yol hərəkətində iştirak edən və yolda hər hansı iş görməyən şəxsdir (mühərriksiz əlil arabalarında gedən, velosiped, moped və ya motosiklet aparan, kirşə, əl arabası, uşaq və ya əlil arabası aparan şəxslər də piyadaya bərabər tutulur).

CM-in təhlil olunan maddəsində nəzərdə tutulan əməlin subyektlərinin başqa bir qrupunu təşkil edən yol hərəkətinin digər iştirakçılarının dairəsini dəqiqləşdirmək üçün «Yol hərəkəti haqqında» Qanunun 1-ci maddəsinin 33-cü bəndini CM-in 263-264-cü maddələrinin subyektlərinin dairəsi nəzərə alınmaqla təhlil etmək zəruridir. Qanunun istinad edilən normasından aydın olur ki, **yol hərəkəti iştirakçısı** dedikdə istənilən nəqliyyat vasitəsini idarə edən sürücü, sərnişin, velosipedçi və mal-qara ötürən şəxs başa düşülür. Lakin mexaniki nəqliyyat vasitələrinin və tramvayların sürücüləri CM-in 263-264-cü maddələrində göstərilən cinayətin subyektidirlər. Deməli, qalan nəqliyyat vasitələrinin sürücüləri – velosipedçilər, moped idarə edən şəxslər, at arabasını (kirşəni) idarə edən şəxslər CM-in 267-ci maddəsində nəzərdə tutulan cinayətin subyektidirlər. Həmin anlayışdan məlum olur ki, **mal-qara ötürən şəxslər** (o cümlədən minik və yük heyvanlarını yolla aparan şəxslər) də təhlil olunan cinayətin subyektidirlər.

Məhkəmə təcrübəsində bəzən səhv olaraq avtomobilin sürücüsünün nəqliyyat vasitəsini sürücülük hüququ olmayan şəxsə verməsi, özünün isə sərnişin kimi nəqliyyat vasitəsində olması hallarında yol-nəqliyyat cinayətinin törədilməsində təqsirləndirilməsinə rast gəlinir.

Dəvəçi rayon Məhkəməsinin hökmü ilə R.Abbasov CM-in 267.3-cü maddəsi ilə təqsirli bilinib məhkum edilmişdir, ona görə ki, o, özünə məxsus idarə etdiyi «VAZ-2107» markalı avtomaşında tanışı V.Nurullayevlə birlikdə Quba şəhərinə qayıdarkən «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin 1-ci hissəsinin 8-ci bəndinin tələblərini pozaraq avtomaşını minik avtomobillərini idarə etmək hüququ olmayan V.Nurullayevə həvalə etmişdir. V.Nurullayev əks istiqamətdən gələn T.Məhərrəmovun idarə et-

diyi «Mersedes-300 E» markalı avtomaşının hərəkət zolağına çıxaraq onunla toqquşmuş, nəticədə T.Məhərrəmovun idarə etdiyi avtomaşında olan sərnişin V.İsmayılov və «Vaz-2107» markalı avtomaşını idarə edən V.Nurullayev ölmüş, «Mersedes 300 E» markalı avtomaşında olan sərnişin Z.Mirzəyevin isə sağlamlığına yüngül zərər dəymişdir. «VAZ-2107» markalı avtomaşında sərnişin kimi olan və təqsirləndirilən R.Abbasov da çoxlu sayda bədən xəsarəti almışdır.

Hökmdən verilmiş apellyasiya şikayətinə əsasən işə baxan Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsi hesab etmişdir ki, birinci instansiya məhkəməsi cinayət qanunu normasını düzgün şərh etməmişdir. Belə ki, R.Abbasov sərnişin kimi «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 41-ci maddəsində göstərilən vəzifələrini pozmamış, konkret olaraq hərəkət vaxtı sürücünün diqqətini nəqliyyat idarə etməkdən yayındırmamışdır. R.Abbasovun rədilməsində təqsirli bilindiyi cinayətin nəzərdə tutulduğu CM-in 267.3-cü maddəsinin özü CM-in 263-264-cü maddələrində əhatə olunan mexaniki nəqliyyat vasitələri sürücülərin bu maddə ilə məsuliyyətini istisna edir.

Birinci instansiya məhkəməsi «Yol hərəkəti haqqında» Qanunun 37-ci maddəsinin 1-ci hissəsinin 8-ci bəndinə istinad edərək qanunun bu tələbini pozmuşdur. Çünki həmin Qanunun 37-ci maddəsi mexaniki nəqliyyat vasitəsi sürücünün vəzifələrinə həsr olunmuşdur ki, həmin sürücülər CM-in 263-264-cü maddələrində nəzərdə tutulan cinayətlərin subyektidirlər.

Nəqliyyat vasitəsini onu idarə etmək hüququ olmayan şəxsə idarə etməyə verməyə görə cinayət məsuliyyəti müəyyən edilmədiyindən R.Abbasovun CM-in 267.3-cü maddəsi ilə nəzərdə tutulmuş cinayətin subyekti olaraq tanınması əsassız və qanunsuzdur.

Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin iş üzrə çıxardığı hökmü əsassız və qanunsuz olduğuna görə ləğv etmiş, R.Abbasovun əməlində CM-in 267.3-cü maddəsi ilə nəzərdə tutulan cinayəti tərkibi olmadığı üçün CPM-nin 42.1.2-ci maddəsinə əsasən ona bəraət vermişdir[1].

Mexaniki nəqliyyat vasitələrinə aid edilməyən nəqliyyat vasitələrini (velosipedi, mopedi, at arabasını) idarə edən şəxslərin həm piyadalar, sərnişinlər və mal-qara ötürən şəxslər, həm mexaniki nəqliyyat vasitələrinin sürücü və sərnişinləri, həm də başqa qeyri-mexaniki nəqliyyat vasitələrini idarə edən və ya onların sərnişini olan şəxslər barəsində törətdiyi əməl (məsələn, at arabası ilə piyadanı və ya mal-qara ötürən şəxsi vurma və s.) də CM-in 267-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır. Qeyd edək ki, «Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 №-li qərarının 9-cu bəndində həmin məsələyə bir qədər fərqli şərh verilmişdir. Plenum qərarında deyilir ki, CM-in 262, 263, 263-1, 264 və 351-ci maddələri ilə məsuliyyət daşıyan şəxslər istisna olmaqla, nəqliyyat vasitələrinin təhlükəsiz işləməsini təmin edən qaydaları pozan hər bir şəxs (sərnişin, piyada, velosipedçi, avtomobil və digər nəqliyyat vasitələrinin konduktorları və başqa şəxs) CM-in 267-ci maddəsi ilə nəzərdə tutulan cinayətin

[1] Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin arxivi, 2003-cü il.

subyekti ola bilər. CM-in 267-ci maddəsi mexaniki olmayan nəqliyyat vasitələrini, yəni, məsələn, at-arabanı (kirşəni) idarə edən şəxslərin də cinayət məsuliyyətini istisna etmir, lakin belə nəqliyyatı idarə edən şəxsin yol hərəkətinin təhlükəsizliyi qaydalarını pozması yalnız mexaniki nəqliyyat vasitəsilə əlaqəli şəkildə yol-nəqliyyat hadisəsinin törədilməsinə səbəb olduqda CM-in 267-ci maddəsi ilə tövsif edilir. Bütün digər hallarda (at-araba ilə piyadanı vurma, özgə əmlakını məhv etmə və sair bu kimi hallarda) təqsirkarın əməli CM-in şəxsiyyət və ya mülkiyyət əleyhinə törədilən cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələri ilə tövsif olunur.

CM-in 267.1-ci maddəsində nəzərdə tutulan «yol hərəkətinin digər iştirakçıları» anlayışını genişləndirici təfsir etmək olmaz. Ona görə də yol hərəkətini tənzimləyən Dövlət Yol Polisi əməkdaşları, habelə yollarda müəyyən işlərin (yolların təmir-tikintisi, nizamlama vasitələrinin tətbiqi, yolların təmizlənməsi və s.) görülməsi ilə məşğul olan şəxslər yol hərəkətinin digər iştirakçıları deyillər.

8. CM-in 267.2-ci maddəsində şərh olunan cinayət əməlinin **ağırlaşdırıcı tərkib əlaməti** qismində onun zərərçəkmiş şəxsin ölümünə, 267.3-cü maddəsində isə **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** kimi iki və ya daha çox şəxsin həlak olmasına səbəb olması nəzərdə tutulur.

Maddə 268. Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma

268.1. Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmiri zamanı təhlükəsizlik qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına və ya külli miqdarda ziyan vurulmasına səbəb olduqda —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

268.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

268.3. Bu Məcəllənin 268.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **bilavasitə obyekti** magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarına riayət edilməsi ilə bağlı olan ictimai münasibətlərdir. Qeyd olunan cinayətin **əlavə obyekti** qismində zərərçəkmiş şəxsin (şəxslərin) həyatının və ya sağlamlığının təhlükəsizliyi ilə bağlı olan ictimai münasibətlər çıxış edir.

2. Şərh olunan cinayətin **predmeti** magistral boru kəməridir. **Boru kəməri** dedikdə qazın və neft məhsullarının nəql olunması üçün nəzərdə tutulan texniki vasitələrin kompleksi başa düşülür. Bu kompleksə borular, neft-qaz məhsul-

larını təzyiq altında çəkib vuran qurğular (nasos qurğuları), tıxac qurğuları, yoxlanış-ölçü cihazları, kompressor və qazbölüşdürücü stansiyalar, qazın yerin altında saxlanılması üçün olan stansiyalar, neftin və neft məhsullarının qızdırılması üçün məntəqələr, boru kəmərlərinin aşınmadan qorunması üçün elektrokimyəvi mühafizə qurğuları, texnoloji rabitə xətləri və qurğuları, boru kəmərlərinin telemexanika vasitələri, boru kəmərlərinə qulluq göstərilməsi üçün nəzərdə tutulan elektrik ötürücü xətləri, boru kəmərlərinin yanğından mühafizə, eroziya əleyhinə vasitələri və qoruyucu qurğuları, neftin, neft məhsullarının, kondensatın və mayeləşdirilmiş karbohidrogenlərin qəza buraxılışı üçün yeraltı anbarlar, boru kəmərlərinin istismarı xidmətlərinin binaları və tikililəri, magistral boru kəməri boyunca yerləşən daimi yollar və vertolyot meydançaları və onlara giriş yerləri, boru kəmərlərinin olduqları yerlərin tanınma və işarəvermə (siqnal) nişanları, xəbərdarlıq nişanları və s. aid edilir.

3. Şərh olunan cinayətin predmeti olan boru kəmərləri onların vasitəsilə nəql edilən təbii xammalın növündən asılı olaraq neft-qaz kəmərlərinə, qaz kəmərlərinə, neft məhsulları kəmərlərinə və s. bölünür. Yerinə yetirdiyi funksiyalarına görə boru kəmərləri magistral, köməkçi və anbar boru kəməri, habelə yerüstü (yaxud suüstü) və yeraltı (yaxud sualtı) ola bilər. **Magistral boru kəməri** xammalın (maddənin) əsas axınını nəql edən boru kəməridir. **Köməkçi boru kəməri** isə magistral boru kəmərindən şaxələnərək nəql olunan xammalı (maddəni) qeyri-əsas xətlərlə istehlakçıya çatdıran (ötürən) boru kəməridir. **Anbar boru kəmərləri** ehtiyat xammalın (maddənin) operativ və ya uzunmüddətli sənaye istifadəsi məqsədi ilə müvəqqəti və ya daimi saxlanılması üçün nəzərdə tutulan boru kəmərləridir.

4. Nəzərə almaq lazımdır ki, CM-in 268-ci maddəsində təsvir edilən cinayət əməlinin predmeti yalnız magistral boru kəmərləridir, yəni köməkçi və anbar boru kəmərləri bu cinayətin predmeti hesab edilmir. Köməkçi və ya anbar boru kəmərinin təhlükəsiz fəaliyyətini təmin edən qaydalar pozulduqda, əməl CM-in 222-ci maddəsi (tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma) ilə, yaxud şəxsiyyət və ya mülkiyyət əleyhinə olan cinayət kimi tövsif edilməlidir.

5. Magistral boru kəmərləri mühüm texnoloji funksiyanı yerinə yetirir, yəni uzaq məsafəyə qazın və neft məhsullarının nəql olunmasını təmin edir. Onlar həm də yüksək risqli obyektlərə aiddir. Belə ki, məlum olduğu kimi, magistral boru kəmərləri yaşayış məntəqələrinin yaxınlığından, habelə mühüm ekoloji, tarixi və mədəni əhəmiyyət kəsb edən ərazilərdən keçib gedir. Buna görə də boru kəmərinin və ya onun elementlərinin dağılması (partlayışı) metal və torpaq hissələrinin ətrafa səpələnməsi, məhsulun alışıb yanması, açıq alovun və baş verən yanğının texniki təsiri, qaz-hava qarışığının partlaması, yaxınlıqdakı binaların, tikililərin, qurğuların məhv olması və ya korlanması, zəhərli maddələrin ətraf mühitə atılması, mühüm ekoloji zərərin vurulması, insan tələfatı və s. bu kimi yüksək ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunur.

6. Araşdırılan cinayətin **obyektiv cəhəti** magistral boru kəmərlərinin inşası, istismarı və ya təmiri zamanı təhlükəsizlik qaydalarının zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına və ya külli miqdarda ziyan

vurulmasına səbəb olan dərəcədə pozulmasında ifadə olunur.

Şərh olunan cinayət hüquq norması **blanket dispozisiyalıdır**. Belə ki, magistral boru kəmərlərinin inşası, istismarı və təmirinin təhlükəsizliyini təmin edən qaydalar müvafiq idarə normativ aktlarında əks olunmuşdur.

Azərbaycan Respublikasının «Nəqliyyat haqqında» 11 iyun 1999-cu il tarixli Qanununun 2-ci maddəsinə görə magistral boru kəməri sahəsində münasibətlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

Magistral boru kəmərinin inşası dedikdə onun layihələşdirilməsi, tikilməsi, yəni bilavasitə quraşdırılması, habelə davamlılığının yoxlanılması üzrə sınaqdan keçirilməsi və işçi layihəyə müvafiq olaraq germetikliyinin (yəni kipliyinin) yoxlanılması üzrə işlərin görülməsi başa düşülür.

Magistral boru kəmərinin istismarı dedikdə onun təyinatına görə, yəni qazın və neft məhsullarının bir yerdən başqa yerə nəql edilməsi üçün istifadə olunması başa düşülür. Qanunvericiliklə həm bütövlükdə magistral boru kəməri, həm də onun tərkibinə daxil olan sistemlər eyni dərəcədə qorunur.

Təmir dedikdə magistral boru kəmərinin texniki nasazlıqlarının, yararsızlıqlarının aradan qaldırılması üzrə tədbirlərin görülməsi başa düşülür. Təmir cari, əsaslı və qəza-bərpaedici təmirə bölünür.

Nəzərə almaq lazımdır ki, magistral boru kəmərlərinin inşası, istismarı və təmiri zamanı müvafiq idarə normativ aktlarında nəzərdə tutulan təhlükəsizlik qaydalarına riayət edilməsi təkcə boru kəməri nəqliyyatı müəssisələri tərəfindən deyil, həm də boru kəmərinin keçib-getdiyi ərazidə (yaxud rayonda) müəyyən işləri yerinə yetirən digər müəssisələr, idarə və təşkilatlar, habelə vətəndaşlar üçün məcburidir.

7. Təhlil edilən cinayət həm **hərəkətlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Məsələn, şəxs qüvvədə olan müvafiq normativ aktların tələblərinə riayət etməyərək boru kəmərlərinin çaylarla, yaxud kanallarla kəsişdiyi yerlərdə işarəverici nişanları qoymadıqda, şərh olunan cinayəti hərəkətsizliklə törətmiş olur.

Magistral boru kəmərlərinin inşası zamanı təhlükəsizlik qaydalarının pozulması onların layihələşdirilməsi və tikintisi zamanı normativ aktların tələblərinin pozulmasında və ya onlara riayət edilməməsində (məsələn, boru kəmərlərinin, neft məhsullarının saxlanılması üçün olan qabların (xüsusi boşluqların) keyfiyyətsiz qaynaq edilməsində və s.) ifadə olunur.

Magistral boru kəmərlərinin istismarı zamanı təhlükəsizlik qaydalarının pozulması dedikdə boru kəmərlərindən təyinatı üzrə və onların texniki imkanlarına müvafiq olaraq istifadə edilməsinin müvafiq normativ aktlarla müəyyən edilmiş qaydalarından kənara çıxma, onlara riayət etməmə başa düşülür. Konkret şəkildə bu, ölçü cihazlarının işinə nəzarət edilməməsində, işə xüsusi hazırlıq kursları keçməyən və zəruri texniki bacarığı və biliyi olmayan şəxslərin də buraxılmasında və s. ifadə olunur.

Magistral boru kəmərlərinin təmiri zamanı təhlükəsizlik qaydalarının pozulması müxtəlif formada, məsələn, təmir prosesində nəzarət-ölçmə cihazlarının qeyri-dəqiq nizamlanmasında, kondisiyaya, yəni müəyyən edilmiş şərt və qaydalara uyğun olmayan avadanlığın quraşdırılmasında və s. ifadə olunur.

Boru kəmərlərinin zədələnməsi imkanını aradan qaldırmaq üçün xüsusi mühafizə zonaları təyin edilir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu zonalarda işlərin aparılmasına yazılı icazə almış müəssisələr, təşkilatlar və vətəndaşlar bu mühafizə zonalarının rejiminə riayət etməlidirlər və boru kəmərlərinin zədələnməsinə görə məsuliyyət daşıyırlar.

8. Şərh olunan cinayət **maddi tərkiblidir** və buna görə də CM-in 268-ci maddəsində nəzərdə tutulan ictimai təhlükəli nəticələr baş verdiyi andan **başa çatmış** hesab edilir. Qeyd olunan ictimai təhlükəli nəticələrin məzmunu mahiyyət etibarilə digər nəqliyyat cinayətlərinin, xüsusilə də CM-in 266-cı maddəsində nəzərdə tutulan cinayət əməlinin ictimai təhlükəli nəticələri ilə eynidir.

CM-in 268.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan «külli miqdarda ziyan» termini qiymətləndirici anlayışdır. Vurulmuş ziyanın külli miqdarda ziyan hesab edilməsi törədilmiş cinayətin faktiki hallarından asılıdır. CM-in 268.1-ci maddəsində qeyd olunan təhlükəsizlik qaydalarının pozulması ilə əlaqədar baş vermiş partlayış nəticəsində boru kəmərlərinin, onların texniki sistemlərinin ayrı-ayrı elementlərinin, binaların, tikililərin, qurğuların və s. məhv olması və ya zədələnməsi, qiymətli xammalın və yanacağın xeyli miqdarda itkisi, ətraf təbii mühitin böyük sahələrinin neft və neft məhsulları ilə çirklənməsi ilə əlaqədar fövqəladə ekoloji vəziyyətin yaranması, müəyyən ərazidə flora və faunanın məhv olması, sənaye müəssisələrinin normal iş rejiminin pozulması və s. külli miqdarda ziyan hesab olunur.

CM-in 268-ci maddəsində sadalanan ictimai təhlükəli nəticələrlə magistral boru kəmərlərinin inşası, istismarı və ya təmiri zamanı təhlükəsizlik qaydalarının pozulması arasında səbəbli əlaqə olmalı və bu, istintaq və məhkəmə orqanları tərəfindən müəyyən edilməlidir.

9. Araşdırılan cinayət **subyektiv cəhətdən ehtiyatsızlıqla** (cinayətkarcasına özünəgüvənmə və cinayətkarcasına etinasızlıq) törədilir.

Bu cinayətin törədilmə **motivləri** müxtəlif ola bilər və təqsirkara məhkəmə tərəfindən cəza təyin edilərkən nəzərə alınmalıdır.

10. Şərh olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş və yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar magistral boru kəmərlərinin inşası, istismarı və ya təmiri tapşırılmış istənilən anlaqlı şəxs ola bilər. Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmiri ilə əlaqədar olmayan şəxslər tərəfindən boru kəmərlərinin zədələnməsi və ya məhv edilməsi CM-in təxribata, özgənin əmlakını məhv etmə və ya zədələməyə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələri ilə tövsif edilməlidir.

11. Təhlil edilən cinayət zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda, CM-in 268.2-ci (**ağırlaşdırıcı tərkib əlaməti**), iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda isə CM-in 268.3-cü maddəsi (**xüsusilə ağırlaşdırıcı tərkib əlaməti**) ilə tövsif olunmalıdır.

Maddə 269. Gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi

Dəniz və ya sair su yolunda fəlakətə uğrayanlara gəmi kapitanı tərəfindən öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan kömək edə bildiyi halda kömək göstərməməsi —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu maddədə gəmiçilik sahəsində ümumi qəbul edilmiş və hər bir su gəmisi kapitanının şərəf işi və müqəddəs borcu hesab olunan su yolu ilə hərəkət zamanı gəmi qəzasına (fəlakətə) uğrayanlara hər cür yardım göstərmək haqqında qadaların pozulmasında ifadə olunan cinayət əməlinə görə məsuliyyət nəzərdə tutulur.

Gəmiçilik sahəsində ümumi qəbul edilmiş qaydaya görə, istənilən gəmi kapitanı fəlakətin baş verməsi haqqında işarəni, yəni «SOS» siqnalını aldığı və ya fəlakətə (gəmi qəzasına) uğramış şəxsləri, yaxud gəmini gördüyü andan dərhal öz gəmisinin kursunu zərərçəkmiş şəxslərə zəruri kömək göstərilməsi məqsədi ilə dəyişməlidir.

2. Fikrimizcə, qanunvericinin CM-in 269-cu maddəsini «Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər» fəslində nəzərdə tutması məntiqi və cinayət-hüquqi baxımdan uğurlu hesab oluna bilməz. Belə ki, CM-in 269-cu maddəsində hərəkət təhlükəsizliyi və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına görə deyil, gəmi kapitanının fəlakətə uğrayanlara öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan kömək edə bildiyi halda kömək göstərməməsinə görə cinayət məsuliyyətindən söhbət gedir. Buna görə də şərh olunan cinayət əməlini «təhlükədə qoyma» cinayətinin ağırlaşdırıcı növü kimi nəzərdən keçirmək və müvafiq surətdə CM-in «Şəxsiyyət əleyhinə edilən cinayətlər» fəslində yerləşdirmək daha məqsədəuyğun olardı.

3. Şərh olunan cinayətin **bilavasitə obyekti** gəmiçiliyin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir. Gəmiçilik sahəsində təhlükəsizliyin təmin edilməsi hər bir gəmiçinin, xüsusilə də gəmi kapitanının əsas vəzifəsidir. Bu vəzifə həm beynəlxalq konvensiyalarda, həm də milli qanunvericilikdə təsbit edildiyi üçün normativ xarakter daşıyır.

Fəlakətə uğrayan insanların həyatı və ya sağlamlığı bu cinayətin **əlavə obyekti** qismində çıxış edir.

4. Bu cinayətin **predmeti** istənilən tipli və təyinata malik su nəqliyyatı növü ola bilər.

5. Təhlil olunan cinayətin **obyektiv cəhəti** dəniz və ya sair su yolunda fəlakətə uğrayanlara gəmi kapitanı tərəfindən öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan kömək edə bildiyi halda kömək göstərməməsində ifadə olunur. Beləliklə, araşdırılan cinayət əməlinin obyektiv cəhəti hərəkətsizliklə, yəni gəmi kapitanının dəniz və ya sair su yolunda fəlakətə uğrayan insanlara zəruri və təxirə salınmadan kömək göstərməkdən ibarət olan hüquqi və peşə borcunu yerinə yetirməməsində ifadə olunur.

CM-in 269-cu maddəsində nəzərdə tutulan cinayət tərkibi aşağıdakı halların məcmusu real surətdə mövcud olduqda yaranır:

a) dəniz və ya sair su yolunda (çayda, göldə) insanların fəlakətə uğraması;

b) yuxarıda qeyd olunan hadisənin gəmi kapitanına məlum olması (məsələn, fəlakətə uğrayanlar vizual olaraq müşahidə olunurlar və ya gəmi kapitanı fəlakətə uğrama xəbərini və «SOS» siqnalını, yaxud təyyarə ilə radioməlumat almışdır və s.);

c) gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərmək üçün real imkana (situasiya, coğrafi məkan, hava şəraiti, gəminin texniki xarakteristikası və s. nəzərə alınmaqla) malik olması;

ç) gəmi kapitanının fəlakətə uğrayanlara öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan kömək göstərmək imkanına malik olması;

d) yuxarıda qeyd olunan halların mövcud olmasına baxmayaraq, gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi.

6. Bu cinayətdən **zərərçəkmiş şəxslər** dəniz və ya sair su yolunda fəlakətə uğrayanlardır.

Fəlakətə uğrayanlar dedikdə təxirə salınmadan kömək göstərilməzsə, həlak ola biləcək insanlar başa düşülür. Burada fəlakətə uğrayanlara təkcə üzməklə, o cümlədən köməkçi vasitələrdən və ya əl altında olan predmetlərdən istifadə etməklə sahilə çatmağa cəhd edənlər deyil, həm də hələ batmaqda olan gəminin göyərtəsində və ya qayıqda, salda və s. olan insanlar da aid edilir.

7. Şərh olunan cinayət **formal tərkibli** olduğu üçün fəlakətə uğrayanlara kömək göstərilmədiyi andan **başa çatmış** hesab olunur. Başqa sözlə, bu cinayət əməlinin başa çatmış hesab edilməsi və CM-in 269-cu maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün, fəlakətə uğrayanların həlak olması və ya sağ qalmaları (məsələn, özləri xilas olduqda və ya başqa gəmi və ya təyyarənin köməyi ilə xilas edildikdə) heç bir əhəmiyyət kəsb etmir. Fəlakətə uğramış insanların belə vəziyyətə düşməsinə səbəb olmuş hallar (məsələn, hava və ya su gəmisinin qəzaya uğraması və s.) da əməlin cinayət-hüquqi təsvifinə təsir etmir. Zərərçəkmiş şəxslər təkcə suda deyil, həm də baş vermiş fəlakət nəticəsində suya düşmüş nəqliyyat vasitəsində, köməkçi vasitələrdə (məsələn, hava ilə doldurulmuş yastıqlarda), yaxud hər hansı suda batmayan predmetlərin (məsələn, taxta parçası və s.) üzərində ola bilərlər.

Dəniz və ya sair su yolunda fəlakətə uğrayanlara kömək göstərməməkdə təqsirli olan gəmi kapitanı fəlakətə uğrayanlara yaxınlıqda olan digər su və ya hava gəmilərinin kömək göstərməsi və ya göstərə bilməsi faktı ilə öz hərəkətsizliyinə bəraət qazandıra bilməz. CM-in 269-cu maddəsi ilə məsuliyyətin yaranması üçün başlıca əsas insanların dəniz və ya sair su yolunda fəlakətə uğramış olması və təxirəsalınmadan kömək göstərilməzsə, onların ölümünün qaçılmaz olmasıdır. Burada fəlakətə uğrayanların milli mənsubiyyəti, vətəndaşlığı, hansı dindən olması və s. heç bir əhəmiyyət kəsb etmir.

8. Fəlakətə uğrayanlara kömək göstərilməsi gəmi kapitanının öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə doğura bilərdisə, gəmi kapitanının əməlində şərh olunan cinayət tərkibinin əlamətləri mövcud olmayacaqdır, çünki bu halda onun kömək göstərməməsi son zərurət (CM-in 38-ci maddəsi) vəziyyəti ilə şərtlənmişdir. Təhlükənin nə dərəcədə ciddi olması işin faktiki hallarından asılıdır. Zəruri hallarda bunu dəqiqləşdirmək üçün müvafiq gəmiçilik və ya digər texniki ekspertiza təyin olunur. Ümumi qaydaya görə, gəmidə yanğının baş verə bilməsi təhlükəsi, onun texniki cəhətdən nasaz olması, burulğana düşərək batması təhlükəsi və s. bu kimi hallar ciddi təhlükə kimi qiymətləndirilir.

Gəmi kapitanının gəminin hərəkət kursunu dəyişməklə gəmi sahibinə maddi zərərin dəyməsinə (məsələn, gəmidə tez xarab olan yükün olması və s.), yükün vaxtında çatdırılmaması nəticəsində cərimə sanksiyalarının tətbiq olunacağına və s. bu kimi hallara görə dəniz və ya su yolunda fəlakətə uğrayanlara kömək göstərməməsi, onun CM-in 269-cu maddəsi ilə cinayət məsuliyyətini istisna etmir. Belə ki, qeyd olunan maddi itkilərin (məsrəflərin) baş verə bilməsi təhlükəsi CM-in 269-cu maddəsində nəzərdə tutulan mənada ciddi təhlükə sayılmır.

Fəlakətə uğrayanlar özləri onlara göstərilən köməkdən imtina etmişlərsə və bununla əlaqədar onlara kömək göstərilməmişdirsə, gəmi kapitanının əməlində şərh olunan cinayət tərkibinin əlamətləri istisna olunur.

9. Su gəmisinin hərəkətinin və ya istismarının təhlükəsizliyi qaydalarının pozulması nəticəsində gəmi kapitanı öz gəmisinin heyətini və sərnişinlərini onların həyatı və ya sağlamlığı üçün təhlükəli olan vəziyyətə salmış və onlara kömək göstərə biləcəyi halda bunu etməmişdirsə, onun əməli CM-in 143-cü maddəsi ilə («Təhlükədə qoyma») tövsif edilməlidir. Gəmi heyəti gəmi kapitanının sərnişinlərə kömək göstərilməsi haqqında əmrini yerinə yetirmədikdə də törədilmiş əməl CM-in 143-cü maddəsi ilə tövsif edilməlidir.

10. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin **qəsd** forması ilə törədilir. Bu cinayət həm **birbaşa**, həm də **dolayı qəsdlə** törədilə bilər. Gəmi kapitanı dəniz və ya sair su yolunda fəlakətə uğramış şəxslərin həyat və sağlamlıq üçün təhlükəli vəziyyətdə olduqlarını, öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan onlara kömək etmək imkanının olduğunu dərk edir, fəlakətə uğrayanların məhv olmasını arzu edir (birbaşa qəsd), yaxud bunu arzu etməsə də, belə nəticənin baş verməsinə şüurlu surətdə yol verir (dolayı qəsd).

11. Təhlil edilən cinayətin **subyekti** gəmi kapitanıdır. Qanunverici şərh olunan maddədə «gəmi kapitanı» terminindən ümumiləşdirici anlayış kimi istifadə etmişdir. Belə ki, CM-in 269-cu maddəsində nəzərdə tutulan cinayətin subyekti təkcə tutduğu vəzifəsinə görə gəmi kapitanı adlandırılan şəxslər deyil, həm də vəzifəsi başqa ad daşıyan, lakin faktiki olaraq gəminin heyətinə rəhbərlik edən (məsələn, şkiper), yaxud gəmidə tək halda olan şəxslər ola bilər.

Azərbaycan Respublikasının ərazi sularında üzən xarici ölkələrə məxsus gəmilərin kapitanları da bu cinayətin subyektidir. Təhlil olunan cinayət əməli açıq dənizdə baş verdikdə, beynəlxalq konvensiyalar tətbiq edilir. Bu konvensiyalara görə, təqsirkar gəmi kapitanı vətəndaşı olduğu, yaxud da yaxalandığı ölkənin cinayət qanunu ilə məsuliyyət daşımalıdır.

Maddə 270. Beynəlxalq uçuş qaydalarını pozma

Müəyyən edilmiş icazədə göstərilən marşrutlara, enmə yerlərinə, hava

qapılarına, uçuş yüksəkliyinə riayət etməmə və ya beynəlxalq uçuş qaydalarını başqa cür pozma —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki iləyədək müddətə islah işləri və ya üç iləyədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir iləyədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il).*

1. Nəzərdən keçirilən cinayətin **bilavasitə obyekti** beynəlxalq aviaxətlərdə hava nəqliyyatının hərəkət təhlükəsizliyini təmin edən qaydalardır. Bu cinayətin **əlavə obyekti** isə dövlət sərhədinin toxunulmazlığıdır.

2. Bu cinayətin **predmeti** uçuş heyəti tərəfindən idarə olunan hava gəmisidir. Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanununun 1.0.13-cü maddəsinə görə **hava gəmisi** dedikdə hava ilə qarşılıqlı təsir hesabına atmosferdə qalan (yer və su səthindən əks olunan hava ilə qarşılıqlı təsir istisna olmaqla) hər hansı aparat başa düşülməlidir. Hava gəmisi hansı dövlətdə qeydə alınıbsa, həmin dövlətə də məxsusdur.

Nəzərdən keçirilən cinayətin predmeti olan hava gəmiləri təyinatından, yerinə yetirdiyi funksiyalarından və idarə (müəssisə, təşkilat) mənsubiyyətindən asılı olaraq Azərbaycan Respublikasının mülki hava gəmilərinə, müdafiə, daxili işlər nazirliklərinin, dövlət təhlükəsizliyi xidmətinin hava gəmilərinə, habelə digər nazirliklərin, dövlət komitələrinin və baş idarələrin aviasiya texnikası və digər texnika sahəsində təcrübə-konstruktor, sınaq və elmi-tədqiqat işləri üçün nəzərdə tutulmuş hava gəmilərinə bölünür.

3. Şərh olunan cinayətin **obyektiv cəhəti** müəyyən edilmiş icazədə göstərilən marşrutlara, enmə yerlərinə, hava qapılarına, uçuş yüksəkliyinə riayət etməmə və ya beynəlxalq uçuş qaydalarını başqa cür pozmada ifadə olunur.

Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanununun 1.0.10-cu maddəsinə görə Azərbaycan Respublikasının və digər dövlətin sərhədlərini keçməklə hava gəmiləri vasitəsilə yerinə yetirilən uçuşlar beynəlxalq uzuşlar (reyslər) sayılır.

CM-in 270-ci maddəsi **blanket dispozisiyalı** olduğundan, özündə beynəlxalq uçuş qaydalarının təsbit edildiyi müvafiq normativ hüquqi aktlara göndərişi əks etdirir. Beynəlxalq uçuş qaydaları «Azərbaycan Respublikasının Dövlət sərhədi haqqında» Azərbaycan Respublikasının 9 dekabr 1991-ci il tarixli Qanunu, Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanunu, digər normativ hüquqi aktlar, habelə beynəlxalq sazişlərlə nizama salınır.

Azərbaycan Respublikasının hava məkanında Azərbaycan mülki hava gəmilərinin, eləcə də xarici hava gəmilərinin beynəlxalq uçuşları zamanı Azərbaycan Respublikasında hava gəmilərinin uçuşlarını və istismarını tənzimləyən ümumi qaydalar qüvvədə olur. Bu qaydalar Azərbaycan Respublikasının səlahiyyətli orqanları tərəfindən qəbul edilir və Azərbaycan Respublikasının Aeronaviqasiya məlumatı məcmuəsində dərc olunur.

Hava məkanı dedikdə Azərbaycan Respublikasının ərazisi, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus sektoru və daxili suları üzərində hava sahəsi nəzərdə tutulur.

Hava gəmisi hava ilə qarşılıqlı təsir hesabına atmosferdə qalan (yer və su səthindən əks olunan hava ilə qarşılıqlı təsir istisna olmaqla) hər hansı aparatdır.

Azərbaycan Respublikasının hava gəmiləri beynəlxalq uçuşları aviasiyanı idarə edən dövlət orqanının müəyyənləşdirilmiş qaydada verdiyi icazəyə əsasən həyata keçirirlər.

Digər dövlətə məxsus mülki hava gəmisi Azərbaycan Respublikasının hava məkanında yalnız Azərbaycan Respublikası ilə həmin dövlət arasında belə uçuşların nəzərdə tutulduğu beynəlxalq müqavilə bağlandıqda və ya aviasiyanı idarə edən dövlət orqanı tərəfindən xüsusi icazə verildikdə uça bilər. Bu qayda birgə istifadə olunan və ya beynəlxalq hava gəmiləri kimi qeydiyyatda olan hava gəmilərinə də şamil edilir. Digər dövlətə məxsus olan dövlət hava gəmisi yalnız aviasiyanı idarə edən dövlət orqanı xüsusi icazə verdikdə, yalnız bu icazədə göstərilən şərt və müddətlərə uyğun olaraq Azərbaycan Respublikasının hava məkanında uça bilər. Aviasiyanı idarə edən dövlət orqanı nın xüsusi icazəsi olmadan Azərbaycan Respublikasının hava məkanında heç bir hava gəmisi səsdən iti sürətlə uça bilməz. Müvafiq icazələri almadan Azərbaycan Respublikasının dövlət sərhədini keçən, Azərbaycan Respublikasının dövlət sərhədi üzərində uçuş qaydalarını pozan və ya Azərbaycan Respublikasının hava məkanından istifadə qaydalarını digər şəkildə pozan hava gəmisi **qaydaları pozan hava gəmisi** sayılır. Belə hava gəmiləri aviasiyanı idarə edən dövlət orqanının tələbi ilə məcburi qaydada yerə endirilə bilər. Məcburi qaydada yerə enmək barədə bu maddədə nəzərdə tutulan tələbə riayət etməyən, bortunda pozuntunun törədilməsində təqsirsiz sərnişinlərin olması barədə dürüst məlumat olmayan halda hava gəmisinin məhvinə qanunvericiliklə müəyyən edilmiş qaydada icazə verilir. (Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanununun 6-cı maddəsi).

Xarici hava gəmilərinin sahibləri müntəzəm beynəlxalq uçuşlar və ya birdəfəlik uçuş başlananadək bu gəmilərin tanınma nişanlarını mülki aviasiyanı idarə edən dövlət orqanına bildirməlidirlər.

Hava gəmilərinin istismarı ilə əlaqədar vurulan zərərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada öz məsuliyyətini sığortalamayan istismarçılara hava gəmisindən uçuş məqsədilə istifadə qadağandır.

Digər dövlətlərdən Azərbaycan Respublikasına, Azərbaycan Respublikasından digər dövlətlərə və ya Azərbaycan Respublikasının ərazisində uçuşları yerinə yetirən bütün istismarçıların hava gəmisindən uçuş məqsədilə istifadə edilən və aviasiya fəaliyyəti zamanı vurulan zərərə görə aşağıdakı məsuliyyət növlərinin icbari sığortası tələb olunur: 1) ekipaj üzvlərinin həyat və sağlamlığına vurulan zərərə görə məsuliyyət; 2) hava gəmisinin sərnişinlərinin həyat və sağlamlığına, yaxud əmlakına vurulan zərərə görə məsuliyyət; 3) yükgöndərənin və ya yükalanın əmlakına vurulan zərərə görə məsuliyyət; 4) üçüncü şəxslərin həyat və sağlamlığına, yaxud əmlakına vurulan zərərə görə məsuliyyət

(«Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanunun 40-cı maddəsi).

Xarici mülki hava gəmisinin gəmi sənədləri beynəlxalq uçuşlar üçün zəruri olan bütün sənədləri ilə birlikdə yoxlanıla bilər.

Uçuşların təhlükəsizliyinə və ya aviasiya təhlükəsizliyinə riayət edilmədikdə, Azərbaycan Respublikasının mülki aviasiyasını idarə edən dövlət orqanı həmin hava gəmisinin uçuşunu qadağan edə bilər («Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanunun 44.3-cü maddəsi).

Azərbaycan Respublikasına gəlib-gedən hava gəmilərinə, onların heyətlərinə və sərnişinlərinə, habelə hava gəmisi ilə Azərbaycan Respublikasına gətirilib-aparılan əmlaka müvafiq olaraq pasport, gömrük, valyuta, sanitariya, karantin qaydaları və Azərbaycan Respublikasına gəlib-getmək, əmlak gətirib-aparmaq, Azərbaycan Respublikasının ərazisi üzərindən tranzit haqqında başqa qaydalar da şamil edilir.

Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanununa görə, uçuş qabağı hava gəmisi və onun heyəti xüsusi olaraq hazırlanmalı, gəminin qalxacağı və enəcəyi aerodromun yerüstü xidmətlərinin uçuşu təmin etməyə hazırlığı yoxlanılmalı, bütün uçuş yolu boyunca meteoroloji şərait, habelə uçuşa təsir edən digər amillər öyrənilməlidir. Beynəlxalq uçuşlar yerinə yetirilərkən öncə sərhəd, gömrük, sanitar-karantin, immiqrasiya, baytarlıq, fitosanitar nəzarəti və digər nəzarət həyata keçirilir. Hava gəmisinin uçuşa yararlı olmasına dair vəsiqə (sertifikat) olmalıdır. Həmin vəsiqə (sertifikat) növbəti texniki xidmət göstərilənədək hava gəmisinin texniki vəziyyətinin hava daşımalarının həyata keçirilməsi üçün uyğun olduğunu təsdiq edir («Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanunun 20-ci maddəsi).

Beynəlxalq uçuşların: a) müntəzəm, cədvəl üzrə və cədvələ əlavə olaraq yerinə yetirilən; b) xüsusi; c) qeyri-müntəzəm (çarter); ç) epizodik (birdəfəlik) növləri fərqləndirilir.

4. Hava məkanı üzərində dövlət suverenliyi prinsipinə əsasən hər bir dövlət onun ərazi hüdudlarında olan istənilən hava gəmilərinin uçuş qaydalarını sərbəst müəyyən etmək hüququna malikdir. Bu, beynəlxalq sazişlər ilə təsdiq edilmiş və bir çox ölkələrin qanunları ilə təsbit olunmuş ümumi qəbul edilmiş normadır.

«Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanunun 3-cü maddəsinə görə Azərbaycan Respublikası öz ərazisinin bir hissəsi olan hava sahəsi üzərində tam və müstəsna suverenliyə malikdir. Azərbaycan Respublikasının hava sahəsi onun quru və su ərazisi, o cümlədən ərazi suları üzərindəki hava sahəsidir.

5. XX əsrdə mülki aviasiyanın inkişafı və uçuşların intensivliyinin artması beynəlxalq uçuşların vahid qaydalarının işlənib hazırlanması və təcrübədə təsbit edilməsi zərurətini yaratdı. Bu Qaydalar Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İKAO) tərəfindən işlənilib hazırlanmış və 1994-cü Çikaqo Konvensiyasının 2 saylı Əlavəsində beynəlxalq standartlar şəklində təqdim olunmuşdur. Azərbaycan Respublikası öz ərazisində məqbul hesab edilə bilən və onun mənafelərinə uyğun olan beynəlxalq standartları tətbiq etməyə borcludur.

6. Hava məkanının hüquqi rejimi üzərində mövcud olduğu ərazinin hüquqi

rejimi ilə bu və ya digər dərəcədə müəyyən olunur. Açıq dənizlərin, sahilyanı dövlətlərin ərazi suları ilə örtülməyən beynəlxalq boğazların, Antarktidanın üzərində olan hava məkanlarının beynəlxalq-hüquqi rejimi müəyyən edilmişdir. Bu halda dövlətlər özlərinin uçuş qaydalarını müəyyən edə, yaxud tətbiq edə bilməz və yalnız beynəlxalq hava məkanından istifadə qaydalarını tənzimləyən normalara riayət etməlidirlər.

7. Beynəlxalq uçuşların müəyyən edilmiş qaydalarına görə, hava gəmilərinin uçuşları hava gəmisinin heyətinə uçuş üçün müəyyənləşdirilmiş qaydada icazə verildikdən sonra həyata keçirilə bilər. Qeyd olunan icazədə hava gəmisinin beynəlxalq uçuş qaydalarına dair tələblər dəqiq əks olunur. Bu tələblərin pozulması isə CM-in 270-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranmasına səbəb olur. CM-in 270-ci maddəsində qanunverici beynəlxalq uçuş qaydalarının daha tipik pozuntularının nümunəvi siyahısını nəzərdə tutur. Təqsirkarın hərəkətlərində şərh olunan cinayət tərkibinin olub-olmadığını dəqiq müəyyən etmək üçün beynəlxalq uçuş qaydalarını müəyyən edən normativ aktlara müraciət edilməlidir.

Beynəlxalq uçuşların yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının hava gəmisinin heyəti aşağıdakıları rəhbər tutur:

a) Azərbaycan Respublikasının hava məkanında — Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanununu;

b) xarici dövlətin hava sahəsində — həmin dövlətdə qüvvədə olan qaydaları, habelə müddəaları xarici dövlətdə müəyyən edilmiş qaydalara zidd olmadıqda, Azərbaycan Respublikasının «Aviasiya haqqında» 24 iyun 2005-ci il tarixli Qanununu;

c) notaları (uçuş heyətləri aerodromların, radiotexniki vasitələrin, enmə sistemlərinin və s. vəziyyəti haqqında xəbərdar edən bildirişləri və səlahiyyətli orqanlar tərəfindən nəşr edilən və göndərilən aeronaviqasiya göstərişləri;

ç) Azərbaycan Respublikası ilə digər dövlətlər arasında hava əlaqələri haqqında sazişləri.

8. «Aviasiya haqqında» Azərbaycan Respublikasının 24 iyun 2005-ci il tarixli Qanununun 6-cı maddəsinə görə hava gəmisi ancaq uçuş üçün müəyyənləşdirilmiş qaydada icazə aldıqda uça bilər. Bu icazədə hava gəmisinin uçuşuna dair tələblər — hərəkət marşrutu, eşelon (uçuş yüksəkliyi), koridor (hava qapıları), enmə yerləri, uçuş müddətləri, tanınma sistemləri və s. əks olunur. Qeyd olunan tələblərin pozulması şərh olunan cinayət tərkibinin yaranmasına və CM-in 270-ci maddəsi ilə məsuliyyətə səbəb olur.

Hərəkət marşrutu hava gəmisinin qabaqcadan nəzərdə tutulmuş və ya müəyyən edilmiş uçuş yoludur. Hərəkət marşrutu hava gəmisinin uçuş planında əks olunmalıdır. Hava gəmisinin hər bir uçuşu müəyyənləşdirilmiş qaydada təsdiq olunan uçuş planına uyğun surətdə yerinə yetirilməlidir.

Uçuş yüksəkliyi (eşelon) dedikdə hüdudları daxilində hava gəmisinin uçuş marşrutu keçib gedən yüksəkliyin qabaqcadan nəzərdə tutulan və ya müəyyən edilmiş minimal və maksimal ölçüləri başa düşülür. Hava Məcəlləsinin 45-ci maddəsinin tələbinə görə, hava gəmiləri təhlükəsiz yüksəkliklərdə və bir-birindən elə məsafədə uçmalıdırlar ki, gəmilərin toqquşması mümkün ol-

masın.

Eşelonlaşdırma, yəni hava məkanında hava gəmilərinin hava hərəkətinin təhlükəsizliyini təmin edən müəyyən olunmuş məsafədə şaquli, uzununa və ya yanaxı yerləşməsi ərazisi üzərində uçuşun həyata keçirildiyi dövlətin qaydalarına müvafiq olaraq həyata keçirilir. Azərbaycan Respublikasının və başqa dövlətin eşelonlaşdırma sistemlərində fərqlər olduqda başqa dövlətin dövlət sərhədini (açıq dəniz üzərində hava hərəkətini idarəetmə zonasının sərhədlərini) keçənədək eşelonların əvəz edilməsi yerinə yetirilir.

Eşelonlaşdırma və digər belə qaydalar hava əlaqələrinin təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək məqsədi daşıyır. Onların pozulması, müəyyən şərtlər olduqda, nəzərdən keçirilən cinayət tərkibini yaradır.

Enmə yeri dedikdə qabaqcadan nəzərdə tutulmuş və ya müəyyən edilmiş aralıq və ya son enmə məntəqəsi başa düşülür.

Hava qapıları dedikdə hüdudları daxilində hava gəmisinin uçuş marşrutunun keçib getdiyi qabaqcadan nəzərdə tutulmuş və ya müəyyən edilmiş hava koridoru başa düşülür.

Beynəlxalq uçuş qaydalarını **başqa cür pozma** müxtəlif formalarda törədilir. Bunlara Azərbaycan Respublikasına və ya Azərbaycan Respublikasından vaxtı keçmiş icazə ilə uçma; uçuşun icazədə göstərilməyən tipli hava gəmisi ilə icrası; beynəlxalq müqavilə və ya xüsusi icazədə nəzərdə tutulmadığı halda Azərbaycan Respublikasının ərazisinə hava gəmisinin göyərtəsində sərnişin, yük və poçt daşınması; sanksiyalaşdırılmadan (yəni icazədə nəzərdə tutulmadığı halda) yerə yüklərin və paraşütlərin atılması; hava uçuşunun radiorabitəsiz icrası; tanınma nişanlarından istifadə edilməməsi; hava uçuşlarına nəzarət edən orqanın pozuntuya yol vermiş hava gəmisinin yerə enməsinə dair göstərişinə (tələbinə) tabe olmama; uçuşun vaxtını icazəsiz dəyişdirmə və s. aiddir.

Digər qaydalara, məsələn, sərnişin, baqaj, yük və poçt daşınması tarifləri qaydaları haqqında, biletlərin satılması, yük qaimələrinin verilməsi qaydalarına, sərnişinlərə göstərilən xidmətlər və güzəştlər və s. haqqında qaydalara riayət edilməməsi, başqa sözlə, onların pozulması nəzərdən keçirilən cinayət tərkibini yaratmır. Onlar yalnız inzibati məsuliyyətin yaranmasına səbəb olur.

Beynəlxalq uçuş qaydaları məcburiyyət üzündən, yəni məsələn, təbii fəlakət, hava gəmisinin texniki nasazlığının uçuş zamanı ortalığa çıxması, kəskin əlverişsiz meteroloji şəraitin yaranması və hava gəmisinin heyətindən asılı olmayan digər səbəblər üzündən pozulduqda, cinayət məsuliyyəti yaranmır.

10. Şərh olunan cinayət maddi tərkibli olduğundan beynəlxalq uçuş qaydaları pozulduğu andan **başa çatmış** hesab edilir. Müəyyən ictimai təhlükəli nəticələr (hava gəmisinin korlanması, insanların sağlamlığına zərər vurulması və s.) baş verdikdə, əməl cinayətlərin məcmusu (məsələn, CM-in 270 və 262-ci maddələri) qaydasında tövsif edilir.

11. Şərh olunan cinayət əməli **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** formasında törədilir. Təqsirkar beynəlxalq uçuş qaydalarını pozduğunu dərk edir və məhz belə hərəkət etməyi arzu edir.

13. Beynəlxalq uçuş qaydalarının pozulması hava gəmisini qaçırma (CM-in 219-cu maddəsi), qaçaqmalçılıq (CM-in 206-cı maddəsi) və s. bu kimi cinayətlərin törədilməsi ilə müşayiət oluna bilər. Belə olduqda əməl cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

14. Təhlil olunan cinayətin **subyekti** cinayəti törədənədək **16** yaşı tamam olmuş, hava gəmisinin heyətinin beynəlxalq uçuş qaydalarına riayət edilməsinə görə məsuliyyət daşıyan üzvləridir (Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir).

Hava gəmisinin ekipajı uçuş vaxtı hava gəmisinin idarə edilməsi və xidmət göstərilməsi üzrə hava gəmisinin bortunda müəyyən vəzifələri yerinə yetirmək üçün hava gəmisinin müvafiq sahibi və ya istismarçısı tərəfindən təyin olunan şəxslərdən ibarət heyətdir («Aviasiya haqqında» Azərbaycan Respublikasının 24 iyun 2005-ci il tarixli Qanununun 1.0.14-cü maddəsi).

Uçuş zamanı hava gəmisində olan və beynəlxalq uçuş qaydalarını pozan sərnişinlər bu cinayət əməlinə görə məsuliyyətə cəlb edilə bilməz. Müəyyən şərtlər olduqda, onların əməli CM-in 318-ci maddəsi üzrə tövsif oluna bilər.

Hava gəmisinin heyəti beynəlxalq uçuş qaydalarını məcburiyyət altında qalaraq pozduqda, onların cinayət məsuliyyəti istisna olunur.

XXX Fəsil
Kibercinayətlər

Maddə 271. Kompyuter sisteminə qanunsuz daxil olma

271.1. Kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq hüququ olmadan həmin sistemə və ya onun hər hansı bir hissəsinə mühafizə tədbirlərini pozmaqla, yaxud burada saxlanılan kompyuter məlumatlarını ələ keçirmək və ya başqa şəxsi niyyətlə qəsdən daxil olma —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

271.2. Eyni əməllər:

271.2.1. təkrar törədildikdə;

271.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

271.2.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

271.3. Bu Məcəllənin 271.1 və ya 271.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ictimai əhəmiyyətli infrastruktur obyektinin kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə münasibətdə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: 1. Bu Məcəllənin 271-273-2-ci maddələrində «kompyuter sistemi» dedikdə müvafiq proqramlara uyğun olaraq verilənlərin avtomatlaşdırılmış işlənməsini həyata keçirən hər hansı qurğu və ya bir-birinə qoşulmuş və ya əlaqələndirilmiş qurğular qrupu başa düşülür.

2. Bu Məcəllənin 271-273-2-ci maddələrində «kompyuter məlumatları» dedikdə kompyuter sistemində işlənməsi, emal edilməsi üçün yararlı olan istənilən informasiya (faktlar, məlumatlar, proqramlar və anlayışlar) başa düşülür.

3. Bu Məcəllənin 271-273-cü maddələrində «ictimai əhəmiyyətli infrastruktur obyekti» dedikdə dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən xidmətlər göstərən dövlət idarə, müəssisə, təşkilatları, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), kredit təşkilatları, sığorta şirkətləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, investisiya fondları və bu fondların idarəçiləri başa düşülür *(Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmişdir; 7 aprel 2017-ci il tarixli, 563-VQD №-li, 7 aprel 2017-ci il tarixli, 575-VQD nömrəli, 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 18 iyul 2012-ci il; 19 may 2017-ci il; 23 may 2017-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan maddə kompyuter sisteminin, kompyuter informasiyasının cinayət-hüquqi mühafizəsini təmin etməyə yönəldilmişdir. Azərbaycan Respublikasının cinayət qanunvericiliyində «kompyuter informasiyası sahəsində cinayətlər» fəsli ilk dəfə olaraq nəzərdə tutulmuş, sonradan 29 iyun 2012-ci il tarixli qanunla bu fəslin maddələri yeni redaksiyada verilmişdir. CM-in XXX fəslinin normaları «Kibercinayətkarlıq haqqında» Avropa Şurasının 23 noyabr 2001-ci il tarixli Konvensiyasına uyğun olaraq (Azərbaycan Respublikası bu Konvensiyaya 30 sentyabr 2009-cu il tarixli, 874-IIIQ nömrəli Qanunla qoşulmuşdur) Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərin icrasından irəli gələrək cinayət qanununa daxil edilmişdir.

Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, onların törədilməsi nəticəsində kompyuter şəbəkələrinin, elektron məlumatların cinayətlərin törədilməsi üçün istifadə edilməsi və bu növ cinayətlərin baş verməsinə dair sübutların bu şəbəkələrdə saxlanılması və ya şəbəkələr vasitəsilə ötürülməsi təhlükəsi yaranır, kompyuter sistem və şəbəkələrinin, o cümlədən kompyuter verilənlərinin məxfiliyi, bütövlüyü və yararlılığına qarşı yönəlmiş əməllər baş verir, həmçinin bu sistem, şəbəkə və verilənlərdən qeyri-qanuni istifadə mümkün olur, hər kəsin fikir və mülahizələrinin maneəsiz ifadə etmək hüququna qəsd olunur.

2. Şərh edilən cinayət əməlinin **obyekti** kompyuter sisteminin, kompyuter məlumatlarının mühafizəsi sahəsində yaranan ictimai münasibətlərdir. Bu cinayətin **predmeti** kompyuter məlumatlarıdır.

3. Araşdırılan cinayətin **obyektiv cəhəti** kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq hüququ olmadan həmin sistemə və ya onun hər hansı bir hissəsinə mühafizə tədbirlərini pozmaqla, yaxud burada saxlanılan kompyuter məlumatlarını ələ keçirmək və ya başqa şəxsi niyyətlə daxil olmada ifadə olunur.

4. CM-in 271-ci maddəsinin qeydinin 2-ci, «Kibercinayətkarlıq haqqında» Konvensiyanın 1-ci maddəsinin «b» bəndinə görə **kompyuter məlumatları** dedikdə kompyuter sistemində işlənməsi, emal edilməsi üçün yararlı olan istənilən informasiya (faktlar, məlumatlar, proqramlar və anlayışlar) başa düşülür.

Təhlil olunan cinayət hüquq normasında istifadə edilən anlayışlar Azərbaycan Respublikasının «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» 3 aprel 1998-ci il tarixli Qanununda nəzərdə tutulur. Həmin Qanunun 2-ci maddəsinə görə **informasiya** dedikdə yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar başa düşülür.

Kompyuter informasiyasının predmeti informasiya ehtiyatlarıdır. **İnformasiya ehtiyatları** dedikdə informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri başa düşülür («İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Qanunun 2-ci maddəsi).

Kompyuter informasiyasının xüsusiyyəti onun nisbətən asan göndərilməsinin, yenidən yaradılmasının, artırılmasının mümkünlüyündə ifadə olunur.

Kompyuter dedikdə simvollu (işarəli) və obrazlı informasiya üzərində əməliyyatlar aparmağa imkan verən aparat-texniki vasitələrin və proqramlaşdırma vasitələrinin məcmusu başa düşülür. «EHM» anlayışı «kompyuter» termini ilə eyni mənada işlənir.

CM-in 271-ci maddəsinin qeydinin 1-ci, «Kibercinayətkarlıq haqqında» Konvensiyanın 1-ci maddəsinin «a» bəndinə görə **kompyuter sistemi** dedikdə müvafiq proqramlara uyğun olaraq verilənlərin avtomatik işlənməsini həyata keçirən hər hansı qurğu və ya bir-birinə qoşulmuş və ya əlaqələndirilmiş qurğular qrupu başa düşülür. Kompyuter sistemi verilənlərin işlənməsi üçün nəzərdə tutulan aparat vasitələrinin və proqram təminatının toplusudur. Proqramları, daxili və xarici qurğuları ilə birlikdə fərdi kompyuter bir-birinə qoşulmuş bir neçə kompyuterdən ibarət lokal şəbəkəyə və İnternetə qoşula bilər.

Kompyuter sisteminin bir hissəsi dedikdə şəbəkədə olmayan kompyuterin yaddaş qurğusu, şəbəkədə olan kompyuterlərdən hər hansı biri, onun kompakt-disklərin yazılması üçün nəzərdə tutulan qurğusu və s. başa düşülür.

Kompyuter şəbəkəsi dedikdə öz aralarında rabitə kanalı ilə birləşdirilmiş və bu rabitəni həyata keçirməyə imkan verən iki və ya daha çox kompyuterin məcmusu başa düşülür.

5. Əməldə CM-in 271-ci maddəsinin tərkibinin olması üçün kompyuter informasiyası işlənmə, emal edilmə üçün yararlı olmalıdır. İnformasiyanın yararlı olması ondan istifadənin mümkünlüyü dərəcəsindən asılıdır. Kompyuter sistemində olan informasiyanın bütövlükdə yararlı olması tələb olunmur: kifayətdir ki, ələ keçirilən informasiya onu ələ keçirən şəxsə lazım olan səviyyədə yararlı olsun. Məsələn, belə informasiyadan istifadə etməklə informasiya sahibinə zərər vurula bilsin, ictimai təhlükəsizliyə və ictimai qaydaya təhlükə yaransın və s.

6. Şərh edilən cinayətlə əlaqədar başlanılan cinayət işi üzrə daxil olmanın həyata keçirildiyi kompyuter informasiyasının dövlət sirri, mülkiyyət, müəlliflik hüququ və s. haqqında qanunvericiliklə qorunması, belə informasiyaya qanunsuz və icazəsiz daxil olma nəticəsində dövlətin, mülkiyyətçinin, informasiyanın sahibinin, müəllifinin və ya digər hüquqi, yaxud fiziki şəxsin hüquqlarının pozulması müəyyən edilməlidir. İnsanın şəxsi həyatı, kommersiya və məlumat sirri də qanunun mühafizəsi altındadır.

«İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Qanunun 6-cı maddəsinə görə fiziki və hüquqi şəxslər onların vəsaitləri hesabına yaradılmış, qanuni yolla əldə edilmiş, yaxud bağışlama, vərəsəlik qaydasında toplanmış informasiya ehtiyatlarının, informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin mülkiyyətçisidir. Bunlara mülki qanunvericiliyin qüvvəsi şamil olunur. MM-in 165-ci maddəsinə görə «sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər. Pozuntuların davam edəcəyindən ehtiyat olunduqda sahib onlara son qoyulması üçün iddia verə bilər». Mülkiyyətçinin hüquqlarının məhz bu növ pozuntuları, bir qayda olaraq, kompyuter informasiyası sahəsində olan cinayətlər üçün səciyyəvidir.

Kompyuter proqramları, məlumatlar bazası şəklində olan kompyuter informasiyası müəlliflik hüququnun predmetidir.

7. Kompyuter məlumatları kompyuter sistemində və ya onun hər hansı bir hissəsində saxlanılır. Kompyuter məlumatlarının olduğu texnoloji vasitələrə müxtəlif növ maqnit diskləri, lentləri, perfokartlar, maqnit-optik disklər (CD, DVD, VCD və s.), maqnit barabanlar, yarımkeçirici sxemlər və s. aid edilir və bunlar fiziki və konstruktiv xüsusiyyətlərinə görə müxtəlif növlərə bölünür. Yumşaq disklər (disketlər), bərk disklər və kompakt-disklər sənədləri və proqramları bir kompyuterdən digərinə keçirməyə, kompyuterdə daima istifadə olunmayan informasiyanı saxlamağa, onların surətlərini çıxarmağa imkan verir.

Kompyuter məlumatları kompyuterin yaddaşında da saxlanıla bilər. Buradan o, yaddaş qurğuları kimi istifadə olunan və yuxarıda nəzərdən keçirdiyimiz məlumat daşıyıcıları (texnoloji vasitələr) vasitəsilə realizə olunur. Yaddaş qurğuları kənardan sərbəst şəkildə quraşdırılır (məsələn, disket kimi) və ya kompyuterin konstruksiyasına daxil edilən daxili yaddaş qurğusu şəklində olur. Kompyuterin daxili yaddaş qurğusu bilavasitə prosessorlarla əlaqəli olur və onun əməliyyatlarında iştirak edən məlumatları özündə saxlayır.

Kompyuter sistemində və ya şəbəkələrində olan informasiyaya qanuni istifadəçilər, yəni kompyuter sistemlərindən istifadə etməyə icazəsi olan şəxslər daxil ola bilər. Belə icazə, məsələn, məlumat bazasının administratoru tərəfindən verilə bilər.

8. **Buna hüququ olmadan kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə (qanunsuz) daxil olma** dedikdə qanuni istifadəçi olmayan, yaxud qanunvericiliklə belə hüququ qadağan edilən və ya müvafiq icazəsi olmayan şəxsin mülkiyyətçinin, yaxud digər səlahiyyətli şəxsin razılığı olmadan daxil olması başa düşülür.

Buna hüququ olmadan kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə (qanunsuz) daxil olma **mühafizə tədbirlərini** pozmaqla (cinayətin törədilmə üsulu) törədildikdə CM-in 271-ci maddəsi ilə məsuliyyətə səbəb olur. Mühafizə tədbirlərini pozmaqla daxil olma özgənin adından, yaxud şərti parolundan, texniki qurğuların köməyindən istifadə etməklə, müdafiə sistemində zəif yerlərin tapılması və «sındırılması» və s. bu kimi yollarla daxil olmanı nəzərdə tutur.

Konkret mühafizə tədbirlərinə ümumi mühafizə vasitələri (siqnalizasiya, giriş-çıxışın qeydiyyatı, mühafizə dəstəsi və s.), proqram mühafizə vasitələri (sistemə girişin fərdi kodunun müəyyən edilməsi, kənar şəxs sistemə daxil olmağa cəhd etdikdə proqramın öz işini dərhal dayandırması və s.) aid edilə bilər.

Kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olaraq onun normal işləməsini imitasiya edən və eyni zamanda istifadəçidən gizli şəkildə cinayət törədən şəxsi maraqlandıran (konfidensial və s.) informasiyanı toplayan «troya atı» tipli proqramların köməyilə istifadəçilərin informasiyasına giriş əldə etmə qanunsuz olaraq daxil olma cinayət əməlinə əyani misaldır.

Daxil olma kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə sərbəst manevr etməyə imkan verən giriş əldə etməni nəzərdə tutur.

«İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Qanunun 18-ci maddəsinə görə barəsində qanunsuz əməliyyatlar və davranış nəticəsində mülkiyyətçiyə, sahibkara, istifadəçiyə və ya başqa şəxslərə ziyan vurula bilən hər hansı sənədləşdirilmiş informasiya mühafizə olunur. İnformasiyanın mühafizə rejimi, onun məxfilik dərəcəsi və daxilolma növündən asılı olaraq «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə, adı çəkilən Qanunla, digər normativ-hüquqi aktlarla, habelə mülkiyyətçi tərəfindən müəyyən edilir.

Kompyuter informasiyasının mühafizəsinin proqram vasitələri informasiyanın mülkiyyətçisi tərəfindən, yaxud onun sifarişi üzrə fərdi şəkildə yaradıla bilər. Çox zaman kompyuterin proqram təminatına daxil olan mühafizənin nümunəvi (standart) vasitələri tətbiq olunur. «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Qanununun 16-cı maddəsinə əsasən vətəndaşların və təşkilatların informasiya təminatı üçün nəzərdə tutulan informasiya sistemləri, verilənlər bazası və verilənlər bankı, konfidensial informasiyanın işlənməsini həyata keçirən dövlət orqanları, idarə, müəssisə və təşkilatların informasiya sistemləri, habelə bu sistemlərin mühafizə vasitələri müəyyənləşdirilmiş qaydada sertifikatlaşdırılmalıdır. İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət lisenziya əsasında həyata keçirilir («Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli Qanununa 2 nömrəli əlavə).

Kompyuter informasiyasına qanunsuz daxil olma çox zaman onun intellektual mühafizə vasitələrinin neytrallaşdırılması ilə müşayiət olunur. Belə hərəkətlər CM-in 271-ci maddəsində nəzərdə tutulan cinayət tərkibini yaradır.

9. Kompyuter sistemində və ya onun hər hansı bir hissəsində saxlanılan kompyuter məlumatlarını ələ keçirmək niyyətilə daxil olma əməli belə məlu-

matların şəxsi, ictimai və dövlət əhəmiyyəti daşıyıb-daşımamasından, daxil olma nəticəsində məlumatların ələ keçirilməsinin mümkün olub-olmamasından, məlumatların tam və ya qismən ələ keçirilməsindən asılı olmayaraq CM-in 271-ci maddəsi ilə məsuliyyətə səbəb olur.

10. Kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə **başqa şəxsi niyyətlə** daxil olma sistemdə (onun hər hansı bir hissəsində) saxlanılan (özü və ya başqası haqqında, o cümlədən hər hansı digər) məlumatları məhv etmə, sistemin işini dayandırma, zərərverici proqramları sistemə daxil etmə, iqtisadi sahədə fəaliyyət göstərən rəqibin fəaliyyətini iflic etmə və s. motivlə törədilə bilər. Kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olan şəxsin əməli onun öz niyyətinə nail olub-olmamasından aslı olmayaraq CM-in 271-ci maddəsi ilə başa çatmış cinayətin tərkibini yaradır. Kompyuter məlumatlarını ələ keçirmək və ya başqa şəxsi niyyətlə kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olmanın üsulları müxtəlif ola bilər. Mühafizə tədbirlərini pozma CM-in 271.1-ci maddəsinin dispozisiyasında cinayətin törədilməsinin (daxil olmanın) müstəqil üsulu kimi nəzərdə tutulduğuna görə şəxsin əməli bu əlamət üzrə tövsif edilməlidir, digər bütün üsullar isə (məsələn, xüsusi kompyuter proqramlarından istifadə etməklə sistemə daxil olma) əməlin tövsifinə təsir göstərmir. Lakin nəzərə almaq lazımdır ki, hər bir halda sistemə (onun hər hansı bir hissəsinə) daxil olan şəxsin belə hüququ olmamalıdır.

11. CM-in 271.1-ci maddəsində təsbit olunan cinayət subyektiv cəhətdən **birbaşa qəsdlə** törədilir. Kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olan şəxs daxil olmağa hüququnun olmadığını, mühafizə tədbirlərini pozmaqla daxil olduğunu qabaqcadan görüb dərk edir və daxil olmağı arzu edir. **Motiv** (məlumatları ələ keçirmək niyyəti və ya başqa şəxsi niyyət) cinayət tərkibinin zəruri əlamətidir. Mühafizə tədbirlərini pozmamaqla məlumatları ələ keçirmək niyyətilə, habelə başqa şəxsi niyyətlə kompyuter sisteminə daxil olma əməli də CM-in 271.1-ci maddəsinin tərkibi yaradır.

12. Şərh olunan cinayətin **subyekti** kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq hüququ olmayan şəxs ola bilər. Kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq hüququna qanuni əsaslar üzrə peşə fəaliyyəti kompyuter sisteminin və ya şəbəkəsinin normal işinin təmin edilməsi ilə daimi və ya müvəqqəti olaraq bağlı olan şəxslər malik ola bilərlər. Belə şəxslərə proqramçılar, kompyuterin yaddaşına informasiya daxil edən əməkdaşlar, avadanlığı sazlayanlar, verilənlər bazasının administratoru, mühəndis-elektriklər, təmirçilər, hesablama texnikasının istismarı üzrə mütəxəssislər və s. istifadəçilər aid edilir. Kompyuter informasiyası və ya avadanlığın qurğuları ilə bilavasitə təmasda olmayan, lakin kompyuterlərin, onların sistemlərinin və ya şəbəkələrinin olduğu yerlərə (otaqlara və s.) daxilolma hüququ olan, lakin kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq hüququna malik olmayan şəxslər (məsələn, xadimələr) CM-in 271-ci maddəsində nəzərdə tutulan cinayətin subyekti ola bilərlər.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu

maddələrinin şərhinə bax).

13. Kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) qanunsuz (mühafizə tədbirlərini pozmaqla, saxlanılan məlumatları ələ keçirmək və ya başqa şəxsi niyyətlə) daxil olma törədildikdə CM-in 271.2.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkibi yaranır. Təkrarlıq bu cinayətin əvvəllər kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olmaq hüququ olmayan şəxs tərəfindən törədilməsi, cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin keçməməsi, şəxsin məhkum olunmaması hallarında yenidən həmin cinayətin törədildiyi təqdirdə yaranır. Əvvəllər törədilmiş cinayətin başa çatıb-çatmamasından aslı olmayaraq, sonuncu cinayət başa çatdıqda şəxsin əməlində başa çatmış təkrar cinayətin, başa çatmadıqda isə başa çatmamış (cinayətə hazırlıq və ya cəhd) təkrar cinayətin tərkibi olacaqdır. Cinayətin əvvəllər iştirakçılıqla törədilib-törədilməməsindən aslı olmayaraq sonuncu cinayət təkrar törədilmiş cinayət sayılır (əlavə olaraq CM-in 16-cı maddəsinin şərhinə bax).

14. Kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) qanunsuz daxil olma bu barədə öncədən razılığa gəlmiş iki və ya daha çox şəxs tərəfindən törədildikdə, bu əməl şərh olunan cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi əlaməti üzrə tövsif edilməlidir.

Qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olma tərkibinin yaranması üçün cinayətin ən azı iki icraçısı (16 yaşına çatmış anlaqlı şəxs) olmalıdır. Məsələn, qabaqcadan razılaşmaqla onlardan biri kompyuter şəbəkəsinin mühafizə sistemini sıradan çıxarır, digəri isə sistemə daxil olaraq məlumatları ələ keçirir.

15. **Vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə** kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) qanunsuz daxil olma dedikdə vəzifəli şəxs statusuna malik olan şəxsin təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirmək səlahiyyətindən istifadə edərək, yaxud xidməti vəzifəsi üzrə nüfuzundan istifadə etməklə kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olma səlahiyyətinə malik olan şəxslərə təsir göstərməklə kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olması başa düşülür. Vəzifəli şəxsin anlayışı CM-in 308-ci maddəsinin qeydində verilmişdir.

16. CM-in 271.3-cü maddəində bu cinayətin **xüsusilə ağırlaşdırıcı tərkibi** nəzərdə tutulmuşdur: mühafizə tələblərini pozmaqla, yaxud kompyuter məlumatlarını ələ keçirmək və ya başqa şəxsi niyyətlə ictimai əhəmiyyətli infrastruktur obyektinin kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) daxil olma. İctimai əhəmiyyətli infrastruktur obyektinin kompyuter sisteminə (onun hər hansı bir hissəsinə) təkrar, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən, yaxud vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə daxil olma da xüsusilə ağırlaşdırıcı hallar kimi CM-in 271.3-cü maddəsilə tövsif edilməlidir.

Şərh olunan maddənin qeydinin 3-cü bəndinə görə **ictimai əhəmiyyətli infrastruktur obyekti** dedikdə dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən xidmətlər göstərən dövlət idarə, müəssisə, təşkilatları, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), kredit təşkilatları, sığorta şirkətləri,

qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, investisiya fondları və bu fondların idarəçiləri başa düşülür. Qanunverici bu siyahını qəti müəyyən etmişdir, ona görə də həmin siyahı genişləndirilə bilməz.

Qabaqcadan əlbir olan iki şəxsdən birinin sonradan cinayət məsuliyyətindən azad edilməsi üçün əsasın ortaya çıxması ikincinin əməlinin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət kimi tövsif edilməməsinə səbəb ola bilməz.

Maddə 272. Kompyuter məlumatlarını qanunsuz ələ keçirmə

272.1. Kompyuter sisteminə, kompyuter sistemindən və ya bu sistem daxilində ötürülən ümumi istifadə üçün nəzərdə tutulmayan kompyuter məlumatlarının, o cümlədən bu cür kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının, buna hüququ olmayan şəxs tərəfindən texniki vasitələrdən istifadə etməklə qəsdən ələ keçirilməsi —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

272.2. Eyni əməllər:

272.2.1. təkrar törədildikdə;

272.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

272.2.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

272.3. Bu Məcəllənin 272.1 və ya 272.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ictimai əhəmiyyətli infrastruktur obyektinin kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə münasibətdə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmişdir; 31 may 2017-ci il tarixli Qanunla düzəliş edilmişdir — «Azərbaycan» q., 18 iyul 2012-ci il; 19 iyul 2017-ci il).*

1. CM-in 272-ci maddəsi «Kibercinayətkarlıq haqqında» Avropa Şurasının 23 noyabr 2001-ci il tarixli Konvensiyasına uyğun olaraq (Azərbaycan Respublikası bu Konvensiyaya 30 sentyabr 2009-cu il tarixli, 874-IIIQ nömrəli Qanunla qoşulmuşdur) Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərin icrasından irəli gələrək cinayət qanununa daxil edilmişdir. Konvensiyanın 3-cü maddəsi ilə müəyyən edilir ki, hər bir iştirakçı dövlət şərh olunan əməlin cinayət qismində tanınması üçün zəruri qanunvericilik tədbirləri görməlidir.

2. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, buna hüququ olmayan şəxs tərəfindən kompyuter sistemində dövriyyədə olan müxtəlif məlumatların (dövlət sirrini, şəxsi və ailə həyatının sirrini təşkil edən məlumatların) ələ keçirilməsi və sonradan yayılması dövlət orqanlarının fəaliyyətini iflic edir, dövlət-cəmiyyət-şəxsiyyət münasibətlərində tarazlığın pozulmasına, ictimai və dövlət həyatında gərginliklərin yaranmasına nədən olur.

3. CM-in 272-ci maddəsində nəzərdə tutulan cinayətin **xüsusi obyektini** kompyuter sistemində dövriyyədə olan müxtəlif məlumatların, belə məlumatların daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının mühafizəsini təmin edən ictimai münasibətlər təşkil edir. **Əlavə obyekt** qismində mülkiyyət (əmlak) münasibətləri, insanların Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları, dövlət orqanlarının normal fəaliyyətini tənzim edən münasibətlər və s. çıxış edir.

Şərh olunan cinayətin **predmetini** kompyuter məlumatları və bu məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanması təşkil edir.

4. Təhlil edilən cinayət **obyektiv cəhətdən** kompyuter sisteminə, kompyuter sistemindən və ya bu sistem daxilində ötürülən ümumi istifadə üçün nəzərdə tutulmayan kompyuter məlumatlarının, o cümlədən bu cür kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının buna hüququ olmayan şəxs tərəfindən texniki vasitələrdən istifadə etməklə ələ keçirilməsində ifadə olunur.

5. Kompyuter sistemi və kompyuter məlumatlarının anlayışı haqqında CM-in 271-ci maddəsinin şərhinə bax.

6. **Ümumi istifadə üçün nəzərdə tutulmayan kompyuter məlumatları** dedikdə qanunvericiliklə yalnız müəyyən dairədən olan şəxslərin tanış olmasına icazə verilən və başqa şəxslərin tanış olmasına qadağa qoyulan məlumatlar (dövlət sirrini təşkil edən məlumatlar və s.), şəxsi və ailə sirrini təşkil edən məlumatlar, kommersiya və ya bank sirrinin ifadə olunduğu məlumatlar və s. başa düşülür. Ümumi istifadə üçün qadağa və ya məhdudiyyət müəyyən edilməyən kompyuter məlumatlarının qəsdən ələ keçirilməsi müvafiq tərkib əlamətləri olduqda CM-in 271-ci maddəsi ilə məsuliyyətə səbəb ola bilər.

Kompyuter məlumatları heç də bütün hallarda birbaşa sistemə qoşulmaqla ələ keçirilmir. Məlumatlar rabitə kanallarından ələ keçirilə bildiyi kimi, kompyuter sisteminin yerləşdiyi otaqda, binada, hətta müəyyən məsafə uzaqlıqdan da ələ keçirilə bilər. Bütün elektron qurğularının işi həmişə elektromaqnit şüalanması ilə müşayiət olunur. Elektron-şüa borusu özündə müəyyən məlumatı daşıyan elektromaqnit dalğalarını ətrafa şüalandırır. Belə dalğalar televiziya verilişlərində olduğu kimi fiziki maneələri (divarları, pəncərələri və s.) keçərək yayılır və belə dalğaları min metrə qədər məsafədən tutmaq (qəbul etmək) mümkündür. Həmin siqnallar müvafiq cihaz (qurğu) vasitəsilə tutulduqdan və başqa kompyuterə ötürüldükdən sonra məlumatın ilkin mənbəyi olan kompyuterdən alınan təsvir olduğu kimi məlumatın ötürüldüyü kompyuterdə əks olunur (məsafədən məlumatın ələ keçirilməsi). Ona görə də kompyuter sisteminə qoşulmadan kompyuter sisteminin işləməsi zamanı yaranan elektromaqnit şüa-

lanmasını məlumat daşıyıcısı olan qurğuya, vasitəyə köçürmək, qeydə almaq olar. Qeyd olunan halda şəxsin əməli CM-in 272.1-ci maddəsi ilə – «kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının» ələ keçirilməsi əlaməti üzrə tövsif edilməlidir.

Kompyuter məlumatlarının, kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının ələ keçirilməsi üçün istifadə olunan texniki vasitələrə skan qurğuları, MSR (Multi Signal Registrator) tipli siqnalların rəqəmsal qeydiyyatını aparan, siqnalların emalını həyata keçirən daxili qurğusu olan çoxfunksiyalı fərdi kompyuter və s. aid edilə bilər.

7. Şərh olunan cinayət **formal** tərkiblidir və kompyuter məlumatlarının, kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının ələ keçirildiyi andan başa çatmış sayılır. Ələ keçirilən məlumatların yayılması və yayılma nəticəsində cinayət qanunu ilə qorunan ictimai münasibətlərə zərər yetirilməsi başqa cinayətlərin, məsələn, şəxsi həyatın toxunulmazlığını pozmanın (CM-in 157-ci maddəsi) tərkibini də yaradarsa, şəxsin əməli cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir. Kompyuter məlumatlarının, kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasının ələ keçirilməsi yolu ilə başqa cinayətin törədilməsini nəzərdə tutan şəxsin əməli müvafiq şərtlər daxilində həmin cinayətə ya hazırlıq, ya da cəhd kimi tövsif edilməlidir.

8. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** forması ilə törədilir. Şəxs ümumi istifadə üçün nəzərdə tutulmayan kompyuter məlumatlarının, o cümlədən bu cür kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sis-temlərinin elektromaqnit şüalanmasının, buna hüququ olmadan texniki vasitələrdən istifadə etməklə ələ keçirdiyinin ictimai təhlükəliliyini dərk edir və onların ələ keçirilməsini arzu edir.

9. Şərh olunan cinayətin **subyekti** cinayət əməlini törədənədək **16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Bu cinayətin subyekti **xüsusidir,** yəni kompyuter məlumatlarını, kompyuter məlumatlarının daşıyıcısı olan kompyuter sistemlərinin elektromaqnit şüalanmasını əldə etməyə hüququ olmayan şəxsdir. Qanuni əsaslar üzrə peşə fəaliyyəti kompyuter sisteminin və ya şəbəkəsinin normal işinin təmin edilməsi ilə daimi və ya müvəqqəti olaraq bağlı olan şəxslərin - proqramçıların, kompyuterin yaddaşına məlumat daxil edən əməkdaşların, avadanlığı sazlayanların, mühəndis-elektriklərin, təmirçilərin, kompyuter texnikasının istismarı üzrə mütəxəssislərin belə hüququ ola bilər.

CM-in 271.2.3-cü maddəsində nəzərdə tutulan ağırlaşdırıcı tərkib əlaməti üzrə cinayətin subyekti **vəzifəli şəxsdir.**

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

10. CM-in 272.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı halları** göstərilmişdir. Eyni əməllərin: 1) təkrar törədilməsi; 2) qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilməsi; 3) vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi.

Həmin halların izahı haqqında CM-in 271-ci maddəsinin şərhinə bax.

11. **Kompyuter məlumatlarını qanunsuz ələ keçirmə cinayətinin** ağırlaşdırıcı halı kimi əməllərin ictimai əhəmiyyətli infrastruktur obyektinin kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə münasibətdə törədilməsi CM-in 272.3-cü maddəsində əks olunmuşdur. CM-in 271-ci maddəsinin şərhinin 16-cı bəndinə bax.

Maddə 273. Kompyuter sisteminə və ya kompyuter məlumatlarına qanunsuz müdaxilə

273.1. Kompyuter məlumatlarının qəsdən zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanması buna hüququ olmayan şəxs tərəfindən törədilməklə əhəmiyyətli zərər vurulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

273.2. Kompyuter məlumatlarının daxil edilməsi, ötürülməsi, zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanması yolu ilə kompyuter sisteminin işləməsinə buna hüququ olmayan şəxs tərəfindən qəsdən ciddi maneə törədilməsi —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

273.3. Bu Məcəllənin 273.1 və ya 273.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

273.3.1. təkrar törədildikdə;

273.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

273.3.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

273.4. Bu Məcəllənin 273.1-273.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ictimai əhəmiyyətli infrastruktur obyektlərinin kompyuter sisteminə və ya onun hər hansı bir hissəsinə münasibətdə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu fəslin maddələrində «əhəmiyyətli zərər» dedikdə ictimai təhlükəli əməl nəticəsində min manatdan artıq olan məbləğdə ziyan vurulması və ya dövlətin, cəmiyyətin və ya ayrı-ayrı şəxslərin qanunla qorunan ma-

raqlarına digər mühüm zərərin vurulması başa düşülür.

2. Bu Məcəllənin 273.2-ci maddəsində «kompyuter sisteminin işləməsinə ciddi maneə törədilməsi» kompyuter sisteminin normal fəaliyyətinin elə bir pozulmasıdır ki, kompyuter sisteminin sahibinin və ya istifadəçisinin bu sistemdən istifadə etmək və ya digər kompyuter sistemləri ilə məlumatları mübadilə etmək imkanını mühüm dərəcədə məhdudlaşdırsın *(Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmişdir; 31 may 2017-ci il tarixli Qanunla düzəliş edilmişdir — «Azərbaycan» q., 18 iyul 2012-ci il; 19 iyul 2017-ci il).*

1. CM-in 273-cü maddəsi «Kibercinayətkarlıq haqqında» Avropa Şurasının 23 noyabr 2001-ci il tarixli Konvensiyasına uyğun olaraq (Azərbaycan Respublikası bu Konvensiyaya 30 sentyabr 2009-cu il tarixli, 874-IIIQ nömrəli Qanunla qoşulmuşdur) Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərin icrasından irəli gələrək cinayət qanununa daxil edilmişdir. Konvensiyanın 4-cü və 5-ci maddələri ilə müəyyən edilir ki, hər bir iştirakçı dövlət şərh olunan əməlin cinayət qismində tanınması üçün zəruri qanunvericilik tədbirləri görməlidir.

2. CM-in 273.1-ci və 273.2-ci maddələrində nəzərdə tutulmuş cinayət tərkibləri müstəqil tərkiblərdir.

3. Bu cinayətlərin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, kompyuter məlumatlarının məhvi, zədələnməsi və başqa qanunsuz əməllər nəticəsində bütöv bir dövlət orqanının, ayrı-ayrı təşkilatların və insanların fəaliyyətində dayanmalar, gərginlik yaranır, maddi ziyan vurulur.

4. CM-in 273-cü maddəsində təsbit olunan cinayətlərin obyekti kompyuter məlumatlarının mühafizə edilməsini təmin edən ictimai münasibətlər təşkil edir. **Əlavə obyekt** qismində mülkiyyət (əmlak) münasibətləri çıxış edir.

Şərh olunan maddədə nəzərdə tutulan cinayətin **predmeti** kompyuter məlumatlarıdır (CM-in 271-ci maddəsinin şərhinə bax).

5. CM-in 273.1-ci maddəsində əks olunan cinayət **obyektiv cəhətdən** kompyuter məlumatlarının zədələnməsinin, silinməsinin, korlanmasının, dəyişdirilməsinin və ya bloklanmasının əhəmiyyətli zərər vurulmasına səbəb olmasında ifadə olunur.

Kompyuter məlumatlarının zədələnməsi dedikdə kompyuter sistemində işlənməsi, emal edilməsi üçün yararlı olan informasiyanın (faktların, məlumatların, proqramların və anlayışların) qismən yararsız vəziyyətə düşməsi, məlumatın bir hissəsinin sıradan çıxması, məlumatın tamlığının pozulması və s. başa düşülməlidir. Zədələmənin üsullarının əməlin tövsifinə təsiri yoxdur. Zədələmə istənilən üsulla (virus vasitəsilə və s.) həyata keçirilə bilər.

Kompyuter məlumatlarının silinməsi dedikdə kompyuter sistemində işlənməsi üçün yararlı olan informasiyanın sistemdən, proqramdan, fayldan, kompyuterin yaddaşından silinməsi, çıxarılması başa düşülməlidir. Məlumatın silinməsi informasiyanın kompyuter sistemində, şəbəkəsində hər hansı surətini saxlamadan silinməsini nəzərdə tutur. Kompüter məlumatlarının silinməsi onun kompyuterin yaddaşından sonradan texniki cəhətdən bərpası mümkün olmayan şəkildə silinməsidir. Məlumatların eyni vaxtda digər maşın daşıyıcısına köçürülməsi bu hərəkətlər nəticəsində qanuni istifadəçilərin informasiyaya daxil olma imkanı əhəmiyyətli dərəcədə çətinləşməmiş, yaxud istisna edilməmişdirsə, CM-in 272-ci maddəsində nəzərdə tutulan mənada kompüter informasiyasının silinməsi kimi qiymətləndirilmir. Burada nəzərə almaq lazımdır ki, istifadəçinin proqram təminatı vasitələrinin köməyi ilə məhv edilmiş informasiyanı bərpa etmək və ya bu informasiyanı başqa istifadəçidən almaq imkanının olması cinayət törətmiş şəxsi məsuliyyətdən azad etmir.

Kompyuter məlumatlarının korlanması belə məlumatları onlardan tamamilə istifadəni istisna edən yararsız vəziyyətə salmanı nəzərdə tutur. Məlumatın korlanması onun silinməsi demək deyildir. Məlumat korlandıqda özü kompyuter sistemində qalır, lakin ondan istifadə etmək qeyri-mümkün olur.

Kompyuter məlumatlarının dəyişdirilməsi dedikdə maddi daşıyıcıda (kompyuter sistemində, şəbəkəsində, yaddaş qurğusunda və s.) olan informasiyaya, verilənlər bazasına, proqramlara istənilən dəyişikliyin edilməsi başa düşülür. Kompyuter sistemi üçün proqramın və ya verilənlər bazasının istifadəçinin konkret texniki vasitələri əsasında və ya istifadəçinin konkret proqramlarının idarəsi altında fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə edilən dəyişikliklər, o cümlədən buna hüququ olan şəxs tərəfindən edilən dəyişikliklərə görə cinayət məsuliyyəti istisna olunur.

Kompyuter məlumatlarının bloklanması kompyuter sisteminə və onun informasiya ehtiyatlarına girişinin məhdudlaşdırılmasına və ya bağlanmasına gətirib çıxaran, istifadəçilərin informasiyaya daxil olmasını belə informasiyanın məhv edilməsi ilə nəticələnməyən şəkildə süni surətdə çətinləşdirən hərəkətlərin edilməsini nəzərdə tutur.

6. Şərh olunan cinayət **maddi** tərkiblidir. Cinayət CM-in 273.1-ci maddəsinin dispozisiyasında sadalanan əməllərin törədilməsi nəticəsində əhəmiyyətli zərərin vurulmasına səbəb olduqda **başa çatmış** sayılır. Şərh olunan maddənin qeydinin 1-ci bəndinə görə **əhəmiyyətli zərər** dedikdə iki formada zərər başa düşülür: 1) ictimai təhlükəli əməl nəticəsində min manatdan artıq olan məbləğdə maddi ziyan vurulması; 2) dövlətin, cəmiyyətin və ayrı-ayrı şəxslərin qanunla qorunan maraqla-rına digər mühüm zərər vurulması.

Birinci halda ziyan məlumat sahibinə vurulur. Ziyanın məbləği heablanarkən məlumatın onun sahibi üçün faydalılığı dərəcəsi, başqa hüquqi və ya fiziki şəxslərlə məlumat mübadiləsində məruz qaldığı itkinin dəyəri, əldən çıxmış faydanın məbləği və s. hallar nəzərə alınmalıdır. İkinci halda hər hansı zərərdən deyil, dövlətin, cəmiyyətin, ayrı-ayrı şəxslərin maraqlarına vurulmuş mühüm zərərdən söhbət gedir. Kompyuterdə olan dövlət sirri təşkil edən məlumatların məhvi, zədələnməsi, bloklanması dövlətin daxili və xarici siyasətində gərginliyə səbəb olduqda, əhalinin əmək haqlarının verilməsində ləngimələrin yaranmasına və bunun nəticəsində sosial etirazlara, terrorçuluq əməllərinin baş verməsi təhlükəsinin reallaşmasına və s. gətirib çıxardıqda, bu, mühüm zərər kimi qiymətləndirilə bilər.

7. CM-in 273.1-ci maddəsinin dispozisiyasında və qeydinin 1-ci bəndində işlədilən «əhəmiyyətli zərər» və «mühüm zərər» anlayışları qiymətləndirilən anlayışlardır. Məhkəmə işin hallarını, kompyuter məlumatının dəyərini, zərərin

ağırlığını, dövlətin, cəmiyyətin və insanların maraqlarını nə dərəcədə sarsıtdığını, cəmiyyətdə yaranan gərginliyin səviyyəsini və s. nəzərə alaraq həmin anlayışlara uyğun olub-olmamasını qiymətləndirir.

CM-in 273.1-ci maddəsində təsbit olunan cinayət **maddi** tərkiblidir. Bu cinayət kompyuter məlumatlarının zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanmasında ifadə olunan əməllər nəticəsində əhəmiyyətli zərərin baş verdiyi andan **başa çatmış** sayılır.

8. Şərh olunan cinayət **subyektiv cəhətdən** təqsirin **qəsd** forması ilə törədilir. Cinayət törədən şəxsin öz hərəkətlərinə psixi münasibəti təqsirin **birbaşa qəsd** formasında, əhəmiyyətli zərərdə ifadə olunan ictimai təhlükəli nəticələrin baş verməsi faktına münasibətdə isə **birbaşa** və ya **dolayı qəsd** mövcud olur.

9. CM-in 273.1-ci maddəsində təsbit edilən cinayətin **subyekti 16** yaşına çatmış və kompyuter məlumatları ilə işləməyə hüququ olmayan, habelə belə hüququ olsa da, məlumatları silmək, dəyişdirmək və s. hüquqlara malik olmayan anlaqlı fiziki şəxs ola bilər. Əlavə olaraq CM-in 271-ci maddəsinin şərhinin 8-ci bəndinə bax.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətlərin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

10. CM-in 273.2-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** kompyuter məlumatlarının daxil edilməsi, ötürülməsi, zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və bloklanması yolu ilə kompyuter sisteminin işləməsinə ciddi maneə törədilməsində ifadə olunur.

Kompyuter məlumatlarının kompyuter sisteminə daxil edilməsi dedikdə müəyyən proqramların, parolların, giriş kodlarının kompyuter sisteminə yazılması, başa düşülür. Məlumatların kompyuter sisteminə daxil edilməsi üsullarının əməlin tövsifinə təsiri yoxdur. Məlumat birbaşa kompyuterlə təmasda olan vasitələrdən (yumşaq və sərt disklərdən, fləş kartlarından və s.) istifadə etməklə, yaxud müəyyən məsafədən kompyuter sisteminə daxil edilə bilər.

Kompyuter məlumatlarının kompyuter sisteminə ötrülməsi də əslində belə məlumatların daxil edilməsini nəzərdə tutur. Məlumatların ötrülməsi internet vasitəsilə, elektron poçtdan istifadə etməklə, şəbəkədə olan bir kompyuterdən digərinə transfer etməklə və s. üsulla gerçəkləşdirilə bilər.

Kompyuter məlumatlarının zədələnməsinin, silinməsinin, korlanmasının, dəyişdirilməsinin və ya bloklanmasının izahları barədə bu maddənin şərhinin 4-cü bəndinə bax.

CM-in 273-cü maddəsinin qeydinin 2-ci bəndinə görə **kompyuter sisteminin işləməsinə ciddi maneə törədilməsi** kompyuter sisteminin normal fəaliyyətinin elə bir pozulmasıdır ki, kompyuter sisteminin sahibinin və ya istifadəçisinin bu sistemdən istifadə etmək və ya digər kompyuter sistemləri ilə məlumatları mübadilə etmək imkanını mühüm dərəcədə məhdudlaşdırsın.

11. Kompyuter sistemindən istifadə etməyin və ya digər kompyuter sistemləri ilə məlumatları mübadilə etmək imkanlarının mühüm dərəcədə məhdudlaşdırılması kompyuter sisteminin çox az bir hissəsindən istifadəni, kompyuterlər arasındakı şəbəkənin sıradan çıxarılmasını və s. bu kimi halları əhatə edir.

CM-in 273.2-ci maddəsində əks olunan cinayət **formal** tərkiblidir və kompyuter sisteminin işlənməsinə maneə törədildiyi andan **başa çatmış** sayılır. Yaradılan maneə nəticəsində əhəmiyyətli zərər vurulduqda əməl CM-in 273.1-ci maddəsi tövsif olunmalıdır. Bu halda maneə törədilməsi əhəmiyyətli zərər vurulmasının üsulu kimi çıxış edir.

12. Şərh olunan cinayət də subyektiv cəhətdən **birbaşa qəsdlə** törədilir. Şəxs CM-in 273.2-ci maddəsinin dispozisiyasında sadalanan üsullarla kompyuter sisteminin işləməsinə ciddi maneə yaratdığının ictimai təhlükəliliyini dərk edir və belə maneə yaratmağı arzu edir. Motiv cinayət tərkibinin zəruri əlaməti deyildir.

13. Bu cinayətin də subyekti **xüsusidir**, yəni kompyuter sistemində işləməyə, kompyuterə məlumat daxil etməyə, məlumatları ötürməyə və s.-ə hüququ olmayan şəxsdir.

14. Kompyuter sisteminə və ya kompyuter məlumatlarına qanunsuz müdaxilə cinayətinin ağırlaşdırıcı (CM-in 273.3-cü maddəsi) və xususilə ağırlaşdırıcı (CM-in 273.4-cü maddəsi) halları haqqında CM-in 271-ci maddəsinin şərhinə bax.

Maddə 273-1. Kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi

273-1.1. Hazırlanmasının və ya uyğunlaşdırılmasının əsas məqsədi bu Məcəllənin 271-273-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin törədilməsi olan qurğuların və ya kompyuter proqramlarının istehsalı, həmin cinayətlərin törədilməsi məqsədi ilə idxalı, istifadə üçün əldə olunması, saxlanılması, satışı, yayılması və ya əldə edilməsinə digər formalarda şərait yaradılması, əhəmiyyətli zərər vurduqda –

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

273-1.2. Kompyuter parollarının, giriş kodlarının və ya kompyuter sisteminə, yaxud onun hər hansı bir hissəsinə hüququ olmadan daxil olmağa imkan verən digər analoji məlumatların bu Məcəllənin 271—273-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin törədilməsi məqsədilə istehsalı, saxlanılması və ya istifadə üçün əldə olunması, əhəmiyyətli zərər vurduqda –

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

273-1.3. Kompyuter parollarının, giriş kodlarının və ya kompyuter sisteminə, yaxud onun hər hansı bir hissəsinə hüququ olmadan daxil olmağa imkan verən digər analoji məlumatların bu Məcəllənin 271—273-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin törədilməsi məqsədi ilə satışı, yayılması və ya onların əldə edilməsinə digər formalarda şərait yara-

dılması –

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

273-1.4. Bu Məcəllənin 273-1.1-273-1.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

273-1.4.1. təkrar törədildikdə;

273-1.4.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

273-1.4.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli Qanunu ilə əlavə edilmişdir; 31 may 2017-ci il tarixli Qanunla dəyişdirilmişdir — «Azərbaycan» q., 18 iyul 2012-ci il; 19 iyul 2017-ci il).*

1. CM-in 273-1-ci maddəsi «Kibercinayətkarlıq haqqında» Avropa Şurasının 23 noyabr 2001-ci il tarixli Konvensiyasına uyğun olaraq (Azərbaycan Respublikası bu Konvensiyaya 30 sentyabr 2009-cu il tarixli, 874-IIIQ nömrəli Qanunla qoşulmuşdur) Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərin icrasından irəli gələrək cinayət qanununa daxil edilmişdir. Konvensiyanın 6-cı maddəsi ilə müəyyən edilir ki, hər bir iştirakçı dövlət şərh olunan əməlin daxili qanunvericiliyində cinayət əməli kimi tövsif olunması üçün zəruri qanunvericilik tədbirləri görməlidir.

2. Şərh olunan cinayətin **obyektini** kompyuter sisteminin normal fəaliyyətini təmin edən ictimai münasibətlər təşkil edir. CM-in 273-1.1-ci maddəsində təsbit olunan cinayətin **predmeti** qismində komputer proqramları və qurğular çıxış edir.

3. CM-in 273-1.1-ci maddəsində əks olunan cinayət **obyektiv cəhətdən** ibarətdir:

a) kibercinayətlərin (CM-in 271-273-ci maddələri) törədilməsi üçün qurğuların və ya kompyuter proqramlarının istehsalı, idxalı, istifadə üçün əldə olunması, saxlanılması, satışı, yayılması, əldə edilməsinə digər formalarda şərait yaradılmasında ifadə olunan əməllər; b) sadalanan əməllərin törədilməsi ilə əhəmiyyətli zərər vurulmasında ifadə olunan ictimai təhlükəli nəticə; c) sadalanan əməllərlə əhəmiyyətli zərər arasında səbəbli əlaqənin mövcudluğu.

4. **Kibercinayətlərin törədilməsi üçün qurğuların istehsalı** dedikdə kompyuter sisteminə daxil olmaq, habelə kompyuter sistemində məlumatları ələ keçirmək, kompyuter məlumatlarını silmək, zədələmək, dəyişdirmək, korlamaq, bloklamaq üçün müxtəlif cihazların, aparatların hazırlanması, hazır qurğuların bu məqsədlə uyğunlaşdırılması başa düşülür. Qurğuların və ya kompyuter proqramlarının istehsalı onların davamlı şəkildə hazırlanmasına yönələn hərəkətlər (xüsusi avadanlıqlardan, kompyuter texnikasından istifadə etməklə

qurğu və proqramların bu məqsədlər üçün nəzərdə tutulmuş istehsal sahələrində hazırlanması, yaxud fərdi şəkildə belə proqramların çoxaldılması və s.) başa düşülür.

Kibercinayətlərin törədilməsi üçün hazırlanmış və ya uyğunlaşdırılmış qurğuların və ya kompyuter proqramlarının **idxalı** dedikdə cinayətin sadalanan predmetlərinin Azərbaycan Respublikasının ərazisinə gətirilməsi başa düşülür. Qurğu və kompyuter proqramlarının kibercinayətlərin törədilməsində istifadə üçün **əldə olunması** dedikdə həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla qurğuların və ya kompyuter proqramlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlər başa düşülür.

Qurğu və kompyuter proqramlarının **saxlanılması** dedikdə qurğuların və ya kompyuter proqramlarının **saxlanması** şəxsin idarəçiliyində olan qurğuların və ya kompyuter proqramlarının öz sərəncamında saxlanmasına yönəldilmiş bütün hərəkətlər başa düşülür. Başqa sözlə, bu, saxlamanın yerindən və müddətindən asılı olmayaraq, qurğulara və ya kompyuter proqramlarına faktiki malik olma deməkdir. Qurğu və kompyuter proqramlarını saxlama **uzanan** cinayətdir.

Təqsirli şəxsin qurğu və ya kompyuter proqramları öz ixtiyarında saxlaması ilə əlaqədar olan hər hansı qəsdən edilən hərəkətləri saxlama kimi başa düşülməlidir.

Qurğu və ya kompyuter proqramlarının **satışı** dedikdə qurğu və ya kompyuter proqramlarının kibercinayətlərin törədilməsi üçün əvəzli şəkildə yayılmasına yönəldilmiş hərəkətlər başa düşülməlidir. Qurğu və ya kompyuter proqramlarını satma cinayəti onları başqa şəxs aldığı andan **başa çatmış** hesab edilir.

Qurğu və kompyuter proqramlarının **yayılması** dedikdə onların satılması istisna olmaqla, bağışlanması, başqa əşya ilə dəyişdirilməsi və digər üsullarla özgəninkiləşdirilməsi yolu ilə başqa şəxslərə verilməsi (çatdırılması) başa düşülür. Qurğu və proqramları həm onları hazırlayan (istehsal edən) şəxs, həm də əldə edən şəxs yaya bilər.

Qurğu və kompyuter proqramlarının **əldə edilməsinə şərait yaradılması** kibercinayətlərin törədilməsi üçün hazırlandığını və ya uyğunlaşdırıldığını bilə-bilə belə qurğu və proqramların satışını, yayılmasını, saxlanılmasını təşkil etməyə yönədilmiş hərəkətlər başa düşülür.

5. CM-in 273-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **maddi** tərkiblidir və dispozisiyada sadalanan əməllər nəticəsində əhəmiyyətli zərər vurulduğu andan **başa çatmış** sayılır. Əhəmiyyətli zərərin anlayışı CM-in 273-cü maddəsinin qeydində verilmişdir (əlavə olaraq həmin maddənin şərhinin 5-6-cı bəndlərinə bax).

6. CM-in 273-1.2-ci maddəsində əks olunan cinayət subyektiv cəhətdən **birbaşa qəsdlə** törədilir. Şəxs kibercinayətlərin (CM-in 271-273-cü maddələri) törədilməsi üçün hazırlandığını və ya uyğunlaşdırıldığını bilə-bilə qurğu və

kompyuter proqramları istehsal, idxal, əldə etdiyini saxladığını, satdığını, yaydığını, əldə edilməsinə şərait yaratdığını və bu hərəkətlərin əhəmiyyətli zərər vurduğunu dərk edir və həmin əməlləri törətməyi və əhəmiyyətli zərərin baş verməsini arzu edir. Cinayətin törədilməsində **məqsəd** kibercinayətlərin törədilməsidir. Maddənin dispozisiyasında bu, məqsəd kimi göstərilsə də, əslində cinayətin motivi kimi qəbul edilməlidir. Kibercinayətlərin törədilməsi məqsəd ola bilməz, bu, cinayət törədən şəxsin yalnız niyyəti ola bilər. Cinayətin törədilməsində məqsəd müxtəlif ola bilər (məsələn, dövlət siyasətinin sarsıdılması, ictimai təhlükəsizliyin zəiflədilməsi və s.).

7. CM-in 273-1.1-ci maddəsində ifadə olunan cinayətin **subyekti 16 yaşına çatmış** fiziki anlaqlı şəxs ola bilər.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

8. CM-in 273-1.2-ci maddəsində əks olunan cinayət **obyektiv cəhətdən** kompyuter parollarının, giriş kodlarının və ya digər analoji məlumatların kibercinayətlərin törədilməsi məqsədilə istehsalı, saxlanılması, istifadə üçün əldə olunması əməllərində, bu əməllərin əhəmiyyətli zərər vurmasında və əməllərlə zərər arasında səbəbli əlaqədə ifadə olunur.

Kompyuter parolu (password) mühafizə olunan qurğuya (kompyuterə), kompyuter sisteminə, şəbəkəsinə və ya kompyuter informasiya obyektlərinə (sənəd-lərə, proqramlara, qovluqlara, serverlərə və s.), xidmətlərə (elektron poçta, internetə, bank hesabına) daxil olarkən autentifikasiya (eyniləşdirmə) qismində daxil edilən gizli yığılan işarələrdir.

Giriş kodları kompyuter klaviaturasından daxil edilən, istifadəçinin autentifikasiyasını (eyniləşdirilməsini) təmin edən gizli yığılan işarələrdir.

Kompyuter sisteminə, yaxud onun hər hansı bir hissəsinə daxil olmağa imkan verən digər analoji məlumatlara bunun üçün hazırlanmış xüsusi kompyuter proq-ramlarını aid etmək olar. Belə proqramlarla kompyuterin mühafizə sistemini sıradan çıxarmaqla ona giriş əldə etmək mümkündür.

9. Kompyuter parollarının, giriş kodlarının və ya kompyuter sisteminə, onun hər hansı bir hissəsinə daxil olmağa imkan verən digər analoji məlumatların istehsalı, saxlanılması, istifadə üçün əldə olunması, habelə bu əməllər nəticəsində vurulan əhəmiyyətli zərər haqqında bu maddənin şərhinin 7-ci bəndinə bax.

10. CM-in 273-1.2-ci maddəsində əks olunan cinayət də **maddi** tərkiblidir və kriminal nəticə (əhəmiyyətli zərər) vurulduğu andan başa çatmış sayılır.

Bu cinayət də subyektiv cəhətdən **birbaşa qəsdlə və xüsusi məqsədlə** - kibercinayətlərin törədilməsi məqsədilə törədilir.

11. Cinayətin **subyekti** kompyuter sisteminə, onun hər hansı bir hissəsinə daxil olmağa hüququ olmayan şəxsdir.

CM-in 273-1.3-cü maddəsində təsbit olunana cinayətin əlamətləri müvafiq olaraq CM-in 273-1.1-ci və 273-1.2-ci maddələrində göstərilən tərkib əlamətləri ilə eynidir. Bu maddənin şərhinin 2-4-cü bəndlərinə bax.

CM-in 273-1.1-273-1.3-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin ağırlaş-dırıcı halları CM-in 273-1.4-cü maddəsində təsbit edilmişdir. Həmin ağırlaşdırıcı halların izahı haqqında CM-in 271-ci maddənin şərhinin 12-13-cü bəndlərinə bax.

Maddə 273-2. Kompyuter məlumatlarının saxtalaşdırılması

Saxtalaşdırılmış kompyuter məlumatlarını autentik (həqiqi) kompyuter məlumatları kimi qələmə vermək və ya istifadə etmək məqsədilə kompyuter məlumatlarını müvafiq hüquq olmadan qəsdən daxil etmə, dəyişdirmə, silmə və ya bloklama, bu əməllər ilkin kompyuter məlumatlarının autentikliyinin (həqiqiliyinin) pozulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli Qanunu ilə əlavə edilmişdir; 31 may 2017-ci il tarixli Qanunla düzəliş edilmişdir — «Azərbaycan» q., 18 iyul 2012-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, saxta kompyuter məlumatlarının kompyuter sisteminə daxil edilməsi kompyuter məlumatlarının həqiqi məzmununun itirilməsinə səbəb olur ki, bu da dövlət orqanlarının, ayrı-ayrı təşkilatların normal fəaliyyətinin pozulmasına gətirib çıxarır.

2. Şərh olunan cinayətin **obyekti** kompyuter sisteminin normal fəaliyyətini tənzim edən ictimai münasibətlərdir. Cinayətin predmeti qismində kompyuter məlumatları çıxış edir.

3. CM-in 273-2-ci maddəsində təsbit olunan cinayət **obyektiv cəhətdən** saxtalaşdırılmış kompyuter məlumatlarını buna hüququ olmadan kompyuter sisteminə daxil etmədə, dəyişdirmədə, silmədə və ya bloklamada ifadə olunan hərəkətlərin kompyuter məlumatlarının həqiqiliyinin pozulmasına səbəb olması ilə xarakterizə olunur.

Kompyuter məlumatlarının **saxtalaşdırılması** dedikdə həqiqi kompyuter məlumatlarının məzmununu dəyişdirmə, məlumatların sırasına yeni elementlərin əlavə edilməsi, yaxud silinməsi və s. hərəkətlər başa düşülür.

Kompyuter məlumatlarının kompyuter sisteminə daxil edilməsi, dəyişdirilməsi, silinməsi və ya bloklanmasının anlayışları haqqında CM-in 273-cü maddəsinin şərhinə bax.

4. Saxta kompyuter məlumatlarının kompyuter sisteminə daxil edilməsi, kompyuter məlumatlarının dəyişdirilməsi, silinməsi və ya bloklanmasında ifadə olunan əməllər belə məlumatların həqiqiliyinin (həqiqi məzmununun) pozulmasına səbəb olduqda şəxsən əməlində CM-in 273-2-ci maddəsinin tərkibi olacaqdır. Kompyuter məlumatlarının həqiqiliyi pozulmadıqda cinayət məsuliyyəti istisna olunur.

Kompyuter məlumatlarının həqiqiliyinin pozulması ilkin məlumatların bütövlüyünün pozulmasını, məlumatların tamamilə yararsız vəziyyətə düşməsini və s. əhatə edir.

5. Şərh olunan cinayət **maddi** tərkiblidir və məlumatların daxil edilməsi, də-

yişdirilməsi, silinməsi və ya bloklanması nəticəsində ilkin kompyuter məlumatlarının həqiqiliyinin pozulduğu andan başa çatmış sayılır. Məlumatların həqiqiliyi pozulmadıqda, şərh olunan cinayətə cəhdə görə məsuliyyət yaranır.

6. Şərh olunan cinayət subyektiv cəhətdən **birbaşa qəsdlə və xüsusi məqsədlə** - saxtalaşdırılmış kompyuter məlumatlarını həqiqi məlumatlar kimi qələmə vermək və ya belə məlumatlardan istifadə etmək məqsədilə törədilir. Şəxs saxta kompyuter məlumatlarını kompyuter sisteminə daxil etməyin, həqiqi məlumatların saxta məlumatlarla dəyişdirməyin, məlumatları silməyin, bloklamağın və nəticədə ilkin kompyuter məlumatlarının həqiqiliyinin pozulmasının ictimai təhlükəliyini qabaqcadan görüb dərk edir və bunların baş verməsini arzu edir.

7. Şərh olunan cinayətin **subyekti** kompyuterə məlumat daxil etməyə, ümumiyyətlə, kompyuterlə işləməyə hüququ olmayan 16 yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

XI BÖLMƏ
DÖVLƏT HAKİMİYYƏTİ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

XXXI Fəsil
Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər

Maddə 274. Dövlətə xəyanət

Dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə, habelə bu Məcəllənin 276-cı maddəsində nəzərdə tutulmuş cinayətlərin törədilməsi üçün xarici ölkələrin xüsusi xidmət orqanları tərəfindən cəlb edilmiş şəxs aldığı cinayət tapşırığının icrası üzrə heç bir fəaliyyət göstərməmişsə və dövlət hakimiyyət orqanlarına könüllü surətdə və vaxtında məlumat vermişsə və ya Azərbaycan Respublikasının mənafelərinə ziyan vurulmasının qarşısının alınmasına sair formada kömək etmişsə, əgər onun hərəkətlərində başqa cinayətin tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad olunur *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il və 30 may 2014-cü il tarixli qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 16 mart 2012-ci il; 20 iyun 2014-cü il).*

1. Bu cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinin (xarici təhlükəsizliyinin) qorunması ilə əlaqədar olan ictimai münasibətlər sistemidir. Həmin münasibətlər CM-in 274-cü maddəsində sadalanan elementlərdən: Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyətindən ibarətdir. Dövlətə xəyanət zamanı göstərilən bilavasitə obyektlərdən birinə və yaxud bir neçəsinə qəsd oluna bilər.

2. Dövlətə xəyanət **obyektiv cəhətdən** CM-in 274-cü maddəsinin dispozisiyasında sadalanan ictimai təhlükəli əməllərdən ən azı birinin törədilməsində ifadə olunur. Belə əməllərə: a) düşmən tərəfinə keçmə; b) casusluq; c) dövlət sirrini xarici dövlətə vermə və; ç) Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə aid olunur.

3. **Düşmən tərəfinə keçmə** dedikdə təqsirkarın Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyətinin zərərinə olaraq düşmənə hər hansı bir formada kömək göstərməsi başa düşülməlidir. Düşmən tərəfinə keçmə anlayışı heç də həmişə təqsirkarın fiziki mənada düşmənin tərəfinə keçməsini, yəni düşmən tərəfin ölkəsində (ərazisində) olmasını nəzərdə tutmur. Belə ki, təqsirkar şəxs düşmənin ərazi-

sinə keçmədən də, yəni Azərbaycan Respublikasının ərazisində və ya üçüncü bir dövlətin ərazisində olmaqla Azərbaycan Respublikasının mənafeyi zərərinə düşmənə hər hansı bir formada kömək göstərdikdə də, bu, düşmən tərəfə keçmə kimi qiymətləndirilir.

Düşmən tərəfinə keçmə düşmən ordusunda və ya düşmənin digər silahlı birləşmələrində xidmət etmədə, düşmənin kəşfiyyat və əks-kəşfiyyat orqanlarında işləmədə, Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatların hazırlanması və həyata keçirilməsində, cəbhə xəttini keçmədə, düşmənin ərazisində, üçüncü ölkədə, düşmənin işğal etdiyi respublikanın ərazisində və ya arxa cəbhədə düşmənin tapşırıqlarının yerinə yetirilməsində, Azərbaycan Respublikasının düşmən əsirliyində olan vətəndaşlarının (hərbi qulluqçuların və mülki şəxslərin) döyülməsində, onlara mənəvi və fiziki işgəncə verilməsində iştirak etmədə və s. aktiv hərəkətlərdə ifadə oluna bilər.

Burada **düşmən** dedikdə yalnız hərbi düşmən başa düşülməlidir. Bu mənada dövlətə xəyanətin bu formasının mövcud olması üçün Azərbaycan Respublikasının təqsirkarın kömək göstərdiyi xarici dövlətlə müharibə və ya hərbi münaqişə vəziyyətində olması zəruridir. Belə vəziyyət həm rəsmi (müharibə elan edilməsi), həm də faktiki (məsələn, müharibə elan etmədən döyüş əməliyyatlarının aparılması və s.) ola bilər. Ona görə də Azərbaycan Respublikası ilə siyasi-diplomatik münasibətləri gərgin olan hər hansı bir dövlətin tərəfinə keçmə (məsələn, həmin dövlətin ordusunda qulluq etmə, hərbi-güc orqanlarında vəzifə tutma və s.) düşmən tərəfinə keçmə kimi qiymətləndirilə və CM-in 274-cü maddəsi ilə tövsif oluna bilməz.

Düşmən tərəfinə keçmə Azərbaycan Respublikası vətəndaşının Azərbaycan dövlətinin mənafeyi zərərinə düşmənə kömək göstərmək məqsədi ilə düşmənlə hər hansı bir formada əlaqəsinin yarandığı andan **başa çatmış** hesab edilir.

4. **Casusluq** dövlətə xəyanətin forması kimi Azərbaycan Respublikası vətəndaşı tərəfindən CM-in 276-cı maddəsində nəzərdə tutulan cinayət əməllərinin törədilməsində ifadə olunur. Yəni CM-in 276-cı maddəsində göstərilən cinayət Azərbaycan Respublikası vətəndaşı tərəfindən törədildikdə dövlətə xəyanət kimi tövsif edilir. Lakin burada casusluq Azərbaycan dövlətinin təhlükəsizliyi və konstitusiya quruluşunun əsaslarına qəsd edən müstəqil bir cinayət tərkibi kimi deyil, dövlətə xəyanətin obyektiv cəhətinin zəruri elementlərindən biri kimi nəzərdən keçirilir. Casusluğun anlayışı və cinayət tərkibinin təhlili haqqında CM-in 276-cı maddəsinin şərhinə bax.

5. **Dövlət sirrini xarici dövlətə vermə** Azərbaycan Respublikası vətəndaşı tərəfindən dövlət sirri olan məlumatların xarici dövlətə, yaxud onun orqanlarına və ya nümayəndələrinə verilməsində ifadə olunur.

Şərh olunan cinayətin **predmetini** dövlət sirri olan məlumatlar təşkil edir. «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının 7 sentyabr 2004-cü il tarixli Qanununun 1-ci maddəsinə görə **dövlət sirri** dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır. Qanuna görə, **dövlət sirrini**

təşkil edən məlumatların daşıyıcıları dövlət sirri təşkil edən məlumatların rəmzlər, obrazlar, siqnallar, texniki qərarlar və proseslər şəklində əks olunduğu maddi obyektlər, o cümlədən fiziki sahələr ola bilər.

6. Predmetini həmçinin Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə edilə bilən və dövlət sirri olmayan sair məlumatlar təşkil edən casusluqdan fərqli olaraq dövlət sirrini xarici dövlətə vermənin predmeti yalnız dövlət sirri olan məlumatlar ola bilər.

Dövlət sirrinə aid oluna bilən məlumatların siyahısı «Dövlət sirri haqqında» Qanunun 5-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2005-ci il tarixli, 248 saylı Fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı» ilə müəyyən olunur. Adı çəkilən normativ hüquqi aktlarda dövlət sirrinə aid olunan məlumatlar 4 qrupa bölünür: 1) hərbi sahədə məlumatlar; 2) xarici siyasət sahəsində məlumatlar; 3) iqtisadi sahədə məlumatlar; 4) kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində məlumatlar.

7. Dövlət sirrini xarici dövlətə vermə öz xarakterinə görə dövlətə xəyanət cinayətinin ayrıca bir növü olan casusluğa oxşasa da, bir sıra əlamətlərinə görə ondan fərqlənir. Belə ki, hər şeydən əvvəl casusluğun predmeti daha genişdir. Casusluğun predmetinə həm də Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə edilə bilən sair məlumatlar aiddir. İkincisi, casusluqdan fərqli olaraq dövlət sirrini xarici dövlətə vermə hərəkətlərində verilən məlumatlar qulluq mövqeyinə (vəzifəsinə), məşğuliyyətinin və yaxud peşəsinin növünə görə və ya təsadüfən (tapıntı, digər şəxslərdən öyrənmə və s.) təqsirkara əvvəlcədən məlum olur. Üçüncüsü, təqsirkarda dövlət sirrini xarici dövlətə vermə niyyəti dövlət sirri olan məlumatlar onun tərəfindən əldə edildikdən sonra yaranır, casusluqda isə təqsirkar bu niyyətlə qabaqcadan həmin məlumatları toplayır.

8. Dövlət sirri xarici dövlətə verildikdə dövlətə xəyanət cinayətinin tərkibi yaranır. Burada xarici dövlət anlayışına həmin dövlətin orqanları (təşkilatları) və ya nümayəndələri də daxildir. Dövlət sirrinin xarici qeyri-dövlət orqanlarına (təşkilatlarına) verilməsi dövlətə xəyanət cinayətinin tərkibini yaratmır.

9. Dövlət sirrini xarici dövlətə vermənin üsulları müxtəlif ola bilər (şifahi, yazılı, fotoşəkillər və çertyojlar vasitəsi ilə, qurğular, mexanizmlər və şifrələrlə) və bunlar cinayətin tövsifi baxımından heç bir əhəmiyyət kəsb etmir.

Dövlət sirrinin xarici dövlətə verilməsi təqsirkarın öz təşəbbüsü ilə, fiziki və psixi zorakılıq göstərilməklə, habelə pul ilə ələ alma nəticəsində ola bilər.

10. Dövlət sirri xarici dövlətə verildiyi andan cinayət **başa çatmış** hesab olunur.

11. Azərbaycan Respublikasına qarşı düşmənçilik aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə **kömək etmə** dedikdə Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin, xarici təşkilatın və ya onların nümayəndələrinin tapşırığı ilə və yaxud öz təşəbbüsü ilə Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda istifadə olunan və ya oluna bilən və dövlətə xəyanətin digər formalarına (dövlət sirrini xarici dövlətə vermə, casusluq və s.) daxil olmayan hərəkətlərin edilməsi başa düşülür. Həmin hərəkətlə-

rə milli, dini və ya irqi düşmənçiliyi qızışdırma, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparan xarici dövlətin və ya təşkilatın nümayəndələrinə sığınacaq vermə, onları maddi-texniki vasitələrlə və məişət şəraiti ilə təmin etmə, onlara Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda kömək edə biləcək şəxsləri axtarıb tapma və s. aid edilə bilər.

12. Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə kömək etmə həm sülh, həm də müharibə dövründə, eləcə də Azərbaycan Respublikası ərazisində və ya onun hüdudlarından kənarda həyata keçirilə bilər.

13. Azərbaycan Respublikasının vətəndaşı tərəfindən Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə hər hansı bir formada faktiki kömək göstərildiyi andan cinayət başa çatmış hesab olunur.

Əgər Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə kömək edən hərəkətlər başqa bir cinayətin (terror aktı, silahlı qiyam və s.) tərkibini yaradarsa, onda təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında (dövlətə xəyanət və digər cinayətin tərkibini nəzərdə tutan maddə ilə) tövsif olunmalıdır.

14. Dövlətə xəyanət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar CM-in 274-cü maddəsinin dispozisiyasında sadalanan əməllərdən birini və ya bir neçəsini törətdiyini və onun ictimai təhlükəli olduğunu dərk edir, həmin əməlinin Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti üçün təhlükəli nəticələrini qabaqcadan görür və bunları törətməyi arzu edir. Dövlətə xəyanətin bir forması kimi casusluq hərəkətlərində dövlət sirri olan məlumatların verilməsində məqsədin, habelə xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığının olmaması dövlətə xəyanət cinayətinin tərkibini yaratmır və bu halda əməl dövlət sirrini yayma (CM-in 284-cü maddəsi) kimi tövsif olunur.

Bu cinayətin **motivi** (tamah, düşmənçilik və s.) əməlin tövsifinə təsir göstərməsə də, cinayətkar qəsdin istiqamətini müəyyənləşdirmək və ədalətli cəza təyin etmək üçün müəyyən edilməlidir.

15. Şərh olunan cinayətin **subyekti** Azərbaycan Respublikasının **16** yaşına çatmış anlaqlı vətəndaşları ola bilər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlətə xəyanət cinayətinin təşkilatçısı, təhrikçisi və ya köməkçisi qismində cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

16. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

17. CM-in 274-cü maddəsinin qeydinə əsasən dövlətə xəyanət və casusluq (CM-in 274-cü və 276-cı maddələri) cinayətlərinin törədilməsi üçün xarici ölkələrin xüsusi xidmət orqanları tərəfindən cəlb edilmiş şəxs aşağıdakı şərtlərin məcmusu halında cinayət məsuliyyətindən azad olunur: 1) aldığı cinayət tapşırığının icrası üzrə heç bir fəaliyyət göstərməmişsə; 2) bu barədə dövlət hakimiyyət orqanlarına könüllü surətdə və vaxtında məlumat vermişsə və ya Azərbaycan Respublikasının mənafelərinə ziyan vurulmasının qarşısının alınmasına sair formada kömək etmişsə; 3) onun hərəkətlərində başqa bir cinayətin tərkibi yoxdursa.

Xəbər vermə o halda könüllü sayılır ki, təqsirkar bu haqda hakimiyyət orqanları tərəfindən tutulana qədər məlumat vermiş olsun və ya tutulsa da, onun öz cinayətkar fəaliyyəti barədə xəbər vermə niyyətinin əvvəllər yarandığı müəyyən edilsin və o, tutulduqdan sonra dərhal bunu bildirmiş olsun.

Maddə 275. Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə

275.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

275.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(30 may 2014-cü il tarixli qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 20 iyun 2014-cü il).*

1. Şərh olunan cinayətin **obyekti** dövlət hakimiyyətinin mənbəyi kimi Azərbaycan xalqı və konstitusiyalı dövlət orqanlarının normal fəaliyyəti ilə bağlı olan münasibətlərdir.

2. Bu cinayət **obyektiv cəhətdən** Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmədə ifadə olunur. **Azərbaycan xalqı** dedikdə Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşları başa düşülür (Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsinin II hissəsi).

Konstitusiyalı dövlət orqanları dedikdə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun yaradılan və fəaliyyət göstərən icra, qanunvericilik və məhkəmə hakimiyyəti orqanları nəzərdə tutulur. Buraya Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, mərkəzi və yerli icra hakimiyyəti orqanları (nazirliklər, dövlət komitələri, baş idarələr və rayon (şəhər) icra hakimiyyətləri) məhkəmə orqanları və s. aiddir.

3. Azərbaycan Respublikası Milli Məclisinin 1 sentyabr 1995-ci il tarixli qərarına görə, CM-in 57-1-ci maddəsinin (qüvvədə olan CM-in 275-ci maddəsi) adında və mətnində «Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və (və ya) konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə» ifadəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin

hər hansı növündən və onun bölmələrindən, yaxud Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hər hansı silahlı birləşmədən və onun bölmələrindən Azərbaycan xalqına qarşı və ya konstitusiyalı dövlət orqanlarına qarşı, yaxud eyni zamanda hər ikisinə qarşı istifadə edilməsi hallarının nəzərdə tutulduğu başa düşülməlidir.

4. Şərh olunan cinayət obyektiv cəhətinə görə dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan digər cinayətlərlə (məsələn, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma, silahlı qiyam və s.) oxşardır. Lakin qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratmadan (CM-in 279-cu maddəsi) fərqli olaraq CM-in 275-ci maddəsində cinayətin yalnız Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən istifadə edilərək törədilməsi nəzərdə tutulur. Buna görə də Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrdən istifadə edilməsi CM-in 275-ci maddəsi ilə tövsif oluna bilməz. Bu halda əməl konkret ağırlaşdırıcı tərkib əlamətlərindən asılı olaraq CM-in 279-cu və ya 280-ci maddələri ilə tövsif oluna bilər.

5. Bu cinayət silahlı qiyamdan (CM-in 280-ci maddəsi) ilk növbədə subyektiv cəhətinə görə fərqlənir. Belə ki, məqsəd (Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirmək və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamaq) silahlı qiyamın tərkibinin zəruri əlamətidir. CM-in 275-ci maddəsi isə cinayətin məqsədini cinayət tərkibinin zəruri ünsürü kimi nəzərdə tutmur. Əgər Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirmək və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamaq məqsədi ilə Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə olunmuşdursa, onda bu əməl CM-in 275-ci və 280-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

Digər tərəfdən, şərh olunan cinayətdən fərqli olaraq silahlı qiyamda Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan və ya tutulmayan silahlı birləşmələrdən istifadə olunması nəzərdə tutulur.

6. CM-in 275.2-ci maddəsi **ağırlaşdırıcı əlaməti** nəzərdə tutan cinayət tərkibini müəyyən edir. CM-in 275.1-ci maddəsində göstərilən əməllər ağır nəticələrə səbəb olarsa, əməl CM-in 275.2-ci maddəsi ilə tövsif edilməlidir. Burada **ağır nəticələr** dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən istifadə nəticəsində adamların öldürülməsi, onların sağlamlığına ağır zərər vurulması, konstitusiyalı dövlət orqanlarının normal fəaliyyətinin əhəmiyyətli dərəcədə pozulması, həmin orqanların əməkdaşlarının qətlə yetirilməsi və s. başa düşülür.

7. Şərh olunan cinayət Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı

istifadə edildiyi andan başa çatmış sayılır.

CM-in 275.2-ci maddəsi üzrə cinayətin başa çatması üçün ağır nəticənin baş verməsi tələb olunur.

8. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən məhz Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etdiyini, bu əməlinin ictimai təhlükəli olduğunu dərk edir, onun təhlükəli nəticələrini qabaqcadan görür və bunları törətməyi arzu edir.

9. Təhlil edilən cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Cinayətin subyektinin vətəndaşlığı əməlin tövsifi baxımından əhəmiyyət kəsb etmir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrin, onların bölmələrinin komandanlığı (Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının müdafiə naziri, onun müavinləri, hərbi birləşmələrin komandirləri və s.) tərəfindən verilən əmrin yerinə yetirilməsi ilə əlaqədar bu cinayəti törətmiş hərbi qulluqçuların cinayət məsuliyyəti CM-in 40-cı maddəsinin müddəaları nəzərə alınmaqla həll olunur.

10. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 276. Casusluq

Dövlət sirri olan məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə, yaxud vermək məqsədi ilə oğurlama, toplama və ya saxlama, habelə xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün sair məlumatları vermə, vermək məqsədi ilə oğurlama və ya toplama, əgər casusluq əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən törədilərsə —

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il və 30 may 2014-cü il tarixli qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 16 mart 2012-ci il; 20 iyun 2014-cü il).*

1. Casusluq cinayətinin anlayışı 1960-cı il CM ilə müqayisədə qismən dəyişikliyə uğramışdır. Cinayətin obyektiv cəhətinə daxil olan hərəkətlərin dairəsi genişləndirilərək dövlət sirri olan məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə məqsədi ilə saxlama maddənin dispozisiyasına əlavə edilmişdir. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının xarici təhlükəsizliyinin qorunması ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

2. Cinayətin **predmeti** qismində iki qrup məlumatlar çıxış edir: 1) dövlət sirri olan məlumatlar; 2) Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən sair məlumatlar.

Dövlət sirri olan məlumatların anlayışı haqqında CM-in 274-cü maddəsinin

şərhinə bax.

Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə edilə bilən sair məlumatlar dedikdə «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının 7 sentyabr 2004-cü il tarixli Qanununa əsasən dövlət sirri olan məlumatların əhatə dairəsinə daxil olmayan, lakin xarici ölkələrin xüsusi xidmət orqanlarının mülahizələrinə görə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən məlumatlar başa düşülür. Buraya müxtəlif xarakterli hər hansı məlumat (dövlət sirri istisna olmaqla) aid edilə bilər. Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən və dövlət sirri olmayan sair məlumatların dairəsi qeyri-məhduddur və qanunvericiliklə dəqiqləşdirilməmişdir.

3. Casusluq **obyektiv cəhətdən** dövlət sirri olan məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə, yaxud vermək məqsədi ilə oğurlama, toplama və ya saxlama, habelə xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün sair məlumatları vermə, vermək məqsədi ilə oğurlama və ya toplamada ifadə olunur.

Dövlət sirri olan məlumatların və ya sair məlumatların verildiyi ünvan xarici dövlət, xarici təşkilat (dövlət və qeyri-dövlət təşkilatları) və ya onların nümayəndələri ola bilər.

4. **Dövlət sirri olan məlumatları və ya sair məlumatları vermə** dedikdə həmin məlumatları istənilən üsulla xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə çatdırma başa düşülür. Bu mənada CM-in 276-cı maddəsinin mətnində istifadə olunan «vermə» anlayışı dövlət sirri olan məlumatların və ya Azərbaycan Respublikasının mənafeyi zərərinə istifadə oluna bilən sair məlumatların xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə hər hansı üsulla və formada (şifahi, yazılı, telefon, teleqraf, radio ilə, bilavasitə və yaxud başqa adamların vasitəsilə və s.) bildirilməsi başa düşülür.

5. **Dövlət sirri olan məlumatları və ya sair məlumatları vermək məqsədi ilə oğurlama** dedikdə həmin məlumatların qanunazidd üsullarla əvəzsiz qaydada əldə edilməsi başa düşülür. Oğurlama gizli və ya açıq yolla, yaxud aldatmaq yolu ilə və ya müvafiq məlumatların maddi daşıyıcılarının əslini və ya surətini ələ keçirmək yolu ilə və s. həyata keçirilə bilər.

6. **Dövlət sirri olan məlumatları və ya sair məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermək məqsədi ilə toplama** şəxsən müşahidə aparmaqla, torpaq, su və bitki nümunələrini götürməklə, gizli obyektlərin şəkillərini (çertyojlarını) çəkməklə, qulluq mövqeyinə və ya peşə fəaliyyətinə görə həmin məlumatlarla bilavasitə və yaxud dolayısı ilə əlaqədar olan şəxslərlə söhbət etməklə, sorğu-sual aparmaqla, onların söhbətlərinə qulaq asmaqla və ya onları pul ilə ələ almaqla və s. üsullarla həyata keçirilə bilər və bu üsullar cinayətin tövsifi üçün əhəmiyyət kəsb etmir.

7. **Dövlət sirri olan məlumatları saxlama** dedikdə həmin məlumatları qoruyub saxlama, onların toxunulmazlığını və tamlığını təmin etmə başa düşülür. Dövlət sirri olan məlumatlar həm onları oğurlayan və ya toplayan şəxslər tərəfindən, həm də başqa şəxslər tərəfindən saxlanıla bilər. Belə məlumatları saxlayan şəxs onların dövlət sirri olduğunu və xarici dövlətə, xarici təşkilata və ya

onların nümayəndələrinə vermək üçün saxlandığını dərk edirsə, onda həmin şəxs casusluğa görə cinayət məsuliyyəti daşıyır. Göstərilən halların dərk olunması məlumatları saxlayan şəxsin cinayət məsuliyyətini istisna edir.

8. Qanunverici Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən sair məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermək məqsədi ilə saxlamanı cinayətin obyektiv cəhətinə daxil etməmişdir. Ona görə də başqa şəxslər tərəfindən oğurlanmış və ya toplanmış belə məlumatları saxlayan şəxs həmin məlumatların Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna biləcəyini və xarici dövlətə, xarici təşkilata və yaxud onların nümayəndələrinə veriləcəyini dərk edərsə, o, yalnız cinayətdə iştirakçılığa görə (CM-in 32.5-ci və 276-cı maddələri) cinayət məsuliyyəti daşımalıdır.

9. Dövlət sirri olan məlumatların təqsirkarın öz təşəbbüsü və yaxud xarici dövlətin, xarici təşkilatın və ya onların nümayəndələrinin təşəbbüsü ilə verilməsindən, vermək məqsədi ilə oğurlanmasından, toplanmasından və ya saxlanmasından asılı olmayaraq, göstərilən hərəkətlər casusluq cinayətinin tərkibini yaradır.

Xarici ölkələrin xüsusi xidmət orqanları ilə əlaqə yaratma və onlardan tapşırıq alma bu cinayətə hazırlıq hesab olunur. Məlumatları toplamağa cəhd göstərmənin qarşısı alındıqda, təqsirkarın əməli casusluq cinayətini etməyə cəhd kimi tövsif olunmalıdır.

10. Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən sair məlumatların verilməsinə, vermək məqsədi ilə toplanmasına və ya oğurlanmasına görə cinayət məsuliyyəti yalnız iki şərtin eyni zamanda mövcud olduğu hallarda yaranır: 1) sair məlumatlar xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə verilməli və yaxud vermək məqsədi ilə oğurlanmalı və ya toplanılmalıdır; 2) həmin məlumatlar Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən olmalıdır.

Həmin hərəkətlərin şəxsin öz təşəbbüsü ilə məlumatların gələcəkdə xarici ölkələrin xüsusi xidmət orqanlarına verilməsi məqsədi ilə törədilməsi casusluq cinayətinə hazırlıq hesab olunur.

11. Casusluq CM-in 276-cı maddəsinin dispozisiyasında göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi andan **başa çatmış** hesab olunur.

12. Casusluq cinayəti **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar törətdiyi əməllərin ictimai təhlükəli və Azərbaycan Respublikasının xarici təhlükəsizliyi əleyhinə olduğunu dərk edir və bunları törətməyi arzu edir.

Dövlət sirri olan məlumatların və Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən sair məlumatların oğurlanması, toplanması və saxlanması formasında **məqsəd** casusluq cinayətinin subyektiv cəhətinin zəruri əlamətidir.

Şərh olunan cinayətin motivi müxtəlif ola bilər: tamah, düşmənçilik hissi və s.

13. Cinayətin **subyekti 16** yaşına çatmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilər.

Eyni hərəkətlərin Azərbaycan Respublikası vətəndaşı tərəfindən törədilmə-

si isə CM-in 274-cü maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaradır.

Azərbaycan Respublikasının vətəndaşları da, əgər onların əməllərində dövlətə xəyanət cinayətinin tərkibi yoxdursa, casusluq cinayətinin iştirakçısı (təşkilatçısı, təhrikçisi) ola bilərlər. Casusluq cinayətinin törədilməsində əcnəbi və ya vətəndaşlığı olmayan şəxsə kömək edən Azərbaycan Respublikası vətəndaşının əməli hər bir halda dövlətə xəyanət kimi tövsif olunmalıdır.

CM-in 274-cü maddəsinin qeydinin müddəaları casusluq cinayətini törədən, lakin cinayət məsuliyyətindən azad etmənin həmin qeyddə göstərilən şərtlərinə əməl edən şəxsin hərəkətlərinə də şamil olunur. Həmin şərtlərə riayət etdikdə əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin cinayət məsuliyyəti istisna olunur.

14. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 277. Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə

Dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədi ilə onun həyatına sui-qəsd etmə (terror aktı) —

on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(30 may 2014-cü il və 20 oktyabr 2015-ci il tarixli qanunlarla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 20 iyun 2014-cü il; 4 noyabr 2015-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasında dövlət hakimiyyətinin əsasları, dövlət xadimi və ya ictimai xadim, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlər və dövlət xadimi və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin həyatı və sağlamlığıdır.

2. Cinayətdən zərərçəkmiş şəxs qismində 3 kateqoriyadan olan şəxslər çıxış edir: 1) dövlət xadimi; 2) ictimai xadim; 3) xarici dövlət nümayəndəsi.

3. **Dövlət xadimi** dedikdə Azərbaycan Respublikası ərazisində dövlət həyatının və ictimai həyatın müxtəlif sahələrində (siyasət, iqtisadiyyat, mədəniyyət, dövlət quruculuğu və s.) dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən və onu bilavasitə həyata keçirən dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxsləri başa düşülür. Buraya Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçiləri, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin məsul işçiləri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, onların müavinləri (nazirlər, dövlət komitələrinin sədrləri, baş idarənin rəisləri, onların müavinləri, rayon (şəhər) icra hakimiyyəti başçıları, onların müavinləri və s.), Azərbaycan Respublikası Milli Məclisinin deputatları və s. aiddir.

Dövlət hakimiyyətinin nümayəndələri olan hakim, prokuror, müstəntiq, təhqiqatçı, icra məmuru 277-ci maddədə işlədilən «dövlət xadimi» anlayışına daxil deyildir. Belə şəxslərin həyatına onların vəzifə səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar sui-qəsd etmə CM-in 287-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaradır.

4. **İctimai xadim** dedikdə hər hansı digər ictimai təşkilatda, siyasi partiyada, həmkarlar ittifaqları təşkilatlarında siyasət, iqtisadiyyat, sosial-mədəni və s. sahələrə rəhbərliyi həyata keçirən şəxslər, habelə bu təşkilatların fəaliyyətində aktiv iştirak edən şəxslər başa düşülür.

Bələdiyyələrin üzvləri də ictimai xadim hesab olunurlar.

5. **Xarici dövlət nümayəndəsi** dedikdə xarici dövlət və hökumət rəhbərləri, xarici dövlətin Azərbaycan Respublikasında olan nümayəndə heyətinin üzvləri, xarici səfirliklərin və konsulluqların diplomatik nümayəndələri və s. başa düşülür. Cinayət tərkibinin yaranması üçün zərərçəkənin hansı xarici dövlətə mənsub olması əhəmiyyət kəsb etmir.

6. Bu cinayət **obyektiv cəhətdən** dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin həyatına sui-qəsd etmədə ifadə olunur. **Sui-qəsd** dedikdə dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin öldürülməsi, onların sağlamlığına zərər vurulması başa düşülür.

7. Şərh olunan cinayət dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin həyatına birbaşa sui-qəsd etməyə yönəlmiş hərəkətlərin edildiyi andan **başa çatmış** hesab olunur. Həmin hərəkətlər müəyyən nəticələrə — zərərçəkənin ölümünə və ya onun sağlamlığına zərər vurulmasına səbəb olduqda, təqsirkarın əməli əlavə olaraq CM-in 120-ci və ya 126-cı, yaxud 127-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif olunmur.

8. Dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin əmlakını qəsdən məhv etmə şərh olunan cinayətin tərkibini yaratmır.

9. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs öz əməlinin dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin həyatına qarşı yönəldiyini dərk edir, həmin nəticələri qabaqcadan görür və bunları törətməyi arzu edir.

Məqsəd bu cinayətin subyektiv cəhətinin zəruri əlamətidir. Belə ki, dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin həyatına sui-qəsd edilməsi yalnız o halda terror aktı kimi qiymətləndirilə bilər ki, bu, həmin şəxslərin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədi ilə həyata keçirilmiş olsun. Buna görə də dövlət xadiminin, ictimai xadimin və ya xarici dövlət nümayəndəsinin həyatına tamah, paxıllıq, qısqanclıq və sair məişət mübahisələri zəminində, habelə CM-in 277-ci maddəsinin dispozisiyasında göstərilmiş məqsədlə əlaqədar olmayan mülahizələrə görə sui-qəsd edilməsi bu cinayətin tərkibini yaratmır. Bu halda təqsirkarın cinayət məsuliyyəti haqqında məsələ həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan normalarla həll olunur.

10. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 278. Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama

Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə nəzərdə tutulmuş cinayətləri törətmiş, lakin dövlət hakimiyyət orqanlarına könüllü surətdə və vaxtında məlumat vermiş və ya Azərbaycan Respublikasının mənafelərinə ziyan vurulmasının qarşısının alınmasına sair formada kömək etmiş şəxs, əgər törətdiyi cinayət ilə əhəmiyyətli zərər vurmamışsa və onun hərəkətlərində başqa cinayətin tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad olunur *(30 may 2014-cü il tarixli qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 20 iyun 2014-cü il).*

1. Bu cinayət Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsaslarına qəsd edir. Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsinə görə dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi — referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Konstitusiyanın 6-cı maddəsinə əsasən Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Konstitusiyada göstərilməyən üsulla hakimiyyətə gəlmək qadağan olunur.

2. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət təhlükəsizliyidir.

3. Obyektiv cəhətdən bu cinayət Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərin edilməsində ifadə olunur.

4. Bu cinayətin obyektiv cəhəti elə hərəkətlərin edilməsini nəzərdə tutur ki, belə hərəkətlər: 1) hakimiyyətin zorla ələ keçirilməsinə; 2) hakimiyyətin zorla saxlanmasına və 3) Azərbaycan dövlətinin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəlmiş olsun. Qanunun göstərişinə əsasən belə hərəkətlər hər bir halda zorla müşayiət olunur. Burada zorakılığın istənilən formasından — qəsdən adamöldürmədən, sağlamlığa zərər vurmadan, qanunsuz həbslərdən və saxlamalardan, işgəncələrdən və digər fiziki zorakılıq aktlarından, fiziki zorakılıq aktlarının tətbiq ediləcəyi, rüsvay olunacağı, əmlakının və yaxın qohumlarının məhv ediləcəyi ilə hədələmədən (psixi zorakılıq) istifadə oluna bilər. Göstərilən üç cinayətkar məqsəddən hər hansı birinə çatmaq üçün bu hərəkətlərin edilməsi CM-in 278-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

5. **Hakimiyyəti zorla ələ keçirmə** dedikdə qanuni səlahiyyətli (seçilmiş və ya təyin olunmuş) hakimiyyət nümayəndəsini onun iradəsi ziddinə hakimiyyət səlahiyyətlərini həyata keçirməkdən daimi və ya müvəqqəti kənarlaşdırma və onun vəzifə səlahiyyətlərini qanunsuz olaraq səlahiyyəti olmayan şəxsə həvalə etmə başa düşülür.

Təqsirkar hakimiyyəti zorla ələ keçirməyə yönəlmiş elə hərəkətlərə yol verir ki, bu hərəkətlər hakimiyyətə yiyələnməyin konstitusion metodlarına və prinsiplərinə tamamilə ziddir. Hakimiyyəti zorla ələ keçirməyə yönəlmiş bu hərəkətlər həm fiziki, həm də psixi zorakılıq formasında qanuni səlahiyyətli hakimiyyət nümayəndəsinin həm bilavasitə özünə, həm də onun ailə üzvlərinə, yaxın qohumlarına münasibətdə icra oluna bilər.

Hakimiyyət nümayəndəsi dedikdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına əsasən qeyri-müəyyən sayda şəxslər və idarə, müəssisə və təşkilatlara münasibətdə hakimiyyət səlahiyyətlərinə malik olan, fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil olunan vəzifəli şəxslər başa düşülür.

6. **Hakimiyyəti zorla saxlama** dedikdə elə hərəkətlərin edilməsi nəzərdə tutulur ki, təqsirkar seçkilərin nəticələrinə və yaxud səlahiyyətli dövlət orqanlarının və ya vəzifəli şəxslərin qərarına görə tutduğu vəzifədən (dövlət postundan) azad olunmasına baxmayaraq, öz hakimiyyətini saxlamaq məqsədi ilə onun yerinə seçilmiş və yaxud təyin olunmuş şəxsə qarşı zorakılıq tətbiq edir, onun hakimiyyət səlahiyyətlərini həyata keçirməsinə zorakılıqla mane olur.

7. **Konstitusiya quruluşunu zorla dəyişdirmə** dedikdə bu quruluşun Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş əsaslarının zorakılıqla dəyişdirilməsi başa düşülür. Dövlətin konstitusiya quruluşunun dəyişdirilməsi Azərbaycan Respublikası Konstitusiyasına müvafiq dəyişikliklərin olunmasını tələb edir ki, bu da yalnız ümumxalq səsverməsi — referendumun keçirilməsi yolu ilə mümkündür. Lakin təqsirkar konstitusiya quruluşunun zorakılıqla dəyişdirilməsinə yönələn hərəkətlər edərkən bu quruluşu qeyri-konstitusion metodlarla dəyişdirməyi nəzərdə tutur.

Bu cinayət nəticəsində qəsd olunan konstitusiya quruluşunun əsaslarına aşağıdakılar aiddir: Azərbaycan dövlətinin demokratik, hüquqi, dünyəvi, unitar respublika olması, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil olunması və həyata keçirilməsi, Azərbaycan Respublikasının ictimai quruluşu, siyasi sistemi və s.

8. Şərh olunan cinayətin başa çatması üçün hakimiyyətin zorla ələ keçirilməsi, zorla saxlanılması və ya dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi tələb olunmur. Azərbaycan Respublikası Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərdən hər hansı birinin edildiyi andan cinayət **başa çatmış** hesab olunur.

9. Təhlil edilən **cinayət subyektiv cəhətdən birbaşa qəsdlə və xüsusi məqsədlə** — hakimiyyəti zorla ələ keçirmək, saxlamaq və konstitusiya quruluşunu zorla dəyişdirmək məqsədi ilə törədilir. Təqsirkar Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına və ya dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərinin ictimai təhlükəli olduğunu qabaqcadan görür və bunları törətməyi arzu edir.

10. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 278-ci maddəsinin qeydinə əsasən bu maddədə nəzərdə tutulmuş cinayətləri törətmiş şəxs aşağıdakı şərtlərin eyni zamanda mövcudluğu halında cinayət məsuliyyətindən azad olunur:

1) təqsirkar şəxs dövlət hakimiyyət orqanlarına könüllü surətdə və vaxtında məlumat vermiş və ya Azərbaycan Respublikasının mənafelərinə ziyan vurulmasının qarşısının alınmasına sair formada kömək etmişsə;

2) törətdiyi cinayətlə əhəmiyyətli zərər vurmamışsa;

3) onun hərəkətlərində başqa cinayətin tərkibi yoxdursa.

CM-in 278-ci maddəsinin qeydində **əhəmiyyətli zərər** dedikdə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin pozulması və ya kəskin şəkildə məhdudlaşdırılması, nəqliyyatın, rabitənin, müəssisələrin işinin dayanması və s. başa düşülür.

12. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 279. Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma

279.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

279.1-1. Dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində bu Məcəllənin 279.1-ci maddəsində nəzərdə tutulan silahlı birləşmələr və ya qruplar yaratma, həmin birləşmə və ya qruplarda iştirak etmə —

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

279.2. Bu Məcəllənin 279.1-ci və 279.1-1-ci maddələrində nəzərdə tutulan birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

279.3. Bu Məcəllənin 279.2-ci maddəsində nəzərdə tutulan əməllər adamların həlak olmasına və ya digər ağır nəticələrə səbəb olduqda —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 mart 2012-ci il, 30 may 2014-cü il və və 28 oktyabr 2016-cı il tarixli qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 16 mart 2012-ci il; 20 iyun 2014-cü il; 18 dekabr 2016-cı il).*

1. Şərh olunan cinayətin obyekti Azərbaycan Respublikasının daxili təhlükəsizliyidir.

2. **Obyektiv cəhətdən** bu cinayət Azərbaycan Respublikası qanunvericiliyi

ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmədə ifadə olunur.

3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan **silahlı birləşmələr** dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibinə daxil olmayan, yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan, ən azı iki və ya daha çox silahlı şəxsdən ibarət silahlı qruplar (dəstələr) başa düşülür.

4. Təqsirkarın bu cinayətə görə məsuliyyətə cəlb edilməsi üçün CM-in 279-cu maddəsinin dispozisiyasında göstərilən üç hərəkətdən hər hansı birinin törədilməsi kifayətdir: 1) Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma; 2) onların yaradılmasında və fəaliyyətində iştirak etmə; 3) onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə.

5. Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan **silahlı birləşmələr və ya qruplar yaratma** dedikdə istənilən hər hansı məqsədlə (idarə, müəssisə və təşkilatlara və yaxud vətəndaşlara basqın etmək, hakimiyyəti zorla ələ keçirmək, saxlamaq, dövlətin konstitusiya quruluşunu devirmək və s.) silahlı birləşmələrin və ya qrupların yaradılmasına gətirib çıxaran hərəkətlər başa düşülməlidir. Belə hərəkətlər qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması üçün həmin birləşmələrin (qrupların) gələcək üzvlərinin (iştirakçılarının) axtarılıb tapılmasında, onların silahlı birləşməyə (qrupa) cəlb olunmasında, onlarla bu barədə razılaşmanın (sazişin) əldə edilməsində, silah axtarılmasında və əldə olunmasında ifadə oluna bilər.

6. Şərh olunan cinayət Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradıldığı andan, onların yaradılmasında güdülən məqsədə nail olunub-olunmamasından asılı olmayaraq **başa çatmış** hesab edilir.

Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasına yönəlmiş hərəkətlərin qarşısı alındıqda və yaxud həmin hərəkətlər hər hansı bir səbəbdən həmin birləşmələrin və ya qrupların yaradılması ilə nəticələnmədikdə, belə hərəkətlər cinayət etməyə cəhd kimi qiymətləndirilməlidir (CM-in 29-cu və 279-cu maddələri). Məsələn, qanunsuz silahlı birləşmələrin (qrupların) yaradılması üçün zəruri olan şəxslər — silahlı birləşmənin gələcək üzvləri axtarılıb tapılmış və onlardan müvafiq razılıq alınmış olsa da, həmin birləşmələrin tam formalaşdırılması üçün silah və döyüş sursatlarının əldə edilə bilməməsi və ya silah və döyüş sursatları əldə olunsa da, iştirakçıların tapılmaması.

7. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların **yaradılmasında və fəaliyyətində iştirak etmə** dedikdə həmin silahlı birləşmələrin (qrupların) üzvü olma, üzv kimi onların hücumlarında, basqınlarında və s. döyüş əməliyyatlarında bilavasitə iştirak etmə (fəal üzvlük), həmçinin silahlı birləşmələrin və ya qrupların yaradılması və fəaliyyətini təmin etmək üçün istənilən sair hərəkətləri etmə (məsələn, üzv-

lərin — iştirakçıların arasında rolların və vəzifələrin bölünməsi, silahlı birləşmənin (qrupun) yaradılmasının və fəaliyyət planının hazırlanması, silahlı birləşmənin və onun üzvlərinin maliyyələşdirilməsi, nəqliyyat və digər texniki vasitələrlə təmin olunması və s.) başa düşülməlidir.

Qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak edən şəxs bu birləşmənin (qrupun) üzvü ola və ya olmaya bilər. Belə şəxs tərəfindən silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə hesab edilən hərəkətlərdən hər hansı birinin edilməsi başa çatmış cinayətin tərkibini yaradır.

8. Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları **silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə** dedikdə həmin silahlı birləşmələrə və ya qruplara odlu və ya soyuq silah, döyüş sursatı, tank, top, piyadaların döyüş maşını, hərbi nəqliyyat vasitələri, əsgər geyimləri və s. vermə başa düşülür.

9. **Dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində** silahlı birləşmələr və ya qruplar yaratma, həmin birləşmə və ya qruplarda iştirak etmə (CM-in 279.1-1-ci maddəsi) şərh olunan cinayətin ağırlaşdırıcı halıdır. Həmin əlamətlərin izahı barədə CM-in 214-cü maddəsinin şərhinin 23-cü bəndinə bax.

10. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, o cümlədən dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində yaradılan belə birləşmə və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə basqın etmə CM-in 279.2-ci maddəsi ilə məsuliyyətə səbəb olur. Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, onların yaradılmasında və fəaliyyətində iştirak etmə CM-in 279.1-ci, belə birləşmələrin və ya qrupların tərkibində idarə, müəssisə və təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə isə 279.2-ci maddəsi ilə tam əhatə olunduğuna görə təqsirkarın əməlinin əlavə olaraq CM-in 217-ci maddəsi ilə tövsifi tələb olunmur. Belə basqın adamların həlak olmasına və ya digər ağır nəticələrə səbəb olduqda, təqsirkar şəxslərin əməli CM-in 279.3-cü maddəsi ilə tövsif olunur. Burada **digər ağır nəticələr** dedikdə adamların sağlamlığına qəsdən ağır zərər vurma, idarə, müəssisə və təşkilatların, habelə ayrı-ayrı şəxslərin əmlakını qəsdən məhv etmə və s. başa düşülməlidir.

11. CM-in 279.3-cü maddəsi üzrə cinayət burada göstərilən nəticələr (adamların həlak olması və ya digər ağır nəticələr) baş verdikdə başa çatmış hesab olunur. Həmin nəticələr ağırlaşdırıcı tərkib əlamətini nəzərdə tutan bu cinayət tərkibi (CM-in 279.3-cü maddəsi) ilə tam əhatə olunduğundan CM-in bu nəticələrə görə məsuliyyət müəyyən edən maddələri ilə (CM-in 120-ci, 126-cı və ya 186-cı maddələri) əlavə tövsif tələb olunmur.

12. CM-in 279-cu maddəsi (279.3-cü maddə istisna olunmaqla) silahlı birləşmələrin və ya qrupların fəaliyyətinin nəticələrinə görə cinayət məsuliyyəti müəyyən etmir. Ona görə də silahlı birləşmələrin belə fəaliyyəti qanunla cinayət hesab edilən nəticələrə səbəb olduqda (CM-in 279.3-cü maddəsində göstərilən nəticələr istisna olunmaqla), məsələn, əmlak talan edildikdə, qəsdən

sağlamlığa zərər vurulduqda, zərərçəkənlərə əzab verildikdə, zorlama və s. kimi cinayətlər törədildikdə, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında, yəni həm 279-cu maddə ilə, həm də faktiki törədilən cinayətə görə məsuliyyət nəzərdə tutan maddə ilə tövsif edilməlidir.

13. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkarın CM-in 279.3-cü maddəsində göstərilən nəticələrə, eləcə də bu cinayətlə əlaqədar baş verə biləcək sair nəticələrə olan psixi münasibəti isə həm qəsd, həm də **ehtiyatsızlıq** formasında təzahür edə bilər.

CM-in 279-cu maddəsi qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılmasının və fəaliyyətinin məqsədlərinin konkret nədən ibarət olduğunu müəyyən etmir. Bu məqsəd müxtəlif ola bilər. Əgər qanunsuz silahlı birləşmələrin yaradılmasında güdülən məqsəd qanunla başa çatmış və ya başa çatmayan (cinayətə hazırlıq və cinayət etməyə cəhd) cinayətin tərkibini yaradırsa, o halda təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır. Məsələn, qanunsuz silahlı birləşmələrin Azərbaycan xalqına və ya konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmək, hakimiyyəti zorla ələ keçirmək və ya saxlamaq, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmək məqsədi ilə, habelə silahlı qiyam təşkil etmək, mülkiyyət və ictimai təhlükəsizlik əleyhinə cinayətlər törətmək məqsədi ilə yaradılması və ya fəaliyyət göstərməsi və s.

14. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Silahlı birləşmələrin və ya qrupların tərkibində müxtəlif cinayətlərin törədilməsində iştirak etmiş 16 yaşınadək olan şəxslər yalnız 14 yaşına çatmış şəxslərin məsuliyyətə cəlb edilə biləcəyi cinayətlərə görə (CM-in 20.2-ci maddəsi) məsuliyyət daşıyırlar.

15. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 280. Silahlı qiyam

Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirmək və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamaq məqsədi ilə silahlı qiyam təşkil etmə və ya qiyamda fəal iştirak etmə —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(30 may 2014-cü il tarixli Qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 20 iyun 2014-cü il).*

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi, konstitusiya quruluşunun əsasları və ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

2. Bu cinayət **obyektiv cəhətdən** silahlı qiyam təşkil etmədə və ya qiyamda fəal iştirak etmədə ifadə olunur.

3. **Silahlı qiyam təşkil etmə** dedikdə Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirmək və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamaq məqsədi ilə bir və ya bir neçə silahlı birləşmələr (qruplaşmalar) formasında cinayətkar birliyin (qrupun) yaradılması başa düşülür. Silahlı birləşmələr və ya qruplar həm Azərbaycan Respublikası qanunveri-

ciliyi ilə nəzərdə tutulan, həm də nəzərdə tutulmayan silahlı birləşmə və ya qruplardan ibarət ola bilər. Silahlı qiyam zamanı Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrdən və ya qruplardan istifadə edildikdə, təqsirkarın əməli cinayətlərin məcmusu (CM-in 279-cu və 280-ci maddələri) qaydasında tövsif edilməlidir.

«Silahlı qiyam təşkil etmə» ifadəsi hər bir halda CM-in 280-ci maddəsinin dispozisiyasında göstərilən məqsədlərə nail olmaqdan ötrü silahlı qiyamçı qrupun yaradılmasına gətirib çıxaran hər hansı bir hərəkətin edilməsini nəzərdə tutur. Belə hərəkətlər kriminal niyyəti həyata keçirməkdən ötrü silah və döyüş sursatları əldə edilməsində, silahlı qiyamda iştirak etmək üçün iştirakçıların axtarılıb tapılmasında və ya onların qiyamçı qrupa cəlb edilməsində, yaxud cəlb edilməyə razılığın alınmasında, qiyam planının hazırlanmasında və ya qiyam iştirakçıları arasında rolların (funksiyaların) bölünməsində və s. ifadə oluna bilər.

4. Silahlı qiyamda **fəal iştirak etmə** dedikdə qiyamçı silahlı birləşmələrin (qrupların) dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmək və ya ərazi bütövlüyünü parçalamaq məqsədi ilə apardıqları döyüş əməliyyatlarında, hücumlarında, hakimiyyət nümayəndələrinə və hökumət qüvvələrinə silahlı müqavimət göstərilməsində, silahlı qiyam təşkilatçılarının müxtəlif döyüş tapşırıqlarının yerinə yetirilməsində iştirak etmə başa düşülür. Belə iştirak həm bilavasitə, həm də silahlı qiyamçıların mənafeyi naminə müxtəlif hərəkətlərin (qiyamçıların maliyyələşdirilməsi, qiyama rəhbərlik edilməsi, qiyamçıların silah və döyüş sursatları ilə, zəruri texniki vasitələrlə: nəqliyyat vasitələri, ratsiya, mobil telefon və s. təchiz olunması, qiyamçıların zəbt edəcəkləri mühüm dövlət və ictimai əhəmiyyətli obyektlərin müəyyən olunması və s.) həyata keçirilməsində ifadə oluna bilər.

5. Silahlı qiyam kriminal məqsədə (konstitusiya quruluşunun zorla dəyişdirilməsi və ya ərazi bütövlüyünün parçalanması) nail olunub-olunmamasından asılı olmayaraq CM-in 280-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan iki hərəkətdən hər hansı birinin edildiyi andan **başa çatmış** hesab olunur.

Silahlı qiyamın təşkil edilməsinə və ya qiyamda fəal iştirak etməyə yönəlmiş hərəkətlər bu cinayətin subyektlərinin iradəsindən asılı olmayan səbəblərə görə silahlı qiyamçı qrupunun yaradılması ilə nəticələnmədikdə (belə hərəkətləri onların qarşısının alınması və ya başqa səbəblər üzündən həyata keçirə bilməmə) və yaxud həmin qrupda fəal iştirak etmə imkanı tam aradan qalxdıqda, belə hərəkətlər silahlı qiyama cəhd kimi qiymətləndirilir (CM-in 29-cu və 280-ci maddələri).

6. Silahlı qiyamın əsas əlamətlərindən biri qiyamın iştirakçılarında **silahın** olmasıdır. Bu zaman qiyam iştirakçılarının ən azı birində silah olması və digər iştirakçılarda həmin silahın tətbiqinin mümkünlüyünü yəqin (ehtimal) etməyə əsas verən məlumatın olması Azərbaycan Respublikasının konstitusiya quruluşu və ərazi bütövlüyünə qarşı yönəlmiş belə hərəkətləri silahlı qiyam hesab etməyə əsas verir.

Əgər silahlı qiyamın təşkil olunması və ya qiyamda fəal iştirakın təmin edilməsi üzrə bütün zəruri hərəkətlər edilmişdirsə, lakin silah əldə olunmamışdırsa, belə hərəkətlər silahlı qiyama cəhd kimi tövsif edilməlidir.

7. CM-in 280-ci maddəsinə görə silahlı qiyamın təşkil edilməsi və ya belə qiyamda fəal iştirak etmə anından cinayət başa çatdığı üçün silahlı qiyamla əlaqədar baş verə biləcək nəticələrə görə 280-ci maddədə məsuliyyət nəzərdə tutulmamışdır. Belə nəticələr CM-in digər maddələri ilə cinayət hesab olunduğu halda, təqsirli şəxslərin əməli cinayətlərin məcmusu qaydasında, yəni həm silahlı qiyama görə, həm də faktiki olaraq törədilmiş cinayətə görə məsuliyyət nəzərdə tutan maddələrlə tövsif olunmalıdır.

8. **Subyektiv cəhətinə** görə silahlı qiyam **birbaşa qəsdlə** törədilir. Təqsirkar Azərbaycan Respublikasının Konstitusiya quruluşunu zorla dəyişdirmək və ya ərazi bütövlüyünü parçalamaq məqsədi ilə silahlı qiyam təşkil etdiyini və ya qiyamda fəal iştirak etdiyini dərk edir və bunları törətməyi arzu edir. Məqsəd (Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirmək və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamaq) cinayət tərkibinin zəruri əlamətidir.

Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirmənin anlayışı CM-in 278-ci maddəsinin şərhində verilmişdir.

9. Cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

10. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 281. Dövlət əleyhinə yönələn açıq çağırışlar

281.1. Hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

281.2. Eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

281.3. Bu Məcəllənin 281.1 və 281.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə törədildikdə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının konstitusiya quruluşunun təhlükəsizliyi ilə əlaqədar ictimai münasibətlərdir.

2. Bu cinayət **obyektiv cəhətdən** CM-in 281-ci maddəsində göstərilən hərəkətlərdən hər hansı birinin edilməsində ifadə olunur: 1) hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə; 2) bu cür məzmunlu materialları yayma.

3. «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bəzi normalarının tətbiqi

qaydası haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 11 aprel 1995-ci il tarixli qərarının 2-ci bəndinə əsasən CM-in 63-cü maddəsində (hazırda qüvvədə olan CM-in 281-ci maddəsində) **çağırışlar** dedikdə insanların iradəsinə təsir edərək, onları bu maddədə göstərilən əməllərin törədilməsinə cəlb etməyə yönələn fəal hərəkətlər başa düşülməlidir.

Açıq çağırışlar, bir qayda olaraq, qeyri-məhdud şəxslər dairəsinə yönəlir. Burada kütləvilik çağırışın məcburi ünsürü hesab olunur. Çağırışın kütləviliyini qiymətləndirərkən müraciətin yeri, üsulu, konkret şərait və sairə nəzərə alınmalıdır. Hər bir halda kütləvilik əlamətinin mövcudluğu üçün çağırışın iki və ya daha çox şəxs tərəfindən qəbul edilməsi vacibdir. Televiziya, radio, səsgücləndirici vasitələrlə, vərəqələr yaymaqla, mitinqlər keçirməklə müraciət çağırışın kütləviliyinə nümunə ola bilər.

Çağırışın açıqlığı təqsirkar şəxslərin bu cinayəti törədərkən kütləni aşkar surətdə insanlarda mövcud hakimiyyətə və konstitusiya quruluşuna nifrət yaradan, onları hakimiyyət əleyhinə qiyama, kütləvi iğtişaşa çağıran, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamağa və s. qanunsuz hərəkətlər etməyə sövq edən yazılı və yaxud şifahi müraciətlərində ifadə olunur.

Açıq çağırışlar həmçinin qanuni yolla seçilmiş və ya təyin olunmuş vəzifəli şəxsləri tanımamağa, onlara qarşı açıq itaətsizliyə, habelə onların bilavasitə özünə və ya yaxın adamlarına qarşı zor tətbiq etməyə yönəlmiş qanunsuz müraciətlərdə də ifadə oluna bilər.

4. CM-in 281-ci maddəsinə görə istənilən məzmunda deyil, yalnız hakimiyyətin zorla ələ keçirilməsinə, saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönəlmiş açıq çağırışlar cinayət hesab edilir. Hakimiyyətin zorla ələ keçirilməsi, saxlanılması və ya konstitusiya quruluşunun zorla dəyişdirilməsi haqqında 278-ci maddənin şərhinə bax.

5. Hakimiyyət, konstitusiya quruluşu və ərazi bütövlüyü haqqında məhdud şəxslərin dairəsində fikirlərin, mövqelərin açıqlanması və ya zorakı xarakterli müəyyən konkret hərəkətlərin edilməsinə yönəlmiş çağırış olmadan təsadüfən toplanmış şəxslərin öz aralarında belə fikir mübadiləsi aparmaları göstərilən cinayətin tərkibini yaratmır.

6. **Bu cür məzmunlu materiallar** dedikdə hakimiyyəti ələ keçirməyə, saxlamağa və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunu zorla dəyişdirməyə, yaxud ərazi bütövlüyünü parçalamağa yönəlmiş məzmuna malik olan müxtəlif əyani vəsaitlər, texniki vasitələr (məsələn, Azərbaycan Respublikasının ərazisini parçalanmış halda təsvir etmiş xəritələr, audio və video kasetlər və s.) başa düşülür. Belə məzmunlu materiallar duyğu orqanlarının köməyi ilə hissi qavrayışın müxtəlif formalarında (görməklə, eşitməklə) insanların təfəkküründə yer tutmaqla onların iradəsinə təsir göstərərək həmin insanları CM-in 281-ci maddəsində göstərilən əməllərdən birinin törədilməsinə sövq edə bilər.

7. Həmin materialları **yayma** dedikdə isə onların qeyri-məhdud şəxslər dairəsinə ötürülməsi, verilməsi və ya təqdim olunması başa düşülməlidir. Burada da kütləvilik yaymanın məcburi ünsürüdür.

8. Açıq çağırışların edildiyi və materialların yayıldığı andan cinayət **başa çatmış** hesab olunur.

9. Eyni hərəkətlər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə əməl CM-in 281.2-ci maddəsi ilə tövsif olunur. Cinayətin təkrar və ya bir qrup şəxs tərəfindən törədilməsi haqqında CM-in 16.1-ci və 34.1-ci maddələrinin şərhinə bax.

10. CM-in 281.1-ci və 281.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xarici təşkilatların və ya onların nümayəndələrinin tapşırığı ilə törədildikdə CM-in 281.3-cü maddəsi ilə cinayət məsuliyyəti yaranır.

11. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etdiyini, yaxud bu cür məzmunlu materialları yaydığını dərk edir və bunları törətməyi arzu edir.

12. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış (həm vəzifəli, həm də vəzifəsi olmayan) anlaqlı fiziki şəxs ola bilər.

13. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 282. Təxribat

282.1. Azərbaycan Respublikasının müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədi ilə müəssisələrin, qurğuların, yolların, əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağıdılmasına, yaxud zədələnməsinə yönəldilən partlayışlar, yanğınlar və sair hərəkətlər törətmə, həmçinin eyni məqsədlə kütləvi surətdə zəhərləmə və ya insanlar və heyvanlar arasında yoluxucu xəstəliklər yayma —

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

282.2. Eyni əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə —

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(30 may 2014-cü il tarixli Qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 20 iyun 2014-cü il).*

1. Bu cinayətin əsas bilavasitə obyekti Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin və iqtisadi təhlükəsizliyinin əsaslarının təmin edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir. Əlavə obyekt qismində qeyri-müəyyən sayda insanların həyatı və sağlamlığı, mülkiyyət münasibətləri və s. çıxış edir.

2. Müəssisələr, qurğular, yollar, əlaqə və rabitə vasitələri, əhalinin həyat təminatı obyektləri, heyvanlar bu cinayətin predmeti, insanlar isə bu cinayət nəticəsində zərərçəkmiş şəxs qismində çıxış edirlər.

Əhalinin həyat təminatı obyektlərinə ictimai iaşə və ticarət təşkilatları, qaz, su və enerji təchizatı müəssisələri, ərzaq anbarları, xəstəxanalar, sanatoriyalar, kurort-müalicə mərkəzləri və s. aiddir.

İnsanların bilavasitə şəxsi tələbatlarını ödəmək üçün nəzərdə tutulan şəxsi əmlakı — ev, məhdud sayda mal-qara və s. təxribatın predmeti ola bilməz.

3. Təxribat **obyektiv cəhətdən** müəssisələrin, qurğuların, yolların, əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağıdılmasına, yaxud zədələnməsinə yönələn partlayışlar, yanğınlar və sair hərəkətlər törətmədə, həmçinin kütləvi surətdə zəhərləmədə və ya insanlar və heyvanlar arasında yoluxucu xəstəliklər yaymada ifadə olunur.

Təxribat bu cinayətin predmetinin dağıdılması və ya zədələnməsi yolu ilə törədilə bilər.

4. **Dağıdılma** dedikdə göstərilən predmetlərin tam yararsız vəziyyətə gətirilməsi başa düşülür ki, bu halda onların təyinatı üzrə istifadə edilmək üçün yararlı vəziyyətə salınması texniki cəhətdən qeyri-mümkün olur və yaxud iqtisadi baxımdan məqsədəuyğun hesab edilmir.

5. **Zədələnmə** dedikdə isə təxribat predmetlərinin qismən yararsız vəziyyətə gətirilməsi başa düşülür ki, bu zaman müvafiq təmir aparmaqla onu istifadə üçün yararlı vəziyyətə salmaq mümkün sayılır.

6. Müəssisələrin, qurğuların, yolların, əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağıdılmasına, yaxud zədələnməsinə yönələn partlayışlar, yanğınlar və sair hərəkətlər törətmə formasında təxribat partlayışların, yanğınların və sair hərəkətlərin törədildiyi andan **başa çatmış** hesab olunur.

7. **Kütləvi surətdə zəhərləmə** dedikdə müxtəlif zəhərli vasitələr tətbiq etməklə çoxlu sayda insanın sıradan çıxarılmasına yönələn hərəkətlər (sututarların, qida məhsullarının zəhərlənməsi və s.) başa düşülür. Təxribatın bu forması kütləvi zəhərlənmə anından **başa çatmış** hesab olunur. Zəhərlənmənin nəticələri (ölüm, sağlamlığa ciddi zərər dəyməsi və s.) bu cinayətin obyektiv cəhətinin zəruri əlaməti sayılmır və buna görə də cinayətin tövsifi üçün əhəmiyyət kəsb etmir.

Zəhərləmənin kütləviliyi qiymətləndirilərkən onun xarakteri və nəticələri nəzərə alınmalıdır.

8. **İnsanlar və heyvanlar arasında yoluxucu xəstəliklər yayma** insanlar arasında epidemiyaların, heyvanlar arasında isə epizootiyaların yayılmasında ifadə olunur. Burada kütləvilik yaymanın məcburi əlaməti deyildir. Hətta insanların və heyvanların məhdud dairəsində belə xəstəliklərin (taun, vərəm, İİV, qara yara, Sibir xorası və s.) yayılması da şərh olunan cinayətin tərkibini yaradır.

İnsan və heyvan orqanizmi üçün ciddi nəticələr doğurmayan xəstəliklərin (məsələn, adi qripin və s.) yayılması göstərilən cinayətin tərkibini yaratmır.

9. İnsanlar və heyvanlar arasında yoluxucu xəstəliklərin yayıldığı andan cinayət **başa çatmış** hesab olunur.

10. Təxribat **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar müəssisələrin, qurğuların, yolların, əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağıdılmasına və ya zədələnməsinə yönələn partlayışlar, yanğınlar və sair hərəkətlər törətdiyini, insanları kütləvi surətdə zəhərlədiyini və ya insanlar və heyvanlar arasında yoluxucu xəstəliklər yaydığını dərk edir və bunu arzu edir.

Cinayət tərkibinin yaranması üçün cinayətin obyektiv cəhətini təşkil edən

hərəkətlərin Azərbaycan Respublikasının müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədi ilə edilməsi tələb olunur.

11. Cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

12. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

13. CM-in 282.2-ci maddəsi eyni əməllərin mütəşəkkil dəstə tərəfindən törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutur. Mütəşəkkil dəstənin anlayışı haqqında CM-in 34.3-cü maddəsinin şərhinə bax.

Maddə 283. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması

283.1. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə —

səkkiz min manatdan on iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

283.1-1. Bu Məcəllənin 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllər dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

283.2. Eyni əməllər:

283.2.1. zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə;

283.2.2. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

283.2.3. mütəşəkkil dəstə tərəfindən törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

283.3. Bu Məcəllənin 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsinin maliyyələşdirilməsi —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 30 dekabr 2003-cü il, 16 may 2008-ci il, 31 may 2011-ci il, 14 mart 2014-cü il, 28 oktyabr 2016-cı il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə – «Azərbaycan» q., 1 fevral 2004-cü il; 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; 3 aprel 2014-cü il; 18 dekabr 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** milli, irqi, sosial və ya dini hüquq bərabərliyi və bu sahədə Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmiş

əsas hüquq və azadlıqlardır (hər hansı dinə etiqad etmək və etməmək azadlığı).

Azərbaycan Respublikası Konstitusiyasına görə, bütün dini etiqadlar qanun qarşısında bərabərdir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır (maddə 18); dövlət irqindən, milliyyətindən, dinindən və s. asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini və s. mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır (25-ci maddənin 3-cü hissəsi); hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz (maddə 44); irqi, milli, sosial, dini nifrət və s. düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir (47-ci maddənin 3-cü hissəsi); hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır (maddə 48).

2. Bu cinayət **obyektiv cəhətdən** milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərin müəyyən edilməsinə yönələn hərəkətlərdə ifadə olunur.

Milli, irqi, sosial və ya dini nifrət və düşmənçilik salınmasına yönələn hərəkətlər bu məqsədlə edilmiş hər hansı bir hərəkətin (millətlərə, dinlərə və irqlərə qarşı, onların adət-ənənələrinə, həyat tərzinə, məişətinə qarşı aşkar hörmətsizlik, nifrət ifadə edən ideyaların təbliğat və təşviqatının aparılması, irqçilik təbliğatının aparılması, xalqların milli, dini rəhbərlərinin təhqir edilməsi, milli-mədəni və dini mərkəzlərin dağıdılması və s.) törədilməsini nəzərdə tutur.

Milli ləyaqətin alçaldılması dedikdə milli əlamətinə görə insanları hər hansı formada təhqir etmə, ələ salma, bu və ya digər millətə mənsub olan tarix, mədəniyyət, incəsənət abidələri üzərində vandalizm aktı törətmə, adət-ənənələri məsxərəyə qoyma və s. başa düşülür.

3. Milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq **vətəndaşların hüquqlarının məhdudlaşdırılması** və ya **üstünlüklər müəyyən edilməsi** həm bilavasitə, həm də dolayı, həm açıq, həm də üstüörtülü şəkildə və eləcə də müxtəlif subyektiv hüquqlara (əmək, təhsil, seçki hüququ və s.) münasibətdə edilə bilər. Belə hərəkətlər milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq insanların əmək hüququnu (işə götürmə zamanı, məzuniyyət verilməsi ilə əlaqədar, əmək haqqının müəyyən edilməsi və s.), sosial təminat hüququnu (pensiyaların, müavinətlərin müəyyən edilməsi və s.) və sair hüquqlarını məhdudlaşdırmada və ya bu əsasda üstünlüklər (imtiyazlar) müəyyən etmədə ifadə oluna bilər.

4. Təhlil edilən cinayətin obyektiv cəhətinin zəruri əlamətlərindən biri də **cinayətin edilmə üsuludur**. CM-in 283.1-ci maddəsinin dispozisiyasında nəzərdən keçirilən hərəkətlər yalnız o halda cinayət hesab edilir ki, həmin hərəkətlər aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədilmiş olsun.

5. CM-in 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsi (CM-in 283.1-1-ci maddəsi) şərh olunan cinayətin **ağırlaşdırıcı tərkibini** təşkil edir. Həmin əlamətlərin izahı barədə CM-in 214-cü maddəsinin 23-cü bəndinə bax.

6. CM-in 283.2-ci maddəsi **xüsusilə ağırlaşdırıcı əlamətləri** nəzərdə tutan aşağıdakı cinayət tərkiblərini müəyyən edir:

1) eyni əməllərin zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədilməsi. Burada **zor tətbiq etmə** dedikdə əzab vermə, zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurma başa düşülür. Zor tətbiq edilməsi ilə əlaqədar qanunun cinayət hesab etdiyi daha ağır nəticələr baş verdikdə (zərərçəkmiş şəxsin ölümü, onun sağlamlığına ağır və ya az ağır zərər vurulması), təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında — CM-in 283.2.1-ci maddəsi və həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddə ilə tövsif olunmalıdır. Zor tətbiq etməklə hədələmə zərərçəkmiş şəxsi öldürməklə, onun sağlamlığına hər hansı ağırlıqlı zərər vurmaqla, döyməklə, əzab verməklə qorxutmada və s. ifadə oluna bilər. Bütün hallarda təqsirkarın əməli CM-in 283.2.1-ci maddəsi ilə tövsif olunmalıdır.

2) eyni əməllərin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi (CM-in 283.2.2-ci maddəsi). Bu halda CM-in 308-ci maddəsi ilə əlavə tövsif tələb olunmur;

3) eyni əməllərin mütəşəkkil dəstə tərəfindən törədilməsi (CM-in 283.2.3-cü maddəsi). CM-in 34.3-cü maddəsinin şərhinə bax.

7. Şərh olunan cinayət nəticənin baş verib-verməməsindən asılı olmayaraq CM-in 283-cü maddəsində göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi andan **başa çatmış** sayılır.

8. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə etməklə milli, irqi, sosial və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə bu əsasda hüquqların məhdudlaşdırılmasına və ya üstünlüklərin müəyyən edilməsinə yönələn hərəkətlər etdiyini dərk edir və bunu arzu edir. Təqsirkar bu cinayəti edərkən milli, irqi və ya dini düşmənçilik salmaq məqsədi daşıyır. Bu mənada hər hansı bir millətin (xalqın, etnik qrupun), dinin və ya irqin müsbət və ya mənfi cəhətləri haqqında aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə etməklə diskussiya aparmaq bu cinayətin tərkibini yaratmır.

9. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

10. Şərh olunan cinayətin müstəqil tərkibi kimi CM-in 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin **dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsinin maliyyələşdirilməsi** nəzərdə tutulmuşdur. CM-in 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin maliyyələşdirilməsi barədə CM-in 214-1-ci maddəsinin, belə əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsinin izahı haqqında CM-in 214-cü maddəsinin şərhinin 23-cü bəndinə bax.

11. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüqu-**

qi şəxsə cinayət-hüquqi tədbirlər tətbiq oluna bilər (CM-in 99-4-99-9-cu maddələrinin şərhinə bax).

Maddə 283-1. Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədi ilə sabit qrup yaratma

283-1.1. Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçirmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə —

doqquz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

283-1.2. Eyni əməllər yetkinlik yaşına çatmayan şəxsi cəlb etməklə törədildikdə —

on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

283-1.3. Bu Məcəllənin 283-1.1-ci maddəsində nəzərdə tutulmuş qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə —

yeddi ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

283-1.4. Bu Məcəllənin 283-1.1-283-1.3-cü maddələrində nəzərdə tutulan hərəkətlərin törədilməsinə açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materiallar yayma —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 283-1.1-283-1.3-cü maddələrində nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla həmin maddələrdə nəzərdə tutulan əməllərin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir *(Azərbaycan Respublikasının 14 mart 2014-cü il tarixli, 919-IVQD nömrəli Qanunu ilə əlavə edilmişdir; 28 oktyabr 2016-cı il tarixli Qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 3 aprel 2014-cü il; 18 dekabr 2016-cı il).*

1. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, dini ayrıseçkilik və düşmənçilik, habelə dini məzhəbləri yaymaq zəminində insanlar Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb edilir, həmin insanlar belə münaqişələrin iştirakçılarına və qurbanlarına çevrilir, Azərbaycan Respublikası ilə ərazisində silahlı münaqişə gedən dövlət arasındakı əlaqələr zərər görür, Azərbaycan Respublikası başqa dövlətlərin siyasi və digər təsirlərinə məruz qalır.

2. Bu cinayətin **əsas obyekti** Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini (xarici və daxili təhlükəsizliyini) təmin edən ictimai münasibətlər sistemidir. Cinayətin törədilməsi ilə Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilmiş dini etiqad azadlığına, dövlətin dinlərə eyni bərabərlikdə yanaşmasına, dini tolerantlığa qəsd edilmiş olur. Cinayətin **əlavə obyekti** qismində

şəxsiyyətin həyatı və sağlamlığı çıxış edir.

3. CM-in 283-1.1-ci maddəsində göstərilən cinayət **obyektiv cəhətdən** Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası altında, yaxud dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində: 1) Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmədə; 2) bu məqsədlə döyüş təlimləri keçirmədə; 3) həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratmada və ya belə qruplara rəhbərlik etmədə ifadə olunur.

Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə **cəlb etmə** dedikdə yaşından, mili və ya dini mənsubiyyətindən asılı olmayaraq onlarda münaqişə yerinə göndərilmək, münaqişədə iştirak etmək istəyinin yaradılmasına yönəldilmiş fiziki və ya psixi təsirlərin (döymə, əzab vermə, cəzasız qalacağına inandırma, hədələmə və qorxutma, ələ alma, aldatma, intiqam hisslərini oyatma və s.) tətbiq olunması ilə müşayiət olunan hərəkətlər başa düşülür. Göstərilən təsirlərə baxmayaraq şəxsi silahlı münaqişədə iştirak etməyə razı salmaq mümkün olmadıqda, əməl cəlb etməyə cəhd kimi qiymətləndirilməlidir. Şəxsin silahlı münaqişədə iştirak etməyə razı salındığı andan cinayət başa çatmış sayılır. Razı salınan şəxs silahlı münaqişədə iştirak etdiyi hallarda onun əməli CM-in 283-1.3-cü maddəsi ilə tövsif edilməlidir.

Silahlı münaqişədə iştirak etməyə yetkinlik yaşına çatmayan şəxs cəlb edildikdə, cəlb edən şəxsin əməli CM-in 283-1.2-ci maddəsi ilə tövsif edilməlidir.

Şərh olunan maddə ilə cinayət məsuliyyətinin yaranması üçün silahlı münaqişə Azərbaycan Respublikasının hüdudlarından kənarda olmalıdır. Silahlı münaqişə dedikdə tərəflərin silahdan istifadə etdikləri istənilən qarşıdurma (döyüş, müharibə və s.) başa düşülür.

Azərbaycan Respublikası vətəndaşlarına və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə dini məzhəbləri yaymaq, dini ayinlərin icrası altında, yaxud dini düşmənçilik zəminində **döyüş təlimləri keçirmə** dedikdə təlim alanlara odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, döyüş texnikasından, kimyəvi, bakterioloji silahlardan istifadə etmənin taktiki-texniki qaydalarını öyrətmə başa düşülür. Təlimlərin keçirilməsinin forma və üsullarının müxtəlifliyi əməlin CM-in 283-1.1-ci maddəsi ilə tövsifini dəyişmir.

Dini məzhəbləri yaymaq, dini ayinlərin icrası altında, yaxud dini düşmənçilik zəminində fəaliyyət göstərən **sabit qrup yaratma** dedikdə sabit və müntəzəm əlaqələri olan iki və ya daha çox şəxsdən ibarət olan mütəşəkkil dəstənin təşkil edilməsi başa düşülməlidir. Qrup üzvlərində odlu və ya soyuq silahın olub-olmaması sabit qrupun yaranmasının şərti kimi çıxış etmir. Qrupun əlamətləri barədə əlavə olaraq CM-in 34-cü maddəsinin şərhinin 9-10-cu bəndlərinə bax.

Dini məzhəbləri yaymaq, dini ayinlərin icrası altında, yaxud dini düşmənçilik zəminində fəaliyyət göstərən sabit qruplara **rəhbərlik etmə** dedikdə qrup üzvləri arasında rolların (vəzifələrin) bölüşdürülməsi, fəaliyyət planlarının tərtib

edilməsi, qrupdaxili rəhbər-tabeçilik münasibətlərinin müəyyən olunması, qrupun fəaliyyətinin istiqamətləndirilməsi, birliyin sıravi üzvlərinə göstərişlərin verilməsi və s. bu kimi hərəkətlərin edilməsi başa düşülür.

4. CM-in 283-1.1-ci maddəsində əks olunan cinayət **formal** tərkiblidir. Bu cinayət maddənin dispozisiyasında göstərilən əməllər (silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçirmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qruplara rəhbərlik etmə) edildiyi andan **başa çatmış** sayılır. Hərəkətlərin törədilmə üsulları əməlin tövsifinə təsir göstərmir. Silahlı münaqişəyə cəlb edən şəxs həm də silahlı münaqişədə iştirak edərsə, onun əməli CM-in 283-1.1-ci və 283-1.3-cü maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

5. CM-in 283-1.1-283-1.4-cü maddələrində göstərilən cinayət əməlləri **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs həmin maddələrdə nəzərdə tutulan əməllərin ictimai təhlükəli olduğunu dərk edir və həmin əməlləri törətməyi arzu edir. **Məqsəd** CM-in 283-1.1-ci maddəsində təsbit edilmiş cinayət tərkibinin zəruri əlamətidir. Bu maddə ilə cinayət məsuliyyəti o halda yarana bilər ki, şəxs Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası altında, yaxud dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində silahlı münaqişələrə cəlb etmiş olsun, onlara döyüş təlimləri keçirsin, yaxud sabit qrup yaratsın və ya belə qruplara rəhbərlik etsin. İstənilən başqa məqsəd bu maddə ilə məsuliyyəti istisna edir.

Dini məzhəbləri yaymaq, dini ayinlərin icrası altında qanunsuz fəaliyyət haqqında CM-in 168-ci maddəsinin, dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində cinayətin törədilməsi barədə CM-in 214-cü maddəsinin şərhinin 23-cü bəndinə bax.

6. CM-in 283-1.1-283-1.4-cü maddələrində ifadə olunan cinayətlərin **subyekti** cinayət törədilərkən **16 yaşına** çatmış anlaqlı fiziki şəxs ola bilər.

7. Şərh olunan cinayətin **ağırlaşdırıcı halı** CM-in 283-1.2-ci maddəsində nəzərdə tutulmuşdur: eyni əməllərin yetkinlik yaşına çatmayan şəxsin cəlb edilməsilə törədilməsi.

Yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin silahlı münaqişələrə cəlb edilməsi, onlara döyüş təlimləri keçirilməsi, onların iştirakı ilə fəaliyyət göstərən sabit qrup yaradılması və belə qruplara rəhbərlik etmə bu əməlin ictimai təhlükəliliyini artırır.

Qeyd olunan ağırlaşdırıcı tərkib əlamətinin yaranması üçün CM-in 283-1.1-ci maddəsinin dispozisiyasında sadalanan əməllər törədilərkən silahlı münaqişələrə, döyüş təlimlərinə, sabit qrupa cəlb edilən şəxs yetkinlik yaşına (18 yaşına) çatmamalıdır.

8. CM-in 283-1.3-cü maddəsində müstəqil cinayət tərkibi nəzərdə tutulmuşdur. Bu maddədə əks olunan cinayət **obyektiv cəhətdən** sabit qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmədə ifadə olunur. **Sabit qruplarda** (mütəşəkkil dəstələrdə) **iştirak etmə** dedikdə qrupun üzvü olan və ya qrup üzvü olmasa da, qrupda iştirak etdiyini dərk edən şəxs tərəfindən qrupun

qanunsuz fəaliyyətində bilavasitə iştirak etmə və ya qrupun fəaliyyəti üçün zəruri olan sair hərəkətləri etmə (məsələn, qrup rəhbərinin tapşırıqlarını yerinə yetirmə, qrupu nəqliyyat və digər vasitələrlə təmin etmə və s.) başa düşülür. **Təlimlərdə iştirak etmə** dedikdə formasından asılı olmayaraq odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, döyüş texnikasından, kimyəvi, bakterioloji silahlardan istifadə etmənin taktiki-texniki qaydalarının, eləcə də döyüş aparma qaydalarının öyrədildiyi toplanışlarda bilavasitə iştirak etmə başa düşülür. **Silahlı münaqişələrdə iştirak etmə** münaqişə tərəflərindən hər hansı birinin və ya bir neçəsinin sıralarında, yaxud münaqişə tərəfi olmayan hər hansı kənar qüvvəni təmsil edərək münaqişəyə hər hansı qisimdə qatılma başa düşülür. İştirakın forma və üsullarının əməlin bu maddə ilə tövsifinə təsiri yoxdur. Şəxsin rabitəçi, kəşfiyyatçı, təxribatçı, tərcüməçi, kompyuter proqramçısı və s. statusda münaqişədə iştirak etməsi əməlin tövsifini dəyişmir.

Sabit qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə formal tərkibli cinayətdir və iştirak etmə anından şərh olunan cinayət **başa çatmış** sayılır. İştirak edən şəxsin qəsdən adam öldürməsi, sağlamlığa ağır zərər vurması hallarında onun əməli əlavə olaraq şəxsiyyət əleyhinə olan cinayətlərdən biri kimi tövsif edilməlidir.

8. CM-in 283-1.4-cü maddəsində müstəqil cinayət tərkibi (CM-in 283-1.1-283-1.3-cü maddələrində nəzərdə tutulan hərəkətlərin törədilməsinə açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materiallar yayma) nəzərdə tutulmuşdur.

Bu cinayət **obyektiv cəhətdən** CM-in 283-1.1-283-1.3-cü maddələrində nəzərdə tutulan hərəkətlərin törədilməsinə açıq çağırışlar etmədə və ya bu cür məzmunlu materiallar yaymada ifadə olunur.

Həmin hərəkətlərin izahı barədə CM-in 214-2-ci maddəsinin şərhinin 3-4-cü, çağırışların anlayışı, açıqlığı, çağırış materiallarının dairəsi və yayılması haqqında CM-in 281-ci maddəsinin şərhinin 3-cü və 6-cı bəndlərinə bax.

9. Açıq çağırışların edildiyi və materialların yayıldığı andan cinayət **başa çatmış** hesab olunur.

10. CM-in 283-1-ci maddəsinin qeydi CM-in 283-1.1-283-1.3-cü maddələrində nəzərdə tutulan əməli törətmiş şəxsin səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad edilməsinin xüsusi halını nəzərdə tutur. Eyni məzmunlu qeydin izahı barədə CM-in 214-cü maddəsinin şərhinin 24-cü bəndinə bax.

Maddə 284. Dövlət sirrini yayma

284.1. Şəxs tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan dövlət sirrini təşkil edən məlumatların yayılması, dövlətə xəyanət əlamətləri olmadıqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

284.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən səkkiz ilədək

müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(6 mart 2015-ci il və 6 may 2016-cı il tarixli qanunlarla edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 7 mart 2015-ci il; 22 may 2016-cı il).*

1. Bu cinayətin **obyekti** dövlət sirrinin mühafizə edilməsi sahəsində Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini və müdafiə qabiliyyətini təmin edən ictimai münasibətlərdir.

2. Şərh olunan cinayətin **predmeti** dövlət sirrini təşkil edən məlumatlardır (CM-in 274-cü maddənin şərhinə bax.

3. **Obyektiv cəhətdən** bu cinayət dövlət sirrini təşkil edən məlumatların yayılmasında ifadə olunur. **Dövlət sirrini yayma** dedikdə şəxs tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və ya işinə görə ona məlum olan, məzmununu dövlət sirri təşkil edən məlumatların qanunsuz olaraq kənar şəxslərin dairəsinə ötürülməsi başa düşülür.

4. Obyektiv cəhətinə görə bu cinayət həm hərəkətlə, həm də hərəkətsizliklə törədilə bilər. Bu mənada dövlət sirri o zaman yayılmış hesab olunur ki, həmin sirr təqsirkar şəxsin müəyyən hərəkəti və ya hərəkətsizliyi nəticəsində kənar adamlara məlum olsun.

Cinayətin obyektiv cəhətinin əlaməti kimi **hərəkət** dedikdə təqsirkar şəxsin elə bir aktiv davranışı başa düşülür ki, bunun sayəsində dövlət sirri kənar şəxslərə məlum olur. Belə hərəkətlərə məzmunu dövlət sirri olan sənədlərin və predmetlərin saxlanılması qaydalarının hər hansı bir formada pozulması halları aiddir. Məsələn, dövlət sirrinin şifahi və ya yazılı formada, nümayişkaranə surətdə (kənar adamların bilavasitə yanında, yaxud onların eşidə biləcəyi yerdə dövlət sirri olan məlumatlar barədə söhbət etməklə, sxemləri və sair sənədləri göstərməklə və s.) yayılması və s. Dövlət sirri mühazirələr, elmi məruzələr, məqalələr, dissertasiyalar və s. kimi müxtəlif üsullarla yayıla bilər.

Dövlət sirrinin yayılması həm də **hərəkətsizliklə** mümkündür. Məsələn, dövlət sirri olan məlumatların əks olunduğu sənədləri kənar adamların oxuya biləcəyi yerdə qoyub getmək, dövlət sirri olan məlumatların saxlanılması və ya gizliliyinin təmin olunması üçün zəruri tədbirlərin görülməməsi və s.

5. Dövlət sirrini təşkil edən məlumatların kənar şəxslərə məlum olduğu andan bu cinayət **başa çatmış** hesab olunur.

6. CM-in 284.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda 284.2-ci maddə ilə məsuliyyətə səbəb olur. Hansı nəticələrin ağır nəticə hesab olunması haqqında məsələ işin bütün konkret hallarını nəzərə almaqla həll olunur. Xüsusilə mühüm əhəmiyyət kəsb edən dövlət sirri olan məlumatların yayılması, dövlət sirrinin yayılması nəticəsində bu məlumatların xarici dövlətin, xarici təşkilatların və ya onların nümayəndələrinin əlinə keçməsi, həmin məlumatların müharibə vaxtı və ya döyüş şəraitində yayılması və s. ağır nəticələr hesab olunur. Dövlət sirrinin yayılmasının nəticələrinin ağır nəticə hesab olunub-olunmamasını qiymətləndirərkən dövlət sirrinin yayılması nəticəsində dəyən maddi ziyanın həcmi, yəni ölkənin müdafiə qabiliyyəti və iqtisadi təhlükəsizliyi üçün təhlükə törədən mümkün nəticələrinin neytrallaşdırılmasından ötrü zəruri olan məsrəflərin məbləği nəzərə alınmalıdır.

7. Bu cinayət **subyektiv cəhətdən** həm birbaşa və ya dolayı qəsdlə törədilə bilər.

Bu cinayətin törədilməsində qəsd o halda mövcud olur ki, təqsirkar şəxs dövlət sirrini yaydığını qabaqcadan görür və dərk edir, belə əməli törətməyi, onun ictimai təhlükəli nəticələrini bunları arzu edir (birbaşa qəsd), yaxud həmin əmələ, onun nəticəsinə şüurlu surətdə yol verir (dolayı qəsd).

CM-in 24.2-ci maddəsinə görə şərh olunan cinayət ehtiyatsızlıqdan törədildikdə cinayət məsuliyyəti istisna olunur. Lakin bu cinayətin təcrübədə daha çox ehtiyatsızlıqdan törədilməsi halları baş verir. Dövlət sirrinin ehtiyatsızlıqdan yayılması zamanı təqsirkar dövlət sirrinin kənar şəxslərə yayılacağını dərk edir, öz əməlinin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir (cinayətkarcasına özünəgüvənmə) və ya həmin nəticələri lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda onları görmür (cinayətkarcasına etinasızlıq). Dövlət sirrinin ehtiyatsızlıq üzündən yayılması daha çox cinayətkarcasına etinasızlıq formasında törədilir: təqsirkar şəxs unutqanlıq, tələskənlik və s. səbəblər üzündən dövlət sirrinin saxlanılması və qorunması qaydalarını pozur. Məsələn, təqsirkar dövlət sirri olan sənədləri, sxem və çertyojları və s. predmetləri stolun üstündən götürmədən vətəndaşları qəbul edir və bu zaman onları stolun üstündən yığışdırmamaqla qəbula gələn vətəndaşların həmin sənədləri oxuya biləcəyinə şərait yaradır və belə əməlin ictimai təhlükəli nəticələrini qabaqcadan görməli olduğu və görə biləcəyi halda görmür.

Əgər dövlət sirrini yayan şəxs vicdanlı surətdə yanılarsa, yəni saxta sənədlər təqdim etməklə dövlət sirri ilə tanış olmağa gələn şəxsə bilmədən belə imkan yaradarsa, onun cinayət məsuliyyəti istisna olunur.

Bu cinayətin törədilməsində təqsirin formasını müəyyənləşdirərkən nəzərə alınmalıdır ki, təqsirkar yayılan məlumatların dövlət sirri olduğunu dərk etməlidir. Əks təqdirdə cinayət məsuliyyəti istisna olunur.

8. CM-in 284-cü maddəsinin dispozisiyasına görə, dövlət sirrinin yayılması yalnız o halda bu maddə ilə tövsif oluna bilər ki, burada dövlətə xəyanət cinayətinin əlamətləri (CM-in 274-cü maddəsi) olmasın. Dövlətə xəyanət zamanı təqsirkar şəxs dövlət sirrini xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə verdiyini dərk edir və bunları arzu edir. Lakin dövlət sirrini yaymada təqsirkar göstərilən halları dərk etmir.

9. Şərh olunan cinayətin **subyekti** etibar edilmə nəticəsində və ya xidməti vəzifəsinə, yaxud işinə görə dövlət sirrinin məlum olduğu şəxs — **16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Xidməti vəzifəsinə və ya işinə görə dövlət sirri məlum olan şəxslər dövlət sirrinə aid olan məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət orqanlarının (bu orqanların siyahısı Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2005-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «Dövlət sirrinə aid məlumatların Siyahısı» ilə müəyyən edilir) — Azərbaycan Respublikasının daxili və xarici işlər, müdafiə, iqtisadiyyat, təhsil, səhiyyə, nəqliyyat, rabitə və yüksək texnologiyalar, maliyyə və kənd təsərrüfatı nazirliklərinin, dövlət təhlükəsizliyi, Xüsusi Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət

Agentliyinin və s. işçiləri ola bilərlər.

10. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 284-1. Dövlət sirri təşkil edən məlumatların qanunsuz əldə edilməsi

Dövlət sirri təşkil edən məlumatların, məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, talama, aldatma yolu ilə, yaxud məxfi məlumatların gizli əldə edilməsi üçün nəzərdə tutulmuş xüsusi və ya digər texniki vasitələrdən istifadə etməklə qanunsuz əldə edilməsi, dövlətə xəyanət və ya casusluq əlamətləri olmadıqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır

(6 mart 2015-ci il tarixli Qanunla əlavə edilmişdir - «Azərbaycan» q., 7 mart 2015-ci il).

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini, suverenliyini, müdafiə qabiliyyətini təmin edən ictimai münasibətlərdir.

2. Bu cinayətin **predmetini** dövlət sirri təşkil edən məlumatlar, məzmununda dövlət sirri olan sənədlər, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyalar təşkil edir.

3. Dövlət sirri təşkil edən məlumatların anlayışı, onların dairəsi haqqında CM-in 274-cü maddəsinin, məzmununda dövlət sirri olan sənədlərin, barəsindəki məlumatlar dövlət sirri olan əşyaların anlayışı və belə sənəd və əşyaların sırasına nələrin daxil olması haqqında CM-in 285-ci maddəsinin şərhinə bax.

4. Şərh olunan cinayət **obyektiv cəhətdən** dövlət sirri təşkil edən məlumatların, məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların qanunsuz əldə edilməsində ifadə olunur. Qanunverici cinayətin obyektiv cəhətinin zəruri əlaməti kimi əməlin törədilmə üsulunu tərkibə daxil etmişdir. Cinayətin edilmə üsuluna: 1) zor tətbiq etmə; 2) zor tətbiq etməklə hədələmə; 3) hədə-qorxu və ya digər məcburetmə vasitələri tətbiq etmə; 4) talama, aldatma yolu ilə, yaxud məxfi məlumatların gizli əldə edilməsi üçün nəzərdə tutulmuş xüsusi və ya digər texniki vasitələrdən istifadə etmə.

Sadalanan üsullardan kənar hər hansı üsulla dövlət sirri təşkil edən məlumatlar, məzmununda dövlət sirri olan sənədlər, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların əldə edilməsi bu cinayətin tərkibini yaratmır.

5. **Dövlət sirri təşkil edən məlumatların, məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların əldə edilməsi** onların CM-in 284-1-ci maddəsinin dispozisiyasında sadalanan üsulla (üsullarla) əvəzli və ya əvəzsiz əsaslarla (satın almaqla, dəyişməklə, hər hansı xidmətin əvəzi kimi qəbul etməklə və s.) öz sahibliyinə, istifadəsinə və sərəncamına keçirmə başa düşülür. Dövlət sirri təşkil edən məlumatların,

məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların əldə edilməsi qanuni, yaxud qanunsuz ola bilər.

Qanunverici dövlət sirri təşkil edən məlumatların, məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların yalnız qanunsuz əldə edilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutur. Qanunsuz əldə etmə «Dövlət sirri haqqında» 7 sentyabr 2004-cü il tarixli Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1998-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Qayda və Əsasnamənin, Nazirlər Kabinetinin 17 oktyabr 2002-ci il tarixli 162 nömrəli qərarı ilə təsdiq olunmuş «Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi Qaydası»nın, habelə 15 mart 2005-ci il tarixli, 40 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsi Qaydası», «Dövlət sirri təşkil edən məlumatlardan istifadə ilə bağlı işlərin görülməsi prosesində məlumatların mühafizəsinin təmin edilməsi Qaydası», «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması Qaydası», «Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası», «Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası», «Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarətin həyata keçirilməsi Qaydaları»nın və digər normativ hüquqi aktların tələblərini pozmaqla həmin məlumat, sənəd və ya əşyaların əldə edilməsini nəzərdə tutur.

6. **Zor tətbiq etməklə** dövlət sirri təşkil edən məlumatların, məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların əldə edilməsi zərərçəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükəli olmayan döymədə, sağlamlığına az ağır və ya yüngül zərər vurmada ifadə oluna bilər. Zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların əldə edilməsi hallarında cinayət törədən şəxsin əməli cinayətlərin məcmusu ilə, yəni CM-in 284-1-ci və 126-cı maddələri ilə tövsif edilməlidir.

Zor tətbiq etməklə hədələmə sağlamlığa istənilən ağırlıqlı (ağır, az ağır və yüngül) zərər vurmaqla, döyməklə, işgəncə verməklə qorxutmanı nəzərdə tutur.

Hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların əldə edilməsi dedikdə fiziki zor tətbiq etməklə hədələmə istisna olmaqla, şəxsi istənilən formada və məzmunda onun, yaxud onun ailə üzvlərinin, yaxın qohumlarının və s. barəsində hər hansı arzu olunmayan qərarın qəbul ediləcəyi (məsələn, əmək müqaviləsinə xitam veriləcəyi), yaxud arzuolunmaz nəticələrə səbəb ola biləcək hərəkətlərin ediləcəyi (yaxın qohumunun məsuliyyətə cəlb olunacağı) ilə qorxutmaqla sadalanan məzmunda olan məlumat, sənəd və ya əşyaya yiyələnmə başa düşülməlidir.

Dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların **tələmə yolu ilə əldə edilməsi** dedikdə talamanın istənilən formasında, yəni oğurluq, soyğunçuluq, dələduzluq, mənimsəmə, quldurluq yolu ilə həmin məlumat, sənəd və ya əşyaya yiyələnmə başa düşülməlidir.

Dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların **aldatma yolu ilə əldə edilməsi** istənilən məzmunlu yalan vəd verməklə, saxta sənədlərdən, geyim formalarından və s.-dən istifadə etməklə özünü dövlət sirri ilə işləməyə hüququ olan şəxs kimi təqdim etməklə və sair hiylə işlətməklə həmin məlumat, sənəd və ya əşyaya yiyələnməni nəzərdə tutur.

Dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların **məxfi məlumatların gizli əldə edilməsi üçün nəzərdə tutulmuş xüsusi və ya digər texniki vasitələrdən istifadə etməklə** əldə edilməsi dedikdə istənilən mexaniki və ya elektron qurğu və avadanlıqlardan, mobil telefonlardan, görüntünü qeydə alan hər hansı cihazdan, kompyuterlərdən istifadə etməklə həmin məlumat, sənəd və ya əşyaya yiyələnmə başa düşülür.

Dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların, onların olduğu yerdən bilavasitə əldə edilməsi, yaxud həmin yerə daxil olmadan, yəni kənardan əldə edilməsi (məsələn, kompyuter sisteminə daxil olmaqla) əmələn tövsifi üçün əhəmiyyət kəsb etmir.

7. Şərh olunan cinayət formal tərkiblidir: dövlət sirrinin daşıyıcısı olan məlumatların, sənədlərin və ya əşyaların əldə edildiyi andan **başa çatmış** sayılır.

8. **Subyektiv cəhətdən** bu cinayət **birbaşa qəsdlə** törədilə bilər. Şəxs dövlət sirri təşkil edən məlumatları, məzmununda dövlət sirri olan sənədləri, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaları qanunsuz olaraq əldə etdiyini dərk və onları əldə etməyi arzu edir.

9. Cinayətin **subyekti** 16 yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

Maddə 285. Məzmununda dövlət sirri olan sənədləri itirmə

Məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların, etibar olunan şəxs tərəfindən göstərilən sənədlərlə və ya əşyalarla Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş davranış qaydalarının pozulması nəticəsində onların ehtiyatsızlıqdan itirilməsi ağır nəticələrə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi, habelə müdafiə qabiliyyətini təmin edən ictimai münasibətlərdir.

2. Bu cinayətin **predmetini** məzmununda dövlət sirri olan sənədlər, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyalar təşkil edir.

3. **Məzmununda dövlət sirri olan sənədlər** dedikdə sözün geniş mənasında elə maddi obyektlər başa düşülməlidir ki, onların məzmunu tam və ya qismən dövlət sirri olan məlumatlardan ibarətdir və xüsusi olaraq müəyyən zaman və məkan hüdudlarında həmin məlumatların verilməsi üçün nəzərdə tutulmuşdur. Dövlət sirri olan məlumatlar həmin obyektlərdə müxtəlif formalarda (əlyazma, kompüter, makina və s. vasitəsilə və ya mətbəə üsulu ilə yazılmış mətn və ya sair qrafik təsvir formasında, fotoşəkil, maqnitofon (audio və video) lenti və sair formalarda) əks oluna bilər. Sənədin məzmunu adi və ya kodlaşdırılmış (rəqəmlərlə, hərflərlə və ya sair işarələrlə) dildə ola bilər. Öz məzmununa görə dövlət sirri olan sənədlər elmi-texniki xarakterə (məqalə, kitab, patent, texniki təsvir, hesabat, qərar, əmr, müqavilə və s.) də malik ola bilər.

4. Barəsindəki məlumatlar dövlət sirri olan **əşyalara** məzmununda dövlət sirri olan sənəd anlayışı ilə əhatə olunmayan və dövlət sirri olan məlumatları özündə əks etdirən istənilən maddi obyektlər (daşıyıcılar) — silah, döyüş sursatı və hərbi texnika nümunələri, cihaz, mexanizm və maşın nümunələri, yanacaq və s. aiddir.

5. **Obyektiv cəhətdən** bu cinayət məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların itirilməsində ifadə olunur.

Cinayətin edilmə üsulunu və nəticəni cinayət tərkibinin zəruri əlaməti hesab edən CM-in 285-ci maddəsinə əsasən bu cinayətin obyektiv cəhəti aşağıdakı şərtlərin məcmusundan ibarətdir:

1) məzmununda dövlət sirri olan sənədlər (əşyalar) itirilməlidir;

2) sənədlərin (əşyaların) itirilməsi həmin sənədlərlə (əşyalarla) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş davranış qaydalarının pozulmasının nəticəsi olmalıdır;

3) sənədlərin (əşyaların) itirilməsi ağır nəticələrə səbəb olmalıdır;

4) sənədlərlə (əşyalarla) davranış qaydalarının pozulması ilə sənədlərin (əşyaların) itirilməsi arasında, sənədlərin (əşyaların) itirilməsi ilə baş vermiş ağır nəticə arasında səbəbli əlaqə olmalıdır.

Göstərilən şərtlərdən hər hansı birinin mövcud olmaması bu maddə ilə cinayət məsuliyyətini istisna edir.

Məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların itirilməsi o halda mövcud olur ki, həmin sənədlər və ya əşyalar onların etibar edildiyi şəxsin əlindən (sahibliyindən və ya nəzarətindən) çıxır və kənar şəxslərə məlum olur və ya məlum ola bilər.

Sənədlər və ya əşyalar itirildikdən sonra onların məzmununun kənar şəxslərə məlum olub-olmamasının cinayətin tövsifi baxımından əhəmiyyəti yoxdur. Əgər sənədlər və ya əşyalar onların məzmununun kənar şəxslərə məlum ola bilməsi imkanı tamamilə istisna olunan bir şəraitdə itirilmişdirsə (məsələn, həmin sənədlərin itirildiyi ehtimal olunan yerdə onların itirilməsindən az sonra güclü yanğın baş verməsi və s.) və yaxud həmin sənədlər və ya əşyalar diqqətsizlik və ya səhlənkarlıq üzündən məhv olmuşdursa, CM-in 285-ci maddəsi ilə cinayət məsuliyyəti istisna olunur, çünki belə hallarda dövlət sirrinin kənar şəxslərin dairəsinə məlum ola bilməsi və bələliklə də ağır nəticələrə səbəb ola bilməsi mümkün deyildir.

6. Sənədlərin və ya əşyaların itirilməsi yalnız o halda cinayət məsuliyyətinə səbəb olur ki, bu, həmin sənədlərlə və ya əşyalarla davranış qaydalarının pozulmasının nəticəsində baş versin.

7. Məzmununda dövlət sirri olan sənədlərlə və barəsindəki məlumatlar dövlət sirri olan əşyalarla **davranış qaydaları** «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının 7 sentyabr 2004-cü il tarixli Qanunu və Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrinin kütləvi informasiya vasitələrində yayılmasının qarşısının alınması Qaydası»nda, 27 sentyabr 2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrini əks etdirən normativ hüquqi aktlarının yayılması və qüvvəyə minməsi qaydası haqqında» Əsasnamədə, habelə 3 iyun 2005-ci il tarixli fərmanları ilə təsdiq edilmiş «Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları»nda və «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı»nda, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 2005-ci i tarixli, 40 saylı qərarı ilə təsdiq edilmiş «Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə verilməsi Qaydası», «Dövlət sirri təşkil edən məlumatlardan istifadə ilə bağlı işlərin görülməsi prosesində məlumatların mühafizəsinin təmin edilməsi Qaydası», «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması Qaydası», «Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası», «Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması üzrə ekspert rəyinin hazırlanması və təsdiq edilməsi Qaydası», «Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası» və «Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarda Dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarətin həyata keçirilməsi Qaydaları»nda müəyyən edilir. Həmin aktlar dövlət sirrinin daşıyıcılarının məxfiləşdirilməsi, onların barəsində sərəncam verilməsi və dövlət sirrinin mühafizəsi haqqında normaları nəzərdə tutur. Təqsirkar şəxsin şərh edilən maddə ilə cinayət məsuliyyəti haqqında məsələni həll edərkən onun tərəfindən məhz hansı davranış qaydasının pozulduğu müəyyən olunmalıdır.

Əgər sənədlərin və ya əşyaların etibar olunduğu şəxs onlarla davranış qaydalarına əməl etmişdirsə, lakin buna baxmayaraq həmin sənədlər və ya əşyalar itirilmişdirsə, bu halda şəxs CM-in 285-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

8. Sənədlərin və əşyaların itirilməsi yalnız ağır nəticələrə səbəb olduqda CM-in 285-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır (ağır nəticə anlayışı haqqında 284-cü maddənin şərhinə bax).

Bu cinayət ağır nəticələrin baş verdiyi andan **başa çatmış** hesab olunur.

Göstərilən cinayət tərkibinin mövcud olması üçün sənədlərlə (əşyalarla) davranış qaydalarının pozulması ilə həmin sənədlərin və ya əşyaların itirilməsi arasında və sənədlərin (əşyaların) itirilməsi ilə ağır nəticə arasında səbəbi əlaqə olmalıdır, yəni sənədlərlə (əşyalarla) davranış qaydalarının pozulması həmin sənədlərin itirilməsinin, sənədlərin itirilməsi isə ağır nəticələrin baş verməsinin bilavasitə səbəbi; sənədlərin (əşyaların) itirilməsi onlarla davranış qaydalarının pozulmasının, ağır nəticələrin baş verməsi isə sənədlərin itirilməsinin bilavasitə nəticəsi olmalıdır. Bu halda səbəbi əlaqənin mövcud olmaması cinayət məsuliyyətini istisna edir. Məsələn, şəxs sənədlərin (əşyaların) saxlandığı seyfin qapısını möhürləməmiş və seyfdəki sənədlər (əşyalar) oğurlanmışdırsa, bu zaman sənədlərlə (əşyalarla) davranış qaydasının pozulmasına (seyfin qapısının möhürlənməməsi) və ağır nəticələrin baş verməsinə baxmayaraq, təhlil edilən maddə üzrə cinayət məsuliyyəti yaranmır, çünki belə halda onlar arasında səbəbi əlaqə yoxdur. Belə ki, seyfin qapısının möhürlənməsi oradakı sənədlərin (əşyaların) oğurlanmasının qarşısını ala bilməzdi və ümumiyyətlə, bu, oğurluğun qarşısının alınması üçün nəzərdə tutulmamışdır. Əgər sənədlərin (əşyaların) oğurlanması seyfin qapısının bağlanmaması nəticəsində baş versəydi, o halda təhlil edilən maddə üzrə cinayət məsuliyyəti mövcud olardı.

9. **Subyektiv cəhətdən** bu cinayət yalnız ehtiyatsızlıqdan törədilə bilər. Bu zaman ehtiyatsızlığın hər iki forması mümkündür.

Təqsirkar şəxsin məzmununda dövlət sirri olan sənədlərlə davranış qaydalarının pozulmasına olan psixi münasibəti həm qəsd, həm də ehtiyatsızlıq formasında, həmin sənədlərin itirilməsi faktına və ağır nəticəyə olan psixi münasibəti isə yalnız ehtiyatsızlıq formasında ola bilər. Əgər təqsirkar şəxs sənədləri (əşyaları) qəsdən itirmişdirsə, o, CM-in 284-cü maddəsi ilə, dövlətə xəyanət və ya casusluq əlamətləri olduqda isə 274 və ya 276-cı maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməlidir.

10. Cinayətin **subyekti** sənədlərin və ya əşyaların etibar olunduğu **16 yaşına çatmış** anlaqlı fiziki şəxs ola bilər.

XXXII Fəsil
Ədalət mühakiməsi əleyhinə olan cinayətlər

Maddə 286. Ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma

286.1. Ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma məqsədilə məhkəmə fəaliyyətinə hər hansı formada müdaxilə etmə —

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

286.2. İşin obyektiv, tam və hərtərəfli aparılmasına mane olmaq məqsədilə prokurorun, müstəntiqin və ya təhqiqatçının fəaliyyətinə hər hansı formada müdaxilə etmə —

min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

286.3. Bu Məcəllənin 286.1 və 286.2-ci maddələrində nəzərdə tutulmuş əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlığın məhdud-

laşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 30 aprel 2013-cü il 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinə əsasən Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

Azərbaycan Respublikasında ədalət mühakiməsini rayon (şəhər) məhkəmələri, ağır cinayətlər məhkəmələri, Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi, hərbi məhkəmələr, inzibati-iqtisadi məhkəmələr, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının Ali Məhkəməsi həyata keçirirlər («Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununun 19-cu maddəsi).

Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedirlər (Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin I hissəsi). Ona görə də heç kim məhkəmənin fəaliyyətinə və yaxud ədalət mühakiməsinin həyata keçirilməsi üzrə hakimlərə bu və ya digər formada müdaxilə edə bilməz. Məhkəmənin fəaliyyətinə mane olmağa görə qanunla cinayət məsuliyyətinin müəyyən edilməsi ədalət mühakiməsinin həyata keçirilməsi üzrə məhkəmələrin müstəqilliyinə mühüm hüquqi təminat yaradır.

«Prokurorluq haqqında» 7 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən hər hansı şəxs tərəfindən, hər hansı səbəbdən bilavasitə, yaxud dolayı yolla prokurorluğun qanuni fəaliyyətinə məhdudiyyət qoyulması, təsir, hədə, qanunsuz müdaxilə edilməsi, habelə prokurorluğa hörmətsizlik göstərilməsi yolverilməzdir və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

2. Şərh edilən maddə iki cinayət tərkibini nəzərdə tutur: ədalət mühakiməsinin həyata keçirilməsi üzrə məhkəmənin fəaliyyətinə müdaxilə etmə (CM-in 286.1-ci maddəsi); ibtidai araşdırma üzrə icraatı həyata keçirən prokurorun, müstəntiqin və ya təhqiqatçının fəaliyyətinə müdaxilə etmə (CM-in 286.2-ci maddəsi).

CM-in 286.3-cü maddəsində yuxarıda qeyd edilən cinayətlərin ağırlaşdırıcı tərkib əlamətləri üzrə məsuliyyət nəzərdə tutulur.

3. Ədalət mühakiməsinin və ibtidai istintaqın həyata keçirilməsinə mane olma məqsədi ilə məhkəmənin, istintaq və təhqiqat orqanlarının fəaliyyətinə hər hansı formada müdaxilə etmənin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, bu cür hərəkətlərlə məhkəmə hakimiyyətinin müstəqilliyi haqqında konstitusiya prinsipi pozulur, məhkəmənin, istintaq və təhqiqat orqanlarının nüfuzu aşağı düşür, xalqın bu orqanlara olan inamı zəifləyir, ədalətlilik pozulur, vətəndaşların, idarələrin, müəssisələrin, təşkilatların qanuni mənafeləri və hüquqları tapdanır.

4. CM-in 286-cı maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** ədalət

mühakiməsinin həyata keçirilməsi üzrə məhkəmənin, prokurorluq, istintaq və təhqiqat orqanlarının normal fəaliyyətidir.

5. CM-in 286.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma məqsədi ilə məhkəmə fəaliyyətinə hər hansı formada müdaxilə etmədən ibarətdir.

Ədalət mühakiməsinin həyata keçirilməsinə mane olmaq məqsədi ilə məhkəmənin fəaliyyətinə **müdaxilə etmə** dedikdə işi öz icraatına qəbul etmiş və ya işi araşdırmağa başlamış məhkəmənin tərkibinə daxil olan hakimə və ya məhkəmə kollegiyasına kənar şəxslər tərəfindən təsir etmək başa düşülür. Belə müdaxilə etmə aşağıdakılarda ifadə oluna bilər: hakimə pul və ya başqa maddi mənfəət vəd etməklə onlardan müəyyən qərar çıxarılmasını xahiş etmə və ya bunu tələb etmə; onlara hədə-qorxu gəlmə; hakimin müəyyən qərar çıxarmasına nail olmaq üçün onların yaxınlarına müraciət etmə; dövlət hakimiyyət və yerli özünüidarə orqanlarının vəzifəli şəxslərinin hakimə məsləhət və ya göstərişlər verməsi.

Ədalət mühakiməsinin həyata keçirilməsi üzrə məhkəmənin fəaliyyətinə müdaxilə etmə məhkəmə binasının qarşısında məhkəməyə ünvanlanmış tələblərlə kütləvi tədbirlər keçirmə və sair hərəkətlərdə də ifadə oluna bilər.

5. Təhlil edilən cinayət məhkəmələrin iş üzrə ədalət mühakiməsini həyata keçirməsinə mane olmaya yönələn hər hansı hərəkət və ya çıxışların edilməsinə başlanıldığı andan **başa çatmış** hesab edilir.

6. Məhkəmənin ədalət mühakiməsini həyata keçirməsi üzrə fəaliyyətinə müdaxilə etmə **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar öz hərəkətlərinin məhkəmənin normal fəaliyyətinə müdaxilə olduğunu dərk edir və ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma məqsədi ilə bu hərəkətləri törətməyi arzu edir. Bu cinayətin **motivi** şəxsi maraq, tamah niyyəti və s. ola bilər, lakin motiv tövsif üçün əhəmiyyət kəsb etmir.

Təhlil edilən cinayətin subyektiv cəhətinin zəruri əlaməti olan məqsəd ədalət mühakiməsinin həyata keçirilməsinə, məhkəmələr (hakimlər) tərəfindən iş üzrə qanuni və ədalətli qərar çıxarılmasına mane olmaqdan ibarətdir.

Ayrı-ayrı vətəndaşların, idarə, müəssisə və ya təşkilatların rəhbərliyinin əmək kollektivi üzvünə münasibətdə şərti məhkumetmə, azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəza təyin etmə barədə yazılı müraciətləri və ya vəsatətləri ədalət mühakiməsinin həyata keçirilməsi üzrə məhkəmənin fəaliyyətinə müdaxilə etmə kimi qəbul edilə bilməz.

7. Şərh edilən cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

8. CM-in 286.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **obyektiv cəhətdən** işin tam, hərtərəfli və obyektiv aparılmasına mane olmaq məqsədi ilə prokurorun, müstəntiqin və ya təhqiqatçının fəaliyyətinə hər hansı formada müdaxilə etmədə ifadə olunur. Göstərilən vəzifəli şəxslərin fəaliyyətinə **müdaxilə etmə** hakimlərə olan təsir forması ilə analoji hərəkətlərlə törədilir.

Ayrı-ayrı vətəndaşların və ya vəzifəli şəxslərin işin xitam edilməsi haqqında vəsatətlə müraciətləri, habelə şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin müdafiəçisinin istintaq hərəkətlərinin icraatı, işin xitam edilməsi haqqında vəsatət

verməsi cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulduğundan işin tam və hərtərəfli, obyektiv aparılmasına mane olmaq məqsədi ilə prokurorun, müstəntiqin və ya təhqiqatçının fəaliyyətinə müdaxilə etmə kimi qiymətləndirilə bilməz.

9. CM-in 286.2-ci maddəsində nəzərdə tutulmuş cinayət törədildikdə öz qulluq mövqeyinə müvafiq olaraq təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qanunların icrasına nəzarəti həyata keçirən və yaxud cinayət prosessual qanunvericiliyə müvafiq olaraq işi öz icraatına qəbul edən prokuror, habelə müstəntiq və ya təhqiqat aparan şəxs təsirə məruz qalır. Başqa ərazidə işləyən və öz prosessual səlahiyyətlərinə görə araşdırılan işin gedişinə və onun nəticələrinə təsir edə bilməyən prokurorun, müstəntiqin və ya təhqiqat aparan şəxsin fəaliyyətinə müdaxilə edilirsə, əməldə təhlil edilən cinayətin tərkibi olmayacaqdır.

Prokurorun, müstəntiqin və təhqiqatçının anlayışı CPM-in 7-ci maddəsində verilmişdir.

Prokuror öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir.

Müstəntiq öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxsdir.

Təhqiqatçı öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxsdir.

Cinayət işləri üzrə təhqiqatı aparan təhqiqat orqanlarının və şəxslərin siyahısı CPM-in 214-cü maddəsində verilmişdir.

10. Təhlil edilən cinayət işin tam, obyektiv və hərtərəfli araşdırılmasına mane olmağa bilavasitə yönələn hərəkətlərin edildiyi andan **başa çatmış** hesab edilir.

11. CM-in 286.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** edilir. **Motiv** işin nəticəsində şəxsi maraq, tamah niyyəti və s. ola bilər.

Subyektiv cəhətin daha bir zəruri əlaməti cinayətin məqsədidir. Təqsirkar şəxsin hərəkətlərinin məqsədi işin hərtərəfli, tam və obyektiv araşdırılmasına mane olmaqdır.

12. Şərh edilən cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

13. CM-in 286.3-cü maddəsində ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olmanın **ağırlaşdırıcı tərkib əlaməti** — CM-in 186.1-ci və 286.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi nəzərdə tutulmuşdur.

Burada ədalət mühakiməsinin həyata keçirilməsinə, yaxud da cinayət işinin istintaqının obyektiv, tam və hərtərəfli aparılmasına mane olmaq məqsədi ilə **öz qulluq mövqeyindən istifadə edən şəxslər** dedikdə heç də hakimlərə və ya digər şəxslərə hər hansı formada təsir edən istənilən şəxs deyil, səlahiyyətlərinin məcmusu ona işin nəticəsinə təsir etmək üçün real imkan verən şəxslər

başa düşülür. Buraya ilk növbədə Azərbaycan Respublikası dövlət qulluğunda vəzifə tutan və yerli dövlət hakimiyyəti və özünüidarə orqanlarının vəzifəli şəxsləri daxildir. Belə şəxslər öz qulluq səlahiyyətlərindən qanunvericiliklə müəyyən edilmiş mənafelərin ziddinə istifadə edərək məhkəmənin, istintaq və ya təhqiqat orqanlarının fəaliyyətinə təsir göstərirlər.

Prokurorun müstəntiqə və ya təhqiqat aparan şəxsə, habelə yuxarı prokurorun aşağı prokurora iş üzrə istintaqın istiqamətləri haqqında cinayət prosessual qanunvericiliyinə müvafiq qaydada göstərişlər verməsi işin istintaqına müdaxilə etmə kimi qiymətləndirilə bilməz. Eyni zamanda, istintaq şöbəsi rəisinin CPM-də nəzərdə tutulmuş səlahiyyətlərinə müvafiq göstərişlər verməsi də bu cinayət tərkibini yaratmır.

Maddə 287. Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə

İşin və ya müvafiq materialların məhkəmədə baxılması və ya ibtidai istintaqın aparılması, yaxud hökmün və ya digər məhkəmə qərarlarının icrası ilə əlaqədar qanuni fəaliyyətlərinə mane olma və ya belə fəaliyyətdən qisas almaq məqsədi ilə hakimin, habelə prokurorun, müstəntiqin, təhqiqatçının, müdafiəçinin, ekspertin, icra məmurunun, eləcə də onların yaxın qohumlarının həyatına qəsd etmə —

on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 17 may 2011-ci il, 30 may 2014-cü il və 13 fevral 2015-ci il tarixli qanunlarla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 6 iyul 2011-ci il; 20 iyun 2014-cü il).*

1. Ümumi qəbul olunmuş beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikası Konstitusiyasına müvafiq olaraq hər kəsin yaşamaq hüququ vardır. İnsanın həyatına qəsd etmə xüsusilə ağır cinayət hesab edilir. Ədalət mühakiməsini və ya cinayət işi üzrə ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd isə həm də ədalət mühakiməsinin və ya iş üzrə ibtidai istintaqın həyata keçirilməsini, qərarların icrasını təhlükə altına alır. Bu isə təhlil edilən cinayət əməlinin müstəsna **ictimai təhlükəliliyini** özündə əks etdirir.

2. CM-in 287-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** eyni zamanda həm ədalət mühakiməsinin mənafeyi, həm də maddənin dispozisiyasında sadalanan şəxslərin həyatıdır.

3. Hakimlərin və CM-in 287-ci maddəsində göstərilən digər şəxslərin **həyatına qəsd etmə** dedikdə həmin şəxsləri öldürmə və ya onları öldürməyə cəhd başa düşülür.

4. Təhlil olunan cinayətdən zərərçəkmiş şəxs hakim, habelə prokuror, müstəntiq, təhqiqatçı, müdafiəçi, ekspert, icra məmuru, eləcə də onların yaxın qohumları ola bilər.

CPM-in 7.0.13-cü maddəsinə görə **hakim** Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin vəzifəyə təyin edilmiş şəxsdir (məhkəmənin sədri, onun müavini, kollegiya sədri və ya birinci, apellyasiya, yaxud kassasiya instansiya məhkəməsinin sədri).

Prokurorun, müstəntiqin və təhqiqatçının anlayışı CM-in 286-cı maddəsinin şərhinin 9-cu bəndində verilmişdir.

Müdafiəçi dedikdə CPM-in 92-ci maddəsində nəzərdə tutulmuş qaydada şübhəli və ya təqsirləndirilən şəxsə hüquqi yardım göstərmək üçün işdə iştirak edən (və ya etmiş) və öz prosessual vəzifələrini həyata keçirən şəxs başa düşülür.

CPM-in 97.1-ci maddəsinə görə **ekspert** elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan, cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxsdir.

«İcra məmurları haqqında» 28 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə **icra məmurları** dedikdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrin, hərbi məhkəmələrin, rayon (şəhər) məhkəmələrinin müəyyən olunmuş fəaliyyət qaydasını təmin edən, habelə məhkəmələrin mülki, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların və qanunvericiliklə icrası icra məmurlarına həvalə edilmiş digər orqanların aktlarının icrasını həyata keçirən vəzifəli şəxslərdir.

Təhlil olunan cinayət hüquq norması yalnız hakimlərin və digər şəxslərin deyil, həm də onların yaxın qohumlarının həyatını qəsddən qoruyur. **Yaxın qohumlar** dedikdə CPM-in 7.0.32-ci maddəsinə görə babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr başa düşülür.

5. Şərh olunan cinayət **formal tərkib** vasitəsilə ifadə olunmuşdur və maddənin dispozisiyasında göstərilən şəxslərin qəsdən öldürülməsinə yönələn hərəkətlərin təqsirkar tərəfindən faktiki olaraq edildiyi andan **başa çatmış** hesab edilir. Lakin qəsdə məruz qalan şəxslər öldürüldükdə əməl bu cinayət tərkibi ilə tam əhatə olunduğundan əlavə tövsif tələb olunmur.

6. CM-in 287-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyektiv cəhəti birbaşa qəsd**dən və xüsusi məqsəddən ibarətdir. Təqsirkar hakimin, prokurorun, müstəntiqin, təhqiqatçının, müdafiəçinin, ekspertin, icra məmurunun və ya onların yaxın qohumlarının həyatına qəsd etdiyini dərk edir və təhlil olunan maddənin dispozisiyasında göstərilən xüsusi məqsədə nail olmaq üçün bunu törətməyi arzu edir.

Təqsirkarın cinayətkar hərəkətlərinin **məqsədi** ədalət mühakiməsinin və ya ibtidai istintaqın aparılması, yaxud hökmün və ya digər məhkəmə qərarlarının icrası ilə əlaqədar maddənin dispozisiyasında sadalanan şəxslərin qanuni fəaliyyətinə mane olmaq və ya belə fəaliyyətdən qisas almaqdır.

7. Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmənin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı şəxs ola bilər. Əgər yuxarıda qeyd olunan şəxslərin həyatına qəsd 14 yaşdan 16 yaşadək olan yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilərsə, onda məsuliyyət CM-in 120.2.3-cü maddəsi ilə yaranacaqdır.

Maddə 288. Ədalət mühakiməsinin və ya ibtidai istintaqın həyata keçirilməsi ilə əlaqədar hədələmə və ya zor tətbiq etmə

288.1. İşin və ya müvafiq materialların məhkəmədə baxılması ilə əlaqədar hakimi, habelə onun yaxın qohumlarını öldürməklə, onların sağlamlıqlarına zərər vurmaqla, əmlakını məhv etməklə və ya əmlakını zədələməklə hədələmə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

288.2. Eyni əməllər işin və ya müvafiq materialların məhkəmədə baxılması və ya ibtidai istintaqın aparılması, hökmün, yaxud digər məhkəmə qərarlarının icrası ilə əlaqədar prokuror, müstəntiq və ya təhqiqatçı, müdafiəçi, ekspert, icra məmuru, habelə onların yaxın qohumları barəsində törədildikdə —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

288.3. Bu Məcəllənin 288.1 və ya 288.2-ci maddələrində nəzərdə tutulmuş əməllər həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

288.4. Bu Məcəllənin 288.1 və ya 288.2-ci maddələrində nəzərdə tutulmuş əməllər həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 17 may 2011-ci il, 13 fevral 2015-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 6 iyul 2011-ci il; 19 iyul 2017-ci il).*

1. CM-in 288-ci maddəsində nəzərdə tutulmuş cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, həmin maddənin müxtəlif hissələrində sadalanan hərəkətlərin törədilməsi ilə ədalət mühakiməsinin və ibtidai istintaqın həyata keçirilməsində iştirak edən və ya məhkəmə qərarlarını icra edən şəxslərin normal qulluq fəaliyyəti pozulur və həmin şəxslərdə özlərinin və yaxın qohumlarının həyatının, sağlamlığının və əmlakının təhlükəsizliyinə inamsızlıq hissi yaranır, bu isə onların qərarlar qəbul etməsində və ya müəyyən hərəkətləri etməsində öz mənfi təsirini göstərmiş olur.

2. Təhlil edilən cinayətin **obyekti** cinayət və mülki işlər üzrə ədalət mühakiməsinin, ibtidai istintaqın normal fəaliyyətini, məhkəmə qərarlarının normal icrasını təmin edən münasibətlər, habelə maddənin dispozisiyasında sadalanan şəxslərin həyatı, sağlamlığı və əmlak mənafeləridir.

Bu cinayətdən **zərərçəkmiş şəxslərin** anlayışı (hakim, onun yaxın qohumları) CM-in 287-ci maddəsinin şərhində verilmişdir.

3. CM-in 288.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** hakimə, habelə onun yaxın qohumlarına münasibətdə öldürməklə, onların sağlamlıqlarına zərər vurmaqla, əmlakını məhv etməklə və ya əmlakını zədələməklə hədələmədə ifadə olunur.

4. **Hədələmə** dedikdə hakimə, eləcə də onun yaxın qohumlarına bilavasitə və ya vasitəçi ilə onlardan hər hansı birini həyatdan məhrum etmək, onların sağlamlığına bu və ya digər üsulla zərər vurmaq, zərərçəkmişin və ya onun qohumunun əmlakını məhv etmək və zədələmək niyyəti barədə yazılı və ya şifahi məlumat bildirmək başa düşülür. Hədələmə həm açıq şəkildə (məsələn, məhkəmənin iclas zalında), həm də təklikdə, üçüncü şəxslər olmadan edilə bilər.

5. Qeyd edilən hədələmə yalnız o halda təhlil edilən maddə üzrə cinayət tərkibi yaradacaqdır ki, işin və ya müvafiq materialların **məhkəmədə baxılması ilə əlaqədar** olsun. Belə əlaqə hakimdən müəyyən qərar qəbul edilməsini tələb etməkdə və s.-də ifadə oluna bilər.

Hakimi, yaxud onun yaxın qohumlarını onların sağlamlıqlarına ağır ziyan vurmaqla, öldürməklə hədələmə şəxsi motivlə olub, məhkəmədə işin və ya müvafiq materialların baxılması ilə əlaqədar olmadıqda əməl CM-in 134-cü maddəsi ilə tövsif ediləcəkdir.

6. Şərh olunan cinayət zərərçəkmiş şəxsə bilavasitə hədə çatdırıldığı andan və yaxud bilavasitə və ya vasitəçidən yazılı formada məlumat alındığı andan **başa çatmış** hesab edilir. Hədənin hakimin və ya onun yaxın qohumlarının «dalınca» onların ünvanına deyilməsi, yəni hədənin onların iştirakı olmadan deyilməsi bu cinayətin tərkibini yaratmır.

7. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir.

Bu cinayətin **motivi** məhkəmə qərarının təqsirkara sərf etmədiyinə görə qisas və s. ola bilər.

8. CM-in 288.1-ci maddəsinin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

9. CM-in 288.2-ci maddəsində prokuroru, müstəntiqi və ya təhqiqatçını, müdafiəçini, eksperti, icra məmurunu, habelə onların yaxın qohumlarını öldürməklə, onların sağlamlıqlarına zərər vurmaqla, əmlakını məhv etməklə və ya əmlakını zədələməklə hədələməyə görə məsuliyyət nəzərdə tutulmuşdur.

10. Bu cinayətin **obyektiv cəhəti** CM-in 288.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti ilə eynidir, yalnız zərərçəkmiş şəxslərin dairəsi fərqlidir.

Zərərçəkmişlərin (prokuror, müstəntiq və maddənin dispozisiyasında sadalanan digər şəxslər, habelə onların yaxın qohumları) anlayışı CM-in 287-ci maddəsinin şərhində verilmişdir.

11. **Subyektiv cəhətdən** bu cinayət yalnız **birbaşa qəsdlə** edilə bilər. **Motiv** işin və ya müvafiq materialların məhkəmədə baxılması və ya ibtidai istintaq aparılması, hökmün, yaxud digər məhkəmə qərarlarının icrası ilə əlaqədar prokurorun, müstəntiqin və ya digər şəxslərin fəaliyyətindən narazılıq, göstərilən fəaliyyətə görə qisas və yaxud təqsirkara sərf eləyən qərarların və yaxud hərəkətlərin edilməsinə nail olmaq cəhdi və s. ola bilər.

12. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

13. CM-in 288.3-cü və 288.4-cü maddələrində təhlil olunan cinayətin **ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur.

14. Əməl o halda CM-in 288.3-cü maddəsi ilə tövsif olunacaqdır ki, CM-in 288.1-ci və 288.2-ci maddələrində sadalanan zərərçəkmişlərə ünvanlanmış hədə onların həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etməklə müşayiət olunsun.

Həyat və sağlamlıq üçün təhlükəli olmayan zorun anlayışı CM-in 180.2.4-cü maddəsinin şərhində verilmişdir.

15. CM-in 288.4-cü maddəsində nəzərdə tutulmuş **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** ondan ibarətdir ki, burada hədə zərərçəkmişlərə münasibətdə həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə müşayiət olunur.

Həyat və ya sağlamlıq üçün təhlükəli olan zorun anlayışı CM-in 181.1-ci maddəsinin şərhində verilmişdir.

16. Əgər həyat və ya sağlamlıq üçün təhlükəli zor tətbiq etmə CM-in 288.1-ci və 288.2-ci maddələrində sadalanan şəxslərin sağlamlığına ağır zərər vurmaqla və ya ölümlə nəticələnərsə, onda əməl cinayətlərin məcmusu qaydasında CM-in 288.4-cü və nəticəyə psixi münasibətdən asılı olaraq 120.2.3-cü, 124-cü, 126.2.2-ci və ya 131.2-ci maddələrindən biri ilə tövsif olunacaqdır.

Maddə 289. Məhkəməyə hörmətsizlik etmə

289.1. Məhkəmə baxışı iştirakçılarını təhqir etməklə məhkəməyə hörmətsizlik etmə —

beş yüz manatdan min manatadək miqdarda cərimə və üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

289.2. Eyni əməllər hakim barəsində törədildikdə —

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki iləyədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 30 aprel 2013-cü il, 13 fevral 2015-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Bu və ya digər şəxslər tərəfindən məhkəməyə edilən hörmətsizliyin ictimai **təhlükəliliyi** ondan ibarətdir ki, onlar öz təhqiredici hərəkətləri ilə məhkəmə iclas zalında əsəbi şərait yaradırlar. Belə hərəkətlər məhkəmə tərəfindən və məhkəmə baxışının digər iştirakçıları tərəfindən işin düzgün həlli üçün mühüm əhəmiyyət kəsb edən halların hərtərəfli, tam və obyektiv tədqiqinə mane olur, məhkəmə baxışı iştirakçılarının sübutların təqdim edilməsi və tədqiqi üzrə hüquq bərabərliyinin pozulmasına səbəb olur, məhkəmə baxışının tərbiyəvi təsirini və məhkəmənin nüfuzunu aşağı salır.

2. CM-in 289-cu maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edən şəxslərin şərəf və ləyaqəti, habelə ədalət mühakiməsinin nüfuzudur.

3. CM-in 289.1-ci və 289.2-ci maddələrində göstərilən əməllər yalnız zərərçəkmiş şəxslərin dairəsinə görə bir-birindən fərqlənir. Bu cinayət **obyektiv cəhətdən** məhkəmə baxışı iştirakçılarını (CM-in 289.1-ci maddəsi), yaxud hakimləri (CM-in 289.2-ci maddəsi) təhqir etməklə məhkəməyə hörmətsizlik etmədə

ifadə olunur.

4. **Məhkəməyə hörmətsizlik etmə** konkret üsulla — təhqir etmədə ifadə olunur. Məhkəmə baxışı iştirakçılarını **təhqir etmə** dedikdə məhkəmə baxışının bu və ya digər iştirakçısının şəxsiyyətinə ədəbsiz formada mənfi qiymət verilməsi başa düşülür. Belə təhqir həmin şəxsin şərəf və ləyaqətini alçaltmada ifadə olunur.

Təhqir etmə həm şifahi, həm də məhkəmə baxışı iştirakçısının əleyhinə yönəlmiş hərəkət formasında (məsələn, şapalaq vurmaq, üzə tüpürmək və s.) ola bilər.

5. **Məhkəmə baxışının iştirakçıları** dedikdə cinayət işində dövlət ittihamçısı qismində iştirak edən prokuror, təqsirləndirilən şəxs və onun müdafiəçisi, yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin nümayəndəsi, zərərçəkmiş, mülki iddiaçı və mülki cavabdeh və onların nümayəndələri, ekspert, tərcüməçi, şahidlər, mülki işlər üzrə məhkəmə baxışının iştirakçıları, MPM-in 46-cı maddəsində göstərilən tərəflər, üçüncü şəxslər və digər şəxslər başa düşülür.

Məhkəməyə hörmətsizlikdə ifadə olunan əməlin törədilmə yeri məhkəmənin iclas zalı və məhkəmə binası, törədilmə vaxtı isə məhkəmə zalında işin araşdırılması müddəti və ya fasilə vaxtı ola bilər. Cinayət zərərçəkmişə münasibətdə təhqiredici müddəaların, fikirlərin söyləndiyi və ya hərəkətlərin edildiyi andan bitmiş hesab edilir.

6. Məhkəməyə hörmətsizlik **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** edilə bilər. Təqsirkar məhkəmə baxışı iştirakçısını təhqir etməklə məhkəməyə hörmətsizlik etdiyini dərk edir və bu əməli törətməyi arzu edir.

Şəxsi ədavət, düşmənçilik, milli və irqi ədavət və s. bu cinayətin motivi ola bilər.

7. Şərh olunan cinayətin **subyekti** işə baxılması ilə əlaqədar məhkəmə iclas zalında iştirak edən və yaxud məhkəmə binasında olan **16** yaşına çatmış anlaqlı şəxs ola bilər. Bu şəxs məhkəmə baxışının iştirakçısı ola da bilər.

8. CM-in 289.2-ci maddəsi eyni əməllərin **hakimin** barəsində törədilməsinə görə məsuliyyət nəzərdə tutur. Bu maddədə nəzərdə tutulan cinayətin **obyektiv** və **subyektiv** əlamətləri CM-in 289.1-ci maddəsində nəzərdə tutulan cinayətin tərkib əlamətləri ilə eynidir (zərərçəkmişlərdən başqa).

Bu cinayətin törədilməsi nəticəsində zərərçəkmiş şəxs qismində qanuna müvafiq olaraq iş üzrə ədalət mühakiməsini həyata keçirən hakimlər çıxış edirlər.

9. Hakimə və ya məhkəmə baxışının digər iştirakçılarına münasibətdə təhqir onlar işi həll etdikdən sonra, məhkəmə binasından kənarda və müəyyən müddət keçdikdən sonra edilmişdirsə, əməl müvafiq əlamətlər olduqda şəxsiyyət əleyhinə olan cinayət (CM-in 148-ci maddəsi) kimi tövsif edilməlidir.

Maddə 290. Təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə

290.1. Təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

290.2. Eyni əməllər şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə

ittiham olunması ilə bağlı törədildikdə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 290-cı maddəsində nəzərdə tutulan əməllərin törədilməsi nəticəsində təqsirli olmayan şəxs cinayət məsuliyyətinə cəlb edilir və beləliklə də onun hüquq və azadlıqları pozulur. Şəxsin heç bir təqsiri olmadan məhkum olunması, azadlıqdan məhrum edilməsi və s. maddi və mənəvi ziyana (məsələn, məhsulun yığılmamış qalaraq tələf olması, şəxsin nüfuzuna xələl gətirilməsi və s.) məruz qalması əhalidə sosial müdafiəsizlik hissləri yaradır, insanların sağlamlığını, habelə normal mənəvi mühiti təhlükə altına alır. Bunlarla yanaşı, həmin hərəkətlər ədalət mühakiməsinin mənafeyini də pozur və hüquq mühafizə orqanlarının nüfuzunu alçaldır.

2. CM-in 290-cı maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** ədalət mühakiməsinin mənafeyi, habelə şəxsiyyətin hüquq və azadlıqlarıdır.

3. Şərh olunan cinayətin **obyektiv cəhəti** təqsirsiz şəxsi cinayət məsuliyyətinə cəlb etmədən ibarətdir.

Cinayət məsuliyyətinə cəlb etmə dedikdə prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs tərəfindən şəxsin təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilməsi haqqında rəsmi qərar çıxarılması və ona təqsirləndirilən şəxsin prosessual hüquq və vəzifələrini izah etməklə ittiham elan olunması başa düşülür.

4. **Təqsiri olmayan şəxs** dedikdə təqsirləndirildiyi əməli törətməyən fiziki şəxs başa düşülür. Əməlin təhlil edilən maddə üzrə tövsif edilməsi üçün prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs, barəsində cinayət məsuliyyətinə cəlb etmə haqqında rəsmi qərar çıxardığı şəxsin təqsiri olmadığını dəqiq bilməlidir.

5. Təqsiri olmadığını bilə-bilə cinayət məsuliyyətinə cəlb etmə şəxsə cinayət törətməkdə ittiham edilməsi barədə qərar elan edildiyi andan **başa çatmış** hesab edilir.

Azərbaycan Respublikasının cinayət prosessual qanunvericiliyinə əsasən şəxsin təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilməsi birbiri ilə qarşılıqlı əlaqədə olan iki prosessual aktdan ibarət olur: 1) şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxarılması; 2) ona təqsirləndirilən şəxsin prosessual hüquq və vəzifələri izah edilməklə həmin qərarın elan edilməsi. İkinci prosessual akt həyata keçirilmədikdə, yəni bu və ya digər səbəblər üzündən şəxsin təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilməsi haqqında qərar ona elan edilmədikdə, şəxs cinayət məsuliyyətinə cəlb edilmiş hesab edilə bilməz. Ona görə də prokurorun, müstəntiqin və ya təhqiqat aparan şəxsin müvafiq hərəkətləri şərh olunan maddə üzrə cinayət kimi qiymətləndirilməyəcəkdir.

Prokurorun, müstəntiqin və ya təhqiqat aparan şəxsin bilə-bilə təqsiri olmayan şəxs barəsində cinayət məsuliyyətinə cəlb etmə haqqında qanunsuz qərar çıxarması yalnız cinayət məsuliyyətinə cəlb etməyə hazırlıq hərəkəti kimi qiymətləndirilə bilər. Zərərçəkmiş şəxsin təqsirləndirildiyi əməl ağır və ya xü-

susilə ağır cinayət olduqda təqsirkarın əməli CM-in 290.2-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətməyə hazırlıq kimi tövsif ediləcəkdir (CM-in 28.2-ci maddəsinə əsasən yalnız ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur).

6. Şərh olunan cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** edilə bilər. Təqsirkar ittiham edildiyi cinayəti törətməkdə təqsiri olmayan şəxsi cinayət məsuliyyətinə cəlb etdiyini dərk edir və bu əməli törətməyi arzu edir.

Cinayətin **motivi** şəxsi maraq, milli, irqi və ya dini ədavət, tamah niyyəti və s. ola bilər.

7. CM-in 290-cı maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti xüsusidir**. Bu, yalnız prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs, habelə işi öz icraatına qəbul etmiş istintaq şöbəsinin rəisi ola bilər.

Azərbaycan Respublikası cinayət prosessual qanunvericiliyinə əsasən hakim məhkəməyədək sadələşdirilmiş icraat üzrə və xüsusi ittiham qaydasında şikayət üzrə işlərdə cinayət işi başlama haqqında əsaslandırılmış qərar çıxarır. Həmin qərarda ittihamın qısa xülasəsi verilir, təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb edilməsini nəzərdə tutan cinayət qanununun maddəsi göstərilir. Lakin bu prosessual akt şəxsi təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb etmə aktı kimi qiymətləndirilə bilməz. Ona görə də hakim, hətta cinayət işi başlama haqqında qərar çıxarmış olsa belə, təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə cinayətinin subyekti ola bilməz. Belə hallarda hakim bilə-bilə ədalətsiz hökm, qətnamə, qərar çıxarmaya (CM-in 295-ci maddəsi) görə cinayət məsuliyyətinə cəlb edilə bilər.

8. CM-in 290.2-ci maddəsində təhlil olunan cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — təqsiri olmadığını bilə-bilə şəxsin ağır və ya xüsusilə ağır cinayətdə ittiham olunması ilə cinayət məsuliyyətinə cəlb edilməsi nəzərdə tutulmuşdur.

Ağır və **xüsusilə ağır** cinayətlərin anlayışı müvafiq olaraq CM-in 15.4-cü və 15.5-ci maddələrində verilmişdir.

Maddə 291. Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə

Prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən cinayətin törədilməsində şübhə edilən və ya təqsirləndirilən şəxsi qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 291-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin törədilməsi ilə əhalinin sosial ədalətə, vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyinə inamı sarsıdılır, cinayət törətmiş şəxslərdə isə cəzasızlıq hissi formalaşır. Nəticədə onlar tərəfindən yeni cinayətlər törədilməsinə zəmin yaranır və ədalət mühakiməsinin nüfuzu alçalmış olur.

2. Təhlil edilən cinayətin **obyekti** ədalət mühakiməsinin mənafeyidir.

3. CM-in 291-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** şübhə edilən və ya təqsirləndirilən şəxsi qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmədə ifadə olunur.

4. **Cinayət məsuliyyətindən azad etmə** dedikdə konkret şəxs barəsində cinayət təqibinə xitam verilməsi və onun cinayət məsuliyyətindən azad olunması barədə rəsmi qərarın çıxarılması başa düşülməlidir.

Əməlin təhlil olunan maddə üzrə tövsif edilməsi üçün cinayət məsuliyyətindən azad etmə **qanunsuz** olmalıdır.

Şəxs CM-in 72-75-ci, 81.2-ci, 88.1-ci maddələrində, həmçinin 144, 228, 229-cu maddələrinin qeydində, 235-ci maddəsinin qeydinin 1-ci bəndində, 274-cü maddəsinin qeydində və CM-də nəzərdə tutulmuş digər əsaslar və şərtlər, habelə CPM-in 39-cu maddəsində nəzərdə tutulmuş hallar olduqda cinayət məsuliyyətindən azad edilə bilər. Göstərilən hallarda cinayət məsuliyyətindən azad etmə **qanuni** olacaqdır. İstənilən başqa əsaslarla və şərtlərlə prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs tərəfindən cinayət məsuliyyətindən azad etmə barədə qərar çıxarılması qanunsuz hesab edilərək şərh olunan maddədə nəzərdə tutulmuş cinayət tərkibini yaradacaqdır.

5. CPM-in 90.1-ci maddəsinə görə **şübhə edilən şəxs** dedikdə aşağıdakı fiziki şəxslər başa düşülür: 1) ittiham elan olunması üçün barəsində tutulma haqqında qərar çıxarılmış şəxs; 2) cinayət törətməkdə şübhələnildiyinə görə tutulmuş şəxs; 3) haqqında həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, qətimkan tədbiri seçilməsi barədə qərar çıxarılmış şəxs.

6. CPM-in 91.1-ci maddəsinə əsasən **təqsirləndirilən şəxs** dedikdə müstəntiq, prokuror və ya məhkəmə tərəfindən barəsində təqsirləndirilən şəxs qismində cəlb etməyə dair qərar çıxarılmış fiziki şəxs başa düşülür.

7. Təhlil edilən cinayət cinayət məsuliyyətindən azad etmə haqqında qərarın çıxarıldığı və imzalandığı andan **başa çatmış** hesab edilir. Bu əməlin başa çatmış cinayət hesab edilməsi üçün cinayət məsuliyyətindən azad etmə haqqında qərarın şübhəli şəxsə, müttəhimə, zərərçəkmiş şəxsə və ya prokurora (cinayət işinin istintaqı zamanı qanunların icrasına nəzarəti həyata keçirən prokurora) bildirilib-bildirilməməsinin heç bir əhəmiyyəti yoxdur.

8. Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** edilə bilər. Təqsirkar şübhəli və ya təqsirləndirilən şəxsi qanunsuz olaraq, yəni cinayət məsuliyyətindən azad etmək üçün qanunla müəyyən edilmiş şərtlər və əsaslar olmadan cinayət məsuliyyətindən azad etdiyini dərk edir və bu əməli törətməyi arzu edir.

Cinayətin **motivi** şəxsi maraq, tamah niyyəti və s. ola bilər və bu, cinayət tərkibinin zəruri əlaməti deyildir.

6. Şərh edilən cinayətin **subyekti xüsusidir**. Bu, yalnız prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs ola bilər. Əgər cinayət məsuliyyətindən azad etmə barədə qərarı müstəntiqin prosessual funksiyasını yerinə istintaq şöbəsinin rəisi qəbul etmişsə, onun da əməli bu maddə üzrə cinayət məsuliyyəti yaradacaqdır.

Hakim məhkəməyədək sadələşdirilmiş icraat qaydasında baxılan iş üzrə şəxsi cinayət məsuliyyətindən azad etmə barədə qanunsuz qərar çıxardıqda, onun əməli CM-in 295-ci maddəsi ilə tövsif olunacaqdır.

Maddə 292. Qanunsuz olaraq tutma, həbsə alma və ya həbsdə həbs yerində saxlama

292.1. Bilə-bilə qanunsuz tutma —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

292.2. Bilə-bilə qanunsuz həbsə alma —

dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

292.2-1. Bilə-bilə qanunsuz həbs yerində saxlama —

dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

292.3. Bu Məcəllənin 292.1-ci, 292.2-ci və ya 292.2-1-ci maddələrində nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda —

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il, 27 dekabr 2013-cü il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Qanunsuz olaraq tutma, həbsə alma və ya həbsdə saxlama insan və vətəndaşın Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsində nəzərdə tutulmuş azadlıq hüququnu, 32-ci maddəsində nəzərdə tutulmuş toxunulmazlıq hüququnu pozur. Bu əməl yalnız ədalət mühakiməsinin və hüquq mühafizə orqanlarının mənafeyinə və nüfuzuna deyil, həm də şəxsiyyətin azadlıq və toxunulmazlıq hüququnun konstitusiya təminatına ciddi zərər vurduğuna görə **ictimai təhlükəli** hesab edilir.

2. Qanunsuz olaraq tutma, həbsə alma və ya həbsdə saxlama cinayətinin **obyekti** eyni zamanda həm ədalət mühakiməsinin mənafeyi, həm də şəxsiyyətin hüquq və azadlıqlarıdır.

3. CM-in 292-ci maddəsində obyektiv cəhətinə görə bir-birindən fərqlənən **üç cinayət əməli** nəzərdə tutulmuşdur: 1) qanunsuz tutma (CM-in 292.1-ci maddəsi); 2) qanunsuz həbsə alma (CM-in 292.2-ci maddəsi); 3) qanunsuz həbs yerində saxlama (CM-in 292.2-1-ci maddəsi).

CM-in 292.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** qanunsuz tutmadan ibarətdir.

4. Azərbaycan Respublikasının qanunvericiliyi **tutmanın** iki növünü nəzərdə tutur:

a) inzibati qaydada tutma (İXM-in 88—91-ci maddələri);

b) cinayət prosesində tutulma (CPM-in 147—153-cü maddələri).

5. İXM-in 88.1-ci maddəsinə görə **inzibati qaydada tutma** müstəsna hallarda inzibati xəta haqqında işin düzgün və vaxtında baxılmasının və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi üçün zəruri hesab edildikdə tətbiq edilə bilər. İnzibati xəta törətmiş şəxsin tutulması yalnız Azərbaycan Respublikası qanunvericiliyi ilə səlahiyyət verilmiş orqanlar (vəzifəli şəxslər) tərəfindən həyata keçirilir (həmin səlahiyyətli orqanların (vəzifəli şəxslərin) siyahısı İXM-in 88.1-ci maddəsində öz əksini tapmışdır) və İXM-in 89.2-89.4-cü maddələrində göstərilən xətalar istisna olunmaqla, üç saatdan çox ola bilməz. Lakin müstəsna hallarda xüsusi zərurətlə əlaqədar olaraq Azərbaycan Respublikasının qanunvericilik aktları ilə inzibati qaydada tutmanın başqa müddətləri də müəyyən edilə bilər (İXM-in 89-cu maddəsi).

6. CPM-in 147.1-ci maddəsinə görə cinayət prosesində tutulma yalnız aşağıdakı şəxslərə tətbiq oluna bilər:

1) cinayəti törətməkdə şübhəli olan şəxsə;

2) ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş qəti-imkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxsə;

3) hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin, yaxud cəzanın çəkilməsinin təxirə salınmasının ləğvi məsələsinin həlli məqsədi ilə məhkuma.

Həmin şəxslərin tutulması halları və qaydası CPM-in 147—153-cü maddələrində nəzərdə tutulmuşdur.

CPM-in 147.1.1-ci və 147.1.2-ci maddələrində nəzərdə tutulmuş şəxslərin tutulması 48 saatdan (CPM-in 148.7-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) artıq davam edə bilməz. Həmin şəxslərə tutulduqları andan 48 saat keçənədək ittiham elan edilməli, onlar məhkəməyə gətirilməli, məhkəmə işə təxirə salınmadan baxaraq həmin şəxslərin barəsində həbs qətimkan tədbirinin seçilməsi və ya onların azad edilməsi haqqında qərar çıxarmalıdır.

Tutulma aşağıdakı hallarda tətbiq edilir:

1) şəxsin cinayət törətməsinə şübhə yarandıqda;

2) ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş qətimkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxsə — cinayət təqibi orqanının müvafiq qərarı olduqda;

3) hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkumetmənin, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının ləğvi məsələsinin həllinədək məhkumun tutulması barədə məhkəmənin qərarı olduqda.

7. Cinayət prosesessual qaydada tutulan şəxs müvəqqəti saxlama yerlərində, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtlarında, istintaq təcridxanalarında, səfərə çıxmış gəmidə cinayət törətməkdə şübhəli olduğuna görə dəniz gəmisinin kapitanı və ya onu əvəz edən şəxs tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq xüsusi ayrılmış yerlərdə saxlanılır.

8. Şərh edilən cinayətin obyektiv cəhətinin digər əlaməti tutmanın qanunsuz olmasıdır. Tutma o vaxt **qanunsuz** hesab ediləcəkdir ki, qanunla nəzərdə tutulmuş əsaslar olmadan və tutma qaydası pozulmaqla həyata keçirilmiş olsun.

Tutulmuş şəxs qanunla müəyyən edilmiş müddətdən artıq saxlandıqda da tutma qanunsuz hesab edilir.

9. Qanunsuz tutma barəsində tutulma tətbiq edilən şəxsin azadlığının faktiki məhdudlaşdırıldığı andan **başa çatmış** hesab edilir.

10. Qanunsuz tutma **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Təqsirkar tutmanın qanunsuz olduğunu dərk edir və bu əməli törətməyi

arzu edir.

Cinayətin **motivi** şəxsi maraq, qisas, tamah niyyəti və s. ola bilər.

11. Bu cinayətin **subyekti xüsusidir**. Belə subyektlər qismində inzibati qaydada tutmanı və cinayət-prosessual qaydada tutmanı həyata keçirmək səlahiyyəti olan vəzifəli şəxslər çıxış edəcəkdir. Qeyd edək ki, inzibati qaydada tutmanı həyata keçirmək səlahiyyəti olan şəxslərin dairəsi İXM-in 88-ci maddəsində, cinayət-prosessual qaydada tutmanı həyata keçirmək səlahiyyəti olan vəzifəli şəxslərin dairəsi isə CPM-in 148-ci, 150-152-ci maddələrində müəyyən edilmişdir. Nəzərə almaq lazımdır ki, tutmanı həyata keçirmək səlahiyyəti olan vəzifəli şəxs dedikdə tutma barədə qərar qəbul etmək və ya tutmanı rəsmiləşdirmək səlahiyyəti olan şəxslər başa düşülür (məsələn, şübhəli şəxsi saxlayaraq tutmanı rəsmiləşdirmək səlahiyyəti olan vəzifəli şəxsə təqdim edən, lakin özünün belə səlahiyyəti olmayan polis nəfəri CM-in 292.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti deyildir: o, qanunsuz tutmaya yol verdiyi halda vəzifə səlahiyyətini aşmaya görə (CM-in 308-ci maddəsi) məsuliyyət daşıyacaqdır).

12. CM-in 292.2-ci və 292.2-1-ci maddələrsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** qanunsuz həbsə alma və ya həbs yerində saxlamadan ibarətdir. Bu hərəkətlər şübhəli şəxs və ya təqsirləndirilən şəxs barəsində qanunsuz olaraq həbs növündə qətimkan tədbiri seçmədə, eləcə də bu şəxsləri qanunla müəyyən edilmiş müddətdən artıq həbsdə saxlamada ifadə olunur.

Həbs növündə qətimkan tədbiri aşağıdakı şəxsə tətbiq oluna bilər: 1) bu Məcəllənin 155.1.1—155.1.3-cü maddələrində nəzərdə tutulmuş hərəkətlərin qarşısını almaq məqsədi ilə, 2 (iki) ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə; 2) cinayət prosesini həyata keçirən orqandan gizlənməsinin qarşısını almaq məqsədi ilə, 2 (iki) ildək müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə; 3) əvvəllər seçilmiş digər qətimkan tədbirinin şərtlərini pozmuş şəxsə və ya hökmün icrasını təmin etmək məqsədilə, barəsində azadlıqdan məhrum etmə növündə cəza təyin edilmiş şəxsə (CPM-in 155.3.1-155.3.2-ci maddələri).

Ümumiyyətlə, **həbs** növündə qətimkan tədbiri CPM-in 155.1—155.3-cü maddələrinin tələblərini nəzərə almaqla seçilə bilər. Həbs müstəntiqin vəsatəti əsasında və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı ilə, habelə cinayət işinə baxan məhkəmənin öz təşəbbüsü ilə yalnız məhkəmənin qərarına əsasən seçilə bilər (CPM-in 156.2-ci maddəsi).

13. Həbsə alma (CM-in 292.2-ci maddəsi) o halda **qanunsuz** hesab edilir ki, bu, təqsirləndirilən şəxs barəsində qanunda göstərilən əsaslar olmadan və qanunla müəyyən edilmiş prosessual forma pozulmaqla seçilmiş olsun.

14. Həbs yerində saxlama (CM-in 292.2-1-ci maddəsi) o halda **qanunsuz** hesab edilir ki, bu, qanunda nəzərdə tutulan əsaslar olmadan və ya qanunla müəyyən edilmiş müddət pozulmaqla həyata keçirilmiş olsun.

15. CPM-in 158.1-ci maddəsinə əsasən cinayət işi üzrə məhkəməyədək icraat zamanı qətimkan tədbiri qismində həbs seçilməsi barədə qərar qəbul edərkən məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin bö-

yük ictimai təhlükə törətməyən cinayət törədilməsinə görə 2 (iki) ay, az ağır cinayət törədilməsinə görə 3 (üç) ay həddində, ağır və xüsusilə ağır cinayət törətməsinə görə isə 4 (dörd) ay həddində müəyyən edir.

Cinayət işinin məhkəməyədək icraatı zamanı təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının son müddəti, bir qayda olaraq, aşağıdakılardan artıq ola bilməz:

böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə — 3 (üç) ay;

az ağır cinayətlər üzrə — 7 (yeddi) ay;

ağır cinayətlər üzrə — 10 (on) ay;

xüsusilə ağır cinayətlər üzrə — 13 (on üç ay.

Cinayət işi üzrə məhkəməyədək icraat zamanı toplanmış materialların həcminin böyüklüyü və ya təqsirləndirilən şəxslərin sayının çoxluğu işin istintaqını gecikdirdiyi və başqa formada çətinlik yaratdığı müstəsna hallarda təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının yuxarıda göstərilən son müddəti az ağır və ağır cinayətlər üzrə 3 (üç) aydan, xüsusilə ağır cinayətlər üzrə 6 (altı) aydan artıq olmayan müddətə məhkəmə tərəfindən uzadıla bilər.

Azərbaycan Respublikasının hüdudlarından kənarda tutulduğu andan Azərbaycan Respublikasının ərazisində cinayət prosesini həyata keçirən orqana təhvil verilənədək olan müddət təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının yuxarıda göstərilən son müddəti keçdikdə və ibtidai araşdırmanın davam etdirilməsi zərurəti olduqda həbsdə saxlanılma müddəti 6 (altı) aydan çox olmayan müddətə məhkəmə tərəfindən uzadıla bilər (CPM-in 159.9-cu maddəsi).

16. Təhlil edilən cinayət şəxsin qanunsuz həbsə alındığı, yaxud həbsdə saxlamanın əsasları və müddəti bitdikdən sonra həbsdə saxlamanın davam etdiyi andan **başa çatmış** hesab edilir.

17. Bilə-bilə qanunsuz həbsə alma (CM-in 292.2-ci maddəsi) və ya bilə-bilə qanunsuz həbs yerində saxlama (CM-in 292.2-1-ci maddəsi) **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar şübhəli və ya təqsirləndirilən şəxsi qanunsuz həbsə aldığını və ya həbs yerində saxladığını dərk edir və bunu törətməyi arzu edir. Bu cinayətin **motivi** şəxsi və digər xarakterli niyyət ola bilər.

18. Bilə-bilə qanunsuz həbsə alma və həbs yerində saxlama cinayətlərinin **subyekti** də **xüsusidir**. Bu subyektlər qismində inzibati və ya cinayət-prosessual qaydada həbsə alma, habelə həbsdə saxlanılan şəxsin azad edilməsi barədə qərar qəbul etmək səlahiyyəti olan vəzifəli şəxslər çıxış edəcəkdir. İnzibati və cinayət-prosessual qanunvericiliyin təhlilindən aydın olur ki, belə subyektlər qismində inzibati qaydada həbslə bağlı, yaxud ibtidai araşdırma mərhələsində və ya məhkəmənin icraatında olan cinayət işi üzrə həbs qətimkan tədbiri ilə əlaqədar qərar çıxarmaq səlahiyyəti olan hakimlər (xatırladaq ki, bəzi məhkəmələrin hakimlərinin belə qərar çıxarmaq səlahiyyəti yoxdur), təqsirləndirilən şəxsin həbsdə saxlanılmasına əsaslar olmadıqda onun həbs yerindən azad edilməsi üçün tədbirlər görməli olan müstəntiq və ya prokuror, habelə bunun üçün qanunla müəyyən edilmiş əsaslar olduqda şəxsi həbsdən azad etmək səlahiyyəti olan həbsdə saxlama yerinin müvafiq vəzifəli şəxsləri (rəis, onun səlahiyyətlərini icra edən digər şəxs) çıxış edəcəklər. Əgər qanunsuz olaraq həbsə alma məhkəmənin ayrıca qərarı üzrə tətbiq edilərsə, hakim CM-

in 295-ci maddəsi üzrə deyil, yalnız şərh edilən maddəsi üzrə məsuliyyətə cəlb ediləcəkdir, çünki CM-in 292-ci maddəsi həmin məsələ ilə əlaqədar CM-in 295-ci maddəsinə münasibətdə xüsusi normadır. Ümumi və xüsusi norma arasında rəqabət yarandıqda isə xüsusi norma tətbiq edilməlidir. Lakin qanunsuz olaraq həbsə alma məhkəmənin digər məsələlərin də həll olunduğu ümumi xarakterli qərarı (məsələn, hazırlıq iclasının yekununa dair qərarı) ilə tətbiq edilmişdirsə və həmin ümumi qərar digər səbəblərdən də ədalətsiz olduğuna görə əməldə CM-in 295-ci maddəsində təsbit edilmiş tərkib əlamətləri də varsa, onda hakimin məsuliyyəti cinayətlərin məcmusu qaydasında CM-in 292-ci və 295-ci maddələri üzrə həll ediləcəkdir.

19. CM-in 292.3-cü maddəsində qanunsuz olaraq tutmanın, həbsə almanın və ya həbs yerində saxlamanın **ağırlaşdırıcı tərkib əlaməti** — həmin hərəkətlərin ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

Burada **ağır nəticələr** dedikdə şübhəli və ya təqsirləndirilən şəxsin özünü öldürməsi, öldürülməsi, həbsə alınması ilə əlaqədar olaraq onda yaranan psixi pozuntu və s. başa düşülə bilər. Əməlin təhlil edilən ağırlaşdırıcı tərkib əlaməti üzrə tövsif olunması üçün baş vermiş ağır nəticə ilə qanunsuz tutma, həbsə alma və ya qanunsuz həbsdə saxlama arasında səbəbli əlaqə müəyyən edilməlidir.

Maddə 293. İşgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

293.1. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar dövlət orqanının vəzifəli şəxsi və ya bu qisimdə çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhriki və ya razılığı ilə, yaxud o, xəbərdar olduğu halda başqa şəxslər tərəfindən şəxsi qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qoyma, həmin əməldə bu Məcəllənin 293.2-ci maddəsində nəzərdə tutulmuş işgəncə əməlinin əlamətləri olmadıqda —

dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

293.2. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar dövlət orqanının vəzifəli şəxsi və ya bu qisimdə çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhriki və ya razılığı ilə, yaxud o, xəbərdar olduğu halda başqa şəxslər tərəfindən işgəncə vermə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

293.3. Eyni əməllər sağlamlığa ağır və ya az ağır zərər vurmaqla törədildikdə —

altı ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə, habelə bu Məcəllənin digər maddələrində «işgəncə» dedikdə şəxsin özündən və ya digər şəxsdən məlumat və ya etiraf almaq, yaxud onu və ya digər şəxsi qorxutmaq, özünün və ya digər şəxsin törətdiyi və ya törədilməsində şübhəli bilindiyi əmələ görə cəzalandırmaq, iradəsi əleyhinə hər hansı əməli törətməyə məcbur etmək məqsədilə və ya ayrı-seçkiliyə əsaslanan hər hansı səbəbdən ona güclü fiziki ağrı və ya psixi iztirablar vermə başa düşülür *(Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmişdir; 31 may 2017-ci il tarixli Qanunla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 17 iyul 2012-ci il; 19 iyul 2017-ci il).*

1. «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» 1950-ci il Roma Konvensiyasının 3-cü maddəsində deyilir ki, heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixli 103-IQ nömrəli Qanunu ilə ratifikasiya olunmuş «İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı» 1984-cü il BMT Konvensiyasının 2-ci maddəsində göstərilir ki, hər bir iştirakçı dövlət öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncə hərəkətlərinin qarşısını almaq üçün təsirli qanunvericilik, inzibati, məhkəmə tədbirləri, yaxud digər tədbirlər görür.

İstinad olunan beynəlxalq hüquq normaları rəhbər tutulmaqla Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli, 405-IVQD saylı Qanunu ilə CM-in 293-cü maddəsi yeni redaksiyada verilərək işgəncəyə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaya görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Bu maddələrin şərhindən əvvəl həmin norma ilə bağlı bir sıra nəzəri və təcrübi problemləri qeyd etmək istərdik.

Maddəyə diqqət etdikdə faktiki olaraq iki fərqli cinayət əməlinə görə məsuliyyət nəzərdə tutulduğunu görürük: 1) işgəncə sayılmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza (CM-in 293.1-ci maddəsi); 2) işgəncə (CM-in 293.2-ci maddəsi). Bu əməllərin başlıca fərqi onların subyektiv cəhəti ilə bağlı olsa da, onların obyekti, obyektiv cəhəti və subyektləri arasında da müəyyən fərqlər var. Həmin əməllərdən ikincisi həm obyektinə, həm də subyektiv cəhətinin ehtiva etdiyi xüsusi məqsədə əsasən CM-in «Ədalət mühakiməsi əleyhinə olan cinayətlər» adlanan 32-ci fəslində yerləşdirilməli olduğu halda, birinci əməl barədə bunu demək olmaz. Çünki CM-in 293.1-ci maddəsinin dispozisiyasından aydın olur ki, bu əməl ya qulluq mənafeyi əleyhinə olan cinayət sayılmalı idi, ya da (ən yaxşısı) həyat və sağlamlıq əleyhinə muvafiq cinayətin — əzab vermənin (CM-in 133-cü maddəsi) ağırlaşdırıcı tərkibi kimi təsbit edilməli idi.

Şərh olunan maddədə daha bir qüsur bu maddənin adında və CM-in 293.1-ci maddəsinin mətnində «cəza» sözünün işlədilməsidir. CM-in 41.1-ci maddəsinə uyğun olaraq, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. «Cəza» sözünü CM-də bundan fərqli mənada işlətmək doğru deyil və deməli, məhkəmədən başqa hər hansı digər subyektin şəxsə qarşı tətbiq etdiyi tədbir və ya hərəkət «cəza» adlandırıla bilməz. Məhkəmənin təyin etdiyi cəza qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan olduqda isə buna yol verən hakim CM-in 295-ci maddəsi üzrə məsuliyyətə cəlb ediləcəkdir. «Cəza» sözü adlarını çəkdiyimiz konvensiyalarda məhz cinayət-hüquqi tədbir

mənasında işlədilmişdir və məqsəd də həmin konvensiyalara qoşulan dövlətlərin üzərinə öz milli qanunvericiliyində qəddar, qeyri-insani, ləyaqəti alçaldan cəzaların nəzərdə tutulmasını istisna etmək vəzifəsi qoymaqdır. Ona görə də «cəza» sözünün həmin konvensiyalardan avtomatik olaraq təhlil olunan maddəyə gətirilməsi düzgün deyil. Hər hansı bir vəzifəli şəxsin, o cümlədən hakimin şəxs barəsində tətbiq etdiyi qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan tədbir heç bir halda «cəza» adlandırıla bilməz. Belə tədbir sadəcə olaraq qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın təzahür forması olacaqdır.

2. Şərh edilən cinayətin **obyekti** ədalət mühakiməsinin, müxtəlif dövlət orqanlarında, xüsusən də təhqiqat və istintaq orqanlarında normal qulluğun həyata keçirilməsini təmin edən ictimai münasibətlər, habelə şəxsiyyətin sağlamlığının, şərəf və ləyaqətinin qorunması ilə bağlı yaranan ictimai münasibətlərdir.

3. Qeyd etdik ki, CM-in 293-cü maddəsində faktiki olaraq iki cinayət tərkibi təsbit edilmişdir. Ona görə də onların tərkib əlamətlərini ayrılıqda təhlil etmək zəruridir.

CM-in 293.1-ci maddəsində təsbit edilən cinayət tərkibinin **obyektiv cəhəti** aşa-ğıdakıları ehtiva edir:

- zərərçəkmiş şəxsi işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qoymaqdan ibarət əməl;
- həmin əməldə CM-in 293.2-ci maddəsində nəzərdə tutulan mənada işgəncə əlamətinin olmaması;
- göstərilən əməlin bu cinayətin subyekti tərəfindən xidməti vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar törədilməsi.

Şərh olunan cinayəti yaradan ictimai təhlükəli əməllər qismində ümumi şəkildə şəxsi qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qoyma göstərilir. Bu əməlin bilavasitə ifadə forması kimi alternativ olaraq «rəftar» və «cəza» göstərilir. Qeyd etdik ki, şərh olunan normada «cəza» sözü cinayət-hüquqi termin kimi işlənmir və bu söz əslində şəxsə qarşı qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan davranışın təzahür formalarından birini ifadə edir.

Təhlil olunan normadan aydın olur ki, şəxs barəsində hər hansı rəftar yalnız o vaxt kriminal xarakter alır ki, qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan olsun. Həmin əlamətlər bir-biri ilə çox yaxın mənaya malikdir və əslində kriminal rəftarın mahiyyətini daha aydın ifadə etmək üçün alternativ əlamətlər kimi işlədilmişdir. Başqa sözlə, əksər hallarda təqsirkarın eyni bir əməli həm qəddarlıq, həm qeyri-insanilik, həm də ləyaqəti alçaldan əlamətlərinə malik olacaqdır. Əməlin şərh olunan cinayət kimi tövsif edilməsi üçün bu əlamətlərdən birinin olması yetərlidir.

Qəddar rəftar dedikdə zərərçəkmiş şəxsə fiziki ağrılar və ya psixi iztirablar yetirən kobud, təhqiramiz, əxlaqa və qanuna zidd olan hərəkət və ya hərəkətsizlik başa düşülə bilər.

Qeyri-insani rəftar zərərçəkmiş şəxsin insani hisslərinin tapdanmasını, ona təşəkkül tapmış əxlaq və ədəb qaydalarından kənar, kobud münasibət göstərilməsini ehtiva edir. Qeyri-insani rəftar zərərçəkmişlə heyvan kimi, əşya kimi

davranış deməkdir.

Ləyaqəti alçaldan rəftar insanın şərəf və ləyaqətini tapdalayan, onu aşağılayan, ələ salan davranış, onun təhqir olunması kimi başa düşülməlidir.

Ümumiyyətlə, zərərçəkmişlə rəftarın göstərilən üç formasını bir-birindən fərqləndirmək asan deyil. Məsələn, qəddar rəftar həm də qeyri-insani və ləyaqəti alçaldan rəftar hesab edilə bilər. Odur ki, rəftarın həmin əlamətlərə (və ya onlardan birinə) malik olması xeyli dərəcədə qiymətləndirici xarakter daşıyır və hər bir konkret əmələ hüquqi qiymət verilərkən ibtidai araşdırma orqanı və ya məhkəmə tərəfindən müəyyən olunaraq əsaslandırılmalıdır.

Konkret rəftarın qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan olub-olmaması müəyyən edilərkən müxtəlif hüquq normaları ilə nəzərdə tutulan davranış və münasibət qaydaları, xüsusən konkret vəziyyət və hallarda vəzifəli şəxslərin fəaliyyətini tənzimləyən prosessual xarakterli normalar (məsələn, polis əməkdaşının ic-timai qaydanı pozan vətəndaşla davranış qaydaları), dövlət qulluqçusunun və müxtəlif vəzifəli şəxslərin əxlaq qaydaları, habelə təşəkkül tapmış ictimai əxlaq və mənəviyyat normaları rəhbər tutulmalıdır. Rəftarın qəddarlıq, qeyri-insanilik, ləyaqəti alçaldan əlamətlərinə malik olub-olmaması müəyyənləşdirilərkən onun hansı şəraitlə (məsələn, başqalarının yanında, əmək kollektivində, ailə üzvləri yanında və s.) edilməsi, zərərçəkmişin şəxsiyyəti, belə rəftarın təsadüfi və ya mütəmadi xarakterə malik olması, davam etmə müddəti və s. hallar da nəzərə alına bilər. Lakin bu zaman subyektivliyə yol verilməməli, insanın şərəf və ləyaqətinə, azadlığına, fiziki və psixi toxunulmazlığına hörmətin onun yaşından, cinsindən, ictimai vəziyyətindən, əmlak vəziyyətindən, təhsilindən və dünya görüşü səviyyəsindən, irqindən, dinindən və başqa göstəricilərindən asılı olmadığı unudulmamalıdır.

4. CM-in 293.1-ci maddəsində göstərilən cinayətin obyektiv cəhətinin başqa bir əlaməti zərərçəkmiş şəxs barəsində qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan davranışın CM-in 293.2-ci maddəsində nəzərdə tutulan mənada işgəncə əlamətinə malik olmamasıdır. İşgəncə əlaməti olduqda belə rəftar CM-in 293.2-ci maddəsi üzrə tövsif ediləcəkdir (bu maddənin şərhinin 8-ci bəndinə bax).

5. CM-in həm 293.1-ci, həm də 293.2-ci maddəsində nəzərdə tutulan cinayətin obyektiv cəhətinin zəruri əlamətlərindən biri bu əməllərin şəxs tərəfindən xidməti vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar törədilməsidir. Bu əlamət təqsirkar şəxsin şərh olunan əməli öz qulluq vəzifələrinin yerinə yetirilməsi gedişində, bununla bağlı zərərçəkmiş şəxslə təmasda olarkən, öz qulluq vəzifəsindən irəli gələn hər hansı məsələni həll edərkən törətməsini ehtiva edir. Qəddar, qeyri-insani, ləyaqəti alçaldan rəftar və cəza vəzifəli şəxsin xidməti vəzifələrinə aid fəaliyyəti və davranışı ilə bağlı olmadıqda (məsələn, şəxsi, qonşuluq münasibətlərindən irəli gəldikdə və s.) əməl CM-in 293.1-ci maddəsi ilə tövsif edilə bilməz.

6. CM-in 293.1-ci maddəsində nəzərdə tutulan əməlin subyektiv cəhəti təqsirin qəsd formasını nəzərdə tutur. Cinayətin motiv və məqsədinin əməlin tövsifi üçün əhəmiyyəti yoxdur, lakin əməl işgəncə üçün xarakterik məqsədlərlə törədilərsə, şəxs CM-in 293.2-ci maddəsi ilə məsuliyyətə cəlb ediləcəkdir.

7. Təhlil olunan cinayətin **subyekti** vəzifəli şəxslər və ya bu qismdə çıxış edən digər şəxslər ola bilər. Vəzifəli şəxsin anlayışı CM-in 308-ci maddəsinin qeydində verilmişdir. Vəzifəli şəxs qismində çıxış edən şəxs dedikdə qanunvericiliyə müvafiq olaraq vəzifəli şəxsin səlahiyyətlərinin həyata keçirilməsi həvalə olunmuş istənilən şəxs başa düşülə bilər.

CM-in 293-cü maddəsini tətbiq edərkən subyektlərlə bağlı bu normanın dispozisiyasında göstərilən xüsusi əlamətlər nəzərə alınmalıdır. Belə ki, normadan birmənalı aydın olur ki, vəzifəli şəxs və ya bu qismdə çıxış edən digər şəxs nəinki təhlil olunan əməlin bilavasitə icraçısı, həm də həmin əməlin təhrikçisi olduqda, yaxud bu əməl onun razılığı ilə və ya xəbərdar olduğu halda törədildikdə də CM-in şərh olunan maddəsi üzrə məsuliyyət yaranacaqdır. Ona görə də vəzifəli şəxs və ya bu qismdə çıxış edən digər şəxs tərəfindən həmin əməlin törədilməsi hallarında onlar CM-in 293.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin icraçısı, onların təhriki və ya razılığı ilə, yaxud onlar xəbərdar olduğu halda başqa şəxslər tərəfindən törədilməsi hallarında isə təşkilatçısı, təhrikçisi və ya köməkçisi qismində məsuliyyət daşıyırlar.

8. CM-in 293.2-ci maddəsində işgəncə verməyə görə məsuliyyət nəzərdə tutulur. Həmin əməlin **obyektiv cəhəti** işgəncədən ibarət əməli və bu əməlin xidməti vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar törədilməsini ehtiva edir.

İşgəncənin anlayışı CM-in 293-cü maddəsinin qeydində verilmişdir. Həmin anlayışa diqqət yetirdikdə aydın olur ki, işgəncə zərərçəkmişə güclü fiziki ağrılar və ya psixi iztirablar vermədən ibarət hərəkət və ya hərəkətsizliyi nəzərdə tutur. Həmin hərəkət və ya hərəkətsizliklərin mahiyyəti CM-in 133-cü maddəsinin şərhində nəzərdən keçirilmişdir (həmin maddənin şərhinə bax).

İşgəncənin mövcud olması üçün göstərilən hərəkət və ya hərəkətsizliyin aşağıdakı məqsəd və ya səbəbdən törədilməsi zəruridir:

- zərərçəkmiş şəxsin özündən və ya digər şəxsdən məlumat və ya ehtiraf almaq məqsədilə;
- zərərçəkmiş şəxsi və ya digər şəxsi qorxutmaq məqsədilə;
- zərərçəkmiş şəxsi və ya digər şəxsi törətdiyi və ya törədilməsində şübhəli bilindiyi əmələ görə cəzalandırmaq məqsədilə;
- zərərçəkmiş şəxsi və ya digər şəxsi öz iradəsi əleyhinə hər hansı əməli törətməyə məcbur etmək məqsədilə;
- ayrı-seçkiliyə əsaslanan hər hansı başqa səbəbdən.

Məlumat almaq məqsədi ilə işgəncə vermə dedikdə zərərçəkmiş şəxsin özünün və ya digər şəxsin malik olduğu və ya malik olması ehtimal edilən hər hansı bir məlumatı (cinayət işi ilə əlaqədar, kommersiya və ya şəxsi xarakterli və s.) əldə etmək üçün zərərçəkmiş barəsində CM-in 133.1-ci maddəsində nəzərdə tutulmuş əməlin törədilməsi başa düşülməlidir. Bu zaman həmin şəxslərin həqiqətən belə məlumata malik olub-olmamasının, habelə həmin məlumatı verməyə borclu olmasının və ya olmamasının əməlin tövsifi üçün heç bir əhəmiyyəti yoxdur.

Təhlil olunan maddədə digər şəxs dedikdə istənilən fiziki şəxs yox, işgəncəyə məruz qalan zərərçəkmiş şəxsin yaxın münasibətdə (qohumluq, dostluq, xidməti münasibətlər, hər hansı siyasi və ya dini qurumda birgə iştirak və s.)

olduğu, zərərçəkmişin işgəncəyə məruz qalacağı təqdirdə təqsirkarın güddüyü məqsədə nail olunması üçün istifadə oluna bilən şəxs başa düşülməlidir (məsələn, oğula işgəncə verilərək anadan məlumat və ya etiraf almaq və s.)

Etiraf almaq məqsədi ilə işgəncə vermə dedikdə zərərçəkmiş şəxsin özünün və ya digər şəxsin hər hansı hüquq pozuntusunu (cinayəti, inzibati xətanı, intizam xətasını və ya mülki-hüquqi delikti) törətdiyini bildirməsinə nail olmaq üçün zərərçəkmiş barəsində CM-in 133.1-ci maddəsində nəzərdə tutulmuş əməlin törədilməsi başa düşülməlidir. Bu zaman zərərçəkmiş şəxsin və ya digər şəxsin etirafına məcbur edildiyi hüquq pozuntusunu törədib-törətməməsinin əməlin tövsifi üçün əhəmiyyəti yoxdur.

Şəxsi qorxutmaq məqsədi ilə işgəncə vermə dedikdə zərərçəkmişin özünü, yaxud digər şəxsi hər hansı hərəkətdən və ya mövqeydən çəkindirmək, onları təqsirkara lazım olan davranışa sövq etmək üçün zərərçəkmiş barəsində işgəncə hərəkətlərini törətmə başa düşülməlidir.

Törətdiyi və ya törədilməsində şübhəli bilindiyi əmələ görə şəxsi cəzalandırmaq məqsədi ilə işgəncə vermə o halda mövcud olacaqdır ki, şübhəli şəxsi, təqsirləndirilən şəxsi, məhkumu və ya barəsində rəsmi olaraq cinayət təqibi başlanmamış istənilən şəxsi cinayət-cəza sistemindən kənara çıxılmaqla cəzalandırmaq məqsədi ilə zərərçəkmişə işgəncə verilmiş olsun. Zərərçəkmiş şəxsi və ya digər şəxsi törətdiyi və ya törədilməsində şübhəli bilindiyi əmələ görə qanunvericiliklə müəyyən edilmiş qaydada cəzalandırmağa nail olmaq üçün işgəncə verildikdə də işgəncə mövcud olacaqdır. Belə halda etiraf almaq məqsədi də mövcud ola bilər və əməl CM-in 293.2-ci maddəsi ilə vahid cinayət kimi tövsif ediləcəkdir.

Zərərçəkmiş şəxsi və ya digər şəxsi öz iradəsi əleyhinə hər hansı əməli törətməyə məcbur etmək məqsədilə işgəncə o halda mövcud olacaqdır ki, təqsirkar zərərçəkmişə fiziki ağrılar yetirmək və ya psixi iztirab vermək yolu ilə onun özünü və ya digər şəxsi müəyyən hərəkəti etməyə məcbur etsin. Bu zaman şəxsin iradəsindən kənar məcbur edildiyi hərəkətin qanuni və ya qanuna zidd olmasının əməlin şərh olunan maddə üzrə tövsifi üçün əhəmiyyəti yoxdur. Lakin zərərçəkmiş və ya digər şəxs işgəncə yolu ilə cinayət əməlinə məcbur edildikdə təqsirkarın əməli cinayətlərin məcmusu üzrə, həm də törədilməsinə nail olduğu əmələ görə tövsif ediləcəkdir.

Ayrı-seçkiliyə əsaslanan hər hansı başqa səbəbdən işgəncə vermə dedikdə zərərçəkmiş şəxsin məhz ayrı-seçkilik zəminində fiziki ağrılara və ya psixi iztirablara məruz qalması başa düşülməlidir. Ayrı-seçkilik dedikdə siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahələrində cinsinə, siyasi baxışlarına, dini mənsubiyyətinə, əmlak vəziyyətinə, mədəni səviyyəsinə, sosial mənşəyinə, irqinə, dərisinin rənginə, milli və ya etnik mənsubiyyətinə və başqa hər hansı əlamətinə görə insanlar arasında hər hansı fərq qoymaq, istisna etmək, məhdudiyyət və ya üstünlük müəyyən etmək başa düşülür.

9. İşgəncə cinayətinin obyektiv cəhətinin başqa bir əlaməti təqsirkarın bu əməli öz xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar törətməsidir. Həmin əlamət CM-in 293.1-ci maddəsində göstərilən cinayətin təhlilində nəzərdən keçirilmişdir.

10. CM-in 293.2-ci maddəsində nəzərdə tutulan cinayətin subyekti və həmin subyektə dair xüsusi əlamətlər CM-in 293.1-ci maddəsində təsbit olunan cinayətin subyekti və onun xüsusi əlamətləri ilə eynidir (bu maddənin şərhinin 7-ci bəndinə bax). Lakin CM-in 293.2-ci maddəsində nəzərdə tuutlan cinayət əməli daha çox hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən törədilə bilər.

11. CM-in 293.3-cü maddəsində işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza cinayətinin ağırlaşdırıcı tərkib əlamətləri qismində həmin əməllərin sağlamlığa ağır və ya az ağır vurmaqla törədilməsi təsbit edilmişdir. Bu əlamətlərin şərhi müvafiq olaraq CM-in 126-cı və 127-ci maddələrinin təhlilində verilmişdir.

Maddə 294. Sübutları saxtalaşdırma

294.1. Mülki iş üzrə işdə iştirak edən şəxs və ya onun nümayəndəsi tərəfindən sübutların saxtalaşdırılması —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir ildən iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

294.2. Cinayət işi üzrə təhqiqatçı, müstəntiq, prokuror və ya müdafiəçi tərəfindən sübutları saxtalaşdırma —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

294.3. Ağır və ya xüsusilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutları saxtalaşdırma, habelə digər işlər üzrə sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Təbii ki, yalnız etibarlı və kifayət qədər mötəbər olan sübutların məcmusu əsasında mülki və ya cinayət işləri özünün qanuni və ədalətli həllini tapa bilər. Çəkişmə şəraitində həyata keçirilən mülki və cinayət prosesində mötəbər olmayan, həqiqətə uyğun gəlməyən (saxtalaşdırılmış) sübutların təqdim edilməsinin mümkünlüyü son dərəcə arzuedilməz və təhlükəlidir. Bu maddədə nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyətin müəyyən edilməsi işin nəticəsi ilə maraqlı olan şəxslər tərəfindən keyfiyyətsiz sübutların məhkəməyə təqdim edilməsi halları ilə, saxta sübutlar əsasında qanunsuz məhkəmə qərarlarının çıxarılması ilə mübarizəyə yönəlmişdir.

2. Sübutları saxtalaşdırma cinayətinin **obyekti** ədalət mühakiməsinin mənafeyi, habelə şəxsiyyətin hüquqları və qanuni mənafeləridir.

3. CM-in 294.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən**

mülki işlər üzrə sübutların saxtalaşdırılmasından ibarətdir.

4. Təhlil edilən maddədə nəzərdə tutulmuş mənada **mülki iş** dedikdə Azərbaycan Respublikasının müxtəlif instansiya ümumi məhkəmələrində, iqtisad məhkəmələrində, Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə aid Azərbaycan Respublikasının İqtisad Məhkəməsində və münsiflər məhkəmələrində iddia icraatı, xüsusi iddia icraatı və xüsusi icraat qaydasında baxılan işlər başa düşülür.

5. Təhlil edilən maddənin dispozisiyası mülki işlər anlayışı ilə həm də məhkəmə qaydasında baxılan inzibati xətalar haqqında işləri ehtiva edir.

6. MPM-in 76-cı maddəsinə görə tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən qanunla müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur. Bu məlumatlar yazılı və maddi sübutlarla, ekspert rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə əldə edilir.

İXM-in 76-cı maddəsinə əsasən inzibati xətanın olub-olmamasını, inzibati xəta törədən şəxsin təqsirini və işin düzgün həlli üçün əhəmiyyətli olan digər halları müəyyən etməkdən ötrü hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) əsaslana bildiyi hər cür faktik məlumatlar inzibati xətalar haqqında işlər üzrə sübutlar sayılır. Bu məlumatlar maddi sübutlarla, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin, zərərçəkmiş şəxslərin, şahidlərin izahatları ilə, digər sənədlərlə, xüsusi texniki vasitələrin göstəriciləri ilə, ekspertin rəyi ilə, inzibati xəta haqqında protokolla, İXM ilə müəyyən edilmiş digər protokollarla müəyyən edilir.

7. Mülki işlər üzrə **sübutların saxtalaşdırılması** dedikdə maddi sübutların və yazılı sübutların (sənədlərin, protokolların və s.) uydurulması, onlara onların məzmununu və mahiyyətini dəyişən əlavə və düzəlişlər edilməsi, onların görkəminin dəyişdirilməsi və s. başa düşülür.

Mülki işlər üzrə **yazılı sübutlar** dedikdə iş üçün əhəmiyyətli hallar barədə məlumat verən, lazımi qaydada rəsmiləşdirilmiş aktlar, müqavilələr, arayışlar, işgüzar yazışmalar və sair sənəd və materiallar nəzərdə tutulur.

Mülki işlər üzrə **maddi sübutlar** dedikdə xarici görünüşünə, xüsusiyyətlərinə, olduğu yerə və digər əlamətlərinə görə iş üçün əhəmiyyətli olan halların müəyyən edilmə vasitəsi ola bilən əşyalar başa düşülür (MPM-in 91-ci maddəsi).

8. CM-in 294.1-ci maddəsində nəzərdə tutulmuş cinayət sübutların saxtalaşdırılaraq məhkəməyə təqdim edildiyi və ya başqa qaydada mülki iş üzrə materiallara daxil edildiyi andan başa çatmış olacaqdır.

9. Mülki işlər üzrə sübutların saxtalaşdırılması **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** edilə bilər. Cinayətin **motivi** işin nəticəsinə olan şəxsi maraq, tamah niyyəti və s. ola bilər.

10. CM-in 294.1-ci maddəsində nəzərdə tutulan cinayətin **subyekti** yalnız işdə iştirak edən şəxslər və onların nümayəndələri ola bilər.

İşdə iştirak edən şəxslərə tərəflər, üçüncü şəxslər, ərizəçilər, maraqlı

şəxslər, pozulmuş və ya mübahisə edilən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan ictimai təşkilatlar, dövlət orqanları və digər orqanlar (onların nümayəndəsi) aiddir (MPM-in 46-cı maddəsi).

Məhkəmədə iş aparmaq üçün səlahiyyəti lazımi qaydada rəsmiləşdirilmiş hər hansı fəaliyyət qabiliyyətli şəxs (MPM-in 71-ci maddəsində sadalanan şəxslər istisna olmaqla) **nümayəndə** ola bilər (MPM-in 70-ci maddəsi).

11. CM-in 294.2-ci maddəsində cinayət işləri üzrə sübutların saxtalaşdırılmasına görə məsuliyyət nəzərdə tutulur.

Bu cinayətin **obyektiv cəhətini** təşkil edən **saxtalaşdırma** təftiş aktlarının və sənədli yoxlamaların nəticələrinin, maddi sübutların, istintaq hərəkəti protokollarının və digər sənədlərin məzmununun dəyişdirilməsində, onlara yanlış məlumatlar daxil edilməsində, onların uydurulmasında və s. hərəkətlərdə ifadə olunur.

Öz xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərini saxladığına görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən hər bir əşya **maddi sübut** hesab edilə bilər (CPM-in 128.1-ci maddəsi).

CPM-in 135.1-ci maddəsinə görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar **sənəd** hesab olunur. Şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd rəsmi sənəd hesab edilir. Müxtəlif istintaq hərəkəti və məhkəmə protokolları da sübut hesab edilir. İstintaq hərəkətlərinin və məhkəmə iclasının protokolları cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üçün əhəmiyyət kəsb edən halların bilavasitə qavranılmasını təsdiq edən və CPM-ə uyğun yazılı formada tərtib edilmiş sənədlərdir. CPM-in 134.2-ci maddəsində nəzərdə tutulmuş istintaq hərəkəti protokolları da sübut hesab edilir.

12. CM-in 294.2-ci maddəsində nəzərdə tutulmuş cinayət sübutlar saxtalaşdırılaraq cinayət işinə əlavə edildiyi və ya məhkəməyə təqdim edildiyi andan **başa çatmış** olacaqdır.

13. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** edilir. Bu cinayətin motivi işin nəticəsinə şəxsi maraq, dini və ya irqi ədavət və ya nifrətlə bağlı qisas, qulluq mənafeyinə yanlış təsəvvür və s. ola bilər

14. CM-in 294.2-ci maddəsi üzrə sübutları saxtalaşdırmanın **subyekti** yalnız təhqiqat aparan şəxs, müstəntiq, prokuror və ya müdafiəçi ola bilər.

15. CM-in 294.3-cü maddəsində ağır və ya xüsusilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutları saxtalaşdırma, habelə digər işlər üzrə sübutların saxtalaşdırılmasının ağır nəticələrə səbəb olması şərh edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** kimi nəzərdə tutulmuşdur.

Ağır və **xüsusilə ağır** cinayətlərin anlayışı CM-in 15-ci maddəsinin şərhində verilmişdir.

Ağır nəticələr dedikdə saxta sübutlar nəticəsində təqsirləndirilən şəxsin müəyyən müddətə azadlıqdan məhrum edilməyə, ömürlük azadlıqdan məhrum edilməyə məhkum edilməsi, saxta sübutlar əsasında barəsində qətimkan

tədbiri kimi həbsəalma seçilmiş şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin özünü öldürməsi, psixi xəstəliyə tutulması və s. başa düşülə bilər.

Maddə 295. Bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma

295.1. Hakimlərin bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və ya qərar çıxarması —

beş min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

295.2. Eyni əməllər azadlıqdan məhrum etmə barədə məhkəmənin çıxardığı qanunsuz hökm ilə əlaqədar olduqda və ya başqa ağır nəticələrə səbəb olduqda —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Hakimlərin bilə-bilə ədalətsiz aktlar çıxarması məhkəmə orqanlarının vəzifəli şəxsləri tərəfindən törədilən ədalət mühakiməsi əleyhinə cinayətlərdən ən təhlükəlisidir.

Bu cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, təhlil edilən maddədə göstərilən əməllərin törədilməsi nəticəsində ədalət mühakiməsini həyata keçirən orqanların normal işi pozulur, məhkəmə hakimiyyətinin nüfuzu aşağı düşür, mülki işlərdə tərəflərin, eləcə də cinayət işləri üzrə təqsirləndirilən şəxslər və cinayət prosesinin digər iştirakçısı (məsələn, zərərçəkmiş) hesab edilən vətəndaşların hüquqları və qanuni mənafeləri pozulur.

2. Şərh edilən cinayətin **obyekti** ədalət mühakiməsinin mənafeyi, habelə vətəndaşların hüquqları və qanuni mənafeləridir.

3. CM-in 295.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **obyektiv cəhətdən** hakimlərin bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və ya qərar çıxarmasında ifadə olunur.

Hökm dedikdə şəxsin təqsirləndirildiyi əməllərdə onun təqsirli olub-olmaması, təqsirləndirilən şəxsə cəza tətbiq edilib-edilməməsi haqqında birinci instansiya və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışı nəticəsində hakimin (hakimlərin) çıxardığı qərar başa düşülür.

Qətnamə dedikdə mülki və iqtisadi işlər üzrə birinci instansiya və apellyasiya instansiyası məhkəməsində işə mahiyyəti üzrə baxılması nəticəsində hakimin (hakimlərin) çıxardığı qərar nəzərdə tutulur.

Qərardad birinci instansiya məhkəmələrdə mülki və iqtisadi işlər mahiyyəti üzrə həll edilmədikdə çıxarılan, habelə yuxarı instansiya məhkəmələrdə (plenumdan başqa) işin mahiyyəti üzrə həll edilməsi ilə əlaqədar olmadan çıxarılan məhkəmə aktıdır.

Qərar, ümumiyyətlə, məhkəmə tərəfindən çıxarılan bütün aktlar barəsində işlədilən anlayışdır. Məhkəmənin inzibati xətalara dair iş üzrə, habelə inzibati-iqtisadi məhkəmələrin inzibati iş üzrə çıxardıqları aktlar, habelə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qəbul etdiyi akt qərar adlanır.

4. Adı çəkilən aktları **çıxarma** fəal hərəkətlər olub, həmin sənədlərin hakim (hakimlər) tərəfindən tərtib edilməsində ifadə olunur.

5. Təhlil olunan cinayət həmin aktın hakim (hakimlər) tərəfindən imzalandığı andan **başa çatmış** hesab edilir. Həmin aktın imzalanmasına qədərki fəaliyyət cinayətin törədilməsinə cəhd kimi qiymətləndirilə bilər.

6. Məhkəmə aktı həm kollegial (hakimlər), həm də təkbaşına hakim tərəfindən çıxarıla bilər.

7. Təhlil olunan cinayət tərkibinin zəruri əlamətlərindən biri də məhkəmə aktının **ədalətsiz** olmasıdır. Məhkəmə aktının ədalətsiz olması dedikdə onun iş üzrə müəyyən edilmiş faktiki hallara zidd olaraq çıxarılması və yaxud onun maddi və ya prosessual hüquq normalarının əhəmiyyətli dərəcədə pozulması ilə çıxarılması başa düşülür. Ədalətsiz aktlar cinayət prosessual və mülki prosessual qanunvericiliyə müvafiq olaraq ləğv edilməlidir.

Təcrübədə cinayət işləri üzrə ədalətsiz hökmlərin aşağıdakı növlərinə rast gəlinir: ittihamın sübut edilməməsi (təqsirsiz şəxsin məhkum edilməsi); şəxsin təqsirinin sübut edilməsinə baxmayaraq, ona bəraət verilməsi; cinayətin qəsdən düzgün tövsif edilməməsi nəticəsində əsassız olaraq ağır və ya yüngül cəza təyin edilməsi və s. Bu cür ədalətsiz hökmlər maddi hüquq normalarının əhəmiyyətli dərəcədə pozulması ilə xarakterizə olunur. Ədalətsiz hökmlər cinayət prosessual qanunvericiliyin əhəmiyyətli dərəcədə pozulması nəticəsində də çıxarıla bilər (məsələn, təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması və s.).

Mülki işlər üzrə qətnamə iddia əsassız olaraq rədd və ya təmin edildikdə, mülki iş başqa şəkildə səhv həll edildikdə, mülki prosessual qanunvericilik əhəmiyyətli dərəcədə pozulduqda və s. bu kimi hallarda ədalətsiz hesab edilir.

Yuxarı instansiya məhkəmələrinin qərar və qərardadları o halda ədalətsiz hesab edilir ki, həmin qərar və qərardadlar əsasında qanuni hökm və qətnamələr əsassız ləğv edilsin və ya dəyişdirilsin, yaxud qanunsuz hökm və ya qətnamə qüvvədə saxlanmış olsun.

Məhkəmə aktlarının ədalətsizliyi maddi və ya prosessual hüquq normalarının işin mahiyyəti üzrə həllinə təsir edəcək dərəcədə əhəmiyyətli surətdə pozulması ilə xarakterizə olunur. İşin mahiyyəti üzrə həllinə təsir etməyən, vətəndaşların hüquq və qanuni mənafelərini və ictimai mənafeyi pozmayan əhəmiyyətsiz (formal) pozuntular məhkəmə aktını ədalətsiz hesab etmək üçün əsas ola bilməz.

8. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar ədalətsiz akt çıxardığını dərk edir və bunu etməyi arzu edir.

Ehtiyatsızlıq (məsələn, kifayət qədər peşəkarlığın olmaması və ya diqqətsizlik) üzündən qanunauyğun olmayan aktın çıxarılması bu maddə üzrə məsuliyyəti istisna edir və intizam xətası hesab edilir. Lakin belə halda əməl müvafiq əlamətlər olduqda CM-in 314-cü maddəsi ilə tövsif edilə bilər.

Bu cinayətin **motivi** əməlin tövsif edilməsinə təsir göstərməsə də, məsuliyyətin fərdiləşdirilməsi zamanı mütləq nəzərə alınmalıdır. Tamah, şəxsi qərəzçilik və ya dostluq münasibətləri, qulluq mənafeyinin düzgün dərk edilməməsi, vəzifəpərəstlik və s. bu cinayətin motivi ola bilər.

9. Bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarmanın **subyekti** birinci instansiyada, apellyasiya instansiyasında, kassasiya və nəzarət

instansiyasında işə təkbaşına və ya kollegial qaydada baxan hakimlər ola bilərlər.

10. CM-in 295.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməlin azadlıqdan məhrumetmə barədə məhkəmənin çıxardığı qanunsuz hökm ilə əlaqədar olması və ya başqa ağır nəticələrə səbəb olması göstərilmişdir.

Azadlıqdan məhrumetmə barədə qanunsuz hökm dedikdə şəxsin müəyyən müddətə və ya ömürlük azadlıqdan məhrumetməyə məhkum edilməsi, habelə azadlıqdan məhrumetməyə şərti məhkum edilməsi haqqında çıxarılmış hökm başa düşülür.

Başqa ağır nəticələr dedikdə təqsirsiz məhkumun özünü öldürməsi və ya ağır, o cümlədən psixi xəstəliyə düçar olması, bir neçə şəxsin qanunsuz məhkum edilməsi, qanunsuz məhkum edilmiş şəxsin azadlıqdan məhrumetmə növündə uzunmüddətli cəza çəkməsi, qanunsuz məhkum edilmiş şəxsin ailəsi üçün ağır maddi və ya mənəvi nəticələrin baş verməsi və s. başa düşülə bilər.

Cinayətin bu ağırlaşdırıcı tərkib əlaməti üzrə tövsifi zamanı hakimin əməli ilə həmin nəticələr arasında **səbəbli əlaqənin** müəyyən edilməsi zəruridir.

11. Ədalətsiz hökm çıxarmaya görə müəyyən maddi mükafat alma şərh olunan cinayət tərkibi ilə əhatə olunmur və əməl cinayətlərin məcmusu qaydasında CM-in 295-ci və 311-ci maddələri üzrə tövsif edilməlidir.

Maddə 296. Bilə-bilə yalan xəbərçilik etmə

296.1. Cinayət edilməsi haqqında bilə-bilə yalan xəbərçilik etmə — min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ildən iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

296.2. Eyni əməllər şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə ittiham olunması və ya süni ittiham sübutlarının yaradılması ilə bağlı törədildikdə — iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 29 iyun 2012-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 17 iyul 2012-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Bilə-bilə yalan xəbərçilik etmə cinayətinin ictimai təhlükəliliyi həmin əməllərin törədilməsi nəticəsində məhkəmə, təhqiqat və ibtidai istintaq orqanlarının normal fəaliyyətinin, habelə ayrı-ayrı şəxslərin əsassız cinayət təqibinə məruz qalmaqla əlaqədar rahatlığının pozulmasıdır.

2. Təhlil edilən cinayətin **əsas obyekti** ədalət mühakiməsinin mənafeyi hesab edilir. **Əlavə obyekt** qismində vətəndaşların hüquq və qanuni mənafeləri çıxış edir.

3. CM-in 296.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **obyektiv cəhətdən** cinayət edilməsi haqqında bilə-bilə yalan xəbərçilik etmədə ifadə olunur.

4. **Cinayət edilməsi haqqında xəbərçilik etmə** dedikdə həm başa çatmış

cinayət haqqında, həm də cinayətə hazırlıq və ya cinayət etməyə cəhd haqqında məlumatların müxtəlif formalarda (şifahi, yazılı, telefonla, şəxsən, vasitəçinin köməyi ilə və s.) müvafiq dövlət orqanlarına və ya vəzifəli şəxslərə çatdırılması başa düşülür.

5. Bu cür məlumatlar cinayət işi başlamağa hüququ olan orqanlara (məhkəmələrə, prokurorluq, təhqiqat və ya istintaq orqanlarına), eləcə də vergi, gömrük orqanlarına, habelə üzərinə cinayətin törədilməsi haqqında məlumatları cinayət işi başlamaq səlahiyyəti olan orqanlara və şəxslərə göndərmək vəzifəsi qoyulan digər hakimiyyət və idarəetmə orqanlarına çatdırılır. Şəxsin cinayət törətməsi haqqında məlumatları üçüncü şəxslərə və ya kütləvi informasiya vasitələrinə verməsi təhlil edilən cinayət tərkibini yaratmır və müvafiq əlamətlər olduqda böhtan kimi (CM-in 147-ci maddəsi) tövsif ediləcəkdir.

6. Cinayət edilməsi haqqında xəbərçilik etmə o halda cinayət hesab edilir ki, verilən məlumat **yalan** olsun. Məlumatlar törədilməmiş, hazırlanmayan cinayət, habelə cinayəti törətməmiş (hazırlamayan, cəhd etməyən) şəxs barəsində olduqda yalan hesab ediləcəkdir.

7. Yalan xəbərçilikdə konkret şəxs və ya cinayət törətmiş şəxs göstərilə bilər. Yalnız cinayət faktının özü barədə məlumat verildikdə də cinayət tərkibi mövcud olacaqdır. Cinayət törədilməsinin hallarının ətraflı qeyd olunub-olunmamasının əhəmiyyəti yoxdur.

Terror aktı barədə bilə-bilə yalan məlumat vermə qanunla xüsusi tərkib qismində nəzərdə tutulmuşdur və bu əməl CM-in 296-cı maddəsi ilə deyil, 216-cı maddəsi ilə tövsif ediləcəkdir.

8. Bilə-bilə yalan xəbərçilik etmə cinayəti məlumatın ünvan sahibi tərəfindən alındığı andan başa çatmış hesab edilir.

Nəticə (məsələn, cinayət işi başlama, onun istintaqı, məhkəmə baxışı, təqsirsiz şəxsin məhkum edilməsi) cinayət tərkibindən kənarda qalır, lakin cəza tədbirinin seçilməsi üçün əhəmiyyət kəsb edir.

9. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar cinayət edilməsi haqqında yalan xəbərçilik etdiyini dərk edir və bunu etməyi arzu edir.

10. Bu cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı şəxs ola bilər.

11. CM-in 296.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** — eyni əməllərin şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə ittiham olunması və ya süni ittiham sübutlarının yaradılması ilə bağlı törədilməsi göstərilmişdir.

Ağır və **xüsusilə ağır** cinayətin anlayışı CM-in 15-ci maddəsində verilmişdir. Belə cinayətləri törətməkdə ittiham etməklə yalan xəbərçilik etmə şəxsin ağır və ya xüsusilə ağır cinayət törətmiş olması, yaxud belə cinayət törətməyə hazırlaşması və ya buna cəhd etməsi barədə müvafiq orqanlara yalan məlumat vermədə ifadə olunur.

Təhlil edilən cinayətin **süni ittiham sübutlarının yaradılması** ilə bağlı törədilməsi bilə-bilə yalan xəbərçilik etmənin şəxsi cinayət törətməkdə ifşa edən saxta sübutların təqdim edilməsi ilə müşayiət edilməsini nəzərdə tutur (sübutların saxtalaşdırılması haqqında CM-in 294-cü maddəsinin şərhinə bax).

Maddə 297. Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə

297.1. Məhkəmədə və ya ibtidai istintaqda şahid, zərərçəkmiş şəxs tərəfindən yalan ifadə vermə və ya ekspert tərəfindən bilə-bilə yalan rəy vermə, habelə tərcüməçi tərəfindən bilə-bilə yanlış tərcümə etmə —

min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ildən iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

297.2. Eyni əməllər şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə ittiham olunması ilə bağlı törədildikdə —

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: 1. Bu Məcəllənin 297.1-ci maddəsində göstərilən şəxslər təhqiqatın, ibtidai istintaqın gedişində, məhkəmə baxışında məhkəmə tərəfindən hökm və ya qətnamə, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən qərar çıxarılanadək verdikləri ifadənin, rəyin və ya etdikləri tərcümənin yalan olduğunu könüllü olaraq bildirdikdə cinayət məsuliyyətindən azad olunurlar.

2. Şəxs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilərək bilə-bilə yalan ifadə verdikdə cinayət məsuliyyətinə cəlb olunа bilməz *(Azərbaycan Respublikasının 11 iyun 2004-cü il, 16 may 2008-ci il, 31 may 2011-ci il, 30 aprel 2013-cü il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunlarə ilə edilmiş düzəlişlərlə – «Azərbaycan» q., 11 avqust 2004-cü il; 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 197-ci maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, yalan ifadə və ya rəy, habelə yanlış tərcümə mülki və cinayət işləri üzrə obyektiv həqiqətin üzə çıxarılmasını, işin bütün hallarının hərtərəfli və tam araşdırılmasını çətinləşdirir. Nəticədə qanunsuz və əsassız qətnamə, hökm və ya başqa məhkəmə qərarı çıxarılır, pozulmuş hüquqlar bərpa edilmir, ədalət mühakiməsinin özülünü təşkil edən ədalətlilik və qanunçuluq prinsipləri pozulur.

2. Şərh edilən cinayətin **obyekti** mülki və cinayət işləri üzrə ədalət mühakiməsinin normal həyata keçirilməsini təmin edən ictimai münasibətlərdir.

3. Bu cinayətin **obyektiv cəhətinə** daxildir: 1) aşağıdakı alternativ hərəkətlərdən birində ifadə olunmuş əməl: a) şahidin yalan ifadə verməsi; b) zərərçəkmiş şəxsin yalan ifadə verməsi; c) ekspertin yalan rəy verməsi; ç) tərcüməçinin yanlış tərcümə etməsi; 2) həmin hərəkətlərin məhkəmədə və ya ibtidai istintaqda törədilməsi.

Əməlin təhlil edilən maddə üzrə tövsif edilməsi üçün verilmiş ifadə yalan olmalıdır. **Yalan ifadə** dedikdə işi mahiyyəti üzrə həll etmək üçün əhəmiyyətə malik faktların təhrif edilməsi və ya uydurma faktların irəli sürülməsi nəzərdə tutulur. Bundan başqa, şahidin və ya zərərçəkmiş şəxsin öz ifadəsində müəy-

yən hallar barədə susması da təhlil edilən cinayət tərkibinin obyektiv cəhətini yaradacaqdır.

Nəzərə almaq lazımdır ki, yalnız iş üçün mühüm əhəmiyyətə malik faktlar barədə verilmiş yalan ifadə şərh edilən maddə üzrə məsuliyyətə səbəb ola bilər. İkinci dərəcəli faktlar (məsələn, zərərçəkmiş şəxsin özünün oğurlanmış əmlakını pis mühafizə etməsinin səbəbləri) barədə yalan ifadə vermə təhlil edilən cinayət tərkibini yaratmayacaqdır.

5. **Yalan ekspert rəyi** dedikdə ekspertin təqdim edilmiş materialların həqiqi mahiyyətindən irəli gəlməyən, mövcud faktları təhrif edən, yaxud həmin faktların bəzilərinə, ümumiyyətlə, toxunmayan, habelə özündə uydurma nəticələri əks etdirən rəy başa düşülür.

6. **Yanlış tərcümə** dedikdə şifahi nitqin, yazılı sənədlərin və digər materialların, habelə audio və video yazıya alınmış nitqin məzmununun təhrif edilməsi və ya uydurulmuş məzmunda tərcümə edilməsi başa düşülür.

7. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti təhlil edilən əməllərin **ibtidai istintaqda** və ya **məhkəmədə** törədilməsidir. Ona görə də belə hərəkətlərə kənar yerdə və vaxtda yol verilməsi (məsələn, hakimin və ya müstəntiqin şahidlə qeyri-rəsmi şəxsi söhbəti zamanı) təhlil edilən cinayət tərkibini istisna edir.

8. Təhlil edilən maddədə nəzərdə tutulmuş cinayət **formal tərkib** vasitəsilə ifadə edilmişdir. İfadə və rəy yazılı verildikdə, habelə tərcümə yazılı edildikdə müvafiq sənəd imzalanaraq istintaq orqanına və ya məhkəməyə təqdim edildiyi andan cinayət **başa çatmış** olacaqdır. İfadə və rəy şifahi verildikdə, habelə tərcümə şifahi edildikdə isə cinayət ifadənin, rəyin və ya tərcümənin qurtardığı andan başa çatmış hesab ediləcəkdir.

9. CM-in 297-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyektiv cəhəti birbaşa qəsddən** ibarətdir. Təqsirkar yalan ifadə və ya yalan rəy verdiyini, yaxud yanlış tərcümə etdiyini dərk edir və bu hərəkətləri etməyi arzu edir. İfadənin, rəyin və ya tərcümənin yalan olması təqsirkarın qəsdi ilə əhatə olunmadıqda təhlil edilən maddə üzrə cinayət məsuliyyəti istisna edilir. Məsələn, şahid hadisəni düzgün qavramadığına görə yanılaraq yalan ifadə verdikdə, ekspert qarşısında qoyulmuş məsələlərə kifayət dərəcədə biliyə malik olmadığına görə səhv qiymət verdikdə, yaxud tərcüməçi dili yaxşı bilmədiyinə görə yanlış tərcümə etdikdə cinayət məsuliyyəti istisna edilir.

10. Şərh edilən cinayətin **subyekti xüsusidir**. Bu, şahid, zərərçəkmiş şəxs, ekspert və ya tərcüməçi ola bilər. Həmin şəxslərin **16** yaşına çatmış olması subyektin zəruri əlamətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə əsasən CPM-in 7.0.32-ci maddəsində dairəsi müəyyən edilmiş şəxslər təhlil edilən cinayətin subyekti ola bilməzlər. Lakin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 dekabr 1998-ci il tarixli Qərarının 4-cü bəndinə əsasən həmin şəxslər öz razılıqları ilə şahid qismində ifadə verərkən qəsdən yalan ifadə verməyə görə təhlil edilən maddə üzrə cinayət məsuliyyəti daşımalıdırlar.

11. CM-in 297.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə

ittiham edilməsi ilə bağlı törədilməsi nəzərdə tutulmuşdur.

Ağır və **xüsusilə ağır** cinayətin anlayışı CM-in 15-ci maddəsində verilmişdir.

Təhlil edilən ağırlaşdırıcı tərkib əlaməti o halda mövcud olacaqdır ki, şahidin və ya zərərçəkmiş şəxsin yalan ifadəsi, ekspertin yalan rəyi, yaxud tərcüməçinin yanlış tərcüməsi şəxsi ağır və ya xüsusilə ağır cinayət törətməkdə bilə-bilə yalandan ittiham etməyə yönəlmiş olsun. Ağır və ya xüsusilə ağır cinayəti törətməkdə ittiham edilən şəxsin vəziyyətini yüngülləşdirməyə yönələn yalan ifadə və ya rəy, yaxud yanlış tərcümə təhlil edilən ağırlaşdırıcı tərkib əlaməti yaratmayacaqdır və CM-in 297.1-ci maddəsi üzrə tövsif ediləcəkdir.

12. Təhlil edilən maddənin qeydində bilə-bilə yalan ifadə verməyə, yalan rəy verməyə və ya yanlış tərcümə etməyə görə cinayət məsuliyyətini istisna edən xüsusi hallar nəzərdə tutulmuşdur. Qeydin 1-ci bəndinə əsasən CM-in 297.1-ci maddəsində göstərilən şəxslər təhqiqatın, ibtidai istintaqın gedişində, məhkəmə baxışında məhkəmə tərəfindən hökm və ya qətnamə, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən qərar çıxarılanadək verdikləri ifadənin və ya rəyin, yaxud etdikləri tərcümənin yalan olduğunu könüllü olaraq bildirdikdə cinayət məsuliyyətindən azad olunurlar.

Burada **könüllü olaraq bildirmə** dedikdə şəxsin öz iradəsi ilə, kənar təsir olmadan və törətdiyi cinayət xarakterli əməl istintaq orqanı və ya məhkəmə tərəfindən aşkar edilənədək yalan ifadə və ya rəy verməsi, yaxud yanlış tərcümə etməsi barədə məlumat verməsi başa düşülür.

Qeydin 2-ci bəndində şəxsin dairəsi qanunvericiliklə müəyyən edilmiş yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilərək bilə-bilə yalan ifadə verdikdə cinayət məsuliyyətinə cəlb edilə bilməməsi nəzərdə tutulmuşdur.

Maddə 298. Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi

Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi — min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ildən iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Şəxs özü, arvadı (əri), övladları, valideynləri və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumlarına qarşı ifadə verməkdən imtina etdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. CM-in 298-ci maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** onda ifadə olunmuşdur ki, şahidin və ya zərərçəkmişin ifadə verməkdən imtina etməsi işin araşdırılmasına və məhkəmədə baxılmasına, obyektiv həqiqətin müəyyən edilməsinə mane olur.

2. Təhlil edilən cinayətin **obyekti** ədalət mühakiməsi orqanlarının normal fəaliyyətidir.

3. Bu cinayət **obyektiv cəhətdən** şahidin və ya zərərçəkmişin ibtidai istintaqda və ya məhkəmə iclasında ifadə verməkdən imtina etməsində ifadə olunur.

4. **İfadə verməkdən imtina etmə** dedikdə şahidin və ya zərərçəkmişin ona məlum olan və cinayət işi üçün əhəmiyyət kəsb edən hər hansı hallar barədə məlumatları bildirməkdən boyun qaçırması başa düşülməlidir. Başqa sözlə, bu, həmin şəxslərin qanunvericiliklə müəyyən edilmiş vəzifələrini (ifadə vermək vəzifəsini) yerinə yetirməkdən imtina etməsi deməkdir.

İfadə verməkdən imtina etmə həm şifahi, həm də yazılı formada ifadə oluna bilər. Lakin hər bir halda bu, açıq-aşkar surətdə olmalıdır. İmtina bütövlükdə iş üzrə və ya onun ayrı-ayrı epizodları üzrə ola bilər.

Əgər şahid və ya zərərçəkmiş ifadə verərkən işin bir sıra faktik halları barəsində susursa, onda onun əməli bilə-bilə yalan ifadə verməyə görə CM-in 297-ci maddəsi üzrə tövsif ediləcəkdir.

5. Təhlil edilən cinayət ifadə vermək niyyətinin olmadığı barədə bildirildiyi andan **başa çatmış** hesab edilir. Sonradan ifadə vermə məsuliyyətin fərdiləşdirilməsi (cəza təyini və ya məsuliyyətdən azad etmə) zamanı nəzərə alına bilər.

6. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şahid və ya zərərçəkmiş ifadə verməkdən imtina etdiyini dərk edir və bunu etməyi arzu edir.

7. CM-in 298-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** qanunla müəyyən edilmiş qaydada şahid qismində işdə iştirak etməyə cəlb edilmiş və ya iş üzrə zərərçəkmiş kimi tanınmış şəxs ola bilər. 16 yaşına çatmamış şahid və ya zərərçəkmiş bu maddə üzrə cinayət məsuliyyətinə cəlb edilə bilməz.

8. Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsinə və CM-in 298-ci maddəsinin qeydinə əsasən şəxs özü, arvadı (əri), övladları, valideynləri və yaxın qohumlarına qarşı ifadə verməkdən imtina etdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 dekabr 1998-ci il tarixli Qərarının 3-cü bəndinə əsasən hər hansı bir şəxs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməkdən imtina etdikdə, habelə onlara qarşı ifadə verməyə məcbur edilərək qəsdən yalan ifadə verdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Yaxın qohumların anlayışı CM-in 297-ci maddəsinin şərhində verilmişdir.

9. Özlərinin iştirak etdikləri cinayət haqqında işlə bağlı iş üzrə dindirilən şahidlər və zərərçəkmişlər CM-in 298-ci maddəsi üzrə məsuliyyət daşımırlar.

Maddə 299. İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma

299.1. Şahidin, zərərçəkmiş şəxsin yalan ifadə verməsi məqsədi ilə və ya ekspertin yalan rəy və ya yalan ifadə verməsi məqsədi ilə, habelə tərcüməçinin yanlış tərcümə etməsi məqsədi ilə onları pulla ələ alma —

min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

299.2. Şahidi, zərərçəkmiş şəxsi yalan ifadə verməyə, eksperti yalan rəy verməyə və ya tərcüməçini yanlış tərcümə etməyə məcbur etmə, habelə həmin şəxsləri ifadə verməkdən boyun qaçırmağa məcbur etmə şantajla, həmin şəxsləri və ya onların yaxın qohumlarını öldürmək, sağlamlığa zərər vurmaq və ya əmlakını məhv etmək və ya zədələmək hədəsi ilə törədildikdə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

299.3. Bu Məcəllənin 299.2-ci maddəsində nəzərdə tutulmuş əməllər həmin şəxslərin həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etməklə törədildikdə —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

299.4. Bu Məcəllənin 299.1 və ya 299.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən və ya həmin şəxslərin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Şahidlərin, zərərçəkmişlərin ifadələri, eləcə də ekspertlərin rəyi və ifadələri vacib prosessual sübutetmə vasitələridir. Buna görə də həmin şəxslərin ibtidai istintaqda və ya məhkəmə iclasında yalan ifadə verməyə, ifadə və ya rəy verməkdən boyun qaçırmağa məcbur edilməsi və ya pulla ələ alınması, eləcə də tərcüməçinin yanlış tərcümə etməyə məcbur edilməsi və ya pulla ələ alınması ibtidai istintaqın nəticəsi kimi qanunsuz və əsassız qərar çıxarılmasına, yaxud qanunsuz və əsassız ittihamedici və ya bəraətverici hökm çıxarılmasına səbəb olur. Bundan başqa, həmin şəxslərin məcbur edilməsi və ya pulla ələ alınması onların öz prosessual vəzifələrini vicdanla yerinə yetirməsinə mane olur. Bütün bunlar ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ almanın **ictimai təhlükəliliyini** müəyyən edir.

2. Təhlil edilən cinayətin **obyekti** ədalət mühakiməsinin mənafeyi, habelə şəxsiyyətin hüquq və qanuni mənafeləri, həmçinin həyat və sağlamlığıdır.

3. CM-in 299.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** şahidi, zərərçəkmiş şəxsi, eksperti və ya tərcüməçini pulla ələ almada ifadə olunur.

4. **Pulla ələ alma** dedikdə yuxarıda göstərilən şəxsləri ibtidai istintaqda və ya məhkəmə iclasında yalan ifadə verməyə, eləcə də yalan rəy verməyə və ya yanlış tərcümə etməyə sövq etmək üçün onlara təqsirkar tərəfindən pul, qiymətli kağızlar, digər əmlak vermə və yaxud əmlak xarakterli xidmət göstərmə başa düşülür.

5. Bu cinayət şahidin, zərərçəkmişin, ekspertin, tərcüməçinin pul, digər dəyər və ya əmlak xarakterli xidmətləri qəbul edərək təqsirkarın xahişi ilə razı olduğunu bildirdiyi andan **başa çatmış** hesab edilir. Şahidin, zərərçəkmiş şəxsin, ekspertin və digər şəxslərin pul və digər qiymətli şeyləri qəbul etməkdən imtina etdiyi hallarda əməl cinayət etməyə cəhd kimi (CM-in 29-cu və 299.1-ci maddələri) tövsif ediləcəkdir.

6. Şərh edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** və **xüsusi məqsədlə** törədilir. Təqsirkar CM-in 299.1-ci maddəsində sadalanan şəxsləri pulla ələ aldığını dərk edir və şahidin, zərərçəkmiş şəxsin yalan ifadə verməsinə və ya ekspertin yalan rəy və ya yalan ifadə verməsinə, habelə tərcüməçinin yanlış tərcümə etməsinə nail olmaq məqsədi ilə bu əməli törətməyi arzu edir.

7. Təhlil edilən cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

8. CM-in 299.2-ci maddəsində şahidi, zərərçəkmiş şəxsi yalan ifadə verməyə, eksperti yalan rəy verməyə və ya tərcüməçini yanlış tərcümə etməyə məcbur etməyə, habelə həmin şəxsləri ifadə verməkdən boyun qaçırmağa məcbur etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Bu cinayətin **obyektiv cəhəti** maddənin dispozisiyasında sadalanan üsullarla həmin şəxsləri təqsirkarın tələb etdiyi hərəkəti etməyə məcbur etmədə ifadə edilmişdir.

9. **Məcbur etmə** dedikdə şahidə, zərərçəkmiş şəxsə, ekspertə, tərcüməçiyə və ya onların yaxın qohumlarına psixi və ya fiziki təsir göstərərək cinayət işlərinin ibtidai istintaqı zamanı və ya mülki, yaxud cinayət işlərinin məhkəmədə araşdırılması zamanı şahidi, zərərçəkmiş şəxsi yalan ifadə verməyə, eksperti yalan rəy verməyə və ya tərcüməçini yanlış tərcümə etməyə, habelə həmin şəxsləri ifadə verməkdən boyun qaçırmağa öz iradəsi ziddinə olaraq razı salmaq başa düşülür.

Məcbur etmə təhlil edilən maddənin dispozisiyasında sadalanan üsullarla — şantajla, həmin şəxsləri və ya onların yaxın qohumlarını öldürmək, sağlamlığına zərər vurmaq və ya əmlakını məhv etmək və ya zədələmək hədəsi ilə törədilir.

10. **Şantajın** anlayışı CM-in 293-cü maddəsinin, **öldürməklə, sağlamlığa zərər vurmaqla, əmlakı məhv etməklə** və ya **zədələməklə hədələmənin** anlayışı isə 288.1-ci maddəsinin şərhində verilmişdir.

11. Şərh edilən cinayət təqsirkar tərəfindən şantajın və ya hədənin şahidə, zərərçəkmiş şəxsə, ekspertə, tərcüməçiyə və ya onların yaxın qohumlarına çatdırıldığı andan **başa çatmış** hesab edilir.

12. Təhlil edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** və şahidin, zərərçəkmişin yalan ifadə verməsi və ya ekspertin yalan rəy və ya yalan ifadə verməsi, eləcə də tərcüməçinin yanlış tərcümə etməsi, habelə həmin şəxslərin yuxarıda sadalanan prosessual vəzifələri yerinə yetirməkdən boyun qaçırması **məqsədi** ilə edilir.

13. Bu cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı şəxs ola bilər.

14. CM-in 299.3-cü maddəsində CM-in 299.2-ci maddəsində göstərilmiş cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — həmin əməllərin həmin şəxslərin həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etməklə törədilməsi nəzərdə tutulmuşdur.

Həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zorun anlayışı CM-in 180-ci maddəsinin şərhində verilmişdir.

15. CM-in 299.4-cü maddəsində CM-in 299.1-ci və 299.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** — həmin əməllərin mütəşəkkil dəstə tərəfindən və ya həmin şəxslərin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədilməsi nəzərdə tutulmuşdur.

Mütəşəkkil dəstə tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34.3-cü maddəsinin şərhində, **həyat və sağlamlıq üçün təhlükəli olan zorun** anlayışı isə CM-in 181.1-ci maddəsinin şərhində verilmişdir.

Maddə 300. Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma

Qanunla müəyyən edilmiş qaydada yayılmaması barədə xəbərdarlıq edilmiş şəxs tərəfindən təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə nəzarəti funksiyasını həyata keçirən hakimin icazəsi olmadan təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılması ibtidai araşdırmanın aparılmasına mane olduqda, yaxud maraqlı şəxsə mənəvi və ya maddi ziyanın vurulmasına səbəb olduqda —

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(16 may 2008-ci il, 20 oktyabr 2015-ci il və 31 may 2017-ci il tarixli qanunlarla edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 4 noyabr 2015-ci il; 19 iyul 2017-ci il).*

1. Təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılmasının **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, iş üzrə toplanmış sübut xarakterli məlumatlar işin nəticəsində maraqlı olan şəxslərin əlinə keçdikdə onlar həmin məlumatlardan öz subyektiv mənafeləri üçün istifadə edə bilər və iş üzrə ibtidai istintaqa və məhkəmə baxışına mane ola bilərlər.

2. Təhlil edilən cinayətin **obyekti** ədalət mühakiməsi və ibtidai istintaq orqanlarının normal fəaliyyəti, habelə şəxsiyyətin qanunla qorunan mənafeləridir.

3. CPM-in 222-ci maddəsinə əsasən ibtidai araşdırma məlumatlarının yayılmasına yalnız ibtidai araşdırmanı aparan şəxsin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi ilə yol verilir.

Zəruri hallarda müstəntiq və təhqiqatçı şahidə, zərərçəkmiş şəxsə, mülki iddiaçıya və mülki cavabdehə, onların nümayəndələrinə, mütəxəssislərə, ekspertlərə, tərcüməçilərə, hal şahidlərinə, müdafiəçilərə və digər şəxslərə, onların razılığı olmadan ibtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi barədə yazılı xəbərdarlıq edir. Həmin şəxslərdən CM-in 300-cü maddəsi üzrə məsuliyyət haqqında xəbərdarlıq barədə iltizam alınır.

4. Şərh edilən cinayət **obyektiv cəhətdən** təhqiqat və ya ibtidai istintaq

məlumatlarının yayılmasında ifadə olunmuşdur.

Təhlil edilən maddədə **yayılma** dedikdə araşdırılan işin halları haqqında məlumatların yayılmasının yolverilməzliyi haqqında müstəntiq və ya təhqiqat aparan şəxs tərəfindən xəbərdar edilən zərərçəkmiş şəxslərin, şahidlərin, müdafiəçilərin və digər şəxslərin bu cür məlumatları yazılı və ya şifahi formada üçüncü şəxslərə ötürməsi başa düşülür.

Əməlin təhlil edilən maddə üzrə tövsif edilməsi üçün məlumatlar təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakimin **razılığı olmadan** yayılmalıdır.

5. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti təhqiqat və ya ibtidai istintaq məlumatlarını yaymanın, ibtidai araşdırmanın aparılmasına mane olması, yaxud maraqlı şəxsə mənəvi və ya maddi ziyan vurmasından ibarətdir.

Burada **maraqlı şəxs** dedikdə cinayət prosesinin istənilən iştirakçısı (şahid, zərərçəkmiş, mülki iddiaçı və s.) başa düşülür.

İbtidai istintaq məlumatlarının yayılmasının ibtidai araşdırmanın aparılmasına mane olmasına səbəb olması dedikdə iş üzrə sübutların saxtalaşdırılmasına, məhv edilməsinə, təqsirləndirilən şəxsin istintaqdan gizlənməsinə və s.-ə gətirib çıxaran halların baş verməsi başa düşülməlidir.

Vurulmuş mənəvi ziyan şəxsin şərəf və ləyaqətinin, işgüzar nüfuzunun alçalmasında, onun öz yaxınları yanında gözdən düşməsində ifadə oluna bilər.

Maddi ziyan əmlak itkisindən, əldən çıxmış faydadan, çəkilmiş əlavə xərcdən və s. ibarət ola bilər. Təhlil edilən maddədə ziyanın miqdarı müəyyən edilməmişdir.

6. Bu cinayət təhqiqat aparan şəxsin, prokurorun və ya müstəntiqin icazəsi olmadan müvafiq məlumatların üçüncü şəxslərə yayılması ilə ibtidai araşdırmanın aparılmasına mane olduğu, yaxud şəxslərə mənəvi və ya maddi ziyan vurulduğu andan başa çatmış hesab edilir.

Maddi və ya mənəvi ziyan mövcud olmadıqda əməl bu cinayəti etməyə cəhd kimi tövsif ediləcəkdir.

7. Şərh edilən cinayət **subyektiv cəhətdən qəsdlə** edilir. Burada qəsd birbaşa və dolayı ola bilər. Təqsirkar təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılmaması barədə xəbərdar edilməsinə baxmayaraq, müvafiq icazə olmadan həmin məlumatları yaydığını dərk edir, bu hərəkətləri ilə maraqlı şəxsə mənəvi və ya maddi ziyan vurmada ifadə olunan ictimai təhlükəli nəticəni qabaqcadan görür, bunu arzu edir **(birbaşa qəsd)** və ya arzu etmir, belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir **(dolayı qəsd).** Bu cinayətin **motivi** məlumatlılıqdan lovğalıq, tamah və sair niyyətlər ola bilər.

8. Bu cinayətin **subyekti** yalnız ibtidai istintaq məlumatlarının yayılmasının yolverilməzliyi haqqında **xəbərdar edilən şəxs** ola bilər. Anlaqlılıq və şəxsin **16** yaşa çatması bu cinayətin subyekti üçün zəruri əlamətlərdir.

Maddə 301. Məhkəmə və hüquq-mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma

301.1. Hakimlər, icra məmurları, prokurorlar, müstəntiqlər, təhqiqatçılar, əməliyyat-axtarış fəaliyyətini, gömrük işini həyata keçirən, ictimai qaydanın mühafizəsini və milli təhlükəsizliyi təmin edən, habelə istintaq orqanlarının və ya prokurorların qərarlarını icra edən şəxslər və ya onların yaxın qohumları barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılması, əgər bu əməl qulluq mövqeyi ilə əlaqədar ona etibar edilən və ya məlum olan şəxs tərəfindən törədilərsə —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

301. 2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda —

bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 17 may 2011-ci il, 13 fevral 2015-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 6 iyul 2011-ci il; 19 iyul 2017-ci il).*

1. Məhkəmə və hüquq mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yaymanın **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, bu, müdafiə olunan şəxslər üçün arzuolunmaz nəticələr yarada, eləcə də müdafiə olunan şəxslərin təhlükəsizlik tədbirlərinin təmin edilməsi üzrə müvafiq hüquq mühafizə orqanlarının fəaliyyət metodları və üsullarından ibarət qulluq sirləri cinayətkar ünsürlərin əlinə keçə bilər.

2. Şərh olunan cinayətin **obyekti** müdafiə olunan şəxsin şəxsiyyəti və həmin şəxslərin təhlükəsizlik tədbirlərinin təmin edilməsi üzrə hüquq mühafizə orqanlarının fəaliyyətidir.

3. CM-in 301-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** maddənin dispozisiyasında sadalanan şəxslər və onların yaxın qohumları barəsində tətbiq edilmiş təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılmasından ibarətdir.

Burada **yayılma** dedikdə həmin məlumatların şifahi və ya yazılı formada açıqlanması, yəni istənilən kənar şəxsə çatdırılması başa düşülməlidir.

4. «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının 11 dekabr 1998-ci il tarixli Qanununa görə, **müdafiə olunan şəxslər** dedikdə bütün məhkəmə hakimləri, prokurorlar, müstəntiqlər, təhqiqat aparan şəxslər, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər, ictimai qaydanın mühafizəsini və milli təhlükəsizliyi təmin edən, gömrük işini, miqrasiya sahəsində idarəetməni həyata keçirən, habelə cinayət işləri üzrə məhkəmə hökmlərini, qərarlarını və qərardadlarını, istintaq orqanlarının və prokurorların qərarlarını icra edən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Gömrük Komitəsi və Ədliyyə Nazirliyi orqanlarının əməkdaşları başa düşülür. Qeyd olunan Qanun yuxarıda göstərilən şəxslər sırasına onların **yaxın qohumlarını** da aid edir. Yaxın qohumlar dedikdə valideynlər, uşaqlar, övladlığa götürənlər, övladlığa götürülənlər, doğma qardaş və bacılar, babalar, nənələr, nəvələr, habelə ər-arvad başa düşülür.

Burada **təhlükəsizlik tədbirləri** dedikdə müdafiə olunan şəxsi, onun mənzilini və əmlakını mühafizə etmə, müdafiə olunan şəxsə xüsusi fərdi müdafiə

vasitələri vermə, onu mövcud təhlükə barədə xəbərdar etmə, müdafiə olunan şəxsi müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirmə, müdafiə olunan şəxs barəsində olan məlumatların məxfiliyini qoruma, müdafiə olunan şəxsi başqa işə keçirmə, onun iş və ya təhsil yerini dəyişdirmə, onu başqa yaşayış yerinə köçürmə və s. başa düşülür. Hərbi prokurorluğun hərbi qulluqçularının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə bundan əlavə digər hərbi hissəyə və ya hərbi idarəyə ezam etmə və yeni xidmət yerinə köçürmə tədbirlərinin də həyata keçirilməsinə yol verilir:

5. Təhlil olunan cinayət təhlükəsizlik tədbirləri haqqında məlumatların müdafiə olunanların təhlükəsizliyini təmin edən orqanların işçisi olmayan və müdafiə olunan şəxslərin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərdə iştirakla əlaqədar bu haqda məlumatlandırılmayan istənilən üçüncü şəxsə və ya bir neçə şəxsə verildiyi andan **başa çatmış** hesab edilir.

6. **Subyektiv cəhətdən** bu cinayət **qəsdlə** edilir. Təqsirkar məhkəmə və hüquq mühafizə orqanları işçiləri və ya onların yaxın qohumları barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yaydığını dərk edir, bu cür məlumatları yaymağı arzu edir **(birbaşa qəsd)** və ya buna şüurlu surətdə yol verir **(dolayı qəsd).**

7. Şərh edilən cinayətin **subyekti** yalnız təhlükəsizlik tədbirləri haqqında məlumatların etibar edildiyi və yaxud qulluq mövqeyi ilə əlaqədar həmin məlumatlara malik olan şəxslər ola bilər. Bunlara, ilk növbədə, müdafiə olunan şəxslərin təhlükəsizliyinin həyata keçirilməsi üzrə tədbirləri təmin etməli olan daxili işlər, təhlükəsizlik xidməti, sərhəd xidməti, vergi, gömrük orqanlarının vəzifəli şəxsləri, hərbi hissələrin komandanlığı, müvafiq hərbi idarələrin rəisləri və s. aid edilə bilər.

Bundan başqa, bu cinayətin subyekti təhlükəsizlik tədbirlərini təmin edən orqanların qərarlarının göndərildiyi müəssisə və təşkilatlarda idarəçilik funksiyalarını yerinə yetirən şəxslər və başqa vəzifəli şəxslər (ünvanlar bürosunun qulluqçuları və rəhbərləri, pasport xidmətinin, dövlət yol polisi bölmələrinin qulluqçuları və rəhbərləri və s.) də ola bilər.

8. CM-in 301.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

Ağır nəticələr dedikdə müdafiə olunanın ölümü, onun və ya yaxın qohumlarının sağlamlığına ağır zərər vurulması, ona məxsus əmlakın tam məhv edilməsi, müdafiə olunanın təhlükəsizliyini təmin edən hüquq mühafizə orqanının əməkdaşının ölümü və s. başa düşülə bilər.

9. Əməlin CM-in 301.2-ci maddəsi ilə tövsif edilməsi üçün baş vermiş ağır nəticə müdafiə olunan barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların təqsirkar tərəfindən yayılması ilə səbəbli əlaqədə olmalıdır.

Maddə 302. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma

302.1. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan

şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

302.2. Eyni əməllər gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə —

dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

302.3. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələri qanunsuz olaraq istehsal etmə, satma və ya satış məqsədilə əldə etmə —

iki min manatdan beş min manatadək miqdarda cərimə və ya üç iladək müddətə azadlığın məhdudlaşdırılması və ya üç iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 4 mart 2011-ci il, 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 24 aprel 2011-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, bu əməllərin törədilməsi ilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların normal fəaliyyəti pozulur, həmin orqanlar əhalinin gözündən düşür. Digər tərəfdən, vətəndaşların hüquqları və qanuni mənafeləri ciddi təhlükə altına alınır.

2. CM-in 302-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** əməliyyat-axtarış orqanlarının fəaliyyəti, habelə vətəndaşların hüquqları və qanuni mənafeləridir.

3. Təhlil edilən cinayətin **obyektiv cəhəti** aşağıdakı zəruri əlamətləri özündə əks etdirir:

1) əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin həyata keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi;

2) həmin hərəkətlər nəticəsində şəxsin hüquq və qanuni mənafelərinin əhəmiyyətli pozulması;

3) əməllə nəticə arasında səbəbli əlaqənin olması.

4. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən **əməliyyat-axtarış fəaliyyəti** müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir. Adı çəkilən Qanunun 10-cu maddəsində əməliyyat-axtarış fəaliyyətinin məzmununu təşkil edən

əməliyyat-axtarış tədbirlərinin siyahısı verilmişdir.

5. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində **əməliyyat-axtarış fəaliyyətinin subyektləri** müəyyən edilmişdir. Həmin subyektlərə dairəsinə CPM-in 214-cü maddəsi ilə müəyyən edilmiş təhqiqat orqanları (daxili işlər, dövlət təhlükəsizliyi xidməti, sərhəd xidməti, vergi və gömrük orqanları; hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər), habelə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti və korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı aiddir.

6. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 11-ci maddəsi əməliyyat axtarış tədbirlərinin həyata keçirilməsi üçün aşağıdakı əsasları müəyyən etmişdir:

1) məhkəmənin (hakimin) qərarı;

2) istintaq orqanlarının qərarı;

3) əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarı.

7. Təhlil edilən cinayətin obyektiv cəhətini təşkil edən alternativ əməllərdən birincisi — əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək **səlahiyyətinə malik olmayan** şəxslər tərəfindən **belə tədbirlərin həyata keçirilməsi** dedikdə adı çəkilən Qanunun 10-cu maddəsində sadalanan tədbirlərdən hər hansı birinin həmin Qanunun 5-ci maddəsində göstərilmiş əməliyyat-axtarış fəaliyyətinin subyekti olan orqanların müvafiq səlahiyyətli əməkdaşı olmayan istənilən şəxs tərəfindən həyata keçirilməsi başa düşülməlidir.

8. Obyektiv cəhətə daxil olan ikinci əməl — əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək **səlahiyyətinə malik olan şəxslər** tərəfindən həmin tədbirlərin **qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan** keçirilməsi əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti olan şəxs tərəfindən adı çəkilən Qanunun 10-cu maddəsində sadalanan tədbirlərdən hər hansı birinin həmin Qanunun 11-ci maddəsinin III hissəsində göstərilən əsaslar olmadan həyata keçirilməsini nəzərdə tutur.

9. Şərh edilən cinayət **maddi tərkib** vasitəsilə ifadə edilmişdir. Obyektiv cəhəti təşkil edən əməllərin törədilməsi nəticəsində şəxsin hüquq və qanunla qorunan mənafeləri əhəmiyyətli dərəcədə pozulduğu andan cinayət **başa çatmış** olacaqdır.

10. Şəxsin hüquq və qanunla qorunan mənafelərinin **əhəmiyyətli dərəcədə pozulması** qiymətləndirilən anlayış olub, hər bir halda məhkəmə tərəfindən müəyyən edilməlidir. Belə pozulmaya vətəndaşların ayrı-ayrı konstitusiya hüquq və azadlıqlarının (mənzil toxunulmazlığı, yazışma sirri və s.), habelə onların sağlamlığına zərər vurulması, onların əmlakının məhv edilməsi və ya zədələnməsi və s. aid edilə bilər. Baş vermiş nəticə CM-in başqa maddəsi ilə nəzərdə tutulmuş cinayətin tərkibini yaratdıqda əməl cinayətlərin məcmusu qaydasında tövsif ediləcəkdir.

11. Şərh edilən cinayət tərkibinin mövcud olması üçün şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli dərəcədə pozulması ilə törədilmiş

əməl arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

12. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma **subyektiv cəhətdən qəsdlə** edilir. Təqsirkar əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmadan belə tədbirlər keçirdiyini, yaxud belə səlahiyyəti olsa da, həmin tədbirləri qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirdiyini dərk edir, bu hərəkətləri ilə şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli dərəcədə pozulacağını qabaqcadan görür və bunu arzu edir **(birbaşa qəsd)** və ya bunun baş verməsinə şüurlu surətdə yol verir **(dolayı qəsd).**

13. Təhlil edilən cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs (obyektiv cəhətə daxil olan birinci əməl törədildikdə), habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik şəxslər (obyektiv cəhətə daxil olan ikinci əməl törədildikdə) ola bilər.

14. CM-in 302.2-ci maddəsində şərh edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədilməsi nəzərdə tutulmuşdur.

Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş **texniki vasitələr** dedikdə əməliyyat-axtarış tədbirləri çərçivəsində informasiyanın gizli yolla əldə olunması məqsədilə xüsusi olaraq yaradılmış, işlənib hazırlanmış, istehsal olunmuş, proqramlaşdırılmış, təkmilləşdirilmiş avadanlıqlar, cihazlar, qurğular, ləvazimatlar və digər texniki vasitələr başa düşülür. Belə texniki vasitələrə gizli qulaq asma qurğuları, gizli kameralar, qeyri-aşkar müşahidə aparmaq və məlumat əldə etmək üçün istifadə edilən başqa vasitələr aid edilə bilər.

15. CM-in şərh olunan 302.3-cü maddəsində müstəqil cinayət tərkibi - gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələri qanunsuz olaraq istehsal etmə, satma və ya satış məqsədilə əldə etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur (həmin texniki vasitələri istehsal etmə, satma və ya satış məqsədilə əldə etmə əməllərinin izahı haqqında CM-in 234-cü maddəsinin şərhinə bax). «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 9-cu hissəsinin tələbinə görə, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən onların istehsalı, satışı, əldə edilməsi, ölkəyə gətirilməsi və ölkədən çıxarılması yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada verilən xüsusi icazə əsasında həyata keçirilə bilər. Azərbaycan Respublikası Prezidentinin «Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında» 12 sentyabr 2005-ci il tarixli, 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı»nın 13-cü bəndinə görə həmin texniki vasitələrin istehsalı, satışı, əldə edilməsi, ölkəyə gətirilməsi və ölkədən çıxarılmasına xüsusi icazə Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən verilir. Ona görə də xüsusi icazə almadan gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələri istehsal etmə, satma və ya satış məq-

sədilə əldə etmə qanunsuz hesab edilməklə CM-in 302.3-cü maddəsi ilə tövsif edilməlidir.

Maddə 303. Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər

303.1. Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın etibar olunmuş şəxs tərəfindən israf edilməsi, özgəninkiləşdirilməsi, gizlədilməsi, həmçinin dəyişdirilməsi, habelə üzərinə həbs qoyulmuş pul vəsaitləri (əmanətləri) ilə bank əməliyyatlarının bank və ya digər kredit təşkilatının nümayəndəsi tərəfindən həyata keçirilməsi —

min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

303.2. Məhkəmənin hökmünə əsasən müsadirə edilməli olan əmlakı gizlətmə və ya mənimsəmə, habelə əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün icra olunmasından başqa cür yayınma —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya min manatdan iki min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır
(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q.,19 iyul 2017-ci il).

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** onunla bağlıdır ki, təhlil edilən maddənin dispozisiyasında göstərilən əməllərin törədilməsi nəticəsində məhkəmə qətnaməsinin, habelə məhkəmə hökmünün mülki iddia hissəsinin və ya xüsusi müsadirə hissəsinin icrası çətinləşir, bəzən isə, ümumiyyətlə, qeyri-mümkün olur.

2. CM-in 303-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** ədalət mühakiməsinin mənafeyi, habelə ayrı-ayrı şəxslərin və dövlətin əmlak mənafeləridir.

3. Təhlil edilən cinayətin **predmeti** siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlak, habelə üzərinə həbs qoyulmuş pul vəsaitləridir (əmanətləridir).

4. Əmlak, o cümlədən pul vəsaitləri (əmanətləri) üzərinə həbs qoyma mülki iş üzrə iddianı, cinayət işi üzrə isə mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda əmlak müsadirəsini təmin etmək məqsədi ilə tətbiq edilən xüsusi tədbirdir.

Əmlakın siyahıya alınması üzərinə həbs qoyulacaq əmlakın prosessual qanunvericiliyə riayət edilməklə aşkar edilərək uçota alınmasını nəzərdə tutur.

5. MPM-in 158-ci maddəsinə əsasən hakim işdə iştirak edən şəxsin ərizəsi ilə iddianı təmin etmək üçün cavabdehdə və ya digər şəxslərdə olan cavabdehə məxsus əmlak üzərinə həbs qoyur. CPM-in 248-ci maddəsinə əsasən mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda əmlak müsadirəsini təmin etmək məqsədi ilə təqsirləndirilən şəxsin, habelə üzərlərinə əmlak məsuliyyəti qoyula bilən şəxslərin əmlakı üzərinə həbs qoyula bilər.

Üzərinə həbs qoyulacaq əmlak əvvəlcə prosessual qanunvericiliyə riayət edilməklə siyahıya alınır. Bundan sonra üzərinə həbs qoyulmuş əmlak möhürlənir və saxlanması üçün əmlakın mülkiyyətçisinə və ya sahibinə, yaxud onların yetkinlik yaşına çatmış ailə üzvlərinə verilir. Həmin şəxslərdən iltizam alınmaqla onlara həmin əmlakın özgəninkiləşdirilməsi, korlanması və ya məhv edilməsinə görə qanunla nəzərdə tutulmuş məsuliyyət haqqında xəbərdarlıq edilir. İddianın təmin edilməsi qaydasında mülki işlərlə əlaqədar əmlak üzərinə həbs qoyulması və ya əmlakın siyahıya alınması zamanı da analoji nəticələr baş verir.

6. CM-in 303.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **obyektiv cəhətdən** siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın israf edilməsində, özgəninkiləşdirilməsində, gizlədilməsində, dəyişdirilməsində, habelə üzərinə həbs qoyulmuş pul vəsaitləri (əmanətləri) ilə bank əməliyyatlarının həyata keçirilməsində ifadə olunur.

İsraf etmə dedikdə əmlakın saxlanması üçün etibar edilmiş şəxs tərəfindən istifadə edilməsi, müxtəlif ehtiyacların ödənilməsi üçün sərf edilməsi başa düşülür.

Özgəninkiləşdirmə dedikdə əmlakın satılması və ya istənilən üsulla (bağışlama, girov qoyma, icarəyə vermə və s.) başqasına verilməsi başa düşülür.

Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın **gizlədilməsi** dedikdə onun başqa şəxslər tərəfindən mühafizəsi üçün yerinin dəyişdirilməsi və yaxud bu haqda məlumatı müstəntiq və ya hakimlərdən gizlətməklə başqa yerdə yerləşdirilməsi başa düşülür.

Bu cür əmlakın **dəyişdirilməsi** dedikdə müstəntiqin və ya hakimlərin razılığı olmadan onun başqa şəxsdə və ya təşkilatda olan digər bir əmlakla əvəz edilməsi başa düşülür.

Pul vəsaitləri (əmanətləri) ilə **bank əməliyyatlarının həyata keçirilməsi** dedikdə həmin pul vəsaitləri (əmanətləri) barəsində bank və bank fəaliyyəti haqqında qanunvericiliyə müvafiq olaraq bank sistemi müəssisələrinin həyata keçirdiyi istənilən bir əməliyyatın (köçürmə, nağdlaşdırma və s.) edilməsi başa düşülür.

7. CM-in 303.1-ci maddəsində nəzərdə tutulmuş cinayət siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın israf edildiyi, özgəninkiləşdirildiyi, gizlədildiyi, dəyişdirildiyi, habelə üzərinə həbs qoyulmuş pul vəsaitləri ilə hər hansı bank əməliyyatı aparıldığı andan **başa çatmış** hesab edilir.

8. Şərh edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** edilə bilər. Təqsirkar siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakı israf etdiyini, özgəninkiləşdirdiyini, gizlətdiyini, dəyişdirdiyini, habelə üzərinə həbs qoyulmuş pul vəsaiti ilə bank əməliyyatı apardığını dərk edir və bunu etməyi arzu edir.

Bu cinayətin **motivi** tamah və ya sair şəxsi maraqlar ola bilər.

9. Təhlil edilən cinayətin **subyekti** cinayət məsuliyyəti haqqında xəbərdar edilməklə siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın saxlanılmaq üçün təhvil verildiyi şəxslər, habelə pul vəsaitinin olduğu bank və ya digər kredit təşkilatının qulluqçusu ola bilər.

10. CM-in 303.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **obyektiv cəhətdən** müsadirə edilməli olan, istintaq orqanları tərəfindən üzərinə həbs qoyulmuş və ya qoyulmamış əmlakın gizlədilməsində və ya mənimsənilməsində, habelə əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün icra olunmasından başqa cür yayınmada ifadə olunur.

11. **Müsadirə edilməli olan əmlak** dedikdə məhkəmənin qanuni qüvvəyə minmiş hökmündə müsadirə edilməsi barədə göstəriş olan əmlak başa düşülür.

Gizlətmənin anlayışı bu maddənin şərhinin 6-cı bəndində verilmişdir.

Belə əmlakın **mənimsənilməsi** müsadirə edilməli olan əmlakı müxtəlif üsullarla (öz əmlakına qatma, öz yaşadığı yerə aparma, öz adına rəsmiləşdirmə və s.) ələ keçirmədə ifadə oluna bilər.

12. Əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün icra olunmasından **başqa cür yayınma** dedikdə müsadirə edilən əmlakı saxlayan şəxsin həmin əmlakı satılmaqdan ötrü icra məmurlarına vermək üçün müəyyən edilmiş vaxtda və ya yerə gəlməməsi, əmlakın təbii fəlakət və ya yanğın nəticəsində zədələnməsi və ya məhv edilməsini bildirməklə icra məmurlarını aldatma və s. hərəkətlər başa düşülür.

13. CM-in 303.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** edilir. Cinayətin **motivi** tamah və digər şəxsi xarakterli niyyətlər ola bilər.

14. Təhlil edilən cinayətin **subyekti** qanuni qüvvəyə minmiş hökm əsasında müsadirə olunmalı olan əmlakı saxlayan **16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Maddə 304. Azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma

304.1. Cəza çəkən, həbs edilən və ya tutulan şəxsin azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçması —

iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

304.2. Eyni əməllər:

304.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

304.2.2. həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədildikdə;

304.2.3. silah işlətməklə və ya silah qismində işlədilən əşyalardan istifadə olunmaqla törədildikdə —

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 27 dekabr 2013-cü il tarixli Qanunu ilə edilmiş düzəlişlərlə).

1. Cəza çəkən və ya həbs edilən şəxsin azadlıqdan məhrumetmə yerlərindən, həbs yerindən və ya mühafizə altından qaçmasının **ictimai təhlükəliliyi** onunla xarakterizə edilir ki, bu hərəkətlərin edilməsi ilə şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin barəsində həbs növündə qətimkan tədbiri seçilməsi haqqında ibtidai istintaq və ya məhkəmə orqanlarının qərarlarının və ya məhkəmə hökmünün icrası pozulur, qaçanın axtarılması və tutulması üçün güc və vasitələrin tətbiq edilməsi cəzaların icrası müəssisələrinin və ya hüquq mühafizə orqanlarının fəaliyyətini pozur. Bundan əlavə, həmin şəxs tərəfindən yeni cinayət törədilməsi təhlükəsi yaranır, əhalidə xüsusi yaradılmış orqanların cinayətkarları cəmiyyətdən etibarlı təcrid etmək qabiliyyətinə şübhə yaranır.

2. Şərh edilən cinayətin **obyekti** ədalət mühakiməsini və cəzaların icrasını həyata keçirən orqanların normal fəaliyyətidir.

3. **Obyektiv cəhətdən** bu cinayət cəza çəkən və ya həbs edilən şəxsin azadlıqdan məhrumetmə və ya həbs yerindən və ya mühafizə altından qanunsuz özbaşına qaçmasında ifadə olunur.

4. **Azadlıqdan məhrumetmə yerlərinin** növləri CM-in 56-cı və 85-ci maddələrində müəyyən edilmişdir. Yetkinlik yaşına çatmış şəxslər barəsində tətbiq edilən azadlıqdan məhrumetmə növündə cəza məntəqə tipli cəzaçəkmə müəssisələrində, ümumi, ciddi, xüsusi rejimli cəzaçəkmə müəssisələrində, yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilən belə cəza isə ümumi və möhkəm rejimli tərbiyə müəssisələrində çəkilir. Xüsusilə ağır cinayətləri törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrumetməyə məhkum olunmuş şəxslər üçün, habelə cinayətlərin xüsusilə təhlükəli residivi zamanı cəzanın bir hissəsinin həbsxanada çəkilməsi müəyyən edilə bilər.

5. Barəsində **həbs** növündə qətimkan tədbiri seçilmiş şəxslər müvəqqəti saxlama yerlərində, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtlarında, istintaq təcridxanalarında, səfərə çıxmış gəmidə cinayət törətməkdə şübhəli olduğuna görə dəniz gəmisinin kapitanı və ya onu əvəz edən şəxs tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulmuş şəxsin saxlanıldığı xüsusi ayrılmış yerlərdə saxlanılırlar.

6. Təhlil edilən maddədə nəzərdə tutulmuş mənada **mühafizə altında olma** dedikdə barəsində həbs növündə qətimkan tədbiri seçilmiş və ya azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxsin bu və ya başqa məqsədlər (bəzi istintaq hərəkətlərinin icrası, bir yerdən başqa yerə köçürmə və s.) üçün müvəqqəti olaraq azadlıqdan məhrumetmə və ya həbs yerindən kənarda nəzarət altında olması (məsələn, xüsusi avtomobildə, istintaq orqanının və ya məhkəmənin binasında və s.) başa düşülməlidir.

7. Azadlıqdan məhrumetmə və ya həbs yerindən, yaxud mühafizə altından **qaçma** dedikdə cəza çəkən və ya həbs edilən şəxsin azadlıqdan məhrumetmə yerini, həbs yerini, yaxud mühafizə altında olduğu yeri qanunsuz özbaşına tərk etməsi başa düşülür.

8. Şərh edilən cinayət şəxsin azadlıqdan məhrumetmə yerini, istintaq təcridxanasını, tutulanları müvəqqəti saxlama yerini, habelə mühafizə altında olduğu yeri (avtomobili, məhkəmə salonunu və s.) tərk edərək sərbəst hərəkət etmək üçün real imkanlar əldə etdiyi andan **başa çatmış** hesab edilir.

9. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** edilir. Təqsirkar azadlıqdan məhrumetmə və ya həbs yerindən, yaxud mühafizə altından qanunsuz özbaşına qaçdığını dərk edir və bunu törətməyi arzu edir.

10. CM-in 304-cü maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti xüsusidir**: azadlıqdan məhrumetməyə məhkum olunmuş və bu cəzanı çəkən şəxs, barəsində həbs növündə qətimkan tədbiri seçilmiş şəxs.

11. CM-in 304.2-ci maddəsində şərh edilən cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur: eyni əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi; həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədilməsi; silah və ya silah qismində işlədilən əşyalardan istifadə olunmaqla törədilməsi.

Cinayətin **qabaqcadan əlbir olan bir qrup şəxs** tərəfindən törədilməsinin anlayışı CM-in 34.2-ci maddəsində verilmişdir.

Həyat və sağlamlıq üçün təhlükəli olan zorun və belə **zor tətbiq etmə hədəsinin** anlayışı CM-in 288-ci maddəsinin şərhində verilmişdir.

Silahın və **silah qismində işlədilən əşyaların** anlayışı CM-in 181-ci maddəsinin şərhində verilmişdir.

Maddə 305. Azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma

Azadlıqdan məhrum etmə yerindən qısa müddətə getməsinə icazəsi olan şəxsin icazə müddəti başa çatdıqdan sonra geri qayıtmaması —

bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, azadlıqdan məhrumetmə yerindən qısa müddətə getməsinə icazəsi olan şəxs icazə müddəti başa çatdıqdan sonra geri qayıtmamaqla cəzaçəkmə müəssisələrinin normal fəaliyyətini pozur.

2. CM-in 305-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** cəzaçəkmə müəssisələrinin normal fəaliyyətidir.

3. Bu cinayət **obyektiv cəhətdən** təqsirkarın icazə müddəti başa çatdıqdan sonra cəzaçəkmə müəssisəsinə geri qayıtmamasında ifadə olunan **hərəkətsizliklə** xarakterizə olunur.

4. CİM-in 89-cu maddəsinə əsasən məntəqə tipli cəzaçəkmə müəssisələrində, ilk dəfə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş ümumi rejimli cəzaçəkmə müəssisələrində və tərbiyə müəssisələrində saxlanılan məhkumlara onların yaxın qohumlarının ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi ilə əlaqədar, məhkumlara və ya onların ailəsinə təbii fəlakətlə və digər fövqəladə hadisə nəticəsində əhəmiyyətli maddi zərər vurulduqda cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində və fövqəladə vəziyyət ləğv edildikdən sonra) yeddi gün qısa müddətli səfərə getməsinə icazə verilə bilər. Bu zaman gedib-gəlmək üçün sərf olunan vaxt, iki gündən çox olmamaq şərti ilə, nəzərə alınmır.

Cəzaçəkmə müəssisələrindəki uşaq evlərində uşaqları olan qadınlara öz məzuniyyətləri vaxtı övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində) on beş günədək qısa müddətli səfərə getməsinə icazə verilir.

İlk dəfə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş və ümumi rejimli cəzaçəkmə müəssisələrində və ya ümumi rejimli tərbiyə müəssisələrində saxlanılma şəraiti yaxşılaşdırılan məhkumlara ildə bir

dəfə məzuniyyətləri vaxtı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada cəzaçəkmə (tərbiyə) müəssisəsinin müdiriyyətinin qərarı ilə cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (CİM-in 113.3.3-cü maddəsi), yetkinlik yaşına çatmayan məhkumlara isə ümumi rejimli tərbiyə müəssisələrinin hüdudlarından kənara valideynlərinin və ya himayəçilərinin müşayiəti ilə (CİM-in 124.3.3-cü maddəsi) qısamüddətli səfər etməyə icazə verilir.

5. Əməlin təhlil olunan maddə üzrə tövsif edilməsi üçün təqsirkarın azadlıqdan məhrumetmə yerinə qayıtması üçün imkanı olmalıdır. Qayıtma obyektiv səbəblər üzündən mümkünsüz olduğu halda (təbii fəlakət, ağır xəstəlik və s.) şərh edilən cinayət tərkibi yaranmayacaqdır.

6. Təqsirkar cəzaçəkmə müəssisəsinə gəlməli olduğu vaxtda gəlmədiyi andan təhlil edilən cinayət **başa çatmış** hesab edilir.

7. CM-in 305-ci maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən** təqsirin qəsd forması ilə törədilir. Təqsirkar icazə müddəti başa çatdıqdan sonra geri qayıtmadığını dərk edir, bunu arzu edir.

8. Şərh edilən cinayətin **subyekti xüsusidir.** Bu, azadlıqdan məhrumetmə növündə cəza çəkən və qanunvericiliklə nəzərdə tutulmuş qaydada cəzaçəkmə yerindən müvəqqəti getməsinə icazə verilmiş şəxs ola bilər.

Maddə 306. Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə

306.1. Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

306.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini məhkəmə tərəfindən hökm çıxarılanadək tam icra etdikdə cinayət məsuliyyətindən azad edilir *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 18 iyun 2010-cu il, 31 may 2011-ci il, 30 aprel 2013-cü il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 17 iyul 2010-cu il; 2 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. CM-in 305-ci maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəli-**

liyi ondan ibarətdir ki, qanuni qüvvəyə minmiş məhkəmə aktlarını icra etməmə məhkəmə orqanlarını nüfuzdan salır və ən başlıcası, pozulmuş hüquqların bərpası, təqsirli şəxsin cəzalandırılması, dəymiş ziyanın ödənilməsi qeyri-mümkün olur və ədalət mühakiməsinin çıxardığı başqa qərarlar kağız üzərində qalır.

2. Şərh edilən cinayətin **obyekti** ədalət mühakiməsinin, xeyrinə məhkəmə qərarı çıxarılmış ayrı-ayrı hüquqi və fiziki şəxslərin, habelə dövlətin mənafeləridir.

3. Bu cinayət **obyektiv cəhətdən** qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmədə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmədə ifadə olunmuşdur.

4. Təhlil edilən maddənin dispozisiyasında adları çəkilən **məhkəmə aktlarının** anlayışı CM-in 295-ci maddəsinin şərhində verilmişdir.

5. Məhkəmənin qətnaməsini, hökmünü, qərarını, yaxud digər aktını **icra etməmə** dedikdə icra üçün daxil olmuş məhkəmə qətnaməsinin, hökmünün, qərardadının, qərarının və ya əmrinin icrasını həyata keçirmək üçün bu və ya digər hərəkəti etməli olan şəxsin qanunla müəyyən edilmiş müddətdə həmin hərəkətləri etməməsi başa düşülür. Belə hərəkətsizlik məhkəmə qətnaməsi üzrə verilməli olan əmlakı verməmədə, hökm üzrə ödənilməli olan cəriməni ödəməmədə və s.-də ifadə oluna bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306.1-ci maddəsinin şərh edilməsinə dair» 2 oktyabr 2012-ci il tarixli Qərarında deyilir ki, məhkəmə aktlarını qərəzli icra etməmə, bir qayda olaraq, hərəkətsizlik nəticəsində baş verir. Borclu məhkəmə qərarının icrası üçün müəyyən hərəkətləri etmir. Bununla yanaşı, icra etməmə borclunun müəyyən hərəkətləri etməsi ilə də həyata keçirilə bilər. Məsələn, subyekt yazılı və ya şifahi şəkildə məhkəmə qərarını icra etməyəcəyi barədə məlumat verir və ya məhkəmə qərarını icra etmək niyyətinin olmadığını ifadə edir.

«İcra haqqında» 27 dekabr 2001-ci tarixli Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə görə icra məmuru icra sənədini aldığı gündən iki ay müddətində icra hərəkətlərini həyata keçirməli və icra sənədində göstərilən tələblərin icra olunmasını təmin etməlidir. Müstəsna hallarda icra sənədində göstərilən tələblərin icra olunması icra qurumunun rəhbərinin təqdimatı əsasında icra xidmətinin rəhbəri (baş icra məmuru) tərəfindən 1 ay müddətinədək uzadıla bilər. Qanuna görə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə və ya icra sənədi ilə icrası dərhal nəzərdə tutulmuş tələblər təxirə salınmadan icra olunmalıdır.

«İcra haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə görə məhkəmələrin qərarları əsasında verilən icra vərəqələri və məhkəmə əmrləri bir ay ərzində; iddianın təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi haqqında məhkəmələrin qərardadları əsasında verilən icra vərəqələri dərhal; notariat orqanlarının icra qeydləri və inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları on gün ərzində; beynəlxalq

arbitrajların və münsiflər məhkəmələrinin qərarları, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri üç il ərzində icraya yönəldilməlidir.

Göstərilən icra müddətləri məhkəmələrin qərarları əsasında verilən icra vərəqələri və beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin qərarları, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələrinin (məhkəmə əmrləri istisna olmaqla) icraya yönəldilməsi zamanı — məhkəmə qərarının qanuni qüvvəyə mindiyi, yaxud onun icrasının təxirə salınması və ya icrasına möhlət verilməsi ilə bağlı müəyyən edilmiş müddətin başa çatdığı vaxtdan; məhkəmə əmrlərinin icraya yönəldilməsi zamanı — onların verildiyi vaxtdan 10 gün müddət keçdikdən sonra; notariat orqanlarının icra qeydləri və inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları — müvafiq qərarın qəbul edildiyi vaxtdan hesablanmağa başlayır.

6. Məhkəmə aktlarını icra etməmə yalnız **qərəzli** olduqda təhlil edilən cinayət tərkibini yaradır. Bu əmələ görə cinayət məsuliyyəti məsələsini həll edərkən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2 oktyabr 2012-ci il tarixli Qərarını nəzərə almaq zəruridir. Orada deyilir ki, CM-in 306-cı maddəsində nəzərdə tutulmuş cinayət tərkibi məhkəmə aktını icra etməməsinə görə İXM-in (qüvvədən düşən İXM) 313-1.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edildikdən sonra şəxs tərəfindən həmin icra sənədinin yenidən qərəzli olaraq icra edilmədiyi hallarda yaranır. Deməli, məhkəmə aktını qərəzli icra etməməyə görə cinayət məsuliyyəti **müvafiq şəxsin inzibati məsuliyyətə cəlb edilməsindən sonra** yarana bilər. Lakin şəxsin İXM-in 313-1.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilmiş olması avtomatik olaraq onun CM-in 306-cı maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsinə gətirib çıxara bilməz. Həmin Plenum Qərarında deyilir ki, CM-in 306.1-ci maddəsində müəyyən edilmiş «qərəzli» müddəası qiymətləndirici əlamət olduğundan ibtidai istintaq aparan orqan və ya məhkəmə yalnız konkret işin hallarına uyğun olaraq bu əlamətin mövcud olub-olmamasını müəyyən etməlidir. Məhkəmə aktlarının qərəzli icra edilməməsini aşağıdakılara əsasən müəyyən etmək olar:

- məhkəmə qərarında nəzərdə tutulmuş tələblərin həmin qərarda müəyyən edilmiş müddət ərzində icra edilməməsi;
- borcluya məhkəmə qərarının icra edilməməsi haqqında dəfələrlə rəsmi xəbərdarlıq edilməsi;
- borclunun məhkəmə qərarını icra etməməsinə görə inzibati məsuliyyətə cəlb edilməsi;
- borclu tərəfindən məhkəmə qərarının icrası üçün yetərli tədbirlərin görülməməsi;
- borclunun məhkəmə qərarının icrası üçün faktiki imkanlarının olması.

Konstitusiya Məhkəməsinin mövqeyindən aydın olur ki, məhkəmə aktını icra etməyən şəxsin bunu qərəzli olaraq edib-etməməsi inzibati məsuliyyətə cəlb etmədən sonra aydınlaşdırılmalıdır və yalnız bu əlamət mövcud olduqda cinayət təqibi başlana bilər.

Əgər icra sənədi qərəzli olaraq icra edilməzsə, icra məmuru məhkəmə qə-

rarını icra etməyə borclu olan şəxsin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb olunması haqqında müvafiq cinayətlərə dair işlər üzrə ibtidai istintaq aparan orqana, icra xidmətinin rəhbəri (baş icra məmuru) tərəfindən təsdiq olunan təqdimat verməlidir (adı çəkilən Qanunun 82.3-cü maddəsi).

7. Məhkəmə aktını icra etməyə **maneçilik törətmə** dedikdə şəxsin məhkəmə aktlarının icrasını mümkünsüz etməyə yönələn hər hansı hərəkət etməsi başa düşülür (məsələn, məhkəmənin qərarı üzrə mənzil axtarışı aparmalı olan şəxsləri mənzilə buraxmama, icra üçün müəssisəyə daxil olmuş hökmün və ya digər məhkəmə aktının surətinin şəxs tərəfindən gizlədilməsi və s.).

İcra etməmədən fərqli olaraq, məhkəmə aktlarının icrasına maneçilik törətmə fəal hərəkətlərlə də edilə bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2 oktyabr 2012-ci il tarixli Qərarında göstərilir ki, məhkəmə aktının icrasına qərəzli mane olmaq anlayışı altında şəxsin dövlət orqanı, yerli özünüidarəetmə orqanı, dövlət və bələdiyyə idarəsi, kommersiya və ya digər təşkilat tərəfindən məhkəmə aktının vaxtında icra edilməməsi üçün qəsdən maneə törətməsi başa düşülməlidir. Belə maneə müxtəlif yollarla həyata keçirilə bilər:

- şəxs tərəfindən tabeçiliyində olan şəxslərə məhkəmə qərarını icra etməmək barədə göstəriş, sərəncam və əmrlər verilməsi;
- icra məmurunun və ya məhkəmə qərarını icra etmək səlahiyyəti olan şəxsin məhkəmə qərarını icra etməsinə maneələr yaradılması;
- məhkəmə qərarının icra edilməsi üçün zəruri olan sənədlərin təqdim edilməməsi;
- məhkəmə qərarını icra etməli olan şəxslərə məlumatların, o cümlədən təşkilat və bank hesablarının yerləşdiyi yer barədə məlumat verilməməsi;
- məhkəmə qərarının icra edilməsinin qarşısını alan və ya onun icrasını mümkünsüz edən tədbirlər görülməsi.

Qeyd edilən hərəkətlər nəinki məhkəmə qərarını icra etmək səlahiyyəti olan şəxs tərəfindən, həmçinin məhkəmə qərarının icra olunmamasında maraqlı olan digər subyektlər tərəfindən də edilə bilər.

İcra qurumunun qanuni tələblərini qəsdən yerinə yetirməyən və ya onların yerinə yetirilməsinə mane olan və yaxud başqa şəkildə məhkəmə və digər orqanların qərarlarının icrası haqqında qanunvericiliyi pozan təqsirkar şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi barədə icra məmuru müvafiq cinayətlərə dair işlər üzrə ibtidai istintaq aparan orqana, icra xidmətinin rəhbəri (baş icra məmuru) icra qurumunun rəhbəri tərəfindən təsdiq olunan təqdimat verməlidir (adı çəkilən Qanunun 84.4-cü maddəsi).

8. Məhkəmə qərarlarını icra etməmə **uzanan** cinayətdir. Məhkəmənin qətnaməsini, hökmünü, qərardadını və ya qərarını qərəzli icra etməmə məhkəmə və ya icra məmuru tərəfindən müvafiq şəxslərin həmin aktları müəyyən müddətə icra etmək vəzifəsi haqqında yazılı xəbərdarlıq edildiyi andan başlayır və bu aktların icra edildiyi, yaxud bu əməlin istintaq orqanları və ya buna səlahiyyəti olan vəzifəli şəxs tərəfindən dayandırıldığı anda başa çatır. Məhkəmənin

aktının icra edilməsinə maneçilik törətmə məhkəmə qərarlarının icrasına yol verməməyə yönələn hərəkətin edildiyi andan **başa çatmış** hesab edilir.

9. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Cinayətin **motivi** şəxsi maraq, tamah niyyəti, digər niyyətlər ola bilər.

10. CM-in 306.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti 16** yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 306.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin vəzifəli şəxs tərəfindən törədilməsi nəzərdə tutulmuşdur.

Vəzifəli şəxsin anlayışı CM-in 308-ci maddəsinin qeydində verilmişdir. Belə vəzifəli şəxslərə müxtəlif icra hakimiyyəti orqanlarının qulluqçuları, yerli özünüidarə orqanının qulluqçuları, dövlət və bələdiyyə idarələrinin, müəssisələrinin və təşkilatlarının məhkəmə aktlarının icrasını təşkil etməli olan səlahiyyətli şəxsləri və s. aid edilə bilər.

12. Şərh olunan maddənin «Qeyd»inə əsasən CM-in 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs **iki şərt daxilində cinayət məsuliyyətindən azad edilir**: 1) o, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini məhkəmə tərəfindən hökm çıxarılanadək icra etməlidir; 2) o, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini tam icra etməlidir.

Maddənin «Qeyd»ində «hökm çıxarılanadək» ifadəsi məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətini törətmiş şəxs barəsində məhkəmə hökm çıxarmaq üçün müşavirə otağına gedənədək olan müddətin son anını nəzərdə tutur. Başqa sözlə, CM-in 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs məhkəmə hökm çıxarmaq üçün müşavirə otağına gedənədək icara etmədiyi hökmü, qərarı, yaxud digər məhkəmə aktını tam icra etməlidir.

Cinayət qanunu məhkəmənin hökmünün, qərarının, yaxud digər aktının qismən icra edilməsini cinayət məsuliyyətindən azad etmə üçün kifayət hesab etmir: məhkəmə aktları tam icra edilməlidir.

Maddə 307. Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə

307.1. Ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə —

min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

307.2. Qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

307.3. Qabaqcadan vəd etmədən xüsusilə ağır cinayəti gizlətmə —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Arvadı (əri), övladları, valideynləri və qanunvericiliklə dairəsi

müəyyən edilmiş digər yaxın qohumları tərəfindən hazırlanmış və ya törədilmiş cinayət barəsində xəbər verməyən şəxs bu Məcəllənin 307.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət məsuliyyətinə cəlb oluna bilməz
(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).

1. CM-in 307-ci maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə, habelə qabaqcadan vəd etmədən ağır və ya xüsusilə ağır cinayəti gizlətmə hazırlanan cinayətin vaxtında qarşısını almağa, cinayət törədildikdən sonra isə cinayətkarın yaxalanmasına, ifşa olunmasına və cəmiyyətdən təcrid edilməsinə, habelə pozulmuş hüquqların bərpa olunmasına mane olur. Digər tərəfdən, belə hərəkətlər cinayətkar meyllərin güclənməsinə, mütəşəkkil cinayətkarlığın artmasına zəmin yaradır.

2. Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmənin **obyekti** ədalət mühakiməsi orqanlarının cinayətkarlığın profilaktikası və cinayətlərin açılması üzrə normal fəaliyyətidir.

3. CM-in 307.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** ağır və ya xüsusilə ağır cinayətin hazırlanması və ya törədilməsi barədə xəbər verməmədə ifadə olunmuşdur.

Xəbər verməmə dedikdə ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilən şəxsin bu barədə məlumatı hakimiyyət orqanlarına və ya onların vəzifəli şəxslərinə bildirməmədə ifadə olunan hərəkətsizliyi başa düşülür.

4. Yalnız ağır və ya xüsusilə ağır cinayətin hazırlanması və ya törədilməsi barədə xəbər verməmə təhlil edilən cinayət tərkibini yaradır. Cinayətin digər növlərinin hazırlanması və ya törədilməsi barədə xəbər verməmə cinayət hesab edilmir.

Ağır və **xüsusilə ağır** cinayətin anlayışı CM-in 15-ci maddəsində verilmişdir.

«Azərbaycan Respublikası Konstitusiyasının 66-cı maddəsi ilə əlaqədar Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 67, 70-ci və Cinayət Məcəlləsinin 179, 181-ci maddələrinin şərh edilməsi haqqında» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 dekabr 1998-ci il Qərarına görə, CM-in (qüvvədə olan) 307-ci maddəsinin qeydində sadalanan şəxslər törədilmiş cinayət haqqında xəbər verməməyə görə CM-in 307.1-ci maddəsi ilə məsuliyyət daşıya bilməzlər.

5. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** xarakterizə edilir. Təqsirkar ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini yəqinliklə bilir, bu barədə müvafiq hakimiyyət orqanlarına və ya onların vəzifəli şəxslərinə xəbər vermədiyini dərk edir və bunu arzu edir.

Şəxsin hazırlanan və ya törədilən cinayət barədə məlumatı etibarlı mənbələrdən (məsələn, şəxsin özünün cinayət faktını görməsi, bunu cinayətkarın özündən eşitməsi və s.) olmalıdır. Əks təqdirdə (məsələn, arada gəzən söz-söhbətlərdən əldə olunmuş məlumat) təhlil edilən maddə üzrə cinayət məsuliyyəti istisna edilir.

6. CM-in 307.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

CM-in 307-ci maddəsinin qeydinə görə, arvadı (əri), övladları, valideynləri və qanunvericilikdə dairəsi müəyyən edilmiş digər yaxın qohumları tərəfindən hazırlanmış və ya törədilmiş cinayət barəsində xəbər verməyən şəxs bu maddə ilə cinayət məsuliyyətinə cəlb oluna bilməz. CPM-in 7.0.32-ci maddəsinə görə **yaxın qohumlar** dedikdə babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr başa düşülür.

7. CM-in 307.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmədə ifadə olunmuşdur. Burada **gizlətmə** dedikdə qabaqcadan vəd etmədən cinayətkarın özünün, cinayətin izlərinin, cinayətin törədildiyi alət və vasitələrin, eləcə də cinayət nəticəsində əldə edilmiş əşyaların təqsirkar tərəfindən gizlədilməsində ifadə olunan hərəkətlər başa düşülür.

Əməlin təhlil edilən maddə üzrə tövsif edilməsi üçün təqsirkarın gizlədilən cinayəti törədən şəxslərə göstərəcəyi «xidmətləri» əvvəlcədən **vəd etməmiş** olması zəruridir. Əks təqdirdə (vəd verildikdə) təqsirkarın əməli törədilmiş konkret cinayətdə iştirakçılıq kimi tövsif ediləcəkdir.

8. Təhlil edilən cinayət cinayətkarın özünün, cinayətin izlərinin, cinayətin törədildiyi alət və vasitələrin, eləcə də cinayət nəticəsində əldə edilmiş əşyaların gizlədildiyi andan **başa çatmış** hesab edilir.

9. CM-in 307.2-ci maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** edilir. Təqsirkar ağır cinayəti qabaqcadan vəd etmədən gizlətdiyini dərk edir və bunu törətməyi arzu edir. **Motiv** tamah niyyəti, digər şəxsi maraqlar və s. ola bilər.

10. Şərh edilən cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

11. CM-in 307.3-cü maddəsində nəzərdə tutulmuş **ağırlaşdırıcı tərkib** CM-in 307.2-ci maddəsində verilmiş cinayət tərkibindən yalnız gizlədilən cinayətin növünə görə fərqlənir (CM-in 307.2-ci maddəsi **ağır**, 307.3-cü maddəsi isə **xüsusilə ağır cinayəti** gizlətməyə görə məsuliyyət müəyyən edir).

Ağır və **xüsusilə ağır** cinayətin anlayışı CM-in 15-ci maddəsində verilmişdir.

XXXIII Fəsil
Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər

Maddə 308. Vəzifə səlahiyyətlərindən sui-istifadə

308.1. Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin

qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308.2. Bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu fəslin maddələrində «vəzifəli şəxs» dedikdə aşağıdakı şəxslər başa düşülür:

1. hakimiyyət nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş, yaxud xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, zabit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları;

2. dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər;

3. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, o cümlədən publik hüquqi şəxslərin, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri;

4. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər;

5. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər;

6. xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri;

7. beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər, xarici andlı iclasçılar

(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il, 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 2 iyun 2008-ci il, 24 iyun 2011-ci il, 7 mart 2012-ci il, 13 fevral 2015-c il, 6 may 2016-cı il, 1 fevral 2017-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - Azərbaycan Respublikası QT, 2001, № 7, m 455; «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il, 16 iyul 2008-ci il, 2 avqust 2011-ci il; 16 mart 2012-ci il; 10 aprel 2015-ci il; 25 may 2016-cı il; 19 mart 2017-ci il, 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, təqsirkar

qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edərək vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə, habelə cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə ziyan vurur, vətəndaşların konstitusiya hüquq və azadlıqlarını pozur, hakimiyyət orqanlarını əhali arasında nüfuzdan salır.

2. Vəzifə səlahiyyətlərindən sui-istifadənin **obyekti** dövlət orqanlarının normal fəaliyyətidir. **Əlavə obyekt** qismində vətəndaşların və ya təşkilatların hüquqları və qanuni mənafeləri, habelə cəmiyyətin və dövlətin qanunla qorunan mənafeləri çıxış edir.

3. Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə **obyektiv cəhətdən** aşağıdakı zəruri əlamətlərin məcmusu ilə xarakterizə olunur: 1) vəzifəli şəxsin qulluq səlahiyyətlərindən qulluq mənafeyinə zidd olaraq istifadə etməsi növündə əməl; 2) fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasından ibarət nəticənin baş verməsi; 3) əməllə nəticə arasında səbəbli əlaqənin olması.

4. Vəzifə səlahiyyətlərindən **sui-istifadə** vəzifəli şəxsin qulluq səlahiyyətlərindən irəli gələn və tutduğu vəzifəyə görə ona verilmiş hüquq və vəzifələrini həyata keçirməsi ilə bağlı olan hərəkətlərdə ifadə oluna bilər («Hakimiyyət səlahiyyətindən və ya qulluq mövqeyindən sui-istifadə etmək, hakimiyyət və ya qulluq səlahiyyətini aşmaq, səhlənkarlıq və vəzifə saxtakarlığı haqqında işlər üzrə məhkəmə təcrübəsi haqqında» SSRİ Ali Məhkəməsi Plenumunun 30 mart 1990-cı il tarixli 4 saylı Qərarı). Lakin belə hərəkətlər qulluq mənafeyinə zidd olaraq həyata keçirildikdə təhlil edilən cinayət tərkibi yaranır.

Vəzifəli şəxslərin fəaliyyət dairəsi çox geniş olduğundan, vəzifə səlahiyyətlərindən sui-istifadənin konkret formaları çox müxtəlif ola bilər. Bu, həm **hərəkətlə** (öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi), həm də **hərəkətsizliklə** (vəzifəli şəxsin qulluq mənafeyi tələb etdiyi halda öz qulluq səlahiyyətlərindən istifadə etməməsi) edilə bilər.

5. Şərh edilən maddənin dispozisiyasının məzmununa əsasən vəzifə səlahiyyətlərindən sui-istifadənin obyektiv cəhətinə daxil olan hərəkət və ya hərəkətsizlik vəzifəli şəxsin **qanuni səlahiyyətlərindən irəli gəlməlidir**. Vəzifəli şəxs nüfuzundan istifadə edərək öz səlahiyyətləri dairəsinə daxil olmayan hərəkətlər etdikdə, əməl təhlil edilən maddə üzrə deyil, müvafiq əlamətlər olduqda CM-in 309-cu və ya 310-cu maddəsi üzrə tövsif ediləcəkdir.

6. Vəzifəli şəxsin qulluq mənafeyinə zidd olaraq istifadə etdiyi qulluq səlahiyyətləri müvafiq normativ aktlarla və qanunvericiliyə müvafiq fəaliyyət göstərən dövlət idarə, müəssisə və təşkilatları ilə bağlanan əmək müqaviləsində əks olunan vəzifələrin həcmi ilə müəyyən olunur.

7. Vəzifə səlahiyyətlərindən sui-istifadənin obyektiv cəhətinin zəruri əlamətlərindən biri fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə **mühüm zərər vurmada ifadə olunan ictimai təhlükəli nəticənin** baş verməsidir.

Belə nəticə real maddi ziyanda, əldən çıxmış mənfəətdə, eləcə də qanunla qorunan müxtəlif dəyərlərə dəymiş digər zərərdə (vətəndaşların konstitusiya

hüquq və azadlıqlarının pozulması, hakimiyyət orqanlarının nüfuzdan salınması, onların işində maneələr yaradılması, ictimai qaydanın pozulması və s.) ifadə oluna bilər.

Hüquqlara və qanuni mənafelərə vurulmuş zərərin **mühümlüyü** haqqında məsələni həll edərkən zərərçəkmiş vətəndaşların sayı, onlara vurulmuş mənəvi, fiziki və ya əmlak ziyanının ağırlığı, idarənin, müəssisənin, təşkilatın normal işinə vurulan mənfi təsirin dərəcəsi, vurulmuş maddi ziyanın həcmi, xarakteri və s. nəzərə alınmalıdır. Bu məsələnin həllində SSRİ Ali Məhkəməsi Plenumunun 30 mart 1990-cı il tarixli 4 saylı Qərarı da eyni mövqedən çıxış edir.

8. Vəzifə səlahiyyətlərindən sui-istifadə **subyektiv cəhətdən qəsdən** edilən cinayətdir. Təqsirkar qulluq səlahiyyətlərindən qulluq mənafeyinə zidd olaraq istifadə etdiyini dərk edir, bunun fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmada ifadə olunan nəticələrini qabaqcadan görür, bu nəticələrin baş verməsini arzu edir **(birbaşa qəsd)** və ya belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir **(dolayı qəsd).**

Vəzifə səlahiyyətlərindən sui-istifadə cinayətinin subyektiv cəhətinin daha bir zəruri əlaməti cinayətin **motividir**. Şərh edilən maddədə o, vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək kimi müəyyən edilmişdir.

Qanunsuz üstünlük əldə etmə məqsədi şəxsin öz qulluq səlahiyyətlərindən sui-istifadə etmə yolu ilə dövlətin və ya ayrı-ayrı şəxslərin əmlakını qanunsuz və əvəzsiz olaraq özünün və ya yaxınlarının mülkiyyətinə keçirməklə qazanc əldə etmək istəməsində, özünün və ya yaxınlarının maddi xarakterli müəyyən öhdəliklərdən azad olmağa nail olunmasında, qeyri-əmlak xarakterli mənfəət əldə etmədə, habelə qanunsuz olaraq hər hansı imtiyazın və ya güzəştin əldə olunması istəyində və s. ifadə oluna bilər.

9. Vəzifə səlahiyyətlərindən sui-istifadə etmənin **subyekti** yalnız vəzifəli şəxs ola bilər. **Vəzifəli şəxsin** anlayışı CM-in 308-ci maddəsinin «Qeyd»ində verilmişdir.

Şərh olunan maddə **vəzifəli şəxslərin** aşağıdakı kateqoriyalarını müəyyən edir:

1) hakimiyyət nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş, yaxud xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, zabit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları;

2) dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər;

3. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, o cümlədən publik hüquqi şəxslərin, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri;

4. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər;

5) hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər;

6) xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri;

7) beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər, xarici andlı iclasçılar.

10. **Hakimiyyət nümayəndəsi** dedikdə öz səlahiyyəti daxilində sahəvi mənsubiyyətindən, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq idarələr, müəssisələr, təşkilatlar və vətəndaşlar üçün icrası məcburi olan qərarlar qəbul edən, tələblər irəli sürən şəxslər başa düşülür. Hakimiyyət nümayəndəsinin səlahiyyətləri onun xidməti tabeliyində olmayan şəxslərə də şamil olunur.

Hakimiyyət nümayəndəsi kateqoriyasına Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsi ilə müəyyən edilmiş dövlət hakimiyyətini həyata keçirən qanunvericilik, icra və məhkəmə hakimiyyətini təmsil edən nümayəndələr aiddir. Qanunverici hakimiyyəti həyata keçirən Azərbaycan Respublikası Milli Məclisinin deputatları, icra hakimiyyətini həyata keçirən Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Baş naziri, nazirlər, nazirliklərin səlahiyyətli əməkdaşları, dövlət komitələrinin, agentliklərin, onların yerli idarələrinin rəhbərləri və səlahiyyətli əməkdaşları, müxtəlif dövlət xidmətlərinin (məsələn, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin) səlahiyyətli nümayəndələri, Azərbaycan Respublikası Mərkəzi Bankının səlahiyyətli əməkdaşları, hakimiyyət strukturlarının qanunların icrasına nəzarəti həyata keçirən, ictimai qaydanı qoruyan, cinayətkarlıqla mübarizəni həyata keçirən, yanğın, epidemiya əleyhinə və digər təhlükəsizliyi təmin edən orqanların (polis, təhlükəsizlik xidməti, sanitar-epidemioloji nəzarət, vergi xidməti, gömrük xidməti, şəhərsalma-arxitektura nəzarəti, ekoloji nəzarəti və s.) işçiləri, məhkəmə hakimiyyətini təmsil edən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və digər məhkəmələrin üzvləri, habelə hakimiyyət qollarından hər hansı birinə aid olmayan Azərbaycan Respublikası Baş prokurorluğunun, prokurorluqların prokurorları, müstəntiqləri və digər səlahiyyətli işçiləri, müxtəlif təyinatlı xüsusi dövlət komissiyalarının (məsələn, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının), Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili, müvəkkilin aparatının və regional mərkəzlərinin səlahiyyətli nümayəndələri, müxtəlif səviyyəli seçki komissiyalarının, Auditorlar Palatasının və s. hakimiyyət səlahiyyətlərinə malik əməkdaşları və s. şəxslər aid edilə bilər.

11. **Xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər** sırasına normativ hüquqi aktla, habelə yuxarı vəzifəli şəxsin, yaxud buna səlahiyyəti olan vəzifəli şəxsin və ya orqanın sərəncamı (əmri, qərarı və s.) ilə müvafiq dövlət orqanını, habelə bələdiyyə orqanlarını

təmsil etmək səlahiyyəti verilmiş şəxslər aiddir.

12. Vəzifəli şəxslərin bir qrupuna **dövlət qulluqçuları** (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla) aid edilmişdir. Azərbaycan Respublikasının «Dövlət qulluğu haqqında» 21 iyul 2000-ci il tarixli Qanununun 14-cü maddəsinə görə **dövlət qulluqçusu** həmin Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır. Prokurorluq, ədliyyə, dövlət təhlükəsizliyi xidməti, müdafiə, fövqəladə hallar, sərhəd xidməti, miqrasiya xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər və feldyeger rabitəsi orqanlarında, Azərbaycan Respublikasının Mərkəzi Bankında qulluq dövlət qulluğunun xüsusi növüdür və bu orqanlarda işləyən və dövlət qulluqçusu sayılan şəxslər də vəzifəli şəxslərdir. Sadalanan orqanlarda çalışan xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. şəxslər **dövlət qulluqçusu olmayan işçilər** sayılır.

13. Şərh olunan maddənin qeydi **bələdiyyə üzvlərini** və **bələdiyyə qulluqçularını** da vəzifəli şəxslər sırasına aid edir. Azərbaycan Respublikasının «Bələdiyyələrin statusu haqqında» 2 iyul 1999-cu il tarixli Qanununun 15-ci maddəsinə görə **bələdiyyə üzvü** bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir (bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz). **Bələdiyyə qulluqçusu** dedikdə yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən şəxs başa düşülür. Bələdiyyə üzvləri və bələdiyyələrin fəaliyyətinin təmin olunması ilə birbaşa bağlı olmayan vəzifələri yerinə yetirən şəxslər bələdiyyə qulluqçusu hesab edilmirlər (Azərbaycan Respublikasının «Bələdiyyə qulluğu haqqında» 30 noyabr 1999-cu il tarixli Qanununun 2-ci maddəsi).

14. «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin «Qeyd» hissəsində nəzərdə tutulmuş «vəzifəli şəxs» anlayışının şərh olunmasına dair» 19 iyul 2013-cü il tarixli Qərarında Konstitusiya Məhkəməsi Plenumu CM-in 308-ci maddəsinin «Qeyd» hissəsinin mənasından çıxış edərək müəyyən etmişdir ki: 1) qanunvericiliklə müəyyən edilmiş qaydada **tabeçiliyində olan və ya olmayan şəxslər barəsində sərəncam vermək səlahiyyətlərinə və ya hüquqi və fiziki şəxslər üçün icrası məcburi olan qərarlar qəbul etmək hüququna malik olan** dövlət qulluqçuları, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları, zabit, gizir və ya miçman olan hərbi qulluqçular hakimiyyət nümayəndəsi kimi vəzifəli şəxs hesab olunurlar; 2) dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarının işçiləri, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər yalnız **hüquqi əhəmiyyət kəsb edən, yəni başqa şəxslər üçün hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması ilə nəticələnən və ya nəticələnə bilən hərəkətlər etdikdə** vəzifəli şəxs hesab olunurlar.

15. **Dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər** dedikdə Azərbaycan Respublikasının Prezidentliyinə və Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə namizədliyi Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq müvafiq seçki komissiyası tərəfindən qeydə alınmış şəxslər başa düşülür.

16. CM-in 308-ci maddəsinin qeydinin 3-4-cü bəndlərinə görə, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, o cümlədən publik hüquqi şəxslərin, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarının **rəhbərləri** və **işçiləri**, habelə dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında **xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər** vəzifəli şəxslər hesab edilirlər.

Kommersiya təşkilatı dedikdə qanuna müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alınması məqsədilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektləri başa düşülür. Kommersiya təşkilatlarına təsərrüfat ortaqlıqları və cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyət, səhmdar cəmiyyəti və s. aiddir (kommersiya təşkilatlarının növləri MM-in IV fəslinin 2-ci §-da göstərilmişdir).

Qeyri-kommersiya təşkilatı dedikdə təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən təşkilat başa düşülür. Qeyri-kommersiya təşkilatlarına ictimai birliklər, fondlar və s. aiddir (qeyri-kommersiya təşkilatlarının növləri MM-in IV fəslinin 3-cü §-da göstərilmişdir).

Publik hüquqi şəxs dedikdə dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilat başa düşülür («Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsi).

Dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, publik hüquqi şəxslərin, kommersiya və qeyri-kommersiya təşkilatlarının **rəhbərləri** bütün hallarda, **işçiləri** isə yalnız təşkilati-sərəncamverici funksiyaları yerinə yetirdiyi hallarda vəzifəli şəxs hesab edilməlidirlər. Publik hüquqi şəxsin kollegial icra orqanının üzvləri də onun rəhbərləri sayılırlar. Yerli özünüidarə (bələdiyyə) orqanlarının vəzifəli şəxsinin anlayışı «Bələdiyyələrin statusu haqqında» 2 iyul 1999-cu il tarixli Qanunun 2-ci maddəsinin 6-cı bəndində verilmişdir. Həmin maddəyə əsasən **bələdiyyə orqanlarının vəzifəli şəxsi** dedikdə yerli özünüidarə orqanlarında təşkilatçılıq-sərəncamçılıq funksiyalarını yerinə yetirən və dövlət qulluqçuları kateqoriyasına aid olmayan, kontrakt (əmək müqaviləsi) üzrə işləyən şəxs başa düşülür.

17. Dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında **xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici** və ya **inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər** dedikdə normativ hüquqi akt-

la, habelə yuxarı vəzifəli şəxsin, yaxud buna səlahiyyəti olan vəzifəli şəxsin və ya orqanın sərəncamı (əmri, qərarı və s.) ilə üzərinə müvafiq dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirmək vəzifəsi qoyulmuş şəxslər başa düşülməlidir.

Təşkilati-sərəncamverici funksiyaları həyata keçirən şəxslər dedikdə əmək kollektivinə, ayrı-ayrı işçilərin istehsalat fəaliyyətinə, iş sahələrinə rəhbərlik funksiyasını yerinə yetirən səlahiyyətli şəxslər başa düşülür. Buraya daha çox kadrların seçilməsi və yerləşdirilməsi, işə qəbul, işdən çıxarma, işin planlaşdırılması, işin təşkili, əmək intizamının gözlənilməsinə nəzarət və s. üzrə səlahiyyətləri yerinə yetirən şəxslər (nazirliklərin, komitələrin, idarələrin rəhbərləri, elm, mədəniyyət, təhsil müəssisələrinin müdirləri və s.) daxildir.

İnzibati-təsərrüfat funksiyası dedikdə əmlakın idarə edilməsi və onun barəsində sərəncam verilməsi üzrə səlahiyyət (əmlakın saxlanması, yenidən işlənməsi, realizəsi, maddi qiymətli şeylərin xərclənməsi, uçotu və ona nəzarət, maliyyə vəsaitlərinin, sənədlərin alınması, verilməsi qaydalarını müəyyən etmə, əməyə görə haqqın ödənilməsi və s.) başa düşülür. Belə səlahiyyətlərə bu və ya digər həcmdə təsərrüfat, təchizat, maliyyə şöbələrinin rəhbərləri və onların müavinləri və başqa bu kimi vəzifəli şəxslər malikdirlər.

Dövlət orqanlarında, yerli özünüidarə orqanlarında, publik hüquqi şəxslədə, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında peşə fəaliyyətini həyata keçirən və texniki vəzifələri icra edən şəxslər vəzifə cinayətlərinin subyekti sayılmırlar. Əgər belə işçilərə hansısa təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələri həvalə edilərsə, onda onlar vəzifə cinayətlərinin subyekti ola bilərlər. Məsələn, hakim hərbi xidmətə çağırış üzrə hərbi-hakim komissiyasının üzvü vəzifəsini müvəqqəti icra edərkən səlahiyyətindən sui-istifadə edərək hərbi xidmətə yararsızlıq haqqında rəy verdikdə digər əlamətlər də mövcud olduqda, onun əməli təhlil edilən maddə üzrə tövsif edilə bilər.

18. Vəzifəli şəxs kimi **hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər** dedikdə vergi qanunvericiliyinə görə vergi orqanlarında bu qismdə vergi ödəyicisi kimi uçota alınan fiziki şəxslər başa düşülür.

19. Şərh olunan maddənin qeydinin 6-cı bəndində xarici ölkələrin və beynəlxalq təşkilatların fəzifəli şəxsləri sadalanır: 1) xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri; 2) xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri; 3) beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları; 4) beynəlxalq parlament assambleyalarının üzvləri.

Xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri sırasına bu ölkələrin qanunverici, icra, inzibati və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri, inzibati və sərəncam vermə səlahiyyətləri olan əməkdaşları (üzvləri), habelə xüsusi səlahiyyətləndirilmiş təmsilçiləri aid edilə bilər. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə 31 oktyabr 2003-cü il tarixli Konvensiyasının 2-ci maddəsinə görə **xarici dövlət vəzifəli şəxsi** dedikdə xarici dövlətin qanunvericilik, icra, inzibati və ya məhkəmə orqanlarında təyinetmə və ya seçki əsasında hər hansı vəzifə tutan şəxs, habelə dövlət təsisatı və dövlət müəssisəsi də daxil olmaqla, xarici dövlət üçün hər hansı dövlət funksiyalarını yerinə yetirən şəxs başa düşülür.

Xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri dedikdə yalnız seçki (ümumxalq və ya yerli seçkilər) əsasında formalaşdırılan orqanların seçilmiş üzvləri başa düşülür.

Beynəlxalq təşkilatların vəzifəli şəxsləri sırasına həm BMT-nin beynəlxalq təşkilatlarının, həm də regional beynəlxalq təşkilatların rəhbərləri, onların müavinləri və katibləri, habelə həmin təşkilatların səlahiyyətli olan digər qulluqçuları aid edilə bilər. «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» 27 yanvar 1999-cu il tarixli Konvensiyanın 9-cu və Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə 31 oktyabr 2003-cü il tarixli Konvensiyasının 2-ci maddəsinə görə vəzifəli şəxs qismində **beynəlxalq təşkilatların nümayəndələri** dedikdə həmin təşkilatlar tərəfindən onların adından fəaliyyət göstərmək üçün icazə verilmiş beynəlxalq qulluqçu və ya istənilən digər şəxs (beynəlxalq təşkilatların müqavilə üzrə cəlb edilən əməkdaşı, habelə bu cür vəzifəli şəxslərin və ya əməkdaşların yerinə yetirdiyi funksiyalara uyğun olan funksiyaları yerinə yetirən ezam edilən və ya ezam edilməyən istənilən şəxs) başa düşülür.

Beynəlxalq parlament assambleyalarının üzvləri qismində necə adlanmasından (BMT-nin Baş Assambleyası, Avropa Şurasının Parlament Assambleyası və s.) asılı olmayaraq beynəlxalq təşkilatların qərarverici (parlament) orqanlarının, habelə bu orqanların öz üzvlərindən təyin etdiyi xüsusi missiyaların üzvləri çıxış edir.

20. Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər fəslində həmin cinayətlərin subyekti kimi vəzifəli şəxs qismində beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər, xarici andlı iclasçılar çıxış edir. **Beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri** dedikdə beynəlxalq müqavilələrin müddəalarına uyğun olaraq yaradılan beynəlxalq səlahiyyətlərə malik məhkəmələrin hakimləri, hakim köməkçiləri, katiblər və s. şəxslər başa düşülür.

21. CM-in təhlil olunan maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

22. CM-in 308.1-ci maddəsinə görə cəza təyin edərkən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 46.2, 46.3-cü maddələrinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 346.1.14-cü maddəsinin şərh edilməsinə dair» 14 noyabr 2011-ci il tarixli Qərarının müddəalarını nəzərə almaq zəruridir. Həmin qərarda göstərilmişdir ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası Azərbaycan Respubli-

kası Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsinin sanksiyasında əsas cəza kimi nəzərdə tutulduğu, lakin bu qisimdə təyin edilmədiyi hallarda əlavə cəza kimi tətbiq edilə bilər.

CM-in 308.1-ci maddəsinin sanksiyasında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası cərimə, islah işləri və azadlıqdan məhrum etmə cəzaları ilə yanaşı əsas cəza olaraq nəzərdə tutulmuşdur. Deməli, məhkəmə həmin cəzanı əsas cəza kimi təyin etmək qərarına gəlmədikdə, onu əlavə cəza kimi təyin etmək hüququna malikdir. Lakin məhkəmə cərimə cəzasını əsas cəza kimi seçərsə, CM-in 42-ci maddəsində cəzaların yüngül cəzadan ağır cəzaya doğru düzülüşü prinsipini və həmin prinsipdən irəli gələrək hər hansı əlavə cəzanın özündən yüngül cəzaya deyil, yalnız özündən ağır cəzaya əlavə olaraq təyin edilə bilməsini nəzərə alaraq müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasını cərimə cəzasına əlavə cəza olaraq təyin edə bilməz.

23. CM-in 308.2-ci maddəsində vəzifə səlahiyyətindən sui-istifadə etmənin **ağırlaşdırıcı əlamətlərinə** — CM-in 308.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin ağır nəticələrə səbəb olmasına və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədilməsinə görə məsuliyyət nəzərdə tutulmuşdur.

Burada **ağır nəticələr** dedikdə dövlət idarə və müəssisəsinin işini pozma, vətəndaşların hüquq və azadlıqlarını kütləvi şəkildə pozma, vətəndaşlara, dövlətə və ya ayrı-ayrı təşkilatlara əmlak xarakterli mühüm ziyan vurma və s. başa düşülə bilər. Baş vermiş ağır nəticə başqa cinayətin tərkibini əmələ gətirdikdə əməl cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir (məsələn, külli miqdarda əmlak ziyanı vurulduqda əməl CM-in 308.2-ci və 186-cı maddələrinin məcmusu üzrə tövsif edilə bilər).

Maddə 308-1. Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə

308-1.1. Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə, bu əməllər xeyli miqdarda törədildikdə —

səkkiz min manatdan on min manatadək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-1.2. Eyni əməllər külli miqdarda törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 308-1.1-ci maddəsində «xeyli miqdar» dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, 308-1.2-ci maddəsində «külli miqdar» dedikdə isə iki yüz əlli min manatdan yuxarı

olan məbləğ başa düşülür *(5 aprel 2016-cı il tarixli Qanunla əlavə edilmişdir; 31 may 2017-ci il tarixli Qanunla edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 3 may 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə nəticəsində həmin vəsaitlərin mənimsənilməsi, iqtisadi, sosial və digər sahələrdə nəzərdə tutulmuş layihələrin icrasının təxirə düşməsi (ləngiməsi), ləğv edilməsi və digər neqativ halların yaranmasında ifadə olunur.

2. Bu cinayətin **predmeti** qismində dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaiti çıxış edir. Şərh olunan maddədə dövlət büdcəsinin vəsaitinin təyinatı üzrə istifadə edilməməsindən danışılsa da, təkcə dövlət büdcəsinin deyil, Naxçıvan Muxtar Respublikası büdcəsinin və yerli büdcələrin vəsaitinin təyinatı üzrə istifadə edilməməsinə görə CM-in 308-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaranmalıdır. Ona görə ki, «Büdcə sistemi haqqında» 2 iyul 2002-ci il tarixli Qanunun 3.1-ci maddəsində Azərbaycan Respublikasında büdcə sisteminin Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikası büdcəsindən və yerli büdcələrdən təşkil edildiyi müəyyən olunur. Fikrimizcə, CM-in 308-1.1-ci maddəsinin dispozisiyasında «dövlət büdcəsnin» ifadəsi «büdcənin» sözü ilə əvəz edilməlidir.

Məqsədli büdcə fondlarının vəsaiti dedikdə dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaiti başa düşülür.

Büdcədənkənar dövlət fondlarının vəsaiti dedikdə qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondlarının vəsaiti başa düşülür.

2. CM-in 308-1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə əməlinin törədilməsində təzahür edir. Təyinatı üzrə istifadə olunmayan dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitinin məbləği xeyli miqdar olduqda şərh olunan maddə ilə cinayət məsuliyyəti yaranır.

CM-in 308-1-ci maddəsinin qeydinə əsasən xeyli miqdar dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ başa düşülür. Təyinatı üzrə istifadə olunmayan vəsaitin məbləği əlli min manatadək olduqda İXM-in 410-cu maddəsi ilə inzibati məsuliyyət yaranır.

Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə dedikdə konkret istiqamətlərə və layihələrə aynlan büdcə (büdcədənkənar dövlət fondlarının) vəsaitinin başqa məqsədlər və ya istiqamətlər üzrə sərf edilməsi başa düşülməlidir. Qanunverici əslində «dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya - büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə» anlayışının məzmununa ikinci bir əməlin – sadalanan mənbələrdən baxil olan vəsaitdən ümumiyyətlə istifadə etməmədən ibarət olan hərəkətsizliyi daxil et-

mir. Başqa sözlə, dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə yalnız belə vəsaitlərin başqa məqsədlər (istiqamətlər) üçün istifadə edilməsi anlamına gəlir.

3. Şərh olunan cinayət **formal** tərkiblidir və dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitinin yönəldilməsi nəzərdə tutulmayan istiqamətlərə yönəldildiyi, yəni vəsaitin hesabdan silindiyi andan **başa çatmış** sayılır.

4. Cinayət **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** forması ilə xarakterizə olunur. Şəxs dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitini təyinatı üzrə deyil, fərqli istiqamətlərə sərf etdiyini dərk edir və belə hərəkəti etməyi arzu edir. Cinayətin motivi müxtəlif ola bilər (şəxsi maraq və s.) əməlin tövsifinə təsir etmir. Maddədə sadlanan mənbələrdən vəsaitin son zərurət hallarında təyinatı üzrə xərclənməməsi CM-in 38-ci maddəsinə əsasən əməlin cinayət olmasının aradan qaldırır (məsələn, bina tikintisinə ayrılan vəsaitin bir hissəsinin tez-tez insan ölümü ilə müşayiət olunun qəzaların baş verdiyi və təmirə zəruri ehtiyacı olan yolun təmirinə yönəldilməsi).

5. Cinayətin **subyekti** dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya - büdcədənkənar dövlət fondlarının vəsaitinin xərcəlnməsinə sərəncam vermək səlahiyyətinə malik olan vəzifəli şəxsdir.

6. CM-in 308-1.2-ci maddəsində dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının külli miqdarda vəsaitindən təyinatı üzrə istifadə etməməyə görə bu cinayətin cəzanı ağırlaşdıran əlaməti nəzərdə tutulmuşdur. CM-in 308-1-ci maddəsinin qeydinə əsasən külli miqdar dedikdə iki yüz əlli min manatdan artıq olan məbləğ başa düşülür.

Maddə 308-2. Satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz keçirmə

308-2.1. Satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini xərcləmə və ya malların (işlərin) satın alınmasını «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.2. Satınalan təşkilat tərəfindən hər hansı digər satınalma metodlarından istifadə etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasını ayrı-ayrı müqavilələrə bölmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.3. Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol vermə, bu əməllər xeyli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.4. Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurduqda —

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən dörd mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: 1. Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində «xeyli miqdar» dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, 308-2.4-cü maddəsində «külli miqdar» dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

2. Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində «satınalan təşkilat» dedikdə «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müəssisə və təşkilatlar başa düşülür.

1. CM-in 308-2-ci maddəsində nəzərdə tutulan **cinayətin ictimai təhlükəliliyi** dövlət vəsaitlərinin qanunsuz xərclənməsinin, malların (işlərin) qanunazidd üsullardan və metodlardan istifadə etməklə satın alınmasının dövlət büdcəsində kəsirlərin yaranmasında, büdcədən maliyyələşən müəssisə və təşkilatların işinin dayanmasında, yaxud işçilərin əmək haqlarının verilməsində fasilələrin yaranmasında və sair bu kimi pozuntu hallarının meydana gəlməsində ifadə olunur.

2. Şərh olunan cinayətin **obyekti** «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq malların (işlərin və xidmətlərin) satın alınmasını təmin edən ictimai münasibətlərdir. Cinayətin predmeti dövlət vəsaitləri və mallardır (işlər və xidmətlər).

3. CM-in 308-2.1-ci madəsində təsbit olunan cinayət **obyektiv cəhətdən** aşağıdakı tərkib əlamətlərini əhatə edir: 1) satınalan təşkilat tərəfindən satınal-

ma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini xərcləmə və ya 2) malların (işlərin) satın alınmasının«Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmədə ifadə olunan əməl; 3) sadalanan əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmasında ifadə olunan ictimai təhlükəli nəticə; 4) sadalanan əməllərlə nəticə arasında səbəbli əlaqənin olması.

4. «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə görə **satınalma** dedikdə malların (işlərin və xidmətlərin) bu Qanunla müəyyənləşdirilmiş üsullarla əldə edilməsi, **satınalan təşkilat** dedikdə isə malları (işləri və xidmətləri) satınalan dövlət müəssisə və təşkilatları (idarələri), nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlar başa düşülür.

Satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini xərcləmə dedikdə tender komissiyasını formalaşdırmadan, tenderin əsas şərtlər toplusunu hazırlamadan, tender komissiyası tərəfindən tenderin əsas şərtlər toplusu və tender elanı təsdiq edildikdən sonra tender elanını dərc etdirmədən və ya malgöndərənlərə (podratçılara) tenderdə iştirak üçün fərdi dəvət göndərmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini malgöndərənlərin (podratçıların), tender qalibi olan digər şəxslərin hesabına keçirmədə ifadə olunan hərəkətlər başa düşülür. Burada **dövlət vəsaiti** dedikdə Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, dövlət tərəfindən bağlanmış beynəlxalq sazişlərə və müqavilələrə əsasən alınmış kreditlər, qrantlar, xarici yardımlar, büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar fondlarının vəsaiti və qanunvericiliklə dövlət vəsaitinə aid edilən digər vəsaitlər nəzərdə tutulur.

Malların (işlərin) satın alınmasının «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmə dedikdə malların (işlərin və xidmətlərin) ehtimal olunan qiyməti Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyənləşdirdiyi minimum məbləğdən yuxarı olduqda onların satın alınmasının açıq tender üsulu ilə deyil, hər hansı başqa satınalma metodundan istifadə etməklə aparılması, yaxud ehtimal olunan qiyməti Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyənləşdirdiyi minimum məbləğdən yuxarı olduğu halda malların (işlərin və xidmətlərin) digər satınalma metodlarının tətbiqi ilə həyata keçirilməsinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi təsdiq etmədən aparılması başa düşülməlidir.

5. CM-in 308-2.1-308-2.3-cü maddələrində nəzərdə tutulan cinayətlər **maddi** tərkiblidir və dispozisiyada göstərilən əməllərin xeyli miqdarda ziyan vurulmasına səbəb olduğu andan **başa çatmış** hesab edilir. Sadalanan maddələrdə **xeyli miqdar** dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ başa düşülür.

6. CM-in 308-2.2-ci maddəsində təsbit olunan cinayət **obyektiv cəhətdən** satınalan təşkilat tərəfindən hər hansı digər satınalma metodlarından istifadə

etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasını ayrı-ayrı müqavilələrə bölmədə ifadə olunan hərəkətlərin xeyli miqdarda ziyan vurulmasına səbəb olması ilə xarakterizə olunur.

«Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununun 17.2-ci maddəsinə görə satınalan təşkilat malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyənləşdirdiyi minimum məbləğlə əlaqədar məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasını ayrı-ayrı müqavilələrə (yəni ayrı-ayrı qismlərə) bölə bilməz.

CM-in 308-2.2-ci maddəsində nəzərdə tutulmuş cinayətə görə **məsuliyyət o halda yaranır** ki, satınalan təşkilat üçün bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyənləşdirdiyi minimum məbləğdən yuxarı olur (deməli bu halda malların (işlərin və xidmətlərin) satın alınması açıq tender üsulu ilə aparılmalıdır) və satınalan təşkilat açıq tender üsulundan deyil, digər satınalma metodlarından istifadə etmək məqsədilə həmin məbləği hər hissəsi qeyd olunan minimum məbləğdən aşağı olan məbləğlərə ayırmaqla bir neçə müqavilə əsasında malların (işlərin və xidmətlərin) satın alınmasını həyata keçirir.

7. CM-in 308-2.3-cü madəsində təsbit olunan cinayət **obyektiv cəhətdən** satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol vermədə ifadə olunan hərəkətlərin xeyli miqdarda ziyan vurulmasına səbəb olması ilə xarakterizə olunur.

«Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununun 13.1-ci maddəsinə görə satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir. **Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlər (podratçılar)** dedikdə satınalan təşkilatın tabeliyində olan, onun maliyyələşdirdiyi, onun yaratdığı satınalan təşkilatla bağlanan satınalma müqaviləsinin potensial və ya real tərəfi başa düşülür.

8. CM-in 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin külli miqdarda ziyan vurulmasına səbəb olması həmin cinayətlərin **ağırlaşdırıcı əlamətini** əks etdirir (CM-in 308-2.4-cü maddəsi). Şərh olunan maddənin «Qeyd»inin 1-ci bəndinə görə CM-in 308-2.4-cü maddəsində **külli miqdar** dedikdə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

9. CM-in 308-2.1-308-2.4-cü maddələrində göstərilən cinayətlər **subyektiv cəhətdən** təqsirin birbaşa formasında törədilə bilər. Şəxs sadalanan maddələrin dispozisiyalarında əks olunan əməllərin ictimai təhlükəli olduğunu qabaqcadan görür, onların törədilməsini və nəticələrinin baş verməsini arzu edir. CM-in 308-2.2-ci maddəsində nəzərdə tututlan cinayətin **məqsədi** hər hansı

digər satınalma metodlarından istifadə etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaqdır.

10. CM-in 308-2.1-308-2.4-cü maddələrində göstərilən cinayətlərin **subyekti** satınalan təşkilatın rəhbəri (sədri, direktoru, prezidenti və s.), onun vəzifəsini icra edən şəxs, satınalan təşkilata rəhbərlik edən kollegial orqanın üzvləri ola bilər.

Maddə 309. Vəzifə səlahiyyətlərini aşma

309.1. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki iladək müddətə islah işləri və ya üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

309.2. Bu Məcəllənin 309.1-ci maddəsində nəzərdə tutulmuş əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olduqda —

üç iladək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, üç ildən səkkiz iladək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 7 mart 2012-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il, 16 mart 2012-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, vəzifəli şəxsin qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərindən kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmuş olur. Nəticədə həm insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları, həm də dövlət orqanlarının normal fəaliyyəti pozulur.

2. Şərh edilən cinayətin **obyekti** dövlət və yerli özünüidarə orqanlarının normal fəaliyyətidir. **Əlavə obyekt** qismində fiziki və ya hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri, cəmiyyətin və dövlətin qanunla qorunan mənafeləri çıxış edir.

3. Vəzifə səlahiyyətlərini aşmanın **obyektiv cəhəti** üç zəruri əlaməti özündə əks etdirir:

1) vəzifə səlahiyyətlərini aşmada ifadə olunan hərəkətlər;

2) fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmada ifadə olunan ictimai təhlükəli nəticə;

3) əməllə nəticə arasında səbəbli əlaqənin olması.

4. Bu cinayətin obyektiv cəhətinə daxil olan əməl vəzifəli şəxsin öz səlahiyyətlərindən kənara çıxan hərəkətlər etməsində ifadə olunur. «Hakimiyyət səlahiyyətindən və ya qulluq mövqeyindən sui-istifadə etmək, hakimiyyət və ya qulluq səlahiyyətini aşmaq, səhlənkarlıq və vəzifə saxtakarlığı haqqında işlər üzrə məhkəmə təcrübəsi haqqında» SSRİ Ali Məhkəməsi Plenumunun 30 mart 1990-cı il tarixli 4 saylı qərarının 11-ci bəndində vəzifə səlahiyyətlərini aşmanın aşağıdakı əsas növləri göstərilmişdir: 1) vəzifəli şəxsin başqa vəzifəli şəxsin səlahiyyətinə aid olan hərəkətləri etməsi; 2) vəzifəli şəxsin yalnız xüsusi hallarda, qanunda və ya qanun qüvvəli aktlarda göstərilən hallarda etməli olduğu hərəkətləri adi halda etməsi; 3) kollegial orqanın etmək hüququ olduğu hərəkətləri vəzifəli şəxsin təkbaşına etməsi; 4) vəzifəli şəxsin heç kimin və heç bir halda etmək hüququ olmayan hərəkətləri etməsi.

Göstərilən bütün hallar üçün ümumi olan cəhət ondan ibarətdir ki, vəzifəli şəxs qanunla ona verilmiş **hüquq və səlahiyyətlərdən kənara çıxan davranışa** yol verir.

5. Cinayətin obyektiv cəhəti həm **fəal hərəkətlə**, həm də **hərəkətsizliklə** (məsələn, həbsdən azad edilmə barədə qərarın istintaq təcridxanası rəisi tərəfindən yerinə yetirilməməsi) edilə bilər. Ona görə də təhlil edilən maddənin dispozisiyasında işlədilmiş «hərəkətlər» sözünü bu cinayət tərkibinin konstruksiyasının qüsuru hesab etmək lazımdır.

6. Təhlil edilən cinayət **maddi tərkib** vasitəsilə ifadə olunmuşdur. Cinayətin **başa çatması** üçün fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasından ibarət ictimai təhlükəli nəticə mövcud olmalıdır.

Burada nəzərdə tutulmuş **mühüm zərər** qiymətləndirilən anlayışdır və real maddi ziyan mənəvi və ya fiziki zərər, yaxud başqa maddi və ya qeyri-maddi formada mövcud ola bilər. Zərərin həcmi haqqında məsələni həll edərkən törədilən əməlin konkret halları, pozulmuş ictimai münasibətlərin əhəmiyyətliliyi (vurulmuş zərərin həcmi və xarakteri, zərərçəkmişlərin sayı və s.) əsas götürülməlidir.

7. **Subyektiv cəhətdən** bu cinayət **birbaşa** və ya **dolayı qəsdlə** edilə bilər. Təqsirkar vəzifə səlahiyyətlərini aşdığını dərk edir, bunun fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuracağını qabaqcadan görür və bu hərəkətləri törətməyi arzu edir və ya bu nəticələrin baş verməsinə şüurlu surətdə yol verir.

Bu əməlin **motiv** və **məqsədi** cinayət tərkibinin zəruri əlamətləri sırasına daxil deyildir.

8. Vəzifə səlahiyyətlərini aşmanın **subyekti** vəzifəli şəxsdir.

Vəzifəli şəxsin anlayışı CM-in 308-ci maddəsinin şərhində verilmişdir.

9. CM-in 309.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** — CM-in 309.1-ci maddəsində göstərilən əməlin zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədilməsi, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədilməsi və ya ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

10. Burada **zor tətbiq etmə** dedikdə təqsirkarın zərərçəkmiş şəxsə zərbələr vurması, onun sağlamlığına zərər vurması, ona fiziki ağrılar yetirməsi, onun

azadlığının məhdudlaşdırılması ilə müşayiət olunan hərəkətlər etməsi başa düşülür.

Zor tətbiq etmə zərərçəkmişin sağlamlığına az ağır zərər vurmanı, yüngül zərər vurmanı və əzab verməni də əhatə edir.

Lakin vəzifə səlahiyyətlərini aşmaqla zərərçəkmiş şəxsə qəsdən ağır bədən xəsarəti yetirilməsi, onun qəsdən və ya ehtiyatsızlıqdan öldürülməsi hallarında əməl cinayətlərin məcmusu qaydasında tövsif ediləcəkdir.

11. **Zor tətbiq etməklə hədələmə** dedikdə zərərçəkmiş şəxsə vəzifəli şəxs tərəfindən istənilən formada psixi təsir göstərmə (öldürməklə, sağlamlığa zərər vurmaqla, əmlakını məhv etməklə və s. hədələmə) başa düşülür. Hədə real və həyata keçirilə bilən olmalıdır.

12. **Silahın** anlayışı CM-in 181-ci maddəsinin şərhində verilmişdir.

Burada **xüsusi vasitələr** dedikdə dəyənəklər, əl-qolu bağlama vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələr, nəqliyyatı məcburi dayandırma vasitələri və Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilmiş digər xüsusi vasitələr başa düşülür («Polis haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi).

Silah və xüsusi vasitələrdən istifadə etmə dedikdə onun həm fiziki, həm də psixi təsir üçün təyinatı üzrə bilavasitə istifadə edilməsi başa düşülür. Silah qismində ən müxtəlif alətlər — tapança, avtomat, qaz tapançası, bıçaq və s. işlədilə bilər.

13. Təhlil edilən maddənin dispozisiyasında **ağır nəticələr** dedikdə hakimiyyət və yerli özünüidarə orqanlarının fəaliyyətini pozma, nəqliyyatın işinin uzun müddətə dayanması, külli miqdarda maddi ziyan vurma və s. başa düşülə bilər.

Baş vermiş ağır nəticə başqa cinayətin tərkibini əmələ gətirdikdə əməl cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

14. Vəzifə səlahiyyətlərini aşma üzücü, zərərçəkmişin ləyaqətini təhqir edən hərəkətlərlə müşayiət olunarsa və zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə bağlı olmazsa, onda əməl CM-in 309.1-ci maddəsi ilə tövsif ediləcəkdir.

Maddə 310. Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə

Özbaşına özünün vəzifəli şəxs kimi təqdim edilməsi və ya vəzifəli şəxsin səlahiyyətlərinin mənimsənilməsi ilə əlaqədar fiziki və ya hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan hərəkətlər törətmə —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 13 may 2006-cı il, № 104; 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Bu cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 310-cu maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində dövlət xidmətinin

və yerli özünüidarə xidmətinin mənafeyinə qəsd edilir, həmin orqanların fəaliyyəti təhlükə altına alınır, onlar əhalinin gözündə nüfuzdan düşür, həmçinin fiziki və ya hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri kobud şəkildə pozulur.

2. Təhlil edilən cinayətin **obyekti** dövlət və yerli özünüidarə xidmətinin normal həyata keçirilməsini təmin edən ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində fiziki və ya hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri çıxış edir.

3. Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə **obyektiv cəhətdən** bir-birilə qarşılıqlı əlaqədə olan üç əlamətlə xarakterizə olunur:

1) özbaşına olaraq özünü vəzifəli şəxs kimi təqdim etməklə və ya vəzifəli şəxsin səlahiyyətlərini mənimsəməklə törədilən hərəkətlər;

2) bunun nəticəsində fiziki və ya hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə pozulmasında ifadə olunan ictimai təhlükəli nəticənin baş verməsi;

3) törədilmiş hərəkətlərlə baş vermiş ictimai təhlükəli nəticə arasında səbəbli əlaqənin olması.

4. **Özünü vəzifəli şəxs kimi təqdim etmə** dedikdə şəxsin özünü başqalarına əslində malik olmadığı səlahiyyətlərin daşıyıcısı kimi təqdim etməsi başa düşülməlidir.

Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmənin mahiyyəti ondan ibarətdir ki, təqsirkar hər hansı bir vəzifəyə daimi və ya müvəqqəti təyin edilmənin (seçilmənin) qaydalarını pozmaqla və ya xüsusi səlahiyyətlər üçün nəzərdə tutulmuş rəsmiləşdirmə olmadan hakimiyyət nümayəndəsi funksiyasının həyata keçirilməsi üzrə, yaxud təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyasının yerinə yetirilməsi üzrə hüquq və vəzifələri qanunsuz olaraq öz üzərinə götürür.

Əməlin təhlil edilən maddə üzrə tövsif edilməsi üçün təqsirkar öz kriminal hərəkətlərini məhz qanunsuz olaraq öz adına uydurduğu və ya mənimsədiyi səlahiyyətlərdən çıxış edərək törətməlidir. Şəxsin belə hərəkətlərinə ictimai həyatın ən müxtəlif sahələrində (nəzarət orqanın əməkdaşı kimi, təhqiqat, istintaq orqanının, gömrük xidmətinin işçisi kimi və s.) rast gəlinə bilər.

5. Təhlil edilən cinayətin obyektiv cəhətini təşkil edən hərəkət fiziki və ya hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini əhəmiyyətli dərəcədə pozduqda **başa çatmış** cinayət hesab ediləcəkdir.

Burada fiziki və ya hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin **əhəmiyyətli dərəcədə pozulması** qiymətləndirilən anlayışdır. Belə pozulmaya fiziki və ya hüquqi şəxslərə əmlak xarakterli ziyan vurulması, vətəndaşların müxtəlif hüquq və azadlıqlarının pozulması (məsələn, şəxsin işdən çıxarılması, onun təhsil aldığı müəssisədən qovulması və s.), fiziki və ya hüquqi şəxslərin işgüzar nüfuzunun ləkələnməsi və s. aid edilə bilər.

Təqsirkarın hərəkətləri ayrılıqda cinayət hesab edilən nəticəyə səbəb olduqda (məsələn, sağlamlığa zərər vurulduqda, əmlak məhv edildikdə və s.) əməl cinayətlərin məcmusu qaydasında tövsif ediləcəkdir.

Hər bir halda baş vermiş pozuntu ilə törədilmiş əməl arasında **səbəbli əlaqə** olmalıdır.

6. Şərh edilən cinayət **subyektiv cəhətdən** təqsirin **qəsd** forması ilə edilir. Təqsirkar özünü özbaşına vəzifəli şəxs kimi təqdim etməklə və ya qanunsuz olaraq vəzifəli şəxsin səlahiyyətlərini mənimsəməklə ictimai təhlükəli hərəkət etdiyini dərk edir, bunun nəticəsində fiziki və ya hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə pozulacağını qabaqcadan görür və bunun baş verməsini arzu edir **(birbaşa qəsd)** və ya belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir **(dolayı qəsd).**

7. CM-in 310-cu maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti 16** yaşına çatmış istənilən şəxs, o cümlədən vəzifəli şəxs olmayan dövlət və bələdiyyə qulluqçuları ola bilər.

Şərh edilən cinayət tərkibinə daxil olan hərəkətlər vəzifəli şəxs tərəfindən törədildikdə, əməl CM-in 310-cu deyil, 309-cu maddəsi ilə tövsif ediləcəkdir.

Maddə 311. Rüşvət alma (passiv rüşvətxorluq)

311.1. Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemeti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.2. Vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.3. Bu Məcəllənin 311.1 və ya 311.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər:

311.3.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya müteşəkkil dəstə tərəfindən;

311.3.2. təkrar törədildikdə;

311.3.3. külli miqdarda törədildikdə;

311.3.4. hədə-qorxu tətbiq olunmaqla törədildikdə —

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu məcəllənin 311.3.3-cü maddəsində «külli miqdar» dedikdə beş min manatdan artıq olan məbləğ başa düşülür *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 24 iyun 2011-ci il və 7 mart 2012-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il; 2 avqust 2011-ci il; 16 mart 2012-ci il).*

1. Rüşvət alma (passiv rüşvətxorluq) korrupsiyanın ən geniş yayılmış və təhlükəli təzahür formalarından biridir. Bu cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, rüşvət alma hakimiyyətin və dövlət idarəçiliyinin əsaslarını sarsıdır, dövlət orqanlarını əhali arasında hörmətdən və nüfuzdan salır, vətəndaşların hüquq və mənafelərinin, mühüm sosial prinsiplər olan ədalətliliyin və bərabərliyin pozulmasına səbəb olur.

Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinə görə cinayət məsuliyyətini müəyyən edən normanın yeni dispozisiyası «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli Qanununun 9.2.1-ci maddəsində, habelə Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə 31 oktyabr 2003-cü il tarixli Konvensiyasının 15-ci maddəsində nəzərdə tutulmuşdur.

2. Şərh olunan cinayətin **obyekti** dövlət hakimiyyətinin, dövlət qulluğunun, yerli özünüidarə orqanlarında, habelə kommersiya və ya qeyri-kommersiya təşkilatlarında qulluğun normal həyata keçirilməsini təmin edən ictimai münasibətlərdir.

3. Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin **predmetini** maddi və sair nemətlər, imtiyaz və ya güzəşt təşkil edir.

Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin predmeti kimi **maddi və sair nemətlərə** pul, əmlak (daşınar və daşınmaz əmlak, bölünər və bölünməz, əvəzedilməz və əvəzedilən əşyalar, istehlak edilə bilən və bilməyən əşyalar və s.), əmlak xarakterli mənfəət, daşınar və ya daşınmaz əşyalarda və ya hüquqlarda ifadə edilən istənilən aktivlər, habelə belə aktivlərə mülkiyyət hüququnu və ya onlarla bağlı marağı təsdiq edən hüquqi sənədlər, qiymətli kağızlar, başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar (qeyri-maddi əmlak nemətləri), müxtəlif xarakterli işlərin görülməsi və ya xidmətlərin göstərilməsi və s. aiddir.

Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin predmeti qismində **pul** dedikdə cinayətin törədildiyi vaxt tədavüldə olan həm Azərbaycan Respublikasının, həm də xarici dövlətlərin kağız və metal pul nişanları pul nişanları başa düşülür.

MM-in 135.2-ci maddəsinə əsasən **əmlak** istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur. **Əşyalara** yalnız fiziki obyektlər deyil, habelə pul və qiymətli kağızlar da aiddir (MM-in 135.1-ci maddəsi).

Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin predmetini **pulla** yanaşı, digər qiymətli kağızlar da təşkil edir. **Qiymətli kağız** onun mülkiyyətçisi və emitenti arasında müqavilə münasibətlərinin mövcudluğunu və mülkiyyətçinin həmin müqavilədən irəli gələn hüquqlarını təsdiqləyən sənəddir (MM-in 987.1-ci maddəsi). Qiymətli kağızlara Qiymətli kağızlara istiqraz, səhm, veksel, depozitar qəbzi, investisiya fond payı, girov kağızı, ipoteka kağızı və daşınmaz əmlak sertifikatı aiddir (MM-in 997.1-ci maddəsi).

Müəyyən dəyərə malik olan istənilən maddi qiymətli şeylər, o cümlədən borc öhdəliyi şəklində xarici valyutada ifadə olunmuş valyuta sərvətləri, qiymətli metallar (zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla, hər hansı növdə və halda olan qızıl, gümüş, platin və platin qrupundan olan metallar (palladium, iridium, rodium, rutenium və osmium), xam

və emal edilmiş (zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla) təbii daş-qaş (almaz, yaqut, zümrüd, sapfir, aleksandrit, mirvari) («Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli Qanununun 1-ci maddəsi) da rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin predmeti qismində əmlak hesab edilir.

Rüşvət almanın predmeti kimi **əmlak xarakterli mənfəət** rüşvət alana əvəzsiz olaraq maddi fayda ən müxtəlif xidmətlərin — avtomaşınların əsaslı təmirindən tutmuş bağ evlərinin tikilməsinədək — xidmətlərin göstərilməsində ifadə oluna bilər.

Əmlak xarakterli xidmətlər dedikdə sanatoriya və ya turist putyovkalarının, nəqliyyatda gediş-gəliş biletlərinin verilməsi, vəzifəli şəxsin əyləncələrinin və xərclərinin ödənilməsi, rüşvət alanın xeyrinə tikinti, təmir və başqa işlərin görülməsi və s. başa düşülməlidir.

Təhlil olunan cinayət işləri üzrə məhkəmə təcrübəsində rüşvətin çox mürəkkəb formalarına rast gəlinir. Belə ki, bu cinayət törədilərkən bəzən hiyləgər, pərdələnmiş üsullardan istifadə olunur. Buraya əslində mövcud olmayan borcun «qaytarılması», bahalı şeylərin çox ucuz qiymətə «satılması» (vəzifəli şəxsə), saxta əmək sazişi bağlamaqla rüşvət alana pul verilməsi, guya görülmüş işə görə vəzifəli şəxsin qohumlarına və digər şəxslərə pul verilməsi və s. bu kimi rüşvət formalarını aid etmək olar.

İmtiyaz dedikdə hər hansı bir hüququn əldə edilməsi və ya xidmətdən, işdən istifadə edilməsi üzrə üstünlüklər, başqa şəxslərdən fərqləndirmə başa düşülür. Təhlil edilən normanın tələblərinə uyğun olaraq imtiyaza təqsirkar şəxsə növbədənkənar xidmətlərin göstərilməsini, bəzi xidmətlərdən pulsuz istifadə hüququnun verilməsini, ona dövlətin və ya hər hansı bir təşkilatın hesabına xidməti avtomobil, yaşayış sahəsi, müxtəlif təltiflər verilməsi və s. misal göstərilə bilər.

Güzəşt dedikdə şəxsin hər hansı vəzifədən və ya öhdəlikdən tam və ya qismən azad edilməsi başa düşülməlidir. Güzəşt satılan malın, göstərilən xidmətin, görülən işin qiymətinin aşağı salınmasında, müəyyən borcu ödəməkdən azad etməkdə, müxtəlif hüquqların əldə edilməsinin sadələşdirilməsində və s. ifadə oluna bilər.

4. Şərh olunan cinayət **obyektiv cəhətdən** aşağıdakı əməllərin törədilməsi ilə xarakterizə olunur:

1) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemәti, imtiyazı və ya güzəşti istəməsi;

2) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemәti, imtiyazı və ya güzəşti alması;

3) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi

və sair nemət, imtiyaz və ya güzəşt barədə təklifi və ya vədi qəbul etməsi.

5. Təhlil edilən cinayətin obyektiv cəhətinə daxil olan əməl kimi **rüşvət alma** dedikdə vəzifəli şəxsin rüşvət verənin və ya onun təmsil etdiyi şəxsin xeyrinə göstərdiyi «xidmət» müqabilində ona verilən pulu, qiymətli kağızı, əmlakı və ya əmlak mənfəətini istəməsindən, almasından və ya maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə təklifi və ya vədi qəbul etməsindən ibarət hərəkətlər başa düşülür.

6. Rüşvət vəzifəli şəxsin vəzifə səlahiyyətlərinə daxil olan, yaxud xidmət üzrə ümumi himayədarlığa və ya laqeydliyə görə verilir.

Burada vəzifəli şəxsin **xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkət (hərəkətsizlik)** dedikdə qanunla və ya əmək müqaviləsinə əsasən vəzifəli şəxsə həvalə edilmiş səlahiyyətlərin icrası ilə əlaqədar edilən hərəkət və ya hərəkətsizlik başa düşülməlidir. Rüşvət verənin xeyrinə edilməli olan hərəkət (hərəkətsizlik) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) çərçivəsindən kənara çıxdıqda, lakin onun **öz qulluq mövqeyinə görə** belə hərəkətin (hərəkətsizliyin) icrasına **yardım edə bildiyi hallarda** (vəzifəli şəxsin öz qulluq mövqeyinə görə rüşvət verənin xeyrinə həmin işləri başqa vəzifəli şəxslərin hesabına yerinə yetirmək üçün tədbirlər görə bildiyi hallarda) həmin vəzifəli şəxsin əməli CM-in 312-1-ci maddəsi ilə, yəni vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) kimi tövsif edilməlidir. CM-ə 312-1-ci maddə əlavə edilənədək belə vəzifəli şəxslərin əməlləri rüşvət alma cinayəti kimi CM-in 311-ci maddəsi ilə tövsif edilirdi. Belə şəxslərə vəzifəli şəxslərin köməkçiləri, katibləri, hakimiyyət orqanlarında yüksək mövqeyə malik qulluqçular və s. şəxslər aid edilə bilər.

7. Rüşvət, bir qayda olaraq, rüşvət verənin və ya onun təmsil etdiyi şəxsin xeyrinə konkret hərəkətin (hərəkətsizliyin) edilməsinə görə verilir. Lakin təhlil edilən maddədə **xidmət üzrə ümumi himayədarlığa və ya laqeydliyə** görə də vəzifəli şəxsə pul, qiymətli kağız və s. vermə rüşvət alma hesab edilmişdir. Rüşvətin bu növünə daha çox tabeçilik münasibətlərində olan şəxslər arasında (məsələn, tabeliyində olan şəxsin öz rəisinə vaxtaşırı «hesab» şəklində pul verməsi), müxtəlif nəzarət orqanlarının fəaliyyətində (məsələn, «dəyib-dolaşmamaq üçün» vergi müfəttişinə rüşvət verilməsi) rast gəlinir.

Cinayət Məcəlləsinin 311.1-ci maddəsində vəzifəli şəxsin yalnız xidmət üzrə ümumi himayədarlığa görə rüşvət ala biləcəyi nəzərdə tutulur. Xidmət üzrə ümumi himayədarlıq iki halda rüşvət alma cinayətinin tərkibini yarada bilər: 1) yuxarı vəzifəli şəxsin onun tabeliyində olan, yaxud onun nəzarət etdiyi sahədə xidmət edən şəxsi mükafatlandırması, müdafiə etməsi, xidmətinə əlverişli şərait yaratması müqabilində rüşvət aldığı hallarda; 2) rüşvət verən şəxsin birbaşa xidməti asılılıqda olmadığı, lakin onun vəzifəli şəxsin hakimiyyət səlahiyyətlərinin aid olduğu sahədə xidmət etdiyi hallarda lazımi məqamda vəzifəli şəxsin onu müdafiə edəcəyini düşünərək rüşvət verdiyi hallarda. CM-in 311.1-ci madəsinə görə bütün hallarda cinayət məsuliyyətinin yaranması üçün rüşvət xidməti münasibətlərdən irəli gələrək verilməlidir.

Cinayət Məcəlləsinin 311.1-ci maddəsində vəzifəli şəxsin yalnız xidmət üzrə laqeydliyə görə rüşvət ala biləcəyi nəzərdə tutulur. Yəni aralarında xidməti

münasibətlər (xidməti asılılıq) olan şəxslərin birinin digərinə laqeydlik göstərməsi müqabilində ondan rüşvət alması hallarında CM-in 311-ci maddəsi ilə cinayət məsuliyyəti yarana bilər.

8. Vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemətı, imtiyazı və ya güzəşti **istəməsi** dedikdə vəzifəli şəxsin özü, yaxud onu təmsil edən hər hansı başqa şəxs tərəfindən maddi və sair nemətin, imtiyazın və ya güzəştin alınmasında ifadə olunan arzusunun bildirilməsi başa düşülməlidir. Vəzifəli şəxsin maddi və sair nemətin, imtiyazın və ya güzəştin alınmasında ifadə olunan arzusu hər hansı formada (şifahi və ya yazılı) və hər hansı üsulla (telefonla, internetlə, vərəq üzərində qeyd etməklə, xəbər göndərməklə və s.) bildirilə bilər.

«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli Qanununun 8.1-ci maddəsinə görə vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri bütün hallarda özü və ya digər şəxslər üçün **tələb edə** və ya **qəbul edə bilməz**. Lakin nəzərə almaq lazımdır ki, həmin Qanunun 8.2-ci maddəsinə görə vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni **qəbul edə bilməz**. Həmin məbləğdən yuxarı olan hədiyyələr şəxsin xidməti vəzifəsini həyata keçirdiyi dövlət orqanına və ya yerli özünüidarəetmə orqanına məxsus hesab edilir. Bu o deməkdir ki, vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olmayan bir və ya bir neçə hədiyyəni (kiçik hədiyyəni) və ya sadə qonaqpərvərlikdən istifadəni, xidməti vəzifələrinin qərəzsiz icrasına təsir etməmək şərtilə, qəbul edə bilər. Lakin diqqətdə saxlamaq lazımdır ki, vəzifəli şəxsin məbləğindən və dəyərindən asılı olmayaraq hədiyyələri özü və ya digər şəxslər üçün **tələb etməsi (maddi və sair nemətı, imtiyazı və ya güzəşti istəməsi)** bütün hallarda **rüşvət alma** kimi qiymətləndirilməlidir. Həmin Qanunun 8.5-ci maddəsində nəzərdə tutulur ki, vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda da vəzifəli şəxs onlardan imtina etməlidir. Maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsə ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsin işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir. Fiziki və hüquqi şəxslərlə mülki-hüquqi əqdlərin bağlanması və ya onların icrası zamanı vəzifəli şəxslər tərəfindən xidməti fəaliyyəti ilə əlaqədar olaraq hər hansı güzəştlərin və ya imtiyazların əldə edilməsi də **rüşvət alma** kimi qiymətləndirilməlidir.

Vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və

sair nemətı, imtiyazı və ya güzəşti **alması** dedikdə vəzifəli şəxsin özü, yaxud onu təmsil edən hər hansı başqa şəxs tərəfindən maddi və sair nemətin, imtiyazın və ya güzəştin əldə edilməsi, əmlaka sahiblik edilməyə başlanılması, imtiyazın və ya güzəştin verildiyini təsdiq edən sənədin (aktın) alınması, imtiyazdan və ya güzəştdən faktiki istifadə edilməsi və s. başa düşülür.

Vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə **təklif** və ya **vədi qəbul etməsi** dedikdə maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə təklifə və ya vədə yazılı, şifahi formada, susmaqla razılıq bildirmə (razılığın hər hansı məzmunda ifadə edilməsindən asılı olmayaraq) başa düşülür. Təklifin və ya vədin hər hansı formada və ya üsulla vəzifəli şəxsə çatdırılmasının əmələn tövsifinə təsiri yoxdur.

9. Təhlil olunan maddədə rüşvət alma cinayətinin törədilməsinin aşağıdakı **üsulları** göstərilmişdir: 1) birbaşa və ya dolayı yolla; 2) şəxsən və ya vasitəçidən istifadə etməklə.

10. Rüşvət vəzifəli şəxs tərəfindən həm şəxsən (rüşvətin predmeti bilavasitə vəzifəli şəxsin özünə təqdim edilir), həm də vasitəçinin (istənilən üçüncü şəxsin) köməyi ilə alına bilər. Bu zaman vasitəçi cinayət məsuliyyətinə cəlb edilə bilən (16 yaşına çatmış və anlaqlı) şəxs olduqda və o, rüşvət almada vasitəçilik etdiyini dərk etdikdə, onun əməli rüşvət almada **köməkçilik** kimi (CM-in 32.5-ci və 311-ci maddələri) tövsif ediləcəkdir. Vasitəçi qismində rüşvət alanın razılığı ilə onun ailə üzvü, onun yaxın dostu da çıxış edə bilər, maliyyə vəsaitləri isə bilavasitə rüşvət alanın hesabına da köçürülə bilər.

11. Rüşvət almaya görə məsuliyyət rüşvətin vəzifəli şəxs tərəfindən nə vaxt (müəyyən hərəkətin edilməsindən, yaxud hərəkətsizlikdən əvvəl və ya sonra) alınmasından, əvvəlcədən şərtləşdirilib-şərtləşdirilməməsindən, nəticə olaraq rüşvət verənin mənafeyi üçün hər hansı hərəkətin edilib-edilməməsindən, müəyyən hərəkətin edilməsindən imtina olunub-olunmamasından asılı olmayaraq yaranacaqdır.

Rüşvətxorluq haqqında işlər üzrə SSRİ Ali Məhkəməsi Plenumunun 30 mart 1990-cı il 3 saylı Qərarının 5-ci bəndində deyilir ki, təqsirkarın əməli o hallarda rüşvət alma və ya rüşvət vermə kimi qəbul ediləcəkdir ki, rüşvətin alınması və xidmətin göstərilməsi şərtləri barədə xüsusi razılaşdırılma əvvəlcədən olmasa da, cinayətin iştirakçıları dərk edirlər ki, rüşvət rüşvət verənin mənafeyinin təmini məqsədi ilə verilir.

12. Rüşvət alma **formal tərkibli** cinayətdir. Bu cinayət alınan rüşvət müqabilində müəyyən işin görülüb-görülməməsindən, həmin işi görməyə hazırlığın olub-olmamasından asılı olmayaraq maddi və sair nemətin, imtiyazın və ya güzəştin bütövlükdə, yaxud bir hissəsinin istənildiyi, alındığı və ya bu barədə təklifin və ya vədin qəbul edildiyi andan **başa çatmış** hesab edilir. Rüşvətin təklif və ya vəd edilməsinə baxmayaraq vəzifəli şəxs həmin təklifi və ya vədi qəbul etməkdən imtina edərsə, onda əməl rüşvət verməyə cəhd kimi tövsif edilməlidir (CM-in 29-cu və 312-ci maddələri).

Vəzifəli şəxs, yaxud kommersiya və ya başqa təşkilatlarda idarəetmə funksiyalarını yerinə yetirən şəxs tərəfindən vəzifə səlahiyyətlərinin olmaması və ya qulluq mövqeyindən istifadə etmənin qeyri-mümkünlüyünə baxmayaraq müəyyən hərəkətin (hərəkətsizliyin) guya yerinə yetirilməsinə görə pul, qiymətli kağızlar və digər maddi qiymətli şeylər alma, qeyd edilən şeyləri əldə etmə (mənimsəmə) qəsdi mövcud olduqda, CM-in 178-ci maddəsi üzrə dələduzluq kimi tövsif edilməlidir. Belə hallarda şeylərin sahibi, əgər özü üçün arzu etdiyi hərəkətin (hərəkətsizliyin) həmin şəxs tərəfindən yerinə yetirilməsi məqsədini güdərsə, onun əməli rüşvət verməyə cəhd kimi tövsif edilməlidir.

Əgər şəxs guya ki, vəzifəli şəxsə və ya kommersiya, yaxud başqa təşkilatda idarəetmə funksiyalarını yerinə yetirən şəxsə vermək üçün hər hansı şəxsdən rüşvət vermə adı altında pul və ya digər qiymətli şeylər alarsa, lakin bunu etmə niyyəti olmadan həmin şeyləri mənimsəyərsə, onun əməli dələduzluq kimi tövsif edilməlidir. Məsələn, vəkil təqsirləndirilən şəxsdən hakimə rüşvət vermək adı altında pul aldıqdan sonra onu hakimə vermir və mənimsəyir. Belə hallarda pulun və ya qiymətli şeylərin sahibinin əməli rüşvət verməyə cəhd kimi tövsif olunmalıdır.

Əgər pul, digər qiymətli şeylər şəklində əmlak mənfəəti vəzifəli şəxsin razılığı ilə və ya onun etiraz etmədiyi hallarda vəzifəli şəxsin qohumlarına və yaxınlarına verilərsə və o, rüşvət verənin xeyrinə qulluq mövqeyindən istifadə edərsə, vəzifəli şəxsin əməli rüşvət alma kimi tövsif olunmalıdır.

Vəzifəli şəxs rüşvəti (maddi və sair nemәti, imtiyazı və ya güzəşti), yaxud bu barədə təklifi və ya vədi qəbul etməkdən imtina edərsə, təqsirkarın əməli rüşvət verməyə cəhdə görə tövsif olunmalıdır.

13. Rüşvət alma **subyektiv cəhətdən birbaşa qəsdlə** edilir. Təqsirkar rüşvət aldığını dərk edir və bunu arzu edir.

14. Bu cinayətin **subyekti** yalnız vəzifəli şəxslər ola bilər. **Vəzifəli şəxsin** anlayışı CM-in 308-ci maddəsinin şərhində verilmişdir.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in 311-ci maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

15. CM-in 311.2-ci maddəsində rüşvət almanın **ağırlaşdırıcı tərkib əlaməti** — vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, vəzifəli şəxsin rüşvət verənin mənafeyi üçün etdiyi hərəkət (hərəkətsizlik) qanuni (başqa sözlə, vəzifəli şəxsin adi halda yerinə yetirməli olduğu işə), həm də qanunsuz ola bilər. Burada **qanunsuz hərəkət (hərəkətsizlik)** dedikdə vəzifəli şəxsin öz qulluq səlahiyyətlərinə aid olmayan və ya xeyrinə iş görülən şəxs barəsində edilə bilməyən, yaxud ümumiyyətlə, qanunvericiliyə zidd olan fəaliyyəti nəzərdə tutulur.

Bir sıra hallarda belə qanunsuz hərəkət (hərəkətsizlik) müstəqil cinayət tərkibi yarada bilər (məsələn, vəzifəli şəxs rüşvət almaqla rüşvət verən şəxsə saxta sənəd verir). Bu zaman rüşvət alanın əməli cinayətlərin məcmusu qaydasında tövsif ediləcəkdir (göstərilən halda — CM-in 311.2-ci və 313-cü maddələri üzrə).

16. CM-in 311.3-cü maddəsində rüşvət almanın aşağıdakı **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** müəyyən edilmişdir: 1) CM-in 311.1-ci və 311.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs və ya müteşəkkil dəstə tərəfindən törədilməsi; 2) həmin əməllərin təkrar törədilməsi; 3) həmin əməllərin külli miqdarda törədilməsi; 4) həmin əməllərin hədə-qorxu tətbiq olunmaqla törədilməsi.

17. **Qabaqcadan əlbir olan bir qrup şəxs** və **müteşəkkil dəstə** tərəfindən cinayətin törədilməsinin anlayışları CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

Təhlil olunan cinayət yalnız xüsusi subyekt tərəfindən törədildiyindən həmin qrupların ən azı iki üzvü vəzifəli şəxs olmalıdır. Həmin iki vəzifəli şəxsdən birinin rüşvət aldığı andan qeyd olunan əlamət üzrə cinayət başa çatmış hesab ediləcəkdir. Həmin qrupa daxil olan, lakin vəzifəli olmayan şəxslər rüşvət almada iştirakçılığa görə məsuliyyət daşıyacaqlar (CM-in 32-ci və 311.3.1-ci maddələri).

18. Şərh olunan cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** kimi **təkrarlıq** o halda mövcud olacaqdır ki, əvvəl törədilmiş rüşvət almaya görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş, habelə cinayəti törətmiş şəxs cinayət məsuliyyətindən azad edilməmiş olsun. Vəzifəli şəxsin bir neçə şəxsdən onların hər birinin mənafeyi üçün müəyyən işləri görməkdən ötrü rüşvət alması təkrarlıq yaradır. Bu zaman onların mənafeyi üçün görülən işlər öz faktiki məzmununa görə eyni ola bilər (məsələn, təqsirləndirilən şəxslərə azadlıqdan məhrumetmə növündə cəza verməmək üçün onlardan rüşvət alma). Əgər vəzifəli şəxs birlikdə müraciət etmiş bir neçə rüşvət verən şəxs üçün ümumi olan bir hərəkət edirsə (məsələn, bir neçə şəxs üçün telefon çəkilməsi), onda burada təkrarlıq yaranmayacaqdır.

CM-in 311-ci maddəsində göstərilən cinayəti törətmiş şəxs məhkum edildikdə, lakin məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən həmin cinayəti törətdikdə, bu, cinayətin residivi sayılır.

Ümumiyyətlə, təqsirkarın hərəkətləri aşağıdakı hallarda təkrarlıq yaradacaqdır:

1) müxtəlif vaxtlarda müxtəlif şəxslər üçün müxtəlif hərəkətlərin edilməsi;

2) müxtəlif vaxtlarda müxtəlif şəxslərin mənafeyinə eyni hərəkətin edilməsi;

3) eyni vaxtda müxtəlif şəxslərin mənafeyi üçün ayrı-ayrı hərəkətlərin edilməsi;

4) müxtəlif vaxtlarda eyni bir şəxsin mənafeyi üçün ayrı-ayrı hərəkətlərin edilməsi və s.

Əvvəl razılaşdırılmış məbləğin artırılması ilə əlavə rüşvətin alınması təkrarlıq yaratmır, çünki əlavə məbləğ də rüşvət verənin mənafeyi üçün edilən eyni hərəkətə görə alınır.

19. Rüşvət alma o halda **külli miqdarda** törədilmiş sayılacaqdır ki, alınmış pulun məbləği, qiymətli kağızların, əmlakın və ya əmlak xarakterli digər mənfəətin dəyəri **5000** manatdan artıq olsun (CM-in 311-ci maddəsinin qeydi).

20. Rüşvətin **hədə-qorxu tətbiq edilməklə** alınması dedikdə rüşvət verən

şəxsin elə bir vəziyyətə salınması başa düşülür ki, o, mənafelərini zərərli nəticələrdən qorumaq üçün rüşvət verməyə məcbur olur.

Burada **hədə-qorxu** rüşvət verən şəxsə tətbiq olunan istənilən psixi təsiri ehtiva edir (məsələn, işdən azad etməklə, əmlak ziyanı vurmaqla, barəsində rüsvayedici məlumatlar yaymaqla hədələmə və s.).

Maddə 312. Rüşvət vermə (aktiv rüşvətxorluq)

312.1. Rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi —

beş min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

312.2. Vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə —

səkkiz min manatdan on iki min manatadək miqdarda cərimə və ya dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Rüşvət verən şəxs vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə cinayət məsuliyyətindən azad edilir *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 24 iyun 2011-ci il, 7 mart 2012-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il; 2 avqust 2011-ci il; 16 mart 2012-ci il; 19 iyul 2017-ci il).*

1. Rüşvət vermə (aktiv rüşvətxorluq) də rüşvət alma (passiv rüşvətxorluq) kimi korrupsiya cinayətləri sırasına aid olan geniş yayılmış cinayətlərdən biridir.

2. Rüşvət vermənin **ictimai təhlükəliliyi** onda ifadə olunur ki, bu əməlin törədilməsi ilə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət orqanlarında, yerli özünüidarə orqanlarında, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən vəzifəli şəxslərin korrupsiyaya qurşanmasına münbit zəmin yaradılır, vətəndaşlar arasında qanun çərçivəsindən kənara çıxan davranışa yol verməyin mümkünlüyünə meyl yaranır, insanların qanun və dövlət hakimiyyəti qarşısında bərabərliyi və sosial ədalət prinsipləri ciddi surətdə pozulur.

3. Şərh olunan cinayətin **obyekti** və **predmeti** rüşvət almanın analoji tərkib əlamətləri ilə üst-üstə düşür (CM-in 311-ci maddəsinin şərhinə bax).

4. **Obyektiv cəhətdən** bu cinayət xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə, onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunmasında, vəd edilməsində və ya verilməsində ifadə olunur.

Şərh olunan maddə rüşvətin iki kateqoriya əməlin vəzifəli şəxs tərəfindən törədilməsi müqabilində verilməsini nəzərdə tutur:

- vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi müqabilində rüşvət (maddi və sair nemət, imtiyaz və ya güzəşt) təklif etmə, vəd etmə və ya vermə;
- vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hərəkətin edilməsindən imtina olunması müqabilində rüşvət (maddi və sair nemət, imtiyaz və ya güzəşt) təklif etmə, vəd etmə və ya vermə.

Vəzifəli şəxsə rüşvət (maddi və sair nemət, imtiyaz və ya güzəşt) təklif və ya vəd etmə bu haqda yazılı və ya şifahi bildirməklə və istənilən üsulla (poçtla, internetlə, faksla, telefonla, habelə maddi və sair nemeti birbaşa nümayiş etdirməklə və s.) həyata keçirilə bilər.

5. Rüşvət vermə (aktiv rüşvətxorluq) **formal** tərkibli cinayətdir. Rüşvət vermə rüşvətin (maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin) heç olmazsa bir hissəsinin təklif olunduğu, vəd edildiyi, verildiyi və vəzifəli şəxsin təklifi və ya vədi qəbul etdiyi (buna razılıq verdiyi), yaxud rüşvətin heç olmazsa bir hissəsini aldığı (qəbul etdiyi) andan **başa çatmış** hesab edilir. Buna görə də rüşvətin (maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin) vəzifəli şəxsə təklif edilməsi, vəd edilməsi müqabilində vəzifəli şəxs həmin təklif və ya vədə razılıq bildirmədikdə, yaxud təklifi və ya vədi rədd etdikdə, əməl rüşvət verməyə cəhd kimi (CM-in 29-cu və 312-ci maddələri) tövsif edilməlidir.

Vəzifəli şəxs təmsil etdiyi təşkilatının xeyrinə arzu edilən hərəkətin (hərəkətsizliyin) həyata keçirilməsinə nail olmaq üçün tabeliyində olan şəxsə digər vəzifəli şəxsə rüşvət verməyi təklif edərsə, onların əməli CM-in 312-ci maddəsi ilə tövsif edilməlidir.

6. Təhlil edilən cinayət də təqsirkar tərəfindən şəxsən və ya vasitəçidən istifadə etməklə törədilə bilər. Vasitəçi rüşvətin predmeti olan şeyi ötürdüyünü dərk etdikdə onun əməli rüşvət vermədə köməkçilik kimi (CM-in 32.5-ci və 312-ci maddələri) tövsif ediləcəkdir.

7. Rüşvət vermə **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** forması ilə xarakterizə olunur. Təqsirkar vəzifəli şəxsə rüşvət verdiyini dərk edir və bunu etməyi arzu edir.

8. Cinayətin **subyekti 16** yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

CM-in 312-ci maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

9. CM-in 312.2-ci maddəsində rüşvət vermənin **ağırlaşdırıcı tərkib əlamətləri** — vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və təkrar rüşvət vermə nəzərdə tutulmuşdur.

Qanunsuz hərəkətin (hərəkətsizliyin) anlayışı CM-in 311-ci maddəsinin şərhinin 15-ci bəndində verilmişdir. Vəzifəli şəxsin qanunsuz hərəkətlərinin xarakteri müxtəlif ola bilər (məsələn, cinayət hadisəsi yerində yaxalanan (tutu-

lan) şəxsin buraxılması üçün polis işçisinə rüşvət verilməsi). Burada başlıca şərt ondan ibarətdir ki, rüşvət verən rüşvəti vəzifəli şəxsin məhz qanunsuz hərəkətinə (hərəkətsizliyinə) görə verdiyini yəqinliklə bilməlidir.

Burada nəzərdə tutulmuş **təkrarlıq** əlamətinin məzmunu CM-in 311.3-cü maddəsindəki analoji anlayışa çox yaxındır. Sadəcə olaraq, təhlil olunan maddədə rüşvət almanın deyil, rüşvət vermənin təkrar törədilməsindən danışılır (CM-in 311-ci maddəsinin şərhinin 18-ci bəndinə bax).

10. CM-in 312-ci maddəsinin qeydinə görə, rüşvət verən iki halda **cinayət məsuliyyətindən azad edilir:**

1) rüşvət verən şəxs vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə;

2) rüşvət verən şəxs rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə.

11. Hədə-qorxu tətbiq etməklə rüşvət tələb etmə CM-in 311-ci maddəsinin şərhinin 20-ci bəndində izah edilmişdir. Belə hədə-qorxuya məruz qalmış rüşvət verən şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

12. **Könüllü məlumat vermə** dedikdə rüşvət verənin vəzifəli şəxsə rüşvət verməsi faktını öz şəxsi istəyi ilə, heç bir kənar təsir olmadan hər hansı formada müvafiq dövlət orqanına bildirməsi başa düşülür. Könüllü məlumat vermə rüşvət vermə faktı barədə müvafiq dövlət orqanlarına başqa mənbələrdən məlumat çatanadək edilməlidir və ya həmin orqanlarda bu barədə məlumat olduqdan sonra edilmiş olsa belə, könüllü xəbər verən bu faktı bilməməlidir.

Əgər şəxsdən rüşvət tələb edilmişdirsə və rüşvətin verilməsinə qədər şəxs bu haqda səlahiyyətli dövlət orqanlarına könüllü məlumat vermişdirsə, pulun, qiymətli kağızların və digər əmlakın verilməsi rüşvət vermə tələbini irəli sürən şəxsin cinayət törədən zaman tutulması məqsədilə həmin orqanların nəzarəti altında həyata keçirildikdə, pul və qiymətli şeylər müsadirə edilə bilməz. Belə hallarda rüşvətin predmeti olan pul, qiymətli şeylər və s. onun sahibinə qaytarılmalıdır.

Əgər şəxsdən rüşvət tələb edilmişdirsə və həmin rüşvətin verilməsinə qədər şəxs bu haqda müvafiq dövlət orqanına (**«müvafiq dövlət orqanı»** dedikdə cinayət təqibi başlamaq hüququ olan orqan başa düşülür) könüllü məlumat vermişdirsə, pulun, qiymətli kağızların və digər əmlakın verilməsi rüşvət vermə tələbini irəli sürən şəxsin cinayət törədən zaman tutulması məqsədilə həmin orqanların nəzarəti altında həyata keçirildikdə, pul və qiymətli şeylər dövlətin xeyrinə keçirilə bilməz. Belə hallarda rüşvətin predmeti olan pul, qiymətli şeylər və s. onların sahibinə qaytarılmalıdır.

Barəsində hədə-qorxu gəlinən şəxsə pul və digər qiymətli şeylərin qaytarılmasının mümkünlüyü məsələsini həll edərkən şəxsin hədə-qorxu gələn şəxsə rüşvət verməklə özü üçün zərərli nəticələrin qarşısını almaq niyyəti nəzərə alınmalıdır. Belə hallarda pul və qiymətli şeylər onların sahibinə qaytarılmalıdır.

Maddə 312-1. Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)

312-1.1. Şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi —

altı min manatdan on min manatadək miqdarda cərimə və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

312-1.2. Şəxsə öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunması, vəd edilməsi və ya verilməsi —

dörd min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il, 24 iyun 2011-ci il, 7 mart 2012-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə düzəlişlər edilmişdir - «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il; 2 avqust 2011-ci il; 16 mart 2012-ci il; 19 iyul 2017-ci il).

1. CM-in şərh edilən maddəsində obyekti və subyektiv cəhəti əsasən eyni olan iki müstəqil cinayət tərkibi verilmişdir. Korrupsiya ilə mübarizəyə dair beynəlxalq-hüquqi aktlarda «nüfuz alveri» adlanan bu cinayətlərin hər ikisi korrupsiya ilə əlaqədar hüquqpozmalar qrupuna daxildir («Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli, 580-IIQ saylı Qanununun 9.2.6-cı və 9.2.7-ci maddələri).

Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli, 1003-IIQ saylı Qanunu ilə ratifikasiya edilmiş Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının (BMT Baş Məclisinin 31 oktyabr 2003-cü il tarixli, 57/169 saylı Qətnaməsi ilə təsdiq olunmuşdur) 18-ci maddəsində nüfuz alverinin hər iki formasının (nüfuzu almanın və nüfuzu satmanın) anlayışı verilmiş və Konvensiyanın iştirakçısı olan dövlətlər üzərinə bu əməllərin cinayət hesab edilməsi üzrə qanunvericilik və başqa tədbirlər görmək öhdəliyi qoyulmuşdur.

Azərbaycan Respublikasının 30 dekabr 2003-cü il tarixli, 570-IIQ saylı Qanunu ilə ratifikasiya edilmiş «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» Avropa Şurası Konvensiyasının (27 yanvar 1999-cu il tarixdə Strasburqda qəbul edilmişdir) isə «Nüfuz alveri» adlanan 12-ci maddəsində deyilir: «Hər bir Tərəf, 2, 4-6 və 9-11-ci maddələrdə adı çəkilən hər hansı bir şəxs tərəfindən qərarın qəbul edilməsinə qeyri-qanuni nüfuz edə biləcəyini bəyan edən və ya təsdiq edən istənilən şəxsə, ediləcək nüfuz müqabilində, onun özünə və ya hər hansı bir digər şəxsə təqdim edilib-edilməməsindən asılı olmayaraq, hər hansı bir qeyri-qanuni üstünlüyün birbaşa və ya dolayı vəd edilməsini, təklif edilməsini və ya təqdim edilməsini, habelə bu cür nüfuzun edilib-edilməməsindən və güman olunan edilmiş nüfuz nəticəsində arzu olunan nəticənin alınıb-alınmamasından asılı olmayaraq, ediləcək nüfuz müqabilində, bu cür üstünlüyün istənilməsini, alınmasını, qəbulunu və ya təklif edilməsini, öz daxili hüququna uyğun olaraq cinayət hüquqpozmaları kimi tövsif etmək üçün

lazım ola biləcək qanunvericilik və digər tədbirlər görür».

2. Öz **ictimai təhlükəliliyinə** görə rüşvət almadan və rüşvət vermədən geri qalmayan nüfuz alveri cinayətinin (CM-in 312-1-ci maddəsində təsbit olunmuş hər iki cinayət tərkibinin) **obyekti** dövlət qulluğunun, bələdiyyə qulluğunun, habelə kommersiya və qeyri-kommersiya təşkilatlarında qulluğun lazımi qaydada həyata keçirilməsini təmin edən ictimai münasibətlərdir.

3. Şərh edilən cinayətin **predmeti** qismində **maddi və sair nemətlər, imtiyaz və güzəşt** çıxış edir (CM-in 311-ci maddəsinin şərhinin 3-cü bəndinə bax).

4. CM-in 312-1.1-ci maddəsində nəzərdə tutulmuş əməl mahiyyət etibarilə **nüfuzun satılmasından** ibarətdir. Ona görə də bu cinayət tərkibinin **obyektiv cəhəti** şəxsin özünün həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir edəcəyi müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt **istəməsi** və ya **almasında,** yaxud **bu barədə təklifi** və ya **vədi qəbul etməsində** ifadə olunmuşdur.

5. Burada maddi və sair nemətin, imtiyazın və ya güzəştin **istənilməsi** dedikdə şəxsin bilavasitə və ya müxtəlif dolayı üsullara (vasitəçilərin köməyi ilə, məktubla, elektron daşıyıcılar vasitəsilə və s.) həmin maddi və ya qeyri-maddi nemətləri istəməsi, onları əldə etmək arzusunu bildirməsi başa düşülməlidir.

Maddi və sair nemətin, imtiyazın və ya güzəştin **alınması** isə təqsirkarın və ya üçüncü şəxsin (şəxslərin) həmin maddi və qeyri-maddi nemətləri faktiki olaraq əldə etməsi, onlara sahib olması, onlardan faydalanmaq imkanını əldə etməsi kimi başa düşülməlidir.

Maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə **təklifin** və ya **vədin qəbul edilməsi** dedikdə maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə təklifə və ya vədə yazılı, şifahi formada, susmaqla razılıq bildirmə (razılığın hər hansı məzmunda ifadə edilməsindən asılı olmayaraq) başa düşülür.

6. Maddi və sair nemət, imtiyaz və ya güzəşt həm təqsirkar şəxsin **özü üçün** (nüfuzunu satan üçün), həm də **üçüncü şəxs (şəxslər) üçün** birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə istənildikdə və ya alındıqda, yaxud bu barədə təklif və ya vəd qəbul edildikdə təhlil edilən cinayət tərkibi yaranır.

Burada **üçüncü şəxslər (şəxs)** dedikdə təqsirkarın ailə üzvləri, onun müxtəlif səviyyəli qohumları, dostları, onun tabe olduğu və ya onun tabeçiliyində olan şəxslər, onunla müxtəlif mülki-hüquqi münasibətlərdə olan şəxslər (məsələn, borc aldığı şəxs), hətta bəzən qeyri-müəyyən dairədən olan şəxslər başa düşülə bilər. Qeyri-müəyyən dairədən olan şəxslərin xeyrinə maddi və sair nemətin, imtiyaz və ya güzəştin istənilməsi və ya alınması o halda bu cinayət tərkibini yarada bilər ki, qeyri-məhdud dairədən olan şəxslərə istənilən və ya alınan maddi və ya qeyri-maddi nemətin həmin şəxslərə verilməsi nüfuzunu satan şəxsin vəzifə və ya sair xarakterli borcu olsun (məsələn, təqsirkarın məsul olduğu hər hansı ictimai xarakterli işin yerinə yetirilməsinin – yol tikilməsinin, su çəkilməsinin, abadlıq işləri görülməsinin istənilməsi və s.).

Hər bir halda xeyrinə maddi və sair nemətlər, imtiyaz və ya güzəşt istənilən

və ya alınan üçüncü şəxslərlə təqsirkar şəxsin münasibətlərinin olduğu sübut edilməlidir.

7. CM-in 312-1.2-ci maddəsində **nüfuzun alınması** cinayət əməli kimi təsbit olunmuşdur. Bu normada nəzərdə tutulmuş cinayət tərkibinin **obyektiv cəhəti** isə vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə şəxsin özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunması, vəd edilməsi və ya verilməsi qismində hərəkəti nəzərdə tutur.

Maddi və sair nemətin, imtiyazın və ya güzəştin **təklif olunması** dedikdə maddi və sair nemətin, imtiyazın və ya güzəştin həm real, həm də gələcəkdə veriləcəyini istənilən üsulla (poçtla, internetlə, faksla, telefonla, habelə maddi və sair nemət birbaşa nümayiş etdirməklə və s.) və yazılı və ya şifahi formada bildirmə başa düşülməlidir. Maddi və sair nemətin, imtiyazın və ya güzəştin **vəd edilməsi** isə maddi və sair nemətin, imtiyazın və ya güzəştin yalnız gələcəkdə veriləcəyini bildirməni ehtiva edir. Vəd etmə istənilən üsulla və formada həyata keçirilə bilər.

Maddi və sair nemətin, imtiyaz və ya güzəştin verilməsi dedikdə həmin maddi və qeyri-maddi nemətlərin bilavasitə və ya dolayı yollarla, şəxsin özü və ya üçüncü şəxslər üçün şəxsən və ya vasitəçidən istifadə etməklə nüfuz sahibinə ötürülməsi, onun adına keçirilməsi, onun həmin nemətlərdən faydalana bilməsi üçün şəraitin yaradılması başa düşülməlidir. Bu zaman əməlin CM-in 312-1.2-ci maddəsi üzrə tövsif edilməsi üçün verilən maddi və ya qeyri-maddi nemətlərin nüfuz sahibi tərəfindən qəbul edilib-edilməməsinin, onlardan faydalanmağa başlayıb-başlamamasının heç bir əhəmiyyəti yoxdur.

Üçüncü şəxslər anlayışı CM-in 312-1.1-ci maddəsində olduğu mənada başa düşülməlidir (CM-in bu maddəsinin şərhinin 6-cı bəndinə bax).

8. CM-in həm 312-1.1-ci, həm də 312-1.2-ci maddəsində nəzərdə tutulmuş cinayətlər **formal tərkiblər** vasitəsilə ifadə olunmuşdur. Ona görə də CM-in 312-1.1-ci maddəsində nəzərdə tutulmuş əməl maddi və sair nemətin, imtiyaz və ya güzəştin istənildiyi (onların verilib-verilməməsindən asılı olmayaraq) və ya alındığı (faktiki əldə olunduğu, onlardan faydalanmaq imkanının yarandığı), yaxud bu barədə təklif və ya vədin qəbul edildiyi andan, CM-in 312-1.2-ci maddəsində nəzərdə tutulmuş əməl isə həmin nemətin, imtiyaz və ya güzəştin təklif olunduğu, vəd edildiyi və ya verildiyi (onların qəbul edilib-edilməməsindən asılı olmayaraq) andan **başa çatmış cinayət** hesab ediləcəkdir.

9. Nüfuz alveri cinayətinin mövcud olması üçün rüşvət almada və rüşvət vermədə olduğu kimi istənilən və ya alınan, habelə təklif və ya vəd olaraq qəbul edilən (CM-in 312-1.1-ci maddəsi), yaxud təkif olunan, vəd edilən və ya verilən (CM-in 312-1.2-ci maddəsi) maddi və sair nemətin, imtiyaz və ya güzəştin miqdarı (dəyəri) heç bir rol oynamır. Ona görə də istənilən miqdarda (dəyərdə) maddi və sair nemətlər, imtiyaz və ya güzəşt bu cinayətin predmeti ola bilər.

10. CM-in 312-1.1-ci və 312-1.2-ci maddələrində nəzərdə tutulmuş hər iki cinayət tərkibinin **subyektiv cəhəti birbaşa qəsd** formasında təqsiri və **xüsusi məqsədi** nəzərdə tutur.

Hər iki tərkibdə xüsusi məqsəd həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək **vəzifəli şəxsin qərarına qanunsuz təsir etməkdən** ibarətdir. CM-in 312-1.1-ci maddəsinə əsasən şəxs məhz bu məqsədlə maddi və sair nemətləri, imtiyaz və ya güzəşti istədikdə və ya aldıqda, yaxud bu barədə təklifi və ya vədi qəbul etdikdə cinayət məsuliyyəti daşıyır. Belə bir məqsədin mövcudluğu təqsirkarın qərarı qəbul edəcək vəzifəli şəxslə münasibətlərinin xarakteri, ona təsir imkanının olması və başqa hallar əsasında sübut edilə bilər. Əgər təqsirkar vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədi olmadan sadəcə olaraq özünün və ya üçüncü şəxslərin ehtiyaclarını ödəmək üçün cinayətin predmeti olan maddi nemətləri əldə etmişdirsə, onda onun əməli müvafiq tərkib əlamətləri olduqda CM-in 178-ci maddəsi ilə dələduzluq kimi tövsif edilə bilər.

CM-in 312-1.1-ci maddəsində nəzərdə tutulan halda isə yuxarıda göstərilən məqsədi maddi və sair nemət, imtiyazı və ya güzəşti verən şəxs qarşısına qoymuşdur. Belə məqsəd onun nüfuz sahibindən və ya vasitəçidən etdiyi xahişdə, onun konkret qərarda maraqlı olmasında ifadə oluna bilər.

Şərh edilən cinayət tərkiblərində **vəzifəli şəxs** dedikdə CM-in 308-ci maddəsinin qeydində nəzərdə tutulmuş şəxslər başa düşülür.

11. CM-in 312-1.1-ci və 312-1.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin **subyektləri** tamamilə fərqlidir.

CM-in 312-1.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti **vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək üçün həqiqi və ya güman edilən imkanı olan şəxsdir**. Bu, vəzifəli şəxsin ailə üzvləri və başqa yaxın qohumları, qohumları, dostları, iş yoldaşları, onun tabe olduğu yuxarı vəzifəli şəxs, onun tabeçiliyində olan şəxs, vəzifəli şəxslə heç bir münasibəti olmayan, lakin ölkədə, konkret rayonda və ya yaşayış məntəqəsində nüfuz sahibi olan şəxs (ictimai xadim, seçkili orqanın üzvü, din xadimi, siyasi xadim, hakimiyyətin müxtəlif səviyyəsini təmsil edən şəxs, yerli ağsaqqal və s.), beynəlxalq təşkilatların rəhbərləri və nümayəndələri, ölkədə fəaliyyət göstərən diplomatik korpusun üzvləri (səfirlər, konsullar və s.), hətta başqa dövlətlərin vəzifəli şəxsləri və s. ola bilər. Ümumiyyətlə, bu cinayətin subyekti «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 2.1.9-cu maddəsində təsbit olunan şəxslər ola bilər. Hər bir halda bu 16 yaşına çatmış anlaqlı fiziki şəxs olmalıdır.

Vəzifəli şəxsin qərarına **qanuni** (öz səlahiyyəti çərçivəsində) təsir imkanı olan şəxsin həmin qərara təsir etmək üçün bu cinayətin predmetlərini istəməsi və ya alması, yaxud bu barədə təklifi və ya vədi qəbul etməsi müvafiq tərkib əlamətləri olduqda **rüşvət alma** (CM-in 311-ci maddəsi) kimi tövsif olunacaqdır.

CM-in 312-1.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər. Adı çəkilən maddənin mahiyyətinə əsasən həmin şəxsin qanunsuz təsir edilməsi istənilən qərara hər hansı aidiyyətinin olub-olmaması əhəmiyyət daşımır. Lakin hər bir halda təqsirkarın vəzifəli şəxsin qərarına qanunsuz təsir etməni istəməsinin motivi müəyyən edilməlidir.

12. CM-in 312-1.1-ci və 312-1.2-ci maddələrində nəzərdə tutulmuş mənada **həqiqi təsir imkanları** dedikdə nüfuz sahibinin müxtəlif konkret vasitələrlə vəzifəli şəxsin qərar qəbul etməsinə təsir göstərə bilməsinin real olması, bunun kənar şəxslərə də məlum olduğu başa düşülməlidir.

Lakin **güman edilən təsir imkanları** bu maddələrdə bir qədər fərqli məna daşıyır. CM-in 312-1.1-ci maddəsində bu, nüfuz sahibinin (təqsirkarın) vəzifəli şəxsin qərar qəbul etməsinə qanunsuz təsir edə bilməsini öz mülahizəsinə, rəyinə, fikrinə əsasən mümkün hesab etməsidir. CM-in 312-1.2-ci maddəsində isə bu, təqsirkarın (maddə və sair nemətləri, imtiyaz və ya güzəştləri verən şəxsin) nüfuz sahibinin belə bir imkana malik olmasını öz mülahizəsinə, fikrinə, rəyinə əsasən mümkün hesab etməsidir. Hər iki normada təsir imkanlarının olmasını güman etmənin obyektiv əsasları (nüfuz sahibinin qərar qəbul edəcək vəzifəli şəxslə münasibətləri, cəmiyyətdəki mövqeyi, bundan əvvəl başqa vəzifəli şəxslərə təsir etməsi faktlarının olması və s.) olmalıdır.

13. CM-in şərh olunan maddəsinin təcrübədə tətbiqi zamanı rüşvətxorluq cinayətləri ilə bu cinayət tərkibinin (nüfuz alverinin) fərqləndirilməsi ilə əlaqədar bəzi çətinliklər yarana bilər. Belə bir çətinlik nüfuz sahibinin təkcə öz nüfuzundan istifadə etməklə yox, həm də aldığı nemətlərin bir hissəsini vəzifəli şəxsə verməklə onun qərarına qanunsuz təsir etməsi halında ola bilər. Belə halda nüfuz sahibinin əməli cinayətlərin məcmusu qaydasında CM-in 312-1.1-ci maddəsi üzrə nüfuz alveri və 312-ci maddəsi üzrə rüşvət vermə (aktiv rüşvətxorluq) kimi tövsif ediləcəkdir. Qeyd olunan halda nüfuzu alan şəxs (cinayətin predmetlərini nüfuz sahibinə verən şəxs) həmin predmetlərin bir hissəsinin vəzifəli şəxsə çatdırıldığını bilmişsə və bunu arzulamışsa, onun əməli də cinayətlərin məcmusu qaydasında CM-in 312-1.2-ci və 312-ci maddələri üzrə tövsif ediləcəkdir.

14. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 313. Vəzifə saxtakarlığı

Vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya bir ildən iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 27 fevral 2007-ci il, 16 may 2008-ci il, 24 iyun 2011-ci il, 7 mart 2012-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş dəyişikliklərlə — «Azərbaycan» q., 13 may 2006-cı il; 30 may 2007-ci il; 7 iyun 2008-ci il; 2 avqust 2011-ci il; 16 mart 2012-ci il; 19 iyul 2017-ci il).

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 313-

cü maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində dövlət hakimiyyət və idarəetmə orqanlarının normal fəaliyyəti pozulur, dövlət xidmətinin və bələdiyyə xidmətinin mənafeyinə qəsd edilir.

2. CM-in 313-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** dövlət və bələdiyyə orqanlarının normal fəaliyyətidir.

3. Vəzifə saxtakarlığının **predmetini** rəsmi sənədlər və informasiya resursları təşkil edir. **Rəsmi sənədlər** dedikdə hüquqi əhəmiyyəti olan faktları və məlumatları təsdiq etmək üçün dövlət və ya yerli özünüidarə orqanları, habelə dövlət və ya bələdiyyə idarə, müəssisə və təşkilatları tərəfindən verilən yazılı aktlar başa düşülür. Rəsmi sənədlər, bir qayda olaraq, özünəməxsus rekvizitlərə (təşkilatın möhürü, ştampı, sənədin nömrəsi, tarixi) malik olur və müvafiq vəzifəli şəxs tərəfindən imzalanır. Dövlət və ya yerli özünüidarə orqanı, yaxud dövlət və ya bələdiyyə müəssisəsi hesab edilməyən kommersiya və ya qeyri-kommersiya strukturları tərəfindən verilən rəsmi sənədlər bu cinayətin predmeti ola bilməz. Bu cür sənədlərin saxtalaşdırılması, müvafiq əlamətlər olduqda, CM-in 320-ci maddəsi (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) üzrə cinayət məsuliyyətinə səbəb ola bilər. **İnformasiya resursları** (ehtiyatları) informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləridir («İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» 3 aprel 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 2-ci maddəsi).

4. **Obyektiv cəhətdən** bu cinayət rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatlar daxil edilməsində, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsində ifadə olunur.

5. Rəsmi sənədlərə və ya informasiya resurslarına **yalan məlumatların daxil edilməsinin** və göstərilən sənədlərə və ya informasiya resurslarına **onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsinin** izahı CM-in 320-ci maddəsinin şərhində verilmişdir.

6. Vəzifə saxtakarlığı öz quruluşuna görə **formal tərkibli** cinayətdir. Bu cinayət rəsmi sənədlərə və ya informasiya resurslarına yalan məlumatın daxil edildiyi, yaxud da həmin sənədlərə və ya informasiya resurslarına onların həqiqi məzmununu təhrif edən hər hansı düzəlişin edildiyi andan **başa çatmış** hesab edilir.

7. CM-in 313-cü maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** edilir. Təqsirkar rəsmi sənədləri saxtalaşdırdığını dərk edir və bunu arzu edir.

Təhlil edilən cinayətin subyektiv cəhətinin daha bir zəruri əlaməti tamah və ya sair şəxsi niyyətlərin olmasıdır. **Tamahın** və sair **şəxsi niyyətlərin** izahı CM-in 308-ci maddəsinin şərhində verilmişdir.

8. Şərh edilən cinayətin **subyekti** vəzifəli şəxsdir. **Vəzifəli şəxsin** anlayışı CM-in 308-ci maddəsinin şərhində verilmişdir.

CM-in 313-cü maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən

nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 314. Səhlənkarlıq

314.1. Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz altmış saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314.3. Bu Məcəllənin 314.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 7 aprel 2006-cı il, 16 may 2008-ci il, 30 aprel 2013-cü il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 13 may 2006-cı il; 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 314-cü maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində dövlət hakimiyyəti və idarəetmə orqanlarının normal fəaliyyəti pozulur, həmin orqanlar nüfuzdan salınır, fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, habelə dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulur.

2. Şərh olunan maddədə nəzərdə tutulmuş cinayətin **obyekti** dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının normal fəaliyyəti, habelə fiziki və ya hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri, həmçinin dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafeləridir. **Əlavə obyekt** qismində insanın həyatı və sağlamlığı çıxış edir.

3. Təhlil edilən cinayətin **obyektiv cəhəti** aşağıdakı zəruri əlamətləri özündə əks etdirir:

1) vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi;

2) fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasında ifadə olunan ictimai təhlükəli nəticənin olması;

3) ictimai təhlükəli əməllə nəticə arasında səbəbli əlaqənin olması.

4. Vəzifəli şəxslərin öz **xidməti vəzifəsini yerinə yetirməməsi** dedikdə qanunla, qanunvericilik aktları (təlimat, əsasnamə və s.) ilə, əmək müqaviləsi (kontrakt) ilə, yuxarı vəzifəli şəxsin əmri ilə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün obyektiv və subyektiv imkanların olmasına baxmayaraq, həmin vəzifələrin icra edilməməsi başa düşülür.

Lazımi qaydada yerinə yetirməmə dedikdə isə vəzifəli şəxsin öz vəzifələrini tam, vaxtında və dəqiq icra etməməsi başa düşülür.

5. Burada vəzifəli şəxsin öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi onun öz işinə vicdansız və ya laqeyd münasibətinin nəticəsi olmalıdır. **İşə vicdansız və ya laqeyd münasibət** dedikdə vəzifəli şəxsin öz məsuliyyətini lazımi qaydada dərk etməməsi, öz xidməti vəzifələrinə «barmaqarası» baxması, qulluq mənafeyini başqa mənafelərə nisbətən ikinci dərəcəli hesab etməsi və s. başa düşülə bilər.

6. Səhlənkarlığa görə cinayət məsuliyyətinə cəlb etmək üçün vəzifəli şəxsin üzərinə hansı hüquq və vəzifələrin qoyulduğunu, bu hüquq və vəzifələrin konkret olaraq hansı qanunvericilik aktı ilə müəyyən edildiyini, məhz hansı vəzifələrin yerinə yetirilmədiyini və ya lazımınca yerinə yetirilmədiyini, qulluq vəzifələrini yerinə yetirmək üçün vəzifəli şəxsin real imkanlarının olub-olmadığını müəyyən etmək zəruridir.

7. Şərh edilən cinayət tərkibinin obyektiv cəhətinin daha bir zəruri əlaməti ictimai təhlükəli nəticənin — fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasının mövcud olmasıdır. Burada nəzərdə tutulmuş mühüm zərərin məzmunu CM-in 308-ci maddəsindəki analoji anlayışın məzmunu ilə eynidir (CM-in 308-ci maddəsinin şərhinin 7-ci bəndinə bax).

8. Səhlənkarlıq **subyektiv cəhətdən ehtiyatsızlıqla** törədilir. Təqsirkar öz xidməti vəzifəsini yerinə yetirməməklə və ya lazımi qaydada yerinə yetirməməklə fiziki və ya hüquqi şəxslərin hüquq və qanuni mənafelərinə, dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasında ifadə olunan ictimai təhlükəli nəticələri qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir **(cinayətkarcasına özünəgüvənmə)** və ya lazımi diqqət və ehtiyatlılıq göstərərək yuxarıda qeyd olunan nəticələrin baş verə biləcəyi imkanını qabaqcadan görməli olduğu və görə biləcəyi halda bunu görmür **(cinayətkarcasına etinasızlıq).**

9. Cinayətin **subyekti** yalnız **vəzifəli şəxs** ola bilər (vəzifəli şəxsin anlayışı barədə CM-in 308-ci maddəsinin şərhinə bax).

10. CM-in 314.2-ci maddəsində səhlənkarlığın **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

Burada **digər ağır nəticələr** dedikdə bir neçə şəxsin sağlamlığına zərər vurulması, dövlət və ya bələdiyyə idarə və müəssisəsinin işinin pozulması, külli miqdarda əmlak ziyanının vurulması və s. başa düşülə bilər.

Maddə 314-1. Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə dair qanunsuz qərar qəbul etmə

314-1.1. Vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinin bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və ya onlara icarəyə verilməsi haqqında qanunsuz qərar qəbul etmə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-1.2. Vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqqında qərar qəbul etmə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-1.3. Bu Məcəllənin 314-1.1-ci və 314-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlara münasibətdə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 4 may 2004-cü il və 7 aprel 2006-cı il tarixli qanunları ilə düzəlişlər edilmiş, 30 sentyabr 2015-ci il tarixli, 1336-IVQD nömrəli Qanunla maddə yeni redaksiyada verilmişdir — «Azərbaycan» q., 14 may 2004-cü il, № 112; 13 may 2006-cı il; 24 noyabr 2015-ci il).*

1. CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** torpaq münasibətlərinin tənzimlənməsi və dövlət mülkiyyətində olan torpaqların idarə edilməsi üzrə dövlət qulluğunun müəyyən edilmiş qaydalarıdır.

2. Şərh olunan cinayət əməlinin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, həmin əməlin törədilməsi ilə dövlətin mülkiyyətində (müstəsna mülkiyyətində) olan torpaq sahələri qanunsuz olaraq fiziki və hüquqi şəxslərin, yaxud bələdiyyələrin istifadəsinə keçir, nəticədə həmin sahələrin təyinatı üzrə istifadəsi pozulur, onların üzərindəki ictimai təyinatlı obyektlərin sıradan çıxmaq təhlükəsi yaranır.

3. CM-in 314-1-ci maddəsində nəzərdə tutulan **cinayətin predmeti** dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələridir. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsində və «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanununun 6-cı maddəsində dövlətin müstəsna mülkiyyətində olan torpaqlara aid edilmişdir:

- dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;
- dövlətin obyektlərinin — dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;
- yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

- meşə fondu torpaqları (dövlət kənd təsərrüfatı müəssisələrinin meşələri də daxil olmaqla);
- Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları;
- Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlar;
- təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, turizm və rekreasiya, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan digər ərazilərin torpaqları;
- dövlət elmi tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;
- dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;
- dövlət ehtiyat fondu torpaqları.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci bəndində yalnız Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahələrinin dövlətin mülkiyyətində qalmaqla özgəninkiləşdirilə bilməməsi barədə birbaşa göstəriş vardır. Həmin torpaqlar yalnız istifadəyə və ya icarəyə verilə bilər. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-ci bəndinə əsasən dövlətin müstəsna mülkiyyətində olan torpaqların yalnız istifadəyə və ya icarəyə verilə bilməsinə dair müddəa təsbit olunsa da, həmin maddənin 3-cü bəndinə görə belə torpaqların qanunla bələdiyyə və xüsusi mülkiyyətə də verilməsi imkanı öz əksini tapmışdır. Ona görə də CM-in 314-1.1-ci maddəsində dövlətin müstəsna mülkiyyətində olan torpaqlar barəsində, 314-1.2-ci maddəsində isə dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaqlar barəsində edilən cinayət əməllərinə görə məsuliyyət nəzərdə tutulmuşdur.

3. CM-in 314-1.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinin bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və ya onlara icarəyə verilməsi haqqında qanunsuz qərar qəbul etmədə ifadə olunur.

Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bələdiyyə mülkiyyətinə ayrılan torpaqlar hesabına, habelə dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin, habelə hüquqi şəxslərin nizamnamə (pay) fonduna verilməsi əsasında yaranır (Torpaq Məcəlləsinin 47-ci və 49-cu maddələri). Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin istifadəsinə müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etmək üçün verilir. Torpaqdan müvəqqəti istifadə qısamüddətli və uzunmüddətli olur. Qısamüddətli müvəqqəti istifadə - on beş ilədək müəyyən oluna bilər. Uzunmüddətli müvəqqəti istifadə xüsusi mülkiyyətdə olan torpaqlar üçün - on beş ildən 99 ilədək, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar üçün isə - on beş ildən 49 ilədək müəyyən oluna bilər. Dövlətin müstəsna mülkiyyətində olan torpaqlar daimi və ya müvəqqəti istifadəyə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları tərəfindən verilir.

Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin icarəsinə müqavilə əsasında verilir. İcarəyəverən qismində dövlət müəssisə, idarə və təşkilatların istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş, habelə üzərində hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlətə məxsus torpaqlara (sənaye, yaxud texnologiyalar parkları üçün nəzərdə tutulmuş dövlət mülkiyyətində olan torpaq sahələri istisna olmaqla) münasibətdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları çıxış edirlər.

Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və ya icarəyə verilməsi haqqında qanunsuz **qərar qəbul etmə** dedikdə buna səlahiyyəti olmayan orqan və ya vəzifəli şəxs tərəfindən və ya müvafiq orqanlarla razılaşdırılmadan qərar qəbul etmə, barəsində belə qərarın verilməsi qadağan edilən torpaq sahəsinə münasibətdə qərar qəbul etmə, Torpaq Məcəlləsi, torpaq icarəsi, torpaq islahatı, torpaq bazarı haqqında qanunlarla müəyyən edilmiş qayda və şərtlərin pozulması ilə qərar qəbul etmə, göstərilən kateqoriyadan olan torpaq sahələri barəsində başqa kateqoriyadan olan torpaq sahəsi kimi qərar qəbul etmə başa düşülür.

CM-in 314-1.1-ci maddəsində nəzərdə tutulan cinayət **formal tərkiblidir** və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və ya icarəyə verilməsi haqqında qanunsuz qərar qəbul edildiyi andan başa çatmış hesab edilir. Qərar dedikdə qanunvericiliklə nəzərdə tutulmuş qaydaya və formaya riayət etməklə rəsmiləşdirilmiş akt başa düşülür.

5. **CM-in 314-1.2-ci maddəsində** nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqqında qərar qəbul etmədə ifadə olunur.

Xəzər dənizinin, (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahələri, meşə fondu torpaqları, dövlət mülkiyyətində olan yay və qış otlaqları, müdafiə və təhlükəsizlik təyinatlı torpaqlar, xüsusi qorunan ərazilərin torpaqları və s. torpaqlar dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələri hesab edilir (Torpaq Məcəlləsinin 16-cı maddəsinin 1-ci, 46-cı maddəsinin 2-1-ci bəndləri, 23-30-cu maddələri, Meşə Məcəlləsinin 8-ci maddəsi). Su fondu torpaqları bələdiyyə mülkiyyətinə, hüquqi və fiziki şəxslərin isə icarəsinə verilə bilər edilir (Torpaq Məcəlləsinin 32-ci maddəsi).

Dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qa-

dağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqqında qərar qəbul etmə dedikdə həmin torpaq sahələrinin buna hüququ olmadan bələdiyyə mülkiyyətinə verilməsinə, habelə istənilən halda xüsusi mülkiyyətə verilməsi haqqında qərar qəbul etmə başa düşülür.

CM-in 314-1.2-ci maddəsində nəzərdə tutulan cinayət **formal tərkiblidir** və dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqqında qərar qəbul edildiyi andan başa çatmış hesab edilir.

6. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqların bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və ya onlara icarəyə verilməsi haqqında qərar qəbul etmə şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** kimi CM-in 314-1.3-cü maddəsində əks olunmuşdur.

7. CM-in 314-1.1-314-1.3-cü maddələrində təsbit edilmiş cinayət əməlləri **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Vəzifəli şəxs dövlətin müstəsna mülkiyyətində olan (və özgəninkiləşdirilməsi qadağan edilən) torpaq sahəsi barəsində qanunsuz qərar qəbul etdiyini dərk edir və belə qərar qəbul etməyi arzu edir.

8. Təhlil edilən cinayət əməlinin **subyekti** vəzifəli şəxsdir (CM-in 308-ci maddəsinin qeydi).

Maddə 314-2. Qanunla müəyyən olunmuş qaydaları pozmaqla torpaq sahələri ayırma, yaxud tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə

314-2.1. Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla vəzifəli şəxs tərəfindən torpaq sahələrini tikinti üçün ayırma, tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə, yaxud barəsində məlumatlandırma icraatı tətbiq edilən tikililərlə bağlı irad təqdim etməmə —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-2.2. Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla vəzifəli şəxs tərəfindən magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin, texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında torpaq sahələri və ya kənd təsərrüfatı təyinatlı torpaq sahələrini ayırma, yaxud tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə, yaxud barəsində məlumatlandırma icraatı tətbiq edilən tikililərlə bağlı irad təqdim etməmə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-2.3. Bu Məcəllənin 314-2.1 və 314-2.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il Qanunu ilə əlavə edilmiş, 7 aprel 2006-cı il tarixli Qanunu ilə düzəliş edilmiş, 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə yeni redaksiyada verilmiş; 28 aprel 2015-ci il, 30 sentyabr 2015-ci il və 7 aprel 2017-ci il tarixli qanunlarla düzəliş edilmişdir — «Azərbaycan»., 10 noyabr 2004-cü il; 13 may 2006-cı il; 28 oktyabr 2007-ci il; 24 noyabr 2015-ci il; 2 iyun 2017-ci il).*

1. Təhlil edilən kriminal əməlin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, bu normada sadalanan obyektlərin mühafizə zonalarının xüsusi hüquqi rejiminin pozulması yolu ilə həmin torpaq sahələrinin hüquqi və fiziki şəxslərə verilməsi, orada tikinti işlərinə icazə verilməsi bu obyektlərin fəaliyyətini təhlükə altına alır, eyni zamanda müxtəlif kommunikasiya əlaqələrinin pozulmasına, həyat əhəmiyyətli obyektlərin sıradan çıxmasına şərait yaradır.

2. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş cinayətin **bilavasitə obyekti** tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermənin, habelə adı çəkilən obyektlərin mühafizə zonalarının xüsusi hüquqi rejiminin tənzimlənməsi, həmin zonaların mühafizəsi və istifadəsi sahəsində dövlət idarəçiliyinin həyata keçirilməsinin qaydalarıdır.

3. CM-in 314-2.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti:** 1) ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla vəzifəli şəxs tərəfindən tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermədə; 2) həmin qayda və şərtləri pozmaqla barəsində məlumatlandırma icraatı tətbiq edilən tikililərlə bağlı irad təqdim etməmədə ifadə olunur.

4. **Tikinti və quraşdırma işlərinin** anlayışı CM-in 222-ci və 222-1-ci maddələrinin şərhində verilmişdir.

5. **Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla vəzifəli şəxs tərəfindən tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə** həmin işlərin həyata keçirilməsinə icazəni verməyə səlahiyyəti olmayan vəzifəli şəxs tərəfindən belə icazənin verilməsində, tikinti və ya quraşdırılması qadağan edilən obyektin tikilməsinə və ya quraşdırılmasına icazənin verilməsində, icazənin müvafiq dövlət orqanları ilə razılaşdırılmadan verilməsində, dövlət qeydiyyatı və ya vergi orqanlarında uçotu olmayan şəxslərə icazənin verilməsində, dövlət ekspertizasının müsbət rəyi və qeydiyyatı olmadan icazənin verilməsində, tikinti və ya quraşdırma işlərinin aparılmasına xüsusi razılığı (lisenziyası) olmayan şəxsə icazənin verilməsində və s. ifadə oluna bilər. Hər bir halda hansı qaydanın pozul-

duğu dəqiq müəyyən edilməlidir.

Şərh olunan maddə ilə cinayət məsuliyyəti o halda yaranır ki, tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtləri pozulmaqla verilmiş olsun. Şəhər və digər yaşayış məntəqələrinin əraziləri və ya ərazi hissələri aşağıdakı ərazi zonalarına bölünür: 1) yaşayış zonaları; 2) ictimai-işgüzar zona; 3) rekreasiya zonası; 4) istehsalat (sənaye, elmi-istehsalat, kommunal-anbar) zonaları; 5) nəqliyyat infrastrukturu zonası; 6) mühəndis infrastrukturu zonası; 7) kənd təsərrüfatı zonası; 8) xüsusi təyinatlı zona; 9) hərbi və digər rejimli zonalar; 10) xüsusi şərtlərlə istifadə olunan zonalar; 11) xüsusi qorunan ərazilər; 12) ehtiyat zonası (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 fevral 2014-cü il tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş «Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar»ın 3-cü hissəsi).

Ərazilərin zonalaşdırılması və tikintinin növü ilə bağlı müfəssəl qaydalarının pozulmasının **bir neçə halı** ola bilər: 1) bir ərazi zonasında tikilməsi müəyyən edilmiş tikili və qurğunun başqa ərazi zonasında tikilməsinə və ya quraşdırılmasına icazə vermə. Məsələn, yaşayış zonasında tikilməli olan fərdi yaşayış və bağ evlərinin istehsalat (sənaye, elmi-istehsalat, kommunal-anbar) zonalarında tikilməsinə icazə vermə; 2) ərazi zonalarının hər hansı birində və ya bir neçəsində tikilməsi və ya quraşdırılması qadağan edilən tikili və ya qurğunun həmin zonada (zonalarda) tikilməsinə və ya quraşdırılmasına icazə vermə. Məsələn, rekreasiya zonalarının ərazilərində bu zonanın fəaliyyəti ilə əlaqəsi olmayan sənaye, anbar, kommunal obyektlərinin, mənzil-mülki təyinatlı yeni binaların tikintisinə və mövcud binaların genişləndirilməsinə icazə vermə; 3) bir ərazi zonasının daxilində müəyyən edilmiş tikinti zonalarından birində tikilməsinə icazə verilmiş tikilinin digər tikinti zonasında tikilməsinə, yaxud tikinti zonalarından birində tikilməsi qadağan edilmiş tikilinin həmin zonada tikilməsinə icazə vermə. Məsələn, yaşayış zonası daxilində «azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları» tikinti zonasında çoxmərtəbəli (9 və daha çox) yaşayış binalarının tikintisinə icazə vermə və s.

Tikintinin miqyası ilə bağlı müfəssəl qaydaların pozulması dedikdə tikinti sıxlığının göstəricilərinin, yəni ərazinin tikinti əmsalının və ərazinin tikinti sıxlığı əmsalının pozulması başa düşülür. Ərazinin tikinti əmsalı bina və qurğular altında olan sahənin planlaşdırılan ərazinin (məhəllənin) ümumi sahəsinə olan nisbətidir. Ərazinin tikinti sıxlığı əmsalı isə bina və qurğuların bütün yerüstü mərtəbələrinin sahəsinin planlaşdırılan ərazinin (məhəllənin) ümumi sahəsinə olan nisbətidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 fevral 2014-cü il tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş «Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar»da ərazinin tikinti və tikinti sıxlığı əmsalları öz əksini tapmışdır.

Yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə dedikdə binaların xarici divarlarının önündə ara məsafəsinə (ŞTM-in 69-cu və 70.1-ci maddələri), ortaq və yanaşı divarlara (ŞTM-in 71-ci və 72-ci maddələri), hasarların tikintisi tələblərinə (ŞTM-in 73-cü maddəsi) dair şərtlər riayət olunmadan tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə başa düşülür. Ara məsafəsi ilə bağlı müfəssəl qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 mart 2014-cü il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Barəsində məlumatlandırma icraatı tətbiq edilən tikililərlə bağlı irad təqdim etməmə dedikdə tikinti obyektinin layihəsinin memarlıq-planlaşdırma bölməsininin Şəhərsalma və Tikinti Məcəlləsinin 80.1-ci, 80.1-1-ci və 80.3-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğunluğunun yoxlanılmasının nəticəsi olaraq aşkar edilmiş pozuntuların sifarişçiyə bildirilməməsi (təqdim edilməməsi) başa düşülür. ŞTM-in 80-ci maddəsinə görə mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində təyinatı üzrə yerüstü mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən (binanın hündürlüyü «0» səviyyəsindən, yəni birinci yerüstü mərtəbənin döşəməsinin üst hissəsindən sonuncu mərtəbənin örtüyünün alt hissəsinədək (çardaqaltı döşəmənin alt hissəsi) və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi ilə bağlı **məlumatlandırma icraatı** həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız zirzəmilərin, mərtəbələrin, dam örtüklərinin planlarından, kəsiklərdən və fasadlardan ibarət memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin hazırlanması tələb olunur. Bundan başqa, ŞTM-in 79.2-ci maddəsinə görə hündürlüyü 5 metrdən, sahəsi 100 kvadratmetrdən çox olan bir mərtəbəli yardımçı tikililərin, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyəti ilə bağlı obyektlərin, xüsusi mülkiyyətdə olan torpaq sahələrində həcmi 60 kubmetrdən və dərinliyi 5 metrdən çox olan quyuların, yeraltı su və çirkab su anbarlarının (rezervuarların), habelə həcmi 200 kubmetrdən çox olan hovuzların, yaşayış evlərinin həyətyanı sahələrində hündürlüyü 3 metrdən və sahəsi 100 kvadratmetrdən çox olan yardımçı tikililərin tikintisinə məlumatlandırma icraatı şamil olunur. Həmin tikililər sadalanan bəndlərdə nəzərdə tutulan tələblərə cavab verməlidir. Digər tərəfdən, tikinti obyektinin layihəsinin memarlıq-planlaşdırma bölməsi müvafiq ərazidə qüvvədə olan müfəssəl planın tələblərinə uyğun tərtib edilməli, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, onun ŞTM-in 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə uyğunluğu yoxlanılmalıdır.

6. CM-in 314-2.1-ci maddəsi ilə cinayət məsuliyyəti o halda yaranır ki, vəzifəli şəxs tərəfindən verilmiş icazə CM-in 314-2.2-ci maddəsində sadalanan **mühafizə zonaları istisna olmaqla**, qalan bütün hallarda tikinti və ya quraşdırma işlərinin aparılmasına verilmiş icazəni nəzərdə tutmuş olsun. Əgər verilmiş icazə CM-in 314-2.2-ci maddəsində sadalanan mühafizə zonalarında tikinti və ya quraşdırma işlərinin aparılmasını nəzərdə tutularsa, vəzifəli şəxsin əməli həmin maddə ilə tövsif edilməlidir.

7. CM-in 314-2.2-ci maddəsində şərh edilən cinayətin **ağırlaşdırıcı tərkibi** təsbit olunmuşdur. Bu cinayətin **obyektiv cəhəti** alternativ olaraq iki ictimai təhlükəli əməli nəzərdə tutur: a) magistral boru kəmərlərinin, gərginliyi 1000

voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında və ya kənd təsərrüfatı təyinatlı torpaq sahələrində ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla torpaq sahələri ayırma; b) həmin zonalarda ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə.

8. **Torpaq sahələri ayırma** dedikdə təyinatından asılı olmayaraq hər hansı bir torpaq sahəsinin hüquqi və ya fiziki şəxslərin mülkiyyətinə, daimi və ya müvəqqəti istifadəsinə, yaxud onlara icarəyə verilməsi başa düşülməlidir.

CM-in şərh edilən maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyəti magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların **mühafizə zonalarında** ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla torpaq sahələri ayrıldıqda yaranır. Qeyd olunan obyektlərin mühafizə zonaları CM-in 222-2-ci maddəsinin şərhində izah edilmişdir (həmin maddənin şərhinə bax).

Göstərilən obyektlərin mühafizə zonalarından istifadənin qaydaları (orada olan torpaq sahələrinin ayrılması, həmin zonalarda tikinti və quraşdırma işlərinin mümkünlüyü, buna icazə verilməsi qaydası və s.) həmin mühafizə zonaları ilə bağlı məsələləri tənzimləyən normativ aktlarda müəyyən edilmişdir. Lakin nəzərə almaq lazımdır ki, bu obyektlərdən bəzilərinin mühafizə zonaları ilə bağlı qanunvericilikdə boşluqlar vardır (CM-in 222-2-ci maddəsinin şərhinə bax).

Magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında tikinti və quraşdırma işlərinə icazə verilməsi qaydası və buna səlahiyyəti olan orqanlar həmin zonaların xüsusi hüquqi rejimini müəyyən edən normativ aktlarda göstərilmişdir (CM-in 222-2-ci maddəsinin şərhinə bax).

9. Mühafizə zonalarında torpaq sahələri ayrılmasının, yaxud həmin zonalarda tikinti və quraşdırma işləri aparılmasına icazə verilməsinin **ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini pozmaqla edilməsi** torpaqayırma aktının buna səlahiyyəti olmayan orqan və ya vəzifəli şəxs tərəfindən verilməsində, torpaq sahəsinin təyinatına zidd məqsədlər üçün ayrılmasında, torpaqayırma aktının müvafiq orqanlarla razılaşdırılmadan verilməsində və s. ifadə oluna bilər. Bütün hallarda hansı qaydanın pozulduğu dəqiq müəyyən edilməlidir.

10. Təhlil edilən cinayət əməli **formal tərkib** vasitəsilə ifadə edilmişdir və qanunsuz torpaqayırma aktının, yaxud qanunsuz icazənin verildiyi andan **başa çatmış** hesab ediləcəkdir.

11. **Eyni bir vəzifəli şəxs** hər hansı bir obyektin mühafizə zonasından qanunsuz olaraq torpaq sahəsi ayıraraq sonradan həmin sahədə tikinti və quraşdırma işləri aparılmasına icazə verərsə, onun əməli cinayətlərin məcmusu üzrə yox, vahid cinayət kimi tövsif ediləcəkdir, lakin məhkəmə hökmündə onun hər iki ictimai təhlükəli əməli törətdiyi nəzərə alınacaqdır.

12. CM-in 314-2-ci maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** təqsirin **birbaşa qəsd** formasında törədilir. Şəxs qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin həyata keçirilməsinə icazə verdiyini, mühafizə zonasında qanunsuz olaraq torpaq sahəsi ayırdığını, yaxud həmin zonada tikinti və quraşdırma işlərinə qanunsuz icazə verdiyini dərk edir və bunu arzulayır.

13. Təhlil edilən cinayətin **subyekti** xüsusidir: **vəzifəli şəxs** (CM-in 308-ci maddəsinin qeydi).

14. CM-in 314-2.3-cü maddəsində şərh edilən cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** — magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında torpaq sahələri ayırmanın, yaxud həmin obyektlərin mühafizə zonalarında tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermənin ağır nəticələrə səbəb olması göstərilmişdir. **Ağır nəticələrin** izahı CM-in 222-2-ci maddəsinin şərhində verilmişdir.

Maddə 314-3. Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin qarşısının alınmaması

314-3.1. Müvafiq dövlət orqanının vəzifəli şəxsinin öz vəzifələrinə səhlənkar yanaşması nəticəsində bu Məcəllənin 222.1-ci, 222-1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının alınmaması —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-3.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-3.3. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş il-

dən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə əlavə edilmişdir; 7 aprel 2017-ci il tarixli Qanunla edilmiş düzəlişlərlə - «Azərbaycan» q., 28 oktyabr 2007-ci il; 2 iyun 2017-ci il).*

1. Şərh olunan cinayətin **ictimai təhlükəliliyi** vəzifəli şəxsin səhlənkarlığı nəticəsində tikinti və quraşdırma, mədən işlərinin və sair işlərin müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan və bu işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulması ilə həyata keçirilməsinin insanların həyat və sağlamlığı üçün təhlükə yaratmasında və bu təhlükənin qarşısının alınmamasında, bunun dövlət hakimiyyəti orqanlarının normal fəaliyyətini pozmasında, fiziki və ya hüquqi şəxslərin hüquqlarına və maraqlarına zərər vurmasında ifadə olunur.

2. Şərh olunan maddədə nəzərdə tutulmuş cinayətin **obyekti** dövlət hakimiyyəti orqanlarının normal fəaliyyəti, fiziki və hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri, dövlətin və cəmiyyətin qanunla qorunan mənafeləridir. **Əlavə obyekt** qismində insanların həyatı və sağlamlığı çıxış edir.

3. CM-in 314-3.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** müvafiq dövlət orqanının vəzifəli şəxsinin öz vəzifələrinə səhlənkar yanaşması nəticəsində aşağıdakı əməllərin qarşısının alınmamasında ifadə olunur:

1) tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin, eləcə də mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulmasının insanların həyat və sağlamlığı üçün real təhlükə yaratması;

2) qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan özbaşına bina və qurğular tikmə, mövcud tikililərin konstruksiyasında dəyişiklik etmə, habelə bu tikililərin funksional təyinatı dəyişdirilməklə, onlarda yenidən planlaşdırma, yenidənqurma işlərini aparmanın insanların həyat və sağlamlığı üçün real təhlükə yaratması;

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icazə almadan magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarında tikinti və ya quraşdırma işlərinin aparılması (hər üç əməlin təfsiri CM-in 222-ci, 222-1-ci və 222-2-ci maddələrinin şərhində verilmişdir).

4. Müvafiq dövlət orqanının vəzifəli şəxsinin **öz vəzifələrinə səhlənkar yanaşması** onun öz vəzifələrini yerinə yetirməməsində, lazımi qaydada yerinə yetirməməsində ifadə oluna bilər (bu əlamətlər haqqında CM-in 314-cü maddəsinin şərhinə bax).

5. Şəxsin şərh olunan maddədə nəzərdə tutulan cinayət əməlinə görə cinayət məsuliyyətinə cəlb edilməsi üçün vəzifəli şəxsin üzərinə hansı hüquq və vəzifələrin qoyulduğunu, bu hüquq və vəzifələrin konkret olaraq hansı normativ hüquqi aktla müəyyən edildiyini, məhz hansı vəzifələrin yerinə yetirilmədiyini və ya lazımınca yerinə yetirilmədiyini, müvafiq vəzifələri yerinə yetirmək üçün vəzifəli şəxsin real imkanlarının olub-olmadığını müəyyən etmək zəruridir.

6. Vəzifəli şəxsin öz vəzifələrinə səhlənkar yanaşmasının nəticəsi olaraq CM-in 222.1-ci, 222-1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısı alınmadıqda, təhlil olunan maddə ilə cinayət məsuliyyəti yaranır. CM-in 222.1-ci, 222-1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının alınmaması: 1) tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin, eləcə də mədən işlərinin və sair işlərin aparılmasının **təhlükəsizliyi qaydalarının pozulmasının** və bu pozuntunun insanların həyat və sağlamlığı üçün yaratdığı **real təhlükənin** qarşısının alınmamasını; 2) qanunvericiliklə müəyyən olunmuş qaydada **müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan** özbaşına bina və qurğular tikmə, mövcud tikililərin konstruksiyasında dəyişiklik etmə, habelə bu tikililərin funksional təyinatı dəyişdirilməklə, onlarda yenidən planlaşdırma, yenidənqurma **işlərinin aparılmasının** və bunun insanların həyat və sağlamlığı üçün yaratdığı **real təhlükənin** qarşısının alınmamasını; 3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icazə almadan magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların **mühafizə zonalarında tikinti və ya quraşdırma işlərinin aparılmasının** qarşısının alınmamasını nəzərdə tutur.

7. Tikinti işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulmasının və bu pozuntunun insanların həyat və sağlamlığı üçün yaratdığı real təhlükənin **qarşısının alınmaması** (o cümlədən, müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan tikinti işlərini həyata keçirmə, habelə belə işləri mühafizə zonalarında aparmanın qarşısının alınmaması) tikinti işlərinin aparılmasına icazə sənədlərinin, o cümlədən xüsusi razılığın (lisenziyanın) olmamasına baxmayaraq belə işlərin aparılmasına göz yumulmasında, tikinti işləri dayandırılmasına əsas olduğu halda bu işlərin dayandırılmamasında, tikintidə keyfiyyət göstəriciləri müvafiq normativ sənədlərin tələblərinə uyğun olmayan və ya bu sənədlərə uyğunluğunu təsdiq edən sertifikata malik olmayan tikinti materiallarından istifadə edilməsinə son qoyan tədbirləri həyata keçirməmədə, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti obyektində aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədi ilə Baş Dövlət Tikinti Müfəttişliyinin verdiyi «Tapşırıq»da (tikinti müfəttişi tərəfindən verilmiş məlumatlar əsasında tikinti obyektində aşkar edilmiş pozuntuları və onların aradan qaldırılması üçün verilən göstərişləri özündə əks etdirən xüsusi mühafizə nişanları olan və icrası məcburi olan sənəddə) əks edilmiş pozuntuların aradan qaldırılmamasında və s. ifadə olunur.

8. CM-in 314-3.1-ci maddəsində nəzərdə tutulan cinayət **formal** (cinayət müvafiq dövlət orqanının vəzifəli şəxsinin öz vəzifələrinə səhlənkar yanaşması nəticəsində CM-in 222.1-ci, 222-1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının alınmaması anından başa çatmış sayılır), 314-3.2-ci (cinayət vəzifəli şəxsinin səhlənkarlığı nəticəsində CM-in 222.1-ci, 222-

1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının alınmamasının zərərçəkmiş şəxsin sağlamlığına ağır və ya az ağır zərərin vurulduğu andan başa çatmış sayılır) və 314-3.3-cü (cinayət vəzifəli şəxsinin səhlənkarlığı nəticəsində CM-in 222.1-ci, 222-1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının alınmamasının zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduğu andan başa çatmış sayılır) maddələrində nəzərdə tutulan cinayətlər isə **maddi tərkiblidir**.

9. CM-in 314-3.1-ci maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən ehtiyatsızlıqla** (baxmayaraq ki, CM-in 24.2-ci maddəsinə əsasən bu cinayət əslində qəsdən törədilən cinayət hesab edilməlidir) törədilə bilər. CM-in 314-3.2-ci və 314-3.3-cü maddələrində nəzərdə tutulmuş cinayət əməlləri də həmçinin **subyektiv cəhətdən ehtiyatsızlıqla** xarakterizə olunur. Təqsirkar öz xidməti vəzifəsini yerinə yetirməməklə və ya lazımi qaydada yerinə yetirməməklə CM-in 222.1-ci, 222-1.1-ci və 222-2.1-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısını almadığını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir **(cinayətkarcasına özünəgüvənmə)** və ya lazımi diqqət və ehtiyatlılıq göstərərək belə əməllərin qarşısının alınacağı imkanını qabaqcadan görməli olduğu və görə biləcəyi halda bunu görmür **(cinayətkarcasına etinasızlıq)**.

10. Cinayətin **subyekti** yalnız **vəzifəli şəxs** ola bilər (vəzifəli şəxsin anlayışı barədə CM-in 308-ci maddəsinin şərhinə bax).

11. CM-in 314-3.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır (CM-in 126-cı maddəsi) və ya az ağır zərərin (CM-in 127-ci maddəsi) vurulmasına səbəb olması, CM-in 314-3.3-cü maddəsində isə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** qismində nəzərdə tutulmuşdur. **Digər ağır nəticələrin** anlayışı CM-in 314-cü maddəsinin şərhinin 10-cu bəndində verilmişdir.

XXXIV Fəsil
İdarəetmə qaydası əleyhinə olan cinayətlər

Maddə 315. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə

315.1. Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

315.2. Bu Məcəllənin 315.1-ci maddəsində göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli Qanunu ilə edilmiş dəyişikliklə — «Azərbaycan» q., 4 noyabr 2015-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** dövlət hakimiyyətinin normal idarəetmə

fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlərdir. Şəxsiyyətin həyat və sağlamlığı bu cinayətin əlavə obyekti hesab oluna bilər.

2. Cinayətdən **zərərçəkmiş şəxs** qismində iki kateqoriyadan olan şəxslər çıxış edir: 1) hakimiyyət nümayəndəsi; 2) hakimiyyət nümayəndəsinin yaxın qohumları.

Hakimiyyət nümayəndəsi dedikdə təşkilati-hüquqi formasından, tabeliyindən, idarə mənsubiyyətindən asılı olmayaraq müəssisə, idarə və təşkilatlar, habelə ayrı-ayrı şəxslər üçün icrası məcburi olan tələblər irəli sürmək və qərarlar qəbul etmək üçün hakimiyyət səlahiyyətlərinə malik olan şəxs başa düşülür.

Hakimiyyət nümayəndəsinin statusu hər şeydən əvvəl hakimiyyət səlahiyyətləri ilə əlaqədardır. **Hakimiyyət səlahiyyətləri** dedikdə xidməti vəzifəsinin yerinə yetirilməsi zamanı idarəetmə sahəsində müxtəlif qərarlar qəbul etmək, icrası vətəndaşlar və hüquqi şəxslər üçün məcburi olan tələblər irəli sürmək hüququ başa düşülür.

Hakimiyyət nümayəndəsi funksiyasının həyata keçirilməsi vəzifəli şəxsin xarakterik əlaməti (CM-in 308-ci maddəsinin qeydi) olsa da, hakimiyyət nümayəndəsi vəzifəli şəxs olmaya da bilər. Belə ki, xidməti fəaliyyətinin xarakterinə görə bəzən sıravi işçi də (məsələn, sıravi polis nəfəri, ictimai asayişin və təhlükəsizliyin qorunmasına cəlb olunmuş sıravi hərbi qulluqçu və s.) hakimiyyət nümayəndəsi hesab olunur. Çünki bu halda onlar özləri ilə tabelik münasibətlərində olmayan şəxslərə qarşı icrası həmin şəxslər üçün məcburi olan müəyyən qanuni tələblər irəli sürmək hüququna malikdirlər. Məsələn, «Polis haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə görə polis əməkdaşı səlahiyyətlərini yerinə yetirərkən dövlət hakimiyyətinin nümayəndəsi kimi çıxış edir. Azərbaycan Respublikası ərazisində olan bütün hüquqi və fiziki şəxslər polis əməkdaşının qanuni tələblərini icra etməlidirlər. Həmin Qanunun 10-cu maddəsinin 4-cü hissəsinə görə polis əməkdaşı olmayan dövlət hakimiyyət orqanlarının əməkdaşları ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edildikdə polis əməkdaşının bütün hüquq və vəzifələrinə malik olur.

Hakimiyyət nümayəndəsi öz səlahiyyətini daimi, müvəqqəti və xüsusi tapşırıq üzrə həyata keçirə bilər. Hakimiyyət səlahiyyətlərini xüsusi tapşırıq üzrə həyata keçirmə zamanı şəxs dövlət orqanı və ya yerli özünüidarə orqanında daimi və ya müvəqqəti işləyən şəxs olmur, lakin həmin orqanlarda daimi işləyən şəxslərdən hakimiyyət səlahiyyətlərini həyata keçirmək hüququ alır.

3. Fəaliyyəti ədalət mühakiməsinin və ibtidai istintaqın həyata keçirilməsi ilə əlaqədar olan şəxslər — hakim, prokuror, müstəntiq, təhqiqatçı, icra məmuru CM-in 315-ci maddəsində nəzərdə tutulan «hakimiyyət nümayəndəsi» anlayışına aid deyildir. Bu mənada həmin şəxslərə qarşı onların xidməti vəzifələrinin icrası ilə əlaqədar müqavimət göstərmə və ya zor tətbiq etmə ədalət mühakiməsi əleyhinə olan cinayət kimi qiymətləndirilir.

4. Hər hansı bir dövlət orqanında çalışan, lakin hakimiyyət səlahiyyətinə malik olmayan şəxs (məsələn, texniki işçilər və s.) hakimiyyət nümayəndəsi sayılmır.

5. Hakimiyyət nümayəndəsinin **yaxın qohumları** dedikdə hakimiyyət nümayəndəsinin babası, nənəsi, valideynləri, övladlığa götürənlər, doğma və ögey qardaşları və bacıları, əri (arvadı), uşaqları, övladlığa götürülənlər və nəvələri başa düşülür.

6. **Obyektiv cəhətdən** bu cinayət xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmədə və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya belə zor tətbiq etmək hədəsilə hədələmədə ifadə olunur.

7. **Müqavimət göstərmə** dedikdə xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı fəal qanunazidd hərəkətlərin edilməsi başa düşülməlidir.

8. **Zor tətbiq etmə** dedikdə hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı təsir göstərmə başa düşülür. Belə təsir həm fiziki, həm də psixi zorakılıq formasında təzahür edə bilər.

Fiziki zorakılıq dedikdə hakimiyyət nümayəndəsinin bilavasitə özünə və ya onun yaxın qohumlarına ünvanlanmış onların iradəsinə zidd elə bir qanunsuz fiziki təsir vasitəsi başa düşülür ki, bu vasitələr hakimiyyət nümayəndələrinə qarşı müqavimət göstərmək, onu xidməti vəzifələrini icra etməkdən çəkindirmək, yaxud bu vəzifələri təqsirkar üçün əlverişli olan qanunsuz qayda və metodlarla icra etməyə məcbur etmək və s. məqsədinə xidmət etmiş olsun.

Hakimiyyət nümayəndəsinin bilavasitə şəxsiyyəti əleyhinə yönəlməyən, lakin ona qarşı müqavimət göstərmə metodu olan bəzi qanunsuz hərəkətlər də (məsələn: hakimiyyət nümayəndəsinin paltarını cırma, polisin paqonlarını sökmə və s.) məhkəmə təcrübəsində fiziki zor kimi qiymətləndirilir.

Psixi zorakılıq dedikdə hakimiyyət nümayəndəsinin bilavasitə özünə və ya onun yaxın qohumlarına qarşı fiziki zor tətbiq etmə hədəsi başa düşülür. Bu zaman psixi zor müəyyən xaraktərə malik ola bilər. Lakin psixi zor (zor tətbiq etmək hədəsi) hər bir halda real olmalıdır, yəni onun xarakteri təsdiq etməlidir ki, hazırda və gələcəkdə tətbiq olunmasından asılı olmayaraq belə psixi zorakılıq hərəkətləri istənilən anda təqsirkar tərəfindən həyata keçirilə bilər və zərərçəkənin belə hərəkətlərdən ehtiyatlanmağa real əsasları vardır. Bu halda təqsirkarın həmin hərəkətləri tətbiq etmək arzusunda olub-olmamasının əhəmiyyəti yoxdur.

9. CM-in 315.1-ci maddəsində həyat və sağlamlıq üçün **təhlükəli olmayan** zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmə hərəkətlərinə görə cinayət məsuliyyəti nəzərdə tutulur. **Həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə** dedikdə zərərçəkənin azadlığını məhdudlaşdırma, döyməklə və ya sair zorakı hərəkətlərlə güclü olmayan fiziki ağrı yetirmə başa düşülür. Bu halda göstərilən hərəkətlər 315.1-ci maddənin tərkibi ilə tam əhatə olunduğundan həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddə ilə əlavə tövsif tələb olunmur.

10. Xidməti vəzifəsinin yerinə yetirilməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq edildikdə, təqsirkarın əməli ağırlaşdırıcı tərkib əlamətini nəzərdə

tutan CM-in 315.2-ci maddəsi ilə tövsif olunur.

Həyat və sağlamlıq üçün təhlükəli olan zor dedikdə zərərçəkmiş şəxsin sağlamlığına qəsdən ağır, az ağır və ya yüngül zərər vurma başa düşülür. Zor o halda da həyat və sağlamlıq üçün təhlükəli hesab edilir ki, belə zərər yetirməsə də, tətbiq edilən anda zərərçəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükə yaratmış olsun. Göstərilən hərəkətlər CM-in 315.2-ci maddəsinin tərkibi ilə tam əhatə olunduğundan, CM-in 126.1-ci maddəsinin sanksiyası daha ciddi olsa da belə, əlavə tövsif tələb olunmur.

11. Xidməti vəzifəsini həyata keçirən hakimiyyət nümayəndəsinin və ya onun yaxın qohumlarının sağlamlığına vurulmuş ağır zərər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 315.2-ci və 126.3-cü maddələri ilə tövsif olunur.

12. Hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı zor tətbiq etmə və ya zor tətbiq etmək hədəsi ilə hədələmə yalnız o halda CM-in 315-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur ki, belə hərəkət hakimiyyət nümayəndəsinin xidməti vəzifəsinin yerinə yetirilməsi ilə əlaqədar həyata keçirilmiş olsun. Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrinin icrası zamanı olsa da, onun xidməti vəzifələrinə aid olmayan və digər qanunsuz hərəkətlərinə görə zor göstərmə, zor tətbiq etməklə müqavimət göstərmə CM-in 315-ci maddəsi ilə tövsif oluna bilməz. Bu halda baş vermiş nəticələrdən asılı olaraq təqsirkarın əməli yalnız həyat və sağlamlıq əleyhinə olan cinayət kimi tövsif edilməlidir.

13. Hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı zor tətbiq edildiyi və ya onlar belə zor tətbiq etmə hədəsi ilə hədələndiyi andan şərh olunan cinayət **başa çatmış** sayılır.

14. Şərh olunan cinayəti CM-in 288-ci maddəsində nəzərdə tutulan cinayət tərkibindən fərqləndirmək lazımdır. Əgər hakimə və ya onun yaxın qohumlarına işin və ya müvafiq materialların məhkəmədə baxılması ilə əlaqədar həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq edilərsə, təqsirkarın əməli CM-in 288.3-cü maddəsi, hakimiyyət nümayəndəsi kimi hakimin digər fəaliyyəti ilə əlaqədar ona həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə isə CM-in 315.1-ci maddəsi ilə tövsif olunmalıdır.

15. **Subyektiv cəhətdən** bu cinayət **birbaşa qəsdlə** törədilir. Təqsirkar xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına zor tətbiq etdiyini, zor tətbiq etməklə hədələdiyini dərk edir və belə zor tətbiq etməyi arzu edir. Təqsirkarın qəsdi hər bir halda hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı zor tətbiq edilməsi və ya zor tətbiq etmək hədəsi ilə və bu zorun hakimiyyət nümayəndəsinin xidməti vəzifələrinin icrası ilə əlaqədar tətbiq olunması (cinayətin motivi) faktını əhatə etməlidir. Əks halda, bu maddə ilə cinayət məsuliyyəti istisna olunur.

Məqsəd təhlil olunan cinayət tərkibinin zəruri əlaməti deyil və müxtəlif ola bilər.

16. Cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

17. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olu-

nan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 316. Cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma

316.1. Cinayət haqqında müvafiq orqanlara məlumat vermiş və ya cinayətin aşkar edilməsi, qarşısının alınması, yaxud açılmasında iştirak etmiş şəxs, zərərçəkmiş şəxs, onun nümayəndəsi, şübhəli şəxs, təqsirləndirilən, onların müdafiəçiləri və nümayəndələri, cinayət işi üzrə mülki iddiaçı, mülki cavabdeh, onların nümayəndələri, şahid, ekspert, mütəxəssis, tərcüməçi, hal şahidi və ya onların yaxın qohumları barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılması, əgər bu əməl qulluq mövqeyi ilə əlaqədar ona etibar edilən və ya məlum olan şəxs tərəfindən törədilərsə —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

316.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda —

bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** cinayət prosesində iştirak edən şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət idarəetməsinin əsaslarıdır.

2. Bu cinayətdən zərərçəkmiş şəxs qismində cinayət haqqında müvafiq orqanlara məlumat vermiş və ya cinayətin aşkar edilməsində, qarşısının alınmasında, yaxud açılmasında iştirak etmiş şəxs, cinayət işi üzrə zərərçəkmiş şəxs, onun nümayəndəsi, şübhəli şəxs, təqsirləndirilən şəxs, onların müdafiəçiləri və nümayəndələri, cinayət işi üzrə mülki iddiaçı, mülki cavabdeh, onların nümayəndələri, şahid, ekspert, mütəxəssis, tərcüməçi, hal şahidi və ya onların yaxın qohumları çıxış edir.

Yaxın qohumlar dedikdə valideynlər, uşaqlar, övladlığa götürənlər və götürülənlər, doğma və ögey qardaş və bacılar, nənələr, babalar və nəvələr, habelə ər-arvad başa düşülür.

3. «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin 4-cü bəndinə görə cinayətin törədilməsi nəticəsində dəymiş zərərin ödənilməsi barədə iddiaya dair mülki iş üzrə iddiaçı, cavabdeh və onların nümayəndələri də barəsində təhlükəsizlik tədbirləri tətbiq olunan şəxs hesab olunurlar. Lakin CM-in 316-cı maddəsi göstərilən kateqoriyadan olan şəxsləri bu maddədə nəzərdə tutulan cinayətdən zərərçəkmiş şəxs kimi nəzərdə tutmur.

4. **Obyektiv cəhətdən** bu cinayət göstərilən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılmasında ifadə olunur.

Cinayət prosesində iştirak edən şəxslərin barəsində tətbiq olunan təhlükəsizlik tədbirləri aşağıdakılardır:

1) şəxsi, onun mənzilini və əmlakını mühafizə etmə;

2) şəxsə xüsusi fərdi müdafiə vasitələri vermə, onu mövcud təhlükə barəsində xəbərdar etmə;

3) şəxsi müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirmə;

4) şəxs barəsində olan məlumatların məxfiliyini qoruma;

5) şəxsi başqa işə keçirmə, onun iş və ya təhsil yerini dəyişdirmə, onu başqa yaşayış yerinə köçürmə;

6) şəxsin sənədlərini və ya xarici görkəmini dəyişdirmə;

7) şəxsin iştirak etdiyi məhkəmə baxışının qapalı keçirilməsi (Qanunun 7-ci maddəsi).

Göstərilən təhlükəsizlik tədbirlərindən başqa hərbi qulluqçular barəsində digər hərbi hissəyə və ya idarəyə ezam etmə və yeni xidmət yerinə köçürmə, həbsxanada və ya istintaq təcridxanasında saxlanılan və ya cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər barəsində isə bir həbs yerindən, istintaq təcridxanasından və ya azadlıqdan məhrumetmə yerindən digərinə köçürmə, ayrılıqda və ya birnəfərlik kamerada saxlama və cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulmuş qaydada qətimkan tədbirini dəyişdirmə kimi təhlükəsizlik tədbirləri də görülə bilər (Qanunun 15-ci və 16-cı maddələri).

5. **Təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılması** dedikdə bu məlumatların hər hansı bir üsulla və formada kənar şəxslərin nəzərinə çatdırılması başa düşülür.

6. CM-in 316.1-ci maddəsi üzrə təhlükəsizlik tədbirləri barədə məlumatların yayıldığı və kənar şəxslərə məlum olduğu andan cinayət başa çatmış hesab olunur. Həmin məlumatlardan cinayət prosesində iştirak edən şəxsin mənafeyi zərərinə istifadə edilməsi həmin şəxslər üçün ağır fiziki və maddi (əmlak) nəticələrə səbəb olduqda təqsirkarın əməli CM-in 316.1-ci maddəsinin tərkibi ilə əhatə olunmadığından 316.2-ci maddəsi ilə tövsif edilməlidir.

7. Təhlükəsizlik tədbirləri barəsində məlumatların yayılması ağır nəticələrə səbəb olduqda CM-in 316.2-ci maddəsi üzrə başa çatmış cinayətin tərkibi yaranır. Burada **ağır nəticələr** dedikdə təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılması nəticəsində kənar şəxslərin həmin məlumatlardan istifadə edərək barəsində təhlükəsizlik tədbirləri görülən şəxsləri öldürməsi və ya onları öldürməyə cəhd etməsi, sağlamlığına ağır zərər vurması, onların əmlakını məhv etməsi başa düşülür.

Təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılması ilə əlaqədar baş vermiş və ya baş verə biləcək nəticələrin aradan qaldırılması üçün tələb olunan mühüm maddi məsrəflər də ağır nəticə hesab olunur.

Ağır nəticələrin təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılması ilə **səbəbi əlaqəsi** müəyyən edilməlidir.

8. Cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yalnız həmin tədbirlərin qüvvədə olduğu müddətdə yayılması bu cinayətin tərkibini yaradır. Əgər qanunvericilikdə göstərilən əsaslardan hər hansı biri olduqda (Qanunun 18-ci maddəsi) təhlükəsizlik tədbirləri ləğv olunmuşdursa, bu halda belə tədbirlər barəsində məlumatların yayılması cinayət məsuliyyətini istisna edir.

9. Şərh olunan cinayət **formal** tərkiblidir və təhlükəsizlik tədbirləri haqqında məlumatlar kənar şəxslərə məlum olduğu andan **başa çatmış** hesab edilir. Bu halda kənar şəxs məlumatların həqiqi olduğuna inanmalıdır.

10. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa və ya dolayı qəsdlə** törədilir. Təqsirkar təhlükəsizlik tədbirləri haqqında məlumatları kənar şəxslərə bildirdiyini və ya belə məlumatların kənar şəxslərə məlum olmasına şərait yaradan hərəkətlər etdiyini dərk edir və bunları törətməyi arzu edir, yaxud belə nəticələrə şüurlu surətdə yol verir.

11. Bu cinayətin **subyekti** təhlükəsizlik tədbirləri haqqında məlumatın qulluq mövqeyi ilə əlaqədar etibar edildiyi və ya məlum olduğu şəxslər ola bilər. Belə şəxslərə təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi barədə qərar qəbul etmiş orqanların vəzifəli şəxsləri — hakim, prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs və bu qərar əsasında təhlükəsizlik tədbirlərini həyata keçirən DİN və MTN orqanlarının vəzifəli şəxsləri aiddir (adı çəkilən Qanunun 6-cı maddəsi). Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında qərarın icra olunmaq üçün göndərildiyi idarə, müəssisə və təşkilatların əlaqədar vəzifəli şəxsləri də bu cinayətin subyekti ola bilər (adı çəkilən Qanunun 21-ci maddəsi).

Təhlükəsizlik tədbirlərinin tətbiq olunması haqqında qərar qəbul edən və ya həmin tədbirlərin icrasını həyata keçirən dövlət orqanlarının vəzifəli şəxs olmayan əməkdaşları da (məsələn, sıravi polis işçisi və b.) bu cinayətin subyekti ola bilər.

Göstərilən şəxslər cinayət prosesində iştirak edən şəxslərin təhlükəsizliyinin təmin edilməsi ilə bilavasitə və yaxud dolayı surətdə əlaqədar olduqları üçün həmin tədbirlər barədə məlumatlar onlara qulluq mövqeyinə görə məlum olur və yaxud etibar edilir.

Maddə 316-1. İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma

316-1.1. İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplama, yaxud qəsdən yayma —

beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

316-1.2. Eyni əməllər təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

316-1.3. Eyni əməllər ağır nəticələrə səbəb olduqda —

bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə «konfidensial məlumat» dedikdə yayılması insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yaradan hər hansı məlumat başa düşülür *(Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» qəzeti, 26 oktyabr 2005-ci il; 7 iyun 2008-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Şərh olunan maddədə nəzərdə tutulan cinayətin **obyekti** insan alverindən zərərçəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət idarəetməsinin əsaslarını müəyyən edən ictimai münasibətlərdir.

2. Bu cinayətdən **zərərçəkmiş şəxs** qismində alqı-satqı və ya sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilmiş, əldə edilmiş, saxlanılmış, gizlədilmiş, daşınmış, verilmiş və ya qəbul edilmiş şəxslər, başqa sözlə, barəsində CM-in 144-1.1-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin edildiyi şəxslər çıxış edə bilər.

3. Bu cinayətin **predmetini** insan alveri cinayətindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatlar təşkil edir.

Şərh olunan maddənin qeydinə görə, **konfidensial məlumat** dedikdə yayılması insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yaradan hər hansı məlumat başa düşülür. Belə məlumatlara barəsində təhlükəsizlik tədbirləri tətbiq edilmiş zərər çəkmiş şəxsin saxlandığı yer və ya xarici görkəmini dəyişdirməsi haqqında məlumatlar, onun istismar edilməsi zamanı cinsi zorakılığa məruz qoyulmasına dair məlumatlar və s. aid edilə bilər.

İnsan alverindən zərər çəkmiş şəxsin **yaxın qohumları** dedikdə onun valideynləri, uşaqları, övladlığa götürənlər və götürülənlər, doğma və ögey qardaş və bacıları, nənələri, babaları və nəvələri, habelə ər-arvad başa düşülür.

İnsan alverinə qarşı mübarizəyə **yardım göstərən şəxslərə** dövlət və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının, qeyri-hökumət təşkilatlarının əməkdaşları, vəzifəli şəxslər, habelə hər hansı başqa şəxslər aiddir. İnsan alverinə qarşı mübarizəyə **göstərilən yardım** insan alverçilərinin Azərbaycan Respublikasının dövlət və gömrük sərhədlərini keçməsinin, habelə insan alverindən zərərçəkmiş şəxslərin Azərbaycan Respublikasının dövlət və gömrük sərhədlərindən keçirilməsinin aşkar edilməsində və aradan qaldırılmasında, bu cür əməllərin qarşısının alınmasında, insan alveri qurbanlarının müəyyən edilməsi və onlar barəsində tətbiq edilən təhlükəsizlik tədbirlərinin təmin edilməsində, habelə insan alveri ilə bağlı cinayətlər üzrə səlahiyyətləri daxilində əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsində xüsusi polis qurumuna kömək göstərilməsində və s. ifadə oluna bilər.

İnsan alverindən zərər çəkmiş şəxs (şəxslər), onun (onların) yaxın qohumları, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslər barəsində məlumatların konfidensiallığı, həmin məlumatların sadalanan şəxslərin həyat və sağlamlığına təhlükə yaradan məlumatlar olması ilə müəyyən olunur. İnsan alverindən zərər çəkmiş şəxs (şəxslər), onun (onların) yaxın qohumları, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslər barəsində

onların həyat və sağlamlığına təhlükə yaradan məlumatlar elə məlumatlardır ki, onların yayılması sadalanan şəxslərin qətlə yetirilməsinə, sağlamlıqlarına hər hansı zərərin yetirilməsinə səbəb ola bilər. Təhlükə real olmalıdır.

Qanunverici yalnız insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yaradan məlumatları konfidensial məlumatlar hesab edir. Qanunsuz toplanması və ya yayılması sadalanan şəxslərin şərəf və ləyaqətinin alçaldılmasına səbəb ola biləcək məlumatlar konfidensial məlumatlar sayılmır.

İnsan alverindən zərər çəkmiş şəxs barəsində, onun həyatının və sağlamlığının, şərəf və ləyaqətinin müdafiəsi məqsədilə təhlükəsizlik tədbirləri (şəxsi, onun mənzilini və əmlakını mühafizə etmə; şəxsə xüsusi fərdi müdafiə vasitələri vermə, onu mövcud təhlükə barəsində xəbərdar etmə; şəxsi müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirmə; şəxs barəsində olan məlumatların məxfiliyini qoruma; şəxsi başqa işə keçirmə, onun iş və ya təhsil yerini dəyişdirmə, onu başqa yaşayış yerinə köçürmə; şəxsin sənədlərini və ya xarici görkəmini dəyişdirmə; şəxsin iştirak etdiyi məhkəmə baxışının qapalı keçirilməsi) tətbiq edilə bilər. Təhlükəsizlik tədbirləri «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının 11 dekabr 1998-ci il tarixli Qanununa uyğun həyata keçirilir. («İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi).

İnsan alverindən zərər çəkmiş şəxs barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatlar da şərh olunan maddədə nəzərdə tutulan konfidensial məlumatlar sırasına aiddir. Ona görə də insan alverindən zərər çəkmiş şəxs barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatın yayılması CM-in 316-cı maddəsi ilə deyil, 316-1-ci maddəsi ilə tövsif olunmalıdır. Burada ümumi norma (CM-in 316-cı maddəsi) ilə xüsusi norma (CM-in 316-1-ci maddəsi) arasında rəqabət yarandığından xüsusi norma tətbiq edilməlidir (CM-in 17.4-cü maddəsi).

4. Şərh olunan cinayət **obyektiv cəhətdən** aşağıdakı əməllərin törədilməsində ifadə olunur:

1) insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplama;

2) insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qəsdən yayma.

5. **İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplama** dedikdə belə məlumatların şəxsin özündən, ailə üzvlərindən, yaxın qohumlarından, tanışlarından, zərərçəkmiş şəxsin əlaqəli olduğu yerlərdən (onun evindən, iş yerindən, müalicə olunduğu və ya müayinədən keçdiyi səhiyyə müəssisəsindən və s.-dən) alınması başa düşülür. Toplama açıq və ya gizli üsulla, şifahi və ya yazılı formada həyata keçirilə bilər. Cinayətin edilmə üsulu bu cinayət tərkibinin zəruri əlaməti deyildir.

İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatlar, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozmaqla

qanunsuz toplanırsa, bu, cinayətlərin məcmusu qaydasında — CM-in 155-ci və 316-1-ci maddələri ilə tövsif olunmalıdır.

6. CM-in 316-1-ci maddəsi insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların **qanunsuz** toplanmasına görə cinayət məsuliyyəti nəzərdə tutur. Toplamanın **qanunsuzluğu** onda ifadə olunur ki, həmin məlumatlar: 1) onların aid olduğu şəxsin razılığı olmadan və ya; 2) cinayət təqibi üzrə ibtidai araşdırma ilə əlaqədar müvafiq qərar olmadan və ya; 3) səlahiyyətli olmayan şəxs tərəfindən toplanır.

7. CM-in şərh olunan 316-1-ci maddəsinin qüvvəsi insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların qanuni toplanması hallarına şamil edilə bilməz. Məlumatların qanuni toplanması hallarına cinayət təqibi gedişində və yalnız CPM-də müəyyən edilmiş hallarda və qaydada, yaxud şəxsin özünün razılığı ilə həmin məlumatların toplanılması aiddir. CPM-də nəzərdə tutulmuş hallar və əsaslar (müvafiq qərar) olmadan, yaxud səlahiyyətli olmayan şəxs tərəfindən məlumatların toplanması şərh olunan cinayətin tərkibini yaradır.

8. **İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qəsdən yayma** dedikdə həmin məlumatların başqa şəxslərə verilməsi (çatdırılması, bildirilməsi) başa düşülməlidir. Belə verilmə (çatdırılma, bildirilmə) şifahi və ya yazılı formada həyata keçirilə bilər. İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları həm belə məlumatları toplayan şəxs, həm də belə məlumatları toplamayan, lakin onlar haqqında məlumatı olan şəxs yaya bilər.

İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qəsdən yayma istənilən üsulla: həmin məlumatların satılması və ya başqa hər hansı formada özgəninkiləşdirilməsi, kütləvi informasiya vasitələrində bu haqda informasiya verilməsi yolu ilə və s. həyata keçirilə bilər.

9. Bu cinayət **formal** tərkiblidir və insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların qanunsuz toplandığı, yaxud qəsdən yayıldığı (kənar şəxslərə məlum olduğu) andan **başa çatmış** hesab olunur. Bu halda kənar şəxs məlumatların həqiqi olduğuna inanmalıdır. Nəticə şərh olunan cinayət tərkibindən kənarda qalır.

İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların qanunsuz toplanması, yaxud qəsdən yayılması nəticəsində insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin qəsdən öldürülməsi, yaxud sağlamlıqlarına ağır zərər yetirilməsi, əgər bu cinayətləri məlumatları qanunsuz toplayan, yaxud qəsdən yayan şəxs törətmişdirsə, cinayətlərin məcmusu qaydasında – CM-in 120-ci və ya 126-cı və 316-1-ci maddəsi ilə tövsif olunmalıdır. Qəsdən adam öldürmə, yaxud sağlamlığa ağır zərər vurma cinayətlərini başqa şəxslər törədərsə, onların əməli yalnız CM-in 120-ci və ya 126-cı maddələri ilə tövsif olunmalıdır. CM-in 316-1-ci maddəsində göstərilən cinayətin törədilməsinin nəticəsi olaraq hər hansı başqa bir cinayət törədildikdə də əməl eyni qaydada tövsif edilməlidir.

10. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir.

Şəxs insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz topladığını və qəsdən yaydığını dərk edir və həmin əməlləri törətməyi arzu edir. Cinayətin motivi (tamah və ya sair motiv) cinayət tərkibinin zəruri əlaməti deyildir.

11. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. CM-in 316-1.2-ci maddəsində nəzərdə tutulan cinayətin subyekti isə öz qulluq mövqeyindən istifadə edən şəxsdir.

CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

12. CM-in 316-1.2-ci maddəsi insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplamanın və qəsdən yaymanın **ağırlaşdırıcı tərkib əlamətini** — eyni əməllərin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsini nəzərdə tutmuşdur. **Qulluq mövqeyindən istifadənin** anlayışı haqqında CM-in 308-ci maddəsinin şərhinə bax.

Vəzifəli şəxsin öz qulluq mövqeyindən istifadə etməklə insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplaması və qəsdən yayması CM-in 316-1.2-ci maddəsinin tərkibi ilə tam əhatə olunduğu üçün CM-in 308-ci maddəsi ilə əlavə tövsif tələb olunmur.

13. CM-in 316-1.2.3-cü maddəsi şərh olunan cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətini** - insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların qanunsuz toplaması və ya qəsdən yayılmasının ağır nəticələrə səbəb olmasını nəzərdə tutur.

İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların qanunsuz toplaması və ya qəsdən yayılması ağır nəticələrə səbəb olduqda CM-in 316-1.2.3-cü maddəsi üzrə başa çatmış cinayətin tərkibi yaranır. Burada **ağır nəticələr** dedikdə insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatların qanunsuz toplaması və ya qəsdən yayılması nəticəsində kənar şəxslərin həmin məlumatlardan istifadə edərək barəsində məlumatlar yayılan şəxsləri öldürməsi və ya öldürməyə cəhd etməsi, sağlamlığına ağır zərər vurması, onların əmlakını məhv etməsi başa düşülür. Konfidensial məlumatların qanunsuz toplaması və ya qəsdən yayılması ilə əlaqədar baş vermiş və ya baş verə biləcək nəticələrin aradan qaldırılması üçün tələb olunan mühüm maddi məsrəflər də ağır nəticə hesab olunmalıdır.

Ağır nəticələrin konfidensial məlumatların qanunsuz toplaması və ya qəsdən yayılması ilə **səbəbli əlaqəsi** müəyyən edilməlidir.

Maddə 316-2. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatları yayma

316-2.1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər haqqında şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlumatların, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, yayılması —

min manatdan üç min manatadək miqdarda cərimə və ya üç iləd

müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir iləd müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

316-2.2. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlumatların, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, yayılması —

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç iləd müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki iləd müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli Qanunu ilə əlavə edilmişdir — «Azərbaycan» q., 24 iyul 2009-cu il).*

1. CM-in 316-2-ci maddəsində nəzərdə tutulan cinayətin **əsas obyekti** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların sirrinin mühafizəsinin və belə məlumatların yayılmasının qarşısının alınmasının təmin edilməsi sahəsində dövlət idarəetməsinin əsaslarını müəyyən edən ictimai münasibətlərdir. **Əlavə obyekt** qismində dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyini və s. təmin edən ictimai münasibətlər çıxış edir.

2. Şərh olunan cinayət hüquq normasında öz əksini tapan maddə **blanket dispozisiyalıdır**. Cinayət tərkibinin obyektiv cəhətinin və subyektinin bir çox əlamətləri «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununda, «Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2009-cu il tarixli Fərmanında, «Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatların tərtib olunma formasının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 iyul 2009-cu il tarixli, 112 saylı Qərarında, habelə Azərbaycan Respublikasının 1 mart 2003-cü il tarixli 420-IIQ saylı Qanunu ilə ratifikasiya edilmiş «Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında» 8 noyabr 1990-cı il tarixli Avropa Şurasının Konvensiyasında və sair normativ aktlarda nəzərdə tutulmuşdur.

3. CM-in 316-2-ci maddəsində **iki müstəqil cinayət tərkibi** nəzərdə tutulmuşdur: 1) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər haqqında şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlumatların, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, yayılması (CM-in 316-2.1-ci maddəsi); 2) terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlu-

matların, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, yayılması (CM-in 316-2.2-ci maddəsi). Bu cinayətin iki tərkib şəklində göstərilməsinin səbəbi terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların yayılmasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların yayılmasından daha çox ictimai təhlükəliliyə malik olması ilə izah edilməlidir. Burada əsas fərqləndirici meyar kimi CM-in 316-2.1-ci və 316-2.2-ci maddələrində adları çəkilən cinayətlərin, yəni «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma» (CM-in 193-1-ci maddəsi) və «Terrorçuluğu maliyyələşdirmə» (CM-in 214-1-ci maddəsi) cinayətlərinin ictimai təhlükəliliyi çıxış edir.

4. CM-in 316-2.1-ci maddəsində təsbit edilən cinayətin **predmetini** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına, CM-in 316-2.2-ci maddəsində göstərilən cinayətin **predmetini** isə terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında **məlumatlar** təşkil edir.

5. CM-in 316-2.1-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər haqqında şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlumatların yayılmasında (qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla) ifadə olunur.

CM-in 316-2.2-ci maddəsində nəzərdə tutulan cinayətin **obyektiv cəhəti** isə terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlumatların yayılmasında (qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla) ifadə olunur.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın, habelə həmin pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının anlayışı haqqında CM-in 193-1-ci maddəsinin, terrorçuluğun maliyyələşdirilməsinin anlayışı haqqında isə CM-in 214-1-ci maddəsinin şərhinə bax.

6. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı **həyata keçirilən tədbirlərə** daxildir: 1) monitorinq; 2) hüquqi şəxs olan monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən daxili nəzarət sisteminin hazırlanması və tətbiq edilməsi; 3) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında müştərinin və ya digər şəxslərin məlumatlandırılmasının qadağan olunması; 4) Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri ilə müəyyən edilmiş digər tədbirlər («Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununun 3-cü maddəsi).

Monitorinq dedikdə pul vəsaitləri və ya digər əmlakla aparılmış əməliyyatlar barədə monitorinq iştirakçıları, monitorinqdə iştirak edən digər şəxslər və

ya nəzarət orqanları tərəfindən təqdim edilən, eləcə də mənbəyi məlum digər məlumatlar əsasında maliyyə monitorinqi orqanı tərəfindən həyata keçirilən nəzarət tədbirləri başa düşülür.

Hüquqi şəxs olan monitorinq iştirakçıları tərəfindən hazırlanan **daxili nəzarət sistemi** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə hüquqi şəxs olan monitorinq iştirakçıları tərəfindən həyata keçirilən kompleks daxili nəzarət tədbirləridir. Yuxarıda adı çəkilən Qanunun 12-ci maddəsinə görə hüquqi şəxs olan monitorinq iştirakçılarının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə **daxili nəzarət sistemi** ibarətdir: 1) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə daxili qayda və prosedurların hazırlanmasından; 2) müştərilərin, onların adından çıxış edən səlahiyyətli nümayəndələrin, benefisiarların, əməliyyatların eyniləşdirilməsinə və verifikasiyasına, müştərinin və benefisiarın xarici dövlətlərin siyasi xadimlərinə aid olduğunun müəyyən edilməsinə imkan verən daxili, mərkəzləşdirilmiş arxivin yaradılmasından; 3) məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsinə dair qaydaların hazırlanmasından; 4) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə əməkdaşlara mütəmadi təlimlərin keçirilməsindən; 5) monitorinq iştirakçılarının fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla, monitorinq olunmalı əməliyyatların aşkarlanması meyarlarının müəyyən edilməsindən; 6) əməliyyatın həyata keçirilməsinin dayandırılması ilə əlaqədar meydana çıxa biləcək problemlərin həlli istiqamətində tədbirlərdən; 7) qanunla tələb olunan qaydaların monitorinq iştirakçıları tərəfindən tətbiq olunmasının səmərəliliyini yoxlayan daxili audit mexanizmindən; 8) hüquqi şəxs olan monitorinq iştirakçılarında rəhbərlik, habelə struktur bölmələrinin rəhbərliyi səviyyəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə daxili qayda və prosedurların həyata keçirilməsinə nəzarət etməyə, maliyyə monitorinqi orqanı ilə məlumat mübadiləsini həyata keçirməyə, həmçinin monitorinq olunmalı əməliyyatlarla bağlı müvafiq hesabatları hazırlamağa və təqdim etməyə məsul şəxsin təyin edilməsindən; 9) fəaliyyət xüsusiyyətindən asılı olaraq, işə qəbul və işçilərin yoxlanması mexanizmlərinin, habelə xarakteri şübhə doğuran hər hansı əməliyyatın aşkarlanması, qarşısının alınması və lazımi məlumatların maliyyə monitorinqi orqanına təqdim olunması üzrə digər mexanizm və qaydaların hazırlanmasından.

7. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən **tədbirlər haqqında məlumatlar** dedikdə adı çəkilən Qanunun 3-cü maddəsində əksini tapan tədbirlər haqqında məlumatlar: maliyyə monitorinqi orqanı, yəni Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən həyata keçirilən nəzarət tədbiri kimi **monitorinq**, onun keçirilməsi tarixi, monitorinq olunmalı əməliyyatlar, monitorinq olunmalı əməliy-

yatların aşkarlanması meyarları, həyata keçirilən əməliyyatın məbləği, müştəri və benefisiar, daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar haqqında məlumatlar, habelə belə məlumatların Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə verilməsinə dair məlumatlar və s. başa düşülməlidir.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən **tədbirlər haqqında məlumatların dairəsinə** adı çəkilən Qanunun 3-cü maddəsində əksini tapan tədbirlər haqqında məlumatlar daxildir. Həmin maddədə göstərilən tədbirlərin bütün təfərrüatları haqqında deyil, bəziləri haqqında məlumatların yayılması şərh olunan maddə ilə cinayət məsuliyyətinə səbəb olur. Başqa sözlə, CM-in 316-2.1-ci və 316-2.2-ci maddələrində təsbit edilən cinayətlərin predmetini təşkil edən məlumatların həcmi məhdudlaşdırıcı təfsir edilməlidir. Məsələn, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə daxili qayda və prosedurların hazırlanması (daxili nəzarət sisteminin tərkib hissəsi olaraq) haqqında məlumatın yayılması şərh olunan maddə ilə cinayət məsuliyyətini istisna edəcəkdir.

8. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların **qanunvericiliklə nəzərdə tutulmuş hallarda** monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər, onların əməkdaşları, habelə nəzarət orqanlarının əməkdaşları olmayan digər şəxslərə məlum olması şərh olunan maddə ilə cinayət məsuliyyətini istisna edir. **Qanunvericiliklə nəzərdə tutulmuş hallar** dedikdə həmin məlumatların yalnız cinayət prosesini həyata keçirən orqanlar tərəfindən cinayət təqibi ilə əlaqədar tələb edildiyi hallar başa düşülməlidir. Bu halda həmin məlumatlar yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında cinayət prosesini həyata keçirən orqanlara verilə bilər («Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununun 11.6-cı maddəsi).

9. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında **məlumatların yayılması** dedikdə şəxsə qulluq mövqeyi ilə əlaqədar etibar edilmiş və ya məlum olmuş məlumatlardan, həmin şəxsin əməlinin (hərəkət və ya hərəkətsizliyinin) nəticəsi olaraq belə məlumatlardan xəbəri olmalı olmayan şəxsin (şəxslərin) xəbərdar olması (olmaları) başa düşülməlidir. Məlumatların yayılması həm də belə məlumatların əks olunduğu istənilən məlumat daşıyıcısının (kağızın, kompüter disklərinin və s.) yayılmasını nəzərdə tutur. Məlumatların yayılması **üsulları** müxtəlif ola bilər: məlumatların (onların hər hansı formalı daşıyıcısının) belə məlumatlarla tanış olmaq hüquq olmayan şəxslərə verilməsi, qəsdən başqa şəxslərin görmək imkanlarının olduğu yerdə qoyulması, kütləvi informasiya vasitələrində, o cümlədən internetdə yerləşdirilməsi, oğurlanması, hər hansı formada özgəninkiləşdirilməsi yolu

ilə və s. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatlar yazılı, şifahi, elektron daşıyıcılar **formasında** və s. formalarda yayıla bilər.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatlar həm belə məlumatları **toplayan şəxs**, həm də belə məlumatları toplamayan, lakin onlar haqqında **məlumatı olan şəxs** tərəfindən yayıla bilər.

10. Şərh olunan cinayətlər obyektiv cəhətdən həm **hərəkətlə**, həm də **hərəkətsizliklə** törədilə bilər. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların **hərəkətlə yayılması hallarına** belə məlumatların və ya onların əks olunduğu sənədlərin və predmetlərin kənar adamlara verilməsi (çatdırılması), həmin məlumatların kənar şəxslərə göstərilməsi və s. aid edilə bilər.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların **hərəkətsizliklə yayılması hallarına** belə məlumatların əks olunduğu sənədləri kənar adamların oxuya biləcəyi yerdə qoyub getməni, həmin məlumatların məxfiliyinin saxlanılması üçün zəruri olan tədbirlərin görülməməsini və s aid etmək olar.

11. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların belə məlumatlarla tanış olmaq hüququ olmayan şəxsə (şəxslərə) məlum olduğu andan CM-in 316-2.1-ci və 316-2.2-ci maddələrində göstərilən cinayətlər **başa çatmış** sayılır. Məlumatların yayılmasına yönələn hərəkətlərin nəticəsi olaraq belə məlumatlar başqa şəxslərə məlum olmadıqda şərh olunan maddədə əksini tapan cinayətə cəhd mövcud olacaqdır.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatlarda kommersiya (bank) və ya dövlət sirrini təşkil edən məlumatlar olduqda və təqsirkar belə məlumatların da olduğunu dərk etdikdə, həmin məlumatların (belə məlumatların əks olunduğu sənədlərin və ya başqa məlumat daşıyıcılarının) yayılması müvafiq tərkib əlamətləri olduqda CM-in 202-ci və 316-2.1-ci və ya 316-2.2-ci, yaxud 284-cü və 316-2.1-ci və ya 316-2.2-ci maddələri ilə **cinayətlərin məcmusu qaydasında** tövsif edilməlidir. Təqsirkarın əməlində dövlətə xəyanətin əlamətləri olduqda isə əməl CM-in 274-cü və 316-2.1-ci və ya 316-2.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin məcmusu ilə tövsif olunmalıdır.

12. CM-in 316-2.1-ci və 316-2.2-ci maddələrində təsbit olunan cinayətlərin hər ikisi **subyektiv cəhətdən birbaşa** və ya **dolayı qəsdlə** törədilir. Birbaşa qəsdlə törədildikdə şəxs cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qar-

şı həyata keçirilən tədbirlər haqqında məlumatları yaydığını dərk edir və belə məlumatları yaymağı arzu edir. Şəxs cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatları yaydığını dərk etdikdə və onların yayılmasını arzu etməyərək şüurlu surətdə belə məlumatların yayılmasına yol verdikdə, cinayət **dolayı qəsdlə** törədilmiş olacaqdır.

Cinayətin motivi və məqsədi cinayət tərkibinin zəruri əlaməti deyildir, ona görə də şərh olunan cinayətlər istənilən motiv və məqsədlə törədilə bilər.

13. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. CM-in 316-2.1-ci və 316-2.2-ci maddələrində təsbit olunan cinayətlərin hər ikisinin subyekti cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər haqqında məlumatların qulluq mövqeyi ilə əlaqədar etibar edildiyi və ya məlum olduğu şəxslər ola bilər. «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununun təhlili həmin subyektlərin belə qruplaşdırılmasına imkan verir:

1) monitorinq iştirakçıları, onların əməkdaşları (adı çəkilən Qanunun 4-cü maddəsində monitorinq iştirakçılarının siyahısı verilir);

2) monitorinqdə iştirak edən digər şəxslər (vəkillər, notariuslar, hüquqi xidmət göstərən digər şəxslər və ya auditor xidməti göstərən şəxslər);

3) nəzarət orqanlarının rəhbər işçiləri və əməkdaşları (adı çəkilən Qanunun 6-cı maddəsində nəzarət orqanlarının siyahısı verilir);

4) Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatlara münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin rəhbər işçiləri və əməkdaşları;

5) Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin rəhbər işçiləri və əməkdaşları.

«Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanununun 16.1-ci maddəsinə əsasən bank sirrinin və ya qanunla qorunan digər sirrin qorunması rejiminə əsaslanaraq məlumatların (dövlət sirrini təşkil edən məlumatlar istisna olmaqla) maliyyə monitorinqi orqanına təqdim edilməsindən imtina oluna bilməz. Ona görə də cinayətin subyektləri sırasında 1-4-cü bəndlərdə göstərilən şəxslər monitorinq olunmalı əməliyyatlar barədə məlumatları qanuni tələblərə uyğun olaraq maliyyə monitorinqi orqanına təqdim etdikdə, bank sirri və ya qanunla qorunan digər sirrin yayılmasına, eləcə də məlumatın yayılması nəticəsində dəymiş maddi və mənəvi ziyana görə hər hansı hüquqi məsuliyyətə cəlb oluna bilməzlər.

14. CM-in 316-2-ci maddəsi üzrə cinayət məsuliyyəti məsələsini həll edərkən nəzərə almaq lazımdır ki, CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, bu maddədə təsbit olunan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 317. Cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının normal fəaliyyətini pozma

317.1. Cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının əməkdaşını, habelə məhkumu onun islah olunmasına mane olmaq və ya ictimai vəzifələrini yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədi ilə zor tətbiq etməklə hədələmə —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

317.2. Bu Məcəllənin 317.1-ci maddəsində göstərilən şəxslər barəsində onların həyat və sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etmə —

beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

317.3. Bu Məcəllənin 317.1 və ya 317.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən və ya həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh olunan cinayətin **obyekti** cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının normal fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

CİM-ə görə cəzaçəkmə müəssisələrinə müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə cəzalarının icra edildiyi cəzaçəkmə müəssisələri, yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisələri, yetkinlik yaşına çatmış şəxslər üçün müxtəlif rejimli cəzaçəkmə müəssisələri (məntəqə tipli cəzaçəkmə müəssisələri, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələri), həbsxanalar və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələri aiddir.

İstintaq təcridxanalarına daxili işlər və dövlət təhlükəsizliyi xidməti orqanlarının istintaq təcridxanaları aiddir. İstintaq təcridxanaları, penitensiar müəssisə olmaqla, təsərrüfat və məişət xidməti işlərinə görə bu müəssisədə saxlanılan məhkumlar üçün cəzaçəkmə müəssisələrinin vəzifələrini yerinə yetirirlər (CİM-in 66.1-ci maddəsi).

2. Bu cinayətdən **zərərçəkmiş şəxs** qismində iki kateqoriyadan olan şəxslər çıxış edir: 1) cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının əməkdaşları; 2) müəyyən müddətə və ya ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş və cəzasını çəkməkdə olan məhkumlar.

Cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının **əməkdaşı** dedikdə xidmət etmə qaydası və şərtləri normativ aktla müəyyən edilən, xüsusi rütbəsi olan şəxslər başa düşülür.

Məhkum dedikdə haqqında məhkəmənin ittiham hökmü qüvvəyə minmiş şəxs başa düşülür.

Şərh edilən cinayət üzrə islah olunmaq yoluna qədəm qoyub-qoymamasından asılı olmayaraq, istənilən məhkum zərərçəkmiş şəxs ola bilər. Əhəmiyyət-

lisi odur ki, məhkum onun islah olunmasına mane olmaq və ya ictimai vəzifələrini yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədilə zor tətbiq edilələri yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədilə zor tətbiq edilə-cəyi ilə hədəyə məruz qalsın (CM-in 317.1-ci maddəsi), yaxud ona həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq edilsin (CM-in 317.2-ci maddəsi).

Barəsində məhkəmənin hökmü qüvvəyə minməmiş şəxsə (təqsirləndirilən şəxsə, şübhəli şəxsə), ondan ictimai vəzifələrini yerinə yetirməsinə görə intiqam almaq məqsədi ilə zor tətbiq etmə və ya onu zor tətbiq etməklə hədələmə CM-in 317-ci maddəsi ilə deyil, şəxsiyyətin sağlamlığı əleyhinə olan müvafiq cinayəti nəzərdə tutan maddə ilə tövsif olunmalıdır.

İctimai vəzifələrini yerinə yetirməsinə görə intiqam almaq məqsədi ilə məhkumu qəsdən öldürmə CM-in 120.2.3-cü maddəsi ilə tövsif edilməlidir.

3. **Obyektiv cəhətdən** bu cinayət cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının normal fəaliyyətini pozmada ifadə olunur. Bu müəssisələrin normal fəaliyyətini pozma dedikdə onların əməkdaşını, habelə məhkumu onun islah olunmasına mane olmaq və ya ictimai vəzifələrini yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədi ilə zor tətbiq etməklə hədələmə, onların barəsində zor tətbiq etmə başa düşülür.

4. Cinayətin obyektiv cəhətini təşkil edən hərəkətləri iki qrupa ayırmaq olar: 1) zor tətbiq etməklə hədələmə (CM-in 317.1-ci maddəsi); 2) zor tətbiq etmə (CM-in 317.2-ci və 317.3-cü maddələri).

Zor tətbiq etməklə hədələmə psixi zorakılıq olmaqla bilavasitə zərərçəkmiş şəxsin özünə qarşı yönəlməli və real olmalıdır. Bu barədə 315-ci maddənin şərhinə bax.

5. CM-in 317-ci maddəsi zərərçəkmiş şəxslərə qarşı edilən zorakı hərəkətləri onların təhlükəliliyi baxımından iki qrupa bölür: 1) həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə (CM-in 317.2-ci maddəsi); 2) həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə (CM-in 317.3-cü maddəsi).

Həyat və sağlamlıq üçün təhlükəli olan və təhlükəli olmayan zor tətbiq etmə haqqında CM-in 315-ci maddəsinin şərhinə bax.

Zərərçəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etmə ağır, az ağır və ya yüngül zərər vurmanı nəzərdə tutur. Zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurma ehtiyatsızlıqdan ölümə səbəb olduqda, əməl əlavə olaraq CM-in 126.3-cü maddəsi ilə tövsif olunmalıdır.

6. Bu cinayətin **mütəşəkkil dəstə** tərəfindən törədilməsi cinayətin **ağırlaşdırıcı** tərkib əlamətidir (CM-in 317.3-cü maddəsi). Mütəşəkkil dəstənin anlayışı haqqında CM-in 34.3-cü maddəsinə bax.

7. Cəzaçəkmə müəssisələrinin əməkdaşlarını və ya məhkumları zor tətbiq etməklə hədələmə (CM-in 317.1-ci maddəsi), onlara qarşı zor tətbiq etmə (CM-in 317.2-ci və 317.3-cü maddələri) və ya göstərilən əməllərdən hər hansı birinin mütəşəkkil dəstə tərəfindən edilməsi (CM-in 317.3-cü maddəsi) anından cinayət **başa çatmış** hesab olunur. Təqsirkarın hədələməklə cəzaçəkmə müəssisələrinin normal fəaliyyətini pozmağa nail olub-olmaması əməlin tövsifi üçün heç bir əhəmiyyət kəsb etmir.

8. **Subyektiv cəhətdən** CM-in 317.1-ci maddəsində nəzərdə tutulan cinayət birbaşa qəsdlə törədilir. Cəzaçəkmə müəssisələrinin və istintaq təcridxa-

nalarının əməkdaşını zor tətbiq etməklə hədələmə və ya ona qarşı zor tətbiq etmədə məqsəd cinayət tərkibinin zəruri əlaməti hesab olunmur. Lakin göstərilən hərəkətlərin məhkumlara qarşı edilməsi yalnız CM-in 317.1-ci maddəsində göstərilən məqsədlə — məhkumun islah olunmasına mane olmaq və ya ictimai vəzifələrini yerinə yetirməsinə görə məhkumdan intiqam almaq məqsədi ilə həyata keçirilməsi şərh olunan cinayətin tərkibini yaradır. Belə məqsəd olmadan məhkumlara qarşı göstərilən hərəkətlərdən hər hansı birinin edilməsi bu maddə ilə deyil, həyat və sağlamlıq əleyhinə yönələn cinayət kimi tövsif olunmalıdır.

Həyat və sağlamlıq üçün təhlükəli olmayan (CM-in 317.2-ci maddəsi) zor tətbiq etmədə ifadə olunan hərəkətlər subyektiv cəhətdən birbaşa və dolayı qəsdlə törədilə bilər. CM-in 317.3-cü maddəsi üzrə də cinayətin subyektiv cəhəti birbaşa və dolayı qəsdlə xarakterizə olunur.

9. Cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının əməkdaşlarını zor tətbiq etməklə hədələmənin və ya onlara qarşı zor tətbiq etmənin məqsədi CM-in 317-ci maddəsində birbaşa göstərilməsə də, bu cinayətin qəsd etdiyi münasibətlərin xarakterinə və qanunun mənasına görə, həmin müəssisələrin əməkdaşlarına onların xidməti fəaliyyəti ilə əlaqədar olmayan və ya qanunsuz hərəkətlərinə görə zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə CM-in 317-ci maddəsi ilə tövsif oluna bilməz. Bu halda təqsirkarın əməli həyat və sağlamlıq əleyhinə yönələn cinayət kimi qiymətləndirilir.

10. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs — məhkəmənin hökmü ilə müəyyən müddətə və ya ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş və cəzasını çəkməkdə olan şəxslər, müstəntiqin, prokurorun və ya məhkəmənin qərarına əsasən təqsirləndirilən şəxs və ya şübhəli şəxs qismində tanınan və istintaq təcridxanalarında saxlanılan şəxslər ola bilər.

14 yaşından 16 yaşınadək olan məhkumlar, şübhəli şəxslər və təqsirləndirilən şəxslər bu maddədə göstərilən əməlləri törətdikdə onlar yalnız həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə məsuliyyətə cəlb oluna bilərlər.

Maddə 317-1. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların verilməsi və ya ötürülməsi

317-1.1. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların yoxlamadan gizlətməklə və ya hər hansı digər üsulla verilməsi və ya ötürülməsi —

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

317-1.2. Eyni əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 25 dekabr 2007-ci il ta-*

rixli Qanunu ilə əlavə edilmiş, 16 may 2008-ci il tarixli Qanunu ilə düzəliş edilmişdir — «Azərbaycan» q., 30 dekabr 2007-ci il; 7 iyun 2008-ci il).

1. CM-in şərh edilən maddəsində təsbit edilmiş cinayətin **obyekti** cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının normal fəaliyyətinin və həmin təsisatlarda daxili intizamın təmin edilməsi üzrə idarəetmə zamanı yaranan ictimai münasibətlərdir.

2. **Cəzaçəkmə müəssisələri** dedikdə müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzalarına məhkum edilmiş şəxslərin saxlandığı yerlər başa düşülməlidir. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 66.1-ci maddəsinə əsasən cəzaçəkmə müəssisələri yetkinlik yaşına çatmayan şəxslər üçün tərbiyə müəssisələrindən, yetkinlik yaşına çatmış şəxslər üçün müxtəlif rejimli cəzaçəkmə müəssisələrindən, həbsxanalardan və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrindən ibarətdir. İstintaq təcridxanaları təsərrüfat və məişət xidməti işlərinə görə bu müəssisədə saxlanılan məhkumlar üçün cəzaçəkmə müəssisələrinin vəzifələrini yerinə yetirirlər.

CM-in şərh edilən maddəsini tətbiq edərkən nəzərə almaq lazımdır ki, intizam xarakterli hərbi hissələr təhlil edilən normada nəzərdə tutulmuş mənada cəzaçəkmə müəssisəsi deyildir.

İstintaq təcridxanası dedikdə isə barəsində həbs növündə qətimkan tədbiri seçilmiş şəxslərin saxlandığı həbsdə saxlama yerləri başa düşülür. Nəzərə almaq lazımdır ki, inzibati qaydada həbsə məruz qalmış şəxslərin saxlandığı yerlər, habelə müvəqqəti saxlama məntəqələri istintaq təcridxanası deyildir.

3. CM-in 317-1-ci maddəsində təsbit edilmiş cinayətin **predmeti** qismində cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında saxlanılan şəxslər tərəfindən **saxlanması qadağan olunmuş əşyalar** göstərilmişdir.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 74.4-cü maddəsinə əsasən cəzanın icrası qaydalarını təmin etmək məqsədilə məhkumlara pul, qiymətli kağız və qiymətli əşyalar, həmçinin cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarında göstərilmiş başqa əşyalar saxlamaq və onlardan istifadə etmək qadağan olunur.

«Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 22 may 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun 12.2-ci və 32.2-ci maddələrinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən həbs yerlərində hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və istifadəsi qadağan olunmuş əşyaların, habelə həbs yerində saxlanılan tutulmuş və ya həbs edilmiş şəxslərə digər şəxslər tərəfindən yoxlamadan gizlətməklə və ya hər hansı digər üsulla verilməsi və ya ötürülməsi qadağan olunmuş əşyaların siyahısı Daxili intizam qaydaları ilə müəyyən olunur.

Cəzaçəkmə müəssisələrinin Daxili intizam Qaydaları Azərbaycan Respublikası Ədliyyə Nazirinin 29 dekabr 2011-ci il tarixli, 7-N saylı əmri ilə təsdiq edilmişdir. Daxili İntizam Qaydalarına 6 nömrəli Əlavədə cəzaçəkmə müəssisələrində məhkumlara verilməsi və ya ötürülməsi, habelə onlar tərəfindən hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi qadağan olunmuş əşyaların Siyahısı nəzərdə tutulmuşdur. Həmin əşyalara aiddir: 1) odlu və

soyuq silahların bütün növləri, döyüş sursatları, partlayıcı maddələr və onların hissələri, xüsusi vasitələr, zəhərli (insan həyatı üçün təhlükəli olan) maddələr; 2) konstruksiyasına görə soyuq silaha oxşar kəsici və deşici alətlər; 3) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları; 4) güclü təsir edən dərman vasitələri; 5) spirtli içkilərin bütün növləri, pivə, spirt qarışığı olan maddələr; 6) radiodalğaların (elektromaqnit dalğalarının) ötürücü-boğucu qurğuları, radioelektron cihazlar və elementlər, dinləmə qurğuları və gizli kameraların detektorları (aşkaredici qurğular); 7) radioqəbuledici və ötürücülərin bütün növləri, peycer, mobil telefon, faks, kompüter, internet şəbəkəsinə daxil olmaq üçün vasiteçi qurğular; 8) müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, milli, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrlər, audio-video daşıyıcıları.

Şərh edilən cinayətin predmetini təşkil edən əşyalardan bəziləri yalnız funksional təyinatı üzrə yararlı olduqda bu cinayətin predmeti hesab edilə bilər (məsələn, istifadə üçün yararsız mobil telefon bu cinayətin predmeti ola bilməz).

4. CM-in 317-1-ci maddəsində göstərilmiş cinayət tərkibinin **obyektiv cəhəti** ictimai təhlükəli əməli, habelə bu əməlin törədilməsi üsulunu özündə əks etdirmişdir.

5. Şərh olunan maddədə **cəzaçəkmə müəssisəsində saxlanılan şəxs** dedikdə məhkəmənin hökmü ilə məhkum edilmiş və cəzaçəkmə müəssisəsində cəzasını çəkməkdə olan şəxs başa düşülməlidir.

İstintaq təcridxanasında saxlanılan şəxs dedikdə isə barəsində həbs növündə qətimkan tədbiri seçilmiş və istintaq təcridxanasına yerləşdirilmiş şəxslər, başqa iş üzrə təqsirləndirilən şəxs və ya şahid olduğuna görə məhkəmənin qərarına əsasən istintaq təcridxanasına gətirilmiş məhkumlar, barəsində hökm qanuni qüvvəyə minmiş, lakin həbsdə saxlanılmış şəxslər, ekstradisiya qaydasında verilmək üçün həbs edilmiş və istintaq təcridxanasına yerləşdirilmiş şəxslər, təsərrüfat və məişət xidməti işlərinə görə istintaq təcridxanasında saxlanılmış məhkumlar başa düşülməlidir.

CM-in şərh edilən maddəsi tətbiq edilərkən nəzərə almaq lazımdır ki, cəzaçəkmə müəssisəsində və istintaq təcridxanasında saxlanılan şəxslərə cinayətin predmeti olan əşyaları təkcə həmin təsisatların daxilində yox, həm də bu təsisatlardan kənarda, lakin nəzarət altında (məsələn, məhkəmə prosesində iştirak etmək üçün məhkəməyə gətirilərkən və ya məhkəmə binasında və s.) olarkən vermə və ötürmə də bu cinayət tərkibini yaradacaqdır. Belə təsisatlardan kənarda nəzarət altında olmadıqları hallarda (məsələn, məhkum qısa müddətə səfər etdikdə və ya cəzaçəkmə müəssisəsindən qaçdıqda və s.) onlara həmin əşyaların verilməsi və ötürülməsi isə CM-in 317-1-ci maddəsi üzrə tövsif edilə bilməz.

6. Qadağan olunmuş əşyaların cəzaçəkmə müəssisəsində saxlanılan şəxslərə **verilməsi** dedikdə həmin əşyaların bu təsisatlarda saxlanılan şəxslərə təqsirkar tərəfindən bilavasitə çatdırılması, təqdim edilməsi başa düşüləcəkdir.

7. Qadağan olunmuş əşyaların **ötürülməsi** isə onların başqa şəxslər (nəzarətçilər, digər məhbuslar, görüşə gələnlər və s.) vasitəsi ilə, müxtəlif əşyaların, bağlamaların və s. arasında gizlətməklə, nəzərdə tutulmuş şəxsin götür-

məsi üçün qabaqcadan razılaşdırılmış yerə qoymaqla, cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının pəncərəsindən içəri atmaqla, bu təsisatların həyətinə, konkret nəzərdə tutulmuş şəxsin olduğu və ya olacağı qabaqcadan razılaşdırılmış yerə atmaqla, başqa əşya adı altında və s. yolla çatdırılması kimi başa düşülməlidir.

8. Təhlil edilən cinayətin **törədilmə üsulu** kimi yoxlamadan gizlətmə və ya hər hansı digər üsul göstərilmişdir.

Yoxlamadan gizlətmə dedikdə cəzaçəkmə müəssisəsinə gəlib-gedən və bu təsisatlara gətirilən əşyalar barəsində tətbiq edilən yoxlama tədbirləri vasitəsi ilə qadağan edilmiş əşyaların aşkar edilməməsi üçün müxtəlif hərəkət və ya hərəkətsizliklərin edilməsi başa düşülməlidir. Gizlətmə ən müxtəlif yollarla – başqa əşyaların, qida məhsullarının içərisində gizlətməklə, şəxsin öz üstündə, bədəninin daxilində gizlətməsi ilə, başqa əşyalara oxşatmaqla və s. yollarla edilə bilər.

Hər hansı digər üsul isə qadağan olunmuş əşyaların cəzaçəkmə müəssisəsində saxlanılan şəxslərə verilməsinin və ya ötürülməsinin yoxlamadan gizlətmədən başqa istənilən üsulunu – həmin əşyaların pəncərədən içəri atmaqla, qabaqcadan razılaşdırılmış yerə qoymaqla, bu təsisatların həyətinə atmaqla, nəzarətçini ələ almaqla və ya ona hədə-qorxu gəlməklə və s. yolla çatdırılmasını nəzərdə tutur.

9. Şərh edilən cinayət **formal tərkib** vasitəsi ilə təsbit edilmişdir və qadağan edilmiş əşyanın cəzaçəkmə müəssisəsində və ya istintaq təcridxanasında saxlanılan şəxsə verildiyi və ya ötürüldüyü andan başa çatmış olacaqdır. Qadağan olunmuş əşya verilərkən və ya ötürülərkən yoxlama zamanı aşkar edilərsə, CM-in 317-1-ci maddəsində nəzərdə tutulmuş əməli törətməyə cəhd (CM-in 29-cu maddəsi) mövcud olacaqdır.

10. Əgər cəzaçəkmə müəssisəsində saxlanılan şəxslərə verilən və ya ötürülən əşyalar CM-in 228-ci, 233-1-ci və 234-cü maddələrinin predmeti olan əşyalara aid olarsa, onda təqsirkarın əməli **cinayətlərin məcmusu** qaydasında CM-in 317-1-ci və konkret əşyadan asılı olaraq müvafiq digər maddəsi üzrə tövsif ediləcəkdir.

11. CM-in 317-1-ci maddəsində nəzərdə tutulmuş əməl subyektiv cəhətdən **birbaşa qəsdlə** törədilir.

12. Şərh edilən maddədə təsbit edilmiş cinayətin **subyekti** 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs ola bilər. Qadağan olunmuş əşya başqa şəxs vasitəsilə ötürüldükdə, belə bir əşyanı cəzaçəkmə müəssisəsində və ya istintaq təcridxanasında saxlanılan şəxsə çatdırdığını dərk edən **vasitəçi** olmuş şəxs də eyni əsaslarla cinayət məsuliyyətinə cəlb ediləcəkdir.

13. CM-in 317-1.2-ci maddəsində cəzaçəkmə müəssisəsində və ya istintaq təcridxanasında saxlanılan şəxslərə qadağan edilmiş əşyaların verilməsinin və ya ötürülməsinin **ağırlaşdırıcı tərkib əlaməti** — həmin əməlin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədilməsi göstərilmişdir.

Qulluq mövqeyindən istifadə etməklə cinayət törətməyin anlayışı CM-in 308-ci maddəsinin şərhində verilmişdir.

CM-in 317-1.2-ci maddəsində nəzərdə tutulmuş əməlin **subyektləri** qismində cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının nəzarətçiləri və başqa vəzifəli şəxsləri, təhqiqat və istintaq aparan şəxslər, prokurorlar və başqa dövlət orqanlarının vəzifəli şəxsləri çıxış edə bilər. Vəkillərin müdafiəçi və ya nümayəndə funksiyasını yerinə yetirərkən CM-in şərh edilən maddəsində göstərilən əməli törətməsi CM-in 317-1.2-ci deyil, 317-1.1-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olacaqdır.

Maddə 317-2. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi

317-2.1. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi —

altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

317-2.2. Eyni əməllər təkrar törədildikdə —

iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 25 dekabr 2007-ci il tarixli Qanunu ilə əlavə edilmişdir — «Azərbaycan» q., 30 dekabr 2007-ci il).*

1. CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin **obyekti və predmeti** CM-in 317-1-ci maddəsində təsbit edilmiş cinayət tərkibinin obyekti və predmeti ilə eynidir (CM-in 317-1-ci maddəsinin şərhinə bax).

2. **Cəzaçəkmə müəssisələrinin** və **istintaq təcridxanalarının** anlayışı barədə CM-in 317-1-ci maddəsinin şərhinə bax.

3. CM-in 317-2-ci maddəsində göstərilmiş cinayət tərkibinin **obyektiv cəhəti** qadağan olunmuş əşyalar barəsində törədilən aşağıdakı **alternativ hərəkətləri** nəzərdə tutur: belə əşyaları hazırlama, saxlama, gəzdirmə, daşıma və onlardan istifadə etmə.

4. Bu hərəkətlərdən dördünün – **hazırlamanın, saxlamanın, gəzdirmənin və daşımanın** mahiyyəti CM-in 228-ci və 229-cu maddələrində nəzərdə tutulmuş analoji kriminal əməllərin mahiyyəti ilə eynidir (həmin maddələrin şərhinə bax).

5. Qadağan olunmuş əşyaların **istifadəsi** dedikdə sözün birbaşa mənasında həmin əşyalardan funksional təyinatına uyğun və ya başqa məqsədlə faydalanma başa düşülməlidir. Lakin fikrimizcə, CM-in şərh edilən maddəsinin dispozisiyasında işlədilmiş «istifadə» sözü məhdud təfsir edilməlidir. Bu normada qadağan olunmuş əşyaların istifadəsi dedikdə həmin əşyalardan rejim qaydalarına zidd olaraq, bu təsisatlardakı intizam qaydalarını pozmaq üçün, habelə kriminal niyyətlə istifadə etmə başa düşülməlidir (məsələn, məhbus yoldaşının saxladığı bıçaqla meyvə kəsən məhbusu qadağan edilmiş əşyadan istifadəyə görə cinayət məsuliyyətinə cəlb etmək düzgün olmaz, lakin başqa məhbusun saxladığı mobil telefondan danışmaq üçün istifadə edən məhbus qadağan edilmiş əşyadan istifadəyə görə cinayət məsuliyyətinə cəlb edilməlidir, çünki o, rejim qaydalarını pozmuşdur).

6. Məhkum və ya həbsdə olan şəxs başqasının saxladığı və ya təsadüfən tapdığı qadağan olunmuş əşyadan istifadə etdikdə də əməl CM-in 317-2-ci maddəsi üzrə tövsif ediləcəkdir.

Eyni bir şəxs hər hansı qadağan olunmuş əşya barəsində CM-in 317-2-ci

maddəsinin dispozisiyasında göstərilən alternativ hərəkətlərdən bir neçəsini etdikdə onun əməli cinayətlərin məcmusu və ya təkrarlıq kimi deyil, vahid cinayət kimi tövsif ediləcəkdir.

7. CM-in şərh edilən maddəsində nəzərdə tutulan cinayət **formal tərkib** vasitəsi ilə ifadə olunmuşdur, ona görə də dispozisiyada sadalanan hərəkətlər edildiyi andan **başa çatmış** olacaqdır. Əməl saxlama, gəzdirmə və daşıma hərəkəti ilə törədildikdə davam edən cinayət mövcud olacaqdır və həmin hərəkətlərin edilməyə başladığı andan cinayət başa çatmış hesab ediləcəkdir.

8. Təhlil edilən maddədə nəzərdə tutulan cinayət subyektiv cəhətdən **birbaşa qəsdlə** törədilə bilər.

9. CM-in 317-2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti xüsusidir**; cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında saxlanılan şəxs (CM-in 317-1-ci maddəsinin şərhinin 5-ci bəndinə bax).

10. CM-in 317-2.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** – bu əməlin təkrar törədilməsi təsbit edilmişdir.

Təkrarlıq o halda mövcud olacaqdır ki, CM-in 317-2-ci maddəsində göstərilən əməli əvvəllər törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş, yaxud həmin əmələ görə əvvəl cinayət məsuliyyətinə cəlb edilmiş şəxs məsuliyyətdən azad edilməmiş yenidən həmin əməli törətsin. CM-in 317-2-ci maddəsində göstərilən cinayəti törətmiş şəxs məhkum edildikdə, lakin məhkumluğu götürülməmiş və ya ödənilməmiş dövrdə yenidən həmin cinayəti törətdikdə, bu, cinayətin residivi sayılır.

Maddə 318. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə

318.1. Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə —

min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

318.2. Bu Məcəllənin 318.1-ci maddəsində nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, yaxud zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədildikdə —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş siyasi sığınacaq hüququndan istifadə etmək məqsədi ilə Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini keçmə qaydalarını pozmaqla Azərbaycan Respublikasına gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxsə, onun hərəkətlərində başqa cinayət tərkibi yoxdursa, bu maddənin müddəaları şamil edilmir *(Azərbaycan Respublikasının 26 dekabr 2000-ci il, 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — Azərbaycan Respublikası QT, 2001, № 1, m. 24; «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sahəsində dövlət idarəçiliyinin əsasları və dövlət sərhədi rejimidir.

2. Təhlil edilən cinayət **obyektiv cəhətdən** Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmədə ifadə olunur.

3. Azərbaycan Respublikasının sərhədini keçmə qaydaları Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» 9 dekabr 1991-ci il tarixli Azərbaycan Respublikası Qanunu, «Pasportlar haqqında» 14 iyun 1994-cü il tarixli Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikası Milli Məclisinin 29 noyabr 1994-cü il tarixli 928 saylı qərarı ilə təsdiq edilmiş «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə ilə, habelə beynəlxalq müqavilələrlə müəyyən olunur.

Hava gəmiləri Azərbaycan Respublikasından yola düşərkən beynəlxalq uçuşlar üçün açıq olan sərhəd qoşunlarının nəzarət-buraxılış məntəqələri və gömrük idarələri olan aeroportlardan (aerodromlardan) uçur, Azərbaycan Respublikasına gəldikdən sonra həmin aeroportlara (aerodromlara) enirlər.

4. Azərbaycan Respublikasının **dövlət sərhədi** Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səthdir («Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» Qanunun 1-ci maddəsi).

5. Dövlət sərhədini keçmənin qanunsuzluğu aşağıdakı iki hərəkətdən hər hansı birinin edilməsində ifadə olunur:

1) dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan keçmə;

2) dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə.

«Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Qanuna əsasən dövlət sərhədini keçmək (Azərbaycan Respublikasına gəlmək və ya Azərbaycan Respublikasından getmək) üçün zəruri olan sənədlər müxtəlifdir və bu, dövlət sərhədini keçən şəxsin yaşından, vətəndaşlığından, diplomatik vəzifə mənsubiyyətindən və qanunda göstərilən sair hallardan asılıdır.

Həmin Qanuna görə, vətəndaşın ölkədən getmək və ya ölkəyə gəlmək hüququ yalnız vətəndaşın pasportu (ümumvətəndaş, xidməti və diplomatik pasport) və ölkəyə daxil olmaq üçün rəsmiləşdirilmiş icazə — viza əsasında həyata keçirilir.

18 yaşına çatmamış vətəndaş öz valideynlərinin və ya qanuni nümayəndəsinin notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı ilə ölkədən gedə bilər. Valideynlərdən birinin bu barədə razılığı olmadıqda 18 yaşına çatmamış vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

18 yaşına çatmamış vətəndaşın daimi yaşayış üçün ölkədən getməsinə yalnız onun valideynlərinin hər birinin və ya qanuni nümayəndəsinin yazılı şəkildə ifadə edilmiş və notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı olduqda yol verilir.

Fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilmiş vətəndaş ölkədən öz qanuni nümayəndəsinin notarius tərəfindən təsdiq edilmiş vəsatəti və ya məhkəmənin qərarı əsasında qanuni nümayəndənin müşayiəti ilə gedir.

Müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular istisna olunmaqla, Azərbaycan Respublikası Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələrdə qulluq edən hərbi qulluqçular komandanlığın müəyyən olunmuş qaydada rəsmiləşdirilmiş icazəsi olduqda Azərbaycan Respublikasından gedə bilərlər.

Xaricə daimi yaşayış üçün gedən vətəndaşlar ölkəyə müvəqqəti yaşamaq üçün pasport vasitəsilə gəlirlər, daimi yaşayış üçün ölkəyə qayıtmaqdan ötrü isə onların pasportlarında Azərbaycan Respublikasının xaricdəki konsulluğunda uçotdan çıxarılma barədə qeyd olmalıdır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər şəxsi pasportları və beynəlxalq müqavilələrə uyğun olaraq rəsmiləşdirilmiş icazə — viza əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər.

Azərbaycan Respublikasında qeydiyyatda olan və dənizçilik məqsədi ilə istifadə edilən gəmilərdə hər hansı dənizçi vəzifəsində işləyən vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququ Azərbaycan Respublikası Milli Məclisinin 1 fevral 2008-ci il tarixli Qanunu ilə təsdiq etdiyi «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»yə uyğun olaraq həyata keçirilir.

6. **Dövlət sərhədini müəyyən olunmuş sənədlər olmadan keçmə** dövlət sərhədini keçmək üçün qanunvericiliklə tələb olunan sənədlərin olmadığı hallarda və ya həmin sənədlərin etibarlı olmadığı hallarda (sənədlərin saxtalaşdırılması, qanunsuz hazırlanması, onların mətninə yalan məlumatların daxil edilməsi, sənədlərin forma və məzmunca qanunun tələblərinə uyğun gəlməməsi və s.) dövlət sərhədini keçmədən ibarətdir.

7. «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» Qanunun 9-cu maddəsinin 1-ci hissəsinə görə Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində sərhəd mühafizə dəstəsinin nəzarət-buraxılış məntəqələri — gömrük idarələri yaradılır. Qanunvericiliyə görə ölkəyə gələn və ölkədən gedən vətəndaşların buraxılışı həmin məntəqələrdə həyata keçirilir.

Nəzarət-buraxılış məntəqələri dedikdə dəmir yol vağzalının, avtovağzalın, dəniz və çay limanlarının, aeroport və aerodromların hüdudlarındakı müəyyən ərazilər, həmçinin sərhəd və digər növ yoxlamaların aparıldığı xüsusi təchiz olunmuş yerlər nəzərdə tutulur. Belə məntəqələrdən kənarda dövlət sərhədini keçmə qadağandır və CM-in 318-ci maddəsinin tərkibini yaradır.

8. CM-in 318.2-ci maddəsi bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətlərini** nəzərdə tutur. Ağırlaşdırıcı əlamətlərə bu cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi (CM-in 34.2-ci maddəsinin şərhinə bax), mütəşəkkil dəstə tərəfindən törədilməsi (CM-in 34.3-cü maddəsinin şərhi), zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədilməsi aiddir.

Zor tətbiq etmə əlaməti, qəsdən sağlamlığa ağır zərər vurma istisna olmaqla, fiziki təsirin bütün formalarını əhatə edir. Zor tətbiq etmə və zor tətbiq etməklə hədələmə sərhəd qoşunlarının hərbi qulluqçularına, gömrük, pasport və sərhəd nəzarəti işçilərinə və sərhədi keçənlər üzrə nəzarət funksiyasını yerinə

yetirən sair şəxslərə münasibətdə həyata keçirilə bilər.

Zor tətbiq olunması nəticəsində zərərçəkənin sağlamlığına qəsdən ağır zərər vurulduqda təqsirkarın əməli CM-in 126-cı və 318.2-ci maddəsi ilə cinayətlərin məcmusu qaydasında tövsif olunur. Əgər təqsirkar şəxs sərhədi qanunsuz keçmək məqsədi ilə adam öldürmüşdürsə və ya öldürməyə cəhd etmişdirsə, onun əməli CM-in 120-ci (29-cu və 120-ci maddələri) və 318-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

9. Şərh olunan cinayət **formal** tərkiblidir və Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən olunmuş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə anından cinayət **başa çatmış** sayılır.

Dövlət sərhədi buraxılış məntəqələrinin nəzarət xətti ilə üst-üstə düşmədikdə bu xətti keçmə (müvafiq sənədlər və icazə olmadan) dövlət sərhədini qanunsuz keçməyə cəhd kimi tövsif olunmalıdır.

Dövlət sərhədini keçməyə hazırlıq CM-in 28.2-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətinə səbəb olmur.

10. Cinayətin törədilməsi üsulu müxtəlif (dövlət sərhədini piyada və ya nəqliyyat vasitəsilə keçmə, gizli və ya açıq surətdə keçmə, leqal — nəzarət-buraxılış məntəqələrindən və ya qeyri-leqal — nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə və s.) ola bilər və bunlar cinayətin tövsifi baxımından əhəmiyyət kəsb etmir.

11. Əgər dövlət sərhədini qanunsuz keçmə beynəlxalq uçuş qaydalarının pozulması ilə müşayiət olunmuşdursa, onda təqsirkarın əməli CM-in 270-ci və 318-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif olunacaqdır.

12. Azərbaycan Respublikasının dövlət sərhədini keçmənin qanunsuzluğu yalnız dövlət sərhədi müəyyən olunmuş sənədlər olmadan keçmədən və ya nəzarət-buraxılış məntəqələrindən kənarda keçmədən ibarət olduqda, cinayət məsuliyyətinə səbəb olur.

13. **Subyektiv cəhətdən** bu cinayət **birbaşa qəsdlə** törədilir. Təqsirkar müəyyən edilmiş sənədlər olmadan və ya nəzarət-buraxılış məntəqələrindən kənarda dövlət sərhədini keçdiyini dərk edir və bunu arzu edir.

14. Cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş siyasi sığınacaq hüququndan istifadə etmək məqsədi ilə Azərbaycan Respublikassının mühafizə olunan dövlət sərhədini keçmə qaydalarını pozmaqla Azərbaycan Respublikasına gəlmiş əcnəbi və vətəndaşlığı olmayan şəxs bu cinayətin subyekti hesab edilmir (CM-in 318-ci maddəsinin qeydi). Həmin şəxslər hərəkətlərində başqa cinayətin tərkibi olduqda, həmin cinayətə görə cinayət məsuliyyəti daşıyırlar.

Maddə 318-1. Qanunsuz miqrasiyanın təşkili

318-1.1. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə —

dörd min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

318-1.2. Eyni əməllər:

318-1.2.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

318-1.2.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

318-1.2.3. təkrar törədildikdə;

318-1.2.4. insan həyatı üçün təhlükəli üsulla törədildikdə —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 3 dekabr 2013-cü il tarixli, 833-IVQD nömrəli Qanunu ilə əlavə edilmişdir; 31 may 2017-ci il tarixli Qanunla edilmiş düzəlişlərlə — «Respublika» q., 30 dekabr 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. CM-in 318-1-ci maddəsində əks olunan cinayətin ictimai təhlükəliliyi onda ifadə olunur ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz olaraq (qadağan edilmiş hallarda) Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Respublikası ərazisində qalması, habelə onların Azərbaycan Respublikasının ərazisindən üçüncü ölkəyə keçidi Azərbaycan Respublikası sərhədlərinin toxunulmazlığını pozmaqla yanaşı, milli və dövlət təhlükəsizliyini təhdid edən fəaliyyətin (respublikanın ərazisində terrorçuluq əməllərinin törədilməsi, narkotik vasitələrin və psixotrop maddələrin, odlu silahların, döyüş sursatlarının qanunsuz dövriyyəsinin təşkili və s.) həyata keçirilməsinə şərait yaradır.

2. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının dövlət sərhədlərinin toxunulmazlığını, sərhədlərin idarə edilməsini təmin edən ictimai münasibətlərdir.

3. Şərh olunan cinayətin **obyektiv cəhəti** bir hərəkətin - əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmənin törədilməsində ifadə olunur.

Cinayətin **obyektiv cəhətini yaradan** hərəkət müxtəlif məzmuna malik formalarda təzahür edir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin: 1) Azərbaycan Respublikasına qanunsuz gəlməsini təşkile tmə; 2) Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını təşkil etmə; 3) Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini təşkil etmə; 4) hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə.

Əcnəbi Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxs, **vətəndaşlığı olmayan şəxs** isə heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxsdir (Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.1-ci və 3.0.2-ci maddələri).

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini təşkil etmədə ifadə olunan hərəkət Azərbaycan Respublikasına qanunsuz gəlmənin bütün hallarını əhatə edir. Quru, hava və su sərhədlərindən Azərbaycan Respublikasına gəlmə, buradan getmə və ya Azərbaycan Respublikası ərazisindən tranzit keçid şərh olunan maddə ilə cinayət məsuliyyətinin yaranması üçün əsasdır.

Azərbaycan Respublikasına qanunsuz gəlmənin, buradan getmənin, bu ərazidən tranzit keçidin qanuni və qadağan edilmiş halları Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində öz əksini tapmışdır.

Miqrasiya Məcəlləsinin 15.1-15.3-cü və 15.5-ci maddələrinə görə Azərbaycan Respublikasına gəlmə o hallarda qanuni sayılır ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri, viza tələb olunduğu hallarda viza əsasında Azərbaycan Respublikasına gəlmiş olsunlar (xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilələr bağlanmış olduğu hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına vizasız qaydada gələ bilərlər). Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən «Yol sənədi» əsasında viza almadan Azərbaycan Respublikasına gələ bilərlər.

Deməli, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədinin buraxılış məntəqələrindən **kənar yerlərdən**, habelə sadalanan **sənədlər olmadan** Azərbaycan Respublikasına gəlməsini təşkil etmə qanunsuz sayılmalı və bu əməl şərh olunan maddə ilə cinayət məsuliyyətinə səbəb olmalıdır.

Aşağıdakı əsaslar olduqda da Azərbaycan Respublikasına gəlmə qanunsuz sayılır:

1) milli təhlükəsizlik və ya ictimai asayişin mühafizəsi, yaxud Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə;

2) şəxsin sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətməsi və ya transmilli mütəşəkkil cinayətkar dəstənin üzvü olması barədə məlumat olduqda;

3) şəxs Azərbaycan Respublikasının vətəndaşlarına və ya Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə;

4) şəxs əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıldıqda, əgər ölkəyə girişinə qoyulmuş məhdudiyyət müddəti bitməmişdirsə;

5) şəxsin Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;

6) şəxs əvvəllər Azərbaycan Respublikasında olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda;

7) şəxs Azərbaycan Respublikasına gəlməsi haqqında vəsatət qaldırarkən, özü və ya səfərinin məqsədi haqqında yalan məlumat verdikdə;

8) şəxs miqrasiya qanunvericiliyini pozduğuna görə son üç il ərzində iki dəfə və ya daha çox inzibati məsuliyyətə cəlb olunduqda.

Azərbaycan Respublikasına qanunsuz gəlmənin sadalanan bütün hallarında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişinə 5 il müddətinə qadağa qoyulur.

Deməli, sadalanan halların yarandığı andan etibarən **5 il müddətində** əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi qanunsuz hesab edilir və onların belə qanunsuz gəlməsini təşkil etmə şərh olunan maddə ilə cinayət məsuliyyətinə səbəb olur.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Respublikasında olması və ya yaşaması Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, onun dünyəvi xarakterinə, Azərbaycan xalqının vahidliyinə, ölkənin milli təhlükəsizliyinə, ictimai asayişə və ya əhalinin sağlamlığına zərər vura biləcəyi hallarda, habelə Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən həmin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə olması arzuolunmaz (persona non qrata) hesab edilə bilər. Şəxsin arzuolunmaz hesab edilməsi 5 il müddətinə müəyyən edilir (Miqrasiya Məcəlləsinin 23.1-23.2-ci maddələri).

Arzuolunmaz hesab edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 5 il müddətində Azərbaycan Respublikasına gəlməsini təşkil etmə də qanunsuz sayılır və CM-in 318-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaradır.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına **qanunsuz gəlməsini təşkil etmə** dedikdə onların dövlət sərhədinin buraxılış məntəqələrindən kənar yerlərdən keçməsi üçün yer (yerlər) müəyyən etmə, həmin yerlərdən keçmək üçün şərait yaratma (başqa şəxslərin köməyini təmin etmə və s.), qanunvericiliklə müəyyən edilmiş sənədlər olmadan Azərbaycan Respublikasına gəlmək üçün dövlət sərhədinin buraxılış məntəqələrinin, digər dövlət orqanlarının vəzifəli şəxslərinin ələ alınması, habelə saxta sənədlər düzəltmə və s. başa düşülür.

4. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikası ərazisində **qanunsuz qalması** onların Azərbaycan Respublikasına qanunsuz gəlmələrinin davamıdır. Başqa sözlə, Azərbaycan Respublikasına qanunsuz gələn əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikası ərazisində qalması da avtomatik olaraq qanunsuz sayılmalıdır. Miqrasiya Məcəlləsinin 19.4-19.5-ci maddələrində nəzərdə tutulmuş hallarda tranzit keçid zamanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vizada göstərilən müddətdən artıq Azərbaycan Respublikasının ərazisində məcburi dayanması (Azərbaycan Respublikasında müvəqqəti olma müddəti Miqrasiya Məcəlləsinin 41–43-cü maddələrinə uyğun olaraq məcburi dayanmanın səbəbləri aradan qalxanadək artırıldıqda) onların Azərbaycan Respublikası ərazisində qanunsuz qalması hesab edilmir.

Miqrasiya Məcəlləsinin 20-ci maddəsinə görə viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb

olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz. Bu müddət bitənədək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti uzadılmamışdırsa, onlara müvəqqəti yaşamaq üçün icazə verilməmişdirsə, habelə onlardan müvəqqəti olma müddətinin uzadılması və ya müvəqqəti yaşama icazəsinin verilməsi üçün ərizə qəbul edilməmişdirsə, onların Azərbaycan Respublikasının ərazisində qalmaları qanunsuz hesab edilir və onların Azərbaycan Respublikasının ərazisində qalmalarını təşkil etmə şərh olunan maddə ilə məsuliyyət yaradır.

Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxs arzuolunmaz hesab edildikdə, həmin şəxs qərar qəbul edildiyi andan ölkədə olma və ya yaşama hüququnu itirir (Miqrasiya Məcəlləsinin 23.3-cü maddəsi). Həmin andan etibarən arzuolunmaz hesab edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Respublikasında qalmasını təşkil etmə də qanunsuz sayılır və CM-in 318-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaradır.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikası ərazisində **qanunsuz qalmasını təşkil etmə** dedikdə onların dövlət orqanlarından gizlənməsini, onlara sığınacaq verilməsini təmin etmə, onlara məişət şəraiti yaratma, saxta sənədlər (müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri və s.) düzəltməklə onların sərbəst fəaliyyətini dəstəkləmək və s. başa düşülür. Təşkil etmə hərəkətləri CM-in başqa maddələri ilə məsuliyyət yaradan əməllərin törədilməsi ilə müşayiət edildikdə, şəxsin əməli CM-in 318-1-ci maddəsi və müvafiq maddə ilə cinayətlərin (məsələn, rüşvət vermə, rəsmi sənədlərin saxtalaşdırılması) məcmusu qaydasında tövsif edilməlidir.

5. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikası ərazisindən **tranzit keçidinin** qanuni halları Miqrasiya Məcəlləsi ilə müəyyən edilir.

Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi dedikdə onların hər hansı bir dövlətdən Azərbaycan Respublikasının ərazisinə girişi və Azərbaycan Respublikasının ərazisində müəyyən olunmuş marşrut üzrə hərəkət edərək üçüncü ölkəyə çıxışı başa düşülür.

Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi tranzit vizası ilə həyata keçirilir. Deməli, tranzit vizası olmadan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qanunsuz sayılmalıdır. Tranzit vizası olmadan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidini təşkil etmə hər hansı üsulla (məsələn, sərhəd məntəqələrində sənədləri yoxlayan şəxslərin, yaxud tranzit keçidə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Dövlət Miqrasiya Xidmətinin səlahiyyətli şəxslərinin ələ alınması yolu ilə) onların viza tələb edilmədən respublika ərazisinə buraxılmasına kömək göstərmə başa dü-

şülür. **Saxta tranzit vizası** düzəltməklə (məsələn, buna hüququ olmayan şəxsə Azərbaycan Respublikası ilə vizasız gediş-gəliş haqqında müqaviləsi olan dövlətin vətəndaşının pasportunu düzəltmə) əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidini təşkil etmə də CM-in 318-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaradır.

Miqrasiya Məcəlləsinin 23.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən arzuolunmaz hesab edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidini təşkil etmə də də qanunsuz sayılır və CM-in 318-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaradır.

Tranzit keçidin qanunsuz olub-olmaması məsələsi müəyyən edilərkən Miqrasiya Məcəlləsi 19.3-cü maddəsində təsbit edilmiş tranzit vizası tələb olunmayan halların nəzərə alınması zəruridir.

6. CM-in 318-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaradan hallardan biri də hər hansı şəxsin Azərbaycan Respublikasından **qanunsuz getməsini** təşkil etmədir. Qanunverici maddənin dispozisiyasında «hər hansı şəxs» ifadəsini işlətməklə ona işarə etmişdir ki, bu əlamət ilə cinayət məsuliyyətinin yaranması üçün Azərbaycan Respublikasından qanunsuz getməsi təşkil edilmiş şəxs qismində əcnəbi, vətəndaşlığı olmayan şəxs və ya Azərbaycan Respublikasının vətəndaşı çıxış edə bilər.

Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportları və ya digər sərhədkeçmə sənədləri və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə bilərlər. Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən «Yol sənədi» əsasında Azərbaycan Respublikasından gedə bilərlər (Miqrasiya Məcəlləsinin 15.4-15.5-ci maddələri). Qeyd olunan hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sadalanan sənədlər olmadan Azərbaycan Respublikasından getmələri qanunsuz sayılır və qanunsuz getməni təşkil edən şəxsin əməli şərh olunan maddə ilə tövsif edilməlidir.

Miqrasiya Məcəlləsinin 17.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasından getməsi müvəqqəti məhdudlaşdırılmış şəxslərin də Azərbaycan Respublikasından getməsinin təşkili qanunsuz sayılır və qanunsuz getməni təşkil edən şəxsin əməli şərh olunan maddə ilə tövsif edilməlidir.

6. Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsinin qanuniliyini müəyyən edən müddəalar Miqrasiya Məcəlləsinin 3-cü fəslində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının vətəndaşı dövlət sərhədinin buraxılış məntəqələrindən keçərək ölkədən getmək hüququna malikdir (Miqrasiya Məcəlləsinin 9.1-ci maddəsi). Deməli, dövlət sərhədinin buraxılış məntəqələrindən kənarda keçərək ölkədən getmək qanunsuz sayılır və belə qanunsuz getmənin təşkili CM-in 318-1-ci maddəsi ilə tövsif edilməlidir.

Vətəndaşın ölkədən getmək hüququ Azərbaycan Respublikası vətəndaşının **pasportu**, Azərbaycan Respublikasında qeydiyyatda olan və dənizçilik məqsədi ilə istifadə edilən gəmilərdə hər hansı dənizçi vəzifəsində işləyən vətəndaşın ölkədən getmək hüququ **dənizçinin şəxsiyyət sənədi**, xaricdə işlədiyi gəmiyə çatmaq üçün fərdi qaydada ölkədən gedən vətəndaş dənizçinin şəxsiyyət vəsiqəsi ilə birlikdə həmin gəmi heyətinin tərkibində olmasını təsdiq edən sənədi (tərtib olunmuş **gəmi heyətinin siyahısından çıxarışı**) əsasında həyata keçirilir. Sadalanan sənədlər olmadan ölkədən getmək qanunsuz sayılır və belə qanunsuz getməni təşkil edən şəxsin əməli CM-in 318-1-ci maddəsi ilə tövsif edilməlidir.

Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış vətəndaşın ölkədən getməsi də qanunsuz sayılır və məhdudlaşdırma müddətində belə qanunsuz getməni təşkil edən şəxsin əməli CM-in 318-1-ci maddəsi ilə tövsif edilməlidir. Vətəndaşların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması halları Miqrasiya Məcəlləsinin 9.3.1- 9.3.7-ci maddələrində göstərilmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrdə qulluq edən hərbi qulluqçular (hərbi attaşelər, hərbi nümayəndələr və onların köməkçiləri istisna olmaqla), habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq hərbi təlimlərə, antiterror, xilasetmə və xidməti zərurətlə bağlı digər tədbir və ya əməliyyatlara cəlb olunan müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular müvafiq olaraq hərbi qulluqçunun xidmət etdiyi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin **rəsmiləşdirilmiş icazəsi** olduqda Azərbaycan Respublikasından gedə bilərlər. Belə icazə olmadan onların ölkədən qanunsuz getməsini təşkil edən şəxsin əməli CM-in 318-1-ci maddəsi ilə tövsif edilməlidir.

Dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin tanış olmağa buraxıldığı məlumatın məxfilik müddəti bitənədək, lakin 5 ildən çox olmamaq şərti ilə, xarici ölkəyə daimi yaşamağa getmək hüququ müvəqqəti məhdudlaşdırıldıqda belə şəxslərin də ölkədən getməsi qanunsuz sayılır və məhdudlaşdırma müddətində belə getməni təşkil edən şəxsin əməli CM-in 318-1-ci maddəsi ilə tövsif edilməlidir.

7. CM-in 318-1-ci maddəsində nəzərdə tutulan məzmunda hərəkətləri təşkil etmə özlüyündə bir və ya bir neçə hərəkətin ardıcıllığının yaratdığı prosesdir, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədindən keçirilməsinə hazırlıq və cəhd hərəkətidir. Qanunverici hazırlıq və cəhd hərəkətlərinin özünü başa çatmış cinayət kimi müəyyən etmişdir. Ona görə də bu cinayət **kəsik tərkibli cinayət** hesab edilir və təşkil etmə hərəkətləri edildiyi andan başa çatmış hesab edilir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə əməlinin məntiqi nəticəsi olaraq sadalanan şəxslərin dövlət

sərhədindən keçirilməsi CM-in 318-ci və 318-1-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir. Saxta sənədlər düzəltməklə dövlət sərhədini keçməyi təşkil edən şəxsin əməli CM-in 318-1-ci və 320-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

8. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Şəxs əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etdiyinin ictimai təhlükəli olduğunu dərk edir və belə hərəkəti etməyi arzu edir. Cinayət istənilən motiv və məqsədlə törədilə bilər: onlar əməlin tövsifini dəyişdirmir.

9. CM-in 318-1-ci maddəsində nəzərdə tutulmuş **cinayətin subyekti 16 yaşına** çatmış anlaqlı fiziki şəxs ola bilər.

10. CM-in 318-1-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkibləri** nəzərdə tutulmuşdur: 1) cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi (CM-in 34-cü maddəsinin şərhinə bax); 2) cinayətin vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi (CM-in 308-ci maddəsinin şərhinə bax); 3) cinayətin təkrar törədilməsi; 4) cinayətin insan həyatı üçün təhlükəli üsulla törədilməsi.

11. **Təkrarlıq** o halda mövcud olacaqdır ki, CM-in 318-1-ci maddəsində göstərilən əməli əvvəllər törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etmə müddəti keçmədiyi, yaxud cinayət məsuliyyətindən azad edilmədiyi hallarda yenidən həmin cinayəti törətmiş olsun. Əvvəllər CM-in 318-1-ci maddəsində göstərilən əməli törətmiş və buna görə məhkum edilmiş şəxsin məhkumluğu götürülməmiş və ya ödənilməmiş müddətdə yenidən həmin əməli törətdiyi hallarda **cinayətin residivi** yaranır. Bu halda əməli CM-in 318-1-ci maddəsində göstərilən cinayətin təkrarlığı kimi tövsif etmək olmaz. Cinayətin residivi 318-1-ci maddədə tərkib əlaməti kimi nəzərdə tutulmadığına görə əməlin tövsifi zamanı residivi cəzanı ağırlaşdıran hal qismində təsbit edən CM-in 61.1.1-ci maddəsinə istinad edilməlidir.

12. Cinayətin **insan həyatı üçün təhlükəli üsulla** törədilməsi dedikdə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə, ümumi təhlükəli üsullarla (yandırmaqla, partlatmaqla və s.) əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin, habelə Azərbaycan Respublikası vətəndaşının dövlət sərhədindən keçməsini təşkil etmə başa düşülür. Həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya digər ümumi təhlükəli üsullarla insanın sağlamlığına ağır, az ağır və ya yüngül zərər vurulduqda əməl yalnız CM-in 318-1.2.4-cü maddəsi ilə tövsif edilməlidir. Əməlin əlavə olaraq CM-in 126, 127 və ya 128-ci maddələri ilə tövsifi tələb olunmur.

Maddə 318-2. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi

Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində yazılı məlumatın verilməməsi —

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır
(Azərbaycan Respublikasının 28 aprel 2015-ci il tarixli Qanunu ilə əlavə edilmişdir - «Azərbaycan» q., 4 iyun 2015-ci il).

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının vətəndaşları ilə Azərbaycan dövləti arasında Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş qarşılıqlı hüquq və vəzifələrlə bağlı ictimai münasibətlərdir. Bu cinayətin törədilməsindən «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» 30 sentyabr 1998-ci il tarixli, 527-IQ nömrəli Qanununun 10-cu maddəsində müəyyən edilmiş hüquq münasibətləri, yəni ikili vətəndaşlığın qadağan edilməsini nəzərdə tutan hüquq normasında əks olunmuş qayda zərər çəkir. Həmin Qanunun 10-cu maddəsinə görə Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (Azərbaycan Respublikası vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən həll edilmiş hallar istisna olmaqla, tanınmır.

2. CM-in 318-2-ci maddəsində təsbit olunan cinayət **obyektiv cəhətdən** xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində yazılı məlumatın verilməməsində ifadə olunan hərəkətsizliyin törədilməsi ilə xarakterizə olunur.

Başqa dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində **yazılı məlumatın verilməməsi** dedikdə artıq xarici dövlətin vətəndaşlığını qəbul etmiş, yəni barəsində xarici dövlətin vətəndaşlığına qəbul qəran çıxarılmış şəxsin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və ya Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə bu haqda hər hansı yazılı informasiya verməməsi (təqdim etməməsi) başa düşülməlidir. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə yazılı məlumat Azərbaycan Respublikasının istənilən xarici ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinə (səfirliklərə, konsulluqlara) verildikdə, bu hal cinayət məsuliyyətini istisna edir.

Məlumat bütün hallarda **yazılı** olmalıdır. Şifahi məlumat cinayət məsuliyyətini istisna etmir. Yazılı məlumat kağızda qeyd edilməklə, habelə elektron sənəd (məktub və s.) formasında ola bilər. Məlumat istənilən üsulla təqdim edilə (verilə) bilər. Məlumatın xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən şəxsən, informasiya texnologiyalarından istifadə etməklə, yaxud başqa bir şəxs vasitəsilə verilməsi (təqdim edilməsi) əməlin cinayət sayılmaması üçün əhəmiyyət kəsb etmir. Məlumatın **istənilən üsulla** verilməsi cinayət məsuliyyətini istisna edir.

3. Şərh olunan maddə ilə cinayət məsuliyyətinin yaranmaması üçün xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə bir ay müddətində məlumat verilməlidir. Həmin müddət

başa çatdıqdan sonra məlumat verildikdə cinayət məsuliyyəti yaranır. **Bir aylıq müddətin axımı** təqvim ayı əsas götürülməklə deyil, xarici dövlətin vətəndaşlığına qəbul edilmə haqqında buna səlahiyyəti olan orqanın (vəzifəli şəxsin) qərarının çıxarılması (qüvvəyə minməsi) vaxtından başlanır. Başqa sözlə, belə qərarın çıxarıldığı gündən sonra gələn günün əvvəlindən müddətin axımı başlanır. Xarici dövlətin vətəndaşlığına qəbul edilmə prosesi (proseduru) bu müddətə daxil edilə bilməz.

Bir aylıq müddət xarici dövlətin vətəndaşlığına qəbul edilmə haqqında qərarın çıxarıldığı gün əsas götürülməklə növbəti ayın eyni tarixli gününün sonunda, yəni saat 00:00-da başa çatır. Həmin andan etibarən verilən məlumat cinayət məsuliyyətini aradan qaldırmır. Bir aylıq müddətin göstərilən **başlanğıc və son müddətləri** arasındakı istənilən anda yazılı məlumatın məktubda poçta verilməsi, yaxud səlahiyyətli dövlət orqanlarının (Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin və ya Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin) elektron poçt ünvanına göndərilməsi və ya hər hansı başqa üsulla göstərilən orqanlara çatdırılması müddətə riayət edilməsi deməkdir və bu hal cinayət məsuliyyətini aradan qaldırır.

4. Şərh olunan maddənin dispozisiyasında göstərilən bir aylıq müddət ərzində yazılı məlumat **üzrlü səbəblərdən** verilmədikdə də cinayət məsuliyyəti istisna olunmalıdır.

5. Təhlil olunan cinayət əməlinin törədilməsinə görə cinayət məsuliyyətinin yaranması ilə bağlı bəzi məqamlar diqqətə alınmalıdır.

Qanunverici CM-in 318-2-ci maddəsinin dispozisiyasında cinayət məsuliyyətinin yaranmasının şərti kimi xarici dövlətin vətəndaşlığına qəbul edildikdən sonra bir ay müddətində yazılı məlumatın verilməməsini müəyyən edir. Deməli, **CM-in 318-2-ci maddəsi qüvvəyə mindiyi andan əvvəl** artıq başqa dövlətin vətəndaşlığına qəbul edilmiş şəxslərin məlumat verməməyə görə cinayət məsuliyyəti yaranmır. Ona görə ki, CM-in 318-2-ci maddəsi ilə kriminallığı müəyyən edilən əmələ münasibətdə CM-in 10.4-cü maddəsi tətbiq edilməlidir. Başqa sözlə, CM-in 318-2-ci maddəsinin geriyə qüvvəsi şamil oluna bilməz.

Digər tərəfdən, «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» 30 may 2014-cü il tarixli, 973-IVQD nömrəli Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin ikinci hissəsi ilə cinayət məsuliyyəti müəyyən olunmuş müddəalar həmin qanun qüvvəyə minənədək (2014-cü il 2 iyuladək) digər ölkənin vətəndaşlığını əldə etmiş şəxslərə şamil edilmir. «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikası Qanununun yeni redaksiyada verilmiş 10-cu maddəsinin 2-ci hissəsində deyilir: «Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar». Həmin maddənin tələbi ondan ibarətdir ki, yalnız 2 iyul 2014-cü il tarixdən sonra xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və ya Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə yazılı məlumat vermədiyi hallarda cinayət məsuliyyətinə cəlb edilməlidir. Lakin nəzərə almaq lazımdır ki, cinayət məsuliyyəti müəyyən edən normanı (CM-in 318-2-ci maddəsini) CM-ə daxil edən Qanun yalnız qüvvəyə mindikdən sonra cinayət məsuliyyətinin reallaşdırılması mümkün olduğuna görə, 2 iyul 2014-cü il tarixdən sonra deyil, həmin qanun qüvvəyə mindikdən sonra məlumatın verilməməsi cinayət məsuliyyətinə səbəb olacaqdır.

6. CM-in 318-2-ci maddəsində təsbit olunan cinayət **formal** tərkiblidir və yalnız hərəkətsizliklə törədilə bilər. Bu cinayət xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və ya Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə yazılı məlumatın bir ay keçənədək verilmədiyi andan başa çatmış sayılır.

7. Şərh olunan cinayət **subyektiv cəhətdən** yalnız **qəsdən** törədilə bilər. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bu barədə yazılı məlumatı bir ay müddətində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və ya Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə vermədiyini dərk edir, bunu verməməyi ya arzu edir, yaxud arzu etməsə də, buna şüurlu surətdə yol verir. Motiv və məqsəd cinayətin tövsifində iştirak etmir.

8. Şərh olunan cinayətin **subyekti** xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə və «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» 30 sentyabr 1998-ci il tarixli, 527-IQ nömrəli Qanunla Azərbaycan Respublikasının vətəndaşı hesab edilən şəxslər ola bilər.

Maddə 319. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmə

319.1. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmək məqsədi ilə sərhəd nişanlarını götürmə, yerini dəyişmə və ya məhv etmə —

iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

319.2. Eyni əməllər təkrar törədildikdə və ya ağır nəticələrə səbəb olduqda —

dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Bu cinayətin obyekti Azərbaycan Respublikasının dövlət sərhəd rejimidir.

2. Cinayətin **predmetini** sərhəd nişanları təşkil edir. «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» 9 dekabr 1991-ci il tarixli Qanunun 4-cü maddəsinə görə Azərbaycan Respublikasının sərhədi ərazidə aydın görünən sərhəd nişanları ilə nişanlanır.

Sərhəd nişanlarının formaları, ölçüləri və qurulması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri ilə müəyyən edilir.

Sərhəd nişanları sərhəd direkləri, sərhəd piramidaları və sair formalarda ola bilər.

3. Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələsi yalnız ümumxalq səsverməsi — referendumla həll oluna bilər.

4. Bu cinayət **obyektiv cəhətdən** sərhəd nişanlarını götürmə, yerini dəyişmə və ya məhv etmədə ifadə olunur.

Sərhəd nişanlarını götürmə dedikdə həmin nişanların dövlət sərhəd xəttində qurulduğu yerdən götürülməsi nəzərdə tutulur.

Sərhəd nişanlarının yerini dəyişmə dedikdə həmin nişanların beynəlxalq müqavilələrlə və daxili qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla özbaşına dövlət sərhədindən kənarda qurulması başa düşülür. Sərhəd nişanlarının dövlət sərhəd xətti üzərində bu xətt istiqamətində (boyunca) yerinin dəyişdirilməsi şərh olunan cinayətin tərkibini yaratmır.

Sərhəd nişanlarının məhv edilməsi dedikdə onların tamamilə ləğv edilməsi başa düşülür.

5. Şərh olunan cinayət **formal** tərkiblidir və sərhəd nişanlarının götürüldüyü, yerinin dəyişdirildiyi və ya məhv edildiyi andan cinayət **başa çatmış** hesab olunur.

6. CM-in 319.2-ci maddəsi eyni əməllərin təkrar törədilməsi və ya ağır nəticələrə səbəb olması kimi **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutur.

Cinayətin təkrar törədilməsi haqqında CM-in 16-cı maddəsinin şərhinə bax.

Şərh olunan cinayətin ağırlaşdırıcı tərkib əlaməti kimi təkrarlığı vahid davam edən cinayətdən fərqləndirmək lazımdır. Təqsirkarın vahid niyyəti ilə əhatə olunan və bir qayda olaraq, eyni vaxtda həyata keçirilən hallarda bir neçə sərhəd nişanı götürülərsə, ləğv edilərsə və ya onların yeri dəyişdirilərsə, davam edən cinayətin əlamətləri mövcud olur. Təkrarlıqda hər dəfə edilən hərəkətə münasibətdə təqsirkarın qəsdi yenidən yaranır.

Ağır nəticələr dedikdə həmsərhəd dövlətlə qarşılıqlı münasibətlərin pozulması, müxtəlif sərhəd münaqişələrinin baş verməsi, mühüm dərəcədə maddi ziyan vurulması və s. başa düşülür.

7. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** və Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmək **məqsədi ilə** törədilir. Təqsirkar Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmək məqsədilə sərhəd nişanlarını götürdüyünü, yerini dəyişdiyini və ya məhv etdiyini dərk edir və bunu arzu edir. **Dövlət sərhədini dəyişmə** dedikdə cinayətin obyektiv cəhətini təşkil edən hər hansı hərəkətdən birinin edilməsi ilə dövlət ərazisinin artması və ya azalması başa düşülməlidir.

Dövlət sərhədini qanunsuz dəyişmək məqsədi olmadan göstərilən hərəkətlərin edilməsi CM-in 319-cu maddəsi ilə tövsif oluna bilməz. Məsələn, sərhəd direklərini satmaq məqsədi ilə götürmədə təqsirkarın qəsdi müəyyən bir dəyəri olan əmlak kimi sərhəd direkləri üzərində mülkiyyət hüququna yönəldiyindən və qəsdin məzmunu dövlət sərhədini qanunsuz dəyişdirmək deyil, tamah motivindən ibarət olduğundan mülkiyyət əleyhinə olan cinayət kimi qiymətləndirilir. Bu halda sərhəd nişanlarının götürülməsi (CM-in 319-cu maddəsi) onların

talan edilməsindən öz obyektinə və subyektiv cəhətinə (məqsədinə) görə fərqlənir. Eyni meyarlardan istifadə etməklə sərhəd nişanlarını məhv etməni əmlakı qəsdən məhv etmə və ya zədələmədən (CM-in 186-cı maddəsi) fərqləndirmək olar.

Cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Maddə 320. Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə

320.1. Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

320.2. Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə —

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz saatadək müddətə ictimai işlərlə və ya bir ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 2 oktyabr 2008-ci il, 31 may 2011-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 30 oktyabr 2008-ci il; 2 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** idarəetmə fəaliyyətinin predmetləri olan vəsiqə və ya digər rəsmi sənədlərin, dövlət təltiflərinin, möhürlərin, ştamplarının və blankların hazırlanmasının, onlardan istifadənin və həmin predmetlərlə davranışın qanunvericiliklə müəyyən olunmuş qaydasıdır.

2. Hüquq verən və ya vəzifədən azad edən vəsiqə və ya digər rəsmi sənədlər, dövlət təltifləri, möhürlər, ştamplar və blanklar təhlil edilən cinayətin **predmetini** təşkil edir.

Vəsiqə dedikdə hər hansı dövlət və ya qeyri-dövlət orqanı tərəfindən verilən, onun sahibi haqqında məlumatları özündə əks etdirən və sahibinin şəxsiyyətini təsdiq edən müxtəlif rəsmi sənədlər başa düşülür. Buraya pasport, şəxsiyyət vəsiqəsi, hərbi bilet və onları müvəqqəti əvəz edən sənədlər (arayışlar), sürücülük vəsiqəsi, əmək kitabçası, xidməti vəsiqə, şəxsin müəyyən sosial kateqoriyaya (pensiyaçı, veteran, əlil və s.) mənsubiyyətini təsdiq edən və ona müəyyən güzəştlər (imtiyazlar) verən vəsiqələr və s. aiddir.

Digər rəsmi sənədlər dedikdə hər hansı hüquqi faktın mövcudluğunu təsdiq edən hüquqi əhəmiyyətli sənədlər nəzərdə tutulur. Məsələn, nikahın bağlanması haqqında şəhadətnamə, ölümün qeydə alınması haqqında şəhadətnamə, şəxsin təhsil almasını təsdiq edən sənədlər (9 illik təhsil haqqında şəhadətnamə, attestat, diplom), patent, xəstəlik vərəqəsi, iş yeri və ya yaşayış yeri haqqında arayış, lisenziya və s.

Cinayətin predmeti olan rəsmi sənədlərin «vəsiqə» və «digər rəsmi sənədlər» kimi növlərinin ayrılması tamamilə şərtidir. Belə ki, müəyyən bir hüquqi faktın mövcudluğunu təsdiq edən rəsmi sənəd eyni zamanda hüquqverici ola bilər. Məsələn, ali təhsil haqqında diplom onun sahibinin ali təhsilli olması faktını təsdiq edir və ona öz ixtisası üzrə əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verir. Təsadüfi deyil ki, CM-in 320-ci maddəsinin adında həmin sənədlər (vəsiqə və digər sənədlər) ümumi formada rəsmi sənəd anlayışı ilə ifadə olunur.

3. **Rəsmi sənədlər** hüquqi əhəmiyyətə malik olan, yəni müəyyən hüquqi faktların mövcudluğunu təsdiq edən, hüquqi nəticələr doğuran, hüquqların həyata keçirilməsi və vəzifələrin icrasında müəyyən üstünlüklər, güzəştlər və imtiyazlar nəzərdə tutan sənədlərdir. Bu sənədlər müəyyən rekvizitlərə (rəsmi sənədin tərtib olunma yeri və tarixi, onu verən orqanın adı, vəzifəli şəxsin adı, soyadı, atasının adı, imza, möhür, ştamp və s.) malik olur. Əgər göstərilən rekvizitlərdən biri yoxdursa, sənəd yalnız həmin rekvizitin olduğu halda hüquqi əhəmiyyətlidirsə və rəsmi sənəd sayılırsa, onda həmin rekvizitin olmadığı sənədə «hüquq» verən və ya vəzifənin icrasından «azad edən» yalan məlumatların yazılması CM-in 320-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaratmır.

4. Rəsmi sənədlərin **verilmə mənbəyi** müxtəlif ola bilər: səlahiyyətli dövlət orqanları, vəzifəli şəxslər, bələdiyyələr, fəaliyyətinin xarakterindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər. Vətəndaşlar tərəfindən verilən sənədləri yalnız o halda rəsmi sənəd hesab etmək olar ki, həmin sənədlərin hüquqi əhəmiyyəti və rəsmi statusu qanunvericiliyə müvafiq surətdə tanınmış olsun. Məsələn, notariat qaydasında və ya notariat əməliyyatlarını aparmaq səlahiyyətlərinə malik olan vəzifəli şəxslər tərəfindən təsdiq olunmuş sənədlər və s.

5. Şərh olunan cinayətin predmeti istənilən rəsmi sənədlər deyil, yalnız **hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədlər** ola bilər. Rəsmi sənədin hüquq verməsi və ya vəzifədən azad etməsi həmin sənədin özündə birbaşa göstərilə və ya onun məzmunundan irəli gələ bilər. Məsələn, hər hansı bir şəxsə müharibə veteranı adının verilməsinə dair müvafiq dövlət orqanının (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, nazirliklərin, dövlət komitələrinin, digər mərkəzi icra hakimiyyəti orqanlarının, dövlət konsernlərinin, şirkətlərinin və idarələrinin, habelə yeri icra hakimiyyəti orqanlarının və s.) qərarı və təsdiq olunmuş nümunədə veteran vəsiqəsi həmin şəxsə bir sıra hüquqlar (mənzil-məişət şəraitinin yaxşılaşdırılmasında üstünlük hüququ, dərman və müalicə vasitələri ilə təmin olunmaq üçün, habelə mənzil, kommunal və rabitə xidmətləri haqqının ödənilməsi üçün müavinət almaq hüququ və s.) verir və onu bir sıra vəzifələrin icrasından (məhkəmədə verilən iddialar üzrə dövlət rüsumunun ödənilməsindən («Dövlət

rüsumu haqqında» 4 dekabr 2001-ci il tarixli Qanunun 9.1.20-ci maddəsi) və s.) tam və ya qismən azad edir («Veteranlar haqqında» 28 iyun 1994-cü il tarixli Azərbaycan Respublikası Qanununun 11, 12, 14 və 15-ci maddələri).

Hüquqi əhəmiyyətə malik olsa da, hüquq verməyən və ya vəzifənin icrasından azad etməyən rəsmi sənədlər təhlil edilən cinayətin predmeti ola bilməz.

6. **Dövlət təltifi** dedikdə elm, ədəbiyyat, incəsənət, mədəniyyət, təhsil, iqtisadiyyat, dövlət quruculuğu, səhiyyə və ictimai-dövlət həyatının digər sahələrində xidmətlərinə, həmçinin dövlət və xalq qarşısında olan sair xidmətlərinə görə vətəndaşların həvəsləndirilməsinin bir forması nəzərdə tutulur.

Dövlət təltiflərinə orden və medallar və fəxri adlar aiddir.

Orden və medalların siyahısı «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının 10 noyabr 1992-ci il tarixli Qanununda müəyyən olunmuşdur. Göstərilən ordenlərin və medalların statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə müəyyən olunur.

Fəxri adlara «Azərbaycanın Milli Qəhrəmanı», «Azadlıq uğrunda mübariz» və s. kimi fəxri adlar aiddir.

Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı olan «Ay-Ulduz» medalı da dövlət təltifi hesab olunur.

7. CM-in 320.1-ci maddəsi üzrə şərh olunan cinayətin predmetinə nəinki Azərbaycan Respublikasının dövlət təltifləri, həm də Azərbaycan Respublikasında qüvvədə olan keçmiş SSRİ-nin bəzi dövlət təltifləri (məsələn, Sovet İttifaqı Qəhrəmanı, Sosialist Əməyi Qəhrəmanı və s.) aiddir.

İctimai təltiflər (qeyri-dövlət orqanları tərəfindən təsis edilən fəxri adlar) bu cinayətin predmeti sayılmır.

8. **Ştamp** müxtəlif sənədlərin tərtib olunması zamanı sənədin üzərində əksin alınması üçün nəzərdə tutulan və müəyyən rekvizitlərə malik olan kvadrat, üçkünc və ya düzbucaqlı möhür formasıdır. Ştampda, adətən, hüquqi şəxsin rekvizitləri, sənədin verilmə tarixi və nömrəsi, ştampın təyinatı (arayış üçün, arxiv sənədləri üçün və s.) kimi rekvizitlər olur.

9. **Möhür** sənədlərin üzərində əksin alınması üçün nəzərdə tutulan yonulub düzəldilmiş işarələrdən ibarət olan klişedir. Möhür də, demək olar ki, ştamp kimi eyni təyinata malikdir. Lakin ştampdan fərqli olaraq möhür dairəvi formada olur. Gerbli, gerbsiz və sadə möhür fərqləndirilir. Növündən asılı olmayaraq hər bir möhür mənsub olduğu hüquqi şəxsin və hüquqi şəxs olmayan təşkilatın zəruri rekvizitlərini özündə əks etdirir.

10. **Blank** dedikdə sənədin mətninin qismən çap olunduğu və çap olunmayan hissəsinin doldurulması (çap edilməsi) tələb olunan müəyyən formalı kağız vərəqi başa düşülür.

11. Yalnız saxta dövlət təltifi, ştamp, möhür və blank bu cinayətin predmeti ola bilər.

12. Rəsmi sənədlərin müəyyən növləri — seçki və ya referendum sənədləri, pul və qiymətli kağızlar, kredit və ya hesab kartları və ya sənədləri, mülki və cinayət işləri üzrə sübutlar şərh olunan cinayətin predmeti ola bilməz.

13. CM-in 320.1-ci maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhət-**

dən fəal hərəkətlərlə törədilir. Həmin hərəkətlərə: a) hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi saxtalaşdırma; b) hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi satma; c) Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü və blankı hazırlama; ç) Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü və blankı satma.

14. **Saxtalaşdırma** dedikdə hüquq verən və ya vəzifədən azad edən məzmunu tamamilə saxta olan sənədin (vəsiqənin və ya digər rəsmi sənədin) hazırlanması, saxta olmayan sənədin mətninə yalan məlumatların daxil edilməsi və ya boş blankın belə məlumatlarla doldurulması, yaxud saxta olmayan sənədin mətnində düzəlişlər edilməsi, tarixin dəyişdirilməsi, mətnin bir hissəsinin məhv olunması və s. kimi qanunsuz hərəkətlərin edilməsi yolu ilə dəyişdirilməsi başa düşülür.

Əgər rəsmi sənəd onun mətninə yalan məlumatların daxil edilməsi və ya boş blankın yalan məlumatlarla doldurulması yolu ilə saxtalaşdırılmışdırsa, onda həmin məlumatların nə dərəcədə yalan (həqiqətdən uzaq) olmasının cinayətin tövsifi baxımından əhəmiyyəti yoxdur. Bu hal yalnız cəza təyin olunarkən nəzərə alına bilər.

Saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin olunmasını nəzərdə tutur ki, onların nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti (statusu) dəyişir.

15. **Satma** dedikdə hüquq verən və ya vəzifədən azad edən saxta vəsiqələrin və ya digər saxta rəsmi sənədlərin, Azərbaycan Respublikasının saxta dövlət təltifinin, ştampın, möhürün və blankın digər şəxslərə əvəzli və ya əvəzsiz əsaslarla (satmaqla, ödəmə vasitəsi kimi istifadə etməklə, dəyişməklə, bağışlamaqla, müvəqqəti əvəzli və ya əvəzsiz istifadəyə verməklə və s.) verilməsi nəzərdə tutulur. Satmanın üsulları müxtəlif ola bilər və onların cinayətin tövsifi baxımından hüquqi əhəmiyyəti yoxdur.

16. **Hazırlama** bu cinayətin obyektiv cəhətinin bir ünsürü kimi həm hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədlərə, həm də saxta dövlət təltiflərinə, ştampa, möhürə və ya blanka münasibətdə törədilir. Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədləri **qanunsuz hazırlama** dedikdə belə vəsiqə və ya digər rəsmi sənədləri hazırlama hüququ olmayan şəxs tərəfindən onları hazırlama və ya buna hüququ olsa da, qanunvericiliklə müəyyən edilmiş qaydaya, formaya və ya məzmuna uyğun olmayan vəsiqə və ya rəsmi sənədin hazırlanması başa düşülməlidir.

Qanunvericilik dövlət təltifinin, ştampın, möhürün və blankın saxtalaşdırılmasına görə deyil, saxta dövlət təltifinin, ştampın, möhürün və blankın hazırlanmasına görə cinayət məsuliyyəti nəzərdə tutur. Bu əməl üzrə **hazırlama** dedikdə bütün rekvizitləri olan saxta dövlət təltiflərinin, ştampın, möhürün və ya blankın tam hazırlanması və yaxud saxta olmayan dövlət təltifində, ştampda, möhürdə və blankda onların rekvizitlərini və ya təsvirini təhrif edən dəyişikliklərin aparılması başa düşülür.

Saxta möhür və ya ştamp hazırlama zamanı cinayətin predmeti möhürün

və ya ştampın sənədlərdəki əksi deyil, möhürün və ya ştampın özüdür. Əgər ştampın və ya möhürün özü deyil, onların sənəd üzərindəki əksi saxtalaşdırılmışdırsa, onda bu, cinayətin obyektiv cəhətinin digər forması — hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi saxtalaşdırma kimi qiymətləndirilir.

17. CM-in 320.1-ci maddəsinin dispozisiyasında göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi andan cinayət **başa çatmış** hesab olunur. Həmin hərəkətlərin törədə biləcəyi nəticə isə şərh olunan cinayətin tərkibindən kənarda qalır.

18. Hüquq verən və ya vəzifədən azad edən saxta vəsiqədən və ya digər saxta sənəddən istifadə etmə CM-in 320.2-ci maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaradır. **İstifadə etmə** dedikdə saxta rəsmi sənədin (vəsiqənin və ya digər rəsmi sənədin), onun saxta olduğunu qabaqcadan bilən şəxs tərəfindən hər hansı bir hüquq (üstünlük, güzəşt, imtiyaz) əldə etmək və ya müəyyən bir vəzifənin icrasından tam və ya qismən azad olmaq məqsədi ilə dövlət orqanlarına, bələdiyyələrə və onların vəzifəli şəxslərinə, hüquqi şəxslərə və vətəndaşlara təqdim olunması başa düşülür.

19. Bilə-bilə saxta sənədlərdən istifadə edildiyi andan cinayət **başa çatmış** hesab olunur. Saxta sənədlərdən istifadə nəticəsində müəyyən hüquqlar əldə etmək və ya vəzifələrin icrasından azad olmaq təhlil edilən cinayət tərkibi ilə əhatə olunmur. Belə nəticələr baş verdikdə və müvafiq hallar mövcud olduqda şəxsin əməli əlavə olaraq CM-in 178-ci maddəsi ilə də tövsif olunur.

20. Bilə-bilə saxta sənədlərdən istifadə etmə həm **birdəfəlik** cinayət, həm də **uzanan** cinayət kimi xarakterizə oluna bilər. Bu cinayətə görə cinayət məsuliyyətinə cəlb etmə müddəti onun məhz bu xüsusiyyətini nəzərə almaqla hesablanır. Məsələn, əgər təqsirkar şəxsin saxta olduğunu qabaqcadan bildiyi rəsmi sənəd yalnız birdəfəlik istifadə üçün nəzərdə tutulmuşdursa, onda cinayət məsuliyyətinə cəlb etmə müddəti həmin sənəddən istifadə olunduğu (onun təqdim edildiyi) andan başlayaraq hesablanır. Təqsirkarın saxta olduğunu bilə-bilə istifadə etdiyi rəsmi sənəd uzun müddət ərzində dəfələrlə istifadə üçün nəzərdə tutulduqda, cinayət məsuliyyətinə cəlb etmə müddətinin hesablanması həmin sənəddən istifadə üçün şəraitin aradan qalxdığı andan (saxta sənədin məhv olduğu, bu barədə cinayət işinin başlandığı andan və s.) başlanır.

Bilə-bilə saxta sənədlərdən istifadə etmə uzanan cinayət olduqda, o, sonuncu cinayətkar hərəkətin edildiyi andan **başa çatmış** sayılır.

Əgər eyni xarakterli və məzmunlu saxta sənədlərdən istifadə etmə zamanı həmin sənədlər ayrı-ayrı hallarda yalnız bir dəfə istifadə edilmə üçün nəzərdə tutulmuşdursa, onda həmin saxta sənədlərdən istifadə etmə uzanan cinayət hesab oluna bilməz. Məsələn, işçi əsas iş yeri üzrə işəgötürənin iş vaxtı ərzində əvəzçilik üzrə əlavə iş yerində işləməyə razılığı haqqında saxta arayışlar əldə edir, onların saxta olduğunu bilə-bilə həmin arayışlardan hər birini ayrı-ayrılıqda əlavə iş yeri üzrə müxtəlif işəgötürənlərə təqdim etməklə istifadə edir.

21. CM-in 320.2-ci maddəsi saxta dövlət təltifindən, ştampdan, möhürdən və blankdan onların saxta olduğunu bilə-bilə istifadə etməyə görə məsuliyyət nəzərdə tutmamışdır. Bilə-bilə saxta möhürdən, ştampdan və ya blankdan isti-

fadə etmə rəsmi sənədləri saxtalaşdırma hesab olunur və CM-in 320.1-ci maddəsi ilə tövsif edilir.

22. Şərh olunan cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. CM-in 320.1-ci maddəsi üzrə məqsəd (rəsmi sənəddən, dövlət təltifindən, ştampdan, möhürdən və blankdan istifadə etmək məqsədi) cinayət tərkibinin zəruri əlamətidir. Belə məqsəd olmadan 320.1-ci maddənin dispozisiyasında sadalanan əməllərin törədilməsi bu cinayətin tərkibini yaratmır.

CM-in 320.2-ci maddəsinin subyektiv cəhəti qiymətləndirilərkən nəzərə alınmalıdır ki, saxta sənədlərdən istifadə edən şəxsin onun saxta olduğunu bilməsi zəruridir. Əks halda cinayət tərkibi mövcud olmayacaqdır.

23. Təhlil olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

CM-in 320.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti rəsmi sənədləri özü saxtalaşdırmayan, digər şəxslər tərəfindən saxtalaşdırılan rəsmi sənədlərdən onların saxta olduğunu bilə-bilə istifadə edən şəxslər ola bilər. Rəsmi sənədi saxtalaşdırmış şəxs gələcəkdə ondan istifadə edərsə, onun əməli yalnız CM-in 320.1-ci maddəsi ilə tövsif edilməlidir.

Rəsmi sənədlər vəzifəli şəxs və ya vəzifəli şəxs olmayan dövlət qulluqçusu, yaxud yerli özünüidarə orqanının qulluqçusu tərəfindən saxtalaşdırıldıqda, əməl yalnız CM-in 313-cü maddəsi ilə tövsif olunur.

24. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 321. Hərbi xidmət keçməkdən boyun qaçırma

321.1. Qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma —

iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

321.2. Eyni əməllər müharibə vaxtı törədildikdə —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh olunan cinayətin **obyekti** hərbi xidmətə çağırışın və səfərbərlik üzrə çağırışın qanunvericiliklə müəyyən edilmiş qaydasıdır.

Hərbi xidmətə çağırışın qaydası «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli Qanunu ilə müəyyən edilir.

Səfərbərlik üzrə çağırışın qaydaları «Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında» Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli, 923-IIQ saylı Qanunu ilə tənzimlənir.

«Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə görə hərbi xidmət həqiqi hərbi xidmətdən və ehtiyatda xidmətdən ibarətdir. Bu Qanunun 12.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin şəxsi heyətlə komplektləşdirilməsi üsullarına görə hərbi xidmət çağırış üzrə və könüllü xidmətlərə bölünür.

Səfərbərlik Azərbaycan Respublikası iqtisadiyyatının, icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların müharibə dövrünün iş rejiminə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və xüsusi birləşmələrin müharibə dövrü üçün müəyyən edilmiş təşkilati-ştat strukturuna keçirilməsinə dair tədbirlər kompleksidir («Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında» Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli Qanununun 1-ci maddəsi).

2. Təhlil olunan cinayət **obyektiv cəhətdən** qanuni əsaslar olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırmada ifadə olunur. «Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli qərarının 2-ci bəndinə əsasən hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma (CM-in 321-ci maddəsi) cinayətlərinin tərkibi o zaman yaranır ki, həmin cinayətlərin subyektləri əvvəlcədən hərbi komissarlıq tərəfindən yazılı surətdə xəbərdarlıq edilmələrinə baxmayaraq üzrlü səbəblər olmadan hərbi komissarlığın fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə və göstərilmiş məntəqəyə gəlməməklə çağırışdan boyun qaçırmış olsunlar.

Çağırışçının hərbi xidmət keçməkdən boyun qaçırmaq məqsədilə fərdi çağırış vərəqəsinə imza etməkdən imtina etməsi və ya yayınması müvafiq sübutlarla təsdiq olunarsa, təkcə çağırış vərəqəsində imzanın olmaması onun cinayət məsuliyyətindən azad edilməsi üçün əsas götürülə bilməz.

Boyun qaçırma dedikdə çağırışçının (həqiqi hərbi xidmətə çağırılanadək və ehtiyata keçirilənədək çağırışçıların hərbi uçotunda olan şəxslərin) çağırış vaxtı və yeri barədə xəbərdar edilməsinə baxmayaraq, üzrlü səbəblər olmadan qəsdən hərbi komissarın əmrində və ya fərdi çağırış vərəqəsində (bildirişdə) müəyyən olunmuş yerə, səfərbərlik əmrində isə göstərilən tarixdə müəyyən olunmuş çağırış və ya səfərbərlik məntəqəsinə (təlim-toplanış məntəqələrinə) gəlməməsi, yaxud aldatma yolu ilə çağırışdan boyun qaçırması başa düşülür.

«Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsinin və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndinin mənasına görə, həqiqi hərbi xidmətə çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırmaya görə məsuliyyət, yalnız Azərbaycan Respublikası Prezidentinin həqiqi hərbi xidmətə çağırış, yaxud qismən və ya ümumi səfərbərlik haqqında fərmanı elan edildikdən sonra, əgər fərmanın özündə onun qüvvəyə minməsinin başqa qaydası nəzərdə tutulmamışsa, yarana bilər (adı çəkilən Plenum qərarının 3-cü bəndinin 2-ci abzası).

3. Hərbi xidmət keçməkdən boyun qaçırmağa görə cinayət məsuliyyətinin yaranması üçün aşağıdakı şərtlər məcmusu mövcud olmalıdır:

a) çağırışçı, yaxud hərbi vəzifəli şəxs hərbi xidmət və ya səfərbərlik üzrə

çağırış vaxtı və yeri barəsində lazımi qaydada xəbərdar edilməlidir;

b) Azərbaycan Respublikası Prezidentinin hərbi xidmətə çağırış haqqında, yaxud qismən və ya ümumi səfərbərlik haqqında qanuni qüvvəyə minmiş fərmanı olmalıdır;

c) çağırış məntəqələrinə müəyyən edilmiş müddətdə gəlməmək üzrlü olmayan səbəblərlə əlaqədar olmalıdır.

«Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 12.7-ci maddəsinə görə müəyyən edilmiş müddətdə gəlməməyin üzrlü səbəbləri bunlardır: 1) çağırışçının xəstəliyi (tibb müəssisəsinin xəstəlik barədə tibbi arayışı əsasında); 2) fövqəladə və ya digər qarşısı alına bilinməyən hallar (bu zaman şəxsən gəlməyin mümkün olmaması çağırışçının yaşayış yeri üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir. Qanunda göstərilməsə də, yaxın qohumların (ərin, arvadın, qardaşın, bacının, valideynlərin, uşaqların və s.) ölməsi, habelə hüquq pozuntusu törətdiyinə görə hakimiyyət orqanları tərəfindən tutulub saxlanma da məhkəmə təcrübəsində üzrlü səbəb kimi qiymətləndirilir;

ç) çağırışçı və ya hərbi vəzifəli şəxs növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan qanuni əsaslar olmadan boyun qaçırmalıdır. Növbəti hərbi çağırışa və səfərbərlik üzrə çağırışa gəlməmə qanuni əsaslarla əlaqədardırsa, onda cinayət məsuliyyəti yaranmır. Belə qanuni əsaslara növbəti hərbi xidmətə çağırış və səfərbərlik üzrə çağırışa möhlət verilməsi və çağırışdan azadetmə aiddir («Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 18-21-ci və 23-cü maddələri). Müddətli hərbi xidmətə çağırışa möhlət ailə vəziyyətinə, sağlamlıq vəziyyətinə (səhhətinə) görə, təhsili davam etdirmək üçün, Azərbaycan Respublikası Milli Məclisinin deputatı və bələdiyyələrə üzv seçilmək üçün namizədliyi qeydə alınmış şəxslərin seçki fəaliyyəti ilə əlaqədar (namizədliyi qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc olunduğu günədək), habelə deputat, hakim, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkil (ombudsman) fəaliyyəti ilə əlaqədar verilir. Qanunda birbaşa göstərilməsə də, Naxçıvan MR Ali Məclisinə üzv seçilmək üçün namizədliyi qeydə alınmış şəxslərin seçki fəaliyyəti ilə əlaqədar, habelə Naxçıvan MR Ali Məclisinin deputatlarının da möhlət hüququ vardır.

Həqiqi hərbi xidmətə çağırışdan azadetməyə yalnız dinc dövrdə və yuxarıda adı çəkilən Qanunun 23-cü maddəsində göstərilənlər barəsində yol verilir.

Səfərbərlik üzrə hərbi xidmətə çağırışdan **möhlət** aşağıdakı vətəndaşlara verilir: 1) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada bron edilmiş şəxslərə; 2) səhhətinə görə hərbi xidmətə müvəqqəti yararsız hesab olunan şəxslərə altı ay müddətinədək; 3) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən ayrı-ayrı kateqoriyalı vətəndaşlara («Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında» Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli Qanununun 15-ci maddəsi).

Səfərbərlik üzrə çağırış dedikdə müharibə dövrü və ya hərbi vəziyyət elan olunduqda 18 yaşından ehtiyatda olmağın son yaş həddinədək hərbi vəzifəlilərin və çağırışçıların, hərbi uçotda olan və ehtiyatda olmağın son yaş

həddinə çatmayan qadınların Azərbaycan Respublikası Silahlı Qüvvələrinə və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə hərbi xidmətə çağırılmaları başa düşülür.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasına hərbi basqın təhlükəsi olduqda və ya fövqəladə vəziyyət şəraitində Azərbaycan Respublikası Prezidentinin səfərbərlik elan etmədən lazımi sayda hərbi vəzifəliləri üç ayadək müddətə hərbi xidmətə çağırmaq hüququ var (adı çəkilən Plenum qərarının 4-cü bəndi).

4. Çağırışdan möhlət hüququnu qanunsuz vasitələrlə əldə etməyə və çağırışdan qanunsuz azad olunmağa yönəlmiş hərəkətlər (saxta sənədlər təqdim etmə, sənədləri saxtalaşdırma, çağırış komissiyasının və ya hərbi-həkim komissiyasının üzvlərinə yalan informasiya vermə, sair formada aldatma, onları pul ilə ələ alma, yaxud rüşvət vermə, özünü xəstəliyə vurma, bədəninə xəsarət yetirmə və s.) də hərbi xidmət keçməkdən boyun qaçırma kimi qiymətləndirilir. Əgər həmin hərəkətlərdə başqa bir cinayətin tərkibi varsa, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

5. CM-in 321.2-ci maddəsi eyni əməllərin müharibə vaxtında edilməsi kimi **ağırlaşdırıcı tərkib əlaməti** nəzərdə tutur. **Müharibə vaxtı** dedikdə Azərbaycan Respublikasının xarici dövlətlə müharibə vəziyyətində olması başa düşülür. Bu zaman hər hansı bir tərəfdən rəsmən müharibə elan olunub-olunmamasının cinayətin tövsifi baxımından əhəmiyyəti yoxdur.

6. Həqiqi hərbi xidmətə növbəti çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırma cinayətləri təqsirli şəxsin ona verilən bildirişdə göstərilən tarixdə, üzrlü səbəblər olduqda isə çağırışın və ya səfərbərliyin aparıldığı müddət ərzində çağırış və ya səfərbərlik üzrə hərbi xidmətdən qəsdən boyun qaçırdığı vaxtdan bitmiş hesab edilir. Həmin müddətdən sonra boyun qaçıranın hərbi komissarlığa gəlməsi cinayətdən könüllü imtina kimi deyil, cəzanı yüngülləşdirən hal kimi nəzərə alına bilər.

Hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma məqsədi ilə vəzifəli şəxsə rüşvət vermə CM-in 321-ci və 312-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin məcmusunu yaradır (adı çəkilən Plenum qərarının 5-ci və 6-cı bəndləri).

7. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** və qanuni əsaslar olmadan hərbi xidmətdən yayınmaq məqsədi ilə törədilir.

8. Cinayətin **subyekti** növbəti hərbi çağırışdan boyun qaçırma üzrə 18 yaşına çatmış, səhhətinə görə hərbi xidmətə yararlı hesab olunan, həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və çağırışdan azad edilməyən, hərbi xidmətə çağırılanadək çağırışçıların hərbi uçotunda olan və ya olmalı olan, Azərbaycan Respublikasının kişi cinsindən olan vətəndaşları; səfərbərlik üzrə çağırışdan boyun qaçırmada isə 18 yaşına çatmış, səhhətinə görə səfərbərlik üzrə çağırışdan möhlət hüququ olmayan və ya azad edilməyən, Azərbaycan Respublikasının kişi cinsindən olan vətəndaşları: çağırışçılar və hərbi vəzifəlilər («Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 44-cü maddəsinə uyğun olaraq ehtiyatda olmağın son yaş həddinə çatmamış şəxslər), habelə hərbi uçotda olan və ehtiyatda olmağın son yaş həddi-

nə çatmamış qadınlar ola bilər.

«Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə uyğun olaraq, müddətli həqiqi hərbi xidmətə çağırılmayan vətəndaşlar, çağırışdan azad edilənlər, möhlət hüququ olanlar (yalnız möhlət müddətində), habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu cinayətin subyekti sayılmırlar.

Çağırış məntəqəsində və yaxud komissiyada qeydiyyatdan keçmək üçün vətəndaşların müəyyən olunmuş müddətdə üzrlü səbəblər olmadan hərbi komissarlığa gəlmələri həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırma kimi qiymətləndirilə bilməz. Belə ki, bu şəxslər çağırış sahəsində qeydiyyata alınanadək çağırışçı hesab olunmurlar və hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti deyillər (adı çəkilən Plenum qərarının 3-cü bəndinin 4-cü abzası).

Maddə 322. Özbaşınalıq

322.1. Özbaşınalıq, yəni qanunla və ya digər normativ hüquqi aktla müəyyən edilmiş davranış qaydasına zidd olaraq qanuniliyi vətəndaş və ya təşkilat tərəfindən təkzib edilən hər hansı hərəkətin özbaşına törədilməsi mühüm ziyan vurduqda —

min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

322.2. Eyni əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə —

üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir ildən iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 31 may 2011-ci il, 30 aprel 2013-cü il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş dəyişikliklərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 2 iyul 2011-ci il; «Respublika» q., 15 iyun 2013-cü il; «Azərbaycan» q., 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** subyektiv hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının qanunla və ya digər normativ hüquqi aktla müəyyən edilmiş qaydasıdır. Bu cinayətin **əlavə obyekti** qismində fiziki və ya hüquqi şəxslərin qanuni hüquq və mənafeləri çıxış edir.

2. **Obyektiv cəhətdən** bu cinayət qanunla və ya digər normativ hüquqi aktla müəyyən edilmiş davranış qaydasına zidd olaraq qanuniliyi vətəndaş və ya təşkilat tərəfindən təkzib edilən və mühüm ziyan vuran hərəkətin özbaşına törədilməsində ifadə olunur.

3. Təhlil edilən cinayət tərkibinin yaranması üçün onun obyektiv cəhətinə daxil olan aşağıdakı şərtlərin məcmusunun mövcud olması tələb olunur:

a) hərəkət qanunla və ya digər normativ hüquqi aktla müəyyən edilmiş davranış qaydasına zidd olaraq törədilməlidir. Bu baxımdan özbaşınalığa görə cinayət məsuliyyəti yalnız o halda yarana bilər ki, təqsirkar şəxs öz hərəkətləri ilə subyektiv hüquqların həyata keçirilməsi və vəzifələrin icrası sahəsində müəyyən edilmiş davranış qaydasını pozmuş olsun. Hərəkətin müəyyən edilmiş

davranış qaydasına zidd olaraq törədilməsi dedikdə həmin hərəkətin davranış qaydasını aşkar surətdə pozması və ya onun davranış qaydasında nəzərdə tutulmayan üsul və vasitələrlə və yaxud formada həyata keçirilməsi başa düşülür. Məsələn, müvəqqəti istifadəyə verilmiş əmlakın mülkiyyətçi tərəfindən onu qaytarmaq istəməyən istifadəçidən özbaşına geri götürülməsi. Bu halda mülkiyyətçi istifadəçinin qanunsuz sahibliyində və istifadəsində olan əmlakını tələb etmək hüququnu müəyyən edilmiş davranış qaydasına zidd olaraq realizə etmişdir. Belə ki, mülkiyyətçi bu hüququnu əmlakı özbaşına götürməklə deyil, məhkəməyə müraciət etməklə həyata keçirməli idi;

b) hərəkətin qanuniliyi vətəndaş və ya təşkilat tərəfindən təkzib edilməlidir, yəni mübahisələndirilməlidir. Təkzib edilmə (mübahisələndirmə) faktı qanuniliyi təkzib edilən hərəkətin edilməsinədək, onun edilməsi prosesində və bundan sonra mövcud ola bilər. Hərəkətin qanuniliyinin təkzib edilməsi məhkəmə qaydasında, inzibati və intizam qaydasında ola və ümumiyyətlə, qeyri-hüquqi xarakter daşıya bilər.

Hər hansı bir hərəkət özbaşına edilsə də, onun qanuniliyi təkzib olunmursa, bu hərəkət cinayət kimi qiymətləndirilə bilməz.

Qanun cinayət tərkibinin zəruri əlaməti kimi məhz özbaşına hərəkətin özünün qanuniliyinin təkzib edilməsini nəzərdə tutur. Buna görə də hərəkətin qanuniliyi deyil, əsasında hərəkətin edildiyi normativ hüquqi aktın qanuniliyinin təkzib olunması şərh olunan cinayətin tərkibini yaratmır. Çünki bu halda hərəkət həmin normativ hüquqi aktla müəyyən edilmiş davranış qaydasına uyğun həyata keçirilir;

c) hərəkət özbaşına törədilməlidir. Yəni təqsirkar öz hərəkətinin (hərəkətsizliyinin) müəyyən edilmiş davranış qaydasına zidd olaraq icazəsiz (sanksiyasız) həyata keçirildiyini dərk etməlidir;

ç) hərəkət nəticəsində təşkilat və ya vətəndaşların qanunla qorunan mənafelərinə mühüm ziyan vurulmalıdır. Mühüm ziyan qiymətləndirici əlamət olmaqla işin bütün faktik halları nəzərə alınaraq müəyyənləşdirilir. **Mühüm ziyan** əlaməti qiymətləndirilərkən fiziki və hüquqi şəxslərin əmlak və maliyyə vəziyyəti və digər maddi, mənəvi və fiziki ziyan, hüquqların pozulması və s. nəzərə alınmalıdır.

Özbaşına hərəkət nəticəsində hüquqi şəxslərə, hüquqi şəxs olmayan təşkilatlara və fiziki şəxslərə mühüm ziyan dəyə bilər. Bu zaman həmin hərəkətin qanuniliyinin həm də üçüncü şəxslərin xeyrinə təkzib olunması mümkündür;

d) özbaşına hərəkətlə mühüm ziyandan ibarət olan nəticə arasında səbəbli əlaqə olmalıdır.

4. CM-in 322.2-ci maddəsi eyni əməllərin zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilməsinə görə cinayət məsuliyyəti müəyyən edir. Bu zaman öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə özbaşınalıq, yaxud döyməklə, sağlamlığa yüngül və ya az ağır zərər vurmaqla özbaşınalıq CM-in 322.2-ci maddəsinin tərkibi ilə tam əhatə olunduğu üçün əlavə tövsif tələb olunmur. Özbaşınalıq nəticəsində sağlamlığa ağır zərər vurulduqda təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında tövsif olunur.

5. Bu cinayət **subyektiv cəhətdən** təqsirin qəsd formasında törədilir. Təq-

sirkanın özbaşına hərəkətə psixi münasibəti **birbaşa qəsdlə**, mühüm ziyan vurulmasına psixi münasibəti isə həm birbaşa, həm də dolayı qəsdlə xarakterizə olunur.

6. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Analoji hərəkətləri etmiş vəzifəli şəxslərin əməli CM-in 308-ci və ya 309-cu maddəsi ilə tövsif olunur.

Maddə 323. Azərbaycan dövlətinin başçısının - Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma

323.1. Azərbaycan dövlətinin başçısının - Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında ləkələmə və ya alçaltma —

iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

323.1-1. Bu Məcəllənin 323.1-ci maddəsində nəzərdə tutulmuş əməllər internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə törədildikdə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

323.2. Bu Məcəllənin 323.1 və ya 323.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Azərbaycan dövlətinin başçısının - Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti, habelə onun rəhbərliyi altında yeridilən siyasət haqqında tənqidi mülahizələrlə bağlı kütləvi çıxışlara bu maddənin qüvvəsi şamil edilmir *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 29 noyabr 2016-cı il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 31 dekabr 2016-cı il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikası Prezidentinin normal idarəçilik fəaliyyətidir. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti bu cinayət nəticəsində ziyan çəkən **əlavə obyektdir.**

2. Azərbaycan Respublikası Prezidenti bu cinayətdən **zərərçəkmiş şəxs** hesab olunur.

3. **Obyektiv cəhətdən** bu cinayət Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltmada ifadə olunur.

Bu cinayət tərkibi CM-in 147-ci və 148-ci maddələrində nəzərdə tutulmuş cinayət tərkiblərinin (böhtan və təhqir) ümumiləşdirilmiş xüsusi bir formasıdır. Nəzərdən keçirilən bu cinayətin xüsusiyyəti ondan ibarətdir ki, təqsirkar şəxsin davranışı Azərbaycan Respublikası Prezidentinin yalnız şəxsi insani şərəf və ləyaqətini deyil, həm də onun Azərbaycan dövlətinin başçısı kimi xidməti peşə və vəzifə ləyaqətini ləkələyir və ya alçaldır. Bu zaman şərəf və ləyaqəti ləkələyən və ya alçaldan hərəkətlər Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, onun icra orqanına deyil, konkret olaraq bilavasitə Azərbaycan

Respublikası Prezidentinin şərəf və ləyaqətinə qarşı yönəlməlidir.

4. Azərbaycan Respublikası Prezidentinin **şərəf və ləyaqətini ləkələmə** dedikdə yalan olduğunu bilə-bilə Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları yayma başa düşülür. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə zamanı şəxsin özü və onun vəzifə fəaliyyəti haqqında yayılan məlumatlar: 1) yalan olmalı; 2) təqsirkar həmin məlumatların yalan olduğunu bilməli; 3) Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatlar olmalıdır. Göstərilən üç əlamətdən birinin mövcud olmaması CM-in 323-cü maddəsi ilə cinayət məsuliyyətini istisna edir.

5. Azərbaycan Respublikası Prezidentinin **şərəf və ləyaqətini alçaltma** dedikdə onun şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma başa düşülür. Bu zaman şərəf və ləyaqəti alçaldan məlumatların həqiqətə uyğun olub-olmamasının heç bir əhəmiyyəti yoxdur. Cinayətin tövsifi baxımından əhəmiyyət kəsb edən hal ondan ibarətdir ki, Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti nalayiq (ədəbsiz, nəzakətsiz) formada alçaldılmış olsun.

6. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində ləkələndikdə və ya alçaldıldıqda, şərh olunan cinayətin tərkibi yaranır. Cinayətin edilmə **üsulunun** xarakteri — kütləvilik cinayət tərkibinin zəruri əlamətidir. **Kütləvilik** dedikdə Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətinin ən azı bir nəfər kənar şəxsin olduğu şəraitdə ləkələnməsi və ya alçaldılması başa düşülür.

7. Kütləvi çıxış, kütləvi nümayiş etdirilən əsər və ya kütləvi informasiya vasitələri təhlil edilən cinayətin edilmə üsuludur. **Kütləvi çıxış** — Azərbaycan Respublikası Prezidentinin özü və ya onun fəaliyyəti haqqında ən azı bir nəfər kənar şəxsin görə, eşidə və ya qavraya biləcəyi formada mülahizə yürütməkdir. **Kütləvi nümayiş etdirilən əsər** dedikdə ən azı bir nəfər kənar şəxsin görə və ya qavraya biləcəyi tərzdə nümayiş etdirilən əsərlər (fotoşəkillər, rəsm əsərləri, kinematoqrafiya əsərləri və s.) başa düşülür. Cinayətin törədilməsinin dördüncü üsulu məlumatların internet informasiya ehtiyatında yayılmasıdır. «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının 3 aprel 1998-ci il tarixli Qanununun 2-ci maddəsinə görə **informasiya ehtiyatları** dedikdə informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri başa düşülür. **Kütləvi informasiya vasitəsi** dedikdə dövri mətbu nəşrlər, teleradio proqramları, kinoxronika proqramları və digər yayım formaları başa düşülür («Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanununun 3-cü maddəsi).

8. CM-in 323.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə törədilməsi şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətidir.**

İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablar dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür (CM-in 148-1-ci maddəsinin «Qeyd»i). Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma foto və digər şəkilləri, video və audio yazıları internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə icra edildikdə CM-in 323.1-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.

9. CM-in 323.1 və ya 323.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə törədilməsi) haqqında CM-in 147.2-ci maddəsinin şərhinə bax.

10. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələdiyini və ya alçaltdığını dərk edir və bunu arzu edir. Cinayətin motiv və məqsədi müxtəlif ola bilər və onlar əməlin tövsifi baxımından hüquqi əhəmiyyət kəsb etmir.

11. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti, habelə onun rəhbərliyi altında yeridilən siyasət haqqında tənqidi mülahizələrlə bağlı kütləvi çıxışlara bu maddənin qüvvəsi şamil edilmir (CM-in 323-cü maddəsinin qeydi). Lakin həmin çıxışlarda irəli sürülən tənqidi mülahizələr nalayiq formada ifadə olunarsa, göstərilən cinayətin tərkibi yaranır.

11. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 324. Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər

Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər —

iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 31 may 2011-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 2 iyul 2011-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Dövlət gerbi ilə rəftar sahəsində idarəçilik qaydasıdır.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı və Dövlət gerbi bu cinayətin **predmetini** təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin I hissəsinə görə Dövlət bayrağı və Dövlət gerbi Azərbaycan Respublikasının dövlət rəmzləri hesab olunur. Dövlət bayrağı və Dövlət gerbi Azərbaycan dövlətinin suverenliyinin və müstəqilliyinin rəmzidir (Azərbaycan Respublikasının 5 fevral 1991-ci il tarixli Qanunu ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə»nin 1-ci bəndi və Azərbaycan Respublikasının 23 fevral 1993-cü il tarixli Qanunu ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Əsasnamə»nin 1-ci bəndi).

Azərbaycan Respublikasının Dövlət gerbinin və Dövlət bayrağının təsviri və rəsmi istifadə qaydası Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin II və III hissələri ilə «Azərbaycan Respublikasının Dövlət gerbi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu, «Azərbaycan Respublikasının Dövlət bayrağının istifadəsi qaydaları haqqında» 8 iyun 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu ilə və yuxarıda göstərilən Əsasnamələrlə müəyyən olunur.

3. Dövlət bayrağına və Dövlət gerbinə hörmətsizlik nəinki hüquq normaları ilə, həm də cəmiyyətin əxlaq normaları ilə bir araya sığmayan əməldir. Dövlət bayrağı və Dövlət gerbi müqəddəsdir və onların hər hansı bir formada təhqir edilməsi qanuna əsasən cəzalandırılır.

4. Bu cinayət **obyektiv cəhətdən** Azərbaycan Respublikasının Dövlət bayrağı və Dövlət gerbi barəsində təhqiredici hərəkətlərin edilməsində ifadə olunur. Belə hərəkətlərə Dövlət bayrağının və ya Dövlət gerbinin məhv edilməsi, onların üzərində təhqiramiz və alçaldıcı yazıların yazılması, şəkillərin çəkilməsi, hərəkətlərin edilməsi, onların ayaq altına atılaraq tapdanılması, alçaldıcı-natəmiz yerlərdə asılması (vurulması) və s. aiddir.

Şərh olunan cinayət öz xarakterinə görə yalnız fəal hərəkətlərlə törədilə bilər.

5. Dövlət bayrağı və ya Dövlət gerbi barəsində hər hansı təhqiredici hərəkətin edildiyi andan bu cinayət **başa çatmış** sayılır.

6. Təhlil edilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlərə yol verdiyini dərk edir və bunu arzu edir.

Cinayətin motivi siyasi (dövlətin nüfuzunu zəiflətmək) və xuliqanlıq xarakteri daşıya bilər ki, bunlar da əməlin CM-in 324-cü maddəsi ilə tövsifi baxımından əhəmiyyət kəsb etmir.

Bu cinayətin motivini nəzərə almaqla təqsirkarın əməlində digər cinayətlərin (xuliqanlıq, dövlət əleyhinə yönələn açıq çağırışlar və s.) tərkibinin olub-olmamasını müəyyən etmək olar. Təqsirkarın hərəkətlərində həmin cinayətlərdən hər hansı birinin tərkibi olduqda, onun əməli cinayətlərin məcmusu qaydasında tövsif olunur.

7. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

8. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 325. Dövlət təltiflərini və rəsmi sənədi əldə etmə və ya satma

Hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədləri, habelə Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla əldə etmə və ya satma —

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** rəsmi sənədlərlə və dövlət təltifləri ilə rəftar etmə üzrə normal idarəçilik fəaliyyətidir.

2. Rəsmi sənədlər və dövlət təltifləri bu cinayətin **predmetini** təşkil edir. Rəsmi sənədlərin və dövlət təltiflərinin əldə edilməsi və ya satılması yalnız o halda CM-in 325-ci maddəsi ilə tövsif oluna bilər ki, həmin sənədlər və təltiflər saxta olmasın. Saxta rəsmi sənədləri və dövlət təltiflərini əldə etmə və ya satma isə CM-in 320-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaradır.

Dövlət təltifləri və rəsmi sənədlər haqqında CM-in 320-ci maddəsinin şərhinə bax.

3. Bu cinayət **obyektiv cəhətdən** hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədləri, habelə Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla əldə etmə və ya satmada ifadə olunur.

Əldə etmə dedikdə hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədləri, habelə Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla, əvəzli və ya əvəzsiz əsaslarla (satın almaqla, dəyişməklə, hədiyyə kimi qəbul etməklə və s.) öz sahibliyinə, istifadəsinə və sərəncamına keçirmə başa düşülür. Rəsmi sənədlərin qanunsuz əldə edilməsinin üsullarından biri olan həmin sənədlərin oğurlanması bu cinayətin tərkibinə daxil deyildir. Bu halda təqsirkarın əməli 326-cı maddə ilə tövsif olunur.

Rəsmi sənədlərin əldə edilməsi qanuni və ya qanunsuz ola bilər. Qanuni rəsmi sənədlərin yalnız qanunsuz (qanunların və ya digər normativ hüquqi aktların tələblərini pozmaqla) əldə edilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutur.

Satma dedikdə mülki-hüquqi mənada hər hansı əşyanın əvəzi ödənilməklə özgəninkiləşdirilməsi deyil, rəsmi sənədlərin və ya dövlət təltifinin əvəzli və ya əvəzsiz əsaslarla digər şəxslərə verilməsi başa düşülür. Bu zaman satmanın üsulu və xarakteri cinayətin tövsifi baxımından hüquqi əhəmiyyət kəsb etmir.

4. Azərbaycan Respublikasının dövlət təltifinin əldə edilməsi və ya satılması hər bir halda qanunsuzdur. Belə ki, dövlət təltifi adlı xarakter daşıyır və yalnız təltif olunan şəxs üçün hüquqi nəticələr yaradır.

5. Rəsmi sənədlərin və ya dövlət təltifinin qanunsuz yolla əldə edildiyi və ya satıldığı andan cinayət **başa çatmış** hesab olunur.

Qanunsuz yolla satılmış və yaxud əldə edilmiş rəsmi sənədlərdən və ya dövlət təltiflərindən sonradan istifadə etmənin mümkün nəticələri bu cinayət tərkibi ilə əhatə olunmur. Belə nəticələrin baş verməsi hər hansı digər cinayətin tərkibini yaratdıqda, onda təqsirkar şəxslərin əməli həmin nəticələrə görə

məsuliyyət nəzərdə tutan maddə (CM-in 178, 184, 209 və ya 213-cü maddələri) ilə tövsif olunmalıdır.

6. Kommersiya və ya bank sirri olan məlumatların, habelə dövlət sirri təşkil edən məlumatların olduğu rəsmi sənədləri, sonradan onlardan istifadə etmə və ya həmin məlumatları yayma məqsədi ilə əldə etmə və ya satma müvafiq surətdə CM-in 202-ci və ya 274-cü, yaxud 275-ci maddəsi ilə tövsif olunur.

7. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Cinayətin motiv və məqsədi müxtəlif ola bilər və onlar cinayətin tövsifi baxımından hüquqi əhəmiyyət kəsb etmir.

8. Şərh olunan cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

9. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

Maddə 326. Rəsmi sənədləri, ştampları, möhürləri talama və ya məhv etmə

326.1. Rəsmi sənədləri, ştampları və ya möhürləri tamah məqsədi və ya digər şəxsi niyyətlə talama, məhv etmə, zədələmə və ya gizlətmə —

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

326.2. Dənizçinin şəxsiyyət sənədini, vətəndaşın şəxsiyyət vəsiqəsini, pasportunu və ya digər mühüm şəxsi sənədini talama —

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il, 2 oktyabr 2008-ci il, 31 may 2011-ci il, 31 may 2017-ci il və 20 oktyabr 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 30 oktyabr 2008-ci il; 2 iyul 2011-ci il; 19 iyul 2017-ci il; 9 noyabr 2017-ci il).*

1. Şərh olunan cinayətin **obyekti** haqqında CM-in 320-ci maddəsinin şərhinə bax.

2. Təhlil edilən cinayətin **predmeti** rəsmi sənədlər, ştamplar və möhürlər (CM-in 326.1-ci maddəsi), vətəndaşın şəxsiyyət vəsiqəsi, pasportu və ya digər mühüm sənədi (CM-in 326.2-ci maddəsi) ola bilər.

Bu cinayətin predmeti kimi **rəsmi sənəd** dedikdə istənilən rəsmi sənəd, yəni hüquq verən və ya verməyən, vəzifədən azad edən və ya etməyən rəsmi sənəd başa düşülür. Rəsmi sənəd, habelə ştamp və möhürün anlayışı haqqında CM-in 320-ci maddəsinin şərhinə bax.

Dənizçinin şəxsiyyət sənədi gəmidə (hərbi gəmi istisna olmaqla) dənizçinin şəxsiyyətini təsdiq edən sənəd olmaqla, sahibinə Azərbaycan Respublikasının 2006-cı il 12 may tarixli Qanunu ilə qoşulmuş Beynəlxalq Əmək Təşkilatının «Dənizçilərin şəxsiyyət sənədləri haqqında» 2003-cü il tarixli 185 nömrəli

(dəyişdirilmiş) Konvensiyasına uyğun olaraq işlədiyi gəmi ilə birlikdə və ya xaricdə işlədiyi gəmiyə çatmaq üçün fərdi qaydada Azərbaycan Respublikasından getmək və Azərbaycan Respublikasına gəlmək hüququ verir. Şəxsiyyət sənədi Azərbaycan Respublikasında qeydiyyatda olan və dənizçilik məqsədi ilə istifadə edilən gəmilərdə hər hansı dənizçi vəzifəsində işləyən Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən verilir. Şəxsiyyət sənədi Konvensiyaya uyğun olaraq, Azərbaycan Respublikasında qeydiyyatda olan və ya onun ərazisində istifadə üçün icarəyə götürülmüş gəmidə dənizçi vəzifəsində işləyən və Azərbaycan Respublikasında daimi yaşama statusu almış əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə də verilə bilər. Şəxsiyyət sənədi 5 illik müddətə verilir, bu müddət 10 ildən artıq olmamaq şərtilə uzadıla bilər («Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»nin və «Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi»nin təsdiq olunması barədə» Azərbaycan Respublikasının 1 fevral 2008-ci il tarixli Qanununun 1-3-cü və 7-ci maddələri).

Şəxsiyyət vəsiqəsi Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənəddir («Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» 14 iyun 1994-cü il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 1-ci hissəsi). Qanunvericilik şəxsiyyət vəsiqəsinin iki növünü müəyyən edir: 1) 16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsi; 2) 16 yaşına çatandan sonra vətəndaşa verilən şəxsiyyət vəsiqəsi.

Pasport Azərbaycan Respublikası ərazisindən kənarda vətəndaşın şəxsiyyətini təsdiq edən, habelə ona ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün verilən vahid sənəddir.

Pasport 18 yaşına çatmış, müstəsna hallarda isə xaricə təhsil almaq və ya daimi yaşayış üçün gedən 16 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşlarına verilir və bütün ölkələrə getmək üçün etibarlıdır.

Pasportun ümumvətəndaş, xidməti və diplomatik tipləri vardır («Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» 14 iyun 1994-cü il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi).

Digər mühüm şəxsi sənəd dedikdə hərbi bilet, əmək kitabçası, sürücülük vəsiqəsi, təhsil haqqında attestat, diplom, mühafizə olunan obyektlərə buraxılış vəsiqəsi və s. başa düşülür.

3. Bu cinayət **obyektiv cəhətdən** rəsmi sənədləri, ştampları, möhürləri, şəxsiyyət vəsiqəsini, pasportu və ya digər mühüm şəxsi sənədləri oğurlamada, məhv etmədə, zədələmədə və ya gizlətmədə ifadə olunur.

4. **Talama** dedikdə cinayətin göstərilən predmetlərinin onun qanuni sahiblərindən və istifadəçilərindən onların iradəsinə zidd olaraq qanunsuz götürülməsi (özgəninkiləşdirilməsi) başa düşülür. Talama müxtəlif üsullarla: açıq və ya gizli, güc tətbiq etməklə və ya etməməklə, aldatmaqla, etibardan sui-istifadə etməklə, mənimsəmə və israf etmə və s. kimi üsullarla həyata keçirilə bilər. Əgər talama zamanı həmin üsullardan istifadə edilməsi başqa bir cinayətin tərkibini yaradırsa, onda təqsirkar şəxsin əməli cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

Bu cinayətin göstərilən predmetlərini hədə-qorxu ilə tələb etmə, əgər həmin predmetlər əmlaka olan hüququ ifadə edirsə, CM-in 182-ci maddəsi ilə tövsif olunur. Əks halda CM-in 326-cı maddəsinin tərkibi mövcud olur.

5. **Məhv etmə** dedikdə təqsirkar şəxsin elə qanunsuz hərəkətləri başa düşülür ki, həmin hərəkətlər rəsmi sənədlərin, ştampların və ya möhürlərin tamamilə sıradan çıxarılması (yandırılması, cırılması, xırda hissələrə parçalanması və s.) ilə və yaxud onların tətbiq (istifadə) edilməsini qeyri-mümkün edən vəziyyətə gətirilməsi (cinayətin predmetlərinin suya və digər mayenin içərisinə atılması və s.) ilə nəticələnir.

6. **Zədələmə** dedikdə elə qanunsuz hərəkətlərin edilməsi başa düşülür ki, bu hərəkətlərin nəticəsində rəsmi sənədlərdən, ştamplardan və möhürlərdən birbaşa təyinatı üzrə istifadə etmək mümkün olmur və ya onlardan istifadə olunması əhəmiyyətli dərəcədə çətinləşir. Məsələn, rəsmi sənədin mühüm hissəsinin üzərinə mürəkkəb tökmə və s.

7. **Gizlətmə** o halda mövcud olur ki, cinayətin predmetlərinin qanuni sahibi (istifadəçisi) və ya həmin predmetləri təsadüfən əldə etmiş şəxs tərəfindən onlar dövlət orqanlarına və ya vəzifəli şəxslərə qaytarılmalı olduğu halda qəsdən qaytarılmır və gizlədilir.

8. Cinayətin CM-in 326.1-ci maddəsi ilə tövsif edilməsi üçün rəsmi sənədlərin, ştampların və ya möhürlərin hüquqi şəxslərdə və ya hüquqi şəxs olmayan təşkilatlarda, yaxud vəzifəli şəxsinin müvəqqəti sahibliyində (istifadəsində) olması zəruridir.

9. CM-in 326.2-ci maddəsi dənizçinin şəxsiyyət sənədini, vətəndaşın şəxsiyyət vəsiqəsini, pasportunu və ya digər mühüm sənədlərini yalnız talamağa görə cinayət məsuliyyəti nəzərdə tutur. Həmin sənədlərin məhv edilməsi, zədələnməsi və ya gizlədilməsi CM-in 326.2-ci maddəsinin tərkibini yaratmır. Bu hərəkətlər yalnız o halda cinayət hesab olunur ki, onlar başqa bir cinayətin törədilməsinin və ya oğurlanmış dənizçinin şəxsiyyət sənədinin, şəxsiyyət vəsiqəsinin, pasportun və ya digər mühüm şəxsi sənədin başqa şəxs tərəfindən qabaqcadan vəd edilməklə gizlədilməsinin, habelə cinayətin izinin itirilməsinin üsulu olsun (CM-in 32.5-ci maddəsi).

10. Şərh olunan cinayətin obyektiv cəhətini təşkil edən hərəkətlərdən birinin edildiyi andan bu cinayət **başa çatmış** hesab olunur. Nəticə təhlil edilən cinayət tərkibinin zəruri əlaməti deyildir.

11. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə**, tamah məqsədi və ya digər şəxsi niyyətlə törədilir. **Tamah məqsədi** dedikdə maddi mənfəət (gəlir) əldə etmək və ya müəyyən maddi məsrəflərdən azad olmaq məqsədi başa düşülür. Digər şəxsi niyyət qisas almaqda, nifrət hissində və s. ifadə oluna bilər.

CM-in 326.1-ci və 326.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibi o halda yaranır ki, cinayət törədən şəxsin niyyəti məhz həmin maddələrdə sadalanan predmetlərin talanmasına, məhv edilməsinə, zədələnməsinə və ya gizlədilməsinə yönəldilsin.

Bakı şəhəri Səbail rayon Məhkəməsinin 24 dekabr 2009-cu il tarixli hökmü ilə M.Q.Bağırov CM-in başqa maddələri ilə yanaşı, 326.2-ci maddəsi ilə nəzər-

də tutulan cinayətin törədilməsində təqsirli bilinərək ona görə məhkum olunmuşdur ki, o, sərnişin avtobusunda H.-ın əl çantasından müəyyən məbləğ pulla bərabər, ona məxsus şəxsiyyət vəsiqəsini də oğurlamışdır.

Hökmdən verilmiş apellyasiya şikayəti təmin edilməmişdir.

Apellyasiya məhkəməsinin qərarından verilmiş kassasiya şikayətinə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyası apellyasiya məhkəməsinin qərarının CM-in 326.2-ci maddəsi ilə təqsirli sayılma hissəsində ləğv edilməsini, cinayət işininin icraatına həmin hissədə təqsirliliyi sübuta yetirilmədiyinə görə xitam verilməsini qət etmişdir.

Kollegiya qeyd etmişdir ki, CM-in 326.2-ci maddəsində nəzərdə tutulmuş cinayət yalnız birbaşa qəsdlə törədilə bildiyinə görə və M.Q.Bağırovun niyyəti məhz şəxsiyyət vəsiqəsinin oğurlanmasına yönəlmədiyi üçün (o, yalnız pulu oğurlamağı planlaşdırmış, arzu etmişdir. O, şəxsiyyət vəsiqəsini sonradan tullamış və ibtidai istintaqda onu tulladığı yeri də göstərmişdir) onun əməlində CM-in 326.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkibi yoxdur[1].

Əgər təqsirkar taladığı predmetlərdən digər bir cinayəti törətmək üçün istifadə etmək arzusunda olmuşdursa, onun əməli CM-in 326-cı maddəsi və törətməyi arzu etdiyi cinayətə hazırlığa görə (həmin cinayət ağır və ya xüsusilə ağır cinayət olduqda) cinayətlərin məcmusu qaydasında tövsif olunmalıdır.

12. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.

13. CM-in 99-4-cü maddəsində göstərilən şərtlər olduqda, CM-in təhlil olunan maddəsində nəzərdə tutulan cinayətin törədilməsi ilə bağlılığı olan **hüquqi şəxsə cinayət-hüquqi tədbirlər** tətbiq oluna bilər (CM-in 99-4—99-9-cu maddələrinin şərhinə bax).

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2011-ci il, № 2, s.11-13.

XII BÖLMƏ
HƏRBİ XİDMƏT ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

XXXV Fəsil
Hərbi xidmət əleyhinə olan cinayətlər

Maddə 327. Hərbi xidmət əleyhinə olan cinayətlər anlayışı

327.1. Çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və bu fəsildə nəzərdə tutulmuş cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur.

327.2. Bu maddədə göstərilməmiş şəxslərin hərbi xidmət əleyhinə olan cinayətlərdə iştirakı bu fəslin müvafiq maddələri üzrə məsuliyyətə səbəb olur.

1. Hərbi xidmət əleyhinə olan cinayətlər anlayışı CM-in 14-cü maddəsində müəyyən edilmiş cinayətin ümumi anlayışına əsaslanır. Şərh edilən maddədə hərbi xidmət əleyhinə olan cinayətlərin yalnız səciyyəvi xüsusiyyətləri ehtiva olunmuşdur. Həmin xüsusiyyətlərin məcmusu əməli məhz bu növ cinayət hesab etməyə imkan verir.

2. «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikasının 29 dekabr 2017-ci il tarixli Qanununun 1-ci maddəsinə uyğun olaraq **Azərbaycan Respublikasının Silahlı Qüvvələri** Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə yaradılmış Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət hərbi təsisatdır. **Azərbaycan Ordusu** Silahlı Qüvvələrin əsas tərkib hissəsi olmaqla Azərbaycan Respublikasına qarşı yönəlmiş təcavüzün dəf edilməsini, ərazi bütövlüyünün və toxunulmazlığının silahlı müdafiəsini təmin edən və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi) tərəfindən təşkil edilən silahlı birləşmədir. **Azərbaycan Respublikasının başqa silahlı birləşmələri** Silahlı Qüvvələrin tərkib hissəsi olmaqla Qanunla müəyyən edilən xüsusi vəzifələri yerinə yetirən və hərbi xidmət nəzərdə tutulan dövlət orqanlarıdır (dövlət orqanlarının strukturuna daxil olan qurumlardır). Başqa silahlı birləşmələrə aid dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən təsdiq edilir.

3. CM-in şərh edilən XXXV fəsli (həmin fəslin maddələri) hərbi qulluqçuların, eləcə də hərbi vəzifəlilərin törətdikləri hərbi xidmət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətinin yeganə hüquqi əsasıdır. Burada əvvəlki qanunvericiliyə məlum olan cinayət tərkibləri ilə yanaşı, bir sıra yeni cinayət tərkibləri də ehtiva olunmuşdur. Dövrün tələblərinə cavab verməyən bəzi əməllər isə oradan çıxarılmışdır.

4. Hərbi qulluq qaydaları Azərbaycan Respublikasının Konstitusiyası, «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli, 274-IVQ saylı Qanunu, «Hərbi xidmət keçmə haqqında» Əsasnamə, «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu, hərbi nizamnamələr və hərbi rəislərin müvafiq əmrləri vasitəsilə müəyyən edilir. Hərbi qulluq qaydalarına ciddi əməl edilməsi hərbi intizamın mahiyyətini təşkil edir. Möhkəm hərbi intizam Azərbaycan Respublikası Silahlı Qüvvələrinin keyfiyyətli döyüş hazırlığının təmin edilməsinin zəruri şərtlərindən biridir.

5. Hərbi xidmət əleyhinə olan cinayətlər anlayışının tərifində iki mühüm əlamət ehtiva olunur: a) cinayətkar əməlin obyektinin xüsusi xarakteri — hərbi qulluğun müəyyən edilmiş qaydaları; b) cinayətin xüsusi subyekti — hərbi qulluqçu, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxs, yaxud təlim və ya yoxlama toplanışı keçən hərbi vəzifəli şəxs.

Hərbi qulluğun müəyyən edilmiş qaydaları bütün hərbi xidmət əleyhinə olan cinayətlərin xüsusi obyekti qismində çıxış edir. Lakin hərbi qulluqçu tərəfindən hər hansı bir ictimai təhlükəli əməlin törədilməsi həmin əməli hərbi xidmət əleyhinə olan cinayətə aid etmək üçün hələ kifayət qədər əsas vermir.

6. Hərbi xidmət əleyhinə olan cinayətin və onun spesifikliyinin səciyyələndirilməsi üçün onun tərkibini, yəni qanuna görə yalnız bu növ cinayətə xas olan və belə cinayətlərin konkret tərkiblərinin məcmusundan irəli gələn əlamətlərin cəmini təhlil etmək lazımdır. Hərbi qulluq qaydalarında təşəkkül tapan ictimai münasibətlər məcmu halında qoşunun (şəxsi heyətin) həyat və məişətini, fəaliyyətini təşkil edir. Bu münasibətlər həmçinin Silahlı Qüvvələrin döyüş qabiliyyətini və döyüş hazırlığını müəyyən edir.

Hərbi qulluq qaydalarının zəruri tərkib hissəsini **hərbi intizam** təşkil edir. Bu da hərbi xidmət üzrə bütün vəzifələrin sözsüz olaraq yerinə yetirilməsində ifadə olunur. Ona görə də hər hansı hərbi vəzifənin ciddi pozuntusu hərbi xidmət əleyhinə olan cinayət hesab edilə bilər.

7. Ayrı-ayrı hərbi xidmət əleyhinə olan cinayətlərin **bilavasitə obyektinin** müəyyən edilməsi mühüm əhəmiyyətə malikdir. Hərbi xidmət əleyhinə olan cinayətlərin müxtəlif növlərinin təsvir edilməsi bundan çox asılıdır. Bilavasitə obyektin müəyyən edilməsi hər bir hərbi xidmət əleyhinə olan cinayətin fərdi xüsusiyyətlərinin aydınlaşdırılmasına imkan yaradır. Bu, bir tərəfdən, belə cinayətləri bir-birindən fərqləndirməyə, digər tərəfdən isə müxtəlif hərbi xidmət əleyhinə olan cinayətləri ayrıca nisbi və müstəqil qruplarda birləşdirməyə şərait yaradır.

8. Konkret hərbi xidmət əleyhinə olan cinayət hərbi qulluğun bütün qaydalarına deyil, həmin qaydaların bu və ya digər cəhətlərinə qəsd edir. Məhz bilavasitə obyekt əsasında hərbi xidmət əleyhinə olan cinayətlərin sistemini qurmaq mümkün olur. Bu baxımdan hərbi xidmət əleyhinə olan cinayətləri aşağıdakı kimi sistemləşdirmək olar: 1) tabelik və qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma (CM-in 328—332-ci maddələri); b) hərbi qulluq qaydalarını (məhdud mənada hərbi xidmətdən yayınmada ifadə olunur) pozma (CM-in 333—335-ci maddələri); c) xüsusi xidmət qaydalarını pozma (CM-in 336—340-cı maddələri); ç) hərbi vəzifə cinayətləri (CM-in 341—344-cü maddələri); d) hərbi əməliyyatlar rayonunda hərbi qulluq qaydalarını pozma (CM-in 345—346-cı maddələri); e) hərbi əmlaka ziyan vurma və ya ondan istifadə qaydalarını pozma (CM-in 347—350-ci maddələri); ə) hərbi texnikanı idarəetmə və istismar qaydalarını pozma (CM-in 351—353-cü maddələri).

9. Hərbi xidmət əleyhinə olan cinayətlər **obyektiv cəhətdən** hərbi intizam və hərbi hüquq qaydası üçün təhlükəli olan hərəkət və ya hərəkətsizlikdə ifadə olunur. Əmri icra etməmə, döyüş vaxtı silah işlətməkdən boyun qaçırma və i.a. hərəkətsizlikdə ifadə olunan hərbi xidmət əleyhinə olan cinayətlərə misal ola bilər.

Bütün başqa cinayətlər kimi hərbi xidmət əleyhinə olan cinayətlərin də obyektiv cəhətinin əsas əlamətini bu əməllərin **ictimai təhlükəliliyi** təşkil edir. İctimai təhlükəli hərəkət və ya hərəkətsizlikdən ibarət olan hərbi xidmət əleyhinə olan cinayətlər hərbi hüquq qaydasını, hərbi andı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamə və təlimatlarını pozan hüquqazidd əməllər kimi çıxış edir.

Zahiri əlamətlərinə görə hər hansı hərbi xidmət əleyhinə olan cinayət tərkibinə oxşayan bu və ya digər hərəkət əslində ictimai təhlükəli və hüquqazidd olmaya da bilər. Belə hallarda törədilən hərəkət cinayət məsuliyyətinə səbəb olmur. Qeyri-qanuni əmrin icrasından imtina, zəruri müdafiə və son zərurət vəziyyətində törədilmiş hərəkət həmin xüsusi hallara misal ola bilər.

Qanun bəzi hərbi xidmət əleyhinə olan cinayətləri **formal tərkib** vasitəsilə ifadə etmişdir. Belə tərkiblərdə nəzərdə tutulmuş əməl ictimai təhlükəli nəticələrdən asılı olmayaraq hərbi xidmət əleyhinə olan cinayət hesab ediləcəkdir (məsələn, əmri icra etməmə, qarovul xidmətinin nizamnamə qaydalarını pozma və s.). Burada hərbi xidmət vəzifələrinin, hərbi borcun hərbi qulluqçu tərəfindən pozulması faktının özü artıq başa çatmış cinayət tərkibi kimi çıxış edir. Cinayətkar əməlin meydana çıxardığı zərərli nəticələr isə yalnız ağırlaşdırıcı tərkib əlaməti kimi çıxış edir.

10. Bəzi hərbi xidmət əleyhinə olan cinayət tərkiblərinin obyektiv cəhəti hərbi qulluqçunun yalnız hərəkət və ya hərəkətsizliyini deyil, həm də müəyyən ictimai təhlükəli nəticələrin meydana çıxmasını (maddi tərkibli hərbi xidmət əleyhinə olan cinayətlər) nəzərdə tutur. Maşınları idarəetmə və istismar qaydalarını pozma, hərbi növbə çəkmə qaydalarını pozma və s. bunlara misal ola bilər.

Bir sıra hərbi xidmət əleyhinə olan cinayət tərkiblərinin obyektiv cəhəti cinayətin edilmə vaxtı, yeri və şəraitini də zəruri əlamət kimi özündə ehtiva edir.

Bu baxımdan **«müharibə vaxtı»** və **«döyüş şəraiti»** anlayışları xüsusi əhəmiyyət kəsb edir. Hərbi xidmət əleyhinə olan cinayətlərin müharibə vaxtı, yaxud döyüş şəraitində edilməsi barəsində hərbi xidmət əleyhinə olan cinayətlər fəslinin bir çox maddələrində danışılır. Hərbi xidmət əleyhinə olan cinayətlərin istər müharibə vaxtı, istərsə də döyüş şəraitində törədilməsi onların ictimai təhlükəlilik dərəcəsini artıran hallar hesab olunur.

11. **Müharibə vaxtı** dedikdə Azərbaycan Respublikasının xarici dövlətlərlə müharibə vəziyyətində olması başa düşülür (CM-in 328-ci maddəsinin «Qey-

d»inin 1-ci bəndi). Bu baxımdan müharibə vaxtının başlanğıc və başa çatması anının saatına və dəqiqəsinədək dürüst müəyyən edilməsi son dərəcə vacibdir.

Müharibənin elan olunmasının və ya hərbi əməliyyatların faktiki aparılmasının ilk günü və saatı müharibənin başlanması, hərbi əməliyyatların faktiki olaraq dayandırıldığı gün və saat isə müharibənin sonu hesab olunur (CM-in 328-ci maddəsinin «Qeyd»inin 2-ci bəndi).

12. **Döyüş şəraiti** dedikdə hərbi hissənin və ya bölmənin bilavasitə düşmənə qarşı durması və faktiki olaraq döyüş əməliyyatı aparması başa düşülür (CM-in 328-ci maddəsinin «Qeyd»inin 3-cü bəndi).

Döyüş tapşırığına malik olan və ya onu yerinə yetirən hər bir hərbi hissə və ya gəmi (döyüşən orduya daxil olub-olmamasından və ya arxa cəbhədə yerləşməsindən asılı olmayaraq) döyüş şəraitində olan hesab olunur.

«Müharibə vaxtı» və «döyüş şəraiti» eyni anlayışlar deyildir. Döyüş şəraiti yalnız müharibə vaxtı deyil, hər hansı döyüş tapşırığının yerinə yetirilməsi məqsədi ilə dinc dövrdə də yarana bilər.

13. Bəzi hərbi xidmət əleyhinə olan cinayətlərin obyektiv cəhətini səciyyələndirən cəhətlərdən biri də həmin əməllərin bilavasitə **döyüş yerində** törədilməsidir. Adətən, hərbi əməliyyatların aparıldığı rayon, yaxud ərazi döyüş yeri kimi başa düşülür. Lakin bu hələ «döyüş yeri» anlayışını tam əhatə etmir. Ona görə də tam mənada döyüş yeri dedikdə təkcə hərbi əməliyyatların aparıldığı münaqişə rayonu deyil, həm də düşmən təcavüzünə məruz qalmış işğal bölgələri başa düşülməlidir. İstər bilavasitə döyüş əməliyyatlarının aparıldığı döyüş yerlərində, istərsə də işğal olunmuş bölgələrdə törədilən hərbi xidmət əleyhinə olan cinayətlər döyüş yerində edilən əməllər kimi qiymətləndirilir. Hərbi xidmət əleyhinə olan cinayətin döyüş yerində törədilməsi ağırlaşdırıcı hal hesab olunur.

Hərbi xidmət əleyhinə olan cinayətlərə dair qanunvericiliyin bəzi maddələrində «döyüş meydanı» ifadəsi də ehtiva olunur. **Döyüş meydanı** dedikdə bilavasitə döyüş gedən və ya getmiş ərazi (quru, su və hava hüdudları) başa düşülür.

14. CM-in 327.1-ci maddəsi hərbi xidmət əleyhinə olan cinayətlərin subyektlərinin üç kateqoriyasını müəyyən etmişdir: a) çağırış və ya kontrakt üzrə hərbi xidmət keçən hərbi qulluqçular; b) qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslər; c) təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilər.

15. Ümumiyyətlə, **hərbi qulluqçu** dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun yaradılmış başqa qoşun və hərbi birləşmələrdə həqiqi hərbi xidmət keçən Azərbaycan Respublikası vətəndaşları və başqa dövlətin vətəndaşları başa düşülür. Burada **qanunvericiliyə uyğun yaradılmış başqa qoşun və hərbi birləşmələrə** Azərbaycan Respublikası DİN-in daxili qoşunları, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti və s. aiddir.

«Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq, **hərbi xidmət** həqiqi hərbi xidmətdən

və ehtiyatda hərbi xidmətdən ibarətdir.

Ehtiyatda olan hərbi vəzifəli şəxslər yalnız o vaxt hərbi xidmət əleyhinə olan cinayətlərin subyekti ola bilərlər ki, hərbi xidmət əleyhinə olan cinayəti hərbi təlim, hərbi yoxlama və xüsusi toplanışlara cəlb olunduqları müddətdə törətmiş olsunlar.

16. «Hərbi qulluqçu» anlayışının izah edilməsi üçün həqiqi hərbi xidmətin başlanğıc və başa çatma anının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsində həqiqi hərbi xidmətin başlanma anı aşağıdakı kimi göstərilmişdir:

- çağırışçılar üçün – Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri tərəfindən hərbi hissəyə göndərildikləri gün;
- bağlaşma əsasında hərbi xidmətə könüllü daxil olanlar üçün – bağlaşmanın imzalandığı gün;
- kursantlar üçün – xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunduqları gün.

İstinad olunan normaya görə, hərbi qulluqçunun həqiqi hərbi xidmətdən buraxılması ilə əlaqədar hərbi hissə komandirinin əmri ilə şəxsi heyətin siyahısından çıxarıldığı gün onun həqiqi hərbi xidmətinin sonu sayılır.

17. Hərbi qulluqçu tərəfindən hərbi and içilməsi faktı hərbi xidmət əleyhinə olan cinayətin subyektinin müəyyən olunması üçün əhəmiyyət kəsb etmir. Bu və ya digər hallara görə hərbi andın vaxtında qəbul edilməməsi hərbi qulluqçunu törətdiyi hərbi xidmət əleyhinə olan cinayətə görə məsuliyyətdən azad etmir.

Hərbi qulluqçu cinayətin törədildiyi anda xidməti vəzifələrini yerinə yetirib-yetirməməsindən, yaxud həmin vəzifələri müvəqqəti olaraq icra etməməsindən asılı olmayaraq, hərbi xidmət əleyhinə olan cinayətin subyekti hesab olunur. «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci bəndində göstərilir ki, hərbi qulluqçular hərbi xidmət vəzifələrini faktiki yerinə yetirdikləri bütün hallarda, o cümlədən döyüş əməliyyatlarında iştirak edərkən, təlimlərdə, döyüş növbəsində (döyüş xidmətində), gündəlik növbələrdə və qarnizon növbəsində, toplanışlarda, ezamiyyətlərdə olarkən, xidmət yerinə gedib-gələrkən və digər hallarda hərbi xidmət başında sayılırlar.

18. Orduda, hərbi idarə, müəssisə və ya təşkilatda müxtəlif xüsusi vəzifələri, yaxud hərbi əhəmiyyətli bu və ya digər işləri hərbi qulluqçulardan savayı hərbi qulluqçu olmayan şəxslər də yerinə yetirə bilərlər. Belə şəxslərin hüquqi vəziyyəti ümumi qanunlarla müəyyən edilir. Bunlar hərbi vəzifələri icra etsələr də, hərbi qulluqçu olmadıqlarına görə, hərbi xidmət əleyhinə olan cinayətlərin subyekti ola bilməzlər.

Hərbi xidmət əleyhinə olan cinayətlərin subyekti olmayan, lakin onların törədilməsində iştirak edən şəxslər CM-in XXXV fəslinin müvafiq maddələri ilə icraçı deyil, təşkilatçı, təhrikçi və ya köməkçi qismində məsuliyyət daşıyırlar (CM-in 327.2-ci maddəsi).

İbtidai hərbi hazırlıq kursu keçən şəxslər hərbi xidmət əleyhinə olan cinayətlərin subyekti ola bilməzlər.

19. Hərbi xidmət əleyhinə olan cinayətin subyektinin səciyyələndirilməsi zamanı şəxsin hərbi xidmətə daxil olması qaydasının hüquqi əhəmiyyəti yoxdur. Şəxsin həqiqi hərbi qulluğa çağırılması və ya onun silahlı qüvvələrin şəxsi heyətinə könüllü daxil olması cinayət məsuliyyətinə təsir etmir. Ordu sıralarına könüllü surətdə daxil olmuş vətəndaşlar hərbi qulluqçuların bütün hüquqlarından istifadə edirlər və onlar hərbi rəislərin əmrlərini sözsüz və danışıqsız yerinə yetirməlidirlər.

20. Hərbi əsirlər hərbi xidmət əleyhinə olan cinayətlərin subyektləri hesab olunurlar. «Hərbi əsirlərlə rəftar etmə haqqında» 1949-cu il Cenevrə Konvensiyasının 82-ci (3-cü fəsil) maddəsinə uyğun olaraq «Hərbi əsirlər onları əsir götürmüş dövlətlərin döyüş silahlı qüvvələrində qüvvədə olan qanunlara, nizamnamə və əmrlərə tabedirlər».

«Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 3-cü hissəsinə əsasən hərbi qulluqçular əsirlikdə olduqları, habelə bitərəf ölkələrdə tərksilah edilib nəzarət altında saxlandıqları dövrdə hərbi andı pozmamış və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan cinayətləri törətməmişlərsə, onların hərbi qulluqçu statusu saxlanılır.

21. Hərbi xidmət əleyhinə olan cinayətlərin subyektlərinin ikinci kateqoriyasına — **qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərə** dövlət əmək dəstələrində, humanitar istiqamətli və kommunal bölmələrdə **alternativ xidmət** keçən şəxslər aid edilə bilərlər. Qanunla bu şəxslərin hərbi qulluqçu statusuna malik olmaması təsbit olunsa da («Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsi), təcrübədə belə şəxslərin də hərbi xidmət əleyhinə yönəlmiş cinayətləri CM-in təhlil edilən fəslinin maddələri üzrə tövsif edilir.

22. Hərbi xidmət əleyhinə olan cinayətlərin subyekti həm də **təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilər** ola bilər. Onlara Silahlı Qüvvələrin ehtiyatında olan və «Hərbi xidmətkeçmə haqqında» Əsasnaməyə və başqa qanunvericilik aktlarına müvafiq olaraq təlim və ya yoxlama toplanışlarına çağırılan şəxslər aiddir. Belə şəxslər toplanışa çağırıldıqları ilk gündən toplanışın son gününədək CM-in XXXV fəslində nəzərdə tutulmuş cinayətlərin subyekti hesab edilirlər.

23. Şərh edilən maddənin 2-ci hissəsində hərbi qulluqçu və ya hərbi vəzifəli olmayan şəxslərin hərbi xidmət əleyhinə olan cinayətlərdə iştirakçılığının mümkünlüyü nəzərdə tutulmuşdur. Belə şəxslər hərbi qanunvericiliyin müvafiq maddələri ilə cinayət məsuliyyəti daşıyırlar. Burada məsuliyyətin hər hansı xüsusi əsasları meydana çıxmır və məsələ cinayətdə iştirakçılığa, o cümlədən xüsusi subyektli cinayətdə iştirakçılığa dair ümumi müddəalar əsasında həll edilir.

24. Hərbi xidmət əleyhinə olan cinayətlərə aid olan, lakin yüngülləşdirici hallarda törədilən bəzi hərbi hüquq pozuntuları intizam xətası kimi qiymətləndirilə bilər. Belə hallarda qanunvericilik hərbi xidmət əleyhinə olan cinayəti intizam xətasından fərqləndirən hər hansı formal meyarı özündə ehtiva etmir. Hərbi xidmət əleyhinə olan cinayəti intizam xətasından yalnız maddi əlamətinə — konkret əməlin ictimai təhlükəlilik dərəcəsinə görə fərqləndirmək olar. İctimai təhlükəlilik dərəcəsinin ağır olduğu hallarda əməl cinayət, yüngül olduğu hallarda isə intizam xətası hesab olunur.

25. Hərbi qulluqçu tərəfindən törədilən hərbi hüquq pozuntusunun ictimai təhlükəlilik dərəcəsinin müəyyən edilməsi və onun hərbi xidmət əleyhinə olan cinayətlərə və ya hərbi intizam xətalarına aid edilməsi zamanı pozuntuya yol vermiş hərbi qulluqçunun, yaxud hərbi vəzifəli şəxsin şəxsiyyətinin aydınlaşdırılmasına, onun hərəkətlərinin motivinə, əməlin baş verdiyi konkret şəraitə, yerə və baş vermiş nəticələrin xarakterinə xüsusi diqqət yetirilməlidir.

Maddə 328. Əmri icra etməmə

328.1. Rəisin qanunla müəyyən edilmiş qaydada verdiyi əmri tabelikdə olan şəxsin yerinə yetirməkdən açıqcasına imtina etməsi, habelə əmrin başqa şəkildə qəsdən yerinə yetirilməməsi hərbi xidmət mənafelərinə əhəmiyyətli zərər vurduqda —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

328.2. Eyni əməllər:

328.2.1. bir qrup şəxs tərəfindən və ya qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

328.2.2. ağır nəticələrə səbəb olduqda —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

328.3. Hərbi xidmətə vicdansız və ya laqeyd münasibət nəticəsində əmri icra etməmə, bu əməllər ağır nəticələrə səbəb olduqda —

iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

328.4. Bu Məcəllənin 328.1—328.3-cü maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu fəslin müvafiq maddələrində «müharibə vaxtı» dedikdə Azərbaycan Respublikasının xarici dövlətlərlə müharibə vəziyyətində olması başa düşülür.

2. Müharibənin elan olunmasının və ya hərbi əməliyyatların faktiki aparılmasının ilk günü və saatı müharibənin başlanması, hərbi əməliyyatların faktiki dayandırıldığı gün və saat isə müharibənin sonu hesab edilir.

3. «Döyüş şəraiti» dedikdə hərbi hissənin və ya bölmənin bilavasitə düşmənə qarşı durması və ya faktiki döyüş əməliyyatı aparması başa düşülür *(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə - Azərbaycan Respublikası QT, 2001, № 7, m 455).*

1. Azərbaycan Respublikasının 1960-cı il CM-də tabelik və qarşılıqlı müna-

sibətlərin hərbi nizamnamə qaydalarına qəsdə görə cinayət məsuliyyəti iki müstəqil maddədə (233-cü maddə — tabe olmama; 234-cü maddə — əmri icra etməmə) nəzərdə tutulurdu. Həmin normalarda tabe olmama əmri yerinə yetirməkdən açıqcasına imtina etmə, habelə onu başqa şəkildə qəsdən yerinə yetirməmə kimi, əmri icra etməmə isə onu ehtiyatsızlıqla icra etməmə kimi müəyyən edilmişdi.

Azərbaycan Respublikasının yeni CM-də həmin tərkiblərdən biri saxlanmışdır. Həmin maddənin məzmunu daha aydın formulə edilmiş, məsuliyyət diferensiasiyalaşdırılmış, cəza tədbiri nisbətən yüngülləşdirilmiş, yüngülləşdirici hallarda törədilən eyni əmələ görə təqsirkara Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi qaydalarının tətbiqini nəzərdə tutan bənd maddədən çıxarılmışdır.

2. CM-in 328-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** hərbi qulluqçuların tabelik münasibətləri və onlar arasındakı münasibətlərin hərbi nizamnamələrlə müəyyən edilmiş qaydalarıdır.

3. Əmri icra etməmə hərbi xidmət əleyhinə olan cinayətlərin tabelik və qarşılıqlı münasibətlərin nizamnamə qaydaları əleyhinə olan cinayətlər qrupuna aiddir. Hərbi xidmətin və qoşunun döyüş qabiliyyətinin əsasını **təkbaşçılıq** təşkil edir. Təkbaşçılıq tabelikdə olanlarla komandirlər (rəislər) arasındakı münasibətlərin xüsusi növüdür. Bu münasibətlərə uyğun olaraq tabelikdə olan rəisin xidmət məsələlərinə dair əmrlərini sözsüz yerinə yetirməli və ona tabe olmalıdır. Çünki verilmiş əmrin icrası rəisin qarşısında duran xidməti vəzifələrin həyata keçirilməsi ilə bağlı olur. DXN-in 46-cı maddəsinə uyğun olaraq, komandir şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına və mənəvi vəziyyətinə, döyüş texnikasının və digər texnikanın, döyüş sursatının, yanacağın və başqa materialların qorunub saxlanmasına, hərbi hissənin, gəminin (bölmənin) maddi, texniki, tibbi, ticarət-məişət və maliyyə təminatına cavabdehdir.

Təkbaşçılıq əmrlər verilməsi vasitəsi ilə realizə olunur. Əmrlər isə öz növbəsində şəxsi heyətin idarə olunmasına xidmət edir. Tabelikdə olan tərəfindən rəisin əmrinin icra edilməməsi hərbi tədbirlərin və qarşıda duran vəzifələrin, xüsusilə də döyüş tapşırıqlarının həyata keçirilməsini pozur.

4. CM-in 328.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** aşağıdakı əlamətlərdən ibarətdir: 1) rəisin qanunla müəyyən edilmiş qaydada verdiyi əmri yerinə yetirməkdən açıqcasına imtina etmədən, habelə əmrin başqa şəkildə yerinə yetirilməməsindən ibarət əməl; 2) hərbi xidmət mənafelərinə əhəmiyyətli zərər vurulmasından ibarət nəticə; 3) ictimai təhlükəli əmllə nəticə arasında səbəbli əlaqə.

5. Şərh edilən maddədə ilk dəfə olaraq rəisin əmrinin qanunla müəyyən edilmiş qaydada olması ehtiva olunur.

Əmrin **qanunla müəyyən edilmiş qaydada olması** onun rəisin səlahiyyətləri daxilində verilmiş olmasını və məzmunca qanunvericiliyə, o cümlədən hərbi nizamnamələrə tam müvafiqliyini nəzərdə tutur.

DXN komandirdən (rəisdən) əmr verərkən nəzakətli və təmkinli olmağı tələb edir. Nizamnamənin 47-ci maddəsinin tələbinə görə, komandir (rəis) tabeliyində olanlara rəğbət və ehtiram göstərməli, qayğılarına qalmalı, kobudluq və onların şəxsi ləyaqətlərini alçalda biləcək hərəkətlər etməməlidir.

CM-in 40.3-cü maddəsinə əsasən qanunsuz əmr və ya sərəncamın yerinə yetirilməməsi cinayət məsuliyyətinə səbəb olmur.

6. **Rəis** dedikdə digər hərbi qulluqçuların daimi və ya müvəqqəti olaraq tabe olduqları şəxs başa düşülür. Hərbi qulluq çəkmə prosesində hərbi qulluqçuların hətta müvəqqəti tabe olduqları şəxslər də xidməti vəziyyətinə görə rəis hesab olunurlar. Hərbi qulluqçuların xidmət üzrə tabe olduqları rəislər **birbaşa**, onlardan hərbi qulluqçulara daha yaxın olanı isə **bilavasitə** rəis adlanır.

Bir-birinə tabe olmayan hərbi qulluqçular tərəfindən xidmətin birgə yerinə yetirilməsi prosesində onlardan vəzifəcə böyük olan, bərabər vəzifəlilərdə isə rütbəcə yüksək olan rəis hesab olunur.

Hərbi vəzifələrin siyahısı nizamnamələrdə və digər normativ aktlarda nəzərdə tutulur. Rəis vəzifəsi ştatdankənar da ola bilər. Ştatdankənar rəis vəzifəsi müəyyən dövr üçün konkret vəzifələrin (məsələn, təlim atışının, təsərrüfat işlərinin, təlim məşğələlərinin və s.) yerinə yetirilməsi məqsədi ilə yaradılır.

Hərbi qulluqçular rəis vəzifəsini daimi və ya müvəqqəti tuta bilərlər. Rəis funksiyasını onun müavini, yaxud xüsusi göstərişlə sair hərbi qulluqçu yerinə yetirə bilər.

Hərbi qulluqçuların hərbi rütbəyə görə tabeliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin DXN ilə müəyyən edilir. Məsələn, zabit bütün sıravi əsgərlər, matroslar və çavuşlar, çavuş isə öz hərbi hissəsinin bütün sıravi heyəti üçün rəisdir.

7. **Əmr** rəisin iradə ifadəsinin forması olub, tabelikdə olan hərbi qulluqçuların fəaliyyətinin idarə edilməsinə və xidməti vəzifələrin icrasının təmin edilməsinə yönəlmişdir. Rəisin əmrdə ifadə olunan iradəsi tabelikdə olan hərbi qulluqçu üçün məcburidir. Əmrin qanuniliyi onun hərbi nizamnamələrin və qanunvericiliyin tələbləri çərçivəsində verilməsi ilə müəyyən edilir. Rəisin əmri konkret və ya bir qrup hərbi qulluqçuya müəyyən hərəkətlərin yerinə yetirilməsi, yaxud yetirilməməsi haqqında tələbdən ibarətdir. Əmr hər hansı konkret xidməti nəticəyə nail olmaq məqsədi ilə verilir.

Rəisin əmri tabelikdə olan hərbi qulluqçuya müxtəlif forma və vasitələrlə çatdırıla bilər. Əmr, adətən, şifahi və yazılı formada, telefon və teleqraf vasitəsi ilə, habelə bilavasitə rəisin özü tərəfindən, yaxud üçüncü şəxslər vasitəsi ilə verilir. Əmrin verilməsinin forma və vasitələrinin cinayət tərkibi üçün əhəmiyyəti yoxdur. Əmrin hansı forma və vasitə ilə verilməsindən asılı olmayaraq o, hərbi xidmətin mənafeyinə xidmət etməlidir.

Rəis tabeliyində olan hərbi qulluqçuya xidmətlə əlaqədar hər cür əmri verməyə haqlıdır. Əmri almış tabelikdə olan hərbi qulluqçunun rəisə etiraz etmək, əmrin bilavasitə rəis tərəfindən verilib-verilməməsindən asılı olmayaraq, onu tənqid və ya müzakirə etmək hüququ yoxdur. Rəisdən əmr almış hərbi qulluqçu onu yerinə yetirməyə və bu barədə rəisinə məlumat verməyə borcludur.

8. **Əmri icra etməmə** dedikdə rəisin tələblərini yerinə yetirməkdən açıqcasına imtina etmə (tabe olmama), yaxud əmrlə nəzərdə tutulmayan və ya qadağan olunan hərəkətləri etmə başa düşülür. Əmrin qabaqcadan müəyyən

edilmiş yerdə və bilavasitə əmrin özündə göstərilən üsulla icra edilməməsi də bu cinayət tərkibinin obyektiv cəhətini yaradır.

Əmri icra etməkdən **açıqcasına imtina etmə** onda ifadə olunur ki, rəisin əmrini almış tabelikdə olan şəxs onu icra etmək istəyinin olmaması barədə bildirir, yaxud belə istəyini sair üsulla nümayiş etdirir. Bu zaman tabelikdə olan şəxs əmrdə irəli sürülən tələbə münasibətdə **hərəkətsizliyə** yol verir, lakin əmri icra etmək niyyətində olmamasını açıq hərəkətlərlə (məsələn, rəislə mübahisə etmə, ona etirazını bildirmə və s.) ifadə edir.

9. **Əmrin başqa şəkildə qəsdən yerinə yetirilməməsi** dedikdə onun yerinə yetirilməsini mümkünsüz edən şəraitin süni surətdə yaradılması, əmrin vaxtı keçəndən sonra onun icrasına başlama və s. bu kimi hərəkətlər başa düşülə bilər. Əmrin natamam, qeyri-dəqiq və müəyyən edilmiş tələblərin pozuntusu ilə icra edilməsi, onun qeyri-qanuni üsullarla, aşağı keyfiyyətdə, habelə lazım olmayan yerdə icra edilməsi və s. də əmrin başqa şəkildə qəsdən yerinə yetirilməməsinə aiddir.

10. Şərh edilən maddə üzrə cinayət məsuliyyətinin mövcud olması üçün tabelikdə olan şəxs əmri icra etmək üçün **real imkana** malik olmalıdır. Ona görə də əmrin icrasının fiziki cəhətdən qeyri-mümkünlüyü (əgər bu, əmr almış hərbi qulluqçu tərəfindən qəsdən edilməmişdirsə) cinayət məsuliyyətini istisna edir. Əmrin son zərurətlə əlaqədar icra edilməməsi də həmin cinayət tərkibini yaratmayacaqdır.

Əmri başqa şəkildə qəsdən yerinə yetirməmədə tabelikdə olan hərbi qulluqçunun qəsdi aşkar surətdə ifadə olunmur. Belə halda rəisə tabeliyin zahiri əlamətləri təzahür etsə də, əslində sözsüz tabe olma mövcud deyildir, çünki əmri alan hərbi qulluqçu onu faktiki olaraq yerinə yetirmir.

11. Əmri icra etməmə **maddi tərkibli** hərbi xidmət əleyhinə olan cinayətlərə aiddir. Rəisin əmrini icra etməkdən açıqcasına imtina etmə və ya onu başqa şəkildə qəsdən yerinə yetirməmə hərbi xidmət mənafelərinə əhəmiyyətli zərər vurduğu andan **başa çatmış** cinayət hesab olunur.

Hərbi xidmət mənafelərinə əhəmiyyətli zərər vurulması əmri icra etməmə tərkibinin zəruri əlamətidir. **Hərbi xidmət mənafeləri** dedikdə rəisin qarşısında duran xidməti vəzifələrin həll olunması zərurəti başa düşülür. Vurulmuş **əhəmiyyətli zərər fiziki** (şəxsi heyətin sağlamlığına zərər vurulması), **maddi** (hərbi əmlakın məhv edilməsi və ya zədələnməsi, əlavə maddi vəsaitlərin sərf edilməsi və i.a.), **mənəvi** (şəxsi heyət arasında intizamın zəifləməsi, tabelikdə olanlar arasında rəisin nüfuzunun aşağı düşməsi) və **təşkilati** (keçirilməli olan tədbirlərin pozulması) xarakterli ola bilər. Hər bir halda baş vermiş nəticə ilə törədilmiş əməl arasında **səbəbli əlaqə** olmalıdır.

12. Təhlil edilən cinayət **subyektiv cəhətdən qəsdlə** törədilir. Təqsirkar rəisin qanuni əmrini icra etməkdən açıqcasına imtina etdiyini, yaxud əmri başqa şəkildə yerinə yetirmədiyini dərk edir, bunun hərbi xidmət mənafelərinə əhəmiyyətli zərər vuracağını qabaqcadan görür və belə nəticənin baş verməsini arzu edir **(birbaşa qəsd)** və ya buna şüurlu surətdə yol verir **(dolayı qəsd).**

Əmri icra etməmənin **motivi** cinayətin tövsifi üçün əhəmiyyət kəsb etmir.

Bu cinayətin motiv və məqsədinin müəyyən edilməsi və nəzərə alınması cəzanın təyini baxımından zəruridir.

13. Bu cinayətin **subyekti xüsusidir**. O, başqa hərbi cinayətlərin ümumi subyektinin malik olduğu əlamətlərlə yanaşı, həm də özünəməxsus əlamətə — tabelikdə olan şəxs əlamətinə malik olmalıdır.

Tabelikdə olan şəxs dedikdə struktur bölmələrinin (taqım, bölük, tabor və s.), şöbənin, xidmətlərin, naryadın tərkibinə daxil olan, öz rəhbərinin əmrlərini yerinə yetirməyə borclu olan, yaxud malik olduğu hərbi rütbəyə görə müvafiq rəis rütbəsinə malik digər hərbi qulluqçunun tələblərini yerinə yetirməyə borclu olan hərbi qulluqçu başa düşülür.

14. CM-in 328.2-ci maddəsində əmri icra etməmənin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur: 1) eyni əməllərin bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs, yaxud mütəşəkkil dəstə tərəfindən törədilməsi; 2) ağır nəticələrə səbəb olması.

Bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya **mütəşəkkil dəstə** tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir. Lakin təhlil olunan əməlin belə cinayətkar qruplar tərəfindən törədilməsi əlamətinin mövcud olması üçün həmin qrup və ya dəstənin ən azı iki üzvü əmr verən rəisin tabeliyində olan hərbi qulluqçu olmalı və cinayətin obyektiv cəhətinə daxil olan əməli birgə icra etməlidirlər.

15. Burada nəzərdə tutulmuş **ağır nəticə** qiymətləndirilən anlayışdır. Belə nəticəyə insanların sağlamlığına ağır və ya az ağır zərər vurma, onların ölümü, mühüm əmlak ziyanının vurulması, hərbi hissənin işinin pozulması və s. aid edilə bilər. Baş vermiş nəticənin ağır olub-olmaması üçün icra edilməmiş tələblərin əhəmiyyəti, fiziki və ya maddi ziyanın həcmi, əməlin tabelikdə olan digər hərbi qulluqçulara (məsələn, digər hərbi qulluqçuları da rəisin əmrini icra etməməyə çağırışlarla müşayiət olunan əmri icra etməkdən imtina etmə ağır nəticə hesab olunur) təsiri, cinayətin törədilməsi şəraiti (məsələn, əmrin onu vermiş rəisin yanında tabelikdə olanların olması vaxtı icra edilməməsi) və digər amillər əsas götürülməlidir.

16. CM-in 328.3-cü maddəsində əmri icra etməmənin **xüsusi ağırlaşdırıcı halı** — hərbi xidmətə vicdansız və laqeyd münasibət nəticəsində əmri icra etməmənin ağır nəticələrə səbəb olması göstərilmişdir.

Hərbi xidmətə **vicdansız və laqeyd münasibət** dedikdə hərbi xidmət üzrə vəzifə borcunu lazımınca dərk etməmə, xidməti vəzifələrə ikinci dərəcəli münasibət bəsləmə, öz hərbi ixtisasını pis mənimsəmə və s. başa düşülə bilər.

Ağır nəticənin məzmunu bu maddənin şərhinin 15-ci bəndində verilmişdir.

Təhlil edilən ağırlaşdırıcı hal üçün daha bir xarakterik əlamət baş vermiş ağır nəticəyə təqsirkarın psixi münasibətinin **ehtiyatsızlıqdan** (cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq) ibarət olmasıdır.

17. CM-in 328.4-cü maddəsində əmri icra etməmənin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** — CM-in 328.1—328.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi nəzərdə tutulmuşdur.

Müharibə vaxtı və **döyüş şəraiti** anlayışları CM-in 328-ci maddəsinin qey-

dində verilmişdir.

18. Qeyd etmək zəruridir ki, əmri icra etməmə heç də həmişə bu maddə ilə nəzərdə tutulmuş cinayət tərkibini yaratmır. Şəxsi heyətin yerləşdiyi binada təmizlik işləri aparılması haqqında əmri yerinə yetirməməni və s. buna misal göstərmək olar. Belə hərəkətlər az ictimai təhlükəli olduqları üçün tabelikdə olan hərbi qulluqçuların intizam məsuliyyətinə səbəb olur.

Maddə 329. Rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə

329.1. Rəisə, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə müqavimət göstərmə, zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə onu qulluq vəzifəsini pozmağa məcbur etmə —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

329.2. Eyni əməllər:

329.2.1. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

329.2.2. silah tətbiq etməklə törədildikdə;

329.2.3. sağlamlığa ağır və ya az ağır zərər vurulmaqla törədildikdə, habelə digər ağır nəticələrə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

329.3. Bu Məcəllənin 329.1 və 329.2-ci maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** onunla müəyyən edilir ki, CM-in 329-cu maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi komandirlərin (rəislərin) və ya hərbi qulluqçuların normal hərbi xidmət fəaliyyətini çətinləşdirir, bəzən isə bu fəaliyyətin reallaşmasını qeyri-mümkün edir, habelə komandirləri (rəisləri) nüfuzdan salır. Həmin cinayətin mahiyyəti təqsirkarın öz hərəkətləri ilə xüsusi hərbi vəzifənin həvalə edildiyi şəxsi həmin vəzifəni pozmağa məcbur etməsindən ibarətdir. Bu baxımdan hərbi xidmət çəkməyin qaydalarına edilən qəsd açıq və kobud səciyyə daşıyır.

2. Şərh edilən cinayətin **obyekti** tabeçilik münasibətləri və hərbi xidmət çəkmənin nizamnamə qaydaları, habelə şəxsiyyətin sağlamlığıdır. **Əlavə obyekt** qismində hərbi qulluq mənafeləri çıxış edir.

3. CM-in 329-cu maddəsinin **obyektiv cəhəti** mahiyyətcə xeyli fərqlənən iki alternativ cinayət əməlini özündə ehtiva edir. Həmin əməllərdən biri rəisə, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə müqavimət göstərmədən, digəri isə bu hərbi vəzifəli şəxsləri öz qulluq vəzifəsini pozmağa məcbur etmədən ibarətdir.

4. Şərh edilən cinayətdən zərərçəkmiş qismində rəis və hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxs nəzərdə tutulmuşdur.

Rəisin anlayışı CM-in 328-ci maddəsinin şərhində verilmişdir.

Hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxs dedikdə tutduğu vəzifədən, hərbi nizamnamələrdən və ya yuxarı rəislərin əmr və sərəncamlarından irəli gələn vəzifələri yerinə yetirən istənilən hərbi qulluqçu başa düşülür.

5. **Müqavimət göstərmə** dedikdə rəisin, yaxud hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirən digər şəxsin üzərinə düşən hərbi vəzifələri yerinə yetirməsinə mane olma və ya buna imkan verməmə başa düşülür. Müqavimət göstərmə rəisin öz hərbi qulluq səlahiyyətlərini həyata keçirməsinə, yaxud digər hərbi vəzifəni yerinə yetirən şəxsin öz vəzifələrini icra etməsinə qarşı yönələn fəal hüquqazidd hərəkətdir.

6. **Məcbur etmə** dedikdə rəisi, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsi xidməti vəzifələrini pozmağa məcbur etməyə, təhrik etməyə yönəlmiş fəal hərəkətlər başa düşülür. Məcbur etmə rəisi və ya digər şəxsi hərbi xidmətin mənafeyi əleyhinə olan müəyyən hərəkətləri etməyə və ya etməməyə yönəlmiş konkret tələbdə ifadə olunur (məsələn, yürüşdən qanunsuz olaraq azad olmanı, növbəliliyin pozulması ilə qısamüddətli ezamiyyətə buraxılmanı tələb etmə və s.).

7. Tabelikdə olan hərbi qulluqçulara münasibətdə rəis öz xidməti vəzifələrini hər bir an yerinə yetirə bilər. Bu vəzifələrin yerinə yetirilmə vaxtı, yeri və şəraiti (məsələn, hərbi hissənin ərazisində və ya ondan kənarda, müvafiq yaşayış məntəqəsində, yaxud ictimai yerdə və i.a.) məhdudlaşdırılmır. Bu, eynilə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə də aiddir. Ona görə də müqavimət göstərmə və ya məcbur etmə istənilən yerdə və istənilən vaxt törədildikdə təhlil edilən cinayət tərkibini yaradacaqdır.

8. Müqavimət göstərmə rəis və ya digər şəxs tərəfindən hərbi xidmət üzrə vəzifələrin ancaq yerinə yetirildiyi anda törədilə bilər. Rəisin öz hərbi qulluq səlahiyyətlərini həyata keçirdiyi (tabeliyində olanların fəaliyyətinə rəhbərlik etdiyi, təlim məşğələsi apardığı, tabelikdə olanlarla söhbət etdiyi, onları naryada hazırladığı və i.a.) vaxt onun öz vəzifələrini icra etdiyi vaxt hesab olunur. Ayrı-ayrı hallarda o, xidməti vəzifələrinin icrasına gözlənilmədən də başlaya bilər (məsələn, tabeliyində olan şəxsin şəhərdə ictimai qaydanı pozduğunu görən rəis belə hüquqazidd hərəkətlərə son qoymağı ondan tələb edir). Hər hansı xüsusi göstərişlə, yaxud rəisin əmri ilə, habelə qarovulun, patrul xidmətinin və ya daxili naryadın tərkibində öz vəzifələrini yerinə yetirən başqa hərbi qulluqçulara müqavimət göstərmə də bu cinayətin tərkibini yaradır.

9. Məcbur etmə rəis və digər şəxs tərəfindən xidməti vəzifələrin həm yerinə yetirildiyi anda, həm də gələcəkdə planlaşdırılan xidməti vəzifənin qarşısını almaq məqsədi ilə törədilə (məsələn, rəisi tabelikdə olan hərbi qulluqçunu başqa hərbi hissəyə keçirmək istəyindən danışmağa məcbur etmə) bilər.

10. Rəisi, habelə hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsi qulluq vəzifəsini pozmağa məcbur etmə həmin şəxslərə qarşı **zor tətbiq etmə** və ya **zor tətbiq etmə hədəsi ilə** müşayiət edilməlidir.

Burada **zor tətbiq etmə** dedikdə rəisin və ya başqa şəxsin sağlamlığına az ağır və yüngül zərər vurma, onları döymə, onlara ağrılar yetirmə və s. bu kimi hərəkətlərdən ibarət fiziki təsir başa düşülməlidir. Bu zaman sağlamlığa ağır və ya az ağır zərər vurulduqda əməl CM-in 329.2.3-cü maddəsi üzrə tövsif

ediləcəkdir.

Rəisi və ya hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsi qulluq vəzifəsini pozmağa məcbur etmə üçün istifadə edilən **zor tətbiq etmə hədəsi** həmin şəxsləri sağlamlığa zərər vurmaqla, döyməklə və s. belə fiziki ağrılar yetirməklə hədələmədən ibarət psixi təsir başa düşülməlidir.

11. Müqavimət göstərmə zamanı təqsirkar öz cinayətkar hərəkətləri ilə rəisə və ya digər şəxsə qanunun tələblərinə uyğun hərəkət etməyə imkan vermir. Məcbur etmədə isə o, göstərilən şəxsləri qanunun, nizamnamələrin və ya əmrin, habelə xidməti mənafelərin əleyhinə hərəkət etməyə məcbur edir. Müqavimət göstərmədə təqsirkarın əsas məqsədi rəisin (digər şəxsin) hüquqauyğun hərəkətinin qarşısını almaqdan, məcbur etmədə isə bu şəxslərin qeyri-qanuni hərəkətlər etmələrinə nail olmaqdan ibarətdir.

12. Müqavimət göstərmə və ya məcbur etmə **faal hərəkətlərdə** ifadə olunur. Onların passiv halı mümkün deyildir. Bu cinayət əməllərindən sonra təqsirkar tərəfindən bu və ya sair təhlükəli hərəkətin baş verməsi ehtimalı da yarana bilər. Çünki müqavimət göstərmənin özü rəisin (digər şəxsin) hüquqauyğun iradına və ya qanuni hərəkətinə qarşı olan cavab reaksiyasından ibarətdir.

13. Şərh edilən cinayətin başa çatmış hesab olunması üçün müqavimət göstərmə nəticəsində rəisin öz xidməti vəzifələrini icra etməkdən imtina etməsi və ya icra etmək imkanından məhrum olunması tələb edilmir. Eynilə də məcbur etmədə rəisin həmin vəzifələri pozması əməlin başa çatmış cinayət hesab olunması üçün zəruri deyildir. Hərbi qulluq vəzifələrinin yerinə yetirilməsinə mane olma və ya onları pozmağa məcbur etmə faktının özü **başa çatmış** cinayət tərkibini yaradır.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etmiş və ya fərarilik etmiş şəxs hərbi xidmət üzrə vəzifələrini icra edən rəisə və ya hərbi qulluq vəzifəsini yerinə yetirən başqa şəxsə müqavimət göstərdikdə, onun əməli müvafiq surətdə CM-in 333-cü və ya 334-cü, eləcə də 329-cu maddələrində nəzərdə tutulmuş cinayətlərin məcmusu üzrə tövsif olunmalıdır («Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli qərarının 17-ci bəndinin 1-ci abzası).

14. Təhlil edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Bu zaman müqavimət göstərmə ilə məcbur etmə arasında qəsdin istiqaməti və subyektin güddüyü məqsədin xarakteri ilə əlaqədar mühüm fərqlər meydana çıxır. Müqavimət göstərmə zamanı təqsirkarın qəsdi rəis (digər şəxs) tərəfindən xidməti vəzifələrin yerinə yetirilməsinə imkan verməməyə və buna nail olmağa yönəlmişdir. Məcbur etmə zamanı isə qəsd rəisi (digər şəxsi) öz xidməti vəzifələrini pozmağa məcbur etməyə istiqamətlənmişdir.

15. Hərbi qulluqçuların sıravi, matros, çavuş, gizir, miçman, habelə zabit heyətindən olan şəxslər bu cinayətin **subyekti** ola bilər. Müqavimət göstərilən və ya hərbi xidmət üzrə vəzifələri pozmağa məcbur edilən şəxsin tabeliyində olma bu cinayətin subyektinin zəruri əlaməti deyildir.

16. CM-in 329.2-ci maddəsində təhlil edilən cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur: 1) eyni əməllərin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya müteşəkkil dəstə tərəfindən törədilməsi; 2) silah tətbiq etməklə törədilməsi; 3) sağlamlığa ağır və ya az ağır zərər vurulmaqla törədilməsi, habelə digər ağır nəticələrə səbəb olması.

17. Bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya müteşəkkil dəstə tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

18. Silahın anlayışı CM-in 228-ci maddəsinin şərhində verilmişdir. Buraya həm istənilən növdən olan silah, həm də ştatlı ordu silahları (avtomat, tapança, tüfəng, süngü, süngü-bıçaq, hərbi dəniz donanması və hərbi hava qüvvələri komandirlərinin gəzdirdikləri gödək qılınc) aid edilə bilər. Göstərilən cinayətlərin törədilməsi zamanı təsərrüfat və ya məişət təyinatlı hər hansı predmetin (baltanın, çəkicin, qayçının və s.) tətbiq edilməsi əməlin CM-in 329.2.2-ci maddəsi ilə tövsif olunmasına əsas ola bilməz.

Silah tətbiq edilməsi rəisə və ya hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə fiziki, yaxud psixi təsir göstərmək üçün faktiki olaraq silahdan istifadə edilməsi deməkdir.

Tətbiq edilən silahın təqsirkarda qanuni əsaslarla (qulluq vəzifəsinin yerinə yetirilməsi üçün verilmiş silah) və ya qanunsuz olmasının əməlin təhlil edilən maddə üzrə tövsifinə təsiri yoxdur. Lakin təqsirkarda silah qanunsuz olduqda əməl cinayətlərin məcmusu qaydasında həm də CM-in 228-ci maddəsi üzrə tövsif ediləcəkdir.

19. Sağlamlığa ağır zərər vurmanın anlayışı CM-in 126-cı maddəsinin, sağlamlığa az ağır zərər vurmanın anlayışı isə 127-ci maddəsinin şərhində verilmişdir, sağlamlığa ağır zərər vurmaqla müşayiət olunan müqavimət göstərmə və ya məcbur etmə şərh edilən maddə ilə tam əhatə olunduğundan CM-in 126-cı maddəsi ilə əlavə tövsif tələb olunmur.

Ağır nəticələr dedikdə müqavimət göstərmə və ya məcbur etmə nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mənafeyinə (məsələn, döyüş tapşırığının pozulması, böyük maddi zərər vurulması və s.), yaxud rəisin və ya digər şəxsin şəxsiyyətinə mühüm zərərin vurulması (məsələn, onun ehtiyatsızlıqla öldürülməsi) başa düşülür.

20. Rəisi və ya hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsi qəsdən öldürmə ilə müşayiət olunan müqavimət göstərmə, yaxud məcbur etmə cinayətlərin məcmusu qaydasında CM-in 329.1-ci və 120.2.3-cü maddələri üzrə tövsif edilməlidir.

21. CM-in 329.3-cü maddəsi şərh edilən cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** qismində CM-in 329.1-ci və 329.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsini nəzərdə tutmuşdur.

Müharibə vaxtı və **döyüş şəraiti** anlayışları CM-in 328-ci maddəsinin qeydində verilmişdir.

22. CM-in 329-cu maddəsində nəzərdə tutulmuş cinayət xuliqanlıqla (CM-in 221-ci maddəsi) məcmu halda da törədilə bilər. Bəzi hallarda rəisə və ya hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsə müqavimət göstərmə, yaxud

onları qulluq vəzifəsini pozmağa məcbur etmə hərbi qulluqçunun xuliqanlıq hərəkətlərinin nəticəsi kimi meydana çıxır. Bu zaman müqavimət göstərmə xuliqanlıq hərəkətlərinin dayandırılmasına yönələn tədbirlərə qarşı təqsirkarın reaksiyası kimi təzahür edir. Belə hallarda CM-in 221.2.2-ci və 329-cu maddələrində nəzərdə tutulmuş ümumi və hərbi xidmət əleyhinə olan cinayətin real məcmusu mövcud olur.

Maddə 330. Rəisə qarşı zorakı hərəkətlər etmə

330.1. Rəisin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi ilə əlaqədar onun sağlamlığına yüngül zərər vurma və ya onu döymə —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

330.2. Eyni əməllər:

330.2.1. bir qrup şəxs tərəfindən törədildikdə;

330.2.2. silah tətbiq etməklə törədildikdə;

330.2.3. zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurmaqla törədildikdə, habelə digər ağır nəticələrə səbəb olduqda —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

330.3. Bu Məcəllənin 330.2-ci maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. CM-in 330-cu maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, rəisə qarşı zorakı hərəkətlər eyni zamanda həm onlar tərəfindən öz xidməti vəzifələrinin yerinə yetirilməsini çətinləşdirməklə, bəzən isə hətta mümkünsüz etməklə hərbi qulluğun mənafelərini pozur, həm də rəisin sağlamlığına qəsd edir.

2. Şərh edilən maddədə nəzərdə tutulmuş cinayətin **obyektini** hərbi tabeliyin müəyyən edilmiş qaydaları, habelə rəisin şəxsiyyəti və sağlamlığı təşkil edir.

3. CM-in 330-cu maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti iki** alternativ əməldən ibarətdir: 1) rəisin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi ilə əlaqədar onun sağlamlığına yüngül zərər vurma; 2) eyni səbəblə rəisi döymə.

4. Şərh edilən cinayətdən **zərərçəkmiş şəxs** qismində rəis çıxış edir. **Rəisin** anlayışı CM-in 328-ci maddəsinin şərhində verilmişdir.

5. **Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsinin** müfəssəl anlayışı «Hərbi qulluqçuların statusu haqqında» 25 dekabr 1991-ci il tarixli Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci hissəsində verilmişdir. Orada deyilir: «Hərbi qulluqçular hərbi xidmət vəzifələrini faktiki yerinə yetirdikləri bütün hallarda, o cümlədən döyüş əməliyyatlarında iştirak edərkən, təlimlərdə, döyüş növbəsində (döyüş xidmətində), gündəlik növbələrdə və qarnizon növbələrində, toplanışlarda, ezamiyyətlərdə olarkən, xidmət yerinə gedib gələrkən və başqa hallarda hərbi xidmət başında sayılırlar».

6. Təhlil edilən maddədə zorakı hərəkətlərin iki növü göstərilmişdir: 1) rəisin sağlamlığına yüngül zərər vurma; 2) döymə.

Sağlamlığa **yüngül zərər vurmanın** məzmunu CM-in 128-ci maddəsinin şərhində verilmişdir.

7. Zorakı hərəkətlər rəisdən intiqam almaq zəminində, yaxud əmələn törədildiyi məqamda rəisin konkret hərəkətlərinə etiraz əlaməti olaraq, habelə rəisin təqsirkarın nalayiq davranışına görə ona irad tutmasının nəticəsi kimi törədilə bilər.

8. CM-in 330-cu maddəsi xidməti vəziyyətinə və ya hərbi rütbəsinə görə rəis hesab edilən şəxsə münasibətdə törədilən zorakı hərəkətləri ehtiva edir. Aralarında tabelik münasibətləri olmayan, lakin hərbi xidmət üzrə vəzifələri icra edən şəxslərə qarşı edilən eyni hərəkətlər CM-in 332-ci maddəsi ilə tövsif edilməlidir. Zorakı hərəkətlərin xidməti fəaliyyət zəminində əvvəllər təqsirkarın keçmiş rəisi olmuş (lakin cinayətin törədildiyi anda rəis olmayan) şəxsə qarşı edildiyi hallarda şərh edilən cinayət tərkibi yaranmır.

9. Bu cinayət rəis tərəfindən xidmət üzrə vəzifələrin həm yerinə yetirildiyi, həm də ondan kənar yerdə törədilə bilər.

10. Rəis barəsində tabelikdə olan hərbi qulluqçu tərəfindən şəxsi zəmində (məsələn, qısqanclıq üzündən) törədilən, rəisin xidməti fəaliyyəti ilə əlaqədar olmayan və hərbi qulluq qaydasının pozuntusu ilə müşayiət olunmayan zorakı hərəkətlər nəzərdən keçirilən cinayətin tərkibini yaratmır. Müqavimət göstərmənin və ya məcbur etmənin, yaxud rəisi zorakı hərəkətlərlə təhqir etmənin əlamətlərini özündə ehtiva etməyən belə hərəkətlər CM-in şəxsiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddəsi ilə tövsif edilə bilər.

11. CM-in şərh edilən maddəsi rəisin hərbi xidmət üzrə hərbi nizamnamələrin tələblərinə uyğun və xidməti mənafeyi naminə fəaliyyəti ilə əlaqədar ona qarşı zorakılığa görə cinayət məsuliyyəti müəyyən etmişdir. Əgər rəisə qarşı zorakı hərəkətlər rəisin özü tərəfindən törədilmiş hüquqazidd hərəkətlərdən müdafiənin nəticəsi kimi təzahür edərsə, CM-in 330-cu maddəsi ilə cinayət məsuliyyəti istisna olunur. Belə hərəkətlər, müvafiq əlamətlər olduqda, şəxsiyyət əleyhinə olan cinayətlər kimi tövsif edilə bilər.

12. Təhlil edilən cinayət rəisin sağlamlığına yüngül zərər vurulduğu və ya onun döyüldüyü andan **başa çatmış** olacaqdır.

Rəisə, onun ölümünə səbəb olmuş ağır zərər vurulmasını cinayətlərin cəmi üzrə — CM-in 330-cu və 126-cı maddəsinin 2-ci hissəsinin 2-ci bəndi ilə tövsif etmək lazımdır. Çünki rəisin öldürülməsi ona qarşı zorakı hərəkətlər etmə anlayışı ilə əhatə olunmur. Hərbi xidmət üzrə vəzifəsini yerinə yetirən rəisi müqavimət göstərmə və ya məcbur etmə əlamətləri olmadan qəsdən öldürmə CM-in 120-ci maddəsinin 2-ci hissəsinin 3-cü bəndi ilə tövsif edilməlidir. Belə halda CM-in 330-cu maddəsi ilə əlavə tövsifə ehtiyac yoxdur.

13. Şərh edilən cinayət **subyektiv cəhətdən** yalnız **düzünə qəsdlə** törədilir. Təqsirkar rəisin öz xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar onun sağlamlığına yüngül zərər vurduğunu və ya onu döydüyünü dərk edir və bu əməli törətməyi arzu edir.

Təqsirkar öz cinayətkar qəsdini rəisin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi ilə əlaqədar törətdiyindən bu cinayətin motivi rəisin xidməti fəaliyyətindən narazılıqla şərtləşən intiqam hissidir. Təqsirkarın **məqsədi** zorakı hərəkətlər etmə yolu ilə rəisin xidməti fəaliyyətini zəiflətmək, onun nüfuzunu aşağı salmaq ola bilər.

14. Bu cinayətin **subyekti** rəisin xidməti vəziyyətinə və ya hərbi rütbəsinə görə ona daimi, yaxud müvəqqəti tabe olan hərbi qulluqçu ola bilər.

15. CM-in 330.2-ci maddəsində təhlil edilən cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** göstərilmişdir: 1) eyni əməllərin bir qrup şəxs tərəfindən törədilməsi; 2) silah tətbiq etməklə törədilməsi; 3) zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurmaqla törədilməsi, habelə digər ağır nəticələrə səbəb olması.

16. Bir qrup şəxs tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

17. Təhlil edilən cinayətin silah tətbiq etməklə törədilməsi əlaməti CM-in 329-cu maddəsində nəzərdə tutulmuş cinayətin eyniadlı ağırlaşdırıcı tərkib əlaməti ilə üst-üstə düşür (CM-in 329-cu maddəsinin şərhinə bax).

18. Sağlamlığa **ağır zərər vurmanın** anlayışı CM-in 126-cı, **az ağır zərər vurmanın** anlayışı isə 127-ci maddəsinin şərhində verilmişdir.

Digər ağır nəticələrə döyüş tapşırığının və ya sair mühüm vəzifənin yerinə yetirilməsinin pozulması, hərbi bölmənin, hissənin, gəminin şəxsi heyətinin həyat və sağlamlığı üçün real təhlükənin meydana çıxmasını, rəisin ehtiyatsızlıqla öldürülməsini və i.a. aid etmək olar.

19. CM-in 330.3-cü maddəsində rəisə qarşı zorakı hərəkətlər etmənin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** — CM-in 330.2-ci maddəsində nəzərdə tutulmuş əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi nəzərdə tutulmuşdur.

Müharibə vaxtı və **döyüş şəraiti** anlayışları CM-in 328-ci maddəsinin qeydində verilmişdir.

Müharibə vaxtı və ya döyüş şəraitində törədilən, lakin ağır nəticələrə səbəb olmayan əməl bu maddənin 1-ci hissəsinin əlamətləri ilə əhatə olunur.

Maddə 331. Hərbi qulluqçunu təhqir etmə, döymə və ya ona işgəncə vermə

331.1. Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar bir hərbi qulluqçunun digərini təhqir etməsi —

altı ayadək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

331.2. Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsi, habelə tabelikdə olan şəxsin öz rəisini təhqir etməsi —

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

331.3. Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan

şəxsi döyməsi və ya ona işgəncə verməsi —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, təhlil olunan maddədə nəzərdə tutulmuş əməllərin törədilməsi hərbi xidmətin nizamnamə qaydalarını pozmaqla yanaşı, hərbi qulluqçuların şərəf və ləyaqətinə, habelə sağlamlığına da qəsd edir. İstər komandirlərin (rəislərin), istərsə də tabelikdə olan hərbi qulluqçuların şərəf və ləyaqətinə hörmət edilməsi, hüquqauyğun davranış normalarına və eləcə də əxlaq qaydalarına qarşılıqlı surətdə əməl olunması haqqında hərbi nizamnamələrin tələblərinin yerinə yetirilməməsi qoşun hissələrində (gəmilərdə) nizam-intizamın aşağı düşməsinə səbəb olur, şəxsi heyətdə normal qarşılıqlı münasibətlərin inkişafına zərər vurur.

2. CM-in 331-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** hərbi qulluq mənafeləri, hərbi qulluqçuların şərəf və ləyaqəti, həmçinin sağlamlığıdır.

3. CM-in 331.1-ci maddəsində hərbi vəziyyətinə və ya hərbi rütbəsinə görə eyni səviyyəli hərbi qulluqçunun birinin digərini təhqir etməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

4. **Təhqir** dedikdə şəxsiyyətin şərəf və ləyaqətinin ədəbsiz formada ifadə olunan qəsdən alçaldılması başa düşülür. CM-in 148-ci maddəsində nəzərdə tutulmuş təhqirdən fərqli olaraq, hərbi münasibətlər zəminində təhqir zamanı təkcə vətəndaşın deyil, həm də döyüşçü əsgərin — Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün, xalqın düşmən hücumlarından müdafiəçisi olan şəxsin şərəf və ləyaqəti alçaldılır. Hərbi münasibətlər zəminində təhqir, həmçinin müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular arasında hərbi nizamnamələrdə təsbit edilmiş qarşılıqlı münasibətlər qaydasına qəsd edir, xidməti vəzifəsindən və hərbi rütbəsindən asılı olmayaraq şəxsiyyətin nüfuz dairəsinə xələl gətirir.

5. Təhqir, adətən, kütləviliyi ilə səciyyələnir. Təhqiri səciyyələndirən cəhətlərdən biri onun nalayiq formada ifadə olunmasıdır. Deməli, təhqirin kütləviliyi və nalayiq formada ifadə olunması şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasının başlıca amili kimi çıxış edir.

Təhqir zamanı şərəf və ləyaqətin alçaldılması zərər çəkmiş şəxsin şəxsiyyətinə mənfi münasibətdə ifadə olunur, onu ətrafdakıların gözləri qarşısında hörmətsiz edir. Ona görə də təhqir cinayət hərəkəti kimi cəmiyyətdə hamılıqla qəbul edilmiş normal davranış qaydaları ilə daban-dabana zidd olan nəzakətsiz və həyasız şəkildə təzahür etməlidir.

6. Təhqir etmə hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar törədildikdə şərh olunan cinayət tərkibini yaradır.

Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsinin anlayışı CM-in 330-cu maddəsinin şərhində verilmişdir. Təhqirin hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar olması o deməkdir ki, təqsirkar bu əməli hərbi xidmət vəzifəsinin yerinə yetirilməsindən sonra da, lakin bu fəaliyyətlə bağlı (məsələn, qisas motivi ilə və ya həmin fəaliyyətdən narazılığın nəticəsi kimi) törətdikdə təhlil edilən cinayət tərkibi mövcud olacaqdır.

7. Təhlil edilən maddədə nəzərdə tutulmuş təhqirin CM-in 148-ci maddəsində nəzərdə tutulmuş təhqirdən fərqli olaraq, kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində edilməsi tələb olunmur.

8. CM-in 331.2-ci maddəsində hərbi münasibətlər zəminində təhqirin nisbətən ağır forması nəzərdə tutulmuşdur. Belə ki, burada cinayət məsuliyyəti rəisin öz tabeliyində olan şəxsi, tabelikdə olan şəxsin isə rəisi təhqir etməsinə görə müəyyən edilmişdir.

9. Qeyd etmək lazımdır ki, maddənin şərh edilən hissəsində istər rəisin tabelikdə olan hərbi qulluqçu, istərsə də tabelikdə olan hərbi qulluqçunun rəis tərəfindən təhqir edilməsinə görə eyni məsuliyyət dərəcəsi müəyyən edilmişdir. Bu, hər şeydən əvvəl qanun qarşısında hamının bərabər olması prinsipindən irəli gəlir. Digər tərəfdən isə istər tabelikdə olan şəxsin öz rəisinin şərəf və ləyaqətinə, istərsə də rəisin öz tabeliyində olan şəxsin şərəf və ləyaqətinə qarşılıqlı hörməti hərbi nizamnamələrdən irəli gələn mühüm mənəvi vəzifələrdən biridir.

Şəxsi ləyaqətin və hərbi şərəfin müdafiəsi baxımından hərbi qanunvericilik heç bir hərbi qulluqçuya xidməti vəzifəsinə və ya hərbi rütbəsinə görə üstünlük vermir. General və ya sıravi əsgər olmasından asılı olmayaraq, təhqirə məruz qalan hərbi qulluqçudur.

10. CM-in 331.2-ci maddəsi üzrə də məsuliyyətin yaranması üçün təhqir etmə hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar törədilməlidir.

CM-in 331.3-cü maddəsinin **obyektiv cəhəti** hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan hərbi qulluqçunu döyməsi və ya ona işgəncə verməsindən ibarətdir.

11. **İşgəncə vermənin** anlayışı CM-in 293-cü maddəsinin şərhində verilmişdir.

12. CM-in 331-ci maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir.

Cinayətin motivi zərərçəkmiş şəxsin xidməti fəaliyyəti ilə, yaxud qarşılıqlı münasibətlərdəki şəxsi (qısqanclıq, intiqam və s.) acıq və ya ikrah hissləri ilə bağlı ola bilər.

13. CM-in 331.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** istənilən hərbi qulluqçu, 331.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** zərərçəkmiş şəxsin tabeliyində olan hərbi qulluqçu, yaxud istər xidməti vəziyyətinə, istərsə də hərbi rütbəsinə görə tabelikdə olan hərbi qulluqçuların rəisi olan şəxs, 331.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyekti isə yalnız rəis ola bilər.

Rəisin və **tabelikdə olan şəxsin** anlayışı CM-in 328-ci maddəsinin şərhində verilmişdir.

Maddə 332. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma

332.1. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma, zərərçəkmiş şəxsin şərəf və ləyaqətini alçaltmaqla və ya ona qarşı zor tətbiq etməklə əlaqədar olduqda —

iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

332.2. Eyni əməllər:

332.2.1. təkrar törədildikdə;

332.2.2. iki və ya daha çox şəxs barəsində törədildikdə;

332.2.3. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

332.2.4. silah tətbiq etməklə törədildikdə;

332.2.5. zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurmaqla törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

332.3. Bu Məcəllənin 332.1 və ya 332.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması hərbi hüquq qaydasına, qoşunun və donanmanın şəxsi heyətinin daimi döyüş hazırlığının təmin olunması mənafelərinə zərər vurur. Bundan başqa, həmin əməllərin törədilməsi hərbi qulluqçuların sağlamlığını da təhlükə altına alır.

Hərbi qulluqçuların qarşılıqlı münasibətləri, həmin münasibətləri tənzim edən qaydalar hərbi nizamnamələrdə səhih şəkildə müəyyən edilir. Bu qaydanın əsas tələbləri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət və İntizam Nizamnamələrində təsbit edilir. Hərbi intizam hər bir hərbi qulluqçudan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qulluq etdiyi hərbi hissənin (gəminin) və öz hərbi rütbəsinin şöhrətini şərəflə qorumağı tələb edir.

2. Bu cinayətin **obyektini** hərbi qulluqçular arasındakı qarşılıqlı münasibətlərin hərbi nizamnamələrdə təsbit edilmiş qaydaları, habelə zərərçəkmiş şəxsin sağlamlığı, şərəf və ləyaqəti təşkil edir.

3. Şərh edilən cinayətin **obyektiv cəhəti** tabelikdə olmayan hərbi qulluqçular arasında nizamnamə qaydalarının bir hərbi qulluqçu tərəfindən digərinin şərəf və ləyaqətinin alçaldılması və ya ona qarşı zor tətbiq edilməsi yolu ilə pozulmasında ifadə olunur.

Göstərilən qaydaların zor tətbiq edilmədən (məsələn, sözlə təhqir etmə və s.) törədilməsi bu cinayətin tərkibini yaratmır və müvafiq əlamətlər olduqda CM-in 331.1-ci maddəsi üzrə tövsif edilə bilər.

4. Şərh edilən maddə hərbi vəziyyətinə və hərbi rütbəsinə görə bərabər olan, habelə tabelik münasibətlərində olmayan böyük və kiçik rütbəli hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulmasına görə cinayət məsuliyyəti nəzərdə tutur. Hərbi qulluqçular arasında tabelik onların hərbi rütbələri və tutduqları vəzifələrlə müəyyən edilir. Komandirlər (rə-

islər) tərəfindən öz tabeliyində olan hərbi qulluqçular barəsində törədilən belə əməllər konkret hallardan asılı olaraq CM-in 331-ci və ya 341-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət tərkibini yaradır. Tabelikdə olan hərbi qulluqçuların öz rəisi barəsində etdiyi eyni cinayət isə CM-in 330-cu və ya 331-ci maddələri ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

5. Qarşılıqlı münasibətlərin **nizamnamə qaydalarının pozulması** dedikdə bir hərbi qulluqçunun digər hərbi qulluqçu üzərində müxtəlif növ zorakı hərəkətlər etməsi, onun şərəf və ləyaqətini alçaltması və onu təhqir etməsi başa düşülür. Belə hərəkətlər, adətən, təqsirkarın özü üçün əlverişli xidmət şəraiti yaratmaq, kollektivdə imtiyazlı mövqeyə nail olmaq, birgə qulluq etdiyi hərbi qulluqçuları özünə tabe etmək məqsədi ilə, o cümlədən də xuliqanlıq niyyəti ilə törədilir.

6. Bir hərbi qulluqçunun digərinə qarşı hər cür zorakı hərəkəti hərbi xidmət əleyhinə olan cinayət tərkibi yaratmır. Həqiqi hərbi xidmət dövründə hərbi qulluqçular arasında formalaşan qarşılıqlı münasibətlər yalnız hərbi nizamnamələrlə tənzim edilən münasibətlərdən ibarət olmur. Əmlak, ailə-nikah və sair şəxsi hüquq və vəzifələr zəminində hərbi qulluqçular arasında sırf şəxsi münasibətlər də yarana bilər. Belə münasibətlər zəminində də ictimai təhlükəli əməl törədilməsi, o cümlədən zorakı hərəkətlər tətbiq edilməsi mövcud ola bilər. Məsələn, hərbi qulluqçunun hərbi hissədən kənarda qısamüddətli məzuniyyətdə olduğu və yaxud tanışının, qohumunun əhatəsində ailəvi təntənədə iştirak etdiyi zaman şəxsi zəmində digər hərbi qulluqçuya qarşı hüquqazidd hərəkəti hərbi xidmət əleyhinə olan cinayət kimi qiymətləndirilə bilməz. Baş vermiş əməlin konkret hallarından asılı olaraq belə hərəkət şəxsiyyət əleyhinə olan cinayət və ya xuliqanlıq hesab oluna bilər.

Bakı hərbi Məhkəməsinin 7 fevral 2002-ci il tarixli hökmü ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin zabiti polkovnik-leytenant Ü.C. digər cinayətlərlə yanaşı, CM-in 332.1 və 128-ci maddələri ilə ona görə təqsirli bilinib məhkum olunmuşdur ki, o, «N» hərbi hissəsinin mayoru R.Ə-dən borc kimi aldığı pulun vaxtında qaytarılmaması zəminində baş vermiş münaqişə zamanı sonuncuya zorakılıq göstərərək ona sağlamlığa yüngül zərər vuran xəsarətlər yetirmiş, təqsirləndirilən və zərərçəkmiş şəxslərin xidməti vəzifələrinin yerinə yetirməməsi ilə heç bir əlaqəsi olmamışdır.

Hökmdən verilmiş apellyasiya şikayətinə və apellyasiya protestinə əsasən işə baxan Apellyasiya Məhkəməsinin 11 aprel 2003-cü il tarixli qərarı ilə Bakı hərbi Məhkəməsinin hökmü cinayət qanunu normasının düzgün tətbiq edilməməsi əsas ilə dəyişdirilmiş və Ü.C.-nin CM-in 332.1-ci maddəsi ilə təqsirli bilinməsinə dair hissəsi hökmdən xaric edilmişdir[1].

Qısqanclıq, yaxud intiqam almaq zəminində bir-birinə qarşı zorakılıq nümayiş etdirən hərbi qulluqçuların əməli CM-in 332-ci maddəsi ilə tövsif edilə bilməz.

Zorakılıq və digər hərəkətlər zərərçəkmiş şəxsin xidməti fəaliyyəti, yaxud sair niyyətlərlə əlaqədar olaraq törədildikdə, əməl CM-in 332-ci maddəsi ilə tövsif edilə bilər. Bu zaman zərərçəkmiş şəxsin və ya təqsirkarın cinayətin törədildiyi anda hərbi xidmət üzrə öz vəzifələrini icra etməsi nəzərə alınmalıdır.

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2003-cü il, № 3.

7. Şərh edilən maddədə qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozmanın iki konkret üsulu göstərilmişdir: 1) zərərçəkmiş şəxsin şərəf və ləyaqətini alçaltmaqla; 2) zərərçəkmiş şəxsə qarşı zor tətbiq etməklə.

8. Qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını **zərərçəkmiş şəxsin ləyaqətini alçaltmaqla** pozma konkret olaraq zərərçəkmiş şəxsi təhqir etmədə, onu alçaldıcı hərəkətlər etməyə məcbur etmədə təzahür edə bilər. Hərbi xidməti başa vurmaqda olan hərbi qulluqçuya müəyyən xidmətlər göstərilməsini, xidmət üzrə bu və ya digər vəzifələri icra etməyi, iyrənc formada seksual münasibətlərdə olmağı və s. yuxarıda xatırladılan ləyaqəti alçaldıcı hərəkətlərə misal göstərmək olar. Belə hərəkətlər gənc əsgərlərin geyim şeylərini və ərzaq məhsullarını onların əlindən almaqla da əlaqədar ola bilər. Bütün bu hərəkətlər, adətən, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə də müşayiət olunur.

9. Qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma **zərərçəkmiş şəxsə zor tətbiq etməklə** onu döymədə, onun sağlamlığına yüngül zərər vurmada, habelə həmin şəxsə fiziki əzab vermədə, yaxud onun azadlığını məhdudlaşdırmaqla əlaqədar olan sair zorakı hərəkətlərdə ifadə oluna bilər.

10. Təhlil edilən cinayətlər hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozan şərəf və ləyaqəti alçaldıcı hərəkətlərin edildiyi və ya zorakılığın tətbiq edildiyi andan **başa çatmış** sayılır.

11. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar tabelik münasibətlərində olmadığı hərbi qulluqçunun şərəf və ləyaqətini alçaltmaqla, yaxud ona qarşı zor tətbiq etməklə qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozduğunu dərk edir və bu əməli törətməyi arzu edir.

Cinayətin **motivi** müxtəlif ola bilər. Təqsirkar zərərçəkmiş şəxsin hərbi xidmət üzrə vəzifələrini yerinə yetirməsinə münasibətdə narazılıq zəminində də hərəkət edə bilər.

12. Təhlil edilən cinayətin **subyekti** zərərçəkmiş şəxslə tabelik münasibətlərində olmayan sıravi və çavuş heyətindən olan hərbi qulluqçular, gizir və miçmanlar, habelə zabit heyətindən olan hərbi qulluqçular ola bilər.

13. CM-in 332.2-ci maddəsində təhlil edilən cinayətin aşağıdakı **ağırlaşdırıcı tərkib əlamətləri** verilmişdir: 1) eyni əməllərin təkrar törədilməsi; 2) iki və ya daha çox şəxs barəsində törədilməsi; 3) bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; 4) silah tətbiq etməklə törədilməsi; 5) zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurmaqla törədilməsi.

Cinayətin **təkrar** törədilməsinin anlayışı CM-in 16-cı maddəsinin şərhində verilmişdir. Şəxsin əməlində CM-in 332.2.1-ci maddəsinin tərkibi olduqda, bu əməlin CM-in 332.1-ci maddəsi ilə tövsif edilməsi yolverilməzdir. Ona görə ki, CM-in 332.2.1-ci maddəsi CM-in 332.1-ci maddəsinə münasibətdə xüsusi normadır və CM-in 17.4-cü maddəsinin tələbinə görə bu halda xüsusi norma tətbiq edilməlidir.

Sumqayıt hərbi Məhkəməsinin 5 iyul 2002-ci il tarixli hökmü ilə R.H. CM-in 332.1-ci və 332.2.1-ci maddələri ilə ona görə məhkum olunmuşdur ki, o müx-

təlif vaxtlarda, yəni fevralın 3-də və 22-də hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq onunla tabelik münasibətində olmayan sıravi əsgərlər A.C.-ni və K.X-ni döymüşdür. Həm ibtidai araşdırma orqanı, həm də birinci instansiya məhkəməsi tərəfindən R.H.-ın cinayət əməlləri CM-in 332.1 və 332.2.1-ci maddələri ilə tövsif edilmiş və o, bu maddələrlə təqsirli bilinib cinayətlərin məcmusu üzrə 3 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Hökmdən verilmiş apellyasiya şikayətinə əsasən işə Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin 31 iyul 2002-ci il tarixli qərarı ilə hökm cinayət qanunu normasının düzgün tətbiq edilməməsi əsası ilə dəyişdirilmişdir. Məhkəmə kollegiyası R.H.-ın törətdiyi eyni cinayətləri CM-in 16-cı maddəsinə əsasən təkrar cinayət kimi qiymətləndirmiş və hesab etmişdir ki, CM-in 332.2.1-ci maddəsində hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını təkrarən pozulmasına görə məsuliyyət nəzərdə tutulduğundan onun hər iki əməli yalnız bu maddə ilə tösif edilməli idi.

Apellyasiya Məhkəməsi R.H. barəsində CM-in 332.1-ci maddəsi ilə təqsirli bilinib cəzalandırılmasına və ona cinayətlərin məcmusu üzrə qəti cəzanın təyin edilməsinə dair hissələri hökmdən xaric etmişdir[1].

Təhlil edilən cinayət o halda **iki və ya daha çox şəxs barəsində** törədilmiş hesab ediləcəkdir ki, qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma tabelik münasibətində olmayan iki və ya daha çox hərbi qulluqçunun şərəf və ləyaqətinin alçaldılması və ya onlara qarşı zor tətbiq edilməsi ilə törədilsin.

Bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya **mütəşəkkil dəstə** tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

Silah tətbiq etmə əlaməti CM-in 329-cu maddəsinin şərhində verilmişdir.

Sağlamlığa az ağır zərər vurmanın anlayışı CM-in 127-ci maddəsinin şərhində verilmişdir.

14. CM-in 332.3-cü maddəsində şərh edilən cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** — CM-in 332.1-ci və 332.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin ağır nəticələrə səbəb olması göstərilmişdir.

Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması nəticəsində meydana çıxan **ağır nəticələrə** zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurma, zərərçəkmiş şəxsin özünü öldürməsi, bir neçə hərbi qulluqçunun sağlamlığına zərər vurulması, nizamnamə qaydalarının kütləvi surətdə pozulması və s. aid edilə bilər.

Zərərçəkmiş şəxsin qəsdən öldürülməsi əlavə olaraq şəxsiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddə (CM-in 120-ci maddəsi) üzrə də tövsif edilməlidir.

15. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma zərərçəkmiş şəxsə məxsus olan əşyaların götürülməsi ilə də müşayiət oluna bilər. Belə hallarda təqsirkarın hərəkətləri CM-in 332-ci maddəsi ilə yanaşı, CM-in mülkiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələri ilə də əlavə olaraq tövsif edilə bilər.

[1] Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin arxivi, 2003-cü il.

16. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması seksual xarakterli zorakılıq hərəkətləri ilə müşayiət olunduğu hallarda əməl cinayətlərin məcmusu qaydasında CM-in 332-ci və 150-ci maddələri üzrə tövsif edilməlidir.

Maddə 333. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə

333.1. Çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmadıqda və ya üç gündən az olsa belə, eyni əməllər altı ay ərzində təkrar törədildikdə —

bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

333.2. Çağırış və ya kontrakt üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun hərbi hissədən özbaşına getməsi və ya xidmət yerinə üzrlü səbəblər olmadan qayıtmaması on gündən artıq, lakin bir aydan çox olmayaraq törədildikdə —

iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

333.3. Zabit heyətindən olan şəxsin, gizirin, miçmanın, müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçunun və ya kontrakt üzrə xidmət edən şəxsin hissəni və ya xidmət yerini özbaşına tərk etməsi, habelə üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında qayıtmaması on gündən artıq, lakin bir aydan çox olmadıqda, yaxud bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox olduqda —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

333.4. Bu Məcəllənin 333.2 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər bir aydan artıq, lakin üç aydan çox olmayaraq törədildikdə —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

333.5. İntizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçunun özbaşına getməsi —

bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

333.6. Bu Məcəllənin 333.1—333.4-cü maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Ağır şərait zəminində bu Məcəllənin 333.1—333.4-cü maddələrində nəzərdə tutulmuş əməlləri ilk dəfə törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

1. CM-in 333-cü maddəsində nəzərdə tutulmuş cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, təhlil edilən əməllərin törədilməsi ilə hərbi qulluq çəkmənin qanunla müəyyən edilmiş qaydalarına qəsd edilir, hərbi hissədən kənarda olmanın və hərbi qulluq çəkmədən yayınmanın uzun müddət davam et-

məsi Silahlı Qüvvələrdə ümumi intizamın aşağı səviyyəyə düşməsinə, ordunun döyüş qabiliyyətinin zəifləməsinə səbəb olur.

2. Şərh edilən cinayətin **obyekti** hərbi xidmət keçilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydasıdır.

3. Təhlil edilən maddədə bir-birindən həm obyektiv cəhətinə, həm də subyektinə görə fərqlənən dörd cinayət tərkibi nəzərdə tutulmuşdur.

4. CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin **obyektiv cəhəti** aşağıdakı əlamətlərdən ibarətdir: 1) hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmədən və üzrlü səbəb olmadan öz xidmət yerinə vaxtında gəlməmədən ibarət əməl; 2) həmin əməllərin 3 gündən artıq, lakin 10 gündən çox olmamaqla davam etməsi, yaxud həmin əməllərin 3 gündən az olsa da, 6 ay ərzində təkrar törədilməsi.

«Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsində həqiqi **hərbi xidmətin başlanma anı** aşağıdakı kimi göstərilmişdir:

- çağırışçılar üçün – Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri tərəfindən hərbi hissəyə göndərildikləri gün;
- bağlaşma əsasında hərbi xidmətə könüllü daxil olanlar üçün – bağlaşmanın imzalandığı gün;
- kursantlar üçün – xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunduqları gün.

İstinad olunan normaya görə, hərbi qulluqçunun həqiqi hərbi xidmətdən buraxılması ilə əlaqədar hərbi hissə komandirinin əmri ilə şəxsi heyətin siyahısından çıxarıldığı gün onun **həqiqi hərbi xidmətinin sonu** sayılır.

CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətlər üzrə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə o zaman cinayət hesab edilir ki, bu müddət 3 gündən artıq, lakin 10 gündən çox olmasın, yaxud 3 gündən az olsa da, eyni əməllər altı ay ərzində təkrar edilmiş olsun. Təkrarlıq üçün əvvəlki özbaşına tərk etməyə görə təqsirkar şəxsə intizam tənbehi verilib-verilməməsinin əhəmiyyəti yoxdur («Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli qərarının 7-ci və 8-ci bəndi).

5. **Özbaşına tərk etmə** dedikdə komandirin (rəisin) icazəsi olmadan hərbi qulluqçunun hərbi hissənin ərazisini və ya xidmət yerini buraxıb getməsi başa düşülür.

6. Hərbi nizamnamə qaydalarına görə, müddətli həqiqi hərbi xidmətdə olan əsgər və çavuşlar hərbi hissənin ərazisində olan kazarmalarda, hərbi-dəniz donanmasının matros və çavuşları isə gəmilərdə yerləşdirilirlər.

Hərbi hissənin mövqeyi dedikdə kazarmanın, düşərgənin sahəsi və ya hərbi hissənin yürüş vaxtı tutduğu yer nəzərdə tutulur (adı çəkilən Plenum qərarının 10-cu bəndinin 1-ci abzası).

Xidmət yeri dedikdə isə, əgər o, hərbi hissənin ərazisi ilə üst-üstə düşmürsə, hərbi qulluqçu tərəfindən hərbi xidmət üzrə vəzifələrin faktiki olaraq yerinə

yetirildiyi yer başa düşülür.

Xidmət yeri, hissənin mövqeyinin yerləşdiyi sahədə deyilsə, hərbi qulluqçunun müəyyən müddət ərzində hərbi vəzifələrini icra etdiyi, yaxud komandirin əmri və ya icazəsi ilə olduğu yer başa düşülür (məsələn, hissənin mövqeyindən kənarda təsərrüfat işlərinin görüldüyü yer, təlim dərslərinin keçirildiyi yer və s.) (adı çəkilən Plenum qərarının 10-cu bəndinin 2-ci abzası).

Hərbi hissənin ərazisini, gəmini və ya sair xidmət yerini hərbi qulluqçular yalnız komandirin (rəisin) icazəsi ilə tərk edə bilərlər.

CM-in 333-cü maddəsində nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyət, hərbi qulluqçunun hərbi hissənin mövqeyini və ya xidmət yerini komandirin (rəisin) icazəsi olmadan tərk etdiyi hallarda yaranır.

Hərbi hissəni və ya xidmət yerini buraxıb getmə icazə vermək hüququ olmayan rəisin icazəsi ilə olduqda, bu, özbaşına tərketmə hesab oluna bilməz. Belə hallarda qanunsuz hərəkətə görə məsuliyyət getmə qaydalarının pozulmasına yol verən rəisin üzərinə düşür.

Əgər müvafiq rəisin icazə vermək hüququnun olmaması hərbi qulluqçuya əvvəlcədən məlum olmuşdursa, belə hallarda hərbi qulluqçu qanunsuz hərəkətinə görə ümumi əsaslarla cinayət məsuliyyəti daşıyır (adı çəkilən Plenum qərarının 9-cu bəndinin 1, 2, 3-cü abzasları).

7. Eyni hərbi hissənin ərazisində bir bölmədən digərinə xüsusi icazə olmadan getmə, həmin hissənin ərazisini tərk etmə ilə müşayiət olunmadıqda, özbaşına tərk etmə hesab edilmir. Lakin eyni hərbi hissənin ərazisində əlahiddə bir bölmədən digər bölməyə xüsusi icazə olmadan getmə hərbi hissənin ərazisini və ya xidmət yerini özbaşına tərk etmə kimi qiymətləndirilir.

8. **Vaxtında gəlməmə** dedikdə hərbi hissənin ərazisindən (gəmidən) və ya xidmət yerindən qanuni əsasla buraxılmış (qısamüddətli məzuniyyətə, ezamiyyətə, müalicəyə və s.) hərbi qulluqçunun hərbi hissəyə, yaxud xidmət yerinə üzrlü səbəblər olmadan müəyyən edilmiş müddətdə qayıtmaması başa düşülür (adı çəkilən Plenum qərarının 9-cu bəndinin 4-cü abzası).

Belə halda hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən yayınma cinayətkarcasına **hərəkətsizlik** yolu ilə həyata keçirilir.

9. Hərbi qulluqçunun özünün və ya yaxın qohumlarının xəstəliyi, son zərurət vəziyyəti, hakimiyyət orqanları tərəfindən tutulub saxlanma, təbii fəlakət, habelə hərbi qulluqçunun iradəsindən asılı olmayaraq onun vaxtında qayıtmasını qeyri-mümkün edən sair hallar (məsələn, nəqliyyatın hərəkətinin gözlənilmədən dayandırılması və s.) vaxtında gəlməmənin üzrlü səbəblərinə aid edilir.

Vaxtında gəlməmə üzrlü səbəblərlə əlaqədar olduqda cinayət tərkibi yaranmır.

10. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair» 18 iyul 2005-ci il tarixli qərarına əsasən **CM-in 333.1-ci maddəsində göstərilən müddətlərin əvvəli** hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi andan və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə müəyyən edilmiş müddətdə gəlmədiyi vaxtdan hesablanır.

Təqsirkarın öz hərbi hissəsinə və ya xidmət yerinə **qayıtma vaxtı**, yaxud

hərbi komendantlığa, hərbi komissarlığa və s. könüllü gəlməsi vaxtı və ya hakimiyyət orqanı, hərbi komendantlıq, qarnizon növbətçisi, hissədən göndərilən patrul xidməti tərəfindən **tutulub saxlandığı vaxt** özbaşına tərk etmənin və vaxtında gəlməmənin başa çatma anı hesab olunur.

11. CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti özbaşına tərk etmənin və ya vaxtında gəlməmənin müddətləridir. Qeyd olunan əməllərin cinayət məsuliyyətinə səbəb olması üçün özbaşına tərk etmə və ya vaxtında gəlməmə **3 gündən 10 günədək** olmalı, yaxud **3 gündən** az olsa belə, 6 ay ərzində təkrar törədilməlidir.

Burada eyni əməllərin 6 ay ərzində **təkrar törədilməsi** dedikdə özbaşına tərk etmənin və ya vaxtında gəlməmənin 3 gündən az müddətə olsa da, 6 ay müddətində iki və daha artıq dəfə törədilməsi başa düşülür.

Konstitusiya Məhkəməsinin Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair» 2 iyun 2017-ci il tarixli Qərarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etmiş və ya fərarilik etmiş şəxs hərbi xidmət üzrə vəzifələrini icra edən rəisə və ya hərbi qulluq vəzifəsini yerinə yetirən başqa şəxsə müqavimət göstərdikdə, onun əməli müvafiq surətdə Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, eləcə də 329-cu maddələrində nəzərdə tutulmuş cinayətlərin məcmusu üzrə tövsif olunmalıdır (adı çəkilən Plenum qərarının 17-ci bəndinin 1-ci abzası).

Qətimkan tədbiri kimi hərbi hissə komandanlığının müşahidəsi altına verilmiş hərbi qulluqçunun məhkəməyədək icraat zamanı, yaxud cinayət işlərinə məhkəmədə baxılarkən onun hərbi hissənin mövqeyini və ya xidmət yerini özbaşına tərk etməsi bu tərketmənin müddətindən və həmin əməli törətmiş şəxsin məqsədindən asılı olaraq Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü maddələri ilə tövsif edilməlidir olunmalıdır (adı çəkilən Plenum qərarının 17-ci bəndinin 2-ci abzası).

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk edən və ya fərarilik edən hərbi qulluqçuların şəxsi istifadəsi üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaları nəticəsində həmin əmlakı itirmələri müvafiq olaraq Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, həmçinin 347-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibini yaradır.

Hərbi qulluqçu hərbi hissəni (qulluq yerini) özbaşına tərk edərkən və ya fərarilik edərkən, xidməti istifadə üçün ona verilmiş odlu silahı, döyüş sursatını və ya partlayıcı maddələri mənimsəmək, satmaq və ya istədiyi kimi onun üzərində başqa cür sərəncam vermək məqsədilə özü ilə apararsa, onun əməli Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, eləcə də 232-ci maddələri ilə tövsif olunmalıdır.

Hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə, yaxud belə məqsədi olmadan hissəni tərk edərkən, xidməti istifadə üçün ona verilmiş nəqliyyat vasitəsini, texniki təchizat əşyalarını və ya digər hərbi əmlakı öz mülkiyyətinə və ya başqa şəxsin mülkiyyətinə keçirmək məqsədilə özü ilə apararsa, onun hərəkəti hərbi hissəni (qulluq yerini) tərketmə və ya fərarilik, eləcə də dövlət əmlakının mənimsənilməsi kimi tövsif olunmalıdır.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etməklə əlaqədar olan cinayətlər törədilərkən hərbi hissənin avtomaşınlarının və ya başqa nəqliyyat vasitəsinin mənimsəmə məqsədi olmadan qaçırılması Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, həmçinin 185-ci maddələri ilə tövsif olunmalıdır.

Hərbi qulluqçunun hərbi hissəni (xidmət yerini) özbaşına tərk etməsi və ya fərarilik törətməsi ilə yanaşı xüsusi xidmət qaydalarını da pozması cinayətlərin məcmusu üzrə o halda tövsif oluna bilər ki, müvafiq xidmət qaydalarının pozulması Azərbaycan Respublikası CM-in 336-cı, 337-ci, 338-ci, 339-cu və 340-cı maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olsun yaradır (adı çəkilən Plenum qərarının 18-22-ci bəndləri).

12. Şərh edilən cinayət **subyektiv cəhətdən qəsdlə** törədilir.

13. CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** hərbi xidməti çağırış üzrə çəkən hərbi qulluqçular ola bilərlər.

14. «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsinə müvafiq olaraq, müddətli həqiqi hərbi xidmətə və zabitlərin həqiqi hərbi xidmətinə çağırılmaqla həqiqi hərbi xidmət keçən hərbi qulluqçular **çağırış üzrə** hərbi xidmət keçən hərbi qulluqçular hesab edilirlər.

Adı çəkilən Qanunun 32.1.2-ci maddəsinə əsasən xüsusi təyinatlı ali təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidməti çağırış üzrə hərbi xidmət yox, bağlaşma əsasında könüllü hərbi xidmət sayılır.

15. Ehtiyatdan təlim və ya yoxlama toplanışlarına çağırılan hərbi vəzifəli şəxslər, habelə «Hərbi xidmətkeçmə haqqında» Əsasnamənin 9-cu maddəsində müəyyən edilmiş qaydada hərbi xidmətə çağırılmış ehtiyatda olan zabitlər də CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyektidirlər.

16. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 1-ci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair» 26 oktyabr 2001-ci il tarixli qərarına əsasən «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilən **hərbi xidmətə çağırılmış şəxslərin** Respublika toplanış məntəqəsindən özbaşına getməsi və ya orada tibbi müayinə keçdikdən sonra hərbi qulluğa getməkdən yayınması CM-in 333-cü maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaratmır. Lakin «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsində göstərilən **hərbi qulluqçu statusuna malik şəxslər** hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə CM-in 333-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilə bilər.

17. CM-in 333.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti 10 gündən** artıq, lakin **1 aydan** çox olmayan müddətə hərbi hissəni öz-

başına tərk etməni və ya üzrlü səbəblər olmadan xidmət yerinə qayıtmamanı nəzərdə tutmuşdur. Obyektiv cəhətin bütün qalan (müddətdən başqa) əlamətləri CM-in 333.1-ci maddəsinin obyektiv cəhətinin əlamətləri ilə eynidir.

18. CM-in 333.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** çağırış və ya kontrakt üzrə hərbi xidmətdə olan hərbi qulluqçulardır.

Çağırış üzrə hərbi xidmət keçən hərbi qulluqçuların anlayışı bu maddənin şərhinin 14-cü bəndində verilmişdir.

Kontrakt (bağlaşma) üzrə hərbi xidmət keçən hərbi qulluqçu dedikdə «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun yaradılmış digər silahlı birləşmələrə bağlaşma əsasında könüllü daxil olmuş Azərbaycan Respublikası vətəndaşları və digər dövlətlərin vətəndaşları başa düşülür.

19. CM-in 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** özbaşına tərk etmənin və ya vaxtında qayıtmamanın **10 gündən 1 ayadək** müddətdə davam etməsindən, yaxud özbaşına tərk etmənin və ya vaxtında qayıtmamanın **3 gündən 10 günədək** müddətə, lakin **1 il ərzində** təkrar törədilməsindən ibarətdir.

Sumqayıt hərbi məhkəməsinin 25 avqust 2009-cu il tarixli hökmü ilə A.B.Nəsirov CM-in 333.3-cü maddəsi ilə təqsirli bilinib 7 (yeddi) ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

A.B.Nəsirov ona görə təqsirli bilinmişdir ki, o, hərbi xidmətdə olarkən 3 iyun 2009-cu il tarixdən 27 iyun 2009-cu il tarixədək və 30 iyun 2009-cu il tarixdən 29 iyul 2009-cu il tarixədək, yəni hər dəfə on gündən çox, lakin bir aydan artıq olmayan müddətə hərbi hissəni özbaşına buraxıb getmişdir.

Həmin hökmdən apellyasiya protesti verilərək göstərilmişdir ki, təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifi zamanı onun cinayəti təkrar törətməsi cəzanı ağırlaşdıran hal kimi nəzərə alınmadığına görə hökm dəyişdirilməlidir.

Sumqayıt Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasının 6 oktyabr 2009-cu il tarixli qərarı ilə apellyasiya protesti təmin edilməmiş, hökm isə dəyişdirilmədən saxlanılmışdır.

Bu qərardan dövət ittihamçısı kassasiya protesti verərək həmin qərarın ləğv edilməsini, işin isə yeni apellyasiya baxışına təyin edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası protestə baxaraq qeyd etmişdir ki, CM-in 333.3-cü maddəsində sadalanan şəxslərin həmin maddə ilə məsuliyyətə cəlb edilmələri üçün hərbi hissəni özbaşına tərk etmə müddətlərindən asılı olaraq biri-birindən fərqlənən iki növ əməlin törədilməsi nəzərdə tutulur: birinci - hərbi hissəni on gündən çox, lakin bir aydan artıq olmayaraq özbaşına tərk etmə (xidmət yerinə qayıtmama), ikincisi isə - bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox müddətdə hərbi hissəni özbaşına buraxıb getmə. Birinci halda getmənin CM-in 333.3-cü maddəsi ilə nəzərdə tutulmuş cinayət kimi qiymətləndirilməsi üçün hərbi hissəni on gündən çox, lakin bir aydan artıq olmayan müddətdə özbaşına tərk etmə kifayət edir və belə əməlin qeyd olunan maddə ilə təsnif edilməsi üçün hərbi qulluqçunun (zabitin, gizirin və s.) təkrarən hər hansı bir müddətdə hərbi hissəni özbaşına buraxıb getməsinin müəyyən olunması tələb olunmur.

İkinci halda isə hərbi hissəni on gündən az, lakin üç gündən çox müddətə özbaşına buraxıb getmiş zabitin, gizirin, miçmanın, müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçunun və ya kontrakt üzrə xidmət edən şəxsin əməlində CM-in 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin tərkibinin yaranması üçün həmin şəxslər tərəfindən eyni əməlin bir il ərzində təkrarən törədilməsi mütləqdir.

Bu isə o deməkdir ki, maddənin dispozisiyasında göstərilən təkrarlıq əlaməti yalnız hərbi hissəni üç gündən çox, lakin on gündən az müddətə özbaşına tərk etmə hallarına aiddir.

Konstitusiya Məhkəməsinin Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair» 2 iyun 2017-ci il tarixli Qərarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasının 17 dekabr 2009-cu il tarixli qərarı ilə kassasiya protesti təmin edilmiş və A.B.Nəsirovun barəsindəki Sumqayıt Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasının 6 oktyabr 2009-cu il tarixli qərarı ləğv edilərək iş yenidən baxılması üçün həmin məhkəməyə qaytarılmışdır[1].

20. CM-in 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** zabit heyətindən olan şəxs, gizir, miçman, müddətdən artıq hərbi xidmətdə olan və ya kontrakt üzrə xidmət edən hərbi qulluqçudur.

Zabit heyətindən olan şəxsin, gizirin, miçmanın, müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçunun anlayışları «Hərbi xidmətkeçmə haqqında» Əsasnamənin 1—9-cu maddələrində verilmişdir.

Kontrakt üzrə hərbi xidmət keçən şəxsin anlayışı bu maddənin şərhinin 18-ci bəndində verilmişdir. Nəzərə almaq lazımdır ki, «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli Qanununun 36-cı maddəsinə əsasən zabit heyətindən olan hərbi qulluqçular, gizirlər, miçmanlar, müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçular da bağlaşma (kontrakt) üzrə hərbi xidmət keçən hərbi qulluqçulardır.

21. CM-in 333.4-cü maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — CM-in 333.2-ci və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin bir aydan artıq, lakin üç aydan çox olmayaraq törədilməsi göstərilmişdir.

Bu əlamətin mövcud olması üçün CM-in 333.2-ci və 333.3-cü maddələrində nəzərdə tutulan cinayətlərin subyekti olan hərbi qulluqçunun hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməsinin, yaxud xidmət yerinə vaxtında qa-

[1] Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2010-cu il, № 1, s.7-9.

yıtmamasının müddəti **1 aydan 3 ayadək** olmalıdır. Həmin müddət 3 aydan artıq olduqda əməl CM-in 334-cü maddəsi üzrə fərarilik kimi tövsif ediləcəkdir.

22. CM-in 333.5-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyektiv cəhəti** intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçunun belə hərbi hissədən özbaşına getməsindən ibarətdir.

İntizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş və orada cəza çəkən şəxs hərbi hissədən özbaşına getdikdə onun əməli CM-in 333.5-ci maddəsi ilə tövsif edilməlidir. Bu halda özbaşına getmənin müddəti əməlin tövsifinə təsir göstərmir.

Barələrində həbs qətimkan tədbiri seçilmiş və haupvaxtda saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədilə həbsdən qaçması CM-in 304-cü maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaradır (adı çəkilən Plenum qərarının 16-cı bəndi).

23. CM-in 333.6-cı maddəsində təhlil edilən cinayətin **xüsusilə ağırlaşdırıcı tərkib əlaməti** — CM-in 333.1—333.4-cü maddələrində nəzərdə tutulmuş əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi nəzərdə tutulmuşdur.

Müharibə vaxtı və ya **döyüş şəraiti** anlayışları CM-in 328-ci maddəsinin qeydində verilmişdir.

24. Hərbi xidmətdən boyun qaçıran şəxsin hərbi xidmət vəzifələrinin icrasına başlamaq niyyəti olmadan hər hansı motivlərlə müvəqqəti olaraq hərbi hissənin ərazisində görünməsi (məsələn, tanışları ilə görüşmək, yaxud pul vəsaiti almaq üçün görünmə) özbaşına getmənin müddətini dayandırmır.

25. CM-in 333-cü maddəsinin qeydində CM-in 333.1—333.4-cü maddələrində nəzərdə tutulmuş əməllərə görə cinayət məsuliyyətini istisna edən xüsusi hal — CM-in 333.1—333.4-cü maddələrində nəzərdə tutulmuş əməllərin ilk dəfə ağır şərait zəminində törədilməsi nəzərdə tutulmuşdur.

CM-in 333-cü maddəsinin qeydində nəzərdə tutulmuş **ağır şəraitə** aşağıdakılar aid edilə bilər: a) hərbi qulluqçunun özünün və ya onun yaxın qohumlarının gözlənilməz ağır xəstəliyi; b) ciddi ailə münaqişələri; c) hərbi qulluqçunun yaxın qohumlarının yaşadığı yerdə baş vermiş təbii fəlakət; ç) hərbi qulluqçunun xidmət yerində yaranmış əlverişsiz, qeyri-sağlam şərait və s. Adı çəkilən Plenum qərarının 15-ci bəndinin 2-ci abzasında da bu barədə göstərilmişdir.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etmə və ya fərarilik ayrı-ayrı hallarda komandirlərin (rəislərin) qanunazidd əmrləri, nizamnamədən kənar rəftar edilməsi, mütəmadi surətdə hörmətsizlik, fiziki və psixi məcburiyyət və bu kimi digər hərəkətlərlə əlaqədar ola bilər. Belə hallarda müəyyən edilmiş konkret vəziyyətdən asılı olaraq əməlin son zərurət vəziyyətində törədilmiş hərəkət olub-olmamasına hüquqi qiymət verilməlidir (adı çəkilən Plenum qərarının 15-ci bəndinin 3-cü abzası).

Maddə 334. Fərarilik

334.1. Fərarilik, yəni hərbi qulluqçunun xidmətdən üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi), yaxud müddətindən asılı olmayaraq hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə hərbi hissəni və ya

xidmət yerini özbaşına buraxıb getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi) —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

334.2. Xidməti istifadə üçün verilmiş silahı, döyüş sursatını və ya partlayıcı maddələri oğurlamaq məqsədi olmadan aparmaqla fərarilik etmə, habelə bir qrup şəxs tərəfindən fərarilik etmə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

334.3. Bu Məcəllənin 334.1 və 334.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Ağır şərait zəminində bu Məcəllənin 334.1–ci maddəsində nəzərdə tutulmuş əməlləri ilk dəfə törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

1. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, fərarilik hərbi hissənin döyüş hazırlığına və döyüş qabiliyyətinə, ordunun və donanmanın şəxsi heyətinin komplektləşdirilməsinə ciddi zərər vurur. Fərarilik digər cinayətlərin (məsələn, oğurluğun, quldurluğun, şəxsiyyət əleyhinə olan cinayətlərin) törədilməsi ilə müşayiət olunduqda, onun sosial cəhətdən təhlükəliliyi daha da artır. Əldə silah fərarilik etmək, habelə ondan cinayətkar qəsdlərdə istifadə etmək həmin əməlin yüksək ictimai təhlükəliliyinə dəlalət edir.

2. CM-in 334-cü maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** hərbi xidmət keçmənin qanunvericiliklə müəyyən edilmiş qaydalarıdır.

3. Şərh edilən cinayət **obyektiv cəhətdən** hərbi qulluqçunun üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsində və ya xidmət yerinə qayıtmamasında (gəlməməsində), yaxud müddətindən asılı olmayaraq hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hissənin mövqeyini və ya xidmət yerini buraxıb getməkdə, eləcə də başqa hissəyə dəyişdirilərkən, təyinat alarkən, ezamiyyətdən, məzuniyyətdən və ya müalicə müəssisəsindən qayıdarkən eyni məqsədlə hissəyə və ya xidmət yerinə gəlməməkdə ifadə olunur.

Hərbi hissədən və ya xidmət yerindən **özbaşına getmənin**, habelə xidmət yerinə **qayıtmamanın** anlayışı CM-in 333-cü maddəsinin şərhində verilmişdir.

Hərbi hissədən müvəqqəti buraxılan (məzuniyyətə, ezamiyyətə, müalicəyə və s.) şəxs hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə öz hissəsinə və ya xidmət yerinə qayıtmadıqda, onun hərəkəti xidmət yerinə gəlməmək formasında fərarilik cinayətinin tərkibini yaradır. Fərarilik əməlini törədən hərbi qulluqçu hərbi xidməti davam etdirməyi hüquqazidd şəkildə dayandırır, bununla da özünü hərbi xidmət münasibətləri dairəsindən kənarlaşdırmağa cəhd göstərir.

4. Təhlil edilən maddədə faktiki olaraq fərariliyin iki növü nəzərdə tutulmuşdur: 1) hərbi hissəni özbaşına tərk etmənin və ya xidmət yerinə qayıtmamanın **müddətinə görə** müəyyən edilən fərarilik; 2) hərbi hissəni özbaşına tərk etmənin və ya xidmət yerinə qayıtmamanın **məqsədinə görə** müəyyən edilən

fərarilik.

5. Fərariliyin birinci növü o halda mövcud olacaqdır ki, hərbi qulluqçunun hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi və ya xidmət yerinə qayıtmaması **üç aydan artıq** davam etsin. Öz mahiyyətinə görə bu, hərbi hissəni özbaşına tərk etmənin (CM-in 333-cü maddəsi) fərariliyə çevrilməsi deməkdir.

Fərariliyin bu növü hərbi qulluqçunun hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsinin və ya xidmət yerinə qayıtmamasının üç ayı tamam olduğu andan **başa çatmış** cinayət olacaqdır.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk edən və ya fərarilik edən hərbi qulluqçuların şəxsi istifadəsi üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaları nəticəsində həmin əmlakı itirmələri müvafiq olaraq Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, həmçinin 347-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibini yaradır.

Hərbi qulluqçu hərbi hissəni (qulluq yerini) özbaşına tərk edərkən və ya fərarilik edərkən, xidməti istifadə üçün ona verilmiş odlu silahı, döyüş sursatını və ya partlayıcı maddələri mənimsəmək, satmaq və ya istədiyi kimi onun üzərində başqa cür sərəncam vermək məqsədilə özü ilə apararsa, onun əməli Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, eləcə də 232-ci maddələri ilə tövsif olunmalıdır.

Hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə, yaxud belə məqsədi olmadan hissəni tərk edərkən, xidməti istifadə üçün ona verilmiş nəqliyyat vasitəsini, texniki təchizat əşyalarını və ya digər hərbi əmlakı öz mülkiyyətinə və ya başqa şəxsin mülkiyyətinə keçirmək məqsədilə özü ilə apararsa, onun hərəkəti hərbi hissəni (qulluq yerini) tərketmə və ya fərarilik, eləcə də dövlət əmlakının mənimsənilməsi kimi tövsif olunmalıdır.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etməklə əlaqədar olan cinayətlər törədilərkən hərbi hissənin avtomaşınlarının və ya başqa nəqliyyat vasitəsinin mənimsəmə məqsədi olmadan qaçırılması Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, həmçinin 185-ci maddələri ilə tövsif olunmalıdır.

Hərbi qulluqçunun hərbi hissəni (xidmət yerini) özbaşına tərk etməsi və ya fərarilik törətməsi ilə yanaşı xüsusi xidmət qaydalarını da pozması cinayətlərin məcmusu üzrə o halda tövsif oluna bilər ki, müvafiq xidmət qaydalarının pozulması Azərbaycan Respublikası CM-in 336-cı, 337-ci, 338-ci, 339-cu və 340-cı maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olsun yaradır («Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli qərarının 18-22-ci bəndləri).

6. Fərariliyin ikinci növü o halda mövcud olacaqdır ki, hərbi qulluqçunun hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi və ya xidmət yerinə qayıtmaması **hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə** törədilsin. Bu zaman hərbi hissədən və ya xidmət yerindən özbaşına getmənin və ya xidmət yerinə qayıtmamanın müddəti heç bir əhəmiyyət kəsb etmir.

Fərariliyin bu növü hərbi qulluqçunun hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getdiyi, yaxud xidmət yerinə müəyyən edilmiş müddətdə gəlmədiyi andan **başa çatmış** cinayət hesab olunur.

Əgər hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hissəni özbaşına buraxıb getmişsə, lakin əvvəlki niyyətindən imtina edərək hissəyə qayıtmış və ya özünü hakimiyyət orqanına təqdim etmişsə, belə halda təqsirkarın hərəkətində başa çatmış fərarilik cinayətinin tərkibi yaranır. Onun hissəyə gəlməsi və ya özünü hakimiyyət orqanına təqdim etməsi isə bu halda könüllü imtina kimi deyil, təqsirini boynuna almaqla könüllü gəlmə kimi qiymətləndirilməlidir (adı çəkilən Plenum qərarının13-cü bəndi).

7. Fərariliyin ikinci növü (məqsədə görə fərarilik) **uzanan** cinayətdir. O, ya təqsirkarın öz hərəkətlərini dayandırmasınadək (məsələn, onun hərbi hissəyə, yaxud hakimiyyət orqanına könüllü gəlməsinədək), ya da onun tutulmasınadək uzanır.

Hərbi hissədə və ya xidmət yerində faktiki olmamanın müddəti törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsinin müəyyən edilməsi və təqsirkara cəza təyin edilməsi zamanı nəzərə alına bilər.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk etmiş və ya fərarilik etmiş şəxs hərbi xidmət üzrə vəzifələrini icra edən rəisə və ya hərbi qulluq vəzifəsini yerinə yetirən başqa şəxsə müqavimət göstərdikdə, onun əməli müvafiq surətdə Azərbaycan Respublikası CM-in 333-cü və ya 334-cü, eləcə də 329-cu maddələrində nəzərdə tutulmuş cinayətlərin məcmusu üzrə tövsif olunmalıdır (adı çəkilən Plenum qərarının 17-ci bəndinin 1-ci abzası).

8. Şərh edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilə bilər. Fərariliyin ikinci növü üçün subyektiv cəhətin daha bir zəruri əlaməti xüsusi məqsədin — **hərbi xidmətdən boyun qaçırma məqsədinin** olmasıdır.

Ümumiyyətlə, fərariliyin birinci növündə də belə məqsəd ola bilər, lakin burada həmin məqsədin olması zəruri tərkib ünsürü hesab edilməmişdir. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmənin və ya xidmət yerinə vaxtında qayıtmamanın uzun müddət — üç aydan artıq davam etməsi özlüyündə hərbi xidmətdən boyun qaçırma məqsədinin olmasını təsdiq edir.

Qətimkan tədbiri kimi hərbi hissə komandanlığının müşahidəsi altına verilmiş hərbi qulluqçunun məhkəməyədək icraat zamanı, yaxud cinayət işlərinə məhkəmədə baxılarkən onun hərbi hissənin mövqeyini və ya xidmət yerini özbaşına tərk etməsi bu tərketmənin müddətindən və həmin əməli törətmiş şəxsin məqsədindən asılı olaraq CM-in 333-cü və ya 334-cü maddələri ilə tövsif edilməlidir olunmalıdır (adı çəkilən Plenum qərarının 17-ci bəndinin 2-ci abzası).

Fərariliyin **motivi** hərbi xidmətin çətinliklərinə davam gətirməmək, bəzi məsul tapşırıqları yerinə yetirməkdən qorxmaq, hərbi vəzifələri icra etməkdən boyun qaçırmaq, törədilən cinayətə görə məsuliyyətdən yaxa qurtarmaq və sair bu kimi hallar ola bilər. Fərariliyin motivləri onun tövsifinə təsir göstərmir, lakin hərbi xidmətdən boyun qaçırma məqsədinin müəyyən edilməsində əhəmiyyət kəsb edir.

9. Şərh edilən cinayətin **subyekti** istənilən hərbi qulluqçu ola bilər.

10. Məhkəmənin qərarı ilə həbs edilmiş hərbi qulluqçu hauptvaxtda saxlanıla bilər. Belə hərbi qulluqçunun cinayət məsuliyyətindən yayınmaq və cəzadan yaxa qurtarmaq məqsədi ilə həbs yerindən qaçmasına fərarilik kimi baxıla bilməz. Belə əməl həbsdə olan şəxsin azadlıqdan məhrumetmə yerindən, həbsdən və ya mühafizə altından qaçma cinayətinin tərkibini yaradır və CM-in 304-cü maddəsi ilə tövsif edilməlidir.

11. CM-in 334.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** — xidməti silahı, döyüş sursatını və ya partlayıcı maddələri oğurlamaq məqsədi olmadan aparmaqla fərarilik etmə, habelə bir qrup şəxs tərəfindən fərarilik etmə nəzərdə tutulmuşdur.

Hərbi qulluqçulara xidməti silah, döyüş sursatı və partlayıcı maddələr qarovul xidməti, sərhəd xidməti və digər xüsusi xidmətlərin çəkilməsi zamanı, habelə döyüş tapşırığını yerinə yetirərkən verilir. Silah hərbi qulluqçulara xidməti ezamiyyətlərdə olduqları müddət üçün də verilə bilər.

Fərariliyin törədilməsi zamanı silahı, döyüş sursatını və partlayıcı maddələri oğurluq məqsədi ilə aparma əlamətləri olduqda təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 232-ci və 334.1-ci maddələri ilə tövsif edilməlidir.

Bir qrup şəxs tərəfindən cinayət törədilməsinin anlayışı CM-in 34-cü maddəsinin şərhində verilmişdir.

12. CM-in 334.3-cü maddəsində fərariliyin **xüsusilə ağırlaşdırıcı tərkib əlamətləri** — CM-in 334.1-ci və 334.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi göstərilmişdir.

13. **Müharibə vaxtı** və **döyüş şəraiti** anlayışları CM-in 328-ci maddəsinin qeydində verilmişdir.

Hərbi qulluqçu yalnız bu cür hərbi hissə və bölmələri özbaşına tərk etdikdə, yaxud bu hissələrdən fərarilik etdikdə həmin əməllər müvafiq surətdə Azərbaycan Respublikası CM-in 333.6-cı və ya 334.3-cü maddələri ilə tövsif edilməlidir (adı çəkilən Plenum qərarının 14-cü bəndinin 2-ci abzası).

14. CM-in 334-cü maddəsinin qeydində sadə fərariliyə (CM-in 334.1-ci maddəsində nəzərdə tutulmuş əmələ) görə cinayət məsuliyyətini istisna edən hal — həmin əməlin **ağır şərait zəminində ilk dəfə** törədilməsi nəzərdə tutulmuşdur.

Burada nəzərdə tutulmuş ağır şəraitin anlayışı barədə CM-in 333-cü maddəsinin şərhinə bax.

Maddə 335. Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma

335.1. Hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərər vurma və ya özünü xəstəliyə vurma, sənədləri saxtalaşdırma və ya sair aldatma yolu ilə hərbi xidmətdən boyun qaçırması, habelə hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etməsi —

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

335.2. Eyni əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırı-

lır.

1. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, təqsirkar hərbi xidmətdən qəsdən boyun qaçırmanın, habelə hərbi xidmət vəzifələrini yerinə yetirmədən imtinanın daha təhlükəli üsullarından istifadə edir. Həmin əməli törədən hərbi qulluqçu eyni zamanda hərbi intizama, hərbi hissənin döyüş hazırlığına və döyüş qabiliyyətinə, ordunun və donanmanın şəxsi heyətinin komplektləşdirilməsinə ciddi zərər vurur.

2. CM-in 335-ci maddəsində nəzərdə tutulmuş cinayətin **obyekti** hərbi xidmət keçmənin qanunvericiliklə müəyyən edilmiş qaydalarıdır.

3. Təhlil edilən cinayətin **obyektiv cəhəti** hərbi xidmətdən boyun qaçırmada və ya hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etmədə ifadə olunmuş əməli və bu əməllərin törədilmə üsullarını əhatə edir.

4. **Hərbi xidmətdən boyun qaçırma** dedikdə şəxsin Silahlı Qüvvələrdə və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrdə həqiqi hərbi xidmətdən azad olmağa can atması başa düşülməlidir. Hərbi xidmətdən boyun qaçırma həqiqi hərbi xidmətdən birdəfəlik tam azad olmağa yönəlmiş olur.

Hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etmə həqiqi hərbi xidmətdə olan şəxsin öz xidməti vəzifələrindən müvəqqəti olaraq tam və ya qismən azad olmağa cəhd etməsi kimi başa düşülməlidir. Hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina edən hərbi qulluqçu hərbi xidmətdən tam azad olmaq məqsədini güdmür.

5. Bu cinayətin obyektiv cəhətini təşkil edən əməllər aşağıdakı üsullarla törədildikdə təhlil edilən cinayət tərkibi yaranır:

a) hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərəri vurması yolu ilə;

b) hərbi qulluqçunun özünü xəstəliyə vurması yolu ilə;

c) sənədləri saxtalaşdırma yolu ilə;

ç) sair aldatma yolu ilə.

6. **Sağlamlığa zərər vurma** hərbi xidmətdən boyun qaçırma və ya hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etmə məqsədi ilə hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərəri yetirməsində (məsələn, barmağını kəsməsi, ayağına və ya əlinə odlu silahla atəş açması və s.) ifadə olunur. Bu zaman şəxs hərbi xidmətə həmişəlik və ya müvəqqəti olaraq yararsız olmağa və bundan sonra həqiqi hərbi xidmətdən azad edilməyə nail olmağa çalışır, yaxud bu üsulla komandiri (rəisi) onu hərbi xidmət üzrə vəzifələrinin icrasından azad etməyə vadar etməyə cəhd edir.

Özünü xəstəliyə vurma hərbi qulluqçunun özündə müəyyən xəstəliyin, yaxud fiziki qüsurun olmasını uydurmasında və ya həqiqətən mövcud olan xəstəliyi şişirtməsində ifadə olunur.

Sənədləri saxtalaşdırma dedikdə hərbi qulluqçunun özü və ya onun xahişi ilə başqa şəxs tərəfindən sənədlərin məzmununun təhrif edilməsi və ya uydurma sənəd tərtib edilməsi və hərbi hissənin komandirinə və ya başqa səlahiyyətli şəxsə təqdim edilməsi başa düşülməlidir.

Sair aldatma dedikdə şəxsin elə yalan faktlar barədə məlumat təqdim etməsi başa düşülür ki, həmin məlumatlar onun hərbi xidmətdən və ya hərbi xidmət vəzifəsini yerinə yetirməkdən daimi və ya müvəqqəti azad edilməsinə

əsas ola bilər (məsələn, ailə üzvlərinin ağır xəstəliyi, faciəli hadisə barədə və s.). Komandiri və ya rəisi pulla, yaxud yalan vəd verməklə ələ alma da sair aldatma hesab edilməlidir.

7. Hərbi xidmətdən istər daimi, istərsə də müvəqqəti (məsələn, bilə-bilə saxta teleqram əsasında qısamüddətli məzuniyyət almağa nail olma və s.) boyun qaçırma, habelə bəzi, yaxud bütün hərbi vəzifələri yerinə yetirməkdən (məsələn, yürüşdə iştirak etməkdən, döyüş növbəsinə getməkdən) imtina etmə şərh edilən cinayət tərkibini yaradır.

8. Şərh edilən cinayət onun hansı üsulla törədilməsindən asılı olmayaraq, bütövlükdə hərbi xidmət üzrə vəzifələrin icrasının faktiki olaraq dayandırıldığı və ya hərbi xidmət üzrə ayrı-ayrı vəzifələrin yerinə yetirilməsinin dayandırıldığı andan **başa çatmış** cinayət hesab olunur.

9. Hərbi xidmətdən boyun qaçırmaya və ya hərbi xidmət üzrə üzrə vəzifələri yerinə yetirməkdən imtina etməyə cəhd hərbi xidmətdən boyun qaçırma və ya hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən imtina məqsədi ilə öz sağlamlığına zərər vurmanın, özünü xəstəliyə vurmanın, sənədləri saxtalaşdırmanın və ya sair yolla aldatmanın şəxsi hərbi xidmət vəzifələrini çəkməkdən faktiki olaraq azad etməyə səbəb olmadığı hallarda mövcud olacaqdır. Məsələn, şəxsin hərbi xidmətdən və ya hərbi xidmət üzrə vəzifələrin icrasından azad edilməsinədək öz sağlamlığına zərər vurmanın, özünü xəstəliyə vurmanın, sənədləri saxtalaşdırmanın və ya sair yolla aldatmanın üstünün açılması şərh edilən cinayətə cəhd kimi qiymətləndiriləcəkdir.

10. Təhlil edilən maddədə nəzərdə tutulmuş əməlləri hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmədən fərqləndirmək lazımdır. Bu əməllər həm törədilmə üsullarına, həm də baş vermə yerlərinə görə fərqlənir. CM-in 333-cü maddəsində nəzərdə tutulmuş əməlin törədilməsində təqsirkar hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən müvəqqəti olaraq, özü də hərbi hissədən, yaxud xidmət yerindən kənara çıxmaqla və.ya kənarda olarkən qayıtmamaqla boyun qaçırır. CM-in 335-ci maddəsində nəzərdə tutulmuş cinayətin törədilməsində isə o, hərbi xidmətdən və ya hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsindən ümumiyyətlə, həm də hərbi hissənin ərazisində, habelə xidmət yerində boyun qaçırır və ya imtina edir.

11. Tabelikdə olan hərbi qulluqçunun rəisin konkret tələbini yerinə yetirməkdən (məsələn, ezamiyyətə və ya döyüş növbəsinə getməkdən) imtina etməsinə hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən imtina etmə kimi baxıla bilməz. Belə hərəkətlər əmri icra etməmənin tərkibini yarada bilər. Çünki göstərilən halda rəisin tələbi əmr xarakteri daşıyır, baş verən hərəkət isə hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən imtina etmədə deyil, əmri açıqcasına icra etməmədə ifadə olunur.

12. Şərh edilən cinayət **subyektiv cəhətdən** yalnız **birbaşa qəsdlə** törədilir. Təqsirkar öz sağlamlığına zərər vurma, özünü xəstəliyə vurma, sənədləri saxtalaşdırma və ya sair aldatma yolu ilə hərbi xidmətdən boyun qaçırdığını və ya hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən imtina etdiyini dərk edir və bu əməli törətməyi arzu edir.

Hərbi qulluqçunun öz sağlamlığına ehtiyatsızlıqla zərər vurması (bu, onun

hərbi xidmət üzrə vəzifələri çəkmədən azad edilməsinə səbəb olsa da) nəzərdən keçirilən cinayət kimi qiymətləndirilə bilməz, çünki bu halda hərbi xidmət üzrə vəzifələri yerinə yetirmədən boyun qaçırma məqsədi istisna olunur. Keyfiyyətli yeməklə təmin olunmaq və ya başqa yardım almaq üçün istifadə edilən özünü xəstəliyə vurma, yaxud sair yolla aldatma hərəkətləri də bu cinayətin əlamətləri ilə əhatə olunmur.

13. Təhlil edilən cinayətin **subyekti** istənilən hərbi qulluqçu, habelə təlim və ya yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəli şəxslər ola bilər.

14. Öz sağlamlığına zərər vurma, özünü xəstəliyə vurma, sənədləri saxtalaşdırma və ya sair yolla aldatma vasitəsilə hərbi xidmətdən boyun qaçırma təqsirkarın xahişi ilə başqa şəxslər tərəfindən də törədilə bilər. Belə hallarda həmin şəxslər bu cinayətdə iştirakçılığın müvafiq növünə görə CM-in 32-ci maddəsinə istinad olunmaqla cinayət məsuliyyətinə cəlb olunurlar.

15. CM-in 335.2-ci maddəsində təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi nəzərdə tutulmuşdur.

Müharibə vaxtı və döyüş şəraitinin anlayışları CM-in 328-ci maddəsinin qeydində verilmişdir.

20. Qarovul çəkmə və ya digər xüsusi hərbi xidmət çəkmə zamanı törədilmiş hərbi xidmətdən boyun qaçırma və ya hərbi xidmət vəzifələrinin yerinə yetirilməsindən imtina etmə məqsədi ilə öz sağlamlığına zərər vurma CM-in 335-ci və müvafiq hərbi xidmət növünün çəkilməsi qaydalarını pozmaya görə məsuliyyət nəzərdə tutan maddəsi üzrə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

Maddə 336. Qarovul xidmətinin nizamnamə qaydalarını pozma

Qarovulun (növbənin) tərkibinə daxil olan şəxs tərəfindən qarovul (növbə) xidmətinin nizamnamə qaydalarının pozulması ağır nəticələrə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Nəzərdən keçirilən cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, CM-in 336-cı maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində hərbi əmlak talan və xarab olur, yaxud məhv edilir, azadlıqdan məhrumetmə yerlərində cəza çəkən məhkumlar bu yerlərdən qaçır, hərbi intizam kobud şəkildə pozulur, ayrı-ayrı hərbi qulluqçular tərəfindən hüquq pozuntularına yol verilir və hərbi xidmət qaydası əleyhinə müxtəlif qəsdlər törədilir.

2. Şərh edilən cinayətin **obyekti** qarovul (növbə) xidmətinin nizamnamə qaydalarıdır. Bu qaydalara ciddi əməl edilməsi mühafizə edilən obyektlərin təhlükəsizliyini və qorunmasını təmin edir.

3. Qoşunun döyüş vəzifələrindən biri kimi qarovul xidmətinin yerinə yetirilməsinə müasir şəraitdə yüksək tələblər verilir. Həmin tələblər Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli 887 saylı Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsində (QQXN) müəyyən edilmişdir.

QQXN-nin 2-ci maddəsinə əsasən qarovul xidməti döyüş bayraqlarının, si-

lahların, döyüş texnikasının və digər texnikanın, döyüş sursatının, partlayıcı maddələrin, başqa əmlakın saxlandığı yerləri, digər hərbi və dövlət obyektlərini etibarlı mühafizə və müdafiə etmək üçün, həmçinin hauptvaxtda və intizam taborunda saxlanan həbs edilənləri, məhkumları mühafizə etmək üçün nəzərdə tutulur. Qarovul xidmətini yerinə yetirmək döyüş tapşırığının yerinə yetirilməsi deməkdir.

Hərbi-Dəniz Donanması gəmilərində növbə xidməti qarovul xidmətinə bərabər tutulur. O, gəmidə növbətçiliyin xüsusi növüdür və döyüş texnikasının, gəminin özünün mühafizə olunmasını, habelə gəminin daimi döyüş hazırlığını təmin edir.

Qarnizon (düşərgə) və daxili (gəmi) qarovulları olur: hər ikisi daimi və müvəqqəti ola bilər (QQXN-nin 97-ci maddəsi).

4. Şərh edilən cinayətin **obyektiv cəhəti** aşağıdakılardan ibarətdir: 1) qarovul (növbə) xidmətinin nizamnamə qaydalarını pozma; 2) bu əməllərin ağır nəticələrə səbəb olması; 3) törədilmiş əməllə baş vermiş nəticə arasında səbəbli əlaqə.

5. Qarovul xidmətinin nizamnamə qaydalarını pozma həm bu qaydalarla qadağan olunmuş ictimai təhlükəli hərəkətlə (nəzərdə tutulmuş qaydaları pozmaqla silah tətbiq etmə, mühafizə olunan obyekti özbaşına tərk etmə, həmin obyektə kənar şəxsləri buraxma və s.), həm də cinayətkarcasına hərəkətsizliklə (postda yatma, siqnalizasiyanı və başqa mühafizə sistemlərini yoxlamama və s.) törədilə bilər. Göstərilən qaydaların pozulması zamanı mühafizə olunan obyektə həmişə zərər vurulması təhlükəsi yaranır.

Qarovulun tərkibinə daxil olan, hauptvaxtda və intizam xarakterli hərbi hissədə saxlanan şəxslərin mühafizəsi xidmətində olan hərbi qulluqçular tərəfindən qarovul xidmətinin nizamnamə qaydalarını pozma həbs edilənlərə və ya məhbuslara zor tətbiq etmə, onların insani ləyaqətini alçaltma, hüquqlarını və qanuni mənafelərini pozma yolu ilə törədilə bilər.

6. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti qarovul xidmətinin nizamnamə qaydalarını pozmanın ağır nəticələrin meydana çıxmasına səbəb olmasıdır.

Burada **ağır nəticələr** dedikdə qarovul (növbə) tərəfindən mühafizə olunan obyektdən hərbi texnikanın, silahın, döyüş sursatının və başqa əmlakın zədələnməsi, itirilməsi, yaxud oğurlanması, döyüş bayrağının itirilməsi, hauptvaxtda həbs edilmişlər arasında iğtişaşların törədilməsi, onların həbs altından və ya həbs yerindən qaçması və s. başa düşülür. Həbs altında olan şəxslərə zor və ya sair qanunsuz təsir göstərmə, habelə onların qısa müddətdə qanunsuz olaraq həbsdən azad edilməsi də ağır nəticə hesab edilməlidir.

7. Təhlil edilən cinayət tərkibinin mövcud olması üçün baş vermiş ağır nəticələrlə qarovul xidmətinin nizamnamə qaydalarının pozulması arasında **səbəbli əlaqənin** olması da zəruridir.

8. Şərh edilən cinayət qarovul (növbə) xidmətinin nizamnamə qaydalarının pozulması ilə ağır nəticələrin baş verdiyi andan başa çatmış hesab edilməlidir.

9. Qarovulun (növbənin) mühafizəsi altında olmayan obyektlərə zərər vurulmasına səbəb olan qarovul (növbə) xidmətinin nizamnamə qaydalarını pozma başqa cinayətin tərkibini yarada bilər. Məsələn, əgər saatdar nizamnamənin tələblərini pozaraq yaxınlıqdan keçən şəxsə atəş açıb onun sağlamlığına zərər yetirərsə, onun hərəkətləri CM-in XXVIII fəslində nəzərdə tutulmuş müvafiq maddə ilə həyat və sağlamlıq əleyhinə cinayət kimi tövsif edilməlidir.

10. Bu cinayət **subyektiv cəhətdən təqsirin qarışıq forması** ilə törədilə bilər. Təqsirkarın qarovul (növbə) xidmətinin nizamnamə qaydalarını pozmaya psixi münasibəti təqsirin **qəsd** formasında, baş vermiş ağır nəticələrə psixi münasibəti isə təqsirin **ehtiyatsızlıq** formasında olacaqdır.

Qarovul (növbə) xidmətinin nizamnamə qaydalarını pozmaya psixi münasibət ehtiyatsızlıqdan ibarət olduqda və bu zaman mühafizə olunan obyektdən silahların, döyüş sursatlarının, partlayıcı maddələrin və partladıcı qurğuların talanması, məhv edilməsi və ya CM-in 231-ci maddəsində nəzərdə tutulmuş digər nəticələr baş verdikdə, əməl təhlil edilən maddə üzrə deyil, CM-in 231-ci maddəsi ilə tövsif edilməlidir.

10. Qarovulun (növbənin) tərkibinə daxil olan hər bir şəxs — qarovul rəisi, onun köməkçisi, dəyişdirici, növbətçi, saatdar, habelə qarovul xidmətinə rəhbərlik etmək üçün təyin edilmiş şəxs bu cinayətin **subyekti** ola bilər.

11. Qarovul (növbə) xidməti çəkmə hər bir hərbi qulluqçunun əsas vəzifəsi olmayıb, xüsusi vəzifələri müvəqqəti olaraq yerinə yetirmədən ibarət fəaliyyətdir. Ona görə də qarovul xidmətinin təşkili və ya ona rəhbərlik hərbi qulluqçunun daimi xidməti vəzifəsi olarsa və o, qarovul (növbə) xidməti ilə əlaqədar olaraq öz vəzifəsini qarovulun (növbənin) tərkibinə daxil olmadan pozarsa, onun əməli CM-in 336-cı maddəsi ilə deyil, hərbi vəzifə cinayətinə görə məsuliyyət nəzərdə tutan maddə üzrə tövsif edilməlidir.

Maddə 337. Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma

Hərbi hissənin gündəlik keşik dəstəsinə (qarovul və növbədən başqa) daxil olan şəxs tərəfindən daxili xidmətin nizamnamə qaydalarını pozma, habelə patrulun tərkibinə daxil olan şəxs tərəfindən qarnizonda patrul xidmətinin nizamnamə qaydalarını pozma ağır nəticələrə səbəb olduqda —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, CM-in 337-ci maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsi ilə hərbi hissələrin və bölmələrin daxili təhlükəsizliyinə, şəxsi heyətin və ayrı-ayrı xidmətlərin döyüş hazırlığına qəsd edilir. Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma hərbi hissələrin və bölmələrin döyüş qabiliyyətini aşağı salır, daxili qaydaların pozuntusuna aparıb çıxarır, silahların və döyüş sursatının talan edilməsinə şərait yaradır, hərbi xidmətdən boyun qaçırma, hərbi qulluqçular arasında qeyri-nizamnamə qarşılıqlı münasibətlərinin yaranması hallarına, hərbi qulluqçuların ictimai asayişi pozmasına və vətəndaşların müxtəlif mənafelərinə zərər vurmasına zəmin yaradır.

2. Şərh edilən cinayətin **obyekti** daxili xidmətin və ya qarnizon üzrə patrul xidmətinin yerinə yetirilməsinin nizamnamə qaydalarıdır.

Bu qaydalar Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili Xidmət Nizamnaməsi (DXN), 23 sentyabr 1994-cü il tarixli 887 saylı Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi (QQXN) və onların əsasında verilmiş əmr və təlimatlarla tənzim edilir.

3. Şərh edilən cinayətin **obyektiv cəhəti** xüsusi xidmətin iki müstəqil növünün — qarnizonda daxili xidmətin və patrul xidmətinin nizamnamə qaydalarının pozulmasından ibarətdir.

4. DXN-nin 210-cu maddəsinə əsasən sutkalıq naryad (gündəlik keşik dəstəsi) daxili qayda-qanunun saxlanması, hərbi hissənin (bölmənin) silahlarının, döyüş texnikasının mühafizə edilməsi, həmçinin daxili xidmət üzrə digər vəzifələrin yerinə yetirilməsi üçün təyin edilir.

5. Daxili xidmətin **nizamnamə qaydalarını pozma** gündəlik keşik dəstəsinə daxil olan hərbi qulluqçunun xidmət yerini özbaşına tərk etməsində, gündəlik keşik üzrə vəzifələrini icra etməməsində, o cümlədən hərbi əmlakın, silahın və ya texnikanın talan edilməsinin, hərbi qulluqçular arasında yaranan nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üçün tədbirlər görməmədə, şəxsi heyətin maddi-məişət təminatı üzrə vəzifələri yerinə yetirməmədə və s. bu kimi əməllərdə təzahür edir.

6. QQXN-nin 64-cü maddəsinə əsasən hər bir qarnizonda hərbi qulluqçular arasında qayda-qanunu və yüksək hərbi intizamı saxlamaq üçün qarnizon rəisinin əmri ilə küçələrdə və ictimai yerlərdə, dəmiryol stansiyalarında, vağzallarda, limanlarda, aeroportlarda, həmçinin qarnizona bitişik yaşayış məntəqələrində patrulluq etmə təşkil olunur. Bu xidmət hərbi qulluqçular arasında intizamsızlığın qarşısının alınmasına, yaxud onların arasında qeyri-nizamnamə qarşılıqlı münasibətlərin, talanların, habelə sair təhlükəli əməllərin aradan qaldırılmasına xidmət edir.

7. Patrul xidmətinin **nizamnamə qaydalarını pozma** marşrutdan və ya patrul cədvəlindən yayınmada, hərbi qulluqçular tərəfindən intizamın pozulmasının qarşısının alınmasına dair tədbirlərin görülməməsində, spirtli içkilər qəbul edilməsində, kimi isə qanunsuz tutub saxlamada, qanunsuz silah tətbiq etmədə və s. ifadə oluna bilər.

8. Nəzərdən keçirilən maddənin dispozisiyası **blanket** səciyyə daşıyır. Ona görə də həmin əmələ görə cinayət məsuliyyətinə cəlb etmək üçün hər bir konkret halda daxili xidmətin və ya qarnizonda patrul xidmətinin hərbi-normativ aktlarda nəzərdə tutulmuş hansı qaydasının pozulduğu dəqiq müəyyən edilməlidir.

Nəzərə almaq lazımdır ki, ayrı-ayrı hərbi hissələrdə (gəmilərdə), habelə qarnizonlarda DXN-nin və ya QQXN-nin müddəaları gündəlik növbə və ya patrul üçün lazım olan müvafiq təlimatlarla da tamamlanır və belə təlimatların özünün pozulması CM-in 337-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilər.

9. Şərh edilən cinayətin obyektiv cəhətinin daha bir zəruri əlaməti təhlil edilən əməllərin ağır nəticələrə səbəb olmasıdır.

Burada nəzərdə tutulmuş **ağır nəticə** daxili xidmətin nizamnamə qaydalarının, yoxsa patrul xidmətinin nizamnamə qaydalarının pozulmasından asılı olaraq müxtəlif xarakterli ola bilər.

Daxili xidmətin nizamnamə qaydalarının pozulmasının ağır nəticələrinə aşağıdakılar aid edilə bilər: a) hərbi hissənin (gəminin) gündəlik rejiminin və ya hərbi tədbirlərin keçirilməsinin ciddi surətdə pozulması; b) hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının kobud pozulması; c) bölmədə yerləşən hərbi qulluqçuların sağlamlığına ağır və ya az ağır zərər vurulması; ç) şəxsi heyətə daxil olan hər hansı şəxs tərəfindən hərbi xidmətdən boyun qaçırılması, yaxud silahların, döyüş sursatlarının və sair hərbi əmlakın talan edilməsi və s.

Qarnizonda patrul xidmətinin nizamnamə qaydalarının pozulmasının ağır nəticələrinə aşağıdakılar aid edilə bilər: a) hərbi qulluqçular arasında kütləvi dalaşma; b) hərbi qulluqçularla mülki əhali arasında münaqişənin yaranması; c) mülki əhalinin əmlakının talan edilməsi; ç) tutulub saxlanmış şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulması və s.

Hər bir halda baş vermiş nəticələrlə yol verilmiş pozuntu arasında **səbəbli əlaqənin** müəyyən edilməsi vacibdir.

10. Şərh edilən cinayət daxili xidmətin nizamnamə qaydalarının və ya patrul xidmətinin nizamnamə qaydalarının pozulmasının ağır nəticələrə səbəb olduğu andan **başa çatmış** hesab olunur.

11. Bu cinayət **subyektiv cəhətdən təqsirin qarışıq forması** ilə törədilə bilər. Təqsirkarın daxili xidmətin nizamnamə qaydalarının və ya patrul xidmətinin nizamnamə qaydalarının pozulmasına psixi münasibəti təqsirin **qəsd** formasında, baş vermiş ağır nəticələrə psixi münasibəti isə təqsirin **ehtiyatsızlıq** formasında olacaqdır.

12. Şərh edilən cinayətin **subyekti** də konkret olaraq hansı qaydaların pozulmasından asılı olacaqdır.

Daxili xidmətin nizamnamə qaydalarını pozmanın subyekti qarovul və növbədən başqa, hərbi hissənin gündəlik keşik heyətinə daxil olan istənilən hərbi qulluqçu (hərbi hissə üzrə növbətçi, onun köməkçisi, park üzrə növbətçi və keşikçi, növbətçi yedəyin mexanik-sürücüsü, növbətçi feldşer, nəzarət-buraxılış məntəqəsinin növbətçisi və onun köməkçisi, yeməkxana üzrə növbətçi, alay qərargahı üzrə növbətçi və s.) ola bilər.

Patrul xidmətinin nizamnamə qaydalarını pozmanın subyekti isə müvafiq əmr əsasında patrul xidməti heyətinə daxil olan hərbi qulluqçu ola bilər.

Maddə 338. Döyüş növbəsi çəkmə qaydalarını pozma

338.1. Azərbaycan Respublikasına qəfil hücumun vaxtında aşkara çıxarılması və dəf olunması üzrə, yaxud onun təhlükəsizliyinin təmin edilməsi üzrə döyüş növbəsi (döyüş xidməti) çəkmə qaydalarını pozma, əgər bu əməllər dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilərdisə —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

338.2. Eyni əməllər dövlətin təhlükəsizlik mənafeyinə zərər vurduqda

və ya sair ağır nəticələrə səbəb olduqda —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, döyüş növbəsi (döyüş xidməti) çəkmə qaydalarını pozma bütövlükdə dövlətin təhlükəsizliyini, ərazi bütövlüyünü və suverenliyini təhlükə altına alır. Hərbi müdaxilənin vaxtında aşkar edilməməsi ağır hərbi itkilərə, vətəndaşlara, ölkənin iqtisadiyyatına və hərbi qüdrətinə ölçüsüz zərər yetirə bilər.

2. Şərh edilən cinayətin **obyekti** döyüş növbəsi (döyüş xidməti) çəkmə qaydalarıdır.

3. Şərh edilən cinayətin **obyektiv cəhəti** Azərbaycan Respublikasına qəfil hücumun vaxtında aşkara çıxarılması və dəf olunması üzrə, yaxud onun təhlükəsizliyinin təmin edilməsi üzrə döyüş növbəsi (döyüş xidməti) çəkmə qaydalarını pozmadan və bu əməllərin dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilməsi imkanından ibarətdir.

Döyüş növbəsi çəkmə döyüş tapşırığının yerinə yetirilməsi ilə bağlı olub ən mühüm hərbi xidmət vəzifələrindən biridir. Döyüş növbəsi Azərbaycan Respublikasına qəfil hücumun vaxtında aşkara çıxarılması və dəf olunması, habelə dövlətin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsi məqsədi ilə hərbi hissələrdə və gəmilərdə təşkil olunur.

Döyüş növbəsi çəkmə qaydaları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərində eyni olmadığına görə müxtəlif hərbi-normativ aktlarla tənzim olunur. Həmin qaydalar döyüş növbəsinin (döyüş xidmətinin) məqsədli təyinatından, istifadə edilən hərbi texnikanın xarakterindən və yerinə yetirilən döyüş tapşırığının özünəməxsusluğundan asılıdır.

4. Döyüş növbəsi (döyüş xidməti) növbətçi qüvvə və vasitələrlə həyata keçirilir. Növbətçi qüvvə və vasitələrin tərkibinə döyüş bölmələri, gəmilərin və uçan aparatların heyətləri, idarəetmə məntəqələrinin bir-birini əvəz edən növbətçiləri, döyüş təminatı və xidmətinin qüvvə və vasitələri daxildir.

5. Bu cinayətin obyektiv cəhətinə daxil olan əməl növbə (xidmət) bölməsi üçün müəyyən edilmiş döyüş növbəsinin (döyüş xidmətinin) ümumi tələblərinin hərbi qulluqçu tərəfindən icra olunmamasında və ya lazımınca icra olunmamasında, döyüş postunda kənar işlərlə məşğul olmada, eləcə də hərbi qulluqçunun öz vəzifələrini yerinə yetirməməsində ifadə oluna bilər.

Şərh edilən cinayət **hərəkət** və ya **hərəkətsizliklə** törədilə bilər. Bu, konkret olaraq növbə yerini özbaşına tərk etmədə, yaxınlaşmaqda olan obyekti zərərsizləşdirməmədə, döyüş postunda yatmada, spirtli içkilər qəbul etmədə, radiotexniki aparatları özbaşına işə salma və ya onları söndürmədə, döyüş tapşırığının yerinə yetirilməsini təmin edən döyüş mexanizmlərini və texniki vasitələri sıradan çıxarmada, verilən komandaları yerinə yetirməmədə, təzahür edən obyektin müşahidəsini dayandırmada və s. ifadə oluna bilər.

6. Döyüş növbəsinin (döyüş xidmətinin) xarakteri və vəzifələri, onu çəkmə qaydaları, həmin heyətə daxil olan hər bir şəxsin konkret funksional vəzifəsi müvafiq hərbi əsasnamələr, nizamnamələr, təlimatlar, göstəriş və əmrlərlə müəyyən edilir. Ona görə də döyüş növbəsi çəkmə qaydalarının pozulması ilə əlaqədar hər bir cinayət işi üzrə həmin növbə (xidmət) bölməsinin xidmət xüsusiyyətlərini aydınlaşdırmaq və pozuntunun konkret olaraq nədə ifadə olunduğunu, xidmət çəkmə qaydalarının hansı hərbi-normativ aktlarda nəzərdə tutulduğunu müəyyən etmək zəruridir.

7. Təhlil edilən cinayət tərkibinin obyektiv cəhətinin daha bir zəruri əlaməti CM-in 338.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilməsi təhlükəsi yaratmasıdır.

Burada **dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilmə** dedikdə döyüş növbəsi (döyüş xidməti) qaydalarının pozulması nəticəsində düşmənin hərbi texnikasının və ya canlı qüvvəsinin ölkəmizin ərazinə daxil olması üçün imkanın yaranması, düşmənin qəfil hücumunun aşkara çıxarılması imkanının müvəqqəti də olsa itirilməsi və s. başa düşülə bilər.

Hər bir halda dövlətin təhlükəsizlik mənafeləri üçün yaranmış təhlükəli vəziyyətlə törədilmiş əməl arasında **səbəbli əlaqə** müəyyən edilməlidir.

8. Şərh edilən cinayət döyüş növbəsi (döyüş xidməti) qaydalarının pozulması nəticəsində dövlətin təhlükəsizlik mənafelərinə zərər vurula biləcəyi təhlükəsinin yarandığı andan **başa çatmış** hesab edilməlidir.

9. CM-in 338.1-ci maddəsində nəzərdə tutulmuş cinayət **subyektiv cəhətdən qəsdlə** törədilir. Təqsirkar döyüş növbəsi (döyüş xidməti) çəkmə qaydalarını pozduğunu dərk edir, bunun dövlətin təhlükəsizlik mənafelərini təhlükə altına alacağını qabaqcadan görür və bunu arzu edir **(birbaşa qəsd)** və ya bunun baş verməsinə şüurlu surətdə yol verir **(dolayı qəsd).**

10. CM-in 338-ci maddəsində nəzərdə tutulmuş cinayətin **subyekti** müəyyən edilmiş qaydada döyüş növbəsi (döyüş xidməti) çəkən heyətə daxil olan hərbi qulluqçular ola bilər.

11. CM-in 338.2-ci maddəsində eyni əməllərin dövlətin təhlükəsizlik mənafeyinə zərər vurması, yaxud sair ağır nəticələrə səbəb olması təhlil edilən cinayətin **ağırlaşdırıcı tərkib əlaməti** kimi nəzərdə tutulmuşdur.

Dövlətin təhlükəsizlik mənafeyinə zərər vurma dedikdə düşmənin ölkənin ərazi bütövlüyünü pozan canlı qüvvəsinin və ya texnikasının aşkara çıxarılmaması və dəf olunmaması, mühüm hərbi və mülki obyektlərin düşmənin hücumuna məruz qalması və s. başa düşülə bilər.

Sair ağır nəticələrə düşmən tərəfindən ölkənin ərazisindəki ayrı-ayrı obyektlərə zərbələr endirilməsi, canlı qüvvə və texnikanın tələfatı, mühüm strateji əhəmiyyətli ərazi və ya obyektlərin düşmənin nəzarəti altına keçməsi və s. aid edilə bilər.

Nəzərdən keçirilən ağırlaşdırıcı tərkib əlamətləri olduqda təqsirkarın baş vermiş nəticələrə psixi münasibəti təqsirin **ehtiyatsızlıq** formasında olacaqdır.

Maddə 339. Sərhəd xidməti qaydalarını pozma

339.1. Sərhəd dəstəsinin tərkibinə daxil olan şəxs tərəfindən və ya sərhəd xidməti üzrə sair vəzifələri yerinə yetirən şəxs tərəfindən sərhəd xidməti qaydalarını pozma, əgər bu əməllər dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilərdisə —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

339.2. Eyni əməllər dövlətin təhlükəsizlik mənafeyinə zərər vurduqda və ya sair ağır nəticələrə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Təhlil edilən cinayətin **ictimai təhlükəliliyi** ondan ibarətdir ki, sərhəd xidməti qaydalarını pozma dövlətin xarici təhlükəsizliyini, onun ərazi toxunulmazlığını və bütövlüyünü, iqtisadi və siyasi müstəqilliyini təhlükə altına alır.

2. Şərh edilən cinayətin **obyekti** sərhəd xidməti çəkmənin qaydaları, habelə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi mənafeləridir.

Sərhəd xidməti çəkmə qaydaları «Sərhəd qoşunları haqqında» Azərbaycan Respublikasının 6 yanvar 1994-cü il tarixli Qanunu, «Azərbaycan Respublikasının Dövlət sərhədi haqqında» Azərbaycan Respublikasının 9 dekabr 1991-ci il tarixli Qanunu və sair normativ aktlarla tənzim edilir.

Dövlət sərhədlərinin hərtərəfli şəkildə qorunması Vətənin müdafiəsinin mühüm tərkib hissəsidir.

Azərbaycan Respublikasının dövlət sərhədinin quruda, dənizdə, çayda və sair hüdudlarda mühafizə edilməsi Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinə həvalə edilmişdir.

3. Şərh edilən cinayətin **obyektiv cəhəti** sərhəd xidməti qaydalarını pozmadan və bu əməllərin dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilməsi imkanından ibarətdir.

Sərhəd xidməti qaydalarını pozma sərhəd dəstəsi tərkibində hərbi xidmət çəkmə zamanı xidməti özbaşına dayandırmada, kənar məşğuliyyətlərlə əlaqədar xidmətdən yayınmada, diqqətsizlikdə, sərhəddən qaçaqmalçılıq yolu ilə əşyaların keçirilməsində, silah tətbiqi qaydasına əməl edilməməsində, sərhədi pozan barəsində məlumatın verilməməsində, xarici dövlətin vətəndaşları ilə danışıqlar aparılmasında və ya əşyaların mübadiləsində və s. təzahür edir.

4. Şərh edilən maddənin dispozisiyası **blanket** səciyyə daşıyır. Sərhəd xidməti qaydalarını pozma ilə əlaqədar olan hər bir konkret iş üzrə, müstəntiq və məhkəmə dövlət sərhədi haqqındakı normativ aktlarda nəzərdə tutulmuş məhz hansı qaydaların pozulduğunu müəyyən etməyə, habelə pozuntunun ictimai təhlükəlilik dərəcəsini aydınlaşdırmağa borcludur.

5. Şərh edilən cinayət tərkibinin mövcud olması üçün sərhəd xidməti qaydalarını pozmanın dövlətin təhlükəsizlik mənafeyinə zərər vurma təhlükəsi yaratması zəruridir.

Burada **dövlətin təhlükəsizlik mənafeyinə zərər vurma təhlükəsi** dedikdə sərhəd xidməti qaydalarının pozulması nəticəsində düşmənin qoşun qrupları və dəstələrinin silahlı müdaxiləsinin mümkün olması, sərhəddə silahlı və sair münaqişələrin yaranması təhlükəsi, qaçaqmalçılıq yolu ilə partlayıcı, zəhərləyici, radioaktiv, narkotik maddələrin ölkəyə gətirilməsi üçün şərait yaranması, ümumiyyətlə, Azərbaycan Respublikasının qonşu dövlətlərlə sərhədlərinin nəzarətsiz qalması başa düşülməlidir.

6. Şərh edilən cinayət sərhəd xidməti qaydalarının pozulması nəticəsində dövlətin təhlükəsizlik mənafelərinə zərər vurula biləcəyi təhlükəsinin yarandığı andan **başa çatmış** hesab edilməlidir.

7. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** təqsirin **qəsd** forması ilə törədilə bilər. Təqsirkar sərhəd xidməti qaydalarını pozduğunu dərk edir, bunun dövlətin təhlükəsizlik mənafelərini təhlükə altına alacağını qabaqcadan görür və bunu arzu edir **(birbaşa qəsd)** və ya bunun baş verməsinə şüurlu surətdə yol verir **(dolayı qəsd).**

8. Bu cinayətin **subyekti** yalnız sərhədin mühafizəsi üzrə sərhəd dəstəsinin tərkibinə daxil olan Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu, habelə sərhəd xidməti üzrə sair vəzifələri yerinə yetirən şəxs ola bilər.

Burada **sərhəd xidməti üzrə sair vəzifələri yerinə yetirən şəxs** dedikdə dəstəsinin tərkibinə daxil olmayan, lakin xidməti vəzifələrinə Dövlət sərhədinin mühafizəsi üzrə ayrı-ayrı işləri icra etmək daxil olan hərbi qulluqçu (məsələn, sərhəd zastavasının komandiri, rabitəçi, sərhəd pozuntuları barədə məlumat verməli olan şəxs və s.) başa düşülür.

9. CM-in 339.2-ci maddəsində sərhəd xidməti qaydalarını pozmanın **ağırlaşdırıcı tərkib əlaməti** — eyni əməllərin dövlətin təhlükəsizlik mənafeyinə zərər vurması və ya sair ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

Burada **dövlətin təhlükəsizlik mənafeyinə zərər vurulması** dedikdə düşmənin qoşun qrupları və dəstələrinin silahlı müdaxiləsi, sərhəddə silahlı və sair münaqişələrin yaranması, sərhəd məntəqələrinə silahlı basqınlar edilməsi və s. başa düşülə bilər.

Sair ağır nəticələrə Dövlət sərhədini qanunsuz keçmə, sərhəd bölgələrində yaşayan vətəndaşların, eləcə də dövlətin mülkiyyətinə ziyan vurulması, partlayıcı, zəhərləyici, radioaktiv, narkotik maddələrin Dövlət sərhədindən keçirilməsi, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin şəxsi heyətində və ya texnikasında tələfatın olması və s. aid edilə bilər.

Bu zaman təqsirkarın dövlətin təhlükəsizlik mənafeyinə zərər vurulmasına və ya sair ağır nəticələrə psixi münasibəti təqsirin **ehtiyatsızlıq** formasında olacaqdır.

10. Sərhəd xidməti qaydalarını pozan şəxs eyni vaxtda hər hansı bir başqa cinayət (məsələn, qaçaqmalçılıq) törətdikdə, əməl cinayətlərin məcmusu qaydasında təhlil edilən maddə və CM-in müvafiq maddəsi üzrə tövsif edilməlidir.

Maddə 340. İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma

340.1. İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə hərbi dəstənin tərkibinə daxil olan şəxs tərəfindən xidmət qaydalarını pozma vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vurduqda —

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

340.2. Eyni əməl ağır nəticələrə səbəb olduqda, habelə müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Daxili qoşunların statusu haqqında Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının daxili qoşunları

ona həvalə olunmuş vəzifələri yerinə yetirməklə şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qoruyur.

2. Şərh olunan cinayətin **bilavasitə obyekti** ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə hərbi xidmətin müəyyən edilmiş qaydalarını təmin edən ictimai münasibətlərdir.

3. Xüsusi olaraq motorlaşdırılmış hərbi hissələrə və bölmələrə, əməliyyat təyinatlı hərbi hissələrə və bölmələrə daxili işlər orqanları ilə birgə şəhərlərdə və digər yaşayış məntəqələrində patrul-post xidməti vasitəsi ilə ictimai asayişin qorunmasını, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin mühafizəsini təmin etmək həvalə edilmişdir.

4. İctimai asayişin və ictimai təhlükəsizliyin mühafizə olunması vəzifəsini bilavasitə qoşun naryadları yerinə yetirirlər. Həmin naryadlar müvafiq komandanlıqlar tərəfindən təyin edilir. Hərbi hissə naryadının heyətində patrul-post xidməti çəkən hərbi qulluqçuların hüquq və vəzifələri, habelə onlar tərəfindən xidmətin çəkilməsi qaydaları «Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu və Daxili qoşunların fəaliyyətini tənzim edən digər normativ hüquqi aktlarla müəyyən edilir. «Daxili qoşunların statusu haqqında» Qanunun 5-ci maddəsinə uyğun olaraq daxili qoşunların hərbi qulluqçuları onlara həvalə edilmiş vəzifələrin icrası zamanı vətəndaşlardan və vəzifəli şəxslərdən ictimai asayişi gözləməyi tələb etmək, cinayətlərin, inzibati hüquq pozuntularının və hərbi qulluqçuların vəzifələrinin icrasına mane olan hərəkətlərin qarşısını almaq və s. hüququna malikdirlər.

5. Şərh olunan cinayət **obyektiv cəhətdən** ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə hərbi dəstənin tərkibinə daxil olan şəxs tərəfindən xidmət qaydalarını pozmada, belə pozuntunun vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vurmasında və həmin hərəkətlərlə nəticələr arasında olan səbəbli əlaqədə ifadə olunur.

6. Patrul-post xidməti çəkmək üçün hərbi hissə naryadının heyətinə daxil olan şəxs tərəfindən üzərinə düşən vəzifələrin (əgər bu zaman bu və ya digər yerdə ictimai asayiş və ya ictimai təhlükəsizlik kobud surətdə pozulmuşdursa və bu, vətəndaşların konstitusiya hüquq və azadlıqlarının tapdalanması ilə müşayiət olunmuşdursa) yerinə yetirilməməsi cinayət hesab olunur. **İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma** hərbi xidmət keçən hərbi qulluqçunun vətəndaşların şərəf və ləyaqətini alçaldan hüquqazidd hərəkətlərində, onları qanunsuz olaraq tutub saxlamasında, yaxud polis orqanlarına təhvil verməsində, fiziki güc tətbiq etməklə və xüsusi vasitələrdən, silahdan istifadə etməklə digər hüquqlarının məhdudlaşdırılmasında və s. ifadə oluna bilər.

7. Vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vurma dedikdə vətəndaşların şərəf və ləyaqətinin alçaldılması, onların qanunsuz olaraq tutulub saxlanması, hər hansı hüquqlardan məhrum edilməsi və ya bu hüquqların məhdudlaşdırılması halları və s. başa düşülür.

8. Bu cinayət **subyektiv cəhətdən** təqsirin **qəsd** formasında törədilir. Subyektin öz hərəkətlərinin ağır nəticələrinə münasibəti (CM-in 340.2-ci maddəsi)

həm qəsdlə, həm də ehtiyatsızlıqla ifadə oluna bilər.

9. Şərh edilən cinayətin **subyekti** ancaq hərbi hissənin ictimai asayişin mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə naryadın heyətinə daxil olan hərbi qulluqçusu ola bilər.

Hazırda ictimai asayişin mühafizəsinə və ictimai təhlükəsizliyin təmin edilməsinə və bu sahə üzrə xidmətin çəkilməsinə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili qoşunlarının hərbi qulluqçuları cəlb olunurlar.

10. Xüsusi motorlaşdırılmış hərbi hissələrin vəzifəli şəxsləri, habelə əməliyyat təyinatlı hərbi hissə və bölmələrin vəzifəli şəxsləri ictimai asayişin mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozmağa görə, CM-in vəzifə cinayətləri haqqında (308-ci, 309-cu və 314-cü maddələri) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

11. Qüvvədə olan qanunvericilikdə Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının ictimai asayişin mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmətdə iştirakı nəzərdə tutulmamışdır.

12. «Müdafiə haqqında» Azərbaycan Respublikası Qanununa görə, Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının başlıca təyinatı «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» 29 dekabr 2017-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə uyğun olaraq Azərbaycan RespublikAsının silahlı müdafiəsi, təcavüzün dəf edilməsi, Azərbaycan Respublikasının Hərbi doktrinasında nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması, habelə Azərbaycan Respublikasının təhlükəsizliyinin və milli maraqlarının təmin edilməsi, konstitusiya quruluşunun, suverenliyinin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, dövlət sərhədinin mühafizəsi, səfərbərlik və hərbi xidmətə çağırış, mülki müdafiənin təşkili, dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması, məhkumların və həbsdə saxlanılan şəxslərin müşayiəti və mühafizəsi üzrə xüsusi vəzifələrin yerinə yetirilməsindən ibarətdir.

13. CM-in 340.2-ci maddəsində bu cinayətin ağır nəticələrə səbəb olması, habelə müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi **ağırlaşdırıcı tərkib əlaməti** kimi nəzərdə tutulmuşdur.

Ağırlaşdırıcı tərkib əlaməti kimi **ağır nəticələr** dedikdə xeyli və ya külli miqdarda əmlak ziyanının vurulması, kütləvi iğtişaşların, talanların baş verməsi ilə əlaqədar yaranan zərər başa düşülür.

Qanunsuz olaraq fiziki güc, xüsusi vasitə və silah tətbiq edilməsi nəticəsində vətəndaşların həyat və sağlamlığına zərər vurma ağır nəticələr kimi qiymətləndirilir. Bu zaman qəsdən öldürmə və ya sağlamlığa ağır zərər vurma CM-in şəxsiyyət əleyhinə olan cinayətlər fəslinin müvafiq maddələri ilə əlavə olaraq tövsif edilməlidir.

Müharibə vaxtı və döyüş şəraitinin anlayışı haqqında CM-in 328-ci maddəsinin qeydinə bax.

Maddə 341. Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə

341.1. Rəisin və ya vəzifəli şəxsin hakimiyyətdən və ya öz qulluq mövqeyindən sui-istifadə etməsi, hakimiyyət həddini və ya qulluq səlahiyyə-

tini aşması, hakimiyyətdən qəsdən istifadə etməməsi, bu əməllər müntəzəm, yaxud tamahkarlıq məqsədilə və ya digər şəxsi marağa görə törədildikdə, habelə bu əməllər əhəmiyyətli zərər vurduqda —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

341.2. Eyni əməllər:

341.2.1. bir qrup şəxs tərəfindən törədildikdə;

341.2.2. silah tətbiq olunmaqla törədildikdə;

341.2.3. ağır nəticələrə səbəb olduqda —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

341.3. Bu Məcəllənin 341.1 və 341.2-ci maddələrində nəzərdə tutulmuş əməllər müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin komandir və hərbi rəis heyəti, eləcə də ordunun və donanmanın digər vəzifəli şəxsləri Azərbaycan dövləti və hökuməti qarşısında qoşunun döyüş hazırlığı və döyüş qabiliyyəti, möhkəm hərbi intizam üçün məsuliyyət daşıyırlar.

Orduya və donanmaya rəhbərlik üzrə vəzifələrin həyata keçirilməsi üçün hərbi vəzifəli şəxslərə geniş səlahiyyətlər verilmişdir. Lakin respublika qanunları və hərbi nizamnamələr verilmiş hüquqlardan və hakimiyyətdən hərbi xidmətin mənafeyi, eləcə də silahlı qüvvələrin möhkəmləndirilməsi naminə istifadə olunmasını tələb edir.

2. Hərbi vəzifə cinayətləri yüksək ictimai təhlükəliliyə malik olan əməllərdir. Bu əməllər orduda və donanmada mövcud olan hüquq qaydasına ciddi zərər vurur, hərbi intizamı zəiflədir, şəxsi heyətin döyüş hazırlığını və döyüş qabiliyyətini pozur, habelə dövlətə maddi zərər vurur.

3. Şərh edilən cinayətin **obyekti** hərbi idarəetmə orqanlarının Azərbaycan Respublikası Silahlı Qüvvələrinin möhkəmləndirilməsinə yönəlmiş normal fəaliyyətidir. Hərbi vəzifəli şəxsin xidmət üzrə qaydalar əleyhinə yönələn, lakin hərbi idarəetmə aparatının normal fəaliyyətinə qəsd etməyən hərəkəti CM-in 341-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaratmır.

4. Bu cinayət **obyektiv cəhətdən** rəisin və ya vəzifəli şəxsin hakimiyyətdən və ya öz qulluq mövqeyindən sui-istifadə etməsində, hakimiyyət həddini və ya qulluq səlahiyyətini aşmasında, hakimiyyətdən qəsdən istifadə etməməsində, bu əməllərin müntəzəm, tamah və ya sair şəxsi marağa görə törədilməsində, habelə əhəmiyyətli zərər vurulmasında və səbəbli əlaqədə ifadə olunur.

Hərbi vəzifəli şəxsin qulluq mövqeyindən sui-istifadə ilə əlaqədar olmayan ictimai təhlükəli hərəkət və ya hərəkətsizliyi hərbi vəzifə cinayəti kimi qiymətləndirilə bilməz.

Hərbi vəzifə cinayətlərinin xüsusiyyəti ondan ibarətdir ki, onların törədilməsi zamanı təhlükəli nəticələr zərərçəkmiş şəxsə bilavasitə zərər vurulması ilə deyil, qanunsuz əmr verilməsi yolu ilə meydana çıxır. Qəsdən belə əmr vermiş hərbi vəzifəli şəxs qanunsuz əmrin icrasından irəli gələn nəticələrə görə cinayət məsuliyyəti daşımalıdır.

5. Hərbi vəzifəli şəxsin düzgün olmayan hərəkətləri ilə meydana çıxmış zərərli nəticələr arasında səbəbli əlaqənin olması zəruridir. Hərbi vəzifə cinayətlərində bu əlaqə təkcə bilavasitə deyil, digər şəxsin hərəkəti vasitəsilə də mövcud ola bilər. Məsələn, rəis tabeliyində olan hərbi qulluqçuya (bu sahədə təcrübəsi və ya hərbi vərdişi olmayan şəxsə) qiymətli qurğunu yoxlamağı əmr edir və nəticədə qurğu yararsız vəziyyətə düşür. Belə halda zərərin bilavasitə rəis deyil, onun tabeliyində olan şəxs tərəfindən vurulmasına baxmayaraq, o, öz qulluq vəzifələrini lazımi qaydada yerinə yetirmədiyinə (səhlənkarlığa) görə məsuliyyət daşımalıdır.

6. **Hakimiyyətdən və ya qulluq mövqeyindən sui-istifadə etmə** dedikdə rəis və ya vəzifəli şəxsin öz qulluq mövqeyindən hərbi xidmətin mənafeyi zərərinə qəsdən istifadə etməsi başa düşülür.

7. **Hakimiyyət həddini aşma** rəisin və ya vəzifəli şəxsin öz hüquq və səlahiyyətləri çərçivəsindən aşkar surətdə kənara çıxan və qəsdən edilən hərəkətlərində ifadə olunur.

Hakimiyyət həddini aşmada şəxsin təqsiri haqqında məsələ həll edilərkən həmin şəxsin səlahiyyət dairəsinin müəyyən edilməsi vacibdir. Hərbi vəzifəli şəxsin hüquq və səlahiyyətləri qanunlarla, hərbi nizamnamələrlə, təlimatlarla və komandanlığın əmrləri ilə dürüst şəkildə müəyyən edilir.

8. **Hakimiyyətdən istifadə etməmə** dedikdə rəisin hərbi xidmət üzrə vəzifələri yerinə yetirməli olduğu halda, onları qəsdən, bilə-bilə yerinə yetirməməsi başa düşülür.

Tabelikdə olan hərbi qulluqçu barəsində nizamnamədənkənar hərəkətlərin qarşısının alınması üçün rəis tərəfindən tədbir görülməməsi də hakimiyyətdən istifadə etməmə kimi qiymətləndirilir.

Hakimiyyətdən istifadə etməmə qəsdən törədilən əməl olduğuna görə o, səhlənkarlıqdan fərqlənir. Buna görə də qarşısı alınmalı halların rəisin səlahiyyət dairəsinə daxil olub-olmamasının aydınlaşdırılması hər bir halda zəruridir.

9. Şərh edilən cinayət **subyektiv cəhətdən qəsdən** törədilir.

Təqsirkarın baş vermiş nəticələrə psixi münasibəti həm qəsd, həm də ehtiyatsızlıq formasında ifadə oluna bilər. Şərh edilən cinayətin törədilməsi zamanı istər hərəkətlərə, istərsə də nəticələrə münasibətdə təqsirin formalarının üst-üstə düşməsi hallarına tez-tez təsadüf olunur. Belə ki, təqsir həm birbaşa, həm də dolayı formada təzahür edir.

10. Nəzərdən keçirilən **cinayətin müntəzəm törədilməsi** dedikdə onun üç dəfə və artıq edilməsi başa düşülür. Müntəzəmlik əlaməti səhlənkarlıq kimi hərbi vəzifə cinayətinin tərkibi üçün daha səciyyəvidir.

11. **Tamahkarlıq məqsədi** dedikdə hərbi vəzifəli şəxsin maddi mənfəət əldə etmək niyyəti nəzərdə tutulur.

12. **Digər şəxsi maraq** dedikdə əməlin, hərbi xidmətin mənafeyinə zidd olan və onunla bir araya sığmayan motivi başa düşülür. Öz fəaliyyətsizliyini ört-basdır etmək cəhdini, əvəzi ödəməkdən boyun qaçırmağı, başqasına xidmət göstərməyi və ya şəxsi münasibətlər zəminində intiqam almaq istəyini belə motivlərə misal göstərmək olar.

13. **Əhəmiyyətli zərər** öz xarakterinə və miqdarına görə xeyli dərəcədə vurulan zərərdən ibarətdir. O, hərbi hissəyə, mülki obyektə, ayrı-ayrı hərbi qulluqçulara və digər şəxslərə vurula bilər. Bu zaman əməlin başa çatmış cinayət hesab olunması üçün zərərin faktiki olaraq vurulması mövcud olmalıdır.

14. CM-in 341.2-ci maddəsində bu cinayətin: a) bir qrup şəxs tərəfindən; b) silah tətbiq olunmaqla; c) ağır nəticələrə səbəb olmaqla törədilməsi qismində **ağırlaşdırıcı tərkib əlamətləri** nəzərdə tutulmuşdur.

15. Bir qrup şəxsin anlayışı haqqında CM-in 34-cü maddəsinin şərhinə bax.

16. CM-in 341.2.2-ci maddəsində eyni əməlin **silah tətbiq etməklə törədilməsi** dedikdə zərərçəkmiş şəxsə psixi və ya fiziki təsir göstərmək üçün silahdan istifadə olunması başa düşülür. Bu zaman silahın köməyi ilə sağlamlığa zərər vurulması, habelə öldürməklə hədələmə, yaxud sağlamlığa bilavasitə zərərin vurulması nəzərə alınmalıdır.

17. CM-in 341.2.3-cü maddəsində nəzərdə tutulmuş **ağır nəticələr** dedikdə: a) hərbi intizamın, hərbi hissənin və bölmənin döyüş hazırlığının ən ciddi formada pozulması; b) fəlakət və ya qəza baş verməsi; c) döyüş texnikasının məhv edilməsi və ya zədələnməsi; ç) böyük maddi zərər vurulması; d) şəxsiyyətin sağlamlığına ən təhlükəli formada zərər vurulması və s. başa düşülür.

18. Bu cinayətin **subyekti** hərbi rəis və ya digər hərbi vəzifəli şəxs ola bilər.

Hərbi vəzifəli şəxslərin siyahısı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində, İntizam Nizamnaməsində, Qarnizon və Qarovul Xidməti Nizamnaməsində və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuşdur.

19. Bütün hərbi rəislər hərbi vəzifəli şəxslər hesab olunurlar. Lakin rəis olmayan, müəyyən hərbi vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar olaraq daimi və ya müvəqqəti vəzifə tutan digər hərbi qulluqçular da hərbi vəzifəli şəxslərə aid edilir.

Hərbi hissə qərargahının kargüzarı, hərbi anbarın anbardarı, sanitar təlimatçısı, bölmə katibi və s. hərbi vəzifəli şəxslər hesab olunurlar. Xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrini yerinə yetirən şəxslər də hərbi vəzifəli şəxslər kateqoriyasına daxildirlər.

Hərbi qulluqçu tərəfindən təşkilati-sərəncamverici və inzibati-təsərrüfat vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar olmayan hərbi xidmət xarakterli xüsusi tapşırıqların yerinə yetirilməsi belə hərbi qulluqçuya hərbi vəzifəli şəxs qismində baxmağa əsas ola bilməz.

20. Hərbi vəzifə cinayətlərinin **icraçıları** yalnız rəislər və digər hərbi vəzifəli şəxslər, iştirakçıları isə həm də sair şəxslər ola bilər. Lakin rəislə birgə törədilən hər cür cinayət sair şəxsin, məsələn, tabelikdə olan hərbi qulluqçunun hərbi vəzifə cinayətində köməkçiliyə görə məsuliyyətə cəlb edilməsinə səbəb ola bilməz. Əgər faktiki şərait tabelikdə olan hərbi qulluqçunun qəsdinin vəzifə cinayəti törədən rəisə kömək etməyə yönəlmədiyini (rəislə birgə hərəkət etməsinə baxmayaraq) sübut edərsə, tabelikdə olanın əməli hərbi vəzifə cinayətində köməkçilik kimi tövsif edilə bilməz.

Digər tərəfdən, əgər rəis tabelikdə olan hərbi qulluqçu ilə birgə qeyri-vəzifə

hərbi xidmət əleyhinə olan cinayət əməlini törədərsə, belə hala hakimiyyətdən və ya qulluq mövqeyindən sui-istifadə etmə kimi baxıla bilməz. Lakin bu zaman cinayətin təşkili və tabelikdə olan şəxsin buna cəlb edilməsi üçün rəisin öz qulluq mövqeyindən istifadə edib-etməməsinin müəyyən edilməsi zəruridir.

21. Qarovul xidməti, daxili və ya sair xüsusi xidmət çəkmə zamanı rəisin hüquqlarına malik olan (qarovul üzrə növbətçi, qarovul rəisi, hərbi hissə və ya rota üzrə növbətçi) hərbi qulluqçular CM-in 341-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ola bilər. Lakin şərh edilən maddə ilə onlar yalnız o vaxt məsuliyyət daşıya bilərlər ki, xüsusi xidmət çəkmə zamanı onların törətdikləri cinayət xüsusi xidmət çəkmə üzrə vəzifə həddini aşmaları ümumi vəzifə öhdəliklərinin pozuntusu kimi meydana çıxsın.

22. CM-in 341.3-cü maddəsində bu cinayətin (CM-in 341.1-ci və 341.2-ci maddələri) müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi **ağırlaşdırıcı tərkib əlaməti** qismində nəzərdə tutulmuşdur.

Müharibə vaxtı və döyüş şəraitinin anlayışı haqqında CM-in 328-ci maddəsinin qeydinə bax.

Maddə 342. Qulluğa səhlənkar yanaşma

342.1. Rəisin və ya vəzifəli şəxsin öz xidməti borcuna səhlənkar yanaşması əhəmiyyətli zərər vurduqda —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

342.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda, habelə müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Qulluğa səhlənkar yanaşma rəisin və ya hərbi vəzifəli şəxsin öz üzərinə düşən hərbi xidmət vəzifələrini diqqətsizlik nəticəsində yerinə yetirməməsindən, yaxud həmin vəzifələri natamam (qeyri-qənaətbəxş) şəkildə yerinə yetirməsindən ibarətdir.

2. Bu cinayətin **obyekti** rəisə və ya hərbi vəzifəli şəxsə həvalə olunmuş hüquq və vəzifələrin həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

3. Şərh edilən cinayət **obyektiv cəhətdən** rəisin və ya hərbi vəzifəli şəxsin öz üzərinə düşən hərbi xidmət vəzifələrini yerinə yetirməməsində və ya natamam şəkildə yerinə yetirməsində, hərbi idarəçilik orqanlarının normal fəaliyyətinə, hərbi xidmətin mənafeyinə, yaxud hərbi qulluqçuların və digər şəxslərin qanunla qorunan hüquq və mənafelərinə əhəmiyyətli zərər (CM-in 342.1-ci maddəsi) vurmasında, habelə ağır nəticələrin (CM-in 342.1-ci maddəsi) meydana çıxmasında ifadə olunur. Təqsirkarın hərəkət və ya hərəkətsizliyi ilə meydana çıxmış zərərli nəticələr arasında səbəbli əlaqənin mövcud olması obyektiv cəhətin zəruri əlamətidir.

4. Qulluğa səhlənkar yanaşma zamanı rəis və ya hərbi vəzifəli şəxs öz xidmət vəzifələrinə diqqətsiz, yaxud vicdansızcasına münasibət bəsləyir. Bu, rəisin və ya hərbi vəzifəli şəxsin səlahiyyət dairəsinə daxil olan hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməməsində, yaxud qeyri-qənaətbəxş şəkildə yerinə ye-

tirilməsində təzahür edir.

5. **Hərbi vəzifə öhdəliklərinin yerinə yetirilməməsi** formasında törədilən səhlənkarlığa görə cinayət məsuliyyətinə cəlb etmə zamanı təqsirə şamil olunan hərəkətlərin edilməsinin təqsirkarın vəzifəsi olduğunu müəyyən etmək zəruridir. Qulluğa səhlənkar yanaşmanın bu forması, adətən, silahla, döyüş sursatları və döyüş texnikası ilə təlim və ya xüsusi məşğələlərin aparılması gedişində rəis (vəzifəli şəxs) tərəfindən təhlükəsizlik tədbirlərinin görülməməsində təzahür edir.

Hərbi xidmət üzrə vəzifələrin qeyri-qənaətbəxş yerinə yetirilməsi dedikdə bu vəzifələrin formal, lazımi diqqət və səy, zəruri fəallıq və kifayət qədər təşəbbüskarlıq göstərilmədən yerinə yetirilməsi nəzərdə tutulur. Qulluğa səhlənkar yanaşmanın bu forması rəisin və ya hərbi vəzifəli şəxsin ona etibar edilmiş hərbi əmlaka diqqətsiz yanaşmasında və bunun nəticəsi olaraq həmin əmlakın məhv olmasında və ya zədələnməsində, maddi sərvətlərin uçotunun düzgün aparılmamasında və ya onların saxlanmasının yaxşı təşkil edilməməsində, habelə komandanlığın tapşırığının yerinə yetirilməsinin pozulmasında ifadə oluna bilər.

6. Bu cinayət əməli haqqındakı hər bir konkret iş üzrə təqsirkar şəxs tərəfindən məhz hansı hərbi vəzifənin yerinə yetirilməməsinin və ya qeyri-qənaətbəxş şəkildə yerinə yetirilməsinin, həmin vəzifələrin onun səlahiyyət dairəsinə daxil olub-olmamasının müəyyən edilməsi zəruridir.

7. Rəis və ya hərbi vəzifəli şəxs qulluğa səhlənkar yanaşmağa görə məsuliyyətə yalnız o zaman cəlb edilə bilər ki, o öz vəzifə borcundan irəli gələn bu və ya digər hərbi vəzifəni lazım olan qaydada yerinə yetirmək üçün real imkana malik olsun. Rəisin və ya hərbi vəzifəli şəxsin öz vəzifə borcunu yerinə yetirmək üçün faktiki imkana malik olmaması qulluğa səhlənkar yanaşmağa görə cinayət məsuliyyətini istisna edir. Bu zaman həm obyektiv, həm də subyektiv amilləri nəzərə almaq lazımdır. Rəisin və ya vəzifəli şəxsin öz hərbi xidmət vəzifələrini yerinə yetirdiyi şərait, yuxarı hərbi vəzifəli şəxslərin hərəkətləri, habelə təqsirkarın şəxsiyyətini xarakterizə edən məlumatlar, onun ixtisası və peşə hazırlığı, tutduğu vəzifədə iş stajı, təcrübəsi və hər bir konkret iş üzrə sair hallar həmin amillərə aid edilir.

8. Şəxsiyyətin həyat və sağlamlığına zərər vurma da səhlənkarlığın nəticəsi kimi meydana çıxa bilər. Qulluğa səhlənkar yanaşma nəticəsində sağlamlığa zərər vurma bu maddənin (CM-in 342.2-ci maddəsi) əlamətləri ilə əhatə olunur və əlavə tövsifə ehtiyac qalmır.

9. **Əhəmiyyətli zərərin** anlayışı haqqında CM-in 341-ci maddəsinin şərhinə bax.

10. CM-in 342.2-ci maddəsində bu cinayətin ağır nəticələrə səbəb olması, yaxud müharibə vaxtı və ya döyüş şəraitində törədilməsi **ağırlaşdırıcı tərkib əlamətləri** qismində nəzərdə tutulmuşdur.

11. **Ağır nəticələrin** anlayışı haqqında CM-in 341-ci maddəsinin şərhinə bax.

12. Müharibə vaxtı və ya döyüş şəraitinin anlayışı haqqında CM-in 328-ci maddəsinin şərhinə bax.

13. Şərh edilən cinayət **subyektiv cəhətdən ehtiyatsızlıqdan** törədilir.

Ehtiyatsızlıq həm cinayətkarcasına diqqətsizlik, həm də cinayətkarcasına özünəgüvənmə formasında ifadə oluna bilər.

14. Rəisin və ya vəzifəli şəxsin öz tabeliyində olan hərbi qulluqçu ilə talama və ya sair cinayətin törədilməsinə, yaxud onun gizlədilməsinə obyektiv şərait yaratmış cinayətkarcasına səhlənkarlığı cinayətdə iştirakçılıq kimi deyil, 342-ci maddə ilə qulluğa səhlənkar yanaşma kimi tövsif edilməlidir.

15. Qulluğa səhlənkar yanaşmanı CM-in 341-ci maddəsində nəzərdə tutulmuş cinayətdən fərqləndirmək lazımdır.

Rəis və ya hərbi vəzifəli şəxs CM-in 350-ci maddəsi ilə məsuliyyətə yalnız o vaxt cəlb edilə bilər ki, silahla, habelə ətrafdakılar üçün yüksək təhlükə mənbəyi olan əşyalarla davranış qaydalarını pozmuş olsun və həmin maddədə göstərilən nəticələr meydana çıxsın.

Əgər bu nəticələr rəisin və ya hərbi vəzifəli şəxsin öz xidməti vəzifələrini yerinə yetirməməsi və ya qeyri-qənaətbəxş yerinə yetirməsi nəticəsində meydana çıxarsa, hərbi vəzifə cinayətlərinin əlamətləri mövcud olduğuna görə, əməl CM-in 342-ci maddəsi ilə tövsif edilməlidir. Bu zaman göstərilən hərbi vəzifələrin rəisin və ya vəzifəli şəxsin səlahiyyət dairəsinə daxil olub-olmaması haqqında məsələnin həlli zəruridir.

Maddə 343. Müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə

Rəisin, döyüş şəraiti tələb etmədiyi halda döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri düşmənə kömək etmək məqsədi olmadan döyüş meydanında qoyub getməsi —

üç ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **obyekti** hərbi qüvvələrin və vasitələrin döyüş şəraitində idarə edilməsinin müəyyən edilmiş qaydalarıdır.

Döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri düşmən üçün qoyub getmə döyüş əməliyyatları aparan hərbi hissə və bölmələrin döyüş qabiliyyətini zəiflədir, düşmənin mövqeyini möhkəmləndirir, şəxsi heyətin hərbi intizamına və siyasi-əxlaqi səviyyəsinə mənfi təsir göstərir.

2. **Döyüş texnikasına** hərbi əməliyyatların aparılması üçün lazım olan texniki vasitələr — silahlar, raket qurğuları, döyüş maşınları, hərbi gəmilər və s. aid edilir.

Raketlər, döyüş sursatları, radiotexniki vasitələr, səyyar mexanizmlər, özüyeriyən qurğular və digər vasitələr müharibə aparmaq üçün lazım olan **başqa vasitələrə** aid edilir.

3. Bu cinayət **obyektiv cəhətdən** döyüş texnikasını, yaxud müharibə aparmaq üçün başqa vasitələri döyüş meydanında qoyub getmədə ifadə olunur.

4. Şərh olunan cinayət döyüş texnikasının və müharibə aparmaq üçün başqa vasitələrin döyüş meydanında nəzarətsiz buraxıldığı andan **başa çatmış** hesab olunur.

5. Döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri döyüş meydanında qoyub getmə, geri çəkilmə və ya yerdəyişmə zamanı silahları, raket qurğularını, döyüş sursatlarını, döyüş maşınlarını, nəqliyyat vasitələrini və digər vasitələri düşmənin əlinə keçə biləcək, yaxud başqa formada itirilə bilə-

cək şəraitdə qoyub getmədə təzahür edir.

Hərbi rəislər CM-in 343-cü maddəsi ilə o halda cinayət məsuliyyəti daşıyırlar ki, onlar döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri döyüş meydanında döyüş şəraiti tələb etmədiyi halda qoyub getmiş olsunlar. **Döyüş şəraitinin tələb etmədiyi hallar** dedikdə elə hallar başa düşülür ki, rəis özünün və tabeliyində olan digər hərbi qulluqçuların həyatı üçün, yaxud başqa ağır nəticələr baş verməsi ilə əlaqədar real təhlükə olmadan döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri əldə saxlamaq və ya çıxarıb aparmaq üçün imkana malikdir, lakin onları döyüş meydanında qoyub gedir.

CM-in 343-cü maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün müharibə aparma vasitələri döyüş meydanında (cinayətin törədilmə yeri) qoyulmalıdır. **Döyüş meydanı** dedikdə hərbi hissənin və ya bölmənin hücumda və ya müdafiədə olmasından asılı olmayaraq düşmənlə döyüş əməliyyatlarının aparıldığı ərazi (rayon, şəhər, kənd, küçə və s.) başa düşülür. Döyüşün aparıldığı hava fəzası, su sahəsi də döyüş meydanı hesab edilir.

6. Şərh edilən cinayət **subyektiv cəhətdən qəsdən** törədilə bilər.

Təqsirkar (rəis) müharibə aparma vasitələrini düşmən üçün döyüş meydanında qoyub getdiyini dərk edir və bunu arzu edir, yaxud buna şüurlu surətdə yol verir. Ehtiyatsızlıqdan bu cinayət törədildikdə, təqsirkar CM-in 343-cü maddəsində göstərilən əməllərinin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görür, lakin onların qarşısını alacağını kifayət qədər əsas olmadan güman edir, yaxud belə nəticələrin baş verməsi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək görməli və görə bilməli olduğu halda, onları görmür.

Rəisin cinayət məsuliyyəti o halda yaranır ki, o, müharibə aparma vasitələrini düşmənə kömək etmək məqsədi olmadan döyüş meydanında qoyub getsin. Döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri düşmənə kömək etmək məqsədi ilə döyüş meydanında qoyub getmənin müəyyən edildiyi hallarda təqsirkarın hərəkətləri dövlətə xəyanət cinayətinin tərkibini yaradır.

7. Bütün dərəcələrdən olan komandirlər (rəislər) bu cinayətin **subyekti** ola bilər.

8. Müharibə aparma vasitələrinə aid olmayan əmlakın etibar edildiyi rəislər CM-in 343-cü maddəsində nəzərdə tutulmuş cinayətə görə məsuliyyətə cəlb edilə bilməzlər. Belə əmlakı döyüş meydanında qoyub getmə qulluğa səhlənkar yanaşma, hakimiyyətdən istifadə etməmə cinayətlərinin tərkibini yarada bilər. Bu zaman həmin əmlakın düşmənə kömək etmək məqsədi ilə döyüş meydanında qoyulub-qoyulmamasının aydınlaşdırılması vacibdir.

Maddə 344. Batmaqda olan hərbi gəmini tərk etmə

344.1. Batmaqda olan hərbi gəmini öz xidməti vəzifələrini axıradək yerinə yetirməyən komandirin, habelə komandirin müvafiq sərəncamı olmadan gəminin komanda heyətinə daxil olan şəxsin tərk etməsi —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

344.2. Eyni əməl müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **obyektini** batmaq təhlükəsi altında olan hərbi gəmidə xidmət çəkmənin müəyyən edilmiş qaydası təşkil edir.

Gəmi komandirinin və ya gəminin komanda heyətinə daxil olan şəxsin tərətdiyi bu cinayət hərbi gəmidə onun təhlükəsizliyini təmin edən hərbi xidmət çəkmənin müəyyən edilmiş qaydasına qəsd edir.

2. Bu cinayət **obyektiv cəhətdən** öz xidməti vəzifələrini axıradək yerinə yetirməyən komandirin, yaxud komandirin müvafiq sərəncamı olmadan gəminin komanda heyətinə daxil olan şəxsin batmaqda olan hərbi gəmini tərk etməsində ifadə olunur.

Döyüş şəraiti və ya qəza vəziyyəti ilə əlaqədar olaraq gəminin batması təhlükəsinin mövcud olması şərh edilən cinayətin zəruri əlamətidir. Batmaqda olan hərbi gəminin xilası üçün lazım olan tədbirlərin buna imkanı olduğu halda heç birini, yaxud müəyyən hissəsini görməyən komandir öz vəzifələrini axıradək yerinə yetirməmiş hesab olunur. Batmaqda olan gəmidən, ilk növbədə, xəstələr, yaralılar, qadınlar və uşaqlar çıxarılmalıdır. Xilas etmə imkanının obyektiv səbəblərə görə mümkün olmadığı hallarda nəzərdən keçirilən cinayətə görə məsuliyyət istisna olunur. Bu, gəminin komandirinin müvafiq sərəncamı olmadan gəmini tərk etmiş komanda heyətindən olan şəxsə də aiddir. Gəmini tərk etmiş şəxsin belə icazəni almaq imkanının olub-olmamasının aydınlaşdırılması vacibdir. Şəraitdən asılı olaraq, komandirsiz qalan heyət gəminin xilası üçün tədbir görmək iqtidarında olmaya bilər. Belə halda gəmini müvafiq sərəncam olmadan tərk etmə törədilən cinayətin tərkibini yaratmır.

3. Şərh olunan cinayət batmaqda olan hərbi gəminin komandirinin və ya komanda heyətinə daxil olan şəxsin gəmini tərk etdiyi andan **başa çatmış** hesab olunur.

4. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilə bilər. Təqsirkar (gəminin komandiri) öz xidməti vəzifələrini axıradək yerinə yetirmədiyini, yaxud komandirin müvafiq sərəncamı olmadan gəmini tərk etdiyini (gəminin komanda heyətinə daxil olan şəxs) dərk edir və bunu arzu edir.

5. Şərh edilən cinayətin **subyekti** gəminin komandiri və komanda heyətinə daxil olan şəxs ola bilər. Sair şəxslər (sərnişinlər, gəmidə aparılan hərbi bölmənin şəxsi heyəti) nəzərdən keçirilən cinayətin subyekti ola bilməzlər.

6. Müharibə vaxtı və ya döyüş şəraiti anlayışı haqqında CM-in 327-ci maddəsinin şərhinə bax.

Maddə 345. Döyüş meydanını özbaşına tərk etmə və ya silah işlətməkdən boyun qaçırma

345.1. Döyüş zamanı döyüş meydanını özbaşına tərk etmə və ya döyüş vaxtı silah işlətməkdən boyun qaçırma —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

345.2. Eyni əməllər bir qrup şəxs tərəfindən törədildikdə və ya ağır nə-

ticələrə səbəb olduqda —

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Bu cinayət hərbi xidmət əleyhinə olan ən təhlükəli cinayətlərdən biri hesab olunur. Döyüş meydanını tərk etmək, yaxud düşmənə qarşı silah işlətməkdən imtina etmək hərbi xidmət çəkmə qaydalarına zərbə vurur, döyüş ruhunu aşağı salır, düşmənə təslim olmaq üçün şərait yaradır.

2. Şərh edilən cinayətin **obyektini** döyüş şəraitində hərbi xidmət çəkmə qaydaları təşkil edir.

3. Bu cinayət **obyektiv cəhətdən** döyüş zamanı döyüş meydanını özbaşına tərk etmədə və ya düşmənə qarşı silah işlətməkdən boyun qaçırmada ifadə olunur.

Döyüş meydanı dedikdə döyüş əməliyyatlarının aparıldığı ərazi başa düşülür.

Düşmənlə hər hansı silahlı toqquşma **döyüş** hesab olunur.

4. Nəzərdən keçirilən maddədə **silah** dedikdə hərbi qulluqçunun ştatlı, döyüş üçün yararlı olan silahı başa düşülür.

5. **Döyüş meydanını özbaşına tərk etmə** hərbi qulluqçunun bölmənin, rotanın tutduğu döyüş mövqeyindən komandirin icazəsi olmadan və döyüş şəraitinin tələb etmədiyi hallarda getməsindən ibarətdir. Döyüşün olmadığı şəraitdə tutulmuş mövqeyi tərk etmə cinayət hesab olunmur. Döyüş meydanını hər cür deyil, yalnız özbaşına tərk etmə cinayət kimi qiymətləndirilə bilər.

6. **Silah işlətməkdən boyun qaçırma** döyüş zamanı silahı tətbiq etmədən imtinada ifadə olunur.

Hərbi qulluqçu düşmənin canlı qüvvəsini məhv etməyə qadir olan bütün döyüş vasitələrindən istifadə etməlidir. Ona görə də hətta döyüş sursatlarının olmadığı, əlbəyaxa döyüşün getdiyi zaman da silah işlətməkdən boyun qaçırmaq olmaz. Silah işlətməkdən boyun qaçırma hərbi qulluqçunun silahı tətbiq etmək imkanının olduğu halda bundan imtina etdiyi vaxt cinayət tərkibi yaradır. Belə imkanın olmaması cinayət tərkibini istisna edir.

7. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** birbaşa qəsdlə törədilir. Təqsirkar döyüş zamanı döyüş meydanını özbaşına tərk etdiyini və ya döyüş vaxtı silah işlətməkdən boyun qaçırdığını dərk edir və bunu arzu edir. Şərh edilən maddədə subyektiv cəhətin hər hansı bir əlaməti (xüsusi əlaməti) göstərilməmişdir. Lakin cəza təyini zamanı cinayətin motivi və məqsədi nəzərə alınmalıdır. Bu cinayət düşmənə kömək etmək məqsədi ilə törədildikdə, əməl dövlətə xəyanət cinayətinin tərkibini yaradır.

8. Qulluq mövqeyindən və hərbi rütbəsindən asılı olmayaraq, döyüş əməliyyatları aparan bölmənin şəxsi heyətinə daxil olan hər bir hərbi qulluqçu bu cinayətin subyekti ola bilər.

9. CM-in 345.2-ci maddəsində şərh olunan cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində eyni əməllərin **bir qrup şəxs** tərəfindən törədilməsi və ya ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

10. Bir qrup şəxsin anlayışı (CM-in 345-ci maddəsinin 2-ci hissəsi) haqqında CM-in 34-cü maddəsinin şərhinə bax. Şərh edilən maddədə **ağır nəticələr**

dedikdə insanların həlakı, hərbi texnikanın sıradan çıxarılması, habelə döyüş tapşırığının yerinə yetirilməsinin pozulması başa düşülür.

Maddə 346. Əsirlikdə olan hərbi qulluqçunun cinayətkar hərəkətləri

346.1. Əsirlikdə olan hərbi qulluqçunun başqa hərbi əsirlərə qarşı zorakılıq etməsi və ya onlarla amansızcasına rəftar etməsi —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

346.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda —

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **obyektini** əsirlikdə olan hərbi qulluqçunun başqa hərbi qulluqçularla rəftar etmə (davranış) qaydaları təşkil edir. Həmin qaydalar «Hərbi əsirlərlə rəftar etmə haqqında» 1949-cu il Cenevrə Konvensiyasında nəzərdə tutulmuşdur. Həmin Konvensiyaya uyğun olaraq əsir alınmış hərbi qulluqçular ayrı-ayrı şəxslərin və hərbi hissələrin deyil, düşmən dövlətin hakimiyyəti altında olurlar. Onlarla həmişə insanpərvərliklə davranılmalıdır. Heç bir hərbi əsir fiziki işgəncələrə, yaxud elmi və ya tibbi eksperimentlərə və sair təhqirlərə məruz qala bilməz.

Hərbi əsirlərin sağlamlığı, şərəf və ləyaqəti də bu cinayətin **əlavə** obyektidir.

2. Bu cinayət **obyektiv cəhətdən** hərbi əsirlər üzərində zorakılıq göstərmədə və ya onlarla amansızcasına rəftar etmədə ifadə olunur.

Zorakılıq dedikdə hərbi əsirlərə qarşı edilən hər cür fiziki (döymə, əzab vermə, sağlamlığa zərər vurma və s.) və psixi (öldürməklə, sağlamlığa zərər vurmaqla hədələmə və s.) təsir başa düşülür.

Amansızcasına rəftar etmə dedikdə zərərçəkmiş şəxsi yeməkdən, sudan, istirahətdən məhrumetmə ilə, onun şəxsiyyətini ələ salmaqla və s. yolla ona təsir göstərmə başa düşülür. **Amansızcasına rəftar etmə** həm hərəkətdə, həm də hərəkətsizlikdə ifadə oluna bilər.

3. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar əsirlikdə olan başqa hərbi əsirlərə qarşı zorakılıq etdiyini və ya onlarla amansızcasına rəftar etdiyini dərk edir və bunu arzu edir. Məqsəd bu cinayət tərkibinin zəruri əlaməti sayılmır. Düşmən tərəfin etimadını qazanmaq və onun mükafatına layiq görülmək, yaxud özü üçün rahat şərait yaratmağa nail olmaq və s. bu əməlin məqsədlərini təşkil edir. Əməlin şəxsi motivlərlə törədilməsi şərh edilən cinayətin tərkibini yaratmır.

4. CM-in 346.2-ci maddəsində bu cinayətin **ağırlaşdırıcı tərkib əlamətləri** qismində əməlin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması nəzərdə tutulur.

5. **Digər ağır nəticələr** dedikdə zərərçəkmiş şəxsin sağlamlığına zərər vurma (ağır bədən xəsarətləri yetirmə) nəzərdə tutulur.

6. Bu cinayətin **subyekti** yalnız hərbi əsirlikdə olan hərbi qulluqçu ola bilər.

Maddə 347. Hərbi əmlakı itirmə

Hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozma hərbi əmlakın itirilməsinə səbəb olduqda —

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Şərh olunan cinayətin **bilavasitə obyekti** hərbi əmlakın mühafizəsinin müəyyən edilmiş qaydalarıdır.

2. Silahlar, döyüş sursatlan, nəqliyyat vasitələri, texniki təchizat əşyaları və sair hərbi əmlak bu cinayətin **predmeti** hesab olunur.

Texniki təchizat əşyaları və ya sair hərbi əmlak dedikdə qoşunun silah cəbbəxanasına daxil olan və döyüş əməliyyatlarının aparılması, yaxud təmin edilməsi vasitələrinə aid edilən müxtəlif hərbi texniki vasitələr başa düşülür. Hərbi əməliyyatların aparılması və ya təmin olunması ilə birbaşa əlaqəsi olmayan texniki vasitələri, məsələn, tibbi texnikanı, səhra mətbəxlərini və çörək bişirmənin texniki qurğularını hərbi texnika predmetlərinə aid etmək olmaz.

3. Şərh edilən cinayət xidməti istifadə üçün verilmiş hərbi əmlakın itirilməsinə səbəb olan onların mühafizəsi qaydalarını pozmada ifadə olunur.

4. **İtirmə** dedikdə xidməti istifadə üçün etibar edilmiş göstərilən predmetlərin hərbi qulluqçunun nəzarətindən çıxması başa düşülür. İtirmə, məsələn, göstərilən predmetlərin kiminsə tərəfindən oğurlanması, məhv edilməsi və ya təyinatı üzrə istifadə üçün bərpası mümkün olmayan dərəcədə zədələnməsi, yaxud xarab edilməsi kimi hərəkətlərdə ifadə olunur. Hərbi əmlakın məhv edilməsinin və ya zədələnməsinin səbəbi hərbi qulluqçunun əlverişsiz hava şəraitinin təsiri altındakı hərəkəti də ola bilər.

5. İtirmə silahların, döyüş sursatlarının və ya hərbi texnikanın saxlanmasının müəyyən edilmiş qaydalarının hərbi qulluqçu tərəfindən pozulmasının nəticəsi olmalıdır. Pozuntu hərbi əmlakı nəzarətsiz saxlamada, əlverişsiz hava şəraitində onu lazımi qaydada mühafizə etməmədə (yağışın, qarın altında saxlamada), həmin predmetlərlə diqqətsiz davranmada ifadə oluna bilər.

6. Şərh edilən cinayət **dolayı qəsdlə** törədilir. Təqsirkar hərbi əmlakın mühafizəsi qaydalarını pozduğunu, bunun hərbi əmlakın itirilməsinə gətirib çıxaracağını qabaqcadan görür, bunları arzu etmir, lakin buna şüurlu surətdə yol verir. Birbaşa qəsd müəyyən edildikdə, təqsirkarın əməli hərbi əmlakı qəsdən məhv etmə (CM-in 349-cu maddəsi) və ya başqa qəsdən edilən cinayət kimi tövsif edilməlidir.

7. Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı xidməti istifadə üçün silahların, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın etibar edildiyi hərbi qulluqçular nəzərdən keçirilən cinayətin **subyektləri** ola bilərlər.

Maddə 348. Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə

348.1. Silahı, döyüş sursatını, hərbi texnikanı və sair hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə və ya məhv etmə ağır nəticələrə səbəb olduqda —

min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

348.2. Eyni əməl müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Nəzərdən keçirilən cinayətin **obyekti** hərbi əmlakın qorunmasının müəyyən edilmiş qaydalarıdır. Şərh edilən cinayət başlıca olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi təhlükəsizliyi ilə əlaqədar ictimai münasibətlərə qəsd edir.

2. Bu cinayətin **predmetinə** (həmin predmetlərin anlayışı haqqında CM-in 347-ci maddəsinin şərhinə bax) silah, döyüş sursatı, hərbi texnika və sair hərbi əmlak daxildir.

3. **Zədələmə** dedikdə hərbi əmlakın öz döyüş, texniki və ya təsərrüfat xassəsini itirməsi başa düşülür. Bu zaman həmin əmlakın bərpası iqtisadi baxımdan məqsədəuyğun hesab olunmur.

Xarab etmə bu cinayətin predmetlərinin saxlanması qaydalarını pozma nəticəsində onların müəyyən dəyişikliklərə məruz qalması, bu və ya digər keyfiyyətini itirməsi və bununla əlaqədar olaraq öz məqsədli təyinatını yerinə yetirmək üçün tam və ya qismən yararsız hala düşməsi ilə səciyyələnir.

Məhv etmə dedikdə hərbi əmlakın tam yararsız hala salınması və bununla əlaqədar olaraq onun bərpa edilə bilməməsi və təyinatına uyğun istifadəyə yaramaması başa düşülür.

4. **Ağır nəticələr** dedikdə silahın, döyüş sursatının, hərbi texnikanın və ya sair hərbi əmlakın xeyli və ya külli miqdarda zədələnməsi və ya məhv edilməsi, xüsusi əhəmiyyəti olan silahın, döyüş sursatının, hərbi texnikanın və ya sair hərbi əmlakın zədələnməsi və ya məhv edilməsi, habelə silahın, döyüş sursatının, hərbi texnikanın və ya sair hərbi əmlakın zədələnməsi və ya məhv edilməsi nəticəsində döyüş tapşırığının yerinə yetirilməməsi, hərbi birləşmənin texniki təchizatına ciddi zərbə vurulması və s. başa düşülə bilər.

5. Bu cinayət **subyektiv cəhətdən** təqsirin **ehtiyatsızlıq** formasında törədilir. Təqsirkar ağır nəticələrin baş verəcəyi imkanını qabaqcadan görür, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edir, yaxud belə imkanı görməli və görə bilməli olduğu halda, onları görmür.

6. Bütün kateqoriyadan olan hərbi qulluqçular, habelə təlim və ya toplanışlara çağırılmış hərbi vəzifəli şəxslər nəzərdən keçirilən cinayətin **subyektləri** ola bilərlər. Sair şəxslərin cinayətdə iştirakçılığı ümumi əsaslarla həll edilir. Cinayətin hərbi qulluqçu tərəfindən törədildiyi hallarda hərbi qulluqçu icraçı, sair

şəxs isə iştirakçı hesab olunur.

7. Şərh edilən cinayəti ancaq ehtiyatsızlıqla törədilən hərbi əmlakı itirmə əməlindən fərqləndirmək lazımdır. Fərq ondan ibarətdir ki, zədələmə, xarab etmə və ya məhv etmə təqsirkarın özünün predmetə düzünə təsiri (dağıtma, yandırma, batırma, partlatma və i.a.) nəticəsində həyata keçirilir. İtirmədə isə zərər sair qüvvələrin təsiri ilə vurulur.

8. Müharibə vaxtı və ya döyüş şəraitinin anlayışı haqqında CM-in 327-ci maddəsinin şərhinə bax.

Maddə 349. Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə

349.1. Silahı, döyüş sursatını, hərbi texnikanı və ya sair hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə, digər cinayətin əlamətləri olmadıqda —

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki iləd ək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki iləd ək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya dörd iləd ək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

349.2. Bu Məcəllənin 349.1-ci maddəsində nəzərdə tutulmuş əməllər:

349.2.1. təkrar törədildikdə;

349.2.2. bir qrup şəxs tərəfindən törədildikdə;

349.2.3. ağır nəticələrə səbəb olduqda;

349.2.4. müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə —

üç ildən yeddi iləd ək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır *(Azərbaycan Respublikasının 16 may 2008-ci il və 31 may 2017-ci il tarixli qanunları ilə edilmiş düzəlişlərlə — «Azərbaycan» q., 7 iyun 2008-ci il; 19 iyul 2017-ci il).*

1. Nəzərdən keçirilən cinayət Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin iqtisadi cəhətdən zəiflədilməsinə yönəldilir. Həmin qəsd qoşunun və donanmanın iqtisadi cəhətdən maddi təchizatı istiqamətində görülən tədbirlərə zərər vurur.

2. Şərh olunan cinayətin **bilavasitə obyekti** hərbi əmlakın müəyyən edilmiş mühafizə qaydalarıdır.

3. Silahlar, döyüş sursatları, hərbi texnika və ya sair hərbi əmlak bu cinayətin **predmeti** hesab olunur. Bu cinayətin predmetlərinin anlayışı haqqında CM-in 347-ci maddəsinin şərhinə bax.

4. Şərh olunan cinayətin obyektiv cəhətinin əlamətləri CM-in 348-ci maddəsində nəzərdə tutulan cinayətin eyni əlamətləri ilə üst-üstə düşür.

5. Bütün kateqoriyadan olan hərbi qulluqçular nəzərdən keçirilən cinayətin subyekti ola bilərlər.

6. Bu cinayət **subyektiv cəhətdən birbaşa** və ya **dolayı** qəsdlə törədilə bilər.

Təqsirkarın hərbi əmlakı məhv etdiyini güman etməsi, faktiki olaraq isə məhv edilənin hərbi əmlak olmadığı hallarda hərbi əmlakı məhv etməyə və ya zədələməyə cəhd mövcud olur. Əksinə, təqsirkarın məhv etdiyinin və ya zədələdiyinin hərbi əmlak deyil, sair əmlak olduğunu ehtimal etdiyi hallarda onun hərəkətlərində əmlakı məhv etməyə cəhd mövcud olur.

7. Şərh edilən cinayətin həqiqi motivinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Onun motivi, bir qayda olaraq, hərbi xidmətdən narazılıq, rəislərin və ya hərbi qulluqçuların hərəkətlərindən inciklik və s. ola bilər. Cinayət, adətən, kimdənsə (kimlərdənsə) intiqam almaq, hərbi əmlakı sıradan çıxarmaq, hərbi əməliyyatların aparılması vasitələrini yararsız vəziyyətə salmaq və s. məqsədi ilə törədilə bilər.

Bu bənddə sadalanan hərəkətlər düşmənə kömək etmək məqsədi ilə törədildikdə, dövlətə xəyanət qismində də qiymətləndirilə bilər.

Şərh olunan cinayət **maddi tərkiblidir** və hərbi əmlak məhv edildiyi və ya zədələndiyi andan **başa çatmış** sayılır.

8. Cinayətin **təkrar** törədilməsinin (CM-in 349.2.1-ci maddəsi) anlayışı haqqında CM-in 16-cı maddəsinin şərhinə bax.

9. Cinayətin **bir qrup şəxs** (CM-in 349.2.3-cü maddəsi) tərəfindən törədilməsinin anlayışı haqqında CM-in 34-cü maddəsinin şərhinə bax.

10. CM-in 349.2.3-cü maddəsində nəzərdə tutulmuş **ağır nəticələrə** bir neçə silah və texnikanın məhv edilməsi, döyüş sursatlarının xeyli hissəsinin sıradan çıxarılması, böyük məbləğdə əmlak zərərinin vurulması, bölmənin döyüş qabiliyyətinin zəiflədilməsi və s. aid edilir.

CM-in 349.2.3-cü maddəsində nəzərdə tutulan cinayət **subyektiv cəhətdən** təqsirin **qarışıq formasında** törədilir. Hərbi əmlakın məhv edilməsi və ya zədələnməsinə psixi münasibət təqsirin qəsd, ağır nəticələrə isə ehtiyatsızlıq formasında olur. Bütövlükdə cinayət qəsdən edilən cinayət sayılır.

11. **Müharibə vaxtı və ya döyüş şəraitinin** anlayışı haqqında CM-in 327-ci maddəsinin şərhinə bax.

Maddə 350. Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma

350.1. Silahla, hərbi sursatla, radioaktiv materiallarla, partlayıcı maddələrlə, habelə ətrafdakılar üçün yüksək təhlükə törədən maddə və əşyalarla davranış qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına zərər vurduqda, hərbi texnikanın məhvinə və ya sair ağır nəticələrə səbəb olduqda —

iki iləd ək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

350.2. Bu əməl ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda —

iki ildən beş iləd ək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

350.3. Bu Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş əməl ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ildən səkkiz iləd ək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sərəncamında ətrafdakılar üçün yüksək təhlükə mənbəyi olan müxtəlif silah növləri və sistemləri, döyüş sursatları, partlayıcı və radioaktiv maddələr vardır. Onlardan istifadə xüsusi qaydalara ciddi surətdə əməl edilməsini tələb edir. Həmin qaydaların pozulmasına yol verilməsi insanların ölümünə və bədbəxtliyinə, hərbi əmlakın məh-

vinə və digər ağır nəticələrin meydana çıxmasına səbəb ola bilər.

2. Şərh edilən maddə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sərəncamında olan silahlarla və digər maddələrlə rəftar etmə qaydalarını pozmaya görə cinayət məsuliyyəti müəyyən edir. Qeyd etmək lazımdır ki, ətrafdakılar üçün yüksək təhlükə mənbəyi olan silahlar onlardan yalnız istifadə prosesində deyil, həmçinin də onların saxlanması zamanı xüsusi davranma tələb edir. Belə ki, orduda və donanmada saxlanılan silahlar içərisində kənar amillərin təsiri nəticəsində öz-özünə alışan və yaxud ani təsirə dərhal reaksiya verən partlayıcı, radioaktiv, kimyəvi maddələr də vardır.

3. Bu cinayətin **bilavasitə obyekti** ətrafdakılar üçün yüksək təhlükə mənbəyi olan silahla, hərbi sursatla, partlayıcı maddələrlə və radioaktiv materiallarla və sair maddə və əşyalarla rəftar etmə qaydalarıdır.

Müxtəlif növ və sistemli silahlarla rəftar etmə qaydaları nizamnamələrdə və digər normativ aktlarda nəzərdə tutulmuşdur. Buna görə də CM-in 350-ci maddəsinin dispozisiyası **blanket** xarakter daşıyır. Pozuntunun xarakterinin müəyyən edilməsi üçün müvafiq normativ aktlara, təlimatlara və metodik göstərişlərə müraciət edilməsi zəruridir.

4. CM-in 350-ci maddəsində nəzərdə tutulmuş əməl o vaxt cinayət tərkibi yaradır ki, həmin əməl bu maddədə göstərilən predmetlərlə rəftar etmə qaydalarının pozulmasında təzahür etmiş olsun. Həmin predmetlər aşağıdakı kimi konkretləşdirilmişdir: a) silahlar; b) hərbi sursat; c) radioaktiv materiallar; ç) partlayıcı maddələr; d) sair maddə və əşyalar.

5. **Silahın** anlayışı haqqında CM-in 228-ci maddəsinin şərhinə bax.

Hərbi sursata patronlar, mərmilər, qumbaralar, raketlər aiddir. Adı çəkilən qurğular döyüş təyinatına deyil, yardımçı təyinata malik olduqda (məsələn, boş güllələr və ya təlim güllələri, imitasiya olunmuş mərmi və ya qumbaralar) şərh edilən cinayətin predmetinə aid edilmir.

Partlayıcı maddələr dedikdə ani kənar təsir nəticəsində partlamaq qabiliyyətinə malik olan maddələr başa düşülür. Bunlara əsas partlayıcı materialı hərəkətə gətirməyə xidmət edən maddələr: partlayıcı civə, qurğuşun azidi, tetrazen və rəftar edilməsi təhlükəli olan sair maddələr; tullayıcı maddələr — müxtəlif barıtlar aiddir. Partlayıcı maddələr qrupuna aid edilən, lakin döyüş təyinatına malik olmayan ayrı-ayrı pirotexniki tərkiblər ətrafdakılar üçün yüksək təhlükə törətmədiyinə görə nəzərdən keçirilən cinayətin predmetinə aid edilmir. İşıqlandırma, fotoşəkil çəkmə, siqnallaşdırma və imitasiya üçün istifadə edilən barıt tərkibləri həmin predmetlərə aiddir.

Radioaktiv materiallar qrupuna radioaktiv maddələr (plutonium, stronsium, radium, uran və s.) və onların radioaktiv şüalanma qabiliyyətinə malik olan digər maddələrlə birləşmələri aiddir. Bu materiallar mühafizəedici vasitələrin köməyi ilə saxlanılır və bununla əlaqədar olaraq onlarla davranma qaydalarını pozma mühafizəedici vasitələrdən istifadə qaydalarına əməl etməmədə ifadə olunur.

Ətrafdakılar üçün yüksək təhlükə törədən sair maddə və əşyalara məhv etmək qabiliyyətinə malik olub, döyüş sursatı, partlayıcı maddələr və radioaktiv materiallar kimi təsiretmə gücü olan hər cür predmetlər, məsələn, zəhərləyici

və ya radioaktiv materialların qabları, yüksək gərginlikli elektroenerji mənbələri və s. aid edilir.

6. **Silahla rəftar etmə qaydası** dedikdə silahdan istifadə prosesində ətrafdakıların təhlükəsizliyini təmin edən üsulların məcmusu və ardıcıllığı başa düşülür.

Ətrafdakılar üçün yüksək təhlükə törədən maddə və əşyalarla rəftar etmə qaydaları özündə həm də onlardan istifadə etmə qaydalarını ehtiva edir. Məsələn, minaların basdırılmasının, partlayış təhlükəli işlərin aparılmasının, elektrik qurğuları ilə işləmənin və s. təhlükəsizliyinin xüsusi qaydaları mövcuddur. Partlayıcı maddələrin saxlandığı anbarda temperatur rejiminə əməl etməmək, qazlı sahənin və ya yanacaq-boyaq materiallarının yaxınlığında silahdan atəş açmaq, radioaktiv və ya zəhərləyici maddələrlə işləyərkən mühafizəedici vasitələrdən istifadə etməmək və s. silahla rəftar etmə qaydalarını pozma hesab oluna bilər.

Ətrafdakılar üçün yüksək təhlükə törədən silahla, maddə və əşyalarla rəftar etmə qaydalarını pozmanı bunlardan təyinatına görə istifadə etməmədən fərqləndirmək lazımdır.

Göstərilən əşyalarla rəftar etmə qaydalarını pozma, adətən sair xidməti vəzifələri, məsələn, vəzifəli şəxsin və ya hərbi xidmət üzrə xüsusi vəzifəni (qarovul xidmətini) icra edən şəxsin öz xidməti vəzifələrini pozması ilə müşayiət olunur. Belə hallarda əgər saatdar qarovul xidməti çəkmə vəzifələrindən yayınaraq silahla rəftar qaydalarını pozursa və nəticədə qarovulun qarşısını almaq üçün təyin edildiyi zərərli nəticələr meydana çıxırsa, əməl cinayətlərin məcmusu qaydasında CM-in 350 və 336-cı maddələri ilə tövsif edilir.

7. CM-in 350-ci maddəsində nəzərdə tutulmuş ağır nəticələr başlıca olaraq fiziki zərərdən ibarətdir, lakin əmlak zərərinin və təşkilati zərərin də vurulması istisna olunmur.

8. CM-in 350.1-ci maddəsi üzrə **zərərçəkmiş şəxsin sağlamlığına zərər vurma** ağır, az ağır və ya yüngül zərər vurma əlamətlərini əhatə edir.

Sair ağır nəticələr dedikdə böyük miqdarda əmlak zərəri, habelə təşkilati xarakterli zərər başa düşülür.

9. **Səbəbli əlaqə** bu cinayətin obyektiv cəhətinin zəruri əlamətidir. Yalnız qanunda nəzərdə tutulmuş zərəri vurmağa qabil olan pozuntu səbəb hesab oluna bilər. Baş versə də, lakin meydana çıxmış nəticələrlə səbəbli əlaqədə olmayan pozuntu nəzərdən keçirilən maddə ilə məsuliyyətə səbəb ola bilməz. Məsələn, qarovul xidməti qaydalarının saatdar tərəfindən pozulması nəticəsində kənar şəxsin mühafizə olunan anbardan partlayıcı maddə oğurladığı və bu zaman onunla davrana bilməməsi üzündən baş vermiş partlayışdan həmin şəxsin həlak olduğu halda saatdarın yol verdiyi pozuntu ilə oğurluq edənin ölümü arasında səbəbli əlaqə mövcud deyildir.

10. Hərbi xidmət fəaliyyətinin bir sıra cəhətlərinə görə, ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalardan istifadə edən hərbi qulluqçular, habelə göstərilən predmetləri bilavasitə özləri tətbiq edən hərbi qulluqçular, yaxud bu predmetlərin saxlanmasını və ya daşınmasını təmin edən və bu zaman onlarla rəftar etmə qaydalarını pozan hərbi qulluqçular bu cinayətin **subyektləri** ola

bilərlər.

Şərh edilən cinayətin silahla, hərbi sursatla və sair maddə və predmetlərlə rəftar etməyə dair təlimat və göstərişlərlə təlimatlandırılmamış hərbi qulluqçu tərəfindən törədildiyi hallarda o, təqsirli hesab oluna bilməz. Belə hallarda meydana çıxmış nəticələrə görə cinayət məsuliyyəti hərbi qulluqçunu təlimatlandırmamış hərbi vəzifəli şəxsin (rəisin) üzərinə düşür.

Öz xidməti mövqeyinə görə ətrafdakılar üçün yüksək təhlükə törədən silaha, hərbi sursata, radioaktiv materiala və partlayıcı maddəyə, habelə belə xassəyə malik olan maddə və əşyalara yaxın buraxılan (məsələn, silah anbarında keşik çəkən saatdar) hərbi qulluqçular da nəzərdən keçirilən cinayətə görə məsuliyyətə cəlb edilə bilərlər.

11. Bu cinayət **subyektiv cəhətdən ehtiyatsızlıqdan** törədilir.

12. CM-in 350.1-ci maddəsində bu cinayətin ehtiyatsızlıqdan bir nəfərin (ağırlaşdırıcı tərkib əlaməti), 350.2-ci maddəsində isə iki və ya daha çox şəxsin ölümünə (xüsusilə ağırlaşdırıcı tərkib əlaməti) səbəb olmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Maddə 351. Maşınları idarəetmə və istismar qaydalarını pozma

351.1. Döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismar qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurduqda —

iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum edilməklə və ya edilməməklə eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

351.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

351.3. Bu Məcəllənin 351.1-ci maddəsində nəzərdə tutulmuş əməl ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Şərh edilən cinayətin **obyektini** döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismar qaydaları təşkil edir. Həmin qaydalar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində və hərbi texnikanın ayrı-ayrı növlərinin istismarı üzrə təlimatlar, habelə digər normativ aktlarda nəzərdə tutulmuşdur.

2. Tanklar, zirehli maşınlar, özüyeriyən artilleriya və raket qurğuları, artilleriya sistemlərinin və odlu silahları idarəetmə aparatlarının yükləndiyi qoşquları yedəyə almaq üçün nəzərdə tutulmuş, habelə özü hərəkət edən digər texniki vasitələr hərbi maşınlara aid edilir. Quruda özüyeriyən texniki vasitələr — dəmir yolu nəqliyyatı (teplovozlar, elektrovozlar) da hərbi maşınlara daxildir.

Hərbi maşınlar tipinə və ya onlarda qurulmuş avadanlıqlara müvafiq olub

xüsusi məqsədlər üçün istifadə olunan özüyeriyən texniki vasitələr **xüsusi maşınlara** aid edilir. Müxtəlif təyinatlı mühəndis maşınları (səngər qazan maşınlar, buldozerlər, kötükçıxaran və cığıraçan maşınlar və s.), sanitar xidməti nəqliyyatı, səyyar təmir emalatxanaları, laboratoriyalar və s. xüsusi hərbi maşınlar qrupuna daxildir.

Şəxsi heyətin, silahların, hərbi sursatların, hərbi-texniki əmlakın daşınması üçün nəzərdə tutulan, habelə gündəlik təsərrüfat, mədəni-məişət, tibbi və s. xidmətlərin həyata keçirilməsi üçün istifadə edilən maşınlar **nəqliyyat maşınları** qrupuna daxildir.

3. Şərh olunan cinayətin **obyektiv cəhəti** döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismar qaydalarını pozmada, bu hərəkətlərin zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasında və təqsirkarın əməlləri ilə ictimai-təhlükəli nəticələr arasında səbəbli əlaqədə ifadə olunur.

4. **İdarəetmə** dedikdə hərəkətdə olan maşını bilavasitə idarə etmək prosesi (sürmə) başa düşülür. Həmin proses maşının sürət hissəsinin (çarxın, tırtılın) hərəkətə gətirilməsi ilə başlanır və hərəkətin dayandırılması ilə başa çatır.

Hərbi maşınların istismarı dedikdə onlardan öz təyinatına uyğun istifadə etmə (onları işlətmə) və bu maşınlara zəruri olan texniki xidməti göstərmə başa düşülür.

5. Hərəkət sürətini artırma, ötmə qaydasını pozma, uzaq işıqlandırmanı yaxına keçirməmə və s. hərəkətdə olan nəqliyyat vasitəsini **idarəetmə qaydalarını pozma** hesab olunur. Hərəkət etmə prosesində maşınlardan istifadə etmənin təhlükəsizliyini təmin edən texniki norma və qaydalara nəzarət etməmə, müvafiq hazırlığı olmayan şəxsi idarə etməyə buraxma və s. maşınların istismarı qaydalarını pozma sayılır.

6. Qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurmanın anlayışı haqqında CM-in 126-cı və 127-ci maddələrinin şərhinə bax.

7. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən təqsirin ehtiyatsızlıq formasında** törədilir.

8. Hərbi maşını idarə edən hər bir hərbi qulluqçu bu cinayətin subyekti ola bilər.

9. CM-in 351.2-ci maddəsində bu cinayətin ehtiyatsızlıqdan zərərçəkmişin (ağırlaşdırıcı tərkib əlaməti), 351.3-cü maddəsində isə iki və ya daha çox şəxsin ölümünə (xüsusilə ağırlaşdırıcı tərkib əlaməti) səbəb olmasına görə cinayət məsuliyyəti nəzərdə tutulur.

10. Texniki cəhətdən saz olmayan hərbi maşının işə buraxılması ilə əlaqədar törədilən əməl CM-in 351-ci maddəsində nəzərdə tutulan cinayət tərkibini yaratdığına görə, CM-in 265-ci maddəsi ilə tövsifə ehtiyac duyulmur.

Ağırlaşdırıcı hallar olmadan hərbi maşının sərxoş vəziyyətdə idarə edilməsi CM-in 351-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibini yaratmır və əməl CM-in XXIX fəslinin müvafiq maddəsi ilə tövsif edilir.

Maddə 352. Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma

352.1. Hərbi uçuş aparatlarının uçuş, uçuşa hazırlıq və ya sair istismar qaydalarını pozma ağır nəticələrə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

352.2. Eyni əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma hərbi texnikanın müəyyən edilmiş istismarı qaydalarına qəsd edən cinayətdir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində istifadədə olan bütün hərbi uçuş aparatları şərh edilən maddədə nəzərdə tutulan uçuş obyektlərinə aiddir.

2. Bu cinayətin **bilavasitə obyekti** Silahlı Qüvvələrdə uçuş və ya uçuşa hazırlıq qaydalarının təhlükəsizliyi ilə əlaqədar yaranan münasibətlərdir. Uçuş və ya uçuşa hazırlıq qaydaları bir sıra normativ hüquqi aktlarla tənzim edilir.

3. Uçuş qaydalarını pozma uçuşda yol verilən səhvlərlə, səmti və ya uçuş istiqamətini itirmə ilə, müxtəlif hava tədbirlərinin keçirilməsində (məsələn, desantların atılması, bombaların atılması və s.) yol verilən səhvlərlə əlaqədar ola bilər.

Uçuşa hazırlıq qaydalarını pozma uçan aparatın komanda heyətinin qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə düzgün hazırlanmamasında ifadə oluna bilər. Bunlar, adətən, təyyarəyə lazımi səviyyədə texniki xidmət göstərilməməsindən, ayrı-ayrı hissələrin keyfiyyətsiz təmir edilməsindən, marşrutun seçilməsində yol verilən səhvlərdən, meteoroloji şəraitin düzgün qiymətləndirilməməsindən, uçuş yüksəkliyinin və ya sürətin düzgün seçilməməsindən və s. ibarətdir.

Sair istismar qaydalarını pozma, məsələn, xəstə vəziyyətdə olan komanda heyəti üzvünün, yaxud tibbi müayinədən keçməmiş komanda heyətinin uçuşa buraxılmasında, texniki baxışdan keçirilməmiş təyyarənin uçuşuna icazə verilməsində və s. ifadə oluna bilər.

CM-in 352.1-ci maddəsinin nəzərdə tutduğu mənada **ağır nəticələr** dedikdə uçuş aparatlarının göyərtəsində olan insanların sağlamlığına ağır və ya az ağır zərər vurma, yerdə olan şəxslərin ölümü, qəza, mühüm hərbi tədbirlərin pozulması başa düşülür.

4. Yol verilmiş pozuntularla meydana çıxmış nəticələr (ağır nəticələr və zərərçəkmiş şəxsin ölümü) arasında səbəbli əlaqənin olması nəzərdən keçirilən cinayətin zəruri əlamətidir.

5. Şərh edilən cinayət **subyektiv cəhətdən** təqsirin **ehtiyatsızlıq formasında** törədilir.

6. Üzərində uçuşların və ya onlara hazırlığın təmin edilməsinə dair xüsusi vəzifələrin qoyulduğu hərbi qulluqçular bu cinayətin **subyekti** ola bilərlər.

Uçuşların rəhbəri, gəmi komandiri, pilot (sürücü), mühəndis və şturman (təyyarəni idarə edən şəxs) uçuş qaydalarının xarakterindən asılı olaraq onların pozulmasına görə məsuliyyətə cəlb oluna bilərlər. Təyyarənin texniki, mexaniki və uçuşları təmin etmə xidməti ilə əlaqədar olan sair şəxslər uçuşa hazırlıq qaydalarını pozmağa görə cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

7. CM-in 352.2-ci maddəsində bu cinayətin ehtiyatsızlıqdan iki və ya daha

çox şəxsin ölümünə səbəb olması **ağırlaşdırıcı tərkib əlaməti** kimi nəzərdə tutulmuşdur.

Maddə 353. Hərbi gəmiləri idarəetmə qaydalarını pozma

353.1. Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozma ağır nəticələrə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

353.2. Eyni əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1. Hərbi gəmiləri idarəetmə qaydalarının təhlükəsizliyinin təmin edilməsinə gəmilərin istismarının müəyyən edilmiş qaydalarına ciddi şəkildə əməl etməklə nail olunur. Həmin qaydalar bir sıra normativ hüquqi aktlarda nəzərdə tutulmuşdur.

2. Bu cinayətin **obyektini** hərbi gəmiləri idarəetmə qaydalarının təhlükəsizliyi təşkil edir.

3. Azərbaycan Respublikası Hərbi-Dəniz Donanmasının gəmi heyətinə aşağıdakılar daxildir: döyüş gəmiləri, xüsusi təyinatlı gəmilər, kreyserlər, eskadrilya minadaşıyanları, torpedo katerləri, dəniz yedəkləri, katerlər, yanacaq doldurucular, mina və torpedo daşıyan katerlər və s.

4. Şərh edilən cinayət **obyektiv cəhətdən** hərbi gəmilərin idarəetmə və istismarının müəyyən edilmiş qaydalarını pozmada, ağır nəticələrin meydana çıxmasında və pozuntu ilə həmin nəticələr arasındakı səbəbli əlaqənin mövcud olmasında ifadə olunur.

5. **Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozma** dedikdə hərəkətdə olan gəminin təhlükəsizliyini təmin edən hissə və aqreqatlara texniki xidmətdə yol verilən səhvlər, yükvurma və ya yükboşaltma işlərinin yerinə yetirilməsində, məsələn, minalaşdırma, desantçıxarma və s. işlərin, habelə sair vəzifələrin yerinə yetirilməsində buraxılan səhvlər başa düşülür.

CM-in 353.1-ci maddəsində nəzərdə tutulan mənada **ağır nəticələr** dedikdə gəminin batması və ya dağılması, hər hansı şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulması, mühüm əhəmiyyətli tapşırığın pozulması və s. başa düşülür.

6. Nəzərdən keçirilən cinayət **subyektiv cəhətdən** təqsirin **ehtiyatsızlıq formasında** törədilir.

7. Baş vermiş pozuntu ilə meydana çıxmış nəticələr arasında, bir qayda olaraq, zaman fasiləsi mövcud olur. Həmin fasilə ərzində gəmi kapitanı və komanda heyəti təhlükəli məqamların ləğvinin təmin edilməsi üçün tədbirlər görürlər. Təhlükənin aradan qaldırılması və ağır nəticələrin qarşısının alınması mümkün olduğu halda gəminin, şəxsi heyətin və sərnişinlərin xilas edilməsinə yönələn bütün hərəkətlərin gəmi komandiri tərəfindən edilib-edilməməsini müəyyən etmək zəruridir. Belə halda gəmi komandirinin həm 353-cü, həm də 344-cü maddə ilə cinayət məsuliyyətinə cəlb olunması mümkündür.

8. Gəmi, kater, qayıq komandiri, komandirin köməkçisi, şturman, növbətçi zabit və üzərinə gəmini idarə etmək vəzifəsi qoyulmuş sair hərbi qulluqçu nəzərdən keçirilən cinayətin **subyekti** ola bilər.

Gəminin idarə edilməsini bilavasitə üzərinə götürmüş birləşmə komandiri də bu cinayətin subyekti ola bilər. Belə halda gəmi komandiri hərbi gəmini idarəetmə qaydalarını pozma nəticəsində meydana çıxmış nəticələrə görə məsuliyyət daşımır.

9. CM-in 353.2-ci maddəsində bu cinayətin ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur (ağırlaşdırıcı tərkib əlaməti).

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası

II HİSSƏ

CM-in 190–353-cü maddələrinin şərhi

Formatı: 70x100 1/16
Mətbəə kağızı № 1
Fiziki çap vərəqi: 50
Tirajı: 100

I və II hissələrin birlikdə qiyməti:

60,00 manat

Tel: 050-319-39-75

AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT MƏCƏLLƏSİNİN KOMMENTARİYASI

jus commentarium

II HİSSƏ

CM-in 190-353-cü maddələrinin şərhi

HVE
HÜQUQ YAYIN EVİ